ƏZİZ ƏLƏKBƏRLİ

QƏRBİ AZƏRBAYCAN

II

Zənqibasar, Gərnibasar və Qırxbulaq mahalları

OXUCULARIN NƏZƏRİNƏ!

ƏZİZ OXUCULAR! "Qərbi Azərbaycan" oncildliyinin Vedibasar, Zəngibasar, Gərnibasar və Qırxbulaq mahallarını əhatə edən 1-ci və 2-ci cildləri artıq nəşr olunub Sizin mühakimənizə verilmişdir. Bötövlükdə Qərbi Azərbaycan (indiki "Ermənistan") ərazisini əhatə edəcək digər cildlər üzərində isə iş davam etdirilir. Vaxtilə özü və ya ata-babaları bu qədim Türk-Oğuz yurdunda yaşamış, öz əslinə-kökünə biganə olmayan bütün qeyrətli soydaşlarımıza müraciət edir, o torpaqlar, o torpaqların şəxsiyyətləri barədə bildiklərini, artıq nəşr olunmuş cildlər haqqında isə qeyd, mülahizə və əlavələrini bizə çatdırmalarını xahiş edirik.

Əlaqə telefonu: 8-50-337-37-03, "Ağrıdağ" nəşriyyatı, Əziz Ələkbərli.

Növbəti 8 cilddə əhatə olunacaq rayonlar

– Qaraqoyunlu-Göyçə (Şəmşəddin, Karvansaray, Çəmbərək rayonları)

– Göyçə (Basarkeçər, Qaranlıq, Kəvər, Yelenovka rayonları)

– Ağbaba-Şörəyel (Amasiya, Qızılqoç, Düzkənd, Artik, Ağin rayonları)

– Lori-Pəmbək (Barana, Allahverdi, Calaloğlu, Vorontsovka, Böyük Qarakilsə, Hamamlı rayonları)

– Zəngəzur (Sisian, Gorus, Qafan, Meğri rayonları)

– Dərələyəz (Keşkənd, Paşalı rayonları)

– Sərdarabad, Karbibasar, Talın, Şeyidli-Axsaxlı, Abaran, Dərəçiçək (Sərdarabad, Üçkilsə, Talın, Əştərək, Abaran, Axta rayonları)

– İrəvan şəhəri

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU
DƏDƏ QORQUD adına FOLKLOR ELMİ-MƏDƏNİ MƏRKƏZİ

ƏZİZ ƏLƏKBƏRLİ

QƏRBİ AZƏRBAYCAN

10 CİLDDƏ

BAKI – "AĞRIDAĞ" – 2002

63.3/5A
Ə 45

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU
DƏDƏ QORQUD adına FOLKLOR ELMİ-MƏDƏNİ MƏRKƏZİ

ƏZİZ ƏLƏKBƏRLİ

QƏRBİ AZƏRBAYCAN

II CİLD

12

ZƏNGİBASAR, GƏRNİBASAR VƏ QIRXBULAQ MAHALLARI

(ZƏNGİBASAR, QƏMƏRLİ VƏ ELLƏR RAYONLARI)

M.S.Ordubadi adına
Naxçıvan [illegible] Respublika
KİTABXANASI

BAKI – "AĞRIDAĞ" – 2002

MƏSLƏHƏTÇİ: **XANLAR VƏLİYEV**
Ədliyyə general-mayoru

REDAKTORLARI: **BUDAQ BUDAQOV**
akademik,
ELDAR SƏBİROĞLU
politoloq

RƏYÇİLƏR: **MAİL RƏHİMOV**
iqtisad elmləri doktoru;
RAFİQ ƏLİYEV
iqtisad elmləri namizədi;
ABBAS SƏFƏROV
Azərbaycan Qaçqınlar Cəmiyyətinin sədri

ƏZİZ ƏLƏKBƏRLİ. Qərbi Azərbaycan, II cild, Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları (Zəngibasar, Qəmərli və Ellər rayonları), Bakı, "Ağrıdağ" nəşriyyatı, 2002, 736 səh.

Qərbi Azərbaycan (indiki "Ermənistan") torpaqlarının tarixi, coğrafiyası, mədəniyyəti və s. ilə bağlı silsilə kitablar üzərində işləyən **filologiya elmləri namizədi Əziz Ələkbərlinin** "Qərbi Azərbaycan" on-cildliyinin bu növbəti – 2-ci cildi qədim Azərbaycan torpaqlarımızın Zəngibasar, Gərnibasar və Qarxbulaq mahallarına (Zəngibasar, Qəmərli və Ellər rayonlarına) həsr olunmuşdur. Kitab tariximiz, milli mənəvi keçmişimiz haqqında bir sıra yeni, maraqlı faktlarla zəngindir.

Kitab mütəxəssis alimlər və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Ə **0503020907**
064-2002 **Qrifli nəşr**

©"Ağrıdağ" nəşriyyatı, 2002.

GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏR VƏ MƏNBƏLƏR ERMƏNİLƏR (HAYLAR) HAQQINDA

ИЗВЕСТНЫЕ ЛИЧНОСТИ И ИСТОЧНИКИ ОБ АРМЯН (О ХАЯХ)

WELL KNOWN PERSON AND SOURCES ABOUT ARMENIANS (HAYES)

* * *

"Ulu şahım! Tanrı atan Heydər Səfiyə qəni-qəni rəhmətlər eləsin. Sən nökər bəndəni bu oğuz-türk diyarına bəylərbəyi təyin edərkən, adamlar içrə Şahmərdan Həzrət Əli kimi ədalətsevər olmağı, möminlərlə imamımız Hüseyn kimi insanpərvər davranmağı dönə-dönə tövsiyə etmisən. Mən qulluq meyarının dairəsindən çıxmamışam. Lakin son illər müşahidələrimə görə, əhalinin bir qismi, yəni Beynənnəhreyndən (**Mesopotamiyadan** – Ə.Ə.) Van gölü sahillərinə, oradan da beş-beş, on-on Qafa, bizim torpaqlara gələn ermənilər, sazişdəkilər kimi, kəsbkarlıqla, xırda ticarətlə, bənna və dülgərliklə güzəran sürüb farağat oturmaqdansa, tabeliyimdəki torpaqlarda yerdəyişmə vurnuxmalarına başlamış, geniş oturaq həyat iddialarına qapılmışlar. İndi Ağkilsə (**Üçkilsə** – Ə.Ə.) kəndində əyləşən dünya ermənilərinin katolikosu II Qriqori zünnarına xas olmayan fəaliyyəti ilə və təxribatçılıq əməlləri ilə idarəmizi müşküllərə məruz qoyub. Katolikos erməni dini mərkəzinin vəqf sərmayəsi hesabına öz soydaşlarının türk kəndləri kənarında iki-üç ailə olmaqla oturaq məskunlaşmasını maliyyələşdirir, onlara ufacıq kilsələr tikdirir, beləlikə, bu tayfanın Qafda qədim mövcudiyyəti təsəvvürü yaradılır ki, bunlar istiqbalda nəsillərimizə başağrısı verə biləcək fəsadlar törənməsinə zəmin yarada bilər. İndi zikr olunan ərazidə elə bir kəndimiz, obamız qalmayıb ki, orada üç yad ailə işığı yanmasın. İsmətsizlik əxlaqına qurşanmış hayk qız-gəlinləri türk dəliqanlı cavanlarına sırınmağa can atır, qədim peşəliklə könüllər ovundurur, oğuzlara ərə getməyə, başqa sözlə, mülkümüzə, malımıza

şərik çıxmağa çalışır, siyasətdə sakit təcavüz adlanan cinayətlər törədirlər. Qarışıq nikahların vüsəti məni qorxudur, şahim. Mənə səlahiyyət ver, cəmi on beş min gəlməni mövsümi işçilər kimi qisim-qisim qaytarım vətənin dışarına. ***Sənin qulun Rəvan xan***".

İrəvan qalabəyisi və Çuxur-Səəd bəylərbəyi
Rəvan xanın 1519-cu ilin oktyabrında Şah
İsmayıl Xətaiyə yazdığı məktubdan.
"Xalq qəzeti", 24 dekabr 1997-ci il.

"Великий шах! Молю о том, что Всевышний милосердствовал покойному отцу твоему Гейдару Сафи Шахимардан. Когда ты назначил меня, твоего слугу правителем этого огузско-тюркского края, повелел быть с людьми справедливым как Хазрат Али и гуманным как Имам Гусейн. Я никогда не вышел за пределы этих велений. Но по моим наблюдениям, в последние годы часть населения, то есть армяне, переселившиеся из Месопотамии на берега озера Ван, а оттуда мелкими группами на наши земли, на Кавказ, вместе того, чтобы заниматься как указано в соглашении заработками, мелкой торговлей, плотничеством и вести себя смирно, начинают метаться по местам и претендовать на постоянное, оседлое проживание.

Католикос всех армян Григорий II, местонахождением которого ныне является селение Учкилсе, деяниями соответствующей к своей рясе и провокационными действиями поставил нас в трудное положение. За счет средств армянского религиозного центра католикос финансирует оседлое заселение двух-трех семейств своих сородичей у каждого тюркского селения, строит для них маленькие церкви и таким образом создается представление древнего присутствия этого племя на Кавказе. И все это может создать основу для головной боли нашим потомкам в будущем. В этих местах не осталось ни одного селенная или деревни, где не горела бы свет нескольких семей чужаков. Блудливые армянские девушки стремятся навязываться с тюркским юношам, развратом завоевать их сердца, выходить замуж за огузов, другими сло-

вами, стремятся быть совладельцами наших богатсв и владений, в политике совершают тихие преступления. Рост смещенных браков меня пугает. Дай мне полномочие, и я по частям выведу за пределы родины как временных работников этих пришелцев, которые составляют всего 15 тысяч. ***Твой раб Раван хан.“***

Письмо коменданта крепости Эривана и беглярбега Чухур-Саада Рэван хана Шаху Исмаилу Хатаи в октябре 1519 г.
Газета “Халг газети“, 24 декабря 1997 г.

«My great king! May your father Sofi rest in peace. When you appointed your slaver head of the oguz-turkish state, you advised to be kind like Hazrat Ali, to behave with men good as our imam (religious leader) Huseyin. I have not crossed the measures. but according to be my observation recent years, some of the population, namely from Beynannohreyr (Mesopotamia) or come to the Van Lake, and from there five by five, ten by ten they settled in our territories. Now our department is in trouble because of the pope of the Armenians II Grigory who dwells in Echmiodzin church. He finances settlement of the Armenians around the Azeri villages, builds, churches and so creates an impression they are originally from the Caucasus. They would trouble our generations. There's no such a village of ours where less three Armenian families live. The disloyal Armenian girls trying to charm Turkish men and marry them in the word, they want to be a partner of our property. I am afraid of increment of the crossed marriages. Authorize me please, to send them out of the motherland. Your slaver – king Rovan».

The letter of the Commandant of Yerevan castle and bey-of-beys' of Chukhur-Saad Revan khan to Shah Ismail Khatai in October 1519.
The newspaper «Khalg gazeti», 24 December 1997

* * *

"Əxlaqi baxımdan ermənilər heç də xoşa gələn imic sahibi olmamışlar: hiyləgərlik onların əsas fərqləndirici xüsusiyyətidir; tamahkarlıq onları tez-tez yalançılığa sürükləyir, buna görə də onların çoxu sözlərlə fikirlərini söyləmək yox, gizlətmək məharətinə yiyələnmişlər; onlar yaltaqdırlar, lakin sədaqətli deyillər və artıq onlara lazım olmayan adamı çox asanlıqla yaddan çıxarırlar."

I.Şopen. ***Erməni vilayətinin Rusiya İmperiyasına birləşdirildiyi dövrdəki vəziyyətinin tarixi abidəsi, SPB, 1852, səh. 707***

"В нравственном отношении армяне преобрели репутацию не совсем безукоризненную: хитрость составляет отличительную черту большинства; любостяжание нередко влечеть их к обману, так-что для многих из них дар слова обратился в искусство скрывать свои мысли; они лстять, но в привязанностях своих не постоянны, и человек уже ненужный очень легко забывается ими."

И.Шопен. ***"Исторический памятник состояния Армянской области в эпоху присоединения к Российской Империй", СПБ, 1852, стр.707***

From the moral point, the Armenians have not gained pleasing images: slyness is their main distinguishing character of theirs; avidity often involves them to mendacity, that's why they have mastered to hide their thoughts not to express; they are flattering hot. No they are not faithful and they forget men whom they don't already need.

I.Shopen. ***«Historical Monument Condition of Armenians Province in the Epoch of Joining to Russian Empire», S-Peterburg, 1852, p. 707***

* * *

"Dünya xanımlarının bir qismi erməni qadınının bir qayda olaraq öz ərinə xəyanət etmə təcrübəsini, başıpapaqlısının həmin əməldən hali olmaması incəsənitini mənimsəməyə cəhd göstərsələr də, azları buna nail ola bilir. Yeniyetmə erməni qızları öz bakirəliklərindən elə erkən, elə həvəslə imtina edirlər ki, sanki onlar namus çəpərlərinin bütövlüyünü qorumurlar, üstlərinə qonmuş tozu çırpırlar".

K.Marks, F.Engels.
Əsərləri, 3-cü cild, Bakı, səh.131

Хотя некоторая часть женщин мира постараются присвоить опыт измены своих мужчин и искусство скрытие тот поступок от них, мало кому это удается. Юные армянские девушки так рано и так охотно отказываются от своих девственность, словно они не защищают собор своих совестей и вытыряхивают пыль попавщих на них.

К.Маркс, Ф.Энгельс.
Избранные, 3 т., Баку, стр.131.

«Provided some of the world women try to master the experience of bitriyol of the Armenian women to their husband as a rule and the culture of manner which their husbands know but minor of the world women can achieve it. Teen aged Armenian girls leave their virginity so early that they don't save their loyalty and as if cleaning dust which is on them».

K.Marx, F.Engels.
Works, vol. 3, Baku, p. 131

* * *

"Ermənilər həmişə yaşadıqları yerlərin yaramaz sahibləri olublar, öz yaxınlarını sataraq, həmişə güclü qonşularına məharətlə qulluq ediblər."

Akademik Kerop Patkanyan.
"Министерство Народного Просвешеница", 1875, №175, səh.5

"Армяне всегда были негодными хозяевами тех мест, где проживали. Предавая своих близких, всегда умело служили сильным соседям."

Академик Кероп Патканян.
"Министерство Народного Просвещения", 1875, №175, стр.5

The Armenians were always scoundrel owner of the places where they lived, betrayed their close men, and served masterly to their strong neighbors.

Academician Kerop Patcanian.
«The Ministry of People's Education», 1875, №175, p. 5

* * *

"Alman səyyahı Alferd Karte "Anadolu eskizləri" əsərində yazır. "Bu əyalətlərdə xalqı yaxşı tanımağa başlayan hər bir kəs türkləri sevməyə, hörmətlə yanaşmağa, yunanlara yuxarıdan baxmağa, ermənilərə nifrət etməyə öyrənir. Yəqinliklə demək olar ki, əgər Anadoluda sizi aldadan olubsa, deməli, ermənıyə tuş gəlibsiniz".

Elə həmin müəllif Əskişəhrli iri podratçının sözlərini misal gətirir: "Əgər mən bir iş barədə türklə şərt bağlayıramsa, yazılı müqaviləyə ehtiyac duymuram, çünki onun verdiyi söz kifayətdir. Yunanla mütləq yazılı müqavilə bağlayıram – bu, vacib və gərəklidir. Ermənilərlə isə heç yazılı müqavilə ilə də iş görmürəm, çünki onların yalan və riyakarlığına heç yazılı müqavilə də sədd çəkə bilmir."

V.L.Veliçko. *Qafqaz, SPB, 1904, səh.73*

"Немецкий путешественник Альфред Керте в своих "Анатолийских эскизах" ...и в которых автор, стало быть, не решился бы говорить на ветер, высказывает следующее: "Почти каждый, кто в этих провинциях соприкасается с ядром народа, научается уважать и любить турок, низко ставит греков и ненавидит и презирает армян. ...Можно наверняка сказать,

что если вас в Анатолии где-нибудь обманут, – то, значить, вы имели дело с армянами".

Тот же автор приводит слова крупного подрядчика в Эски-Шехире: "Когда я условливаюсь относительно дело с турком, то обхожусь без писменного контракта, – ибо его слова достаточно. С греком я заключаю письменное условие. Ибо с ними это нужно и полезно; с армянами же я и на письме никаких деле не веду, потому что от их лживости и интриг не ограждает даже письменное условие."

В.Л.Величко.
Кафказ, СПБ, 1904, стр.73

«A German wanderer Alfred Karte» writes in his «Anadolu sketches» work: «Every body who is about to know the people in these stoles well, he loves, respects the Turkishes, irrispect the Greeks and learns hoting Armenians it can be said assurance hot, if someone deceived you in Anadolu then you were at the aim of an Armenian. The some author writes as an example the words of a contractor in Askisheher: «If I make an agreement with a Turkish I don't feel necessity of a written formality because his promise is enough. Definitely I make a written contract with a Greek. It is important and necessary.

Recording the Armenians I don't do business with them even by a written formality because their lie can't be even proved with a written form».

V.l.Velichko. ***The Caucasus.***
S.-Peterburg, 1904, p.73

* * *

"Ermənilərin həqiqi vətəni, qədim-tarixi Böyük Ermənistan Kiçik Asiyadadır, yəni Rusiya hüdudlarından kənardadır və ermənilər Zaqafqaziyada (başlıca olaraq İrəvan quberniyasında), Qafqaz ərazisinin müxtəlif hissələrində yalnız son əsrlərdə məskunlaşmışlar".

B.İşxanyan. ***Qafqaz xalqları,***
SPB, 1916, səh.18

"Настоящая родина армян древняя историческая Великая Армения находится в Малой Азии, то есть за пределами России, и на территории Закафказии (в основном Эриванской губернии), в разные места Кафказа они поселились только в последние века."

Б.Ишханян. ***Народности Кавказа, СПБ, 1916, стр.18***

«The origin mother land of the Armenians, is ancient – historical Great Armenia small, namely it is out of the borders of Russia and the Armenians have settled in the Caucasus (mainly in Iravan province), in other ports of the Caucasus only in last centuries ».

B.Ishkhanian. ***The Peoples of the Caucasus. S.-Peterburg, 1916, p.18***

* * *

"Erməni xalqının əsli nədir, necə və nə vaxt, haradan və hansı yollarla o buraya gəlib, erməni olmazdan əvvəl və sonra hansı tayfalarla əlaqədə olub, onun dilinə, etnik tərkibinə kim necə təsir göstərib?

Bizim əlimizdə bunları sübuta yetirən aydın və dəqiq dəlillər yoxdur".

Manuk Abeqyan. ***Erməni ədəbiyyatı tarixi, İrəvan, 1975, səh.11***

"Каково происхождение армянского народа, как и когда, откуда и какими путями они пришли в эти места, какими племенами были связаны прежде чем стали армянами, кто и как повлиял на их язык и этнический состав?

У нас нет достоверных и четких доказательств, подтверждающих эти вопросы.

Манук Абегян. ***История армянской литературы. Эриван, 1975, стр.11***

«What is the Origin of the people of Armenia, how and when, from where, by which way they have come here. Which trines they had relations with before they became Armenian, how and who affected to the ethnic content of their language? There is no an exact evidence of us which can prove it».

Manuk Abegian. ***The History of Armenian Literature. Yerevan, 1957, p.11***

* * *

"Zəncilər qara dərililər içərisində olduğu kimi, ermənilər də ağ dərililər içərisində ən pis kölələrdir. Onlar bədəncə zərif olsalar belə, qıçları eybəcərdir, onlarda abır-həya hissi yoxdur, oğurluq çox geniş yayılıb. Onların təbiəti də, dili də kobuddur. Əgər kölə ermənini bircə saatlığa nəzarətsiz qoysan, təbiəti dərhal onu şər işlərə sövq edəcək. Onlar yalnız kötək və qorxu altında yaxşı işləyirlər. Əgər görsən ki, tənbəllik edirlər, bil ki, bunun səbəbi zəiflikdə yox, tənbəllikdən həzz almalarındadır. Bu zaman onları yaxşıca kötəkləmək və lazım olan işi görməyə məcbur etmək gərəkdir."

A.Mets. ***"Müsəlman renessansı", Moskva, 1973, səh.144***

"Армяне самые плохие рабы из белых, так же как и негры... самые плохие из чернокожих. Они изяшно сложены, но имеют безобразные ноги, стыдливность у них отсутствиет, воровство очень распространено. ...Их натура и их язык грубы. Если ты оставишь раба армянина хоть на час работы, то его натура тотчас толкнет его назло. Он работатет хорошо только из-под палки и из страха. Если ты видишь, что он ленится, то лишь потому, что это ему доставляет удовольствие, а вовсе не от слабости. Тогда следует взять палку, вздуть его и заставить делать то, что ты хочешь."

А.Мец. ***"Мусульманский ренессанс", Москва, 1973, стр.144***

As Negro in black skinned people, the Armenians are the worst slavers amongst the white skinned people. Their legs are ugly, they have no loyal feeling provided they are delicate. Robbery is very wide amongst them. Their nature and language is rough. If you leave an Armenian slave without can troll, his nature will involve immediately him to bad works. They work well only under stick and threaten. If you see they are lasy, you should know that the reason is not weakness, it is.

It is because of their enjoyment from it. In this case they are to be kicked well and insist them to do the work which is necessary.

A.Mets. ***The Muslem Renaissance. Moscow, 1974, p.144***

* * *

"Ermənilərin eybi: bədfel, kündəbədən, oğru, gözü-götürməyən, bir ayağı qaçmaqda olan, əmrə baxmayan, yersiz hay-küy salan, vəfasız, riyakar, söyüş sevən, ürəyi xıltlı, ağasına düşmənçilikdir. Ümumiyyətlə, onlar başdan-ayağa müsbətdən çox mənfiyə yaxındırlar."

"Qabusnamə", *Bakı, 1963, səh.121*

"Порочность армян: злорадные, неуклюжие, вороватые, завистливые, трусливые, непослушные, крикливые, неверные, лицемерные, бранливые, подозрительные, враждебные к своим хозяевам. В целом они близки к отрицательному, чем положительному."

"Гобуснаме". *Баку, 1963, стр.121*

Defects of the Armenians: ill - intentioned, thief, envied, cowardly, disobedient, doing much ado about nothing, oath lover, unfaithful, enimity to his lord. On the whole, they are closer to negative than positive.

«Gabusnamah». *Baku, 1963, p. 121*

ZƏNGİBASAR, GƏRNİBASAR VƏ QIRXBULAQ MAHALLARI

ƏRAZİSİ VƏ COĞRAFİYASI

Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları (Zəngibasar, Qəmərli və Ellər rayonları) Qərbi Azərbaycan (indiki "Ermənistan") ərazisinin (qədim Ərmənistanın) tarixən paytaxt şəhərləri olan Artaşad, Vağarşabad, Dvin və İrəvan ətrafındakı torpaqlarını əhatə etdiyindən daim mühüm strateji əhəmiyyətə malik olmuşdur. Elə ona görə də həmin ərazilər bir tərəfdən yerli hakimiyyətlərin qayğı və diqqəti ilə əhatə olunmuşsa, burada möhtəşəm tikililər ucaldılıb, iqtisadiyyat inkişaf etdirilmişsə, digər tərəfdən elə həmin strateji mövqeyinə görə bu ərazilər tez-tez qonşu dövlətlərin hücumlarına məruz qalmış, dağıdılmış, yandırılmış, talan edilmişdir.

Mahalların hər üçünün adlarının hidronim mənşəli olması, yəni çay (Zəngi, Gərni, Qırxbulaq) adları daşıması mahalların daha bir ümumi səciyyəsindən xəbər verir: hər üç mahalın ərazisi su ehtiyatı ilə zəngin olmuşdur. Qədim yaşayış məskənlərinin məhz bu cür şirin su hövzələrinin kənarında salınması Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları ərazilərinin erkən məskunlaşmasını şərtləndirən amillərdəndir.

ZƏNGİBASAR MAHALI (ZƏNGİBASAR RAYONU) şimalda və şimal-şərqdə İrəvan şəhəri və Qırxbulaq mahalı (Ellər rayonu) ilə, cənubda və cənub-qərbdə Araz çayı boyunca Türkiyə ilə, qərbdə və şimal-qərbdə Karbi mahalı (Üçkilsə rayonu) ilə, şərqdə və cənub-şərqdə Gərnibasar mahalı (Qəmərli rayonu) ilə həmsərhəd idi. Barlı-bərəkətli geniş düzənliyi əhatə edirdi.

Ağrıdağ vadisində – İrəvan çuxurundakı digər mahallar kimi, Zəngibasar mahalının ərazisi də qədimdən üzü bəri bu bölgədə mövcud olmuş bir sıra qüdrətli dövlətlərinin – Sak çarlığının, Armaniya (bölgənin ərəblər tərəfindən işğalından sonra – Ərmənistan) ölkəsinin, Şəddadilər, Atabəylər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər və s. dövlətlərin bir bölgəsi, İrəvan xanlığının 15 mahalından biri, xanlıq əraziləri Rusiya tərəfindən işğal olunduqdan

sonra İrəvan quberniyasının İrəvan qəzasının **Zəngibasar nahiyəsi,** Sovet hakimiyyəti dövründə isə 1937-ci ildən "Ermənistan SSR"-in **Zəngibasar rayonu** kimi mövcud olmuşdur. 1953-cü ildə Zəngibasar rayonu ləğv edilərək kəndləri qonşu rayonlar, xüsusilə Üçkilsə və Qəmərli arasında bölüşdürülmüş, 1969-cu ildə **Masis rayonu** adı ilə yenidən bərpa olunmuşdur.

Tamamilə düzənlikdən ibarət olan Zəngibasar rayonunun ərazisi 170 kv. km, rayon mərkəzi İrəvan şəhərindən 20 km cənub-qərbdə yerləşən şəhərtipli **Uluxanlı** (1925-ci ildən – **Nərimanlı,** 1937-ci ildən – **Zəngibasar,** sonra qısa müddət **Razdan,** 1950-ci ildən – **Masis**) qəsəbəsi idi.

1988-ci ilin məlumatına görə, rayonda 2 şəhər tipli qəsəbə (Uluxanlı və Xarberd), 9 kənd soveti, ümumiyyətlə 28 yaşayış məntəqəsi olmuşdur. Lakin heç şübhəsiz, bu, tarixən Zəngibasar mahalı (rayonu) ərazisində mövcud olmuş kəndlərin ümumi sayından qat-qat azdır. Təkcə onu xatırlatmaq kifayətdir ki, 1827-1830, 1905-1906, 1918-1920-ci illərdə Qərbi Azərbaycan ərazisində azər türklərinin soyqırımı və 1948-1953-cü illərdə həmin ərazidən soydaşlarımızın deportasiyası zamanı Zəngibasar mahalının onlarla kəndi erməni daşnakları tərəfindən məhv edilmiş, tarix səhnəsindən silinmişdir. Bu kitabda onların hər biri haqqında ətraflı bəhs edəcəyik.

Zəngibasar mahalı başlanğıcını Göyçə gölündən götürən, uzunluğu 146 km, hövzəsinin sahəsi 2.560 kv.km olan **Zəngi çayı** tərəfindən iki yerə bölünürdü. Elə mahal da öz adını həmin çaydan almış, **Zəngi çayının yatağı – tutduğu ərazi** anlamında **Zəngibasar mahalı** adlanmışdır. Zəngibasar mahalı ərazisinin daha qədim adları və Zəngi etnotoponimi barədə bir qədər sonra ətraflı bəhs edəcəyik. Hələlik isə Zəngi çayı üzərində bir qədər geniş dayanmağı vacib bilirik.

Urartu kitabələrində (er. əv. VIII-VII yüzillər) çay **Ahuriani** adı ilə qeydə alınmışdır. M.Xorenliyə (V yüzil) istinad edən İ.Şopenin fikrincə isə, çayın qədim adı **Hrasdan** və ya **Hurastan** olmuş, çayın üstündə Bcni şəhəri salındıqdan sonra **Bcni-su**, daha sonralar **Zəngi** (İ.Şopendə – **Zəngə**) **çayı** adlanmışdır. Çay haqqındakı bu tarixi bilgi onun axıb-keçdiyi ərazilərin ayrı-ayrı dövrlərdəki etnik mənsubiyyəti barədə də aydın təsəvvür yara-

dır. Belə ki, birincisi, göründüyü kimi, çayın Urartu mənbələrindəki Ahuriani adı ilə M.Xorenlidəki Hurastan adı arasında elə bir fərq yoxdur və çayın ilkin adı (**Hurastan**) ən qədim dövrlərdə Cənubi Qafqazda yaşadığı, buradan Ön Asiyaya yayıldığı ehtimal edilən **Hurrilərin (Subar türklərinin)** adı ilə xeyli oxşarlıq təşkil edir. Başqa sözlə, **Hurastan – "Hurrilərin ölkəsi"** kimi başa düşülməlidir. İkincisi, adın **Huras//Uras** komponenti **Uraz// Uruz** adı, hətta **Araz** hidronimi ilə xeyli səsləşir. Üçüncüsü, bu toponim **Ur-az-dan** şəklində **"qədim as//azların yurdu"** ("Dədə Qorqud"da **"yerindən uru durdu"** ifadəsində də **uru** kəlməsi **erkənlik, qədimlik** anlamındadır) kimi yozula da bilər. Biz birinci versiyaya üstünlük verir, sonrakıları da onunla eyniköklü hesab edirik.

Peçeneqlərin (Becənə-ok) bölgəyə gəlişindən sonra çayın kənarında salınmış Bcni (Becənə) şəhər adı ilə Hurastan çayı Bcni-su (Becənə-su) çayı adlanmış, Zəngi boyunun bölgədə məskunlaşması ilə əlaqədar isə çayın Bcni-su adı öz yerini Zəngi adına vermişdir.

Doğrudan da, mənbələrdə Bcni adı Zəngi adından çox-çox əvvəllər mövcud olmuşdur. Elə buna görə də İ.Şopen belə bir ehtimal irəli sürür ki, Zəngi adı ərəblərin indiki "Ermənistan" ərazisini işğalından sonra işlənməyə başlanmışdır. O, bu ehtimalını İslamın ilk yüzillərində çoxsaylı Zəngi dəstələrinin Afrikanın şərq sahillərindəki Zəngəbar ölkəsini qoyub, Ərəbistana, oradan da Ərəb İraqına keçməsi faktı ilə əsaslandırmağa çalışır. Bizcə, İ.Şopeni belə qənaətə gəlməyə vadar edən səbəb Zəngi boyunun Səlcuq əmirlərindən olan Mosul hakimi **İmadəddin Zəngi ibn Sonkurun** şəxsində hakimiyyət başına İslamdan xeyli sonralar, yəni XII yüzildə (1127) gəlməsi ilə bağlıdır. Mosul bəyliyində zəngilərin hakimiyyəti yüz il sonra (1222) **Mahmudun** ölümü ilə bitsə də, bu tayfanın Hələb və Dəməşq bəyliklərində də hakimiyyətdə olması onun böyük bir tayfa olduğunu söyləməyə əsas verir.

Zəngi boyu haqqında maraqlı araşdırmalar aparan görkəmli türkoloq alim, professor Firidun Ağasıoğlu qədim çağlarda adı **Sanqi** kimi yazılan bu boyun daha qədim köklərə malik olduğunu, hələ Asur mənbələrində Urmu gölünün quzey sahillərinin

M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublika
KİTABXANASI

Sanqibut (Sanqi//Zəngi boyu) adlanmasını xatırladır. Yeri gəlmişkən, indiki Təbriz, Mərənd və Xoy bölgələrini əhatə edən bu mahalın adı Asur kitabələrində II Sarqonun hücumları ilə (er.əv. 715/714) əlaqədar çəkilir ki, bu vaxt da həmin mahal Urartu dövlətinin tərkibində idi.

Professor F.Ağasıoğlu Zəngi boyunun Arazın sağ və sol sahillərində qədimdən yaşamasını, bu boyun türk boyu olmasını haqlı olaraq **Sanqi//Zanqi** etnotoponiminin daha geniş arealda, xüsusilə türk torpaqlarında sıx-sıx işlənməsi ilə də əsaslandırır. Maraqlıdır ki, İ.Şopen özü də Zəngi etnotoponiminin Cənubi Qafqazla yanaşı, Qara dənizin şərq sahillərində, hətta Əfqanıstanın Türküstanla sərhədində də müşahidə edildiyini etiraf edir. Qırğız mifologiyasında ilxını qoruyan haminin **Kambar-Ata,** qaramal hamisinin isə **Zəngi-Ata** adlanması faktı da maraqlıdır.

Qərbi Azərbaycanda Zəngi çayı, Zəngibasar və Zəngəzur mahalları, Şimali Azərbaycan ərazisində Zəngilan, Sanqaçala, Zəngənə (Sabirabadda kənd), Zəngişalı (Ağdamda kənd), Cənubi Azərbaycanda Zəncan və s. toponimləri də eyni kökdəndir.

Zəngi çayının mənbəyi üzərində ayrıca dayanan İ.Şopen bütün xəritələrdə bu mənbənin Göyçə gölündən başladığına diqqət çəkərək qeyd edir ki, bu həm səhvdir, həm də düz. Ona görə ki, gölün suyu dövri olaraq gah qalxır, gah da enir. Gölün suyu qalxanda çayın mənbəyi həqiqətən də göldən, gölün suyu enəndə isə göldən bir neçə verst aşağıdakı bataqlıqdan başlayır. Fikrini əsaslandırmaq üçün İ.Şopen belə bir misal çəkir ki, 1830-cu ildə gölün suyu aşağı düşmüş və Zəngi çayının suyu o qədər azalmışdı ki, Sevan (**söhbət Göyçə gölündəki adada yerləşən Sevan// Sivəng monastırından gedir** – Ə.Ə.) monaxları göldən 13 verst aşağıda, Çerçer kəndi yanında, Zəngi çayı üstündə tikilmiş su dəyirmanını sökmək məcburiyyətində qalmışdılar. Halbuki bu yerdə bir neçə kiçik qolların hesabına çay artıq güclənmiş olur. Sonrakı illərdə gölün suyu yenidən qalxmış və dəyirman təzədən işə düşmüşdü.

Zəngi yalnız **Qamadzor** (əlsində, bu, **Qamdərəsi** hidronimininin ermənicəyə sətri tərcüməsidir, çay bu adı axıb-gəldiyi Qamdərəsi oronimindən almışdır) qolunu qəbul etdikdən sonra çay həddinə düşür. Sonra o, **Şaqris**, **Saqkunk** (əslində **Saq-kun-k** şəklindədir və **"Saq hökmdarı"** anlamındadır), **Dutmaşen** qol-

larını və **Eşşəkmeydanı** meşəsinin qarlı zirvələrindən başlayıb, Yaycı kəndi aşağısında Zəngi çayına tökülən **Diloçay** çayını, bir qədər aşağıda isə Gərnikənd və ya Karvansara kəndi kənarında xeyli iri **Misxana** çayını qəbul edir. Maraqlıdır ki, Zəngi və Misxana çaylarının birləşdiyi bu yerdə Misxana çayı Zənginin özündən üç dəfə böyük olsa da, çayın davamı Misxana yox, Zəngi adlanmışdır.

Zəngi çayı daha da güclənib, Gərnikənd kəndindən cənuba dönür, Qaxsu kəndinə qədər axır, burada sağ tərəfdən **Marqaravəng, Ağpara** və **Qaxsu,** sol tərəfdən isə **Axtaçay** və **Avazan** çaylarını qəbul edir. Qaxsu kəndindən təzədən qərbə dönür, 8 verst kənarda qədim Bcni şəhəri ərazisindən keçir. Bu, həmin şəhərdir ki, Zəngi çayı bir vaxtlar ondan Bcni-su adını almışdır.

Bir qədər də aşağıda sağ tərəfdən Zəngi çayı **Arzakən** və **Dəllər** dərələrindən axıb gələn **Qarabulaq** çayını qəbul edir və sərt şəkildə cənuba doğru dönür. Burada Zəngi çayına Tiğid kəndi yaxınlığındakı dağlardan süzülüb gələn **Qalaça** çayı, bir az aşağıda isə **Yağoverdçay** çayı tökülür.

Alabars kəndindən aşağıda Zəngi çayı Ellər rayonu ərazisinə daxil olur, son dərəcə sıldırım, daşlı-qayalı, dərin yataqla axaraq böyük, tünd qonur obsidian zolağını yarır və getdikcə daha böyük dərə açıb, Kənəkir kəndinin yuxarısında suyunun zərərli olduğu söylənilən bulağı qəbul edir.

İ.Şopenin şahidliyinə görə, Zəngi çayının açdığı bu dərin dərənin hər iki tərəfi dağıdılmış kənd evlərinin xarabalıqları ilə dolu olmuşdur.

Nəhayət, İrəvan şəhərinin kənarından axıb, Araz vadisinə çıxan Zəngi çayı qalanın aşağısında, sol tərəfdən **Qırxbulaq** çayını qəbul edir. Bundan sonra Zəngi çayı Zəngibasar mahalı torpaqlarının suvarıldığı çoxsaylı arxlara bölünüb, xeyli zəifləyir. Lakin Zəngi çayı ilə Böyük Qarasu (Karbi) çayı arasındakı bataqlıqların suyu Sarvanlar və Sarıcalar kəndləri arasında Zəngi çayına tökülür. Bu yerdən başlayaraq Zəngi çayı dərin yatağı ilə aramla, ləngər vura-vura axıb Araza yaxınlaşır, Sarıcalar kəndinin tuşunda isə suyu, demək olar ki, iki dəfə artır – sol tərəfdən Uluxanlı kəndi yaxınlığından axıb gələn **Kiçik Qarasu** çayını və Gərnibasar mahalı ərazisindən axıb gələn **Cəbəçiliçay** çayını qəbul edir.

Sonuncusu Çinəxanlı və Buğamlı kəndləri arasından keçib, Zəngiyə tökülür. Zəngi çayı isə Sarıcalar kəndinin aşağısında, Qəmərli rayonunun sərhədində Araza qovuşur.

Zəngi çayının suvarma əhəmiyyəti və XIX yüzilin əvvəllərində ondan ayrılan su arxları haqqında ətraflı məlumat verən İ.Şopen **Qızılqala arxı** adlı ilk belə arxın İrəvan şəhərindən 8 verst yuxarıdan çəkildiyini, bu arxın suyu ilə Kənəkir kəndinin aşağısında Qızılqala kəndinin bağlarının suvarıldığını qeyd edir.

İkincisi – **Dəlmə arxı** İrəvan şəhərinin kənarındakı **Dərəbağın** qarşısında Zəngi çayının sağ sahilindən çəkilmişdir. Qarşıdakı uca dağın içindən açılmış tuneldən keçib, qarşı tərəfdən iri çay kimi çıxan bu arx ilə İrəvanın məşhur Dəlmə bağları suvarılırdı. Arxın suyunun bir hissəsi isə Təzəkənd (Noragöğ) kəndinin bağlarını suvarır, digər hissəsi də qərbə üz tutaraq Üçkilsə monastırının torpaqlarına axıdılırdı.

Çayın sol sahilindən çəkilən **Abaqayat arxı** (**Abaqayat – yəni Abaqa xana məxsus olan; Azərbaycanın bəzi bölgələrində həmin ifadə indi də işlənir** – Ə.Ə.) bir vaxtlar xeyli iri olmuş, İrəvan şəhərinin bir çox bağlarını suvarmış və axıb Qırxbulaq çayına tökülərək onun suyunu, demək olar ki, iki dəfə artırmışdır. Lakin İ.Şopen bu yerdəcə arxın xeyli dolduğunu və təmizlənməyə ehtiyacı olduğunu qeyd etməyi də yaddan çıxarmamışdır.

Mamrin arxı İrəvan şəhərinin bütün Təpəbaşı hissəsini, Şəhər hissəsinin bir neçə bağını və daş su kəməri ilə İrəvan qalasının bir tərəfini su ilə təmin etmişdir.

Qaladan aşağıda bütün Zəngibasar mahalını suvaran əsas arxlar – **Norakovit** və **Uluxanlı** arxları uzanır. **Həsənəvar, Təzəkənd, Ortaarx, Şirabad** və s. arxlar da əsas arxlar sırasındadır.

Keçmişdə Qırxbulaq mahalı ərazisində Zəngi çayından ayrılan başqa arxlar da olub, onların arasında **Putqni arxı** da varmış, lakin sonralar o arxlar ləğv edilib.

Zəngibasar və Gərnibasar mahallarının Türkiyə ilə sərhədi boyunca uzanıb gedən və bölgədə ən böyük çay olan **Araz** çayından bu oncildliyin 1-ci cildində geniş bəhs etdiyimizdən təkrara chtiyac görmürük.

Araz və Zəngi çaylarından sonra Zəngibasar mahalını kəsib keçən üçüncü böyük çay **Böyük Qarasu** (və ya **Şimali Qarasu**) ça-

yıdır. Yeri gəlmişkən, Zəngibasar mahalı ərazisindəki bütün yaşayış məntəqələri, demək olar ki, bu üç çayın ətrafında salınmışdır.

Böyük Qarasu çayı (Arazın sağ tərəfində, Sürməli mahalı ərazisində də Yuxarı, Aşağı, Cənubi, Şimali, Böyük, Kiçik təyinli bir neçə Qarasu çayı mövcud olmuşdur) öz başlanğıcını Üçkilsədən Sərdarabada gedən böyük yolun üstündəki **Ayğır** (İ.Şopendə – Ayər) gölünün kənarındakı bulaqlardan götürüb, Zəngibasar mahalı ərazisində Araz çayına tökülür. Bu çay qədimdə **Arqun çayı** adlanmışdır.

Kiçik Qarasu (və ya **Cənubi Qarasu**) çayı Sarıcalar kəndinin yerləşdiyi **Daşlı düzünün** qərbindəki **Göygöl** və **Üçgözə** göllərindən, **Sefilbənd** və **Gərməliklər** adlanan ərazilərdən başlayıb, Zəngi çayına doğru axırdı. Sahilləri sıx ağaclıq olan Kiçik Qarasu çayının suyu yayda soyuq, qışda isti olurdu ki, bu da onun yeraltı sulardan yaranması ilə izah oluna bilər. Çayın sol sahilindəki çöl **Ozanlar** adlanırdı.

Zəngi çayı ilə Vedi çayını birləşdirən keçmiş **Stalin,** sonrakı **Artaşad kanalı** da Zəngibasar mahalının qərb torpalarından keçir və bütün bu su mənbələri, Zəngibasar mahalı ərazisindəki çoxlu bulaqlar, gözələr mahalın tarla və bağlarının suvarılmasında istifadə olunurdu.

GƏRNİBASAR MAHALI (QƏMƏRLİ RAYONU) şimal-qərbdən Zəngibasar mahalı (Zəngibasar rayonu), şimaldan Qırxbulaq mahalı (Ellər rayonu), şərqdən, cənub-şərqdən və cənubdan Vedibasar mahalı (Vedi rayonu), nəhayət, cənub-qərbdən Araz çayı vasitəsilə Türkiyə ərazisi ilə həmsərhəd idi.

Zəngibasar mahalı kimi, Gərnibasar mahalı da qədimdən bəri İrəvan çuxurunun daxil olduğu dövlətlər tərkibində mövcud olmuşdur. İrəvan xanlığı dövründə xanlığın 15 mahalından biri olan Gərnibasar xanlıq ərazisi Rusiya tərəfindən işğal olunduqdan sonra İrəvan qəzasının **Gərni nahiyəsi,** Sovet dövründə isə "Ermənistan SSR"-in **Qəmərli** (1945-ci ildən – **Artaşad**) **rayonu** kimi mövcud olmuşdur.

Ərazisi (507 kv. km) iqliminə görə bir-birindən kəskin şəkildə fərqlənən düzənlik və dağlıq hissələrindən ibarət, mərkəzi isə İrəvan şəhərindən 29 km cənubda, İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin və İrəvan-Naxçıvan-Culfa avtomobil yolunun üstün-

də yerləşən **Qəmərli** (1945-ci ildən – **Artaşad**) qəsəbəsi (1961-ci ildən respublika tabeli şəhər) idi. 1987-ci ilin məlumatına görə rayonda 1 respublika tabeli şəhər (Qəmərli), 13 kənd sovetliyi, ümumiyyətlə 40 yaşayış məntəqəsi mövcud olmuşdur.

Gərnibasar mahalının istər dağlıq, istərsə də düzənlik hissəsi az qala bütün Gərnibasar ərazisini kəsib keçən və mahalın öz adını aldığı **Gərni** çayı tərəfindən iki yerə bölünürdü.

Ən qədim adı **Böyük Amor**, Artaşad şəhəri salınıb paytaxt ora köçürüləndən sonra **Azad**, türk tayfaları tərəfindən Qarni//Gərni qalası möhkəmləndirildikdən sonra isə **Gərniçay** adlanan bu çay öz mənbəyini mahalın dağlıq hissəsindən, Ağmanqan dağ silsiləsinin yüksək zirvələrindən götürürdü. Mənbəyində iki əsas qoldan ibarət idi. Soldakı qol qərb tərəfdən – Gerqaç monastırının yuxarısından, sağdakı isə Gilənar kəndinin şərqindən axıb, hər ikisi çoxlu irmaqları qəbul edib, Baş Gərni kəndinin aşağısında birləşirdi. Burada Gərniçay adını alan çay üzü cənuba doğru sürətlə axaraq Cənnətli kəndinin aşağısında düzənliyə çıxır, buradan başlayaraq çoxlu arxlara bölünürdü (demək olar ki, hər kəndin öz arxı vardı). Hətta bəzən isti yay günlərində çayda su o qədər azalırdı ki, heç Araza gedib çatmırdı da. İ.Şopen Gərni çayının uzunluğunun cəmi 50 verst olduğunu və Çinəxanlı kəndinin yuxarısında Araz çayına töküldüyünü də qeydə almışdır.

Gərni çayı Körpüqulağı kəndinin aşağısında həmçinin kiçik **Aydərə** və **Güllücə** çaylarını da qəbul edirdi. **Doqquzbulaq** çayı Doqquz kəndinin bağlarından axıb Gərni çayına, **Şeyxdazəli** çayı eyniadlı kənddən, **Nazlıxan** çayı Darğalı kəndindən başlayıb, Araz çayına tökülürdü.

Bütün bu su mənbələrindən başqa, rayon ərazisinin düzənlik hissəsini iki hissəyə bölüb keçən **Zəngi-Vedi** (keçmiş **Stalin**) kananalının da Gərnibasar mahalı ərazisinin suvarılmasında böyük rolu vardı.

QIRXBULAQ MAHALI (ELLƏR RAYONU) şimaldan Axta rayonu, şərqdən Göyçənin Kəvər rayonu, cənubdan Vedi və Qəmərli rayonları, qərbdən Əştərək rayonu, cənub-qərbdən İrəvan şəhəri ilə həmsərhəd idi.

Qədimdə Ararat əyalətinin **Kotayk dairəsi** kimi Böyük Ermaniyanın, orta yüzillərdə **Qırxbulaq mahalı** adı ilə İrəvan xan-

lığının, xanlıq ərazisi Rusiya tərkibinə qatıldıqdan sonra **Kotayk nahiyəsi** kimi İrəvan qəzasının, Sovet hakimiyyəti illərində isə **Kotayk** (1961-ci ildən **Abovyan,** 1990-cı ildən yenidən **Kotayk**) **rayonu** kimi "Ermənistan SSR"-in tərkibində mövcud olmuşdur.

Ərazisi 844 kv. km, rayon mərkəzi İrəvan şəhərindən 16 km-lik məsafədə, İrəvan-Tiflis avtomobil yolunun üstündə yerləşən, 1963-cü ildən respublika tabeli şəhər statusu almış **Ellər** (1961-ci ildən – **Abovyan**) şəhəri idi.

Qırxbulaq mahalı, öz adını **Qırxbulaq** hidronimindən, Qırx-bulaq çayı isə başlanğıcını **Hadis** və **Əjdaha** dağlarının ətəyindəki çoxlu bulaqlardan (bəzi mənbələrdə Başkənd kəndi kənarındakı 28 bulaqdan) götürüb, şərqdən qərbə doğru axaraq Zəngi çayına üz tuturdu. Qırxbulaq çayı Avan kəndi yaxınlığında daşlıq **Abbasdərə** dərəsinə girir, Çölməkçi və İrəvan bağlarını suvarır, İ.Şopenin **"Savzik yeri"** deyə qeydə aldığı ərazinin aşağısından və İrəvan qalası ilə Şinqovit kəndi arasından keçib, soldan Zəngi çayına tökülürdü. Keçmişdə olduğu kimi, indi də İrəvan şəhərinin içməli su təminatının əsasını bu çay təşkil edir.

Qırxbulaq çayı sisteminə aşağıdakı irmaqlar da daxil idi: Kamal, Tutiyə və Cadqıran kəndləri ərazilərinin suvarıldığı **Kəmris, Zarbulaq** və **Bəzəkli** kiçik çayları, **Tacirabad, Hacıbulaq, Əlibulaq** və **Küzəcik** qolları, **Oxçaberd bulağı** və b. Lakin bütün bu kiçik çay və bulaqların suyunu torpaq udur, onlar yalnız qar və güclü yağış yağanda gedib Qırxbulaq çayına çatırdılar. Belə vaxtlarda Qırxbulaq çayının özü də daşır və İrəvan şəhərinin Dəmirbulaq və Şəhər hissələrini su basır, hətta bağ, ev və çəpərləri yuyub aparırdı.

Qırxbulaq mahalı ərazisini suvarmaq üçün Qırxbulaq çayından da çoxlu arxlar ayrılmışdır. Onların əsasları aşağıdakılar idi:

– **Yelqovan** arxı dağı yarıb geriyə – **Kotandağ** dağına tərəf çəkilmişdi.

– **Putqniarx** və **Voskepat** arxlarının suyu ilə Putqni kəndinin torpaqları suvarılırdı.

– **Dəlikdaş** və **Dərəarx** arxları Ketran kəndinə çəkilmişdi.

– **Şahabarx, Kənəkirarx** və **Çölməkçiarx** arxları Qırxbulaq çayı suyunun az qala yarısını götürürdü.

Keçmişdə Ərzni kəndini su ilə təmin etmək üçün də bir arx

olmuş, lakin İrəvan sərdarı İrəvan şəhərinin su təminatını yaxşılaşdırmaq məqsədilə kəndi və arxı ləğv etmişdir. İ.Şopen Qırxbulaq mahalında sərfəli mövqedə yerləşən Ərzni kəndini yenidən dirçəltmək məqsədilə Aboqayat arxını bərpa etməyi təklif edir.

Abbasdərəyə girdikdən sonra Qırxbulaq çayı çoxlu kiçik arxlara ayrılaraq şəhərin Şəhər hissəsinin bütün bağlarını suvarır, şəhərin Dəmirbulaq hissəsi isə onun sularının lap axırına çıxırdı. Belə ki, yay aylarında Qırxbulaq çayı çox vaxt gedib Zəngiyə heç çatmırdı da.

Keçmişdə Gümrüdən başlayan mərkəzi **poçt yolu** Ordubada qədər uzanır, İrəvanla Naxçıvan arasında Zəngibasar, Gərnibasar və Vedibasar mahallarını kəsib keçirdi. Kəndarası yollardan isə İrəvandan Göyçə gölünə uzanan yol Çölməkçi, Tacirabad, Məngüs, Oxçaberd və Tutiya kəndlərindən keçirdi. Bu yolun uzunluğu 60 verst idi. İrəvandan Göyçə gölünə 50 verst uzunluğunda **yay yolu** da vardı ki, bu yol Kənəkir, Zak və Başkənd kəndlərindən keçirdi.

Gərnibasar və Vedibasar mahallarından Göyçə mahalına gedən yol Ağmanqan və Ağdağ dağ silsilələrinin sərt aşırım və dolayalarından keçir və yazda bu yollar yaylağa qalxanlarla dolu olurdu.

Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları ərazisindəki çaylar üzərində çoxlu qədim **körpülər** də mövcud idi. Zəngibasar mahalında Zəngi çayı üzərindən Qalalı kəndinin qarşısında qədim körpünün bünövrəsi, Xaraba Sarvanlar kəndinin qənşərində isə başqa bir körpünün qalıqları qalırdı.

Gərnibasar mahalının şimalında Körpüqulağı kəndinin qarşısında körpü vardı. Cənnətabad kəndinin aşağısında və Dvinin kənarında qədim körpünün, Baş Gərni kəndinin aşağısında isə digər bir körpünün izləri görünürdü.

Qırxbulaq mahalında dörd körpü vardı – ikisi Zəngi çayı, ikisi isə Qırxbulaq çayı üzərindən. Qırxbulaq çayı üstündəki körpülərdən biri Başkənd kəndindən Göyçə mahalı istiqamətində – Zak kəndi qarşısında yerləşirdi və hələ XIX yüzilin 1-ci yarısında keçilməz hala düşmüşdü. İkinci körpü Kəmris kəndi yaxınlığında və o da acınacaqlı halda idi.

Zəngi çayı üzərindəki körpünün biri Kənəkir kəndinin qarşısında, Əştərək yolunun üstündə, Kənəkir və Qızılqala kəndləri

arasında, ikincisi bir neçə verst yuxarıda, Yeğvard karvan yolunun üstündə yerləşirdi.

Avan kəndi qarşısında da Qırxbulaq çayı üstündən körpü olmuşdu, lakin onun ancaq izləri qalmışdı.

Zəngibasar mahalından fərqli olaraq, Gərnibasar və Qırxbulaq mahallarının əraziləri həm də yüksək dağ silsilələri ilə zəngin idi. Gərnibasar mahalında həmin **dağlar** mahalın dağlıq hissəsində yerləşirdi. Gərni və Vedi çayları arasında sıralanmış zirvələr **Qızıldağ** və **Ağdağ** dağ silsilələri idi. Sıldırım və dərin dərələrlə müşayiət olunan, əsas yüksəklikləri **Qızıldağ, Yellicə, Qaqavuz, Bayburt** və b. olan bu silsilələr Araz yaxınlığında bir neçə ayrıca daş təpəliklərlə bitirdi. Onlardan sonuncusu Vedibasar ərazisindəki **Xorvirab təpəsi** idi.

Qırxbulaq mahalı ilə Dərəçiçək mahalını bir-birindən ayıran **Hadis** və **Kotan** dağları Zəngi çayının sahillərinə qədər uzanırdı.

İ.Şopenin İrəvan xanlığı ərazisində Ağrıdağ və Alagöz dağlarından sonra üçüncü ən böyük dağ kimi qeydə aldığı **Ağmanqan** dağı Qırxbulaq mahalı boyunca silsilə kimi uzanır və bu silsilənin zirvəsi Oxçaberd kəndində qurtarırdı. Buradan aşağı düşüb, tədricən İrəvan şəhərini sağda qoyub, yavaş-yavaş Araz vadisinə enir və Zəngibasar mahalının Ağhəmzəli kəndi yaxınlığında itirdi. Onun buradakı son yoxuşu **Ağyoxuş** adlanırdı.

Ağmanqan dağı həmişə qarla örtülü olur, şimaldan və şimal-şərqdən Göyçə, şimal-qərbdən Dərəçiçək, cənub-qərbdən Qırxbulaq, cənubdan və cənub-qərbdən Dərəçiçək, cənub-şərqdən Gərnibasar mahalları arasında yerləşirdi. Bu dağ silsiləsinin təpələri bütün Qırxbulaq mahalı boyu səpələnmişdi.

Yeri gəlmişkən, Ağmanqan dağı Armaniyanın ən qədim dövrlərindən məlum olmuşdur. Həmin dağ haqqında M.Xorenli yazır: "Geqam (**Göyqam** – Ə.Ə.) oğlu Qamı Armavir (**Sərdarabad qəsəbəsindəki qədim Argiştihinili** – Ə.Ə.) şəhərində qoyub, şimal-şərqə tərəf getdi və burada bir gölün (**Göyçə gölünün** – Ə.Ə.) kənarında kənd saldı, adını Gögərkuni (**Gögərlər ölkəsi** – Ə.Ə.), yanındakı dağı isə Gög dağı adlandırdı".

Ağmanqan dağının qədimdə **Gögdağ** adlandığını İ.Şopen də dönə-dönə xatırlatmışdır.

QISA TARİXİ

"Qərbi Azərbaycan" oncildliyinin 1-ci cildində Ağrıdağ vadisində yerləşən Vedibasar mahalının qədim dövr tarixi ilə bağlı yazdıqlarımız həmin mahalla qonşuluqda yerləşən Gərnibasar, Zəngibasar və Qırxbulaq mahallarına da xeyli dərəcədə aid olduğundan bu cilddə deyilənləri təkrar etməmək şərtilə hadisələrin qısa xronikasını izləyəcək, yeni fakt və mülahizələrlə yazdıqlarımızı zənginləşdirməyə çalışacağıq.

Beləliklə, er. əv. 1200-cü ilə aid Asur mixi yazılarında adı çəkilən türkdilli **Xarxar (Qarqar)** ölkəsinə Vedibasar mahalı ilə yanaşı, Zəngibasar, Gərnibasar və Qırxbulaq mahallarının əraziləri də daxil idi. Bunu Qarqar türkləri ilə bağlı bölgədəki çoxlu etnotoponimlərin mövcudluğu da (o cümlədən Qarni//Gərnibasar və Qarbi//Karbibasar mahal adları) təsdiq edir.

Er. əv. 782-ci ildə Urartu çarı **I Argişti** Araz çayını keçərək mənbələrdə **Aza** adlanan indiki "Ermənistan" ərazisinə daxil olmuş, Göyçə gölünə qədərki böyük bir ərazini işğal etmişdi ki, Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları da bu ərazidə yerləşirdi. I Argiştinin bu yürüşü həm də indiki İrəvan şəhəri ərazisində **Qanlıtəpə** (ermənicə **Arin-berd**) adlanan yerdə **İrpuni** (**Erebuni**) və Sərdarabad rayonu ərazisində **Argiştihinili// Argiştixinili** (**Argişti-han-eli** – Ə.Ə.) qalalarının tikdirilməsi ilə tarixdə qalmışdır.

Yeri gəlmişkən, söhbət həmin Urartu dövlətindən gedir ki, er. əv. 870-860-cı illərdə türkdilli hurrilər (subarlar) tərəfindən Van gölü ətrafında əsası qoyulmuşdu və urartulular indiki Qərbi Azərbaycan ərazisinin bir hissəsini işğal etdikdən sonra Zəngi çayı boyu ərazi və Zəngi çayının özü onların etnik Hurri adı ilə **Hurastan (Hurazdan)** adlanmışdır.

Er. əv. 715-ci ildə **Qamər** (Kimmer) türk tayfaları Urartu çarı I Rusanın (740-714) ordusunu darmadağın edərək indiki Qərbi Azərbaycan ərazisində məskunlaşırlar. Bu ərazidə Qam, Qamər komponentli onlarla toponimin mövcudluğu da həmin türk tayfalarının nişanələridir.

Er. əv. VII yüzildə Qamər tayfalarını sıxışdırıb, Qərbi Azərbaycan ərazisində özlərinin dövlət qurumunu yaradan **sakların**

adı ilə də bu yerlərdə çoxlu toponimlər mövcuddur. Xatırladırıq ki, bu sak dövlətinin adı "Bibliya"da **Aşkenaz** kimi verilsə də, onun əsl adı məhz **İşquz,** yəni **İç Oğuz** (və ya **Üç Oğuz**), dövlətin banisi isə **Sak oğlu Paruyr** (tədqiqatçı Q.Qeybullayev bu adın türkcə **bar – "var", "mövcuddur"** və **ur – "varis", "övlad"** sözlərindən yarandığını, türk sözü olaraq **"varis", "varis özü"** mənalarında işləndiyini sübut edir) idi. Er. əv. IV yüzilə qədər mövcud olan bu İç Oğuz dövlətinin siyasi tarixinin bəzi konturları "Kitabi-Dədə Qorqud" dastanlarında verilmişdir.

Armaniya (Arminiya) adının tarix səhnəsinə gəlməsi isə təxminən üç yüz il (er. əv. IX-VII yüzillər) mövcud olan Urartu dövlətinin süqutundan sonrakı dövrə aiddir.

Urartu dövlətinin hüdudlarında meydana gələn Armaniya həmçinin bu dövlətin Arazın sol sahilindəki torpaqlarını da əhatə etmiş, sonrakı dövrlərdə isə tarixi hüdudlarından çıxarılaraq ancaq indiki Qərbi Azərbaycan ərazisinə sıxışdırılmışdır.

Bu, qədim türk-oğuz tayfalarının tarixi vətəni olan indiki "Ermənistan" ərazisinə Arman//Ərmən etnotoponiminin gəldiyi tarixdir və bu gəlişin tarixi coğrafiyasını M.Xorenli bir qədər bədiiləşdirilmiş, lakin çox dəqiq şəkildə təsvir etmişdir: "**Armenak (ermənilər bu sözü şəxs adı kimi təqdim etsələr də, əslində o, *Arman-ok – arman tayfası* anlamındadır** – Ə.Ə.). Van gölü ətrafından şimal-şərqə gələrək uca dağlarla əhatə olunan və qərb tərəfdən axıb gələn hay-küylü çaylarla suvarılan geniş düzənlikdə məskunlaşdı. Cənub-şərqə doğru uzanan çöl daha geniş ərazini əhatə edirdi, dağın dibindən şəffaf bulaqlar axır, birləşib kiçik çaylar əmələ gətirir və çöl boyu sakitcə burula-burula axırdı... Cənub dağı yerdən birbaşa üzüyuxarı millənir və sivri zirvəsi ilə qocaman dağ təsəvvürü yaradırdı".

Göründüyü kimi, söhbət bir ucu Sərdarabadda və Ələyəz dağında, digər ucu isə Şərur sərhədində və Göyçə dağlarında olan Ağrıdağ vadisindən gedir. Cənub dağı isə, aydındır ki, Ağrı dağıdır.

Qərbi Azərbaycan torpaqlarında **Qamər-Sak-Arman** türk boylarının məskunlaşması ardıcıllığı M.Xorenlinin armanların nəsil şəcərəsində də öz əksini tapmışdır: **Nuh-Yafət-Qomer-Tir-Torqam**.

Yeri gəlmişkən, Arman tarixi ilə bağlı bəzi məqamların aydınlaşdırılması baxımından bu şəcərə üzərində bir qədər ətraflı dayanmaq ehtiyacı var.

Erməni tarixçilərinin iddiasına görə, Armaniya ən qədim dövrdə öz adını Aşxanas adlı patriarxdan almış, ölkə və xalq **Aşxanas** adlanmışdır.

Aşxanasdan sonra hakimiyyətə qardaşı **Torqam** gəlmiş və qardaşı kimi, onun da hakimiyyəti dövründə Armaniya ölkəsi və xalqı hökmdarın adı ilə – **Torqameli, Torqamlı** olaraq tanınmışdır. Sonralar bu adlar hətta bütün Cənubi Qafqaz xalqlarına aid edilmişdir.

Aşxanas və Torqam **Tirin** övladları, **Qomerin** nəvələri olmuşlar. Qomer özü isə Yafətin oğlu, Nuhun nəvəsi olmuşdur. Başqa sözlə, Nuh-Yafət-Qomer-Tir-Torqam şəcərəsi meydana gəlir.

Armanların qədim tarixi barədə mənbələrin verdiyi bu məlumatda dərin bir həqiqət, müxtəlifdilli mənbələrdə bizə qədər gəlib çıxan bu adların yazılışında isə ciddi təhrif var.

Öncə **Aşxanas**. Bu ad əslində **Asxan//Azxan** şəklində olub, er. əv. VII yüzildə Cənubi Qafqazda yaradılan Sak//Skif çarlığının – İşquz (İç Oğuz) dövlətinin Bibliyadakı Aşkenaz adıdır. Adın sonundakı **as//os//es** şəkilçisi ilə, məlum olduğu kimi, yunan mənbələrində toponim və etnonimlərə artırılan adlıq hal şəkilçisidir. **As//Az** eyniadlı türk tayfasının adı, **Aşxan** isə **Azxan** şəklində **Azların xanı, Azkan** şəklində **Azların yurdu** kimi başa düşülə bilər. Biz bu adı (Azkan) həm də Azərbaycan (Azərboykan – Azər boyunun yurdu) adının ən qədim və ilkin forması hesab edirik.

Torqam isə **Turqam** şəklində oxunmalıdır. **Tur** qədim türklərə verilən addır. **Turlar** anlamı verən **Turan** adı da buradan yaranmışdır. Əslində, **Türk** sözü də **Turlar** anlamındadır. Məlum olduğu kimi, **k** fonemi qədim türk dilində cəm şəkilçisidir. Bu anlam **iki, ekiz** sözlərində günümüzə qədər gəlib çıxmışdır. **Türk** sözü də **Tur-k//Tür-k** şəklində **Turlar** kimi başa düşülmüş və işlənmişdir. **K** fonemi bu funksiyasında ən qədim türklərin Anayurdlarından olan qədim Armaniyada – Van-Urmiya arasındakı əhalinin – arman türklərinin dilində daha çox mühafizə olunmuşdur. Məsələn: **Kotaylar – Kotayk, Quqarlar –**

Quqark və s.

Qam isə, bildiyimiz kimi, qədim türklərdə tayfa başçısına, ağsaqqalına, kahininə verilən addır.

Tir də əslində **Tur** şəklində olmuşdur.

Qomer isə tarix səhnəsində er. əv. VIII yüzildə Urartu çarı I Rusanın ordusunu darmadağın edən **Qamər** (Kimmer) türk tayfasının adını təhrifdir. Göründüyü kimi, Turqamın adında ata Turla baba Qamərin adları birləşdirilmişdir.

Armaniya ərazisində Paruyrun əsasını qoyduğu Sak padşahlığının ən görkəmli hökmdarlarından biri də **I Tiqran//Dikran** olmuşdur. Onun hakimiyyəti dövrü (er. əv. təxminən VI yüzilin ortaları) Maday hökmdarı Astiyaqla fars hökmdarı Kir arasında məşhur İran-Turan müharibələri dövrünə təsadüf edir. Armaniya hökmdarı I Tiqranın bacısı ilə evlənmiş Astiyaqın Kirə məğlub olmasında I Tiqranla onun bacısının (Astiyaqın öz arvadının) da az rolu olmamışdır.

Makedoniyalı İsgəndərin Şərqə yürüşü ilə bağlı er. əv. IV yüzilin ikinci yarısında Sak padşahlığı süqut edir və Cənubi Qafqazda bir sıra dövlətlər (Albaniya, Sisakan, Sakasena) yaranır. Ağrıdağ vadisinin daxil olduğu indiki "Ermənistan" ərazisinin bir hissəsində isə er. əv. 321-ci ildə türksoylu **Oruzlar (Orontlar)** sülaləsi hakimiyyət başına gəlir.

Er. əv. 321-ci ildə **Selevkilər** dövlətinin tərkibinə qatılan Armaniyada er. əv. 202-ci ildə Selevki hökmdarı III Antiox tərəfindən Oruzlar hakimiyyətdən kənarlaşdırılır, bu sülalədən sonuncu hökmdar olan Artavazın yerinə hakimiyyətə əslən midiyalı, yəni türksoylu **Artaş** (yunanca **Artakses,** ermənicə **Artaşes**) gətirilir.

Selevkilər dövlətinin zəifləməsi fürsətini qaçırmayan **Artaş** er. əv. 183-cü ildə Armaniyanı müstəqil dövlət elan edir. Er. əv. 165-ci ildə isə ölkənin hüdudlarını bütün indiki "Ermənistan" boyu genişləndirir, Alban çarının qızı ilə evlənir, Araz çayının sahilində **Artaşad** şəhərini saldırır, ölkənin paytaxtını bura köçürür. Bununla da Böyük Armaniyanın bünövrəsini qoymuş olur.

Artaşın hakimiyyətini oğlu **Artabas** (ermənicə **Artavazd**), Artabası isə oğlu **II Tiqran** əvəz edir. Er. əv. 66-cı ildə II Tiqranın Roma ordusu tərəfindən məğlub edilməsindən sonra Bö-

yük Armaniya dağılmağa başlayır.

Armaniyanın bu dövr tarixi ilə bağlı ətraflı məlumat verən Moisey Xorenlinin təsnifatında Zəngibasar, Gərnibasar və Qırxbulaq mahallarının əraziləri Böyük Armaniyanın 15 əyalətindən 7-cisi olan **Ararat//Ayrarat** (***Ararat* sözü əslində türkcədir, *"Ağrıdağ"* anlamındadır və bu toponimin etimologiyası barədə bu oncildliyin 1-ci cildində geniş söz açmışıq** – Ə.Ə.) və 9-cusu olan **Siyuni//Siyunik** (***Si-y-uni*, yəni sakların *Si* tayfasının ölkəsi** – Ə.Ə.) əyalətlərinin tərkibinə daxil olmuşdur. Bütün İrəvan xanlığı ərazisini (o cümlədən Bayazid və Qars paşalıqlarının bir hissəsini) əhatə edən Ararat əyalətinin 20 dairəsindən üçü – **Nig, Astana (Dvin)** və **Kotayk** Zəngibasar, Gərnibasar və Qırxbulaq mahallarına daha çox uyğun gəldiyi üçün onlar üzərində bir qədər ətraflı dayanmağı zəruri sayırıq.

Öncə **Nig dairəsi** barədə. M.Xorenli bu dairədə aşağıdakı yaşayış məntəqələrini qeydə alır (**şərhlər İ.Şopenindir** – Ə.Ə.):

1. Bcni//Bçni – Dərəçiçək mahalı ərazisində qala-şəhər

2. Mairos və ya **Mairovəng** – Bcni şəhərində monastır

3. Horazor – Bcni ətrafında kiçik məntəqə

4. Parajnakert – kiçik məntəqə

5. Yeğipatruş//Ağapatruş – kiçik məntəqə, ola bilər ki, indiki Ağaparş və ya Alabarsdır

6. Teqenis – monastır, indiki Tiğit

7. Dzaknavaçar – vadi, balıq bazarı

8. Keçror – şəhər, ola bilər ki, Randamaldır

9. Keçarus – Keçror yaxınlığında monastır, indiki Zincirli

İ.Şopen Nig dairəsinin Qırxbulaq mahalı ərazisini əhatə etdiyini yazsa da, göründüyü kimi, bu dairə, əslində, bütünlüklə Qırxbulaq mahalını yox, onun şimal və Dərəçiçək mahalının cənub hissəsini əhatə edir. Nig toponiminə gəldikdə isə, İ.Şopen onu **Nik** kimi qeydə alır ki, bu da, məlum olduğu kimi, **Nilər (İ.Şopen bu barədə yazır: "Ermənilər (əslində *arman türkləri* – Ə.Ə.) yerli toponimlərin böyük bir hissəsinin sonuna onların dilində cəmlik bildirən *"k"* hərfini əlavə edirlər. Mən bu əlavə hissənin sözün kökünə heç bir aidiyyatı olmadığını göstərmək üçün onu apostrofla ayırmağı məqsədəuyğun hesab etdim"**) anlamındadır. Bizcə, bu toponim sonralar

Necili (**Nig//Nic eli**) kənd adında qalmışdır.

Astana (Ostan, Vostan) dairəsi iki adla – **Astana** və **Dvin (Duvin)** adları ilə qeydə alınmışdır. Əslində, Artaşın Artaşad (**indiki *Xorvirab*** – Ə.Ə.) şəhərini saldırıb paytaxtı buraya köçürməsindən sonra ərazi Astana//Ostan//Vostan (paytaxt) adlanmış, Arman çarı II Xosrov tərəfindən bu ərazidə Dvin şəhəri salınıb, paytaxt oraya köçürüləndən sonra isə diyarın Astana adı Dvin adı ilə əvəzlənmişdir.

İ.Şopen dairənin M.Xorenlidəki **Ostan** yazılışı üzərində dayanaraq, bu sözün fars dilində olduğunu, **qapı, astana,** (rusca: **дверь, порог**) anlamında işləndiyini, keçmişdə paytaxt şəhərlərə şamil olunduğunu qeyd edir. Heç şübhəsiz, İ.Şopenin mülahizələrində böyük həqiqət var və buna **Ostan-Astana** sözlərinin şəkil oxşarlığı da əsas verir. Lakin İ.Şopenin belə bir qeydi də maraq doğurur ki, Ostan və ya Vostan sözləri həmçinin vergilərdən azad, sərbəst diyar anlamındadır və bu mülahizə ilə həmin dairəni kəsib keçən Gərni çayının ikinci adının **Azad** olması faktı tamamilə üst-üstə düşür.

Bu dairənin Şərur çölünə qədər uzanması faktı onun tərkibinə Vedibasar mahalı ilə yanaşı, Gərnibasar mahalının aran kəndlərinin də daxil olduğunu təsdiq edir.

Beləliklə, Astana və ya Dvin dairəsində aşağıdakı yer adları qeydə alınmışdır:

1. Artaşat yunanlarda **Artaksata//Artaksiasata** – indiki Artaşat kəndindən Xor Viraba qədər uzanan ərazidə, Böyük Amor çayı üstündə, bir vaxtlar Armaniyanın paytaxtı olmuş şəhər.

2. Xor Virab – Artaşatda monastır, Müqəddəs Qriqorinin salındığı dərin quyu burada yerləşir.

3. Dvin//Duin//Divin//Devin, suriyaca **Adabin,** yunanca **Duvios** və **Tivion,** ərəbcə **Devin** və **Dəbil** – bu mərkəzi şəhər ərəb hakimiyyəti dövründə hələ də Ostan və ya Vostan adlanmaqda idi; indiki Dvin kəndidir.

4. Xosrovakert – çar Xosrov tərəfindən Dvin şəhəri yaxınlığında salınmış meşə.

5. Qarunc – Dvin yaxınlığında kiçik məntəqə.

Kotayk dairəsinin adı mənbələrdə **Kotik, Kotais, Kotas** və **Kotayk** şəkillərində qeydə alınmışdır. İ.Şopen bu toponimin Pto-

lemeydəki Kotasen (**Kotaşen** – Ə.Ə.) olduğunu ehtimal edir, Zəngibasar mahalını və Karbi mahalının cənub hissəsini əhatə etdiyini, XIII yüzildən isə artıq İrəvan dairəsi adlandığını göstərir.

Yeri gəlmişkən, **Kotayk** toponimi **Kot-ay-k** komponentlərindən ibarətdmr ki, bu da **Kotaylar** anlamındadır. **Kot//Qot** türk tayfa adını daşıdığı kimi, **k** da qədim türk-arman dilində cəmlik bildirir. **Ay** komponentinə gəldikdə isə, xatırladırıq ki, **Ay//Ai** sak türklərində Ana ilahəsinin adı olmuşdur. Bu barədə görkəmli tədqiqatçı Mirəli Seyidov yazır: **"Müqəddəsliyi, mifik anlayışı bildirmək üçün *ay//ayı* ayrıca və sözlərə qoşulmuş şəkildə bir çox türkdilli qəbiləbirləşmələrində, xalqlarda tarix boyu – azı eradan on dörd əsr qabaqdan ta bu günə kimi işlənmişdir."** (M.Seyidov. Azərbaycan xalqının soykökünü düşünərkən, B., 1989, səh.26).

Kotayk dairəsinə aşağıdakı məntəqələr aid olmuşdur:

1. İrəvan, farsca **Rəvan** – Zəngi çayı üstündə şəhər, "Erməni vilayəti"nin mərkəzi.

2. Vağarşabad – Gərni çayı üstündə böyük şəhər, indi Eçmiədzin monastırına baxan eyniadlı kənd.

3. Datea – Arqun (**Böyük Qarasu** – Ə.Ə.) çayı üstündə şəhər (**türkcə *Dədə* sözündəndir, VII yüzilin əvvəllərində Şərqi Türk xaqanlığının xanının adı da *Dota xan* kimi qeydə alınmışdır; Axta rayonu ərazisindəki Dədəqışlaq kənd adı ilə səsləşir** – Ə.Ə.).

4. Dzak – monastır.

5. Aramons – indiki Aramus.

6. Aylaberis, Aylaberd, Axbyuris və ya **Ağberis** – bulaqlar diyarı, İ.Şopen kəndin indiki Ağazor kəndi olduğunu ehtimal edir (**lakin bizcə, bu, Axta rayonundakı Alabars kəndidir** – Ə.Ə.).

7. Ovais – kiçik məntəqə, İ.Şopen kəndin indiki Avan kəndi olduğunu ehtimal edir.

8. Gedərgəl – monastır.

9. Surb-Sarkis – monastır.

10. Yerazmuin-tegin və ya **Yerazasuis-Meqian** (Yuxuyozma məbədi) – Artaşadla Vağarşabad arasında yolun üstündə.

11. Ncin və ya **Ardians** – indiki Necili.

12. Kavakert – indiki Kənəkir.

13. Cervej – indiki Cerviş.

Siyuni əyalətinin 12 dairəsindən 4-cüsü **Gögərkuni (Göge-kuni, Gög** və **Geqam**) dairəsi adlanır ki, bu dairə də Göyçə mahalının bütün cənub-qərb hissəsini (Qırxbulaq mahalı ərazisini), Gərnibasar və Vedibasar mahallarının yuxarı (dağlıq) hissələrini əhatə edir. Gögərkuni toponimi, əslində, **Gögər-k-uni** komponentlərindən ibarət olmaqla **"Gögərlər ölkəsi"** anlamındadır. Burada **k** – qədim türk-arman dilində **cəm şəkilçisi, uni** isə Urartu mənbələrində **"ölkə"** anlamındadır.

Gögərkuni dairəsində aşağıdakı yer adları qeydə alınmışdır:

1. Gərni – Gögərkuni dairəsinin cənub hissəsində, Gög (**indiki *Ağmanqan*** – Ə.Ə.) dağının dibində qədim şəhər; Geqam, Gögkənd də adlanmışdır.

2. Geqam (Gög, Gögərqala) – Göyçə gölünün cənub tərəfində qala, İ.Şopenin ehtimalına görə Ağrıvəng kəndi.

3. Gög – dağ, indiki Ağmanqan.

4. Sevan – Göyçə gölündə ada.

5. Əyrivəng – Gərni şəhəri yaxınlığında monastır, indiki Gögart.

6. Ağcosvəng (**əslində *Ağcavəng*** – Ə.Ə.) və ya Ağcakansvəng – Gərni yaxınlığında qız monastırı.

7. Qavusdar – Gərni yaxınlığında monastır.

8. Şoqaka//Şaqaqa//Şuqaqa//Şaquaqa//Şaquaqaq – monastır.

9. Noratuns//Noratus – kənd.

10. Makenis və ya **Geqam Allah evi** – monastır, indiki Məngüs.

11. Yererun və ya **Yereron** – Gərni ilə üzbəüz kiçik məntəqə.

12. Qarnaker – kiçik məntəqə.

13. Ellər – kiçik məntəqə, indiki İllər.

14. Vasakaşen – monastır.

15. Kot – eyniadlı kiçik dairədə, göl kənarında məntəqə.

16. Getakn – göl kənarında məntəqə.

17. Alberd.

18. Vanasvan – monastır, indiki Ktanos.

19. Vanevan.

Eramızın 51-ci ilində Artaşlar sülaləşini **Arsaklar** (ermənicə **Arşakilər**) sülaləsi əvəz edir. Belə ki, Parfiya Arsakilər sülalə-

sindən hökmdar Vologez kiçik qardaşı **Vağarşakı** (**Böyük Arşakı** – Ə.Ə.) Armaniya hakimi təyin edir. Həm də **I Tiridad** (erməni mənbələrində **Trdad,** əslində **Tiridağ**) kimi tarixə düşən Vağarşakla Armaniyada Arsaklar sülaləsinin hakimiyyəti başlayır.

Tiridadı oğlu **Sanatürk,** Sanatürkü isə oğlu **Vağarşak** əvəz edir. Sonuncusu indiki Üçkilsənin yerində **Vağarşakabad** (ermənicədə **Vağarşabad**) şəhərini tikdirir. Armaniyanın paytaxtı Artaşaddan bura köçürülür. Beləliklə, Arsaklar sülaləsi eramızın IV yüzilinin sonlarına qədər Armaniyada hakimiyyətdə olur.

Eramızın 224-cü ilində Parfiyada fars Sasanilər türk Arsakları devirib hakimiyyəti ələ keçirdikdən sonra Armaniya hökmdarı **I Xosrov** (217-238) farsların hakimiyyətini tanımaqdan imtina edir. İran Sasanilərinin Armaniya üzərinə aramsız hücumları başlayır.

301-ci ildə **III Tiridat** tərəfindən xristianlıq Armaniyanın rəsmi dini elan olunduqdan sonra Sasanilərin Armaniya üzərinə işğalçılıq yürüşləri həm də dini mahiyyət kəsb edir, iki dini ideologiyanın – atəşpərəstliklə (Sasanilər atəşpərəst idi) xristianlığın mübarizəsinə çevrilir.

Eramızın 350-ci ilində Arman çarı **II Xosrov** Araz sahilində **Dvin** şəhərini saldırır və Armaniyanın paytaxtını Vağarşakabaddan Dvinə köçürür. Təxminən 500 il Dvin Armaniyanın paytaxtı olur.

Bundan sonra bir müddət armanların fars işğalçılarına qarşı müqaviməti daha davamlı şəkil alır. Arman sərkərdələri Sasani ordusunu Ağrıdağ vadisində dəfələrlə darmadağın edir.

Lakin tarix öz işini görür. Arsaklar sülaləsinin süqutundan sonra – V yüzilin 1-ci yarısından VII yüzilin ortalarına, bölgənin ərəblər tərəfindən işğalına qədər Armaniya İran mərzbanları tərəfindən idarə olunur. Bu müddətdə Arman sərkərdələrinin və kilsəsinin fars xanədanına qarşı dəfələrlə mübarizəyə qalxması, bu sərkərdələrin və ümumiyyətlə armanların türklüyü barədə bu kitabın 1-ci cildində ətraflı bəhs etmişik.

Xüsusilə VII yüzilin əvvəllərində bu yerlər bütünlüklə Xəzər türklərinin nəzarəti altına keçir. Movses Kağankataylının "Alban tarixi" əsərində Xəzər hökmdarı **Böyük Xaqanın** qardaşı **Cebu Xaqanın** oğlu **Şadın** bu yerlərə yürüşü, Araz çayı sahilində Sasa-

ni hökmdarı II Xosrov Pərvizlə danışıqları barədə geniş söhbət açılmışdır. Həmin II Xosrov ki, Arman şahzadəsi Şirinlə evlənmişdi və Arman-İran münasibətlərinin tənzimlənməsində bu izdivacın da böyük rolu vardı. Bu məsələlər barəsində də bu kitabın 1-ci cildində geniş bəhs etmişik.

VII yüzilin ortalarında Armaniya ərəblər tərəfindən işğal olunmuş, Arman//Ərmən kilsəsinə toxunulmasa da, əhalinin böyük əksəriyyəti müsəlmanlığı qəbul etmişdir.

913-cü ildə Ərməniyəni fəth edən **Sacilər** sülaləsinin görkəmli nümayəndəsi **Yusif ibn Əbu-s-Sac** az vaxtda "qərbdə Ani və Dvin şəhərlərindən şərqdə Xəzər dənizinədək, cənubda Zəncandan şimalda Dərbənd şəhərinədək" bütün Azərbaycan torpaqlarını tarixdə ilk dəfə olaraq vahid və müstəqil bir dövlətdə birləşdirir.

942-ci ildə Sacilər dövləti süqut edir və həmin dövlətin sərhədləri daxilindəki torpaqlar **Salarilər** sülaləsinin (942-981) hakimiyyəti altına keçir.

951-ci ildə Ərməniyə ərazisində **Şəddadilər (Şadlılar)** dövləti yaranır və **Məhəmməd ibn Şəddad (Məhəmməd Şadlılar oğlu)** Dvin şəhərini özünün paytaxtı elan edir.

XI yüzilin əvvəllərində Ərməniyə ərazisinə güclü Səlcuq axınlarının baş verməsi bu bölgənin etnik-dini tarixində mühüm keyfiyyət dəyişikliyinə səbəb olur. Belə ki, xristianlığını saxlayan türk ərmənlərin böyük bir hissəsi məhz bu mərhələdə islamı qəbul edirlər. Artıq xristianlıq ancaq kilsə-monastır hüdudları ilə məhdudlaşıb, bütün sosial dayaqlardan məhrum olur.

1136-ci ildə **Atabəylər** dövləti tarix səhnəsinə gəlir və İrəvan çuxuru da bu dövlətin tərkibinə daxil olur. Lakin XII yüzilin 2-ci yarısı – XIII yüzilin əvvəllərində bu ərazi tez-tez gürcü knyazlarının da hücumlarına məruz qalır.

XIII yüzilin 1-ci yarısında güclü monqol hücumlarına məruz qalan Ağrıdağ vadisi sonrakı dövrlərdə **Hülakuların, Teymurilərin** hakimiyyətləri altında olur.

XIV yüzilin sonlarında bu vadidə **Əmir Səid** Çuxur-Səəd əmirliyinin əsasını qoyur və 1411-ci ilə qədər hakimiyyətdə olur. Sonra onu oğlu **Pir Hüseyn** əvəz edir. XIV yüzilin sonları-XV yüzilin əvvəllərində **Qaraqoyunlu,** sonralar **Ağqoyunlu**

dövlətlərinin tərkibində mövcud olan əmirlik **Səfəvilər** dövləti tarix səhnəsinə gələndən sonra bu dövlətin mühüm strateji vilayətlərindən birinə çevrilir.


Təsadüfi deyil ki, hakimiyyət başına gəlmək üçün İsmayıl Çuxur-Səd vilayətinə arxalanmış, buradakı türk tafyalarından 7.000 nəfərlik güclü bir ordu yaratmışdı. Sonralar həmin tayfalar Səfəvilər dövlətinin sütunlarını təşkil etmişdilər.

Şah İsmayılın tapşırığı ilə Rəvan qalası tikildikdən və Çuxur-Səd bəylərbəyliyinin inzibati mərkəzinə çevrildikdən sonra paytaxtətrafı mahalların, o cümlədən Zəngibasar, Gərnibasar və Qırxbulaq mahallarının iqtisadi inkişafına yeni zəmin yaranır. Bununla belə, Səfəvilərin hakimiyyəti dövründə Çuxur-Səd bəylərbəyliyi dəfələrlə Osmanlı və Qızılbaş qoşunlarının döyüş meydanına çevrilir, gah Osmanlı, gah da İran dövlətinin tabeçiliyinə keçir. Digər tərəfdən, Şah İsmayılın ölümündən sonra Çuxur-Səd bəylərbəyliyinə hakimlik uğrunda Qızılbaş tayfaları olan rumlularla ustaclılar arasında bir-birini əvəz edən toqquşmalar başlayır.

Nəhayət, **Nadir şahın** hakimiyyəti illərində (1736-1747) Səfəvi dövləti kimi, ondan miras qalan inzibati bölgü sisteminə (bəylərbəyliyinə) də son qoyulur. Nadir şahın ölümündən az sonra isə Çuxur-Səd bəylərbəyliyi ərazisində **İrəvan xanlığı** yaranır və Zəngibasar, Gərnibasar, Qırxbulaq əraziləri 15 mahaldan təşkil edilən bu xanlığın tərkibinə ayrıca mahallar kimi daxil olur. Xanlığın mərkəzi İrəvan qalası seçildiyindən onun ətrafındakı mahalların iqtisadi inkişafı üçün təzədən gözəl şərait yaranır. Təsadüfi deyil ki, İrəvan xanlarının, yüksək rütbəli məmur və sərkərdələrin mülklərinin, bağlarının, yaylaqlarının çox vaxt məhz Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları ərazisində yerləşdiyini görürük.

XVIII yüzilin əvvəllərindən – **I Pyotr** zamanından başlayaraq Rusiyanın Cənubi Qafqaza imperiya (işğalçılıq) maraqları yüz il sonra – XIX yüzilin əvvəllərində İrəvan xanlığı ərazisinə yeni fəlakətlər gətirir. 1804-cü ildə general-leytenant **P.D.Sisianovun,** 1808-ci ildə general-feldmarşal **İ.V.Qudoviçin** İrəvan qalasının divarları önünə qədər gəlib çıxması İrəvan çuxuru kəndlərinin bir çoxunun yerlə-yeksan edilməsi, dinc əhalinin vəhşi-

cəsinə qətlə yetirilməsi hesabına başa gəlir. Bu hücumlar zamanı bölgədəki azsaylı – 20-25 minlik erməni icması ruslara öz köpək sədaqətlərini sübut etmək üçün dəridən-qabıqdan çıxır, özlərinin satqınlıq, xəyanətkarlıq, cəsusluq kimi milli-etnik xüsusiyyətlərini bütün çılpaqlığı ilə ortaya qoyurlar.



Lakin hər iki hücum zamanı uğursuzluğa düçar olan ruslar geri çəkilir. 1826-cı il iyulun 26-da başlanan növbəti Rusiya-İran müharibəsi isə 1827-ci il oktyabrın 1-də İrəvan qalasının süqutu ilə nəticələnir. General **İ.F.Paskeviçin** bu qələbəsi 1828-ci il fevralın 10-da Rusiya ilə İran arasında **Türkmənçay** bağlaşmasının imzalanması ilə sonuclanır. İrəvan xanlığının başqa mahalları kimi, Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları da Rusiyanın tərkibinə qatılır.

Həmin mahalların ruslar tərəfindən işğalı zamanı rus qoşunlarının bölgədə törətdiyi faciələr İ.Şopenin 1829-1832-ci illərdə apardığı siyahıyaalmada özünü aydın göstərir. Belə ki, həmin siyahıyaalama zamanı Zəngibasar mahalı ərazisində 33 kənddən 7-nin, Gərnibasar mahalında 96 kənddən 43-nün, Qırxbulaq mahalında 48 kənddən 26-nın tamamilə məhv edildiyi qeyd olunmuşdur.

Cənubi Qafqazın ruslar tərəfindən işğalı zamanı onlara cəsus-

luq, bələdçilik edən ermənilərin bu "xidmətləri" isə çar tərəfindən layiqincə qiymətləndirilir və 1828-ci il martın 20-də Türkmənçay bağlaşmasını təsdiq edən I Nikolay bir gün sonra – martın 21-də İrəvan və Naxçıvan xanlıqları ərazisində **"Erməni vilayəti"** yaradılması barədə fərman verir. Bu vilayət üç ərazi-inzibati vahidə – İrəvan və Naxçıvan əyalətlərinə, bir də Ordubad dairəsinə bölünür. İrəvan əyaləti özü isə dörd dairəyə – İrəvan, Şərur, Sürməli və Sərdarabad dairələrinə ayrılır. Həmin dairələrdə İrəvan xanlığının aşağıdakı mahalları əhatə olunur:

1) İrəvan dairəsi – Göyçə, Dərəçiçək və **Qırxbulaq** mahalları.


2) Şərur dairəsi – Şərur, Vedibasar, **Gərnibasar** və **Zəngibasar** mahalları.

3) Sürməli dairəsi – Sürməli, Dərəkənd-Parçenis mahalları.

4) Sərdarabad dairəsi – Saatlı, Talın, Seyidli-Axsaxlı, Abaran, Karbi və Sərdarabad mahalları.

1840-cı ildə "Erməni vilayəti" ləğv edilərək yerində Gürcü-İmeretiya quberniyası tərkibində **İrəvan qəzası** yaradılır. 1849-cu ildə isə yeni **İrəvan quberniyası** təşkil edilir və Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları quberniyanın İrəvan qəzası tərkibinə daxil olur.

1890-cı ildə Tiflis şəhərində təsis edilən Daşnaksütyun partiyasının başçılığı ilə erməni millətçiləri ilk gündən yerli türk-müsəlman əhaliyə qarşı açıq silahlı mübarizəyə çağırır və hazırlaşırlar. Bütün bunların nəticəsi olaraq 1905-ci ildə ermənilər Cənubi Qafqazda türk-müsəlman əhalinin ilk kütləvi soyqırımını təşkil edir və həyata keçirirlər. Bu soyqırımının ən dəhşətli səhifələri – Bakı, Naxçıvan, İrəvan, Üçkilsə, Cəbrayıl-Qaryagin, Şuşa, Gəncə, Tiflis, Qazax, Zəngəzur qırğınları haqqında Məmməd Səid Ordubadinin "Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi)" kitabında ətraflı bəhs edilmişdir. Həmin kitabın "İrəvan hadisələri" bölməsində xüsusilə Qırxbulaq mahalı ərazisində ermənilərin törətdiyi vəhşiliklər üzərində bir qədər ətraflı dayanmaqla faciənin miqyası barədə aydın təsəvvür yaratmaq istərdik.



M.S.Ordubadi yazır: **"İrəvanın şərq tərəfi, Qırxbulaq mahalı adlanan tərəfdə üç hissə erməni, bir hissə fəqir, məzlum islam tayfası olduğundan iyun ayının birinci günü qovğa və iğtişaş meydan bulub ən əvvəl 20 evdən ibarət olan Gözəcik (*Küzəcik* – Ə.Ə.) faciəsi baş verdi, qonşu Tirjabat (*Təcirabad* – Ə.Ə.) erməni kəndindən neçə hücum başlandığını sıra ilə hamısını oxuculara ərz və təqdim edirik".** Beləliklə, 1905-ci il iyunun 1-də axşama az qalmış ermənilər Küzəcik kəndinin ətrafını kəsib şiddətli atəşə başlayırlar. Müsəlmanlar silahsız olduqlarından ailələrini götürüb yaxınlıqdakı Məngüs kəndinə sığınmaq məcburiyyətində qalırlar. Küzəcik kəndinin ağası Hümmət Hüseynzadə şəhərə köçdüyündən onu kənddə **Novruz Kazım oğlu** adlı 50 yaşında bir kişi əvəz edirmiş. Camaat kəndi tərk etsə də, o, kənddən çıxmamağa qəti qərar verir. Bir azdan ermənilər kəndi mühasirəyə

alırlar. Qohumları geri qayıdıb onu mühasirədən çıxarmağa çalışsalar da, bu, mümkün olmur. Novruz kişi qoşalülə tüfəngi ilə evə yaxınlaşan ermənilərdən birini vurur, qalanlarını geri çəkilməyə məcbur edir. Az sonra ermənilər yenə hücuma keçirlər. Novruz kişi onlardan birini də öldürüb, yenə də qalanları qaçmağa məcbur edir. Gülləsi qurtardığından tüfənginə qırma doldurmağa çalışarkən hücum edən ermənilər onu əsir alır, kəndin çox hissəsinə, məscidə, minbərə od vurub yandırır, Novruz kişini isə qolubağlı Təcirabad kəndindəki qərargahlarına aparırlar. Orada əziyyət verə-verə bu igid türk kişisinin başını kəsirlər. Sonralar kəndin ermənilərinin etirafına görə, Novruz kişinin başını kəndin keşişi Ayrapet kəsibmiş, çünki Novruz kişinin öldürdüyü iki ermənidən biri keşişin oğlu imiş.

M.S.Ordubadi yazır ki, Novruz kişinin başını "min beş yüz müsəlman sərkərdəsi başıdır" deyə əvvəlcə Aleksandropol (**Gümrü** – Ə.Ə.), sonra isə Bakı şəhərinə göndəribmişlər.

Sabahısı gün – iyunun 2-də ermənilər müsəlmanların sığındığı Məngüs kəndinə hücum edirlər. 10 min silahlı ilə hücuma keçən ermənilər iki hissəyə bölünüb, hər dəfədə kənd üstünə 5 min atəş açırmışlar. Burada da camaat silahsız olduğundan kəndi tərk etmək məcburiyyətində qalır. Bu vaxt Millidərənin Qaladibi kəndinin ağası **Cahanbəxş bəy** də (sonradan o, Vedibasar qəhrəmanı Abbasqulu bəy Şadlinskinin dəstəsinə qoşulur) yanındakı iki kürd atlısı ilə Məngüs kəndində imiş. Kənd camaatından üç nəfər tüfəngli də onlara qoşulur və kəndin şimal-şərqindəki dağlarla qaçan arvad-uşağı təqib edən ermənilərı atəşə tuturlar. Beləliklə, camaatın xilas olmasına imkan yaranır və onlar xeyli aralıdakı Təzəkənd kəndinə sığınırlar. Bölgədəki dağıdılmış 12 müsəlman kəndinin camaatı da bu kəndə toplanmışdı.

Boşalmış Məngüs kəndində qalan, yerindən tərpənə bilməyən 80 yaşlı əlil qocanı isə erməni vəhşiləri təndir şişi ilə qətlə yetirmişdilər.

İuyunun 3-də sübh tezdən Güllücə kəndinin şimal tərəfində yerləşən və hər biri 400 evə yaxın olan 14 erməni kəndindən 10 min nəfərə qədər könüllü erməni əsgəri cəm olub, cənubdakı 500 evli Başkənd erməni kəndindən 150 evli Güllücə müsəlman kəndinə hücum edirlər. Əliyalın camaat kəndi tərk edib, yaxın-

lıqdakı Tutiya, Damagirməz və Kamal kəndlərinə pənah aparırlar. Güllücə kəndinin dövlətlilərindən **Məşədi Qənbər, Mahmud, Hacı Hüseyn** və başqaları 15 nəfərlə kənddə qalıb erməni qudurları ilə döyüşə girir, səkkiz ermənini cəhənnəmlik edirlər. Nəhayət, ermənilər atışmada Məhmudu öldürüb, kəndi ələ keçirirlər.

Arxada qalıb, arvad-uşağın qaçmasına şərait yaradan **Mir Süleyman Seyid Mustafa oğlunun** atını vuran ermənilər onu tutmağa can atsalar da, Mir Süleyman bir ermənini öldürüb, xilas olur.

İyunun 4-də 150 evli Kamal kəndinin camaatı da erməni əhatəsində olduqlarını, hücum edilərsə, üç-beş tüfənglə onların qarşısında dayana bilməyəcəklərini görüb, qonşu Damagirməz kəndinə yığışır, sonra isə hamısı Təzəkənd kəndinə sığınırlar. 18 gün burada məhrumiyyət, qorxu içində yaşadıqdan sonra bölgədə sabitlik yaradılır və camaat öz kəndlərinə qayıdır.

Göründüyü kimi, bunlar Qırxbulaq mahalının cəmi bir neçə kəndində ermənilərin bir neçə gün ərzində törətdiyi vəhşiliklərdir ki, böyük yazıçı M.S.Ordubadi özünün "Qanlı illər" kitabında (səh. 30-32) qələmə almışdır və xatırladırıq ki, bu faciələri erməni cəlladları bütün müsəlman bölgələrində, o cümlədən Zəngibasar və Gərnibasar mahallarında da törədirdilər.

Bölgədə müsəlmanların növbəti soyqırımı 1917-1920-ci illərdə, həm də bu dəfə daha amansız şəkildə, daha qəddarcasına həyata keçirildi. Türkiyə ərazisində hay-erməni dövləti yaratmaq xəyalları boşa çıxan daşnakların Cənubi Qafqazda fəallaşması, o vaxtkı milli liderlərimizin səhvləri ucbatından 1918-ci ilin mayında Qərbi Azərbaycan torpaqlarında ermənilərə tarixdə ilk hay-erməni dövləti olan Ararat Respublikası yaratmağa imkan verilməsi ermənilərin əl-qolunun daha da açılmasına, onların türklərə, müsəlmanlara, nəhayət, bütün insanlığa yırtıcı nifrətinin üzə çıxmasına, tüğyan etməsinə imkan yaratdı.

Həmin dövr hadisələri barədə bu kitabın 1-ci cildində bəhs etdiyimizdən ermənilərin Zəngibasar mahalının bir kəndində törətdikləri cinayət əməlini xatırlatmaqla kifayətlənirik. Professor S.Şükürov "Uluxanlı" kitabında yazır: **"1948-ci ildə Zəngilər kəndinin kolxoz sədri Qurban Sadıqov olub-keçənləri xatırlayaraq**

söyləyirdi ki, daşnaklar Hacıelyas kəndində qadın, uşaq, kişi, qoca və cavanların başlarını kəsib məscidin həyətindəki hücrələrə doldurub hər qapının da üstünə: "Ey türk, erkək əti istəyirsənsə bu qapıdan keç, öyəc əti istəyirsənsə ala qapıdan içəri gir, quzu əti istəyirsənsə yaşıl qapıya tələs..." sözlərini yazıb yapışdırmışdılar. Qapını açdıq, aman Allah! Erkək əti (kişi başları və meyitləri), öyəc əti (qadınların bədənləri), quzu əti (uşaqların başları, qolları, qıçları, ciyərləri, ürəkləri) bir-birinin üstünə yığılmışdı. Bir qadının qarnını cırmışdılar, hamilə imiş, bətnindəki uşaq elə bil ki, yatmışdı, onun da gözünü süngü ilə deşmişdilər." (Göstərilən mənbə, səh.125-126).

Eyni hadisələr başqa bölgələrdə də təkrar olunmuşdu. Məsələn, 1918-ci ilin yazında erməni daşnakları Qırxbulaq mahalının azərbaycanlılar yaşayan Zar, Gümüş, Nurnus, Ketran, Cadqıran, Təcirabad, Tutiya kəndlərini mühasirəyə alıb, şər qarışanda hücuma keçərək onları qılıncdan keçirməyə başlamışdılar. Camaatın 30 faizi ancaq qaçıb qurtara bilmişdi. Onlar dağlardan aşıb özlərini digər azərbaycanlı kəndlərinə çatdırmışdılar.


Bölgədə erməni vəhşiliyini durdurmaq məqsədilə 1918-ci ilin yayında türk qoşunları köməyə gəlir və bir müddət müsəlmanlar rahat nəfəs almaq imkanı qazanırlar. Lakin 1918-ci il oktyabrın 30-da Türkiyə ilə Böyük Britaniya arasında imzalanmış Mudros bağlaşmasından sonra türk qoşunları, məğlub tərəfdə dayanan bir ölkə kimi, Cənubi Qafqazdakı mövqelərini tərk etmək məcburiyyətində qalırlar ki, bu, ortaya yeni problemlər çıxarır.

Həmin hadisələr haqqında Paris Sülh Konfransının sədrinə ünvanlanmış 16-19 avqust 1919-cu il tarixli sənəddə bəhs olunmuşdur. Belə ki, türk qoşunları İrəvan quberniyasını tərk etdiyi zaman erməni qoşunları tədricən o rayonları işğal etməyə başlamış, öncə Gərnibasar rayonunu tutub, Yuva kəndinə qədər gəlmiş və burada dayanmışlar. Ayaqlarına yer etdikdən sonra isə erməni cəlladları mahalın yerli müsəlman əhalisinə qanlı divan tutmuşlar.

Yeri gəlmişkən, xatırladırıq ki, əhalisinin əksəriyyəti azərbaycanlılar olan Zəngibasar və Gərnibasar camaatı öz müqəddəratını təyin edərək, Azərbaycan Demokratik Cümhuriyyətinin tərkibinə daxil olmaq barədə qərar vermiş, bununla bağlı ADC-

yə müraciət də etmişdi. ADC ilə erməni Ararat Respublikası arasındakı sərhədlərin müəyyənləşdirilməsi baxımından ADC XİN əməkdaşı A.Şepotyevin "Öz müqəddəratını təyin etmiş Azərbaycan türklərinin hüququ çatan Qafqazın mübahisəli əraziləri haqqında məruzə"si xüsusi əhəmiyyət daşıyır. Məruzədə oxuyur: **"Azərbaycanın mübahisəsiz torpaqlarının sərhədi şərqdə Kiçik Ağdağ dağından qərbə doğru uzanaraq əvvəlcə Toxmağın gölünə və Təzəkənd kəndinə çatır. Oradan Gərniçay çayı boyunca Yuxarı Ağbaş kəndinə qədər uzanır. Bu kəndin qarşısında sərhəd şimala doğru dönür, sonra cənub-qərbdə Uluxanlı kəndinə gedib çıxır, Uluxanlı kəndi ilə Ulxanlı stansiyası arasından keçir, birincisi cənubda, ikincisi şimalda qalır. Sonra sərhəd Rəncbər kəndinin şimalından Araza gedib çıxır".** ("Azərbaycan EA Xəbərləri. Tarix, fəlsəfə, hüquq", 1990, №2, səh.57).

Lakin təəssüf ki, erməni-daşnak hərbi qüvvələri o vaxt bütün bu əraziləri işğal edərək müsəlman əhalini ya qəddarcasına həlak etmiş, ya da qovub Arazın o tayına tökmüşdülər.



1921-ci ilin yazında Azərbaycan İnqilab Komitəsinə edilən məruzədə də göstərilir ki, Ermənistanda olan bütün Azərbaycan kəndləri, o cümlədən Zəngibasarda 48 müsəlman kəndi erməni-

lər tərəfindən yerlə yeksan edilmiş, od vurulub yandırılmış, əhalisi vəhşicəsinə qətlə yetirilmişdir.

Beləliklə, 1918-1919-cu illərdə Zəngibasar, Gərnibasar və Qırxbulaq mahallarının növbəti dəfə soyqırımına məruz qalan əhalisi sonda Türkiyə və İran ərazisinə mühacirət etmiş, bölgədə daşnaklar darmadağın edilib Sovet hakimiyyəti qurulduqdan sonra geri qayıdıb, dağıdılmış kəndlərini bərpa etmişlər.

Lakin istər sovetləşmə dövründə, istər kolxozlaşma və istərsə də repressiya illərində kəndin sayılıb-seçilən kişilərinə qarşı siyasi terror dayandırılmamış, bir çox ailələr baş götürüb təzədən Arazın o tayına – Türkiyəyə getmiş, bir qismi isə Azərbaycan SSR-ə köçməklə təqiblərdən yaxa qurtarmağa çalışmışlar.

1930-cu il sentyabrın 9-da "Ermənistan SSR" ərazisinin rayonlaşdırılması zamanı Gərnibasar mahalı ərazisində mərkəzi **Qəmərli kəndi** olmaqla **Qəmərli rayonu,** Qırxbulaq mahalı ərazisində isə mərkəzi **Ellər kəndi** olmaqla **Kotayk rayonu** yaradılmışdır. Lakin həmin vaxt Zəngibasar mahalına ayrıca ərazi-inzibati bölgü (rayon) statusu verilməmiş, o, artıq xeyli ermə-niləşdirilmiş Üçkilsə və Qəmərli rayonları arasında bölüşdü-rülmüşdür. Məqsəd isə son dərəcə məkrli idi: Zəngibasar mahalının kəndlərini bir-birindən ayrı salmaq, birliyini parçalamaq, ermənileşdirilməsinə imkan yaratmaq və bu prosesi sürətləndirmək.

Lakin bu tarixi ədalətsizlik az sonra aradan qaldırıldı. Coğrafi və iqtisadi zərurət tarixi Zəngibasar mahalı ərazisində ayrıca bir rayon yaratmaq ehtiyacını gündəmə gətirdi və 1937-ci il dekabrın 31-də mahalın Üçkilsə və Qəmərli rayonları ərazisindəki tarixi kəndləri – Üçkilsə rayonundan 14, Qəmərli rayonundan 18 kənd ayrılaraq 32 kənddən ibarət, ümumi sahəsi 170 kv. km olan **Zəngibasar rayonu** yaradıldı.

Bu kəndlərdən 21-i xalis azərbaycanlı kəndi, 6-ı (Arbat, Göygümbət, Ağcaqışlaq, Ağhəmzəli, Xarratlı, Cəbəçili) azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd, 5-i (Təzəkənd, Gələrə, Yenicə, Azadaşen, Cəfərabad) erməni kəndi idi. Əslində bu xalis erməni kəndlərindən ikisində – Təzəkənd və Gələrədə ermənilər XVIII yüzildən, üçündə – Yenicə, Azadaşen və Cəfərabadda 1920-ci ildən sonra məskunlaşmışdılar.

Yeni yaradılmış Zəngibasar rayonunda türklərin çoxluq təşkil

etməsi ermənilәri ilk gündən narahat edirdi. Ona görə də düşən ilk fürsətdən istifadə edib, 1937-ci il repressiyasını burada daha böyük "canyananlıqla" tətbiq etməyə başladılar. Bir tərəfdən qolçomaq damğası vuraraq adamların var-dövlətini əllərindən alır, özlərini, ailələrini həbs edir, "troykanın" qərarı ilə güllələyir, sürgün edirdilər, digər tərəfdən 1918-1920-ci illərdə daşnakların əlindən qaçıb Türkiyəyə, İrana sığınan, sonralar geri qayıdan əhalinin savadlılarına, gözə görünənlərinə Türkiyənin, İranın cəsusu adı ilə divan tuturdular. Bütün bunların nəticəsi idi ki, 30-cu illərin sonunadək rayonun Çobankərə, Şorlu, Rəncbər, Mehmandar, Reyhanlı, Aşağı Necili, Qulucan, Həbilkənd, Sarvanlar, Sarıcalar, Seyidkənd və s. kəndlərindən yüzlərlə ailə gizli yollarla Araz çayını keçib həmişəlik Türkiyəyə getdi və ya Azərbaycanın ayrı-ayrı rayonlarına köçdü.

Bundan əlavə, Böyük Vətən müharibəsi ərəfəsində təhlükəli şəxs qismində Zəngibasar mahalından xeyli azərbaycanlı Qazaxıstan çöllərinə sürgün olundu.

1941-1945-ci illər müharibəsi də respublikanın erməni rəhbərliyinin əlində yerli azərbaycanlılara qarşı təqib və təzyiq vasitəsi idi. Cəbhəyə yardım adı ilə azərbaycanlılara daha çox təzyiq edilir, onların sonuncu tikələri boğazlarından çıxarılır, sonuncu qəpikləri əllərindən alınırdı. Zəngibasar rayonunun o vaxtkı 1-ci katibi Rza Rzayevin qeyrətli və cəsarətli müdaxiləsi sayəsində adamlar dəfələrlə belə haqsız hücumlardan xilas olmuşdular.



RZA ABBAS OĞLU RZAYEV 1908-ci ildə İrəvan şəhərində anadan olmuş, 1935-ci ildə Moskva şəhərində Hidrotexnika İnstitutunu bitirmişdi. 1935-1939-cu illərdə Kənəkir CES və Su təsərrüfatında işləmiş, 1939-1940-cı illərdə Ermənistan KP MK-da kənd təsərrüfatı şöbəsində təlimatçı vəzifəsində çalışmışdı. 1940-cı il fevralın 26-da Zəngibasar RPK-nin 1-ci katibi seçilmiş, 1946-cı ilin fevralına qədər bu vəzifədə işləmişdi.

Müharibədən böyük maddi, mənəvi və fiziki itkilərlə çıxan camaat hələ özü-

nə gəlməmiş növbəti erməni məkri ilə üz-üzə dayanmalı olur. İ.Stalin 21 noyabr 1945-ci il tarixli "Ermənilərin xaricdən Sovet Ermənistanına qayıtmalarına (? – Ə.Ə.) dair tədbirlər haqqında" sərəncamını imzalayır.

1946-1947-ci illərdə xaricdən "Ermənistana" köçürülən ermənilərin bir hissəsi də Zəngibasar, Qəmərli və Ellər rayonlarının azərbaycanlı kəndlərinə paylaşdırılırlar. Kəndlərdə əsasən azərbaycanlıların tövlələrində, istifadəsiz uçuq-sökük damlarında yerləşdirilən bu əhalinin ev-eşiklə təminatı məsələsində bilərəkdən dövlət səviyyəsində lənglik göstərilir. Məqsəd isə Moskvanı onları yerləşdirmək çətinliyi faktı qarşısında qoyaraq, respublikanın türk əhalisinin Azərbaycana köçürülməsinə nail olmaq idi. İ. Stalinin 23 dekabr 1947-ci il tarixli "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərarı ilə ermənilər buna nail olur.

Vedibasar mahalının Goravan kəndindən başlayan bu deportasiya qısa vaxtda və ilk növbədə həm də Zəngibasar, Qəmərli və Ellər rayonlarını əhatə edir. 1948-1951-ci illərdə Zəngibasar rayonunun Rəncbər kəndindən başqa bütün Arazqırağı (Həbilkənd, Reyhanlı, Seyidkənd, Sarıcalar, Qulucan, Həsənli, Sarvanlar) və Mehmandar, Çobankərə, Arbat, Rəhimabad, Hacı Elləz, Göygümbət, Cəbəçili, Xarratlı, Ağhəmzəli, Ağcaqışlaq, Şorlu kəndləri tamam, Uluxanlı, Zəngilər, Aşağı Necili isə qismən Azərbaycana köçürülür.

Yeri gəlmişkən, 1947-1950-ci illərdə Zəngibasar RPK-nin 1-ci katibi vəzifəsində **Qəşəm Cəlil oğlu Şahbazov** işləyirdi və azərbaycanlıların deportasiyası əleyhinə olduğu üçün 1950-ci ildə onu tutduğu vəzifədən uzaqlaşdırdılar. Onu da qeyd etmək lazımdır ki, Q.Şahbazovun vaxtında Zəngibasar rayonunda Azərbaycan dili dövlət dili statusunda işlədilirdi və bunu rayon səviyyəli rəsmi sənədlərin Azərbaycan dilində aparılması da təsdiq edir.

Zəngibasar rayonunun deportasiya olunmuş Arazqırağı azərbaycanlı kəndlərinə Türkiyənin qorxusundan (bu kəndlər Türkiyənin sərhədində idi) köçməyə cəsarət etməsələr də, Uluxanlı, Zəngilər, Aşağı Necili kəndlərinə Yelenovka (Sevan) rayonundan, Cəbəçili, Xarratlı və Ağhəmzəli kəndlərinə Qaranlıq (Martuni) və Kəvər (Kamo) rayonlarından çoxlu erməni köçüb gəl-

mişdi. Xaricdən gələn erməni ailələrindən isə Uluxanlı, Arbat, Göygümbət kəndlərində məskunlaşmışdılar.



1948-1953-cü illər deportasiyası zamanı Böyük Şollu kənd sakini Qulu Əkbərovun adına verilmiş köçmə bileti.

1948-1953-cü illər deportasiyası zamanı Qəmərli və Ellər rayonlarının azərbaycanlı əhalisi isə bütünlüklə köçürülməyə məruz qalmış, bu rayonların ermənileşdirilməsi, demək olar ki, başa çatdırılmışdır.

Az sonra, xüsusilə İ.Stalinin ölümündən sonra Zəngibasar rayonundan köçürülmüş ailələrin, demək olar ki, yarısı geri qayıdıb, doğma kəndlərini bərpa etdilər. Hacı Elləz, Göygümbət və Arbat kəndlərindən geri qayıdanları isə öz doğma kəndlərinə buraxmadıqlarından qonşu azərbaycanlı kəndlərində məskunlaşmağa məcbur oldular. Rayonun deportasiya olunmuş azərbaycanlı əhalisinin geri qayıtdığını görən və Zəngibasar kimi böyük azərbaycanlı rayonunun yenidən bərpa olunmasını istəməyən respublikanın erməni rəhbərliyi 1953-cü ildə bu rayonu bütövlükdə ləğv edib, ərazisini, demək olar ki, 90 faiz ermənləşdirilmiş üç rayon – Üçkilsə, Qəmərli və İrəvan şəhərinin Şaumyan rayonları arasında bölüşdürdü. Bundan məqsəd azərbaycanlı kəndlərini ermənileşdirilmiş rayonların erməni rəhbərliyindən asılı vəziyyətə gətirməklə onların bütün sahələrdə sıxışdırılmasına şərait yaratmaq idi.

Beləliklə, keçmiş Zəngibasar rayonu ərazisinin xeyli ermənileşdirilməsini, burada ermənilərin azərbaycanlılardan demoqrafik üstünlüyünü təmin etdikdən sonra 1969-cu il yanvarın 14-də

rayon əvvəlki ərazisi hüdudlarında yenidən bərpa edildi. Lakin bu dəfə **Masis** adı ilə.

1960-cı ildən başlayaraq "Ermənistan"da yenidən start götürən erməni şovinizmi, gündəmə gətirilən yalançı "erməni gẹnosidi" artıq respublikada milli münasibətləri təzədən zəhərləməkdə, erməni ziyalıları və respublika rəhbərliyi isə bu murdar prosesə təkan verməkdə idi. Nəticədə "Ermənistan" hökumətinin qərarı ilə hər ilin 24 apreli "Genosid" günü elan olundu və 1965-ci ildə "Genosid"in 50 illiyini qeyd etmək qərara alındı. Hətta Zəngi çayının sağ sahilində **İlanlıdağ** adlanan yerdə "Genosid" abidəsi də ucaldıldı. Bu, erməni gəncliyinin şüurunu zəhərləmək, onları anti-türk əhval-ruhiyyəsində tərbiyə etmək və bu yalançı (guya 1915-ci ildə türklər onlara qarşı soyqırımı törədib) ideyanı dünya ictimaiyyətinə sırımaq məqsədi güdürdü.

1965-ci il aprelin 15-də İrəvanda Lenin meydanında mitinq keçirildi. Sonra camaat Opera teatrı binasına üz tutdu. Burada Ermənistan Elmlər Akademiyasının prezidenti daşnak V.Hambarsumyan şovinist məruzə ilə çıxış etdi. O vaxtdan başlayaraq hər il aprelin 24-də qeyd olunan "Genosid" günündə azərbaycanlılara qarşı cürbəcür təxribat hərəkətləri edilir, antitürk vərəqələri yayılır, ermənilər türklərə qarşı qisasa çağırılırdı.

1965-ci ilin 24 aprel Zəngibasar hadisələrinin şahidi olan mahalın qeyrətli ziyalı oğlu **Hüseyn Həsənov** həmin hadisələri belə xatırlayırdı: **"1965-ci ilin aprel ayı bugünkü kimi yadımdadır... Bütün küçələrə, xüsusən azərbaycanlılar yaşayan küçələrə "Rədd olsun türklər", "2 milyon ermənini türklər məhv etmişlər", "Türklər qaniçəndirlər" və s. vərəqələr yapışdırırdılar. Zəngibasar qəsəbə məktəbinin divarlarına vurulmuş vərəqələrdən bir neçəsini qoparıb seyfə qoymuşdum. Məktəbin direktoru İbrahim Xəlilov, mən isə məktəb partiya təşkilatının katibi idim. ...Həmin gün məktəbi azərbaycanlı valideynlər dövrəyə almışdılar. Bazar günü olmasına baxmayaraq, bütün müəllimlər də məktəbdə idi. Qəsəbə sovetinin sədri Gevorkyan, rayon partiya komitəsinin təlimatçısı Stepanyan məktəbə gəldilər ki, mənim saxladığım vərəqələri götürsünlər. Uzun mübahisə oldu, vərəqələri vermədik. Bir neçəsini sərhəd hərbçilərinin komandanlığına çatdırdıq. Onlar söz verdilər ki, ermənilərin bu hədə-qorxusunu Zaqafqaziya hərbi dairəsinə və Moskvaya çatdıracaqlar".**

Təbii ki, nə o vaxt, nə də sonralar azərbaycanlıların harayına hay verən olmadı.

Erməni şovinizminin bu cür baş alıb getməsinin nəticəsi idi ki, artıq 1969-cu ildə **Masis** adı ilə yenidən bərpa olunan Zəngibasar rayonunun rəhbərliyi səviyyəsində azərbaycanlılar o dərəcədə sıxışdırılmışdılar ki, onlara yalnız RİK sədrinin müavini (sonralar RPK-nin 3-cü katibi) və maarif şöbəsinin bir nəfər müfəttişi ilə təmsil olunmaq imkanı verilmişdi.

1969-1970-ci illərdə Zəngibasar RİK-nin sədr müavini olan çobankərəli **Abbas Mustafayev** 1970-1978-ci illərdə RPK-nin katibi işləmiş, sonuncu tarixdə onu **Kamal Məmmədov** əvəz etmişdi.



KAMAL İBRAHİM OĞLU MƏMMƏDOV bir müddət RPK-nin təlimatçısı, 1973-1978-ci illərdə Haçaparaqda, sonra Həbilkənddə sovxoz direktoru vəzifələrində çalışmış, 1978-1983-cü illərdə isə Zəngibasar RPK-nin katibi işləmişdi.

Sonuncu tarixdə onu **Gülarə Hüseynova** əvəz etmiş və 1988-ci ilə qədər həmin vəzifədə çalışmışdı.

1970-1980-ci illərdə Zəngibasar rayonundan azərbaycanlıların sıxışdırılıb-çıxarılması davam etdirilirdi. Hətta azğınlaşmış ermənilər cəzasız qalacaqlarını bildiklərindən ayrı-ayrı müsəlmanlara qarşı terror təşkil etməkdən də çəkinmirdilər. Məsələn, 70-80-ci illərdə Dəmirçidən Nəcəf Qurbanovun iş yerinin yaxınlığındakı elektrik dirəyindən asılmasının, Qaraqışlaqdan **Fəxrəddin Muxtarovun,** Haçaparaqdan **Bəylər Babayevin,** Mehmandardan **Zennavdinin** ermənilər tərəfindən öldürülməsinin üstü açılmadı.

Zəngibasar rayonunda milli zəmində növbəti münaqişə **1983-cü il aprelin 24-də** rayon mərkəzi olan Uluxanlı qəsəbəsində baş verdi. Qəsəbə sakini **Tağı Kərim oğlu Qafarovun** toy məclisi erməni millətçilərinin hücumuna məruz qaldı və toy dağıdıldı. Bəhanə isə o idi ki, niyə müsəlmanlar ermənilərin "matəm günü"

(yalançı "soyqırımı") olan 24 apreldə toy edirlər. Toy məclisinin dağıdılması ilə ürəyi soyumayan ermənilər gecə azərbaycanlıların qəbiristanlığına hücum edib, bir çox müsəlman qəbirlərinin baş və sinə daşlarını sındırdılar. Bu, erməni vandalizminin növbəti təzahürü idi və qəsəbə camaatı buna etiraz edərək bir həftə nümayiş keçirdilər, rayon rəhbərliyindən günahkarların cəzalandırılmasını tələb etdilər. Lakin kim cazalandırmalı idi və kimi cəzalandırmalı idi? Ermənilərin həmin gün törətdikləri bütün vəhşiliklərə yuxarıların dəstəyi ilə rayon milis rəisinin müavini A.İsgəndəryan rəhbərlik etmişdi.

Əlacsız qalan camaat Türkiyə sərhədinə üz tutdu və adamlara çıxıb Türkiyəyə getmək üçün imkan verilməsini tələb etdi. Bu, əslində məsələyə Moskvanın və dünyanın diqqətini cəlb etmək məqsədi daşıyırdı. Belə də oldu. Ermənistanın II katibi Anisimov sərhədə gəlib, camaatı geri qayıtmaq üçün dilə tutsa da, onlar razı olmadı və Moskvadan nümayəndə tələb etdi. Həmin gecə saat 2-də Moskvadan İrəvana nümayəndə gəldi. Səhərisi rayon rəhbərliyi ilə görüşən qonaqlar sərhədə gedib adamlarla da görüşdülər. Lakin tezliklə hərbçilər işə qarışdılar və məsələ yatırıldı. Bu hadisədən sonra Zəngibasar rayonundan Azərbaycana köçənlərin sayı daha da artdı. Əslində, bu, məcburi köçmə idi. 1983-ci ilin aprel hadisələrinin iştirakçısı olan adamlar daim rayonun erməni hüquq-mühafizə və təhlükəsizlik orqanlarının təqib və təhdidləri altında yaşamaqdan təngə gəlmişdilər.

1988-ci il hadisələri zamanı da ən çox təhdid və təzyiqlərə məruz qalan bölgələrdən biri Zəngibasar rayonu oldu. 1988-ci il fevralın 19-da İrəvanda "Ermənistan türklərdən təmizlənməlidir", "Qarabağ Ermənistana birləşdirilməlidir" şüarları ilə "Teatr meydanı"na yığılan erməni millətçiləri .Qərbi Azərbaycan türkləri və bütöv Azərbaycan üçün sözün həqiqi mənasında qanlı bir tamaşa hazırlamaqda idilər. Xüsusilə İrəvanın beş addımlığında yerləşən, təxminən 20 min nəfər azərbaycanlı əhalisi olan Zəngibasar rayonu ermənilərin diqqət mərkəzində idi. Elə ona görə də Zəngibasarı türklərdən təmizləmək şüarı da axır vaxtlar "Teatr meydanı"ndan tez-tez eşidilirdi. Lakin Zəngibasarın igid əhalisi heç bir halda rayonu tərk etmək fikrində deyildi. Vəziyyət getdikcə ağırlaşır, adamlara kənddən çıxmağa, bazar-dükana get-

məyə imkan verilmir, tonlarla məhsul həyətlərdə qalıb zay olur, adamlar döyülür, təhqir edilirdilər. Artıq Vedibasardan, Zəngəzurdan qanlı hadisələr barədə xəbərlər gəlirdi.

Daşnakların kiçik dəstələrlə kəndlərə etdiyi hücumlar hər dəqiqə kütləvi terrora çevrilə bilərdi. Ona görə də camaat arvad-uşağı, qoca və xəstələri kənddən çıxarır, daha etibarlı bölgələrə – Naxçıvana, Qazağa və s. aparıb qoyur, kişilər isə qayıdıb kəndi müdafiə edirdilər. Lakin ermənilər çox vaxt buna da mane olur, əllərinə keçən dinc əhaliyə aman vermədən divan tuturdular. Belə bir hadisə 1988-ci ilin martında **Mehmandar** kəndinin sakinləri **Heydərəli** və **Eldar Cəfərov** qardaşlarının başına gəldi. Belə ki, ailələrini erməni təcavüzündən xilas etmək məqsədilə Naxçıvan istiqamətində maşınla yola çıxan Heydərəli, qardaşı Eldar və Heydərəlinin iki azyaşlı qızı iri yük maşını ilə xeyli təqib edildikdən sonra qəzaya salınaraq qəddarcasına qətlə yetirildilər. Mərhumların cənazələrini Zəngibasara qaytarmağın mümkünsüzlüyünü görən qohumları onları Şərur rayonunun Xanlıqlar kəndində torpağa tapşırdılar.

Zəngibasar rayonunda azərbaycanlı kəndlərinə ilk kütləvi hücum isə 1988-ci il iyunun 17-də baş verdi. Hadisə belə oldu. 1988-ci il iyunun 15-də Ermənistan SSR Ali Sovetinin növbədənkənar sessiyası Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi (əslində dinc yolla işğalı – Ə.Ə.) təklifi ilə Azərbaycan SSR Ali Sovetinə müraciət etdi. İki gündən sonra Azərbaycan tərəfindən rədd cavabı alan (başqa cür ola da bilməzdi!) erməni millətçiləri dərhal öz yırtıcı simalarını göstərib, "Ermənistan"dakı azərbaycanlı kəndlərinə hücuma başladılar. İyunun 17-də axşam saat 6-7 radələrində Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsinin azərbaycanlı əhalisi – təxminən 500 ev erməni hücumu ilə üz-üzə dayandı. İrəvandan mütəşəkkil halda gələn erməni saqqallıları rayon hüquq-mühafizə orqanlarının müşayiəti və kəndin erməni gənclərinin bələdçiliyi ilə azərbaycanlı evlərini hədəfə götürdülər. Azərbaycanlıların şiddətli müqavimətinə baxmayaraq, həmin gün neçə-neçə azərbaycanlı evi yandırıldı, 20-dən çox azərbaycanlı yaralandı və kəndin 3.000 nəfərə yaxın azərbaycanlı əhalisi qovulub kənddən çıxarıldı. Camaat Türkiyə sərhədində yerləşdiyi üçün nisbətən təhlükəsiz olan

Rəncbər kəndinə sığınmağa məcbur oldu.

Rayon mərkəzi azərbaycanlılardan "təmizləndikdən" sonra növbə rayonun digər müsəlman kəndlərinə çatdı. Səhərisi gün Zəngilər və Aşağı Necili kəndlərinə basqın edildi. Zəngilər kəndində güclü müqavimətlə rastlaşan ermənilər on uşaq atası **Südeyif Kərimovun** evinə od vurub yandırdılar. Sabahısı gün RİK sədri Q.Gevorkyan rayon qəzetində bildirdi ki, Zəngilər kəndinin müsəlmanları yoldan keçən ermənilərə atəş açıblar.

Azərbaycanlılarla ermənilərin qarışıq yaşadığı Aşağı Necili kəndinə isə həmin gün gecə saat 12-də hücum olundu. Gündüzdən kəndin girəcəyinə tökülən çay daşları gecə kəndə hücum edən 500 nəfər erməni saqqallısı tərəfindən azərbaycanlı evlərinin üstünə yağdırıldı. Erməni quldurları **Seyid Məmmədin, Xalid Məmmədovun** evlərini talan etdilər, **Sərvət Əliyevin** evinə od vurub yandırdılar, Xalid Məmmədovun şəxsi avtomobilini əzik-əzik etdilər, maşının təzə təkərlərini isə çıxarıb elə oradaca əməliyyata başçılıq edən rayon DİŞ rəisinin müavini İsgəndəryana bağışladılar. Bununla belə, kəndin azərbaycanlı əhalisinin güclü müqaviməti qarşısında duruş gətirə bilməyən ermənilər üç saatlıq atışmadan sonra kəndi tərk etməyə məcbur oldular.

Hadisənin sabahısı günü törədilmiş aksiyaların səbəbini araşdırmaq, azərbaycanlıların real vəziyyətini öyrənmək üçün o vaxtkı Azərbaycan SSR Aqrar-Sənaye Komitəsinin sədri Musa Məmmədovun başçılıq etdiyi Azərbaycan nümayəndə heəti Zəngibasara gəlib çıxdı. O vaxt "Ermənistan SSR" Aqrar-Sənaye Komitəsinin sədri (sonralar Ermənistan KP-nin birinci katibi) Movsesyanın müşayiət etdiyi bu nümayəndə heyəti, təəssüf ki, azərbaycanlı əhalinin ümidlərini doğrultmadı, sərhədə sığınmış ümidsiz, yaralı insanlarla görüşmək əvəzinə ermənilərlə stəkanstəkana vurdular, vəziyyəti ermənilərdən öyrənib geri döndülər.

Azərbaycanın o vaxtkı rəhbərliyinin "Ermənistan" azərbaycanlılarının taleyinə bu ögey münasibətindən istifadə edən ermənilərin daha da azğınlaşması nəticəsində azərbaycanlıların həyat və dolanışığı get-gedə dözülməz olurdu. Onlara mağazalardan heç nə, hətta çörək, siqaret belə satılmaması barədə rayon rəhbərliyi tərəfindən yerlərə tapşırıqlar verilmişdi. Ona görə də Arazqırağı xalis azərbaycanlı kəndləri duruş gətirib, hələlik da-

yansa da, rayonun ermənilərlə qarışıq kəndlərinin azərbaycanlı əhalisi yavaş-yavaş kəndi tərk edirdi, daha doğrusu, buna məcbur edilirdilər.

Kəndlərdən qovulub çıxarılanların əksəriyyəti Arazqırağı Rəncbər kəndinə sığınırdı. Adamların qarşılanıb yerləşdirilməsində, zəruri ehtiyaclarla təmin edilməsində o vaxt Rəncbər sovxozunun direktoru **Qurban Əzizovun** və Rəncbərə və digər sərhədyanı kəndlərə sığınmış əhalinin təhlükəsizliyinin təmin edilməsində Sovet ordusu sərhəd qoşunlarının podpolkovniki, azərbaycanlı **Şirinovun** misilsiz xidmətləri olmuşdur. Adamlar onların bu xidmətlərini bu gün də minnətdarlıqla xatırlayırlar.

Zəngibasar rayonunda ermənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər 1988-ci ilin noyabrında özünün zirvə nöqtəsinə çatdı. Xüsusilə Rəncbər, Həbilkənd, Sarvanlar, Seyidkənd kəndləri, Türkiyə sərhədində yerləşdiyindən ermənilər bura girə bilmirdilər. Kəndlərin camaatı da çıxmaq istəmirdi. Bununla belə, noyabrın 26-da bədnam "Qarabağ" erməni-daşnak komitəsinin nümayəndələri həmin azərbaycanlı kəndlərini bir-bir gəzib üç gün müddətində rayonu tərk etmələrini onlardan tələb etdilər. Sarvanlar kənd sovetinin sədri **Vaqif Hüseynov** erməni saqqallılarının bu özbaşınalığı barədə RPK-nin birinci katibi Harutunyana və RİK sədri Gevorkyana məlumat verəndə ona məsləhət görmüşdülər ki, gedin Qarabağ komitəsinin əmrinə əməl edin.

Doğrudan da, üç gün sonra eyni gündə, eyni saatda erməni quldurları ilə dolu avtobuslar, maşınlar kəndlərə daxil oldu. Arazqırağı azərbaycanlı kəndlərinə girməyə çətinlik çəkən ermənilər "saqqallı"ları vertolyotlarla kəndlərin arxasına tökdülər. Əvvəlcə bütün evlər talandı, adamların var-yoxu əllərindən alındı, sonra isə Sarvanlar, Haçaparaq, Qaraqışlaq, Dəmirçi, Zəngilər, Yuxarı Necili və s. kəndlərin azərbaycanlı əhalisini hərbi maşınlarla daşıyıb Naxçıvana tökdülər.

Beləliklə, noyabr ayının son günlərində sonuncu azərbaycanlılar da Zəngibasar mahalını tərk etməyə məcbur edildilər.

Son hadisələr zamanı Zəngibasar rayonundan Müşviq Tağı oğlu Tağıyev, Məhərrəm Adoş oğlu Quliyev, Sabir Qurbanəli oğlu Mehdiyev, Abbas Mürsəl oğlu Əliyev və b. ermənilər tərə-

findən işgəncələrlə qətlə yetirildilər. Ümumiyyətlə isə, 1988-ci ildə təkcə Zəngibasar rayonundan 21 nəfər azərbaycanlı erməni vəhşiliyinin qurbanı oldu.

Yuxarı Necilidən Sabir Mehdiyevin qətli bu və ya digər şəkildə bir çox azərbaycanlıların başına gəldiyi və erməni vəhşiliyinin iç üzünü açan faktlardan olduğu üçün həmin hadisə ilə bağlı aşağı necilili jurnalist **Bəxtiyar Səttaroğlunun** qeydlərini nöqtə-vergülünə toxunmadan oxuculara təqdim edirik: **"28 noyabr 1988-ci ildə Zəngibasar rayonunun Nizami kənd sakini Mehdiyev Sabir 60-72 ADN nömrəli "Jiquli 2106" şəxsi maşınında 24 yaşlı oğlu İsgəndərlə kəndi tərk etməyə məcbur olurlar. Onlarla birlikdə Bakı sakini Manasyan Artaş da olur. Evlərini onunla dəyişdirmək istəyirdilər. Təxminən səhər saat 10 radələrində Sevana çatanda görürlər ki, erməni saqqallıları yük maşınları ilə yolu kəsiblər. Yanlarında da dövlət avtomobil müfəttişliyinin işçiləri. Keçməyə yer olmadığı üçün İsgəndər maşını saxlamağa məcbur olur. Dayanan kimi 15-20 nəfər yaxınlaşıb sənəd tələb edirlər. Maşından 3.800 manat pul, 5 min məbləğində istiqraz vərəqəsi, 14 min manatlıq əmanət kassasının kitabçasını götürürlər. Sonra da maşına benzin səpib od vururlar. Dəmir-daş parçaları ilə ata-oğulu o qədər döyürlər ki, hər ikisi huşunu itirir. Nəhayət, onları ölmüş bilib əl çəkirlər. İsgəndər o günləri indi belə xatırlayır:**

– Gözlərimi açanda gördüm ki, xəstəxanadayam. Atam da yanımda uzanmışdı. Yan-yörəmizdə xeyli adam var idi. Bizə baxıb gülürdülər. Ayağa qalxmaq istəyəndə adamlardan biri butulka ilə qəfildən başıma vurub, "Sumqayıtın hayıfını alıram", – dedi. Şüşə başıma dəyib dağıldı. Hiss etdim ki, gözlərimə yod doldu. Şəfqət bacıları da onlara qoşuldular. Hər ikimizi yenidən möhkəmcə döydülər. Səhərəcən davasız-dərmansız çarpayının altında qaldıq. Tezdən yanımıza iki nəfər milis işçisi gəldi. Biri kağıza nəsə yazandan sonra dedi:

– Bura qol çəkməlisən ki, maşını özünüz aşırıbsınız.

Mən etiraz elədim. O biri cibindən düyməli biçağı çıxarıb açaraq qulağıma tərəf uzatdı.

– Əgər qol çəkməsən, əvvəlcə qulağını, sonra da burnunu kəsəcəyəm, – deyərək qulağımdan tutdu. Üzümdən isti qan axanda hiss elədim ki, qulağımı kəsdi. Məcbur olub qol çəkdim.

Onlar gedəndən sonra əsgərlər gəlib bizi İrəvana hərbi qospitala apardılar. Atamla 6 gün orada yatdıq. Rəhmətlik aldığı ya-

ralara dözə bilmədi. Altıncı gün canını tapşırdı. Atamın cənazəsini əsgərlərlə Naxçıvana, oradan da Bakıya gətirdik" ("Vətən səsi" qəzeti, 28 noyabr 1990-cı il).

Budur özünü dünyaya əzabkeş millət kimi sırıyan hay-erməni faşizminin əsl iç üzü!

ƏHALİSİ

Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları ərazisində qədimdən Türk-Oğuz tayfaları yaşamışlar. Er. əv. XII yüzildə bu yerlərin **Qarqar** ölkəsi tərkibinə daxil olması, er. əv. VIII yüzilin əvvəllərində (**konkret olaraq er. əv. 782-ci ildə** – Ə.Ə.) Urartu çarı **I Argintinin** (**I Ərquz** – Ə.Ə.) burada 6.600 arman-türk döyüşçüsü yerləşdirməsi, er. əv. 715-ci ildə bu yerlərdə **qamərlərin** məskunlaşması, er. əv. VII yüzilin əvvəllərində qamərlərin saklarla əvəzlənməsi sübut edir ki, er. əv. II minillikdən üzü bəri bu ərazilər **Qarqar, Subar, Qamər, Sak** və s. türk tayfalarının oylağı olmuşdur. M.Xaranlinin təqdim etdiyi armanların nəsil şəcərəsi də (**Nuh-Yafət-Qamər-Tur-Turqam-Aşkanas**) türk tayfalarının bir-birini əvəzləməsi ardıcıllığını dəqiq əks etdirir. Sakların Cənubi qafqazda yaratdığı **Sak//Skif//Aşkenas// İşquz//İç Oğuz** çarlığı məhz **Aşkanasdan,** yəni **Aşkan//askan// Azkandan** başlayır. **Azərbaycan//Az-ər-boy-kan** adının ilkin variantı da məhz **Azkandır**. Birincisi **Azər boyunun yurdu,** ikincisi **Azların yurdu** anlamında eyni məna kəsb edir.

Sonrakı yüzillərdə və minillərdə də bu yerlər müxtəlif Türk-Oğuz tayfalarının Anayurdu olmuşdur. Həmin tayfalar barədə "Qərbi Azərbaycan" oncildliyinin 1-ci cildində geniş söz açmışıq.

O ki qaldı bölgəyə hayların ilk kütləvi gəlişi məsələsinə, bu barədə ilk məlumata 1519-cu ildə Çuxur-Səd bəylərbəyi Rəvanqulu xanın Şah İsmayıla ünvanladığı məktubda rast gəlirik. Həmin məktubda bölgəyə gəlmiş cəmi 15 min hay-ermənidən və onların İrəvan çuxurundakı türk torpaqlarında murdar əməllərindən bəhs olunur. Məktubun mətnini bu cildin əvvəlində vermişik.

Nəhayət, Qərbi Azərbaycan ərazisi Rusiya imperiyası tərəfindən işğal olunduqdan sonra orada ilk siyahıyaalma 1829-1832-ci illərdə İ.Şopen tərəfindən aparılmışdır. Onun siyahıyaalmasına

görə, 1831-ci ildə "Erməni vilayəti"ndə (İrəvan və Naxçıvan xanlıqları ərazisində) cəmi 31.201 ailədə 164.450 nəfər (86.786 kişi, 77.664 qadın) əhali yaşamışdır.

İ.Şopen "Erməni vilayəti"ndəki əhalini "**yerli**" və "**gəlmə**" deyə iki qrupa ayırmışdır. O, öncə "**yerli**" ermənilərdən söz açır, onların Asuriyadan köçürülüb gətirilmə olduqlarını yazır və saylarını aşağıdakı kimi qeydə alır:

İrəvan əyalətində: 3.498 ailədə 20.073 nəfər (10.450 kişi, 9.623 qadın).

Naxçıvan əyalətində: 530 ailədə 2.690 nəfər (1.404 kişi, 1.286 qadın).

Ordubad dairəsində: 400 ailədə 2.388 nəfər (1.240 kişi, 1.184 qadın).

CƏMİ: 4.428 ailədə 25.151 nəfər (13.058 kişi, 12.093 qadın).

Bundan sonra İ.Şopen "İrəvan vilayəti"ndəki **müsəlmanların** statistikasını aparır:

İrəvan əyalətində: 9.196 ailədə 49.875 nəfər (26.625 kişi, 23.250 qadın).

Naxçıvan əyalətində: 3.863 ailədə 17.138 nəfər (9.033 kişi, 8.105 qadın).

Ordubad dairəsində: 1.675 ailədə 7.247 nəfər (3.751 kişi, 3.946 qadın).

Köçəri tayfalar: 1.344 ailədə 7.489 nəfər (3.885 kişi, 3.604 qadın)

CƏMİ: 16.078 ailədə 81.749 nəfər (43.294 kişi, 38.455 qadın).

Göründüyü kimi, "Erməni vilayəti" ərazisində türk-müsəlman əhalinin sayı "yerli" ermənilərin sayından üç dəfədən də artıqdır. Həm də bu siyahıyaalma o vaxt (1829-1832) aparılmışdır ki, bölgənin 25 illik müharibədən sonra ruslar tərəfindən işğalı nəticəsində müsəlman kəndlərinin çoxu dağıdılmış, ruslara qarşı apardıqları çoxillik inadlı mübarizəyə görə cəzalandırılacaqlarını bilən müsəlman əhalinin böyük əksəriyyəti doğma yurdlarını tərk edib Türkiyəyə, İrana pənah aparmışdılar.

50-60 il sonra ruslar özləri də etiraf edirdilər ki, **"1828-ci ildə İrəvan xanlığının Rusiyaya birləşdirilməsinə qədər indiki İrəvan qəzasında tatarlar (*azərbaycanlılar* – Ə.Ə.), ermənilər və kürdlər ya-**

şamışlar, həm də tatarlar bu ərazidə keçmişdə olduğu kimi, indi də böyük üstünlük təşkil etməkdədirlər. 30-cu illərin sonları 40-cı illərin əvvəllərində tatarlar İrana və Türkiyəyə köçməyə başladılar, onların boşalmış kəndləri isə həmin ölkələrdən olan ermənilərlə məskunlaşdırıldı. Tez-tez yerli hakimiyyət orqanları köçkün erməni və aysoruları tatarların yaşamaqda olduğu kəndlərdə də yerləşdirir və bəzən də bu məqsəd üçün yerli tatar əhalini özgə ərazilərə köçürürdülər". (Bax: "Qafqaz diyarının dövlət kəndlilərinin iqtisadi vəziyyətinə dair materiallar" kitabı (rusca), III cild, səh.5).

İ.Şopenin siyahıyaalmasının bir tarixi əhəmiyyəti də ondadır ki, burada Rusiya imperiyasının işğal etdiyi bu qədim türk diyarında – Qərbi Azərbaycan ərazisində İrana və Türkiyəyə qarşı erməni-xristian bufer dövləti yaratmaq məqsədilə həmin İran və Türkiyədən 1828-1830-cu illərdə köçürülüb-gətirilmiş və boşaldılmış müsəlman evlərində yerləşdirilmiş **gəlmə ermənilərin** də dəqiq sayı verilmişdir. Onların sayı İ.Şopendə aşağıdakı kimidir:

İrandan köçürülüb gətirilənlər
(1828-1829-cu illərdə)

İrəvan əyalətində: 4.559 ailədə 23.568 nəfər (12.498 kişi, 11.070 qadın).

Naxçıvan əyalətində: 2.137 ailədə 10.652 nəfər (5.641 kişi, 5.011 qadın).

Ordubad dairəsində: 250 ailədə 1.340 nəfər (698 kişi, 642 qadın).

CƏMİ: 6.949 ailədə 35.560 nəfər (18.837 kişi, 16.723 qadın).

Türkiyədən köçürülüb gətirilənlər
(1830-cu ildə)

İrəvan əyalətində: 3.674 ailədə 21.639 nəfər (11.400 kişi, 10.239 qadın).

Naxçıvan əyalətində: 8 ailədə 27 nəfər (17 kişi, 10 qadın).

CƏMİ: 3.682 ailədə 21.666 nəfər (11.417 kişi, 10.249 qadın).

Beləliklə, "Erməni vilayəti" ərazisinə qısa vaxtda köçürülüb gətirilmiş ermənilərin sayı 10.631 ailədə 57.226 nəfər (30.254 kişi, 26.972 qadın) təşkil etmişdir. "Yerli" ermənilərlə (25.151 nəfər) gəlmə ermənilərin (57.226 nəfər) sayını müqayisə edəndə

bölgədə Rusiya imperiyasının ermənileşdirmə siyasəti bütün eybəcərliyi ilə özünü göstərir. Təkrar xatırladırıq ki, bu, cəmi iki-üç ilin statistikasıdır. Sonrakı illərdə və onillərdə ermənilərin bu ərazilərə köçürülməsi siyasəti daha intensiv şəkildə davam etdirilmişdir.

Eyni mənzərəni İ.Şopendə Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları üzrə də müşahidə etmək mümkündür.

Zəngibasar mahalında 910 ailədə 5.413 nəfər (2.979 kişi, 2.434 qadın) türk-müsəlman əhali və cəmi 133 ailədə 603 nəfər (305 kişi, 298 qadın) erməni siyahıya alındığı halda, bura az vaxtda 442 ailədə 2.360 nəfər (1.251 kişi, 1.109 qadın) İran ermənisi köçürülüb gətirilmiş, beləliklə, 603 nəfər ermənin sayı birdən-birə 2.963 nəfərə, mahal əhalisinin ümumi sayı isə 1.043 ailədə 6.016 nəfərdən 1.485 ailədə 8.376 nəfərə (4.535 kişi, 3.841 qadın) çatdırılmışdır.

Gərnibasar mahalında 753 ailədə 4.176 nəfər (2.231 kişi, 1.945 qadın) türk-müsəlman əhali və cəmi 34 təsərrüfatda 145 nəfər (70 kişi, 75 qadın) erməni yaşadığı halda, bura 1828-1830-cu illərdə 1.211 ailədə 5.359 nəfər (2.842 kişi, 2.517 qadın) İran ermənisi köçürülüb gətirilmişdir. Beləliklə, cəmi 145 nəfər ermənin sayı az vaxtda 5.504 nəfərə çatdırılmış, əhalinin say nisbəti ermənilərin xeyrinə dəyişdirilmişdir. Mahalın ümumi əhalisinin sayı isə birdən-birə 787 ailədə 4.321 nəfərdən 1.998 ailədə 9.680 nəfərə (5.143 kişi, 4.537 qadın) çatdırılmışdır.

Qırxbulaq mahalının yerli – müsəlman əhalisinin əksəriyyəti doğma yurddan qovulub çıxarıldığından İ.Şopenin siyahıyaalmasında burada cəmi 81 ailədə 383 nəfər (205 kişi, 178 qadın) müsəlman qeydə alınmış, "yerli" ermənilərin sayı isə 262 təsərrüfatda 1.396 nəfər (743 kişi, 653 qadın) təşkil etmişdir. Bura 1828-1830-cu illərdə 216 ailədə 1.043 nəfər (561 kişi, 482 qadın) İran, 38 ailədə 231 nəfər (123 kişi, 108 qadın) Türkiyə ermənisi köçürülüb gətirilmiş, beləliklə, mahal əhalisinin ümumi sayı artaraq 343 ailədə 1.779 nəfərdən 597 ailədə 3.053 nəfərə (1.632 kişi, 1.421 qadın) çatdırılmışdır.

Bundan əlavə, İ.Şopen "Erməni vilayəti" ərazisində yaşayan tayfalar haqqında ətraflı məlumat verməyə çalışmış, bu yerlərin sakinləri olan aşağıdakı türk tayfalarının adlarını da qeydə al-

mışdır: **Bayatlar, Qacarlar, Qazaxlar, Ayrımlı, Şahdililər, Qaraqoyunlu, Kəngərli** və s.

İ.Şopen, çox düzgün olaraq **Qazaxlar** tayfasının qədim **Kasoqlar** olduğunu və Xəzərlərlə soyca eyniyyət təşkil etdiyini yazır. Onun fikrincə, bu tayfanın bir hissəsi indiki Qazax rayonu ərazisində XI yüzildə məskunlaşmış və bura onların adı ilə Qazax mahalı adlandırılmışdır. İ.Şopen **Qazaxlar** tayfasının aşağıdakı tirələrini və onların XIX yüzilin əvvəllərindəki say tərkibini də qeydə almışdır:

Qarapapaqlar – 840 ailədə 4.619 nəfər (2.662 kişi, 1.957 qadın).

Böyük Çobankərə – 159 ailədə 988 nəfər (540 kişi, 448 qadın).

Saraşlı – 90 ailədə 541 nəfər (289 kişi, 252 qadın).

Dəmirçili – 31ailədə 228 nəfər (122 kişi, 106 qadın).

Kərimbəyli – 55 ailədə 357 nəfər (199 kişi, 158 qadın).

Qafarlı – 98 ailədə 652 nəfər (333 kişi, 319 qadın).

Şeyxlər – 34 ailədə 232 nəfər (116 kişi, 116 qadın).

Qarabağlı – 12 ailədə 68 nəfər (36 kişi, 32 qadın).

Cəfərli – 16 ailədə 82 nəfər (43 kişi, 39 qadın).

Əli-Şərurlu – 12 ailədə 75 nəfər (43 kişi, 32 qadın).

Gödəkli – 24 ailədə 158 nəfər (81 kişi, 77 qadın).

Cam-milli – 10 ailədə 65 nəfər (37 kişi, 28 qadın).

Çaxırlı – 57 ailədə 308 nəfər (168 kişi, 139 qadın).

Kərkibaşlı – 13 ailədə 72 nəfər (36 kişi, 36 qadın).

CƏMİ: 1.451 ailədə 8.445 nəfər (4.706 kişi, 3.739 qadın).

Cəfərli tirəsinin özü də **Qafarlı, Gödəkli** tirəsi isə **Kərimbəyli** icmasından çıxmışdır.

Ayrımlı tayfası aşağıdakı tirələrdən ibarət olmuşdur: **Şahsevənlər, Ayrımlı, Seyidli-Axsaxlı, Daşanlı, Saatlı**. Həmin tirələrdən 1.226 ailədə 6.807 nəfər, (3.633 kişi, 3.174 qadın) İrəvan xanlığı ərazisində qeydə alınmışdır.

Çingiz xanın da mənsub olduğu qədim moğolların törəməsi hesab edilən **Muğanlı tayfası** İrəvan xanlığı ərazisində 200 ailə olmuşlar.

İ.Şopen qədim **Kanqlı** və ya **Peçeneq** kimi təqdim etdiyi

Kəngərli tayfası nümayəndələrinin mavi gözlü, sarışın saçlı olduqlarını və bunun onların şimaldan gəlmələrinə dəlalət etdiyini bildirir. O, bu tayfanın aşağıdakı tirələrini qeydə alır: **Yurçu, Qızıllı, Sarbanlar, Xalxallı, Pirhəsənli, Salahlar, Ağabəyli, Göman, Qarabəylər, Cağatay, Qaraxan, Hacılar, Cəmşidli, Billici, Qızılqışlaq, Qurdlar, Qaradolaqlar, Şabanlı, Kəlfir, Ərəbsəkli, Qaracalı, Qarahasarlı, Pənahlı, Əlixanlı, Sofulu, Bəydili, Ələpkərli, Didavarlı, Bolqarlı, Kürd Mahmudlu, Əliyanlı, Ziyadlı** və **Bərgüşadlı**.

İ.Şopenin İrəvan xanlığı ərazisində qeydə aldığı bu tayfa və tirələr üzərində ona görə ətraflı dayandıq ki, göründüyü kimi, həmin tayfa və tirələrin adları ilə Zəngibasar, Gərnibasar və Qırxbulaq mahallarında bir sıra kəndlər mövcuddur.

İ.Şopen İrəvan xanlığı ərazisində xeyli **kürd** və az sayda qaraçı da qeydə almışdır. O, **kürdləri** şiə, sünni və yezidi deyə üç qrupa ayırmış, onların köçəri tayfalar olduğunu yazmış və saylarını aşağıdakı kimi göstərmişdir:

Şiə kürdlər: 1.346 ailədə 6.435 nəfər (3.394 kişi, 3.041 qadın).

Sünni kürdlər: 810 ailədə 3.978 nəfər (2.030 kişi, 1.948 qadın).

Yezidi kürdlər: 67 ailədə 324 nəfər (180 kişi, 144 qadın).

CƏMİ: 2.123 ailədə 10.737 nəfər (5.604 kişi, 5.133 qadın).

Qaraçılar isə cəmi 107 ailədə 518 nəfər (216 kişi, 257 qadın) olmuşlar. İ.Şopen Hindistan mənşəli hesab etdiyi qaraçıların xristianlarının 50 ailədə 212 nəfər, sünnü müsəlmanlarının 14 ailədə 89 nəfər, şiə müsəlmanlarının 43 ailədə 217 nəfər olduqlarını qeyd etmişdir.

İ.Şopenin apardığı siyahıyaalmada **əhalinin sosial tərkibi** də maraq doğurur. Bu siyahıyaalmada **Zəngibasar** mahalında bəy və sultanlar 8 ailədə 69 nəfər (35 kişi, 34 qadın) təşkil etmiş, mahalda bir nəfər belə erməni məlik və ağası qeydə alınmamışdır. Mahalda 209 nəfərdən (108 kişi, 101 qadın) ibarət 28 axund və molla ailəsi və 4 nəfərdən (2 kişi, 2 qadın) ibarət 1 mirzə ailəsi qarşılığında cəmi 52 nəfərdən (24 kişi, 28 qadın) ibarət 9 erməni keşiş ailəsi mövcud olmuşdur.

Gərnibasar mahalında 62 nəfərdən (30 kişi, 32 qadın) ibarət 9 bəy və sultan ailəsi və 8 nəfərdən (4 kişi, 4 qadın) ibarət cəmi 1 erməni məlik və ya ağa ailəsi yaşamışdır. Mahalda 94 nəfərdən (49 kişi, 45 qadın) ibarət 12 axund və molla ailəsi, 19 nəfərdən (11 kişi, 8 qadın) ibarət 2 mirzə ailəsi, 37 nəfərdən (20 kişi, 17 qadın) ibarət 6 seyid ailəsi və 13 nəfərdən (6 kişi, 7 qadın) ibarət 1 dərviş ailəsi qarşılığında cəmi 60 nəfərdən (29 kişi, 31 qadın) ibarət 11 erməni keşiş ailəsi qeydə alınmışdır.

Qırxbulaq mahalında isə 7 nəfərdən (3 kişi, 4 qadın) ibarət 1 bəy və sultan ailəsi, 21 nəfərdən (11 kişi, 10 qadın) ibarət 3 erməni məlik və ağa ailəsi siyahıya alınmışdır. Qırxbulaq mahalı isə Zəngibasar və Gərnibasar mahallarına nisbətən daha sürətlə ermənileşdirildiyindən və türksüzləşdirildiyindən burada erməni ruhaniləri müsəlman din xadimlərindən çoxluq təşkil etmişlər: 64 nəfərdən (30 kişi, 34 qadın) ibarət 10 erməni keşiş ailəsi və 6 nəfərdən (3 kişi, 3 qadın) ibarət 1 müsəlman axund və ya molla ailəsi.

İrəvan çuxurunda və Qırxbulaq mahalı ərazisində azərlər, kürdlər, ermənilər və qaraçılardan başqa, aysorular və ruslar da yaşamışlar. Aysoruların ümumiyyətlə İrəvan xanlığı ərazisində məskunlaşması barədə "Qərbi Azərbaycan" oncildliyinin 1-ci cildində Vedibasar mahalının Gölaysor kəndindən danışarkən bəhs etmişik. Qısaca xatırladırıq ki, 1826-1828-ci illər Rusiya-İran müharibəsi zamanı ruslara bələdçilik edənlərdən biri də aysoru millətindən Allahverdi Tumayev olmuş, Rusiya ilə İran arasında Türkmənçay bağlaşması qüvvəyə mindikdən sonra A.Tumayev çar hökumətinə müraciət edib, İrandakı ermənilərlə yanaşı, aysoruların da Rusiya işğalı altına keçmiş Cənubi Qafqaz torpaqlarına köçməsinə icazə istəmişdir. Bu icazə verilmiş və 1830-cu illərdə A.Tumayevin başçılığı ilə İranın Urmiya mahalının Süpürgən, Muyşəva, Yengicə, Goracaluy, Nazı və Guytafa kəndlərindən 100-dən çox aysoru ailəsi Naxçıvan qəzasına, 3 il sonra oradan Şuşa qəzasının Tərtər kəndinə, bir müddət sonra – təxminən XIX yüzilin 40-cı illərində isə oradan da İrəvan qəzasına köçmüşlər. Burada onlar 4 kənddə – Vedi rayonu ərazisindəki Gölaysor, Qəmərli rayonunun Aşağı Quylasar, Aysoru Dvini və Qırxbulaq mahalının Ərzni kəndlərində məskunlaşmışlar.

Əvvəllər nestorian (nəsrani) məzhəbinə qulluq edən aysorular, sonralar pravoslavlığı qəbul etmiş, Sovet dövründə isə özləri ermənileşdirilmiş, dinləri isə qriqorianlaşdırılmışdır.

Ruslar isə İrəvan qəzası ərazisinə ilk dəfə 1870-ci ildə Yelizavetpol (**Gəncə** – Ə.Ə.) quberniyasının Qazax qəzasının Mixaylovka kəndindən köçüb gəlmişlər. Mixaylovkadan gələn 20 rus ailəsi Qırxbulaq mahalında Novonikolayevka kəndini salmışlar.

Sonrakı siyahıyaalınmalar zamanı Zəngibasar, Gərnibasar və Qırxbulaq mahallarının əhalisi ayrıca qeydə alınmadığı üçün bu mahallardakı əhalinin etnik tərkibinin həmin mahalların tərkibinə daxil olduğu İrəvan qəzasının demoqrafiyasında izləməyi kafi hesab edirik. Beləliklə:

– 1873-cü ildə İrəvan qəzasında (İrəvan şəhəri istisna olmaqla) cəmi 84.174 nəfər əhali siyahıya alınmışdır. O cümlədən: 172 nəfər rus, 29.784 nəfər erməni, 6.802 nəfər kürd və 46.426 nəfər Azərbaycan türkü yaşamışdır.

– 1886-cı ildə İrəvan qəzasında cəmi 14.004 təsərrüfatda 98.876 nəfər əhali yaşamışdır. O cümlədən, 12 ailədə 60 nəfər malokan rusu, 5.216 ailədə 36.426 nəfər erməni, 7.383 ailədə 52.880 nəfər azər türkü, 262 ailədə 1.420 nəfər aysoru, 1.131 ailədə 8.090 nəfər kürd.

1905-1906 və 1917-1920-ci illərdə erməni terrorçu Daşnaksütun partiyasının silahlı dəstələri tərəfindən Qərbi Azərbaycan ərazisində türk-müsəlman əhalinin dəhşətli soyqırımına məruz qalması, dinc camaatın qəddarlıqla qətlə yetirilməsi, sağ qalanların dədə-baba yurdundan qovulub çıxarılması, onların boşaldılmış evlərinə isə Türkiyə və İrandan köçürülüb gətirilmişh çoxlu sayda ermənilərin yerləşdirilməsi nəticəsində demoqrafik vəziyyət azərbaycanlıların ziyanına, ermənilərin isə xeyrinə kökündən dəyişmişdir.

Bunu həmin ərazilərdə aparılan 1897 və 1922-ci illər siyahıyaalmasının müqayisəsində də görmək olar. Beləliklə:

– Zəngibasar və Gərnibasar mahallarında: 1897-ci ildə 20.761 nəfər azərbaycanlı, 2.023 nəfər erməni; 1922-ci ildə 7.329 nəfər azərbaycanlı (təxminən 3 dəfə az), 22.479 nəfər erməni (təxminən 11 dəfə çox).

– Qırxbulaq mahalında: 1897-ci ildə 9.784 nəfər azərbaycanlı,

11.198 nəfər erməni; 1926-cı ildə 545 nəfər azərbaycanlı (təxminən 20 dəfə az), 24.313 nəfər erməni (təxminən 2,5 dəfə çox).

Zəngibasar və Gərnibasarda sonralar əhalinin nisbəti belə dəyişmişdir: 1926-cı ildə 8.818 nəfər azərbaycanlı, 28.980 nəfər erməni; 1931-ci ildə 8.843 nəfər azərbaycanlı, 33.243 nəfər erməni.

Qırxbulaqda isə 1931-ci ildə cəmi 918 nəfər azərbaycanlı, 28.851 nəfər erməni qeydə alınmışdır.

Lakin Böyük Vətən müharibəsindən dərhal sonra – 1945-1946-cı illərdə xarici dövlətlərdən çoxlu ermənilərin "Ermənistan" ərazisinə köçürülüb gətirilməsinə nail olan ermənilər tezliklə 1948-1953-cü illər deportasiyasına, yəni Qərbi Azərbaycan ərazisindəki azərbaycanlıların doğma yurdlarından zorla çıxarılmasına da nail olurlar. Həmin vaxt Gərnibasar və Qırxbulaq mahalları bütünlüklə, Zəngibasar mahalı isə qismən deportasiyaya məruz qalır.

Zəngibasar, Qəmərli və Ellər rayonları ərazisində bütün təhdid və təzyiqlərə dözərək yaşamaqda davam edən azərbaycanlı əhali, nəhayət, 1988-ci ildə növbəti soyqırımına məruz qalaraq dədə-baba yurdundan qovulub çıxarılır və Qərbi Azərbaycan ərazisinin 200 il əvvəldən başlanan erməniləşdirilməsi gəlmə ermənilərin xeyrinə tamamilə başa çatır.

İQTİSADİYYATI, TƏSƏRRÜFAT VƏ MƏİŞƏT HƏYATI

Zəngibasar, Gərnibasar və Qırxbulaq mahallarının relyef və iqlim müxtəlifliyi onların iqtisadiyyatında, təsərrüfat və məişət həyatında da özünü göstərir.

Bütünlüklə düzənlik ərazidə yerləşən Zəngibasar mahalında **taxılçılıq, bostançılıq, tərəvəzçilik, bağçılıq** və **maldarlıq** geniş yayılmışdı. Mahalın ərazisində qrunt suları yer səthinə çox yaxın olduğundan İrəvan xanlığının Saatlı, Karbibasar mahalları ilə yanaşı, Zəngibasar mahalında və Gərnibasar mahalının düzənlik hissəsində də keçmişdə **çəltikçilik** xeyli inkişaf etmişdi. Zəngibasarın "Sədr" düyüsü öz ətrinə və dadına görə bütün bölgədə məşhur idi.

İ.Şopen İrəvan xanlığı ərazisində ən keyfiyyətli darı məhsu-

lunun Zəngibasar mahalının Necili kəndində becərildiyini xüsusi qeyd etmişdir.

Taxıl Zəngibasar mahalında və Gərnibasar mahalının düzənlik hissəsində suvarılan torpaqlarda, Gərnibasar mahalının dağlıq hissəsində və Qırxbulaq mahalında isə dəmyə torpaqlarda becərilirdi.

Bölgədə taxılçılığın və çəltikçiliyin geniş inkişafı nəticəsi idi ki, hələ XIX yüzilin birinci qərinəsində Rusiya-İran müharibəsindən yenicə çıxmış bu ərazidə çoxlu dəyirman və dinglər qeydə alınmışdır. Belə ki, 1829-1832-ci illərdə:

– Zəngibasar mahalı ərazisində 55 dəyirman, 93 ding;

– Gərnibasar mahalında 69 dəyirman, 69 ding;

– Qırxbulaq mahalında 75 dəyirman, 90 ding qeydə alınmışdır.

Gərnibasar, Qırxbulaq, xüsusilə Zəngibasar mahallarında **bostançılığın** və **tərəvəzçiliyin** bütün növləri geniş yayıldığından və bunların bir qismi üzərində bu kitabın Vedibasar mahalına həsr olunmuş 1-ci cildində ətraflı dayandığımızından təfərrüata varmadan ancaq bölgə üçün xüsusi özəlliyə malik məqamlara diqqət çəkməklə kifayətlənirik.

Uluxanlı torpaqlarında yetişən **"Uluxanlı şalağı"** yemiş növünün əvəzi yox idi. Hər birinin çəkisi 8-9 kq-a qədər olan bu yemiş növünün ətri hər tərəfi bürüyər, çox şirin olmadığı üçün susuzluğu yaxşı yatızdırardı.

Uluxanlı yemişi vaxtilə Uluxanlıda dərs demiş Cəlil Məmmədquluzadənin də diqqətini cəlb etmişdi. "Molla Nəsrəddin" jurnalının 29 iyul 1907-ci il tarixli 28-ci sayında bölgə xəbərlərində o yazırdı: "Dünən axşam İrəvandan idarəmizə belə bir teleqraf göndəriblər: "Ayın 25-də bazara Uluxanlı yemişinin nübarı gəldi, xiyarın məzənnəsi tənəzzül elədi".

Son zamanlar Rəhimabad və Mehmandar kəndlərinin təsərrüfatında tərəvəz bitkilərindən **kök** xüsusi yer tuturdu və ətraf kəndlərdən fərqli olaraq bu kəndlərdə kökə **zərdə** deyirdilər.

Zəngibasar mahalında və Gərnibasar mahalının aran hissəsində keçmişdə **pambıqçılığa** da xüsusi yer verilmiş, hətta 1930-1940-cı illərdə bu sahəyə diqqət daha da artırılmışdı. Deyilənə görə, kolunda yüzdən çox qozası olan Misir pambıq növünün İrəvan çuxurunda böyük perspektivləri olduğunu pambıqçı alim-mütəxəssislər dəfələrlə yazıb sübut etmişdilər. Lakin 1948-

1953-cü illərdə azərbaycanlılar deportasiya olunub, boşalmış kəndlərə xaricdən gəlmə ermənilər yerləşdirildikdən sonra İrəvan çuxurunun əkin sistemində də köklü dəyişikliklər edildi. Pambıqçılığın əziyyətli sahə olduğunu nəzərə alan erməni hökuməti Moskva ilə razılığa gəlib, onu əkin planından çıxardı, bağçılıq və tərəvəzçiliklə əvəz etdi. "Ermənistan"ın əkin planından çıxarılan pambıq isə bir qədər də artıqlaması ilə Azərbaycanın belinə yükləndi.

Hər üç mahalda **bağçılığa** (**üzümçülüyə** və **meyvəçiliyə**) xüsusi əhəmiyyət verilmişdir. Hətta keçmişdə Qırxbulaq mahalında meyvə bağları İrəvan-Kənəkir-Dzak arası bütün ərazini əhatə etmişdir. İ.Şopen XIX yüzilin əvvəllərində burada 259 bağ qeydə almış, bu bağların 172 xalvar ərazini əhatə etdiyini, onlardan ildə 390 xalvar üzüm məhsulu, 150 xalvar meyvə götürüldüyünü göstərmişdir.

Təkcə Zəngibasar mahalında 38 xalvar ərazini əhatə edən 199 bağ olmuş, onlardan ildə 80 xalvar üzüm, 115 xalvar meyvə toplanmışdır. Gərnibasar mahalında bağların sayı 54, tutduğu torpaq sahəsi 26 xalvar olmuş, bu bağlardan ildə 1 xalvar üzüm, 68 xalvar 50 batman meyvə yığılmışdır.

İ.Şopen İrəvan xanlığı Rusiya tərəfindən işğal olunduqdan sonra dövlətin xeyrinə müsadirə olunmuş bağların siyahısını da vermişdir ki, onların da bəziləri Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları ərazisində yerləşirdi. Məsələn:

Təzəkənd kəndindəki bağlar:

– **Dilgüşə** və ya **Tallar** – 46.440 kv. sajen ərazini əhatə etmiş, bağda 650 meyvə ağacı, 8.050 qeyri-məhsuldar ağac, 380 üzüm tənəyi olmuşdur.

– **Bağça** – 384 kv. sajen ərazi, 36 meyvə ağacı, 13 qeyri-məhsuldar ağac, 200 üzüm tənəyi.

– **Güllü** – 16.560 kv. sajen ərazi, 34 meyvə ağacı, 200 üzüm tənəyi.

– **Qırbağ** – 14.070 kv. sajen ərazi, 15 meyvə ağacı, 280 üzüm tənəyi

– **Daşbaşı** – 2.808 kv. sajen ərazi, 6 meyvə ağacı, 90 üzüm tənəyi.

– **Vəzir bağı** – 24.200 kv. sajen ərazi, 39 meyvə ağacı, 780

üzüm bağı.

– **Topçubaşı bağı** – 19.625 kv. sajen ərazi, 86 meyvə ağacı, 690 üzüm tənəyi

– **Qayabaşı** – 8.670 kv. sajen ərazi, 6 meyvə ağacı, 184 üzüm tənəyi

– **Böyük xan bağı** – 15.680 kv. sajen ərazi, 74 meyvə ağacı, 14 qeyri-məhsuldar ağac, 200 üzüm tənəyi.

– **Qoşa bağlar** – 28.800 kv. sajen ərazi, 363 meyvə ağacı, 200 qeyri-məhsuldar ağac, 560 üzüm tənəyi.

– **Cəfərxan bağı** – 9.920 kv. sajen ərazi, 99 meyvə ağacı, 65 qeyri-məhsuldar ağac, 500 üzüm tənəyi.

– **Xudadat xan bağı** – 5.400 kv. sajen ərazi, 149 meyvə ağacı, 100 qeyri-məhsuldar ağac, 192 üzüm tənəyi.

– **Əli xan bağı** – 9.292 kv. sajen ərazi, 78 meyvə ağacı, 15 qeyri-məhsuldar ağac, 270 üzüm tənəyi.

– **Subboğan Qulu xan** – 9.100 sajen ərazi, 132 meyvə ağacı, 14 qeyri-məhsuldar ağac, 300 üzüm tənəyi.

– **Təzəbağ** – 11.449 kv. sajen ərazi, 252 meyvə ağacı, 70 qeyri-məhsuldar ağac, 592 üzüm tənəyi.

Çölməkçi kəndindəki bağ:

– **Məhəmməd xan bağı** – 3.024 kv. sajen ərazi, 7 meyvə ağacı, 20 qeyri-məhsuldar ağac.

Doqquz kəndindədəki bağ:

– **Doqquz bağı** – 1.805 kv. sajen ərazi, 302 meyvə ağacı, 857 üzüm tənəyi.

Zəngibasar, Gərnibasar və Qırxbulaq mahallarında yetişən üzüm və meyvə növlərinin bir çoxu, onların xüsusiyyətləri və s. barədə də bu kitabın 1-ci cildində ətraflı bəhs etmişik.

Zəngibasar mahalının nemətləri içərisində daha bir meyvəni – heyva ağacına peyvənd olunmuş armud növünü də xüsusi qeyd etmək istərdik. Bu armudlar iri olur, heyva dadı verir, payızda yağılıb samana quylanırdı. Novruz bayramında çıxarılıb süfrəyə, xonçaya qoyulanda ətri hər tərəfi bürüyərdi.

Bağçılıq, taxılçılıq, bostançılıq, tərəvəzçilik, pambıqçılıq və s. ilə yanaşı, Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları ərazisində keçmişdə **ipəkçiliyə, meşəçiliyə** və s. də xüsusi yer verilmişdir. Bu mahallarda geniş otlaqlar olduğundan **heyvandarlığın**

müxtəlif sahələri də geniş inkişaf etmişdir. Məsələn, İ.Şopen yazır ki, Zəngibasar mahalında Zəngi çayı kənarında Sarvanlar kəndindən Qarasuya və Araza qədər geniş otlaq sahəsi uzanır ki, təkcə buradan 150 bağ ot biçmək olar. Bundan başqa, kəndlərdən 250 xalvara qədər təbii ot, 30 xalvara qədər əkilmiş yonca tədarük etmək mümkündür.

Gərnibasar mahalında **otlaqlar** və **biçənəklər** əsasən mahalın dağlıq hissəsində və Gərni, Araz və Qarasu çaylarının sahillərində yerləşirdi. Bundan əlavə, kəndlərdən 54 xalvar yonca da tədarük edilirdi. Ərdəşər və Toxanşalı kəndləri kənarında isə dövlətin yoncalıqları da uzanıb gedirdi.

Qırxbulaq mahalının dağlıq hissəsində də çoxlu təbii otlaqlar və biçənəklər vardı. Üstəlik, kəndlərdən 32 xalvar ot, 15 xalvar yonca tədarük edilirdi.

İ.Şopenin məlumatlarında **Zəngibasar mahalında** cəmi 6.430 iribuynuzlu, 2.369 xırdabuynuzlu mal-qara, 732 at, 46 dəvə siyahıya alınmışdır ki, bundan 4.792 iribuynuzlu, 2.256 xırdabuynuzlu mal-qara, 570 at və 46 dəvə yalnız müsəlmanlara məxsus olmuşdur.

Gərnibasar mahalında 10.273 iribuynuzlu, 12.152 xırdabuynuzlu mal-qara, 1.278 at, 12 dəvə siyahıya alınmışdır. Bundan 5.736 iribuynuzlu, 10.390 xırdabuynuzlu mal-qara, 909 at, 12 dəvə müsəlmanlara məxsus olmuşdur.

Qırxbulaq mahalında isə 2.764 iribuynuzlu, 3.134 xırdabuynuzlu mal-qara, 317 at, 7 dəvə qeydə alınmışdır. Bundan 627 iribuynuzlu, 2.156 xırdabuynuzlu mal-qara, 145 at və 7 dəvə müsəlmanlara məxsus olmuşdur.

Göründüyü kimi, XIX yüzilin 28-30 illərində Qırxbulaq mahalına nisbətən Zəngibasar və Gərnibasar mahallarının iqtisadiyyatında ermənilərin çəkisi minimum olmuşdur.

Zəngibasar mahalının Çobankərə, Rəhimabad və Mehmandar kəndlərində camaat əkinçiliklə və maldarlığın başqa növləri ilə yanaşı, həm də **dəvəçiliklə** məşğul olurdu. Kənddə dəvələr əsasən kəndin varlılarına məxsus olurdu. Bəzən bir adamın 10-15 qatar (hər qatarda 7 dəvə) dəvəsi olur, dəvəçilər illərlə kənd üzü görməyən bu dəvələrlə tacirlərə yük daşıyırdılar. Hər qatarı 3 nəfər idarə edirdi. Qatarın başçısı **qatarbaşı,** karvanın başçısı **karvanbaşı** adlanırdı. Dəvələrin gətirdiyi qazanc onun Çoban-

kərədəki sahibinə çatdırılırdı.

Burada dəvələr bir ürkəncli olurdu. Zəngibasar mahalında Çobankərə, Rəhimabad və Mehmandar kəndlərindən başqa heç bir kənddə dəvə kəsib, ətini yemirdilər. "Kitabi-Dədə Qorqud"da "dəvədən buğra kəsmək" kimi yazıya alınmış bu qədim türk-oğuz adəti mahalın yuxarıdakı hər üç kəndində qorunub saxlanmışdı.

Zəngibasar, Gərnibasar və Qırxbulaq mahallarının əraziləri **mineral ehtiyatları** ilə də zəngin olmuşdur.

Hələ XIX yüzilin 28-30-cu illərində İ.Şopen Zəngibasar mahalı ərazisində Uluxanlı kəndi yaxınlığında böyük **mərmər** yatağının olduğunu qeyd etmişdir. Ağhəmzəli kəndi ilə Təzəkənd kəndi arasında yerləşən bu ərazidə 1938-1939-cu illərdə böyük ağ mərmər yatağı istifadəyə verilmişdir.

Gərnibasar mahalında Şeyxzadəli kəndinin sakinləri – 474 nəfər yalnız **sabun** bişirməklə, onu aparıb kəndlərdə satmaqla məşğul olmuşlar. Kəndin sabun istehsalı o qədər genişlənmişdir ki, İrəvan şəhəri tacirlərinin mənafeyini qorumaq üçün hətta o vaxt bu kəndin sabununu şəhərdə satmaq üçün dövlət tərəfindən müəyyən məhdudiyyətlər də qoyulmuşdu. İ.Şopenin fikrincə, kəndin camaatı bu fəaliyyətlərinə görə **Sabunçu** adı almış, bu adla tanınmağa başlanmışdılar.

İrəvan çuxurunda **boyaqçılıq** sənəti də geniş yayılmış, XIX yüzildə Zəngibasar mahalının Uluxanlı kəndində, Gərnibasar mahalının isə İmanşalı, Çigdamlı, Yuva və Ərdəşər kəndlərində boyakarlıq sexləri fəaliyyət göstərmişdir.

ADƏT-ƏNƏNƏ VƏ MƏİŞƏT HƏYATI

Vedibasar mahalında olduğu kimi, Zəngibasar və Gərnibasar mahallarının da aran kəndlərinin əhalisi yayda yaylağa qalxardılar. Bu yayalaqlar əsasən İrəvan və Yeni Bayazid qəzalarının **Ağdağ, Əyricə, Arxaşan, Qızılziyarət, Oyuxlu, Üçtəpə, Ağmanqan** dağlarının ətəklərində, yamaclarında yerləşirdi.

1590-cı ildə tərtib olunmuş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə İrəvan nahiyəsinin yaylaqları sırasında **Ağmanqan, Üçtəpə, Qızılziyarət, Kiçik Ağmanqan, Ələyəz** yaylaqlarının adı

çəkilmişdir ki, bu yaylaqlarda hələ o vaxtlar da Zəngibasar və Gərnibasar mahallarının aran kəndləri yaylayırmışlar.

Çobankərə, Mehmandar və Rəhimabad kəndlərinin dəvəçiləri qonşu kəndlərin yaylağa köçməsinə kömək edərdilər. Dəvəçilər, məsələn, **Qızılziyarət** yaylağına iki günə gedirdilər. Gecəyarı yola düşən köç dan ulduzu doğanda İrəvan şəhərinin cənub hissəsində Zəngi çayının üstündəki qədim **Əlixan körpüsündən** keçir, yoxuşla irəliləyir, İrəvan qala divarının baş darvazasına çatır, gün çıxanda Göy məscidin qarşısında dayanırdı. Karvanbaşı burada salavat çevirir, dua oxuyur və karvan yoluna davam edirdi. Toxmağın gölünün kənarında köç düşür, ocaqlar çatılır, adamlar, dəvələr yeyir, dincəlir, qoyun-quzu otlayır, gün batanda karvan təzədən yola çıxırdı.

Yaylaqda hər kəndin öz yurd yeri, obası vardı. Çadırlar elə yerdə qurular və dörd tərəfinə kiçik arx qazılardı ki, leysan yağış yağanda ziyan verməsin.

Son zamanlar kəndlərdə həyətyanı sahələrdə bağ-bostan qayğıları çoxaldığından yaylağa qalxanlar daha çox kolxozun ferması ilə bağlı ailələr olardı. Onlar öz şəxsi mal-heyvanlarını da yaylağa qaldırardılar. Yaylaqda sağılan südlər sərilər, üzü götürülər, altı qatıq çalınıb tuluğa doldurulardı. Tuluq dolandan sonra nehrə asmaq üçün çatma çatılar, nehrə çalınıb, südün yağı ilə ayranı bir-birindən aralanardı. Alınan kərə yağı dərilərə və ya ayrıca qablara yığılar, yaylaqdan qayıdandan sonra aranda əridilib, sarı yağa çevrilərdi. Nehrədən götürülən ayran isə süzülər, qatılaşar və **qurud** qoyulardı. Qurud torbalara doldurular, qışda isti suda əzilib ayrana çevrilər, müxtəlif xörəklərə tökülər və ya ayrıca xörəklər bişirilərdi. Kimin inəyi az süd versə, qonşu arvadlar ona süd borc verib, tuluğunu doldurar, işini irəli salardılar. Bu, həm də ona görə edilərdi ki, inəyi az süd verənin südü tuluqda çox qalıb, yağı və ayranı acı dadmasın.

Yaylaqda uşaqlar daha çox əylənər, **yemlik, qazayağı, gəlinbarmağı, dəvədabanı, quşəppəyi, qazanqulpu, yarpız, acıtərə, quzuqulağı, baldırğan** və s. yığar, rəngbərəng gül-çiçək toplayardılar.

Yaylaqda uşaqların ən sevimli məşğuliyyətlərindən biri də **göbələk** yığmaq idi. Ovuc içi boyda göbələklər yığılar, onların

ortasına duz tökülər, közün üstünə qoyulardı. Az sonra bu duz su salar, duzlu su qaynayar, göbələyin canına hopar, bişəndən sonra yeməkdən doymaq olmazdı.

Avqustun axırlarında yaylaqdakı köçləri geri qaytarmaq üçün dəvələr yenidən yaylağa gələr, hamı köç tədarükünə başlardı. Yır-yığış edilər, **əyirdək, fətir, fəsəli** və s. bişirilərdi.

Arana qayıtdıqdan sonra – payızın ilk aylarında hamı qış azuqəsi kimi **qovurmalıq** tədarük edər (qovurmalıq adətinin incəlikləri barədə bu kitabın 1-ci cildində ətraflı söz açmışıq) eyni vaxtda toylar qızışardı.

İrəvan mahalında **toy mərasimlərinin** də bir sıra özəllikləri vardı ki, bunların bəzisi haqqında da Vedibasar mahalından danışarkən bəhs etmişik. Bununla belə, xatırladırıq ki, İrəvan mahalında toyun bünövrəsi bəzən beşikdə qoyulurdu. Başqa sözlə **göbəkkəsdi** adəti geniş yayılmışdı. Yəni qız uşağı dünyaya gələndə onun göbəyini kiməsə kəsirdilər. Qız böyüyəndə ad olunduğu, başqa sözlə, göbəkkəsdisi (və ya **göbəkkəsməsi**) olan oğlana ərə getməli idi. Şübhəsiz ki, bu məsələdə hökm yox idi. Uşaq vaxtından bir-birinə göbəkkəsdi olanlar heç də həmişə bu adətə əməl etmirdilər. Xüsusilə Sovet dövründə bu məsələdə həddbuluğa çatmış oğlanla qızın fikirləri əsas idi.

Xatırladırıq ki, bu milli adət "Kitabi-Dədə Qorqud" dastanlarında da qabarıq şəkildə özünə yer almışdır.

Göbəkkəsdidən başqa, **deyikli** adəti də geniş yayılmışdı. Bu, uşaq vaxtından qızı kiməsə ad eləmək adəti idi. Ona görə də göbəkkəsməsi və ya deyiklisi olan qızlara elçi getməyi heç kəs ağlına belə gətirməzdi. Bu, kiminsə nişanlısına elçi düşmək kimi bir iş idi və təbii ki, ciddi düşmənçiliyə səbəb olardı. Yalnız bu göbəkkəsdi və ya deyikli məsələsinin baş tutmadığı (qızın getmədiyi, oğlanın almadığı, valideynlərin razı olmadığı və s.) təqdirdə başqaları qıza elçi gedərdilər.

İrəvan çuxurundakı bütün toylar kimi, Zəngibasar, Gərnibasar və Qırxbulaq mahallarında da keçmişdə toylar qara zurna, ney və nağara ilə keçirilərdi.

Zəngibasar mahalında **toy mərasimi**, adətən cüt günləri, bəzən də cümə günləri başlayar və üç gün davam edərdi. Mahalın müxtəlif kəndlərində bu mərasim, onun ayrı-ayrı mərhələləri

qismən fərqli şəkildə olsa da, bir-birinə oxşar idi. Məsələn, Uluxanlıda toyun birinci günü xına gecəsi olurdu. Gündüzdən mal kəsilirdi. Oğlan evində bir qədər toy çalınandan sonra kənddə həmin toydan qabaq sonuncu təzə gəlinin qapısına gedir, orada çalıb-oynayır, həmin gəlini toya dəvət edirdilər. Axşam oğlan evindən qız evinə xına xonçası aparılır, burada xınayaxdı mərasimi icra olunur, çalınır, oynanır, sonra həmin xınadan götürüb, oğlan evinə qayıdır, xınayaxdı mərasimini burada da davam etdirir, gecə saat 11-12-yə qədər çalıb-oynayır, yeyib-içirdilər. Sonra başlayırdı bəy tərifi. Bu da çəkirdi gecə saat 2-yə kimi.

Vedibasar mahalında olduğu kimi, bu mahallarda da mağarda kişilər bir tərəfdə, qadınlar digər tərəfdə otturardılar. Mağarı toybaşı idarə edərdi. O, meydanı genişləndirmək üçün əlindəki çubuğu adamların ayaqları ucundan yerə çəkər, hamını geri çəkilib meydanı genişləndirməyə vadar edərdi. Toybaşı gəlinləri, qızları, qonaqları növbə ilə oynadardı.

Yallı bu toyların sevimli oyunu idi. Yallının başını əlində dəsmal və ya çubuq tutan şəxs – **yallıbaşı** çəkərdi. O, əlindəki yaylığı yuxarı qaldırıb dabanını yerə əvvəl ehmalca vurar və qara zurnanın səsası altında yavaş-yavaş sürətini artırar, sonra vəcdə gəlib, ritmə uyğun hərəkətlərlə dəstəni çəkib öz arxasınca aparardı. Yallı geri dönəndə sonuncu şəxs yallıbaşını əvəz etmiş olurdu.

Yallıdan başqa, toylarda **haxışta, mirzəyi, ləzgiyi, şalaxo, tərəkəmə, süleymani, qazı-qazı** və b. havalar da tez-tez oynanardı. **Köçəri** rəqsi də Yallının bir növü idi. Gəncliyi bu oyunların içində keçmiş professor S.Şükürov toylardakı **Köçəri** və **Bətulla** rəqslərini təsvir edərək yazır ki, Köçəri oynayanlar iki kiçik addımdan sonra atdıqları üçüncü addımda dizlərini azacıq qatlayar, çökərmişlər. Buna görə də bu rəqsə əvvəllər **Çökəri** demiş, **ç** və **k** hərflərinin yerdəyişməsi nəticəsində sonralar o, Köçəri şəklinə düşmüşdür. Köçəridən sonra Bətulla rəqsinə keçilərmiş. Bətullada qol-qola tutar, hər addımdan bir dizlərini bükər və irəliyə doğru tullanardılar. Bətulla sürət və çeviklik tələb etdiyindən onu cavanlar oynayardılar. Ehtimal etmək olar ki, Bətulla ilkin variantında **"Bərktullan"** (yerli dialektdə **bərk** sözü **bərt** kimi tələffüz olunur) şəklində olmuşdur.

Üçayaq rəqsində isə üç addımdan sonra sağ və sol ayağın əvvəl ucunu, sonra dabanını yerə toxundurur, yenidən irəliyə doğru üç ağır addım atırdılar.

Toyçular, yəni toyu aparan müsiqiçilər, adətən, şabaşa gələrdilər. Şabaş nə yığılsa, onların olar, razı qalardılar. Keçmişdə tez-tez toya aşıqlar da dəvət olunardı.

İkinci gün səhər tezdən **xaş** süfrəsi açılır, bura xeyli adam yığılır, yeyib-içirdilər. Xaşdan durandan sonra musiqiçilər bir-iki saat dincəlir, sonra **muğam** saatına başlayırdılar. Muğam saatı gəlin gətirməyə gedənə qədər davam edərdi.

Gəlini başı örtülü, piyada (keçmişdə atla) gətirərdilər. Əvvəllər gəlin həyətə daxil olanda bəy başının dəstəsi ilə onu qarşılayar, gəlinin başına meyvə, adətən alma atardı. Gəlinin başını incitməsin deyə alma əvvəldən dilimlənmiş olar, dəyən kimi paralanıb dağılardı. Deyilənə görə, bu paralanmanın birin çox olmaq, oğullu-uşaqlı olmaq kimi rəmzi mənası da varmış. Bununla belə, gəlinin başına sini də tutardılar ki, atılan alma dəyəndə incitməsin. Son vaxtlar meyvə əvəzinə gəlinin başına şirniyyat, qəpik pul atardılar. Həyətə daxil olan gəlinin ayağının altında mütləq qurban kəsilərdi. Gəlin aparıldığı evdə oturmazdı. Ta ki qaynata və ya qaynata əvəzi şəxs gəlib ona hədiyyə (inək, düyə, at, qoyun və ya qızıl əşya) boyun olmasaydı. Sonralar da gəlin ər evində uzun illər böyük qayınla, qaynata və bəzən də qaynana ilə danışmağı özünə ar bilərdi. Onlar gəlinin səsini eşitməzdilər. Gəlin yaşmaqla gəzərdi.

Gəlini gətirəndən sonra toyun əsas məclisi başlayardı. Bu məclisdə ancaq kişilər oturardı, qadınlar-uşaqlar olmazdı. Məclisdə içənlərlə içməyənlər də ayrı-ayrı əyləşərdilər. Saat 9-10-da məclis qurtarandan sonra meydan açılar, arvad-uşaq yığılar, toy yenidən qızışardı. Yenə də gecə saat 1-2-yə qədər çalıb-oynayardılar.

Səhərisi gün **duvaq** məclisi olardı, ora da ancaq qadınlar yığılardı. Duvaqdan sonra toy bitmiş hesab olunardı.

Toy evinə ərki çatan qohum-dost cavanlar toydan sonra da bir həftə gedib-gələr, buna zarafatla **"qazandibi"** deyər, olub-qalandan yeyib-içərdilər.

Zəngibasarın bəzi kəndlərində isə toyun birinci günü çal-çağır

məclisi axşam saat 5-dən gecə yarısına qədər çəkər, kəndin sonuncu gəlininin çalğı ilə toya dəvət edilməsi, qız evindən toy xonçasının gətirilməsi, bu xonçanın tərif edilməsi, parça biçimi, xınayaxdı mərasimi toyun ikinci günü həyata keçirilərdi. Üçüncü gün toy qız evinə köçər, gəlini axşam saat 5-6-da gətirərdilər. Bundan sonra oğlan evində yeyib-içmək məclisi başlayar, bu məclisin başa çatması ilə toy da qurtarardı.

Toydan fərqli olaraq, yas düşəndə yaxın-uzaq bütün kəndlərdən eşidib-bilən axışıb gələrdi. Mərhumun 3-nü 7-ni, 40-nı və ilini verərdilər. Kənddə, yaxud qohum-əqrəbada yas yeri olanda toy eləməz, mütləq mərhumun 40-nın çıxmasını gözləyər, sonra molla aparar, həmin evdə Quran oxudar, toy etmək üçün razılıq alıb, onları da toya dəvət edərdilər. Yas evinə bir qədər yaxın adamlar isə mütləq mərhumun ilinin çıxmasını gözləyərdilər.

Sünnət toylarında ən hörmətli adamlara iki rəngli çay verilərdi. Hamı da həsədlə baxardı ki, filankəsə iki rəngli çay verildi. Həmin adam da əda ilə çayı içib nəlbəkiyə 3-5 manat qoyardı.

İrəvan çuxurunda keçmişdə **kişi geyimləri**, adətən, **çuxadan, arxalıqdan, köynəkdən** və **şalvardan** ibarət olmuşdur. **Köynəyin** yaxası yuxarıdan sol qulağadək uzanıb düymələnirdi. **Arxalıq** isə açıq sinə ilə tikilir və kip düymələnirdi. Kişilər mütləq enli çit **qurşaq** bağlayırdılar. **Şalvar** çox gen olur, nazik bağla beli bağlanırdı. Ayaqlara **dəri çarıq** və ya **başmaq**, son zamanlar isə bəzən **uzunboğaz çəkmə** də geyirdilər. Kişilər başlarına, əsasən, qoyun dərisindən **papaq** qoyurdular.

Qadın geyimləri uzun **arxalıqdan**, uzun **çit köynəkdən**, bəzəkli **çit tumandan** ibarət olardı. Başda **yaylıq** və ağ, nazik, yumşaq çitdən **ləçək** olardı. Ayaqlarına bəzəkli corab və başmaq geyərdilər.

Qadınlar sinə və qollarında, bir sözlə, üst-başlarında zinət əşyaları gəzdirməyi xoşlayardılar. Qulplu gümüş pullar paltarlara tikilərdi, gümüş kəmərlə bellərini bağlayardılar.

Toylarda və bayramlarda qız-gəlinlər özlərinin ən təzə paltarlarını geyinər, bütün bəzəklərini taxardılar.

Bütün Qərbi Azərbaycanda, o cümlədən Vedibasar mahalında olduğu kimi, Zəngibasar, Gərnibasar və Qırxbulaq mahallarında da **Novruz** ilin ən sevimli, ən təntənəli bayramı olardı. Novruza

hazırlıq çillələrin qurtarmasından sonra başlardı. Həmin vaxtdan Novruza qədərki bir ay **boz ay** adlanardı. Kiçik çillənin son gecəsi cəmlə torpağa düşür – deyərdilər. Yəni yer nəfəs almağa başlayır. Bəzi kəndlərdə, məsələn, Zəngilərdə həmin gecəni **"Kürdoğlu qayada qalan gecə"** adlandırırdılar.

Bundan sonra cəmlə suya, oda və havaya düşərdi. Bu müddətdə, yəni bayrama qədər həyət-baca təmizlənər, ev-eşik səliqə-sahmana salınardı. Nəhayət, ilin son çərşənbə axşamı gəlib çatar, həmin gün adamlar **qəbirüstünə** çıxardı, yəni hamı köhnə-təzə bütün mərhumlarının məzarlarını ziyarət edərdi.

Ölülərin yad edilməsindən sonra ata-qardaş evindən qız-bacı evinə pay göndərilərdi. Axşam küçələrdə tonqallar yandırılar, adamlar **"Atıl-batıl çərşənbə, bəxtim açıl çərşənbə", "Ağırlığım-uğurluğum bu odun üstünə"** deyib tonqalların üstündən tullanardılar. Uşaqlar düzəltdikləri fişəngləri göyə atar, ürəyində niyyət tutanlar **qapıpusduya** çıxardılar. Bir sözlə, gecə yarısınadək kənd şənlik, atəşfəşanlıq içində olardı.

Keçmişdə il təhvil olan gün çaydan xırda balıq tutub gətirər, ləyənə salıb, ətrafına səməni, şam düzər, diqqətlə balıqların hərəkətini izləyərdilər. Balıq şiddətlə çapalayanda, yaxud sudan atılanda alqış qopardı ki, "il təhvil oldu". Hamı bir-birini təbrik edər, sonra da bütün kənddə bayramlaşma mərasimi başlardı. Hər kəs öz ağsaqqal və ağbirçəyini təbrik etməyi özünə borc bilərdi. Həmin gün küsülüləri barışdırardılar.

Bayram axşamı cavan oğlanlar dəsmal və ya papaqatdıya çıxardılar. Çox vaxt sevgilisi olan oğlanlar istədiyi qızın evinə dəsmal atardı. Dəsmala bayram yemişi bağlasaydılar, bu, ona işarə idi ki, qızı oğlana verməyə razıdırlar. Nişanlı oğlanlara qız evindən rəngli yumurtalar göndərərdilər ki, öz tay-tuşlarına paylasın.

Gənc oğlan və qız bir-birilə danışmamaq şərtilə çeşmədən və ya çaydan bir qab su gətirər, ləyənə tökərdilər. İynənin başına pambıq dolayıb ləyəndəki suya salardılar. Hər iynəyə bir ad qoyub (daha çox bir-birində gözü olan oğlanla qızın adlarını), hərəkətlərini izləyərdilər. İynələr toxunanda hamı sevinib əl çalardı ki, filan oğlan filan qızı alacaq və ya filan qız filan oğlana gedəcək.

İl təhvil olandan sonrakı dörd gün havanı müşahidə edər və bu

günlər ərzində havalar necə keçsəydi, təxmin edərdilər ki, qarşıdakı dörd fəsil də belə keçəcək. Keçmişdə bayram günləri şənliklərində **xoruz, yumurta, kəl döyüşdürmək,** nəhayət, **pəhləvanların güləşməsi** bir adət idi. Bayrama hələ bir ay qalmış pəhləvanlar üçün sıra qonaqlığı düzəldərdilər. Başqa sözlə, bayramqabağı onları yedirib-içirərdilər ki, qüvvə toplasınlar. Hətta kəndin qalib pəhləvanı başının dəstəsi ilə qonşu kəndlərə güləşməyə gedərdi. Qaliblərə nəmər verilərdi.

Yumurta boyamaq, yumurta döyüşdürmək Novruz bayramının əsas adətlərindən olduğundan bu barədə bir qədər ətraflı bəhs etmək istərdik.

Bayrama bir neçə gün qalmış hər evdə yumurta boyanardı. Yumurtanı adətən qırmızı soğan qabığı ilə boyayardılar. Yəni yumurtaların bişdiyi qazana bir qədər soğan qabığı tökülər, bişmiş yumurtaları qazandan çıxaranda artıq onlar qıpqırmızı olardı.

Yumurtanı çox vaxt tək-tək döyüşdürərdilər. Əvvəl tərəflər bir-birinin yumurtasını dadar, yəni sol əlinin içi ilə sol qulağını tutub, sağ əlindəki yumurtanı qabaq dişlərinə dönə-dönə taqqıldadıb, bərkliyini-boşluğunu yoxlardılar. Tərəflər razılaşanda yumurtanı dəyişdirə də bilərdilər. Tərəflərdən biri yumurtanı tərsinə tutar, o biri üstdən vurardı, sonra bu hərəkəti tərsinə təkrar edərdilər. Kimin yumurtasınnın başı da, künəsi də sınsaydı, uduzmuş olurdu və yumurtasını qarşı tərəfə verirdi.

Son dərəcə bərk yumurtalara uşaqlar **"Həştərxan yumurtası"** deyirdilər.

Yumurtaları qatarla da döyüşdürərdilər. Yəni 15-20 yumurtanı dişlərinə vurmadan yerə düzər, başqa sözlə, **qatar** qoyardılar. Yumurtaları döyüşdürmə prosesi başlardı, əvvəl biri tutar, o biri vurardı, sonra əksinə. Kimin yumurtası sınsaydı, onu başqası ilə əvəz edərdi. Axıra kimin salamat yumurtası qalsa idi, yumurtaların hamısı ona çatardı. Yumurtaların xərcini isə uduzan tərəf çəkərdi. Yumurtaları qatara qoymağa uşaqlar girişə bilməz, bunu, adətən, böyük uşaqlar, gənclər edərdilər.

Bayramlarda nişanlı qızların və təzə gəlinlərin görüşünə getmək xüsusi mərasim kimi icra olunar, oğlan tərəfin yaxın qohum qadın və qızları çoxlu hədiyyə, xonça və s. ilə qız və ya gəlin evinə gedərdilər.

Zəngibasar, Gərnibasar və Qırxbulaq mahallarının Novruz bayramlarının bir çox məqamları Vedibasar mahalının bayram adətləri ilə üst-üstə düşdüyündən və bu mərasimin bir sıra incəlikləri barədə bu oncildliyin 1-ci cildində bəhs etdiyimizdən bir daha təkrar etmək istəmirik.

Zəngibsar mahalının **MƏTBƏXİ** də, hər yerdə olduğu kimi, ilk növbədə ərazinin iqtisadi-təsərrüfat həyatının güzgüsü idi. Yəni torpaqda daha çox nə əkilib-becərilirdisə, süfrədə də həmin nemətlər üstünlük təşkil edirdi. Buna görə də tarixən çəltikçiliyin geniş yayıldığı bu bölgədə milli xörəklərimizdən olan **plov,** onun müxtəlif növləri üstünlük təşkil edirdi. Plovun növlərindən biri də **döşəmə plov** da adlanırdı. Döşəmə plov əvvəl düyünü bişirib süzür, sonra qazanın dibinə halqa-halqa doğranmış ət, soğan, heyva düzür, alı qurusu, limon duzu və s. də əlavə edir, üstünə düyü töküb dəmə qoyurdular. Təbii ki, düyünün də üstündə kişmiş olardı.

Zəngibasar mahalında ən müxtəlif göyərti növləri ilə yanaşı, **səbzi** (kəvər) də çox əkilirdi. Ona görə də səbzi ilə bişirilən xörək növləri də çoxluq təşkil edirdi. Məsələn, **səbzi-plov, səbzi-qovurma, səbzi-bozbaş, səbzi-küftə** və s.

Qış azuqəsi kimi **qurud** hazırlanardı. Qışda süd olmayanda qurudu ovub, **qurud aşı, qurud aşının yayması** və s. xörəklər bişirərdilər. **Cələcoş** xörək növündə də, noxudlu qovurmanın içinə qurud əzib atardılar.

Əcəb-sandal da Zəngibasarda məşhur xörək növü idi. Kartof, pomidor, bibər, badımcan qat-qat kəsilir, qazana düzülüb bişirilirdi. Altdan qat-qat ət düzüləndə isə, ona **əcəb-sandalın döşəməsi** deyirdilər. Vedibasar mahalında xörəyin bu növü **basdırma** adlanırdı.

Zəngibasarda son zamanlar paxlalılar fəsiləsindən zülalla zəngin olan **bamya** bitkisi çox əkilir və ondan xüsusi yeməklər hazırlanırdı.

Şilə aş və ya **qaşıq aşı** və ya **həlim aşı** da tez-tez bişirilərdi. Vedibasar mahalında bu xörək növünə **düyü aşı** da deyilərdi. Bundan başqa, **qatıq aşı, xəşil, quymaq, çəkmə, südlü çəkmə, bozbaş, dolma (kor dolma, basos dolma), küftə, çığırtma, xəngəl, ərişdə aşı, halva, dovğa, südaşı, südlü plov, ərdək,**

pişi-pişi, bağdamac da Zəngisabar mahalının və demək olar ki, bütün İrəvan çuxurunun sevimli yeməkləri idi.

Kababın bir neçə növü vardı: **basdırma kabab, sac kababı, xan kababı** və s.

Sac kababında ət sacın üstünə qoyular, sonra da üstünə pomidor, badımcan düzülüb bişirilərdi.

Xan kababının özgə ləzzəti vardı. Şişlərə ət, ciyər düzülər, sonra da üstündən malın, qoyunun təmizlənmiş bağırsağı keçirilər və beləcə odun üstündə bişirilərdi. Dadından doymaq olmazdı.

Şamı – balaca-balaca küftələrlə bişən yemək idi.

Ərdək, bağdamac, pişi-pişi balaca şirin çörəklər idi və ən çox yaylağa gedəndə, yaylaqdan gələndə bişirərdilər.

Qış azuqəsi kimi, **alana** və **sucuğun** əvəzi yox idi. Qapaq (üzbölünən) şaftalının qabığını soyur, içindən çərdəyini çıxarır, yerinə ət maşınında narın çəkilib, şəkər tozu ilə qarışdırılmış qoz ləpəsi qoyur, beləcə qurudurdular. Bu gözəl nemətə **alana** deyirdilər.

Sucuq isə doşabdan bişirilirdi. Qozun ləpəsini ipə düzər, içərisinə azca un qatılıb-qarışdırılıb-qaynadılmış doşabın içinə salar, çıxarıb asardılar. Süzüləndən sonra üstündə 0,5-1 sm. qalınlığında mət qalardı. Quruyandan sonra yeyilərdi.

Asudə vaxtlarda uşaqların ən çox sevdiyi məşğuliyyət müxtəlif **OYUNLAR** idi. Bu oyunlar sırasında **gizlənpaç, güləş** və s. ilə yanaşı **dirədöymə (qayışagirmə, cızığagirmə** də deyirdilər), **ortayagirmə, aşıq-aşıq, ağac-ağac, eşşəkbelisındırdı, qəcəmədaş (beşdaş), əlimqaldı, mələk-dümbələk (çiling-ağac), biz, qidiyol, roza-proza** və s. də vardı.

Dirədöymə oyununa qoşulmağa hamı cəsarət etməzdi. Burada həm cəsarət, həm ağrıyadözmə, həm də cəldlik lazım idi. Oynayanlar iki dəstəyə ayrılardılar – bir dəstə cızığın içində, digər dəstə cızığın çölündə. Geniş cızılmış dairənin içərisində dayanmış oğlanların hər birinin ayağının altında bir qayış olar və onlar bu qayışı qorumağa çalışardılar. Cızıqdan kənardakıların da əlində qayış olardı və onlar bu toqqalı qayışla içəridəkiləri vurub, ayaqları altındakı qayışı ələ keçirməyə cəhd edərdilər. Ağrıya dözənlər ayağı altındakı qayışı buraxmaz, üstəlik bayırdakının vurduğu qayışdan tutub onu içəri çəkməyə çalışardılar.

Ortayagirmə də dirədöyməyə yaxın idi. Lakin burada qayış olmazdı. Cızığın içərisindəkilər qol-qola çatıb üz-üzə dairəvi dayanar, arxaları cızığın bayırındakılara düşərdi. Bir nəfər cızığın içərisindəkiləri qoruyar, bayırdakılar isə cızığı ayaqlamadan tullanıb içəridəkilərdən birinin belinə minməyə çalışardı. İçəridəki qoruyucu cızıqdan çıxmamaq şərti ilə ayağı ilə bayırdakılardan birinin ayağına toxunsa və ya cızığın içindəkilərdən birinin belinə minən sürüşüb, ayağı yerə bir pəncə boyu yaxınlaşsa, cızığın bayırındakı dəstə uduzmuş sayılar, dəstələr cızığın içində və çölündə yerlərini dəyişərdilər.

Aşıq-aşıq oyunu uşaqların sevimli məşğuliyyəti idi. Xüsusilə payızda qovurmalıq mövsümündə aşıq bolluğu yaranar, qoyunların dizindəki bu oynaq sümüyü ilə müxtəlif oyunlar oynanardı. Yaxşı aşıq oynayanlar hətta bir metrlik məsafədən çırtma ilə öz aşığını başqa aşığa tuşlayıb vurar, aşığı aşırıb udardı. Aşıqlar ağır olsun deyə, bəzən içini ovar, qurğuşun əridib tökərdilər. Bəzən aşıqların alçı durması uçün onları cilalayardılar. Cilalamanın ən geniş yayılan forması aşığı ayaqqabının altına böyrü üstə qoyub, asfalt yolun üstündə sürtmək idi. Aşıqlar bəzən o qədər cilalanardı ki, onları necə atsan, mütləq alçı durardı, aşığın başqa duruşu olmazdı. Belə aşıqlara **telan** deyilər və onların aşıqlar arasında xüsusi nüfuzu olardı. Aşıqları hətta müxtəlif rənglərə boyayar, qatar qoyardılar. Hər uşağın çibində bir-iki ovuc aşıq olardı. Görünür, "uşaq aşıq yığan kimi..." məsəli də buradan yaranmışdır.

Ağac-ağac oyunu zamanı 15-20 metrlik məsafəyə ağac sancar, əlimizdəki ağacla onu nişana alıb atardıq. Kim nişana qoyulmuş ağacı vurub yıxardısa, o da udardı.

Eşşəkbelisındırdı oyununa **Ənzəli** də deyilirdi. Bir nəfər belini əyib, əllərini dizinə dayaq verib, eninə dayanardı. Birinci uşaq "Ənzəli başdan gələr..." deyib əyilənin belindən atlanardı. Sonra o biri uşaqlar birincinin hərəkətini təkrar edər, yəni əllərini əyilənin belinə vurub üstündən tullanardılar.

Qəcəmədaş oyununa **beşdaş** da deyirdilər. Oyunda hər iştirakçı bir əlilə yuxarı daş atıb, ovcundakı beş kiçik daşı yerə tökürdü. Sonra həmin daşı yenə yuxarı atıb, o, aşağı enincə yerdəki daşları bir-bir yığmalıydı. Başqa sözlə, şərt təkcə yerdəki daşları

yığmaq yox, həm də göydəki daşı hər dəfə göydəcə tutmaq, yerə düşməyə qoymamaq idi. Hərəkətləri qüsursuz icra edən qalib sayılırdı. Bu oyunu əsasən qızlar oynayırdılar.

Qaçdı-qovdu oyunu olan **əlimqaldı** oyununu, **gəzlənpaçı** və s. də əsasən qız uşaqları oynayardılar. Əlimqaldıda bir dəstə uşaq püşk atar, püşk kimə düşsə o, uşaqların dalınca qaçardı, əlini kimə toxundursa, oyun ona keçər və bu dəfə həmin ikinci uşaq qayıdıb uşaqları qovardı. Beləcə oyun uşaqlar yorulana qədər davam edərdi.

Bənövşə-bənövşə oyunu zamanı bir-birindən 10-15 metr aralıda əl-ələ verib, bir xətt boyu düzülən iki dəstə sözlə deyişər, sonra "bənövşə", "bəndədüşə", "bizdən sizə kim düşə" deyişməsindən sonra əks tərəfdən bir oyunçunun adı çəkildərdi. Həmin oyunçu əks tərəf dəstəni yarıb keçsəydi, bu dəstədən bir nəfəri özü ilə aparardı. Yarıb keçə bilməsə, özü həmin dəstədə qalardı. Axırda adamları tükənən dəstə uduzmuş sayılardı.

Mələk-dümbələk oyununa **çiling-ağac** da deyirdilər. Oyun bir qarış enində ucları yonulmuş çilingdən və ondan 5-6 dəfə böyük ağacdan ibarət olardı. Ağacı çilingin küncündən vurub qaldırar və yeddi dəfə çiləyərdilər. Kim çiləyə bilərdisə, oyunu o başlayardı. Oyunu başlayan dairə çəkib onun içindən ağacla çilingi gücü çatan qədər uzağa vurardı. İkinci oyunçu həmin uzaqlıqdan çilingi birinci oyunçunun əlindəki ağacla qoruduğu dairəyə atmağa çalışardı. Ata bilsə, uduzmuş sayılır, oyun digər oyunçuya keçirdi.

Biz oyunu da oğlanlar arasında geniş yayılmışdı. Ucu yonulmuş yarımmetrlik ağaclar biz adlanardı. Oyun üçün ağacların sancıla biləcəyi yumşaq yer, çox vaxt çəmənlik seçilərdi. Birinci adam var gücü ilə bizi yerə çırpar, mümkün qədər dərinə batırardı. O birilər öz biz ağacları ilə yerdə olan bizi və ya bizləri vurub yıxmağa çalışardılar. Yıxılmış bizi yıxan adam udmuş sayılardı və yıxdığı bizi götürərdi. Bu şərtlə ki, öz bizi yerə sancılmış olsun.

Qidiyol, dəsmalaldıqaç, gözbağlıca və **roza-proza, hapxışta** qızların sevimli oyunları idi.

Qidiyol oyununda uşaqlar tabaşirlə yerdə kvadratlar çəkər, yastı daşı tək ayaqla bu kvadratlarda gəzdirərdilər.

Dəsmalaldıqaç və ya **dəsmalatdı** oyunu zamanı uşaqlar dövrə vurub çömbələr, bir oyunçu da əlində dəsmal onların arxasından dövrələmə qaçardı. O, hiss olunmadan əlindəki dəsmalı oturanlardan birinin arxasına atar, dövrəni başa vurub, arxasına dəsmal atdığı uşağa gəlib çatardısa, həmin uşaq sıradan çıxıb, dövrənin ortasında oturardı. Yox, arxasına dəsmal atılan uşaq diribaş olub, arxasına dəsmal atıldığından tez xəbər tutardısa, dəsmalı götürüb, ona atanın dalına düşərdi. Dəsmal atan qaçıb, onu qovanın boş yerində oturardısa, canı qurtarar, oyun davam edərdi. Yox, əgər çatdırıb otura bilməzdisə, yəni tutulardısa, oyundan çıxar, gedib dövrənin ortasında oturardı.

Gözbağlıca oyununda iştirakçılardan birinin gözləri yaylıqla bağlanar, o isə bu vəziyyətdə oyundaşlarından birini tutmağa çalışardı. Oyundaşları müxtəlif səslər çıxarmaqla guya ona kömək etməyə çalışardılar. Tutulan iştirakçı gözü bağlı olanı əvəz edərdi.

Roza-proza oyunu zamanı iki uşaq uzun ipin uclarından tutub fırladar, bir, bəzən də iki-üç nəfər bu ipin ortasına girib, atılıb-düşər, çalışardı ki, ipə ilişməsin.

Haxışta əsasən bayramlarda və toy şənliklərində icra olunan qız-gəlin oyunu idi. Oyunda 8-12 ifaçı iki dəstəyə bölünərək sırayla qabaq-qabağa dayanıb, əl-ələ tutardılar. Sonra növbə ilə "haxışta" sözü ilə bitən bir bayatı oxuyar, o birilər isə hər misradan sonra "haxışta" sözünü təkrar edər, əl çala-çala bir ayaq üstə atılıb-düşər, rəqs edərdilər. Əsasən Naxçıvanda və İrəvan çuxurunda yayılmış bu oyun daha çox halay oyununu xatırladırdı.

Qız uşaqları balaca vaxtlarda **evcik-evcik** oynamağı da çox sevər, torpaqdan, palçıqdan özlərinə ev düzəldər, bir-birinə qonaq gedər, aş bişirər, gəlin köçürərdilər və s.

Oğlan uşaqlarının, demək olar ki, hamısının **quşatanı** olardı. Onunla nişan vurar, quş ovlayardılar.

Bütün bu oyun və məşğuliyyət növləri uşaqların sağlam, iradəli böyüməsində, fmzmkm və mənəvi tərbiyəsində mühüm rol oynayardı.

Vedibasar mahalında olduğu kimi, Zəngibasar, Gərnibasar və Qırxbulaq mahallarında da azərbaycanlı uşaqları keçmişdə ilk təhsillərini kəndlərdəki mollaxanalarda alırdılar. İbtidai təhsildən sonra tək-tək gözüaçıq bəylər, xanlar, din xadimləri öz övladlarını İrandakı, Türkiyədəki təhsil ocaqlarına, Yaxın Şərqin məşhur dini mərkəzlərinə, hətta bəzən Rusiyaya, Avropaya oxumağa göndərirdilər.

Hətta bəzən yerli camaat xeyriyyə yolu ilə hər kənddən bir nəfər gənci Nəcəfə, Məşhədə ali ruhani təhsili almağa göndərərdi. Bu yolla təhsil alanlardan Uluxanlıda **Hacı Axundun,** Zəngilərdə **Şeyx Səfər Məhərrəmzadənin,** Yuxarı Necilidə **Hacı Molla İmranın** və b.-nın xalq arasında böyük nüfuzu vardı.

Çar hökuməti bu ərazidəki erməni və aysoruların təhsili qayğısına daha çox qalır, tez-tez erməni və aysoru uşaqlarını dövlət hesabına Tiflisə və Rusiyanın müxtəlif şəhərlərinə oxumağa göndərirdi.

İrəvan qəzasında ilk dünyəvi məktəblər 1879-cu ildə **Aşağı Quylasar,** 1881-ci ildə **Uluxanlı,** 1883-cü ildə isə **Böyük Vedi** və **İmanşalı** kəndlərində açılmışdı. Həmin məktəblərdən Uluxanlı məktəbi ikisinifli, qalan üçü isə birsinifli rus-tatar məktəbləri idilər. Bu dörd məktəbdə birlikdə, məsələn, 1884-1885-ci dərs ilində cəmi 151 oğlan uşağı təhsil almış, onlardan 86-sı azərbaycanlı, 40-ı aysoru, 25-i erməni uşağı olmuşdur.

Bir vaxtlar böyük demokrat yazıçı Cəlil Məmmədquluzadənin müəllimlik etdiyi Uluxanlı məktəbinin açılması ilə bağlı mənbələrdə maraqlı məlumatlar var. Belə ki, Qafqaz tədris dairəsi müdirinin 1880-ci il tarixli, 1879 saylı məruzəsində bildirilir ki, İrəvan qubernatoru ilə Uluxanlı kəndinin camaatı arasında əldə edilmiş razılığa görə, kənd camaatı ikisinfli məktəb üçün lazım olan binanı tikməyi öhdələrinə götürüblər. Kənd adamlarından biri isə məktəb binası tikilib qurtarana qədər öz evini təmənnasız olaraq məktəbxanaya çevirməyə hazır olduğunu bildirib. Buna görə də İrəvan qubernatoru xahiş edir ki, Uluxanlı kəndində ikisinifli məktəb açmaq üçün lazımi sərəncam verilsin. Qubernatorun bu təqdimatını əsas görürən tədris dairəsi müdiri Qafqaz ca-

nişinliyindən xahiş edir ki, 1881-ci ildən etibarən Uluxanlı məktəbinin fəaliyyəti üçün smeta xərclərinə 1300 rubl daxil etsin.

Beləliklə, 1881-ci ildə fəaliyyətə başlayan məktəb **Allahverdi Hacı Hüseyn oğlunun** evində yerləşmiş, məktəbin ilk müdiri o zamanın tanınmış maarifçisi Muxin olmuşdur. Fənn müəllimi **Xanlar bəy Həsənbəyov,** şəriət müəllimi **Hacı Məşədi Hüseyn oğlu** idi. Sonra **Məmməd bəy Lütfəli bəy oğlu Qazıyev, Əbdüləli Bağır oğlu Muxtarov, Hacı Molla Kərim Rzaquliyev, Mirzə Cəfər, Mirzə Ələkbər Rzazadə, Ələkbər Qədimov** və b. burada işləmişlər.

Qafqaz tədris dairəsi müdirinin 7 avqust 1887-ci il tarixli 4393 saylı məktubunda oxuyuruq: "Uluxanlı məktəbində müəllim vəzifəsini ifa edən Məmməd bəy Qazıyev azad edilmiş, onun yerində müəllim vəzifəsini ifa etməyə isə... Cəlil Məmmədquliyev təyin edilmişdir."

Bu vaxt Uluxanlı məktəbinin müdiri İ.Novruzov, ondan əvvəl isə Eyvazov adlı şəxs olmuşdur. Həmin dövrün sənədlərindən öyrənirik ki, ilk vaxtlar Uluxanlı məktəbində tədrisin keyfiyyəti xeyli aşağı olmuş, müəllimlər tez-tez bir-birini əvəz etmiş, valideynlər uşaqlarını oxutmağa bir o qədər də həvəs göstərməmişlər.

Uluxanlı məktəbinin inkişafında 1909-1917-ci illərdə bu məktəbə müdirlik etmiş vedili **Şəmdin bəy Mahmadbəyovun** böyük xidməti olmuşdur. O, təhsilin keyfiyyətini və təhsilə marağı yüksəltməklə yanaşı, məktəbin çox geniş olan ərazisini çəpərə aldırmış, burada hər cür meyvə ağacları əkdirmiş, bir sözlə, böyük bir sahəni gülzara çevirmişdi.

Sovet hakimiyyətinin ilk illərində Uluxanlı məktəbi bərpa olunmuş, yeni məktəb binası tikilib istifadəyə verilmişdir. Əvvəl ibtidai məktəb kimi mövcud olan Uluxanlı məktəbi 1930-cu ildə yeddiillik məktəbə, sonralar səkkizillik və tam orta məktəbə çevrilmişdir. 1940-cı ildə məktəbin ikimərtəbəli yeni binası tikilib istifadəyə verilmiş, ətraf kəndlərdə orta məktəb olmadığından rayonun Rəncbər, Seyidkənd, Sarvanlar, Aşağı Necili, Yuxarı Necili, Zəngilər və b. kəndlərinin şagirdləri gəlib bu məktəbdə onillik təhsil almışlar.

Sovet dövründə Uluxanlı kəndində işləyən məktəb direktorları

1. 1921-ci ilin noyabr ayında ibtidai məktəb açılır. **Mirzə Ələsgər Rzazadə** və **Məmmədbağır Qədiməliyev** bu məktəbin müəllimləri olurlar.

2. 1928-1935-ci illərdə məktəb direktoru **Mirzə Ələsgər Rzazadə**
3. 1935-1936-cı illərdə – **Hüseyn Məmmədov**
4. 1936-1938-ci illərdə – **Hacı Məhərrəmov**
5. 1938-1940-cı illərdə – **Məmməd Qənbərov**
6. 1940-1941-ci illərdə – **Abbasəli Hüseynov**
7. 1941-1942-ci illərdə – **Ələmdar Məhərrəmov**
8. 1942-1943-ci illərdə – **Həbib Məmmədzadə**
9. 1943-1944-cü illərdə – **Ələmdar Rəhimov**
10. 1944-1945-ci illərdə – **Firidun Eyvazov**
11. 1945-1946-cı illərdə – **Sadıq Fərəcov**
12. 1946-1947-ci illərdə – **Lətif Hüseynov**
13. 1947-1949-cu illərdə – **Əsəd Məmmədov**
14. 1949-1950-ci illərdə – **Zeyni Əsgərov**
15. 1950-1957-ci illərdə – **Zərifə Babayeva**
16. 1957-1960-cı illərdə – **Əjdər Kazımov**
17. 1960-1967-ci illərdə – **İbrahim Xəliliv**
18. 1967-1973-cü illərdə – **Əsəd Məmmədov**
19. 1973-1979-cu illərdə – **İsmayıl İsmayılov**
20. 1979-1987-ci illərdə – **Sənan Qədiməliyev**

Zəngibasar mahalının təhsil tarixində Uluxanlı məktəbi ilə yanaşı, İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumunun bazasında yaradılmış Dəmirçi Sovxoz Texnikumunun da xüsusi yeri var.

1929-cu ildə İrəvan şəhərində açılmış bu texnikum bütün Qərbi Azərbaycan ərazisinin orta ixtisaslı kənd təsərrüfatı kadrları ilə təmin olunmasında mühüm rol oynamışdır. İlk vaxtlar texnikuma rəhbərlik edənlər erməni millətindən olsa da, 1938-ci ildən başlayaraq onun bütün direktorları azərbaycanlılar olmuşlar.

1960-cı ildən ermənilərin meliorasiya texnikumu binasının 3-cü və 4-cü mərtəbələrində fəaliyyət göstərən Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumunun tələbələri ermənilər tərəfindən daim xoşagəlməz münasibətə məruz qaldıqlarından texnikumun

o vaxtkı direktoru **Cəfər Elyasov** 1973-cü ildə Ermənisstan hökumətinə müraciət edərək texnikumun Zəngibasar rayonu ərazisinə köçürülməsi məsələsini qaldırır.

1974-cü ildə İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumunun adı dəyişdirilərək Dəmirçi Sovxoz Texnikumu qoyulur, Dəmirçi kəndi ərazisində – Zəngi çayından 1-1,5 km aralıda 3 hektar torpaq sahəsi ayrılır, burada üç mərtəbəli bina tikilir və 1975-ci ildə texnikum İrəvan şəhərindən bura köçürülür.

Hər il 100-120 nəfərdən çox tələbənin qəbul olunduğu bu texnikum 1988-ci ilə qədər fəaliyyət göstərmişdir.

Müxtəlif illərdə texnikuma aşağıdakılar direktorluq etmişlər:

1. 1938-1940-cı illər – **Xəlil Səfərov** (Haçaparaq k.)
2. 1941-1945-ci illər – **İsmayıl Şükürzadə** (Haçaparaq k.)
3. 1946-1951-ci illər – **Məmməd Fərəcov** (İrəvan ş.)
4. 1951-1960-cı illər – **Rza Həsənov** (İrəvan ş.)
5. 1961-1966-cı illər – **Abbas Sadıqov** (İrəvan ş.)
6. 1967-ci il – **Sabir Əsədov** (Qafan r.)
7. 1967-1978-ci illər – **Cəfər Elyasov** (Dəmirçi k.)
8. 1979-1984-cü illər – **Abbas Mustafayev** (Çobankərə k.)
9. 1985-ci il – **Cəfər Elyasov** (Dəmirçi k.)
10. 1986-1987-ci illər – **Səfər Səfərov** (Haçaparaq k.)
11. 1988-ci il – **Nüsrət Sadıqov** (Sarvanlar k.)

Texnikumun müəllim kollektivindən aşağıdakılar "Ermənistan SSR" **Əməkdar müəllimi** adına layiq görülmüşlər:

1. **Elyasov Cəfər Məşədikərim oğlu** – direktor, 07.01.1974.
2. **Rzayeva Səriyyə Həbib qızı** – müəllim, 31.03.1962.
3. **Süleymanov Həsən Məmməd oğlu** – müəllim, 08.08.1959.

Texnikumun direktoru **Sadıqov Abbas Qasım oğlu** isə "Ermənistan SSR" **Əməkdar aqronomu** adını almışdır.

TARİXİ ABİDƏ, QALA, DİNİ OCAQ VƏ ZİYARƏTGAHLARI

Qərbi Azərbaycanın başqa bölgələri kimi, Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları da ən qədim dövrlərdən müxtəlif türk tayfalarının Anayurdu olmuş, onların izləri yeraltı və yerüstü çoxlu maddi mədəniyyət nümunələrində günümüzə qədər gəlib çıxmışdır. Lakin təəssüf ki, həmin maddi mədəniyyət nümunələrinin bir hissəsi tarix boyu bir-birini əvəz edən hərbi yürüşlər, müharibələr nəticəsində, xüsusilə zaman-zaman o yerlərə köçürülüb gətirilən, tarixi torpaqlarımızda isti yuva tapan ermənilər tərəfindən məhv edilmiş, dağıdılmış, izi itirilmiş, digər hissəsi isə ermənileşdirilərək mənimsənilmişdir.

Bu maddi mədəniyyət nümunələri sırasında çoxlu qədim yaşayış qalıqları, nekropollar, qəbirüstü at-qoç heykəlləri, sənduqələr, qala və istehkam qalıqları, məbəd, kilsə, məscid, pir və ocaqlar vardır.

Təsadüfi deyil ki, 1829-1832-ci illərdə İrəvan xanlığı ərazisini qarış-qarış gəzən İ.Şopen yazırdı: "Qırxbulaq mahalı qədim maddi mədəniyyət nümunələri, dövrümüzə qədər gəlib çıxmış abidələrlə zəngindir. Onların bir hissəsi dağlarda və tamam boş sahələrdə yerləşir. Mahalın Ağmanqan dağı vadisinin də daxil olduğu şərq hissəsi qədim kilsə və qalalarla doludur. Zəngi çayının sahillərində də sıx yaşayış olmuşdur, amma indi o yerlər boşalıbdır. Bu boşalmış kəndlərdə də çoxlu maraqlı xarabalıqlar mövcuddur" (İ.Şopen. Göstərilən əsəri, səh.262).

İ.Şopen eyni fikri Gərnibasar mahalı haqqında da yazmışdır: "Bu mahal arxeoloji axtarışlar üçün xüsusilə diqqətəlayiqdir. Dağlıq hissəsi, hətta ən əlçatmaz dərələri qədim kilsələr, kiçik qalalar, türbə və sərdabələrlə doludur" (Yenə orada, səh. 267).

Zəngibasar mahalının Cəfərabad kəndindəki türbə və bu türbənin nəsx xətti ilə ərəbcə yazılmış kitabəsi də XV yüzilin ilk rbünün yadigarı olmaqla o dövr tariximiz haqqında maraqlı bilgilər verir. Bundan əlavə, Zəngibasar mahalının, demək olar ki, bütün kəndlərində məscid, hətta Uluxanlıda yeddi, Zəngilər, Şorlu, Qaraqışlaq, Mehmandar, Hacı Elləz kəndlərinin hərəsində iki məscid olmuşdur. Mahalın qədim qəbiristanlıqlarındakı müx-

təlif ornamentlər, at, qoç heykəlləri bu yerin qədim türk-müsəlman əhalisinin dini etiqad və inanclarını əks etdirirdi.

Heç şübhəsiz, onların hər biri haqqında məlumat toplamaq çox çətindir, bəlkə də mümkünsüzdür. Lakin bu yolda yenə də bacardığımızı etdik və edə bildiklərimizi oxuculara təqdim edirik.

AĞADƏDƏ OCAĞI. 1950-1980-ci illərdə Zəngibasar mahalının ən mötəbər ziyarətgahı olan bu ocaq Uluxanlı, Həbilkənd, Seyidkənd, Sarvanlar kəndlərinin əhatəsində, Qulucan kəndinin yanında, Qarasu çayının kənarında yerləşirdi. Ora müsəlmanlarla yanaşı, xristianlar da pənah gətirirdilər. Rəvayətə görə, keçmişdə İrana mal aparıb-gətirən tacirlər arasında təbrizli bir seyid də olmuşdur. Bir gün həmin seyid Ağadədə yerləşən əraziyə çatanda xəstələnir, vəsiyyət edir ki, onu Qarasu çayının kənarındakı bu səfalı yerdə dəfn etsinlər. Deyilənə görə, 2-3 il sonra bu seyidin qızı gəlib çıxır və atasını soruşur. Onu atasının məzarı üstə aparırlar. Qız: "Ah mənim Ağa dədəm" – deyərək məzarın üstünə yıxılıb ağlayır. O vaxtdan bu yer "Ağadədə" adlanır.

1950-ci illərə qədər burada ancaq bir qəbir olmuşdur. Adamlar o vaxtlar da oranı pir kimi ziyarət edirmişlər. 1950-ci illərdə bu pirə münasibət dəyişir. Deyirlər, gecələr bu yerdə işıq yanarmış, yaxınlaşanda itərmiş. Nəhayət, bu yeri dəqiqləşdirib, orada bina tikiblər. Binanın ətrafında yanmış ağaclar vardı. Adamlar o ağacın kömüründən götürüb istifadə edir, şəfa tapırdılar.

Get-gedə ətraf kəndlərdən, hətta İrəvan şəhərindən imkanı olan adamlar öz əzizlərini bu ocağın ətrafında yaranmış qəbiristanlıqda gətirib dəfn edirdilər. Zəngibasar mahalının camaatı arasında Ağadədə and yerinə çevrilmişdi, adamlar arasında "Ağadədə haqqı" andı ən inandırıcı and hesab olunurdu.

AĞBULAQ OCAĞI. Sarvanlar kəndindəki bu ocaq-bulaq **Eynal** kişinin evinin yanında yerləşirdi. Deyilənə görə, bu bulağa pis niyyətlə gələnin ağzı-gözü əyilərdi.

GEDƏRGƏL MONASTIRI. Monastır haqqında ilk məlumatı M.Xorenlidən alırıq. Ona istinad edən İ.Şopen yazır ki, Gedərgəl kəndində bir vaxtlar məşhur monastır olub, orada sehrli xaç saxlanıb. Yerli əhalinin danışdığına görə, o xaç Qırxbulaq çayının axmasının qarşısını alıb və kəndin digər – Çayqaytara adı da

buradan yaranıb. Sonra isə İ.Şopen yazır ki, erməni yazıçılarının yazdığına görə, bu sehrli xaç katolikos Petrosa məxsus olub. Eçmiədzin kilsəsində saxlanan bu xaç gümüşdəndir və qızıl suyuna çəkilmişdir. Həmin monastırda müqəddəslər Sarkis və Kirakosun qolları da saxlanırmış. İndi burada yalnız monastırın və kilsənin xarabalıqları qalır. Günbəz uçub tökülmüşdür.

GERQAÇ (GEĞART, ƏYRİVƏNG, YUXARIVƏNG) MONASTIRI. Gərnibasar mahalının dağlıq hissəsində, Keğart dərəsində, Gərni çayının qolu üstündə monastır. Keçmişdə buradа Gerqaç adlı kənd olmuşdur. XII-XIII yüzillərdə bu bölgədəki xristian Ərmən türkləri tərəfindən qaya üstündə tikilmişdir. Bu barədə monastırın qərb qapısı üstündəki kitabədə yazılmışdır: "Zakarın (**Sakərin** – Ə.Ə.) qardaşı İohannın və Şahənşahın uşaqlarının və Avakın və tərki-dünya Parsağın (**Parsakın** – Ə.Ə.) dövründə bu əsrarəngiz icma kilsəsi 663-cü ildə (**miladi 1214-cü ildə** – Ə.Ə.) ucaldılmışdır" (İ.Şopen. Göstərilən əsəri, səh.277). Monastırın ətrafında çoxlu tikililər yarandığından o, sonralar **Ayrıvəng/Əyrivəng, Yuxarıvəng, Geğart** da adlanmışdır. Monastırın ətrafı iri mağaralarla dolu idi.

GƏRNİ QALASI VƏ MƏBƏDİ. Baş Gərni kəndində qala və məbəd. Gərni qalası Çar **Tiridat** tərəfindən bacısı **Xosrovduxtun** xatirəsinə dördkünc yonulmuş daşdan tikdirilmiş, Çar Tiridat bu əsrarəngiz sənət nümunəsinin üzərində yunan dilində öz adını yazdırmışdı. Vaxtilə burada yunanların hərbi qarnizonları yerləşirmiş, bölgəyə gələn dövlət nümayəndələri bu qalada dayanarmışlar. I yüzildə yunan arxitektura üslubunda tikilmiş məbəd isə XVII yüzildə zəlzələ nəticəsində dağılmış, 1969-1974-cü illərdə yenidən bərpa olunmuşdur.

HAÇAPARAQ MƏSCİDLƏRİ. Haçaparaq kəndində iki məscid vardı: **Böyük məscid** və **Kiçik Məscid.** Böyük məscidin həyətində iri tut ağacları, arxasında qocaman qələmə ağacı ucalırdı. Böyük məscidin eyvanının divarları Quran surələri ilə bəzədilmiş, minbərin baş tərəfindəki kitabənin içində "981" (çox güman ki, hicri tarixi ilə) yazılmışdı. 1930-cu illərin repressiyası zamanı bu məscidi dağıtmaq üçün bir neçə nəfər dövlət adamı kəndə gəlir. Onlara özünü şirin salmaq istəyən **Qasım kişi** adlı bir nəfər yoxsullar komitəsinin üzvü məscidin damına çıxıb,

fasadın birinci daşına əl uzadanda müvazinətini itirir və yıxılıb ölür. Bu hadisədən sonra rayon mərkəzindən gələnlər çıxıb gedir və bir daha həmin məscidə əl qaldırmağa heç kəs cəsarət etmir. Lakin kəndin hər iki məscidinin qapısına qıfıl vurulur və onların fəaliyyəti dayandırılır. Böyük Vətən müharibəsi başlayandan bir ay sonra isə Böyük Məscidin fəaliyyətinə icazə verilir. Kənddəki Kiçik Məscid isə XIX yüzilin ortalarında tikilmişdi. Böyük məscid 1988-ci ilə qədər fəaliyyət göstərirdi.

HACI ABBAS MƏSCİDİ. Mehmandar kəndindəki bu məscid təxminən 1840-cı illərdə qırmızı kərpicdən tikilmişdi və onu tikdirən şəxsin – Hacı Abbasın adını daşıyırdı. Deyilənə görə, bu məscidi Türkiyədən və İrandan gətirilmiş ustalar tikmişdilər. Həmin məscid Zəngibasar və Üçkilsə mahallarının bütün müsəlman əhalisinin ibadətgahına çevrilmişdi. 1915-1918-ci illər erməni-müsəlman qırğınları zamanı kəndin müsəlman əhalisi ən təhlükəli vaxtlarda arvad-uşağı Hacı Abbas məscidinə yığar, əlitüfəngli kişilər isə səhərə qədər məscidin ətrafında keşik çəkərdilər.

HACI MİR CƏLİL AĞANIN OCAĞI. Aşağı Necili kəndində yerləşirdi. Adamların iman yeri idi. Bu ocağa ceyran gəldiyindən danırşırdılar.

QARA PİRİM OCAĞI. Sarvanlar kəndində olan bu ocaq camaatın inam yeri idi. Ocağın qabağında yulğun ağacı vardı, onu qıranda qan axırmış. **Sultan** adlı bir kişi bu yulğunun budağını qırıb gətirir evə, baxır ki, ağacdan qan axır, aparır molla yanına, molla deyir ki, apar qoy yerinə, sən böyük ziyan çəkəcəksən. Az sonra kişinin **Qəmər** adlı qızı təndirə düşüb yanır. Özü isə müharibəyə gedib, bir daha qayıtmır.

QARA SEYİD OCAĞI. Gərnibasar mahalının Qaraqoyunlu kəndində yerləşirdi. Qara Seyid mötəbər seyid idi. Onun qəribə möcüzələri vardı. Ona görə də Qara Seyidin ocağı adamların inam yeri idi. Müxtəlif xəstəlik tapanları, xüsusilə dili tutulanları o, müalicə edərdi.

QARADOLAQ QƏBRİSTANLIĞI. Çobankərə kəndində qədim qəbiristanlıq. Burada qəbirlərdən bir neçəsinin üstündə iri qoç heykəlləri hələ də qalmaqda idi. Məlum olduğu kimi, Qaradolaqlar da Kəngərlilərin bir qolu olmaqla əsasən Naxçıvanda və Qərbi Azərbaycanda yaşamışlar.

QAVUSLAR MANASTIRI. Gərnibasar mahalının dağlıq hissəsində yerləşən monastır haqqında dolğun məlumata İ.Şopendə (1832) rast gəlirik. İ.Şopendə **Qavus-dar** (**dar** – burada **-lar** şəkilçisinin tələffüz formasıdır) şəklində yazıya alınmışdır. **Qav-us-lar** tərkib hissələrindən ibarət olmaqla monastırın Uz türklərinə mənsubluğuna şahidlik edir. İ.Şopen yazır: "Vartan bu məşhur monastırı **Darun** və **Aruan** adlandırır". Hər iki addakı **hun** komponenti göz qabağındadır və monastırın bölgədəki xristian türklərinə mənsubluğunu bir daha təsdiqləyir.

Yeri gəlmişkən, biz Qavuslar toponimi ilə bağlı onu da xatırlatmağı vacib bilirik ki, "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsi ərazisində bir **Kavis kəndi**, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə **Qafavus** adlı kənd qeydə alınmışdır ki, biz bütün bu toponimləri eyniköklü hesab edirik.

QIZ MONASTIRI. Monastır haqqında ən dolğun məlumatı İ.Şopen (1832) vermişdir. Monastır Gərnibasar mahalının dağlıq hissəsində, Baş Gərni kəndi ilə üzbəüz, dərənin o üzündə yerləşirdi. Deyilənə görə, uzun illər bu yerdəki mağarada tək-tənha yaşayan Stepan vəfat etdikdən sonra Müqəddəs Qriqori gəlib həmin yerdə onun xatirəsinə bu monastırı ucaltmış, adını da Qız monastırı qoymuşdur. Monastırın adının Qız//Quz qoyulması onun (ümumiyyətlə, bu yerlərin və onun sakinlərinin) Ərmən türklərinə (**Oğuzlara** – Ə.Ə.) mənsubluğunu təkzibolunmaz şəkildə bir daha təsdiq edir.

MAKENİS (MAKENAS, GEQAM, QİŞATAKARAN) MONASTIRI. İ.Şopen Ərmən tarixində kifayət qədər məşhur olan bu monastırın Məngüs kəndində yerləşdiyi barədə məlumat verir. Söhbət həmin monastırdan gedir ki, VIII yüzildə Ərməniyənin ən əhəmiyyətli dini ocaqlarından idi və tarixən **"Gögərkuni dairəsində, Gərni şəhərindən o qədər də uzaqda olmayan məsafədə"** yerləşirdi. Üstəlik, Stepan Orbelian yazır ki, VIII yüzildə fars **Baban** Gögərkuni dairəsinin əhalisini qətlə yetirdikdən sonra bu monastırı da dağıtmış və yalnız XII yüzildə Siyuni yetirməsi olan yepiskop Qriqori onu əvvəlkindən də gözəl tikdirib, fəaliyyətini bərpa etmişdi. Xristian Ərmən türklərinə məxsus olan bu monastırın adı da bütün variantlarda türkcədir. **Makenis//Makenas** adlarında **Maq** komponenti və **Maqlar** anlamı, **Geqam** adında **Gög** və **qam** komponentləri, **Qişatakaran** adında isə **"Şat//Şad tayfasına**

mənsub olanlar" anlamı göz qabağındadır.

MİR ABBAS AĞANIN OCAĞI. Aşağı Necili kəndinin qəbiristanlığında Mir Abbas ağanın qəbri ocağa çevrilmişdi. Adamlar bu ocağa inam gətirir, kənd camaatı and içəndə Mir Abbas ağanın qəbrinə and içirdi.

MİR BAĞIR AĞA OCAĞI. Uluxanlı qəsəbəsinin Elatlar məhləsində ocaq. Mir Bağır ağının ocağı elin inam və iman yeri idi. 1918-ci ildə ermənilər bu ocağı yandırsalar da, ocağın xarabalıqları yerində sonralar da gecələr işıq yanarmış.

MİR ƏLİ AĞA OCAĞI. İrəvan çuxurunda çox məşhur olan **Seyid Mir Əli Ağa** əslən Gərnibasar mahalının Çikdamlı kəndindən idi. O, 1880-ci ildə burada tanınmış seyid ailəsində dünyaya gəlmiş, az sonra ailə Qarabağlar rayonunun Şuqaib kəndinə köçmüşdü. 1949-cu ildə onları zorla Azərbaycan deportasiya etmiş, üç ilə yaxın Salyan rayonunun Minbaşı kəndində yaşamış, 1951-ci ildə isə Yevlax rayonunun Malbinəsi kəndinə köçmüşlər. 9 qız övladı olan Mir Əli Ağa 1953-cü ildə 73 yaşında vəfat etmişdir. Məzarı Malbinəsi kənd qəbiristanlığındadır. Mir Əli Ağanın ocağı bu gün də fəaliyyət göstərir və təkcə Yevlax camaatının yox, bu ocağı tanıyanların hamısının inam yeridir.

MİR QƏFƏR AĞA OCAĞI. Zəngibasar mahalının Mehmandar kəndində idi. Bu ocağın güclü şəfa qabiliyyəti olub. Mir Qəfər ağanın həyətində bir tut ağacı varmış. Hər gün bu ağaca çoxlu göyərçinlər gələr, sonra hamısı uçub gedər, yalnız ikisi qalarmış. Onları tutub kəsər, bir qoç və ya bir cöngə də kəsib ətlərini qarışdırar, iri bir qazanda bişirib kasıb-kusuba paylayarmışlar. Mir Qəfər ağanın oğlu **Mir İsa** hazırda Goranboy rayonunun Qaradağlı kəndində yaşayır. **Mir Qədim, Mir Teyyub, Əmmən Ağa, Seyid Qara, Seyid Abbas, Seyid Rza** bu nəslin nümayəndələridirlər.

MİR YUSİF AĞA OCAĞI. Rəncbər kənd camaatının inam yeri idi. Kənd qəbiristanlığında Mir Yusif ağanın qəbri vardı, bu qəbir ocağa – adamların ibadət yerinə çevrilmişdi. Niyyəti olanlar bu ocağı ziyarətə gələr, kənddə and içəndə Mir Yusif ağanın cəddinə and içərdilər. Mir Yusif ağanın **Mama bacı, Mir İslam, Xədicə bəyim** adlı üç övladı vardı. Ocağın kənddə varisi Mama bacı idi. İndi isə bu ənənəni Mir İslam davam etdirir.

PUTQNİ MƏBƏDİ. Putqni kəndində VI-VII yüzillərə aid bu

məbədin xarabalıqları günümüzə qədər qalırdı. Eni 13,7 m, uzunluğu 29,9 m olan dördkünclü bu bazilika bölgədə qədim arman-türk mədəniyyətinin parlaq nümunələrindən idi. Lakin təəssüf ki, VI-VII yüzillərdə Cənubi Qafqazda, o cümlədən Qərbi Azərbaycanda izi-tozu belə olmayan haylar bu gün başqa abidələrimiz kimi, bu abidəmizi də özlərinə çıxmaqdan utanmırlar.

SEYİD OCAĞI. Qaraqışlaq kəndində yerləşirdi. Çətinliyə və ya xəstəliyə düçar olan kənd camaatı Bəyim nənənin evində yerləşən bu seyid ocağına pənah gətirirdilər.

SEYİD OCAĞI. Uluxanlıda seyid nəslinin ocağı. Həmin nəslin məlum olan ən qədim nümayəndəsi **Mir Bağır ağa,** onun törəmələri isə **Mir Yəhya, Mir Murtuza, Mir Mehdi, Mir Bağır** olublar. Sonuncular bir-birləri ilə qardaş, əmiuşağı imişlər. Bu nüfuzlu ocağın əsas nümayəndələri 1915-1920-ci illərdə milli münaqişələr zamanı ermənilər tərəfindən öldürülmüşdü. Onların övladları **Mir Abbas, Mir İsmayıl, Mir Kərim, Mir Ağa, Mir Hüseyn, Nəzirə bəyim** erkən yaşlarından yetimçiliklə, ehtiyac, sıxıntı içində böyümüşlər. Lakin onların hər biri, hər birinin övladları, nəslin, ocağın adına layiq övladlar kimi böyümüşlər.

SOYBULAQ. Sarvanlar kəndində ocaq. Kənddə **Qəfər** kişinin həyətində yerləşirdi. Həmin bulaqda bir balıq varmış, balığın da burnunda qızıl. Danışırlar ki, kənddə **İsmayıl** adlı (camaat **Bambo İsmayıl** deyərmiş) bir kişi olub. Bu kişi balığı vurub, qızıl balığın burnundan düşüb. Kişi bunu götürüb aparıb evə. Sonra mollaya aparıb, əhvalatı danışıb. Molla deyib ki, sənə böyük bədbəxtlik üz verəcək. Çox çəkmir ki, həmin nəsildən hamı qırılır. **Məsmə** adlı bircə qız qalır.

SUB SƏRKİS KİLSƏSİ. Cadqıran kəndi yanında kilsə. İ.Şopen (1832) kilsənin ancaq xarabalıqlarının qaldığını qeyd etmişdir.

ŞAHIN QALASI. Göygümbət kəndi ilə İrəvan şəhəri arasındakı Qırmızıtəpə adlı yüksəklikdə yerləşirdi. Qalanın Şah Abbas tərəfindən tikdirildiyi və buna görə də Şahın qalası adlandırıldığı söylənilirdi. Sovet dövründə qala ermənilər tərəfindən məhv edilmiş, qalanın yerləşdiyi Qırmızıtəpənin özü isə ilbəil şumlanaraq izi itirilmiş, əkin yerinə çevrilmişdi.

ŞAQAK (ŞAQUAQ, ŞAQUAQAX) MONASTIRI. Gərnibasar mahalının dağlıq hissəsində Baş Gərni kəndi yaxınlığında

yerləşirdi. Yepiskop İohann tərəfindən **Şaqaka,** Stepan Orbelian tərəfindən isə **Şaquaqa** və **Şaquaqax** adlandırılan bu monastırın əsl adı **Şaqak** olmuşdur. **Şaqak,** yəni **Sak-ağ, Ağ saq** türklərinin adını daşımışdır. Toponimin **Şaquaqax** variantı da bunu təsdiq edir. Yəni, **Saq-ağ-ox, Ağ saq oxunun** (tayfasının) **monastırı.**

ULUXANLI HAMAMLARI. Keçmişdə Uluxanlının üç hamamı olmuşdur: **Kəlba Əli hamamı, Yetim hamamı, Günbəzli hamam.** Yaşı 400-ü keçmiş hamam binası son zamanlara qədər Uluxanlıda qalırdı.

ULUXANLI MƏSCİDLƏRİ. Uluxanlıda keçmişdə az qala hər məhəllənin öz məscidi vardı. Onların sayı yeddi idi: **Azamanlılar məscidi, Elatlar məscidi, Torlu məscid, Baltaməmmədlilər məscidi, Qarağaclar məscidi, Qədimalılar məscidi, Nüxülülər məscidi.** Bu məscidlərdə dini ayinlərin icrası ilə yanaşı, dini söhbətlərlə bərabər, dünya hadisələrindən, ümumi problemlərdən, xeyriyyəçilikdən və s. söhbət gedərdi. Məscidlərdən biri ikimərtəbəli olmuş, yuxarıda qadınlar, aşağıda kişilər namaz qılarmışlar. Məscidlərin, demək olar ki, hamısının xarabalıqları dururdu. Salamat qalanların isə 1-i sovxozun anbarı kimi, 1-i məktəb, 1-i mədəniyyət şöbəsinin kitabxanası kimi istifadə olunurdu. 1970-ci illərdə Uluxanlıda məscid rəsmi olaraq yenidən fəaliyyətə başladı. Elatlar məhləsi ilə Qırmızı məhlənin arasında yerləşən bu məscid **Küllükbaşı məscid** də adlanırdı. 1988-ci ildə ermənilər onu yandırmışdılar. Son məlumatlara görə ermənilər həmin məscidi də yerlə yeksan etmişlər.

ZAKEVƏNG MONASTIRI. Ellər qəsəbəsindən bir neçə kilometr cənubda, Zak kəndi yanında monastır-kənd. Bu qədim monastır-kənddə ancaq Azər türkləri yaşamışlar. "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsində **Zakevəng kəndinin** də adı çəkilir. Bu toponimə, bir də İ.Şopendə (1832) rast gəlirik. Qırxbulaq mahalının Zak kəndindən bəhs edərkən o, bu kənddə vaxtilə Zakevəng adlı monastırın da yerləşdiyini yazır. Lakin bütün bunlardan keçmiş zamanda söz açan İ.Şopen "indi kəndin xarabalıqları yerində üzüm bağlarının və şirəxanaların qalıqlarından başqa nəzərəçarpan heç nə" olmadığını qeyd edir. Qərbi Azərbaycan ərazisində qədimdən məskunlaşmış **Sak** türklərinin adını daşıyan bu monastır haqqında Qaxbulaq mahalının Zakevənk kəndində ətraflı bəhs etmişik.

ZƏNGİBASAR AZƏRBAYCANLILARININ 1988-Cİ İL SOYQIRIMININ XRONOLOGİYASI

10 mart. Erməni millətçiləri Zəngibasarın Mehmandar kəndindən olan, şəxsi avtomobillərində Naxçıvana getmək istəyən 4 nəfərlik bütöv bir azərbaycanlı ailəsini iri yük maşını ilə xeyli təqib edərək qəzaya salıb, hamısını qətlə yetirdilər.

17 iyun. Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsində yaşayan azərbaycanlılara qanlı divan tutuldu, 500 azərbaycanlı evi dağıdıldı, talandı, bir neçə ev yandırıldı, 20 nəfərdən çox azərbaycanlı yaralandı, 3 min nəfər zorla evlərindən çıxarıldı. Qovulan əhali Türkiyə sərhədindəki Rəncbər kəndinə sığındı.

18 iyun. Zəngibasarın Aşağı Necili və Zəngilər kəndlərinə silahlı basqın edildi. Evlər qarət olundu və yandırıldı. Hücuma rayon rəhbərləri özləri başçılıq edirdilər. Kənddən didərgin salınanlar sərhəddəki Rəncbər kəndinə sığındılar.

19-20 iyun. Zəngibasarın Zəngilər, Haçaparaq, Dəmirçi, Qaraqışlaq, Yuxarı Necili, Sarvanlar kəndlərinə erməni millətçilərinin silahlı basqını zamanı öldürülənlər və yaralananlar oldu. Həmin gün on minlərlə azərbaycanlı Sovet-Türkiyə sərhədinə toplandı və sərhəddə gecələdi.

28-29 noyabr. Zəngibasar rayonunun 10 kəndində kütləvi talan və qarətlər başlandı. Toqquşma zamanı öldürülən və yaralananlar oldu. Vahiməyə düşüb, qaçanlar Yelenovka (Sevan) şəhəri yaxınlığında yolda güllələyə tutuldular, xeyli azərbaycanlı qətlə yetirildi.

30 noyabr. Sovet-Türkiyə sərhədinə sığınmış minlərlə azərbaycanlı hərbi maşınlara doldurularaq sərhəd zolağı ilə daşınıb, Naxçıvana töküldü. Zəngibasar mahalı bütünlüklə ermənileşdirildi.

ZƏNGİBASAR MAHALININ (ZƏNGİBASAR RAYONUNUN) KƏNDLƏRİ

Ağcaqışlaq (Ağcaqala qışlağı, Çerçerakin)
Ağhəmzəli (Molla Polad, Həmzəkənd)
Arbat
Aşağı Çarbağ
Aşağı Necili
Aşağı Şinqovit
Azadaşen
Beybutabad//Behbudabad
Cəbəçili
Cəfərabad (Yuxarı Göykənd)
Çarbağ (Xürrəmabad, Yuxarı Çarbax)
Çobankərə (Böyük Çobankərə)
Daşlı
Dəmirçi (Dəmirçili, Kiçik Şorlu Dəmirçi)
Dərcan//Dircan
Göyçəbəyli
Göygümbət
Hacı Eylas (İpəkli)
Hacı Həsən evi (Həsənağa)
Haçaparaq (Zəhmət)
Həbilkənd (Bulaqlı, Kalinin qəsəbəsi)
Həsənli (Mirzə Hüseyn)
Xaraba Sarvanlar
Xarberd
Xarratlı
Xəlifəli
İlxı qoruğu
Kolanlı (Xaraba Kolanı, Rəncbər Kolanısı)
Kolar (Qalalı, Gələrə, Kəlley)
Qaracalar (Məmmədabad)
Qaraqışlaq (Hacı Bayram, Dostluq)
Qaratəpə (Qaracaviran, Qaraviran)
Qullar (Qulular)

Qulucan
Mehmandar (Şorlu Mehmandar)
Mərəköyüt (Norakovit)
Muxtarabad
Oruc adası
Ozanlar (Ozanlı, Kərəm)
Reyhanlı
Rəhimabad
Rəncbər (Şorkənd)
Sarıcalar (Cahanşadilli)
Sarvanlar (Uliya Sarvanlar)
Seyfəli (Rüstəmli)
Seyidkənd (Şurakənd)
Sınıqxaç (Sinnik)
Şorlu (Şorlu Dəmirçi, Böyük Şorlu Dəmirçi, Şöllü)
Terekovit (Təkavert, Təkevlər)
Təzəkənd (Noragiğ)
Uluxanlı
Yengicə
Yuxarı Necili (Həsənəvar, Palaslı, Balaşlı Necli, Nizami)
Yuxarı Şinqovit (Senqovit, Bayat Şinqovit)
Zəngilər (DonuzyeyənMəscidli)

AĞCAQIŞLAQ (AĞCAQALA QIŞLAĞI, ÇERÇERAKİN)

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 12 km şimalda, Zəngi çayının sol sahilində kənd.

1918-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. Həmin il erməni daşnakları kəndin azərbaycanlı əhalisini vəhşicəsinə qovub çıxarmış, kənddə xeyli gəlmə erməni yerləşdirmişlər. 1922-1948-ci illərdə kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuş, sonuncu tarixdən etibarən bütünlüklə ermənileşdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsində **Ağcaqala qışlağı** adı ilə qeydə alınmışdır. "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə **Ağcaqışlaq** adı ilə Qırxbulaq nahiyəsi tərkibində verilən kəndin ikinci adının **Çerçerakin** olduğu göstərilmiş, üstəlik, **Əli Hacı Mustafa oğlunun** adına olan bu kənd-timardan dövlətin müxtəlif vergilər şəklində ildə 9.000 ağça gəlir götürdüyü də qeyd olunmuşdur. Sonrakı bütün mənbələrdə kəndin adı **Ağcaqışlaqdır**.

Göründüyü kimi, kəndin ilkin adı Ağcaqala qışlağıdır və bu, bizə "Kitabi-Dədə Qorqud" dastanındakı **"Ağcaqala Sürməli"** (yəni Sürməlidəki Ağcaqala) toponimini xatırladır. Heç şübhəsiz, burada söhbət **"ağ rəngli daşdan tikilmiş qala"** mənasından gedir. Qala yerinin sonradan əvvəlki (Ağcaqala) adı ilə qışlaq yerinə çevrilməsi onun əvvəl Ağcaqala qışlağı, sonra isə Ağcaqışlaq şəklinə düşməsi ilə nəticələnmişdir.

Xatırladırıq ki, XVI-XVIII yüzillərdə Qərbi Azərbaycan ərazisində Ağca komponentli (Ağca, Ağcaarx, Ağcavəng, Ağcaviran, Ağcaqaya, Ağcaqala, Ağcaqışlaq, Ağcakənd, Ağcakilsə və s.) onlarla toponim qeydə alınmışdır. Təkcə Ağcaqışlaq adı ilə İrəvan əyalətinin Xınzirək, Sürməli, Qırxbulaq, Gərni, Maku, İqdır nahiyələrində kəndlər mövcud olmuşdur.

İ.Şopendə (1832) Zəngibasar mahalının Ağcaqışlaq kəndində 14 təsərrüfatda 70 nəfər (33 kişi, 37 qadın) müsəlman əhali siyahıya alınmışdır. Kəndin keçmişdə **Sərtib xanım** tiyul kəndi oldu-

ğu və ruslar tərəfindən bu tiyulun ləğv olunduğu da həmin mənbədə göstərilmişdir.

1873-cü ilin statistik məlumatlarında Zəngi çayının yaxınlığında yerləşdiyi göstərilən kənddə 27 təsərrüfatda 184 nəfər (91 kişi, 93 qadın) azərbaycanlı və 1 məscid binası qeydə alınmışdır. Digər tərəfdən, mənbədə Zəngibasar mahalındakı Ağcaqışlaq kəndini qonşu Gərnibasar mahalının Ağcaqışlaq kəndi ilə fərqləndirmək üçün birincisini 2-ci, ikincisini 1-ci Ağcaqışlaq deyə nömrələmək də yaddan çıxmamışdır.

1886-cı ildə kənd İrəvan qəzasının Hacı Eylas nahiyəsinə daxil edilmiş, kənddə 26 təsərrüfatda 138 nəfər (76 kişi, 62 qadın) azərbaycanlı yaşadığı göstərilmişdir.

Kənd əhalisinin sayı 1905-ci ildə 186 nəfərə, 1914-cü ildə 220 nəfərə çatmışdır.

1918-ci ildə mahalın digər azərbaycanlı kəndləri kimi, Ağcaqışlaq kəndi də erməni təcavüzünün qurbanı olmuş, kənd əhalisinin bir hissəsi qətlə yetirilmiş, sağ qalanlar Türkiyəyə və Azərbaycanın digər bölgələrinə pənah aparmışlar. Sovet hakimiyyətinin ilk illərində isə onların az bir hissəsi öz doğma kəndlərinə qayıtmaq imkanı əldə etmiş, lakin geri qayıdanlar öz evlərində erməni ailələri ilə üzləşmişlər. Məlum olmuşdur ki, daşnaklar 1918-ci ildə boşaltdırdıqları azərbaycanlı kəndinə xeyli Türkiyə ermənisi yerləşdirmişlər. Həmin vaxtdan kənd yerli azərbaycanlılarla gəlmə ermənilərin yanaşı yaşadığı qarışıq kəndə çevrilmişdir.

1922-ci ildə kənddə 15 nəfər erməni, 54 nəfər azərbaycanlı, 1931-ci ildə 305 nəfər erməni, 102 nəfər azərbaycanlı əhali yaşamışdır.


1948-1953-cü illərin bədnam deportasiyası zamanı kəndin bütün azərbaycanlı əhalisi zorla Azərbaycana köçürülmüş, kənd tamamilə erməniləşdirilmişdir.

1978-ci il yanvarın 25-də isə kəndin adı dəyişdirilərək **Getapiya** qoyulmuşdur.

AĞHƏMZƏLİ (MOLLA POLAD, HƏMZƏKƏND)

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 6 km cənub-şərqdə, İrəvan-Naxçıvan-Culfa avtomobil yolunun üstündə, Cəbəçili kəndi yaxınlığında kənd.

1829-1830-cu illərə qədər kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. Həmin tarixdən 1949-1950-ci illərə qədər azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuş, 1950-ci ildə kəndin azəri əhalisi deportasiya edilərək kənd bütünlüklə ermənileşdirilmişdir.



Ağhəmzəli kəndinin ümumi görünüşü

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Gərni nahiyəsinin **Molla Polad kəndi** kimi qeydə alınmışdır. "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Gərni nahiyəsinin **Molla Qulad kəndi** kimi qeyd olunmuşdur. İcmal dəftərini çapa hazırlayanların kəndin adını düzgün oxuya bilməyərək Molla Qulad adından sonra sual (?) işarəsi qoyması, kəndin ikinci adının **Həmzəkənd** olması və nəhayət, kəndin **Cəbəçili kəndi yaxınlığında** yerləşdiyinin göstərilməsi söhbətin Ağhəmzəli (el arasında sadəcə **Həmzəli**) kəndindən getməsini söyləməyə əsas verir. Kəndin **Süleyman Abdulla oğlu** adlı şəxsin timarı olduğu, bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 6.000 ağça gəlir götürdüyü, 1728-ci ildə bu timarın ildə 25.000 ağça gəliri olan zeamətə (aşağı rütbəli dövlət məmurlarına dirlik verilən torpaq sahəsi) çevrildiyi də həmin icmal dəftərində qeyd edilmişdir.

İcmal dəftərində bu barədə oxuyuruq: **"Özünə layiq və etibarlı şəxslərə nümunə olan Süleyman Abdulla oğlu – onun qüdrəti artıq olsun! – xoşbəxtlik gətirən qapıma gəlib, dəftər tələb olunduğu dövrdə İrəvan sancağının Karni nahiyəsində başqa adı Həmzəkənd olan Molla Qulad (?) kəndindən və başqalarından altı min ağçalıq timarın onun adına yazıldığını bildirdi. Lakin o vaxt qarışıqlıq düşdüyü üçün adı çəkilən kəndin rəiyyətləri ətraf yerlərə dağılmış və torpaq sahələri əkilib-becərilməmişdir. Bununla belə, İrəvanın fəthindən bu günə qədər Süleyman Abdulla oğlu vəzifəsini yerinə yetirməkdə davam etmiş, adı qeyd olunan kəndin rəiyyətlərini öz yerlərinə qaytarmış, lazım olan xərcləri çəkmiş, kəndi abadlaşdırmış və onu iyirmi min ağçalıq zeamətə layiq səviyyəyə çatdırdığı üçün beş nəfər adamla xidmət etmək şərti ilə qeyd olunan timarın iyirmi min ağça gəliri olan və təqdimatla verilən zeamət kimi onun adına yazılması barədə İrəvan mühafizi, vəzir İbrahim paşadan möhürlü arayış almışdır".** (Göstərilən mənbə, səh.107-108).

İ.Şopendə (1832) və bütün sonrakı mənbələrdə isə kəndin adı **Ağhəmzəli** (yerli tələffüzdə **Ağhamzalı//Ağamzalı)** şəklində qeydə alınmışdır. Elmi ədəbiyyatda toponimin etnonim səciyyə daşıması, **Əxi** sözündən (orta yüzillərdə sufi müridlərinin bir-birlərinə **"qardaş"** mənasında ünvanlandığı söz) və qızılbaşların **Həmzəli** tayfasının adından yaranması fikri (B.Budaqov, Q.Qeybullayev) mövcud olsa da, adın (ümumiyyətlə, bu tipli toponimlərin) birinci komponentinin **ağ (kiçik)** və **ağa (titul)** mənalarını da nəzərdən qaçırmamağı vacib bilirik. Konkret olaraq Zəngibasar mahalının Ağhəmzəli kənd adına gəldikdə isə, biz onun **kiçik** anlamında **ağ** sözündən və **Həmzəli** etnonimindən yaranması qənaətindəyik. Bunu bölgədəki Qarahəmzəli oykoniminin mövcudluğu da təsdiq edir. Yaddan çıxarmayaq ki, türk təfəkkür sistemində **ağ-qara** bölgüsünə **kiçik-böyük, yuxarı-aşağı, sağ-sol** və s. ayırmaları şəklində tez-tez rast gəlirik.

Onu da xatırladırıq ki, mənbələrdə Qərbi Azərbaycanın, demək olar ki, bütün nahiyələrində **ağ** və **ağa** komponentli onlarla toponim qeydə alınmışdır. **Həmzəli** komponentinə gəldikdə isə XVI-XVIII yüzillərdə İrəvan əyalətinin Zebil nahiyəsində Həmzə, Gərni nahiyəsində Həmzəkənd, Abaran nahiyəsində Həmzəkol, Dərəçiçək nahiyəsində Həmzəgöl, Zarzəmin nahiyəsində Həmzə Cəmaləddin, Gümrü qəzasında Həmzəçimən adlı kənd-

lər mövcud olmuşdur. Dərələyəz mahalında isə belə kəndlərdən biri elə Həmzəli də adlanmışdır.

Bütün bunlar Həmzəlilərin böyük bir tayfa olduğunu və Qərbi Azərbaycan ərazisində geniş ərazidə məskunlaşdıqlarını söyləməyə əsas verir. Həmin tayfanın Qərbi Azərbaycanda geniş yayılmış Ağqoyunlu tayfalarından olduğunu, Ağqoyunlu hökmdarı Uzun Həsənin əmisi **Sultan Həmzədən** başladığını güman etmək olar. Xatırladırıq ki, Qara Osmandan sonra Diyarbəkr sultanı Sultan Həmzə olmuş və çox ehtimal ki, Həmzəlilər Uzun Həsənin vaxtında İrəvan çuxuruna köçüb burada məskunlaşmışlar.

İ.Şopendə (1832) İrəvan əyalətinin Gərnibasar mahalı tərkibində qeydə alınan kənddə 45 təsərrüfatda 332 nəfər (118 kişi, 114 qadın) müsəlman əhalinin, 43 təsərrüfatda isə 203 nəfər (101 kişi, 102 qadın) İrandan yenicə köçürülüb gətirilmiş ermənilərin yaşadığı göstərilmişdir. Kəndin **Mehdi bəyin** tiyul kəndi olduğu da həmin mənbədə göstərilmişdir.

1873-cü ilin statistikasında isə İrəvan quberniyasının İrəvan qəzası tərkibində qeydə alınan Ağhəmzəli kəndinin Norakovit su kəmərinin kənarında, İrəvan-Naxçıvan poçt yolunun üstündə, İrəvandan 14 verstlik məsafədə yerləşməsi barədə əlavə məlumat da verilmiş, kənddə 60 təsərrüfatda 301 nəfər (153 kişi, 148 qadın) Azərbaycan türkünün, 51 təsərrüfatda 317 nəfər (170 kişi, 147 qadın) ermənilərin yaşadığı göstərilmişdir.

1886-cı ilin statistik məlumatlarında İrəvan qəzasının Hacı Eylas nahiyəsi tərkibində siyahıya alınan kənd əhalisinin nisbəti 64 təsərrüfatda 273 nəfər (120 kişi, 153 qadın) azərbaycanlı və 57 təsərrüfatda 311 nəfər (175 kişi, 136 qadın) erməni şəklində dəyişmişdir.

Ağhəmzəli kəndinin Yeni Bayazid qəzasının **Əyricə** yaylağında, kənddən 50 vest aralıda 100 desyatin ərazini əhatə edən **Daşlıyurd** adlı yaylaq yeri olmuşdur.

Bundan əlavə, 1886-cı ilə dair mənbədə Gərnibasar mahalının Qaradağlı kəndinin mülkədarı **Hacı Mahmud Mirzə oğlunun** Ağhəmzəli kəndinin ərazisində **Qorux yeri** adlı 6,33 desyatin əkin sahəsini hər il üçün 340,20 rubl olmaqla 1884-cü ildən etibarən 3 illiyinə istifadə götürdüyü də qeyd olunmuşdur.

1897-ci ildə kənddə 376 nəfər azərbaycanlı, 404 nəfər erməni

yaşamış, 1905-ci ildə azərbaycanlıların sayı 457 nəfərə, 1914-cü ildə 740 nəfərə çatmışdır.

1918-ci ildə erməni daşnaklarının vəhşi hücumları nəticəsində kəndin bütün azərbaycanlı əhalisi – 143 təsərrüfatda 843 nəfər dəhşətli soyqırımına məruz qalmış, camaatın bir hissəsi qəddarcasına qətlə yetirilmiş, sağ qalanlar kəndi tərk etməyə məcbur olub, qonşu Türkiyəyə pənah aparmışlar.

Ağhəmzəlilərin çox az bir qismi doğma kəndə bir də Sovet hakimiyyətinin ilk illərində qayıda bilmişlər. Belə ki, 1922-ci ildə kənddə 369 nəfər ermənіyə qarşı cəmi 93 nəfər, 1926-ci ildə 543 nəfər ermənіyə qarşı cəmi 98 nəfər azərbaycanlı siyahıya alınmışdır. Göründüyü kimi, qısa vaxtda (1922-1926) kəndə xeyli gəlmə erməni yerləşdirilmiş, azərbaycanlıların sayı isə, demək olar ki, dəyişməmişdir.

1931-ci ildə isə kənddə 517 nəfər erməni, 207 nəfər azərbaycanlı yaşamışdır.

1948-ci ildə kəndin bütün türk-müsəlman əhalisi Azərbaycana deportasiya olunmuş və daha bir qədim türk yurdunun ermənіləşdirilməsi beləcə başa çatdırılmışdır. Kənddə azərbaycanlılara məxsus bütün şəxsi və ictimai əmlak ermənilərə qalmışdır.

1967-ci il mayın 25-də kəndin Ağhəmzəli adı dəyişdirilərək **Marmaraşen** qoyulmuşdur.

* * *

Uluxanlı kəndinin ilk qəbiristanlığı Ağhəmzəlidə, Təzəkəndlə Ağhəmzəli arasında, **Mərmər** adlanan ərazidə yerləşib. Bu yer öz adını oradakı mərmər yatağından almışdı. Həmin yerdən sal ağ mərmər daşları çıxarmış. Deyirlər, bəzən bir sal daşı çıxaranda bir qəbrin yeri hazır olurmuş. 1938-1939-cu illərdə burada mərmər istehsalına başlamaqla əlaqədar Uluxanlı camaatına qəbiristanlığı köçürmək təklif edilmiş və bu məqsədlə yer də ayrılmışdır.

Sonralar mərmər karxanasının istismarı ilə bağlı həmin yerdə böyük çökəklik yaranmış və bu çökəklikdə göl əmələ gəlmişdir. O göldə çoxlu ilanlar peyda olduğu üçün orada çimməyi adamlara qadağan etmişlər.

Mərmər karxanasından gələn gəlir Ağhəmzəli kolxozunun

büdcəsinə daxil olurdu.

Ağhəmzəli kəndinin təsərrüfatının əsasını üzümçülük təşkil edirdi. Bağlarda əsasən **əsgəri, yeznədayı, xərci, tülküquyruğu, təbrizi** və s. üzüm növləri yetişirdi. Üzümdən daha çox çaxır hazırlanar və bu çaxır şampan şərabı kimi qazlı olar, baş ağrısı verməzdi. Çaxır hazırlamaq üçün kolxozun anbarında 60 ədəd hər biri iki min vedrə üzüm şirəsi tutan xum (iri küp) saxlanardı. Kolxoz ilin sonunda əmək gününə çaxır da bölərdi.

Kənddə dəmyə buğda da əkilərdi.

CƏFƏR XƏNDAN



Cəfər Zeynal oğlu Hacıyev 1910-cu il mayın 8-də İrəvan şəhərində anadan olmuşdur. Əsilləri Ağhəmzəli kəndindəndir.

Görkəmli ədəbiyyatşünas alim C.Xəndan 1950-ci ildə filologiya elmləri doktoru elmi dərəcəsinə və professor elmi adına layiq görülmüş, 1947-1949-cu illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin dekanı, 1950-1954-cü illərdə həmin universitetin rektoru vəzifələrində çalışmış, 1952-1961-ci illərdə universitetin Azərbaycan ədəbiyyatı tarixi kafedrasına rəhbərlik etmişdir.

Azərbaycan ədəbiyyatı tarixinə və nəzəriyyəsinə dair dəyərli tədqiqatların, orta və ali məktəblər üçün ədəbiyyat dərsliklərinin müəllifidir.

"Xəndan" təxəllüsü ilə şerlər yazmış, şer kitabları dərc olunmuşdur. Nizami, Xaqani, Heyran xanım, Ömər Xəyyam və b-nın şerlərini, M.F. Axundovun "Puşkinin ölümünə Şərq poeması"nı dilimizə çevrmişdir.

Azərbaycan SSR Ali Sovetinin (3-cü çağırış) deputatı olmuş, Qırmızı Əmək Bayrağı, Qırmızı ulduz və "Şərəf nişanı" ordenləri və medallarla təltif olunmuşdur.

C.Xəndan 1961-ci il avqustun 10-da Bakı şəhərində vəfat etmişdir.

ARBAT

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 16 km şimal-qərbdə, Zəngi çayının sağ tərəfində kənd.

1918-ci ilə qədər (1828-ci ildən sonrakı qısa bir dövr istisna olmaqla) kənddə ancaq Azərbaycan türkləri yaşamış, 1922-1988-ci illərdə isə kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1988-ci ildə kənd bütünlüklə ermənilə-
dirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin **Arbat kəndi,** "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Qırxbulaq nahiyəsinin **Arebat kəndi,** İ.Şopendə (1832) və bütün sonrakı mənbələrdə **Arbat kəndi** şəklində qeydə alınmışdır.

Kəndin adının ərəbcə **rabat** sözündən olması və **"sərhəd məntəqəsi", "din uğrunda mübarizələrin istehkamı"** mənaları bildirməsi fikri (B.Budaqov, Q.Qeybullayev) ilə razı deyilik. Adın türk mənbələrində Arbad, Arebat, XVII yüzil erməni mənbəyində və XIX yüzildən etibarən isə bütün mənbələrdə Arbat şəklində işlənməsi sübut edir ki, onun ilkin adı **Arbad** olmuş, **Ar//ər** və **abad** komponentlərindən ibarət olmaqla **"ərlərin yurdu"** mənasını bildirmişdir. Toponimin **Ərəblər** anlamında **Ərəbat** şəkləndə olması ehtimalı da istisna təşkil etmir. Müqayisə et: qonşuluqda yerləşən Ərəbgirli kəndi.

Xatırladırıq ki, Türkmənistanda Daş Arbat, Kızıl Arbat, Azərbaycanda XIX yüzildə Cavad qəzasında Arbat oykonimləri mövcud olmuşdur.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Arbat kəndinin Xaçaparaq kəndinin yaxınlığında yerləşdiyi **İbrahim Əhməd oğlunun** adına zeamət olduğu və ondan.dövlətin müxtəlif vergilər şəklində ildə 20.000 ağça gəlir götürdüyü qeyd edilmişdir.

İ.Şopendə (1832) Zəngibasar mahalının Arbat kəndində 50 təsərrüfatda 264 nəfər (139 kişi, 125 qadın) müsəlman əhali, 31 təsərrüfatda 127 nəfər (61 kişi, 66 qadın) İrandan köçürülüb gətirilmiş erməni qeydə alınmışdır.

1873-cü ilin statistik məlumatlarında kəndin mülkədar kəndi olduğu, Zəngi çayından çəkilən **Şirabad arxı** kənarında yerləşdiyi və burada 74 təsərrüfatda 527 nəfər (280 kişi, 247 qadın) azərbaycanlı yaşadığı göstərilmiş, kənddə bir məscid binası da qeydə alınmışdır. Həmin məlumatlarda kənddə bir nəfər belə ermənin mövcud olmaması söyləməyə əsas verir ki, 1828-1829-cu illərdə Arbat kəndində yerləşdirilmiş İrandan gəlmə erməni əhali sonrakı illərdə burada duruş gətirə bilməmiş, erməni qaçqınlarının çoxluq təşkil etdiyi kəndlərə köçüb getmişlər.

1886-cı il siyahıyaalması zamanı da İrəvan qəzasının Hacı Eylas nahiyəsindəki bu kənddə ancaq Azərbaycan türkləri yaşamışlar: 88 təsərrüfatda 538 nəfər (314 kişi, 224 qadın).

Kənd əhalisinin sayı 1897-ci ildə 671 nəfər, 1905-ci ildə 754 nəfər, 1914-cü ildə 780 nəfər azərbaycanlı olmuşdur.

1918-1919-cu illərdə kənd erməni vəhşilərinin hücumuna məruz qalmış, talan edilmiş, dağıdılmış, yandırılmış, əhalisinin bir hissəsi qətlə yetirilmiş, sağ qalanlar isə Arazın o tayına – Türkiyəyə pənah aparmışlar.

1922-ci ildə kənd əhalisinin az bir hissəsi doğma yurduna qayıda bilmiş, lakin qayıdıb kənddə erməni daşnakları tərəfindən yerləşdirilmiş Türkiyədən gəlmə ermənilərlə qarşılaşmışlar. O vaxtdan da kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kəndə çevrilmişdir. Lakin üstünlük yenə də yerli əhalidə – azərbaycanlılarda olmuşdur. Belə ki, 1922-ci ildə kənddə 263 nəfər azərbaycanlı, 138 nəfər erməni, 1926-cı ildə 341 nəfər azərbaycanlı, 214 nəfər erməni, 1931-ci ildə 356 nəfər azərbaycanlı, 263 nəfər erməni siyahıya alınmışdır.

1948-1949-cu illərin məlum deportasiyası zamanı isə kəndin bütün azərbaycanlı əhalisi zorla Azərbaycana köçürülmüşdür. Sonralar tək-tək ailələr geri qayıdıb kənddə yaşasalar da, 1988-ci il soyqırımı zamanı onlar da kənddən qovulmuş və bu qədim Azərbaycan kəndi tamamilə erməniləşdirilmişdir.

* * *

Bu kənddə Aşıq Əli adlı məşhur bir aşıq olub. Bütün mahalda onu **Arbatlı Aşıq Əli** deyə çağırarmışlar.

Arbat kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı

Poçt – 1
Əczaxana – 1
Yeməkxana – 1
Kitabxana – 1
Məktəb – 1
X/b mal-qara – 190
İ/b mal-qara – 100
K/t maşınları – 21
Avtobus – 1
Avtomaşınlar (yük, minik) – 12
Məscid – 1
Ambar binaları – 3
Ding və dəyirman – 1
Transformator – 1
Quşçuluq ferması – 1
X/b mal-qara tövləsi – 3
İ/b mal-qara tövləsi – 2
Həkim məntəqəsi – 1
Xəstəxana – 1
Uşaq bağçası – 1
İdarə binası – 1
Kino binası – 1
Mədəniyyət evi – 1

AŞAĞI ÇARBAĞ

Zəngibasar mahalında, Zəngi çayının yaxınlığında, İrəvan şəhərinin kənarında, Çarbağ kəndindən 1-2 km aşağıda kənd.

1918-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri, 1918-ci ildən etibarən həm də ermənilər yaşamışlar.

XX yüzilin əvvəllərinə qədər Zəngibasar mahalı ərazisində yalnız bir Çarbağ kəndi mövcud olmuşdur. "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Qırxbulaq nahiyyəsinin **Çarbağ kəndi** kimi qeydə alınan bu kənd və Çarbağ adının etimoloji izahı barədə bu kitabın Çarbağ (Yuxarı Çarbağ) kəndi haqqındakı oçerkdə ətraflı bəhs edəcəyik. Ona görə də təkrara varmadan bildiririk ki, XX yüzilin əvvəllərində Çarbağ kəndinin aşağısında salınmış yeni kənd Aşağı Çarbağ, əvvəlki Çarbağ kəndi isə Yuxarı Çarbağ adlanmağa başlanmışdır. Lakin kəndin Çarbağ (Yuxarı Çabağ) kəndindən törəmə, ondan kiçik və ona yaxın olması səbəbindən bütün statistik göstəricilərdə Aşağı Çarbağa aid məlumatlar Çarbağ (Yuxarı Çarbağ) kəndi ilə bir yerdə verilmişdir.


1918-ci ildə Yuxarı Çarbağ kəndi ilə birgə Aşağı Çarbağ kəndi də erməni daşnakları tərəfindən soyqırımına məruz qalmış, kənd yerlə-yeksan edilmişdir.

Sovet hakimiyyətinin ilk illərində Yuxarı Çarabağ kəndinin sağ qalmış qaçqın əhalisi ilə yanaşı, aşağı çarbağlıların da az bir hissəsi Vətənə dönmüşdür. Lakin bu kəndin taleyi də Çarbağ kəndinin taleyi ilə eyni olmuş, İrəvan şəhərinin genişləndirilməsi bəhanəsi ilə kəndlər ləğv edilərək İrəvan şəhərinə birləşdirilmişdir. Kəndlərin azərbaycanlı əhalisi isə sıxışdırılıb, öz doğma kəndlərindən çıxarılmışlar. Bununla belə, xatırladırıq ki, Aşağı Çarbağ kəndində **M.Cəfər evləri** adlanan bir neçə ev 1950-ci ilə qədər qalmaqda idi.

AŞAĞI NECİLİ

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 2 km qərbdə, Uluxanlı dəmiryol stansiyasının yaxınlığında, Zəngi çayının sol sahilində kənd.

Kənddə 1950-ci ilə qədər (1828-ci ildən sonrakı qısa bir müddət istisna olmaqla) ancaq Azərbaycan türkləri, 1950-1988-ci illərdə azərbaycanlılarla ermənilər yanaşı yaşamış, 1988-ci ildə kənd bütünlüklə ermənileşdirilmişdir.



Aşağı Necili kəndinin ümumi görünüşü

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) kəndin adı Qırxbulaq nahiyəsinin **Balaşlı Nəcli,** İ.Şopendə (1832) və sonrakı bütün mənbələrdə **Aşağı Necili** şəklində qeydə alınmışdır.

Xalq arasında belə bir rəvayət var ki, Necili (Yuxarı Necili) kəndində bir-birindən inciyənlər gedib aşağıda məskən salarmışlar və Yuxarı Necilidən 2 km aşağıda yerləşən Aşağı Necili kəndi beləcə yaranmışdır.

Elmi ədəbiyyatda, kəndin adının **Necili** tayfasının adından yaranması fikri (B.Budaqov, Q.Qeybullayev) mövcuddur. Lakin biz bu fikirlə kifayətlənməyərək toponimin, hətta onun mənbəyi olan eyniadlı etnonimin tarixi köklərinə enmək istərdik.

Öncə xatırladaq ki, Necili adı İ.Şopenin özünün də diqqətini çəkmiş və o, məşhur "İstoriçeskiy pamyatnik" əsərində belə bir güman irəli sürmüşdür ki, Stepan Orbelianın **Nedis** adı ilə xatırlat-

dığı, XII yüzildə gürcü çarı Dimitri Davidoviçin vaxtında xalqın Hrasdan (Zəngi) çayı üstündə Ərmən atabəyi **Dərsəicanın** (oxu: **Dirsə xanın**) şərəfinə xaç ucaltdığı kənd elə Necili kəndidir.

Lakin nədənsə belə bir fakt hamının diqqətindən yayınıb ki, məşhur Arman tarixçisi Moisey Xorenli Armaniyanın (Arman ölkəsinin) 15 əyaləti sırasında yeddinci olan Ararat əyalətinin 19 dairəsindən (mahalından) on beşincisini **Nig** adı ilə qeydə almış və onun Qırxbulaq-Zəngibasar mahalları ərazisini əhatə etdiyini göstərmişdir. Belə olan surətdə **Necili** (**Nig-eli//Nic-eli//Necili**) toponiminin bu qədim mahalın adını daşıdığı və ən azı iki min ilə yaxın yaşa malik olduğu fikri ortaya çıxır. **Nig//Nuh** paralelini nəzərə aldıqda isə **Nuh-eli** mənasında bu toponimin tarixi daha qədimlərə gedir. Toponimin **el//il** komponenti isə toponimi yaradanların etnik mənsubiyyətini (türklüyünü) tam aşkarlayır.

Digər tərəfdən xatırladaq ki, M.Xorenli Ararat əyalətinin Kotayk dairəsində **Ncin** adlı yaşayış məntəqəsi də qeydə almışdır ki, İ.Şopen bu kəndin də Necili kəndi olduğunu ehtimal edir.

Yuxarı Necili kəndindən olan tədqiqatçı Əsgər Zeynalovun isə Necili toponimini **"cilsiz yer"** kimi mənalandırmasını tamamilə səhv hesab edirik.

Kəndin adının Zəngibasar mahalı ərazisində məskunlaşan üç qardaşdan (Ulu xan, Ağa xan və Nici xan) birinin – Nici xanın adından yaranması fikri isə xalq etimologiyasından başqa bir şey deyil və heç bir elmi əsası yoxdur.

Professor S.Şükürovun "Necili əslində Keçilidir, qədim türk tayfalarından birinin adını yaşadır. Çox güman ki, dilə yatımlı olsun deyə xalq onu bu şəkildə işlətmiş və elə bu formada da müasir dövrə gəlib çıxmışdır" – fikri ilə də qətiyyən razılaşmaq mümkün deyil.

Aşağı Necili kəndində 1831-ci ildə 45 təsərrüfatda 411 nəfər (203 kişi, 208 qadın) yerli müsəlman, 24 təsərrüfatda 114 nəfər (68 kişi, 46 qadın) İrandan köçürülüb gətirilmiş erməni siyahıya alınmışdır.

1873-cü ilin statistik məlumatlarında kənddə ancaq azərbaycanlı əhalinin qeydə alınması – 125 təsərrüfatda 1.183 nəfər (613 kişi, 570 qadın) – təsdiq edir ki, 1828-1829-cu illərdə kəndə köçürülmüş gəlmə ermənilər burada uzun müddət duruş gətirə bil-

məmiş, ermənilərin daha sıx yaşadığı kəndlərə çıxıb getmişlər.

Sonrakı illərdə kənd daha sürətlə böyümüş və 1886-cı ildə İrəvan qəzasının Hacı Eylas nahiyəsinin bu kəndində 168 təsərrüfatda 1.147 nəfər (649 kişi, 498 qadın) azərbaycanlı qeydə alınmışdır.

Kənddə 1897-ci ildə 1.178 nəfər, 1905-ci ildə 1.430 nəfər, 1914-cü ildə 1.573 nəfər azərbaycanlı yaşamışdır.

1918-1919-cu illərdə kəndin əhalisi iki dəfə qaçqın düşmüşdür. Birinci dəfə 1918-ci ildə əhali doğma yurdundan qovulmuş və Türkiyə ərazisinə sığınmışdır. Sonra geri qayıdan camaat bir də 1919-cu ildə qovulub kənddən çıxarılmışlar. Sonuncu tarixdə erməni-daşnak quldur dəstələri kəndi darmadağın etmiş, əhalinin bir hissəsi amansızlıqla qətlə yetirilmiş, sağ qalanlar baş götürüb Arazın o tayına mühacirət etmişlər.

Sovet hakimiyyətinin ilk illərində kəndin qaçqın əhalisinin bir qismi doğma yurda qayıtmış, bir neçə il sahibsiz qalmış kəndi təzədən bərpa edib, yaşamağa başlamışlar. 1922-ci ildə kənddə cəmi 555 azərbaycanlı qeydə alınmışdır. 1926-cı ildə onların sayı 726 nəfər, 1931-ci ildə 627 nəfər olmuşdur.

Sovet hakimiyyəti illərində kənd sürətlə inkişaf etmiş, 1950-ci illərdə kənd kolxozunun bazasında yaradılan tərəvəzçilik sovxozu əhalinin rifahının yaxşılaşmasında mühüm rol oynamışdır. Kənddə ikimərtəbəli yaşayış evləri tikilmiş, orta məktəb, mədəniyyət evi, uşaq bağçası, tibb məntəqəsi, rabitə şöbəsi, məişət xidməti emalatxanası, klub, kitabxana və s. ictimai və inzibati obyektlər fəaliyyət göstərmişdir. Lakin bütün sahələrdə azərbaycanlıların diskriminasiyası öz işini görürdü. Xüsusilə 1950-ci ildə azərbaycanlıların deportasiya olunması və kənddə xaricdən gətirilmiş erməni ailələrinin yerləşdirilməsi gələcək fəlakətlər üçün zəmin hazırlayırdı.

1978-ci il yanvarın 25-də ermənilər öz murdar niyyətlərinə doğru daha bir addım atmış oldular – kəndin Aşağı Necili adı dəyişdirilərək **Sayat Nova** qoyuldu.

1988-ci il soyqırımı zamanı isə Aşağı Necili kəndi görünməmiş bir vəhşiliklə – erməni terrorizmi ilə üz-üzə dayandı. Ermənistanda dövlət səviyyəsində həyata keçirilən azərbaycanlıların soyqırımı Aşağı Necili kəndində də azərbaycanlı əhalinin doğma yurdundan vəhşicəsinə qovulması ilə nəticələndi.

* * *

Aşağı Necili kəndi strateji cəhətdən çox uğurlu coğrafi mövqedə yerləşirdi. Kəndin bir tərəfindən Zəngi çayı axır, digər tərəfindən İrəvan-Naxçıvan-Bakı dəmiryol xətti, üçüncü tərəfdən İrəvan-Üçkilsə avtomobil yolu keçirdi. Kənd bu üçünün ortasında idi. Kəndin kənarından **Dəyirman** çayı axırdı. Başlanğıcını gözələrdən götürən çay kəndin dəyirmanını işlətdiyi üçün bu adı almışdı. **Haramı** çayı Dəyirman çayından ayrılır, **Zimird novla** gəlib Zəngi çayına tökülürdü. Zəngi çayının suyu sarımtıl olduğu üçün camaat onu **Sarısu** da adlandırırdı.

Aşağı Necilidən Sarvanlara getmək üçün Zəngi çayı üstündən tarixən 3 körpü olub. 1. **Daş körpü** – ən qədim körpü idi, çayın kənarında xarabalıqları qalırdı. 2. **Taxta körpü** – artıq sınıb dağılmaqda idi. 3. **Dəmir körpü** – bu gün də fəaliyyət göstərir.

Kəndin iki məscidi vardı, biri kəndin cənub hissəsində yerləşirdi, digəri Zəngi çayına yaxın yerdə idi. **Köhnə məscidin** xarabalıqları dururdu və onun nə vaxtdan tikildiyi məlum deyildi. **Təzə məscid** XX yüzilin əvvəllərində tikilmişdi. Aşağı Necili camaatı dini adət, mərasim və ayinləri həmişə ciddi şəkildə gözləyər və bunlara əməl edərdilər. Kəndin tarixində **Molla Zeynalabdin, Hacı Molla Əsəd, Molla Nəcəf, Hacı Molla Əli, Molla Məmmədhüseyn, Molla Bayraməli, Molla Abbas, Axund Əli, Molla Bağır** kimi nüfuzlu din xadimləri olmuşlar.

Kərbəlayi Yusif Axund Əli oğlu Axundov İraqın Nəcəf şəhərində dini təhsil almışdı. 1917-1918-ci illər qırğını zamanı atasını erkən itirən Yusif Nəcəfə getmiş, burada təhsil almış, 1921-ci ildə Vətənə qayıdıb, İrəvandakı məşhur Göy məsciddə təhsilini davam etdirmişdi. 1948-ci il deportasiyasına qədər kolxozda müxtəlif vəzifələrdə çalışırdı.

1984-cü ildə Qafqaz Müsəlmanları Ruhani İdarəsinin rəhbəri Şeyxülislam Hacı Allahşükür Paşazadə də Aşağı Necili kənd məscidində olmuş, kəndin dindar camaatı ilə görüşmüşdür.

Hacı Şamama Əkbərova 1992-ci ildə türklərin Bakı şəhərinin Qaraçuxur qəsəbəsində tikdirdiyi Hacı Saleh məscidində dini təhsil almış, 1996-cı ildə Məşhəd, 1998-ci ildə Kərbəla, 2000-ci ildə Həcc ziyarətində olmuşdur. Molla kimi böyük şöhrət qazanmışdır.

Kəndin iki də müsəlman qəbiristanlığı vardı. **Köhnə qəbiris-**

tanlıq Zəngi çayının o tayında yerləşirdi. **Təzə qəbiristanlıq** kəndin içində, məscid binasının arxa tərəfində, Zəngiyə doğru idi. 1950-ci ildən etibarən kənddə məskunlaşmağa başlayan gəlmə ermənilər isə özlərinə yeni erməni qəbiristanlığı salmışdılar.

Kəndin təzə müsəlman qəbiristanlığında **Mir Abbas ağanın** qəbri yerləşirdi ki, bu qəbir ocağa çevrilmişdi. Kənddə and içəndə Mir Abbas ağanın qəbrinə and içir, onun ocağına qurban deyir, niyyət edir, burada şam yandırırdılar.

Hacı Mir Cəlil ağanın ocağı da adamların iman yeri idi. Adamlar bu ocağa ceyran gəldiyindən danışırdılar.

Kəndin tarixində onun şəxsiyyətlərinin xüsusi yeri var. Keçmişdə **Vəli qlava** kəndə uzun müddət qlavalıq etmiş, bölgədə Sovet hakimiyyətinin qurulması ilə bağlı köçüb Türkiyəyə getmişdi.

Aşağı Necili kəndi Zəngibasar rayonu ərazisində rayon mərkəzinə ən yaxın kənd olduğu üçün erməni daşnaklarının hücum və təhdidlərinə digər kəndlərə nisbətən həmişə daha çox məruz qalmışdır. 1918-ci ildə də belə olmuşdur. Lakin ermənilərin murdar niyyətlərindən vaxtında xəbər tutan Aşağı Necilinin **Məşədi Abbas, Məşədi Ələsgər, Musa Molla Məmmədhüsyn oğlu** kimi qeyrətli oğulları bölgədə erməni quldurlarının qarşısını almaq üçün imkanlı adamlardan pul toplayaraq Zəngibasara iki vaqon silah alınıb gətirilməsinə nail olmuşlar. Hətta erməni daşnaklarının duyuq düşməsi nəticəsində bu silahı vaqonlardan boşaldarkən Uluxanlı stansiyasında atışma düşmüş, bu atışmada xeyli erməni ilə yanaşı, Aşağı Necilidən iki qardaş da həlak olmuşdu.

Məşədi Ələsgərlə Məşədi Abbasın kəndin kənarında hündür evləri vardı, 1918-ci ildə burada 40-a qədər erməni silahlısını boğub, meyidlərini gecə ikən Zəngi çayına tökmüşdülər.

Bununla belə, Silahlı erməni dəstələrinin hücumlarına davam gətirə bilməyən Aşağı Necili camaatı 1918-ci ildə Arazı keçib Türkiyəyə sığınmağa məcbur olurlar. Lakin bir qədər sonra onlara xəbər göndərilir ki, daşnaklar çəkilib gedib və kənddə bir nəfər də erməni yoxdur, geri qayıdın. Ermənilərin bu hiyləsinə aldanan camaat kənddə doğrudan da erməni yaşamadığını öyrənib geri dönürlər. Bir müddət sonra – 1919-cu ilin payızında, çəltik biçini qabağı daşnaklar qəfil hücumla kəndi işğal edir, kəndin bütün sərvətini ələ keçirirlər. Camaat təzədən Arazın o tayına sı-

ğınmağa məcbur olur. Ermənilərin bu qəfil hücumu zamanı Arazdan keçərkən kənd camaatı xeyli tələfat verir.

İki ilə yaxın Türkiyə, İran ərazisində mühacirətdə qalan əhali 1921-ci ildə Culfadan keçərək Naxçıvana gəlir, bir neçə ay burada daldalanıb, Zəngibasar mahalı erməni daşnaklarından təmizləndikdən sonra doğma yurda qayıdırlar. Bu vaxt artıq kənd tamam məhv edilmiş, daşı üstə daş qalmamışdı. Əhali təzədən özünə ev-eşik düzəltməyə başlayır.

Lakin bu, çox çəkmir. Aşağı Necili kəndinə qarşı ermənilərin gizli soyqırımı davam edir. 1930-cu ildə kənd camaatının bir hissəsini Azərbaycana – Marzığa (Mingəçevirə) köçürürlər. Lakin adamlar iqlim şəraitinə dözməyib, geri dönürlər.

1941-1945-ci illər müharibəsi zamanı da kənd böyük itkilər vermişdir. Kənddən həmin müharibəyə 200 nəfərdən çox kişi getmiş, onların 120 nəfərdən çoxu geri qayıtmamışdır.

Aşağı Necili kəndi növbəti deportasiyaya 1950-ci ildə məruz qalıb. Həmin il noyabrın 28-də kənddəki 240 ailədən 200-ü Uluxanlı dəmiryol stansiyasında yük vaqonlarına doldurularaq Azərbaycana deportasiya olunub. Köçürülənlər Beyləqan və Ucar rayonlarına paylaşdırılıblar. Zəngibasar kimi bol sulu rayondan gətirilib, bu susuz çöllərə tökülən camaat az vaxtda xeyli itki verib. Təkcə Beyləqan rayonunda Aşağı Necili kəndindən 30-a qədər ailə tələf olub.

Bir müddət sonra sağ qalan əhalinin əksəriyyəti geri – Aşağı Neciliyə qayıdıb. Bu vaxt artıq kənddə həm də ermənilər məskunlaşdırılmışdılar. Maraqlıdır ki, xaricdən gələn ermənilərı yerləşdirmək bəhanəsi ilə boşaldılan kəndə bir nəfər də xarici erməni köçürülməmişdi. Köçürülənlər "Ermənistanın" dağlıq Şəmşəddin, Yeni Bayazid rayonlarının ermənilərı idilər. Abarandan isə yezidi kürdlər gətirilmişdilər.

Sovet hakimiyyəti illərində **Muxtar Xudu oğlu, Süleyman kişi, Kor Abbasəli, Əli kişi, İsmayıl Məmmədov, Bağır Bağırov, Hüseyn Məmmədov, Cabbar Quliyev, Feyzulla kişi, Məmməd Nəcəfov, Babayev, Əbülfət Əliyev, Səttar Abbasov, İsmayıl Quliyev, Əjdər Kazımov, Rəcəb Məmmədov, Cəfər Əsgərov, Tahir Bayramov** ayrı-ayrı vaxtlarda kənddə sovet sədri, kolxoz-sovxoz rəhbəri, məktəb direktoru vəzifələrində işləmişlər.

Qasım Məmməd oğlu Kazımov A.Şadlinskinin "Qırmızı ta-

bor“unda erməni daşnaklarına qarşı mübarizə yolu keçmişdi.

Rəcəb Nağıyev çar dövründə Məşhəd ziyarətinə gedərək Məşədi Rəcəb adını almış, Sovet hakimiyyətinin ilk illərində Bakıda oxuyub Aşağı Neciliyə qayıtmış, uzun müddət kolxoz sədri işləmiş, ZSFSR-nın deputatı – MİK-nin üzvü seçilmişdir.

Kəndin yetirmələrindən **Məmməd Nəcəfov, Məhərrəm Bayramov, Sürəyya Hüseynova** Ermənistan SSR Ali Sovetinin deputatları olmuş, rayon azərbaycanlılarını ləyaqətlə təmsil etmişlər. **Sürəyya Hüseynova** həmçinin 1984-cü ildə qabaqcıl, tərəvəzçi kimi, “Şərəf nişanı“ ordeni ilə təltif edilmişdi.

Qafar Əkbər oğlu Kərimov 1901-ci ildə Aşağı Necili kəndində anadan olmuş, 1938-ci ildə Daşkənd Kənd Təsərrüfatı İnstitutunu bitirmiş, Bakı şəhərində rəhbər vəzifələrdə çalışmış, İkinci Dünya müharibəsinin iştirakçısı olmuş, !945-ci ildən başlayaraq Azərbaycan Respublikası Torpaq Komitəsində şöbə rəisi, Respublika Heyvandarlıq Nazirliyində şöbə rəisi, 1956-1962-ci illərdə Beyləqan rayonunda sovxoz direktoru vəzifələrində işləmişdir.

İsmayıl Əhməd oğlu Məmmədov 1905-ci ildə Aşağı Necili kəndində anadan olmuş, 1937-1940-cı illərdə Basarkeçər rayon komsomol komitəsinin birinci katibi, 1940-1946-cı illərdə Aşağı Necili kolxozunun sədri, 1946-1950-ci illərdə pambıq məntəqəsinin direktoru vəzifələrində işləmiş, 1950-ci ilin oktyabrında Azərbaycana – Ucar rayonunun Alpout kəndinə deportasiya olunmuşdu.

Fərman Məmməd oğlu Nəcəfov 1950-ci illərdən üzü bəri kolxozda müxtəlif vəzifələrdə işləmiş, SSRİ kənd təsərrüfatı sərgisinin qızıl, gümüş və bürünc medalları ilə təltif olunmuşdu. Bir çox orden və medallara layiq görülən F.Nəcəfov 1971-ci ildə “Şərəf nişanı“ ordeni ilə də təltif edilmişdir.

Məmmədəli Cəfərov Azərbaycanda müxtəlif rəhbər vəzifələrdə – Sabirabadda 1-ci katib, sonralar Daşkənddə məhkəmə sədri və zavod direktoru işləmişdir.

Seyfulla Hənif oğlu Cəfərli 1927-ci ildə Aşağı Necili kəndində anadan olmuşdur. Ailələri 1933-cü ildən Balakən rayonunda yaşayır. 1951-ci ildə Azərbaycan Dövlət Univermitetini jurnalistika ixtisası ilə bitirən S.Cəfərli uzun illər mətbuat və teleradio srhələrində çalışmışdır: 1959-1961-ci illərdə “Sosialist Sumqayıtı“ qəzetində redaktor müavini, 1962-1971-ci illərdə televizi-

yada böyük redaktor, 1971-1976-cı illərdə "Xalq təsərrüfatı" redaksiyasının baş redaktoru, 1976-1991-ci illərdə sənaye redaksiyasının baş redaktoru. 1961-ci ildən Azərbaycan Jurnalistlsr Birliyinin üzvü, 1972-ci ildən "Qızıl qələm" mükafatı laureatı, respublika mətbuatında dərc olunmuş yüzlərlə məqalənin, iki kitabça və iki qısametrajlı sənədli filmin müəllifidir.

Sovet hakimiyyətinin ilk illərində Aşağı Necili kəndində **Həbib kişinin** evində birsinifli yeni tipli məktəb açılmış, sonralar həmin məktəb ibtidai məktəbə çevrilmişdi. 1933-cü ildə kənddə birmərtəbəli yeni məktəb binası tikilmiş və təhsil yeddiilliyə çevrilmişdi. 1958/59-cu tədris ilində kənd məktəbinin ilk səkkizillik buraxılışı olmuşdur.

1970-ci illərdə kənddə yeni tipli məktəb binası tikilir və məktəb tam orta məktəbə çevrilir. Artıq 1988-ci ildə Aşağı Necili məktəbində 690 nəfər şagird oxuyurdu.

Kəndin ilk müəllimləri sırasında **Ələşrəf Babayevin, Rəcəb Məmmədovun, Fatma Qədimovanın, Hüseyn Məmmədovun, Cəfər Əsgərovun** adlarını çəkmək olar.

Rəcəb Abbas oğlu Məmmədov 1915-ci ildə anadan olmuş, 1937-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirmişdi, kəndin ilk ali təhsilli ziyalısıydı. Pedaqoji fəaliyyətə üstünlük verən R.Məmmədov, məktəbdə kimya-biologiya fənnini tədris etmiş, 1941-1942-ci illərdə Aşağı Necili kənd məktəbinin direktoru olmuş, sonra cəbhəyə getmiş, döyüşlərdə göstərdiyi igidliklərə görə orden-medallarla təltif edilmiş, cəbhədən qayıdıb, 1946-1948-ci illərdə Qaraqışlaq, Aşağı Necili kənd məktəblərinin, deportasiya olunduqdan sonra isə Goranboy rayonunun Əzizbəyov, Bağçakürd, Ağamalıoğlu kənd və Dəliməmmədli qəsəbə orta məktəblərinin direktoru işləmişdi.

Cəfər Əsgərov 1939-1940-cı illərdə kənd məktəbinin direktoru, 1940-1941-ci illərdə isə Zəngibasar rayonunda maliyyə şöbəsinin müdiri işləmiş, 1941-ci ildə cəbhəyə getmiş, orada həlak olmuşdur.

Kazım Məhərrəmov Aşağı Necili kəndinin sayılan ziyalılarından idi. 1929-cu ildə Uluxanlı məktəbini, 1932-ci ildə İrəvan Pedaqoji Texnikumunu, sonra isə pedaqoji institutun ədəbiyyat-tarix fakültəsini bitirmişdi. Müxtəlif illərdə kənd sovetinin katibi, məktəb direktoru, rayon qəzetinin məsul katibi və s. işlərdə işləmiş,

1951-ci ildən etibarən isə Ucar rayonunda müxtəlif məsul vəzifələrdə çalışmışdır. Ədəbiyyatımıza və tariximizə dair maraqlı araşdırmalar aparmış, bədii yaradıcılıqla da məşğul olmuşdur.

Kənddə azərbaycanlı balalarının təhsilində **Feyzulla İbrahim oğlu Məmmədovun** xüsusi yeri var. O, 1928-ci ildə anadan olmuş, 1942-ci ildə Aşağı Necili kənd məktəbini, 1945-ci ildə Bakıda API-ni bitirmiş, uzun illər Aşağı Necili yeddiillik məktəbinin tarix müəllimi, orta məktəbə çevriləndə isə həmin məktəbin direktor müavini, sonralar sovet sədri, axşam orta məktəbinin direktoru işləmiş, baş müəllim, metodist müəllim adlarına layiq görülmüşdür. Hazırda Bakının Xətai rayonunun 263 saylı məktəbində tarix müəllimi işləyir.

Murtuz Bağırov 1939-cu ildə Aşağı Necili kəndində anadan olmuş, 1962-ci ildə Azərbaycan Dövlət Universitetini kitabxanaçılıq ixtisası üzrə bitirmiş, uzun illər Naxçıvan Respublika Kitabxanasında şöbə müdiri, direktor müavini və direktor vəzifələrində çalışmışdır. 1980-ci ildən pedaqoji işlə məşğuldur və hazırda Bakı Dövlət Universitetinin kitabxanaçılıq fakültəsinin müəllimi, 100-ə yaxın elmi, publisist məqalənin və üç kitabın müəllifidir. Murtuz müəllimin atası **Məmmədhüseyn** kişi də 1918-1919-cu illərdə erməni daşnaklarına qarşı fəal mübarizlərdən olmuşdur.

Tahir Əliş oğlu Həsənov Odessa Dəniz Mühəndisləri İnstitutunu bitirmişdir, 1974-cü ildən Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi sistemində çalışır. 1990-cı ildən bu sahədə rəis vəzifəsində işləyir.

Faiq Qafar oğlu Kərimov Azərbaycan Müdafiə Nazirliyində bölmə rəisi vəzifəsində çalışır.

Sədi Yusif oğlu Bağırov 1998-ci ildən etibarən Bakı şəhəri Səbail rayon İcra Hakimiyyətinin Bibi Heybət qəsəbəsi üzrə icra nümayəndəsidir.

Bakı şəhərindəki 115-saylı məktəbin Azərbaycan dili və ədəbiyyatı müəlliməsi **Məhin Məmmədova** ömrünü uşaqların təlim-tərbiyəsinə həsr etmişdir.

Aşağı Necili kəndinin iqtisadiyyatının əsasını çəltikçilik, bostançılıq, bağçılıq, tərəvəzçilik və pambıqçılıq təşkil etmişdir. Su sarıdan bol olduğu üçün burada çəltikçilik xüsusilə geniş inkişaf etmiş, 1941-1945-ci illərdə bu sahəyə diqqət xeyli artmış, müha-

ribədən sonra isə tədricən azaldılaraq, tamamilə yığışdırılmışdır. 1949-1950-ci illərdə pambıqçılıq da bütünlüklə ləğv edilmişdir.

Əvvəllər Aşağı Necili kəndinin torpaq sahələri xeyli geniş olsa da, sonralar bu torpaqların bir hissəsi Sarvanlar, Uluxanlı və Yuxarı Necili kəndlərinə verilmişdi. Bununla belə, yenə də kəndin təsərrüfatında təkcə elə 250 ha əkin sahəsi, 100 ha otlaq qalırdı.

Əvəllər Yuxarı Necili kəndi ilə bir yerdə vahid sovxoz şəklində mövcud olan Aşağı Necili təsərrüfatı sonralar ayrılıb, müstəqil sovxoz olmuşdu. Sovxozun fermaları hər yay **Qızılziyarət** dağına qalxardı. Kəndin uşaqları isə yay tətilində Dərəçiçək mahalına düşərgəyə gedərdilər. Kənd camaatı yayda yaylağa qalxmazdı.

1988-ci ildə kənddə 490 təsərrüfat vardı. Onun 90-ı erməni, 10-12-i müsəlman kürdü, qalanları (təqribən 390-ı) azərbaycanlılar idilər.

1980-ci illər üçün kəndin iqtisadiyyatı artıq xeyli inkişaf etmiş, əhalinin güzəranı xeyli yaxşılaşmışdı. Kənddə, demək olar ki, bütün sosial obyektlər mövcud idi. Bakıdan İrəvana gələn bütün musiqi və teatr kollektivləri kəndin müasir tipli, 250 yerlik mədəniyyət evində konsert və tamaşalarla çıxış edirdilər.

Lakin 1988-ci ilin məlum hadisələri kənd camaatını öz yer-yurdundan qopartdı, illər boyu adamların alın təri ilə yaratdığı şərait, yığdığı var-dövlət ermənilərin murdar caynağına keçdi.

Həmin hadisələr zamanı **Məhərrəm Əli oğlu** İrəvan-Bakı qatarında o qədər döyülmüşdü ki, çəkib-çəkib 1 il sonra vəfat etdi.

Ermənilərin Aşağı Necili kəndinə ən dağıdıcı hücumu 1988-ci il iyunun 18-də oldu. Həmin gün ermənilər Aşağı Necili kəndinə bir neçə istiqamətdən hücuma keçdilər. Evlər dağıdıldı, yandırıldı. Bu vəhşi aksiyaya rayonun erməni rəhbərləri özləri başçılıq edirdilər.

Qədim Zəngibasar mahalının digər kəndləri kimi, Aşağı Necili kəndi də həmin il erməni vəhşiliyinin qurbanı oldu, camaat dədə-baba yurdundan qovulub çıxarıldı. Bu gün Aşağı Necili camaatı əsasən Bakı şəhərində məskunlaşsalar da, Azərbaycanın, demək olar ki, bütün rayonlarına səpələnmişlər. 1920-1930-cu illərdə Türkiyəyə sığınan aşağı necililərin nəvə-nəticələri bu gün həmin qardaş ölkədə də yaşamaqdadırlar. Məsələn, həmin vaxtlar Türkiyəyə köçüb gedən Məşədi Məhərrəmin oğlu **Abdulla**

Tırtıl son vaxtlar İstanbul şəhərinin bələdiyyə başqanı idi.

Aşağı Necili kəndində bir sıra tayfalar yaşayırdı. Onlardan **Xəlifəli** tayfası kəndin, eləcə də Zəngibasar mahalının ən böyük tayfalarındandır. Mənbələrdə Zəngibasar mahalı ərazisində ayrıca Xəlifəli kəndinin qeydə alınması söyləməyə əsas verir ki, bu tayfa keçmişdə bölgədə xüsusi nüfuza malik olmuşdur. Yüzillər boyu qanlı-qadalı müharibələr, işğallar, talanlar nəticəsində kəndin adı və ərazisi dəyişdirilmiş, nəhayət, Xəlifəli etnotoponimi öz mövcudiyyətini Aşağı Necili kəndi tərkibində Xəlifəli tayfası şəklində qoruyub saxlamışdır. Tayfanın bir qanadına **Mehdi kişi** rəhbərlik etmiş, onun **Bayram** və **Qurban** adlı iki oğlu olmuşdur. Onların nəvə-nəticələri bu gün Bayramov, Qurbanov soyadlarını daşımaqdadırlar. Bu gün bütün qərbi azərbaycanlıların ehtiramla yad etdiyi mərhum **Məhərrəm Bayramov,** tanınmış jurnalist **Bəxtiyar Səttaroğlu,** fizika-riyaziyyat elmləri namizədi **Nizami Bayramov** və b. bu nəsildəndirlər.

Göyçəbəylər tayfasının yaranması ilə bağlı isə xalq arasında belə rəvayət var ki, kənddə 6 qardaş varmış. Bəy ailəsindən olduqlarından onlara Göyçək bəylər deyirmişlər. Onlardan törəyənlər Göyçəbəyli tayfası kimi tanınmışlar. Lakin mahal ərazisində Göyçəbəyli adlı ayrıca bir kəndin mövcud olması bu etnotoponimin daha ciddi şəkildə tədqiqi ehtiyacını doğurur.

Bu tayfadan **Məşədi Haqverdi** XX yüzilin əvvəllərində dəstə toplayaraq Andranikin quldur dəstələrinə qarşı vuruşmuş, Sovet hakimiyyəti qurulanda köçüb Türkiyənin İqdır vilayətində yaşamış, sonra gəlib qardaşı Allahverdini, bacısını, əmisi oğlu Qurbanı da özü ilə aparmışdır.

Bu nəsildən **Cabbar Quliyev** 1944-1948-ci illərdə kənd sovetinin sədri işləmişdir.

Kənddəki **Dömlər** tirəsi haqqında professor S.Şükürov ətraflı məlumat verərək yazır ki, bu tirənin adamlarının dərisi əsasən qaradır. Mənşəcə ərəbdən dönmədirlər və Dömlər adı **Dönənlər** anlamındadır. Dindarlığı ilə fərqlənən bu camaat namazlarında heç bir aksentə yol verməzmişlər. Deyilənə görə, Dömlərin namazlarını və oxuduqları Quranı dinləyən İrəvandakı Göy məscidin axundu "Müqəddəs kitabı belə avazla ancaq ərəblər qiraət edir" demişdir.

Şamqulu tayfası Aşağı Necili kəndinin əsas tayfalarındandır. Tayfa adının yaranması ilə bağlı bir neçə versiya vardır. Onlardan birinə görə tayfa öz adını tayfa başçısı Şamquludan almışdır. İkinci rəvayətə görə, bu, **"Şamdan olanlar"** anlamında məşhur **Şamlı** türk tayfa adından törəmədir. Üçüncü fikrə görə isə, **şama-işığa toplanan** olduqları üçün belə adlandırılmışlar.

Şübhəsiz, biz ikinci versiyaya üstünlük verərək istisna etmirik ki, bu tayfanın həmçinin **Şamqulu** adlı başçısı da olmuş və təsadüfi deyil ki, həmin ad nəsildən-nəsilə ötürülmüşdür. Məsələn, XIX yüzildə Şamqulu kişinin yeddi oğlu, bir qızı olmuşdur: **Abbas, Əkbər, Xəlil, Əhməd, Həsən, İbrahim, Vəli** və **Münəvvər.** Ümumiyyətlə, bu Şamqulunun övlad və nəvələrinin sayı 32 nəfər (31-i oğlan, 1-i qız) imiş.

Şamqulunun oğlanlarından Abbasın üç oğlundan (**Zeynalabdin, Rza, Rəcəb**) Zeynalabdinin oğlu, tarixçi alim **Nuru Məmmədov** haqqında kitabda ayrıca bəhs etmişik.

Şamlı tayfa adı ilə bağlı isə xatırladırıq ki, bu türk tayfası ilk gündən Səfəvi dövlətinin əsas sütunlarından olmuş, bu tayfanın nümayəndələri Səfəvilər dövlətində mühüm vəzifələr daşımışlar. Məsələn, Şah İsmayılın vaxtında (1501-1524) Vedibasar hakimi **Əbdi bəy Şamlı,** Şah Təhmasibin hakimiyyəti dövründə (1524-1576) onun vəkili (dini və dünyəvi məsələlərin həllində şahın tam səlahiyyətli müavini) **Hüseyn xan Şamlı,** 1656-1663-cü illərdə İrəvan əyalətinin bəylərbəyi isə **Nəcəfqulu bəy Şamlı** olmuşdur.

Aşağı Necili kəndində yaşayan köklü nəsillərdən biri də **Hacı Abuzər nəsli** idi. **Hacı Abuzər** İranın Çors vilayətində doğulmuşdu. O, Aşağı Necili kəndində Göyçəbəyli nəslindən olan yüzbaşının qızı Xanımalı ilə evlənmiş və Çorsa getmişdi. Onun yeddi oğlu olmuşdu. Onlardan ikisi – **Hacı Abbas** və **Kərbəlayi Hüseyn Hacı** Abuzərlə birlikdə Aşağı Neciliyə qayıtmış və burada daimi məskunlamışlar. Hacı Abbasın da yeddi oğlu, Kəblə Hüseynin isə dörd oğlu, üç qızı olmuşdur.

Son illər Aşağı Necili kəndində Hacı Abuzər nəslinin iki qanadı olmuş, Hacı Abbasın törəmələri həm **Abuzərov,** həm də **Abbasov** soyadlarını, Kəblə Hüseynin törəmələri isə **Hüseynov** soyadını daşımışlar.

Bu gün Hacı Abuzər nəslinin nümayəndələri Azərbaycanın

bir sıra rayonlarında və bir neçə xarici ölkədə yaşamaqdadırlar. Xaricdə yaşayanlar, əsasən, Hacı Abuzərin İranın Çors vilayətində qalan övladlarının törəmələridirlər. Bundan əlavə, Hacı Abuzərin oğlu Hacı Abbasın oğlu **Yunis** 1928-ci ildə Türkiyənin Qars əyalətinə köçmüş, ömrünün sonuna qədər orada yaşamışdır ki, onun da törəmələri indi Türkiyədədirlər.

Hacı Abbasın böyük oğlu **Məşədi Teymur** ömrünün sonuna qədər Aşağı Necilidə yaşamış, üç oğlu, bir qızı olmuşdur. Məşədi Teymurun böyük oğlu **Məşədi Abbas** İkinci Dünya müharibəsinin iştirakçısı olmuş, çoxlu orden-medallarla təltif edilmişdir. Məşədi Abbasın oğlu **Qabil** Bakıda Rus Dili və Ədəbiyyatı İnstitutunu bitirmişdir və hazırda mətbuat orqanlarının birində fəaliyyətini davam etdirir.

Seyid Məmməd Hacı Mircəlil oğlu Cəfərov kəndin ağır seyidlərindən idi. Onlar dörd qardaş idilər: **Hacı Mirheydər, Miryunis, Mirəsgər, Seyid Məmməd.** Hacı Mirheydər Sankt-Peterburqda gimnaziya bitirib, kənddə rus dili müəllimi işləmişdi. Üstəlik, Türkiyədə dini təhsil də almışdı.

İlham Fərman oğlu Cəfərov hazırda "Respublika" qəzetinin Quba-Xaçmaz bölgəsi üzrə müxbiridir.

Keçmişdə Aşağı Necilidə **Aloş, Baloş** və **Mamoş** adlı üç qardaş olmuş, onlar 1913-cü ildə Romanovlar sülaləsinin 300 illik hakimiyyətinin təntənəli yubileyində Peterburq şənliklərində milli geyimdə iştirak etmiş, nağarada çaldıqları "Cəngi" imperatorun çox xoşuna gəlmiş və çar onlara nişan, çoxlu hədiyyələr vermişdir. 1937-1938-ci illərin repressiyası zamanı isə imperatordan nişan aldıqları üçün onları həbs edib, sürgünə göndərmişlər.

Aşağı Necili kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı

Poçt – 1
Əczaxəna – 1
Yeməkxana – 1
Kitabxana – 1

Məktəb – 1
X/b mal-qara – 115
İ/b mal-qara – 110
K/t maşınları – 23
Avtobus – 1
Avtomaşınlar (yük, minik) – 10
Məscid – 1
Ambar binaları – 2
Ding və dəyirman – 1
Transformator – 2
Quşçuluq ferması – 1
X/b mal-qara tövləsi – 2
İ/b mal-qara tövləsi – 2
Həkim məntəqəsi – 1
Xəstəxana – 1
Uşaq bağçası – 1
İdarə binası – 1
Kino binası – 1
Mədəniyyət evi – 1

KƏNDİN TAYFA VƏ NƏSİLLƏRİ

Aşağı Necili kəndində əsas üç tayfa olmuşdur: Xəlifəli, Göyçəbəyli, Şamqulu.

Xəlifəli tayfasının nəsilləri: Molla Məmmədhüseyn uşağı, Qədeşlər, Pənahlılar, Hacı Səfər uşağı, Sultanlılar, Novruz uşağı, Kəlba Məhərrəm uşağı, Məşədi Qulam uşağı, Seyidlər, Dömlər, Məşədi Rəhim uşağı, Məşədi İco uşağı, Balabançılar uşağı, Əli Tağı oğlu uşağı.

Göyçəbəyli tayfasının nəsilləri: Hacı Abuzər uşağı, Abolar, Mollaoğlu Cabbar uşağı, Rzaqulu uşağı, Məşədi Qəhrəman uşağı, Bağırlar, Mehdiqulu uşağı, Kəlba Abdulla uşağı, Məşədican uşağı.

KƏNDİN TOPONİMLƏRİ

Çay və bulaq adları: Zəngi (Sarısu) çayı, Dəyirman çayı, Haramı çayı, Mollarza bulağı, Mərzənin ləki, Vəli qlavanın bulağı,

Kəlba Usubun bulağı, Məşədi Səttar bulağı, Ələkbərin bulağı, Zimird nov.

Yer adları: 30 sentner, Eşşəkquduran, Qaratəpə (Yengicə kəndi ilə A.Necili kəndi arasında), Ponqara, Yeddilər, Əhmədağa bağı, Məşədi Abbas bağı, Məşədi Ələsgərin bağı, Təhman, Tutmalıq, Əriklik, Dolu, Güzdək, Qobular, Münəvvərin qobusu.

Məhlə və körpülər: Qədeşlər məhləsi, Molla Məmmədhüseyn uşağının məhləsi, Kəlba Əkbərin körpüsü, Dəmir körpü, Taxta körpü, Daş körpü.


1930-1940-CI İLLƏRİN REPRESSİYA QURBANLARI

1. Molla Nəcəf
2. Kəlba Miri ağa
3. Mir Əli
4. Salah Nağıyev
5. Məşədi Xəlil
6. Məşədi Ələsgər
7. Məşədi Hüseyn
8. Mehdi kişi
9. Əhməd kişi
10. Kürd Həmid
11. Kürd Nadir
12. Kürd Tahar
13. Kürd İlyas
14. Kürd Usub
15. Aloş
16. Baloş
17. Mamoş

QARABAĞ MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

1. Nüsrəddin Hüseyn oğlu Quliyev (1953, A.Necili – 1994, Füzuli).
2. Əsgər Fərman oğlu Cəfərov (1968, A.Necili – 1994, Füzuli).
3. Ayaz Tağı oğlu Məhərrəmov (1975, A.Necili – 1994, Füzuli).

HÜSEYN RƏHİM OĞLU MƏMMƏDOV



Zəngibasar mahalının say-seçmə ziyalılarından idi. 1906-cı ildə Aşağı Necili kəndində, mahalın tanınmış kişilərindən **Məşədi Rəhim Mehdiqulu oğlunun** ailəsində dünyaya göz açmış, ilk təhsilini kənddə, yüksək savad sahibi olan əmisi **Hacı İbrahimdən** almış, sonra təhsilini Uluxanlı dəmiryol stansiyasında yeni açılmış ikisinifli realnı məktəbində davam etdirmişdi.

1917-ci ilin sonlarında atası dünyasını erkən dəyişdiyindən böyük qardaşı **Məhəmməd** ailənin qayğısını öz üzərinə götürmüş, lakin az sonra azərbaycanlıların 1918-ci il soyqırımı başlanmış və Məhəmməd də daşnaklar tərəfindən güllələnmişdi.

1920-ci ilin payızına qədər Xoyda, Mərənddə qaçqın taleyi yaşayan Hüseyn və anası **Zeynəb Talıb qızı** Ermənistanda bolşevik hökuməti qurulduqdan sonra doğma Neciliyə qayıtmışlar. Ailənin doqquz uşağından sağ qalmış yeganə övlad olan H.Məmmədov müxtəlif illərdə Tiflisdə Zaqafqaziya Kommunist Universitetini, Bakıda Ali Partiya Məktəbini, Moskvada Timiryazev adına Kənd Təsərrüfatı Akademiyasını bitirmiş, 1928-ci ildən başlayaraq Zəngibasar, Meğri, Vedi rayon partiya komitələrində, Ermənistan komsomolu MK-da yüksək vəzifələrdə işləmişdir.

H.Məmmədovun ensiklopedik bilik sahibi olması, bir neçə dil bilməsi ona jurnalistika sahəsində də uğur qazandırmışdı. O, 1930-1940-cı illərdə müxtəlif vaxtlarda "Qızıl Şərq" ("Sovet Ermənistanı") respublika qəzetinin məsul katibi və redaktoru vəzifələrində çalışmış, 1930-cu illərdə Vedibasar mahalının Qarabağlar rayonunda Xalq Maarifi Şöbəsinin müdiri işləmişdir.

1936-1937-ci illər repressiyası Ermənistan KP MK-da məsul vəzifədə çalışan H.Məmmədovdan da yan ötməmiş, onu "imperializmin casusu" damğası ilə NKVD-nin zindanına atmışlar. Bir il iki ay müddətində verilən ağır işgəncələrdən sonra isə "günahı" sübut olunmayan H.Məmmədova bəraət vermək məxburiyyətində qalmışlar.

1942-ci ilin yanvarınadək Ermənistan KP MK kənd təsərrüfatı

şöbəsinin məsul işçisi olan H.Məmmədov Stalin direktivinə uyğun olaraq "hərbi xidmətdən azad edilib, ön və arxa cəbhəni təchiz etmək üçün kolxoz və sovxozlara rəhbərliyə göndərilən" 30 min nəfərdən biri kimi, İrəvan yaxınlığındakı Hacı Eylas kənd kolxozuna sədr təyin edilmiş, 1947-ci ilədək həmin vəzifədə çalışmışdır.

1947-50-ci illərdə H.Məmmədov doğma Aşağı Necili kəndindəki kolxoza rəhbərlik etmişdir. 1948-53-cü illərdə doğma yurdlarından deportasiya olunanlar arasında H.Rəhimoğlunun ailəsi də olmuş, 1950-55-ci illərdə Ucar rayonunda yaşamışlar.

1955-ci ilin payızında kəndə qayıdan H.Məmmədova camaat yüksək etimad göstərmiş, 1956-cı ilin yanvarında onu kənd kolxozuna təzədən sədr seçmişlər. O, ömrünün sonunadək doğma kəndindəki təsərrüfatda rəhbər vəzifələrdə çalışmışdır.

H.Məmmədov 1920-ci illərin sonundan vəfat edənədək müxtəlif vaxtlarda Ermənistan KP və Ermənistan komsomolu MK-larının, İrəvan Şəhər Partiya Komitəsinin, Zəngibasar, Vedi, Qarabağlar, Ucar, Eçmiədzin, Şaumyan RPK-nın üzvü, bir sıra rayon, şəhər və kənd sovetlərinin deputatı, bir çox qurultay və konfransların nümayəndəsi olmuş, dəfələrlə orden və medallarla təltif edilmişdir.

H.Məmmədov 1970-ci il yanvarın 24-də vəfat etmişdir və Aşağı Necili kənd qəbiristanlığında qardaşı Məhəmmədlə yanaşı uyuyur.

O, beş oğul, altı qız atası idi.

TAHİR BAĞIR OĞLU BAYRAMOV



1914-cü ildə Aşağı Necili kəndində anadan olmuş, İrəvan Pedaqoji Texnikumunu bitirmiş, Zəngibasar RPK-də işləmiş, Böyük Vətən müharibəsi illərində həmin rayonun hərbi komissarlığına, bir qədər sonra isə rayonda MTS-ə başçılıq etmişdir. Uzun illər bu rayonda İcraiyyə Komitəsinin sədri olan, rəhbər partiya, sovet və təsərrüfat vəzifələrində fədakarlıqla çalışan T.Bayramov 1953-1956-cı illərdə Ermənistan KP MK nəzdində partiya məktəbində təhsil almış, Meğri rayonunda müxtəlif vəzifələrdə, o cümlədən MTS-in müdiri və RPK-nin katibi işləmişdir.

1959-1963-cü illərdə doğma kəndində, 1963-1968-ci illərdə Qaraqışlaq sovxozunda direktoru işləmişdir.

1969-cu ildə səhhətinin pisləşməsi ilə əlaqədar respublika əhəmiyyətli fərdi təqaüdə çıxarılmış, 1970-ci ildə Bakı şəhərinə köçərək ömrünün sonuna – 1973-cü ilədək Bakı şəhər yaşıllaşdırma trestində baş direktorun müavini vəzifəsində çalışmışdır.

Oğlu Feliks Bayramov Bakıda API-nin kimya fakültəsini, Moskvada Ümumittifaq Yeyinti Sənayesi İnstitutunun şərabçılığın texnologiyası fakültəsini bitirmiş, uzun illər İsmayıllı rayonunun müxtəlif şərab zavodlarının direktoru olmuş, 1999-2000-ci illərdə Bakı şəhər Nərimanov rayonunun vergi idarəsinə başçılıq etmişdir.

MƏHƏRRƏM BAĞIR OĞLU BAYRAMOV



1928-ci il mayın 13-də Aşağı Necili kəndində anadan olmuşdu.

Yeddiillik kənd məktəbini bitirdikdən sonra İrəvan Pedaqoji məktəbində təhsil almış və bir il doğma kəndində müəllim işləmişdir.

1947-ci ildə Bakıya gələrək ADU-nun filologiya fakültəsinə daxil olur, 1952-ci ildə oranı müvəffəqiyyətlə bitirib, Azərbaycan LKGİ MK-da təlimatçı kimi fəaliyyətə başlayır. 1954-cü ildə təzədən İrəvana qayıdır və Ermənistan LKGİ MK-da eyni vəzifədə (təlimatçı) fəaliyyətini davam etdirir. Bir il sonra Ermənistan KP MK-nın təlimatçısı vəzifəsinə irəli çəkilir.

M.Bayramov 1964-1966-cı illərdə Vedi RPK-nin katibi, 1966-1969-cu illərdə "Sovet Ermənistanı" qəzetinin redaktor müavini kimi məsul vəzifələrdə çalışır.

1969-cu ildə əhalisinin əksəriyyəti azərbaycanlılardan ibarət olan Amasiya rayonuna birinci katib təyin olunur. Beş il bu vəzifədə böyük müvəffəqiyyətlə işləyən M.Bayramov 1974-cü ildən ömrünün sonuna – 1981-ci ilə qədər "Sovet Ermənistanı" qəzetinin baş redaktoru vəzifəsində çalışır. O, bu illərdə həmçinin Ermənistan SSR Ali Sovetinin sədr müavini, Ermənistan KP MK-nın üzvü, Ermənistan SSR Ali Sovetinin deputatı idi.

Məhərrəm Bayramov dövlət orqanlarında müxtəlif məsul vəzifələrdə çalışmaqla yanaşı, bədii və elmi yaradıcılıqla da müntəzəm məşğul olmuşdur. Xüsusilə "Ədəbi Ermənistan" silsilə məcmuəsində bədii, elmi, publisistik yazılarla ardıcıl çıxış etmişdir. 1964-cü ildə "Fırtınadan

sonra“ hekayələr toplusu, 1966-cı ildə “C.Məmmədquluzadə və A.Şirvanzadə“ kitabı İrəvanda nəşr olunmuşdur.

1960-cı illərdə Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasında təhsil alan M.Bayramov 1969-cu ildə akademik Məmməd Arifin rəhbərliyi altında “A.Şirvanzadə və Azərbaycan“ mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. Bu bacarıqlı, istedadlı və qeyrətli insan ömrünün ən gözəl vaxtlarında – 1981-ci il yanvarın 6-da 53 yaşında erməni terrorçuları tərəfindən vəhşicəsinə qətlə yetirilmiş və bu faciə o vaxt Qərbi Azərbaycanda hamını sarsıtmışdı.

NAZİM ƏLİ OĞLU TAĞIYEV



1928-ci ildə Aşağı Necili kəndində anadan olmuşdur.

1950-ci ildə İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumunun, 1956-cı ildə isə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun baytarlıq fakültələrini bitirmişdir.

1956-cı ildə təyinatla Ağcabədi rayonunun baytarlıq idarəsinin müdiri, 1957-1961-ci illərdə Hacıqabul rayonunda MTS-in baş baytar həkimi işləmişdir.

1961-ci ildə Moskva şəhərində Baytarlıq Akademiyasının aspiranturasına daxil olmuş, 1965-ci ildə orada dissertasiya müdafiə edərək baytarlıq elmləri namizədi alimlik dərəcəsi almışdır.

1965-1966-cı illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun Mingəçevir konsultasiya məntəqəsinin müdiri, 1966-1971-ci illərdə Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin baş baytarlıq idarəsində dövlət baytar müfəttişi, 1971-1975-ci illərdə həmin idarədə baş baytar həkimi, 1975-1980-ci illərdə müalicə-profilaktika idarəsinin müdiri, 1980-1986-cı illərdə Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin baş baytırlıq idarəsinin rəisi – respublika baş dövlət baytar müfəttişi, 1986-2000-ci illərdə Dövlət Baytarlıq Komitəsində baş baytar həkimi işləmişdir. 2000-ci ildən etibarən baytarlıq baş idarəsində aparıcı baytar həkimi işləyirdi. 2001-ci ildə dünyasını dəyişmişdir.

1978-ci ildə Azərbaycan Ali Sovetinin fəxri fərmanı və Əməkdar baytar həkimi adı ilə təltif edilmişdir.

NURU ZEYNALABDİN OĞLU MƏMMƏDOV



1946-cı il yanvarın 1-də Aşağı Necili kəndində anadan olmuşdur.

1969-cu ildə H.Zərdabi adına Gəncə Dövlət Universitetinin tarix fakültəsini fərqlənmə diplomu ilə bitirmiş, həmin il Azərbaycan EA Tarix İnstitutunun aspiranturasına daxil olmuş, 1976-cı ildə dissertasiya müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi almışdır.


1974-1981-ci illərdə Tarix İnstitutunda əvvəl baş laborant, sonra kiçik elmi işçi, daha sonra isə baş elmi işçi vəzifələrində işləmiş, 1981-1983-cü illərdə Bakı Dövlət Universitetinin dosenti vəzifəsində çalışmışdır.

1983-1994-cü illərdə Təhsil Nazirliyinin göndərişi ilə Gəncə Dövlət Universitetinin siyasi tarix kafedrasının müdiri vəzifəsində işləmiş, 1997-ci ildə yenidən Bakıya qayıdaraq Bakı Dövlət Universitetində elmi-pedaqoji fəaliyyətini davam etdirmişdir.

Dosent N.Məmmədov ciddi və dərin elmi axtarışlar müəllifidir. Bu günə qədər 7 kitabçası, 120-yə qədər elmi və publisistik məqalələri nəşr edilmişdir. 1920-30-cu illərdə tariximizin bir çox aktual problemləri, o cümlədən erməni-Azərbaycan münaqişəsinin sosial-siyasi kökləri, xalqımıza qarşı həyata keçirilmiş soyqırımları, deportasiya və s. N.Məmmədovun araşdırdığı elmi-tədqiqat sahələridir.

N.Z.Məmmədov hazırda doktorluq işi üzərində işləyir.

NİZAMİ KAZIM OĞLU MƏHƏRRƏMOV (TURANTÜRK)



1947-ci il dekabrın 16-da Aşağı Necili kəndində anadan olmuşdur.

1950-ci ildə Məhərrəmovlar ailəsi deportasiyaya məruz qaldıqlarından Nizami də orta təhsilini Göyçayın 3 saylı məktəbində başa vurmuşdur. 1967-1969-cu illərdə Almaniyada Sovet qoşunları qrupunda hərbi xidmətdə olmuş, 1970-1975-ci illərdə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində təhsil almışdır.

1976-1992-ci illərdə AKP Binəqədi rayon təşkilatında siyasi maarif kabinetinin müdiri, sonra Sov. İKP MK MLİ Azərbaycan filialında sənədlər üzrə təlimatçı, oradaca elmi işçi, baş elmi işçi, daha sonra "Elm" qəzetində şöbə müdiri, Nazirlər Kabinetinin Baş Arxivlər idarəsində birinci dərəcəli ixtisasçı kimi çalışmışdır.

Tarix elmləri namizədidir. 1992-ci ildən Respublika Müdafiə Nazirliyinin ali hərbi məktəbində ictimai elmlər kafedrasında dosent, baş müəllim kimi çalışır. Azərbaycan tarixini tədris edir.

N.Kazımoğlu Azərbaycanın real tarixinin sənədlər əsasında yazılmasına səylə çalışan alimdir, bu səpgidə yazılmış bir sıra kitab və kitabçaların, 300-dən çox elmi, publisistik, tarixi, ədəbi oçerk və məqalələrin müəllifidir.

"Sirlər açılır" elmi-tarixi-ədəbi qəzetin təsisçisi, naşiri və baş redaktoru, Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. "Nizami" adlı Cəmiyyət yaratmış, Azərbaycanın tarixi ensiklopediyasının yaradılması təşəbbüsü ilə çıxış etmişdir.

O, XX yüzilin sonlarında Azərbaycanın müstəqilliyi uğrunda başlamış milli azadlıq mübarizəsinin də fəal iştirakçılarından olmuş, 1998-ci ildə iki yoldaşıyla Beynəlxalq Azərbaycan-Litva Dostluq Cəmiyyətini təsis etmişdir və hazırda cəmiyyətin həmsədridir.

BABƏK HÜSEYNOĞLU



Babək Hüseyn oğlu Məmmədli 1950-ci il avqustun 29-da Aşağı Necili kəndində anadan olmuqşdur. Atası **Hüseyn Məşədi Rəhim** oğlu mahalda, həmçinin bütün Qərbi Azərbaycanda tanınmış ziyalılardan, partiya-təsərrüfat rəhbərlərindən idi.

B.Hüseynoğlu hələ körpə ikən köçkünlüyün acı taleyini yaşamalı olmuş, 1950-ci ilin oktyabrında Azərbaycanın Ucar rayonuna deportasiya edilmiş ailələri bir də 1955-ci ilin payızında doğma kəndlərinə qayıda bilmişlər.

B.Hüseynoğlu A.Necili kənd məktəbində səkkizillik təhsilini başa vurduqdan sonra 1966-cı ildə Uluxanlı qəsəbə orta məktəbini bitirmişdir.

İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinin son kursunda oxuyarkən "Sovet Ermənistanı" respublika qəzetində ədəbi işçi kimi əmək fəaliyyətinə başlamış, sonralar burada 1974-cü ildə baş ədəbi işçi, məsul katibin müavini, şöbə müdiri vəzifələrində işləmişdir.

1982-ci ilin sonlarında Bakı şəhərinə köçmüş, yaradıcılıq fəaliyyətini Azərbaycan Dövlət Teleradio Verilişləri Komitəsində davam etdirmiş, əvvəl radioda, az sonra isə televiziyada redaktor, böyük redaktor, şöbə müdiri vəzifələrində çalışmışdır. 1984-cü ilin yanvarından 1990-cı ilin aprelinədək Azərabycan televiziyası hərbi-vətənpərvərlik şöbəsinin müdiri işləmişdir.

1988-ci ildən xalq hərəkatının fəal üzvlərindən olmuş, 1988-90-cı illərdə dəfələrlə İrəvan, Zəngəzur, Ağbaba mahallarına, Xankəndi, Şuşa, Laçına gedərək xalqın daşnaklara qarşı mübarizə əzmini artırmaq üçün əlindən gələni etmişdir.

1990-cı il 19 Yanvar axşamı Azərbaycan televiziyasının enerji blokunun rus hərbçiləri tərəfindən partladılmasının şahidi olmuşdur.

Yanvarın 20-də səhər, o zamankı MK binası qarşısında toplanmış izdihamlı mitinqdə çıxış edərək Sovet imperiyasını, Kommunist Partiyasını, onun yeritdiyi mənfur siyasəti lənətləmiş və etiraz əlaməti olaraq kommunist adından və partiya biletindən imtina etdiyini bildirmişdir. Həmin vaxtdan müxtəlif təzyiqlər və repressiyalara məruz qalan Babək Hüseynoğlunu Komitənin yeni rəhbəri aprelin əvvəllərində şöbə müdiri vəzifəsindən qanunsuz olaraq azad etmiş, elə ertəsi gün o, "Qayğı"


Cəmiyyətinin orqanı olan "Aydınlıq" qəzetinə baş redaktor təyin olunmuşdur. Beləliklə, 1990-cı il avqustun 4-də müasir Azərbaycanın ilk demokratik qəzetləri ("Azadlıq", "Azərbaycan") sırasına B.Hüseynoğlunun redaktə etdiyi "Aydınlıq" qəzeti də daxil olmuşdur.

1993-cü ilin iyun hadisələri ölkədəki içtimai-siyasi durumu kökündən dəyişmiş, Ə.Elçibəy hakimiyyəti H.Əliyev hakimiyyəti ilə əvəzlənmiş, iyunun 26-da Babək Hüseynoğlu Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin sədri təyin edilmişdir. 1996-cı ilin sentyabrınadək həmin vəzifədə çalışan B.Hüseynoğlu qısa vaxtda televiziya və radioda yeni-yeni verilişlərin hazırlanmasına, teleradionun texniki bazasının möhkəmlənməsinə. müasir avavdanlıqla təchiz edilməsinə nail olmuşdur.

Babək Hüseynoğlu 1975-ci ildən Jurnalistlər İttifaqının üzvüdür. İlk yazısı 1963-cı ildə "Azərbaycan pioneri" qəzetində dərc edilmişdir. 30 illik professional jurnalistlik fəaliyyəti dövründə yüzlərlə publisistik, ədəbi-bədii məqalənin, onlarla televiziya filmi və verilişinin ssenari müəllifi və redaktoru olmuşdur. Məqalələri müxtəlif illərdə Kanada, Rusiya, Türkiyə, Gürcüstan, Ermənistan mətbuatında çap edilmişdir. Dəfələrlə yaradıcılıq təşkilatlarının yüksək mükafatları ilə təltif olunmuşdur.

Hazırda Azərbaycan Jurnalistlər Birliyinin katibidir.

SƏYYAD ARAN



Səyyad Adil oğlu Salahlı 1952-ci il yanvarın 15-də İmişli rayonunun Qaradonlu kəndində anadan olmuşdur. Əslən Aşağı Necili kəndindəndir, ailələri 1948-ci ildə Azərbaycan Respublikasına deportasiya olunmuşlar.

S.Salahlı 1968-ci ildə 1 saylı İmişli orta məktəbini, 1972-ci ildə N.Tusi adına APU-nun filologiya fakültəsini bitirmişdir.

Əmək fəaliyyətinə 1972-ci ildə İmişli rayonunda müəllim kimi başlamış, 1975-ci ildən direktor müavini, 1990-cı ildən RXTŞ-nin müdiri vəzifələrində çalışmışdır. "Ən yaxşı müəllim" (1978, ÜİLKGİ) adına layiq görülmüşdür.

YAP-ın yaradıcılarından, partiyanın təsis konfransının (Naxçıvan, 21 noyabr 1992) təşəbbüskarlarından və təşkilatçılarındandır. YAP Siyasi Şurasının üzvü və YAP ideologiya şöbəsinin müdiridir.

1995-ci və 2000-ci illər parlament seçkilərində Milli Məclisin deputatı seçilmişdir.


"Körpü" (1983) və "Soyuq günəş" (1996) adlı hekayə və povestlər, "Xaosdan sabitliyə" (1999) adlı məqalələr kitablarının müəllifidir.

Bir sıra xarici ölkələrdə rəsmi səfərlərdə olmuş, beynəlxalq konfrans və simpoziumlarda iştirak və çıxış etmişdir.

Aliələlidir, üç övladı var.

Ən əsası – Vətənini və Millətini dərindən sevən, həyatda və siyasətdə səmimi olmağı, siyasətdə ziyalılığını qoruyub saxlamağı bacaran tək-tək insanlardandır.

BƏXTİYAR SƏTTAROĞLU



Bəxtiyar Səttar oğlu Bayramov 1952-ci ildə Aşağı Necili kəndində anadan olmuşdur.

1969-cu ildə orta məktəbi fərqlənmə ilə bitirmiş, həmin il ali məktəbə – M.F.Axundov adına Azərbaycan Dövlət Pedaqoji Dillər İnstitutunun ingilis və Azərbaycan dilləri fakültəsinə qəbul olunmuş, 1974-cü ildə ali təhsilini müvəffəqiyyətlə başa vurmuşdur.

Sonrakı illərdə Azərbaycanın bir sıra rayonlarında, Tovuz, Zəngibasar və Dərəçiçəkdə müəllim işləmişdir.

1977-1978-ci illərdə ordu sıralarında xidmət etmişdir. Ehtiyatda olan zabitdir.

1985-ci ildən 1988-ci ilin məlum hadisələrinə qədər "Sovet Ermənistanı" qəzetində müxbir vəzifəsində çalışmışdır.

1988-90-cı illərdə "Elm və həyat" jurnalında işləmiş, 1990-cı ilin mart ayından "Vətən səsi" qəzetinin əvvəlcə şöbə müdiri, baş redaktorun müavini, 1993-1997-ci illərdə isə baş redaktoru olmuşdur.

Eyni zamanda 1994-1996-cı illərdə "Ana Vətən" qəzetinə baş redaktorluq etmişdir.


Mətbuatda səmərəli fəaliyyətinə görə "Qızıl qələm" mükafatına layiq görülmüşdür.

Hazırda Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətində böyük redaktor vəzifəsində çalışır.

Bəxtiyar müəllim gözəl jurnalist olmaqla yanaşı, həm də Vətəninə, el-obasına bağlılığı ilə çoxlarına nümunədir..

Ailəlidir, iki oğlu, bir qızı var.

NİZAMİ SƏTTAR OĞLU BAYRAMOV



1956-cı ildə Aşağı Necili kəndində anadan olmuşdur.

Aşağı Necili kənd orta məktəbini bitirib, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fizika fakültəsinə daxil olmuş, 1977-ci ildə ali təhsilini müvəffəqiyyətlə başa vurmuşdur.

1977-1979-cu illərdə doğma Aşağı Necili kənd orta məktəbində fizika müəllimi işləmiş, təhsilini davam etdirmək üçün yenidən Bakıya qayıdaraq 1979-cu ilin noyabr ayından Azərbaycan EA-nın Təbmi Ehtiyatların Kosmik Tədqiqatları İnstitutunda baş laborant vəzifəsində çalışmışdır.

1980-ci ildə ordu sıralarına çağırılmış, 1981-ci ilin noyabr ayından Azərbaycan Dövlət Universitetinin fizika fakültəsinin "Optika və molekulyar fizika" kafedrasında laborant vəzifəsinə işə qəbul olunmuşdur.

Elmi işlə əlaqədar 1982-ci ilin dekabr ayından iki il müddətində M.V.Lomonosov adına Moskva Dövlət Universitetində elmi ezamiyyətdə olmuş, qayıdıb ADU-da fəaliyyətini davam etdirmişdir.

Bu illər ərzində dünyanın bir çox aparıcı ölkələrinin – ABŞ, Avstraliya, İtaliya, Çexoslovakiya və s. ölkələrin elmi jurnallarında məqalələri çap olunubdur.

1995-ci ildə Bakı Dövlət Universitetinin fizika fakültəsində dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır.

Ailəlidir, üç oğlu var.

VALİDƏ RƏCƏB QIZI ƏLİYEVA



1961-ci il iyunun 8-də Goranboy rayonunun Əzizbəyov kəndində anadan olmuş, 1978-ci ildə Dəliməmmədli qəsəbə orta məktəbini, 1985-ci ildə Azərbaycan Dövlət Universitetinin kitabxanaçılıq fakültəsini bitirmişdir. Elə həmin ildən M.Ə.Sabir adına Bakı Pedaqoji Texnikumunda əmək fəaliyyətinə başlamışdır.

1991-ci ildə Azərbaycan Dövlət Universitetində "Kadrların ixtisasının dəyişdirilməsi və artırılması" fakültəsini bitirmişdir və həmin ildən orada psixologiya müəllimi işləyir.

1999-cu ildə dissertasiya müdafiə edərək, psixologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

Bir neçə ali təhsil müəssisəində mühazirələr oxuyur və elmi məqalələrlə vaxtaşırı mətbuatda çıxış edir.

Ailəlidir, iki övladı var.

NAZİM HÜSEYN OĞLU HƏSƏNOV



1961-ci il avqustun 9-da Aşağı Necili kəndində anadan olmuş, 1978-ci ildə kənd orta məktəbini, 1984-cü ildə Ryazan Ali Hərbi Avtomobil Mühəndisləri Məktəbini bitirmişdir. 1984-cü ildə təyinatla Naxçıvan MR "N" hərbi hissəsinə avtomobil xidmətinin rəisi vəzifəsinə göndərilmiş, burada hərbi hissələrdə müxtəlif vəzifələrdə işləmiş, 1991-ci ildən Qarabağ uğrunda gedən döyüşlərdə iştirak etmiş, Milli Ordumuzun "N" hərbi hissəsinə komandir vəzifəsinə təyin olmuşdur.

1995-ci ildən respublika DİO-da çalışır. 1999-cu ildə DİN-in Polis Akademiyasını bitirmişdir. Hazırda Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin mühafizə şöbəsində işləyir.

Polis polkovnik-leytenantıdır. Ailəlidir, bir oğlu var.

AŞAĞI ŞİNQOVİT

Zəngibasar mahalında, Norakovit arxı kənarında kənd. İrəvan şəhərinin genişlənməsi ilə əlaqədar 1935-ci ildə İrəvan şəhər sovetliyinin tabeliyinə verilmişdir.

XVIII yüzilin sonlarında Zəngibasar mahalının Şinqovit kəndinə İrandan ilk erməni ailələri köçürülüb gətirilmiş, kəndin aşağısında ev tikib yaşamaqla Aşağı Şinqovit erməni kəndini yaratmışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin **Sənqovit məzrəsi** kimi qeydə alınan və tarixən azəri kəndi olan Şinqovit kəndi, toponimin etimologiyası barədə Yuxarı Şinqovit kəndindən danışarkən ətraflı bəhs edəcəyik. Aşağı Şinqovit kəndinə gəldikdə isə, İ.Şopendə (1832) kəndin adı **Şinqovit** (bu vaxt qədim Şinqovit kəndi Bayat Şinqovit adlanmışdır) və sonrakı bütün statistikalarda **Aşağı Şinqovit** kimi verilmişdir.

İ.Şopendə (1832) Zəngibasar mahalının Şinqovit kəndində 85 təsərrüfatda 438 nəfər erməni qeydə alınmışdır ki, onlardan 11 təsərrüfatda 48 nəfəri (25 kişi, 23 qadın) 1828-ci ildə bölgənin ruslar tərəfindən işğalına qədər burada yaşamış, 74 təsərrüfatda 390 nəfəri (204 kişi, 186 qadın) isə 1828-1829-cu illərdə İrandan köçürülüb gətirilmişdilər.

1873-cü ilin statistikasına görə, Aşağı Şinqovit kəndində 31 təsərrüfatda 119 nəfər (64 kişi, 55 qadın), 1886-cı ildə isə 34 təsərrüfatda 118 nəfər (61 kişi, 57 qadın) erməni yaşamışdır.

AZADAŞEN

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 15 km şimalda, Zəngi çayının sağ sahilində kənd.

Kənddə 1929-cu ilə qədər ancaq azər türkləri, həmin ildən etibarən isə həm də ermənilər yaşamışlar. 1940-cı ildə kənd bütünlüklə ermənileşdirilmişdir.

Azadaşen toponiminin hər iki komponenti (**Azad** və **şen**) türk dilindədir. Birincisi xüsusilə Cənubi Qafqazda geniş yayılmış **Az** türklərinin adından (**Az-ad**, yəni **az-lar**; **at//ad** sözlərə artırılan **cəm** şəkilçisidir) yaranmışdır (**qeyri-asılı, sərbəst** mənasında **azad** sözü də həmin kökdəndir). **Şen** komponenti isə türk dillərində **yurd, məkan** mənasında (**şenlik** sözü də həmin kökdəndir) işlənən söz hissəciyidir.

Azadaşen kəndinə ilk erməni ailələri 1929-cu ildə köçürülmüşlər. 1931-ci ilin siyahıyaalması zamanı kənddə 30 nəfər yerli azərbaycanlı və 140 nəfər gəlmə erməni qeydə alınmışdır. Lakin bütün Qərbi Azərbaycan ərazisində erməni rəhbərliyinin yeritdiyi anti-türk, antimüsəlman siyasəti nəticəsində Azadaşen kəndinin azərbaycanlı əhalisi də tezliklə sıxışdırılıb çıxarılmış, 1940-cı ildə artıq kənd bütünlüklə ermənileşdirilmişdir.

Yeri gəlmişkən, keçən yüzillərdə Qərbi Azərbaycan ərazisində azad komponentli çoxlu kənd-şəhər adları (Şərur-Dərələyəz mahalında Azadek kəndi, Göyçə və Şirakel nahiyələrində Azadkaha kəndləri və s.) mövcud olmuşdur.

BEYBUTABAD//BEHBUDABAD

Zəngibasar mahalında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri yaşamışlar. Həmin tarixdən etibarən kəndə İrandan xeyli erməni köçürülüb gətirilmiş və kənd ermənileşdirilmişdir.

Kənd adının etimologiyası ilə bağlı belə bir fikirlə razıyıq ki, o, **Beybut (Behbud)** şəxs adından və **"kənd"** mənası bildirən **abad** sözündən ibarətdir.


İ.Şopendə (1832) **Beybutabad** kimi qeydə alınan kənddə 150 təsərrüfatda 866 nəfər (454 kişi, 412 qadın) ancaq İrandan gəlmə ermənin siyahıya alınması göstərir ki, bölgənin Rusiya tərəfindən işğalından sonra kəndin yerli türk-müsəlman əhalisi qovulub çıxarılmış, onların boşalmış evlərində İrandan köçürülüb gətirilmiş ermənilər məskunlaşdırılmışlar.

Sonrakı mənbələrdə kəndin adına rast gəlmədik.

CƏBƏÇİLİ

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 7 km cənub-şərqdə, Qaragöz bulağı kənarında kənd.

1918-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1918-ci ildə kənddə Türkiyədən gəlmə ermənilər də yerləşdirilmiş, 1921-1949-cu illərdə kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuş, 1949-cu ildən sonra bütünlüklə ermənileşdirilmişdir.



Cəbəçili kəndinin ümumi görünüşü

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590), İrəvan nahiyəsinin, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin, İ.Şopendə (1832) Gərnibasar mahalının **Cəbəçili kəndi,** sonrakı mənbələrdə (1873, 1886...) isə **Cəbəçəli kəndi** kimi qeydə alınmışdır.

Kəndin adının etimologiyası ilə bağlı belə bir fikir mövcuddur ki, **"cəbə"** sözü türk dillərində **zireh, "cəbəçi"** isə **silah ustası** mənalarındadır (B.Budaqov, Q.Qeybullayev).

Professor Sadıq Şükürov **"cəbə"** sözünün **söyüd şivələrindən toxunan səbət (zəmbil)** anlamına üstünlük verir və toponimi **"cəbə toxuyanların kəndi"** kimi mənalandırır. Bununla belə, professor diqqəti həm də **"cəbə"** sözünün monqollardakı **ox** anlamına da yönəldir. Üstəlik, monqollarda **geniş sinəli, qüvvətli, çevik adamlara "Cəbə"** ləqəbi verildiyini də xatırladır.

Yeri gəlmişkən, xatırladırıq ki, VII yüzildə Xəzər Xaqanının qardaşının adı Cebu Xaqan olmuş, həmin Cebu Xaqan oğlu Şadla birlikdə Cənubi Qafqaza iki dəfə (626 və 629-cu illərdə) hərbi

yürüş etmiş, bol qənimət ələ keçirmiş, oğlu Şad "ucu-bucağı görünməyən hun qoşunu" ilə burada qalaraq İrəvan çuxurunda məşhur Şadlılar tayfasının əsasını qoymuşdur.

"İrəvan əyalətinin icmal dəftəri"ndə **Cəbəçili kəndinin** Gərni nahiyəsinin **Molla Qulad kəndi yaxınlığında** yerləşdiyi və **Hacı Süleyman oğlunun** timarı olduğu və bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 4.000 ağça gəlir götürdüyü göstərilmişdir.

1831-ci ildə kənddə 19 təsərrüfatda 135 nəfər (72 kişi, 63 qadın) Azərbaycan türkü, 25 təsərrüfatda 140 nəfər (83 kişi, 57 qadın) İrandan köçürülüb gətirilmiş erməni qeydə alınmışdır.

Lakin az sonra gəlmə ermənilər kəndi tərk etmiş və 1873-cü ilin statikasında kənd mülkədar kəndi kimi verilmiş, İrəvan qəzasının Qırxbulaq çayı boyu ərazisində, **Qaragöz bulağı** kənarında yerləşdirilmiş, kənddə 42 təsərrüfatda 252 nəfər (128 kişi, 124 qadın) Azər türkünün yaşadığı göstərilmişdir.

1886-cı ildə kənddə 279 nəfər, 1905-ci ildə 355 nəfər, 1914-cü ildə 390 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci ilin əvvəllərində kənd erməni daşnaklarının hücumuna məruz qalmış, dağıdılmış, talan edilmiş, kənddə yaşayan 63 təsərrüfatda 355 nəfər əhalinin bir hissəsi qətlə yetirilmiş, sağ qalanlar kəndi tərk etməyə məcbur olmuşlar.

Elə həmin vaxtlar kənddə azərbaycanlı evlərində Türkiyədən qaçıb gəlmiş ermənilər yerləşdirilmişlər. Bölgədə Sovet hakimiyyətinin qələbəsindən sonra kəndin sakinləri yavaş-yavaş geri qayıtmış və kənddə artıq ermənilərin yaşadığını görmüşlər. 1922-ci ildə kənddə 101 nəfər azərbaycanlı, 94 nəfər erməni qeydə alınmışdır. 1926-cı ildə əhalinin nisbəti 100 nəfər azərbaycanlı, 124 nəfər erməni, 1931-ci ildə isə 131 nəfər azərbaycanlı, 151 nəfər erməni şəklində dəyişmişdir.


1949-cu ildə isə kəndin bütün türk-müsəlman əhalisi Azərbaycana deportasiya olunmuş, onların evlərində xaricdən və "Ermənistan"ın dağlıq rayonlarından köçürülüb-gətirilmiş ermənilər məskunlaşdırılmış, kənd bütünlüklə ermənileşdirlmişdir.

Kəndin Cəbəçili adı 1960-cı il fevralın 27-də dəyişdirilərək **Crahovit** qoyulmuşdur.

CƏFƏRABAD (YUXARI GÖYKƏND)

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 14 km şimalda, Zəngi çayının sağ sahilində, Cəfərabad arxı kənarında, İrəvan-Üçkilsə yolu üstündə kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri, 1830-cu illərdən etibarən isə İrandan köçürülüb gətirilmiş ermənilər yaşamışlar.



Cəfərabad kəndinin ümumi görünüşü. Rəssam: Cabbar Quliyev

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Qırxbulaq nahiyəsinin **Yuxarı Göykənd kəndi** kimi qeydə alınmış, kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 12.000 ağça gəlir götürdüyü göstərilmişdir. Biz kəndin Göykənd adı ilə qeydə alınması səbəbini oradakı göy kaşılarla bəzədilmiş türbənin mövcudluğu ilə əlaqələndiririk. Əlavə məlumat üçün bir qədər əvvələ – Göygümbət kəndi haqqındakı oçerkə baxmağı məsləhət görərdik.

İ.Şopendə (1832) kənd **Cəfərabad** adı ilə Zəngibasar mahalının xaraba kəndləri siyahısında verilmişdir. Bu, bir daha təsdiq edir ki, kənd xeyli əvvəllərdən mövcud olmuş, 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük da-

ğıntılara məruz qalmış, əhalisi bölgənin ruslar tərəfindən işğalı ilə əlaqədar köçüb, Arazın o tayına – Türkiyəyə getmişlər.

1830-cu illərdə kənddə İranın Xoy, Salmas vilayətlərindən köçüb gəlmiş ermənilər yerləşdirilmiş və kənd beləcə erməni kəndinə çevrilmişdir.

Kəndin Cəfərabad adı isə, göründüyü kimi, **Cəfər** şəxs adından və yaşayış məntəqəsi mənası bildirən **"abad"** sözündən yaranmışdır.

Cəfərabad kənd adının yaranması ilə bağlı professor S.Şükürovun belə bir versiyası var ki, **Şakak** tayfasından olan Xoy xanı **Cəfərqulu xan** 1804-cü ildə İran şahına xəyanət edib Tiflisə qaçmış, rus təbəəliyinə girmişdir. Rusların İrəvana yürüşü zamanı Cəfərqulu xan İran qoşunlarına qarşı qəhrəmanlıqla vuruşmuş və tərəfdarları onun şərəfinə döyüş zonasındakı kəndlərdən birinə öz başçılarının adını verib, onu Cəfərabad adlandırmışlar. Müəllifin Məhəmmədhəsən Vəlilinin (Baharlının) məşhur "Azərbaycan" kitabına söykənərək yazdıqlarına onu da əlavə etmək istərdik ki, o zaman əvvəllər Cənubi Azərbaycanın Xoy və Sərab mahallarında yaşamış şakaklardan (şəfəqlərdən) bir qismi onun dalınca gəlib, general Sisyanov tərəfindən Azərbaycanın müxtəlif yerlərində, əsasən Nuxa nahiyəsində məskunlaşdırılmışlar. Məhəmmədhəsən Vəlili yazır: "Şaqaqlar özlərindən yadigar olaraq, Cəfərqulu xanın namına Cəfərabad adlı kəndlər və vətənlərinin yadigarına Xoy adlı kənd buraxmışlar. Bu kəndlər aşağıdakı məhəllərdə vaqedir: Nuxa qəzasında – Cəfərabad kəndi (2) və Nuxa şəhəri (**no-xoy** kəlməsindən); Quba qəzasında – Cəfərabad; Cəbrayıl qəzasında – Cəfərabad; Cavanşir qəzasında – Xoy".

Heç şübhəsiz, bu sıraya Naxçıvandakı Xok və Zəngibasardakı Cəfərabad kəndlərini də əlavə etmək olar. Lakin bu qədər geniş əraziyə, demək olar ki, bütün Azərbaycan boyu səpələnmiş Cəfərabad və Cəfər komponentli (məsələn, Cəfərli) onlarla toponimi adi bir xanın adı ilə bağlamağın tərəfdarı deyilik. Unutmaq lazım deyil ki, Qazax elinin məşhur tayfalarından biri Cəfərli adlanmış, İslamın güclü təriqətlərindən biri isə Cəfəri təriqəti olmuşdur Bunların hər biri də özlüyündə toponimyaratmada iştirak edə bilərdi.


1873-cü ilin statistik məlumatlarında **Zəngi çayı** və **Cəfərabad arxı** kənarında, İrəvandan Üçkilsəyə gedən poçt yolunun üstündə yerləşən kənddə 30 təsərrüfatda 136 nəfər (72 kişi, 64 qadın) erməni və 1 kilsə qeydə alınmışdır. Kəndin kənarında qeydə alınan 2 qədim türk qala bürcü və o qədər də böyük olmayan möhrə qala isə bu yerin keçmişdə türk-müsəlman, həm də iri bir yaşayış məntəqəsi olduğunu təsdiq edir.

1886-cı ildə kənddə 33 təsərrüfatda 130 nəfər (68 kişi, 62 qadın) erməni yaşamışdır.

Kəndin adı 1946-cı il aprelin 4-də dəyişdirilərək **Arqavand** qoyulmuşdur.

* * *

Cəfərabad kəndi Göygümbətlə kövşən-kövşənə qonşuluqda, İrəvan şəhərinin iki kilometrliyində yerləşirdi. Zəngi çayından ayrılan kiçik qol kəndləri bir-birindən ayırırdı.



Cəfərabad türbəsi

Kənddəki qırmızı tuf daşdan tikilmiş səkkiztilli türbə və onun kitabəsi tarixi əhəmiyyəti ilə xüsusi diqqət tələb edir. Bu türbədən ətraflı bəhs edən tədqiqatçı Məşədixanım Nemətova onu bu yerlərin keçmişindən söhbət açan, olub-keçən əhvalatlardan maraqlı məlumat verən dəyərli tarixi abidə və həm də gözəl sənət əsəri hesab edir. Türbənin günbəzi hələ 1956-cı ildə çox yerdən tökülmüşdü. Deyilənlərə görə, həmin ərazidə Çuxur Səəd vilayətinin əmirlərinə aid bir neçə möhtəşəm türbə olmuşdur. Sonralar onların daşları kənddəki bi-

naların tikintisində istifadə edil-mişdir. Bir vaxtlar burada – kəndin üst tərəfində mövcud olmuş qədim müsəlman qəbiristanlığındakı abidələrdən isə heç biri qalmamışdır. 1950-ci ilə kimi duran bu qəbiristanlıqda qəbirlər qırmızı və boz tuf daşlardan idi. Vaxtilə bu qəbiristanlıqda məscid də olmuşdur.

M.Nemətova sözünə davam edərək yazır ki, türbəni yuxarıdan kəmərvarı əhatə edən kitabə aydın iri süls elementli nəsx xətti ilə ərəbcə yazılmışdır. Kitabə istər bədii tərtibatına, istərsə də məzmun və xətt xüsusiyyətinə görə çox böyük əhəmiyyət kəsb edir, həmin ərazidə ərəb dilini yaxşı bilən, ərəb əlifbasında yazan çox mükəmməl həkkaklıq, xəttatlıq məktəbinin mövcud olduğunu göstərirdi.

Həmin kitabədə Çuxur Səəd vilayətinin Saadlu (Sakadlı) tayfasından olan əmirləri **Pir Hüseyn** və atası **Əmir Səd**in adları çəkilmişdir. Başqa sözlə, kitabədə yazılıb ki, bu günbəzli müqəddəs sərdabə böyük hökmdar **Pir Budaq xanın** və **noyon Yusifin** padşahlığında **Əmir Səidin oğlu Pir Hüseynin** əmri ilə tikilib, hicri tarixlə 816-cı il rəcəb ayının 15-də (**miladi tarixlə 1413-cü il oktyabrın 11-də** – Ə.Ə.) tamamlanmışdır.

Yeri gəlmişkən, xatırladırıq ki, Çuxur-Səəd vilayətini XV yüzilin əvvəllərində Saadlu tayfasından çıxan əmirlər – **Əmir Səid** (1411-ci ilə qədər), onun oğlu **Pir Hüseyn** (1411-1414) və nəvələri **Pir Qaib** və **Avdul** (1425) idarə etmişlər.

Həmin kitabədə Qaraqoyunlu hökmdarı Qara Yusifin "noyon" (sərkərdə), oğlu Pirbudağın "yüksək hökmdar" titulları ilə qeyd olunmasına gəldikdə isə, bu, Cəfərabad kitabəsinin Böyük Teymur öləndən sonrakı dövrdə qələmə alınmasını təsdiqləyir. Bu o dövr idi ki, bütün Azərbaycan torpaqlarını fəth edən Qara Yusif oğlu Pirbudağı taxta əyləşdirmiş və bütün vilayətlərə sərəncam göndərmişdi ki, sikkələr Pirbudağın adına zərb olunsun, came məscidlərində xütbələr Pirbudağın adına oxunsun.

Göründüyü kimi, türbənin kitabəsi onun dəqiq tikilmə tarixini (XV yüzilin birinci rübü) nişan verdiyindən bu abidənin Qızıl Arslan dövründə (1186-1191) tikilməsi barədəki fikri (S.Şükürov) də təkzib edir.

ÇARBAĞ (XÜRRƏMABAD, YUXARI ÇARBAX)

Zəngibasar mahalında, Zəngi çayının yaxınlığında, İrəvan şəhərinin kənarında kənd.

1918-ci ilə qədər kənddə ancaq Azər türkləri, həmin tarixdən etibarən həm də ermənilər yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Qırxbulaq nahiyəsinin **Çarbağ kəndi** kimi qeydə alınmış, kəndin ikinci adının **Xürrəmabad** olduğu, kənddə **Əli Abdulla oğlunun** adına olan timardan dövlətin müxtəlif vergilər şəklində ildə 5.000 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) və sonrakı mənbələrdə (1873,1886...) kəndin adı Zəngibasar mahalının **Çarbax kəndi** kimi verilmişdir. Paqirevin "Qafqazın beşverstlik xəritəsinin alifba göstəricisi"ndə (1913) isə **Yuxarı Çarbax** şəklində qeydə alınmışdır. Əslində kəndin adı **Çarbağdır, Çarbax** adın tələffüz formasıdır.

Kəndin adının etimoloji izahı ilə bağlı mövcud fikrə görə toponim iki komponentdən – türk dillərindəki **"dərə"** mənalı **car** və **"malikanə"** anlamında **bağ** sözlərindən ibarət olmaqla **"mülkədara, hökmdara məxsus iri bağ sahəsi"** mənası bildirmişdir. Orta yüzillərdə Kürdüstanın Ərdəhan əyalətində də Çarbağ adlı hökmdar bağı olmuşdur. İsfahanda da Çarbağ (farsca Çaharbağ) adlı məşhur bağ olmuş və guya Zəngibasar mahalının Çarbax kəndi həmin bağın adından yaranmışdır (B.Budaqov, Q.Qeybullayev).

Lakin Türkmənistanın Qarrıqala rayonunda eyniadlı toponimin qeydə alınması adın etnonim səciyyəsi üzərində də düşünməyə əsas verir. Bu yerdə qədim türk tayfaları olan və xalqımızın etnogenezində iştirak edən peçeneqlərin Çor//Çur//Şor tayfasının adı yada düşür. Üstəlik, xatırladırıq ki, erkən orta yüzillərdə Albaniya və Ərməniyədə geniş yayılmış bu tayfa Zəngibasar mahalı ərazisində də sıx məskunlaşmış, bir neçə kənd adında (Şorlu Dəmirçi, Şorlu Mehmandar, Şorkənd, Çarbax və s.) öz izini qoymuşdur. Bütövlükdə Azərbaycan, o cümlədən Qərbi Azərbaycan ərazisində Çor//Şor komponentli toponimlərin yayıl-

ma arealı barədə Şorlu kəndindən danışarkən bəhs edəcəyik.

Amma faktdır ki, Çarbağ kəndinin ərazisi vaxtilə İrəvan xanlarının bağ yerləri olmuşdur.

İ.Şopendə (1832) **Çarbax** kəndində 7 təsərrüfatda 31 nəfər (17 kişi, 14 qadın) Azər türkü qeydə alınmışdır. Çarbağ kəndinin gəlirindən ildə 4 ağça Kərbəla şəhərindəki İmam Hüseyn məscidinə ayrıldığı da həmin mənbədə göstərilmişdir.

1873-cü ilin statistik məlumatlarında Zəngi çayının yaxınlığında yerləşdirilən bu kənddə 44 təsərrüfatda 201 nəfər (94 kişi, 107 qadın) yaşamış, həmçinin kənddə 1 məscid də siyahıya alınmışdır.

1886-cı ildə kənd əhalisinin sayı 51 təsərrüfatda 241 nəfərə (126 kişi, 115 qadın), 1897-ci ildə 242 nəfərə, 1905-ci ildə 347 nəfərə, 1914-cü ildə 386 nəfərə çatmışdır.

1918-ci ildə erməni daşnaklarının vəhşi hücumlarına məruz qalan kəndin əhalisinə qəddarcasına divan tutulmuş, sağ qalanlar kəndi tərk etməyə məcbur olmuş, Türkiyədən gəlmə ermənilər azərbaycanlıların boşalmış evlərində yerləşdirilmişlər. Kənddə yerləşdirilən gəlmə ermənilərin sayı 1922-ci ildə 166 nəfər, 1926-cı ildə 449 nəfər olmuşdur.

Sovet hakimiyyətinin ilk illərində kəndin qaçqın düşmüş azərbaycanlı əhalisinin bir hissəsi geri – doğma kəndə qayıtmaq imkanı qazanmış, onların sayı 1922-ci ildə 177 nəfərə, 1931-ci ildə 264 nəfərə çatmışdır. Lakin az sonra İrəvan şəhərinin genişləndirilməsi bəhanəsi ilə kənd ləğv edilmiş, İrəvan şəhərinə birləşdirildikdən sonra isə azərbaycanlılar öz doğma ocaqlarından sıxışdırılıb çıxarılmışlar. Həmin əhalinin az bir hissəsi Zəngibasar mahalının yaxın kəndlərində sığınacaq tapmış, çoxu isə köçüb Azərbaycan Respublikası ərazisində məskunlaşmışdır.

ÇOBANKƏRƏ (BÖYÜK ÇOBANKƏRƏ)

Zəngibasar mahalında, Mehmandar kəndi yanında, Ələyəz və Qarnıyarıq dağlarının arasından axıb gələn Kasax çayının Araz çayına töküldüyü yerin yaxınlığında, Zəngi və Qarasu çayları arasında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Mənbələrdə kəndin adı iki variantda – **Çobanqara** və **Çobankərə** şəklində qeydə alınmışdır. Elmi ədəbiyyatda belə bir fikir var ki, "kənd Qazaxların 159 ailədən ibarət Çobankərə tayfasının məskunlaşması nəticəsində yaranmış" (B.Budaqov, Q.Qeybullayev) və təbii ki, belə olan surətdə adını da həmin tayfanın adından almışdır.

Çobankərə adının etimologiyasına gəldikdə isə, tədqiqatçı Q.Qeybullayevin fikrincə, eranın əvvəllərində Cənubi Qafqazda şimaldan hunlarla bir yerdə gəlmiş Kəngər-peçeneqlərin tirələrindən (Çor, Aran, Göyərçinli, Qarabağlı, Kapan, Kəngərli) biri də **Çoban//Çupan** tayfası olmuşdur. X yüzildə cənub-şərqi Avropada Kəngər-peçeneqlərin bir tirəsi Bizans mənbələrində elə **"Çupan"** kimi də qeydə alınmışdır.

Tədqiqatlar onu da sübut edir ki, "Çobankərə" etnoniminin tərkibinə daxil olan **"çoban"** sözü tarixi baxımdan dərin köklərə malikdir. Belə ki, türk-monqol, Altay-türk dillərində **çoban//şaban// şeyban** sözü **knyaz, elbəyi, nəsil ağsaqqalı, el başçısı** mənalarında işlənmişdir. Çobankərə adının mənbəyində **Çobanqara//Çoban Qara** variantı durur və **"Çoban tayfasına mənsub Qara"** (türkcədə **Çoban Kara,** yerli tələffüzdə **Çoban Kərə**) mənasını bildirir.

Yeri gəlmişkən, erkən orta yüzillərdə İranda Şaban-Kərə qalasının mövcudluğu, XI yüzil müəllifi Nizamülmülkün "Siyasətnamə" əsərində İranda bir elin Şabankarələr adlanması faktları da diqqətdən yayınmamalıdır.

Və nəhayət, yaddan çıxarmaq lazım deyil ki, türk-monqol mənşəli **Çobanilər** tayfası XIII-XIV yüzillərdə Azərbaycanın siyasi həyatında çox böyük rol oynamışdır. Çingiz xanın hakimiyyət başına keçməsində mühüm xidməti olmuş, Elxanilər dövründə Urmiya gölü ətrafında məskunlaşmış Suldus tayfasından olan

Əmir Çoban Elxanilər dövlətinin idarəsində yaxından iştirak etmiş, Arqun xan dövründə (1284-1291) isə baş əmir vəzifəsinə yüksəlmişdir. Əmir Çobandan sonra **Şeyx Həsən Çobani, Məlik Əşrəf Çobani** gəlmiş, onlar hüquqi cəhətdən Elxanilərin baş əmirləri kimi tanınsalar da, real hakimiyyət onların əlində olmuşdur. Təsadüfi deyil ki, Azərbaycan türklərinin etnik tərkibində iştirak edən Çobanilərin adı ilə Bütöv Azərbaycan ərazisində çoxlu yaşayış məntəqələri mövcuddur və onlardan biri də çox güman ki, Çobankərə kəndidir.

XVII yüzildə qələmə alınmış "Qızılbaşlar" ("Tarix-i Qezelbaşan") əsərində isə İranın cənubunda Şəbankarə əyalətinin adı çəkilir.

Əslən çobankərəli akademik B.Budaqovun fikrincə, "çobankərəlilərin Qazax dialektində danışması göstərir ki, onlar mənşəcə məhz Qazax mahalında məskunlaşmış Kəngər-peçeneqlərə mənsubdurlar". Sonra fikrini əsaslandırmaq üçün **Qazaxlı** tayfasının tirələri sırasında **Böyük Çobankərə** və **Kiçik Çobankərə** tirələrinin mövcudluğunu misal gətirir. Daha sonra fikrini Böyük Çobankərə kəndində Xalfağıllı (Xəlfəqulular) tayfasının, Qazax rayonunda isə Xəlfələr adlı kəndin olması faktları ilə daha da möhkəmləndirir. Üstəlik, Çobankərədəki tayfalardan biri elə **Qazaxlar** da adlanmışdır.

Akademik B.Budaqovun fikrincə, bütün bu faktlar Çobankərənin Qazaxlar tayfasının və ya kənd əhalisinin bütövlükdə Qazax mahalından köçməsini söyləməyə əsas verir və "çox ehtimal ki, onlar Şıxlı kəndlərindən köçmüşlər".

Lakin biz Qərbi Azərbaycan ərazisində geniş yayılmış Kasax//Qazax etnotoponimini bu dərəcədə lokallaşdırmağın, Qazax rayonundan gəlmə hesab etməyin tərəfdarı deyilik. Çünki **Qazax//Kas-sak** etnotoponimi Bütöv Azərbaycan, o cümlədən Qərbi Azərbaycan ərazisində daha qədimdən mövcuddur. Xatırladırıq ki, mənbəyini Ələyəz və Pəmbək dağlarından götürüb, Hamamlı, Abaran, Əştərək, Üçkilsə rayonlarından keçməklə 89 km-lik məsafə qət etdikdən sonra Araz çayına tökülən nəhəng çayın və Abaran rayonlarındakı bir kəndin adları da **Kasax** olmuşdur. Bu siyahını Qərbi Azərbaycandakı **xaç//xas//kas** komponentli onlarla toponimin hesabına bir neçə dəfə artırmaq da

olar.

İ.Şopendə (1832) **Böyük Çobankərə** ayrıca bir el, tayfa kimi qeydə alınmışdır. Bu el 146 ailədə 951 nəfər (519 kişi, 432 qadın) azəri türkündən ibarət olmuşdur.

Çobankərə toponiminin yaranması ilə bağlı xalq etimologiyasına əsaslanan bir rəvayət də var ki, onu kitabın "Zəngibasar folkloru" bölməsinə daxil etmişik.

1873-cü ildə kənddə yaşayanların sayı 255 təsərrüfatda 2.337 nəfərə (1.293 kişi, 1.044 qadın), 1886-cı ildə 310 təsərrüfatda 2.487 nəfərə (1.359 kişi, 1.128 qadın) çatmışdır.

Sonrakı illərdə kənd əhalisinin sayı daha da artmış, 1897-ci ildə burada 2.631 nəfər, 1905-ci ildə 2.411 nəfər (1905-ci ildə əhalinin sayının bir qədər azalması ermənilərin bölgədə törətdikləri soyqırımı ilə əlaqədardır), 1914-cü ildə 3.089 nəfər azərbaycanlı qeydə alınmışdır.

1918-ci ilin yazında çobankərəlilər daha bir tarixi sınaq qarşısında qalır, Türkiyədə uğradıqları məğlubiyyətin acısını Cənubi Qafqazdakı türk-müsəlman əhalidən çıxmaq üçün burada, xüsusilə Qərbi Azərbaycan torpaqlarında misli görünməmiş soyqırımı törədən erməni vəhşiliyi ilə üz-üzə dayanmalı olurlar. Nizami erməni hərbi qüvvələrinin qarşısını almaq üçün kənd əhalisi kəndin ətrafında səncər qazaraq ermənilərə qarşı mərdliklə vuruşurlar. Nəhayət, erməni qüvvələri qarşısında duruş gətirə bilməyən çobankərəlilər digər azərbaycanlı kəndləri kimi, böyük itkilər verərək Araz çayına üz tutur, çayı keçib, Türkiyəyə pənah aparırlar. Erməni daşnakları kəndi tamamilə dağıdır, yandırıb külə döndərirlər.

1919-1920-ci illərdə çobankərəlilərin çox hissəsi Türkiyədən Cənubi Azərbaycana keçir, Xoy, Təbriz torpaqlarında sığınacaq tapırlar, bir qismi isə oradan da Naxçıvana köçür, Naxçıvan şəhərində, indiki Babək rayonunun Şıxmahmud, Əliabad, Şərur rayonunun Xanlıqlar, Püsyan kəndlərində məskunlaşırlar. Onların çox az bir hissəsi Sovet dövründə Vətənə qayıtmış, Çobankərə kəndini yenidən bərpa etməyə başlamışlar. 1922-ci ildə qayıdanların sayı cəmi 66 nəfər, 1926-cı ildə 279 nəfər olmuşdur. Kəndə qayıdıb, yenidən məskunlaşanların çoxu Hənifəlilər tayfasından idi, sonra Yavıxlılar və b. tayfaların nümayəndələri də köçüb

gəlmişlər.

1937-ci ildə kənddə ilk dəfə kolxoz qurulanda Çobankərədə təxminən 70-80 ev olmuşdur. Lakin respublikanın erməni rəhbərliyi Çobankərə kimi nüfuzlu türk kəndinin təzədən dirçəlməsi ilə heç cür barışa bilməmiş və 1940-cı illərdə buradakı ailələri köçüb qonşu Mehmandar kəndində məskunlaşmağa məcbur etmişlər. Elə o vaxtlardan da kənd ləğv edilmişir. Kəndin bir daha bərpa olunmaması üçün ermənilər onun yerində yeraltı hərbi obyektlər yerləşdirmişlər.

1948-ci ilin avqust ayında Çobankərə və Mehmandar kəndlərinin Azərbaycana deportasiya olunan sakinləri Ağcabədi rayonunun Teymur Quliyev adına kolxozuna köçürülmüş və əsasən rayon mərkəzində məskunlaşmışlar. Mehmandar kəndində yaşamaqda davam edən çobankərəlilər isə 1988-ci ildə Mehmandar kəndinin camaatı ilə birgə növbəti dəfə erməni terrorizminin qurbanı olmuş, Azərbaycan Respublikası ərazisinə pənah gətirmişlər. Bu gün çobankərəlilər Cənubi Azərbaycanın Xoy, Urmiya, Təbriz, Türkiyənin Qars, İstanbul, İzmir şəhərlərində, Azərbaycan Respublikanın isə Ağcabədi, Şəmkir, Yevlax, Şərur, Babək, Şəki, Goranboy, Göyçay, Əli Bayramlı, Bərdə rayonlarında, Bakı, Gəncə, Naxçıvan şəhərlərində daha sıx halda yaşayırlar. Moskvada, Baltiksahili ölkələrdə yaşayib-çalışan çobankərəlilərin xoş sorağı gəlir. Bu gün Türkiyənin İqdar şəhərində Çobankərə məhləsi mövcuddur.

* * *

Çobankərə kəndinin yetirməsi olan akademik **Budaq Budaqov** özünün dəyərli "Çobankərə eli" kitabında (Bakı, 1996) kəndin tarixi, coğrafiyası, onun sakinlərinin həyat və fəaliyyətinin müxtəlif sahələri haqqında ətraflı məlumat verdiyindən biz bütün bu məsələlər barədə son dərəcə qısaca bəhs etməklə kifayətlənəciyik.

Qərbi Azərbaycan ərazisində ən böyük azərbaycanlı kəndlərindən olan Çobankərə kəndinin əhalisi özünü elat adlandırır və əsasən qoyunçuluq və dəvəçiliklə məşğul olurdular.

Burada qrunt suları yer səthinə xeyli yaxın olduğundan kəndin hər həyətində su quyusu vardı, kəndin torpaqları isə məhsuldar

idi, hər tərəfdə çəmənliklər, biçənəklər və otlaq sahələri uzanıb gedirdi. Kəndin şərqində yerləşən böyük çəmənlik **Qoruq** adlanırdı. Kənd camaatı yazın ilk günlərində Qoruğa çıxar, çadırları qurub bir aya qədər orada yaşayardılar.

Çobankərədə dəvəçiliyin geniş yayılması kənd camaatının dünyagörüşünə də ciddi təsir göstərmişdi. Belə ki, Böyük Çobankərənin dəvə karvanları Xəzər dənizi-İran körfəzi-Qara dəniz-Egey dənizi limanları arasındakı böyük ərazilərdə yük daşıdıqca dəvəçilər də bir neçə ölkənin ərazisini kənd-kənd, şəhər-şəhər gəzir, görüb-götürür, böyük həyat məktəbi keçir, xalqlarla, onların maddi-mənəvi mədəniyyətləri ilə təmasda olurdular.

Kənddə kolxoz qurulanda dəvələrin hamısı kolxoza verilmiş, hər ailədə yalnız bir dəvə saxlanmışdı.

Çobankərənin tarixində ən faciəli dövr 1918-ci il hadisələri olmuşdur. Erməni qaniçənlərinin bir-birini əvəz edən silahlı hücumları nəticəsində camaat kəndi tərk etmək məcburiyyətində qalmışdır. Həmin faciəli günləri akademik B.Budaqov belə qələmə alıb: **"Kənd əhalisi əsasən öz ev əşyalarını dəvələrə yükləyib. Dəvəsi olmayanlar arabadan, öküzdən istifadə edib. Arabaların çoxu arxadan gələn erməni hücumu sürətinə nisbətən çox zəif olduğundan yollarda yüklü qalıb. Hamı üzünü Türkiyə ərazisinə doğru döndərib, oraya doğru qaçırmış. Arxadan daşnakların açdığı top atəşləri, mərmilər, qarşıda isə daşmış, ətrafı başına götürmüş Araz çayı... Araz çayı boyu yuxarı-aşağı qaçan körpə, arvad, qoca, qışqırıq, nalə, ağlaşma... Kim özünü Araza atırmışsa, su onu götürürmüş... Kənd əhalisini sudan xilas edən dəvələr olub. Dəvələr suda yaxşı üzdüyü üçün onların quyruğundan, boynundan yapışanlar, üstündə oturanlar salamat keçirdi. O taya camaatı keçirən dəvələr təzədən geri qaytarılır, adamları yenidən o taya keçirirdilər. Dəvədən möhkəm yapışmayan, sudan qorxan adamlar suyun üzündə papaq kimi fırlanır, daş kimi yox olurmuş..."** ("Çobankərə eli", səh. 15).

Böyük Çobankərə kəndi çar dövründə İrəvan quberniyasının Üçkilsə (Eçmiədzin) qəzası tərkibində, Sovet dövründə isə əvvəl Üçkilsə, sonralar Zəngibasar rayonları tərkibində mövcud olmuşdur.

Kənd camaatı hər il yaylağa qalxar, yazın əvvəllərində öncə

kənddən 10-15 km şimalda **Qır** adlanan əraziyə (sonralar bu yerlər **Yercvard düzü** adlandırıldı), iyun ayında bir qədər yuxarılara – Qarnıyarıq dağının ətəklərinə köçərdi. İyunun axırlarında isə obalar lap yuxarı – **Ələyəz** yaylaqlarına qalxardı.

"Demək olar ki, bütün Ələyəz dağında olan yaylaqlar Çobankərə camaatına mənsub idi. Ələyəz dağı vulkan mənşəli olduğundan onun iki haça zirvəsinin ətrafında, subalp və alp çəmənliklərdə yurdlar salınardı. Dağın şimal-qərb və qərb yamacında Hacı Cəfərin, Hacıvəlilərin, Ağaməmmədoğlanlarının, Hacı Qasımın, Yavıxoğlunun, Hənifəoğlunun, Şərifoğlunun yurdları var idi. Ələyəzin şimal və şimal-şərq yamaclarında isə Mursağılların, Hacı Cabbarın, Mahmud ağanın, Cəfər ağanın, Kalva Mahmudun, Gülalıların, Əyripapaqlıların, Şahverdilərin, İsmayıloğlunun, Xalfağıloğlunun, Allahverənlinin, Yekənəvilinin (onlar Qulubəyli kəndindən idilər), Həsənəlibəyin, Sənəmoğlunun, Hacı Kərimoğlunun, Paşanın və Bəbiroğlunun yurdları yerləşirdi. Ələyəzin cənub, cənub-şərq yamacında isə Şöllülər, Rəhim katda, Məşədi Novruz, Babı Durxan, Əşrəvadlılar, Cadqıranlı Seyid Rza yurd salmışdılar. Dağın bu yamacında kürdlərin də bir neçə yurduna təsadüf olunurdu" (B.Budaqov. "Çobankərə eli", səh. 64).

Çobankərə kəndinin iki qəbiristanlığı olmuşdur. Qədim qəbiristanlıq **Qaradolaq qəbiristanlığı** adlanırdı. Burada qəbirlərdən bir neçəsinin üstündə iri qoç heykəlləri hələ də qalmaqda idi. Məlum olduğu kimi, Qaradolaqlar da Kəngərlilərin bir qolu olmaqla əsasən Naxçıvanda və Qərbi Azərbaycanda yaşamışlar. Lakin maraqlıdır ki, Çobankərə kəndində **Qaradolaq qəbiristanlığı** olduğu halda, Qaradolaq tayfasından burada bir nəfər də yox idi. Akademik B.Budaqov bu faktı əsas götürərək belə bir fikir irəli sürür ki, Qaradolaqlar təxminən XVIII yüzildə kəndi kütləvi şəkildə tərk etmiş, elə həmin vaxtlar da Çobankərə eli bu kənddə məskunlaşmışdır. Lakin akademikin özünün xatırlatdığı aşağıdakı fakt onun yuxarıdakı fikrin təkzib üçün meydan açır:

"Rus tarixçisi İ.Şopen XIX əsrin ortalarında Naxçıvan bölgəsində və ona yaxın yerlərdə məskunlaşmış tayfalardan bəhs edərkən Kəngərli elinin tirələrindən (Yurdçu, Qızıllı, Sarbanlar, Xalxallı, Pirhəsənli, Salahlı, Ağabəyli, Qarabağlar, Cağatay, Qaraxan, Hacılar, Cəmşidli, Bilici, Qızılqışlaq, Qurdlar, Şabanlı, Kəlfir, Ərəfsəli, Qaracallı, Qarakövsərli, Pənahlı, Sofulu, Bəydili, Ələkbərli,

Didivarlı, Bolqarlı, Kürdmahmudlu, Əliyanlı, Ziyadlı, Bərgüşadlı və Qaradolaq) olanların hamısının Qaradolaq adlandığını yazmışdır" ("Çobankərə eli", səh. 31). Üstəlik, Çobankərə eli də Kəngərlərin bir tirəsi olmuş və Kəngərlərin Qurdlar və Şabanlı tirələrinin adları da Böyük Çobankərə kəndinin Qırdılar və Şabanlılar nəsillərinin adlarında qalmışdır.

Deməli, Çobankərə qəbiristanlığının Qaradolaq toponimi Kəngərlilərin burada yaşayan bir tirəsinin (Qaradolaq) yox, buradakı bütün Kəngərli tirələrinin (Çobankərə, Şabanlı, Qurdlar və s.) ümumi Qaradolaq adı da ola bilərdi.

Keçmişdə Çobankərə kəndində **Xalfağlı oğlu Abbasəli, Molla Musa** kimi savadlı kişilər vardı. 1892-ci ildə isə Çobankərə kəndi ilə Şorlu Mehmandar kəndləri arasında ilk yenitipli – rus-tatar məktəbi açıldı. Dövlət bu məktəbə ildə 121 manat xərc çəkirdi. Əvvəllər 35 nəfər oğlan uşağının təhsil alması üçün nəzərdə tutulan bu məktəbin kənd ziyalılarının yetişməsində rolu əvəzsiz idi. Bakı şəhərində keçmiş Xalq Təsərrüfatı İnstitutunun rus dili kafedrasına uzun illər müdirlik etmiş filologiya elmləri namizədi, dosent **Cəmil Hacıcəfər oğlu İbrahimov** Çobankərə kəndinin və həmin rus-tatar məktəbinin yetirməsi idi və rus dili ilə ilk tanışlığı bu məktəbdə olmuşdu. Həmin məktəb sovet dövründə yeddillik məktəbə çevrilmişdir.

Kəndin ilk yetirmələrindən **Əkbər Allahverdiyev** Bakıda ali hüquq təhsili aldıqdan sonra 1940-1946-cı illərdə Maştağada, sonralar Şəki, Cəlilabad, Sabirabad rayonlarında prokuror işləmişdi.

Qasım Qasımov Azərbaycan Sənaye İnstitutunu bitirib Bakı şəhər Elektrik Şəbəkəsinin rayon şöbələrində müdir vəzifəsində çalışmışdı.

Paşa Məmmədov Tibb İnstitutunu bitirib, elə orada da ümumi terapiya üzrə mühazirələr oxumuş, tibb elmləri namizədi, dosent adını almışdı.

Çobankərənin yetirmələrindən yüz nəfərdən çoxu ali təhsilli, bir nəfəri Azərbaycan EA-nın həqiqi üzvü (**B.Budaqov**), bir nəfəri müxbir üzv (**Y.Məmmədov**), on nəfərə qədəri isə elmlər namizədidir.

Xanlar Vəliyev general-mayor rütbəsinə yüksələn yeganə ço-

bankərəlidir.

1941-1945-ci illər müharibəsi dövründə kişilərdən **Sənəmoğlu Əli, Sənəmoğlu İbrahim, Çervon Qasım, Hənifəoğlu Həsən, Məşədi Qələndər oğlu Kalva Hüseyn, Pösük Məhəmmədəli, Qağay Əkbər, Hənifəoğlu Məmməd, Tapmaz Möysüm, Xarı Nəsir, Cırsa Əsgər, Pənah, Əvdil, Avloğlu Abbas, Qarabudaqoğlu Mohoy və Həsən, Pösün Mahmud, Yediyaroğlu Ələsgər, Yavıxlı Abdulla və Əbdüləli, Toycu Qara, İsgəndər, Alıbəy, Xoyluoğlu Mamoş və Ələkbər,** qadınlardan Sarı Məhəmmədəlinin arvadı **Fizzə,** Duduoğlu Əhmədin arvadı **Leylan,** Qonaqoğlu Əlinin arvadı **Gülsüm,** Hənifəoğlu Sadığın qızı **Xatın** və b. kənd camaatının güvənc yeri olmuşlar.

Kəndin həmin dövr nüfuzlu adamlarından biri də Yavıxlılar tayfasından **Əbdüləli Budaq oğlu Yaqubov** idi. O, 1928-1929-cu illərdə Şərur rayonunun Xanlıqlar kəndində təşkil edilmiş artelin ilk sədri olmuş, müharibə illərində isə Çobankərə kolxozunun ferma müdiri işləmişdi.

Çobankərə elinin ən böyük tayfalarından biri də **Mursaqullar** (el arasında **Mursağıllar** kimi tələffüz olunurdu) tayfası idi. Bütün mahalda öz nüfuzu ilə seçilən bu tayfanın soy-nəsil keyfiyyətləri haqqında akademik B.Budaqov yazır: **"El arasında fərqlənən Mursaqullarda bir sərbəstlik, məğrurluq və əyilməzlik vardı. Elə həmin səbəbdən də bu nəslin nümayəndələrində bir növ sərtlik nəzərə çarpır. ...Onu da deyim ki, Mursaqullar çox səmimi, etibarlı, sözünə sadiq, qonaqsevər bir tayfadır. Onlar hər cür ədalətsizlik və kobudluqla qarşılaşdıqda nəsli keyfiyyətlərini qabarıq şəkildə üzə çıxarmağa qadirdirlər".**

Öz tərəfimizdən qeyd edək ki, akademikin Mursaqullar nəsli haqqında bu dediklərini bu nəslin nümayəndələri ilə ünsiyyətdə olan hər şəxs dərhal müşahidə edə bilər.

Lakin Mursaqullar tayfası dəfələrlə təqib və təzyiqlərlə də üzləşmişdir. Xüsusilə 1905-1907 və 1917-1918-ci illər erməni-müsəlman müharibələri zamanı erməni daşnaklarına qarşı inadlı mübarizə aparan Mursaqullar Sovet dövründə də bu təqiblərdən yaxa qurtara bilməmişlər. Tayfanın altıncı nəslinin nümayəndəsi, Vəli Kərbəlayi Mustafa oğlunun oğlu Saleh Musayevin ömür yolu bu baxımdan ibrətamizdir.



SALEH VƏLİ OĞLU MUSAYEV 1889-cu ildə Çobankərə kəndində anadan olmuş, İrəvanda 5 illik rus-tatar məktəbini oxuduqdan sonra mədrəsə təhsili almışdı. Saleh Vəli oğlunun ali təhsili olmasa da, o, geniş dünyagörüşlü, türk, rus, erməni, qazax dillərini sərbəst bilən, ərəb və fars dillərində oxumağı bacaran, zəngin həyat təcrübəsinə malik şəxs olmuşdur.

Varlı, görüb-götürmüş ailədə dünyaya gələn Saleh kişi həm də öz cəsurluğu və qorxamzlığı ilə tanınmışdır.

1905-1907 və 1918-ci illərdə öz həmyurdlarını başına yığıb erməni basqısına qarşı döyüşə qalxan Saleh Vəli oğlu Sovet ordusu gəldikdən sonra bu orduya qarşı da mübarizə aparmışdır.


1924-cü ildə ailə həyatı qurmuş, 1926-cı ildə **oğlu Rüstəm** dünyaya gəlmişdir. Qırmızı Ordunun təqibləri altında yaşayan Saleh Vəli oğlu məcburiyyət qarşısında qalıb, bir yaşlı körpəsini və həyat yoldaşını götürüb Şərur rayonunun Xanlıqlar kəndində məskunlaşır. Burada da ağır təzyiq və təqiblərlə üzləşdiyinə görə oğlunu və həyat yoldaşını qardaşı Rzaya tapşırıb müvəqqəti olaraq İrana-İraqa yola düşür.

6 ay Bağdadda yaşayandan sonra geri dönmək məqsədi ilə Xoy şəhərinə gəlir və bir müddət burada yaşayır. Lakin ailəsi və körpə oğlu Rüstəmin həsrəti onu daim narahat edir. Saleh kişi bütün təzyiqləri gözünün qabağına gətirib, 1929-cu ildə Şərura qayıdır, bu dəfə təqiblər daha güclü şəkil alır, ailəsi də təhlükə qarşısında qalır, səhər həbs ediləcəyi barədə xəbəri eşidəndə ailəsi yenə ona başqa yerə getməyi məsləhət görür. Beləliklə, cəmi 2 ay ailəsinin yanında qalan Saleh kişi 1930-cu ilin payızında təzədən Arazı keçib bu dəfə Türkiyənin İqdır şəhrinə gedir. Orada dözə bilmədiyinə görə 3 aydan sonra Türkmənistanın Aşxabad şəhərinə yola düşür.

Dözüm, iradə qürurunun sınmasına imkan vermir. Yurddan uzaqlarda olan Saleh kişi canından çox istədiyi Çobankərədəki

nəsil adət-ənənəsini yaşatmaq üçün 53 baş dəvə alır. Məqsədi də o idi ki, vətənə qayıdandan sonra sürgünə göndərilərsə, heç olmasa ailəsinin dolanacağı olsun. Düşündüyü kimi də olur. O, dəvələri götürüb Türkmənistandan Şərurun Xanlıqlar kəndinə gəlir.

Bu zaman balaca Rüstəmin 5 yaşı var idi. Nəfəsləri bir-birinə isnişməmiş – 1931-ci il yanvarın 31-də Saleh Vəli oğlu NKVD-nin erməni-daşnak müstəntiqləri tərəfindən həbs olunur, üçlüyün məhkəməsi ilə kulak və banditizm maddəsi ilə 10 il müddətinə Sibirə sürgün edilir.



A. I. Ə. C.
AZƏRBAYCAN
DÖVLƏT SİYASİ İDARƏSİ
Xalq Komissarlar Şurası nəzdində

А. С. С. Р.
АЗЕРБАЙДЖАНСКОЕ
ГОСУДАРСТВЕННОЕ ПОЛИТУПРАВЛЕНИЕ
при Совнаркоме

Марта 1931 г. № 1/2 3/10 УРСО

Вх. №

г. Баку
в. СРОЧНО.

Нач. Бак. Д. П. З.

Препровождая при этом выписку из протокола зас. Чрезвычайной Тройки по территории АССР от 5 Марта 1931 г. по делу ЭЛЬЯВЕВА САЛАХ ВЕЛИ ОГЛЫ осужденного к заключению в концлагерь сроком на ДЕСЯТЬ ЛЕТ УРСО АзГПУ просит направить такового с внеочередным этапом в лор. Ташкент в распоряжение Среднеазиатского ОГПУ.

Изложенное об'явите осужденному. Об исполнении сообщите.

ПРИЛОЖЕНИЕ: Выписка.

Нач. УРСО АзГПУ

Уполномоченный

Saleh Vəli oğlunun 10 il müddətinə həbs olunub, Dəşkəndə sürgün edilməsi barədə hökm.


6 ildən bir az artığını Qazaxıstanda, qalan hissəsini Sibirdə sürgündə cəzasını çəkən Saleh Vəli oğlunun ailəsi Şərurda Sovet hökumətinin yerli təşkilatları tərəfindən incidildiyinə görə Çobankərəli nəslinin böyük bir hissəsi Yevlağa köçür. Saleh kişi də "cəzasını" çəkib, 1936-cı ildə Yevlağa qayıdır. Bu ağır və əzablı həyat onun yaşamaq həvəsini öldürə bilməmişdi və o, yenidən öz qohum-əqrəbasını, el-obasını başına yığıb, gələcək işlərini qurur, Çobankərənin adət-ənənəsini yaşatmağa çalışır. Yevlaxda yenə böyük bir dəvə karvanına sahib olur. Saleh Vəli oğlu varlandıqca kasıb-kusuba əl tutur, ümidsizlərə həyan durur. Onun xeyirxahlığı və əlaçıqlığı barədə indi də ürək dolusu danışırlar.

Onu tanıyanların dediyinə görə, Saleh kişi bir el ağsaqqalı kimi neçə-neçə qan davalı ailələri barışdırıb.

Böyük ürək və qeyrət sahibi, gözəl el ağsaqqalı olan Saleh Vəli oğlu 1981-ci ildə 92 yaşında dünyasını dəyişmişdir. Məzarı Yevlaxda Dəvəçilər qəbiristanlığındadır.

İndi onun övladları – nəvə-nəticələri Vətənin layiqli oğul və qızları kimi babalarına rəhmət oxutdururlar.


Burada onlardan biri – daim babasının yanında yaşamış **Şahmar** haqqında qısa söhbət açmaq istərdik. Şahmarın indi 43 yaşı var. O, 1988-ci ildə imperiyaya qarşı xalq hərəkatına qoşulmuş, bu yolda əlindən gələni etmişdir. Onda onun 30 yaşı var idi. Yevlaxda ətrafına minlərlə adam toplayaraq babası Saleh kişinin vaxtilə Sovet hökumətinə qarşı apardığı mübarizəsini davam etdirən Şahmar babası kimi sürgünlər görməsə də, dəfələrlə Sovet milisinin təqibinə məruz qalmış, günlərlə təcridxanalarda əzab-əziyyət çəkmişdir. Lakin buna baxmayaraq, öz inadından dönməmiş, bölgədə Sovet imperiyasına qarşı meydanlara çıxmış və özünü bölgədə bir lider kimi tanıtmışdır.



Şəkil 1988-ci il Yevlax rayonunda başlanmış davamlı mitinqlər zamanı çəkilmişdir. Mitinqlərin təşkilatçısı Saleh kişinin nəvəsi Şahmardır.

Şahmar deyir: "**Babam çox sirli adam idi. Ürəyindəkini heç zaman açmazdı. Qardaşlarım kimi, məni də onun nə üçün sürgün edildiyi daim düşündürürdü. Babamdan bunu soruşanda cavab verirdi ki, nəyinizə lazımdı, bilməsəniz daha yaxşıdır, heç kimə baiskarlıq etməmişəm, mənim davam tamam başqa şey olub. Birdən gedib ağzınızdan qaçırarsınız, bu Sovet hökuməti təzədən qisasını Sizdən alar.**

Babam beləcə bizə heç nə demədi. Sonradan qardaşım Xanlar KQB-dən arxiv sənədlərini üzə çıxarandan sonra onun nə üstündə ittiham olunduğu bizə bəlli oldu. Babamın davası sən demə ədalətli dava imiş. O, camaatın var-yoxunu əlindən zorla alan Sovet imperiyasına qarşı vuruşduğuna görə zindanlara atılmışdı. Mən babamla fəxr edir, onun adını daim uca tutmağı özümə mənəvi borc hesab edirəm".



RÜSTƏM SALEH OĞLU VƏLİYEV 1926-cı ildə anadan olmuşdu.

Uşaq yaşlarından erməni daşnakları tərəfindən soyqırımına məruz qalmış Çobankərə kəndinin bütün əhalisi kimi doğma yurd-yuvasından didərgin düşmüş, 1932-ci ildən Yevlax şəhərində məskunlaşmışdır. Burada orta məktəbi bitirdikdən sonra 1944-ci ildə hərbi xidmətə çağırılmış İkinci Dünya müharibəsində alman faşizminə qarşı döyüşmüş və "1941-1945-ci illərdə Böyük Vtən müharibəsində igidliyə görə" medalı ilə təltif olunmuşdur. Müharibədən sonra Yevlax şəhərində yaşamış və 1999-cu ildə 73 yaşında vəfat etmişdir.

Yevlax şəhərinin əhalisi arasında ədalətli, xeyirxah, xoştəbiət ağsaqqal kimi böyük hörmət qazanmışdır.

Xeyriyyəçi Rüstəm Saleh oğlu "Çobankərə eli", "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti", "Akademik Həsən Əliyev", "Yevlaxın şəhid oğulları", "Həzrəti Əli və Zülfüqar" və islam dini ilə bağlı daha bir neçə başqa kitaba sponsorluq etmişdir. Bu fəaliyyəti onun nə dərəcədə böyük qeyrət sahibi, elinə, vətəninə bağlı insan olduğunu bir daha təsdiq edir. Rüstəm əmi indi

dünyada yoxdur. Lakin adının əbədi yaşaması üçün başqa əsərləri demirik, sponsorluğu ilə işıq üzü görmüş – Qərbi Azərbaycanın tarixi möhürü sayılan "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" kitabı kifayət edər. Allah rəhmət eləsin!

Oğlu **Şahlar Rüstəm oğlu Vəliyev** 1958-ci il oktyabrın 1-də Yevlax şəhərində anadan olmuşdur. Gənc yaşlarından halal zəhmətə qatlaşan Şahlar Vəliyev Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirmişdir. Hazırda Yevlaxda Kombinat direktoru vəzifəsində işləyir.

Rüstəm kişinin digər oğlanları **Eldar, Xanlar** və **Elmar Vəliyevlər** haqqında kitabda ayrıca oçerklər vnrilmişdir.



HƏSƏN ƏLİ OĞLU MUSAYEV 1916-cı ildə Çobankərə kəndində anadan olmuşdu. 1931-ci ildə dayısı Saleh qolçomaq kimi həbs olunub Sibirə sürgün edildikdə elliklə köçüb Yevlağa gəlmiş və ata-baba sənətləri olan dəvəçiliklə məşğul olmuşlar.

İkinci Dünya müharibəsinin iştirakçısı olmuş, 2-ci qrup əlil kimi ordudan tərxis edilmişdir. Müharibədən qayıtdıqdan sonra sadə ömür sürərək 2001-ci il avqustun 11-də çoxsaylı el-oba içərisində vəfat etmişdir. O, əsl ağsaqqal kimi tanınırdı və hamı ona hörmət bəsləyirdi. İndi onun 9 övladı öz yaxşı əməlləri ilə el arasında böyük hörmət qazanıblar. Həsən əminin oğlu Sabir Yevlax nayonunda böyük nüfuza mrlikdirlər.

Məmməd Əli oğlu Məmmədov 1924-cü ildə anadan olmuşdur. Əslən Zəngibasar mahalının Çobankərə kəndindəndir. 1944-cü ildə ağır yaralanaraq ordudan tərxis olunmuş, dədə-baba yurduna qayıtmış, 1950-ci ildən Rəncbər kəndində məskunlaşmışdır. 1944-1988-ci illərdə rayonda müxtəlif vəzifələrdə (İstehlak Cəmiyyətində müfəttiş, Rəncbər kolxozunun sədri və s.) işləmiş, 1988-ci il hadisələrindən sonra Bakı şəhərində məskunlaşmışdır. 8 övlad atasıdır. Oğlanlarından **Əfqan Məmmədov** Respublika Hərbi Prokurorluğunun istintaqa nəzarət şöbəsinin rəisi, polkovnik-leytenantdır.

KƏNDİN TAYFA VƏ NƏSİLLƏRİ


Abbaslılar, Ağaməmmədlilər, Allahverənlər, Aşuruşağı, Avdallılar (Abdullalılar), Əlipaşauşağı, Alxanuşağı, Aslanuşağı, Avıloğlu (Həviloğlu), Aynauşağı, Böcüklər, Vəli Qocalılar, Qaralələuşağı, Qırdılar (Qurdlular), Qulubəylilər, Qarabudaqlar, Qarallar (Qaralılar), Qazaxlar, Qağoylar, Qorlu Alının uşaqları, Şıxlar, Quluuşağı, Qəmbərlilər, Knyazlar, Əcəbuşağı, Dudular, Zəriflər, Züypapaqlar, Gülüsuşağı, Kəblə Əşrəfuşağı, Gülalıuşağı, Kəblə Zaruşağı, Keçəçilər, Kərimuşağı, Keçəl İsmayıllı, Köçərilər, Mursağıllar, Məmişdiuşağı, Məşədi Qələndəruşağı, Mehdioğlu, Mahmudfatıuşağı, Məmmədəliuşağı, Sənəmuşağı, Sarılar, Hüseynquluuşağı, Süleymanuşağı, İsmayıluşağı, İlxıqoruqlular, Hacalıbəylilər, Cırmalar, Hacıvəlilər, Hacıabbaslılar, Heydəruşağı, Hacırüstəmuşağı, Xuranuşağı, Fərəməzoğlu, Şərifli, Xalfağılar, Xarılar, Xalauşağı, Xoyluuşağı, Əyripapaqlar, Əşrafatlılar, Yavıxlılar, Yadigarlar, Hənifəlilər, Cirveyluşağı, Əmirxanlılar, Şahverdilər, Yağsatanuşağı, Hacıkərimuşağı, Əsgəruşağı, Orucdular, Lalabığlar, Hacı Qələndəroğlu, Rəhimli, Xeyranoğlu, Kəblə Cəfəruşağı, Hacıyolluuşağı, Qondaralılar, Qonaqoğlu, Qıllılar (Qulululular), Şabanlılar, Hümmətlilər, Şərifuşağı, Hacıqasımuşağı, Yekənəbililər, Əcəbliuşağı, Qaytaranuşağı, Uyanlar, Maçanuşağı, Nədirqızlılar, Örüşlülər, Pösüklər, Taytərəziuşağı, Mehdiuşağı, Tamamuşağı, Tanrıverdilər, Lölüklər, Lülpapaqlar, Göyhüseynli, İsəli, Samoylular, Hacısoylular, Nəfiruşağı, Lələpapaqlar, Toyçular.

KƏNDİN TOPONİMLƏRİ

Yer adları: Qoruq, Qır, Ağgöl, Məmmədrza yeri, Qobu, Ermənı arxı.

Yurdlar: Hacıvəlilər, Hacı Cəfər, Hənifəoğlu, Şərifoğlu, Mursağıllar, Hacı Cabbar, Mahmud Ağalı, Cəfər ağa, Kəlba Mahmud, Gülalılar, Allahverənli, Əyripapaqlar, Şahverdilər, İsmayıl oğlu, Xalfağlı oğlu, Hajəlbəy, Sənəmoğlu, Hacı Kərimoğlu, Paşa Bəbiroğlu, Rəhim katdanın yurdu, Məşədi Novruzun yurdu, Durxanın yurdu.

BUDAQ ƏBDÜLƏLİ OĞLU BUDAQOV



1928-ci ildə Çobankərə kəndində anadan olmuşdur. 1940-cı ildə Mehmandar kəndində yeddiillik məktəbi, 1947-ci ildə İrəvan Pedaqoji məktəbini, 1951-ci ildə isə Stalin təqaüdü ilə ADPİ-nin coğrafiya fakültəsini bitirmiş, ali məktəbi bitirən il Moskvada EA Coğrafiya İnstitutunun aspiranturasına daxil olmuş, 1955-ci ildə geomorfologiya ixtisası üzrə coğrafiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

1955-1959-cu illərdə Azərbaycan EA Coğrafiya İnstitutunda kiçik və baş elmi işçi, sonralar "Fiziki coğrafiya", "Landşaftşünaslıq" və "Fiziki coğrafiya və xəritəçilik" şöbələrinin müdiri vəzifələrində çalışmışdır. 1974-1983 və 1986-1989-cu illərdə Coğrafiya İnstitutunun elmi işlər üzrə direktor müavini olmuş, 1989-cu ildən isə bu institutun direktorudur.

1967-ci ildə doktorluq dissertasiyası müdafiə edən B.Budaqov 1976-cı ildə Azərbaycan EA müxbir üzvü, 1989-cu ildə həqiqi üzvü (akademik) seçilmişdir. 600-dən çox elmi, elmi-kütləvi əsərin, 18 monoqrafiyanın, orta və ali məktəblər üçün iki dərsliyin, 20 atlas və xəritənin müəllifi – bu B.Budaqovun elmi fəaliyyətinin cüzi bir hissəsidir.

"Türk uluslarının yer yaddaşı", "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" və s. kitabları fundamental tədqiqat işləridir. 30-dan çox elmlər namizədi və elmlər doktoru yetişdirmişdir.


B.Budaqov görkəmli alim olmaqla yanaşı, həm də fəal ictimai xadimdir. Hazırda o, Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədri, Azərbaycan Coğrafiya Cəmiyyətinin prezidenti, Ali Attesstasiya Komissiyası plenumunun üzvü, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında dağıdıcı təbiət hadisələri komissiyasının üzvü, Azərbaycan EA Yer Elmləri Bölməsi bürosunun üzvü, Coğrafiya İnstitutu müdafiə üzrə ixtisaslaşdırılmış elmi şuranın sədridir.

Alimin çoxillik elmi fəaliyyəti akademik Y.Məmmədəliyev adına, akademik H.Ə.Əliyev adına, Məmməd Araz adına mükafatlara layiq görülmüş, o həmçinin SSRİ Coğrafiya Cəmiyyətinin N.A.Prjevalski adına Qızıl Medalı, SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri sərgisinin bü-

rünc medalı və s. ilə təltif edilmişdir.

Hazırda həmçinin "İrəvan" İctimai Birliyinin sədridir

YƏHYA CƏFƏR OĞLU MƏMMƏDOV



1930-cu il oktyabrın 10-da Naxçıvan şəhərində anadan olmuşdur.

Əslən Zəngibasar mahalının Çobankərə kəndindən, bu kənddəki məşhur Dəvəçilər nəslindən idi. Bu nəslin nümayəndələri əsasən dəvəçiliklə məşğul olurdular. Atası Cəfər kişi də bu sırada istisna təşkil etmirdi. Anası isə Göygümbətdən Çobankərəyə gəlin köçmüşdü, Topçubaşovlar nəslindən idi. 1918-ci il hadisələri zamanı bir çox çobankərəlilər kimi, onlar da Naxçıvana pənah aparmış, bir daha geri qayıtmamışlar.

Y.Məmmədov 1954-cü ildə Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmiş, aspiranturaya daxil olmuş, 1957-ci ildə dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır.

Bir müddət unversitetdə müəllim, baş müəllim, dosent vəzifələrində çalışmış, elmi fəaliyyəti Voronej riyaziyyat məktəbi ilə bağlı olduğundan həmin şəhərə dəvət olunmuş, 1960-1965-ci illərdə Voronej İnşaat Mühəndisləri İnstitutunda və eyni zamanda Voronej Dövlət Universitetində dosent vəzifələrində işləmişdir.

1965-ci ildə Rostov Dövlət Universitetinin birləşmiş regional Elmi Şurasında dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsi almış, elə həmin il ADU-nun dəvəti ilə Bakıya gələrək universitetin hesablama riyaziyyatı kafedrasına müdir seçilmiş və ömrünün sonuna qədər bu kafedraya rəhbərlik etmişdir.

1971-1987-ci illərdə ADU-nun elmi işlər üzrə prorektoru işləyən Y.Məmmədov 1987-1989-cu illərdə universitetə rektorluq etmişdir.

Professor Y.Məmmədov qeyri-xətti analiz və hesablama riyaziyyatı sahəsində dünyada tanınmış görkəmli alimlərdən biri, bir sıra riyazi tənliklərin həlli üsullarının müəlliflərindən idi. Dünyanın müxtəlif ölkələrində çap olunmuş 100-dən çox elmi məqalənin, 7 monoqrafiya, 5 dərslik və dərs vəsaitinin müəllifiydi.

1974-cü ildə nəşr etdirdiyi "Adi diferensial tənliklərin təqribi həllə-


rinin tapılması üsulları" adlı monoqrafiyasına görə 1976-cı ildə Respublika Dövlət mükafatına layiq görülmüşdü.

1980-ci ildə ona Əməkdar elm xadimi adı verilmiş, 1983-cü ildə Azərbaycan Respublikası EA-nın müxbir üzvü seçilmişdir.

Bir sıra orden və medallarla, o cümlədən "Xalqlar dostluğu" ordeni və "Akademik Vavilov" medalı ilə təltif olunmuşdur.

Oğlu **Azad Məmmədov** filologiya elmləri namizədi və Azərbaycan Dillər Universitetinin Ümumi dilçilik kafedrasının müdiridir.

ABBAS ƏLİ OĞLU MUSTAFAYEV



1930-cu ildə Çobankərə kəndində anadan olmuş, 1944-cü ildə Çobankərə kənd məktəbinin 7-ci sinfini, 1947-ci ildə İrəvan Pedaqoji Texnikumunu bitirmişdir.

1947-1948-ci illərdə Zəngibasar rayonunun Mehmandar kəndində müəllim işləmiş, 1948-ci ilin avqustunda Azərbaycanın Ağcabədi rayonuna deportasiya olunmuş, orada bir il müəllim işlədikdən sonra təzədən Vətənə qayıdıb, Qaraqışlaq və Haçaparaq kəndlərində müəllimlik etmişdir. 1951-ci ildə təhsilini davam etdirmək üçün Bakıya gələrək APİ-nin tarix fakültəsinə daxil olmuş, ali təhsilini bitirib geri qayıtmışdır.

1955-1957-ci illərdə Reyhanlı kənd yeddillik məktəbinin, 1957-1961-ci illərdə Haçaparaq kənd məktəbinin direktoru işləmiş, 1961-ci ildə Üçkilsə (Eçmiədzin) rayon partiya komitəsinə işə irəli çəkilmişdir.


1963-1965-ci illərdə Bakıda Ali Partiya Məktəbində oxumuş, 1966-1969-cu illərdə Qaraqışlaq sovxozunun direktoru olmuşdur. Bu müddətdə kəndi xeyli inkişaf etdirmiş, yeni tipli orta məktəb tikdirib istifadəyə vermişdir.

1969-cu ildə yenidən təşkil edilmiş Zəngibasar RİK sədrinin birinci müavini, 1970-1978-ci illərdə raykomun katibi işləmişdir.

1979-1984-cü illərdə Dəmirçi Kənd Təsərrüfatı Texnikumunun direktoru olan A.Mustafayev burada həm də sovxoza direktorluq edir. Texnikumdakı iki fakültə çoxaldılıb, yeddi fakültəyə çatdırılır.

1984-cü ildə dəyişmə yolu ilə Azərbaycan Kənd Təsərrüfatı Nazirliyində Əkinçilik və Yemçilik İdarəsinə rəis təyin edilmiş, 1990-cı ildə fərdi pensiyaya çıxmışdır.

ELDAR RÜSTƏM OĞLU VƏLİYEV



1951-ci il yanvarın 27-də Yevlax şəhə--rində anadan olmuşdur.

1968-ci ildə orta məktəbi bitirib, Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun uçot-iqtisad fakültəsinin mühasibat uçotu şöbəsinə daxil olmuş, 1972-ci ildə həmin İnstitutu müvəffəqiyyətlə qurtarmışdır.

1972-ci ilin avqust ayında təyinatla Qutqaşen rayon yerli istehsal kombinatına iqtisadçı vəzifəsinə göndərilmiş, 1974-1975-ci illərdə orduda xidmət etmişdir.

1975-1983-cü illərdə istehsalatda müxtəlif vəzifələrdə işləmiş, 1983-cü ilin mayından 1984-cü ilin oktyabrına kimi Qutqaşen rayon İctimai İaşə Müəssisələri Birliyinin direktoru, sonuncu tarixdən 1988-ci ilədək rayon İstehlak Cəmiyyəti İdarə Heyətinin sədri işləmişdir.

1989-1990-cı illərdə Ticarət və Kooperasiya İşçiləri Respublika Həmkarlar Komitəsində təşkilatçı, 1990-1991-ci illərdə Azəriittifaq İdarə Heyəti sədri yanında müfəttişliyin baş iqtisadçısı işləmişdir.

1991-1994-cü illərdə Bakı Material Texniki Təchizat Bazasında direktor, 1994-1995-ci illərdə "Azkoptəchiztara" idarəsində rəis, 1995-1997-ci illərdə "Azkoptəchizatsatış" birliyinin baş direktoru, 1997-1999-cu illərdə "Azərkimya" Dövlət Şirkəti Bakı Şin Zavodunda direktor, 1999-2000-ci illərdə Azərbaycan Səhmdar Kommersiya Əmanət Bankı rayon şöbəsində müdir işləmişdir. 2000-ci ildən hal-hazıra kimi "Azneftkimyamaş" Dövlət Şirkətində "28 May" adına MQZ-nun direktoru vəzifəsində çalışır.

Oğlu **Elxan** 1979-cu ildə anadan olmuş, BDU-nun beynəlxalq əlaqələr və beynəlxalq hüquq fakültəsini bitirmişdir. Hazırda Ankara Universitetinin doktoranturasında təhsilini davam etdirir.

Oğlu **Elnur** 1980-ci ildə anadan olmuşdur. DİN-də müstəntiq işləyir.

Oğlu **Elçin** 1981-ci ildə anadan olmuşdur. M.Ə.Rəsulzadə adına Bakı Dövlət Univrsitetini bitirmişdir.

XANLAR RÜSTƏM OĞLU VƏLİYEV



1955-ci ildə Yevlax şəhərində anadan olmuşdur.

Babası Saleh Vəli oğlu el-obanın sayılan oğullarından olmuş, 1918-ci ildə erməni daşnaklarına qarşı mübarizədə iştirak etmiş, Sovet hakimiyyəti dövründə isə repressiyaya məruz qalaraq bütün ailəsi doğma Çobankərə kəndindən didərgin salınmışdır. Biz artıq Xanlar müəllimin babası Saleh Vəli oğlu barədə yuxarıda müfəssəl məlumat vermişik.

Xanlar Vəliyev 1971-ci ildə orta məktəbi əla qiymətlərlə bitirmiş, 1973-cü ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə daxil olub, ali təhsilini fərqlənmə diplomu ilə başa vurmuşdur. Hüquqi bilikləri dərindən mənimsəyən X.Vəliyev ictimai işlərdən də kənarda qalmamış, hələ universitetdə oxuyarkən fakültənin Tələbə Elmi Cəmiyyətinin sədri, Universitet TEC sədrinin müavini seçilmişdir. Bununla yanaşı, o, dəfələrlə respublikada və keçmiş SSRİ-nin Kiyev və Moskva şəhərlərində keçirilən tələbə elmi konfranslarında elmi məruzələrlə çıxış etmiş və bu konfransların qalibi və laureatı olmuşdur.

Universiteti bitirdikdən sonra 1978-ci ildən başlayaraq Gəncə şəhər, Qazax və Şəmkir rayon prokurorluqlarında baş müstəntiq, şəhər prokurorunun baş köməkçisi və prokuror müavini vəzifələrində işləmişdir. 1993-cü ilin noyabr ayında Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Baş Prokurorunun müavini vəzifəsinə təyin olunmuş və 2000-ci ilin aprel ayınadək həmin vəzifədə çalışmışdır. Azərbaycan Respublikası prezidentinin sərəncamı ilə 1995-ci ildə ona III dərəcəli dövlət ədliyə müşaviri – **ədliyyə general-mayoru** yüksək rütbəsi verilmişdir. 1995-ci ildən Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyanın "Model məcəllələrin" hazırlanması üzrə komissiyanın sədr müavinidir. X.R.Vəliyev Respublika Baş Prokurorunun müavini işlədiyi müddətdə Bakı, Moskva, Kiyev, Minsk, İstanbul, Vyana və AFR-da keçirilən mütəşəkkil cinayətkarlığa, insan və vətəndaş hüquqlarının müdafiəsi və başqa mövzulara həsr olunmuş beynəlxalq konfrans və simpoziumlarda iştirak və çıxışlar etmiş, çıxışları hər dəfə iştirakçılar tərəfindən rəğbətlə qarşılanmışdır.

Bunlardan əlavə, Xanlar Vəliyev 1996-cı ilin aprel-may aylarında Avstriyanın paytaxtı Vyana şəhərində yerləşən BMT-nin narkomaniyaya qarşı Mübarizə Proqramının XXX sessiyasında və 1999-cu ildə AFR-in Baden-Vürtemberqer vilayətində yeni qanunverici aktların hazırlanması və qəbuluna həsr olunmuş Beynəlxalq Hüquqşünaslar İttifaqının keçirdiyi simpoziumda Azərbaycan Respublikası nümayəndə heyətinə rəhbərlik etmiş və bu mötəbər məclislərdə elmi-praktik məruzələrlə çıxış etmişdir.

Ədliyyə general-mayoru Xanlar Vəliyev işlədiyi müddətdə prokurorluq, eləcə də digər hüquq-mühafizə orqanlarında böyük hörmət və nüfuz qazanmışdır. İstintaq işini dərindən bilən X.Vəliyev neçə-neçə ağır cinayət hadisələrinin üstünün açılmasında və cinayətkar qrupların ifşa olunmasında yüksək peşəkarlıq nümunəsi göstərmişdir.

Xanlar müəllimin gözəl ailəsi vardır. **Həyat yoldaşı Dilbazi xanım** həkimdir. **Oğlu Elşən** atasının yolunu davam etdirir, hazırda BDU-nin hüquq fakültəsində təhsil alır. Qızları **Gülşən** və **Tomris** orta məktəbdə oxuyurlar. Xanlar müəllim ata-baba yurdu olan Çobankərəni görməyib, onun kəhriz sularından içməyib. Təəssüfləndiyi də elə bundan ibarətdir. Söhbət zamanı bizə də beləcə dedi: "Bunu bağışlaya bilmirəm özümə". Lakin bizə görə o, doğma torpağının üzünü görməsə də, odunu, alovunu, nəfəsini, təəssübünü qaynar qəlbində yaşadırsa, bu ən böyük övladlıq deməkdir.

ABBAS MƏNSİM OĞLU ALLAHVERDİYEV



1956-cı il oktyabrın 28-də Yevlax şəhərində anadan olmuşdur.

Babaları 1918-ci ildə Çobankərədən deportasiya edilənlərdəndir.

A.Allahverdiyev 1973-cü ildə orta məktəbi bitirib, D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfat İnstitutunun maliyyə-kredit fakültəsinə qəbul olunmuş, 1977-ci ildə ali təhsilini başa vurub, əmək fəaliyyətinə Yevlax şəhər maliyyə şöbəsində xalq təsərrüfatının maliyyələşdirilməsi üzrə baş iqtisadçı vəzifəsi ilə başlamışdır.

1978-79-cu illərdə hərbi xidmətdə olmuş, 1980-ci ildə Bakı şəhərinə köçmüş,

1980-2000-ci illərdə Respublika Əmanət Bankında müxtəlif vəzifələrdə çalışmış, sonra Əmanət Bankı İdarə Heyətinin sədri işləmişdir. Əmək fəaliyyəti dövründə bir çox mükafatlarla təltif olunmuş, o cümlədən banka rəhbərlik etdiyi 1997-98-ci ilin maliyyə təsərrüfat fəaliyyətinə və xidmətinə görə Bank "Qrand Pri" mükafatına layiq görülmüşdür. Abbas Allhverdiyev 8 dekabr 2001-ci il tarixdə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Hesablama palatası sədrinin müavini təyin edilmişdir.

ELMAR RÜSTƏM OĞLU VƏLİYEV



1960-cı ildə Yevlaxda dünyaya göz açmışdır.

1978-ci ildə orta məktəbi əla qiymətlərlə başa vuran E.Vəliyev Azərbaycan Texnologiya İnstitutunu da müvəffəqiyyətlə bitirmişdir. Gənc yaşlarından bir sıra məsul vəzifələrdə çalışmış, işlədiyi müddətdə Bakı Dövlət Universitetində oxuyaraq hüquqşünas ixtisasına da yiyələnmişdir.

1994-cü ildən 2000-ci ilədək Dövlət Gömrük Komitəsi Yevlax Gömrük İdarəsinin rəisi vəzifəsində çalışmışdır.

Hazırda Gömrük Komitəsində məsul vəzifədə işləyir. Gömrük xidməti polkovnikidir.

DAŞLI

Zəngibasar mahalında, Kiçik Qarasu çayı kənarında, Reyhanlı kəndi yaxınlığında, indiki Sarıcalar kəndi yerində kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin **Dəşt** (**əslində** ***Daşdı*** – Ə.Ə.) **kəndi** şəklində qeydə alınmışdır. Dəftəri çapa hazırlayanlar adı düzgün oxuya bilmədiklərindən Dəşt sözündən sonra sual (?) işarəsi qoymuşlar. "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Gərni nahiyəsinin **Çinəxan kəndi yaxınlığında Daşlı kəndi** kimi qeyd olunmuşdur. Kənddə **Yusif Abdulla oğlunun** adına olan timardan dövlətin müxtəlif vergilər şəklində ildə 1.000 ağça gəlir götürdüyü də ikinci mənbədə göstərilmişdir.


Sonrakı mənbələrdə kəndin adına bir daha rast gəlməməyimiz söyləməyə əsas verir ki, kənd bölgədəki bir çox türk-müsəlman kəndləri kimi, 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri və Rusiya tərəfindən işğal olunmuş İrəvan xanlığı ərazisində rusların yeritdiyi müstəmləkəçilik siyasəti nəticəsində xaraba qalmış və sonralar bir daha bərpa olunmamışdır.

Lakin Zəngibasar mahalı ərazisində Daşlı toponimi itməmiş, kəndin yeri yaddaşlarda **Daşdı çölü** kimi yaşamış və 1940-cı il daşqını zamanı Sarıcalar kəndi məhv olduğundan camaat 1941-ci ildə həmin Daşdı çölündə yeni Sarıcalar kəndini salmışlar. Yeni kəndin salınmasında iştirak edən sarıcalarlılar çöllükdə çoxlu ev xarabalıqları, qədim qəbir izləri olduğunu yaxşı xatırlayırlar.

Daşlı toponiminin etimologiyasına keçməzdən əvvəl deməliyik ki, Qərbi Azərbaycanda "Daş" komponentli çoxlu toponimlər (Daşağıl, Daşaltı, Daşarxı, Daşbaşı, Daşbulaq, Daşburun, Daşqala, Daşqapı, Daşdan, Daşkənd, Daşkəsən, Daşkörpü, Daşlı, Daşlıgöl, Daşlıca, Daşnov, Daşçılı, Daşxana və s.) qeydə alınmışdır. Bu, kəndin türk tayfalarından birinin adını daşıması ehtimalını doğurur. Təsadüfi deyil ki, Vedibasar mahalındakı Daşlı və Daşnov kəndləri ilə yanaşı, İ.Şopendə (1832) həmin mahal ərazisində 22 ailədən ibarət Daşanlı tayfasının varlığından da bəhs olunur.

Daşlı toponiminin **"daşlı yer"** anlamında işlənməsi fikri (B.Budaqov, Q.Qebullayev) də mövcuddur.

Lakin biz adın etnonim səciyyəli olması fikrində israrlıyıq və "Dədə Qorqud"dakı **Daşər//Dışər, Daş Oğuz//Dış Oğuz** paralelləri də bu yöndə bizə dəstək verir. Xatırladırıq ki, Qərbi Azərbaycanın Loru mahalının rayonlarından birinin adı da Taşirdir.



Zəngibasar mənzərəsi

Rəssam C.Quliyev. Kiçik Qarasu çayı.

DƏMİRÇİ (DƏMİRÇİLİ, KİÇİK ŞORLU DƏMİRÇİ)

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 6 km şimal-qərbdə, Zəngi çayının sağ sahilində kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Kəndin adına ilk dəfə "İrəvan əyalətinin müfəssəl dəftəri"n-də İrəvan nahiyəsinin **Dəmirçili kəndi** şəklində rast gəlirik. "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) kənd Karbi nahiyəsinin **Dəmirçi kəndi** şəklində qeydə alınmış və kəndin **Osman** adlı şəxsin timarı olduğu, bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürdüyü göstərilmişdir. 1728-ci ilə aid həmin mənbədə Dəmirçi kəndi yaxınlığında həm də bir **Şorlu kəndi** (**Dəmirçiliye-Şollu** şəklində) qeydə alınmışdır ki, bu kənd barədə Zəngibasar mahalının Şorlu kəndindən danışarkən bəhs edəcəyik.

İ.Şopendə (1832) kənd **Dəmirçili** tayfası kimi siyahıya alınmış, bu tayfanın 29 ailədə 220 nəfərdən (118 kişi, 102 qadın) ibarət olduğu qeyd olunmuşdur. Sonrakı dövrlərdə kənd Şorlu kəndinin yanında kiçik kənd kimi mövcud olduğundan **Kiçik Şorlu Dəmirçi** adı ilə tanınmış, yerli tələffüzdə isə **Şorlu** adı **Şöllü** kimi deyilmişdir. Bu sözün etimologiyası barədə də Şorlu kəndində bəhs edəcəyik.

Türk toponimikasında geniş yayılmış **Dəmirçilər** oykonimi-nin Səlcuq türklərinin Qədirli tayfasının **Dəmirçilər** tirəsinin və Qazaxlı tayfasının **Dəmirçilər** qolunun adlarından əmələ gəlməsi ehtimalı güclüdür.

Professor S.Şükürov Dəmirçilər oykoniminin Göytürklərlə bağlı olduğu fikrindədir. Bu məsələdə o, görkəmli tədqiqatçı Rafiq Özdəkin "Türkün qızıl kitabı"ndakı aşağıdakı sözlərinə istinad edir: **"Göytürklər mədəni, ən yaxşı işləyən, ən yaxşı dəmir silahlar düzəldən türk boyudur. Onun üçün onlara "Dəmirçilər" də deyilirdi. Gerçəkdən də Hun imperatorluğunun dağılmasından sonra juan-juanlara (avarlara) sığınan göytürklər bir müddət onlara dəmirçilik edərək varlıqlarını qorumuşdular"** (I kitab, B., 1992, səh. 122).

Və maraqlıdır ki, sonrakı mənbələrdə ta 1922-ci ilə qədər Də-

mirçi kəndi statistik məlumatlarda ayrıca yox, hər dəfə Şorlu kəndi ilə bir yerdə verilmişdir və bu iki kənd bir ümumi adla **Şorlu Dəmirçi** adlanmışdır. Görünür, bu, kəndin 1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalıb, öz əhəmiyyətini itirməsi ilə bağlı olmuşdur. Hər iki kəndin birgə statistikası barədə Şorlu kəndindən danışarkən bəhs edəcəyik. Təkcə onu qeyd etmək istəyirik ki, 1918-ci ildə Böyük Şorlu Dəmirçi (Şorlu) kəndi ilə yanaşı, Dəmirçi kəndi də erməni vəhşiliyinin qurbanı olmuş, kənd əhalisi qətl və qarətlərə məruz qalaraq öz yurd-yuvasını müvəqqəti tərk etmək məcburiyyətində qalmışdır.

Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin qaçqın əhalisi geri qayıtmış, dağıdılmış ev-eşiklərini bərpa etməyə başlamışlar. O vaxtdan kənd bütün mənbələrdə ayrıca göstərilmişdir. Kənddə 1922-ci ildə 238 nəfər, 1926-cı ildə 471 nəfər, 1931-ci ildə 453 nəfər azərbaycanlı qeydə alınmışdır.

Kəndin **Kiçik Şorlu Dəmirçi** adı 1935-ci il yanvarın 3-də dəyişdirilərək sadəcə **Dəmirçi** qoyulmuş, bir növ tarixi ad bərpa olunmuşdur.

Dəmirçi kənd camaatı əsasən bağçılıq, tərəvəzçilik, taxılçılıq və heyvandarlıqla məşğul olmuş, Sovet dövründə kəndin iqtisadiyyatı xeyli inkişaf etmiş, əhalinin sosial rifahi xeyli yaxşılaşmışdı. Kənddə orta məktəb, kitabxana, uşaq bağçası, klub, tibb məntəqəsi və s. müasir sosial obyektlər fəaliyyət göstərirdi. İkimərtəbəli yaşayış binaları kəndin gözəlliyini daha da artırırdı.

Lakin 1988-ci il soyqırımı zamanı Qərbi Azərbaycan ərazisindəki bütün azərbaycanlı kəndləri kimi, Dəmirçi kəndi də (bu vaxt kənddə 220 təsərrüfatda 1.300 nəfərdən çox əhali vardı) erməni vəhşiliyinin qurbanı oldu. Rayonun daşnak rəhbərliyinin iştirakı ilə kənd əhalisinə kəndi üç gün ərzində tərk etmək barədə ultimatum verildi və deyilən vaxtda – noyabrın 27-də erməni saqqallıları əhaliyə məxsus bütün ictimai və fərdi əmlakı əllərindən alaraq onları zorla İrəvan-Bakı qatarına mindirib kənddən qovdular.

* * *

Dəmirçi kəndi cənubdan Sarvanlar, qərbdən Mehmandar, şimaldan Qaraqışlaq və Haçaparaq kəndləri ilə qonşuluqda yerlə-

şirdi. Çölləri Sarvanlar kəndinə qədər uzanıb gedirdi. Dəmirçi kəndi ilə Şöllü kəndi arasından Zəngi çayı axırdı. Zəngi çayına **Qobu** da deyirdilər. Dəmirçi ilə Şöllünün arasında, Zəngi çayının düz qırağında **Qullar** kəndinin xarabalıqları yerləşirdi.

İrəvandan Üçkilsəyə gedən yol isə Dəmirçi kəndinin ortasından keçirdi.

Dəmirçi kəndi ilə Qaraqışlaq kəndi arasında təpəliklər vardı. Dəmirçililər bu təpəlikləri **Qırlıq (Qırrıq** şəklində) adlandırırdılar.

Dəmirçi kəndi ilə Şöllü kəndi arasında Zəngi çayının üstündə taxta körpü vardı. 1977-ci ildə salınmış bu körpü Dəmirçi kəndinin qarşısındakı məscidin tuşunda idi. Məscidin həyətində tut ağacı vardı. Ümumiyyətlə, məscidlərin həyətinə tut ağacları ehsanlıq salınırdı.

Kəndin təsərrüfatının əsasını uzun illər pambıqçılıq, tərəvəzçilik. taxılçılıq təşkil etmişdir. Kənd camaatı həm içmək, həm də suvarmaq üçün əsasən Zəngi çayından kəndə çəkilən kanalların suyundun istifadə edirdilər. İlk içməli su mənbəyi 1935-ci ildə kənddə qazılan kəhriz olub. 1950-ci illərdə çoxlu artezian quyuları qazılıb.

Dəmirçi kəndi bu kəndin ən yaşlı sakinlərinin təsdiq etdiyi kimi, Şöllü kəndindən köçüb gələn ailələr tərəfindən salınmış, əsasən Şöllü Dəmirçi, Kiçik Şöllü, Kiçik Şöllü Dəmirçi adlanmışdır.

Kəndin salınması ilə bağlı belə rəvayət var ki, bir gün kəndin sakinləri körüblər ki, göydən mələklər enib yerə, onların endikləri yerə müqəddəs qan ləkələri düşüb. Adamlar həmin yerdə məscid tikiblər və tezliklə məscidin ətrafında evlər peyda olub. Kənd beləcə salınıb.

Kəndin əsasən iki qəbirstanlığı olub. Birincisi Şöllü kəndində yerləşib. Daha doğrusu, Şöllü kənd qəbirstanlığı ilə bir yerdə olub. Bu qəbiristanlıqda qoç qəbir daşları son illərə qədər qalmaqda idi. 1950-ci ildə Dəmirçi kəndinin öz qəbiristanlığı salınıb. Lakin son zamanlar kənddən rəhmətə gedənlərin əksəriyyəti məşhur Ağadədə ziyarətgahının qəbirstanlığında dəfn edilirdi.

Kəndin mərkəzində məscid binası yerləşirdi. XX yüzilin əvvəllərində tikilmiş bu məscid 1940-cı ilə qədər fəaliyyət göstərmiş, sonra dayandırılmış, bir də 1960-cı illərdə fəaliyyətini bərpa

edib, 1988-ci ilə qədər kəndin dindarlarının ibadət yeri olmuşdur. Bu məsciddə **Molla İbrahim, Molla Həsən, Molla Kərim, Molla Qulam, Məşədi Rza** və b. mollalıq etmişlər.

Keçmişdə Dəmirçidə **Hacı Qasım** adlı hörmətli bir kişi olub. Hacı Qasımın 7 oğlunun hamısı Hacı imişlər: **Hacı Abbas, Hacı Hüseyn, Hacı Budaq, Hacı Mirzə, Hacı Alırza, Hacı İbrahim...**

Deyilənə görə, Hacı Qasımın 1 camış dərisi qızılı olub, ölüm-qabağı bu qızılı yeddi yerə bölüb, oğlanlarının hərəsinə 1 balaq dərisi qızıl çatıb. Hacı Qasım dünyadan köçdükdən sonra bu böyük nəslə qardaşların böyüyü olan **Hacı Abbas** ağsaqqallıq edib. O, 120 yaşına qədər yaşayıb, böyük nüfuz, hörmət sahibi olub.

Adalar adlanan geniş ərazi Hacı Abbasa məxsus olub. Qardaşların torpaqlarının böyük hissəsi Ələyəz dağının ətəklərində yerləşib. Hacı Qasımın uşaqları hər il bu torpaqlara yaylağa qalxarmışlar. Qardaşlardan **Hacı Alırzanın** oğlu **Məşədi Qasım** məşhur tacir olub. Gənc yaşlarından İran, Türkiyə, Hindistan, Rusiya və s. ölkələri gəzib, həmin ölkələrlə ticarət əlaqələri qurub, Rusiyanın Xarkov şəhərində mağazaları işləyib.

Keçmişdə kəndin nüfuzlu kişiləri sırasında **Kəlba Abdulla, Kəlba Əkbər, Kəlba Mahmud, Məşədi Yusif, Məşədi Kərim, Məşədi Rəhim** və b.-nın da adlarını çəkmək olar.

Kəndin varlı adamları həmişə xeyriyyəçilik də ediblər. Xüsusilə hər Novruz bayramında varlılar düyüdən, kişmişdən və s. bayram yer-yemişindən ayırıb, kəndin bütün kasıb ailələrinə paylayarmışlar.


1948-ci ildə Şorlu kəndi ilə bir yerdə Dəmirçi kəndini də köçürməyə təşəbbüs etsələr də, kənd camaatı sözü bir yerə qoyub, kənddən çıxmayıblar. Yalnız 1-2 ev Şorlu kəndi ilə birlikdə (qohumluq əlaqələrinə görə) kənddən çıxmağa məcbur olublar.

1961-1969-cu illərdə Dəmirçi kolxozunun sədri olan **Mirabbas Heydərov** kənddə təhsilə xüsusi qayğı göstərmiş onun təşəbbüsü və köməyi ilə 1967-ci ildə Dəmirçi kənd məktəbində səkkizillik təhsil sistemindən onillik təhsil sisteminə keçilmiş, həmin il kənddə ikimərtəbəli yeni məktəb binası tikilib istifadəyə verilmişdir. 1974-cü ildə isə kənddə üçmərtəbəli texnikum binası tikilmiş və İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumu bura göçürülmüşdür. Hər iki məktəbin binası Dəmirçi kəndi

ilə Zəngi çayı arasındakı **Tutluq** adlı yerdə yerləşirdi.

Həbib Cəfərov, Məmməd Hüseynov, Xəlil Səfərov, Yunis Cəfərov, İslam Mahmudov, Hüseyn Yusifov, Həsən Həsənov, Əli Məmmədov, Qəhrəman Yusifov ayrı-ayrı vaxtlarda Dəmirçi kənd məktəbinin direktoru vəzifəsində olmuşlar. Əslən Vedibasar mahalının Qaralar kəndindən olan **Lətifə Həsən qızı Haqverdiyeva** Dəmirçi kənd orta məktəbin sonuncu (1988-ci ilə qədər) direktoru olmuşdur. Həmin vaxtlar Dəmirçi kənd orta məktəbində 450 nəfər şagird təhsil alırdı.

Məktəbin qocaman müəllimləri sırasında **Orucəli Yusifovun, Heydər Heydərovun, Cabbar Rzayevin, İsmayıl Rzayevin, Mirabbas Heydərovun** və b.-nın adlarını çəkmək olar.



MİRABBAS MİRSƏFƏR OĞLU HEYDƏROV 1930-cu il martın 16-da Dəmirçi kəndində anadan olmuşdu. Atası **Kərbəlayi Mirsəfər** 1935-ci ildə vəfat etmiş, atasını itirdikdən sonra balaca Mirabbas mehrini əmisi **Mirhəşimə** salmış, lakin az sonra – 1940-cı ildə Mirhəşim də müharibəyə gedib qayıtmamış və balaca Mirabbas qanlı-qadalı müharibə illərində təhsilini davam etdirməklə bərabər, həm də kolxozda işləmişdir.

1948-ci ildə İrəvan Pedaqoji Texnikumunu, 1952-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirmiş, riyaziyyat müəllimi ixtisasına yiyələnən Mirabbas müəllim 1961-ci ilə qədər Qaraqışlaq, Dəmirçi kənd məktəblərində, Uluxanlı qəsəbəsindəki orta məktəbdə müəllim işləmiş, camaat arasında qazanmış olduğu nüfuza görə sonuncu tarixdə yaşadığı doğma kəndə kolxoz sədri seçilmişdir.

Qısa müddət ərzində kolxozçuların maddi rifahını yaxşılaşdırmaq məqsədi ilə bir çox sahələrdə əmək məhsuldarlığını artırmağa nail olur. Qüvvədən düşmüş sahələrin su ilə təmin olunmasını yaxşılaşdırmaq üçün artezian quyuları qazdırır, kolxozçuları səfərbərliyə alaraq həmin sahələrdə bol məhsul yetişdirir, kolxozun əlavə gəlirləri hesabına kəndə yol çəkdirir, uşaq bağçası, mağaza, rabitə məntəqəsi, orta məktəb binası tikdirib istifadəyə verdirir,

uzun illərdən bəri anbar kimi istifadə olunan məscidin açılıb, dindarların, kənd adamlarının ixtiyarına verilməsinə nail olur.

1969-cu ildə öz istəyi ilə işdən azad olunub, Zəngibasar rayon Xalq Maarif Şöbəsinə müfəttiş təyin edilir, məktəblilər arasında rayon olimpiada komitəsinin sədri və respublika olimpiada komitəsinin azərbaycanlı bölməsinin rəhbəri olur.

Əlsiz-ayaqsızların, köməksizlərin dayağı olan Mirabbas ağa sözün əsl mənasında bir el ağsaqqalı kimi ad çıxarmışdı. Onun rayonun Dini İdarəsində sədr müavini olması dini problemlərin həll olunmasına müsbət təsir göstərirdi. Milli zəmində olan münaqişələrin yatırılmasında çox böyük əməyi olmuşdu.

1988-ci il hadisələrindən sonra vətən itkisi ağrısına dözməyən Mirabbas ağa 1993-cü il dekabrının 6-da Bakıda dünyasını dəyişmiş, onu tanıyan, sevən insanlara gözəl sözlər, gözəl əməllər, ən başlıcası isə, öz əməllərini davam etdirən övladlar qoyub getmişdir.

Orucəli Məşədi Yusif oğlu Yusifov yarım əsrə yaxın – 1943-cü ildən 1988-ci ilə qədər Dəmirçi kənd məktəbində müəllim işləmiş, gənc nəslin təlim-tərbiyəsində böyük xidməti olmuşdur.

İslam Mahmud oğlu Abbasov 1935-ci ildə Dəmirçi kəndində anadan olmuşdur. Atası Kərbəlayı Mahmud kəndin sayılan adamlarından idi. İ.Abbasov 1957-ci ildə Gəncə Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsini bitirmiş, 1960-cı ilə qədər Qaraqışlaq və Dəmirçi kənd məktəblərində müəllim işləmişdir. 1960-cı ildə Dəmirçi kənd yeddiillik məktəbinə direktor təyin olunmuş, az sonra onun təşəbbüsü ilə burada yeni məktəb binası tikilib istifadəyə verilmiş, yeddiillik məktəb orta məktəbə çevrilmişdi. İ.Abbasov fasiləsiz olaraq 18 il həmin məktəbə direktorluq etmiş, 1987-ci ildə "Baş müəllim" adına layiq görülmüşdür. 1988-ci ildən Bakıda yaşayır və şəhərin Nəsimi rayonundakı 9 saylı orta məktəbdə müəllim işləyir.

Dəmirçi kəndinin yetişdirdiyi ziyalılar sırasında alimlərin xüsusi yeri var. **Yunis Ələkbərov** baytarlıq elmləri doktoru, **Fərrux Həsənov** iqtisad elmləri namizədi olmuşlar. Kənd təsərrüfatı elmləri namizədi **Şaban Cəfərov** tanınmış pambıqçı alim, fizika-riyaziyyat elmləri namizədi **Bayram Heydərov** isə Bakı şəhərində "Zəngi" litseyinin yaradıcısı və direktorudur.

Rza Quliyev, Əsgər Mehdiyev, Məmməd Mirzəyev, Əli

Məmmədov, Nəcəfqulu Quliyev, Mirabbas Heydərov, Cəfər Elyasov, Əsəd Kərimov, Yolçu Əliyev, Həsən Paşayev, Abbas Mustafayev, Rza Bağırov, Səfər Cəfərov və b. ayrı-ayrı vaxtlarda kəndin təsərrüfat (kolxoz-sovxoz) rəhbəri, **Abbas Məmmədov, Rza Nağıyev, Həsən Abbasov, Rza Bağırov, Salah Bağırov, Əli Qasımov, Hüseyn Hüseynov, Əsəd Kərimov, Zeyni Əsgərov** və b. isə kənd sovetinin sədri olmuşlar.

Dəmirçi kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı

Poçt – 1
Əczaxana – 1
Yeməkxana – 1
Kitabxana – 1
Məktəb – 1
X/b mal-qara – 170
İ/b mal-qara – 100
K/t maşınları – 20
Avtobus – 1
Avtomaşınlar (yük, minik) – 14
Məscid – 1
Ambar binaları – 2
Ding və dəyirman – 1
Transformator – 2
Quşçuluq ferması – 1
X/b mal-qara tövləsi – 2
İ/b mal-qara tövləsi – 2
Həkim məntəqəsi – 1
Xəstəxana – 1
Uşaq bağçası – 1
İdarə binası – 1
Kino binası – 1
Mədəniyyət evi – 1

KƏNDİN TAYFALARI

Ovşarlar, Mehdililər, Hacı Qasımlılar, Ayarlılar, Qululer, Xansoylar...

KƏNDİN TOPONİMLƏRİ

Qoruqlar, Qırrıq, Xədim gölü, Qobular, Şübədibi, Məsimalı, Tutluq, Yeddilər, Yeddilərin bulağı...

QARABAĞ MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

1. Əli Rza oğlu Dövrüşov (1954, Dəmirçi –)
2. Vidadi Eyni oğlu Kərimov (1970, Dəmirçi – 1993, Füzuli)

CƏFƏR KƏRİM OĞLU ELYASOV



1932-ci il aprelin 14-də Dəmirçi kəndində anadan olmuşdu.

1947-ci ildə Dəmirçi yeddiillik məktəbini, 1951-ci ildə İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumunu əla qiymətlərlə 1956-cı ildə Gəncə şəhərində Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu isə fərqlənmə diplomu ilə bitirmiş, işləmək üçün təyinatını əvvəllər oxuduğu İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumuna almışdır.


1960-cı ildə texnikumun qiyabi şöbəsinin müdiri təyin olunmuş, 1967-ci ildə texnikumun direktoru vəzifəsinə irəli çəkilmiş, 1978-ci ilə qədər həmin vəzifədə çalışmışdır. C.Elyasov 1985-ci ildə yenidən texnikuma direktor təyin edilmiş və 1 il bu vəzifədə işləmişdir.

1960-cı ildən azərbaycanlı texnikumunun erməni meliorasiya texnikumu binasının 3-cü və 4-cü mərtəbələrində fəaliyyət göstərdiyinə görə azərbaycanlı tələbələrin erməni tələbələr tərəfindən daim sıxışdırıldığını görən Cəfər müəllim 1973-cü ildə Ermənistan hökumətinə müraciət edərək 1974-cü ildə Kənd Təsərrüfatı Texnikumunun adının də-

yişdirilib Dəmirçi Sovxoz-Texnikumu qoyulmasına və Dəmirçi kəndində yeni texnikum binası tikdirilib, texnikumun bura köçürülməsinə nail olur.

1975-ci ildə Ermənistanın Əməkdar müəllimi adına layiq görülən Cəfər müəllim 1988-ci ilə qədər texnikumda işləmiş, həmin ildə Bakı şəhərinə köçməyə məcbur olmuş, 1988-ci ilin noyabr ayından ömrünün sonuna – 2000-ci il dekabrın 8-ə kimi Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin Baytarlıq İdarəsində Toksikologiya laboratoriyasının müdiri işləmişdir.

ŞABAN MƏŞƏKƏRİM OĞLU CƏFƏROV



1936-cı il oktyabrın 23-də Dəmirçi kəndində anadan olmuşdur.

1951-ci ildə Dəmirçi kənd yeddiillik məktəbini əla qiymətlərlə, 1955-ci ildə İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumunu qırmızı diplomla bitirmiş, Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakültəsinə imtahansız qəbul olunmuşdur.

1960-cı ildə ali təhsilini başa vurub, təyinatını Gəncə şəhərindəki Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutuna almış, institutun seleksiya şöbəsində kiçik elmi işçi vəzifəsində çalışmış, 1964-cü ildə institutun aspiranturasına daxil olmuş, 1967-ci ildə dissertasiya müdafiə edərək kənd təsərrüfatı elmləri namizədi alimlik dərəcəsi almışdır.

1967-1970-ci illərdə institutun toxumçuluq şöbəsində baş elmi işçi və sonralar həmin şöbənin müdiri vəzifələrində işləmişdir.

1973-1975-ci illərdə Pambıqçılıq İnstitututun Salyan rayonundakı İstehsalat Təcrübə Stansiyasının direktoru, 1975-1983-cü illərdə yenidən Pambıqçılıq İnstitutunda toxumçuluq şöbəsinin müdiri vəzifələrində çalışmışdır. Pambığın seleksiyasına, toxumçuluğuna və pambıq istehsalı texnologiyasına dair 56 elmi əsərin müəllifidir.

İnstitutda işlədiyi illərdə 3038 və Aznixi-33 pambıq növlərini yaratmış və geniş sahələrdə yaymışdır. 3038 pambıq növünü yaradıb yaydığına görə 1980-ci ildə respublika **Dövlət Mükafatına** layiq görülmüşdür.

Pambıqçılıq elmi sahəsindəki nailiyyətlərinə və istehsalata etdiyi

elmi köməkliklərinə görə "Şərəf Nişanı" ordeni (1977) və "Əmək Veteranı" medalı (1987) ilə təltif edilmişdir.

1983-1985-ci illərdə SSRİ Kənd Təsərrüfatı Nazirliyinin respublikada kənd təsərrüfatı bitkilərinin növlərini və sortlarını sınaqdan keçirib rayonlaşdıran sort-sınaq müfəttişliyinin rəisi vəzifəsində işləmiş və onlarla meyvə, buğda, tərəvəz, pambıq, arpa növlərini seçib rayonlaşdırmışdır.


1986-1989-cu illərdə Əkinçilik İnstitutunun toxumçuluq şöbəsində baş elmi işçi, 1989-1992-ci illərdə Sabirabad rayonunda yaratdığı "Elm" kooperativinin sədri, 1992-1993-cü illərdə Kənd Təsərrüfatı Nazirliyinin Elmi İdarəsinin rəisi, 1993-1997-ci illərdə nazirliyin pambıqçılıq idarəsinin rəis müavini, 1997-1999-cu illərdə Əmək Komitəsinin pambıq emalı idarəsində toxumçuluq bölməsinin müdiri vəzifələrində çalışmışdır.

1999-cu ilin avqust ayından hal-hazıra kimi özəl "MKT" İstehsalat Kommersiya Firmasında pambığın seleksiyası və toxumçuluğu üzrə mütəxəssis vəzifəsində işləyir.

Respublikada geniş sahələrdə əkilən **Şabran** qarpız növünü 199.1-ci ildə yaratmış və yaymışdır.

2001-ci ildə tez yetişən məhsuldar "MKT" pambıq növünü yaratmış, pambıqçılıqla məşğul olan fermerlər üçün pambıqçı fermerin stolüstü kitabını yazmışdır.

FƏRRUX HEYDƏR OĞLU ABBASOV



1947-ci il aprelin 23-də Dəmirçi kəndində anadan olmuşdur.

1960-cı ildə Dəmirçi kənd yeddiillik məktəbini, sonra İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumunu, 1968-ci ildə isə Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir. Təyinatla Azərbaycan EA İqtisadiyyat İnstitutunda kiçik elmi işçi vəzifəsinə işə götürülmüş, sonra isə baş elmi işçi vəzifəsində işləmişdir. Azərbaycanda demoqrafiya siyasəti və əmək ehtiyatlarından istifadə problemi üzrə tədqiqat işi aparmış, 1973-cü ildə dissertasiya müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır. 100-ə

yaxın elmi əsərin, o cümlədən 10 monoqrafiyanın, dərslik və dərs vəsaitinin müəllifi və şərikli müəllifidir.

1982-1993-cü illərdə Azərbaycan Texniki Universitetində dosent vəzifəsində işləyib.

1993-cü ildən indiyədək Azərbaycan Respublikası Sahibkarlığa kömək milli fondunun direktorudur.

BAYRAM MİRABBAS OĞLU HEYDƏROV



1956-cı il martın 22-də Dəmirçi kəndində ziyalı ailəsində dünyaya gəlmişdir.

Atası Mirabbas Heydərov Zəngibasar mahalının tanınmış ziyalılarından, hörmət və nüfuz sahiblərindən olmuş, el arasında Mirabbas ağa kimi tanınmışdır.

1973-cü ildə doğma kəndlərində orta məktəbi, 1979-cu ildə Azərbayjan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini bitirən Bayram müəllim təyinatla respublika EA Riyaziyyat və Mexanika İnstitutunun konstruktor bürosunda laborant kimi işə başlamış, aparıcı konstruktor vəzifəsinədək yüksəlmiş, Leninqradda 6 aylıq, Novosibirsk Dövlət Universitetində 2 illik stajartırma kurslarında olmuş, aspiranturada oxumuş, 1988-ci ilin yanvarında Azərbaycana qayıtmışdır.

Novosibirsk Dövlət Universitetində akademik M.M.Lavrentyevin rəhbərliyi ilə diferensial tənliklər ixtisası üzrə dissertasiya müdafiə edib, fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır.

1992-ci ilin iyul ayından Bakı şəhərindəki «Zəngi» litseyinin yaradıcısı və direktoru, YAP Siyasi Şurasının üzvüdür.

Bayram müəllim 2002-ci ilin martında müqəddəs Həcc ziyarətində olmuşdur.

Ailəlidir, dörd övladı var.

QƏHRƏMAN ORUC OĞLU YUSİFOV



1952-ci il mayın 18-də Dəmirçi kəndində anadan olmuş, 1969-cu ildə Dəmirçi kənd orta məktəbini qızıl medalla, 1974-cü ildə Azərbaycan Pedaqoji İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir.

1974-cü ildən Dəmirçi kənd orta məktəbində fizika-riyaziyyat müəllimi, 1976-cı ildən dərs hissə müdiri işləyən Qəhrəman Yusifov 1985-ci ildə həmin məktəbin direktoru vəzifəsində çalışmışdır.

1986-cı ildən Dəmirçi sovxoz-texnikumunda qiyabi şöbənin metodisti işləmiş, 1988-ci ildə İrəvan Kənd Təsərrüfatı İnstitutunu bitirərək ikinci ali təhsil almışdır.

1988-ci ildən Bakı şəhərində məskunlaşmış, 1992-ci ilədək Abşeron rayonunun Ramana südçülük sovxozunda işləmişdir.

1992-ci ildən "Sünbül" şirkətinin prezidenti, II qrup 20 Yanvar əlili, Sabunçu rayon 20 Yanvar Əlillər Cəmiyyətinin sədridir.

BƏYLƏR ORUC OĞLU YUSİFOV



1959-cu ildə Dəmirçi kəndində anadan olmuş, 1976-cı ildə Dəmirçi kənd orta məktəbini bitirmiş, hərbi xidmətdən sonra – 1981-ci ildən 1990-cı ilə qədər Özbəkistanda polis orqanlarında çalışmışdır.

1990-cı ildə Bakıya qayıdıb, burada polis orqanlarında işləyən Bəylər Yusifov 1992-ci ildə könüllü olaraq döyüş bölgələrinə getmiş və Ağdam cəbhəsində vuruşmuşdur. Qarabağ müharibəsi veteranıdır.

1996-cı ildən Ədliyyə Nazirliyi Məhkəmə Qərarları Baş İdarəsinin 19 saylı Xüsusi Müəssisəsinin rəisi vəzifəsində çalışır.

Ali hüquq təhsillidir, ədliyyə polisi mayorudur.

DƏRCAN//DİRCAN

Zəngibasar mahalında, Zəngilər kəndi yaxınlığında kənd. Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) kəndin adı İrəvan nahiyəsinin **Tərcanlı qışlağı,** "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Qırxbulaq nahiyəsinin **Tərcan kəndi,** İ.Şopendə (1832) isə Zəngibasar mahalının **Dərcan kəndi** kimi qeydə alınmışdır.

Kəndin adının etimoloji izahına keçməzdən əvvəl xatırlatmaq istəyirik ki, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Karbi nahiyəsində də Tərcan adlı kənd mövcud olunmuşdur. XI yüzilə aid ərmən mənbəyində kənd **Dərdcan,** XVII yüzilə aid mənbədə **Dərcan** şəklində qeydə alınmışdır (Bax: B.Budaqov, Q.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, səh. 234-235). Orta yüzillər mənbələrində isə kəndin adının həm də **Sarı Tərcan** şəklində qeydə alındığı göstərilir.

Bununla belə, kəndin adının əhalinin hərəkəti ilə bağlı gətirilmə ad olması, Anadoluda Ərzurum əyalətinin cənub-qərbində, Fərat çayının vadisində Tərcan şəhərindən və mahalından (söhbət XV yüzildən gedir) gəlmiş ailələrin məskunlaşması nəticəsində yaranması fikri ilə (B.Budaqov, Q.Qeybullayev) razılaşmırıq. Əvvəla, Zəngibasar mahalı ərazisində belə bir kənd, mənbələrin şəhadətinə görə, daha əvvəllərdən mövcud olmuşdur. İkincisi, ümumiyyətlə, qədim tarixə malik olan Azərbaycan, o cümlədən Qərbi Azərbaycan ərazisindəki toponimlərin bu bölgəyə gəlmə olması kimi yanlış konsepsiyadan birdəfəlik əl çəkmək lazımdır. Doğrudan da, mənbələr təsdiqləyir ki, bir çox oykonimlər kimi, Dərcan kənd adı da bölgəyə gətirilmə deyil.

Belə ki, İ.Şopen məşhur "İstoriçeskiy pamyatnik" əsərində XII yüzildə gürcü çarı Dmitri Davidoviçin vaxtında xalqın Nedis kəndində Hrasdan (Zəngi) çayı üstündə Ərmən atabəyi Dərsaicanın (oxu: **Dirsə xanın**) şərəfinə xaç ucaltmağından bəhs edir.

Heç şübhəsiz, xalq tərəfindən şərəfinə abidə ucaldılan hökmdar yəqin ki, bu şərəfə ölümündən sonra layiq görülmüşdü və bu tarixi fakt sağlığında onun böyük hörmət və ad-san sahibi oldu-

ğuna dəlalət edir. Təsadüfi deyil ki, xalq bu qəhrəman oğlunu folklor qəhrəmanı səviyyəsinə də qaldırmış və o, "Kitabi-Dədə Qorqud" dastanlarında Dirsə xan adı ilə əbədiləşdirilmişdir. Sonradan **Dirsə xan//Dərsəican** xalq tələffüzündə **Dircan//Dərcan** şəklinə düşmüşdür.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Dərcan (mənbədə Tərcan) kəndinin **Hacı Hüseyn** adlı şəxsin timarı olduğu və bu timardan dövlətin müxtəlif vergilər şəklində ildə 6.000 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) isə **Dərcan** kəndinin Zəngibasar mahalının xaraba kəndləri siyahısında verilməsi onun 1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalmasından irəli gəlirdi.

Sonrakı mənbələrdə kəndin adına bir daha təsadüf olunmaması söyləməyə əsas verir ki, kənd sonralar təzədən məskunlaşmamış və elə o vaxtdan da xaraba qalmışdır.

* * *

Dərcan kəndinin məşhur Əsli-Kərəm hadisəsi ilə bağlı olması haqda qonşu Zəngilər kənd camaatı arasında rəvayət vardır. Kənd yerindəki **"Kərəm bulağı"** adlanan bulaq da bu deyiləni təsbit edirdi. Belə ki, deyilənə görə, Kərəm Əslinin dalınca Ərzuruma gedəndə (Zəngibasardan Ərzurum dağları aydın görünürdü) bir neçə günlüyə Dərcanda qalır. Dərcan bəyinin qızı Nərgiz xanım Kərəmə aşiq olur, onu Əslinin arxasınca Ərzuruma getməkdən çəkindirməyə çalışır. Lakin Kərəm onu eşitmir və yoluna davam edir.

GÖYÇƏBƏYLİ

Zəngibasar mahalında, Aşağı Necili kəndi yanında kənd. Sonralar Aşağı Necili kəndinə qarışmışdır.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin **Göyçəbəyli kəndi,** "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Göyçəbinək kəndi** kimi qeydə alınmışdır. Üstəlik, kənd əhalisinin Necili camaatından olduğu, dövlətin kənddən müxtəlif vergilər şəklində ildə 8.000 ağça gəlir götürdüyü də ikinci mənbədə göstərilmişdir.


Kənd sonralar Aşağı Necili kəndi ilə birləşmiş və Aşağı Necilinin ən böyük tayfalarından birini təşkil etmişdir. **Göyçəbəyli** adlanan bu tayfa və onun nümayəndələri haqqında Aşağı Necili haqqındakı yazımızda ətraflı bəhs etmişik.

Toponimin etimologiyası ilə bağlı onu deyə bilərik ki, Qərbi Azərbaycan ərazisində **Gögcə//Göycə** komponentli çoxlu toponimlər mövcuddur. Bunların ən məşhuru Göyçə gölü və bu gölün ətraf torpaqlarını əhatə edən eyniadlı mahaldır. Keçmişdə Aleksandropol (Gümrü) və Sürməli qəzalarında Göycəli adlı dağ və kənd də qeydə alınmışdır. XIV-XVI yüzillərdə Anadoluda yaşayan Yeruk və Varsak tayfalarının da **Göycəli** adlı tirələri olmuşdur. XVI yüzildə Qarabağda yaşayan bir el də **Göycəli** adlanmışdır. Biz bütün bu etnonimləri Göyçə mahalından aparılma hesab edirik. Göyçəbəylər etnotoponimi də **"Göyçə mənşəli bəylər"** anlamında başa düşülməlidir.

GÖYGÜMBƏT

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 16 km şimalda, Zəngi çayının sağ kənarında, **Zarınca dağının** yaxınlığında, Cəfərabad və Ağcaqışlaq kəndləri arasında kənd.

XVII yüzilin əvvəllərinə qədər kənddə ancaq Azər türkləri, həmin vaxtdan XIX yüzilin ortalarına qədər azərlərlə ermənilər yanaşı, XIX yüzilin ortalarından 1918-ci ilə qədər yenə ancaq Azər türkləri yaşamış, 1921-ci ildən etibarən kənd yenidən azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kəndə çevrilmiş, 1950-ci illərdə bütünlüklə ermənileşdirilmişdir.



Göygümbət kəndinin ümumi görünüşü

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin **Göygünbəz kəndi**, İ.Şopendə (1832) Zəngibasar mahalının **Göygünbəd kəndi**, sonrakı statistik məlumatlarda (1873, 1886 və s.) isə **Göygümbət//Göygümbəd kəndi** şəklində qeydə alınmışdır.

Kəndin adının etimoloji izahı özlüyündə aydındır. Bu barədə kəndin adını üç variantda – Göy Gümbət, Göy Gümbəz və Göygünbəd şəklində qeydə alan İ.Şopen də yazır. O göstərir ki, İrəvan şəhərindən 5 verst aralıda, Üçkilsəyə (Eçmiədzinə) gedən yolun solunda kəndin adını doğuran qüllə aydın görünür. Həmçinin əlavə edir ki, həmin qüllə müsəlmanlığın hökmranlığı dövrünə aiddir. Doğrudan da, kənd adını göy rəngli kaşı ilə bəzədilmiş

günbəzli mavzoleyin adından almışdı. Toponimin yazılışının yuxarıdakı çoxvariantlılığı isə **günbəz** sözünün yerli tələffüz formalarından başqa bir şey deyildir.

Yeri gəlmişkən, Göygümbət kəndi İrəvan çuxuru ərazisində ən qədim kəndlərdən biri sayıla bilər. Bunu oradakı haqqqında bəhs etdiyimiz tarixi abidə və kəndin adına tez-tez rast gəldiyimiz orta yüzil mənbələri də təsdiq edir. Zəngibasar mahalının Kolar kəndindən bəhs edərkən dediyimiz kimi, hələ XVII yüzilin birinci rübündə Çuxur-Səd bəylərbəyi Əmirqunə xanın (1605-1625) Anadoludan gətirdiyi erməni ailələrinin məskunlaşdırıldığı kəndlərdən biri də Göygümbət kəndi (Kolara, Kavakert, Parakar və Sabat kəndləri ilə yanaşı) olmuşdur. Yuxarıda qeyd etdiyimiz kimi, "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) də kəndin adı çəkilmişdir. Belə olan təqdirdə "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) kəndin adının çəkilməməsi təəccüb doğurur. Lakin həmin dəftərdə kəndin yerləşdiyi Qırxbulaq nahiyəsi ərazisində **Köykənd** adı ilə qeydə alınmış iki kənd adına rast gəlirik: **Aşağı Göykənd, Yuxarı Göykənd.** Birincidən dövlətin müxtəlif vergilər şəklində götürdüyü illik gəlir 10.000 ağça, ikincidən götürdüyü gəlir 12.000 ağça məbləğindədir. Biz qəti olaraq bu fikirdəyik ki, Aşağı Göykənd deyəndə söhbət Göygümbət kəndindən, Yuxarı Göykənd deyəndə Cəfərabad kəndindən gedir və Göykənd adı kəndlərə onlardakı göy kaşılarla bəzədilmiş qədim türbənin mövcudluğuna görə verilmişdir.

İ.Şopendə (1832) kənddə cəmi 4 təsərrüfatda 21 nəfər (12 kişi, 9 qadın) Azər türkü, 8 təsərrüfatda 32 nəfər (18 kişi,14 qadın) XVII əsrdə bura köçürülüb gətirilmiş erməni, 33 təsərrüfatda 147 nəfər (84 kişi, 63 qadın) İrandan yenicə gəlmiş erməni qeydə alınmışdır.

1873-cü ildə kənddə 27 təsərrüfatda 166 nəfər (93 kişi, 73 qadın) Azər türkünün qeydə alınması və kənddə bir nəfər də ermənin yaşamaması söyləməyə əsas verir ki, XVII və XIX yüzilin əvvəllərində kəndə köçürülmüş ermənilər az sonra çıxıb başqa yerlərə getmişlər. 1873-cü ilin statistik məlumatlarında kənddə həmçinin **"müsəlman tikilisi bürcü"** qeydə alınmışdır.

1886-cı ildə Göygümbət mülkədar kəndində 92 təsərrüfatda 200 nəfər (114 kişi, 86 qadın) Azər türkünün yaşadığı, onların da

14 nəfərinin (9 kişi, 5 qadın) bəy ailəsi üzvləri olduğu göstərilmişdir. Həmin bəy ailəsi, şübhəsiz ki, İrəvan zadəganlarından **Topçubaşovlar** olmuşlar. Çünki həmin dövrdə Göygümbət kəndi Topçubaşovların mülkü idi. Xatırladırıq ki, dünya şöhrətli cərrah, akademik **Mustafa bəy Ağa bəy oğlu Topçubaşov** 1895-ci il avqustun 3-də ata-baba malikanələri yerləşən həmin Göygümbət kəndində anadan olmuşdu.

Kəndin əhalisinin hər il **Hacı Məmməd Əli oğlunun** torpaqlarından 10 xalvar ərazini icarəyə götürdüyü barədə də 1886-cı ilə aid mənbədə məlumat verilmişdir.

Həmin mənbədə torpaq mülkləri olan göygümbətli kəndlilər sırasında iki nəfərin də adı çəkilmişdir: **Həsən bəy Ağa bəy oğlunun** və **Kərbəlayi Hüseyn Abbasəli oğlunun.**

1897-ci ildə kənddə 230 nəfər, 1905-ci ildə 252 nəfər, 1914-cü ildə 280 nəfər Azər türkü yaşamışdır.

1918-ci ildə kənd erməni daşnakları tərəfindən dağıdılmış, talan edilmiş, əhalisinin bir hissəsi qətlə yetirilmiş, sağ qalanlar kənddən qovulmuşlar. Boşalmış azərbaycanlı evlərinə Türkiyədən qaçıb gəlmiş erməni mühacirləri yerləşdirilmişlər.

Sovet hakimiyyətinin ilk illərində kəndin qaçqın düşmüş azərbaycanlı əhalisinin bir qismi Vətənə qayıtmış, 1922-ci ildə onların sayı 96 nəfər olmuşdur. Bu vaxt kənddə məskunlaşdırılmış gəlmə ermənilərin sayı azərbaycanlıların sayından təxminən 2 dəfə çox – 193 nəfər idi. 1926-cı ildə kənddə 162 nəfər azərbaycanlı, 309 nəfər erməni, 1931-ci ildə isə 174 nəfər azərbaycanlı, 394 nəfər erməni yaşamışdır.

1948-ci ildə kəndin azərbaycanlı əhalisi deportasiya olunaraq zorla Azərbaycana köçürülmüşlər. Sonralar geri qayıdan tək-tək ailələr bir müddət doğma kəndlərində yaşamış, tədricən sıxışdırılaraq köçüb qonşu müsəlman kəndlərinə getmişlər. Bu qədim türk kəndi də beləcə ermənileşdirilmişdir.

1949-cu il dekabrın 1-də kəndin Göygümbət adı dəyişdirilərək **Geğanist** qoyulmuşdur.

İrəvan şəhərinin təxminən üç kilometrliyində yerləşən Göygümbət kəndinin ortasından Zəngi çayı keçir, çayın sağ sahilində Göygümbət, sol sahilində Ağcaqışlaq kəndləri yerləşir. Çayın üstündən salınmış taxta körpü bu iki kəndi bir-biri ilə birləş-

dirirdi.

Mustafa bəy Topçubaşovun atası Ağa bəyin evləri 1948-ci ilə kimi kənddə dururdu. Altı otaqdan ibarət olan ev qırmızı tuf daşdan tikilmişdi və pəncərələri Zəngi çayına baxırdı. 25-30 sot bağı olan ev yaşıllıqlar içində görünmürdü. Ondan təxminən yarım kilometrlik məsafədə gözəl tikilişə malik üçgözlü dəyirman yerləşirdi və camaat bu dəyirmanı **Hüseynquluxan dəyirmanı** adlandırırdı.

* * *

Göygümbət kəndi ilə İrəvan şəhəri arasında **Qırmızıtəpə** adlı təpə vardı. Bu təpənin üstündə **Şahın qalası** adlı qala yerləşirdi. Bu qalanın Şah Abbas tərəfindən tikildiyi söylənilirdi. Lakin təəssüf ki, həmin qala Sovet dövründə ermənilər tərəfindən məhv edilmiş, hətta Qırmızıtəpə özü ilbəil addım-addım şumlanaraq, izi itirilmiş, əkin yerinə çevrilmişdir.

Göygümbət kəndində İ.Şopenin və b. mənbələrin **"müsəlman tikilisi bürcü"** kimi qeydə aldığı abidə haqqında zəngibasarlı professor S.Şükürov "Uluxanlı" kitabında aşağıdakı təfərrüatla məlumat verir: **"Yuxarı hissəsi oval olan bu abidənin qapısı dəmirağacından hazırlanmışdı. Qüllənin içərisinə girib, 15 pillə aşağı düşdükdən sonra geniş meydançaya çıxılırdı. Yerliyinə daş döşənmiş və ətrafına qara daşlardan hamarlanmış oturacaqlar qoyulmuşdu. buradan Zəngi çayına doğru iki kilometr uzunluğunda lağım atılmışdı. Qüllə gündüzlər gün düşəndə firuzəyi, gecələr ay işığında qızılı rəngə çalırdı, ucalığı yeddi mərtəbəli evləri xatırladırdı. ...Kəndin adı da gümbəzin rəngi ilə əlaqədar yaranmışdı"** ("Uluxanlı", səh.45).

Professor 1954-cü ildə gümbəzin göy, mavi və açıq sarı rəngli kaşılarının ermənilər tərəfindən söküldüyünün şahidi olduğunu, həmin kaşılardan birində **"Atabəy Eldəniz"** sözlərinin yazıldığını da qeyd edir.

MUSTAFA BƏY AĞA BƏY OĞLU TOPÇUBAŞOV



1895-ci il avqustun 5-də Göygümbət kəndində anadan olmuşdur.

Göygümbət kəndi əslən İrəvan zadəganlarından olan Topçubaşovların ata-baba mülkü idi və burada onların malikanəsi yerləşirdi.

Ağa bəyin dörd övladı olmuş (Rza bəy, Mehdi bəy, Məhəmməd bəy, Mustafa bəy) hamısı İrəvan gimnaziyasını bitirmiş və Rusiyanın müxtəlif ali məktəblərində təhsil almışdılar. Rza bəy hüquqşünas, Mehdi bəy iqtisadçı, Məhəmməd bəy energetik, Mustafa bəy həkim idi. Tədqiqatçı alim Əsgər Zeynalovun araşdırmalarına görə Peterburq universitetinin professoru Mirzə Cəfər Topçubaşov (1784-1869) və Azərbaycan Demokratik Cumhuriyyəti Parlamentinin sədri Əlimərdan bəy Topçubaşov da İrəvanın Topçubaşovlar nəslindən olmuşlar. Sadəcə XV-XVI yüzillərdə bu nəslin bir qolu İrəvandan Tiflisə, digər qolu Gəncə şəhərinə köçüb getmişdir.

Lakin bizim fikrimizcə, bu köçmələr 1828-1829-cu illərdə, İrəvan xanlığı ruslar tərəfindən işğal olunduqdan sonra olmuşdur. Çünki məhz həmin vaxt çar hökuməti Topçubaşovların Zəngibasar mahalının Təzəkənd kəndindəki bir çox bəy bağları kimi **Topçubaşı bağı** adlanan böyük bağ sahələrini də əllərindən almışdır. Görünür, çar hökumətinin bu mənfi münasibətindən sonra Topçubaşovların bir hissəsi İrəvanı tərk etmək məcburiyyətində qalmışlar.

Mustafa bəy ilk təhsilini İrəvanın Daşlı məhəlləsində İbadulla bəy Muğanlinskinin pansionatında almış (görkəmli ədəbiyyatşünas alim Əziz Şəriflə birlikdə), sonra təhsilini İrəvan gimnaziyasında davam etdirmişdir.

1914-cü ildə gimnaziyanı qızıl medalla başa vuran Mustafa bəy Kiyev Dövlət Universitenin tibb fakültəsinə daxil olur və 1919-cu ildə oranı bitirib Vətənə qayıdır. Bu o dövr idi ki, azğınlaşmış erməni daşnakları İrəvanda və ətraf bölgələrdə türk-müsəlman əhaliyə qarşı misli görünməmiş vəhşiliklər törədirdilər. Bu hadisələr zamanı Mustafa bəyin qardaşı Rza bəy də ermənilər tərəfindən qəddarlıqla qətlə yeti-

rilmişdi. Topçubaşovlar Naxçıvana köçmək məcburiyyətində qalırlar. Az sonra Mustafa bəy Bakıya gəlir, həkim-cərrahlıqla yanaşı, həm də Bakı Dövlət Universitetinin tibb fakültəsində dərs deməyə başlayır. O, bu fakültədə dərs deyən ilk milli kadr olur.

1926-cı ildə 20 həkimlə birlikdə xeyli müddət Almaniyada iş təcrübəsi keçən Mustafa bəy Vətənə qayıdıb, 1930-cu ildə doktorluq dissertasiyası müdafiə edir. Həmin il Azərbaycan Dövlət Tibb İnstitutunun fakültətiv cərrahiyyə kafedrasının müdiri seçilir və ömrünün sonuna – 20 noyabr 1981-ci ilə qədər bu vəzifədə çalışır.

1938-ci ildə M.Topçubaşov efir-yağ ağrısızlaşdırılmasını – uzun müddətli analgeziyanı kəşf etməklə tibb elminə böyük yenilik gətirmişdir. Tibb elmindəki xidmətlərinə görə 1940-cı ildə Əməkdar elm xadimi fəxri adına, 1943-cü ildə SSRİ Dövlət mükafatına layiq görülmüşdür.

1945-ci ildə 14 alimlə birlikdə Respublikanın ilk akademiki, 1950-ci ildə Beynəlxalq Cərrahlar Assosiasiyasının və Ümumittifaq Cərrahlar Cəmiyyətinin fəxri üzvü seçilir. 1951-55-ci və 1968-81-ci illərdə Azərbaycan SSR EA-nın vitse-prezidenti vəzifəsində çalışır. O, həmçinin 1949-cu ildə SSRİ Tibb Elmlər Akademiyasının müxbir üzvü, 1960-cı ildə həmin Akademiyanın həqiqi üzvü, 1952-ci ildə isə Bolqarıstan Elmlər Akademiyasının üzvü seçilmişdir.

Mustafa bəy 200 elmi məqalənin, 8 monoqrafiyanın və 5 cildlik "Xüsusi Cərrahlıq" dərs kitabının müəllifidir. Onun rəhbərliyi altında 35 nəfər alim namizədlik və doktorluq dissertasiyaları müdafiə etmişdir.

O, 1953-1959 və 1967-1971-ci illərdə Azərbaycan SSR Ali Sovetinin sədri, I-X çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. 1950-ci ildən ömrünün sonuna qədər Azərbaycan Sülhü Müdafiə Komitəsinə başçılıq etmişdir.

M.Topçubaşov SSRİ-nin, demək olar ki, bütün yüksək təltiflərinə layiq görülmüşdür. Bunların sırasında Sosialist Əməyi Qəhrəmanı adı və dörd Lenin ordeni də vardır. 1977-ci ildə isə ona layiq olduğu Nobel mükafatını almaqda süni maneçilik törədildi.

Əməkdar elm xadimi, professor M.Topçubaşovun övladlarından ikisi – oğlu **İbrahim** və qızı **Zemfira xanım** həkimlik sənətini seçmiş, digər qızı Esmira isə musiqiçi olmuşdur. Oğlu **İbrahim Topçubaşov** tibb elmləri doktoru, professor, dünya miqyasında tatınmış cərrah, həm də gözəl bəstəkar idi. Zemfira xanım isə Azərbaycan Tibb Universitetinin dosentidir.

HACI EYLAS (İPƏKLİ)

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 10 km şimal-qərbdə, Zəngi çayı yaxınlığında, Qambul arxı kənarında kənd.

1918-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1918-ci ildə kəndin azərbaycanlı əhalisi qovulmuş və kənddə Türkiyədən gəlmə ermənilər yerləşdirilmişlər. 1921-1949-cu illərdə kənddə azərbaycanlılarla ermənilər yanaşı yaşamış, 1949-cu ildə azərbaycanlılar deportasiya olunaraq kənd bütünlüklə ermənileşdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin, "İrəvan əyalətinin icmal dəftərində (1728) isə Qırxbulaq nahiyəsinin **Hacı İlyas kəndi,** İ.Şopendə Zəngibasar mahalının **Hacı Eylas kəndi** kimi qeydə alınmışdır. 1873-cü ilin statistikasında kəndin adı iki variantda – **Hacı Elyaz** və **Hacı Eyləz,** 1886-cı ildə isə **Hacı Eylas** kimi yazıya alınmışdır. Xalq dilində isə sadəcə **Hacı Elləz** kimi tələffüz olunmuşdur.

Göründüyü kimi, kəndin əsl adı Hacı İlyasdır və elmi ədəbiyyatda kəndin öz adını kənddəki **Hacı İlyas pirinin** adından götürməsi fikri (B.Budaqov, Q.Qeybullayev) mövcuddur. Eylas isə İlyas adının yerli tələffüz formasıdır. Lakin pirin özünün də hər hansı tarixi şəxsiyyətin adı ilə bağlı olduğunu nəzərə alsaq, deməliyik ki, toponimin kökündə **Hacı İlyas** şəxs adı durur. Həmin müqəddəs şəxsin məzarı isə sonradan pirə çevrilmişdir.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 3.500 ağça gəlir götürdüyü göstərilmişdir. İ.Şopendə (1832) isə kənddə 75 təsərrüfatda 445 nəfər (250 kişi, 195 qadın) Azər türkü qeydə alınmışdır.

1873-cü ilin statistik məlumatlarında Zəngi çayı yaxınlığında, **Qambul arxı** kənarında yerləşdirilən kənddə 131 təsərrüfatda 1.095 nəfər (572 kişi, 523 qadın) əhali siyahıya alınmışdır.

1886-cı ildə kənddə 146 təsərrüfatda 1.073 nəfər (620 kişi, 453 qadın), 1905-ci ildə 1.079 nəfər, 1914-cü ildə 1.149 nəfər Azər türkü yaşamışdır. Kənd camaatının taxıl, pambıq və çəltik əkmək üçün **Bayram bəy Rzaqulu bəy oğlunun** kəndin yaxınlığındakı 2,5 xalvar torpaq sahəsini icarəyə götürdüyü də 1886-cı ilə dair mənbədə göstərilmişdir.

1918-ci ildə Andranikin quldur dəstələri Hacı Eylas kəndinə

də amansızcasına divan tutmuş, kəndin dinc əhalisi erməni qaniçənləri tərəfindən qılıncdan keçirilmiş, sağ qalanlar baş götürüb Arazın o tayına – Türkiyəyə pənah aparmışlar. Kənddə Türkiyə-İrandan qaçıb gəlmiş ermənilər yerləşdirilmişlər.

Sovet hakimiyyətinin ilk illərində Vətənə qayıtmaq imkanı qazanmış kənd əhalisi geri dönəndə artıq burada erməni ailələrinin yaşadığını görmüşlər. 1922-ci ildə kənddə 582 nəfər azərbaycanlı, 71 nəfər erməni, 1926-cı ildə 586 nəfər azərbaycanlı, 50 nəfər erməni, 1931-ci ildə 680 nəfər azərbaycanlı, cəmi 1 nəfər erməni yaşamışdır. Göründüyü kimi, özgə yurduna yiyələnmək istəyən ermənilər burada çox duruş gətirə bilməyərək, köçüb, çox güman ki, yaxınlıqdakı ermənileşdirilmiş kəndlərə və İrəvan şəhərinə getmişlər.

1948-1949-cu illərdə kəndin bütün azərbaycanlı əhalisi Azərbaycanın Sabirabad rayonuna deportasiya olunmuşlar. Onların boşaldılmış evlərində qismən xaricdən və əsa-sən Qaranlıq (Martuni) rayonundan köçürülüb gətirilmiş ermənilər yerləşdirilmişlər. Buna görə də 50-ci illərdə geri qayıdan hacıeylaslılar qonşu azərbaycanlı kəndlərində – Yuxarı Necili, Aşağı Necili, Zəngilər, Dəmirçi, Haçaparaq və s. kəndlərdə məskunlaşmağa məcbur olmuşlar.

Hacı Eylas Sovet dövründə əvvəl sadəcə **Eylas** kimi işlədilmiş, sonra kəndin adı dəyişdirilərək **İpəkli** qoyulmuşdur. 1946-cı il aprelin 4-də kəndin İpəkli adı **Masis sovxoz qəsəbəsi** adı ilə əvəzlənmişdir. 1978-ci il yanvarın 25-də isə qəsəbənin adını rayon mərkəzi olan Masis (keçmiş Uluxanlı) adından fərqləndirmək üçün təzədən dəyişərək **Darakert** qoymuşlar. Göründüyü kimi, bir türk kəndinin adını tarix səhnəsindən silmək üçün erməni soysuzları 50 il ərzində onu dörd dəfə dəyişmişlər.

* * *

Hacı Eylas kəndi ilə Yengicə kəndi ərasındakı ərazi **Qumlaq** adlanırdı.

Abbas Ələsgər oğlu Salahov 1898-ci ildə Hacı Eylas kəndində anadan olmuş, ibtidai təhsilini İrəvan şəhərindəki Puşkin adına rus-tatar məktəbində almış, 1921-ci ildə Hacı Eylas kəndinin ilk İnqilab Komitəsinin sədri olmuş, 1923-1925-ci illərdə Vedi nahiyə İnqilab Komitəsinin sədri vəzifəsinə irəli çəkilmiş, daha sonra Qərbi Azərbaycanın bir sıra rayonlarında yerli hakimiyyət

orqanlarında məsul vəzifələrdə çalışmışdır. 1948-ci il deportasiyası zamanı Azərbaycana köçürülmüş, Gəncə şəhərində bir sıra məsul vəzifələrdə işləmiş, 1968-ci ildə burada da vəfat etmişdir.

A.Salahov həm də layiqli, qabiliyyətli övladlar böyütmüşdür. Oğlanları **Arif, Saleh, Yavər, Eldar** uzun illər Gəncə şəhərində məsul vəzifələrdə çalışmışlar.

İbrahim Musa oğlu Qafarov 1936-cı il noyabrın 23-də Hacı Elləz kəndində anadan olmuş, 1953-cü ildə Sabirabad şəhərində orta məktəbi, 1959-cu ildə Gəncədə Kənd Təsərrüfatı İnstitutunu bitirmiş, 1964-cü ildə Sabirabad RPK-də təlimatçı, 1965-ci ildən rayon taxıl məhsulları satış bazasının direktoru, 1973-cü ildən kolxoz sədri, 1981-ci ildən Sabirabad RİK sədri, 1985-ci ildən Sabirabad Kənd Təsərrüfatı Texnikumunun direktoru, 1990-cı ildən "Əkinçi" kooperativinin sədri vəzifələrində işləmişdir. "Əmək igidliyinə görə" medalı (1974) və "Qırmızı Əmək Bayrağı" ordeni (1982) ilə təltif edilmiş, Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir (1995).

YUSİF HİDAYƏT OĞLU ABBASOV



1940-cı ildə Hacı Eylas kəndində anadan olmuş, 1948-ci ildə ailələri Azərbaycana deportasiya edilərək Sabirabad rayonunda məskunlaşmışlar.

Atası **Abbasov Hidayət Yusif oğlu** Hacı Eylasın ziyalılarından olmuş, 1941-1945-ci illər müharibəsindən əvvəl kənddə müəllim işləmişdir. Sonra müharibə iştirakçısı olmuş, Azərbaycana deportasiya olunduqdan sonra isə Sabirabad rayonunda orta məktəb müəllimi, dərs hissə müdiri və direktor vəzifələrində çalışmışdır.

Yusif Abbasov 1957-ci ildə orta məktəbi, 1962-ci ildə Xalq Təsərrüfatı İnstitutunu bitirmiş, bir müddət fabrikdə mühəndis-konstruktor, 1967-ci ildən texniki-nəzarət şöbəsinin rəisi vəzifələrindən işləmişdir.

1971-ci ildən institutda dərs demiş, 1975-ci ildən Ali və Orta İxtisas Təhsili Nazirliyində inspektor, 1977-ci ildən texnikumda şöbə müdiri, 1983-cü ildən Tədris və İstehsalat Kombinatının direktoru olmuşdur.

1990-cı ildə kombinat nazirlik tərəfindən ləğv ounmuş, Yusif Abbasov həmin ildən texnikumda müəllim, şöbə müdiri işləmişdir.

HACI HƏSƏN EVİ

Zəngibasar mahalında, Uluxanlı kəndi yanında kiçik kənd. Kənddə ancaq Azər türkləri yaşamışlar.

Hacı Həsən evi kəndinə dair bütün statistik məlumatlar Uluxanlı kəndi ilə bir yerdə və Uluxanlı kəndinin adı altında verilmişdir.

İ.Şopendə (1832) **Həsənağa kəndi** kimi Zəngibasar mahalının xaraba kəndləri siyahısına daxil edilmişdir. Bu, kəndin 1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalmasından irəli gəlirdi.

"Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası" kitabında Zəngibasar mahalının siyahıya salınmayan kəndləri sırasında verilən **Həsənağa** kəndinin mahalın digər iki kəndi – Sinnik və Qaracalar kəndləri ilə birlikdə 1831-ci ildə Uluxanlı camaatı tərəfindən istifadə edildiyi qeyd olunmuşdur.

Bölgənin iqtisadi vəziyyətinə dair 1886-cı ilə aid mənbədə isə **Hacı Həsən evi kəndi** ilə Oruc adası kəndi ayrıca kəndlər kimi qeydə alınmışdır. Kəndlərin iqtisadi göstəriciləri barədə Uluxanlı kəndində ətraflı bəhs etmişik.

Adından da göründüyü kimi, toponim **Hacı Həsən** şəxs adından yaranmışdır.



HAÇAPARAQ (ZƏHMƏT)

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 8 km şimal-qərbdə, İrəvan şəhərinin 6 kilometrliyində, Zəngi çayının sağ kənarında, Arbat kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Qırxbulaq nahiyəsinin **Xaçaparaq kəndi,** İ.Şopendə (1832) və sonrakı mənbələrdə (1873, 1886 və s.) Zəngibasar mahalının **Haçaparaq kəndi** kimi qeydə alınmışdır.

Toponimin etimoloji izahı ilə bağlı müxtəlif versiyalar mövcuddur. Belə versiyalardan biri kəndin adının **Xacəyi-parak** olması, **xacəyə məxsus paraq** (**paraq – "mal-qara saxlamaq üçün hasarlanmış yer"**) mənası bildirməsidir (B.Budaqov, Q.Qeybullayev). Bu prinsiplə adın birinci komponentini xacə yox, **hacı** kimi də yaza bilərik. Yəni **Hacıya məxsus paraq**. Və ya **haça paraq, haça şəkilli paraq**.

Professor S.Şükürova görə, qədimlərdə kəndə Qoçaparaq da demişlər, lakin onun əsl adı **Xocə-parak** olmuşdur. Müəllif O.Süleymenova istinadən göstərir ki, parak//barak sözü qədim türk dilində "güclü keşik iti" anlamı vermişdir.

Xalq etimologiyasına görə isə toponim **"xaç aparmaq"** mənası daşımışdır.

Biz isə bu məsələ ilə bağlı daha elmi ola biləcər iki versiya irəli sürürük. Birincisi, toponim ilkinliyində Haçaparaq şəklində olmuş, keçmişdə qonşu kəndlərdən Həcc ziyarətinə gedən zəvvarlar bu kəndə yığılmış və buradan yola çıxmışlar. Kənd də adını **Haca aparmaq** ifadəsindən götürmüşdür. İkincisi, xaç komponentli digər toponimlərdə olduğu kimi, burada da **Kas//Xas** türklərinin tayfa adının izlərini mütləq nəzərə almaq lazımdır. Biz bu prinsipi Haçaparaq toponiminə də şamil edirik.

Yeri gəlmişkən, keçmişdə Qərbi Azərbaycan ərazisində **Xaç** komponentli onlarla kənd olmuşdur. Onlardan biri İrəvan əyalətinin Xınzirək nahiyəsində elə Xaçaparaq da adlanmışdır.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) kənddən dövlətin

müxtəlif vergilər şəklində ildə 30.000 axça gəlir götürməsi haqqındakı qeyddən anlaşılır ki, hələ o vaxt kənd xeyli böyük və varlı olmuşdur.

İ.Şopendə (1832) kənddə 75 təsərrüfatda 326 nəfər (182 kişi, 144 qadın) Azər türkü qeydə alınmışdır.

1873-cü ildə kənd əhalisinin sayı 99 təsərrüfatda 716 nəfərə (377 kişi, 339 qadın) çatmışdır. Həmin mənbədə kəndin Zəngi çayı kənarında yerləşdiyi, mülkədar kəndi olduğu, kənddə məscidin mövcudluğu barədə də məlumat verilmişdir.

1886-cı ildə Haçaparaq kəndində 117 təsərrüfatda 753 nəfər (440 kişi, 313 qadın), 1897-ci ildə 1.194 nəfər, 1905-ci ildə 992 nəfər, 1914-cü ildə 1.135 nəfər azərbaycanlı qeydə alınmışdır.


1918-ci ildə Zəngibasar mahalının başqa kəndləri kimi, Haçaparaq kəndi də Türkiyədən gəlmə ermənilərin vəhşi hücumlarına məruz qalmış, kənd ermənilər tərəfindən dağıdılmış, yandırılmış, əhalisi qəddarlıqla qətlə yetirilmiş, sağ qalanlar baş götürüb, Arazın o tayına mühacirət etmişlər. Kənd bir neçə il xaraba qalmış, yalnız Sovet hakimiyyətinin ilk illərində qaçqın haçaparaqlılar Vətənə geri dönmək imkanı qazanmışlar. Onların sayı 1922-ci ildə 492 nəfər olmuş, 1926-cı ildə kənd əhalinin sayı 676 nəfərə, 1931-ci ildə 795 nəfərə çatmışdır.

1950-ci illərdə kəndin kolxoz təsərrüfatı əsasında tərəvəzçilik sovxozu yaradılmış, kənddə orta məktəb, uşaq bağçası, tibb məntəqəsi, klub, kitabxana, kino qurğusu və s. sosial obyektlər fəaliyyət göstərmişdir.

Əhali alın təri ilə özünə yaxşı güzəran yaratmış, iki-üç mərtəbəli şəxsi evlər tikdirmişdilər. Lakin 1988-ci il soyqırımı zamanı azərbaycanlılara məxsus bütün var-dövlət ermənilər tərəfindən qəsb edildi. Kənd növbəti dəfə soyqırımına məruz qalaraq, onun 3.000 nəfərdən çox azərbaycanlı əhalisi şiqəncələrlə kənddən qovuldular.

Hazırda haçaparaqlılar Azərbaycanın bir çox rayonlarında məskunlaşmışlar.

1935-ci il yanvarın 3-də kəndin adı dəyişdirilərək Zəhmət, 1991-ci il aprelin 19-da isə **Xaçpar** qoyulmuşdur.



Haçaparaq kəndinin alma bağları

* * *

Kəndin qədimliyinə dəlalət edən ən tutarlı faktlardan biri onun qəbiristanlığındakı baş və sinə daşları, qəbirlərin üstündəki qoç, at və öküz heykəlləri idi. Qoç heykəllərinin döşünə dəfn olunanın özünün, atasının və tayfasının adı, öldüyü il qeyd olunmuşdu. At fiqurlu qəbir daşlarının üstündə yuxarıdakı məlumatlarla yanaşı, mərhumun həm də yaşı yazılmışdı. Kənd qəbiristanlığında yalnız iki məzarın üstündə buynuzlu öküz heykəli vardı ki, onlarda həmçinin ölənin ailə üzvlərinin sayı da göstərilmişdi. Çox güman ki, qəbir üstündəki bu heykəl fərqləri vəfat edənin cəmiyyətdəki mövqeyindən irəli gəlirdi. Yəni, məsələn, öküz heykəli heç vaxt sıravi adamın məzarı üstündə qoyulmazdı. Belə sayqı ancaq tayfa başçılarına ola bilərdi.

Bundan əlavə, Zəngi çayının yarğanından baxanda kənd qəbiristanlığındakı 15-16 qəbrin bir-birinin üstündə yerləşdiyi görünürdü. Lap aşağı mərtəbədəki qəbrin skeleti, qol-qıç sümükləri xeyli uzun və yoğun idi. Heç şübhəsiz, bu 15-16 mərtəbəli qəbirlərə malik qəbiristanlıq bu yerin bir neçə min illik tarixindən xəbər verirdi.

Haçaparaq kəndində dəfn mərasimi ilə bağlı belə bir məqam da vardı: cənazə qəbirə qoyulub, üstü torpaqlanandan sonra üç gün hər şər qovuşanda qohumlardan bir neçə nəfər gedib qəbrin üstündə od yandırardılar. Heç şübhəsiz, bu, atəşpərstlikdən qalma bir adət, hansısa unudulmuş bir ayinin saxlanan əlaməti idi.

Haçaparaq kəndində iki məscid vardı: **Böyük məscid** və **Kiçik Məscid.** Böyük məscidin həyətində iri tut ağacları, arxasında qo-

caman qələmə ağacı ucalırdı. Məscidin ətrafı iri **kəvənk** daşlarla çəpərlənmişdi. Böyük məscidin eyvanının divarları Quran surələri ilə bəzədilmiş, minbərin baş tərəfindəki kitabənin içində "981" (çox güman ki, hicri tarixi ilə) yazılmışdı. Professor S.Şükürovun yazdığına görə, 1930-cu illərin repressiyası zamanı bu məscidi dağıtmaq üçün bir neçə nəfər dövlət adamı kəndə gəlir. Onlara özünü şirin salmaq istəyən **Qasım kişi** adlı bir nəfər yoxsullar komitəsinin üzvü məscidin damına çıxıb, fasadın birinci daşına əl uzadanda müvazinətini itirir və yıxılıb ölür. Bu hadisədən sonra rayon mərkəzindən gələnlər çıxıb gedir və bir daha həmin məscidə əl qaldırmağa heç kəs cəsarət etmir. Lakin kəndin hər iki məscidinin qapısına qıfıl vurulur və onların fəaliyyəti dayandırılır.

Böyük Vətən müharibəsi başlayandan bir ay sonra isə hansı mülahizələrə görəsə Böyük Məscidin fəaliyyətinə icazə verilir.

Kənddəki Kiçik Məscid isə XIX yüzilin ortalarında tikilmişdi. Məscidin qarşısından çay axırdı.

Məscidlərin hər birinin öz mollası və öz gəlir-çıxarı olub. Böyük məscid 1988-ci ilə qədər fəaliyyət göstərirdi. Bu məsciddə son vaxtlar **Molla Məmməd, Molla Əhməd** mollalıq edirdilər.

Kənddə keçmişdə **Hacı Həsən oğlu Cabbarın** dəyirmanı olub. **Dəyirman çayının** axırında, kəndin qırağında, qəbiristanlığın yanında yerləşən bu dəyirman sonralar sökülüb dağıdılmışdır.

1937-ci ilin noyabrında baş vermiş dəhşətli zəlzələ kəndi yerlə-yeksan etmiş, uçulub-dağılmış evlərin bərpasının mümkünsüzlüyünü görən dövlət taxta evlər tikib istifadəyə vermiş, az sonra hər ailəyə həyətyanı torpaq sahəsi ayırıb, tuf daşından yaraşıqlı evlər tikdirmişdi. Haçaparaq kəndi öz yerini beləcə dəyişmişdi.

Hələ 1930-cu illərdə Haçaparaq kolxozu milyonçu təsərrüfat kimi tanınırdı. 1937-ci ildə Ümümittifaq Kənd Təsərrüfatı sərgisində iştirak etmişdi. Kənddə, demək olar ki, bütün sosial obyektlər (klub, kitabxana, mədəni mallar mağazası, dəyirman, dəlləkxana və s.) vardı.

1948-ci il dekabrın 29-da Haçaparaq kənd camaatının deportasiyası ilə bağlı Azərbaycan SSR-in o vaxtkı Xalq Komissarları Sovetinin sədri Teymur Quliyev kəndə gəlir. Kənd sovetinin sədri **Hüseyn Allahqulu oğlu Əliyev** kəndin ağsaqqallarını toplayır. Camaat nümayəndədən Gəncəyə köçürülmələrini istəyir. T.Quliyev Muğan

düzünə köçürüləcəklərini bildirir. Belə olanda adamlar Dağlıq Qarabağa köçürülmək məsələsini qoyur. T.Quliyev bundan da imtina edəndə camaat iclas zalını tərk edir, kənd sovetinin sədri H.Əliyev Azərbaycan nümayəndəsinə: "Biz köçəsi olmadıq!" – deyə sərt cavab verir. Haçaparaq kəndi deportasiyadan beləcə xilas olur.

1941-1945-ci illər müharibəsinə Haçaparaq kəndindən 74 nəfər gedib, onların 49 nəfəri müharibədən qayıtmayıb.

Əvvəllər Haçaparaq, Arbat və Azadaşen kəndləri bir sovetliyin tərkibində olmuşlar. Sonralar Haçaparaq, Qaraqışlaq və Dəmirçi kəndləri bir sovetlikdə birləşmiş, sovetliyin mərkəzi Qaraqışlaq kəndində yerləşmişdir. **Xəlil Səfərov, Səməd Babayev, Mahmud Babayev, Hüseyn Əliyev, Rza Bağırov, Əsəd Kərimov** (sonuncu, yəni 1988-ci ilə qədər) bu sovetliyin sədri olmuşlar.

Haçaparaq kənd kolxozuna isə müxtəlif vaxtlarda **Cəlil Quliyev, Hüseyn Əliyev, Hüseyn Məmmədov (Doşab Hüseyn), Mahmud Babayev, Həsən Həsənov, Hüseyn Əliyev, Məsim Rzayev, Abdulla Abdullayev, Məmmədəli Yaqubov, Məmməd Səfərov** (sonuncu, 1988-ci ilə qədər) və b. rəhbərlik etmişlər.

Mahmud Babayev, Mustafa Abbasov, Abbas Mustafayev, Əli Cümşüdov, Faiq Babayev, Səfər Səfərov, Məmməd Hüseynov (sonuncu, 1988-ci ilə qədər) və b. Haçaparaq kənd məktəbinin direktoru olmuşlar.

Kəndin kənarında, Arbat, Haçaparaq və Qaraqışlaq kəndləri arasında N.Nərimanovun adını daşıyan yeddiillik məktəb vardı. Məktəbdə hər üç kəndin uşaqları təhsil alırdılar. Deyilənə görə, məktəbin inşası 1925-ci ildə başlanmış, özülünə də N.Nərimanovun şəkli qoyulmuşdu. Lakin 1937-ci ilin repressiyası zamanı məktəbin adı dəyişdirildi. 1948-1949-cu illər deportasiyasından sonra isə bu məktəbi erməni vəhşiləri uçurub dağıtdılar.

1950-ci illərdə kənddə yeddiillik məktəb açılmış, sonra səkkizillik məktəbə çevrilmiş, 1972-1973-cü illərdə isə onillik təhsil sisteminə keçilmişdir. Həmin vaxt kənddə üçmərtəbəli yeni məktəb binası tikilib istifadəyə verilmişdir.

Haçaparaq kəndində bir çox tayfalar olmuşlar. Onlardan **Xiyolar** tayfası, professor S.Şükürovun fikrincə, XIX yüzilin əvvəllərində Cənubi Azərbaycandan gəlmişdilər.

Kəndin ən məşhur nəsillərindən biri **Molla Novruz uşağı** idi.

Molla Novruz əslən İqdır mahalındandı. O, cavanlığında haqsızlığı ilə ad çıxarmış bəyi öldürüb qaçaq düşmüş, bir müddət qaçaqçılıq etdikdən sonra Zəngibasar mahalının Haçaparaq kəndinə köçüb, burada ailə qurmuş, oğul-uşaq sahibi olmuşdur. Oxuyu b - yazmağı yaxşı bacardığından hamı onu Molla Novruz deyə çağırmışdılar. Oğlu **İbrahim Məmmədovu** el arasında **Molla Novruz oğlu, Qaraoğlan** kimi tanıyırdılar. İbrahimin oğlu **Məsim Məmmədov** isə tanınmış dilçi alim, filologiya elmləri namizədi idi.

Haçaparaq kəndinin yetirmələri arasında el-obanın sevdiyi çoxlu insanlar da çıxmışdır: **Xəlil Səfərov, İsmayıl Şükürzadə, Cabbar Məmmədov, Həsən Cümşüdov, Usub Sədiyev, Məmmədəli Əsədov, Mahmud Babayev, Nəriman Səfərov, Əli Cümşüdov, Mustafa Abbasov, Həbib Cəfərov, Səfər, Nazim** və **Məmməd Səfərov** qardaşları, **Mustafa Abbasov** və b.

Haçaparaq kəndindən **Cəlil Quliyev** 1938-1941-ci illərdə rayon partiya komitəsində katibi işləmiş, sonra kəndin kolxozuna rəhbərlik etmiş, sonralar uzun illər Haçaparaq kənd məktəbində müəllim işləmiş, ədəbiyyatı və tarixi tədris etmişdir.

Məhərrəm Əli oğlu Quliyev 1938-1941-ci illərdə rayon komsomol komitəsinin 1-ci katibi olmuş, Əməkdar jurnalist **Rza Əsgərov** uzun illər "Sovet Ermənistanı" qəzetində mədəniyyət şöbəsinin müdiri işləmişdir.

Həbib Həsən oğlu Cəfərov 1927-ci ildə Haçaparaq kəndində anadan olmuş, 1947-ci ildə İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunu, 1951-ci ildə Bakı Dövlət Pedaqoji İnstitutunun coğrafiya fakültəsini bitirmiş, 1950-ci illərdə Qaraqışlaq, Dəmirçi kənd məktəblərində 6 il məktəb direktoru işləmişdir. 1961-ci ildən 1988-ci ilə qədər isə Haçaparaq kənd orta məktəbinin dərshissə müdiri vəzifəsində çalışmışdır.

Səfər Nəriman oğlu Səfərov Dəmirçilər kəndində Kənd Təsərrüfatı Texnikumuna başçılıq etmiş, Haçaparaq kəndindəki orta məktəbin direktoru işləmişdir. Hazırda Azərbaycan Respublikası Təhsil Nazirliyində çalışır.

Akif Şükürov 1982-cı ildə Bakıda Ə. Əzimzadə adına rəssamlıq məktəbini, bitirib, Lvov şəhərində Dekorativ Rəssamlıq Akademiyasına daxil olmuşdur. 1984-cü ildə Xalq rəssamı Tahir Salahovun köməkliyi ilə Bakı İncəsənət İnstitutuna köçürülmüşdür.

Mübariz (Telmanoğlu) və **Eldar (Sabiroğlu) Səfərovlar** jurnalistdirlər. Bir neçə il "Maarif" nəşriyyatında şöbə müdiri işləyən Mübariz Səfərov bir müddət "Respublika" qəzetində çalışmışdır və indi Nazirlər Kabinetində işləyir.

1988-ci il hadisələri Haçaparaq kəndinə də böyük fəlakətlər gətirdi. 500 ailədə 3.000 nəfərə yaxın əhalisi olan kənd bir ilə yaxın erməni mühasirəsində qaldı. Kəndə girə bilməyən ermənilər, nəhayət ki, həmin ilin noyabrında vertolyotlarla kəndin qırağına hərbi geyimli erməni saqqallıları atıb, kəndi hücumla aldılar. Kəndi qorumalı olan Sovet əsgərləri özlərini görməməzliyə vurdular.

Haçaparaq kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı

Poçt – 1
Əczaxana – 1
Yeməkxana – 1
Kitabxana – 1
Məktəb – 1
X/b mal-qara – 125
İ/b mal-qara – 120
K/t maşınları – 17
Avtobus – 1
Avtomaşınlar (yük; minik) – 19
Məscid – 1
Ambar binaları – 2
Ding və dəyirman – 1
Transformator – 3
Quşçuluq ferması – 1
X/b mal-qara tövləsi – 2
İ/b mal-qara tövləsi – 3
Həkim məntəqəsi – 1
Xəstəxana – 1
Uşaq bağçası – 1
İdarə binası – 1

Kino binası – 1
Mədəniyyət evi – 1


KƏNDİN TAYFALARI

Allahqululular, Xiyolar, Yağıblılar, Hacı Həsənlər, Qəmətilər, Dərvişlər, Məmişlər, Mollanovruzlar, Danaçılar, Məmmədrəsullar, Cücəçilər, Mələklər, Molla Cəfər uşağı, Kəlba Qasım uşağı və b.

KƏNDİN TOPONİMLƏRİ

Qocabağır, Qırlar, Arxaltı, Zəngiqırağı, Qaraqışlaqyanı, Qorqud torpağı, Mehdixan, Bozqurd çalası, Qəmbəralı, Qızlar bulağı, Səməndin bulağı, Məktəbin bulağı, Dəyirman bulağı, Dəyirman çayı.

XƏLİL MƏMMƏD OĞLU SƏFƏROV



1902-ci il martın 15-də Haçapapaq kəndində anadan olmuş, dörd yaşında ikən qaçqınlığın ilk iztirabını çəkmişdir. Erməni daşnakları 1905-1907-ci illərdə yerli türkləri vəhşicəsinə doğma torpaqlarından didərgin salarkən balaca Xəlil valideynləri və iki bacısı ilə birlikdə Arazı keçib İran Culfasına pənah aparmışdı.

Xəlil Məmməd oğlunun şəxsi arxivində saxlanan bir xatirədə oxuyuruq: "Atam Məmməd deyirdi ki, birinci qaçhaqaçda ermənilər uşaq-böyük bilmədən əllərinə düşəni xəncərə keçirirdilər. Kafirlərin işgəncəsindən yaxa qurtarmaq üçün hətta ailə, tayfa başçılrı oldu ki, əl-ələ verib Arazın soyuq sularına qərq oldular".

İl yarımlıq didərginlikdən sonra Xəlilgilin ailəsi doğma yurda dönürlər. Lakin bir gün ailə başçısı Məmməd kişi gözlərini dünyaya əbədi yumur... Ailənin bütün ağırlığı Gülbəs qarının üzərinə düşür.

Qədim türk torpaqlarına sahib çıxmaq üçün günahsız qan tökməkdən həzz alan erməni quldurları 1918-ci ilin soyuq dekabr günlərində

azərbacanlıları ikinci dəfə öz ocaqlarından qovub çıxarırlar. Minlərlə zəngibasarlı kimi, Xəlilgilin ailəsi də təkrar Araz çayını keçib İrana gedir, iki il burada qalırlar. Geri qayıdanda kəndi tanımaq mümkün deyildi, Zəngibasarın bütün kəndləri kimi, Haçaparaq da xarabazara dönmüş, evləri talan etdikdən sonra od vurub yandırmışdılar. Kənd, demək olar ki, yenidən salınır. Xəlil Məmməd oğlu ailə qayğılarını öz üzərinə çəkməklə yanaşı, təhsilini də davam etdirmək barədə düşünür, İrəvanda rus-tatar məktəbini bitirərək kəndə qayıdır. 1924-cü ildə kənddə ilk Sovet sədri seçilir. 1925-ci ildə Kommunist partiyasına üzv qəbul olunur və Tiflisdəki Zaqafqaziya Qırmızı Universitetinə daxil olur. Tarix elminə böyük həvəsi 1928-ci ildə onu Bakı darülfünuna (indiki Bakı Dövlət Universitetinə) gətirib çıxarır.

1932-ci ildə darülfünunu bitirib İrəvana dönür, respublika qəzetində müxbir vəzifəsinə düzəlir. İki ildən sonra həmin qəzetdə baş redaktorun birinci müavini vəzifəsinə irəli çəkilir.

1935-ci ildə X.Səfərovu yenicə təşkil olunmuş Amasiya rayonuna kooperativ idarəsinin sədri vəzifəsinə təyin edirlər. 1938-ci ildə İrəvan Kənd Təsərrüfatı Texnikumuna direktor təyin olunur. 1942-ci ildə Basarkeçər rayonuna təhsilinin qurulması və inkişaf etdirilməsi məqsədi ilə maarif şöbəsinin müdiri göndərilir, düz beş il o, burada böyük əmək sərf edərək rayon təhsil sisteminin inkişaf etdirilməsi üçün əlindən gələni əsirgəmir.

1947-1950-ci illərdə İrəvan Pedaqoji İnstitutunda siyasi-iqtisad fənnindən dərs deyir. 1951-ci ildə Ermənistan KP MK-nın ideologiya şöbəsində mühazirəçi, sonra isə bölmə müdiri işləyir. Bir neçə çağırış İrəvan şəhər sovetinin deputatı seçilir. Səlahiyyətindən istifadə edən X.Səfərov bir sıra azərbaycanlı kadrlrın irəli çəkilməsinə yaxından köməklik edir, hətta yeri gələndə ermənilərlə açıq mübahisələrdən belə çəkinmir. Buna görə artıq ona millətçi kimi baxır və fürsət gözləyirdilər ki, MK-dan uzaqlaşdırsınlar. Belə də olur. X.Səfərovun bacısı oğlu Cabbar Məmmədovun Türkiyədə yaşaması barədə aramsız anonim məktublar MK-ya axmağa başlayır. Beləliklə, Xəlil müəllimi yaşının ən müdrik vaxtında – 55 yaşında işdən azad edərək pensiyaya yola salırlar. Yeri gəlmişkən qeyd edək ki, buna görə nəinki onun özü, sonralar övladları və nəvələri də təqib və təzyiqlərə məruz qalmışlar. Lakin buna baxmayaraq, Cabbar Məmmədov kimi böyük bir şəxsiyyətlə bütün qohumlar həmişə fəxr etmişlər.

X.Səfərov 1978-ci il dekabr ayının 25-də qəflətən vəfat etmişdir.

CABBAR İBRAHİM OĞLU MƏMMƏDOV



1915-ci ildə Haçaparaq kəndində anadan olmuşdur.

1918-1920-ci illərdə ermənilərin törətdiyi soyqırmı nəticəsində onların da ailəsi bir müddət Naxçıvana mühacirət etmiş, 1921-ci ildə yenidən doğma vətənə qayıtmışlar.

C.Məmmədov ibtidai və orta təhsilini kəndlərində yenicə açılmış müasir tipli məktəbdə almış, 1930-cu ildə isə İrəvan Türk Kənd Təsərrüfatı Texnikumuna daxil olub, oranı müvffəqiyyətlə bitirmişdir.

Sonra Bakıya gəlib Azərbaycan Pedaqoji İnstitutuna qəbul olunmuş, 1937-ci ildə fərqlənmə diplomu ilə ali təhsilini başa vurub, bir müddət Basarkeçərin Zod kəndində məktəb direktoru işləmişdir.


C.Məmmədov 1939-cu ildə aspiranturaya daxil olsa da, 1941-ci il müharibəsinin başlanması ilə bağlı təhsilini yarımçıq qoyub, cəbhəyə yollanır və 1941-ci ilin oktyabrında Taqanroq şəhəri yaxınlığındakı Nikolayevka kəndi uğrunda gedən qeyri-bərabər döyüşdə almanlara əsir düşür. Müharibədən əvvəl öyrəndiyi alman dili onu ölümdən xilas edir və almanlar ondan tərcüməçi kimi istifadə edirlər. Tezliklə onu Berlinə göndərirlər. Burada əsirlikdə olan Fətəlibəyli, Düdənginski və b. ziyalılarla tanış olur. Az sonra Berlində Ə.Fətəlibəylinin sədrliyi ilə Azərbaycan Milli Komitəsi yaradılır və C.Məmmədov da bu komitəyə üzv seçilir. Onlar əsir azərbaycanlıların ölümdən qurtarması üçün çox iş görürlər.

1945-ci ildə döyüşlər Berlinə yaxınlaşanda Almaniya hökuməti Milli Komitə üzvlərini diplomat adı ilə İtaliyaya göndərir. 1947-ci ildə bir Misir dövlət xadiminin köməyi ilə Qahirəyə gedir, Türkiyənin buradakı baş konsulluğunda ingilis və alman dillərindən tərcüməçilik edir. 1949-cu ildə isə həmişəlik Türkiyəyə köçür. Burada "Rusiya əsarəti altındakı türklərin istiqlalı" kitabını yazır. 1956-cı ildə Cabbar Ərtürk imzası ilə "Ana yurdda unudulan türklər" kitabı işıq üzü görür.

Müharibə dövründə Berlin Universitetində filologiyadan dissertasiya müdafiə edib, elmlər doktoru adını alan C.Məmmədov Türkiyəyə köçdükdən sonra burada pedaqoji fəaliyyətlə məşğul olur.

C.Məmmədov son vaxtlara qədər Türkiyənin İzmir yaxınlığındakı Aydın şəhərində yaşayırdı. Oğlu Türkan və qızı Gülüş həkim, digər qızı Gülsüm isə əczaçıdır.

CABBAR ƏLİ OĞLU QULİYEV



1922-ci il mayın 19-da Haçapa-raq kəndində anadan olmuşdur.

İrəvan Pedaqoji Texnikumu-nu bitirdikdən sonra Böyük Və-tən müharibəsinə yola düşmüş, bir sıra cəbhələrdə döyüşmüş, müharibədən qayıtdıqdan sonra müəllim işləmişdir.

Heç bir rəssamlıq təhsili ol-masa da, bu sənətə sonsuz mə-həbbəti C.Quliyevi fırça sənəti ilə məşğul olmağa sövq etmiş, az vaxtda bir-birindən gözəl sənət əsərləri yaratmışdır.

1961-ci ildən 1988-ci ilə qədər İrəvan Dövlət Pedaqoji İnstitutunun azərbaycanlı şöbəsində təsviri sənət, incəsənət tarixi və estetikadan dərs demiş, 1967-ci ildə "Ermənistanın“ Əməkdar rəssamı fəxri adına layiq görülmüşdür.

C.Cabbarlı adına İrəvan Dövlət Dram Teatrında 10-dan artıq tama-şaya bədii tərtibat vermiş, 1972-ci ildə Bakıda İncəsənət İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir.


1988-ci ildə erməni daşnakları tərəfindən doğma yurddan qovulan rəssam təkcə el-obasını itirmədi, on illər boyu yaratdığı iki mindən çox tablosu da düşmən əlində qaldı. Bir çox soydaşları kimi, o da Bakı şəhərinə pənah gətirdi. Burada məskunlaşdı.

Bir neçə il sonra rəssamın daha 130 əsəri Xocalıda məhv oldu.

Lakin C.Quliyev yenə də yorulmadan çalışdı, yüzlərlə yeni əsərlər yaratdı. Əvvəllər olduğu kimi, sonralar, elə indinin özündə də Cabbar Quliyev yaradıcılığında Qərbi Azərbaycanın müxtəlif mənzərələri, tarixi abidələri, şəxsiyyətləri mühüm yer tutur. Bunu rəssamın məşhur "Ağrı dağı", "Cəfərabad türbəsi", “Qarasu çayı“, "Zəngi çayı", "Qaç-qınlar", "Göyçə gölü", "Aşıq Ələsgər", "Miskin Abdal" və s. tabloları da təsdiq edir.

Oğlanları **Aydın Uluxanlı** istedadlı şair, **Akif** isə rəssamdır.

SABİR XƏLİL OĞLU SƏFƏROV



İrəvan mahalının tanınmış ziyalılarından olan Sabir Səfərov 1924-cü ildə Haçaparaq kəndində anadan olmuşdur.


1938-ci ildə İrəvan Pedaqoji Texnikumuna daxil olmuş, 1942-ci ildə oranı bitirərək orduya çağırılmışdır. O, cəbhəyə yollanmazdan əvvəl Bakı birinci piyada hərbi məktəbində altı aylıq kurs keçmiş, leytenant rütbəsi alaraq 1943-cü ildə vzvod komandiri kimi ön xəttə yollanmışdır. Sonradan rota komandiri kimi Şimali Qafqaz döyüşlərində, Ukraynanın və Belorusiyanın azad olunmasında rəşadət göstərmiş, döyüşlərdə üç dəfə ağır yaralanmış, "İkinci dərəcəli Vətən müharibəsi" ordeni, "Qafqazın müdafiəsi" və "Qırmızı Ulduz" medalları ilə təltif olunmuşdur.

Müharibədən qayıtdıqdan sonra 4 il Rostov-Donda xüsusi nəzarətlə mühafizə olunan Semlyanski su hövzəsinin rəis müavini işləmiş, 1950-ci ildə doğma yurda qayıdaraq qonşu Qaraqışlaq kənd məktəblərində bir il tarixdən dərs demişdir. 1951-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun tarix fakültəsinə qəbul olunmuş, 1955-ci ildə institutu bitirərək yenidən Qaraqışlaq kənd orta məktəbində müəllimlik fəaliyyətini davam etdirmişdir.

1967-1988-ci illərdə İrəvan Dövlət Pedaqoji İnstitutunda çalışan S.Səfərov 1974-cü ildə Azərbaycan EA-nın Fəlsəfə İnstitutunda dissertasiya müdafiə edərək fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almış, 1982-ci ildə isə dosent elmi dərəcəsinə layiq görülmüşdür. İndiyəcən onun fəlsəfə və sosialogiyaya dair 50-dən yuxarı elmi işi işıq üzü görmüşdür.

Hazırda o, Azərbaycan Texniki Universitetində və Müstəqil Azərbaycan Universitetində fəlsəfədən dərs deyir.

SADIQ CƏFƏR OĞLU ŞÜKÜROV



1925-ci ilin dekabrında Haçaparaq kəndində anadan olmuşdur.

1950-ci ildə Uluxanlı orta məktəbini bitirmiş, 1960-cı ildə "S.Vurğunun "Komsomol poeması" və Sovet poeziyasında romantika" mövzusunda namizədlik, 1985-ci ildə "Azərbaycan sovet ədəbiyyatında tarixi poema janrı" mövzusunda doktorluq dissertasiyaları müdafiə etmişdir. Filologiya elmləri doktoru, Gəncə Dövlət Universitetinin professorudur.

Çoxlu elmi-publisist məqalələrin və bir sıra kitabların müəllifidir. Xüsusilə Gəncə şəhərinin tarixi ilə bağlı dəyərli elmi tədqiqatlar aparmış və bu mövzuda "Gəncə məktəblərinin tarixi" (1990), "Gəncəli Cavad xanın hekayəti" (1992), "Gəncənin tarixi abidələrindən" (1998), "Gəncəli Vazehin nağılı" (2000) kitablarını nəşr etdirmişdir.

Son zamanlar professor S.Şükürov ata-baba yurdu İrəvan diyarı haqqında da dəyərli araşdırmalar aparmaqdadır. Bu sıradan "Uluxanlı" (1999) və "İrəvan hakimi Hüseynquluxan və onun Zəngibasar mahalı" (2000) kitabları artıq oxucuların ixtiyarına verilmişdir.

MƏSİM İBRAHİM OĞLU MƏMMƏDOV



1925-ci ildə Haçaparaq kəndində anadan olmuş, orta məktəbi bitirdikdən sonra İrəvan Pedaqoji Texnikumunda təhsilini davam etdirmişdir.

Atası müharibədən sonra həbs edildiyindən dörd qardaş və beş bacısının qayğısı evin böyük oğlu Məsim müəllimin üzərinə düşür.

M.Məmmədov 1947-ci ildə dayısı H.Məmmədovun köməkliyi sayəsində ali təhsil almaq üçün Bakıya gəlir və APİ-yə daxil olur. İnstitutu bitirdikdən sonra İrəvana qayıdır.

Orta məktəbdə müəllim işləyə-işləyə İrəvan Dövlət Pedaqoji İnstitutuna dəvət edilir. 1964-cü ildən 1988-ci ilə qədər orada çalışır və elmi axtarışlarını davam etdirir.

1974-cü ildə "Erməni dilində işlənən Azərbaycan sözləri" mövzusunda dissertasiya müdafiə etsə də, ermənilər bu işin təsdiqini xeyli gecikdirmiş və yalnız 1976-cı ildə o, filologiya elmləri namizədi alimlik dərəcəsi ala bilmişdir.

M.Məmmədov 12 monoqrafiya və iki kitab müəllifidir.

Xalqının, milləti̇nin adi bir sözünün belə qoruyucusu olan M.Məmmədov Bakıda 20 yanvar hadisələrindən az sonra dünyasını dəyişmişdir.

GÜNDÜZ RAMAZAN OĞLU CƏLİLOV

1954-cü il martın 30-da Haçaparaq kəndində anadan olmuşdur.

1970-ci ildə Dəmirçi kənd orta məktəbini, 1975-ci ildə energetik mühəndis ixtisası ilə Azərbaycan Neft və Kimya İnstitutunu bitirmişdir.

Əmək fəaliyyətinə 1975-ci ildə "Azərbaycan enerjisatma" müəssisəsində mühəndis kimi başlamış, 1983-cü ildən xətai RPK-də təlimatçı, 1985-ci ildən Neft-Mədən Maşınqayırma Zavodu partiya Komitəsinin katibi, RPK-nin təlimatçısı, 1990-cı ilin yanvarından 1992-ci ilin iyulunadək Azərbaycan "Vətəndaş" Birliyinin sədri, 1992-ci ilin iyulundan 1993-cü ilin avqustunadək Azərbaycan Milli İstiqlal Partiyasının katibi və mərkəzi seçki qərargahının sədr müavini olmuşdur.

1993-cü ildən 2000-ci ilədək Bakı şəhər Xətai rayon İH-nin başçısı işləmişdir.

Hazırda Azərbaycan "Vətəndaş" Birliyinin sədri, respublika AAK-nın əməkdaşıdır.

SURXAY CABBAR OĞLU ƏKBƏROV

1954-cü ildə Haçaparaq kəndində anadan olmuş, 1976-cı ildə ADU-nun mexanika-riyaziyyat fakültəsini bitirib, Azərbaycan EA-da Riyaziyyat və Mexanika İnstitutunda elmi fəaliyyətə başlamışdır.

1979-1981, 1983-1985-ci illərdə Ukrayna EA Mexanika İnstitutunda elmi ezamiyyətlərdə olmuş, orada 1981-ci ildə fizika-riyaziyyat elmləri namizədi, 1988-ci ildə isə texnika elmləri doktoru alimlik dərəcələri almışdır.

1990-cı ildən Azərbaycan EA Riyaziyyat və Mexanika İnstitunun şöbə müdiri vəzifəsində çalışır. Professordur.

S.Əkbərovun əsas elmi istiqamətini kompozit materiallar və bu materiallardan hazırlanmış konstruksiya elementlərinin mexanikası üzrə araşdırmalar təşkil edir. S.Əkbərovun elmi tədqiqatlarının nəticələri 86 əsərdə öz əksini tapmışdır. Onlardan 18-i respublikamızda, 53-ü keçmiş SSRİ məkanında, 15-i digər xarici ölkələrdə ingilis dilində nəşr olunmuşdur. O, həmçinin 1 monoqrafiyanın müəllifidir.

S.Əkbərov 20-dək fizika-riyaziyyat elmləri namizədi yetişdirmişdir. 2001-ci ildə Azərbaycan MEA-nın müxbir üzvü seçilmişdir.

ELDAR SABİROĞLU



Eldar Sabir oğlu Səfərov 1957-ci il yanvarın 4-də Haçaparaq kəndində ziyalı ailəsində anadan olmuşdur.

1974-cü ildə Haçaparaq kənd orta məktəbini bitirib, İrəvan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsinə qəbul olunmuş, 1978-ci ildə ali təhsilini fərqlənmə diplomu ilə başa vurmuşdur. Gənc yaşlarından ictimai işlərə və kütləvi tədbirlərə yaxından maraq göstərmiş, institutda oxuyarkən tələbə dostları onu fakültə komsomol təşkilatının katibi və institut komsomol komitəsi bürosunun üzvü seçmişlər.

1979-80-ci illərdə E.Sabiroğlu Belarusiyada əsgəri xidmətdə olmuş, diviziya komsomol komitəsinin büro üzvü və ordu komandanlığı komsomol komitəsinin üzvü seçilmişdir.

Jurnalistlik fəaliyyətinə hələ institutda təhsil alarkən İrəvan şəhərində çıxan "Sovet Ermənistanı" qəzetində başlamış, 1988-ci ilə kimi həmin qəzetdə müxbir, baş müxbir, partiya və sovet quruculuğu şöbəsinin müdiri və redaksiya partiya təşkilatının katibi vəzifələrində işləmişdir. 1988-1990-cı illərdə Bakı Ali Partiya Məktəbində təhsil alaraq politoloq ixtisasına yiyələnmişdir.

1990-cı ilin fevral ayından Azərbaycan Xalq Cəbhəsinin üzvü olan, xalq hərəkatında fəal iştirak edən E.Sabiroğlu Bakı Ali Partiya Məktəbində əqidə yoldaşları ilə birlikdə Xalq Cəbhəsinin özək təşkilatını təsis etmiş, 20 Yanvarın nəticəsi olaraq Azərbaycan KP-nin Sov. İKP tərkibindən çıxması ilə bağlı Bakı APM-nin tələbə yığıncağının qətnaməsinin qəbul edilməsinə nail olmuşdur. Bu, o vaxtlar üçün asan məsələ deyildi.

1990-cı ildə şəxsən Əbülfəz Elçibəyin təşəbbüsü ilə yaradılan "Zəngəzur" təşkilatının qurucularından biri olmuş, həmin qurumun idarə heyətinə üzv seçilmişdir. Partiya məktəbini bitirib, bir müddət işsiz qalan E.Sabiroğlu Azərbaycan Respublikası Mərkəzi Həmkarlar Komitəsində çalışmış, 1992-ci ildə "Mədəniyyət" qəzetində məsul katib, sonra isə "Maraqlı qəzet"də redaktor vəzifələrində işləmişdir.

1992-ci il mayın 18-də Ali Sovetin iclasında sədr seçkisi zamanı Heydər Əliyevə qarşı ədalətsizlik edildiyinə görə Xalq Cəbhəsi üzvülüyündən istefa vermiş, elə həmin ilin noyabr ayında təsis edilən Yeni

Azərbaycan Partiyasının ilk özək təşkilatının yaradıcılarından biri kimi həmin partiyanın üzvü olmuşdur.

1993-cü ilin dekabrından "Səs" qəzetinin siyasət şöbəsinin müdiri vəzifəsində çalışan E.Sabiroğlu 1994-cü ilin fevral ayında YAP Analitik İnformasiya və Proqnozlaşdırma Mərkəzinin rəhbəri vəzifəsinə təyin edilir. 1995-ci il parlament seçkilərində Milli Məclisə üzv seçilərək 5 il ali qanunvericilik orqanında aktiv siyasətlə məşğul olur.

1999-cu ildə partiyanın 1-ci qurultayında YAP Siyasi Şurasının üzvü seçilir. 2001-ci il noyabr qurultayında isə Siyasi Şura üzvlüyündən kənarda qalan Eldar Sabiroğlu partiya fəaliyyətindən, demək olar ki, təcrid olunur...

Qaçqınlığın müsibətlərini öz taleyində yaşamış Eldar Sabiroğlu həmçinin Azərbaycan Qaçqınlar Cəmiyyətinin yaradıcılarından biri və idarə heyətinin üzvü olmuşdur. Tanınmış ictimai və siyasi xadim olan Eldar Sabiroğlu 2001-ci il mayın 17-də təsis edilən "İrəvan" İctimai Birliyinin sədr müavini kimi bu gün də aktiv fəaliyyətlə məşğuldur.

Həyat yoldaşı **Tahirə xanım** Bakı şəhərinin Nərimanov rayonunda humanitar fənlər üzrə gimnaziyada müəllimə işləyir.

Oğlu **Rüfət** BDU-nun hüquq fakültəsində, qızı **Turan** "Təfəkkür" Universitetinin jurnalistika fakültəsində təhsil alırlar.

HƏBİLKƏND (BULAQLI, KALİNİN QƏSƏBƏSİ)

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 8 km cənubda, Zəngi çayı ilə Böyük Qarasu çayı arasında, hər iki çayın Araza töküldüyü yerin yaxınlığında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

İ.Şopendə (1832) Zəngibasar mahalının **Həbilkənd kəndi** kimi qeydə alınmış, kənddə 17 təsərrüfatda 85 nəfər (50 kişi, 35 qadın) Azər türkünün yaşadığı göstərilmişdir.

Sonrakı mənbələrdə (1873, 1886...) də kəndin adı **Həbilkənd** kimi verilmiş, yerli danışıqda **Həvilkənd//Həvil kəndi** kimi tələffüz olunmuşdur. Heç şübhəsiz, kəndin adı şəxs adından götürülmüşdür. Kəndin Həbilkəndə qədərki **Bulaqlı** adına gəldikdə isə, vaxtilə bölgədə "Bulaq" komponentli bir neçə kənd adı mövcud olsa da (Ağbulaq, Çələbibulaq və s.), onlardan hansının sonralar Həbilkəndə çevrilən Bulaqlı kəndi olduğunu müəyyən edə bilmədik.

1873-cü ilin statistik məlumatlarında İrəvan qəzasının Zəngi çayı boyu ərazisində, **Qarasu bulağı** kənarında yerləşdiyi göstərilən kənddə 25 təsərrüfatda 183 nəfər (109 kişi, 74 qadın) Azər türkü qeydə alınmışdır.

Kənd əhalisinin sayı 1886-cı ildə 35 təsərrüfatda 222 nəfərə (129 kişi, 93 qadın) çatmışdır.

Həmin vaxt Həbilkənd kəndinin Uluxanlı kəndi ilə birlikdə Yeni Bayazid qəzasındakı **Ağdağ** yaylağında, kənddən 55 verst aralıda, 222 desyatin ərazini əhatə edən **Çınqıllıyurd** adlı yaylaq yeri olmuşdur. Həmin yaylaq yerindən kənd camaatı qədimdən istifadə etmişdir.

Həbilkəndin əkin yerlərini suvarmaq üçün yayda kəndin kənarındakı **Gözə bulağının** sularından da istifadə olunmuşdur.

1897-ci ildə kənddə 234 nəfər, 1905-ci ildə 256 nəfər, 1914-cü ildə 376 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci ilin əvvəllərində kənd erməni daşnaklarının hərbi hücumuna məruz qalmış, dağıdılmış, talanmış, əhalisinin bir hissəsi

vəhşicəsinə qətlə yetirilmişdir. Sağ qalanlar baş götürüb Cənubi Azərbaycana və Türkiyəyə pənah aparmışlar.

1926-cı ilə qədər kənd xaraba qalmışdır. Yalnız həmin il kəndin keçmiş sakinlərindən 36 nəfər öz doğma kəndlərinə qayıda bilmiş, təzədən ev-eşik tikib yaşamağa başlamışlar.

1931-ci ildə kənddə 75 nəfər qeydə alınmışdır. Sonralar kənd sürətlə inkişaf etmiş, kənddə müxtəlif sosial və inzibati binalar tikilib istifadəyə verilmiş, əhalisi xeyli artmışdır. 1948-ci il üçün artıq burada 34 təsərrüfatda 256 nəfər azərbaycanlı yaşayırdı.

Lakin 1948-1949-cu illərdə Zəngibasarın digər kəndləri ilə birgə həbilkəndlilər də Azərbaycana deportasiya olunmuşlar. Az sonra kənd camaatının bir hissəsi geri qayıtmış, 1950-ci illərdə Həbilkəndin bazasında və artıq rəsmi olaraq ləğv edilmiş qonşu Qulucan, Reyhanlı, Sarıcalar və Seyidkənd kəndlərinin ərazisində Kalinin adına sovxoz-qəsəbə yaradılmış, kəndin Həbilkənd adı **Kalinin** adı ilə əvəz edilmişdir.

1988-ci ildə kəndin azərbaycanlı əhalisi növbəti dəfə soyqırımına məruz qalmış, bütün var-dövlətləri əvəzi ödənilmədən əllərindən alınaraq Azərbaycana qovulmuşlar.

* * *

Həbilkənd Zəngibasar mahalının qədim kəndlərindən idi. Uluxanlıdan cənubda, Zəngi çayının sağ sahilində yerləşir, ərazisi qərbdən şərqə Ağrıdağın şimal ətəyindən Araz çayının sol sahilində Qarasu çayına qədər uzanırdı. Zəngi və Qarasu çayının Araza töküldüyü sahələr bu kəndin torpaqları hesab olunurdu. Zəngi çayının sağ sahilində **Ağadədə** adlanan qədim ziyarətgah yerləşirdi. Ziyarətgahın ərazisində qədim Türk-Oğuz mədəniyyətinin izlərini yaşadan tarixi abidələr vardı.

Kalinin qəsəbəsi yaradıldıqdan sonra Həbilkənddə əvvəl 4 məktəb olub. Sonra 3-ü qalıb: 1) Seyidkənd ərazisindəki ibtidai məktəb (3-cü sinfə qədər), burada 11 uşağa 2 müəllim dərs deyirdi; 2) Reyhanlı kəndindəki səkkizillik məktəb; 3) Həbilkənddəki orta məktəb. Sonuncusu əvvəllər səkkizillik məktəb idi. Uşaqlar 9-10-cu sinifləri Uluxanlı məktəbində oxuyurdular. 1960-cı illərdə isə orta məktəbə çevrildi.

Bu üç məktəbdə 1.700-ə qədər azərbaycanlı balası təhsil alır-

dı.

Ayrı-ayrı vaxtlarda Həbilkənd məktəbinə **Abbas Mustafayev, İsmayıl Rəhimov, Kərəm Həbibov, Məmməd Məmmədov, Boris Balayev, Sultan Məmmədov, Hüseyn İsayev** direktorluq etmişlər. Onlardan **İsmayıl Rəhimov** həmçinin 1964-1988-ci illərdə bu məktəbin tədris işləri üzrə direktor müavini işləmiş, **Hüseyn İsayev** isə məktəbin sonuncu (1988-ci ilə qədər) direktoru olmuşdur.

1955-ci ildə yeni yaradılmış Kalinin sovxozuna direktor vəzifəsinə Ermənistan KP MK-nın keçmiş birinci katibi, 1946-1947-ci illərdə xaricdəki ermənilərin Qərbi Azərbaycan ərazisinə köçürülməsinə və 1948-1953-cü illərdə buradakı azərbaycanlıların deportasiya olunmasına nail olmuş, qatı millətçi Qriqor Arutunyan təyin edilmişdi. Bu vaxt qəsəbə məktəbinin direktoru çobankərəli **Abbas Mustafayev** idi. Az sonra Q.Arutunyan vəzifədən kənarlaşdırılmış, lakin yenə də bu sırf azərbaycanlı kəndinə sovxoz direktoru erməni göndərilmişdi.

Lakin erməni millətçiləri bu ənənəni davam etdirə bilməmiş, 1961-ci ildən etibarən sovxoz direktoru vəzifəsində azərbaycanlılar işləmişlər. Əvvəl bu vəzifədə seyidkəndli **Əli Məmmədov,** sonra **Kamal Məmmədov,** 1980-ci illərdə isə **Sudeyif Fətəliyev** işləmişlər. Sonuncusu sovxozun sonuncu (1988-ci ilə qədərki) direktoru olmuşdur.

Qarabağlılar və **Keçililər** tayfaları kəndin əsas qədim tayfalarından hesab edilirdilər. Hər iki tayfa İrəvan çuxurunda qədimdən məskunlaşmış türk tayfalarından idilər.

Əli kişi Qarabağlılar tayfasının ən hörmətli ağsaqqallarından idi. Qonşu Sarvanlarda, Seyidkənddə, Rəncbərdə böyük nüfuza malik idi. Əli kişinin böyük oğlu **Salman** 1880-ci ildə, üçüncü oğlu **Mahmud** 1903-cü ildə dünyaya gəlmişdi. XIX yüzilin sonu -XX yüzilin əvvəllərində erməni təcavüzü təhlükəsi yenidən qədim İrəvan xanlığı ərazisinin başı üstünü alır. Ermənilər getgedə azğınlaşır, azəri türklərini sıxışdırır. Kənardan gətirilmiş erməniləri bu torpaqlarda zorla yerləşdirirdilər. Mahalda erməni-müsəlman toqquşmaları ara vermirdi. Belə toqquşmalardan birində Əli kişi öz dünyasını dəyişir. Ailənin bütün ağırlığı Salmanın üzərinə düşür. O, qardaşları **Abbasəli** və **Mahmudla** birlikdə

halal zəhmətə söykənərək çox da dəbdəbəli olmayan bir həyat tərzi keçirirlər. İrəvan torpaqları və ətraf bölgələrdə erməni dövləti yaratmaq planını yerinə yetirməyə çalışan erməni daşnakları Zəngibasara və ətraf kəndlərə tez-tez basqınlar edirdilər. Belə basqınlardan birində ailə Araz çayını keçmək istərkən Salmanın arvadı çayın sahilində öldürülür. Salman qardaşı Abbasəlini, Mahmudu və oğlu **Həmidi** Arazın o biri tayına keçirir. Qardaşlarını və oğlunu qaçqınlarla İqdırda qoyub, qaranlıq düşəndə geri qayıdır. Həyat yoldaşını dəfn edib, İqdıra dönəndə burada heç kəsi tapmır. Öyrənir ki, qardaşları İrana keçiblər. Qardaşların birini axtarıb tapmaq ümidi onları heç vaxt tərk etmir.

Bir müddətdən sonra Culfadan Naxçivana keçən Abbasəli və Mahmud kənd camaatı ilə birlikdə Qarabağlar kəndində məskunlaşırlar. Bu vaxt Abbasqulu bəy Şadlinskinin erməni daşnaklarına qarşı apardığı milli-azadlıq mübarizəsi qələbəyə ümid verir. Çox çəkmir ki, erməni daşnaklarının azəri türklərinə qarşı təcavüzünə son qoyulur. Abbasəli və Mahmud doğma kəndlərinə dönür, müəyyən vaxt içində öz əvvəlki vəziyyətlərini bərpa edirlər.



Böyük Vətən müharibəsi başlananda **MAHMUD ƏLİYEV** cəbhəyə yola düşür və altı illik əzab-əziyyətdən sonra geri dönür. Bu vaxt qardaşı Abbasəli artıq dünyasını dəyişmişdi.

1947-ci ildə Mahmud Rəncbər kəndindən **Kərbəlayi Pənahın qızı Rəbiyə xanımla** evlənir. 1948-ci ildə ailənin böyük oğlu **Firudin** dünyaya gəlir. Həmin il azəri türklərinin planlı şəkildə deportasiyası başlanır. Mahmud kişinin ailəsi də bu erməni aksiyasının qurbanı olaraq Beyləqan rayonuna köçürülür. 1951-ci ildə ailənin ortancıl oğlu **Rafiq** anadan olur.

Vətən həsrətilə yaşayan ailə 1953-cü ildə doğma Həbilkəndə qayıtmaq imkanı qazanır. Geri döndükdən sonra ailənin üçüncü və axırıncı oğlu **Elbrus** anadan olur.


Bu qədər keşməkeşli, acılı-şirinli və şərəfli ömür yaşayan

Mahmud kişi 1979-cu ildə doğma Həbilkənddə dünyasını dəyişir və bütün Zəngibasar mahalı üçün müqəddəs olan Ağadədə pirində dəfn olunur. Ailənin ağbirçəyi Rəbiyə xanım isə 1990-cı ildə Bakı şəhərində vəfat edir.

Həbilkənd kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı

Poçt – 1
Əczaxana – 1
Yeməkxana – 1
Kitabxana – 1
Məktəb – 2
X/b mal-qara – 180
İ/b mal-qara – 130
K/t maşınları – 20
Avtobus – 1
Avtomaşınlar (yük, minik) – 12
Məscid – 2
Ambar binaları – 2
Ding və dəyirman – 1
Transformator – 3
Quşçuluq ferması – 1
X/b mal-qara tövləsi – 2
İ/b mal-qara tövləsi – 2
Həkim məntəqəsi – 1
Xəstəxana – 1
Uşaq bağçası – 1
İdarə binası – 1
Kino binası – 1
Mədəniyyət evi – 2

FİRUDİN MAHMUD OĞLU ƏLİYEV



1948-ci il yanvarın 12-də Həbilkənd kəndində anadan olmuş, yeddiillik məktəbi qonşu Reyhanlı kəndində oxumuşdur.

1966-cı ildə orta məktəbi bitirən Firudin Əliyev Bakı şəhərinə gəlmiş, bir il fəhlə işlədikdən sonra Saratov təyyarəçilik məktəbinə qəbul olunmuşdur.


1971-ci ildə təyyarəçilik məktəbində təhsilini uğurla başa vurub Bakıya qayıtmış, 1982-ci ildə isə Leninqrad Mülki Aviasiya Akademiyasını bitirmişdir. Müxtəlif tipli təyyarələrdə uçur.

Firudin Əliyev işlədiyi müddətdə bir sıra vəzifələrdə çalışmış, həmişə də özünü bacarıqlı, bilikli mütəxəssis kimi göstərmiş, üzərinə düşən vəzifələrin öhdəsindən ləyaqətlə gəlmişdir. Hazırda Azərbaycan Milli Aviasiya Şirkətinin rəisidir.

Ailəlidir, **Rafael** adlı bir oğlu var. O, atasının yolu ilə gedərək Aktyubinsk Ali Təyyarəçilik məktəbini bitirmişdir. Rafael hazırda Boinq-757 tipli təyyarənin pilotudur.

Bütün bunlarla yanaşı, Firudin müəllim həm də elinə-obasına bütün qəlbi ilə bağlı olan, o qədim yurd yerlərimizin nisgilini daim qəlbində yaşadan qeyrətli soydaşlarımızdandır.

RAFİQ MAHMUD OĞLU ƏLİYEV



1951-ci ildə anadan olmuşdur.

1967-ci ildə orta məktəbi bitirmiş, 1969-cu ildə M.Əzizbəyov adına Neft və Kimya İnstitutunun mühəndis-iqtisad fakültəsinə daxil olmuşdur.

Ali təhsilini uğurla başa vurduqdan sonra təyinatla "Azərneft" Birliyinin normativ-tədqiqat stansiyasına mühəndis vəzifəsinə təyin edilmiş, burada işlədiyi 10 il ərzində neftçi peşəsi ilə daha yaxından tanış olmuş, bacarıqlı mütəxəssis kimi tanınmış, mühəndislikdən şöbə rəisi vəzifəsinə yüksəlmişdir.

Bu yeni işində də üzərinə düşən vəzifələrin öhdəsindən yüksək səviyyədə gələn Rafiq Əliyevə böyük etimad göstərilərək, o, daha da irəli çəkilmiş, 1984-cü ildə "Azneft" Birliyi aparatına şöbə rəisi, 1992-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti yaranandan isə şirkətin baş mühasibi, ARDNŞ-nin iqtisadiyyat-maliyyə idarəsinin rəisi vəzifəsinə təyin edilmişdir.

ARDNŞ-də tutduğu vəzifədə Rafiq Əliyev qısa vaxtda böyük uğurlar qazanmış, ARDNŞ-nin maliyyə-mühasibat-uçot fəaliyyətini canlandırmış, bilavasitə onun rəhbərliyi altında respublikanın neft və qaz sənayesinin əsas xarakteristikaları öyrənilmiş, təhlil edilmiş və nəticə etibarilə unikal bir idarəedici sistem yaradılmışdır.

İlk dəfə R.Əliyev tərəfindən neft və qaz sənayesi iqtisadiyyatının idarə olunmasında metodoloji baxımdan sistemli yanaşma tətbiq edilmiş, maliyyə-mühasibat uçotu sahəsində qərarların qəbul olunması mexanizmi işlənmişdir. O, neft və qaz sənayesinin maliyyə-uçot konsepsiyasını vermişdir.

İlk dəfə olaraq Azərbaycanda maliyyə-uçot sahəsində lokal və qlobal şəbəkə məhz onun rəhbərliyi altında yaradılmışdır.

Rafiq Əliyev dünyanın aparıcı transmilli neft şirkətlərinin təcrübəsini öyrənmiş, təhlil etmiş, Azərbaycan neft və qaz spesifikasını nəzərə almaqla bir sıra beynəlxalq seminarlarda çıxış etmiş və maliyyə-kredit, yeni audit sisteminin ARDNŞ-də tətbiqinə nail olmuşdur.

R.Əliyev hal-hazırda ARDNŞ prezidentinin iqtisadiyyat və maliyyə məsələləri üzrə müşaviridir.

Azərbaycanın səriştəli maliyyəçilərindən olan R.Əliyevin praktik


fəaliyyətindəki bütün uğurlarının bünövrəsini ilk növbədə bu fəaliyyətin dərin elmi əsaslara söykənməsi təşkil edir. O, həmçinin, ARDNŞ-nin maliyyə-uçot fəaliyyətində kompüter sisteminin yaradılmasına dair elmi iş yazmış, onu müdafiə edərək, iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır.

R.Əliyev maliyyə-kredit, mühasibat-uçot sahəsində 20-dən çox elmi əsərin, o cümlədən 3 monoqrafiyanın müəllifidir. Bir sıra əsərləri tədris vəsaiti kimi ali məktəblərdə istifadə olunur. "Azərbaycanın neft və qaz sənayesinin iqtisadiyyatında maliyyə-mühasibat işlərinin təşkili" adlı fundamental tədqiqat işi ("Elm" nəşriyyatı, 673 səh.) bu yaxınlarda işıq üzü görmüşdür.

Rafiq Əliyev həm də elini-obasını bir an da unutmayan, ata-baba yurdu üçün ürəyi göynəyən qeyrətli övlad, dəyərli şəxsiyyətdir.

Rafiq müəllim həmçinin xoşbəxt ailə başçısıdır, iki övladı, bir nəvəsi var.

ELBRUS MAHMUD OĞLU ƏLİYEV



1953-cü il yanvarın 24-də anadan olmuşdur. 1969-cu ildə orta məktəbi bitirmiş, 1970-ci ildə Bakıya gələrək Azərbaycan Dövlət Politexnik İnstitutuna daxil olmuşdur.

1976-cı ildə institutu bitirmiş, iki il ordu sıralarında xidmət etdikdən sonra doğma kəndlərinə qayıtmış, 1978-1988-ci illərdə müxtəlif vəzifələrdə çalışmışdır. Bununla belə, "Ermənistanda" yaşayıb işləyən bütün azərbaycanlı kadrlar kimi, Elbrus da ermənilər tərəfindən daim təzyiqlərə məruz qalmışdır. 1988-ci ildə Bakı şəhərinə köçməyə məcbur olan E.Əliyev burada müxtəlif vəzifələrdə çalışmış, daha sonra "Azərneft" Birliyinin Azneftlayihə trestinin idarə rəisi vəzifəsində işləmişdir.

Öz qeyrəti, el-oba təəssübkeşliyi ilə hamının hörmətini qazanan Elbrus Əliyev 1997-ci ildə son dərəcə vaxtsız – cəmi 44 yaşında dünyasını dəyişmişdir.

Oğlanları **Vüqar** və **Anar** atalarının adına layiq övladlar kimi böyüyürlər.

HƏSƏNLİ (MİRZƏ HÜSEYN)

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 10-12 km cənub-qərbdə, Araz çayı yaxınlığında, Zəngi çayının kənarında, Rəncbər kəndi yanında kənd. Əslində, Qarasu çayının bir tərəfində Rəncbər, o biri tərəfində Həsənli kəndi yerləşirdi.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin **Molla Həsən kəndi,** "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Həsənviran kəndi** kimi qeydə alınmış, kəndin **Mustafa** adlı şəxsin timarı olduğu və bu timardan dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürdüyü göstərilmişdir.

Kəndin adına bir də 1873-cü ilin statistikasında **Həsənli** adı ilə rast gəlirik. Həmin mənbədə Araz çayı yaxınlığında və Zəngi çayı kənarında yerləşdiyi göstərilən kənddə 74 təsərrüfatda 539 nəfər (283, 256 qadın) Azər türkü qeydə alınmışdır.

1886-cı ilin statistik məlumatlarında da kənd **Həsənli** kimi verilmiş, kənddə 80 təsərrüfatda 503 nəfər (267 kişi, 236 qadın) Azər türkünün yaşadığı göstərilmişdir.

Yeri gəlmişkən, İrəvan qəzası kəndlərinin iqtisadi vəziyyətinə dair 1886-cı ilə aid statistik göstəricilərdə **Həsənli kəndi** ilə bağlı belə bir qeyd var ki, kəndin bütün evləri dağılmışdır və əhali çadırlarda yaşayır. Bu fəlakət kəndi hansı səbəbdən haqlamışdır – bunu dəqiqləşdirə bilmədik.

"Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası" kitabında kəndin ikinci adının **Mirzə Hüseyn** olduğu barədə qeyd var.

Hər halda, adından da göründüyü kimi, bütün variantlarda kənd **Həsən** şəxs adından yaranmış etnotoponimdir.


1905-ci ildə kənddə 501 nəfər, 1914-cü ildə 608 nəfər əhali yaşamışdır.

1918-ci ildə Zəngibasar mahalı ərazisində ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdiyi soyqırımı nəticəsində ən çox zərər çəkən kəndlərdən biri də Həsənli kəndi olmuşdur. Kənd dağıdılmış, əhalisinin bir hissəsi vəhşicəsinə qətlə yetirilmişdir.

9 ilə qədər xaraba qalmış kənd bir də 1926-cı ildə məskunlaşmışdır. Kəndin keçmiş sakinlərindən cəmi 87 nəfər doğma kəndinə qayıda bilmiş, 1931-ci ildə onların sayı 122 nəfərə çatmışdır.

1948-1949-cu illərdə kənd əhalisi bütünlüklə Azərbaycana deportasiya olunmuş, kənd ləğv edilmiş, ərazisi Rəncbər kəndinə verilmiş, sonralar geri qayıdan əhali öz kəndlərində yaşasalar da, artıq Rəncbər kəndinin tərkibində sayılmışlar.

1988-ci ildə isə Rəncbər kəndinin tərkibində növbəti dəfə soyqırımına məruz qalaraq, doğma yurddan vəhşicəsinə qovulmuşlar.



Rəssam Cabbar Quliyev. Zəngi çayı.

XARABA SARVANLAR

Zəngibasar mahalında, İrəvan şəhərinin cənub-qərb yanında, Zəngi çayının sağ sahilində, İrəvan-Üçkilsə yolunun yaxınlığında, keçmişdə Şinkovit kənd icması tərkibində olmuş, sonralar İrəvan şəhəri tərkibinə qatılmış və əsasən Zəngiçay dərəsində tikilmiş su anbarının altında qalmış kənd.

1918-ci ilə qədər kənddə ancaq Azər türkləri, 1921-ci ildən etibarən həm də ermənilər yaşamışlar.

İ.Şopendə (1832) kəndin adı Zəngibasar mahalının **Xaraba Sarvanlar kəndi** kimi qeydə alınmış, kənddə 7 təsərrüfatda 29 nəfər (17 kişi, 12 qadın) müsəlman əhalinin yaşadığı göstərilmişdir. Sonrakı mənbələrdə də (1873, 1886 və s.) kəndin adı **Xaraba Sarvanlar** kimidir.

İ.Şopenin həmin xarabalıqlarla bağlı belə bir qeydi var ki, Zəngi çayının sağ tərəfində, qaladan bir qədər aşağıda çoxlu xarabalıqların mövcudluğu söyləməyə əsas verir ki, burada nə vaxtsa İrəvan şəhəri yerləşmiş, sonralar şəhər yuxarılara köçürülmüşdür. Şübhəsiz, bu, İ.Şopenin ehtimalıdır və ciddi tədqiqata möhtacdır. Şəxsən bizim fikrimizcə, bu xarabalıq məhz 1501-ci ildən mənbələrdə adı çəkilən Sarvanlar kəndinin öz xarabalıqlarıdır. İran-Osmanlı yürüşləri zamanı yerlə-yeksan olan kəndin camaatı köçüb daha təhlükəsiz yerdə ikinci Sarvanlar kəndini – Uliya Sarvanları salmış, sonradan dirçəldilən köhnə kənd də Xaraba Sarvanlar, yəni "xaraba qalmış Sarvanlar kəndi" adlanmışdır. Beləliklə, Xaraba Sarvanlar kəndi mahalda mövcud olan iki Sarvanlar kəndindən biri və birincisidir.

Kəndin adı Gəngərli tayfasının **Sarbanlar** qolunun adından törəmişdir. Sarbanlar sözü isə **"dəvəçi", "dəvə saxlayan"** mənasında **"sarban"** sözündəndir və tayfanın adı dəvəçiliklə əlaqədar yaranmışdır. Bütün bunlar barədə bu kitabda Sarvanlar (Uliya Sarvanlar) kəndindən danışarkən bəhs etmişik.

1873-cü ilin statistik məlumatlarında İrəvan qəzasının Zəngi çayı boyu ərazisində, Zəngi çayının sağ sahilində, İrəvan-Üçkilsə poçt yolunun yaxınlığında yerləşdirilmiş Xaraba Sarvanlar kəndində 8 təsərrüfatda 48 nəfər (24 kişi, 24 qadın) Azər türkü

qeydə alınmışdır. Üstəlik, həmin mənbədə kəndin ərazisi "İrəvan şəhərinin əvvəlki yeri" kimi qeyd olunmuşdur ki, bizcə, bu, birbaşa İ.Şopenin yuxarıda göstərdiyimiz yanlış ehtimalından irəli gəlmişdir.

1886-cı ildə kənddə 10 təsərrüfatda 44 nəfər (19 kişi, 25 qadın) Azər türkü siyahıya alınmış, 1897-ci ildə kənddə 42 nəfər, 1905-ci ildə 95 nəfər, 1914-cü ildə 100 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci ildə türk xalqının qanına susayan daşnak cəlladı Andranikin başçılığı ilə ermənilərin Zəngibasar kəndlərinə yırtıcı hücumu zamanı Xaraba Sarvanlar kəndi də darmadağın edilmiş, talanmış, əhalisi qəddarlıqla kənddən qovulmuşdur.

Həmin vaxtlar kənddə Türkiyədən qaçıb gəlmiş ermənilər yerləşdirilmişlər. Bölgədə Sovet hakimiyyəti qrulduqdan sonra doğma kəndinə geri dönən azərbaycanlı ailələri də tezliklə sıxışdırılıb kənddən çıxarılmış, kənd bütövlükdə ermənileşdirilmiş, adı dəyişdirilib **Nor Qoxb** (yəni **Yeni Qoxb**) qoyulmuşdur. Sonralar, təxminən 1950-ci ildə kənd İrəvan şəhərinə qatılaraq ləğv edilmiş, ərazisinin bir hissəsi burada tikilmiş su anbarının ("İrəvan gölü"nün) altında qoyulmuşdur.

* * *


Zəngi çayı İrəvan şəhərinin Təpəbaşı və Dəlmə bağları adlanan hissələrindən keçərək Dəmirbulağı və Xormabulağını da arxada qoyub, şəhərin çıxacağında Sarvanlar kəndinə çatır.

İrəvanın sonuncu xanı Hüseynqulu xanın yanında mirzəlik etmiş **Molla Əli Əndəlib Qaracadağinin** məşhur "Gəlin" rədifli şerində Sarvanlar kəndinin gözəllərindən bəhs edilmişdir. Şer kitabın "Əlavələr" bölməsində tam şəkildə verilmişdir.

XARBERD

Zəngibasar mahalında, Zəngibasar rayonu ərazisində, İrəvan şəhərindən 10 km cənub-qərbdə, İrəvan-Naxçıvan-Culfa avtomobil yolunun sol kənarında, Təzəkənd kəndi yaxınlığında kənd, 1936-cı ildən şəhərtipli qəsəbə.

Toponimin etimoloji izahı ilə bağlı iki versiya mümkündür. Birincisi ondan ibarətdir ki, kəndin ilkin adı **Xaraba qala** şəklində olmuş, sonradan bura köçürülən haylar tərəfindən **Xarberd** (**berd** – ermənicə **"qala"** deməkdir) kimi işlədilmişdir.



Xarberd kəndinin ümumi görünüşü

İkinci versiyaya görə isə qədimdən **Qarqar** türklərinin sıx məskunlaşdığı İrəvan çuxurunda (er. əv. XIII yüzildə burada **Xarxar//Qarqar** ölkəsi mövcud olmuşdur) bu etnonimdən yaranmış toponimlərdən (Qarni//Gərni qalası, Qarbi//Karbi mahalı və s.) biri də Xarbert qalası olmuşdur.

Biz ikinci versiyanı daha düzgün hesab eməklə yanaşı, onu da əlavə edirik ki, adın sonluğu elə **bert** şəklində də türkcədir. Yəni türk dillərində **bert "çətin keçilən yer", "əlçatmaz yer"** anlamındadır. Göründüyü kimi, bu anlamların özündə **qala** mənası var. Deməli, erməni dilində qala mənasında işlənən **berd** sözü də qədim türk-arman dilindən erməni dilinə keçmədir.

1938-ci il iyulun 4-də kəndin adı dəyişdirilərək "Yeni həyat" anlamı verən **Nor Qyank** qoyulmuş, 1965-ci il iyulun 31-də Nor Qyank adının özü də dəyişdirilərək **Nor Xarberd** (yəni **Yeni Xarberd**) adlandırılmışdır.

XARRATLI

Gərnibasar mahalında, Zəngibasar rayonu ərazisində, rayon mərkəzi olan Uluxanlı qəsəbəsindən 7 km cənub-şərqdə, Gərni çayından ayrılan su arxının və İrəvan-Naxçıvan-Culfa avtomobil yolunun üstündə, İrəvan-Naxçıvan dəmiryol xətti yanında kənd.

1926-cı ilə qədər kənddə ancaq Azər türkləri yaşamış, 1926-cı ildə kəndə İrandan və Türkiyədən gəlmə ilk erməni ailələri yerləşdirilmişlər. 1949-cu ildə kəndin bütün türk-müsəlman əhalisi Azərbaycana deportasiya olunmuş və kənd bütnlüklə ermənilləşdirilmişdir.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərnibasar mahalının **Haratlı kəndi** kimi qeydə alınmış, kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 10.000 ağça gəlir götürdüyü göstərilmişdir. Həmin mənbədə kəndlə bağlı belə bir qeyd də var ki, kəndin əhalisi **Dagulilərdəndir.** Çox güman ki, söhbət **Dəvəli** türk tayfasından gedir.

İ.Şopendə (1832) kəndin adı Gərnibasar mahalının **Xaratlı kəndi** kimi verilmiş, kənddə 31 təsərrüfatda 183 nəfər (95 kişi, 88 qadın) azərbaycanlı əhali siyahıya alınmışdır. Kəndin **Mehdi bəyin** tiyul kəndi olduğu da həmin mənbədə göstərilmişdir.

Sonrakı statistikalarda da (1873, 1886 və s.) kəndin adı **Xaratlı** kimi qeyd olunmuşdur.

Kənd adının etimologiyası ilə bağlı mövcud fikrə görə, toponimin əsli **Heratlıdır** və Əfqanıstandan türk tayfalarının hərəkəti ilə Herat əyalətindən gətirilmişdir (B.Budaqov, Q.Qeybullayev).

Kəndin adının **xarratlıq** (dülgərlik) peşəsi ilə bağlı yaranması fikri (S.Mirmahmudova) də mövcud olsa da, lakin bu, az ağlabatandır. Bizim fikrimizcə, Xarberd kəndi kimi, **Xaratlı** oykonimi də **Xarxar//Qarqar** etnonimindən yaranmadır, **Xarxarlar//Qarqarlar** anlamındadır.

Yerli dildə kəndin adı **Xarratlı, Xərrətli** kimi tələffüz olunmuşdur.

1873-cü ilin statistik məmulatlarında Gərnibasar mahalı ərazisində, Gərni çayından ayrılan su arxının və İrəvan-Naxçıvan poçt yolunun üstündə, İrəvan şəhərindən 16 verst cənubda yer-

ləşdirilən kənddə 45 təsərrüfatda 303 nəfər (162 kişi, 141 qadın) azərbaycanlı əhali qeydə alınmışdır.

1886-cı ildə kənd əhalisinin sayı 54 təsərrüfatda 245 nəfər (135 kişi, 110 qadın) olmuş, 1897-ci ildə kənddə 202 nəfər, 1905-ci ildə 373 nəfər, 1914-cü ildə 571 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci ilin əvvəllərində 62 təsərrüfatda 496 nəfər azərbaycanlı əhalisi olan kənd erməni daşnak quldur dəstələri tərəfindən dağıdılmış, yandırılmış, əhalisinin bir hissəsi qılıncdan keçirilmiş, sağ qalanlar doğma yurddan didərgin salınmış, İrana, Türkiyəyə pənah aparmışlar.

Sovet hakimiyyətinin ilk illərində yaranmış sabitlikdən istifadə edən qaçqın xarratlılar tədricən geri dönmüş, təzədən özlərinə ev-eşik düzəltməyə başlamışlar. 1922-ci ildə geri qayıdanların sayı 61 nəfər olmuş, 1931-ci ildə 136 nəfərə çatmışdır.

Kəndə 62 nəfərdən ibarət ilk erməni mühacirləri 1926-cı ildə köçürülüb gətirilmişlər. 1931-ci ildə kənddə azərbaycanlılarla yanaşı, 59 nəfər erməni də qeydə alınmışdır.

1949-cu ildə kəndin azərbaycanlı əhalisi deportasiya olunaraq zorla kənddən çıxarılmış, kənd bütünlüklə ermənileşdirilmişdir.

1978-ci il yanvarın 25-də kəndin Xarratlı adı dəyişdirilərək **Arevabuyr** qoyulmuşdur.

XƏLİFƏLİ

Zəngibasar mahalında, Aşağı Necili kəndi yanında tarixi kənd. Sonralar Aşağı Necili kəndinə qarışmışdır.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Gərni nahiyəsinin **Xəlifəqulu qışlağı,** "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Xəlifəli kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə həmçinin kəndin əhalisinin Nəcli (Necili) camaatından olduğu, kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 6.000 ağça gəlir götürdüyü göstərilmişdir.

Sonralar Aşağı Necili kəndinə qarışmış, kəndin ən böyük tayfalarından olan – Xəlifəli tayfası kimi mövcud olmuşdur. Bu tayfa, onun nümayəndələri barədə Aşağı Necili kəndindən danışarkən ətraflı bəhs etmişik.

Xəlifəli oykoniminə gəldikdə isə, xatırladırıq ki, XVI yüzildə Səfəvilər dövlətində şah tərəfindən ərizələrə, şikayətlərə, şəriət qaydalarına, ölçü və çəki alətlərinə nəzarət etmək üçün təyin olunan şəxslərə **xəlifə** deyirdilər. Xəlifələr şah tərəfindən irsi təyin olunur və şah onlara irsi torpaq sahələri də verirdi.

Xəlifəli kəndinin ilkin adının Xəlifəqulu olmağı onun Qulu adlı xəlifənin kəndi olmasına dəlalət edir.

İLXI QORUĞU

Zəngibasar mahalında, Araz çayı yaxınlığında, Zəngi çayının kənarında, Qaracalar kəndi yanında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

Kəndin adına ilk dəfə 1873-cü ilin statistik məlumatlarında İrəvan qəzasının **İlxıqoruğu kəndi** şəklində rast gəlirik. Kənddə 25 təsərrüfatda 242 nəfər (131 kişi, 111 qadın) Azər türkünün yaşadığı da həmin mənbədə göstərilmişdir.

Kəndin adı salındığı ərazinin adından (İlxı qoruğu) yaranmışdır. Deyilənə görə, keçmişdə bura İrəvan xanlarının at ilxılarının saxlandığı ərazi, bu ilxıların qoruq yeri olmuşdur.

Akademik B.Budaqov kəndin İrəvan quberniyasının hörmətli şəxslərindən olan **Cəfər ağa** tərəfindən salındığını yazır. Sonralar bu kənd onun oğlu **Məmmədəli bəyin** kəndi olmuşdur.

1886-cı ildə kənddə 30 təsərrüfatda 345 nəfər (177 kişi, 168 qadın) Azər türkü qeydə alınmışdır.

1886-cı ilə aid mənbədə **İlxı Qoruğu** kəndinin nəzdində olan və 27,68 desyatin ərazini əhatə edən **Qaracalar** adlı biçənəkdən bəhs olunur. Əslində, bu, həmin yerdəki qədim Qaracalar kəndinin yaddaşlarda yaşayan, adamlar tərəfindən kəndin ərazisinə şamil edilən ad idi.

Kəndin mal-heyvan saxlamaqdan ötəri nə qədər sərfəli ərazidə yerləşdiyini bilmək üçün kəndə dair 1886-cı ilə aid iqtisadi göstəricilərə ötəri nəzər yetirmək kifayətdir. Həmin vaxtlar kəndin 329,17 desyatin torpaq sahəsi olmuş, onun da 7 desyatinini malikanə torpaqları, 209,17 desyatinini biçənəklər, 113 desyatinini otlaqlar təşkil etmişdir. Kənddə 1.100 iribuynuzlu, 4.100 xırdabuynuzlu mal-qara, 150 at, 240 dəvə qeydə alınmışdır.

Kənd əhalisinin sayı sonrakı illərdə aşağıdakı kimi dəyişmişdir: 1905-ci ildə 215 nəfər, 1914-cü ildə 375 nəfər.

1918-ci ildə kənd erməni-daşnak hücumları zamanı dağıdılmış, yandırılmış, əhalisinin çoxu ermənilər tərəfindən qətlə yetirilmiş, kənd sonralar bir daha bərpa olunmamış, elə o vaxtdan da xaraba qalmışdır.

KOLANLI (XARABA KOLANI, RƏNCBƏR KOLANISI)

Zəngibasar mahalında, Böyük Qarasu çayı kənarında, Rəncbər kəndindən 1-1,5 km yuxarıda, Rəncbər kəndi ilə Qarğabazar kəndi arasında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

Kəndin adına **Xaraba Kolanı** şəklində ilk dəfə 1873-cü ilə aid statistik məlumatlarda rast gəlirik. Eçmiədzin qəzasının Abaran çayı boyu ərazisində, Böyük Qarasu çayı kənarında yerləşdirilən Xaraba Kolanı kəndində 43 təsərrüfat 236 nəfər (129 kişi, 107 qadın) Azər türkü qeydə alınmışdır.

1886-cı ildə Xaraba Kolanı kənd əhalisinin sayı 46 təsərrüfatda 324 nəfərə (172 kişi, 152 qadın) çatmışdır.

Kənd adının etimoloji izahı ilə bağlı onu deyə bilərik ki, Xaraba Kolanı **"Xarabalıq yaxınlığında Kolanı kəndi"** anlamındadır. Lakin bu, hansı xarabalıqdır, dəqiq hökm vermək çətindir. Bununla belə, xatırladırıq ki, İ.Şopen (1832) Karbi mahalı ərazisində iki Kolanı kəndi qeydə almışdır: Aralıq Kolanı, Teymurxan Kolanı. Etimal etmək olar ki, xaraba kəndlər siyahısına daxil edilmiş Teymurxan Kolanı kəndi elə Xaraba Kolanı kəndidir.

Kolanı etnoniminə gəldikdə isə aydındır ki, söhbət XVIII yüzilin 1-ci yarısında Nadir şah Əfşar tərəfindən Cənubi Azərbaycandan köçürüldüyü ehtimal olunan, öncə Qərbi Azərbaycanda, Naxçıvanda məskunlaşmış, Vedibasarın Cığın dərəsindən keçərək Qarabağda, Şirvanda yurd salmış **Kolanı** türk tayfasından gedir. Xatırladırıq ki, Vedibasar mahalının Cığındərə bölgəsində Kolanı tayfasına məxsus 8 kənd olmuş, onlardan biri elə Kolanlı da adlanmışdır. Qarabağda isə bütöv bir Kolanı mahalı mövcud olmuşdur. Bundan başqa, Qərbi Azərbaycanda və Azərbaycan Respublikası ərazisində də çoxlu Kolanı kəndləri qeydə alınmışdır. Bu barədə bu kitabın Vedibasar mahalına həsr edilmiş I-ci cildində Kolanlı kəndindən danışarkən ətraflı bəhs etmişik.

Professor S.Şükürovun "Kolanlı kolluq yer deyildi. Bu adı ona niyə və nəyə görə veriblərsə bilmirəm" fikrinin (bax həmin müəllifin "Uluxanlı" kitabı, səh. 67) heç bir elmi əsası yoxdur.

Rəncbər kəndinə yaxın olduğuna görə xalq arasında bəzən o, **Rəncbər Kolanısı** da adlandırılmışdır.

1897-ci ildə Xaraba Kolanı kəndində 434 nəfər, 1905-ci ildə 360 nəfər, 1914-cü ildə 516 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci ildə kənd erməni daşnakları tərəfindən dağıdılmış, talan edilmiş, əhalisinin bir hissəsi qəddarcasına qətlə yetirilmiş, sağ qalanlar Arazın o tayına – Türkiyəyə pənah aparmışlar.

Sovet hakimiyyəti qurulduqdan sonra kəndin qaçqın əhalisinin bir hissəsi geri qayıtmışdır. 1922-ci ildə kənddəki azərbaycanlıların sayı 228 nəfər, 1926-cı ildə 241 nəfər, 1931-ci ildə 167 nəfər olmuşdur.

1935-ci ildən etibarən bütün rəsmi sənədlərdə kənd sadəcə **Kolanlı** adlandırılmışdır.

1948-1949-cu illərdə kəndin bütün əhalisi zorla Azərbaycana deportasiya olunmuş və kənd ləğv edilmişdir.

* * *

Kəndin şimal-qərb hissəsində nəhəng göl və qamışlıq vardı. Keçmişdə burada çoxlu quşlar, hətta dovşan, tülkü, canavar, qaban da olardı. Rəncbər, Sarıcalar, Muğanlı kəndlərinin camaatı kimi, Kolanı kənd camaatı da kəndlərinin yaxınlığındakı bu qamışlığa **Quş bazarı** deyirdilər.

Kolanlı kəndi bostan və çəltik gecərməkdə ad çıxarmışdı, burada yetişdirilən yemiş son dərəcə şirin və dadlı olardı.

KOLAR (QALALI, GƏLƏRƏ, KƏLLEY)

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 10-11 km şimalda, Hacı Elləz kəndi yaxınlığında, Zəngi çayının sol tərəfində kənd.

Kənddə XVII yüzilə qədər ancaq Azər türkləri yaşamışlar. XVII yüzilin əvvəllərində Çuxur-Səd bəylərbəyi Əmirqunə xan (1605-1625) Anadoluya hərbi səfəri zamanı oranın Karin, Muş, Van və b. vilayətlərindən əsir aldığı erməniləri gətirib Çuxur-Səəd bəylərbəyliyinin Kolar, Göygümbət, Kavakert, Parakar və Sabat kəndlərində yerləşdirmişdir. Elə o vaxtdan Kolar kəndində ermənilər də yaşamış, sonralar kənd bütünlüklə ermənileşdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftərində" (1590) kənd İrəvan nahiyəsinin **Kelare kəndi,** İ.Şopendə (1832) Zəngibasar mahalının **Qalalı kəndi,** 1873-cü ilin siyahıyaalmasında İrəvan qəzasında Zəngi çayı kənarında **Qalalı (Qalalıyey) kəndi,** 1886-cı ilin statikasında İrəvan qəzasının Hacı Eylas nahiyəsində iki variantda – **Qalalı** və **Qalaley kəndi,** 1886-cı ilə aid digər mənbədə **Kəlaley kəndi** şəklində qeydə alınmışdır. Yerli tələffüzdə **Gələrə, Kəlley** kimi də işlənmişdir.

Toponimin əslində **Kolara** şəklində olması, **kol** və **ara** (aralıq) sözlərindən ibarət olmaqla **"iki kolluq arası mülk"** mənasında işlənməsi fikri ilə (B.Budaqov, Q.Qeybullayev) razı deyilik. Əslində toponimin ilk komponentindəki **Kol** sözü peçeneq türklərinin **Kul//Kol** tayfasının adını bildirir. Xatırladırıq ki, Moisey Xorenli özünün tarix kitabında er. əv. II yüzilin hadisələrindən bəhs edərkən bulqar türklərinin Şimali Qafqazdan gəlib məskunlaşdığı Ağrıdağ vadisindəki Kol vilayətindən danışır. **Kol//Kul//Qul//Gül** (hətta bəzən **Göl**) komponentli toponimlərin Bütöv Azərbaycanda o cümlədən Qərbi Azərbaycan ərazisində yayılma arealı və sıxlığı barədə bu kitabın Vedibasar mahalına həsr edilmiş 1-ci cildində ətraflı yazdığımızdan bir daha təkrar etmirik.

Beləliklə, bizim fikrimizcə, Kolara kənd adının ilkin variantı Kolar//Kolər olmuş və **"Kol tayfasının nümayəndələri", "Kol**

adamları“ anlamında işlənmişdir. 1621-ci ilə aid erməni mənbəyində kəndin adının **Kalar** kimi yazılması və onun Saatlı (**Sakatlı** – Ə.Ə.) tayfasından **Qayıtmış bəyə** məxsus mülk olması barədəki məlumat da təsdiq edir (Bax: Simeon İrəvanlı. “Cambr“).

Kəndin **Qalalı** adı, heç şübhəsiz, onun ərazisində qədim qalanın mövcudluğundan törəmişdir. 1873-cü ilin məlumatlarından kəndin ikinci adının həm də **Qalalıyey** (**Qalalıyer** – Ə.Ə.) kimi yazıya alınması da bunu təsdiqləyir.

Lakin bu yerdə kənd adının ilkin – Kolar variantı ilə ikinci adı – Qalalı variantı arasındakı səs oxşarlığını da diqqətdən qaçırmaq olmaz. Üstəlik də Koların XVII yüzil mənbəyində artıq Kalar şəklində işləndiyindən bəhs etdik. Deməli, **Kolar//Kalar** ilə **Kol eli//Kal eli//Kalalı//Qalalı** arasında elə də ciddi fərq yoxdur.

İ.Şopendə kənddə 35 təsərrüfatda 150 nəfər (77 kişi, 73 qadın) “yerli“, yəni bölgənin 1828-ci il işğalından əvvəl burada yaşamış erməni siyahıya alınmışdır. Həmçinin İ.Şopen kənddə kilsə binası, Zəngi çayı üstündən qədim körpü özüllərinin qalıqlarını və bir dəyirman da qeydə almışdır.

1873-cü ilin statistik məlumatlarında kənddə 51 təsərrüfatda 283 nəfər (137 kişi, 146 qadın) erməni yaşadığı göstərilmiş, yenə də kənddə bir kilsə və körpü qalıqları qeydə alınmışdır.

1886-cı ildə kənd əhalisi 52 təsərrüfatda 323 nəfərə çatmışdır. 1886-cı ilə dair mənbədə həmçinin kənd camaatının hər il **Usub bəy Əli Sultan oğlunun** Cəfərabad və Göygümbət kəndlərindəki ərazisindən 10 xalvar torpaq sahəsini əkin üçün yardarlığa götürdüyündən bəhs olunmuşdur.

Sovet dövründə rəsmi sənədlərdə kəndin adı **Kolara** kimi bərpa olunmuş və 1949-cu il dekabrın 1-də bu ad dəyişdirilərək **Qukasavan** qoyulmuşdur.

QARACALAR (MƏMMƏDABAD)

Zəngibasar mahalında, Reyhanlı və İlxı qoruğu kəndləri yaxınlığında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

İ.Şopendə (1832) kənd **Qaracalar** adı ilə Zəngibasar mahalının xaraba kəndləri sırasına daxil edilmişdir.

Araşdırmalarımız göstərir ki, 1828-ci ildə Zəngibasar mahalının xaraba qalmış Qaracalar kənd camaatı Vedibasar mahalının dağlıq hissəsindəki xaraba qalmış Məmmədabad kəndinə köçüb, orada yaşamış və buna görə də 1873-cü ilin statistikasında Vedibasarın Məmmədabad kəndinin ikinci adı Qaracalar kimi qeydə alınmışdır. 1880-ci illərin əvvəllərində Məmmədabad kəndindən geri qayıdan keçmiş qaracalarlılar, təzə məmmədabadlılar artıq öz yeni – son 50 ildə yaşadıqları Məmmədabad kənd adını özləri ilə Zəngibasar mahalına aparmışlar. Buna görə də 1886-cı ilin statistikasında köhnə Qaracalar kəndi yerində bərpa olunan kənd Məmmədabad adı ilə qeydə alınmışdır. Bununla belə, Qaracalar toponimi yaddaşlarda yaşamış, bölgənin iqtisadi vəziyyətinə dair 1886-cı ilə aid mənbədə İlxı qoruğu kəndi nəzdində olan və 27,68 desyatin ərazini əhatə edən **Qaracalar** adlı biçənəkdən bəhs olunmuşdur. Bu, tarixi Qaracalar kəndi ərazisinə tam uyğun gəlir.

Qərbi Azərbaycan ərazisində (Seyidli-Ağsaxlı mahalında, Eçmiədzin qəzasında, Qırxbulaq, Dərəçiçək nahiyələrində və s.) Qaracalar adlı xeyli kəndlər mövcud olmuş, XIX yüzildə Qarabağ, Dərələyəz, Şirvan torpaqlarında Qaracalar adlı tayfa yaşamışdır.

Zəngibasar mahalının Qaracalar kəndi də öz adını Qaracalar etnonimindən almışdır. Kəndin **Məmmədabad** adı isə **Məhəmməd//Məmməd** şəxs adından və yaşayış məntəqələrinə artırılan **abad** sözündən yaranmışdır.

1886-cı ilin statistikasında Hacı Eylas nahiyəsinin Sarvanlar kənd icması tərkibində verilən **Məmmədabad** kəndində 8 təsərrüfatda 33 nəfər (20 kişi, 13 qadın) azərbaycanlı qeydə alınmışdır. Kənd əhalisinin sayı 1897-ci ildə 49 nəfər, 1905-ci ildə 72 nəfər, 1914-cü ildə 121 nəfər olmuşdur.

1918-ci ildə kənd erməni-daşnak hücumuna məruz qalmış, əhalisinin bir hisssi qətlə yetirilmiş, sağ qalanlar kənddən qəddarlıqla qovulmuşlar.

Sovet dövründə məmmədabadlılardan cəmi bir neçə ailə geri dönə bilmiş, 1931-ci ildə kənddə yaşayan azərbaycanlıların sayı cəmi 19 nəfər olmuşdur. Az sonra kənd ləğv edilmiş, onlar da köçüb qonşu azərbaycanlı kəndlərində məskunlaşmışlar.

Kəndin ərazisində evlərin xarabalıqları, qəbiristanlığın izləri son illərə qədər qalmaqda idi.

* * *

Məmmədabad kəndi haqqında əlavə məlumatlara akademik B.Budaqovun yazılarında rast gəlirik. Məlum olur ki, Məmmədabad kəndində İrəvan quberniyasının görkəmli şəxslərindən olan **Cəfər ağanın oğlu Məmmədəli bəyin** böyük təsərrüfatı – pambıq tarlası, iki qatar dəvəsi, at ilxısı, çoxlu iribuynuzlu və xırdabuynuzlu mal-qarası, xüsusilə ağ qoyun sürüləri olmuşdur. Rus-sovet ordusu İrəvana daxil olanda Məmmədəli bəy nəqliyyat vasitəsi kimi, dəvə və atla, həmçinin ərzaqla onlara köməklik göstərmiş, bunun əvəzində rus generalı ona dördqapaqlı qızıl saat bağışlamış və orduya xidmətlərini əks etdirən rəsmi sənədlər vermişdir. Buna görə də Sovet dövründə onun var-dövlətinə toxunulmamışdır. Hörmətli kürd nəslindən qız aldığı üçün Məmmədəli bəyin kürdlər arasında da böyük nüfuzu olmuşdur. Kolxoz quruculuğu ilə bağlı təsərrüfatını xeyli azaldan Məmmədəli bəy 1933-cü ildə Məmmədabad kəndini tərk edib, Reyhanlı kəndinə köçmüşdür. 1937-ci ilə kimi Məmmədəli bəyə toxunmağa cəsarət etməyən erməni millətçiləri, nəhayət, həmin il onu həbs edirlər. Məmmədəli bəyə qarşı heç bir dəlil-sübut tapa bilməyən ermənilər, axır ki, onu üç illiyə Qazaxıstana sürgün etdirməyə nail olurlar. Məmmədəli bəy 1939-cu ildə sürgündən Gəncəyə qayıdır və həmin il də vəfat edir.


Böyük Qarasu çayının Araz çayına qovuşduğu yer – sahəsi 47 hektar olan ada 1988-ci ilə qədər **Məmmədəli bəyin adası** adlanmışdır. Məmmədəli bəyin nəvə-nəticələri hazırda Azərbaycanın bir sıra bölgələrində yaşayırlar. Bir nəvəsi – professor **Nəriman Vəliyev** BDU-da 17 il hidrometeorologiya kafedrasının müdiri vəzifəsində işləmişdir.

Yeri gəlmişkən, akademik B.Budaqovun Məmmədabad kəndinin Məmmədəli bəyin adını daşıması fikri ilə razı deyilik. Çünki Məmmədəli bəy 1879-cu ildə anadan olduğu halda, 1886-cı ilin statistikasında kənd Məmmədabad adı ilə artıq qeydə alınmışdır.

QARAQIŞLAQ (HACI BAYRAM, DOSTLUQ)

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 9 km şimal-qərbdə, Zəngi çayının sağ tərəfində, su arxının üstündə, Gərnigöz bulağı kənarında kənd.

1988-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamış, həmin il kəndin bütün yerli əhalisi qovulub çıxarılaraq kənd ermənilərdirilmişdir.



Qaraqışlaq kəndinin ümumi görünüşü

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Qaraqışlaq kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə kəndin əsl adının **Hacı Bayram,** ikinci adının isə **Qaraqışlaq** olduğu, kənddə **Məhəmməd** adlı şəxsin timarından dövlətin ildə 7.200 ağça gəlir götürdüyü də göstərilmişdir. Yeri gəlmişkən, "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsində Qaraqışlaq kəndi ilə yanaşı, **Hacı Bayram qışlağı** adlı ayrıca kəndə də rast gəlirik. Görünür, yanaşı olan bu kəndlər sonra vahid kəndə çevrilmiş, Qaraqışlaq adı ilə tanınmışdır.

İ.Şopendə (1832) və sonrakı bütün statistik məlumatlarda kəndin adı **Qaraqışlaq** şəklində verilmişdir.

Kəndin adının **qara** və **qışlaq** komponentlərindən ibarət olduğu özlüyündə aydındır. **Qara** komponenti türk dillərində **böyük** mənası verməklə toponimin **Böyük qışlaq** mənasını ortaya qo-

yur. Lakin qara sözünün **"qəryə" (kənd)** anlamını da nəzərdən qaçırmaq olmaz. Xatırladırıq ki, təkcə XIX yüzildə Cənubi Qafqazda 7 Qaraqışlaq kəndi olmuşdur. Təkcə Qərbi Azərbaycanda XVI-XIX yüzillərdə Maku, Şirakel, Karbi nahiyələrində, Gərnibasar və Zəngibasar mahallarında Qaraqışlaq kəndləri qeydə alınmışdır.

İ.Şopendə (1832) Zəngibasar mahalının **Qaraqışlaq** kəndində 23 təsərrüfatda 151 nəfər (84 kişi, 67 qadın) Azər türkünün yaşadığı göstərilmişdir.

1873-cü ilin siyahıyaalmasında kənd mülkədar kəndi kimi qeydə alınmış, **Gərnigöz bulağı** kənarında, Zəngi çayının sağ tərəfində yerləşdirilmiş, kənddə 77 təsərrüfatda 735 nəfər (389 kişi, 346 qadın) Azər türkünün yaşadığı qeyd olunmuşdur. Kənddə bir məscid binası da qeydə alınmışdır.

1886-cı ildə kənddə 93 təsərrüfatda 751 nəfər (468 kişi, 283 qadın), 1897-ci ildə 1.007 nəfər, 1905-ci ildə 832 nəfər, 1914-cü ildə 1.123 nəfər əhali yaşamışdır.

Qaraqışlaq 1918-ci ildə İrəvan qəzasında erməni-daşnak hücumları nəticəsində ən çox dağıdılan və qətl-qarətlərə məruz qalan kəndlərdən biri olmuşdur. Erməni süngüsündən canını qurtaranlar baş götürüb Arazın o tayına pənah aparmışlar.

Sovet hakimiyyətinin ilk illərində kənd əhalisinin sağ qalanları doğma kəndə qayıtmaq imkanı qazanmış, iki-üç ildən bəri xaraba qalmış kəndi bərpa etməyə başlamışlar. 1922-ci ildə geri qayıdanlar 514 nəfər olmuş, 1926-cı ildə onların sayı 753 nəfərə, 1931-ci ildə 850 nəfərə çatmışdır.

Kəndin torpaqlarında 1930-cu illərdə kolxoz, 1950-ci illərdə sovxoz yaradılmış, kənddə bir çox sosial və inzibati obyektlər tikilib istifadəyə verilmiş, kənd xeyli abadlaşdırılmışdır. Adamlar fərdi təsərrüfatlarının inkişaf etdirilməsinə xüsusilə böyük diqqət yetirmişlər. Lakin təəssüf ki, 1988-ci il soyqırımı zamanı bütün bunlar hamısı əvəzi ödənilmədən ermənilər tərəfindən qəsb edildi, kəndin köklü sakinləri isə qovulub, öz ata-baba yurdlarından vəhşiliklə çıxarıldılar. Noyabrın 28-də gündüz saat 3-də qəflətən kəndə hücum edən mütəşəkkil erməni quldur dəstələrinə əliyalın müqavimət göstərməyin daha mümkün olmadığını görən dinc camaat ermənilərlə əlbəyaxa ola-ola, nəhayət, Türkiyə sər-

hədinə sığınmaq məcburiyyətində qaldılar, bir neçə gündən sonra isə hərbiçilərin köməyi ilə Naxçıvana üz tutdular. Bu vaxt kənddə 580 təsərrüfatda təxminən 3.500 nəfər azərbaycanlı yaşayırdı. Həmin hadisələr zamanı kəndin 1955-ci il təvəllüdlü sakini **Tağıyev Müşviq Tağı oğlu** erməni vəhşiliyinin qurbanı olaraq, qəddarcasına qətlə yetirildi.

Kəndin tarixi Qaraqışlaq adı 1978-ci il yanvarın 25-də dəyişdirilərək **Dostluq,** 1991-ci il aprelin 19-da isə **Hayanist** qoyulmuşdur.

* * *

Qaraqışlaq kəndi ilə Dəmirçi kəndi arasında **Xaraba kəndi** adlanan yer vardı. Bu xarabalıqlarda 1970-ci illərdə qazıntı işləri aparılmış, çoxlu təndir qalıqları və qədim qəbirlər aşkar edilmişdi.

Keçmişdə bütün Zəngibasar mahalında olduğu kimi, Qaraqışlaq kəndində də əhali dini adət-ənənələrə sadiq, inamlı və imanlı olmuş, kənddən Məkkə, Kərbəla və Məşhəd ziyarətinə xeyli adam getmişdir. Onlardan **hacılar:** Hacı Ramazan, Hacı Nağı, Hacı Əli, Hacı Molla, Hacı Əli Qəmbər oğlu, Hacı Talıb; **kərbəlayılar:** Kəlba Əli, Kəlba Həsənalı oğlu, Kəlba Həsən, Kəlba Vəli, Kəlba Şıxəli, Kəlba Hüseyn, Kəlba Əli, Kəlba Tağı, Kəlba İsmayıl Abo oğlu, Kəlba Bədəl, Kəlba Salman, Kəlba Əsəd, Kəlba İsmayıl Ələkbər oğlu, Kəlba Oruc; **məşədilər:** Məşədi Həsən, Məşədi İsmayıl, Məşədi Həşim, Məşədi Məsim, Məşədi Hüseyn, Məşədi Qasım, Məşədi Xəlil, Məşədi Abbas, Məşədi Rza Mütəllim oğlu, Məşədi Rza, Məşədi Zaman, Məşədi Məmməd, Məşədi Məsmə, Məşədi Fatma.

Kənddə iki məscid binası vardı, onlardan birinin xarabalıqları qalırdı, digəri isə 1988-ci ilə qədər işləyirdi.

Kəndin qəbiristanlığı kəndin qırağında yerləşirdi.

Kənddə **Seyid ocağı** deyilən ocaq vardı. Bu ocaq **Bəyim nənənin** evində yerləşirdi. **Həcər bəyim** də kəndin seyidlərindən idi.

Kəndin ilk ziyalıları sırasında **Eyyub Muxtar oğlu Əliyevin** adını çəkmək olar. O, 1919-cu ildə anadan olmuş, 1935-ci ildə kənd yeddiillik məktəbini, 1938-ci ildə İrəvan Kənd Təsərrüfatı Texnikumunu bitirmiş, 1939-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutunun 2-ci kursundan hərbi xidmətə çağırılmış, Böyük Və-

tən müharibəsində həlak olmuşdur.

Əkbər Yusifov isə 1934-cü ildə İrəvan Kənd Təsərrüfatı Texnikumunu bitirmiş, sonra təhsilini İrəvan Pedaqoji İnstitutunda davam etdirmişdir. O da Böyük Vətən müharibəsində həlak olmuşdur.



YUSİF MİRZƏ OĞLU YUSİFOV

1920-ci il mayın 10-da Qaraqışlaq kəndində anadan olmuşdur. 1940-cı ildə hərbi xidmətə çağırılmış, Bessarabiya və Kişinyovda qulluq etmiş, ilk gündən Böyük Vətən müharibəsinin ön xəttində vuruşmuş, döyüşlərdən birində ağır yaralanaraq 1942-ci ildə ordudan tərxis olunmuşdur. Həmin ildən Qaraqışlaq kənd sovetinin sədri, sonra rayon teatrının bədii rəhbəri, 1955-1961-ci illərdə Qaraqışlaq kənd kolxozunun sədri, 1961-1971-ci illərdə sovxoz direktorunun müavini vəzifələrində işləmişdir. 1988-ci ildən Bakı şəhərində yaşayır və hazırda Bakı şəhər Müharibə, Əmək və Silahlı Qüvvələrin Veteranlar Şurası Təftiş Komissiyasının sədri vəzifəsində çalışır.

Müseyib Muxtar oğlu Əliyev 1923-cü ildə Qaraqışlaq kəndində anadan olmuş, Böyük Vətən müharibəsində ön xəttə döyüşmüş, dəfələrlə yaralanmış, iki dəfə I dərəcəli Vətən Müharibəsi ordeni, III dərəcəli Şöhrət ordeni, Almaniya və Yaponiya üzərində Qələbə medalları və daha 20 medalla təltif edilmişdir. 1953-cü ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmiş, 1999-cu ilə qədər müxtəlif vəzifələrdə çalışmışdır. 1-ci qrup Böyük Vətən müharibəsi əlilidir.

Rza Mirzə oğlu Yusifov də Böyük Vətən müharibəsində iştirak etmiş, müharibədən sonra uzun illər pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

Əli Sadıq oğlu Əliyev Böyük Vətən müharibəsindən qayıtdıqdan sonra RİK-də təlimatçı, rayon Mədəniyyət evinin direktoru işləmiş, sonra Qaraqışlaq kəndinin Mədəniyyət evinə rəhbərlik etmişdir.

Ümumiyyətlə, kənddən Böyük Vətən müharibəsinə 96 nəfər

gedib, onlardan 58-i müharibədə həlak olub.

1966-1969-cu illərdə Qaraqışlaq sovxozuna haçaparaqlı **Abbas Mustafayev** direktorluq etmiş, onun vaxtında kənd iqtisadi cəhətdən xeyli irəliləmiş, kənddə dördmərtəbəli yeni tipli orta məktəb binası tikilmiş və 1968-ci ildə C.Məmmədquluzadənin 100 illiyi münasibətilə kənd orta məktəbinə böyük ədibin adı verilmişdir.

Əliyev Qərib Muxtar oğlu 1977-1980-ci illərdə Qaraqışlaq kənd orta məktəbinin direktoru olmuş, 1982-ci ildə "Baş müəllim" adını almışdır.

Ceyran Rza qızı Tahirova 1982-ci ildə respublikanın Əməkdar müəllimi fəxri adına layiq görülmüşdür.

Qərib Əliyevdən başqa, **Kərim Orucov, Adil Vəliyev, Əli Cümşüdov, Qərib Əliyev, İbrahim Ərəbov** da müxtəlif vaxtlarda kənddə məktəb direktoru işləmişlər.



Qaraqışlaq kəndinin pambıq tarlasında. 1953.

Qaraqışlaq, Dəmirçi, Rəhimabad və Mehmandar kəndləri bir sovetlikdə birləşmiş və uzun müddət sovetlik Qaraqışlaq kəndində yerləşmişdir.

Nigar Vəliyeva, **Əsgər Mehdiyev, İsa Bağırov, Əsəd Kərimov, Ələkbər Kərimov** və b. ayrı-ayrı vaxtlarda kənd sovetinin sədri olmuşdular. **Məhərrəm Əhməd oğlu Mustafayev** kəndin sonuncu (1988-ci ilə qədər) sovet sədri olmuşdur.

Kəndin yetişdirdiyi şəxsiyyətlər sırasında tarix elmləri doktoru **Rafiq Rza oğlu Bayramovun,** filologiya elmləri namizədləri

Eldar Oruc oğlu Orucovun, Şura Oruc qızı Orucovanın, Bakı şəhər Xətai rayon səhiyyə şöbəsinin müdiri **Oqtay Adil oğlu Əliyevin,** uzun illərdən bəri Bakı şəhərində evtikmə kombinatının direktoru olan **Eldar Nağı oğlu Talıbovun,** 2 saylı beton zavodunun direktoru **Vəli Məmmədəli oğlu Həbibovun,** Suraxanı rayonunda poliklinikalardan birinin baş həkimi **Arif Həmid oğlu Məmmədovun** və b. adlarını çəkmək olar.

Səyyad Salmanov 1939-cu ildə Qaraqışlaq kəndində anadan olmuş, 1960-cı ildə orta məktəbi, sonra Tibb İnstitutunun stomatologiya fakültəsini bitirmiş, 1971-ci ildə Hərbi Tibb Akademiyasında, 1982-ci ildə Novokuznetskdə təkmilləşdirmə kurslarında ixtisasını daha da təkmilləşdirmişdir. Hazırda Bakı şəhər 6 saylı stomotologiya poliklinikasının baş həkimi işləyir.

Məmmədəli Talıb oğlu Səfərov Qaraqışlaq kəndinin yetirdiyi gənc ziyalılarımızdandar. O, 1982-ci ildə İrəvan Pedaqoji İnstitutunun filologiya fakültəsini bitirmiş, Qaraqışlaq kənd orta məktəbində müəllim işləmişdir. 1988-ci ilin məlum hadisələri ilə əlaqədar Bakı şəhərinə köçmüş, milli azadlıq hərəkatının fəal üzvlərindən olmuşdur. Hazırda Bakı şəhərində 251 saylı orta məktəbdə müəllim işləyir, 1993-cü ildən AMİP Nizami rayon təşkilatının sədridir.

Qaraqışlaq kəndinin idmançı yetirmələri sırasında samboçu, üçqat Avropa çempionu **Ramin İbrahimovun,** cüdoçu Ruslan və Rza Əliyev qardaşlarının xüsusi yeri var. Onlar dəfələrlə respublika və beynəlxalq turnirlərin iştirakçısı və qalibi olmuşlar.

Nuru Əli oğlu Əliyev "Sambo" güləş növü üzrə idman ustalığına namizəd və II dərəcəli şahmatçıdır. Hazırda Bakı şəhər "Zəngi" listeyində müəllim işləyir, idman jurnalistikası ilə məşğul olur.

Qaraqışlaq kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı

Poçt – 1
Əczaxana – 1
Yeməkxana – 1

Kitabxana – 2
Məktəb – 4
X/b mal-qara – 190
İ/b mal-qara – 140
K/t maşınları – 18
Avtobus – 1
Avtomaşınlar (yük, minik) – 22
Məscid – 2
Ambar binaları – 3
Ding və dəyirman – 1
Transformator – 1
Quşçuluq ferması – 1
X/b mal-qara tövləsi – 3
İ/b mal-qara tövləsi – 3
Həkim məntəqəsi – 1
Xəstəxana – 1
Uşaq bağçası – 1
İdarə binası – 2
Kino binası – 1
Mədəniyyət evi – 2

KƏNDİN TAYFA VƏ NƏSİLLƏRİ

Kəlba Əhmədlilər, Qəmbərlilər, Mədəddilər, Kərtilər, Muğanlılar, Salmanlılar, Bədəllilər, Usublular, Zamanlılar, Xəlillilər, Talınlılar, Ergovlular, Kərimarxlılar, Quytullular, Haxıslılar, Almənməd uşağı, Kalba Oruc uşağı.

KƏNDİN TOPONİMLƏRİ

Bağçalar, Arxaltı, Korabulaq yeri, Korabulaq bulağı, Birinci-bilan, Ayıbasqan körpüsü.

QARABAĞ MÜHARİBƏSİNDƏ HƏLAK OLANLAR

Ramin Təvəkkül oğlu Məmmədov (1975, Qaraqışlaq – 1994, Kəlbəcər)

Xanməmməd Qəşəm oğlu İbrahimov (1974, Qaraqışlaq – 1992, Ağdərə)

Həbib Fərhad oğlu Əliyev (1972, Qaraqışlaq – 1992, Ağdərə)

Natiq Nadir oğlu Məmmədov (1973, Qaraqışlaq – 1994, Füzuli).

Nəsimi Əbülfəz oğlu Süleymanov (1974, Qaraqışlaq – 1993, Ağdərə)

Rüfət Məhərrəm oğlu Ərəbov (1975, Qaraqışlaq – 1994, Murov)

Elman Məhəmməd oğlu İsmayılov (1972, Qaraqışlaq – 1992, Tovuz)


Ənvər Qənbər oğlu Hüseynov (1966, Qaraqışlaq – 1992, Şuşa)

1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİNDƏ HƏLAK OLANLAR

1. Abbasov Ağbbas Həsən oğlu
2. Abbasov Qasım Məmməd oğlu
3. Abbasov Zeyni M.Abbas oğlu
4. Abbasov Kərəm Məhərrəm oğlu
5. Abbasov Sudeyif Hüseyn oğlu
6. Bağırov İsmayıl İsmayıl oğlu
7. Bağırov Hüseyn Mansur oğlu
8. Vəliyev İslam Həsən oğlu
9. Qasımov Qara Abbas oğlu
10. Qasımov Cəfər Hüseyn oğlu
11. Quliyev Qasım Əhməd oğlu
12. Əsgərov Ələsgər Kərəm oğlu
13. Qasımov Həsən Qasım oğlu
14. Novruzov Hüseyn Əli oğlu
15. Heydərov Sultan Əsgər oğlu
16. Həsənov Bayram Məmməd oğlu
17. Hüseynov Abbas Nəsib oğlu
18. Hüseynov Heydər Əbdüləli oğlu
19. Məmmədov M.Məmməd Abbas oğlu
20. Mustafayev Cəlil Həşim oğlu
21. Mədədov Məmməd K.Əkbər oğlu

22. Musayev Yunis Kərim oğlu
23. Məhərrəmov Məhərrəm Zülfüqar oğlu
24. Mahmudov Qara Mahmud oğlu
25. Məmmədov Mütəllim Ağa oğlu
26. Məmmədov Abbas Əkbər oğlu
27. Məhərrəmov Həsən Mərdan oğlu
28. İsmayılov Məmməd Məhərrəm oğlu
29. İsmayılov Həsən Məhərrəm oğlu
30. İsmayılov Hüseyn Abbas oğlu
31. İsmayılov Zennavdı Abbas oğlu
32. İbrahimov Zennavdı İbrahim oğlu
33. İbrahimov Nəcəf İbrahim oğlu
34. İbrahimov Vəli Nəbi oğlu
35. İsmayılov Məmmədtağı Həsən oğlu
36. Əsədov Vəli Abbas oğlu
37. Ərəbov Şərif Hətəm oğlu
38. Əsgərov Məmmədəli Nəcəf oğlu
39. Əhmədov Qulu Məmməd oğlu
40. Əliyev Hüseyn Cəfər oğlu
41. Rəcəbov İbrahim Tağı oğlu
42. Salmanov Süleyman Rəsul oğlu
43. Salmanov Kərim Abbas oğlu
44. Sadıqov Müseyib Hüseyn oğlu
45. Sadıqov Sadıq Seyfulla oğlu
46. Xəlilov Əbdül Abbas oğlu
47. Xəlilov Zennavdı Əsgər oğlu
48. Cəfərov Heydər Həsən oğlu
49. Cəfərv Əhməd Əli oğlu
50. Əliyev Əyyub Muxtar oğlu
51. Talıbov Zennavdı Əli oğlu
52. Talıbov Əli Bayram oğlu
53. Tağıyev Yaqub Hüseyn oğlu
54. Orucov Yunis Həsən oğlu
55. Yusifov Əkbər Mirzə oğlu
56. Cəfərov İmran Mustafa oğlu
57. Əkbərov Əkbər İsmayıl oğlu
58. Əsgərov Nağı Hüseyn oğlu

MƏMMƏD ƏHƏD OĞLU SALMANOV



1932-ci ilin yanvarında Qaraqışlaq kəndində anadan olmuşdur.

1946-cı ildə kənd yedillik məktəbini əla qiymətlərlə, 1950-ci ildə İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumunu qırmızı diplomla, 1955-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir.

1955-ci ildə Azərbaycan EA Zoologiya İnstitutunun aspiranturasına daxil olmuş, təhsilini Moskvada – MDU və SSRİ EA-da davam etdirmişdir.

Azərbaycanda su mikrobiologiyasının inkişafı və ümumiyyətlə bütün şirin, mineral-müalicəvi, termal, şor sulara aid mənbələrin öyrənilməsi M.Salmanovun tədqiqat sahələridir. Bundan başqa, Xəzər dənizinin bioloji məhsuldarlığı, ekoloji vəziyyəti son 40 ildə alim tərəfindən müfəssəl öyrənilmişdir. Onun tədqiqatları elmi, tətbiqi baxımdan böyük əhəmiyyət kəsb edir. Azərbaycanın su balansı, çaylar, göllər, bulaq-qaynaqlar sisteminin son 45 ildə düçar olduğu ekoloji təzadlar, onların mühafizəsi, səmərəli istifadə yolları M.Salmanovun çoxsaylı müşahidələrində öz əksini tapmışdır.

Təsadüfi deyil ki, Azərbaycanın su balansının əsası sayılan Kür-Araz hövzələri M.Salmanov tərəfindən 1956-cı ildən bu günə qədər illər, fəsillər üzrə və məkan baxımından tədqiqat nəzarətindədir.

Suyun mikrobiologiyası, sanitar hidrobiologiya, ekologiya, hidrosistem üzrə yüksək səviyyədə mütəxəssis sayılan M.Salmanov 1960-cı ildə namizədlik, 1981-ci ildə doktorluq dissertasiyaları müdafiə etmişdir. O, 225 elmi əsərin, o cümlədən, 5 monoqrafiya, 3 dərsliyin müəllifidir. Əsərləri keçmiş Sovet məkanında (Moskva, Kiyev və Minskdə), Türkiyə və İranda çap olunmuşdur.

M.Salmanov elmi axtarışlarla yanaşı, ali məktəblərimizdə mühazirələr oxuyur və hazırda Azərbaycan Tibb Universitetində "Tibbi biologiya və genetika" kafedrasının müdiridir. Məmməd müəllim tədqiqat-pedaqoji işlərdən başqa bir sıra ictimai vəzifələr də daşıyır. O, 3 elmi Şuranın, 2 müdafiə Şurasının üzvüdür, Azərbaycan Dövlət Ekolo-

giya Komitəsinin eksperti, Hidrometeorologiya Komitəsinin elmi məşvərətçisi, YUNESKO-nun Azərbaycan Milli Bioetika Komitəsinin üzvüdür. Onun rəhbərliyi ilə 14 elmlər namizədi, 2 elmlər doktoru hazırlanmışdır.

Hazırda 3 namizədlik və 1 doktorluq işinə rəhbərlik edir.

2001-ci ildə Azərbaycan MEA-nın müxbir üzvü seçilmişdir.

YUNİS MİRZƏ OĞLU YUSİFOV



1938-ci ildə Qaraqışlaq kəndində anadan olmuşdur.


Orta təhsilini doğma kəndində almış, 1957-1962-ci illərdə İrəvan Dövlət Pedaqoji İnstitutunun dil-ədəbiyyat və tarix fakültəsində oxumuş, üç il Göyçə mahalında müəllimlik etdikdən sonra pedaqoji fəaliyyətini Bakı şəhərində davam etdirmişdir. Qabaqcıl iş təcrübəsini nəzərə alıb onu 1970-ci ildə Azərbaycan Müəllimlər İnstitutuna metodist, sonra dekan müavini təyin etmişlər.

Y.Yusifov indiyə kimi on minlərlə müəllim və tərbiyəçinin kursdan keçməsində yaxından iştirak etmiş, müxtəlif mövzularda 10-a qədər elmi-praktiki konfrans təşkil etmiş, 10-dan çox qabaqcıl təcrübəni ümumiləşdirib respublika miqyasında yaymış, 50-yə yaxın qəzet və jurnal məqaləsi, 4 metodik tövsiyə, 4 sinifdənxaric oxu vəsaiti nəşr olunmuşdur. Bu sinifdənxaric oxu vəsaitlərində yalnız özünün yazdığı didaktik şerlər toplanmışdır.

1983-cü ildə "Qabaqcıl maarif xadimi" döş nişanı ilə təltif edilmişdir.

Qərbi Azərbaycan torpaqlarının tarixi ilə bağlı maraqlı məqalələr müəllifidir.

MİRZƏ YUSİF OĞLU YUSİFOV



1954-cü ildə Qaraqışlaq kəndində anadan olmuşdur.

1972-ci ildə kənd orta məktəbini bitirmiş, 1973-74-cü illərdə ordu sıralarında hərbi xidmətdə olmuş, 1975-81-ci illərdə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil almışdır. Peşə fəaliyyətinə İrəvan şəhərində "Sovet Ermənistanı" qəzeti redaksiyasında başlamış, baş korrektor, xüsusi müxbir, şöbə müdiri vəzifələrində çalışmışdır.

1988-ci ilin payızında Qarabağ hadisələri ilə əlaqədar ailəlikcə Bakı şəhərinə köçməyə məcbur olmuşlar.

1989-90-cı illərdə "İttifaqteatr"ın respublika filialında yaradıcı-nəşriyyat şöbəsinin rəisi, 1990-92-ci illərdə "Qafqaz" İnformasiya-Reklam Şirkətində sədr müavini işləmiş, 1992-95-ci illərdə Dövlət Teleradio Verilişləri Şirkətinin "Ekran-Efir" qəzetində redaktor, AzTV-nin "Uşaq verilişləri" redaksiyasında şöbə müdiri vəzifələrində çalışmışdır.

1995-96-cı illərdə respublika Nazirlər Kabinetində Baş nazirin mətbuat mərkəzində, 1996-97-ci illərdə isə respublika Gömrük Komitəsinin mətbuat xidmətində məsul vəzifələrdə işləmişdir.

1997-ci ildən bu günə kimi "Ekran-Efir" qəzeti redaksiyasında çalışmaqdadır: baş redaktorun müavinidir.

M.Yusifov 1970-ci illərdən bədii yaradıcılıqla məşğuldur. Dövri mətbuatda çoxlu publisistik yazıları, şer və hekayələri dərc olunub. Telejurnalist Alı Mustafayevin xatirəsi ilə bağlı "Dəli bir ağlamaq keçir könlümdən", "Çarmıxa çəkildi Alı haqq üçün" və el ağsaqqalı Süleyman Qənbərovdan bəhs edən "Şirin bir xatirə tək..." kitablarının müəlifidir.

Respublika Jurnalistlər Birliyinin üzvü, Alı Mustafayev adına mükafatın laureatıdır.

QARATƏPƏ (QARACAVİRAN, QARAVİRAN)

Zəngibasar mahalında, Aşağı Necili kəndi ilə Yengicə kəndi arasında tarixi kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) **Qaracaviran məzrəsi** adı ilə qeydə alınmış və ikinci adının **Qaratəpə** olduğu göstərilmişdir. Göründüyü kimi, kəndin ilkin adı Qaratəpə olmuş, xaraba qaldıqdan sonra el arasında **Qaracaviran, Qaraviran** adlandırılmışdır. Elə "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) də kənd Qırxbulaq nahiyəsinin **Qaraviran** kəndi kimi verilmişdir. Kəndin İlanlı kəndi yaxınlığında yerəşdiyi, **Hüseyn** adlı şəxsin timarı olduğu və bu kənd-timardan dövlətin ildə 5.000 ağça gəlir götürdüyü də həmin mənbədə qeyd edilmişdir.

Sonralar kənd xaraba qalmışdır. Aşağı Necili kəndi ilə Yengicə kəndi arasında vaxtilə kəndin ərazisi olmuş çöllük 1988-ci ilə qədər elə **Qaratəpə** də adlanırdı.

Gərnibasar mahalı ərazisində də qədimdən Qaratəpə kəndi mövcud olmuşdur. İrəvan əyalətinin Xınzirək və Karbi nahiyələrində də vaxtilə Qaratəpə adlı kəndlər qeydə alınmışdır.

Adından da göründüyü kimi, toponim **"qara"** və **"təpə"** komponentlərindən ibarətdir. **Böyük təpə** anlamında olan toponimə İrəvan əyalətində belə sıx-sıx rast gəlinməsi, əslində, bölgədə qədim türklərin izləri olan təpə-kurqanların çoxluğundan irəli gəlir.

QULLAR (QULULAR)

Zəngibasar mahalında, Şorlu kəndi ilə Dəmirçi kəndi arasında, Zəngi çayının Dəmirçi kəndinə doğru tərəfində çayın içinə doğru uzanmış ərazidə kiçik kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

Kəndin Şorlu kəndindən çıxan ailələr tərəfindən salındığı ehtimal olunur.

Sonralar bizə məlum olmayan səbəblərdən, bəlkə də Zəngi çayının daşması nəticəsində çayın içinə doğru uzanmış kənd ərazisinin, buradakı evlərin su altında qalması səbəbindən ailələr təzədən qayıdıb Şorlu kəndində məskunlaşmışlar. Qullar kəndindən Şorluya gələnlərin **Quliyev** soyadını daşıması (**Məmməd Quliyev, Rza Quliyev, Əbdüləli Quliyev** və b.) kəndin adının məhz Qulular şəklində olması və **Qulu** şəxs adından yaranması ehtimalını ortaya qoyur.

Lakin bu, kənd adındakı **Qul** komponentinin İrəvan çuxurunda qədimdən məskunlaşmış peçeneplərin **Kul//Kol** tayfasının adını daşıması ehtimalını heç də istisna etmir. Bu etnotoponim, onun yayılma arealı barədə növbəti – Qulucan kəndindən danışarkən bəhs edəcəyik.

Xatırladırıq ki, Şorlu kəndindəki **Xanzoylar** tayfası bütövlükdə Qullar kəndindən Şorluya gələnlər olmuşlar. Bu tayfadan **Molla Həsən, Mustafa** və b. adlarını öyrənə bildik.

Qullar kəndinin xarabalıqları Zəngi çayının kənarında son illərə qədər qalmaqda idi.

QULUCAN

Zəngibasar mahalında, Zəngibasar rayonu ərazisində, Araz və Zəngi çaylarının kəsişdiyi yerdə kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Qırxbulaq nahiyəsinin **Qulucan kəndi** kimi qeydə alınmış, kəndin Ağbulaq kəndi yaxınlığında yerləşdiyi və kənddən dövlətin il ərzində 6.500 ağça gəlir götürdüyü göstərilmişdir. (Yeri gəlmişkən, həmin mənbədə Qulucan kəndi yaxınlığında Qırxbulaq nahiyəsinin iki kəndinin də adı çəkilir: **Qarabayram** və **Qaraxədim** kəndləri).

Kəndin **qul** (qulam, saray mühafizəçisi) sözündən və **Uçan** şəxs adından yaranması fikri (B.Budaqov, Q.Qeybullayev) ilə razı deyilik. Bunu vaxtilə Qərbi Azərbaycanın, demək olar ki, bütün nahiyələrində **Qul//Kul//Kol** komponentli onlarla toponimin mövcudluğu və **Uçan** şəxs adının qeyri-işləkliyi də təsdiq edir. Biz kəndin adının etimoloji izahında iki versiyaya üstünlük veririk: 1) adın sadə mənaaçımı: **Qulu** və ya **Qulucan** şəxs adından yaranmışdır; 1) bu kitabın Vedibasar mahalına həsr olunmuş 1-ci cildində Güldərviş kəndindən bəhs edəndə xatırlatmışdıq ki, Moisey Xorenli özünün tarix kitabında er. əv. II yüzilin hadisələrindən danışarkən Şimali Qafqazdan bulqar türklərinin gəlib məskunlaşdığı Ağrıdağ vadisində Kol vilayətindən söz açır. Elə həmin ərazidə Kol//Kul//Qul//Gül//Göl komponentli onlarla kəndin (Göl, Gölcığın, Güldərviş, Gölaysor, Qulaqsız və s.) mövcudluğundan da danışmışdıq. Peçeneqlərin Kul//Kol tayfası haqqında da mənbələrdə istənilən qədər məlumat var. Belə olan surətdə həmin Ağrıdağ vadisində yerləşən Qulucan oykonimi nə üçün Qul//Kul etnonimi ilə izah olunmamalıdır. Biz bu yozumda israrlıyıq və oykonimin ikinci komponentini (-can) isə türk dillərində yer, məkan bildirən **kan//can** hissəciyi ilə izah edirik. Yəni: **Kol//Qul tayfasının yurdu, kəndi.**

1894-cü ildə kənddə 75 nəfər, 1905-ci ildə 63 nəfər, 1914-cü ildə 81 nəfər azərbaycanlı yaşamışdır.

1917-1918-ci illərdə erməni təcavüzünə məruz qalan kəndin əhalisi qonşu azərbaycanlı kəndlərinin əhalisi ilə birgə Arazın o

tayına – Türkiyəyə mühacirət etmiş, bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra doğma kəndlərinə dönmüşlər.


1922-ci ildə geri dönənlərin sayı 67 nəfər olmuş, kənd əhalisinin sayı 1931-ci ildə 59 nəfərə qədər azalmışdır. Kənd Seyidkənd sovetliyinə tabe olmuşdur.

1950-ci ildə kəndin əhalisi növbəti dəfə soyqırımına məruz qalmış və bütünlüklə Azərbaycana deportasiya olunmuşlar. Kənd isə ləğv edilərək ərazisi Həbilkənd kəndi bazasında yeni yaradılmış Kalinin sovxoz-qəsəbəsinə verilmişdir. Bir neçə il sonra doğma kəndə geri dönmüş qulucanlılar doğma kəndlərində yaşasalar da, artıq rəsmi sənədlərdə Qulucan adlı kənd mövcud olmamışdır.

* * *

Ağadədə piri Qulucan kəndinin yanında yerləşirdi.

Kənd camaatı əsasən bağçılıq və bostançılıqla məşğul idi. Qarpız becərməkdə qulucanlıların xüsusi səriştəsi vardı.



Ağadədə qəbiristanlığı. 1988-ci ildə erməni millətçiləri tərəfindən yerlə-yeksan edilmişdir.

MEHMANDAR (ŞORLU MEHMANDAR)

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 11 km şimal-qərbdə, Zəngi çayının sağ kənarında kənd.

1948-ci ilə qədər kənddə ancaq Azər türkləri, 1948-ci ildən 1988-ci ilə qədər azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar. 1988-ci ildə kənd bütünlüklə ermənileşdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) kəndin adı Karbi nahiyəsində **Mehmandar kəndi** kimi qeydə alınmışdır. "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsindəki bu kənd iki adla – **Mehmandar Şollu** və **Mehmandarlı** şəklində, İ.Şopendə (1832) **Mehmandar Şollu,** sonrakı statistikalarda (1873, 1886 və s.) **Mehmandar Şorlu** kimi qeydə alınmışdır. Yəni **Şorlu kəndi yaxınlığında Mehmandar kəndi.** Şorlu etnotoponimindən Şorlu Dəmirçi kəndindən danışarkən ətraflı bəhs etmişik.

Kəndin adının Mehmandar şəxs adından yaranması fikri (B.Budaqov, Q.Qeybullayev; S.Mirmahmudova) ilə razılaşmırıq. Öncə ona görə ki, Mehmandar şəxs adı yoxdur, var Mehman şəxs adı. İkincisi, bizcə, toponim **"qonaqsevən", "qonaqsaxlayan"** anlamında farsca **mehman** sözündən və **-dar** şəkilçisindən yaranmışdır. Çox güman ki, kənd qonaqpərvərliyinə görə bu adı almışdır.

"İrəvan əyalətinin icmal dəftəri"ndəki (1728) **Mehmandarlı kəndinin** Qamışlı kəndi (**Sərdarabad rayonu ərazisində düşür** – Ə.Ə.) yaxınlığında yerləşdiyi, **Mustafa** adlı şəxsin timarı olduğu və bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 1.000 ağça gəlir götürdüyü göstərilmişdir. Həmin mənbədə başqa yerdə **Mehmandar Şollu** kimi qeyd olunan bu kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 3.500 ağça gəlir götürdüyü də qeyd olunmuşdur.

1831-ci il siyahıyaalmasında Zəngibasar mahalının bu kəndində 69 təsərrüfatda 406 nəfər (228 kişi, 178 qadın) Azər türkü qeydə alınmışdır.

1873-cü ildə kənd əhalisinin sayı 160 təsərrüfatda 1.573 nəfə-

rə (884 kişi, 689 qadın), 1886-cı ildə 173 təsərrüfatda 1.432 nəfərə (835 kişi, 597 qadın) çatmışdır. Üstəlik, 1873-cü ildə kənddə bir məscid binası da qeydə alınmışdır.

İstər yuxarıdakı statistikadan, istərsə də o vaxtkı iqtisadi məlumatlardan kəndin keçmişdə bölgədə ən böyük kəndlərdən olduğunu söyləmək mümkündür. Belə ki, 1886-cı ildə kəndin 1000,31 desyatin torpaq sahəsi olmuş, onun da 30 desyatinini malikanə torpaqları, 675 desyatinini suvarılan əkin sahələri, 315 desyatinini biçənəklər, 80,31 desyatinini otlaqlar təşkil etmişdir. Həmin vaxt kənddə 1.348 iribuynuzlu, 1.375 xırdabuynuzlu malqara, 212 at, 229 dəvə də qeydə alınmışdır.

Kəndin Alagöz yaylağında, kənddən 45 verst aralıda, 2.167 desyatin ərazini əhatə edən **Təknəliyurd, Gölyurd, Dərəyurd, Taxçayurd, Lilparbulaq yurdu, Qaraçınqılyurd, Altuntaxtyurd, Qalaxlıyurd** və **Qaşyurd** adlı yurd yerləri olmuşdur. Bu yaylaq yerlərindən kənd camaatı qədimdən istifadə etmişdir.

1897-ci ildə kənddə 1.824 nəfər, 1905-ci ildə 1.455 nəfər, 1914-cü ildə 1.632 nəfər Azər türkü yaşamışdır.

1918-ci ildə İrəvan qəzasının digər müsəlman kəndləri kimi, Mehmandar kəndi də erməni daşnaklarının vəhşi hücumlarına məruz qalmış, kənd ermənilər tərəfindən yerlə-yeksan edilmişdir. Sağ qalan əhali Arazın o tayına – Türkiyə ərazisinə pənah aparmışdır.

Bir neçə il kənd xaraba qalmış, yalnız bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra əhalisinin sağ qalan qismi yavaş-yavaş doğma torpaqlara qayıtmaq imkanı əldə etmişdir. 1922-ci ildə kəndə qayıdanların sayı 788 nəfər, 1926-cı ildə 1.010 nəfər, 1931-ci ildə 778 nəfər olmuşdur. Əhali kəndi yenidən bərpa etmiş, təsərrüfatı dirçəltmiş, güzəranlarını yaxşılaşdırmağa başlamışlar. 1930-cu illərdə kənddə kolxoz qurulmuş, 1950-ci illərdə kolxozun bazasında sovxoz yaradılmışdır. Kənddə orta məktəb, mədəniyyət evi, kitabxana, klub, tibb məntəqəsi, rabitə qovşağı və s. sosial və inzibati obyektlər fəaliyyət göstərmişdir.

1940-cı illərdə Çobankərə kəndinin ləğvi ilə əlaqədar bu kəndin camaatı Mehmandar kəndinə köçməyə məcbur edilmişdir.

Mehmandar kənd azərbaycanlılarının növbəti soyqırımı 1948-1949-cu illərdə baş vermiş, qonşu Rəhimabad kəndi ilə Meh-

mandar kəndinin də əhalisi deportasiya olunaraq Azərbaycanın Ağcabədi rayonuna köçürülmüşlər. Lakin düşən ilk fürsətdə onlardan 100-dən çox ailə tədricən geri qayıtmış, doğma kəndlərində məskunlaşmağa çalışmışlar. Amma bu vaxt artıq kənddə "Ermənistanın" Ağin və Artik rayonlarından xeyli erməni gətirilib yerləşdirilmişdi. Ona görə də geri dönənlərin çoxu qonşu Rəhimabad kəndində ev tikib yaşamağa məcbur olmuşlar.

14 yaşında ikən doğma yurddan deportasiya olunan mehmandarlı **Əyyub Əzizovun** köçürülmə ilə bağlı xatirələrindən: **"1948-ci ilin isti iyun ayı idi. Erməni milisləri bizi kənddən zorla çıxardılar. Kənddən axırda mən çıxdım. Bizim yeddi camışımız var idi. Evimizi yük maşınına yığdılar, məni isə, bir ulağımız vardı, ona mindirib, heyvanları qatdılar qabağıma. Beləcə kənddən çıxarıldıq. Bizi köçürüb evlərimizi gəlmə ermənilərə paylaşdırdılar. Həyətyanı sahədə bostan, tərəvəz, çəltik, üzüm əkmişdik, hamısı ermənilərə qaldı. Heç kəsə evinin pulunu belə vermədilər."**

Erməni daşnakları kənddə yaşayan əhalini zaman-zaman sıxışdırıb çıxarmaqla yanaşı, kəndin adını da tədricən tarixdən silməyə çalışmışlar. Belə ki, 1935-ci il yanvarın 3-də kəndin Şorlu Mehmandar adı dəyişdirilərək **Mehmandar,** 1978-ci il yanvarın 25-də isə yenidən dəyişdirilərək **Hovtaşat** qoyulmuşdur.

1988-ci ildə kənd əhalisi sonuncu dəfə soyqırımına məruz qalaraq ermənilərə xas vəhşiliklə sonuncu nəfərinə qədər dədə-baba yurdlarından qovulmuşlar.

Bu hadisələr zamanı Mehmandar kəndindən bütöv bir ailə – dörd nəfər Cəfərovlar amləsi ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir.

* * *

Mehmandar kəndi Çobankərə, Qaraqışlaq, Rəhimabad və Dəmirçi kəndləri ilə qonşuluqda idi və onların əkin sahələrini bir-birindən kiçik arxlar ayırırdı.

Bir vaxtlar Mehmandar və Rəhimabad kəndləri bir sovetlikdə birləşirdi. Sonra Mehmandar, Rəhimabad, Dəmirçi və Qaraqışlaq kəndlərini bir sovetlikdə birləşdirdilər və sovetliyin mərkəzi Qaraqışlaq kəndində yerləşdirildi.

Rəhimabad kəndi kimi, Mehmandar kəndinin də təsərrüfa-

tının əsasını kök və soğan təşkil edirdi. Bu kəndlərdə kökə **zərdə** deyirdilər. Hər iki kənddə keçmişdə həm də dəvəçilikdə məşğul olurdular. Bundan əlavə, Mehmandarda meyvəçilik və heyvandarlıq da inkişaf etmişdi.

Çobankərə də Mehmandar kəndinin yaxınlığında yerləşirdi. Çobankərə kəndi ilə Mehmandar kəndi arasında qədim hamam və 1890-cı illərdə tikilmiş rus-tatar məktəbi vardı. Çobankərə və Mehmandar kəndləri bir qədər dikdə, Rəhimabad kəndi isə düzənlikdə yerləşirdi. Bu üç kənddə ən qədim abidələr **Qaradolaq qəbiristanlığı,** oradakı qəbirüstü və sinədaşı əvəzi **qoç daşları, hamam** və **Hacı Abbas məscidi** idi. Hamamın qoşa gümbəzi, xəzinəsi – çimmək üçün girdə, vannasayağı tikililəri onun qədimliyindən xəbər verirdi.

Rza Mustafayev, Mahmud Əzizov, Mövsüm Əsədov, Abbasəli Əsədov, Məhəmməd Əliyev, İbrahim Cəfərov ayrı-ayrı vaxtlarda kənddə kolxoz sədri işləmişlər. Müəllimlərdən **Əkbər müəllimin, Zəkiyyə müəllimənin, Cabbar müəllimin, Ələşrəf müəllimin** və b. adları yaddaşlarda qalıb.

Mehmandar kəndindəki **Hacı Abbas məscidi** isə təxminən 1840-cı illərdə Qırmızı kərpicdən tikilmişdi və onu tikdirən şəxsin – Hacı Abbasın adını daşıyırdı. Deyilənə görə, bu məscidi Türkiyədən və İrandan gətirilmiş ustalar tikmişdilər. Həmin məscid Zəngibasar və Üçkilsə mahallarının bütün müsəlman əhalisinin ibadətgahına çevrilmişdi.

1915-1918-ci illər erməni-müsəlman qırğınları zamanı kəndin müsəlman əhalisi ən təhlükəli vaxtlarda arvad-uşağı Hacı Abbas məscidinə yığar, əlitüfəngli kişilər isə səhərə qədər məscidin ətrafında keşik çəkərdilər.

Mehmandar kəndində bir neçə tayfa yaşayırdı. Onlardan ən böyüyü **Nəbi uşağı** tayfası, tayfanın ağsaqqalı isə **Məşədi İsa** idi. Məşədi İsanın **Kəblə Mustafa, Abbasqulu, Məşədi Əmir, Hacı Zeynalabdin** kimi qardaşları vardı. **Məşədi Ələsgər, Kəblə Əzim, Tahir Qələndərov** kimi nüfuzlu şəxsiyyətlər də bu tayfadan idilər.

Deyilənə görə, bu tayfa öz başlanğıcını **general İsa bəy Mehmandarovdan** götürmüşdür. O, Yekaterina dövründə çar ordusunda qulluq etmiş, tərxis olunduqdan sonra doğma Mehmandar

kəndinə qayıdıb, burada məskunlaşmış, Nəbi uşağı tayfasının əsasını qoymuşdur.

Nəbi uşağı tayfasının pambıq təmizləyən kustar zavodları (bunlara **cıyrıx** deyirdilər) vardı. Adamlar pambığın tonunu yarım abbasıdan, yunun yüz kilosunu üç qəpikdən bu cıyrıxda təmizlədərdilər. Kollektivləşmə ilə bağlı 1932-ci ildə bu cıyrıx Nəbi uşağının əlindən alınmış, özlərinə isə qolçomaq damğası vurulmuşdu. Sibir sürgünündən yaxa qurtarmaq üçün Kəblə Mustafa bütün tayfanı Arazın o tayına – Türkiyəyə keçirmək qərarına gəlir. Bu məqsədlə onlar əvvəl Araz yaxınlığındakı Çobankərə kəndində qohumlarının evlərinə yığılır, iyulun ortalarında gecə ikən Arazı keçib, Türkiyəyə gedirlər. Arazı keçərkən Kəblə Mustafa ilə oğlu sərhədçilər tərəfindən qətlə yetirilirlər.

Bu vaxt Nəbi uşağı tayfasından Məşədi İsanın oğlu **Məşədi Yusif** İrəvanda mədrəsədə, Hacı Zeynalabdinin oğlu **İbrahim** isə Bakıda Neft-Kimya İnstitutunda oxuyurdular. Həmin hadisədən sonra erməni DTK-sı Məşədi Yusifi həbs edir. İşgəncələrdən təngə gəlmiş Məşədi Yusif 1941-ci ildə könüllü olaraq müharibəyə gedir və 1943-cü ilin martında itkin düşür. Həyat yoldaşı Səkinə xanım üç oğlu ilə Naxçıvana – qardaşları Xəlillə Məmmədin yanına köçür.

İbrahim isə institutu bitirib, uzun illər istehsalatda çalışır, **Acoy İbrahim** kimi tanınır, heç kəs onun Nəbi uşağı tayfasından olduğunu bilmir. 1953-cü ildə o, Azərbaycan Yüngül Sənaye naziri təyin edilir. 1962-ci ildə Bakıda diyircəkli yastıqcıqlar zavoduna direktor göndərilir. 1976-cı ildə dünyasını dəyişir. **Əbey** ləqəbi ilə tanınan qardaşı **Abbasqulu** hazırda Türkiyədə yaşayır.

O vaxtlar Nəbi uşağı tayfasından Türkiyəyə gedənlər İqdır mahalında məskunlaşırlar. Onlardan **Ələkbər, Sadıq** və **Qasım** hazırda İqdır şəhərində yaşayırlar. Kəblə Mustafanın kiçik oğlu **Rəhim** vaxtilə Türkiyədə at çapmaq üzrə dünya çempionu olmuş, hətta bir müddət polis rəisi işləmişdir. Sadığın oğlu **Akyüz** hazırda İstambulda **"Nəbi uşağı şirkəti"nə** başçılıq edir.

Məşədi Yusifin 1938-ci ildə Mehmandar kəndində anadan olan oğlu **Əli Hüseynov** 1956-cı ildə Gəncədə inşaat texnikumunu, 1964-cü ildə GDPİ-nin fizika-riyaziyyat fakültəsini uğurla bitirir, 1969-cu ildə İstehsalat Komplektləşdirmə idarəsinin di-

rektoru vəzifəsinə təyin olunur. 1972-ci ildə Moskva İnşaat Mühəndisləri İnstitutunu bitirir. 1976-cı ildə Gəncə Tikinti Trestinə, 1978-ci ildə isə iki böyük obyektə – Gəncə Dəmir Məmulatı bazasına və Gəncə Topdansatış idarəsinə direktor təyin edilir. Ə.Hüseynov 1998-ci ildə vəfat etmişdir.

Hacı Abbas uşağı tayfasının tarixi isə son iki yüzilə aiddir. XIX yüzilin ilk illərində anadan olub, Şərqi Türkiyədən Mehmandar kəndinə gəlmiş Hacı Abbasın beş oğlu, səkkiz qızı olmuşdur. Onların içərisində **Məşədi Mehdi** adlı oğlunun xalq içərisində böyük nüfuzu olmuş və o, 20 ilədək Mehmandar kəndinin qlavası seçilmişdir. 1915-ci il erməni-müsəlman davası zamanı İrana mühacirət edən qaçqınların Xoy şəhərinə toplaşan böyük bir hissəsini taxılla təmin etmək üçün **Əziz** adlı 26 yaşlı oğlunu Xoy xanının yanında girov qoymuş, sonradan qaytarmaq şərtilə taxıl alıb ac camaata paylamışdır. 1916-cı ildə qaçqınlar doğma yurdlarına qayıtmış, 1918-ci il qırğını zamanı camaat yenidən yer-yurdundan didərgin salınmışdır. Bu illərdə Məşədi Mehdinin digər oğlu **Əkbər** isə minbaşı vəzifəsində erməni daşnaklarına qarşı mərdliklə vuruşmuşdur. Lakin təəssüf ki, 1937-ci il repressiyası Əkbər Məşədi Mehdi oğlundan və onun ailəsindən də yan ötməmiş, onlar qolçomaq adı ilə Qazaxıstana – İssık şəhəri yaxınlığına sürgün olunmuşlar. Əkbərin qardaşı Əziz isə öz ailəsi ilə Şəmkir rayonunun Dəllər qəsəbəsinə köçmüş, yalnız 1940-cı ildə qardaşı Əkbəri İssıkda tapmışdır. Qazaxıstanda ağır güzəran keçirən Əkbərin beş oğlu, üç qızı olmuşdur. Kiçik oğlu **Sabir** Qazaxıstandan Türkmənbaşıya gələrək ticarətlə məşğul olmuş, xeyriyyəçilik etmişdir. Hazırda Bakı şəhərində yaşayır.

Mehmandar kəndinin tayfalarından biri də **Xangəldi uşağı** tayfası idi. Tayfa nümayəndələrindən biri – **Xangəldioğlu Məhəmməd** kənd sovetinin sədri, **Xangəldioğlu İsmayıl** isə kənddəki yeddiillik məktəbdə müəllim işləmişdir.

Bir zamanlar "Amerikanın səsi" radiosunun Azərbaycan şöbəsində çalışan **Qulu Mehmandarlı** Nəbi uşağı soyundan Tahir Qələndərovun oğludur.

Həbib Allahyar oğlu Mahmudov 1966-cı ildə Eçmiədzin rayon qəzetinin bünövrəsini qoyanlardan olmuş, qəzetdə əvvəl korrektor, sonra redaktor müavini işləmişdir. 1969-cu ildən Zən-

gibasar rayonunun "Yeni yol" qəzetində fəaliyyətini davam etdirmiş, həmçinin İrəvan kənd təsərrüfatı texnikumunda müəllimlik etmişdir. 1972-ci ildən SSRİ Jurnalistlər Birliyinin üzvüdür. Hazırda Bakı şəhərində yaşayır.

Süleyman Usub oğlu Əliyev 1947-ci ildə Mehmandar kəndində anadan olmuş, Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Sərhəd qoşunlarında kəşfiyyat xidmətində müxtəlif vəzifələrdə işləmişdir. Hazırda istefada olan polkovnikdir.

Mehmandar kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı

Poçt – 1
Əczaxana – 2
Yeməkxana – 1
Kitabxana – 2
Məktəb – 2
X/b mal-qara – 210
İ/b mal-qara – 200
K/t maşınları – 33
Avtobus – 1
Avtomaşınlar (yük, minik) – 14
Məscid – 4
Ambar binaları – 2
Ding və dəyirman – 2
Transformator – 2
Quşçuluq ferması – 2
X/b mal-qara tövləsi – 2
I/b mal-qara tövləsi – 2
Həkim məntəqəsi – 1
Xəstəxana – 2
Uşaq bağçası – 2
İdarə binası – 2
Kino binası – 1
Mədəniyyət evi – 2

KƏNDİN TAYFA VƏ NƏSİL ADLARI

Hacı Abbas uşağı, Nəbi uşağı, Xangəldi uşağı, Kəlba Əziz uşağı, Mahmudlular, Məşədi Mövsüm uşağı, Məşədi Mövla uşağı, Məşədi Kərim uşağı, Məşədi Cabbar uşağı, Qulam uşaqları, Əlişoğlu, Pərkarlılar, Qasım oğlanları, Dəli Həsən uşağı, Məşədi Əhmədlilər, Əmrahlılar, Ciyər Mustafa uşağı, Qamanlar, Kəlba Qasım uşağı, Bədəloğlu, Kəlba Hüseyn uşağı, Hürü uşağı, Mədən oğlu, Qoca uşağı, Məşədi Qurban uşağı, Həmzəlilər, Dövrüş uşağı, Mustafa uşağı, Əli uşağı, Yəhya uşağı, Ağaoğlu Məhəmməd uşağı, Cəfərlilər, Əsədlilər, Qarapaça, Seyidlər və s.

KƏNDİN TOPONİMLƏRİ

Təknəliyurd, Gölyurd, Dərəyurd, Taxçayurd, Lilparbulaq yurdu, Qaraçınqıllıyurd, Altuntaxtyurd, Qalaxlıyurd, Qoşayurd, Qaradolaq qəbiristanlığı.

ƏYYUB TEYMUR OĞLU ƏZİZOV



1934-cü il avqustun 12-də Mehmandar kəndində anadan olmuşdur. Babası Kərbəlayi Əziz kəndin sayılan kişilərindən idi.

Ailələri 1948-ci ildə Azərbaycanın Ağcabədi rayonuna deportasiya olunduğundan Ə.Əzizov orta təhsilini burada Xəlfərəddin kənd məktəbində başa vurmuşdur.

1957-ci ildə Azərbaycan Pedaqoji Universitetini bitirib, 1961-ci ilə kimi Ağcabədi rayonunda kimya müəllimi işləmişdir.

1961-ci ildə Azərbaycan EA Kimya İnstitutunun aspiranturasına daxil olmuş, 1964-1967-ci illərdə həmin institutda baş elmi işçi vəzifəsində çalışmışdır.

1967-ci ildə dissertasiya müdafiə edərək kimya elmləri namizədi alimlik dərəcəsi almışdır.

1969-1971-ci illərdə Bakı Dövlət Universitetinin kimya fakültəsin-

də assistent, 1971-1987-ci illərdə dosent işləmişdir. 1987-ci ildən "Kimyanın tədrisi metodikası" kafedrasının müdiri vəzifəsində çalışır.

Eyni zamanda 1997-ci ildən Azərbaycan Beynəlxalq Universitetində tərbiyə işləri üzrə prorektor, 2001-ci ildən universitetin pediatriya fakültəsinin dekanı vəzifələrində işləyir.

"YUNESKO-nun professoru" adına layiq görülmüşdür. 100-dən artıq elmi-metodiki, 30-a qədər elmi-kütləvi və publisist məqalənin, 5 dərslik və dərs vəsaitinin müəllifidir.

2000-ci il fevralın 11-də Azərbaycan Respublikası prezidentinin fərmanı ilə **Əməkdar müəllim** fəxri adına layiq görülmüşdür.

QASIMOV İSGƏNDƏR VƏLİ OĞLU



1961-ci il dekabrın 27-də Mehmandar kəndində anadan olmuşdur.

1979-cu ildə orta məktəbi, 1990-cı ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir.

1988-1989-cu illərdə Bakı şəhər Bağlar Təsərrüfatının İstismarı və İnkişafı Birliyinin Aqroservis firmasında hüquqşünas, 1989-1992-ci illərdə Bakı şəhəri Sabunçu rayon İcra Hakimiyyətində hüquq məsləhətçisi, 1992-1993-cü illərdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsində baş inspektor, şöbə rəisi, 1993-2000-ci illərdə Azərbaycan Respublikası prokurorluğu orqanlarında müstəntiq, baş müstəntiq və idarənin böyük prokuroru vəzifələrində işləmişdir.

2000-ci il sentyabrın 2-dən Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Xətai rayon məhkəməsinə hakim vəzifəsinə təyin olunmuşdur və hal-hazırda bu vəzifədə işləyir.

Evlidir, bir oğlu var.

MƏRƏKÖYÜT (NORAKOVİT)

Zəngibasar mahalında, İrəvan-Naxçıvan avtomobil yolunun üstündə, Norakovit arxı kənarında, Yengicə kəndi yaxınlığında kənd.

XV yüzilin ortalarına qədər kənddə ancaq Azər türkləri, həmin tarixdən etibarən həm də Türkiyədən gətirilmə ermənilər, 1828-ci ildən sonra isə ancaq ermənilər yaşamışlar.

İrəvan çuxurunda qədimdən mövcud olan kəndin adına **Noraqovit** şəklində XV yüzilə aid bir alqı-satqı sənədində rast gəlirik. Həmin sənədə görə, 1431-ci ildə Üçkilsə (Eçmiədzin) kilsəsinin katolikosu **Qriqor Makulunun** Ağqoyunlu hökmdarı Sultan Yaqubun nümayəndəsi **Əmir Rüstəmdən** 525 min Təbriz dinarına aldığı 7 müsəlman kəndi (Vağarşabad, Əştərək, Bətrinc, Noraqovit, Ağunatun, Kirəcli, Müğni) sırasında, göründüyü kimi, Noraqovit də var.

Kəndin adına bir də İ.Şopendə (1832) Norakovit şəklində rast gəlirik. Sonrakı mənbələrdə də kənd Norakovit kimi verilmişdir.

Kəndin ilkin adı Mərəköyüt olmuş, bu ad mahalın azərbaycanlı əhalisi arasında günümüzə qədər qorunub saxlanmışdır. Norakovit adı isə (**nor** – ermənicə **yeni** deməkdir) Mərəköyüt adının ermənileşdirilmiş formasıdır və **Noraköyüt//Norakovit** şəklində **"Yeni oba", "Yeni kənd"** anlamındadır.

İ.Şopen Zəngibasar mahalının bu kəndində 28 təsərrüfatda 158 nəfər (82 kişi, 76 qadın) "yerli", yəni 1828-ci il Türkmənçay bağlaşmasına qədər burada yaşayan erməni, 84 təsərrüfatda 488 nəfər (264 kişi, 224 qadın) İrandan yenicə köçürülüb gətirilmiş erməni siyahıya almışdır. Üstəlik, İ.Şopen Norakovit kəndində Müqəddəs Qriqorinin adına kilsə olduğu, bu kilsədə Qriqorinin cəsədinin bir hissəsinin – çeçələ barmağının saxlandığı, "yerli rəvayətlərə görə", bu kilsənin XV yüzildə tikilməsi barədə məlumat verir.


1873-cü ilin statistik məlumatlarında kəndin Norakovit arxı kənarında, İrəvan-Naxçıvan poçt yolu üstündə, İrəvandan 10 verst aralıda yerləşdiyi göstərilmiş, kənddə 88 təsərrüfatda 400 nəfər (226 kişi, 174 qadın) erməni əhalisi və XV yüzilə aid, mü-

qəddəs Qriqorinin adını daşıyan kilsə qeydə alınmışdır.

1886-cı ildə kənddə yaşayan ermənilərin sayı 82 təsərrüfatda 362 nəfərə (204 kişi, 158 qadın) qədər azalmışdır.

* * *

Norakovit kəndi ilə Təzəkənd arasında bir dəyirman vardı. Ətraf kəndlərin camaatı bu dəyirmana gələrdilər. Dəyirmanı işlədən su kauçuklu olduğu üçün burada üyüdülən undan bişirilən çörək də həmin qoxunu verirdi. Ona görə də camaat dəyirmanın adını **Qoxulu dəyirman** qoymuşdu.



Rəssam Cabbar Quliyev. Qırmızıtəpədə tarixi abidə

Göygümbət kəndi ilə İrəvan şəhəri arasındakı Qırmızıtəpə adlı yüksəklikdə yerləşən **Şahın qalası** adlı bu qala Şah Abbas tərəfindən tikdirilmişdi. Sovet dövründə qala ermənilər tərəfindən məhv edilmiş, qalanın yerləşdiyi Qırmızıtəpənin özü isə ilbəil şumlanaraq izi itirilmiş, əkin yerinə çevrilmişdi.


MUXTARABAD

Zəngibasar mahalında, Zəngibasar rayonu ərazisində kənd. Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

Vaxtilə Norakovit kənd icması tərkibində mövcud olmuş **Muxtarabad kəndində** 1905-ci ildə 66, 1914-cü ildə 81 nəfər Azərbaycan türkü qeydə alınmışdır.

1918-ci ildə kənd erməni daşnakları tərəfindən dağıdılmış və o vaxtdan xaraba qalmışdır.

Muxtar şəxs adından və yaşayış məntəqəsi anlamında **"abad"** sözündən yaranmışdır.



Rəssam Cabbar Quliyev. Zəngi çayı.

ORUC ADASI

Zəngibasar mahalında, Uluxanlı kəndi yanında kiçik kənd. Kənddə ancaq Azər türkləri yaşamışlar.

Oruc adası kəndinə dair bütün statistik məlumatlar Uluxanlı kəndi ilə bir yerdə və Uluxanlı kəndinin adı altında verilmişdir.

Bölgənin iqtisadi vəziyyətinə dair 1886-cı mlə aid mənbədə isə **Oruc adası** kəndi ilə Hacı Həsən evi kəndi ayrıca kəndlər kimi qeydə alınmışdır. Hər iki kəndin iqtisadi göstəriciləri barədə Uluxanlı kəndindən danışarkən bəhs edəcəyik.

Toponimin etimologiyasına gəldikdə isə, adından da göründüyü kimi, **Oruc** şəxs adından yaranmışdır.

OZANLAR (OZANLI, KƏRƏM)

Zəngibasar mahalında, Zəngi çayının Qarasu çayı ilə qovuşub Araza töküldüyü ərazidə, Sarıcalar kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) kənd İrəvan nahiyəsinin **Uzand kəndi** kimi qeydə alınmışdır. Lakin dəftərin tərtibçiləri, görünür, kəndin adını düzgün oxuya bilməmiş və ona görə də addan sonra sual işarəsi qoymuşlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Gərni nahiyəsinin **Ozanlı kəndi** kimi verilmiş, kəndin **İbrahim Yusif oğlu** adlı şəxsin timarı olduğu və bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürdüyü, üstəlik, kəndin ikinci adının **Kərəm** olduğu göstərilmişdir.

Maraqlıdır ki, elə həmin mənbədə Gərni nahiyəsi ərazisində **Kərəm Məhəmmədli** adlı bir kənd də qeydə alınmışdır. Ozanlı kəndinin ikinci adının Kərəm olması, üstəlik burada qədimdə **Məhəmməd** adlı məşhur aşığın yaşaması, hər iki kəndin illik gəlirinin 3.000 ağça miqdarında göstərilməsi söyləməyə əsas verir ki, bunlar eyni kəndlərdir.

İ.Şopendə (1832) isə kənd **Ozanlar** adı ilə Zəngibasar mahalının xaraba kəndləri siyahısına daxil edilmişdir. Bu, kəndin 1926-1929-cu illər Rusiya-İran, Rusiya-Osmanlı muharibələri zamanı böyük dağıntılara məruz qalmasından irəli gəlirdi.

Sonrakı statistikalarda kəndin adının çəkilməməsi isə onun bir daha bərpa olunmaması və məskunlaşmaması ilə bağlıdır.


1988-ci ilə qədər Sarıcalar kəndinin kənarında, kiçik Qarasu çayının sol sahilindəki böyük bir çölün **Ozanlar** adlanması Ozanlar kəndinin vaxtilə burada yerləşdiyini sübut edir. Bu çöldəki itib-batmaqda olan xarabalıqlar isə onların Ozanlar kəndinin son nişanələri olduğunu söyləməyə əsas verir.

Kəndin adının etimoloji izahı ilə bağlı belə bir fikir mövcuddur ki, **ozan – "aşıq", "xalq müğənnisi"** anlamında olmaq etibarilə həm də elin adıdır (B.Budaqov, Q.Qeybullayev). Təbii ki, bu fikirdə, xüsusilə onun ikinci hissəsində dərin bir həqiqət var. Zəngibasar mahalındakı yaşlı kişilərin vaxtilə Ozanlarda **Aşıq**

Məhəmməd və **Aşıq Musa** adlı məşhur aşıqların yaşadığı barədəki söhbətləri yuxarıdakı izahı möhkəmləndirir.

Lakin biz **ozan//uzan//uzun** komponentli toponimlərin hamısını ucdantutma ozan-aşıq məzmunu ilə izah etməyin tərəfdarı deyilik. Burada **Az, Uz** türk etnonimlərinin mümkünlüyünü nəzərdən qaçırmaq olmaz. Kəndin adının 1590-cı ilə aid mənbədə **Uzan (Uz-lar)** variantında qeydə alınması da bunu təsdiqləyir.

Xatırladırıq ki, vaxtilə Dərəçiçək mahalında (sonralar Axta rayonu ərazisində) Ozanlar kəndi, Qarabağ ərazisində Ozan adlı tayfa, Gəncə şəhərində Ozanlar məhəlləsi mövcud olmuşdur.



Rəssam Cabbar Quliyev. Qarasu çayı.

REYHANLI

Zəngibasar mahalında, Araz çayı ilə Zəngi çayının kəsişdiyi yerdə, Həbilkənd kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

İ.Şopendə (1832) Zəngibasar mahalının **Riqanlı kəndi,** sonrakı mənbələrdə (1873, 1886 və s.) isə **Reyhanlı kəndi** kimi qeydə alınmışdır.

Kənd adını Səlcuq oğuzlarının **Bayat tayfasının Reyhanlı qolunun** adından götürmüşdür. Böyük bir hissəsi (300 çadır) vaxtilə Anadoluda yaşamış bu türk soyunun müəyyən bir qismi də Qərbi Azərbaycan ərazisində məskunlaşmışdır. Xüsusilə İrəvan çuxurunda onlar çoxluq təşkil etmişlər. Vedibasar mahalı ərazisində də eyniadlı kənd mövcud olmuşdur. Vedibasarda Reyhanlı kənd adına hələ 1728-ci ildə "İrəvan əyalətinin icmal dəftəri"ndə rast gəlirik.

İ.Şopendə (1832) Zəngibasar mahalının Reyhanlı kəndində 12 təsərrüfatda 80 nəfər (49 kişi, 31 qadın) Azər türkü qeydə alınmışdır. Kəndin **Qazi Molla Kərimin** tiyul kəndi olduğu da həmin mənbədə göstərilmişdir.

1873-cü ilin statistik məlumatlarında Zəngi çayı kənarında yerləşdirilən kənddə 31 təsərrüfatda 277 nəfər (147 kişi, 130 qadın) Azər türkünün yaşadığı göstərilmişdir.

1886-cı ildə kənd əhalisinin sayı 56 təsərrüfatda 308 nəfərə (165 kişi, 143 qadın) çatmışdır.

Kənddə 1905-ci ildə 405 nəfər, 1914-cü ildə 599 nəfər Azər türkü yaşamışdır.

1918-ci ildə Zəngibasar mahalının başqa kəndləri kimi, Reyhanlı kəndi də erməni-daşnak təcavüzünə məruz qalmış, kənd dağıdılmış, talan edilmiş, yandırılmış, əhalisinin bir hissəsi erməni qaniçənləri tərəfindən qətlə yetirilmiş, sağ qalanlar elindən-obasından didərgin salınmışlar.

Sovet hakimiyyətinin ilk illərində Vətənə qayıtmaq imkanı qazanmış reyhanlılar kəndi yenidən bərpa etmişlər. 1931-ci ildə onların sayı cəmi 133 nəfər olmuşdur. Tezliklə kənd sürətlə inkişaf etmiş, böyümüş, əhalisinin sayı artıb, 57 təsərrüfatda 442

nəfərə çatmışdır. Lakin onlar da 1948-1953-cü illər deportasiyasının qurbanı olaraq Azərbaycana qovulmuşlar.

İ.Stalinin ölümündən sonra reyhanlıların əksəriyyəti geri qayıtmışlar. Lakin bu vaxt Reyhanlı bir kənd kimi ləğv edilmiş, adamlar öz kəndlərində yaşasalar da, əslində Həbilkənd (Kalinin) qəsəbəsinin sakinləri sayılmışlar.

Kənd əhalisinin sonrakı taleyi isə 1988-ci il soyqırımı ilə nəticələnmiş, onlar öz ata-baba yurdlarından növbəti dəfə qəddarlıqla qovulmuşlar.

* * *

Zəngi çayının solunda Muğanlı kəndi, onunla üzbəüz çayın sağında isə **Təkevlər** adlı ərazi yerləşirdi. Reyhanlı kəndi ilə Təkevlər arasında iri qobu var idi. Adından da göründüyü kimi, burada hansısa yaşayış məntəqəsi yerləşmişdir. Araşdırmalarımız həmin məntəqənin tarixi **Terekevit//Təkavert//Təkevlər** kəndi olduğunu söyləməyə əsas verir. Zəngibasar mahalının Təkevlər kəndindən danışarkən bu bərədə ətraflı bəhs edəcəyik.

RƏHİMABAD

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 9 km şimal-qərbdə, Zəngi çayının sağ kənarında, Mehmandar kəndindən 2 km-lik məsafədə, İrəvan-Üçkilsə yolunun kənarında kənd.

1948-1949-cu illər deportasiyasına qədər kənddə ancaq Azər türkləri, həmin tarixdən etibarən həm də ermənilər yaşamışlar. 1988-ci ildə kənd bütünlüklə ermənileşdirilmişdir.

Kənd öz adını **Rəhim** şəxs adından və yaşayış məntəqəsi mənasında işlənən **"abad"** sözündən almışdır.

İ.Şopendə (1832) **Rəhimabad və ya Molla Bədəl və ya Səfiabad** adı ilə Sərdarabad mahalının xaraba kəndləri siyahısına daxil edilmişdir. Əslində, bunların hər üçü bir-birinə yaxın məsafədə yerləşən ayrı-ayrı kəndlərdir.

1886-cı ilin statistik məlumatlarında İrəvan qəzasının Hacı Eylas nahiyəsinin Şorlu-Dəmirçi kənd icması tərkibində qeydə alınan Rəhimabad kəndində 15 təsərrüfatda 113 nəfər (65 kişi, 48 qadın) Azər türkünün yaşdığı göstərilmişdir.

Kənd əhalisinin sayı 1897-ci ildə 183 nəfər, 1905-ci ildə 131 nəfər, 1914-cü ildə 223 nəfər təşkil etmişdir.

1918-ci ildə kənd erməni təcavüzünün qurbanı olmuş, dağıdılmış, əhalisinin bir hissəsi qətlə yetirilmiş, sağ qalanlar Araz çayını keçib, Türkiyəyə pənah aparmışlar.

Sovet hakimiyyətinin ilk illərində Vətənə qayıtmaq imkanı əldə etmiş rəhimabadlılardan 1922-ci ildə 152 nəfər geri dönmüşdür. 1926-cı ildə onların sayı 242 nəfər, 1931-ci ildə isə 188 nəfər olmuşdur.

1949-cu ildə kəndin bütün əhalisi zorla Azərbaycana deportasiya olunmuş, lakin bir neçə il sonra onların bir hissəsi – təxminən 20-30 ailə Vətənə qayıtmışlar.

Lakin sonrakı illərdə də azərbaycanlıların sıxışdırılması ara verməmişdir. Məsələn, 1964-cü ildə yenidən baş qaldırmağa başlayan erməni millətçiləri Rəhimabadda ağır seyid Mir Qafar ağanın evini talayıb dağıtmış, özünü də öldürmüşdülər.

1988-ci ildə kənd növbəti dəfə ermənilər tərəfindən soyqırı-

mına məruz qalmış, orada yaşayan 100-dən çox azərbaycanlı ailəsi vəhşicəsinə qovularaq doğma yurdlarından çıxarılmışlar.

* * *

Bir vaxtlar Mehmandar kəndi ilə bir sovetlikdə birləşən Rəhimabad kəndi sonralar Mehmandar, Dəmirçi və Qaraqışlaq kəndləri ilə bir sovetliyə daxil edilmiş, sovetliyin mərkəzi Qaraqışlaq kəndində yerləşmişdir.

Mehmandar kəndi kimi, Rəhimabad kəndinin də təsərrüfatında kök mühüm yer tuturdu. Bu kəndlərdə kökə **zərdə** deyirdilər. Hər iki kəndin camaatı keçmişdə həm də dəvəçiliklə məşğul olmuşlar.

1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİNDƏ HƏLAK OLANLAR


1. Məcid M.Abbas oğlu Cəfərov
2. M.İbrahim Hacı İsmayıl oğlu Cəfərov
3. Abbas Hümbət oğlu Cəlilov
4. İbrahim İsmayıl oğlu Həsənov
5. Yəhya İsmayıl oğlu Həsənov
6. Salman İsmayıl oğlu Əhmədov
7. Məmmədhüseyn Həmid oğlu Hüseynov
8. Məmmədbağır M.Musa oğlu Qasımov
9. Məhəmməd M.Əli oğlu Əliyev
10. Əli Zeynalabdin oğlu Rəhimov
11. Əmir Zeynalabdin oğlu Rəhimov
12. Əhəd Həsən oğlu Əbdülov
13. Bağır Əhməd oğlu Hüseynov
14. İsmayıl Əhməd oğlu Hüseynov
15. Əziz M.Əkbər oğlu Əbdülov
16. Həsən Rza oğlu Məmmədov
17. Muxtar Xəlil oğlu Əliyev
18. Süleyman Cəmil oğlu Məmmədov
19. Təvəkkül M.Cabbar oğlu Hüseynov
20. İsmayıl Əhməd oğlu Məmmədov

RƏNCBƏR (ŞORKƏND)

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 12 km cənub-qərbdə, Araz və Böyük Qarasu çaylarının arasında kənd.

Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

İ.Şopendə (1832) kənd Sərdarabad mahalının **Cəfər xan Rəşbəri** (**yəni *Rəncbəri*** – Ə.Ə.) **kəndi,** sonrakı mənbələrdə (1873, 1886 və s.) sadəcə **Rəncbər kəndi** kimi qeydə alınmışdır. D.D. Paqirevin "Qafqazın beşverstlik xəritəsinin əlifba göstəricisi"ndə (1913) isə kənd Eçmiədzin qəzasının **Şorkənd kəndi** kimi verilmişdir.



Rəncbər kəndinin ümumi görünüşü

Kəndin adının farscadan dilimizə keçən **rəncbər** sözündən yaranması özlüyündə aydındır. **Rəncbər** sözünün isə dilimizdə iki anlamı var: 1) **əkinçi, taxıl əkib-becərən;** 2) **zəhmətkeş, əməkçi kəndli.** Kəndin adının ilkin variantında Cəfər xan Rəşbəri olması isə onun **Cəfər xan** adlı mülkədara mənsub olmasını təsdiq edir.

Maraqlıdır ki, o qədər də geniş arealda yayılmayan bu toponimə Azərbaycanda Pirsaat çayı kənarında da rast gəlirik. Qobustanla Hacıqabul arasında yerləşən **Rəncbər** adlı kəndin əhalisinin əsasən Qərbi Azərbaycandan gələnlər olması onların tarixin hansı mərhələsindəsə Zəngibasarın Rənjcbər kəndindən köçməsi, bu toponimi özləri ilə gətirməsi ehtimalını doğurur. Lakin ən təəccüblüsü odur ki, bu kənddə **Pir Hüseyn məqbərəsi** deyilən bir ziyarətgah var və xatırladırıq ki, Çuxur-Səəd bəylərbəyi Əmir Səidin oğlu **Pir Hüseynin** də məqbərəsi Zəngibasar maha-

lındadır. Həm də həmin məqbərənin yerləşdiyi Cəfərəbad kəndi Rəncbər kəndindən o qədər də uzaq məsafədə deyil.

Gürcüstanın Bolnisi rayonu ərazisində də **Rəncbər** adlı kənd var.

Kəndin Şorkənd adına gəldikdə isə, heç şübhəsiz, bu, peçeneq türklərinin məşhur **Şor//Çor** tayfasının adı ilə bağlıdır. Bunu qonşuluqda bu etnonimlə bağlı daha bir neçə toponimin (Şorlu Mehmandar, Böyük Şorlu Dəmirçi, Kiçik Şorlu Dəmirçi) mövcudluğu da təsdiq edir.

Şor//Çor etnonimi və onun yayılma arealı barədə Zəngibasar rayonunun Şorlu kəndindən danışarkən ətraflı bəhs edəcəyik.

İ.Şopendə İrəvan xanlığı ərazisində xaraba kəndlər siyahısına daxil edilməsi Türkiyə sərhədində yerləşən bu kəndin 1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalmasına dəlalət edir. Çox güman ki, kəndin sağ qalmış əhalisi o vaxt Araz çayını keçərək Türkiyəyə mühacirət etmişlər.

"Zaqafqaziya diyarının dövlət kəndlilərinin iqtisadi vəziyyətinə dair materiallar" (1886) toplusunda isə Rəncbər kəndinin Şorkənd adı ilə yenidən məskunlaşması barədə maraqlı məlumat var. Mənbədə göstərilir ki, 1840-cı ildə Gərnibasar mahalının Aşağı Quylasar kəndinin azərbaycanlı əhalisi bu kənddən boş torpaqlara köçürülmüş, burada Şorkənd adlı kənd salmışlar. Bununla belə, 1873-cü ilin statistik məlumatlarında Eçmiədzin qəzasının Abaran çayı boyu ərazisində, Araz çayı ilə Böyük Qarasu çayları arasında yerləşdiyi göstərilən bu kənd yenə də əvvəlki – Rəncbər adı ilə qeydə alınmış və burada 36 təsərrüfatda 197 nəfər (111 kişi, 86 qadın) Azərbaycan türkünün yaşadığı göstərilmişdir.

1886-cı ildə Rəncbər kəndində 39 təsərrüfatda 230 nəfər (132 kişi, 98 qadın) 1897-ci ildə 405 nəfər, 1905-ci ildə 226 nəfər, 1914-cü ildə 431 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci ildə bölgədə erməni daşnaklarının törətdikləri vəhşiliklər nəticəsində Rəncbər kəndi də yerlə-yeksan edilmiş, əhalisinin bir hissəsi ermənilər tərəfindən qətlə yetirilmiş, sağ qalanlar Araz çayını keçərək əvvəl Türkiyəyə, sonra İrana sığınmışlar.

Sovet hakimiyyətinin ilk illərində kəndin qaçqın əhalisi doğma kəndlərinə qayıtmaq fürsətindən istifadə edərək kəndə dönmüş, özlərinə təzədən ev-eşik düzəltməyə başlamışlar. 1922-ci ildə geri

dönənlərin sayı cəmi 133 nəfər, 1926-cı ildə 204 nəfər olmuşdur. 1931-ci ildə kənddə 389 nəfər azərbaycanlı siyahıya alınmışdır.

Kənd əhalisi sayının bu artımı 1930-cu ildə bura Sərdarabad rayonunun azərbaycanlı kəndlərindən sıxışdırılıb çıxarılmış bir çox ailələrin köçüb gəlməsi ilə bağlı olmuşdur.

1952-ci il aprelin 4-də kəndin təxminən yarısı Azərbaycana deportasiya olunmuş, Sabirabad rayonunun Həşimxanlı kəndində məskunlaşmışlar. Lakin bir müddət sonra köçürülən ailələrin əksəriyyəti geri qayıtmış, Sabirabad rayonunda təqribən 20 ailə qalmışdır.

1950-ci illərdə Rəncbər kənd kolxozunun bazasında tərəvəzçilik sovxozu yaradılmış, kənd iqtisadi cəhətdən xeyli inkişaf etmiş, müxtəlif sosial obyektlər tikilib istifadəyə verilmişdir.

Lakin kənd camaatının xoş güzəranı uzun sürməmiş, 1988-ci ildə kəndin əhalisi növbəti dəfə soyqırımına məruz qalmış və həmin il noyabrın 28-də erməni millətçiləri tərəfindən işgəncələrlə kənddən qovulub çıxarılmışlar. Bu vaxt kənddə 500 təsərrüfatda 3.000 nəfərə qədər azərbaycanlı yaşayırdı. Həmin hadisələr zamanı kənddən dörd nəfər – **Bağır Nağıyev, Əli Rüstəmov, Yasin Cəfərov** və **Qurban Əzizov** erməni vəhşiliyinin qurbanı olmuşlar.

Rəncbər camaatı Azərbaycanın bir sıra şəhər və kəndlərində məskunlaşmışlar. Hazırda onlar əsasən Bakı və Gəncə şəhərlərində, Sabirabadın Həşimxanlı, Yevlağin Səmədabad, Bərdənin Kətəlparaq kəndlərində və s. yaşayırlar.

* * *

Kəndin girəcəyində **Qarasu körpüsünün** üstündə hərbi gözətçi məntəqəsi yerləşirdi. Burada pasportları yoxladıqdan sonra adamları kəndə buraxırdılar. Kəndin torpaqlarının bir hissəsi tikanlı məftillər arasında qaldığından kənd adamlarını əkin sahələrinə də pasport və siyahı ilə buraxırdılar. Ümumi qaydaya görə axşam saat 6-da hamı nəzarət zonasını tərk etməli idi. Yaz əkini kompaniyası zamanı bu qayda traktorçulara şamil edilmirdi.

1930-cu illərdə qonşu Sərdarabad rayonunun Armudlu, Arzak, Molla Bədəl, Kərimarx, Zeyvə və s. azərbaycanlı kəndlərindən qovulan onlarla ailənin gəlib Araz qırağında yerləşdiyi üçün xey-

li təhlükəsiz olan Rəncbər kəndində məskunlaşması nəticəsində kənd xeyli böyümüş və burada ayrıca kənd sovetliyi, kolxoz təsərrüfatı fəaliyyət göstərmişdir.

Rəncbər kəndi ilə üzbəüz Qarasu çayının əks tərəfində Həsənli kəndi yerləşirdi ki, 1949-cu ildə bu kənd ləğv olunub, Rəncbər kəndinə birləşmişdi.

Mir Yusif ağa ocağı Rəncbər kənd camaatının inam yeri idi. Kənd qəbiristanlığında Mir Yusif ağanın qəbri vardı, bu qəbir ocağa – adamların ibadət yerinə çevrilmişdi. Niyyəti olanlar bu ocağı ziyarətə gələr, kənddə and içəndə Mir Yusif ağanın cəddinə and içərdilər. Mir Yusif ağanın **Mama bacı, Mir İslam, Xədicə bəyim** adlı üç övladı vardı. Ocağın kənddə varisi **Mama bacı** idi. İndi isə bu ənənəni **Mir İslam** davam etdirir. Uzun müddət Rəncbər kənd orta məktəbinin direktoru olmuş Mir İslam indi Bakı şəhər Binəqədi rayonunun təhsil sistemində, oğlu **Mir Əli** isə səhiyyə sistemində məsul vəzifədə çalışır.

Seyidağa Muxtarov və arvadı **Sura bəyim** də kəndin sayılan seyidlərindən idilər. Hər ikisi Rəncbər kənd qəbiristanlığında dəfn olunmuşdular. Övladları **Zəroş bəyim** və **Şaman bəyim** hazırda Bakı şəhərində yaşayırlar. Nəslin davamçısı **Zəroş bəyim Seyidağa qızıdır.**

Mirzə Hüseyn, Nəcəf Nəcəfov, Əli Novruzov, İbo Heydərov, Qara Cəfərov, Adil Mustafayev, Oruc Allahverdiyev, Əliyəddin Səfərov ayrı-ayrı vaxtlarda kənd sovetinin sədri işləmişlər. Onlardan **Əliyəddin Səfərov** kəndin sonuncu (1986-1988-ci illərdə) sovet sədri olmuşdur.

Qulu Şirzad oğlu Qasımov kəndin ağsaqqallarından idi. 1913-cü ildə Sərdarabad rayonunun Armudlu kəndində anadan olmuş, sonralar bir çox Armudlu kənd sakinləıri kimi, onlar da Rəncbər kəndində məskunlaşmışlar. "Sovet Ermənistanı" qəzetində şerləri çap edilmişdir. Oğlu **Şamil Qulu oğlu Qasımov** 1977-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirmiş, Rəncbər kənd orta məktəbində idmanı tədris etmişdir. Onun yetirmələrindən **Nəsib Əliyev** dünya çempionu, **Aftandil Bayramov** isə Azərbaycanın futbol üzrə olimpiya yığma komandasının kapitanı olmuşlar.

Qulu Əli oğlu Məmmədov 1928-ci ildə Rəncbər kəndində

anadan olmuş, 1954-cü ildə Bakıda Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsini bitirmişdir. 1954-cü ildən Sabirabad rayonunun Həşimxanlı kəndində müəllim işləyir. Maarif sahəsindəki xidmətlərinə görə "Əməkdə fərqlənməyə görə" medalı, "Şərəf Nişanı" ordeni ilə təltif edilmiş, Azərbaycan SSR və SSRİ maarif əlaçısı, baş müəllim, əməkdar müəllim adlarına layiq görülmüşdür.



ƏLƏKBƏR KƏRİM OĞLU ƏLƏKBƏROV əslən Sərdarabad rayonunun Kərimarxı kəndindən idi, 1928-ci ildə burada anadan olmuş, az sonra ailələri Rəncbər kəndinə köçmüşdü.

Ə.Ələkbərov kənd təsərrüfatı texnikumunun mexanizasiya fakültəsini bitirmiş, öz əməksevərliyi, bacarığı ilə rayonun ən adlı-sanlı mexanizatoru kimi tanınmışdı. Kolxozda mexanik vəzifəsində çalışan Ə.Ələkbərov bir sıra səmərələşdirici təklif və ixtiranın müəllifi kimi də tanınmış, bütün bu xidmətlərinə görə Sovet hökumətinin ən ali mükafatlarından olan **Lenin ordeni** ilə təltif edilmiş, Qərbi Azərbaycanda bu ali mükafatı alan ilk azərbaycanlı olmuşdur.

Ə.Ələkbərov öz yüksək şəxsi keyfiyyətləri ilə də kənddə böyük hörmət qazanmış, həqiqi el ağsaqqalı kimi tanınmışdı.

1988-ci il hadisələri zamanı bütün həmkəndliləri kimi, o da doğma yurdu tərk etməyə məcbur olmuş, Bakı şəhərində məskunlaşmış, bir neçə il sonra burada da dünyasını dəyişmişdir.


Ə.Ələkbərov el-obasını sevən ləyaqətli övladlar böyütmüşdür. Oğlanlarından **general-leytenant Əsgər Ələkbərov** haqqında kitabda ayrıca bəhs edilmişdir.

Abbas İsgəndər oğlu Məmmədov isə əslən Sərdarabad mahalının Armudlu kəndindən idi, 1913-cü ildə həmin kənddə anadan olmuş, 1931-ci ildə köçüb, Rəncbər kəndində məskunlaşmışdı. A.Məmmədov öz bacarığı və qabiliyyəti ilə kənd camaatının hörmətini qazanmış, kənddə bir sıra vəzifələrdə çalışmış, kənd kolxozuna sədrlik etmişdi.

Böyük Vətən müharibəsinin iştirakçısı olan A.Məmmədov döyüş şücaətinə görə bir sıra orden və medallarla da təltif edilmişdi.

On iki övlad atası olmuş, övladlarının hamısına ali təhsil vermiş, 1985-ci ildə Bakı şəhərində vəfat etmişdir

Vəli Qarayev, Nəcəf Nəcəfov, Qulu Hüseynov, Oruc Allahverdiyev, Həsən Babayev, Abbas Məmmədov, Məmməd Məmmədov, Əli Nəbiyev, Arif Hüseynov, Qurban Əzizov isə müxtəlif vaxtlarda kənddə kolxoz sədri, sovxoz direktoru işləmişlər.



QURBAN TAHİR OĞLU ƏZİZOV kəndin sonuncu (1986-1988-ci illərdə) sovxoz direktoru olmuş, 1988-ci il hadisələri zamanı kənd camaatının və rayonun digər kəndlərindən qovulub, Rəncbər kəndinə sığınmış Zəngibasar əhalisinin təhlükəsizliyinin təmin edilməsində və onların erməni mühasirəsindən sağ-salamat çıxarılmasında onun böyük xidməti olmuşdur. Lakin təəssüf ki, bu qeyrətli vətən oğlu dünyadan vaxtsız köçmüş, 1988-ci ildə aldığı sarsıntılar nəticəsində 1990-cı il fevralın 19-da Bakıda vəfat etmişdir.

Rəncbər kəndində 1930-cu illərdə yeddiillik məktəb fəaliyyət göstərmiş, həmin məktəb sonralar səkkizilliyə, 1970-ci illərdə isə orta məktəbə çevrilmişdir. Yeni tipli orta məktəb binası sovxoz direktoru **Abbas Məmmədovun** təşəbbüsü ilə tikilib, 1975-ci ildə istifadəyə verilmiş, əvvəllər orta təhsilini Uluxanlı məktəbində davam etdirən şagirdlər həmin vaxtdan təhsillərini doğma kəndlərində tamamlamağa başlamışlar.

Fatma müəllimə (Aşağı Necilidən), **Qaybalı Hüseynov, Oruc Allahverdiyev, Mirismayıl Allahverdiyev, Salman Cəfərov, Adil Hüseynov, İslam Yaqubov** müxtəlif vaxtlarda Rəncbər məktəbinin direktoru olmuşlar.

Qasım Hüseyn oğlu Məmmədov 1924-cü ildə Rəncbər kəndində anadan olmuş, 1942-ci ildə İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunu, 1951-ci ildə Naxçıvanda Müəllimlər İnstitutunu, 1965-ci ildə Bakıda Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini

bitirmiş, uzun illər – 1952-ci ildən 1988-ci ilədək Rəncbər kənd məktəbində müəllim işləmişdir. Dörd övladı, doqquz nəvəsi var. Qızları **Məhəbbət, Nəzakət, Xədicə** müəllimə, oğlu **Məhəmməd** isə 3 saylı xəstəxanada travmatologiya şöbəsinin müdiri işləyirlər.

Rüstəm Məsim oğlu Hüseynov 1942-ci ildə Rəncbər kəndində anadan olmuş, 1966-cı ildə İrəvan Pedaqoji İnstitutunu bitirmiş, həmin vaxtdan 1988-ci ilə qədər pedaqoji işlə məşğul olmuşdur. Hazırda Bakı şəhər Binəqədi rayon 115 saylı məktəbdə müəllim işləyir.

Hələ 1938-ci ildə kənddə xəstəxana açılmışdır. Elə o vaxtlardan başlayaraq kəndin torpaqlarında 20-yə qədər artezian quyusu qazılmışdı ki, bu da əkin sahələrinin suvarılmasında böyük rol oynayırdı.

Rəncbər kəndindən hərbdə və hüquq-mühafizə orqanlarında xeyli zabit çalışır. Polkovnik **Nazim Cavad oğlu Qafarov** Dövlət Yol Polisində alay komandiri, polkovnik **Vaqif Əli oğlu Əsgərov** Nərimanov RPŞ-də mühafizə rəisi vəzifələrində çalışırlar. Polkovnik-leytenant **Tofiq Kazım oğlu Mansurov** Bakı şəhər Baş Polis İdarəsində şöbə rəisi idi, 2001-ci ildə dünyasını dəyişmişdir. Mayor **Əfqan Məmməd oğlu Məmmədov** Hərbi Prokurorluqda, polkovnik-leytenant **Vaqif Vəli oğlu Musayev** (Qorki ali hərbi məktəbini bitirib), baş leytenant **Səbuhi Eldar oğlu Sultanov** orduda qulluq edirlər.



Adil Rəhim oğlu Mustafayev 1930-cu ildə Rəncbər kəndində anadan olmuş, uzun müddət – 33 il fasiləsiz olaraq kənd sovetində işləmişdir. Onun 5 ilini sovet sədri, qalanını sovetliyin katibi olmuşdur. Qızı **SƏLTƏNƏT MUSTAFAYEVA** Daxili İşlər Orqanlarında çalışır. Hazırda DİN Təhqiqat İdarəsində ərizə və şikayətlər dəftərxanasının rəisi, polis kapitanıdır.

Məmməd Qarayev bir vaxtlar uzun müddət Azərbaycanın məhkəmə orqanlarında mühüm vəzifələrdə (rayonda məhkəmə sədri, Bakıda Kollegiya sədri və s.) çalışıb.

Kəndin yetirmələri sırasında onun alim ziyalıları xüsusi yer tutur. Onlardan filologiya elmləri doktoru, professor **Fərhad**

Fərhadov, psixologiya elmləri namizədi, dosent **Ziyəddin Orucov,** fəlsəfə elmləri namizədi **Əbdül Babayev** və b.-nın adlarını fəxrlə çəkə bilərik.

Rəncbər kəndinin yetirmələri sırasında **Tariyel Əli oğlu Nağıyevin** də öz yeri var. O, 1962-ci ildə Rəncbər kəndində anadan olmuş, 1979-cu ildə Rəncbər kənd orta məktəbini, 1995-ci ildə Repin adına Sankt-Peterburq Dövlət Rəssamlıq Akademiyasının memarlıq fakültəsini bitirmişdir. 1997-ci ildən Azərbaycan Dövlət Memarlıq-Mühəndislik Universitetində memar-dizayn kafedrasında müəllim işləyir. T.Nağıyevin 8 rəsm əsəri Londonda, 4 əsəri İsraildə, digər rəsm əsərləri isə Yaponiya, Almaniya, Finlandiya, Çin, Hollandiya, Fransa, Türkiyə, İran və dünyanın bir çox digər ölkələrində, Rusiyanın bir sıra şəhərlərində şəxsi kolleksiyalarda saxlanılır.

Aftandil Ələsgər oğlu Bayramov 1977-ci ildə Rəncbər kəndində anadan olmuş, erkən yaşlarından futbola meyl etmiş, 1994-2001-ci illərdə "İnşaatçı", "Neftçi", "Dinamo" futbol klublarında oynamış, 1997-2000-ci illərdə Olimpiya milli yığma futbol komandasının kapitanı olmuşdur. 2001-ci ildən polis orqanlarında çalışır, polis baş leytenantıdır.

Nəsib Nizami oğlu Əliyev 1978-ci ildə Rəncbər kəndində anadan olmuş, Bakıxanov qəsəbəsindəki Respublika Olimpiya Ehtiyat Məktəbində təhsil almış, yunan-roma güləşi üzrə dəfələrlə Azərbaycan çempionu olmuşdur. 1996-cı ildə Polşada gənclər arasında Dünya çempionu olmuşdur. Elə həmin il Bolqarıstanda, 1998-ci ildə Albaniyada keçirilən Avropa çempionatlarında bürünc mükafatlara layiq görülmüşdür. Azərbaycan İdman Akademiyasının məzunudur.

KƏNDİN TAYFALARI

Kəndin tayfa və nəsilləri, əsasən, köçüb gəldikləri kəndlərin adları ilə adlandırılırdılar. Yerli əhali isə kəndin ilkin – Şorkənd adı ilə **Şorkəndli** tayfası kimi tanınırdı.

Kənddə aşağıdakı tayfa adlarını qeydə almışıq: Çobankərəli, Şorkəndli, Armudlu, Arzaqlı, Kərimarxlı, Molla Bədəlli, Çarbaxlı, Zeyvəli...

Qoruq, Biçənək, Bağırın yeri, Mirzə Hüseynin yeri, Dəvə balası (yer adı), Qədir bulağı, Qırxbulaq, Bağırın bulağı, Fərruxun bulağı, Ələkbər bulağı, Qarasu körpüsü...

Rəncbər kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı

Poçt – 1
Əczaxana – 1
Yeməkxana – 1
Kitabxana – 1
Məktəb – 1
X/b mal-qara – 190
İ/b mal-qara – 120
K/t maşınları – 20
Avtobus – 1
Avtomaşınlar (yük, minik) – 10
Məscid – 1
Ambar binaları – 2
Ding və dəyirman – 1
Transformator – 1
Quşçuluq ferması – 1
X/b mal-qara tövləsi – 3
İ/b mal-qara tövləsi – 2
Həkim məntəqəsi – 1
Xəstəxana – 1
Uşaq bağçası – 1
İdarə binası – 1
Kino binası – 1
Mədəniyyət evi – 1

FƏRHAD QULAM OĞLU FƏRHADOV



1919-cu il sentyabrın 27-də Rəncbər kəndində anadan olmuşdur.

Atası Qulam müəllim əslən Üçkilsənin Molla Bədəlli kəndindən idi. İrəvan gimnaziyasını bitirdikdən sonra Zəngibasar mahalının Qaraqışlaq və Haçaparaq kəndlərində müəllimlik etmişdi.

1921-ci ildə qaçqınlıqdan qayıtdıqdan sonra ailə İrəvan şəhərinə köçür və F.Fərhadov da ilk təhsilini burada görkəmli pedaqoq Haşım bəy Nərimanbəyovun məktəbində alır.

İrəvan Pedaqoji Texnikumunu fərqlənmə diplomu ilə bitirən F.Fərhadov ali təhsil almaq üçün Bakıya göndərilir. 1941-ci ildə Azərbaycan Pedaqoji İnstitutunu bitirib, əvvəl texnikumda, sonra institutda dərs deyir.

1942-1943-cü illərdə müharibədə iştirak edir, yaralanıb Səmərqəndə göndərilir, pedaqoji texnikumda hərbi işlər üzrə direktor vəzifəsində çalışır, sonra İrəvana qayıdıb, burada pedaqoji texnikumda işləyir, 1944-cü ildən İrəvan Pedaqoji İnstitutunda dərs deyir. 1945-ci ildə İrvanda "Qədim və orta əsrlər ədəbiyyatına dair oçerklər" kitabı nəşr olunur.


1948-ci ildə Qərbi Azərbaycandan əhalinin deportasiyası ilə bağlı F.Fərhadov da Bakı şəhərinə köçür və APİ-də əvvəl baş müəllim, sonra dekan müavini vəzifələrində çalışır.

1953-cü ildə MDU-da "Koroğlu" dastanının erməni versiyası" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmlər namizədi alimlik dərəcəsi alır. Qayıdıb APİ-də dekan vəzifəsində fəaliyyətini davam etdirir. Elə həmin il "Klassik ədəbiyyatda tarixilik prinsipi" əsəri nəşr olunur.

1968-ci ildə Bakıda "Koroğlunun Zaqafqaziya versiyası" mövzusunda doktorluq dissertasiyası müdafiə edir.

Professor F.Fərhadaov APİ-də 20 il kafedra müdiri, 17 il dekan vəzifələrində işləmiş, 20-yə qədər aspirant və doktorantın elmi rəhbəri olmuşdur.

TOFİQ KAZIM OĞLU MANSUROV



1939-cu il aprelin 10-da Rəncbər kəndində anadan olmuşdur.

1961-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmiş, 1961-1964-cü illərdə tarix müəllimi işləmiş, 1964-1989-cu illərdə Daxili İşlər Orqanlarında çalışmışdır. Əvvəl bir müddət DİN pasport xidmətində işləyən T.Mansurov sonra xeyli vaxt Bakı şəhər Yasamal rayonunda pasport şöbəsinin rəisi, daha sonra Bakı Baş Polis İdarəsi pasport şöbəsinin rəis müavini olmuş, polkovnik rütbəsində təqaüdə çıxmışdır.

Tofiq Mansurov 2002-ci il yanvarın 16-da vəfat etmişdir.



Oğlu **FAİQ MANSUROV** atasının yolu ilə gedərək DİO orqanlarında çalışır. O, 1970-ci il yanvarın 6-da Bakı şəhərində anadan olmuş, 1995-ci ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir.

1990-cı ildə Binəqədi rayon məhkəməsində əmək fəaliyyətinə başlayan F.Mansurov 1993-cü ildən DİO sistemində işə başlamışdır və hazırda DİN Suraxanı Rayon Polis İdarəsində əməliyyat müvəkkili vəzifəsində çalışır. Polis kapitanıdır.

Tofiq Mansurovun digər oğlu **Kazım Mansurov** maliyyə sistemində müfəttiş, qızı **İradə xanım** isə səhiyyə sahəsində şöbə rəisi vəzifəsində işləyirlər.

ƏSGƏR ƏLƏKBƏR OĞLU ƏLƏKBƏROV



1954-cü il iyulun 16-da Rəncbər kəndində anadan olmuşdur.

1971-ci ildə orta məktəbi bitirmiş, Bakıya gələrək "Azərdənizneftikinti" Birliyinin 3 saylı Tikinti İdarəsində fəhlə kimi əmək fəaliyyətinə başlamışdır.

1972-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna daxil olmuş, 1977-ci ildə mühəndis-mexanik ixtisası ilə oranı bitirib, işləmək üçün Naxçıvana göndərilmişdir.

1977-1979 illərdə Ordubad rayon Texniki Təminat Birliyində baş mühəndis vəzifəsində işləyən Ə.Ələkbərov 1979-cu ildə Naxçıvan şəhər Komsomol Komitəsində işə dəvət olunmuşdur.

1983-1986-cı illərdə SSRİ DİN-nin Moskva şəhərindəki akademiyasının DİO üçün rəhbər işçilər hazırlayan fakültəsində təhsil alır.

1988-ci ildə Naxçıvan MR DİN-nin müavini vəzifəsinə təyin olunur.

Nazir müavini kimi, səlahəyyətlərindən istifadə edərək həmin ilin noyabr-dekabr aylarında "Ermənistan" ərazisində erməni mühasirəsində qalmış dinc müsəlman əhalinin Naxçıvan ərazisinə daşınıb aparılmasını təşkil və təmin edir. Sonra isə Azərbaycana ermənilərin təcavüzü ilə əlaqədar əldə silah Naxçıvan kəndlərinin müdafiəsində şəxsən iştirak edir.

1992-ci ilin mayında Naxçıvan MR Daxili İşlər naziri təyin olunan Ə.Ələkbərov həmin ilin 4 noyabrına qədər bu vəzifədə ləyaqətlə çalışır. O vaxtkı Azərbaycan rəhbərliyinin qeyri-konstruktiv mövqeyinə görə sonuncu tarixdə istefa verir.

1993-cü ilin fevralında Bakı şəhər Xətai rayon polis idarəsinə qərargah rəisi, 1993-cü ilin iyulunda Qaradağ RPİ-nin rəisi təyin olunur.

1994-cü ilin iyulunda polkovnik Ə.Ələkbərov respublika DİN-nin müavini, Kadrlar İdarəsinin rəisi vəzifəsinə irəli çəkilir.

1995-ci ilin dekabrında respublika prezidentinin fərmanı ilə Əsgər Ələkbərov polis general-mayoru, 2002-ci ilin yanvarında isə polis general-leytenantı rütbələrinə layiq görülmüşdür.

Hazırda respublika DİN-nin müavinidir.

Evlidir, beş övladı var.

İSGƏNDƏR ABBAS OĞLU MƏMMƏDOV



1949-cu ildə Rəncbər kəndində anadan olmuşdur.

1966-cı ildə orta məktəbi, 1975-ci ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsini bitirmişdir.

Ali təhsilini başa vurub, bir müddət Bakı şəhərində işlədikdən sonra doğma rayona qayıtmış, burada konserv zavodunda mühəndis kimi fəaliyyətini davam etdirmişdir. Bir müddət sonra isə Zəngibasar rayonundakı Balıqçılıq sovxozunda mühəndis, rayon təmir-tikinti idarəsində iş icraçısı işləmişdir.

1988-ci il hadisələri zamanı Bakı şəhərinə köçməyə məcbur olmuş və burada əmək fəaliyyətinə 5 saylı təmir-tikinti idarəsində iş icraçısı kimi başlamışdır. Bir qdər sonra gömrük orqanlarında işə keçmiş və rəis vəzifəsində çalışmışdır.

"Rəncbər" kiçik müəssisəsini yaratdıqdan sonra isə həm də xeyriyyəçiliklə məşğul olmuş, qaçqınlara, şəhid ailələrinə, döyüşçü əsgərlərə yardımlar etmişdir.

Hazırda iş adamı kimi fəaliyyət göstərir. İki övladı var.

VAQİF ƏLİ OĞLU ƏSGƏROV



1950-ci il iyunun 23-də Rəncbər kəndində anadan olmuşdur.

1967-ci ildə Zəngibasarda orta məktəbi, 1972-ci ildə Bakıda Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsini bitirmişdir.

1972-1974-cü illərdə sabiq SSRİ-nin Qorki vilayətində həqiqi hərbi xidmətdə olmuş, 1980-ci ildə Orconikidze şəhərində SSRİ Daxili qoşunlarının Ali Hərbi Komandirlər Məktəbini, 1985-ci ildə Qorki Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsini bitirmişdir. 1991-ci iləd̨ək sabiq SSRİ Daxili qoşun hissələrində qulluq etmişdir.

Vətənimizdə müharibə başlandığını gö-


rüb, 1989-ci ildən başlayaraq raportla müxtəlif instansiyalara müraciət etmiş, torpaqlarımızın müdafiəsində iştirak etmək istəyini birdirmiş, böyük çətinliklərlə də olsa, 1991-ci ilin yanvarında bu istəyə nail ola bilmiş və mayor hərbi rütbəsində vətənə qayıtmışdır.

1991-ci ilin yanvarından 1994-cü ilin dekabrına qədər torpaqlarımız uğrunda gedən qanlı döyüşlərdə fəal iştirak etmiş, dəfələrlə rəhbərlik tərəfindən mükafatlandırılmışdır.

1994-cü ilin dekabrından 1996-cı ilin aprelinədək Sabunçu rayon Mühafizə Şöbəsinin rəisi, 1996-cı ilin aprelindən 1997-ci ilin oktyabrınadək alay komandiri vəzifələrində çalışmışdır. 1997-ci iln oktyabrından hal-hazıra kimi Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Mühafizə İdarəsinin Nərimanov rayon Mühafizə şöbəsinin rəisidir.

Polis polkovnikidir, ailəlidir, bir oğlu və bir qızı var.

ƏLİ ƏYYUB OĞLU MEHDİYEV



1951-ci il yanvarın 6-da Rəncbər kəndində anadan olmuşdur.

1963-cü ildə Rəncbər kənd səkkizillik məktəbini, 1965-ci ildə Sumqayıt şəhər 5 saylı orta məktəbi bitirmiş, 1965-ci ildən Sumqayıt şəhərində idmanın sərbəst güləş növü ilə məşğul olmağa başlamış, dəfələrlə şəhər, respubilka və ümumittifaq yarışlarının qalibi və mükafatçısı olmuşdur.

1976-cı ildə SSRİ idman ustası adına layiq görülmüş, sonralar səhhəti ilə əlaqədar olaraq məşqçilik fəaliyyətinə başlamış, 30-a yaxın SSRİ idman ustası, Respublika, SSRİ və Avropa çempionları və bir sıra beynəlxalq yarışların qaliblərini yetişdirmişdir. Respublikanın ən gənc məşqçisi kimi, Ə.Mehdiyev sərbəst güləş üzrə 1984-cü ildə Azərbaycanın Əməkdar məşqçisi adına, SSRİ-nin və Respublikanın bir sıra fəxri fərmanlarına və mükafatlarına layiq görülmüş.

1983-cü ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi Akademiyasını bitirmiş, Təhsil Nazirliyinin təqdimatı ilə Azərbaycan Dövlət Pedaqoji Universitetində yenicə açılmış ibtidai hərbi və fiziki hazırlıq fakültəsində müəllim işləməyə dəvət olunmuşdur.

1994-cü ildə elmi-pedaqoji və təcrübi fəaliyyətinə və həmçinin bir sıra fəxri adlarına görə müstəsna hal kimi müdafiəsiz ona dosent elmi adı verilmişdir. Elə həmin ildən həmin fakültənin fiziki tərbiyənin nəzəri əsasları kafedrasına müdir təyin edilmişdir.

1997-ci ildə dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi almışdır. 40-a yaxın elmi əsərin və bir sıra proqram və kitbların müəllifidir.

Qardaşı **Eyvaz Əyyub oğlu Mehdiyev** Rəncbər kənd orta məktəbinin qabaqcıl müəllimlərindən olmuş, "Sovet Ermənistanı" respublika və "Yeni yol" rayon qəzetlərində şerləri dərc edilmişdir.

MÜNASİB TAĞI OĞLU MUSTAFAYEV



1965-ci ildə Rəncbər kəndində anadan olmuşdur.

1982-ci ildə Rəncbər kənd orta məktəbini, 1991-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin ibtidai hərbi və fiziki hazırlıq fakültəsini bitirmişdir.

1992-ci ilin fevralından Ağdərə cəbhəsində Milli Ordu tərkibində əvvəl rota komandirinin müavini, sonra rota komandiri kimi erməni işğalçılarına qarşı şərəfli döyüş yolu keçmiş, Ağdərə-Goranboy-Gülüstan bölgələrində bir çox kəndlərimizin düşməndən təmizlənməsində şəxsən iştirak etmişdir.

1992-ci ilin dekabrından DİN sistemində əməliyyatçı vəzifəsində işləmişdir.

1996-cı ildən Bakı şəhər Nəsimi rayon polis idarəsində əməldiyyat müvəkkilidir. Polis kapitanıdır.

Azərbaycan Polis Akademiyasının məzunudur.

SARICALAR (CAHANŞADİLLİ)

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 8 km cənub-qərbdə, Araz çayı ilə Zəngi çayı arasında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) kəndin adı Qırxbulaq nahiyəsinin, İ.Şopendə (1832) Zəngibasar mahalının **Sarıcalar kəndi** kimi qeydə alınmışdır. 1873-cü və 1886-cı illərin statistikalarında isə kəndin adı **Saracalar** kimi verilmişdir. Yerli tələffüzdə kəndin adı sadəcə **Sarcalar** şəklindədir.

Biz toponimin orada məskunlaşmış bir nəslin adından yaranması fikri (S.Mirmahmudova) ilə qəti razılaşmırıq. Əslində, kəndin adı Sarıcalardır və Əfşar//Avşar türklərinin **Sarıcalar** tirəsinin adını daşıyır. Əfşarlar isə, bildiyimiz kimi, Qayı türklərinin bir qolu olmuş, IX yüzilədək Qıpçaq çöllərində yaşamış, sonralar səlcuqlarla birlikdə Azərbaycana, Kiçik Asiyaya gəlmiş, burada məskunlaşmışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə bir-birinə bitişik olan Qırxbulaq və Gərni nahiyələrinin hər birində ayrıca bir **Sarıcalar kəndi** qeydə alınmışdır. Qırxbulaq nahiyəsindəki (1728) Sarıcalar kəndinin ikinci adının **Cahanşadilli** olması, kəndin Xersor kəndi yaxınlığında yerləşməsi, kənddə **Məhəmməd Ömər oğlunun** adına olan timardan dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürməsi barədə əlavə məlumat da verilmişdir.

Burada kəndin ikinci adı əslində **Cahan Şadılıdır.** Şadılı tayfası, onun İrəvan çuxurunda məskunlaşması tarixi, bu etnotoponimin Cənubi Qafqazda yayılma arealı və s. barədə bu kitabın Vedibasar mahalına həsr edilmiş 1-ci cildində ətraflı bəhs etmişik.

Gərni nahiyəsindəki Sarıcalar kəndinin isə Gödək Buzavənd kəndi yaxınlığında yerləşdiyi, **Məhəmməd** adlı şəxsin timarı olduğu, bu timar-kənddən dövlətin ildə 3.000 ağça gəlir götürdüyü göstərilmişdir. Bölgədə digər Sarıcalar kəndinin olmaması, onlara dair bilgilərin (hər ikisinin Məhəmməd adlı şəxsə mənsubluğu, gəlirlərinin eyni olması və s.) ehtimal etməyə əsas verir ki, Qırxbulaq və Gərni nahiyələri tərkibində verilmiş bu kəndlər əslində eyni kənddir.

Yeri gəlmişkən, Sarıcalar toponimi Qərbi Azərbaycan ərazisində geniş yayılmışdır. Vaxtilə İrəvan əyalətinin Karbi, Şirakel nahiyələrində də Sarıcalar adlı kəndlər qeydə alınmışdır. 1588-ci ilə aid mənbədə Qarabağda qışlayan Sarıcalı elindən bəhs edilmiş, XIX yüzildə Qarabağda Sarıcalı adlı tayfa qeydə alınmışdır. (B.Budaqov, Q.Qeybullayev). Xatırladırıq ki, Qarabağ xanı Pənahəli xan Cavanşir də bu tayfadan olmuşdur. Azərbaycan Respublikası ərazisində bu gün də Sarıca (Şəki və Qax rayonlarında çöl), Sarıcalar (Saatlı rayonunda kənd), Sarıcalı (Tərtər, Ağcabədi, Ağdam, Cəbrayıl rayonlarında kənd) adlı xeyli toponim var.

İ.Şopendə (1832) **Sarıcalar kəndində** 18 təsərrüfatda 107 nəfər (59 kişi, 48 qadın) müsəlman əhali siyahıya alınmışdır. Kəndin keçmişdə **Sərtib xanla Ələsgər bəyin** tiyulları olduğu, birincisi qaçdıqdan, ikincisi isə rəhmətə getdikdən sonra bu tiyulların ləğv olunduğu da həmin mənbədə göstərilmişdir.

1873-cü ilin statistik məlumatlarında isə Araz çayının yaxınlığında, Zəngi çayının kənarında yerləşdirilən bu kənddə 56 təsərrüfatda 359 nəfər (201 kişi, 158 qadın) Azər türkünün yaşadığı göstərilmiş, kənd mülkədar kəndi kimi qeydə alınmışdır.

1886-cı ildə kənd əhalisinin sayı 70 təsərrüfatda 440 nəfərə (260 kişi, 180 qadın), 1905-ci ildə 638 nəfərə, 1914-cü ildə 811 nəfərə çatmışdır.

1918-ci ildə kənd Andranikin başçılıq etdiyi erməni-daşnak quldur dəstələri tərəfindən dağıdılmış, var-dövləti talan olunub, əhalisinin bir qismi ermənilərə xas qəddərlıqla qətlə yetirilmiş, sağ qalanlar kənddən vəhşicəsinə qovulmuşlar. Kənd bir neçə il xaraba qalmışdır.

Sovet hakimiyyətinin ilk illərində kəndin mühacir əhalisinin az bir hissəsi Vətənə qayıda bilmişdir. Geri qayıdanların sayı 1922-ci ildə 207 nəfər olmuş, 1926-cı ildə 224 nəfərə, 1931-ci ildə 168 nəfərə çatmışdır.

1950-ci ildə kənd əhalisi zorla Azərbaycana deportasiya olunmuş, kənd isə ləğv edilərək qonşu Həbilkəndlə birləşdirilmişdir. Az sonra geri qayıdan sarıcalarlılar doğma kəndlərində yaşasalar da, əslində Həbilkənd, Sarıcalar, Seyidkənd, Reyhanlı və Qulucan kəndlərinin ərazisində yaradılan Kalinin qəsəbə-sovxozunun tərkibində hesab olunmuşlar.

1988-ci ildə kənd əhalisi növbəti dəfə soyqırımına məruz qalaraq doğma yurdlarından qəddarcasına qovulmuşlar.

* * *

Öncə qeyd etmək lazımdır ki, 1940-cı ildə daşqın zamanı qədim Sarıcalar kəndi tamam məhv olmuş, camaatın bir qismi qonşu Sabunçu, digəri isə Reyhanlı kəndlərində məskunlaşmışlar. Sabunçu kəndinin kövşənində müvəqqəti sığınacaq tapanlar bir-iki ay sonra Xarratlı kəndinə köçüb getmişlər. Lakin bir il sonra Sarıcalar camaatı xüsusilə Qaraöynəli tayfasından **Məmmədrəhim** kişinin təşəbbüsü ilə geri qayıtmış, Araz çayı ilə Zəngi çayının qovuşuğunda yerləşən qədim Sarıcalar kəndindən bir qədər şimalda, Reyhanlı kəndi tərəfdə, Kiçik Qarasu çayı kənarında, **Daşdı** adlanan düzdə yeni Sarıcalar kəndi salmışlar. Buna görə də 1940-cı ilə qədərki Sarıcalardan danışanda başa düşülməlidir ki, söhbət qədim Sarıcalardan, 1940-cı ildən sonra isə təzə Sarıcalardan gedir. Əslində bunlar iki müxtəlif kənd yox, azacıq yerdəyişməyə məruz qalmış eyni kənd, eyni camaatdır.

Yeri gəlmişkən, kənd camaatı Daşdı düzünü təsadüfən seçməmişdi. Bu yerdə əvvəllər də kənd olmuşdu, itmiş kəndin xarabalıqları hələ də qalmaqda idi. Araşdırmalarımız təsdiqlədi ki, burada keçmişdə məhz Daşdı adlı kənd olmuşdur. Kəndin yerində **Ramazanın bağı, Bəhramın bağı** adlanan yerlər də vardı.

Bcləliklə, Sarıcalar kəndi Qarasuyun sol sahilində Ozanlar çölü, Qarasuyun başlanğıcında Sefilbənd, qərbdə Seyidkənd kəndi, şərqdə Zənginin solunda Sabunçu kəndi, şimal-şərqdə Gərnibasarın Muğamlı kəndi ilə sərhəd idi.

Qədim Sarıcalar kəndinin və oradakı kənd qəbiristanlığının xarabalıqları 1960-cı illərə qədər qalmaqda idi. 1960-cı illərdə ermənilər onları düzləyib, bu qədim türk yurdunun izini itirdilər.

Yeni Sarıcaların yerləşdiyi Daşdı düzünün cənub-qərbində **Göy-göl** və **Üçgözə** gölləri yerləşirdi. Bu göllərin hesabına yaranmış çayır-çəmənli böyük bir ərazi **Sona yerləri** adlanırdı. Bu yerlər adını burada çoxluq təşkil edən sona quşlardan almışdı. **Qarasu** adlanan kiçik çay da bu göllərdən, **Sefilbənd** və **Gərməliklər** adlanan yerlərdən başlayıb, Zəngi çayına axıb tökülürdü. Qarasu çayının sahilləri sıx ağaclıq idi. Yayda suyu soyuq, qışda

isti olardı. Bu da onun suyunun yeraltı sulardan olması ilə izah oluna bilər. Çayın sol sahilindəki çöl **Ozanlar** adlanırdı.

Üçgözə adlanan göllərə girmək mümkün deyildi, bura çayır-çəmənlikdən başqa həm də bataqlıq idi, göllərin suyu ora girəni burub aparırdı. **Gözələr** – yerdən qaynayıb çıxan təbii bulaqlar yeraltı şirin sular idi.

Qədim Sarıcalar bağ-bağçalı kənd idisə, yeni Sarıcalar əsasən çayır-çəmənli kənd idi, çoxlu nanəli-yarpızlı bulaqları vardı.

Seyidkənd kəndindən başlayıb Qarasuya qədər uzanan **Gilan kanalı** çəkiləndən sonra çayır-çəmənli Sona yerləri qurudulmuş, əkin sahəsinə çevrilmişdi. Kəndin maraqlı çöl-biçənək adları vardı: **Küçə, Adıgözəl, Şəpeyri, Abasalı, Tısbağaqıran, Adalar, Qobular, Pud yeri, Palax, Ozanlar.**

Çallıq və **Məsləhət** bulaqları qədim Sarıcaların əsas bulaqları idi. Kəndin camaatı əsasən Zəngi çayının qırağında, kəndin şimal-şərqindəki **Şəmmədin tutu** adlı yerə – iri tut ağacının altına toplanar, ciddi məsələləri müzakirə edərdilər.

Keçmişdə kəndin **Məmmədtağı katda, Nurməmməd kişi, Kəlba Xəlil, Kəlba Məhəmməd, Kəlba İbrahim, Məşədi Qulu, Məşədi Cəlil, Molla Rəsul** kimi nüfuzlu kişiləri olmuşlar.

1918-1919-cu illərdə Qaraöynəli tayfasından **Nurməmməd kişi,** Hacıllardan **Nazik Məmməd, Qotur Cəfər,** Babışdılardan **Keçəl Qasım** və başqaları erməni daşnaklarına qarşı igidliklə vuruşmuşlar. Nurməmməd kişi Vedibasarlı Kərbəlayı İsmayılla dost olmuş və bir müddət onun dəstəsində ermənilərə qarşı döyüşmüşdür.

Sovet hakimiyyətinin ilk illərində **Abuzər Kəlba Xəlil oğlu** uzun illər kənd sovetinin sədri işləyib. Kəndin ilk kolxoz sədri **Sadıq** adlı şəxs olub. **Səməd Ələşrəf oğlu Rəhimov** isə 1930-1940-cı illərdə düz 27 il həmin vaxt bir neçə kəndin birləşmiş kolxozunun sədri vəzifəsində çalışıb, camaat arasında böyük hörmət və nüfuza malik olub. **Pənah Vəliyev, Qurbanəli Məmmədov, Hüseyn Əbdülov** da ayrı-ayrı vaxtlarda kolxoz sədri işləyiblər.

Kəndin din xadimləri sırasında **Molla Rəsulun, Molla İsmayıl Məşədi Əbdül oğlunun, Molla Mahmudun** adlarını xüsusi çəkmək olar. Molla Rəsul kənd mollaxanasında kənd uşaqlarına dərs verib.

Sovet dövründə isə ta 1950-ci ilə qədər kənddə dördillik ibtidai məktəb mövcud olmuşdur.

Sarıcalar məktəbində Uluxanlıdan **Əli Məhərrəm oğlu İsmayılov** 1946-cı ildə məktəb direktoru işləmişdir.

1928-1930-cu illər kolxoz quruculuğu dövründə kəndin Qaraöynəlilər və Babışdılar tayfalarının əksəriyyəti təqiblərdən yaxa qurtararaq həmişəlik Arazın o tayına – İqdıra köçüb getmişlər.

1940-cı il daşqınından sonra Reyhanlı və Sabunçu kəndlərinə müvəqqəti sığınan əhalinin isə bir qismi geri qayıtmadığından 1950-ci ilin payızında cəmi 50-60 evli bu kiçik kənd həmin vaxt Azərbaycana deportasiya olunanda camaat üç ayrı-ayrı rayon – Beyləqan, Xaldan və Əli Bayramlı rayonları arasında bölüşdürülmüş, adamlar bir-birindən aralı səpələnmişlər.

Lakin İ.Stalinin ölümündən sonra – 1954-1959-cu illərdə kəndin əksəriyyət əhalisi geri qayıdaraq doğma kənddə yaşamağa başladılar. Bu vaxt Sarıcalar kəndi artıq rəsmi ləğv edilmişdi və qeyri-rəsmi mövcud idi. Yəni kəndin ayrıca təsərrüfatı, məktəbi, inzibati strukturları var idi. Uşaqlar 1 km aralıdakı qonşu Reyhanlı kəndinə məktəbə gedirdilər. Qəsəbə soveti Həbilkənddə yerləşirdi ki, 1980-ci illərdə bu sovetliyin başında Sarıcalarlı **Əbdüləli Əliyev** dururdu.

Sarıcalar kəndinin camaatı saza-sözə vaqif camaat idi. Kəndin özünün **Aşıq Xəlil, Aşıq Mikayıl, Aşıq Məmmədrəhim** kimi aşıqları vardı.



Kəndin ilk ali təhsilli ziyalısı **İSMAYIL RƏHİMOV** idi. O, 1925-ci ildə Sarıcalar kəndində anadan olmuş, 1945-ci ildə İrəvan Pedaqoji Texnikumunu qurtarmış, elə həmin il İrəvan Pedaqoji İnstitutunun coğrafiya fakültəsinə daxil olmuşdur. 1948-ci ildə Qərbi Azərbaycan ərazisindən azərbaycanlıların deportasiyası ilə əlaqədar İrəvan Pedaqoji İnstitutunun bütün azərbaycanlı tələbələrini də məcburi şəkildə Bakıya – APİ-nin uyğun fakültələrinə köçürmüşlər. İsmayıl müəllim də 1949-cu ildə Bakıda ali təhsilini başa vurmuş, təyinatla Oğuz rayonunun Xaçmaz kənd məktəbinə müəllim göndərilmişdir. 1956-cı ilə qədər burada direktor müavini işləyən İ.Rəhimov sonra Oğuz rayonunun Yaqublu kənd

məktəbinə direktor göndərilmiş, daha sonra Padar kənd internat məktəbinin direktoru vəzifəsinə dəyişilmişdir. 1961-ci ildə o, yenidən doğma kəndə qayıtmış, Həbil kənd ibtidai məktəbinə direktor təyin edilmişdir. Sonradan yeddillik və orta məktəbə çevrilən bu məktəbin 1964-1988-ci illərdə tədris işləri üzrü direktor müavini vəzifəsində çalışmışdır.

İ.Rəhimovlar ailəsi isə 1950-ci ilin payızında Azərbaycanın Xaldan rayonuna deportasiya olunmuş, lakin 1956-cı ildə təzədən geri – Sarıcalara qayıtmışlar.

Kəndin yetirmələri sırasında iqtisad elmləri doktoru **Mail Rəhimovun,** polkovnik-leytenant **Məmmədəli Xəlilovun,** rəssam **Nağdəli Xəlilovun,** kimya elmləri namizədi **Şükür Nəsirovun** və b. adlarını iftixarla çəkmək olar. **Qədir İsmayılov** ali təhsilli hüquqşünas idi.

Nəsir Məmmədrəhim oğlu Yaqubov 1968-ci ildə Gəncə Pedaqoji İnstitutunun ibtidai metodika, 1978-ci ildə tarix fakültələrini bitirmişdir, uzun illərdir pedaqoji fəaliyyətdədir. **"Nəsir Yaqublu"** imzası ilə şerlər yazır.

Kənd camaatının əkin-biçinlə məşğul olanları yayda kənddə qalar, digər hissəsi arvad-uşaqla **Qızılziyarət** dağına yaylağa qalxardılar.

KƏNDİN TAYFALARI

Qaraeynəlilər, Hacıllar, Babışdılar, Məmmədzamanlılar, Şəmeylər.

Məmmədzamanlılardan **İmanuşağı,** Hacıllardan **Mamoşlar** tayfaları törəyib. Kənddə bir neçə gəlmə tayfalar da yaşamışlar: **Qatırçılar** tayfası Sarvanlar kəndindən, **Cənublular** Cənubi Azərbaycandan, **Saraclılar** Türkiyədən gəlmə idilər.

KƏNDİN TOPONİMLƏRİ

Küçə biçənəyi, Adıgözəl, Şəpeyri, Abasalı, Tısbağaqıran, Adalar, Qobular, Pud yeri, Palax, Ozanlar çölü, Qarasu çayı, Zəngi çayı, Araz çayı, Çallıq bulağı, Məsləhət bulağı, Şəmmədin tutu, Gilan kanalı, Ramazanın bağı, Bəhramın bağı, Göygöl, Üçgözə gölü, Sona yerləri, Sefilbənd, Gərməliklər.

1930-1940-CI İLLƏRİN REPRESSİYA QURBANLARI

1. Məmmədtağı katda
2. İlyas (Məmmədzamanlılardan)
3. İsmayıl (Məmmədzamanlılardan)


1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİNDƏ HƏLAK OLANLAR

1. Lətif Məmmədtağı oğlu
2. Qulam Nazik Məmməd oğlu
3. Rəhman Nazik Məmməd oğlu
4. Allahverdi Kəlba Məhəmməd oğlu
5. Əkbər (Məmmədzamanlılardan)
6. Rəsul (Hacıllardan)
7. Səfər Həsən oğlu
8. Qəfər Həsən oğlu
9. Əziz Əhməd oğlu
10. Kərim Baba oğlu
11. Novruz Ramazan oğlu
12. Binnət (Saraclılardan)
13. Bayram
14. Daha bir nəfər Qatırçılar tayfasından (adını dəqiqləşdirə bilmədik)

QARABAĞ MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

1. Koroğlu İsmayıl oğlu Rəhimov (1953, Sarıcalar – 1992, Ağdərə), **Milli Qəhrəman**
2. Elxan Sadıq oğlu Həsənov (1960, Sarıcalar – 1994, Füzuli)
3. Həmid Həmid oğlu Məmmədov (1959, Sarıcalar – 1992, Ağdərə)
4. İlqar Məhəmməd oğlu Nəsirov (1973, Sarıcalar-Sabirabad – 1992, Füzuli)
5. Müşviq Cabbar oğlu İbrahimov (1968, Beyləqan – 1994, Ağdərə)

MAYIL SƏMƏD OĞLU RƏHİMOV



1943-cü il oktyabrın 1-də Sarıcalar kəndində anadan olmuşdur.

Atası Səməd Ələşrəf oğlu Rəhimov Zəngibasar mahalının sayılıb-seçilən şəxsiyyətlərindən olub. 1930-1940-cı illərdə Zəngibasar mahalında bir sıra kolxozlara başçılıq etmişdir. 1950-ci ildə təsərrüfat üzvlərinin əksəriyyəti ilə birlikdə Azərbaycanın Xaldan rayonuna deportasiya olunmuş, Hacılı kəndində məskunlaşmışlar. Orada da kolxoz sədri işləməkdə davam etmişdir. 1956-cı ildə kolxöz sədrliyindən çıxaraq yenidən ata yurdu Sarıcalara qayıtmış, 60-cı illərin əvvəllərində təqaüdə çıxmış, 1980-ci ildə dünyasını dəyişmişdir.

Anası Səhnə Mədət qızı Rəhimova 1955-ci ildə Hacılı kəndində vəfat etmişdir.

Mayıl Rəhimov 1949-cu ildə böyük qardaşı İsmayılın ailəsi ilə birlikdə Oğuz rayonunun Xaçmaz kəndinə köçmüş və orada məktəbə getmişdir. Orta məktəbi qurtardıqdan sonra Azərbaycan (indiki Bakı) Dövlət Universitetinin iqtisad fakültəsinə daxil olmuş, 1963-cü ildə həmin təhsil ocağının 3-cü kursundan orduya çağırılmış və 1966-cı ildə ordudan tərxis olunaraq Universitetin iqtisad fakültəsinin bazasında yaradılmış Xalq Təsərrüfatı İnstitutunda təhsilini davam etdirmişdir.

1966-1985-ci illərdə Azərbaycan Respublikası Dövlət Plan Komitəsində və onun nəzdində olan Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda müxtəlif vəzifələrdə – elmi işçi, bölmə və şöbə müdiri işləmişdir. Elmi fəaliyyətlə məşğul olduğu illərdə eyni zamanda SSRİ Elmlər Akademiyasının Sibir Bölməsində (Novosibirsk şəhərində) qiyabi aspiranturada oxumuş və dissertasiya müdafiə edərək alimlik dərəcəsi almışdır.

Mayıl müəllim 1986-1991-ci illərdə Dövlət Neft Akademiyasının sənaye müəssisəsinin iqtisadiyyatı və idarəetməsi kafedrasında dərs demiş, öz bacarığını mühəndis-iqtisadçı kadrların hazırlanmasına sərf

etmişdir.

1991-ci ildə Azərbaycan Respublikası Prezidentinin Aparatına işə dəvət olunmuş, burada iqtisadiyyatın idarə edilməsinin təşkili şöbəsinə başçılıq etmişdir.

1993-cü ilin may ayında şöbənin bağlanması ilə əlaqədar Milli Banka idarə rəisi vəzifəsinə keçmiş və həmin ilin dekabr ayında Prezident Aparatında iqtisadi siyasət şöbəsi yaradıldıqdan sonra Mayıl Rəhimov yenidən şöbə müdiri vəzifəsinə təyin edilmiş və hazırda da həmin vəzifədə çalışır. Onun Azərbaycan Respublikasında dövlətin iqtisadi siyasətinin formalaşmasında və müxtəlif dövlət əhəmiyyətli iqtisadi proqramların hazırlanmasında xüsusi xidmətləri vardır.

İqtisad elmləri doktoru Mayıl Rəhimov bir çox iqtisadi təhlillərin və proqnozların, 80-dən artıq elmi məqalənin, 3 kitabın, o cümlədən ali təhsil məktəbləri üçün "Beynəlxalq maliyyə" dərsliyinin müəllifidir.

Ailəlidir, iki oğul atasıdır.

NAĞDƏLİ XƏLİL OĞLU XƏLİLOV



1946-cı ildə Sarıcalar kəndində anadan olmuşdur.

1969-1972-ci illərdə Bakıda Ə.Əzimzadə adına rəssamlıq məktəbini, 1980-ci ildə Tiflis Dövlət Rəssamlıq Akademiyasını bitirmişdir.

1984-cü ildən Rəssamlar İttifaqının üzvüdür. 1980-ci ildən respublikada bütün sərgilərdə iştirak etmişdir. 1993-cü ildə Azərbaycan xalqının həmrəylik günü münasibətilə mədəniyyət fondunda fərdi sərgisi keçirilib. 1996-cı ildə 50 illiyi münasibəti ilə Rəssamlar İttifaqı N.Xəlilovun fərdi sərgisini təşkil edib.

N.Xəlilovun əsərləri həmçinin Rusiya, Türkiyə, Ərəbistan, Almaniya və dünyanın başqa yerlərində sərgilərdə nümayiş etdirilmişdir.

MƏMMƏDƏLİ XƏLİL OĞLU XƏLİLOV



1949-cu il martın 21-də Sarıcalar kəndində anadan olmuşdur.

1950-ci ildə ailələri Azərbaycanın indiki Beyləqan rayonunun 5 nömrəli sovxozuna deportasiya olunmuş, 1959-cu ildə geriyə – doğma Sarıcalar kəndinə qayıtmışlar.


1963-cü ildə Zəngibasar rayonunun Reyhanlı kənd səkkizillik məktəbini, 1966-cı ildə Uluxanlı orta məktəbini bitirmişdir.

1968-ci ildən Bakı şəhərinə gələrək L.Şmidt adına maşınqayırma zavodunda fəhlə işləmiş, 1968-1970-ci illərdə Ukraynanın Boqdan Xmelnitski şəhərində hərbi xidmətdə olmuş, ordudan tərxis olunduqdan sonra Bakı şəhərinə qayıdıb, DİO-da polis nəfəri işləmişdir. 1979-cu ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmiş, il yarım Bakı Baş Polis İdarəsinin istintaq şöbəsində təcrübə keçdikdən sonra 1981-1986-cı illərdə orada müstəntiq, 1986-1994-cü illərdə isə Bakı şəhər Binəqədi rayon polis idarəsinin istintaq şöbəsində baş müstəntiq işləmişdir.

1994-cü ilin sentyabr ayından hal-hazıra kimi Azərbaycan Respublikası DİN-nin Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinin istintaq şöbəsində rəis müavini vəzifəsində çalışır. Polis polkovnik-leytenantıdır.

1999-cu ildə "Duyğular", 2001-ci ildə isə "Zəngibasar harayı" adlı şer kitabları nəşr olunmuşdur.

KOROĞLU İSMAYIL OĞLU RƏHİMOV



1953-cü il oktyabrın 31-də Oğuz rayonunun Xaçmaz kəndində anadan olmuşdur.

1961-ci ildə valideynləri ilə dədə-baba yurdu olan Sarıcalar kəndinə qayıtmışlar.

Koroğlu Həbilkənd orta məktəbini bitirib, Bakıya gələrək Azərbaycan Neft və Kimya İnstitutuna daxil olmuş, hərbi xidmətə çağırılmış, Almaniya Demokratik Respublikasında qulluq etmiş, ordudan qayıdıb, ali təhsilini başa vurmuşdur.


1992-ci il martın 17-də Koroğlu Azərbaycan Milli Ordusu sıralarına yazılmış, leytenant rütbəsi ilə bölük komandiri təyin olunmuş, qısa vaxtda Qarabağ döyüşlərinin qəhrəmanına çevrilmiş, Goranboy kəndlərinin erməni silahlılarından təmizlənməsində əsl şücaət göstərmişdir.

Koroğlunun komandiri olduğu bölük daha sonra Ağdərənin neçə-neçə kəndinin ermənilərdən azad edilməsi uğrunda cəsarətlə döyüşmüş, bu döyüşlərin birində Koroğlu Rəhimov qəhrəmancasına həlak olmuşdur.

Məzarı Bakıda Şəhidlər Xiyabanındadır.

1994-cü il sentyabrın 16-da Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Koroğlu Rəhimova **Azərbaycanın Milli Qəhrəmanı** adı verilmişdir. Bakıdakı küçələrdən biri və həmin küçənin yaxınlığındakı bağ xalqımızın bu qəhrəman oğlunun adını daşıyır. Haqqında çoxlu məqalələr yazılmış, qəhrəmanlığı məktəb dərsliklərinə salınmışdır.

ŞÜKÜR NƏRİMAN OĞLU NƏSİROV



1962-ci il yanvarın 6-da Sarıcalar kəndində anadan olmuşdur.

1979-cu ildə Həbilkənd orta məktəbini, 1985-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunun istilik texnikası fakültəsini fərqlənmə ilə bitirmiş, həmin il təyinatla Xüsusi Tikinti və Quraşdırma Nazirliyinin Bakı "Enerjiquraşdırma" idarəsində usta işləmişdir.

1987-ci ildə Neft və Kimya İnstitunun aspiranturasına daxil olmuş, 1990-cı ildə aspiranturanı bitirib, institutda kiçik elmi işçi vəzifəsinə götürülmüş, 1991-ci ildə elmi işçi vəzifəsinə keçirilmişdir.

1992-ci ildə dissertasiya müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsi almış, 1994-cü ildə böyük elmi işçi vəzifəsinə seçilmişdir.

1995-ci ilin fevralından Azərbaycan Dövlət Neft Akademiyasının "Buxar və qaz turbinləri və istilik elektrik stansiyaları" kafedrasının dosenti, "Neftlərin fizikası və böhran hallarının termodinamikası" ETL-nın böyük elmi işçisidir.


40-dan çox elmi əsərin müəllifidir.

SARVANLAR (ULİYA SARVANLAR)

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 6 km cənub-qərbdə, Zəngi çayının sağ sahilində kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

Mənbələr bu kəndin **Sarvanlar** adı ilə 1501-ci ildən məlum olduğunu təsdiq edir (B.Budaqov, Q.Qeybullayev). "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Zarvancıq kəndi** kimi qeydə alınmış, kəndin Hüseyn Xəlil oğlunun timarı olduğu və bu timardan dövlətin ildə 3.000 ağça gəlir götürdüyü göstərilmişdir. İ.Şopendə (1832) və sonrakı mənbələrdə (1873, 1886 və s.) isə kənd **Uliya Sarvanlar** adı ilə qeydə alınmışdır.



Sarvanlar kəndinin ümumi görünüşü

Göründüyü kimi, kəndin adı iki komponentdən ibarət olmuşdur: Ərəbcə **yuxarı, ("böyük" mənasında da başa düşülə bilər** – Ə.Ə.) anlamında olan **"uliya"** sözündən və **"dəvəçi", "dəvə saxlayan"** mənası bildirən **"sarban"** sözündən. Lakin məlum olduğu kimi, Gəngərli türk tayfasının çoxlu soylarından (Qızıllı, Pirhəsənli, Qarabəylər, Cağatay, Hacılar, Qaradolaqlı, Qaracalar, Əlixanlı və s.) biri də **Sarbanlar** soyudur. Üstəlik, tədqiqatçıların (B.Budaqov, Q.Qeybullayev; S.Mirmahmudova) belə bir fikri ilə razıyıq ki, tayfanın adı dəvəçiliklə əlaqədar olaraq yaranmışdır.

İ.Şopendə (1832) Zəngibasar mahalının Uliya Sarvanlar kəndində 28 təsərrüfatda 153 nəfər (86 kişi, 67 qadın) müsəlman əhalinin yaşadığı göstərilmişdir.

1873-cü ilin statistik məlumatlarında Zəngi çayı kənarında

yerləşdirilən kənddə əhalinin sayı 110 təsərrüfatda 970 nəfərə (516 kişi, 454 qadın) çatmışdır. Həmçinin kənddə bir məscid də qeydə alınmışdır.

1886-cı ildə kənddə 156 təsərrüfatda 1.024 nəfər (590 kişi, 434 qadın) Azər türkü yaşamışdır.

Uliya Sarvanlar kəndinin **Ağmanqan yaylağında,** kənddən 60 verst aralıda, 125 desyatin ərazini əhatə edən **Bulaqlıyurd** adlı yaylaq yeri olmuşdur. Bu yaylaq yerindən kənd camaatı qədim-dən istifadə etmişdir.

Kənd əhalisinin sayı 1905-ci ildə 1.465 nəfərə, 1914-cü ildə 1.910 nəfərə çatmışdır.

1918-ci ildə kənd erməni daşnaklarının aramsız hücumları nəticəsində dağıdılmış; talan edilmiş, əhalisinin bir hissəsi qətlə yetirilmiş, sağ qalanlar kənddən qovulmuşlar. Əhali Türkiyə və İran ərazilərinə mühacirət etmişdir.

Sovet hakimiyyətinin ilk illərində kəndin qaçqın əhalisinin az bir qismi Vətənə qayıda bilmiş, 1922-ci ildə onların sayı 372 nəfər, 1926-cı ildə 418 nəfər, 1931-ci ildə 404 nəfər olmuşdur. Onlar dağıdılmış evlərini bərpa etmiş, təzədən özləri üçün gün-güzəran düzəltmişlər.

1950-ci illərdə kənd kolxozunun bazasında tərəvəzçilik sov-xozu yaradılmış, kənddə orta məktəb, tibb məntəqəsi, kitabxana, klub və s. sosial obyektlər fəaliyyət göstərmişdir.

1988-ci ildə Qərbi Azərbaycan türklərinin növbəti soyqırımı za-manı kənd əhalisinin bütün var-dövləti əllərindən alınaraq, vəh-şicəsinə qovulmuşlar. Bu hadisələr zamanı Sarvanlar kəndindən iki nəfər – **Əliyev Abbas Mürsəl oğlu** və **Abbasov Bəxtiyar Mə-həmməd oğlu** ermənilər tərəfindən qəddarlıqla qətlə yetirilmişlər.

Kəndin əvvəlki **Uliya Sarvanlar** adı Sovet dövründə rəsmi sənədlərdə sadəcə **Sarvanlar** kimi qeydə alınmış və kəndin Sar-vanlar rəsmi adı isə 1991-ci il aprelin 19-da dəyişdirilərək **Sis** qoyulmuşdur.

* * *

Sarvanlar kəndinin üst hissəsindən İrəvan-Gümrü dəmiryol xətti keçirdi.

Sarvanlar kəndi üç çayın (Araz, Böyük Qarasu, Zəngi) qovuşu-

ğunda yerləşirdi. Kənddən Aşağı Neciliyə Zəngi çayı üzərindən **Yeddilərlə Qarağac** arasında **Ərzənli** adlanan körpü vardı. Zəngibasar mahalından bu körpü vasitəsilə Sarvanlar kəndinə keçənlər burada dayanar, uzaq yol üçün yığılar, karvana qoşular, yola çıxar, Xaraba Kolanı tərəfdən Arazı keçib Türkiyəyə gedərdilər. Ona görə də bura Arazdan keçən yolun dayaq yeri hesab olunurdu. Deyilənə görə, kənd Sarvanlar adını da məhz buradan almışdır.

Kənd ərazisində beş qəbiristanlıq mövcud olmuşdur. Onlardan biri Ərzənli körpüsünün yanında, digəri Qara Şor deyilən yerdə, üçüncüsü Dəmirçi kanalının yanında (burada çoxlu qoç başdaşıları vardı), dördüncüsü "Ocaq" ziyarətgahının yanında, beşincisi Qarasuyun kənarında yerləşirdi.

Kəndin XIX yüzil tarixində **Şeyx Əbdüləlinin** xüsusi yeri var. Onu **Çılpaq Axund** da adlandırırdılar. O, Xoy şəhərindən gəlmişdi, Sarvanlar kəndində mollaxanada kənd uşaqlarının dini təhsili ilə məşğul olurdu.

1918-ci ilə qədər kəndin qlavası Vəli olduğundan hamı onu **Qlava Vəli** deyə çağırırdı. O, camaata qayğı göstərən, ağsaqqallıq edən şəxs idi. 1918-ci ildə bütün Sarvanlar camaatı kimi, Qlava Vəlinin ailəsi də Türkiyəyə mühacirət edib. Bölgədə Sovet hökuməti qurulduqdan sonra kənd camaatı ilə birgə onlar da kəndə qayıtmışlar. Lakin tezliklə Sovet hakimiyyətinin mahiyyətini dərk edən Qlava Vəli ailəsi ilə bir yerdə Arazı keçərək gizlicə Türkiyəyə getmiş, İqdırda yaşamışdır.

Kənddəki **Qara Pirim ocağı** və **Soybulaq** adamların inam yeri idi. **Qara Pirim ocağının** qabağında yulğun ağacı vardı, onu qıranda qan axırmış. Sultan adlı bir kişi bu yulğunun budağını qırıb gətirir evə, baxır ki, ağacdan qan axır, aparır molla yanına, molla deyir ki, apar qoy yerinə, sən böyük ziyan çəkəcəksən. Az sonra kişinin Qəmər adlı qızı təndirə düşüb yanır. Özü isə müharibəyə gedib, bir daha qayıtmır.

Soybulaq kənddə Qəfər kişinin həyətində yerləşirdi. Həmin bulaqda bir balıq varmış, balığın da burnunda qızıl. Kənddə İsmayıl adlı (camaat Bambo İsmayıl deyərmiş) bir kişi olub. Bu kişi balığı vurub, qızıl balığın burnundan düşüb. Kişi bunu götürüb aparıb evə. Sonra mollaya aparıb, əhvalatı danışıb. Molla deyib ki, sənə böyük bədbəxtlik üz verəcək. Çox çəkmir ki, həmin nə-

sildən hamı qırılır. Məsmə adlı bircə qız qalır.

Ağbulaq bulağı Eynal kişinin evinin yanında yerləşirdi. Deyilənə görə, bu bulağa pis niyyətlə gələnin ağzı-gözü əyilərdi. **Xan bulağı** Cəlil kişinin evinin yanında, **Ərik bağçası bulağı** Namaz kişinin evinin yaxınlığında, **Bulaq** Kəlba İbrahimin evinin qarşısında yerləşirdi.

Sovet hakimiyyətindən əvvəl kəndin ilk ziyalılarından olan **Məmmədəli Nəsir oğlu Qəhrəmanov** Uluxanlı məktəbində Cəlil Məmmədquluzadədən təhsil almışdı.

Keçmişdə kəndin **Qənbər, Tanrıverdi, Sadıq** kimi məşhur qaçaqları, **Məhərrəm, Arıq Həşim, Musa kişi, Cəfər, Bala bəy, Müseyib, Qurbanəli, Naxırçı Abbas** kimi el pəhləvanları, **Abo kişi** (sınıqçı), **Xanım arvad** (sınıqçı, türkəçarəçi), **Sadıq Sadıqov** (türkəçarəçi), **Matan** (sonsuzluq və s. xəstəliklərin türkəçarə ilə müalicəsi) kimi xalq təbibləri vardı.

Xeyrən arvad, Səkinə arvad kənddə xeyriyyəçiliklə məşğul idilər. **Xeyrən arvad** körpü, ziyarətgah, artezian, yol çəkdirmiş, **Səkinə arvad** artezian quyusu qazdırmışdı. **Hacı Ələkbər** öz hesabına Zəngi üstündəki Ərzənli körpüsünü tikdirmişdi.

Repressiya illərində kəndin nufuzlu və varlı şəxsiyyətləri həbs edilərək sürgünə göndərilmiş, yaxud da təqiblərdən yaxa qurtarmaq üçün köçüb həmişəlik Türkiyəyə getmişlər. Məsələn, **Şeyx Məhəmməd** nüfuzlu din xadimi idi, Xoy şəhərində ruhani təhsil almışdı, İrəvanda Göy məscidin və Uluxanlı məscidinin baş mollası olmuşdu. 1937-ci ildə Qazaxıstana sürgün edildi.

Məmmədəli bəy həbs edilərək, zindanda öldürülmüş, heç meyidi də sahiblərinə verilməmişdi.

Kərbəlayi İbrahimin 500 baş qoyunu, 20 baş iribuynuzlu mal-qarası, 6 kəli, 60 ha torpaq sahəsi vardı. 1937-ci ildə Qazaxıstana sürgün etdilər.

Vəli qlava, Tanrıverdi, Qənbər Sadıqov Arazı keçib Türkiyəyə getdilər.

1941-1945-ci illərdə Sarvanlar kəndindən 100-dən çox kişi cəbhəyə aparıldı, onların yarıya qədəri döyüşlərdə həlak oldu.

1948-1953-cü illər deportasiyası Zəngibasar rayonunun başqa kəndləri kimi, Sarvanlar kəndindən də yan ötməmiş, 1952-ci ilin mayında kəndin bütün əhalisi zorla Azərbaycana – Sabirabad ra-

yonunun Pokrovka və b. kəndlərinə, Saatlı rayonuna köçürülmüşdür. 1953-1959-cu illərdə sarvanlıların, demək olar ki, hamısı geriyə qayıtmışlar.

Süleyman Abbas oğlu Sadıqov 1939-1947-ci illərdə Sarvanlar kənd kolxozunun sədri olmuşdur.


Yaqub Hüseyn oğlu Yaqubov 1930-1939-cu illərdə kənd sovetinin sədri, 1939-1947-ci illərdə RPK-nin katibi, 1947-1951-ci illərdə kolxoz sədri, 1951-1957-ci illərdə Sabirabad rayonunda Pokrovka kolxozunun sədr müavini, 1957-1958-ci illərdə təzədən Sarvanlar kolxozunun sədri işləmişdir.

Sultan Əsgərov 1957-1958-ci illərdə kənddə kolxoz sədri, **Əli Məmmədov** ayrı-ayrı vaxtlarda kolxoz sədri və sovet sədri, **İslam Yaqubov** 1975-1977-ci illərdə sovxoz direktoru vəzifələrində çalışmışlar.

Kəndin Böyük Vətən müharibəsindən əvvəlki ziyalılarından **Hüseyn Əhmədov, Məhərrəm Sadıqov** rayon rəhbərliyində məsul vəzifələrdə çalışmışlar.

Dadaş Sadıqov Basarkeçər rayon milis şöbəsinin rəisi, Amasiya rayonunun prokuroru, "Ermənistan SSR" Ali məhkəməsinin üzvü vəzifələrində işləmiş, 1947-ci ildə Azərbaycanın Şəmkir rayonuna köçmüş, uzun illər Leninkənd kəndində kolxoz sədri olmuşdur.

Qasım İsmayılov 1968-1988-ci illərdə poçt şöbəsinin müdiri, **Telman Abbasov** 1967-1982-ci illərdə İrəvan kənd təsərrüfatı texnikumunun müəllimi işləmişlər.



İSMAYIL KƏRİM OĞLU QULİYEV 1932-ci ildə Sarvanlar kəndində anadan olmuş, 1947-ci ildə İrəvan kənd təsərrüfatı texnikumunu, 1958-ci ildə Gəncə Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir. 1968-1985-ci illərdə Sarvanlar, Yuxarı Necili, Rəncbər sovxozlarında direktor vəzifələrində çalışmış, "Qırmızı Əmək Bayrağı" ordeni və bir sıra medallarla təltif edilmişdir.

1985-1988-ci illərdə Dəmirçi sovxoz-texnikumunda direktor müavini işləyirdi.

1988-ci ildən Bakıda yaşayır.

Həyat yoldaşı **Ceyran Rza qızı Tahirova** 1956-cı ildə Gəncə Kənd Təsərrüfatı İnstitutunu bitirmiş və həmin ildən Dəmirçi, Sarvanlar kəndlərində müxtəlif vəzifələrdə çalışmışdır. Sarvanlar kənd orta məktəbində uzun illər kimya-biologiya fənlərini tədris etmiş, 1982-ci ildə "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür.

Ümumiyyətlə, Sarvanlar kəndində ilk rəsmi məktəb binası 1932-ci ildə **Yaqub Hüseyn oğlu Yaqubov** tərəfindən tikilmişdir. Əvvəllər ibtidai, sonra yeddiillik olan bu məktəb 1964-cü ildə səkkizillik, 1975-ci ildə isə orta məktəbə çevrilmişdir. 1932-1951-ci illərdə **İslam Yaqub oğlu Yaqubov,** 1976-1978-ci illərdə **Əli Rəcəb oğlu Rzayev,** 1978-1986-cı illərdə **Məmməd Nəsir oğlu Məmmədov,** 1986-1988-ci illərdə **Əsgər Əkbər oğlu Əliyev** məktəb direktoru olmuşlar.

Kəndin ilk müəllimləri sırasında **Vəli Əsgərovun,** haçaparaqlı **İsmayıl müəllimin,** qaraqışlaqlı **Ramazan müəllimin,** milliyyətcə kürd **Bala müəllimin** adlarını çəkmək olar. 1940-1950-ci illərdə kənd məktəbində həmçinin **Qurban Məmmədov, Sura Sadıqova, Maral Sadıqova, Sara Sadıqova, Mürsəl Əliyev, Sadıq Sadıqov, Roza Sadıqova** və b. müəllimlik etmişlər.



ƏSGƏR ƏKBƏR OĞLU ƏLİYEV

1953-cü ildə anadan olmuş, 1970-ci ildə Uluxanlı orta məktəbini, 1975-ci ildə Bakıda ADU-nun kimya fakültəsini bitirmişdir. 1984-1986-cı illərdə Sarvanlar kənd orta məktəbində dərs hissə müdiri, 1986-1988-ci illərdə məktəb direktoru vəzifələrində çalışmışdır.

Sarvanlar kəndinin yetirmələri sırasından sonralar bir çox alim və mütəxəssislər çıxmışlar. Onlardan **Əli Əliyev** fizika elmləri namizədi, **Vaqif Məmmədov** coğrafiya elmləri namizədi, **Sevil Məmmədova** biologiya elmləri namizədi alimlik dərəcələri almışlar. **Məmmədtağı Rzayev** Slavyan Universitetinin müəllimi, **Rəşid Ələkbərov** Azərbaycan MEA Gibernetika İnstitutunun elmi işçisi vəzifələrində çalışır. **Qurban Əliyev** Azərbaycan Təh-

sil Nazirliyində baş mütəxəssis, **Bəxtiyar Əliyev** Əhalinin Sosial Müdafiəsi Nazirliyində ümumi şöbənin müdiri, **Abbas Məmmədov** Ədliyyə Nazirliyində şöbə müdiri, **Xəlil Ələkbərov** təmir-tikinti idarəsinin rəisi işləyir. **Kərəm Sadıqov** polis mayorudur. **İbrahim Əhmədov, Kamran Hüseynov, Kamal Əhmədov, Ruslan Rzayev** respublikamızın idman şərəfini ləyaqətlə qoruyurlar.

Kənd iqtisadiyyatında balıqçılıq xüsusi yer tuturdu. Burada sahəsi 1200 ha olan böyük bir ərazidə balıqçılıq təsərrüfatı yaradılmışdı. Bu ərazidə 7 göl yerləşir, təsərrüfatda ildə 1.600 ton balıq yetişdirilirdi. Bundan 1.000 tonu "Ermənistan" ərazisində reallaşdırılır, 600 tonu Moskvaya göndərilirdi.

Sarvanlardakı balıqçılıq təsərrüfatında **sazan, işğan, belamor, asetrin, tolosqobin, amerikan növü, karp** kimi məşhur balıq növləri yetişdirilirdi. Təkcə 1.000 ədəd ana balıq saxlanırdı. Bu təsərrüfatda 100 nəfər fəhlə-qulluqçu işləyirdi.

Bundan əlavə, Sarvanlar kəndinin iqtisadi həyatında əkinçilik və heyvandarlıq da xüsusi yer tuturdu. Burada 120 ha əkin sahəsi vardı. Bundan təkcə 20 ha taxıl sahəsi idi. Bu böyük ərazidən 2.700 ton məhsul götürülürdü. Sovxoz ildə 180-200 ton ot yemi tədarük edirdi.

Ermənilərin bütün təqib və təzyiqlərinə baxmayaraq, Sarvanlar kənd camaatı 1988-ci ilin noyabrına qədər kəndi tərk etməmişlər. Noyabrın 26-da erməni saqqallıları kəndə gələrək, üç gün ərzində kəndi və rayonu tərk etməyi tələb eləmişlər. Kənd sovetinin sədri **Vaqif Hüseynov** ermənilərin bu özbaşınalığı barədə RPK-nin 1-ci katibi Harutunyana və RİK sədri Gevorkyana məlumat verəndə onlar "gedin Qarabağ komitəsi üzvlərinin tələbinə əməl edin" cavabını vermişdilər. Üç gün sonra, doğrudan da, içərisi "saqqallı"larla dolu 20-25 "İkarus" avtobusu kəndə daxil olmuş, Bakıdan gələn ermənilərlə evlərini dəyişmək bəhanəsi ilə camaatı zorla məktəbin zalına doldurmuşdular. Sonra erməni yaraqlıları üç tərəfdən kəndə soxulub, bütün evləri talan etmişlər. Kənd camaatı isə əsgərlər tərəfindən hərbi maşınlarla Naxçıvan istiqamətinə – Sədərək kəndinə daşınmışlar.

Sarvanlar kəndinin camaatı bu gün əsasən Bakı şəhərində, Tovuz rayonunda, az sayda da Gəncə, Xanlar, Şəmkir, Tərtər,

Sabirabad, Əli Bayramlı və Naxçıvanda məskunlaşmışlar.

Sarvanlılar Azərbaycanın ərazi bütövlüyü uğrunda Qarabağ müharibəsinin də fəal iştirakçısı olmuşlar. Onlarla gənc silaha sarılaraq döyüşlərə atılmış, onlardan üçü – **Loğman, Müşviq** və **Valeh** bu döyüşlərdə qəhrəmanlıqla şəhid olmuşlar.

Sarvanlar kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı

Poçt – 1
Əczaxana – 1
Yeməkxana – 1
Kitabxana – 1
Məktəb – 2
X/b mal-qara – 170
İ/b mal-qara – 100
K/t maşınları – 22
Avtobus – 1
Avtomaşınlar (yük, minik) – 8
Məscid – 1
Ambar binaları – 3
Ding və dəyirman – 1
Transformator – 1
Quşçuluq ferması – 1
X/b mal-qara tövləsi – 2
İ/b mal-qara tövləsi – 2
Həkim məntəqəsi – 1
Xəstəxana – 1
Uşaq bağçası – 1
İdarə binası – 1
Kino binası – 1
Mədəniyyət evi – 1

KƏNDİN TAYFALARI

Araxlılar, Zeynallar, Molla Mətillər, Abuzər uşağı (İbad uşağı), Ağinlər, Kəlba Ələkbərlilər, Qırxlar, Xoylular, Elləzdilər, Dəllək-lər, Salman uşağı, Molla Cəfərlilər, Qatırçılar, Xammməd uşağı.

KƏNDİN TOPONİMLƏRİ

Yer adları: Su çıxmaz, Adalar, Qara Şor, Orta yol, Qəmbər biçənəyi, Anqutdu qobusu, Dik yer, Xatun arxı yeri, Düz biçənək, Cillik, Saatlı, Uluxanlı bucağı, Məmmədxan, Novruz yeri, Qara şor qobusu, Kanal arası, Xədicə bulağı, Əhməd qobusu, Yeddilər, Qancıq ölən, Quş yeyən, Çınqıllıq, Ağanın yeri, Həsənbaba, Daşlı qobu, Selim hasarı, Allahyar, Sarı, Sutökülən, Yolarası, Qulaməlinin qamışlığı, Körpü altı, Gülavdı, Güllüklü, Qarağaclı, Ağacarx, Ərzənli körpüsü.

Yaylaqlar: Qızılziyarət, Üçtəpə, Naltəpə, Dəvəqayası, Ağmanqan, Bəyin yurdu, Teymurun yurdu.

Bulaqlar: Araxlı bulağı, Xan bulağı, Şor-şor bulaq və ya Həcinin bulağı, Şahbulaq, Buzlu bulaq, Qurxbulaq, Qoşabulaq, Qızılbulaq, Ağbulaq, Soybulaq, Qum bulağı, Ərik bağçası bulağı...

Məhlələr: Xutor, Qırxbulaq məhləsi, Əyribucaq, Orta məhlə, Kəmmədin məhləsi, Ağəlilər məhləsi; Kürdlər məhləsi, Ərik məhləsi.

1930-1940-CI İLLƏRİN REPRESSİYA QURBANLARI

1. Şeyxməhəmməd Vəliyev
2. Məmmədəli Məmmədtağı oğlu Rzayev
3. Mərdan Məhərrəmov
4. Kərbəlayı Rəhim İsmayılov
5. Vəli qlava
6. Tanrıverdi
7. Qənbər Sadıqov
8. Kərbəlayi İbrahim İsmayılov
9. Qurban Ağalı oğlu Hüseynov
10. Qara Əliyev

1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİNDƏ HƏLAK OLANLAR


1. Həsən Məmmədəli oğlu Əliyev
2. Əli Qurban oğlu Əliyev
3. Hüseyn Əhmədov
4. Məmmədhüseyn Nağı oğlu Nağıyev
5. Qurban İman oğlu İmanov
6. Qəşəm Aşur oğlu Aşurov
7. Abdulla Cabbar oğlu Abdullayev
8. Həsən Tanrıverdiyev
9. Hüseyn Tanrıverdiyev
10. Rəcəb Əli oğlu Rzayev
11. Məmmədəli Bağır oğlu Quliyev
12. Heydər İman oğlu İmanov
13. Cəfər Nağı oğlu Nağıyev
14. Sultan Ağəli oğlu Əliyev
15. Hüseynalı Sleymanov
16. Abdulla Süleymanov
17. Nəsir Məmməd oğlu Məmmədov
18. Məmmədhüseyn Qocayev
19. Ələkbər Abbas oğlu Ələkbərov
20. Vəli Rza oğlu Əliyev
21. İsgəndər Həşim oğlu Bayramov
22. Əsəd Sadıq oğlu Rzayev
23. Əhməd Əsgər oğlu Əsgərov
24. Cəfər Əli oğlu Əliyev
25. İsa Rza oğlu Rzayev
26. Qasım İsmayıl oğlu Hüseynov
27. Süleyman Hüseynalı oğlu Süleymanov
28, Məhərrəm Qara oğlu Sadıqov
29. Oruc Cabbar oğlu Abdullayev
30. Sadıq Əli oğlu Sadıqov
31. Qədim Qasımov
32. Məhərrəm Muxtar oğlu Qasımov
33. Rəhim İsa oğlu Məmmədov
34. Rəsul Əli oğlu Əliyev
35. Hüseyn Ağəli oğlu Hüseynov

36. İsmayıl Abuzər oğlu Rzayev
37. Abbas Mustafa oğlu Əliyev
38. Cəlil İbrahimov
39. Həşim Quliyev
40. Rəcəbəli Əliyev
41. Qurban Əliyev
42. Rza Qəhrəmanov
43. Məmmədəli Novruzov
44. Seyfəli Əsəd oğlu Rzayev
45. Tanrıverdi Tanrıverdiyev
46. Əli Hüseyn oğlu Qocayev
47. Namaz Hüseyn oğlu Qasımov

QARABAĞ MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

1. Loğman Sabir oğlu Tanrıverdiyev (1969, Sarvanlar-1992, Füzuli)
2. Müşviq Xəlil oğlu Qəhrəmanov (1972, Sarvanlar – 1994, Füzuli)
3. Valeh Ələsgər oğlu Ələkbərov (1966, Sarvanlar – 1994, Füzuli)

ƏLİ ƏKBƏR OĞLU ƏLİYEV



1951-ci ildə Sarvanlar kəndində anadan olmuşdur.

1968-ci ildə M.Əzizbəyov adına Uluxanlı orta məktəbini "gümüş" medalla bitirmiş, 1969-cu ildə Bakıda ADU-nun mexanika-riyaziyyat fakültəsinə daxil olmuş, 1974-cü ildə həmin universitetin tətbiqi riyaziyyat fakültəsini bitirmişdir. Həmin ildən Azərbaycan EA-da çalışan Ə.Əliyev 1983-cü ildə dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır.

1980-ci ildən ADU-da dərs deyən Əli müəllim 1984-cü ildə universitetin tətbiqi riyaziyyat kafedrasına baş müəllim götürülüb.

1993-cü ildə Türkiyənin Ankara Universitetinə ezam olunmuş, 1994-cü il oktyabrın 1-də təsadüfi bir qəza nəticəsində Ankara şəhərində faciəli şəkildə həlak olmuşdur.

RƏHİM ƏLƏKBƏR OĞLU QURBANOV



1951-ci il noyabrın 5-də Sarvanlar kəndində anadan olmuşdur.

1969-cu ildə M.Əzizbəyov adına Uluxanlı orta məktəbini, 1979-cu ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir.

1978-2000-ci illərdə Gəncə şəhər 1 saylı peşə (litsey) məktəbinin direktoru işləmişdir.

2000-ci ilin dekbrından Gəncə Dövlət Universitetinin inzibati və təsərrüfat işləri üzrə prorektoru vəzifəsində çalışır.

Ailəlidir, iki övladı var.

ƏHMƏDOV KAMAL İZZƏT OĞLU



1966-cı ildə Sarvanlar kəndində anadan olmuş, 1977-ci ildən yüngül atletika idman növü ilə məşqul olmağa başlamışdır. İdman ustalığına namizəddir. Respublika yığma komandasının üzvü olmuş, Bakı şəhər məktəblilərinin və Respublika ali məktəblərinin idman Spartakiadalarının, digər Respublika və Bakı şəhər yarışlarının qalibi, bir sıra Ümumittifaq yarışlarının iştirakçısı olmuşdur.

1989-cu ildə Az. DBTİ-nu bitirmiş, 1987-ci ildən Bakı Baş Xalq Təhsili İdarəsinin yüngül atletika Uşaq-Gənclər İdman Məktəbində məşqçi-müəllim, sonra təlimatçı-metodist, tədris hissə müdiri vəzifələrində işləmiş, 1989-cu ildə I dərəcəli hakim, 1995-ci ildə isə Respublika dərəcəli hakim adına layiq görülmüşdür.

1991-ci ildən II dərəcəli məşqçi-müəllim, hal-hazırda isə I dərəcəli məşqçi-müəllimdir. 1995-ci ildən etibarən Bakı şəhər İH-nin Gənclər və İdman Baş İdarəsində baş mütəxəssis vəzifəsində çalışır.

1996-cı ildən Azərbaycan Respublikası Yüngül Atletika Federasiyası rəyasət heyətinin və Respublika Yüngül Atletika hakimlər kollegiyasının üzvüdür.

SEYFƏLİ (RÜSTƏMLİ)

Zəngibasar mahalında, Uluxanlı kəndi yaxınlığında kənd. Kənddə ancaq Azərbaycan türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) kəndin adı Qırxbulaq nahiyəsinin **Seyfəli kəndi** kimi qeydə alınmış, kəndin Uluxanlı kəndi yaxınlığında yerləşdiyi, ikinci adının **Rüstəmli** olduğu və kənddə **Ömər Əli oğlunun** adına olan timardan dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürdüyü göstərilmişdir.

Kəndin adı **Seyfəli** (və **Rüstəm**) şəxs adından yaranmışdır.

Sonrakı mənbələrdə kəndin adına rast gəlmədiyimizdən, ehtimal etmək olar ki, kənd XVIII yüzilin ikinci yarısında tarix səhnəsindən silinmişdir.

SEYİDKƏND (ŞURAKƏND)

Zəngibasar mahalında, rayon mərkəzi olan Uluxanlı qəsəbəsindən 8-10 km cənub-qərbdə, Araz çayı kənarında, Həbilkənd kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

İ.Şopendə (1832) Zəngibasar mahalının **Seyid kəndi,** sonrakı statistik məlumatlarda (1873, 1886 və s.) **Seyidkənd kəndi** kimi qeydə alınmışdır.

Kəndin adının Ayrım türk tayfasının **Seyidlər** tirəsinin adından götürülməsi ehtimal olunur. Qərbi Azərbaycan ərazisində Seyid komponenti ilə çoxlu oykonimlər olmuşdur: Şirakel nahiyəsində Seyidkulu kəndi, Vedibasar mahalında Seyidkotanlı kəndi, Zəngəzur mahalında (Sisiyanda) və Göyçə mahalında (Basarkeçərdə) Seyidlər kəndləri, Dərələyəz mahalında Seyid Məmiş kəndi və s.

İ.Şopendə (1832) Zəngibasar mahalının **Seyid kəndində** 20 təsərrüfatda 113 nəfər (59 kişi, 54 qadın) müsəlman əhali siyahıya alınmışdır.

1873-cü ilin statistik məlumatlarında Araz çayı yaxınlığında yerləşdirilən bu kənddə 50 təsərrüfatda 345 nəfər (188 kişi, 157 qadın) Azər türkünün yaşadığı göstərilmiş, 1886-cı ildə kənd əhalisinin sayı 60 təsərrüfatda 346 nəfərə (182 kişi, 164 qadın) çatmışdır.

1897-ci ildə kənddə 489 nəfər, 1905-ci ildə 410 nəfər, 1914-cü ildə 705 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci ildə kənd erməni-daşnak quldur dəstələri tərəfindən dağıdılmış, talan edilmiş, əhalisinin bir hissəsi qətlə yetirilmiş, sağ qalanlar İrana, Türkiyəyə mühacirət etmişlər.

Bölgədə Sovet hakimiyyətinin qurulmasından sonra kəndin qaçqın əhalisi Vətənə qayıtmaq imkanı əldə etmiş və 1922-ci ildə onlardan 199 nəfər geri dönə bilmişdir. 1926-cı ildə kənddə 131 nəfər, 1931-ci ildə 118 nəfər azərbaycanlı yaşamışdır.

1948-1953-cü illər deportasiyası zamanı kəndin bütün əhalisi zorla Azərbaycana köçürülmüş, kənd ləğv edilmişdir. Sonralar geri qayıdan seyidkəndlilər doğma kənddə məskunlaşsalar da,

Seyidkənd də daxil olmaqla ləğv edilmiş bir neçə kəndin ərazisində yaradılmış Həbilkənd (Kalinin) qəsəbəsiin tərkibində sayılmışdır.

Kənd əhalisi 1988-ci ildə növbəti dəfə soyqırımına məruz qalaraq doğma yurdlarından vəhşicəsinə qovulmuşlar.

* * *


Seyidkənd kəndinin camaatı oruclarını keçirməyən, namazlarından qalmayan, yalanı sevməyən, halallıqla yaşayan camaat idi. Kəndin təsərrüfat həyatının əsasını maldarlıq və bostançılıq təşkil edirdi.

Deyilənə görə, kəndin adını aldığı Seyidlər Azərbaycana VIII yüzilin ortalarında gəlmiş, imtiyazlı olmuşlar. Hüseynqulu xan özü də bu kəndin camaatını himayə edərmiş.

Türkiyənin tanınmış dilçi alimi, professor **Seyfəddin Altayının** ata-babası əslən Seyidkənd kəndindən olmuş, 1918-ci il hadisələri zamanı Türkiyəyə mühacirət etmiş və İqdır mahalının Dizə kəndində məskunlaşmışlar.

Sovet hakimiyyətinin ilk illərində bir neçə kəndin sovetliyi – şura hökuməti Seyidkənd kəndində yerləşdiyi üçün bu kəndi el arasında Şurakənd də adlandırmışlar.

SEYFƏDDIN ƏLI OĞLU ALTAYLI



1950-ci il dekabrın 20-də İqdır vilayətinin Dizə kəndində anadan olmuşdur. **Atası Əli** Zəngibasarın Seyidkənd kəndindəndir. Bibisi Nisə xanım qardaşları Məşədi Rəcəb, Kərbəlayı Heydər və Məşədi Məhərrəmin Dizə kəndinə köçməindən əvvəl Seyidkənddə ailə qurduğundan onlarla getməmiş, Seyidkənddə qalmışdır. Nisə xanımın övladları 1988-ci il soyqırımına kimi həmin kənddə yaşamışlar.

Ibtidai məktəbi kəndində, orta məktəbi və litseyi isə Iqdırda bitirən Seyfəddin 1970-ci ildə Ağrı vilayətindəki müəllim məktəbini oxuyub, 1971-ci ildə Iqdır vilayətinin Aralıq qəsəbəsinə müəllim təyin olunmuşdur. Altı il müəllim işlədikdən sonra 1976-cı ildə qəbul imtahanı verib Istanbul Universitetinin Ədəbiyyat fakültəsinin Qədim Önasıya Dilləri və Mədəniyyətləri bölməsinə daxil olmuşdur. 1980-ci ildə məktəbi bitirib, doğma kəndinə qayıtmışdır. Beş il sonra TRT-nin Xarici Verilişlər Idarəsi bölməsində fəaliyyət göstərən Türkiyənin Səsi Radiosunun Azərbaycan Verilişləri Redaksiyasına imtahanla qəbul olunmuş və 8 ay sonra radionun rəhbəri təyin edilmişdir. Hazırda həmin vəzifədə işləyir. Ailəlidir, Kürşad, Alpərtunqa, Gökbörü, Eldar Avşin, Elçin Aras adlı beş oğul atasıdır.

Indiyə kimi Azərbaycanın Güney və Quzeyində yazıb-yaradan şair və yazıçıların (Mövlud Süleymanlı, Bəxtiyar Vahabzadə, Xəlil Rza, Məmməd Araz, Rüstəm Behrudi, Nəbi Xəzri, Savalan, Məmməd Ismayıl, Hidayət Orucov, Əli Azəri və b.-nın) 12 əsərini Türkiyədə çap etdirib. 1993-cü ildə 8 il üstündə işlədiyi Azərbaycan Türkçəsi Sözlüyünün ilk variantını çap etdirmişdir və hazırda bu əsərinin Azərbaycan Türkcəsi Ensiklopediyası adlanacaq ikinci, təkmilləşdirilmiş variantı üstündə iş aparır. Bundan əlavə, özünün iki elmi-kütləvi əsərini də müxtəlif illərdə çap etdirib.

1994-cü ildə "Xocalı faciəsi" adlı 45 dəqiqəlik, 1994-1995-ci illərdə isə "Kafkas Yıldızı" adlı 12 seriyalı sənədli filmlərin çəkilməsində rəhbər və mütəxəssis kimi iştirak etmişdir.

SINIQXAÇ (SİNNİK)

Zəngibasar mahalında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Sınıqxaç kəndi** kimi qeydə alınmışdır. Üstəlik, ikinci mənbədə kəndin **Məhəmməd Osman oğlu** adlı şəxsin timarı olduğu, bu timardan dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) isə kənd **Sinnik** adı ilə Zəngibasar mahalının xaraba kəndləri siyahısına daxil edilmişdir. Bu, kəndin 1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalmasına dəlalət edir.

Sonrakı mənbələrdə kəndin adına bir daha rast gəlməməyimiz isə o deməkdir ki, kənd sonralar bərpa edilməmiş, təzədən məskunlaşmamış və tarix səhnəsindən silinib getmişdir.

Kəndin adı iki hissədən ibarətdir: **Sınıq (Sinik//Sinnik)** və **xaç** sözlərindən. Sınıq (Sinik//Sinnik) sözünün **sınmış** anlamında olması ehtimal edilə bilər. Lakin Qərbi Azərbaycan ərazisində eyni komponentli neçə-neçə toponimin mövcudluğu bu ehtimalı şübhə altına alır. XVIII yüzildə Gümrü nahiyəsində Sinik kəndi, XIX yüzildə həmin toponimin Sınak variantı, XVIII yüzildə Gərni nahiyəsində Sınıqkörpü kəndi, Yeni Bayazid qəzasında Sinak kəndi, Sürməli qəzasında Sinakbaşı dağı qeydə alınmışdır. Türkiyənin Batum əyalətinin Artvin dairəsində də vaxtilə Sinaklıtəpə adlı dağ olmuşdur. Heç şübhəsiz, bu toponimlərin hamısı eyni kökdəndir.


Yeri gəlmişkən, qədim Albaniya ərazisinin indiki Qərbi Azərbaycanın Zəngəzur mahalını əhatə edən böyük bir hissəsi məhz **Sünik** adlanmışdır.

ŞORLU (ŞORLU DƏMİRÇİ, BÖYÜK ŞORLU DƏMİRÇİ, ŞÖLLÜ)

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 3 km şimal-qərbdə, Zəngi çayının sol kənarında kənd.

1920-ci illərə qədər kənddə ancaq Azərbaycan türkləri, həmin vaxtdan 1988-ci ilə qədər azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsində **Dəmirçili** adlı kənd qeydə alınmışdır. "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsində **Dəmirçiliyə-Şollu, yəni Dəmirçi kəndi yanında Şollu kəndi** kimi qeydə alınıb.



Şorlu kəndinin ümumi görünüşü

İ.Şopendə (1832) də kəndin adı **Şollu Dəmirçi** kimi verilmişdir. Sonrakı statistikalarda isə (1873, 1886...) kəndin adı **Şorlu Dəmirçi** şəklindədir. Sonralar – Sovet dövründə kəndin adının Dəmirçi komponenti atılaraq sadəcə **Şorlu** hissəsi saxlanmışdır.

Əslində də kəndin adı **Şorlu Dəmirçidir, Şöllü Dəmirçi** əsl adın xalq dilində tələffüz formasıdır. Adın peçeneqlərin **Çor// Çur** tayfasının adından olması və erkən orta yüzillərdə Albaniya və Erməniyədə yaşamış türkmənşəli Şor//Çor tayfasının adını əks etdirməsi fikri ilə (B.Budaqov, Q.Qeybullayev) tamamilə razıyıq. **Şorlu,** yəni **Şor eli, Şor tayfası.** Tədqiqatçılar VII yüzilə aid ərmən mənbəyində **"Şor dərəsi"** toponimini də müşahidə etmişlər. **Çor// Şor//Şur** komponentləri ilə Azərbaycan (o cümlədən Qərbi Azər-

baycan) ərazisində onlarla toponim mövcuddur: Kəlbəcər rayonunda Çorman, Yardımlıda Çoryurt, Qəbələdə Corlu, Göyçədə Şorca, Zəngibasarda Şorkənd, Dərələyəzdə Şorca, Gümrüdə Şoradağ və s.

Buna görə də professor S.Şükürovun toponimin türk dilində **sükunət, ağırbaşlılıq** mənası verən **Şük//Şök** sözündən yaranması fikrinin (bax: "Uluxanlı" kitabı, səh. 103) heç bir elmi əsası yoxdur. Tədqiqatçı S.Mirmahmudovanın Şorlu toponiminin **"torpağın şoran olmasını"** bildirməsi fikri də elmi əsasdan məhrumdur.

Adın Dəmirçi komponentinə gəldikdə isə türk toponimikasında geniş yayılmış bu adın Qədirli tayfasının **Dəmirçilər** qolunun və qazaxlıların **Dəmirçilər** tayfasının adlarından əmələ gəlməsi ehtimalı çox güclüdür.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) **Şollu Dəmirçi** kəndindən dövlətin müxtəlif vergilər şəklində il ərzində 13.000 ağça gəlir götürdüyü göstərilmişdir. Verginin məbləğindən hələ o vaxt kəndin böyük kənd olduğu anlaşılır.

İ.Şopendə (1832) Zəngibasar mahalının bu kəndində 46 təsərrüfatda 338 nəfər (196 kişi, 142 qadın) Azərbaycan türkü qeydə alınmış, onun **Hümbət bəyin** tiyul kəndi olduğu da göstərilmişdir.

1873-cü ilin statistik məlumatlarında artıq kənd əhalisinin sayı 125 təsərrüfatda 1.400 nəfərə (751 kişi, 649 qadın) çatmış, kənddə həmçinin bir məscid də siyahıya alınmışdır.

1886-cı ildə İrəvan qəzasının Hacı Eylas nahiyəsinə aid olan Şorlu Dəmirçi kəndində 150 təsərrüfatda 1.318 nəfər (741 kişi, 577 qadın) Azərbaycan türkü yaşamışdır.

Yeri gəlmişkən, 1886-cı ilə aid mənbədə kənd sakinlərindən bir qisminin 1876-cı ildə Qırxbulaq mahalına köçdüyü, burada Qaracoran kəndini saldığı (**əslində eyniadlı xaraba kəndi bərpa etdiyi** – Ə.Ə.) göstərilmişdir.

Kənddə yaşayanların sayı 1897-cı ildə 1.360 nəfər, 1905-ci ildə 1.432 nəfər, 1914-cü ildə 2.216 nəfər olmuşdur.

1918-ci ilin əvvəllərində Qərbi Azərbaycanda Andranikin erməni quldur dəstələrinin vəhşi hücumlarına ilkin məruz qalan ən böyük azərbaycanlı yaşayış məntəqələrindən biri də Şorlu Dəmirçi kəndi olmuşdur. Bu vaxt kənddə 2.500 nəfərə qədər dinc sakin yaşayırdı. Erməni cəlladları kəndi darmadağın etmiş, talamış, sonra od vurub yandırmış, əhalisinin bir hissəsini qətlə yе-

tirmiş, sağ qalanları doğma yurddan didərgin salmışlar.

Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin qaçqın əhalisinin çox az bir hissəsi doğma kəndinə qayıda bilmişdir. 1922-ci ildə onların sayı 492 nəfər, 1926-cı ildə 687 nəfər, 1931-ci ildə 601 nəfər olmuşdur.

Geri qayıtmayanların bir hissəsi Türkiyə ərazisində həmişəlik məskunlaşmış, bir hissəsi isə Naxçıvana köçüb, burada yaşamışlar.

Böyük Şorlu Dəmirçi kəndində ilk ermənilər (cəmi 14 nəfər) 1926-cı ilin siyahıyaalmasında qeydə alınmışdır. Kəndə ermənilərin əsas köçü 1948-ci ildə azərbaycanlılar deportasiya olunduqdan sonra başlamışdır. Onların, demək olar ki, əksəriyyəti 1946-1947-ci illərdə müxtəlif xarici ölkələrdən köçürülüb gətirilən ermənilər idi.

1949-1950-ci illərdə kəndin azərbaycanlı əhalisi bütünlüklə Azərbaycana deportasiya olunaraq İmişli və Bərdə rayonlarında məskunlaşdırılmışlar.

Sonralar İmişlidəki şorlulardan 30-40 ailə geri qayıdaraq doğma yurdda yaşamaqda davam etmişlər.

1978-ci il yanvarın 25-də kəndin Şorlu adı dəyişdirilərək **Daştavan** qoyulmuş, bu qədim türk toponimi beləcə ermənileşdirilmişdir.

Şorlular növbəti dəfə erməni vəhşiliyi ilə 1988-ci ildə qarşılaşdılar. Daşnakların ilk hücumları bu dəfə də bu kəndə oldu. Təqib və təzyiqlər altında kəndin azərbaycanlı əhalisi yurdundan qovuldu.

Şorlu kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı

Poçt – 1
Əczaxana – 1
Yeməkxana – 1
Kitabxana – 1
Məktəb – 1
X/b mal-qara – 160
İ/b mal-qara – 140
K/t maşınları – 27

Avtobus – 1
Avtomaşınlar (yük, minik) – 6
Məscid – 1
Ambar binaları – 2
Ding və dəyirman – 1
Transformator – 1
Quşçuluq ferması – 1
X/b mal-qara tövləsi – 2
İ/b mal-qara tövləsi – 3
Həkim məntəqəsi – 1
Xəstəxana – 1
Uşaq bağçası – 1
İdarə binası – 1
Kino binası – 1
Mədəniyyət evi – 1

* * *

Şorlu kəndi bol sulu yer olduğu üçün kənd çox varlı olub. Keçmişdə Böyük Şorlu kəndinin nüfuzlu şəxsiyyətləri sırasında **Hacı Həsən** və onun əmisi oğlu **Məşədi Ələsgər** də olmuşlar. Hacı Həsənin oğlu **Hacı Əsədin** Zəngi çayı ilə Böyük Şorlu arasında 40 hektardan çox torpaq sahəsi olmuşdur. Hacı Əsəd mahalda hörmətli şəxsiyyətlərdən idi. Kəndin yaşlı adamlarının dediyinə görə, erməni təcavüzü nəticəsində kəndin bir çox ailələri kimi, bu nəsil də doğma yurddan mühacirət etmiş, Naxçıvanda məskunlaşmışlar. Məşədi Ələsgərin **Mehrac,** onun isə **Nəcəf** adlı oğlu olmuşdur ki, Azərbaycan Milli Məclisin hazırkı sədri **Murtuz Ələsgərov** məhz həmin Nəcəfin oğlu, Məşədi Ələsgərin nəticəsidir.

Erməni millətçilərinin yerli türk-müsəlman əhaliyə qarşı düşmənçiliyi Şorlu kəndində də öz işini görmüş, kəndin qədim qəbiristanlığı hələ Sovet dövründə əkin sahəsinə çevrilmişdi.

Lakin kənd məscidini sökməyə heç kəs cəsarət etmirdi. Çünki məscidi sökmək üçün baltanı götürüb məscid dirəyini kəsmək istəyən erməni baltanı öz ayağına vurmuşdu. Bu məscid binası 1949-cu ilə qədər qalırdı.

Şorlu kəndində, əsasən, **Xansoylar (yəni xan nəslindən olanlar** – Ə.Ə.) tayfası yaşamışdır.

TEREKEVİT (TƏKAVERT, TƏKEVLƏR)

Zəngibasar mahalında, Zəngi çayının sağında, Muğanlı kəndi ilə üzbəüz, Reyhanlı kəndi yanında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Terekevit kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə kəndin ərazisinin xass torpaqları olduğu və bu xassdan dövlətin müxtəlif vergilər şəklində ildə 60.000 ağça məbləğində gəlir götürdüyü göstərilmişdir.

Sonrakı mənbələrdə kəndin adına rast gəlməməyimiz onun XVIII yüzilin sonlarında tarix səhnəsindən silinməsi ehtimalını irəli sürməyə əsas verir.

Toponimin etimologiyası ilə bağlı onu deyə bilərik ki, o, **terek** və **ovit** komponentlərindən ibarət olmaqla birincisi **turuk// türük//türk** (Şimali Qafqazdakı Terek çay, Qərbi Azərbaycandakı Əştərək kənd və rayon adları ilə eynikökludür) və ikincisi türk dillərində **yaşayış məntəqəsi, yurd** anlamlarında olan **ev// ova//oba** sözlərindən yaranmışdır. Başqa sözlə, Terekovit **"Türklərin yurdu", "Türk obası"** mənalarında işlənmişdir.

Bununla belə, Zəngi çayının sağında, Reyhanlı kəndi yanında **Təkevlər** adlı ərazinin mövcudluğu, üstəlik də, adından da göründüyü kimi, bu ərazinin qədim yaşayış yeri olması onun Terekevit oykoniminin fonetik dəyişikliyə uğramış variantı olduğu fikrini də doğurur. Bunu "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) başqa bir yerdə kəndin Qırxbulaq nahiyəsində **"İlanlı kəndi yaxınlığında yerləşən Təkavert kəndi"** şəklində verilməsi də təsdiqləyir.

TƏZƏKƏND (NORAGİĞ)

Zəngibasar mahalında, Təzəkənd su kəməri kənarında kənd.

Kənddə 1714-cü ilə qədər ancaq Azər türkləri, həmin vaxtdan 1828-ci ilə qədər Azər türkləri ilə ermənilər yanaşı yaşamışlar. XIX yüzilin ortalarında kənd İrandan, Türkiyədən kəlmə ermənilər tərəfindən yenidən məskunlaşmışdır.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan qəzasının İrəvan nahiyəsinin **Noregiq kəndi,** "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Qırxbulaq nahiyəsinin **Noregiğ kəndi** kimi qeydə alınmış, İ.Şopendə (1832) isə **Noragöğ** adı ilə Zəngibasar mahalının xaraba kəndləri siyahısında verilmişdir.

Yeri gəlmişkən, 1714-cü ilə aid alqı-satqı sənədində kəndin katolikos Aleksandr tərəfindən Həsənəli adlı şəxsdən 10 tümənə alındığı qeyd olunmuşdur. Görünür, kəndin ermənileşdirilməsi elə o vaxtdan başlamışdır.

Bundan əlavə, İ.Şopen İrəvan xanlığı Rusiya tərəfindən işğal olunduqdan sonra rus dövlətinin hesabına keçirilən bağların da siyahısını tərtib etmişdir. Onlardan aşağıdakılar Təzəkənd torpaqlarında yerləşmişdir: **Dilguşə və ya Tallar, Baxça, Güllü, Qırbağ, Daşbaşı, Vəzir bağı, Topçubaşı bağı, Qayabaşı, Böyük xan bağı, Qoşabağlar, Cəfər xan bağı, Xudadat xan bağı, Əli xan bağı, Subboğan Qulu xan, Təzəbağ.** Bütün bu bağlar haqqında kitabın əvvəlində mahalın iqtisadiyyatından danışarkən ətraflı bəhs etmişik.

Kəndin adının ermənicə Noragöğ (yəni Təzəkənd) olması onun, çox ehtimal ki, XVI yüzildə İrandan köçürülüb gətirilmiş ermənilər tərəfindən salınmasından və kənddə əsasən ermənilərin yaşamasından irəli gəlmişdir.


XIX yüzilin ortalarında kənd **Təzəkənd** adı ilə yenidən məskunlaşmış və 1873-cü ilin statistik məlumatlarında Qırxbulaq çayı boyu ərazidə, Təzəkənd su kəməri kənarında yerləşən bu kənddə 174 təsərrüfatda 827 nəfər (419 kişi, 408 qadın) erməni və 1 kilsə qeydə alınmışdır.

1886-cı ildə kənddə 187 təsərrüfatda 846 nəfər (436 kişi, 410 qadın) erməni əhali yaşamışdır.

Sonralar kəndin Təzəkənd adı qeyri-rəsmi yolla ermənileşdirilərək bütün sənədlərdə **Təzəgyuğ** (yəni Təzəkənd) kimi yazılmışdır. 1970-ci il sentyabrın 10-da isə kəndin adı rəsmi olaraq dəyişdirilib **Ayntap** qoyulmuşdur.

* * *

Kəndin Xarberd kəndi tərəfki qurtaracağında **Keşiş bağı** deyilən məşhur bağ yerləşirdi.




Təzəkənd kəndinin otlaqlarında.
Uzaqdan kəndin görünüşü.

ULUXANLI

Zəngibasar mahalının, sonralar Zəngibasar rayonunun inzibati mərkəzi, İrəvan şəhərindən 20 km-lik məsafədə, İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin üstündə, Zəngi çayının sol tərəfində kənd, 1971-ci ildən şəhərtipli qəsəbə.

1918-ci ilə qədər kənddə ancaq Azər türkləri, 1921-ci ildən 1988-ci ilə qədər azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar. 1988-ci ildə azərbaycanlılar qovularaq kənd bütünlüklə ermənilərlə doldurulmuşdur.



Uluxanlı qəsəbəsinin uzaqdan görünüşü

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) kənd Karbi nahiyəsinin **Uluxanbəyli qışlağı,** "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Uluxanlı kəndi** kimi qeydə alınmışdır. Sonrakı mənbələrdə (1831, 1873, 1886 və s.) də kəndin adı **Uluxanlı** şəklindədir.

Uluxanlı toponiminin hələ XVI yüzilə aid mənbədə Uluxanbəyli kimi qeydə alınması bir tərəfdən kəndin adının XVII yüzildən məlum olması fikrini (B.Budaqov, Q.Qeybullayev) təkzib, digər tərəfdən onun **Uluxan bəy** adlı şəxsin adını daşımasını təsdiq edir.

Bəs həmin Uluxan və ya Uluxan bəy kim olmuşdur? Bu barədə həm tarixi faktlar, həm də müxtəlif rəvayətlər mövcuddur. Rəvayətlərdən birinə görə, Uluxan Nadir şah dövründə İrəvan xanlarından olmuş və İrəvan camaatını kütləvi şəkildə cəzalandırmaq əmrinə görə Nadir şahı öz çadırında öldürülmüşdür. Bu versiya özünü doğrultmur, çünki Uluxanlı toponimi Nadir Şahın ölümündən (1747) çox-çox əvvəllər mövcud olmuşdur.

Digər rəvayətə görə, XVI-XVII yüzillərdə **Ulu xan** və **Şərəf xan** adlı iki qardaş olub. Qardaşlardan Şərəf xan Ağhəmzəli kəndini, Ulu xan isə Uluxanlı kəndini saldırıb, Zəngibasar ərazisində məskunlaşıblar. Ulu xanın özü burada bir müddət yaşadıqdan sonra köçüb Tiflis şəhərinə gedib.

Növbəti versiyaya görə **Ulu xan, Ağa xan** və **Nici xan** adlı üç qardaş gəlib, Zəngibasar mahalında məskunlaşmışlar. Ulu xanın saldığı kənd Uluxanlı, Ağa xanın kəndi Ağhəmzəli, Nici xanın kəndi Necili adlanmışdır. Aşağı Necili kəndindən bəhs edərkən qeyd etdiyimiz kimi, biz bu yozumu xalq etimologiyasından başqa bir şey hesab etmirik və bizcə, belə yozumlar ilk növbədə elmi əsasa söykənməlidir.

Digər tərəfdən, Uluxan bəy adı ilə Böyük Teymurun nəvəsi **Uluqbəyin** adı arasında da qəribə oxşarlıq var. Hər halda faktdır ki, Böyük Teymurun ölümündən sonra Teymurilər sülaləsinin başında onun oğlu Şahrux dayanmış və 1406-1447-ci illərdə Orta Asiya və İranda hökmranlıq etmişdir. 1421-ci ilə qədər Azərbaycan, o cümlədən İrəvan çuxuru da onun təsir dairəsində, hakimiyyəti altında idi. Bu vaxt Sultan Şahruxun oğlu Uluqbəy artıq tarix səhnəsində öz sözünü deməkdə idi. Yəni 1409-cu ildən Səmərqənd hakimi idi və 1417-1420-ci illərdə Səmərqənddə tikdirdiyi rəsədxana artıq fəaliyyətə başlamışdı. 1447-cı ildə Sultan Şahruxun ölümündən sonra isə Uluqbəy Teymurilər sülaləsinin başında durmuşdur.

Lakin Uluxanlı toponimini 100 il (1258-1357) Azərbaycanın tarix səhnəsində mövcud olan **Elxanilər** (Hülakular) dövlətinin adı ilə də bağlamaq mümkündür. Paytaxtı Təbriz olan, əsası Hülaku xan tərəfindən qoyulmuş, Hülaku xan (1258-1265), Abaqa xan (1265-1282), Əhməd xan (1282-1284), Arqun xan (1284-1291), Göyxatu xan (1291-1295), Baydu xan (1295), Qazan xan (1295-1304), Sultan Məhəmməd Xudabəndə (1304-1316), Əbu Səid (1316-1335), Arpa xan (1340-1344), Ənuşirəvan (1344-1355), Həsən xan (1355-1357) tərəfindən idarə olunmuş bu dövlət İrəvan çuxuru ərazisini də əhatə etmişdir.

Professor Sadıq Şükürov isə toponimin tarixini daha qədimlərə aparıb çıxararaq əvəzsiz türk abidəsi olan **"Uluxan Ata Bitikçi dastanı"na** bağlayır (**bitikçi** – qədim türkcədə kitabçı, dastançı

anlamındadır). VI yüzildə Sasani hökmdarı Ənuşirəvanın tapşırığı ilə onun vəziri Buzuruq-Mehru tərəfindən türkcədən farscaya tərcümə olunan bu qədim abidə barədə Misir türk məmlükləri dövrü tarixçilərindən olan **Əbu Bəkr ibn Abdullah ibn Aybək əd-Dəvadarinin** "Dürəri tican" xronikasında aşağıdakı məlumata rast gəlirik: **"Mən deyirəm ki, burada bu xalqın zühur, xüruc və işlərinin başlanğıcını izah edim. Bu, məlik baba mənasına gələn "Uluxan Ata Bitikçi" adlı kitabda onların yaradılışlarının başlanğıcı və ataları haqqında zəif şəraitin cəvaz vermədiyi sözlərin qısa bir xülasəsidir. Bu kitabı ilk türklərdən olan monqol və qıpçaqlar özlərindən ayırmazlar və bunun onların nəzərində böyük bir dəyəri vardır; necə ki, digər türklərin "Oğuznamə" adını verdikləri bir kitabları olduğu kimi"** (F.Sümər. Oğuzlar. B., 1992, səh. 349).

Deməli, Uluxan Ata Bitikçi burada Qorqud Dədə Kitabçı səviyyəsində bir şəxsiyyət kimi təqdim olunur və ya elə onun özüdür, daha dəqiq desək, qıpçaq (qapsak)-monqol variantıdır.

Və nəhayət, Uluxanlı toponimi ilə bağlı çox mühüm bir faktı da tədqiqatçıların nəzərinə çatdırmağı vacib bilirik. Məsələ ondadır ki, "Dədə Qorqud" boylarının el variantlarında Bayandur xan Uluxan adı ilə təqdim olunur. Məsələn, "Dirsə xan oğlu Buğac boyu"nun el variantı belə də başlayır: **"Keçmiş əyyamda oğuzların Bayandır adında bir xanı vardı. Ona Uluxan deyərdilər..."** (bax: "Respublika" qəzeti, 9 aprel 2000-ci il, №78). İrəvan çuxurunun İç Oğuzun mərkəzi vilayəti olduğunu nəzərə alsaq, bu versiyada böyük həqiqət var.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Uluxanlı kəndinin ərazisi xass torpaqları kimi qeydə alınmış və bu torpaqlardan dövlətin müxtəlif vergilər şəklində ildə çox böyük məbləğdə – 58.000 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopenə (1832) görə Zəngibasar mahalının Uluxanlı kəndində 311 təsərrüfatda 1.737 nəfər (970 kişi, 767 qadın) Azər türkü yaşamışdır.

1873-cü ilin statistik məlumatlarında iki Uluxanlı kəndi qeydə alınmışdır. Bunlardan biri İrəvan qəzasının Zəngi çayı boyu ərazisində, Zəngi çayının kənarında, digəri isə İrəvan qəzasının Qırxbulaq çayı boyu ərazisində, Zəngi çayı yaxınlığında, Gərmiçay arxı kənarında yerləşmişdir. Kəndlərdən birincisi (Zəngi çayı kənarın-

da) həqqında mənbədə belə bir qeyd var ki, kənd əsl Uluxanlı kəndindən törəmədir və əhalisi azərbaycanlılardır. Lakin mənbədə bu kəndin əhalisinin sayı haqqında heç bir məlumat verilmir. Çox güman ki, yanaşı yerləşən bu iki kəndin bütün göstəriciləri məhz əsl – ikinci Uluxanlı kəndinin üstündə verilmişdir. Kənddə 454 təsərrüfatda 2.968 nəfər (1.549 kişi, 1419 qadın) Azər türkü, fəaliyyətdə olan 3 məscid, oğlan və qız məktəbləri qeydə alınmışdır.

1886-cı ildə kənd əhalisinin sayı 493 təsərrüfatda 3.062 nəfərə (1.672 kişi, 1.390 qadın) çatmışdır.

1886-cı ilə aid mənbədə **Hacı Həsən evi** və **Oruc adası** adlı törəmə kəndlərlə birlikdə Uluxanlı kəndinin 1749,77 desyatin torpaq sahəsinin olduğu, onun 34,39 desyatinini malikanə torpaqlarının, 2,37 desyatinini bağ sahələrinin, 835,56 desyatinini suvarılan əkin sahələrinin, 722,58 desyatinini biçənəklərin, 154,87 desyatinini otlaqların təşkil etdiyi göstərilmişdir.

Uluxanlı kəndinin Həbilkənd kəndi ilə birlikdə Yeni Bayazid qəzasındakı **Ağdağ** yaylağında, Həbilkənddin 55 verst aralıda, 222 desyatin ərazini əhatə edən **Çınqıllıyurd** adlı yaylaq yeri oliuşdur. Həmin yaylaq yerindən kənd camaatı qədim zamanlardan istifadə etmişdir.

Bundan əlavə, yenə də 1886-cı ilə aid mənbədə Uluxanlı kəndinin nəzdində olan və 20 desyatin ərazini əhatə edən **Uluxanlı** adlı biçənəkdən, bu biçənəyin kazak atlılarına pulsuz otlaq yeri kimi verildiyindən bəhs olunmuş, kəndlilərdən **Hacı Xəlil Hacı Ələsgər oğlunun** 10,83 desyatin torpaq sahəsi qeydə alınmışdır.

1897-ci ildə kənddə 3.062 nəfər, 1905-ci ildə 3.171 nəfər, 1914-cü ildə 3.200 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci ildə Andranikin başçılığı ilə kənddə azərbaycanlıların dəhşətli soyqırımı törədilmiş, 500 təsərrüfatdda 3.173 nəfər əhalisi olan Uluxanlı kəndi 1918-ci ilin əvvəllərində darmadağın edilmiş, talanmış, yandırılmış, əhalisinin bir hissəsi qəddarcasına qətlə yetirilmiş, sağ qalanlar doğma yurdu tərk etməyə məcbur olmuşlar.

Bölgədə Sovet hakimiyyəti qurulduqdan, daşnak orduları məhv edildikdən sonra kəndin sağ qalan qaçqın əhalisi geri qayıtmışdır. 1922-ci ildə kənddə 1.882 nəfər azərbaycanlı, 9 nəfər erməni siyahıya alınmışdır. Bu 9 nəfər gəlmə erməni Uluxanlıda məskunlaşan ilk ermənilər idi. 1926-cı ildə kənddə azərbaycanlıların

sayı 1.948 nəfər, ermənilərin sayı isə cəmi 5 nəfər olmuşdur.

1948-1949-cu illərdə kəndin əhalisi zorla Azərbaycanın Əli Bayramlı rayonuna deportasiya olunmuş, boşalmış azərbaycanlı evlərində müxtəlif xarici ölkələrdən köçürülüb gətirilmiş ermənilər yerləşdirilmişlər.

Sonralar Uluxanlıdan deportasiya olunmuş əhalinin bir qismi geri qayıtsa da, 50-ci illərdən etibarən artıq kənddə ermənilər üstünlük təşkil etməyə başlamışlar.

Uluxanlı oykonimini itirmək üçün ermənilər onun adını düz dörd dəfə dəyişmişlər. 1920-ci illərdə kəndin qədim Uluxanlı adı dəyişdirilərək N.Nərimanovun şərəfinə **Nərimanlı,** 1937-ci il dekabrın 31-də yenidən dəyişdirilərək **Zəngibasar** qoyulmuşdur. Ondan sonra qısa bir müddətə Zəngi çayının Razdan adlandırılması ilə bağlı kəndin adı da **Razdan** qoyulmuş, lakin 1950-ci il iyulun 31-də bu ad da **Masis** ilə əvəz edilmişdir. 1971-ci ildə kənd şəhər tipli qəsəbəyə çevrilmişdir.

1988-ci ildə Uluxanlı qəsəbəsinin azərbaycanlı əhalisi növbəti soyqırımı ilə üz-üzə dayanmış, həmin hadisələr zamanı erməni qaniçənləri səkkiz nəfər soydaşımızı vəhşicəsinə qətlə yetirmişlər.

* * *

1886-cı ilə aid mənbədə Uluxanlı kəndi ilə bağlı bir sıra torpaq alqı-satqılarından bəhs olunur. Orada çəkilən şəxs adlarının heç də əhəmiyyətsiz olmadığını düşündüyümüzdən onları təqdim edirik:

– İrəvanlı **Hacı Budaq Süleymanov** 1880-ci ildə kənd sakini **Hacı Fətəli oğlundan** 900 rubla 2,08 desyatin əkin yeri almışdır;

– İrəvan kişi gimnaziyasının müəllimi **Mirzə Ələsgər Əlixanov** kənd sakini **Kərbəlayi Rəfi Məmmədbədəlovdan** 500 rubla 0,94 desyatin əkin yeri almışdır;

– İran vətəndaşı **İbrahim İsmayıl oğlu** 1875-ci ildə **Kərbəlayi Məmmədhəsən Məşədi Zeynalabdin oğlundan** 80 rubla 0.67 desyatin həyətyanı yer almışdır.

Sovet hakimiyyətinə qədər Uluxanlı kəndində **Kərbəlayi Əli, Kərbəlayi Qəmbər, Hacı Qəfər, Hacı Məsim, Hacı Rəsul, Kərbəlayi İsgəndər, Hacı Axund, Kərbəlayi Süleyman, Mirzə Zeynalabdin** kimi nüfuzlu şəxsiyyətlər olmuşdur.

1904-1905-ci illərdə İrəvan-Tiflis dəmiryol xəttinin çəkilişi

ilə əlaqədar həm də **Uluxanlı stansiyası** salınmış, sonralar bu stansiya mühüm strateji əhəmiyyət kəsb etmiş, respublikada ən böyük çeşidləyici dəmiryol stansiyasına çevrilmişdi. Bu funksiyasına görə onu Azərbaycanda Biləcəri stansiyası ilə müqayisə etmək olar. Həm İrəvan-Tiflis-Moskva, həm də İrəvan-Naxçıvan-Bakı dəmiryol xətləri buradan keçirdi.

1909-cu ildə Uluxanlı camaatına təklif olunur ki, köçüb Yengicə kəndi ərazisində yaşasınlar. Lakin təklif olunan ərazi qırraşlıq, qeyri-məhsuldar torpaqlar olduğu üçün camaat qəti şəkildə imtina etmişdi.

Uluxunlının **Əşrəf bəy, Şükür bəy, Həsən bəy, Xəlil bəy, Ağa bəy, İbrahim bəy, Tağı bəy** kimi hörmətli bəyləri olmuşdur.

1918-ci ildə ermənilər Uluxanlıya dəfələrlə hücum etmiş, onu dağıtmış, od vurub yandırmışdılar. Uluxanlının əli silah tutan igidləri isə daşnaklara qarşı mərdliklə döyüşüblər. Onlardan biri də **Pəncəli oğlu Abbas** olmuşdur. O, bir nəfər dostu ilə kəndin qırağındakı uçuq dəyirmana sığınıb, xeyli vaxt ermənilərin Uluxanlıya girməsinin qarşısını almış, dinc camaatın kənddən çıxıb, Rəncbər kəndi tərəfə – Türkiyə sərhədinə qaçıb qurtarmasına imkan yaratmışdı. Uluxanlının bu qəhrəman oğlunun müqavimətini qıra bilməyən ermənilər axırda onu top güllәsi ilə vurub öldürmüşdülər.

Əsas döyüşlər Uluxanlı ilə İrəvan arasında yerləşən, ermənilər yaşayan Təzəkənd kəndi istiqamətində gedirdi. Uluxanlının bütün əli silah tutan kişiləri el-obasının müdafiəsinə qalxıbmışlar. Onların arasında Uluxanlının ən böyük tayfalarından olan **Qara Bağırın nəvələri – Hacı Nəbi** və qardaşları **Əhməd, Muxtar, Əbülqasım** da varmış.

1918-ci il qırğını ilə bağlı yaddaqalan hadisələrdən bəri də Uluxanlının görkəmli din xadimi **Hacı Axund Rzanın** sülh missiyasıdır. O zaman ermənilərlə müsəlmanlar arasındakı bu qırğının qarşısını dinc yolla almağa çalışan Hacı Axund Noraqovit kəndində oturan erməni keşişinə xəbər göndərib, onu danışığa dəvət edir. Təzəkəndlə Noraqovitin arasında görüşə vaxtlaşırlar. Hacı Axund üç nəfərlə at belində gəlib vədə yerinə çatır, erməni keşişi də Noraqovitdən çıxıb gəlir. Axundla keşiş təklikdə danışmaq üçün birbirinə doğru addımlayırlar. Yoldaşlarından ayrılan Hacı Axundu pusqu qurmuş ermənilər dərhal tuturlar. Aparıb başını kəsir, sinəsi

üstündə od qalayıb yandırırlar ki, bu da sənin sülhün.

Uluxanlının varlı, nüfuzlu adamları sırasında həmçinin **Kəlba İsgəndər,** qardaşı **Kəlba Süleyman,** mirab **Kəlba Əli** də vardı. Kəlba Əli həm çar dövründə, həm də Sovet hakimiyyətinin ilk illərində Zəngibasarın mirabı (**su rəisi** – Ə.Ə.) olmuş, kolxozlaşma dövründə təqiblərdən təngə gəlib, sərhədi keçib Türkiyəyə getmiş, gecə ikən bir vzvod türk əsgəri ilə geri qayıdıb, Ağhəmzəli, Təzəkənd kəndlərinin yollarını kəsmiş, qohumlarına o taya keçmək üçün xəbər göndərmişdi. Qohumları bundan imtina edəndə öz var-dövlətini götürüb, mal-heyvanını sürüb, Arazı keçmiş, həmişəlik İqdırda məskunlaşmış, uzun ömür sürmüşdür.

Uluxanlıda keçmişdə az qala hər məhəllənin öz məscidi olmuşdur. Onların sayı yeddi idi: **Azamanlılar məscidi, Elatlar məscidi, Torlu məscid, Baltaməmmədlilər məscidi, Qarağaclar məscidi, Qədimalılar məscidi, Nüxülülər məscidi.** Bu məscidlərdə dini ayinlərin icrası ilə yanaşı, dini söhbətlərlə bərabər, dünya hadisələrindən, ümumi problemlərdən, xeyriyyəçilikdən və s. söhbət gedirdi. Məscidlərdən biri ikimərtəbəli olmuş, yuxarıda qadınlar, aşağıda kişilər namaz qılarmışlar.

Məscidlərin, demək olar ki, hamısının xarabalıqları dururdu. Salamat qalanların isə 1-i sovxozun anbarı kimi, 1-i məktəb, 1-i mədəniyyət şöbəsinin kitabxanası kimi istifadə olunurdu. 1970-ci illərdə Uluxanlıda məscid rəsmi olaraq yenidən fəaliyyətə başladı. Elatlar məhləsi ilə Qırmızı məhlənin arasında yerləşən bu məscid **Küllükbaşı məscid** də adlanırdı. 1988-ci ildə ermənilər onu yandırmışdılar. Son məlumatlara görə ermənilər həmin məscidi yerlə yeksan etmişlər.

Kəndin din tarixində **Molla Məmmədtağının, Mirzə Zeynalabdinin, Hacı Axundun** xüsusi yeri var. **Şeyx Ələsgər** Məkədə dini təhsil alıb qayıtmışdı. Repressiya illərində onu tutmaq istəyiblər. Gedib Naxçıvana, bir də Stalinin ölümündən sonra İrəvana qayıdıb, burada İrəvan məscidində şeyxlik edib. Qardaşı oğlu **Hacı İbrahim** isə 70-ci illərdə açılan Uluxanlı məscidində mollalıq edirdi. **Məşədi Kərəm** də bir müddət bu məscidin sədri olmuşdu. Onlardan əlavə, **Kəlbeysə İsayev, Yaqub Qəmbərov, Mirmöhsün Abbasov, Hüseyn Məmmədov, Hüseynqulu Rzayev, Zeynalabdin Zeynalabdinov** və başqaları müxtəlif illərdə

kənddə mollalıq etmişlər.

Uluxanlıda bir **seyid nəsli (ocağı)** olub. Həmin nəslin məlum olan ən qədim nümayəndəsi **Mir Bağır ağa,** onun törəmələri isə **Mir Yəhya, Mir Murtuza, Mir Mehdi, Mir Bağır** olublar. Sonuncular bir-birləri ilə qardaş, əmiuşağı imişlər. Bu nüfuzlu ocağın tarixi haqqında daha müfəssəl məlumatın olmamasının səbəbi isə onun yuxarıda adları çəkilən nümayəndələrinin 1915-1920-ci illərdə milli münaqişələr zamanı öldürülmələri, onların övladları **Mir Abbas, Mir Ismayıl, Mir Kərim, Mir Ağa, Mir Hüseyn, Nəzirə bəyimin** erkən yaşlarından yetimçiliklə, ehtiyac, sıxıntı içində böyümələridir. Lakin onların hər biri nəslin, ocağın adına layiq övladlar kimi böyümüşlər.



MİRKƏRİM MİRYƏHYA OĞLU SEYİDOV 1911-ci ildə anadan olmuşdu. Zəngibasar mahalında Mirkərim ağanın xeyir duası verilmədən gəlin köçməzdi. Düşmənləri dost edər, küsülüləri barışdırardı Mirkərim ağa!

Mirkərim ağa həm də Zəngibasarın ilk ziyalılarından idi. 1931-ci ildə ikiillik fəhlə məktəbini (rus dilində) bitirmiş, məktəblərdə müəllim və direktor işləmiş, İkinci Dünya müharibəsində baş leytenant rütbəsi ilə döyüş yolu keçmişdi. Həmişə çalışırdı ki, başqa millətin içində yaşayan xalqı elmli, təhsilli, savadlı olsun. Elmə, savada böyük diqqət göstərən Mirkərim ağa dinimizin tarixi ilə də maraqlanırdı. İlk dəfə başqa dildə olan qədim tarixi kitabdan (1872) Müqəddəs Məhəmməd Peyğəmbərin təsviranə şəklinin surətini çıxararaq "Müqəddəs Vücud" adı altında nəinki Zəngibasar mahalına, hətta Azərbaycanın bir sıra rayonlarında yaşayan tanışlarına da təmənnasız paylamışdı.

Maraqlı sözü-söhbəti ilə məclislər yaraşığı olan Mirkərim ağa gözəl şerlər də yazardı. "Müşfiqsiz Azərbaycan" adlı şeri bir çox qəzetlərdə dərc olunmuşdu. O, sevimli xanımı **Surə xanıma** da bir çox şerlər həsr etmişdi.

Övladları **Nazir, Nazim** və **Nadir** Seyidovlar nəslin layiqli

nümayəndələridirlər. Polis polkovnik-leytenantı **Nadir Seyidov** haqqında kitabda ayrıca bəhs edilmişdir.

Mir Murtuza keçmişdə Zəngibasar mahalı ərazisindən ziyarətə gedənlərə (zəvvarlara) başçılıq edərmiş. Oğlu **MİRİSMAYIL SEYİDOV** 1930-cu illərdə müxtəlif vəzifələrdə çalışmış, İkinci Dünya müharibəsində iştirak etmiş, yaralanmış, bir müddət Uluxanlı kənd sovetinin sədri olmuşdur. Mir İsmayılın oğlu **Murtuz Seyidov** özünün ləyaqəti, el-oba təəssübkeşliyi ilə həmyaşıdları arasında böyük hörmətə malikdir. Hamı ona hörmət əlaməti olaraq **Seyid** deyə müraciət edir.

Mir Murtuzanın digər oğlu **Mir Abbas Seyidov** 1930-cu illərdə Qərbi Azərbaycanın dağ rayonlarından birində RXMŞ-nin müdiri işləyərkən zəhərlənib öldürülmüşdür.

Mir Bağırın oğlu **Mir Hüseyn** Uluxanlıda kolxoz sədri işləmişdir.

Seyidov Mir Ağa Mir Mehdi oğlu Üçkilsə rayonunda məktəb direktoru vəzifəsində çalışmışdır.

Seyidova-Nəcəfova Nəzirə bəyim Mir Bağır qızı Uluxanlının ən yaşlı sakinlərindəndir (1912-ci il təvəllüd), hazırda Bakıxanov qəsəbəsində yaşayır və böyük nüfuz sahibidir.

Mir Məcid ağa da ağır seyid olmuşdur. Oğlanları **Mir Həşən, Mir Möhsün, Mir Məhəmməd, Mir Yunis, Mir Tahirdir.** 1948-1953-cü illərdə Salyana deportasiya olunmuşlar. Sonra təzədən Uluxanlıya qayıtmış, 1970-ci ildə yenidən Salyana köçmüşlər. Evləri ocaq kimi qəbul olunur.

Uluxanlıda keçmişdə **üç müsəlman qəbiristanlığı** olub. Onlardan ikisi xarabalığa çevrilmiş, yalnız biri qalmışdı. Uluxanlının ilk qəbiristanlığı Ağhəmzəlidə, **Mərmər** adlanan, mərmər yatağı yerləşən ərazidə idi. 1938-1939-cu illərdə burada mərmər istehsalı ilə bağlı camaata ayrı qəbiristanlıq yeri təklif etmişlər. Bir köhnə qəbiristanlıq da Uluxanlının içində idi.

Professor Sadıq Şükürovun məlumatına görə, "kəndin qəbiristanlığının sahəsi dörd hektar idi. Qəbirlərin üstündə at heykəlləri vardı, bəzi baş daşlarının üstünə isə günəş və at rəmzi həkk edilmişdi".

Keçmişdə Uluxanlının üç hamamı olmuşdur: **Kəlba Əli hamamı, Yetim hamamı, Günbəzli hamam.** Yaşı 400-ü keçmiş

hamam binası son zamanlara qədər Uluxanlıda qalırdı.

Azamanlı və **Əşrəf bəyin dəyirmanları** adamların ehtiyaclarını ödəyirdi.

İnqilabdan əvvəl **Kəlba İsgəndərin** 50 metr uzunluğunda ikimərtəbəli daş evi vardı, onun qardaşı **Kəlba Süleymanın** da evləri daşdan idi.

İnqilabdan əvvəl Uluxanlı kəndindən xeyli ziyalılar çıxmışdır. Məsələn, **Məmmədbağır Qədiməliyev** Armavir şəhərində seminariya bitirmişdi.

Kəndin inqilabdan əvvəlki ilk ziyalılarından biri də **Mirzə Zeynalabdin** idi. O, əvvəl Uluxanlı məktəbində Cəlil Məmmədquluzadənin yanında oxumuş, onunla möhkəm dost olmuş, sonra isə 1909-cu ildə Uluxanlıda açılmış ikisinifli rus məktəbində təhsilini davam etdirmişdi. Kənddə rus dilini bilən yeganə adam idi. Hökumət tərəfindən kəndə nə qədər adam gəlsə, danışmaq üçün onu çağırardılar. Hökumətə nə qədər ərizə lazım olsa, ona yaxınlaşardılar. Buna görə də xalq ona "Mirzə" təxəllüsü vermişdi.

Mirzə Zeynalabdin oğlu **Məhəmmədə** də mükəmməl dünyəvi təhsil vermişdi. Əvvəl onu İrəvanda Haşım bəyin məktəbində oxutmuş, sonra Uluxanlıda kəndxuda yanında qulluğa qoymuşdu. Burada katiblik işi ona tapşırılmışdı. İdarənin bütün gəlir-çıxar, yazı-pozu işlərinə o baxarmış.

Erməni dilini yaxşı bildiyi üçün 1928-ci ildə imtahan verib, İrəvan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsinə qəbul olunmuş, universiteti yüksək qiymətlərlə bitirdiyi üçün orada müəllim saxlanmışdı. Eyni vaxtda həm də İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumunda ixtisası üzrə dərs keçirdi.

1935-ci ildə **Məhəmməd Rzayevi** Qaraqışlaq kənd orta məktəbinə direktor təyin edirlər. İşlədiyi iki il müddətində yeni məktəb binası tikdirir və onu lazımi avadanlıqlarla təmin elətdirir. 1937-ci ildə onu yenidən İrəvan Dövlət Universitetinə çağırırlar, ömrünün sonuna – 1942-ci ilə qədər həm Universitetdə, həm də İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumunda işləyir.

1930-cu illərdə Uluxanlıda **Məşədi Heydər** kimi gözəl şair, **Hüseyn Səlimov** kimi gözəl müğənni varmış. Deyilənə görə, Xan Şuşinski deyirmiş ki, Hüseyn Səlimov oxumağını davam etdirsə idi, mən xanlığımı itirərdim.

Kəndin ilk ziyalıları kimi **Əsəd Məmmədovun** (1937-ci ildə APİ-ni bitirib), **Yunis Tağıyevin** (1937-ci ildə APİ-nin ədəbiyyat fakültəsini bitirib), **Əsgər Məsimovun** (1937-38-ci illərdə Azərbaycan Tibb İnstitutunu bitirib), **Məmməd Rzayevin** (1934-cü ildə İrəvan Dövlət Universitetini erməni dilində bitirib) adlarını çəkmək olar.

Kəndin ilk qadın ziyalıları **Fizzə Əliyeva** və **Məsmə Əliyeva** olmuşlar.

İsmayıl Heydərov da Uluxanlının ilk ziyalılarından idi. Deyilənə görə, Uluxanlıdan Bakıya gələn ilk şəxs olmuşdu. İ.Heydərov 1932-ci ildə Bakıya gələrək Universitetin filologiya fakültəsinə daxil olmuş, H.Cavidlə dostluq etmişdi. Bir vaxtlar çox məşhur "Qara gözlər" mahnısının müəllifidir. Repressiya illərində həbs edilərək sürgün olunmuş, qayıtdıqdan sonra Ağsu rayonunda yaşamış, 1990-cı ildə vəfat etmişdir. Çoxlu dərc olunmamış şerləri qalır. Övladları hazırda Bakıda, Ağsuda və Oğuzda yaşayırlar.

Uluxanlıda pambığı çiyiddən təmizləmək üçün ilk qurğunu Baltaməmmədlər nəslindən **Zülfüqar kişi** hazırlamışdır.

Sovet hakimiyyətinin ilk illərində kənddə **Kərim Məmmədov, Mehdi Səlimov, Abuzər Mehrəliyev, Möhsüm Quliyev, Novruz Əhmədov** rəhbər vəzifələrdə çalışmışlar.

Əsədulla Musayev, Novruz Əhmədov Zəngibasardan "Ermənistan SSR" Ali Sovetinin deputatı seçilmişlər.

Novruz Əhmədov, Möhsün Quliyev, Əbdülhüseyn Qurbanov, Mehdi Qurbanov ayrı-ayrı vaxtlarda Uluxanlı kolxozunun sədri işləmişlər.

Kərim Məmmədov, Mehdi Səlimov, Həbib Əbdülov, Nəsir Orucov, Mirismayıl Seyidov ayrı-ayrı vaxtlarda kənd sovetinin sədri olmuşlar.

Repressiya illərində Uluxanlıdan 25-30 nəfər sürgün olunmuş, onlardan heç biri geri qayıtmamışdır.

1930-cü illərin sonlarında RİK sədri, vedili **Mirzə Bəşirovun** təşəbbüsü ilə Gərni çayından Uluxanlıya içməli su kəməri çəkilmişdir.


1949-cu ilin payızında Uluxanlı qəsəbəsindən təxminən 150 təsərrüfat Azərbaycanın Əli-Bayramlı rayonunun Qaracalar sovxozuna, 155 təsərrüfat isə Bakı Xalacına deportasiya olunmuşlar.

Bir o qədər də azərbaycanlı Uluxanlıda qalmışdır. 1950-ci illərdə deportasiya olunanların əksəriyyəti geri qayıtmışlar.

1947-ci ilə qədər qəsəbədə cəmi 3 erməni ailəsi vardı, onlar da xırda sənətkarlıqla məşğul olurdular. 1947-ci ildə xaricdən, əsasən Suriya, İran və Türkiyədən köçürülüb gətirilmiş 70 erməni ailəsi Uluxanlıda yerləşdirildi. Lakin az sonra onlar köçüb İrəvan şəhərinə getdilər.

1949-cu ildə azərbaycanlıların deportasiya olunması ilə əlaqədar "Ermənistan"ın Yelenovka və Şəmsəddin rayonlarından xeyli erməni gətirilib Uluxanlıda yerləşdirildi.

1953-cü ildə kolxoz təsərrüfatı ləğv olunmuş, onun bazasında sovxoz yaradılmış və elə o vaxtdan da təsərrüfat rəhbərliyinə ancaq ermənilər təyin edilmişlər.



HƏSƏN MƏMMƏDƏLİ OĞLU HƏSƏNOV 1903-cü ildə Uluxanlı kəndində anadan olmuş, gənc yaşlarında Qəmərli rayon RİK- nin sədr müavini vəzifəsində işləmişdir.

1937-ci ildə Zəngibasar rayonu yaradılanda bu rayonun İstehlak Cəmiyyətinin sədri, 1941-1948-ci illərdə isə rayon Tədarük İdarəsinin rəisi vəzifələrində çalışmışdır.

1948-ci ildə Azərbaycana deportasiya olunurlar. 1948-1952-ci illərdə Sabirabad rayon Tədarük İdarəsinə başçılıq edir. Sonuncu tarixdə vətənə qayıdıb, 1985-ci ilə – ömrünün sonuna qədər burada müxtəlif vəzifələrdə işləyir.

Əsgər Abbasəli oğlu Məsumov 1912-ci ildə Uluxanlı kəndində anadan olmuşdur. Atası **Kərbəlayi Abbasəli Məsum oğlu (Qara Abbasəli)** dövrünün sayılan adamlarından olmuş, Uluxanlı məktəbində müəllimlik edən Cəlil Məmmədquluzadə ilə dostluq eləmişdir. Buna görə də 1927-1932-ci illərdə Bakıda N.Nərimanov adına texnikumun dağ mühəndisi fakültəsində təhsil alan oğlu Əsgər təhsil dövründə Cəlil Məmmədquluzadənin evində – ailəsində yaşamışdır. 1932-ci ildə texnikumu əla qiymətlərlə bitirən Ə.Məsumov sonradan Tibb İnstitutunun rektoru

Əziz Əliyevin məsləhəti və köməkliyi ilə həmin institutun müalicə-profilaktika fakültəsinə qəbul olunur. 1938-ci ildə institutu bitirib, Uluxanlıya qayıdır. 1938-1939-cu illərdə Zəngibasar rayon səhiyyə şöbəsinin müdiri vəzifəsində çalışır. 1939-cu ildə bir həkim kimi Fin cəbhəsinə yollanır. 1940-cı ildə Bessarabiya və Moldova ətrafı döyüşlərdə iştirak edir. Sonra Böyük Vətən müharibəsinin iştirakçısı olur. 1945-ci ilin avqustunda evə Sovet Ordusunun mayoru rütbəsində qayıdır. 1947-1948-ci illərdə valideynləri Bakıya köçür və Buzovna qəsəbəsində məskunlaşırlar. 1948-52-ci illərdə Sabunçudakı Çaparidze adına xəstəxanada və sonra ömrünün sonuna – 1992-ci ilə qədər Buzovnadakı 19 nömrəli tibb poliklinikasında həkim və baş həkim vəzifələrində çalışır. Üç övladı var: oğlu **İlham Məsumov** Uroloji xəstəxanada həkim, qızı **Məlahət xanım** Buzovnadakı 234 nömrəli məktəbdə müəllim, digər oğlu **Elxan Məsumov** Az-TV-də rejissor işləyir.

Həsən Yaqub oğlu Hüseynov 1916-cı ildə anadan olub. 1934-cü ildə orta məktəbi bitirmiş, Bakıda ali hüquq təhsili almış, 1940-cı illərdə Basarkeçər və Vedi rayonlarında Xalq hakimi vəzifəsində çalışmış, sonralar uzun müddət Zəngibasar rayonunda Sosial Təminat şöbəsinin müdiri işləmişdir.

Cəfərqulu Məşədi Abbas oğlu Əsgərov 1919-cu ildə Uluxanlı kəndində anadan olub. 1938-ci ildə rayon komsomol komitəsində şöbə müdiri işləyib. 1941-1945-ci illər müharibəsində Berlinə qədər gedib, 2 dəfə "Şərəf nişanı" ordeni və başqa orden-medallarla təltif olunub. 1946-1979-cu illərdə müəllim işləyib. 1998-ci ildə dünyasını dəyişmişdir.

Aydın Məhərrəm oğlu Rzayev 1954-1969-cu illərdə Uluxanlı dəmiryol stansiyasında rabitə şöbəsinin rəisi işləmişdir.

Nazirə Vəli qızı Məmmədova 1931-ci ildə anadan olmuş, 1950-ci ildə Uluxanlı məktəbini, 1957-ci ildə Azərbaycan Tibb İnstitutunu bitirmişdir. 1957-1977-ci illərdə Bakterioloji laboratoriyanın müdiri işləmişdir. Hazırda Bakı şəhər Gigiyena və Epidemiologiya Mərkəzində həkim-bakteriolok vəzifəsində çalışır. "Qırmızı Əmək Bayrağı" ordeni, medal və fərmanlarla təltif edilmişdir.

Sabir Məhərrəm oğlu Rzayev 1932-ci ildə Uluxanlı kəndində anadan olmuş, 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmiş, 1957-1967-ci illərdə Şəki şəhər,

Quba rayon, Qusar rayon prokurorluqlarında müstəntiq, 1967-1978-ci illərdə Gəncə şəhər və Qazax rayon prokurorluqlarında baş müstəntiq, 1979-1981-ci illərdə Şəmkir rayonunda prokuror köməkçisi vəzifələrində işləmişdir. 1981-1990-cı illərdə isə Lənkəran şəhər məhkəməsinin hakimi və sədri olmuş, sonuncu tarixdə təqaüdə çıxmışdır.

Hüseyn Möhsüm oğlu Məmmədov 1934-cü ildə Uluxanlıda anadan olmuş, 1953-cü ildə Uluxanlı məktəbini, 1959-cu ildə Neft-Kimya İnstitutunu bitirmiş, 1959-1962-ci illərdə Rusiyanın Kazan şəhərində Hərbi Sənaye Obyektlərinin Layihə İnstitutunda çalışmış, Kazan Dövlət Universitetinin tarix fakültəsinin axşam şöbəsində oxumuşdur. 1962-1983-cü illərdə İrəvanda "Ermənelektromaş" İB-də aparıcı konstruktor, Elmi-Tədqiqat Riyazi Maşınlar İnstitutunda mühəndis, Ermənistan Dövlət Təchizat Komitəsinin "Elektromaştəchizat" respublika birliyində şöbə müdiri və s. vəzifələrdə çalışmışdır. 1983-cü ildə Bakıya köçmüş, burada bir sıra quraşdırma, tikinti idarələrində rəis işləmişdir. Hazırda Təmir-Tikinti İdarəsinin rəisidir.

Sabir Həsən oğlu Həsənov 1942-ci ildə Uluxanlı qəsəbəsində anadan olmuş, 1958-ci ildə Uluxanlı orta məktəbini, 1961-ci ildə Bakı Kooperativ məktəbini, sonra Bakı Kooperativ Texnikumunu, 1967-ci ildə Azərbaycan Neft-Kimya İnstitutunu bitirmişdir. 1970-1989-cu illərdə pedaqoji işlə məşğul olmuş, Bakı Neft Texnikumunda müəllim, qiyabi şöbənin müdiri, sonralar 29 saylı TPM-də baş usta, direktor müavini olmuş, 1989-cu ildən "Azərneftyanacaq" İB-nin Böyük Şor xammal sexində rəis müavinidir.

Tofiq Məmməd oğlu Məmmədov 1948-ci ildə anadan olmuş, 1985-ci ildə Azərbaycan Dövlət Politexnik İnstitutunu bitirmişdir. Əmək fəaliyyətinə mədəndə operator kimi başlamış, sonralar Nəqliyyat Agentliyində müxtəlif vəzifələrdə işləmiş, Azərnəqliyyatyoltikinti trestində baş mexanik, 1982-ci ildən Nəqliyyat Mexanikləşdirmə idarəsində baş direktor, 1989-cu ildən Azərtunelsutikinti idarəsində rəis müavini vəzifələrində çalışmışdır. Hazırda Azərtunelsutikinti şirkətində vitse-prezident vəzifəsində işləyir.

Dönməz Məmməd oğlu Məmmədov 1981-ci ildən Uluxanlı məktəbində pedaqoji fəaliyyətlə məşğul olmuş, Qarabağ müharibəsi başlayandan könüllü cəbhəyə getmiş, Qubadlı, Ağdam,

Tərtər rayonlarında döyüşlərdə iştirak etmişdir. 1995-ci ildən Müdafiə Nazirliyində məsul vəzifədə çalışmış, 1998-ci ildə ordudan tərxis olunmuşdur. Hazırda "Qərbi Azərbaycan" Beynəlxalq Cəmiyyətində şöbə müdiri və informasiya mətbuat xidmətinin rəhbəridir.

Sahib Qasım oğlu Qasımov Xəzər Dəniz Gəmi Təmiri İstehsalat Birliyinin "Paris Kommunası" adına gəmi təmiri zavodunda konstruktor-texnoloji şöbənin rəisidir.

Heydər Kərim oğlu Heydərov Uluxanlı kənd kolxozunda sədr, rayon yanğınsöndürmə idarəsinin rəisi və s. vəzifələrdə işləmişdir. Oğlu kapitan **Əbülfət Heydərov** Bakı şəhər Yasamal rayon yanğınsöndürmə idarəsinin rəisidir. Digər oğlu **Əlövsət Heydərov** isə Səbail rayon yanğınsöndürmə idarəsində müfəttiş vəzifəsində çalışır, baş leytenantdır.

Səyyad Nurəddin oğlu Quliyev 1985-ci ildə Aktyubinskdə Mülki Aviasiya məktəbini bitirib. Hazırda Azərbaycan Mülki Aviasiyasında bölmə komandiri vəzifəsində çalışır.

İbrahim Əbülfəz oğlu İbrahimov 1982-ci ildə Uluxanlı şəhərində anadan olub. Yüngül atletika sahəsində böyük uğurları var. Müxtəlif məsafələrə qaçış üzrə dəfələrlə Bakı və respublika birinciliyinin qalibi olmuşdur.

Uluxanlı ikisinifli **məktəbi** İrəvan qəzasında açılan ilk dünyəvi məktəblərdən idi. Bu məktəbin tarixi barədə kitabın əvvəlində təfərrüatı ilə bəhs etmişik.


Uluxanlı məktəbinin qocaman müəllimləri sırasında **Abbasəli Hüseynovun, Ələmdar Məhərrəmovun, Həbib Məmmədzadənin, Firidun Eyvazovun, Əsəd Məmmədovun, Lətif Hüseynovun, Məmmədbağır Qədiməliyevin, Ələmdar Rzayevin, Zərifə Babayevanın, İbrahim Xəlilovun, Qadir Məmmədovun, Əjdər Kazımovun, Əli İsmayılovun, İsmayıl İsmayılovun, Sənan Qədiməliyevin** adlarını çəkmək olar. Onlar uzun illər məktəb direktoru və müəllim vəzifələrində çalışmışlar.

Səriyyə Xəlilova, Rübabə Əliyeva, Leylan Əliyeva, Kübra Ələkbərova, Tamam Axundova və b. məktəbin ilk qadın müəllimləri olmuşlar. **Səriyyə Xəlilova** sonralar Azərbaycan Dövlət Unverstetinin professoru olmuşdur.

Uluxanlı məktəbinin müəllimlərindən **Abbasəli Hüseynov,**

Əli Həsənov, Tağı Bağırov, İsmayıl və **Əkbər Əliyev qardaşları, Məhərrəm Əliyev, Əli Babayev, Cəfər Məmmədov** və b. 1941-1945-ci illər müharibəsində qəhrəmanlıqla həlak olmuşlar.

Sovet dövründə aşağıdakılar Uluxanlı məktəbini qızıl və gümüş medallarla bitirmişlər: **Əhmədov Teymur, Mirzəyeva Maral, Ağayeva Hidayət, Həsənov Kərəm, Qədiməliyeva Gültəkin, Qasımova Mahirə, Xəlilov Firudun, Mirzəyev Zakir, Orucova Elmira, Ələkbərov Xəlil, Babayev Telman, Qasımov Maarif, Məmmədova Sevil.**



İSMAYIL ABDULLA OĞLU İSMAYILOV 1920-ci ildə Uluxanlı kəndində anadan olmuş, 1936-cı ildə Uluxanlı kənd yeddiillik məktəbini, 1939-cu ildə İrəvan Azərbaycanlı Pedaqoji Məktəbini bitirmiş, həmin il Dəmirçi kənd yeddiillik məktəbinə dərs hissə müdiri təyin edilmiş, Böyük Vətən müharibəsi dövründə isə Zəngibasar rayonunun Rəncbər, Yuxarı Necili, Reyhanlı kənd yeddiillik məktəblərində direktor və dərs hissə müdiri vəzifələrində işləmişdir.

1945-1947-ci illərdə Zəngibasar RXMŞ-də müfəttiş, 1947-1950-ci illərdə Sarvanlar kənd yeddiillik məktəbində direktor, 1950-1953-cü illərdə Zəngibasar RXMŞ-də baş müfəttiş vəzifələrində çalışmışdır. 1957-ci ildən 1971-ci ilə qədər isə Uluxanlı məktəbində dərs hissə müdiri işləmiş, 1962-1966-cı illərdə həm də İrəvan Pedaqoji İnstitutunun Azərbaycan bölməsində Azərbaycan dilindən dərs demişdir..

1971-1973-cü illərdə təzədən Zəngibasar RXMŞ-ə azərbaycanlı bölməsi üzrə baş müfəttiş təyin edilmiş, 1973-1979-cu illərdə Uluxanlı orta məktəbində direktor işləmişdir. 1988-ci ildən Bakı şəhərində yaşayır.

Qadir Məmmədəli oğlu Bəşirov 1922-ci ildə Uluxanlı kəndində anadan olmuş, 1942-ci ildə cəbhəyə çağırılmış, Mozdok, Xarkov istiqamətlərində qəhrəmanlıqla döyüşmüş, yaralanmış, sağalıb təzədən döyüşə girmiş, növbəti dəfə yaralanıb, əsir düşmüşdür. Onu əsir kimi Elzas-Loterengiyaya aparmışlar. 1943-cü

ilin aprel ayında o, burada doqquz sovet əsgəri ilə birlikdə həbs düşərgəsindən qaçmış, Fransanın Albi şəhərinin dağ meşələrində partizanlara qoşularaq misilsiz qəhrəmanlıqlar göstərmişdir. Sonra bu partizan dəstəsi döyüşə-döyüşə düşmən cəbhəsini yarıb Sovet ordusu ilə birləşmiş və faşistlərə qarşı mübarizələrini davam etdirmişlər. Çoxlu orden və medallarla təltif olunmuşdur.

1946-cı ildə cəbhədən qayıdan Q.Bəşirov Bakıda Azərbaycan Pedaqoji İnstitutunu bitirmiş, 37 il Uluxanlı orta məktəbində müəllimlik etmişdir. 1988-ci ildən Gəncə şəhərində yaşayır.

QƏDİR VƏLİ OĞLU MƏMMƏDOV 1922-ci ildə Uluxanlı kəndində anadan olmuş, 1939-cu ildə İrəvan Pedaqoji məktəbini bitirmişdir.


Böyük Vətən müharibəsində yaralanıb qayıtdıqdan sonra 1942-ci ildə Zəngilər kənd orta məktəbinə direktor göndərilmiş, sonrakı illərdə Yuxarı Necili kənd məktəbində 45 ildən çox çalışmış, onun 30 ildən çoxunu həmin məktəbin direktoru olmuşdur. 1988-ci ildən Bakıda yaşayır və müəllim işləyir.

Ələmdar Həsən oğlu Rəhimov 1920-ci ildə Uluxanlı kəndində anadan olmuşdur. 1943-1944-cü illərdə Uluxanlı məktəbinin direktoru işləmişdir. 1948-ci ildə Azərbaycana deportasiya olunmuş, Goranboy rayonunda məskunlaşmış, burada uzun müddət kolxoz sədri vəzifəsində çalışmışdır.

ƏLİ MƏHƏRRƏM OĞLU İSMAYILOV kəndin qocaman pedaqoqlarındandır. 1946-cı ildə Sarıcalar, 1948-1949-cu illərdə Sarvanlar, 1954-cü ildə Dəmirçi kənd məktəblərində direktor işləmiş, uzun illər Zəngibasar rayon xalq maarifi şöbəsində baş müfəttiş vəzifəsində çalışmışdır.



Həqiqə Vəli qızı Məmmədova 1927-ci ildə Uluxanlı kəndində anadan olmuşdur. Ömrünün 40 ilini (1944-1984) pedaqoji fəaliyyətlə məşğul olmuş, "Şərəf nişanı" ordeni, medal və fərmanlarla təltif edilmiş, Əməkdar müəllim adına layiq görülmüşdü. 1989-cu ildə rəhmətə getmişdir.




HÜSEYN HƏSƏN OĞLU HƏSƏNOV 1932-ci ildə Uluxanlı kəndində anadan olmuş, 1951-ci ildə kənd orta məktəbini bitirmişdi.

Bakıda Azərbaycan Pedaqoji İnstitutuna daxil olan H.Həsənov az sonra səhhəti ilə bağlı Gəncə Pedaqoji İnstitutuna dəyişilmiş və 1955-ci ildə kimya-biologiya müəllimi ixtisası ilə institutu bitirmişdir.


Əvvəl üç il Vedi rayonunun Şirazlı kəndində, sonra isə Yuxarı Necili kənd məktəbində müəllim işləmiş, 1975-ci ildə pedaqoji fəaliyyətinə görə "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir. Elə həmin ildən "Sovet Ermənistanı" qəzetində müxtəlif vəzifələrdə (şöbə müdiri, bölgə müxbiri) çalışmış, çoxlu sayda məqalə və oçerkləri dərc olunmuşdur.

1988-ci il hadisələri zamanı ailəlikcə Bakı şəhərinə pənah gətirən Hüseyn müəllim burada məskunlaşmış, xalqımızın sonuncu tarixi faciəsinin ağrılarını qəlbində yaşatmış, ürək ağısı ilə yazıb dərc etdirdiyi məqalələrə köçürmüşdür. Bu qeyrətli vətən oğlu elə bu ağrılarla da dünyadan vaxtsız köçmüş, 1995-ci il iyulun 6-da dünyasını dəyişmişdir.

Hüseyn müəllim gözəl ziyalı olmaqla bərabər, həm də el ağsaqqalı idi. Oğlanları **Eldar, Sərdar** və **Etibar Həsənovlar** elimizin layiqli övladlarıdırlar.



Uluxanlının üzüm bağlarında həmişə bol məhsul yetişdirilirdi



SƏNAN M.BAĞIR OĞLU QƏDİMƏLİYEV 1931-ci ildə Uluxanlı kəndində anadan olmuş, 1950-ci ildə Uluxanlı kənd orta məktəbini, 1954-cü ildə Bakıda Azərbaycan Pedaqoji İnstitutunu bitirmişdir. Uzun illər Yuxarı Necili kənd və Uluxanlı qəsəbə məktəblərində müəllim işləmişdir. 1979-1988-ci illərdə isə Uluxanlı qəsəbə orta məktəbinin direktoru olmuşdur.

1988-ci ildə Uluxanlıda 500 ev, təxminən 3.000 nəfər azərbaycanlı yaşayırdı. Kənddə bir azərbaycanlı, beş erməni məktəbi vardı. 1949-cu ildə kəndin azərbaycanlılarının deportasiyası ilə bağlı bura ermənilərin köçürülməsi ilə əlaqədər Uluxanlı məktəbində ilk erməni sinifləri açılmış, məktəb beynəlmiləl məktəbə çevirilmiş, 1966-cı ildə ayrıca erməni məktəbi təşkil olunmuş, tarixi Uluxanlı məktəbində yenə də ancaq azərbaycanlı balaları oxumağa başlamışdılar. Məktəbə Məşədi Əzizbəyovun adı verilmişdi.

Dördmərtəbəli binada yerləşən məktəbin işıqlı sinifləri, müəllimlər otağı, yaraşıqlı iclas zalı, yüz minə yaxın kitabı vardı. Kitabxana ikinci mərtəbədə yerləşirdi.

1988-ci ildə Uluxanlı məktəbində 617 şagird təhsil alırdı.

1988-ci il hadisələri zamanı məktəbin kitabxanasının kitabları vəhşicəsinə yandırıldı, Azərbaycan ədəbiyyatı və mədəniyyətinin görkəmli nümayəndələrinin yağlı boya ilə çəkilmiş portretləri məhv edildi və M. Əzizbəyovun məktəbin həyətində ucaldılan heykəli uçuruldu.

KƏNDİN TAYFALARI

Qarağaclılar, Elatlar, Qaramanlar, Ağcamanlı, Qaraqışlaq, Qədimalılar, Hacırəsullar, Oruclular, Həbillər, Hactağılar, Zamanlar, Cinlər, Azamanlılar, Nüxülülər, Baltaməmmədlər.

KƏNDİN TOPONİMLƏRİ

Torpaq sahələri: Üçqulaq, Hackərimlər, Gölayağı, Porsuxlu, Bağayağı, Tülkü təpəsi, Siçanlı, Küllük, Qədimalı biçənəyi, Köhnə Salmaq, Hacı Axundun bağı, Həmzənin bağı, Mehdinin bağı, Nağı bəyin bağı, Həsən bəyin bağı, Ağa yeri, Məşədi Əlinin bağları, Məmmədvəlinin bağları, Eşşək olan, Əzimin adası, Zəngikəsən, Gülabdibi, Mərmər, Uluxanlı biçənəyi, Dolular, Dolunun başı, Ağdağ yaylağı, Çınqıllıyurd.

Məhlələr: bütün tayfa və nəsil adları ilə Uluxanlıda həm də məhlələr mövcud idi.

Hamamlar: Kəlba Əli hamamı, Yetim hamamı, Günbəzli hamam.

Dəyirmanlar: Azamanlı dəyirmanı, Əşrəf bəyin dəyirmanı.

Bulaqlar: Şərbət bulağı, Ceyran bulağı, Qıcılıq bulağı.

1930-1940-CI İLLƏRİN REPRESSİYA QURBANLARI

1. Məmmədtağı Qədiməliyev
2. Məmməd Əhmədov
3. Yunis Tağıyev
4. Əliqulu Teyyubov

1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİNDƏ HƏLAK OLANLAR

1. Abbasəli Hüseynov
2. Əli Həsənov
3. Tağı Bağırov
4. İsmayıl Əliyev
5. Əkbər Əliyev
6. Məhərrəm Əliyev
7. Əli Babayev
8. Cəfər Məmmədov

1988-1990-CI İLLƏRDƏ ULUXANLIDA ERMƏNİLƏR TƏRƏFİNDƏN ÖLDÜRÜLMÜŞ AZƏRBAYCANLILILAR

1. **Cəfərova Səfa Novruzəli qızı,** 1982-ci il təvəllüd, **Uluxanlı qəs.,** 1988-ci ildə işgəncə ilə öldürülüb.
2. **Qurbanov Qurbanəli Əbdülhüseyn oğlu,** 1934-cı il təvəllüd, **Uluxanlı qəs.,** 1988-ci ildə qəzaya salıb öldürüblər.
3. **Qurbanov Abbas Əbdülhüseyn oğlu,** 1946-cü il təvəllüd, **Uluxanlı qəs.,** 1988-ci ildə qəzaya salıb öldürüblər.

QARABAĞ MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

1. Nizami Zeynalabdin oğlu İsmayılov (1964, Uluxanlı – 1994, Füzuli)
2. Əli Vahid oğlu Əliyev (Uluxanlı, 1969 – Ağdam, 1992)
3. Nazim Abbas oğlu Babayev (..., Uluxanlı – 1995, Bakı), **Milli Qəhrəman**
4. Qəmbər Teymur oğlu Quliyev (1975, Uluxanlı-Salyan – 1994, Tərtər)
5. Əbülfət Şəmil oğlu Əliyev (1975, Uluxanlı – 1992, Tərtər)
6. Səyavuş Sabir oğlu Qurbanov (..., Uluxanlı-Salyan – 1993, Goranboy)
7. Firuz Hidayət oğlu Qəmbərov (..., Uluxanlı-Salyan – 1994, Ağdam)
8. Əlağa Kamo oğlu Nəcəfov (1955, Uluxanlı-Salyan – 1993, Ağdam)
9. Namiq Əsəd oğlu Bayramov (..., Uluxanlı-Salyan – 1993, Ağdam)
10. Maqsud Hətəm oğlu İsmayılov (..., Uluxanlı-Salyan – ..., Qarabağ)
11. Tofiq Səfər oğlu Həsənov (..., Uluxanlı-Salyan – 1993, Qarabağ)
12. Şahəddin Qara oğlu Məmmədov (1955, Uluxanlı – 1992, Qazax)

Uluxanlı kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı

Poçt – 1
Əczaxana – 2
Yeməkxana – 2
Kitabxana – 2
Məktəb – 2
X/b mal-qara – 200
İ/b mal-qara – 150
K/t maşınları – 39
Avtobus – 2
Avtomaşınlar (yük, minik) – 17
Məscid – 2
Ambar binaları – 3
Ding və dəyirman – 2
Transformator – 3
Quşçuluq ferması – 2
X/b mal-qara tövləsi – 3
İ/b mal-qara tövləsi – 4
Həkim məntəqəsi – 1
Xəstəxana – 2
Uşaq bağçası – 1
İdarə binası – 2
Kino binası – 2
Mədəniyyət evi – 3

HEYDƏR QULU OĞLU SALMANOV



1903-cü ildə Uluxanlı kəndində anadan olmuş, könüllü surətdə Qızıl Ordu sıralarına yazılmış, hərbi məktəbi bitirmiş, 1937-ci ilə qədər Bakıda orduda qulluq etmişdir. O vaxtdan gələcək Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovla dostluq etmiş, sonralar hər ikisi Frunze adına Hərbi Akademiyada təhsil almış, Həzi tankçı, o isə artilleriyaçı olmuşdur.

Müharibə başlayanda H.Salmanov mayor rütbəsində alay komandiri idi. Onun artilleriya alayı Leninqrad ətrafındakı döyüşlərdə böyük şücaət göstərmişdir. H.Salmanov 1943-cü ilin noyabrında və dekabrında iki dəfə I dərəcəli Vətən müharibəsi ordeni ilə təltif edilmiş və qvardiya polkovniki rütbəsinə layiq görülmüşdür.

1944-cü il iyunun 9-da Leninqrad vilayətinin Yelizavetinsk kəndi yaxınlığında döyüşdə qəhrəmanlıqla həlak olmuşdur.

Ailəsi 1948-1950-ci illərdə Azərbaycanın SSR Salyan rayonunun Aydıngün kəndinə deportasiya olunmuşdur.

HƏMİD SƏFƏR OĞLU HƏMİDOV



1904-cü ildə Ulxanlı kəndində anadan olmuşdur. İrəvanda müxtəlif kursları və Bakı şəhərində İnşaat texnikumunu bitirən H.Həmidov Vedi rayonunun Dəvəli sement zavodunda texnoloq, Gümrü şəhərində komsomol katibi, Ermənistanın Maarif Nazirliyində təlimatçı vəzifələrində işləmiş, 1932-ci ildə həmişəlik olaraq Bakı şəhərinə köçmüşdür.

1934-cü ildə kənc kadr kimi, ali təhsil almaq üçün Leninqrad şəhərinə akademiyaya göndərilmiş, 1939-cu ildə yanğının söndürülməsi üzrə ilk ali təhsilli azərbaycanlı mütəxəssis olaraq Bakıya qayıtmış və DİN Yanğından Mühafizə İdarəsində müxtəlif rəhbər vəzifələrdə işləmiş, sonra bu idarəyə rəhbərlik etmiş, 1964-cü

ildə isə polkovnik rütbəsində istefaya çıxmış, həmin vaxtdan ömrünün sonuna – 1972-ci ilə qədər Azərbaycan SSR Könüllü Yanğından Mühafizə Cəmiyyətinin sədri vəzifəsində işləmişdir.


Həmidov SSRİ məkanında yanğının söndürülməsi işində (neft quyularının qazılması, istismarı, fontan zamanı yanğın təhlükəsi və s.) ən yüksək səviyyəli mütəxəssislərdən biri hesab olunmuşdur.

H.Həmidov bir sıra beynəlxalq yanğınsöndürmə işlərində (o cümlədən Əfqanıstanda) iştirak etmişdir. Onun əməyi SSRİ-nin müxtəlif mükafatlarına, o cümlədən "Qırmızı Ulduz" və digər orden və medallara, fəxri fərmanlara layiq görülmüşdür. Polkovnik H.Həmidov Azərbaycan Respublikasının Əməkdar mühəndisi fəxri adına da layiq görülmüşdür.

1972-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Polkovnik H.Həmidovun oğlu **Səzmin Həmidov** Leninqrad şəhərində Meşə və Ağac Emalı Akademiyasını bitirmiş, Bakı Baş tikinti idarəsində baş konstruktor, Qırmızı Oktyabr Mebel fabrikində baş mühəndis, sonra direktor, 1975-ci ildən 1991-ci ilə – nazirlik ləğv olunana qədər isə Azərbaycan Meşə və Ağac Emalı nazirinin müavini vəzifələrində işləmişdir.

HÜSEYN TEYMUR OĞLU MƏMMƏDOV



1915-ci ilin iyulunda Uluxanlı kəndində anadan olmuş, Ulıxanlı kənd yeddiillik məktəbini, sonra İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumunu bitirmiş, 1933-cü ildə Ağbaba rayonuna klub müdiri göndərilmişdir. Az sonra Uluxanlıya qayıdan H.Məmmədov 1939-cu ilədək burada məktəb müəllimi, məktəbdə dərs hissə müdiri işləmişdir.

1939-cu ildən Zəngibasar rayon komsomol komitəsinin ikinci, sonra birinci katibi, rayon partiya komitəsinin təbliğat-təşviqat şöbəsinin müdiri vəzifələrində çalışmışdır.

1941-ci ildən Zəngibasar RİK-nin sədri, 1942-1945-ci illərdə Vedi, 1946-1947-ci illərdə Zəngibasar RPK-nin birinci katibi vəzifələrində işləyir.

1947-1950-ci illərdə Moskva Ali Partiya məktəbində oxuyur, qayıdıb 1951-ci ilin martına qədər "Ermənistan SSR" kənd təsərrüfatı nazirinin müavini, sonra "Sovet Ermənistanı" qəzetində məsul katib, 1952-1959-cu illərdə Vedi RİK-nin sədri, 1960-1962-ci illərdə Amasiya RPK-nin

birinci katibi, 1962-1970-ci illərdə "Ermənistan SSR" Xalq Nəzarəti Komitəsinin təşkilat şöbəsinin müdir müavini vəzifələrində çalışır. Sonuncu tarixdə 55 yaşında ikən respublika dərəcəli fərdi pensiyaya çıxarılır.

1971-ci ildə Bakıya köçən H. Məmmədov həmin ildən 1975-ci ilə qədər Bakının indiki Sabunçu rayonunda İcraiyyə Komitəsində şöbə müdiri, 1976-1989-cu illərdə isə əvvəl Xırdalan, sonra Binəqədi dəmir-beton zavodlarında kadrlar üzrə baş müfəttiş işləyir.

H.Məmmədov bir neçə çağırış "Ermənistan SSR" Ali Sovetinin deputatı olmuş, respublika Ali Sovetinin sədr müavini seçilmiş, orden və medallarla təltif edilmişdi.

Bu qeyrətli, təəssübkeş və vətənpərvər insan 1994-cü il aprelin 20-də Bakıda vəfat etmişdir. Dörd övladı var. Böyük qızı **Asiya xanım** tibb elmləri namizədi və akademik M.Mirqasımov adına Respublika xəstəxanasında şöbə müdiridir. Səhiyyə əlaçısı, "Şərəf nişanı" ordenli ali dərəcəli həkimdir. Digər qızı **Gülçöhrə xanım,** memarlıq elmləri doktoru, professor, millət vəkili və Azərbaycan İnşaat Mühəndisləri və Arxitektura Universitetinin rektorudur. Oğlu Tofiq mühəndis, qızı Leyla xanım biologiya ixtisaslı müəllimdir.

TEYMUR ƏKBƏR OĞLU ƏHMƏDOV



1918-ci ildə azərbaycanlıların soyqırımı zamanı hamı kimi, onların da ailəsi doğma yurdundan didərgin salınmış, əvvəl Cənubi Azərbaycana pənah aparmış, sonra Gəncəyə, Şəmkirə köçmüş, axırda yenidən İrəvana qayıtmışlar.

Teymur Əhmədov 1930-cu il dekabrın 25-də Şəmkir şəhərində anadan olmuş, kiçik yaşlarından atasını itirmiş, anasının və böyük qardaşı İbrahimin himayəsində böyümüş, 1949-cu ildə Uluxanlı orta məktəbini qızıl medalla bitirmişdir. 1954-cü ildə Bakıda ADU-nun filologiya fakültəsində təhsilini başa vurub, İrəvana qayıtmış, 1954-1961-ci illərdə "Sovet Ermənistanı" qəzetində müxtəlif vəzifələrdə işləmişdir.

Ədəbi fəaliyyətə 1954-cü ildə başlamış, oçerk, hekayə və ədəbi-tənqidi məqalələri "Sovet Ermənistanı" qəzetində və "Ədəbi Ermənistan" almanaxında nəşr olunmuşdur.

1961-ci ildə İrəvanda "Ülkər" və "Dostluq nəğməkarı" adlı kitab-

ları işıq üzü görmüş, həmin il Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitunun aspiranturasına daxil olmuş, 1966-cı ildə "Nəriman Nərimanovun dramaturgiyası" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

1965-1968-ci illərdə "Azərbaycan" jurnalının tənqid və ədəbiyyatşünaslıq şöbəsinin müdiri vəzifəsində işləyən T.Əhmədov həm də "Qriboyedov və Zaqafqaziya mədəniyyəti" (1962), "Erməni yazıçıları Səməd Vurğun haqqında" (1967) kitablarını nəşr etdirmişdir.

1970-1990-cı illərdə onun daha bir neçə kitabı nəşr olunmuşdur: "Nəriman Nərimanovun dramaturgiyası" (1972), "Nəriman Nərimanov" albom-kitabı (1977), "Dostluq duyğuları" (1979), "Nəriman Nərimanov" (1982), "Süleyman Rüstəm" (1982), "Dostluq səhifələri" (1985), "Səməd Vurğun" (1986), "Azərbaycan Sovet yazıçıları" (1987), "Nəriman Nərimanovun yaradıcılıq yolu" (1990) və s.

1988-ci ildə "Nəriman Nərimanovun həyatı və yaradıcılığı" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, 1993-cü ildə professor adına layiq görülmüşdür. 1992-ci ildən Azərbaycan EA Milli Münasibətlər İnstitutunda şöbə müdiridir. "Vətən səsi", "Vətən həsrəti", "Hikmət", "Yeni fikir" qəzetlərinin baş redaktoru olmuşdur. 1996-cı ildən Ədəbiyyat İnstitutu Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinə rəhbərlik edir və hazırda həm də "Respublika" qəzetinin baş redaktorudur.

HƏSƏN MƏHƏRRƏM OĞLU RZAYEV



1927-ci ildə Uluxanlı kəndində anadan olmuş, 1945-1950-ci illərdə Azərbaycan Dövlət Universitetində təhsil almış, elə o vaxtdan ömrünün sonuna qədər milis orqanlarında çalışmışdır.

1950-ci ildə leytenant rütbəsi ilə Ələt dəmiryol stansiyasının mühafizə şöbəsində əmək fəalliyyətinə başlayan H.Rzayev Azərbaycan SSR DİN-də Nəqliyyatda Daxili İşlər İdarəsinin 1975-1979-cu illərdə rəis müavini, 1979-1983-cü illərdə rəis əvəzi vəzifələrinə və milis polkovniki rütbəsinə qədər yüksəlmişdir. Fəaliyyəti dövründə müxtəlif orden və medallarla təltif olunmuş, 1976-cı ildə Azərbaycanın Əməkdar hüquqşünası adına layiq görülmüşdür.

1983-cü il fevralın 6-da dünyasını dəyişmişdir.

SABİR TAĞI OĞLU NAĞIYEV



1929-cu ilin martında Uluxanlı kəndində anadan olmuş, 1955-ci ildə Azərbaycan Dövlət Politexnik İnstitutunu bitirmiş, 1955-1957-ci illərdə təyinatla Ukraynanın Donetsk vilayətinin Qorlovka şəhərində işləmişdir.

Azərbaycana qayıtdıqdan sonra Respublika DTK sistemində işə qəbul edilmiş, DTK-nin Culfa şəhər və Zəngilan rayon şöbələrində xidmət etmişdir.

S.Nağıyev az sonra mühəndislik ixtisası üzrə işə keçərək Azərbaycan SSR Mənzil Kommunal Təsərrüfatı Nazirliyinin Təmir-mexaniki zavodunda əvvəl baş usta, 1962-ci ildən baş mühəndis vəzifələrində çalışmışdır. 1964-cü ildən bu günə qədər həmin zavodun direktorudur.

S.Nağıyevin əməyi layiqincə qiymətləndirilərək o, "Qırmızı Əmək Bayrağı" (2 dəfə), "Xalqlar dostluğu" ordenləri və beş medalla təltif edilmişdir.

O, həmçinin Azərbaycan Respublikasının Əməkdar mühəndisi fəxri adına layiq görülmüş, Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin iki dəfə (1975, 1980) iştirakçısı olmuş, sərginin qızıl və gümüş medallarını almışdır.

Üç övlad atasıdır. Övladlarının hamısı ali təhsillidir. Nəvələri var.




Oğlu TAĞI SABİR OĞLU NAĞIYEV

1960-cı il yanvarın 10-da Bakı şəhərində anadan olmuş, 1982-ci ildə Azərbaycan Neft-Kimya İnstitutunu bitirmişdir.

Bir müddət Azərelektroterm İstehsalat Birliyində mühəndis işləyən T.Nağıyev 1985-ci ildən DTK orqanlarında xidmətə başlamış, 1991-1992-ci illərdə Gədəbəydə xidmət edərkən məşhur Başkənd əməliyyatının uğurla başa çatmasında, bu Azərbaycan kəndinin erməni daşnaklrından təmizlənməsində xidməti olmuşdur.

1993-1994-cü illərdə Yardımlıda MTN rayon şöbəsinin rəisi işləyən T.Nağıyev hazırda müvafiq nazirlikdə xidmətini davam etdirir. Təhlükəsizlik polkovnikidir.

RƏHİM ABBAS OĞLU ŢEYİBOV



1929-cu ildə Uluxanlı kəndində anadan olmuş, 1949-cu ildə Uluxanlı orta məktəbini, 1955-ci ildə Azərbaycan Tibb İnstitutunu bitirmişdir.

Bir müddət Yevlax və Şəmkir rayonlarında həkim işləmiş, 1963-cü ildə Tibb İnstitutunun aspiranturasına daxil olmuş, dissertasiya müdafiə edərək 1967-ci ildə tibb elmləri namizədi alimlik dərəcəsi almışdır.

1968-ci ildən Tibb İnstitutunda əvvəl assistent, sonra baş müəllim, dosent, dekan müavini, kafedra müdiri vəzifələrində işləmiş, 1989-cu ildə "Səhiyyə əlaçısı" adına layiq görülmüşdür.

Farmakologiyaya aid ilk milli dərsliyin, bir neçə kitabın və 60 elmi məqalənin müəllifidir.

ORUC BAYRAM OĞLU İSMAYILOV



1930-cu ildə Uluxanlı kəndində anadan olmuşdur.

1948-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutuna qəbul olunmuş, dörd il burada oxuyandan sonra təhsilinin qalan iki ilini Hərbi Tibb Akademiyasının Xarkov filialında davam etdirmişdir. 1954-1958-ci illərdə orduda hərbi həkim (tibb məntəqəsinin rəisi, alayın baş həkimi və hərbi dəniz donanmasında divizion həkimi) vəzifəsində çalışmışdır.

Ordudan tərxis olunduqdan sonra Bakı səhiyyə sistemində poliklinikanın baş həkimi, səhiyyə şöbəsinin müdiri (Əzizbəyov rayonu) və təcili yardım stansiyasının baş həkimi vəzifələrində işləmişdir.

1960-cı ildə Azərbaycan EA Fiziologiya İnstitutunun aspiranturasına qəbul olunmuş, dissertasiya müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi almışdır. 1963-cü ilin noyabrından Tibb İnstitutunun Mərkəzi Elmi Tədqiqat Laboratoriyasında (METL) baş elmi işçisi,

1970-ci ildən normal fiziologiya kafedrasının dosenti, 1974-cü ildən həmçinin METL-nin rəhbəri vəzifəsində işləmişdir.

O.İsmayılov hazırda fiziologiya kafedrasının dosenti vəzifəsində çalışır.

YUNİS KAZIM OĞLU ƏLƏŞRƏFOV




1933-cü il dekabrın 24-də anadan olmuşdur.

1952-ci ildə Uluxanlı kənd orta məktəbini, 1956-cı ildə Tiflis Hərbi Artilleriya məktəbini müvəffəqiyyətlə bitirmiş, Sovet ordusu tərkibində Uraldan başlayaraq, Monqolustana, Macarıstana, Almaniyaya qədər uzun hərbi qulluq yolu keçmiş, xidmətini Bakı şəhərində polkovnik rütbəsi və artilleriya rəisi vəzifəsində başa vurmuşdur.

Hazırda təqaüddədir.

FƏRRUX MƏMMƏD OĞLU MƏMMƏDOV



1938-ci il dekabrın 29-da İrəvan şəhərində müəllim ailəsində anadan olmuşdur.

Sonra ailə həmişəlik Uluxanlı kəndinə köçmüş və balaca Fərrux 1945-ci ildə Uluxanlı orta məktəbinə daxil olmuş, lakin deportasiya ilə əlaqədar təhsilini 1951-ci ildə Azərbaycan SSR-nin Xaldan orta məktəbində davam etdirmişdir. 1955-ci ildə orta məktəbi, 1960-cı ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirmiş, Azərbaycan EA Nəbatat İnstitutuna elmi işçi vəzifəsinə qəbul edilmişdir.

1963-cü ildə aspiranturaya daxil olmuş və üç il müddətinə Rusiya EA-nın baş Nəbatat bağına ezam edilmişdir.

1967-ci ildə Azərbaycan EA Nəbatat İnstitutunda dissertasiya müdafiyə edərək biologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

1967-1982-ci illərdə Nəbatat İnstitutunda kiçik elmi işçi, institutun Mərdəkandakı dendroloji bağında baş elmi işçi və Bitki introduksiyası və iqlimləşdirilməsi şöbəsinin rəisi vəzifələrində çalışmışdır.

1982-1991-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Bağçılıq, Çayçılıq və Subtropik Bitkilər İnstitutunun direktoru, sonradan isə Elm-İstehsalat Birliyi kimi fəaliyyət göstərdiyindən, onun baş direktoru vəzifələrində çalışmışdır.

Elmi müəssisələrdə çalışdığı dövrdə apardığı tədqiqat işlərinin nəticələri 115 elmi əsərdə, 6 kitabçada, 3 monoqrafiyada və son vaxt-lar çapdan çıxmış "Dendrologiya" dərsliyində öz əksini tapmışdır.

1991-ci ildən 2001-ci ilədək Azərbaycan Meşə Təsərrüfatı İstehsalat Birliyində ("Azərbmeşə İB" aparıcı aqronom vəzifəsində çalışmışdır.

Evlidir, iki övladı var. Hər ikisi ali təhsillidir.

ZAKİR MƏHƏRRƏM OĞLU RZAYEV



1940-cı ildə Uluxanlı qəsəbəsində anadan olmuş, 1957-ci ildə Uluxanlı orta məktəbini, 1962-ci ildə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsini bitirmişdir.

1963-cü ildə Moskvada aspiranturaya daxil olmuş və 1967-ci ildə polimerlər kimyası üzrə dissertasiya müdafiə edərək kimya elmləri namizədi alimlik dərəcəsi almışdır.

1968-1992-ci illərdə Azərbaycan EA Polimer Materiallar İnstitutunda baş elmi işçi, laboratoriya müdiri, elmi işlər üzrə direktor müavini vəzifələərində çalışmışdır. Bu illərdə respublikada elmi-təşkilati işlərlə yanaşı, bir çox Ümumittifaq (22) və Beynəlxalq (18) konqres və simpoziumlarda 50-yə yaxın məruzə ilə çıxış etmiş, 23 elmlər namizədi, 2 elmlər doktoru yetişdirmişdir.

1983-cü ildə Moskva Dövlət Universitetində dissertasiya müdafiə edib, kimya elmləri doktoru alimlik dərəcəsi almış, 1984-cü ildə professor adına layiq görülmüşdür.

1992-ci ildə Türkiyədən dəvət almış və orada professor kimi elmi-pedaqoji fəaliyyətə başlamışdır.

Professor Z.Rzayev hazırda 3 kitabın (2-i rus, 1-i ingilis dilində), 200-dən çox məqalənin (75-i ingilis dilində), 80 ixtira və xarici paten-


tin müəllifidir.

Həyat yoldaşı **Zenfira Rzayeva** ADU-nun kimya fakültəsini və Azərbaycan EA aspiranturasını bitirmiş, 1972-1992-ci illərdə Kimya Texnologiyasının Nəzəri Problemləri İnstitutunda elmi işçi vəzifəsində işləmişdir. 1993-cü ildən Türkiyədə çalışır və elmi işlərini davam etdirir.

Qızı **Ləman Rzayeva** 1996-cı ildə Orta Doğu Texniki Universitetinin sosiologiya fakültəsini (ingilis dilində), 2001-ci ildə həmin universitetin aspiranturasını bitirmişdir və hazırda təhsilini davam etdirir.

Oğlu **Cavid Rzayev** 1998-ci ildə Orta Doğu Texniki Universitetinin kimya və bilgisayar mühəndisliyi fakültəsini (ingilis dilində) fərqlənmə ilə bitirmiş, bu uğuruna görə prezident.Heydər Əliyev tərəfindən mükafatlandırılmışdır. Həmin il ABŞ universitetlərinin birində doktoranturaya daxil olan C.Rzayev hazırda orada təhsil alır.

ABBAS MƏMMƏD OĞLU QULİYEV



1940-cı il noyabrın 13-də Uluxanlıda anadan olmuşdur.

1957-ci ildə Uluxanlı orta məktəbini, 1962-ci ildə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsini bitirmiş, təyinatla Sumqayıt Kimya zavoduna işə göndərilmişdir.

1964-cü ildə Leninqradda SSRİ EA-nın Yüksəkmolekullu Birləşmələr İnstitutunun aspiranturasına daxil olmuş, dissertasiya müdafiə edərək kimya elmləri namizədi alimlik dərəcəsi almışdır. 1968-93-cü illərdə Azərbaycan EA Polimer Materialları İnstitutunda əvvəl kiçik elmi işçi, sonra böyük elmi işçi və nəhayət, laboratoriya müdiri vəzifələrində işləmişdir.

1987-ci ildə doktorluq dissertasiyası müdafiə etmiş, 1989-cu ildə prfessor elmi adına layiq görülmüşdür.

Professor A.Quliyev "İzomerizasion polimerləşmə" laboratoriyasına rəhbərlik etməklə yanaşı, 1993-cü ildən etibarən həm də institutun elmi işlər üzrə direktor müavini vəzifəsində çalışır. Üzvi kimya və Yüksəkmolekullu birləşmələr kimyası sahələrində tanınmış alimdir. Elmi yaradıcılığının nəticələri 220-dən artıq elmi əsərdə, o cümlədən 60-a yaxın ixtirada öz əksini tapmışdır. Əsərləri respublikanın, MDB-nin və

dünyanın bir sıra dövlətlərinin nüfuzlu jurnallarında dərc edilmişdir.

Dəfələrlə Ümumittifaq və Beynəlxalq konfrans və konqreslərdə yüksək səviyyəli elmi məruzələrlə çıxış etmiş, onun rəhbərliyi altında 10 namizədlik dissertasiyası müdafiə olunmuşdur.

ZEYNALABDİN RZA OĞLU ƏSGƏROV



1941-ci il mayın 18-də Uluxanlı kəndində anadan olmuşdur.

1950-ci ildə Azərbaycan SSR Salyan rayonunun 1 №-li sovxozunun 3 №-li şöbəsinə deportasiya olunmuşlar. 1958-ci ildə Bakı dənizçilik məktəbini bitirib Xəzər dəniz gəmiçiliyində işləmişdir.

1963-cü ildə Tiflis Hərbi Artilleriya Məktəbinə daxil olmuş, 1966-cı ildə həmin məktəbi bitirdikdən sonra Uzaq Şərq Hərbi Dairəsinə taqım komandiri vəzifəsinə təyin olunmuş, sonra batareya komandiri və hərbi hissə komandirinin müavini vəzifələrində qulluq etmişdir.

1986-cı ildə Sovet İttifaqı Silahlı Qüvvələri sırasından tərxis olunmuşdur.

1991-ci ildən ilk Azərbaycan Milli Ordusunun yaradılmasının iştirakçısı olmuş, ordu quruculuğu sahəsində məsul vəzifələrdə qulluq etmiş, Kəlbəcər, Ağdərə, Laçın və başqa döyüş bölgələrində erməni daşnaklarına qarşı döyüşmüşdür.

1992-ci ilin iyul-avqust aylarında gedən döyüşlərdə Umudlu kəndində mühasirəyə düşmüş 83 nəfər əsgər və zabitimizi mühasirədən çıxarıb, bütün silah və sursatla itkisiz Goranboya gətirdiyi üçün polkovnik-leytenant rütbəsinə layiq görülmüşdür.

Sonralar bir neçə il Azərbaycan Müdafiə Nazirliyi sisteminin müxtəlif strukturlarında rəhbər vəzifələrdə çalışmışdır.

1996-cı ildə Ali Hərbi dənizçilik məktəbinə baş müəllim vəzifəsinə təyin olunmuş, həmin ilin dekabr ayında Azərbaycan ordusu sıralarından tərxis olunmuşdur.

NAZİM MİR KƏRİM OĞLU SEYİDOV



1941-ci il aprelin 23-də anadan olmuşdur.

1958-ci ildə Uluxanlı kənd orta məktəbini, 1960-cı ildə Bakı Dənizçilik məktəbini bitirmiş, Xəzər Dəniz Neft Donanmasında müxtəlif vəzifələrdə çalışmışdır.

1969-1973-cü illərdə həmin donanmanın Komsomol Komitəsinin 1-ci katibi olmuş, 1973-1977-ci illərdə Bakı Ali Partiya Məktəbində əyani təhsil almışdır.

1977-1992-ci illərdə Daxili İşlər Nazirliyi sistemində rəis müavini vəzifəsində çalışmışdır. Hazırda təqaüddədir.

Ailəlidir, iki oğlu, bir qızı, dörd nəvəsi var.

RƏHİM ƏKBƏR OĞLU XUDAVERDİYEV



1949-cu il aprelin 13-də anadan olmuşdur.

1966-cı ildə Uluxanlı orta məktəbini, 1968-ci ildə Bakıda 4 saylı texniki-peşə məktəbini, 1978-ci ildə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsini bitirmişdir.

Uzun illər Bakı şəhərində müxtəlif işlərdə işləmiş, 1979-cü ildən taleyini Azərbaycan EA Qeyri-üzvi və Fiziki Kimya İnstitutu ilə bağlamış, burada mühəndis, böyük mühəndis, aparıcı mühəndis, kiçik elmi işçi vəzifələrində çalışmışdır. Hazırda həmin institutun böyük elmi işçisidir.

1997-ci ildə dissertasiya müdafiə edərək kimya elmləri namizədi alimlik dərəcəsi almışdır. 20-yə yaxın elmi məqalənin müəllifidir.

Ailəlidir, iki oğlu var.

MÜSLÜM ƏSƏD OĞLU HƏSƏNOV



1950-ci ildə Uluxanlı kəndində anadan olmuş, Bakı şəhərində əvvəl Texnologiya Texnikumunu, sonra Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir.

M.Həsənov xalq təsərrüfatının müxtəlif sahələrində məsul vəzifələrdə işləmişdir. O cümlədən Azərbaycan DİN Yanğından Mühafizə İdarəsinin 3 saylı ixtisaslaşdırılmış hissəsində rəis, Azərbaycan Sənaye-Tikinti Nazirliyində beton və beton məmulatlarının keyfiyyəti üzrə mühəndis, sonra böyük mühəndis, əməyin təşkili və ödənilməsi şöbəsində mühəndis və böyük mühəndis, Azərbaycan SSR Maliyyə Nazirliyi Nəzarət-Təftiş İdarəsinin Suraxanı rayonu üzrə böyük nəzarətçi müfəttiş, sonra Suraxanı rayon Maliyyə İdarəsinin rəisi vəzifələrində işləmişdir. Hazırda Sabunçu rayon Maliyyə İdarəsində çalışır.

M.Ə.Həsənov daim ibadətlə məşğul olan ziyalılarımızdandır. O, Kərbəlada, Nəcəfdə, Məşhəddə və digər müqəddəs yerlərdə ziyarətdə olmuşdur.

FİRUDİN SƏFƏR OĞLU HÜSEYNOV



1954-cü ildə Uluxanlı kəndində anadan olmuşdur.

1976-ci ildə Bakı Dövlət Universitetinin fizika fakültəsini bitirmiş, 1982-ci ildə Moskva Dövlət Universitetində dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır. Metallar fizikası sahəsində mütəxəssisdir.

23 ixtiranın, 45 elmi məqalənin müəllifidir.

Azərbaycan Milli Elmlər Akademiyasının "Kristal" təcrübə zavodlu XKTMV-da laboratoriya müdiri, 1990-cı ildən "Metal" Elmi-Texniki Mərkəzinin direktoru vəzifəsində işləyir.

GÜLÇÖHRƏ HÜSEYN QIZI MƏMMƏDOVA



1953-cü ml aprelin 12-də Vedi rayonunda anadan olmuşdur. 1961-ci ildən İrəvan şəhərinin 8 saylı orta məktəbində, 1970-ci ildə valideynləri ilə birlikdə Bakı şəhərinə köçüb, 1971-ci ildə burada 10 saylı orta məktəbi bitirmişdir. Həmin il Azərbaycan Politexnik İnstitutunun memarlıq fakültəsinə daxil olmuş, 1975-ci ildə Azərbaycan Politexnik İnstitutunun komsomol komitəsinin katib müavini seçilmişdir.

1975-ci ilin iyun ayında Azərbaycan Politexnik İnstitutunun bazasında yeni ali təhsil ocağı – Azərbaycan İnşaat Mühəndisləri İnstitutu yaranmış və G.Məmmədova İnstitutun komsomol komitəsinin katibi seçilmiş, 1979-cu ilə qədər həmin vəzifədə işləmişdir.

1976-cı ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun memarlıq fakültəsini bitirən G.Məmmədova, 1979-cu ildə həmin İnstitutun "Memarlıq konstruksiyaları və abidələrin bərpası" kafedrasında işə başlamış, 1985-ci ildə nnamizədlik dissertasiyası müdafiə etmişdir.

1983-1988-ci illərdə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun partiya komitəsinin katib müavini vəzifəsində işləmiş, 1991-ci ildə dosent elmi adına layiq görülmüşdür.


Elmi fəaliyyəti Qafqaz Albaniyasının memarlığı və Azərbaycan ərazisində xristian dini memarlığının tədqiqi ilə bağlıdır. Bir çox abidələrin elmi rekonstruksiya layihələrini işləmişdir.

50-yə yaxın elmi və metodik işin müəllifidir. O cümlədən, "Qafqaz Albaniyasının dini memarlığı" (rus dilində) adlı monoqrafiyası, "Azərbaycanın qədim və ilkin orta əsrlər memarlığı" və digər işləri nəşr edilmişdir.

2000-ci ilin yanvar ayında Azərbaycan İnşaat Mühəndisləri Universitetinin rektoru təyin edilmiş, 2000-ci ilin oktyabr ayında Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir. Elm və Təhsil Komissiyasının üzvü, memarlıq elmləri doktoru, professordur.

Ailəlidir. 2 övladı var.

ELDAR HÜSEYN OĞLU HƏSƏNOV



Babası Həsən Həsənov, atası Hüseyn Həsənov Zəngibasarın tanınmış şəxsiyyətlərindən olmuşlar.

Eldar Həsənov 1957-ci il mayın 22-də Uluxanlı kəndində anadan olmuşdur.

1973-cü ildə Uluxanlı kənd orta məktəbini bitirmiş, 1975-ci ildə hərbi xidmətə çağırılaraq üç il Hərbi Dəniz Donanmasında qulluq etmişdir.

1978-1983-cü illərdə Bakıda Xalq Təsərrüfatı İnstitutunda təhsil alıb, iqtisadçı-əmtəəşünas ixtisasına yiyələnmişdir.

1983-1992-ci illərdə Bakı şəhərindəki "Moskva" univermağında şöbə müdiri, 1992-1995-ci illərdə "Azərbalıq" Dövlət Konserninin əvvəl sədr müavini, sonra idarə rəisi vəzifələrində çalışmışdır.

İlk gündən Azərbaycan xalq hərəkatının fəal iştirakçısı olmuş, bu hərəkat üçün özünün bütün maddi və mənəvi imkanlarını sərf etmiş, həmçinin qaçqın, köçkün, şəhid və imkansız ailələrə dəfələrlə təmənnasız yardım etmişdir.

1989-1991-ci illərdə erməni mühasirəsində qalan, erməni daşnaklarına qarşı mərdliklə mübarizə aparan Nüvədi kəndində dəfələrlə olmuş, Nüvədi müdafiəçilərinə xeyli miqdarda maddi və ərzaq yardımları göstərmişdir.

Ailəlidir, üç oğul atasıdır.

Eldar müəllim həm də öz böyük milli qeyrəti, el-oba təəssübkeşliyi ilə çoxlarına örnəkdir.

ORUCƏLİ HÜSEYNQULU OĞLU RZAYEV



1956-cı ilin mayında Uluxanlı kəndində anadan olmuşdur.

1973-cü ildə orta məktəbi, 1977-ci ildə H.Zərdabi adına GDPİ-nin fizika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə başa vurmuş, institutun riyazi-analiz kafedrasında fəaliyyətə başlamışdır.

1984-cü ildən texniki təlim laboratoriyasında baş loborant, 1988-ci ildən ÜTF kafedrasında müəllim, 1990-cı ildən mühəndis-pedaqoji fakültədə dekan müavini, 1991-ci ildən ÜTF kafedrasında baş müəllim vəzifələrində çalışmışdır. 1994-cü ildən ÜTF kafedrasının dosenti, 1996-cı ildən ÜTF kafedrasının müdiri, 1997-ci ilin noyabrından institutun tədris işləri üzrə prorektoru vəzifələrində işləyir.

1987-ci ildən fizika-riyaziyyat elmləri namizədidir. 20-dən artıq elmi məqaləsi dərc olunub.

NADİR MİRKƏRİM OĞLU SEYİDOV



1960-cı ildə Uluxanlıda anadan olmuşdur.

Uluxanlı orta məktəbini əla qiymətlərlə, Azərbaycan Mülki Dənizçilik məktəbini qırmızı diplomla bitirdikdən sonra bir müddət işləmiş, təhsilini davam etdirmək üçün Leninqrada – SSRİ Ali Maşınqayırma Mühəndisləri İnstitutuna göndərilmişdir. Orada Leninqrad Vilayət Daxili İşlər İdarəsində işləməyə dəvət edilmiş, Ali Mühəndislər İnstitutunu bitirdikdən sonra Rusiya Ali Milis Akademiyasına daxil olmuş və 1992-ci ildə oradakı təhsilini də əla qiymətlərlə başa vurmuşdur.

Hazırda Sankt-Peterburq şəhərinin ən böyük rayonlarından biri olan Nevski rayonunun cinayət axtarışı şöbəsinin rəisi vəzifəsində çalışır, milis polkovnik-leytenantıdır.

YENGİCƏ

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 10 km şimalda kənd.

Kənddə 1918-ci ilə qədər ancaq Azərbaycan türkləri, həmin tarixdən etibarən isə ermənilər yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Yenicə kəndi** kimi qeydə alınmışdır. Sonrakı mənbələrdə kəndin adı **Yengicə** kimi verilmişdir.

Türk dillərində **yeni//yengi** sözü təzə anlamında işləndiyindən **Yenicə//Yengicə** oykonimləri də, adətən, **Təzəkənd** mənasında başa düşülmüşdür. Keçmişdə hər hansı bir kənddən çıxan ailələr həmin kəndə məxsus torpaqlarda köçüb məskunlaşanda bu yeni kəndin adı Yengicə adlanırdı. Heç şübhəsiz, Zəngibasar mahalının Yengicə kəndi də bu mənada istisna təşkil etmir. Xatırladırıq ki, Şimali Azərbaycan ərazisində (Şərur, Ağdaş və s. rayonlarda) olduğu kimi, Qərbi Azərbaycanda da (Dərələyəz, Gərnibasar, Vedibasar, Dərəçiçək, Qırxbulaq mahallarında) Yengicə, Yenikənd, Yenicə adları ilə çoxlu kəndlər mövcud idi.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Yenicə kəndinin ərazisi **xass** (başda sultan olmaqla yüksək vəzifəli dövlət məmurlarına dirlik verilən torpaq sahələri) kimi qeydə alınmış, həmin xassdan dövlət xəzinəsinə ildə 17.000 ağça gəlir daxil olduğu göstərilmişdir.

Sonra uzun müddət statistik məlumatlarda kəndin adı çəkilmir. 1897-ci ildə isə kənddə cəmi 27 nəfər əhali siyahıya alınmışdır. Kənd əhalisinin sayı 1905-ci ildə 75 nəfərə, 1914-cü ildə 90 nəfərə çatmışdır.

1918-ci ildə kənd erməni daşnakları tərəfindən dağıdılmış, əhalisinin bir hissəsi qətlə yetirilmiş, sağ qalanlar doğma yurddan vəhşicəsinə qovulub çıxarılmışlar. O vaxtdan etibarən kənddə azərbaycanlıların evlərində Türkiyədən qaçıb gəlmiş ermənilər yerləşdirilmişlər.

Sovet hakimiyyətinin ilk illərində kəndin 1918-ci ildə didərgin düşmüş azərbaycanlı sakinlərindən az bir hissəsi geri qayıda

bilmişdir. 1922-ci ildə onların sayı 20 nəfər olmuşdur. Lakin artıq bu vaxt onların evlərində 62 nəfər erməni yaşayırdı. Bir müddət sonra azərbaycanlılar köçüb qonşu azərbaycanlı kəndlərinə getmiş, kənddə ancaq ermənilər yaşamışlar.

1978-ci il yanvarın 25-də kəndin adı dəyişdirilərək **Norabats** qoyulmuşdur.


* * *

Yengicə kəndi ilə Aşağı Necili kəndi arasındakı çöllük tarixən burada mövcud olmuş və sonralar xaraba qalmış **Qaratəpə** kəndinin adını daşıyır, Yengicə kəndi ilə Hacı Elləz kəndi arasındakı ərazi isə **Qumlaq** adlanırdı.

YUXARI NECİLİ (HƏSƏNƏVAR, PALASLI, BALAŞLI NECİLİ, NİZAMİ)

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı kəndindən 1,5 km şimalda, Zəngi çayının sol kənarında kənd.

Kənddə 1950-ci ilə qədər ancaq Azər türkləri (1828-çi ildən sonrakı qısa müddət istisna olmaqla), 1951-1988-ci illərdə azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar. 1988-ci ildə kənd bütünlüklə ermənileşdirilmişdir.



Yuxarı Necili kəndinin ümumi görünüşü

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Qıxbulaq nahiyəsində ərazisi xass torpaqları olan **Balaşlı Nəcli** adlı kənd qeydə alınmışdır. İ.Şopendə (1832) isə Zəngibasar mahalında **Necili** adlı iki kənddən bəhs olunur: **Aşağı Necili, Yuxarı Necili.** Sonrakı bütün mənbələrdə də kəndin adı **Yuxarı Necili** şəklindədir.

Lakin burada bir məqama aydınlıq gətirmək lazımdır. Məsələ ondadır ki, "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nəhiyəsində **Həsənəvar** adlı bir kənd qeydə alınmış, kəndin adının **Palaslı** olduğu göstərilmişdir. 1728-ci ilə aid icmal dəftərində isə Palaslı oykonimino ayrıca yox, məhz **Balaşlı Nəcli** şəklində rast gəlirik. Bu da **Necli tayfasının yaşadığı Balaşlı (Palaslı) kəndi** anlamındadır.

Palaslı//Balaslı//Balaşlı oykoniminin etimologiyası ilə bağlı onu deyə bilərik ki, erkən orta çağlarda Azərbaycanın Muğan düzündə **Balasakan** adlı şəhər olmuş, V-VII yüzilə aid mənbə-

lərdə (M.Xorenli, Bizanslı Favst və b.) hun şəhəri kimi xatırladılan bu yerin əhalisi **balasaçı** adlandırılmışdır. Adın tərkibində **sak** komponenti göz qabağındadır.

XVIII yüzildə İrəvan əyalətinin Sisian nahiyəsində də Balaşlı adlı kənd mövcud olmuşdur.

Necili toponimi, onun etimoloji izahı, yayılma arealı və s. haqqında isə mahalın Aşağı Necili kəndindən bəhs edərkən ətraflı söhbət açmışıq.

İ.Şopendə (1832) **Yuxarı Necili** kəndində 20 təsərrüfatda 155 nəfər (86 kişi, 69 qadın) Azər türkü, 14 təsərrüfatda 76 nəfər (38 kişi, 38 qadın) İrandan mühacirət etmiş gəlmə erməni qeydə alınmışdır.

1873-cü ilin statistik məlumatlarında Zəngi çayı kənarında mülkədar kəndi kimi siyahıya alınmış və kənddə 75 təsərrüfatda 540 nəfər (317 kişi, 223 qadın) Azər türkünün yaşadığı göstərilmişdir. 1873-cü ildə kənddə bir nəfər də ermənin qeydə alınmaması təsdiq edir ki, 1828-1829-cu illərdə kəndə köçürülən 76 nəfər İran ermənisi az sonra kəndi tərk edib, digər yaşayış məntəqələrinə getmişlər.

1886-cı ildə kənddə 101 təsərrüfatda 654 nəfər (376 kişi, 278 qadın) Azər türkü yaşamışdır ki, onların da 15 nəfərini (9 kişi, 6 qadın) bəy ailəsi üzvləri təşkil etmişlər.

1897-ci ildə kənddə 791 nəfər, 1905-ci ildə 933 nəfər, 1914-cü ildə 995 nəfər əhali yaşamışdır.

1918-ci ildə kəndə hücum edən erməni daşnak silahlı dəstələri kəndi talamış, əhalisinin bir hissəsini qətlə yetirmiş, sağ qalanlar Arazı keçib, Türkiyəyə, İrana mühacirət etmişlər. Kənd bir neçə il xaraba qalmış, yalnız Sovet hakimiyyətinin ilk illərində kəndin qaçqın əhalisinin bir hissəsi doğma yurda qayıtmaq imkanı əldə etmişdir. 1922-ci ildə onların sayı 319 nəfər, 1926-cı ildə 361 nəfər, 1931-ci ildə 379 nəfər olmuşdur. Əhali dağıdılmış, yandırılmış evlərini təzədən bərpa etmiş, kəndi abadlaşdırmışdır. 1930-cu illərdə kənddə kolxoz, 1950-ci illərdə sovxoz yaradılmışdır.

Xeyli inkişaf etmiş, özünün orta məktəbi, uşaq bağçası, mədəniyyət evi, kitabxanası, tibb məntəqəsi, rabitə şöbəsi, kino qurğusu, məişət xidməti emalatxanası və s. olan bu müasir kənd ermənilərə göz dağı olmaqda idi. Ona görə də kəndi tədricən ermənilәşdirmək məqsədilə bura 1951-ci ildə Ellər (Kotayk) rayo-

nunun Artız kəndindən 50 erməni ailəsi köçürülüb gətirilmişdir.

1978-ci il yanvarın 25-də kəndin Yuxarı Necili adı dəyişdirilərək **Nizami** qoyulmuşdur.

1988-ci il soyqırımı həmin ilin noyabrının sonunda Yuxarı Necili kəndini də haqlamış, rayonun bütün dövlət və inzibati orqanlarının iştirakı ilə kəndin azərbaycanlı əhalisi ermənilərə xas vəhşiliklə öz dədə-baba ocaqlarından qovulub çıxarılmışlar. Həmin hadisələr zamanı kəndin 1932-ci il təvəllüdlü sakini – **Mehdiyev Sabir Qurbanəli oğlu** ermənilər tərəfindən qətlə yetirilmişdir.

* * *

Yuxarı Necili kəndi Aşağı Necili, Zəngilər, Şorlu və Yengicə kəndləri ilə həmsərhəd idi. Kəndin sağ və solundan **Zəngi** və **Haramı** çayları axıb gedirdi. Münbit torpaqlı kənd bağ-bağçanın içində idi. Burada bir tərəfdən əzəmətli Ağrı dağları, digər tərəfdən məşhur Ələyəz dağı görünürdü.

"Hər gün kəndimizi xatırlayıram" adlı yazısında ("Ağrıdağ" qəz. 27 may – 2 iyun 1998-ci il) Yuxarı Necili kəndi haqqında yanğı ilə söz açan tədqiqatçı **Əsgər Zeynalov** kəndin yaxın tarixi barədə belə bir maraqlı fakta toxunur: "Yaşlı nəsil kəndin qəbiristanlıq yerini onların babalarının xanlıqdan qızıl pulla necə aldığını söyləyirdilər. Deyilənlərə görə, bu hadisə təxminən 300 il əvvəl baş vermişdi".

Yuxarı Necili kəndində keçmişdə 7 su dəyirmanı, 3 günlüklü hamam, 2 pambıq təmizləyən, mahlıc hazırlayan – ciyrıx, 3 çəltik və taxıl döyən – ding (Sürməlidən, İqdırdan buraya taxıl gətirib üyüdərdilər), bir qəbiristanlıq, bir məscid olmuşdur. Qəbiristanlıq zəvvar yolunun kənarında olduğu üçün ətraf kəndlərdən ən hörmətli adamların cənazələrini gətirib, burada dəfn edərdilər ki, zəvvarlar rəhmət oxusunlar.

Kənddə 36 çayxana, dükan, köşk olmuşdur. 1918-ci ildə Yuxarı Necili kəndində lövbər salan türk əsgərləri kəndi bu mənzərəsinə görə "bala İstanbul" adlandırmışdılar.

Kənd varlı olduğu üçün hər nəslin 4-5 hacısı, məşədisi, kərbəlayısı vardı.

Kəndin şeyxi **Mirzə Xəlil ağa** müctəhid idi, ali dini təhsil almışdı, rəhmətə gedəndə də Qum şəhərində dəfn olundu. **Hacı**

Axund İmran isə Nəcəf şəhərində ruhani təhsili almışdı və Necilidə, bütün Zəngibasarda böyük nüfuz, hörmət sahibi idi. **Məşədi Mirağa, Molla Süleyman** da kəndin din xadimləri olmuşlar.

1948-1953-cü illərdə Yuxarı Necili kənd əhalisinin bir hissəsi zorla Azərbaycana deportasiya olunmuş, Ucar rayonuna köçürülmüşlər. Lakin Zəngibasardan kəskin şəkildə fərqli iqlim şəraitinə uyğunlaşa bilməyən camaat bir müddət sonra geri qayıtmışdır.

Kəndin ilk ziyalıları sırasında **Seyfulla Məhərrəmovun** adını çəkmək olar. O, 30-cu illərdə Azərbaycan Dövlət Universitetini bitirmişdi. **Kərim Zeynalov** və **Məmmədhüseyn Əliyev** isə 30-cu illərin sonunda İrəvan Pedaqoji Texnikumunu bitirmişdilər.

Sonralar kənddən çoxlu ali təhsilli mütəxəssislər, alimlər çıxdı. Onlardan **Adil Bağırov** texnika elmləri namizədi, **Məmməd Babayev** kənd təsərrüfatı elmləri namizədi, **Şücaət Əliyeva, Məmmədbağır Bağırov** və **Cahangir Qasımov** tibb elmləri namizədləri, **Əsgər Zeynalov** filologiya elmləri namizədi, **Gülnarə Mehdiyeva** fizika-riyaziyyat elmləri namizədi, **Sevil Məmmədova** biologiya elmləri namizədidir.

M.Bağırov Moskvada cərrah işləyir və bu şəhərdə Azərbaycan diasporunun rəhbəridir.

Yuxarı Necili kəndinin qadın ziyalılarından **Zeynəb Qasımovanın** respublika mətbuatında 50-yə qədər elmi-publilisist məqaləsi dərc olunmuşdur.

Ayrı-ayrı vaxtlarda **Məmməd Babayev, Hüseyn Məmmədov, İsmayıl Quliyev, Kərəm Kazımov, Rauf Bağırov** (sonuncu – 1988-ci ilə qədər) kənddə kolxoz-sovxoz rəhbəri, **Abbasəli Əsgərov, Bağır Bağırov, Əbülfət Əliyev, Xaqani Tanrıverdiyev** (sonuncu – 1988-ci ilə qədər) kənd sovetinin sədri, **Qadir Məmmədov, Səftər Abbasov, İbrahim Xəlilov, Ramiz Nağıyev, Bahəddin Məmmədov, Əkbər Əsgərov** (sonuncu – 1988-ci ilə qədər) məktəb direktoru işləmişlər.

Yuxarı Necili kəndinin yetirmələri sırasında respublika Ali Sovetinin əməkdaşı olmuş **İnqilab Süleymanovun,** "Gülüstan" sarayının müdiri **Kazım Qurbanovun,** Bakı şəhər polis idarəsinin keçmiş məsul işçisi polkovnik **Vaqif Quliyevin,** mərhum cərrah **Əli Hüseynovun,** uzun illər Zəngibasar rayon mülki-müdafiə şöbəsinin müdiri olmuş mayor **Musa Musayevin,** Azər-

baycan Tibb Universiteti həmkarlar təşkilatının sədri **Cahangir Qasımovun** və digərlərinin adlarını çəkmək olar.

Xədicə İbrahimova, Tinatin Musayeva, Fəridə Novruzova ayrı-ayrı vaxtlarda Ermənistan SSR Ali Sovetinin deputatı olmuşlar.

Yuxarı Necili kəndindən əməkdar məşqçi, idman ustası, boksçu **Süleyman Süleymanov,** güləşçilər **Heydər** və **Şahin** qardaşları, samboçu **Müşviq Bağırov,** yüngül atlet **Nəhayət Məmmədova** kimi idmançılar çıxmışlar.

Yuxarı Necilinin vətənpərvər oğulları Azərbaycanın milli azadlıq hərəkatında da fəal iştirak etmişlər. O vaxtlar (1988-1990-cı illərdə) 22-23 yaşlı **Köçəri Nağıyev** xalq hərəkatının radikal qanadı olan "Zəngəzur" adlı cəmiyyət yaratmış və onun rəhbərliyi altında bu cəmiyyət Qərbi Azərbaycan ərazisindən qovulub çıxarılmış qaçqın soydaşlarımızın yerləşdirilməsində mühüm rol oynamışdır. Tam cəsarətlə demək olar ki, o vaxt bu Cəmiyyətin radikal addımları olmasa idi, əlaltdan silahlanmaqda olan Bakı erməniləri bu şəhərdə azərbaycanlıların 1918-ci il qətlini yenidən təkrar etmək imkanı qazanacaqdılar.

Yuxarı Necili kəndinin 50-dən çox oğlu Qarabağ müharibəsində igidliklə döyüşmüşdür. Ümumiyyətlə, Qarabağ müharibəsi başlayandan bu kənd [illərdə] 8 nəfər şəhid vermişdir. Onlardan 4-ü (Nemət, Arif, Cəlil, Əli) Bakının Şəhidlər Xiyabanında uyuyurlar.

Gəncə cəsuru kimi tanınan **Bəxtiyar Əliyev** isə Todan döyüşündə öz yoldaşlarını xilas edərkən təsadüfən əsir düşmüş, ermənilər onun ayağının altına mıx çalaraq, əziyyətlə öldürmüş, amma iradəsini qıra bilməmişdilər.

Yuxarı Necilinin igid oğlu **Sahil Məmmədov** göstərdiyi hünərə görə **Azərbaycanın Milli Qəhrəmanı** adına layiq görülmüşdür.

Yuxarı Necili kəndinin qeyrətli gənclərindən **Cəlal Vaqif oğlu Allahverdiyev** 1972-ci ildə Yuxarı Necili kəndində anadan olmuş, 1988-ci il hadisələri ilə əlaqədar Bakı şəhərində məskunlaşmışlar. Burada Azərbaycan Dillər Universitetinin ingilis-fransız dilləri fakültəsinə daxil olmuş, institutda oxuduğu müddətdə fakültə həmkarlar təşkilatının sədri, institut gənclər təşkilatının sədri işləmiş, Nəsimi rayon gənclərinin ideya-siyasi fikrinin formalaşmasındakı fəaliyyətinə görə Nəsimi rayon İH tərəfindən mükafata layiq görülmüşdür. C.Allahverdiyev Bakı Slavyan Uni-

versitetinin magistraturasını bitirmişdir. Hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin Azərbaycan dili kafedrasının əməkdaşı, universitetin YAP ərazi ilk partiya təşkilatının sədr müavinidir. Qərbi Azərbaycanlıların deportasiyası və soyqırımı ilə bağlı bir sıra tədbirlərin təşəbbüskarı və təşkilatçısı olmuşdur.

KƏNDİN TAYFALARI

Cəfərbəylilər, Niyazlılar, Haqverdilər, Hacırzalar, Cahangirlilər, Hacıməmədqulular, Hacıəlilər, Hacıibrahimlər, Kərimlər.

KƏNDİN TOPONİMLƏRİ

Əmrahın bulağı, Dəyirmanın dalı, Haramının üstü, Zənginin yanı, Hacıelləz qabağı, Yenicənin altı,

QARABAĞ MÜHARİBƏSİ ŞƏHİDLƏRİ


1. Sara Səfər qızı Hüseynova (1966, Y.Necili – 1992, Xocalı)
2. Natəvan Pənah qızı Hüseynova (1985, Y.Necili – 1992, Xocalı)
3. Nemət Rəcəb oğlu Quliyev (1965, Y.Necili – 1992, Ağdərə)
4. Arif Əli oğlu Qəmbərov (1954, Y.Necili – 1992, Ağdərə)
5. Bəxtiyar Nadir oğlu Əliyev (1965, Y.Necili – 1992, Goranboy)
6. Mirəziz Miriş oğlu Kərimov (1964, Y.Necili – 1993, Ağdərə)
7. Əli Səfər oğlu Hüseynov (1955, Y.Necili – 1993, Ağdam)

Yuxarı Necili kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı

Poçt – 1
Əczaxana – 1
Yeməkxana – 1
Kitabxana – 1
Məktəb – 1
X/b mal-qara – 130
İ/b mal-qara – 120
K/t maşınları – 21

Avtobus – 1
Avtomaşınlar (yük, minik) – 12
Məscid – 1
Ambar binaları – 3
Ding və dəyirman – 1
Transformator – 2
Quşçuluq ferması – 1
X/b mal-qara tövləsi – 3
İ/b mal-qara tövləsi – 3
Həkim məntəqəsi – 1
Xəstəxana – 1
Uşaq bağçası – 1
İdarə binası – 1
Kino binası – 1
Mədəniyyət evi – 1

ƏSGƏR MƏMMƏD OĞLU ZEYNALOV



1951-ci il sentyabrın 27-də Yuxarı Necili kəndində anadan olmuşdur. 1969-cu ildə orta məktəbi, 1974-cü ildə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun fransız dili fakültəsini bitirmişdir. Azərbaycanın Ağdərə rayonunun Manikli və Xatınbəyli kəndlərində, Zəngibasar rayonunun Yuxarı Necili kəndində müəllim işləmişdir.

1988-ci ildə Qarabağ hadisələri ilə əlaqədar doğma kəndindən köçmək məcburiyyətində qalmış, Xırdalan qəsəbəsində məskunlaşmışdır. 1989-cu ildən Azərbaycan Dövlət Pedaqoji Xarici Dillər Universitetinin praktik fransız dili kafedrasında laborant, baş laborant, müəllim, baş müəllim, dosent vəzifələrində çalışmışdır.

1991-ci ildə "Azərbaycan bayatıları Qafqaz regionunda" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1998-ci ildən Azərbaycan Dillər Universitetinin praktik fransız dili kafedrasının müdiridir. Eyni zamanda, Azərbaycan MEA Beynəlxalq Münasibətlər İnstitutunun baş

elmi işçisidir.

Ə.Zeynalov 200-dən çox elmi-publisistik məqalənin və 6 kitabın müəllifi, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü, "Vətən" mükafatı laureatıdır. Azərbaycan-Fransa Araşdırmalar Mərkəzinin, iki dəfə Respublika Jurnalistlər Birliyinqin diplomuna layiq görülmüşdür. 10-a qədər məqaləsi İran və Rusiyada nəşr olunmuşdur.

Ə.Zeynalov Murovdağda, Tərtərdə, Ağdərədə cəbhə bölgələrində olmuş, əsgərlərlə görüşmüşdür.

"Fransız ədəbiyyatında Şərq" adlı doktorluq dissertasiyasını 1996-cı ildə monoqrafiya şəklində nəşr etdirmişdir.

Ailəlidir, 2 övladı var.

SAHİL ƏLƏMDAR OĞLU MƏMMƏDOV



1964-cü il fevralın 25-də Yuxarı Necili kəndində anadan olmuşdur.

Atası Ələmdar kişi erməni təzyiqlərinə dözməyib, Bakıya köçəndə Sahilin 6 yaşı vardı. 1982-ci ildə Bakıxanov qəsəbəsindəki 96 saylı orta məktəbi bitirib, hərbi xidmətə yollanmış, 1983-cü ildə Sank-Peterburqdakı DİN Ali Siyasi məktəbinə daxil olmuş, 1987-ci ildə təhsilini fərqlənmə diplomu ilə başa vurmuşdur.

Ali təhsilini bitirdikdən sonra onu Kiyevə göndərirlər. Bacarıqlı bir zabit kimi işə başlayır. Qarabağ hadisələri ilə əlaqədar 1992-ci ilin yanvarında Vətənə qayıdır. Azərbaycan Respublikası DİN-nin Daxili qoşunlar idarəsində işə götürülür, Biləcəri hərbi polis alayının taqım komandirinin müavini təyin olunur.

Sonralar Zəngilan rayonunun Qazançı kəndinə zastava rəisi göndərilən baş leytenant S.Məmmədov döyüşlərdə şəxsi igidlik və şücaət göstərir. Döyüşlərin birində ağır yaralanır. Həkimlərin fədakarlığı nəticəsində Sahil yenidən həyata qayıdır, lakin sağ ayağını itirir. Onun döyüş qəhrəmanlıqları qiymətləndirilmiş və o, 1992-ci il oktyabrın 8-də **Azərbaycanın Milli Qəhrəmanı** adına layiq görülmüşdür.

Sahil Məmmədov hazırda Azərbaycan Respublikası DİN-nin pasport işi, viza və qeydiyyat idarəsində işləyir, polis mayorudur. Ailəlidir. Oğlu **Rəvanı** da vətənpərvərlik ruhunda böyüdür.

KÖÇƏRİ ADİL OĞLU NAĞIYEV



1966-cı il aprelin 22-də Yuxarı Necili kəndində anadan olmuşdur.

1984-cü ildə orta məktəbi bitirmiş, Arxangelsk vilayətində hərbi xidmətdə olmuşdur. Xidmətini başa vürduqdan sonra doğma kəndinə qayıdan K.Nağıyev az sonra 1988-ci il hadisələrinin burulğanına düşmüşdür.

1988-ci ildə digər həmyerliləri kimi, Nağıyevlər ailəsi də erməni şovinistləri tərəfindən doğma yurddan qovulmuş, Bakıda məskunlaşmağa məcbur olmuşlar. El-obasına, millətinə qarşı bu haqsızlığı həzm edə bilməyən Köçəri Nağıyev burada xalq hərəkatının fəal iştirakçısına çevrilmiş, ilk işi isə Qərbi Azərbaycan ərazisindən didərgin salınmış soydaşlarımızı bir yerə cəmləmək, dərdlərini yüngülləşdirmək, onları haqsız hücumlardan qorumaq, problemlərinin həllinə çalışmaq olmuşdur. Bu məqsədlə Qərbi Azərbaycan türklərinin ilk təşkilatı olan məşhur **"Zəngəzur" Cəmiyyətini** yaratmağa nail olmuş və ona sədrlik etmişdir. Qısa vaxtda bu cəmiyyət xalq hərəkatının radikal qanadı kimi tanınmış, Bakı ermənilərinin qruplar halında silahlanaraq burada eyni ilə 1918-ci ildəki kimi müsəlman qırğını törətmək planlarını pozmaq baxımından böyük tarixi iş görmüşdür.

1990-cı il yanvarın 18-də, Qanlı Yanvara iki gün qalmış qanına qəltan edilən Köçəri Nağıyev rus irticasına, onun yerli nökərlərinə və erməni işğalçılarına qarşı bir an da mübarizəsini dayandırmamışdır. Bu yolda o, sonralar da dəfələrlə təqib və təzyiqlərə, şər və böhtanlara məruz qalmış, həbs edilərək müxtəlif işkəncələrə dözməli olmuşdur. Nəhayət, bütün bu haqsızlıqlara etiraz əlaməti olaraq çay qaşığını udmaqla həyatına qəsd etmişdir.

K.Nağıyevi növbəti həbslərdən A.Mütəllibov hakimiyyətinin devrilməsi xilas eləmişdir. Sonralar o, özünə polis peşəsini seçmiş, Polis Akademiyasını bitirmiş, bu sistemdə müxtəlif vəzifələrdə işləmişdir. Hazırda Nəsimi rayon polis idarəsində çalışır, polis mayorudur.

O, Qarabağ müharibəsinin də iştirakçısı olmuş, uzun müddət Şuşada, Laçında, Ağdərədə erməni işğalçılarına qarşı döyüşmüşdür.

YUXARI ŞİNQOVİT (SENQOVİT, BAYAT ŞİNQOVİT)

Zəngibasar mahalında, İrəvan şəhərinin aşağısında, Zəngi çayının kənarında kənd. İrəvan şəhərinin genişlənməsi ilə əlaqədar 1935-ci ildə İrəvan şəhər şovetliyinin tabeliyinə verilmişdir.

1828-ci ilə qədər kənddə ancaq Azərbaycan türkləri, ondan sonra azərbaycanlılarla ermənilər yanaşı yaşamış, XIX yüzilin ortalarında kənd bütünlüklə ermənileşdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) kəndin adı İrəvan nahiyəsinin **Senqovit məzrəsi,** "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Karbi nahiyəsinin **Sərkovit kəndi** kimi qeydə alınmış, İ.Şopendə (1832) isə kəndin adı **Bayat Şinqovit** şəklində verilmişdir. Bu özü kənddə yaşayanların Səlcuq oğuzlarının Bayat tayfasından olduğunu təsdiqləyən tutarlı dəlildir. Sonrakı bütün mənbələrdə kənd **Yuxarı Şinkovit** adı ilə verilmişdir.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) dövlətin müxtəlif vergilər şəklində kənddən ildə 9.000 ağça gəlir götürməsi barədə məlumat da var.

Bu qədim türk adının etimologiyası ilə bağlı iki variant irəli sürmək mümkündür. Birincisi, tədqiqatçı Q.Qeybullayevin müşahidə etdiyi kimi, Şumer mənşəli **Zuən** ("Günəş və Ay Allahı"nın adı) sözü akkad dilində **"Sîn"** formasına düşmüş və ad yaradıcılığında iştirak etmişdir. İkincisi, Altay mənşəli **sin (çin, şin)** sözü türk axınları zamanı Cənubi Qafqaza gətirilmiş və toponimyaratmada iştirak etmişdir. M.Xorenlidə Böyük Ərməniyə ərazisində belə bir toponimin müşahidə edilməməsi bizi toponimin meydana gəlməsinin ikinci variantına (Altay mənşəli **sin** sözü) üstünlük verməyə sövq edir.

1831-ci ildə kənddə 16 təsərrüfatda 75 nəfər (39 kişi, 36 qadın) azərbaycanlı, 11 təsərrüfatda 59 nəfər (33, kişi, 26 qadın) İrandan köçürülüb gətirilmiş erməni qeydə alınmışdır.

1873-cü ildə artıq kənddə 27 təsərrüfatda 103 nəfər (49 kişi, 54 qadın) erməni yaşamışdır. Bu, göstərir ki, kəndin müsəlman əhalisi XIX yüzilin ortalarında tədricən kənddən sıxışdırılıb çıxarılmış, kənd ermənileşdirilmişdir.

1886-cı ilin statistikasına görə kəndin əhalisi xeyli azalmış, 26 təsərrüfatda 73 nəfər (42 kişi, 31 qadın) təşkil etmişdir.

ZƏNGİLƏR (DONUZYEYƏN, MƏSCİDLİ)

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 4 km şimal-qərbdə, Zəngi çayının sol tərəfində, bu çaydan ayrılan su arxının kənarında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) kəndin adı İrəvan nahiyəsinin **Donuzyeyən kəndi,** "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Qırxbulaq nahiyəsinin **Donuzyeyən kəndi,** İ.Şopendə (1832) Zəngibasar mahalının **Donquzgən kəndi,** sonrakı mənbələrdə (1873, 1886 və s.) isə **Donquzyən kəndi** şəklində qeydə alınmışdır. Əslində, kəndin adı, göründüyü kimi, Donuzyeyəndir, **Donquzgən//Donquzyən** variantları adın yerli tələffüz formasıdır. Belə ki, İrəvan çuxurunda **donuz** sözü **donquz, yeyən** sözü isə **yən** (uzun ə) şəklində tələffüz olunurdu.

El arasında kəndin ilkin adının **Məscidli,** ondan sonra isə **Çingizabad** olduğu söylənilir. Məscidli adı, kənddə qədimdən məscidin mövcudluğu ilə bağlı olmuş, Çingizabad adı isə şəxs adından yaranmışdır.

Donuzyeyən toponiminin ərazinin adından yaranmasını ehtimal etmək olar. Yəni donuzlar otarılan yerdə salınmış kənd. Bunu kəndin 1727-ci ilə aid mənbədə **Donuzyeyən qışlağı** kimi verilməsi də təsdiq edir. Deyilənə görə, Araz çayı qırağındakı qamışlıqlarda yaşayan vəhşi donuz (qaban) sürüləri çay daşarkən kəndin çəltik sahələrinə girər, hətta kəndə doluşub, həyət-bacaya böyük ziyan vurarmış ki, Donuzyeyən adı da buradan yaranmışdır. Qərbi Azərbaycan ərazisində qeydə alınmış Donuzdamı qışlağı (Dərələyəz qəzasında), Donuzyataq qışlağı (Çəmbərək rayonu ərazisində) oykonimləri ilə səsləşir. Lakin XIII yüzildə Anadolu ərazisində Donquzlu adlı əyalətin mövcud olması gələcəkdə bu toponimin etnonim səciyyəsi üzərində düşünmək ehtiyacı doğurur.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 12.000 ağça gəlir götürməsi hələ o vaxt kəndin xeyli böyük yaşayış məntəqəsi olmasına dəlalət edir.

İ.Şopendə (1832) kənddə 42 təsərrüfatda 355 nəfər (188 kişi, 167 qadın) Azər türkü qeydə alınmışdır.

1873-cü ilin statistik məlumatlarında kənd əhalisinin sayı 110

təsərrüfatda 905 nəfərə (497 kişi, 408 qadın) çatmış, kənddə bir məscid binası da siyahıya salınmışdır.

1886-cı ildə İrəvan qəzasının Hacı Eylas nahiyəsi tərkibində verilən kənddə 136 təsərrüfatda 1.012 nəfər (569 kişi, 443 qadın), 1897-ci ildə 1.077 nəfər, 1909-ci ildə 1.131 nəfər, 1914-cü ildə 1.464 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci ildə Zəngibasar mahalının digər türk-müsəlman kəndləri kimi, Donuzyeyən kəndinin əhalisi də erməni daşnak qaniçənlərinin vəhşi hücumlarına məruz qalmış, kənd dağıdılmış, talan edilmiş, yandırılmış, əhalisinin bir hissəsi qəddarcasına qətlə yetirilmiş, sağ qalanlar doğma yurdu tərk etməyə məcbur olmuşlar. Məşhur "Zəngibasar talanı"nın qurbanlarından biri də Donuzyeyən kəndi olmuşdur.

Sovet hakimiyyətinin ilk illərində kəndin qaçqın əhalisinin bir qismi Vətənə qayıtmaq imkanı qazanmış, 1922-ci ildə onların sayı 399 nəfər olmuş, 1926-cı ildə 493 nəfərə, 1931-ci ildə 518 nəfərə çatmışdır.

1935-ci il yanvarın 3-də kəndin Donuzyeyən adı dəyişdirilərək **Zəngilər** qoyulmuşdur. Nə üçün Zəngilər? Məsələ ilə bağlı iki versiya mümkündür. Birinci ondan ibarətdir ki, keçmişdə Donuzyeyən kəndinin yanında Zəngi adlı kənd mövcud olmuşdur. "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin **Zəngi kəndi** kimi verilmiş bu kəndin sonrakı mənbələrdə qeydə alınmaması onun qonşu Donuzyeyən kəndinə qarışması ilə izah oluna bilər. Görünür, 1935-ci ildə kəndin adını dəyişmək məsələsi ortaya çıxanda yaddaşlarda yaşamaqda olan Zəngi adı köməyə gəlmişdir.

Zəngilər oykoniminin ikinci yozumu kəndin coğrafi mövqeyi ilə əlaqədardır. Belə ki, Zəngi çayı kəndin girəcəyində haçalanıb, bir də kəndin qurtaracağında birləşdiyindən kənd sanki iki Zəngi çayının arasında yerləşir. Kənd Zəngilər adını məhz buradan almışdır.

Lakin kəndin bu türk adı erməni daşnaklarının gözünü çıxarmaqda davam edirdi, ona görə də 1988-ci il soyqırımı nəticəsində kəndin bütün azərbaycanlı əhalisi doğma yurdundan qovulub çıxarılandan sonra 1991-ci il aprelin 19-da kəndin Zəngilər adı dəyişdirilərək eybəcər erməni tələffüzü ilə **Zorak** qoyuldu.

1949-cu ildə kəndin, demək olar ki, yarısı Azərbaycanın Sabirabad, Bərdə və Salyan rayonlarına deportasiya olunmuşdur. Sonralar onlardan 25 ailə təzədən geri – öz doğma kəndlərinə qayıda bilmişlər.

1988-ci il hadisələri zamanı kənd sakinlərindən **Məhərrəm Adoş oğlu Quliyev** ermənilər tərəfindən qəddarcasına qətlə yetirilmişdir. 1927-ci il təvəllüdlü **Xavər Həsən qızı Hacıyeva** hadisələr zamanı dəhşətli sarsıntı keçirmiş, Azərbaycana gəldikdən bir müddət sonra intihar etmişdir

* * *

Zəngilər kəndinin kənarından **Ərəb arxı** adlı çay axırdı. Kəndin Aşağı Necili və Sarvanlar kəndləri tərəfindəki bataqlıq-qamışlıq yeri **Qaragöllər** adlanırdı.

Kəndin 4 qəbiristanlıq olmuşdur. Onlardan biri məscidin dalında, digəri kəndin qırağında idi. Köhnə qəbiristanlıqda isə at, dəvə, qoç heykəlləri son vaxtlara qədər dururdu. Qəbirlərdən birinin üstündə qılınc şəkli aydınca görünürdü. Qəbiristanlıqdakı at heykəlli qəbir, deyilənə görə, kəndin pəhləvanı **Məhəmməd pəhləvanın,** qoç heykəlli qəbir isə **Palazqulaq pəhləvanın** qəbirləri idi. Mahalda onların arxasını yerə vuran olmamışdı.

Kəndin həm də 4 məscidi vardı Onlardan biri Necili tərəfdə kəndin qırağında idi, daşdan tikilmişdi və 1988-ci ilə qədər fəaliyyət göstərirdi. İkincisi Zəngi çayının qırağında yerləşirdi və 1960-cı illərdə uçmuşdu. Üçüncüsü kəndin içində idi, xarabalıqları dururdu. **Molla Vəli, Şeyx Səfər, Molla Həsən, Molla Qulam, Molla Rəşid, Molla Əsəd** ayrı-ayrı vaxtlarda kəndin mollası olmuşlar.

İnqilabdan əvvəl gedib Nəcəfdə, Məşhəddə ali ruhani təhsili almış **Şeyx Səfər Məhərrəmzadə** camaat arasında böyük nüfuza malik idi.

Əbdül Seyfulla oğlu Süleymanov həm bölgənin qlavası, həm də Ağrıdağ düzənliyində məşhur sınıqçı olmuşdur.

Kəlba Əbdüləli də kəndin nüfuzlu kişilərindən imiş.

Sovet dövründə kənddə təhsilə maraq daha da artmış, 1938-1988-ci illərdə kənddən 150 nəfərə qədər ali təhsilli mütəxəssis çıxmışdır.

Kəndin ilk ali təhsilli ziyalısı **Abbas İbrahimov** olmuşdur. Tibb elmləri namizədi **Əli İsmayıl oğlu Abbasov** uzun illər Zaqa-

tala rayonunun baş həkimi, **Məzahir İsmayıl oğlu Abbasov** Naxçıvan Tikinti Sənayesi nazirinin müavini vəzifələrində işləmişlər.

Məşədi Salman, Əziz Hüseynov, İbrahim Xəlilov müxtəlif vaxtlarda kənd kolxozunun sədri olmuşlar. 1955-ci ildə Zəngilər və Şollu kolxozları birləşdirilərək onların bazasında sovxoz yaradılmış və direktor vəzifəsinə erməni təyin olunub. Sonralar bu sovxoza **Ələşrəf Sultanov, İbrahim Xəlilov** direktorluq ediblər. Sovxozun sonuncu (1988-ci ilə qədər) direktoru **Midhət Novruzov** olub, o, 1988-ci il hadisələri zamanı camaatın təhlükəsizliyi üçün çox iş görüb.

Zəngilər kənd sovetinin sədri vəzifəsində **Usubəli Əbdülov, Murtuz Məmmədov** və b. işləmişlər. Sonralar Aşağı Necili, Yuxarı Necili, Şollu və Zəngilər kəndləri bir sovetlikdə birləşib və uzun illər (həm də sonuncu – 1988-ci ilə qədər) kənd sovetinin sədri vəzifəsində Aşağı Necilidən **Bağır Bağırov** çalışıb.

Məmməd müəllim, Əsəd Məmmədov, Qadir Məmmədov, İbrahim Xəlilov, Nəriman Məmmədov, İslam Əliyev, Abbas Abbasov (sonuncu – 1988-ci ilə qədər) kənd məktəbinin direktoru olmuşlar. **Yusif Qocayev** müxtəlif vaxtlarda Yuxarı Necili və Zəngilər məktəblərində tədris işləri üzrə direktor müavini işləmişdir.



Zəngilər kənd orta məktəbinin müəllim kollektivi. 3 may 1979-cu il.

Kəndin ilk məktəbi Zəngilərlə Şollunun arasında yerləşirdi. Hər iki kəndin uşaqları bu məktəbdə təhsil alırdılar. 1938-ci ildə zəlzələ nəticəsində bu məktəb dağılmış, yerində tuf daşdan birmərtəbəli yeni məktəb binası tikmişdilər.

1979-cu ilin siyahıyaalmasına görə kənddə 386 təsərrüfatda 1625 nəfər (799 kişi, 826 qadın) əhali qeydə alınmışdı. Onlardan 368 təsərrüfatda 1443 nəfəri azərbaycanlı, 17 təsərrüfatda 174 nəfəri kürd, cəmi 1 təsərrüfatda 8 nəfəri erməni idi.

Kəndin yetirmələrindən **Firudin Yusif oğlu Rəsulov** 1965-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmiş, uzun illər mətbuatda çalışmışdır. 1969-cu ildən "Kommunist" qəzeti redaksiyasında 23 il müxtəlif vəzifələrdə işləyən F.Rəsulov 1992-ci ildən "Həyat" qəzetinin şöbə müdiri, 1995-ci ildən həmin qəzetin baş redaktoru olmuşdur.

Vaqif Muğumlu (**Vaqif Kərim oğlu Həbibov**) 1985-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirmiş, 1985-1988-ci illərdə İrəvan Azərbaycan Dövlət Dram Teatrında aktyor, 1994-cü ildən "20 Yanvar" qəzetinin baş redaktor müavini, sonralar həmin qəzetin baş redaktoru işləmişdir.

1988-ci il hadisələri zamanı Zəngibasar rayonunun digər kəndləri kimi, Zəngilər kəndi də ermənilərə qarşı layiqli müqavimət göstərib. Ermənilərin kəndə ən güclü hücumlarından biri iyulun 18-də olub. Kəndə üç tərəfdən hücum edən işğalçılar silahlı müqavimətə rast gəliblər. Atışma zamanı 2 erməni gəbərdilib, 8-i isə yaralanaraq geri oturdulublar. Lakin 1988-ci il noyabrın sonlarında camaat zorla doğma kəndlərindən çıxarılmışdır.

KƏNDİN TAYFALARI

Vəlli, Ağaməmmədli, Şahvəli, Muğumlu, Baballı, İmamverdi, Doutlu, Muşulu, Dərəmli, Xamolu, Qaraçılar.

KƏNDİN TOPONİMLƏRİ

Küllük meydanı, Ərəb arxı, Zəngi çayı, Sefi arxı, Qaragöllər, Göyçəbəyli, Qarağaclıq, Çarxın qabağı, Çınqıllıq, Adalar, Sazlar, Hacı Rəsulun yeri, Düzdək, Yeddilər, Molla Vəlinin xarabalıqları, Su qatışan, İlğımlıq, Dəvə yatağı, Hacı körpüsü, Sarısu...

Zəngilər kənd azərbaycanlılarının 1988-ci il hadisələri zamanı qoyub gəldikləri, daha doğrusu, onların əlindən əvəzi ödənilmədən alınan ictimai (kənd, kolxoz-sovxoz) əmlakın siyahısı

Poçt – 1
Əczaxana – 1
Yeməkxana – 1
Kitabxana – 2
Məktəb – 1
X/b mal-qara – 110
İ/b mal-qara – 130
K/t maşınları – 23
Avtobus – 1
Avtomaşınlar (yük, minik) – 10
Məscid – 1
Ambar binaları – 3
Ding və dəyirman – 1
Transformator – 1
Quşçuluq ferması – 1
X/b mal-qara tövləsi – 2
İ/b mal-qara tövləsi – 2
Həkim məntəqəsi – 1
Xəstəxana – 1
Uşaq bağçası – 1
İdarə binası – 1
Kino binası – 1
Mədəniyyət evi – 1

1930-1940-CI İLLƏRİN REPRESSİYA QURBANLARI


1. Əhəd Əbdül oğlu Süleymanov
2. Seyfulla Əbdül oğlu Süleymanov
3. Musa Məmmədəli oğlu Dadaşov
4. Möhsün Novruzov
5. Əkbərin anası

1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİNDƏ HƏLAK OLANLAR

1. Həsən Abuzər oğlu Abuzərov
2. Adil Həsən oğlu İsmayılov
3. Yusif Əmrah oğlu Əhmədov
4. İmran Mədəd oğlu Əliyev
5. Sadıq Abbasqulu oğlu Sadıqov
6. Pənah Heydərəli oğlu Bayramov
7. Qasım Həsən oğlu Əliyev
8. Əkbər Dadaş oğlu Sultanov
9. Əli M.Manaf oğlu Məmmədov
10. Əbülhəsən Hümbət oğlu Məmmədov
11. Yaqub Məhərrəm oğlu İbrahimov
12. Əli K.Əbdüləli oğlu Dadaşov
13. Seyfəli Əlirza oğlu Dadaşov
14. Səməd Məsim oğlu Məmmədov
15. Bayram K.Xəlil oğlu Sadıqov
16. Rəsul Rəcəb oğlu Qocayev
17. Usub Vəli oğlu Əliyev
18. Əkbər Qasım oğlu Məhərrəmov
19. Hüseynəli Əziz oğlu Hüseynov
20. Nəcəf Mütəllim oğlu Əliyev
21. M.Zaman M.Hüseyn oğlu Novruzov
22. Abbas K.Əli oğlu Əliyev
23. Pənah Zaman oğlu Cəfərov
24. İbadulla Nəsrulla oğlu Rəhimov
25. İdris İmaməli oğlu Rəhimov
26. Novruz Əli oğlu Məmmədov
27. Abbasəli Rəhim oğlu Rəhimov
28. M.Əli K.Bağır oğlu Əliyev
29. Əbdül Musa oğlu Məmmədov
30. Lətif Musa oğlu Məmmədov
31. Mustafa H. Əlizaman oğlu Hüseynov
32. Haqverdi Allahverən oğlu Kərimov
33. Tanrıverdi Allahverən oğlu Kərimov
34. Yadulla Rza oğlu Süleymanov
35. Əkbər Abbas oğlu Babayev

1. Altay Nəriman oğlu Məmmədov (1964, Zəngilər – 1993, Ağdərə)
2. Eldar Xəlil oğlu Xəlilov (1975, Zəngilər – 1995, Bakı) **(Milli Qəhrəman)**
3. Ələkbər Camal oğlu Rəsulov (1974, Zəngilər – 1993, Füzuli)
4. Murad Rəşid oğlu

MAQSUD SƏFƏR OĞLU QASIMOV



1932-ci il noyabrın 21-də Zəngilər kəndində anadan olmuş, rayon mərkəzində orta məktəbi, 1956-cı ildə ildə isə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun sanitar-gigiyena fakültəsini bitirmişdir.

Ali təhsilini buşu vurub, gənc mütəxəssis kimi təyinatını Tacikistana almış və 1966-cı ilin avqustuna qədər Tacikistanın ucqar rayonlarının birində əvvəl rayonun sanitar-epidemioloji stansiyasının baş həkimi, sonralar rayonun səhiyyə şöbəsinin müdiri və rayon mərkəzi xəstəxanasının baş həkimi vəzifələrində işləmişdir.

1964-cü ildə Alma-Ata şəhərində dissertasiya müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi almış, 1966-cı ildə Bakı şəhərinə köçərək Azərbaycan Dövlət Tibb İnstitutunun ümumi gigiyena kafedrasında müəllim-assistent vəzifəsinə təyin olunmuşdur. Tibb İnstitutunda dərs deməklə yanaşı, Azərbaycan SSR Səhiyyə Nazirliyi aparatında baş gigiyenist müfəttişi vəzifəsində işləmişdir.

1970-1980-ci illərdə Bakının baş dövlət sanitar həkimi, 1980-1994-cü illərdə akademik M.Ə.Mirqasımov adına Respublika Klinik xəstəxanasının baş həkimi, 1994-1997-ci illərdə Azərbaycan Respublikası Səhiyyə Nazirinin müavini, respublikanın baş dövlət sanitariya həkimi vəzifələrində çalışmışdır.

1997-ci ilin aprel ayından Respublika Səhiyyə Nazirliyinin Respublika Taun Əleyhinə Stansiyasının direktoru vəzifəsində işləyir.

Bakıda işlədiyi son 35 il ərzində elmi-tədqiqat və pedaqoji fəaliyyətini davam etdirmişdir. 85 elmi əsərin, o cümlədən 5 monoqrafiyanın, 5 kitabın və 2 dərsliyin müəllifidir. Bundan başqa, "2000-ci ilə qədər Xəzərin qərb sahillərində Bakı aqlomerasiya əhalisinin istirahətinin təşkili" məsələlərinin düzgün həll edilməsi üçün dəniz kənarının sanitar iqlim xüsusiyyətlərinin öyrənilməsində bilavasitə iştirak etmiş və 1993-cü ilin fevral ayında həmin mövzuda doktorluq dissertasiyası müdafiə etmişdir.

Dövlət Tibb Universitetinin Qidalanma və Kommunal Gigiyenası kaedrasının professorudur. "Qırmızı Əmək bayrağı", "Şərəf Nişanı", "Xalqlar Dostluğu" ordenləri və bir çox medallarla təltif olunmuş, akademik Y.Məmmədəliyev adına medala, H.Z.Tağıyev Fəxri diplomuna layiq görülmüşdür.

Həyat yoldaşı **Qasımova Kamilə Həbib qızı** Tibb Universitenin mama-ginekologiya kafedrasının dosentidir.

Qızları – **Qocayeva Aybəniz** göz həkimi, tibb elmləri namizədi, **Ələkbərova Xumar** sinir sistemi xəstəlәkiləri üzrə həkimdir.

İBRAHİM HEYDƏR OĞLU XƏLİLOV



1923-cü il mayın 9-da Zəngilər kəndində anadan olmuşdur.

Zəngilər kənd yeddiillik məktəbini, 1942-ci ildə isə İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumunu bitirmiş, Böyük Vətən müharibəsində iştirak edib, ön cəbhədə vuruşmuş, ağır yaralanaraq ordudan tərxis olunmuşdur.

1944-1950-ci illərdə Zəngibasar rayonunun Zəngilər, Mehmandar və Dəmirçi kəndlərində müəllimlik etmiş, 1950-1954-cü illərdə Şöllü-Zəngilər kənd kolxozunda sədr müavini, sonra sədr vəzifələrində çalışmışdır.

1959-cu ildə İrəvan Dövlət Pedaqoji İnstitutunun tarix-ədəbiyyat fakültəsini bitirmiş, 1970-ci ilə qədər Aşağı Necili, Zəngilər kənd və Uluxanlı qəsəbə orta məktəblərində direktor, 1970-1974-cü illərdə İrəvan Dövlət Pedaqoji İnstitutunda müəllim, 1974-1988-ci illərdə Zəngilər kənd sovxozunda direktor, Yuxarı Necili kənd məktəbində direktor, Zəngibasar rayon maarif şöbə-

sində metodist vəzifələrində işləmişdir.

Ədəbi fəaliyyətə 1950-ci illərdə başlayan İ.Xəlilov həm də çoxlu şerlər, hekayələr, elmi və publisistik məqalələr müəllifidir. O, Qərbi Azərbaycan ərazisindən topladığı atalar sözlərini 1959-cu ildə "Ədəbi Ermənistan" almanaxının 2-ci kitabında nəşr etdirmiş, 25 min sözdən ibarət "Ermənicə-azərbaycanca lüğət"in (1979) müəlliflərindən olmuşdur.

1988-ci il soyqırımı zamanı doğma yurdundan didərgin salınıb, Bakı şəhərinə pənah gətirən İ.Xəlilov bir müddət işsiz qaldıqdan sonra "Vətən səsi" qəzetində işləmiş, erməni terrorizmini ifşa edən bir sıra elmi-publisistik məqalələr yazıb çap etdirmişdir.

1993-cü il martın 6-da Bakı şəhərində dünyasını dəyişmişdir.

ƏDALƏT BAYRAMƏLİ OĞLU ƏLİYEV



1948-ci ildə Yevlax rayonunun Yadili kəndində anadan olmuşdur. Əsilləri Zəngibasar mahalının Zəngilər kəndindəndir. 1957-ci ildə atası **Bayraməli kişi** Böyük Vətən müharibəsində aldığı yaralardan vəfat etdiyindən ailədə 5 uşaqdan ən böyüyü olan Ə.Əliyev kiçik yaşlarından orta məktəbdə oxuya-oxuya çörək pulu qazanmağa başlamışdır.

1965-ci ildə orta məktəbi bitirmiş, Saratov vilayətindəki təyyarəçilər məktəbinə daxil olmuş, 1968-ci ildə oranı bitirərək Azərbaycana qayıtmışdır. Əmək fəaliyyətinə Yevlaxda başlayan Ə.Əliyev sıravi pilotdan Gəncə və Bakı Birləşmiş aviasiya dəstəsinin komandiri – aeroport rəisi vəzifələrinədək yüksəlmişdir. Birinci dərəcəli təyyarəçidir. 11.000 saat uçmuş, fədakar əməyinə görə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmişdir. Azərbaycanlı təyyarəçilərin və aviasiya mühəndislərinin yetişdirilməsində, aviasiya sahəsində yüzlərlə azərbaycanlının ali təhsil almasında müstəsna rolu olmuşdur.

Aviasiya müəssisələrinə rəhbərlik etdiyi dövrdə Bakıda, Gəncədə, Lənkəranda, Zaqatalada, Şəkidə, Ağdamda uçuş zolaqları və yeni hava limanları inşa olunmuşdur. Bu gün Naxçıvanın tam blokadaya düşməməsi Ə.Əliyevin uzaqgörənliklə 1985-ci ildə burada ağır təyyarələri qəbul edə biləcək uçuş zolağını inşa etdirməsi sayəsində mümkün olmuşdur.

O işlədiyi müddətdə həm də təhsilini davat etdirmiş, 1981-ci ildə Leninqrad Mülki Aviasiya Akademiyasını bitirmiş, 1985-ci ildə isə hə-

min akademiyanın aspiranturasına daxil olmuş, namizədlik dissertasiyası müdafiə edərək, texnika elmləri namizədi alimlik dərəcəsi almışdır. 1988-ci ildə müsabiqə əsasında və kollektivin ümumi qərarı ilə Bakı aeroportuna rəis təyin olunmuş, bütün bacarıq və səyini Azərbaycan aviasiyasının inkişafına sərf etmişdir. Həmin illər Dağlıq Qarabağda erməni millətçiləri fəallaşmağa başlayanda Ə.Əliyev şəxsi igidlik və mərdlik göstərərək dəfələrlə azərbaycanlı kəndlərinə lazımi yardım göstərmiş, 1990-cı il 20 Yanvar qırğınının qarşısını almaq məqsədilə hələ yanvarın 19-da həmin qırğının baş verəcəyi barədə bütün dünyaya bəyan etmiş və 5 dövlətin – İran, İraq, Türkiyə, İsrail, ABŞ dövlətlərinin prezidentlərinə müraciət edərək onları bu qırğının qarşısını almağa çağırmışdır. Məhz bu hərəkətlərinə görə və həmin ilin yanvar ayının 28-də "Vremya" proqramında SSRİ-nin o vaxtkı rəhbəri M.S.Qorbaçovu siyasi cani adlandırdığı üçün SSRİ DTK-nın göstərişi ilə vəzifəsindən azad olunmuş, aviasiya sahəsindən uzaqlaşdırılmışdır.

1992-ci ildə yenidən "Azərbaycan hava yolları" Dövlət konserninə baş direktor təyin olunmuş, 1992-1996-cı illərdə Ə.Əliyevin səyi nəticəsində 37 ölkə ilə hava nəqliyyatı əlaqələrinin qurulması haqda Beynəlxalq müqavilələr bağlanmış, Azərbaycan Respublikası Beynəlxalq Mülki Aviasiya Təşkilatına üzv seçilmiş, "Azərbaycan hava yolları"nın ümumi valyuta gəliri 1996-cı ildə 42.000.000 dollara, manat dövriyəsi isə trilyonlarla manata çatdırılmışdır.

1996-cı ildə "öz işində ciddi nöqsanlara yol verdiyi üçün" vəzifəsindən azad olunmuş, 1998-2000-ci illərdə Moskvada Rusiyanın Aviasiya Sənayesi Nazirliyinin "Konvers Avia" Elm-İstehsalat Birliyində baş direktorun müavini işləmişdir.

Ə.Əliyev MDB məkanında ilk təyyarəçidir ki, doktorluq dissertasiyası müdafiə edərək texniki elmlər doktoru elmi adına layiq görülmüş, 1999-cu ildə isə dissertasiya müdafiə edərək ilk azərbaycanlı nəqliyyat doktoru olmuşdur. O, həmçinin Beynəlxalq Nəqliyyat Akademiyasının akademikidir.

Azərbaycanda milli aviasiya akademiyasının və mülki aviasiya Elmi-Tədqiqat İnstitutunun yaradıcısıdır. 100-ə yaxın elmi məqalənin, "Kosmik sistemlərin nəqliyyatın təhlükəsizliyinin təmin olunmasında rolu" konsepsiyasının, nəqiyyat sahəsində ali və elmi-tədqiqat institutlarında dərslik kimi istifadə olunan 7 kitabın, "Hava naviqasiyası" adlı üçcildlik fundamental tədqiqat işinin müəllifidir.

Evlidir, 2 uşağı, 4 nəvəsi var.

2000-ci ildən Təfəkkür Universitetində "Nəqliyyat və yol təsərrüfatı" kafedrasının müdiri vəzifəsində çalışır.

YAVƏR ƏJDƏR OĞLU ƏHMƏDOV




1965-ci il mayın 26-da Zəngilər kəndində anadan olmuşdur.

1982-ci ildə Uluxanlı qəsəbə orta məktəbini bitirmiş və həmin il Estoniya SSR-in Tallin şəhərində ali hərbi məktəbə qəbul olunmuşdur. 1986-cı ildə təhsilini başa vurub, Saratov şəhərində olan N hərbi hissəsində rota komandirinin siyasi işlər üzrə müavini vəzifəsinə təyin olunmuşdur. İki il sonra Perm vilayətində hərbi hissə komandirinin siyasi işlər üzrə müavini, sonra isə hərbi hissənin ştab rəisi vəzifələrində işləmişdir. 1994-cü ildən Sverdlovsk vilayətində, 1997-ci ildən Vladivostok vilayətində hərbi hissələrdə briqada komandirinin müavini vəzifəsində qulluq etmişdir. 1998-ci ildən sonuncu hərbi hissədə briqada komandiridir.

2001-ci ilin iyul ayında Rusiya prezidentinin fəxri fərmanı ilə təltif edilmişdir və hazırda polkovnik rütbəsində həmin briqadanın komandiri vəzifəsində işləyir. Ailəlidir, bir övladı var.

ELDAR XƏLİL OĞLU XƏLİLOV



1975-ci ildə Zəngilər kəndində anadan olmuş, 1988-ci ildə ailələri erməni vəhşiliyinin qurbanı olaraq doğma yurdlarından didərgin salınmış, Bakı şəhərinin Bakıxanov qəsəbəsində məskunlaşmışlar.

Burada 252 saylı məktəbdə orta təhsilini tamamlamış, 1994-cü il sentyabrın 29-da Sabunçu rayon hərbi komissarlığı tərəfindən hərbi xidmətə çağırılmış, 1995-ci ilin 17 mart hadisələri başlayarkən Azərbaycan dövlətçiliyinin müdafiəsi keşiyində durmaq əmri almış, bir əsgər kimi, öz hərbi borcunu yerinə yetirərkən həmin gün şəhid olmuşdur.

Azərbaycan dövlətçiliyinin müdafiəsi, müstəqilliyinin qorunub saxlanması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq göstərdiyinə görə ona ölümündən sonra **Azərbaycanın Milli Qəhrəmanı** adı verilmişdir. Məzarı Bakının Şəhidlər Xiyabanındadır.

GƏRNİBASAR MAHALININ (QƏMƏRLİ RAYONUNUN) KƏNDLƏRİ

Ağcaqışlaq (Xatunkənd)
Ağcaqışlaq (Kürəkeşin)
Ağdamlar
Axtaxan
Axund Buzavand (Buzavand, Əbdülhacı)
Axuşvəng (İşxavəng, Ahşəvik)
Alpevi (Alpaq, Alpava, Arpava, Arpavar)
Aşağı Ağbaş (Ağbaş)
Aşağı Qəmərli
Aşağı Quylasar
Avanik (Avanlıbulaq, Yuxarı Eranos)
Ayaslı (Quşçu, Böyük Ayaslı)
Başnəli (Candarlar, Çandar)
Bəcəyəzli (Bəycivazlı, Yuxarı Bəcəyəzli, Aşağı Bəcəyəzli)
Bitlicə
Böyük Dəlilər (Dəlilər, Dəllər)
Canıbəy
Cənnətli
Ciranus (Yeni Craşen)
Çikdamlı (Çalçay)
Çinəxanlı (Çinəxan)
Darğalı (Aşağı Darğalı, Yuxarı Darğalı)
Ditak
Doqquz (Qahablı)
Dördüncü kənd
Dvin//Düyün (Aşağı Dvin, Erməni Dvini)
Eranos (Aşağı Eranos)
Ərdəşər (Artaşat)
Günnüt Cəfərli
Hörüslü Dvin
Xudabəndə
İmanşalı (İmanşahlı//İmamşahlı)
İpəkli (İnəkli)
Kəhriz (İsa bəy Kəhrizi, Aşağı Kəhriz, Yuxarı Kəhriz)
Kiçik Ayaslı
Kiçik Dəlilər (Dəlilər, Gödəkli)
Kiçik Məsimli

Kürdkənd (Kürdkənd Dvin)
Kürdkənd (Kürdkənd Mehrab, Yuxarı Kürdkənd)
Qabaqlı Gərdəkdərə
Qaqauz
Qafarlı
Qaradağlı
Qarahəmzəli
Qaraqışlaq (Mərənçi)
Qaraqoyunlu (Yolkəsən, Yükkəsənçay)
Qaratəpə
Qəmərli (Yuxarı Qəmərli)
Qırx Buzavand (İnas, Gödək Buzavand)
Qızıloba (Qızılvəng, Tarmus)
Qulaməli Buzavand (Böyük Buzavand, Qulça Əli)
Mehrablı
Məsimli (Böyük Məsimli)
Muğamlı (Sınıqkörpü, Buğamlı, Muğanlı)
Novruzkənd (Yeddibulaq, Yuxarı Novruzlu)
Novruzlu (Musahacı, Aşağı Novruzlu)
Oğurbəyli (Uğurbəyli)
Piri
Saatlı
Sabunçu (Şeyxzadəli, Şahzadə Əli)
Şəfiabad (Saki qışlağı, Şakiabad)
Şotulkənd (Şoturkənd)
Tamamlı
Taytan (Tantaq, Ağacəri)
Təpəbaşı
Toxanşalı (Toğanşahlı)
Torpaqqala (Dvin, Qurbanqulu)
Uzunabdallı
Yaxşıxan (Qazıbəyli)
Yamancalı
Yenicə
Yuxarı Ağbaş (Ağbaş, Xaraba Ağbaş, Kiçik Ağamalı)
Yuxarı Dvin (Dvin, Aysoru Dvini)
Yuxarı Quylasar (Quylasar)
Yurdək (Burduk)
Yuva
Zöhrablı

AĞCAQIŞLAQ (XATUNKƏND)

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 10 km şimalda, Gərni çayının sol sahilində kənd.

XIX yüzilin əvvəllərinə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. XIX yüzilin əvvəllərindən kənddə həm də ayrı-ayrı erməni ailələri məskunlaşmağa başlamışlar. 1828-1829-cu illərdə kənddə İrandan gəlmə ermənilər də yerləşdirilmiş və kənd bütünlüklə ermənileşdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Gərni nahiyəsinin **Xatunkənd məzrəsi** kimi verilmişdir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Gərni nahiyəsinin **Ağcaqışlaq kəndi** kimi qeydə alınmış, kəndin ikinci adının **Xatunkənd** olduğu və kənddə **Əhməd Əli oğlunun** adına olan timardan dövlətin müxtəlif vergilər şəklində ildə 3.500 ağça gəlir götürdüyü göstərilmişdir.

Sonrakı bütün mənbələrdə (1831, 1873, 1886...) də kəndin adı **Ağcaqışlaq** şəklindədir.

Ağcaqışlaq toponimi **"ağca"** və **"qışlaq"** komponentlərindən ibarət olmaqla, **"ağ"** sözünün qədim türk dilində **"kiçik"** mənasını nəzərə alsaq, çox güman ki, **"kiçik qışlaq"** anlamındadır.

İ.Şopendə (1832) Gərnibasar mahalının **Ağcaqışlaq kəndində** 11 təsərrüfatda 45 nəfər (26 kişi, 19 qadın) "yerli", yəni 1828-ci ilə qədər kənddə yaşayan, 12 təsərrüfatda 60 nəfər (32 kişi, 28 qadın) İrandan köçürülüb gətirilmiş erməni qeydə alınmışdır. Kəndin vəzir **Mirzə İsmayılın** tiyul kəndi olduğu, Mirzə İsmayıl İrana köçdükdən sonra xəzinə (dövlət) hesabına keçirildiyi də həmin mənbədə qeyd olunmuşdur.

1873-cü ilin statistik məlumatlarında Gərnibasarın düzənlik hissəsində, Gərni çayının sol sahilində yerləşdirilən kənddə 26 təsərrüfatda 152 nəfər ermənin yaşadığı göstərilmişdir.

1886-cı ildə kənd əhalisinin sayı 37 təsərrüfatda 232 nəfərə çatmışdır.

1948-ci il iyunun 21-də kəndin Ağcaqışlaq adı dəyişdirilərək **Getaşen,** 1967-ci il mayın 25-də isə **Getazat** qoyulmuş, kəndin əzəli türk adı itirilmişdir.

AĞCAQIŞLAQ (KÜRƏKEŞİN)

Gərnibasar mahalının düzənlik hissəsində, Yuva kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) kənd Gərni nahiyəsinin **Ağcaqışlaq kəndi** kimi qeydə alınmış, kəndin ikinci adının **Kürəkeşin** olduğu göstərilmişdir.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Ağcaqışlaq kəndi** kimi qeyd olunmuş, kəndin Gərnibasar mahalının Yuva kəndi yaxınlığında yerləşdiyi, əhalisinin Qəmərli camaatından olduğu, kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürdüyü göstərilmişdir.

Kəndin adının etimologiyası haqqında bundan əvvəlki Ağcaqışlaq kəndindən danışarkən ətraflı bəhs etmişik.

Təkcə onu əlavə etməklə kifayətlənirik ki, kənd Zəngibasar və Gərnibasar mahalındakı digər Ağcaqışlaq kəndlərindən sonra bölgədə eyniadlı üçüncü kənddir.

Sonrakı mənbələrdə kəndin adına rast gəlməməyimiz onun sonralar tarix səhnəsindən silinməsi ilə izah oluna bilər.

Bizim fikrimizcə, kənd XVIII yüzilin 2-ci yarısında Yuva kəndinə qarışmışdır. Bunu kəndin ikinci adının Kürəkeşin olması, Yuva kəndində dulusçuluq sənətinin geniş yayılması, burada bütün bölgə üçün təndir-kürə bişirilib satılması faktı da təsdiq edir. **Kürəkeşin**, yəni **kürə – təndir hazırlayanlar.** Başqa sözlə, kürəkeşlərin məskunlaşdığı bu kiçik qışlaq-kənd sonradan Yuva kəndinə qarışmış, Yuva kəndi bütövlükdə həmin peşənin mərkəzi kimi tanınmışdır.

AĞDAMLAR

Gərnibasar mahalının dağlıq hissəsində, Çatma kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

Kəndin nə vaxtdan salınması barədə dəqiq məlumatımız yoxdur. Təkcə onu deyə bilərik ki, 1897-ci ildə kənddə 39 nəfər azərbaycanlı yaşamışdır. D.D.Paqirevin "Qafqazın beşverstlik xəritəsinin əlifba göstəricisi"ndə (1913) kənd **Ağdamlar** adı ilə qeydə alınmışdır. XX yüzilin əvvəllərində Ağdamlar kəndi ermənilər tərəfindən dağıdılmış və sonralar bir daha məskunlaşmamışdır.

Kəndin yerində evlərin xarabalıqları və kənd qəbirstanlığının izləri son zamanlara qədər qalmaqda idi.

Kəndin adının etimoloji izahı ilə bağlı mövcud fikrə görə toponim rəng bildirən **ağ** və **dam** sözlərindən ibarətdir (B.Budaqov, Q.Qeybullayev). Bu fikirlə şərik olmaqla yanaşı, müəlliflərin **"dam"** sözünü **"qışlaq yerində mal-qaranı saxlamaq üçün tövlə"** mənasında izahını qəbul etmirik. Əslində, müəlliflər **"dam"** sözünün toponimin yerləşdiyi bölgədə **ev** anlamında işləndiyini bilməli idilər. "Ağdamlar" **ağ rəngli** və ya **ağ daşla tikilmiş evləri olan kənd** mənasındadır.

AXTAXAN

Gərnibasar mahalında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Axtaxan kəndi** kimi qeydə alınmış, kənddən dövlətin müxtəlif vergilər şəklində götürdüyü illik gəlirin 8.000 ağça olduğu göstərilmişdir. Yeri gəlmişkən, həmin mənbədə İqdır nahiyəsində də eyniadlı kənd qeydə alınmışdır.

Sonrakı mənbələrdə kəndin adına rast gəlməməyimiz onun sonrakı taleyi haqqında əlavə məlumat toplamağa imkan vermir.

Toponimin etimoloji izahına gəldikdə isə, o, **Axta** və **xan//kan** kimi iki komponentdən ibarətdir. Axta toponimi qədimdən türklərin yaşadığı ərazilərdə geniş yayılmışdır. Gürcüstandakı Axtala kurort, Ukraynadakı Axtırka şəhər, Həştərxan vilayətindəki Axtubinsk şəhər, Volqa çayının sol qolu olan Axtuba çay adları ilə eyni kökdəndir.

Qərbi Azərbaycan ərazisində Axta adı ilə kəndlər (iki kənd Dərəçiçək mahalında, bir kənd Dərələyəz nahiyəsində, bir kənd Sürməli qəzasında) və çay (Sürməli qəzasında) mövcud olmuşdur. Qafan rayonu ərazisində Axtalı, İqdır nahiyəsində və Talın mahalında isə Axtaxana adlı kəndlər qeydə alınmışdır. 1930-cu ildə Dərəçiçək mahalı ərazisində yaradılan rayonun da adı Axta olmuşdur.

Nəhayət, Şah I Təhmasibin 1598-ci ilə aid fərmanında Qərbi Azərbaycan ərazisində Axtabad şəhərinin adı çəkilmişdir.

Axta toponiminin bu qədər geniş ərazidə yayılması onun əhalinin hərəkəti ilə Türkiyədən gətirilmə olması fikrini (B.Budaqov, Q.Qeybullayev) təkzib edir. Hətta orta yüzillərdə Şərqi Anadoluda Axta nahiyəsinin mövcudluğu da yuxarıdakı fikrə əsas ola bilməz. Heç şübhəsiz, Axta toponimindən danışarkən onun etnonim səciyyəsini əsas götürmək lazımdır. Yeri gəlmişkən, XIX yüzildə Azərbaycanda yaşamış Padar tayfasının bir qolu da Axtaçı adlanmışdır və bu gün həmin tirənin adı ilə Azərbaycanın Ağsu, Sabirabad və Kürdəmir rayonlarında Axtaçı kəndləri mövcuddur.

Axtaxan toponiminin **xan** komponenti isə 1) ya xan variantında Axta tayfa xanının kəndi, 2) ya da -kan variantında Axta tayfasının yurdu, məskəni anlamlarındadır. Biz ikinci varianta üstünlük veririk.

AXUND BUZAVAND (BUZAVAND, ƏBDÜLHACI)

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 9 km şimal-şərqdə, Gərni çayının sol tərəfində, Gərni çayından ayrılan su arxının kənarında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamış, 1828-1829-cu illərdə kənddə həm də İrandan köçürülüb gətirilmiş ermənilər yerləşdirilmiş, lakin az sonra onlar çıxıb getmiş, kənd 1918-ci ilə qədər təzədən xalis azərbaycanlı kəndi olmuşdur. 1921-1948-ci illərdə kənddə azərbaycanlılarla ermənilər yanaşı yaşamış, 1948-ci ildən sonra kənd tamamilə erməniləşdirilmişdir.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Buzavand kəndi** kimi qeydə alınmış, kəndin Ərdəşir kəndi yaxınlığında yerləşdiyi, ikinci adının **Əbdülhacı** olduğu və kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 11.500 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) Gərnibasar mahalının **Axund Buzavand,** sonrakı mənbələrdə (1873, 1886...) **Axund Buzovand kəndi** kimi verilmişdir. Mövcud elmi fikrə görə, kənd Qızılbaşların **Bozavənd** tayfasının adını daşıyır və **"Axunda (İrəvan xanlığının axunduna) məxsus Bozavənd ailələri"** mənasındadır. (B.Budaqov, Q.Qeybullayev).

İ.Şopendə (1832) kənddə 20 təsərrüfatda 102 nəfər (55 kişi, 47 qadın) Azər türkü, 8 təsərrüfatda 35 nəfər (17 kişi, 18 qadın) İrandan köçürülüb gətirilmiş erməni qeydə alınmışdır.

Kəndin yarısının İrəvan məscidinin, digər yarısının **Axund Şeyxülislamın** tiyulları olduğu, Şeyxülislam vəfat etdikdən sonra onun tiyul payının ləğv olunduğu da həmin mənbədə göstərilmişdir.

1873-cü ilin statistik məlumatlarında kəndin mülkədar kəndi olduğu, Gərnibasar mahalının düzənlik hissəsində, Gərni çayının sol tərəfində, Gərni çayından ayrılan su arxının kənarında yerləşdiyi və kənddə 35 təsərrüfatda 210 nəfər (110 kişi, 100 qadın)

Azərbaycan türkünün yaşadığı göstərilmişdir. Bu mənbədə kənddə ermənilərin qeydə alınmaması söyləməyə əsas verir ki, 1828-1829-cu illərdə kəndə köçürülən ermənilər burada duruş gətirə bilməmiş, çıxıb ermənilərin çoxluq təşkil etdiyi kəndlərə getmişlər.

1886-cı ildə kənddə 44 təsərrüfatda 254 nəfər (136 kişi, 118 qadın) Azər türkü, cəmi 1 təsərrüfatda 7 nəfər müsəlman kürdü yaşamışdır.

1897-ci ildə kənddə 341 nəfər, 1905-ci ildə 322 nəfər, 1914-cü ildə 385 nəfər azərbaycanlı qeydə alınmışdır.

1918-ci ildə erməni daşnaklarının bölgədə törətdiyi azərbaycanlıların soyqırımı zamanı kəndin 400 nəfərdən çox əhalisi də qətl və qarətlərə məruz qalaraq ermənilər tərəfindən doğma kəndlərindən vəhşicəsinə qovulmuş, kənddə İranın Xoy, Salmas bölgələrindən gəlmə ermənilər yerləşdirilmişlər.

1926-cı ildə kəndin qaçqın azərbaycanlı əhalisindən 161 nəfəri geri qayıtmış, bu vaxt kənddə artıq 169 nəfər ermənin yaşadığını görmüşlər. 1931-ci ildə kənddə yaşayan azərbaycanlıların sayı 195 nəfərə çatmışdır.

1948-1949-cu illərdə kəndin bütün türk-müsəlman əhalisi zorla Azərbaycana deportasiya olunmuş və kənd bütünlüklə ermənilərlə doldurulmuşdur.

Kəndin Axund Buzavand adı əvvəl dəyişdirilərək **Bzovan,** 1935-ci il yanvarın 25-də isə **Bertik** qoyulmuşdur.

AXUŞVƏNG (İŞXAVƏNG, AHŞƏVİK)

Gərnibasar mahalında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Gərni nahiyəsinin **Axuşvəng kəndi,** "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **İşxavəng məzrəsi** kimi qeydə alınmışdır. Üstəlik, ikinci mənbədə İşxavəng məzrəsinin Dəlilər kəndi yaxınlığında yerləşdiyi və dövlətin müxtəlif vergilər şəklində məzrədən ildə 4.000 ağça gəlir götürdüyü barədə məlumat da verilmişdir. Bundan əlavə, 1728-ci ilə aid icmal dəftərində Gərni nahiyəsində **Ahşəvik** adlı başqa bir kənd də qeydə alınmış, kəndin **Seyid Səfərin** timarı olduğu və bu kənd-timardan dövlətin ildə 6.000 ağça gəlir götürdüyü göstərilmişdir. Əslində, biz İşxavəng və Ahşəvik kəndlərini müxtəlif adlar altında yazıya alınmış eyni kənd hesab edirik.

Sonrakı mənbələrdə kəndin adına rast gəlmirik.

Toponimin etimoloji izahına keçməzdən əvvəl onun daha qədim izlərini tapmağa çalışaq. Bizcə Axuşvəng//İşxavəng toponimi Gögərkuni mahalında **Şoqaka//Şaqaqa//Şuqaqa//Şaquaqaq** yazılışlarında qeydə alınan monastır adının sonrakı yüzillərdə deyiliş zamanı deformasiyaya uğramış formalarından başqa bir şey deyil. Hər iki toponimin monastır (vəng) olması da bunu təsdiq edir. Belə olan surətdə bu ərazinin qədim sakların (saqların) ana yurdu olduğu, **Saq//Şaq+oq//ok** şəklində "**Saq tayfası**" anlamında başa düşüldüyü göz qabağındadır.

Axuşvəng adı özü də **Axuş** və **vəng** komponentlərindən ibarət olmaqla birinci komponenti (Axuş), şübhə etmirik ki, türk dillərində **"dəstə", "alay", "yığın"** mənasında geniş işlədilən **"haxıs", "haxış"** sözlərindən törəmədir və bölgədəki Haxıs adlı bir çox oykonimlərlə eyni kökdəndir. Təsadüfi deyil ki, türklərin ən böyük anayurdlarından biri məhz **Axıska** ("Dədə Qorqud" dastanlarında Axisqa) adlanır. XVI yüzildə Gəncə əyalətində Ahistabad adlı sancaq, XVIII yüzildə isə Dağlıq Qarabağın Vərəndə mahalında Qut-Ahis adlı kənd qeydə alınmışdır.

Qərbi Azərbaycan ərazisində 1728-ci ilə aid mənbədə Xınzirək nahiyəsində Haxs, sonralar Əştərək rayonunda Axis (Haxis) kəndləri mövcud olmuşdur.

Vedibasar mahalının qədim Haxıs kəndi barədə isə bu oncildliyinin 1-ci cildində ətraflı bəhs etmişik. Bir daha təkrar edirik ki, Haxıs tipli toponimləri (Asax, Arsak, Xakas, Kaspi, Kasax və s.) **ağ as//az** türklərinin (çox vaxt onlar **on ağ ərlər** kimi də qeyd olunur) adı ilə bağlamaq meyli mövcuddur və bizcə, burada böyük həqiqət var. Bu yozumun özü belə, adın ilkin variantını – sak türklərinin adını daşımasını inkar etmir.

Axuşvəng toponiminin ikinci komponenti (vəng) isə, türk dillərində **abidə, yazılı daş abidə, əbədi abidə** anlamındakı **məngü** sözündən törəmədir ki, sonralar **vəng** şəklinə düşmüş və qeyri-müsəlman məbəd və kilsə adlarına qoşularaq işlənmişdir.

ALPEVİ (ALPAQ, ALPAVA, ARPAVA, ARPAVAR)

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 11 km şimalda kənd.

Kənddə 1828-ci ilə qədər ancaq Azər türkləri yaşamış, 1828-1829-cu illərdə İrandan köçürülüb gətirilmiş ermənilərdən bir neçə ailə də burada yerləşdirilmiş, lakin az sonra onlar kəndi tərk etmiş, 1918-ci ilə qədər yenə də kəndin sakinləri ancaq Azər türkləri olmuşlar. 1921-ci ildən etibarən kənddə Azər türkləri ilə ermənilər yanaşı yaşamış, 1930-cu illərdə kənd bütünlüklə ermənileşdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Gərni nahiyəsinin **Alpaq məzrəsi,** "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) həmin nahiyənin **Alpevi kəndi** kimi qeydə alınmışdır. Üstəlik, ikinci mənbədə kəndin **Əli** adlı şəxsin timarı olduğu, bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 5.000 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) kəndin adı Gərnibasar mahalının **Arpava,** 1873-cü və 1886-cı illərin statistikalarında **Alpava,** Sovet dövründə **Arpavar** kimi yazıya alınmışdır.

Göründüyü kimi, kəndin əsl adı **Alpevi** və ya **Alpava** olmuşdur. Əslində hər iki ad eyni məna daşımışdır. Birincisi **Alp** və **evi** komponentlərindən, ikincisi **Alp** və **ova//oba** komponentlərindən ibarət olmaqla hər ikisi **"Alp yurdu"** mənasını bildirmişdir. Alplar isə, məlum olduğu kimi, türk ərlərinə, türk igidlərinə verilən addır. Ona görə də kənd adının etimoloji izahının Arpava//Arpavar yazılışı üzərində aparılmasını, Arpa komponentli digər oykonimlərlə eyniköklü sayılmasını (B.Budaqov, Q.Qeybullayev) məqbul saymırıq.

İ.Şopendə (1832) kənddə 8 təsərrüfatda 35 nəfər (19 kişi, 16 qadın) Azər türkü, 6 təsərrüfatda 20 nəfər (11 kişi, 9 qadın) İrandan gəlmə erməni qeydə alınmışdır. Kəndin **Molla Kazımın** tiyul kəndi olduğu, o vəfat etdikdən sonra bu tiyulun ləğv olunduğu da həmin mənbədə göstərilmişdir.

1873-cü ilin statistikasında Gərnibasarın düzənlik hissəsində,

Gərni çayının sağında yerləşdirilən kəndin mülkədar kəndi olduğu göstərilmiş, kənddə 20 təsərrüfatda 97 nəfər (51 kişi, 46 qadın) Azər türkü siyahıya alınmışdır. Göründüyü kimi, 1828-1829-cu illərdə kəndə köçürülmüş 6 erməni ailəsi tezliklə kəndi tərk etmişlər.

1886-cı ildə kənddə 27 təsərrüfatda 121 nəfər (66 kişi, 55 qadın) Azər türkü yaşamışdır. Onların sayı 1897-ci ildə 127 nəfərə, 1905-ci ildə 186 nfərə, 1914-cü ildə 305 nəfərə çatmışdır.

1918-ci ildə erməni-daşnak qüvvələri tərəfindən bu qədim türk kəndi dağıdılmış, əhalisinin bir hissəsi ermənilərə xas vəhşiliklə qətlə yetirilmiş, sağ qalanlar kənddən qovulmuşlar. Daşnaklar kənddə İrandan və Türkiyədən qaçıb gəlmiş erməni mühacirlərini yerləşdirmişlər.

1922-ci ildə kəndin əsl sakinlərindən cəmi 31 nəfər doğma yurda qayda bilmişdir. Lakin bu vaxt artıq kənddə 152 nəfər gəlmə erməni məskunlaşdırılmışdı.

1931-ci ildə kənd əhalisinin nisbəti kökündən dəyişmiş, kənddə cəmi 51 nəfər azərbaycanlı, 598 nəfər erməni qeydə alınmışdır. Ermənilərin süni artımı göz qabağındadır. Az sonra həmin azərbaycanlılar da sıxışdırılıb kənddən çıxarılmış, kənd bütünlüklə ermənileşdirilmişdir.

1945-ci il avqustun 20-də kəndin adı dəyişdirilərək **Lusakert,** 1967-cı il oktyabrın 21-də yenidən dəyişdirilərək **Nşavan** qoyulmuşdur.

AŞAĞI AĞBAŞ (AĞBAŞ)

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 15 km şimalda, Gərni çayının sağ kənarında kənd.

Kənddə XVIII yüzilin sonlarına qədər ancaq Azər türkləri, XVIII yüzilin sonlarından 1828-ci ilə qədər Azər türkləri ilə ermənilər yanaşı yaşamışlar. 1828-ci ildən etibarən erməni kəndi kimi mövcud olmuşdur.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) **Ağbaş kəndi** adı ilə Aralıq nahiyəsinin tərkibində verilmişdir.

İrəvan xanlığının işğalı zamanı kəndin müsəlmanlar yaşayan yuxarı hissəsi xaraba qalmış və İ.Şopen (1832) Gərnibasar mahalının **Ağbaş kəndi** kimi qeydə aldığı kənddə ancaq ermənilərin – 21 təsərrüfatda 92 nəfər (38 kişi, 54 qadın) "yerli", yəni Türkmənçay müqaviləsinə qədər burada məskunlaşmış, 38 təsərrüfatda 155 nəfər (82 kişi, 73 qadın) 1828-1829-cu illərdə İrandan köçürülüb gətirilmiş ermənin yaşadığını göstərmişdir.

Sonralar kəndin qaçqın əhalisi geri qayıtmış, kəndin yuxarısındakı köhnə yurd yerlərini bərpa etmiş, ermənileşmiş Ağbaş kəndindən ayrılmışlar. Buna görə də XIX yüzilin ortalarından etibarən Gərnibasar mahalı ərazisində Aşağı Ağbaş, Yuxarı Ağbaş adlı iki müstəqil kənd qeydə alınmağa başlanmışdır.

1873-cü ilin statikasında Gərnibasar mahalının düzənlik hissəsində, Gərni çayının sağ kənarında yerləşdirilən **Aşağı Ağbaş** kəndində 88 təsərrüfatda 426 nəfər (236 kişi, 190 qadın) erməni və 1 kilsə siyahıya alınmışdır.

1886-cı ildə **Aşağı Ağbaş** kənd əhalisinin sayı 94 təsərrüfatda 486 nəfərə (263 kişi, 223 qadın) çatmışdır.

Toponimin etimologiyası ilə bağlı elmi ədəbiyyatda mövcud olan fikrə görə, **Ağbaş** oykonimi **Əxi** və farsca **"əkin yeri"** anlamında **bəş** sözlərindən ibarətdir və **"Əxiyə məxsus əkin yeri"** mənasını bildirir (B.Budaqov, Q.Qeybullayev). Heç şübhəsiz, bu versiyada adın birinci komponentinin **Ağa** şəxs adından törəməsi ehtimalı da istisna təşkil etmir. Ağbaş toponiminin kənd salınmamışdan əvvəl həmin yerin adı olması faktını da nəzərə almaqla

güman etmək olar ki, adın ikinci komponenti **"tərəf"** anlamında elə **baş** sözündən ibarət də ola bilər (məsələn, Aşağı baş, Yuxarı baş və s.). Belə olan halda adın birinci komponentinin nəinki **əxi, ağa,** həmçinin **ağ** (**rəng** və ya **kiçik** mənalarında) sözlərindən yaranması da tamamilə mümkündür.

Bütöv Azərbaycan, o cümlədən Qərbi Azərbaycan ərazisində "Ağ", "Ağa" komponentli çoxlu sayda toponim mövcuddur. Zəngəzur mahalında və Dəvəçi rayonunda Ağbaş kəndləri, Naxçıvanda Ağbaş çayı bu silsilədəndir.

1945-ci il avqustun 20-də kəndin Aşağı Ağbaş adı dəyişdirilərək **Arevşat** qoyulmuşdur.

AŞAĞI QƏMƏRLİ

Gərnibasar mahalının düzənlik hissəsində, Gərni çayının sol tərəfində, Qəmərli qəsəbəsinin yanında kənd.

1828-1829-cu illərdə İranın Xoy və Salmas vilayətlərindən köçürülüb gətirilmiş erməniləri yerləşdirmək məqsədilə Qəmərli kəndinin aşağısında salınan kənddə ermənilər yaşamışlar.

Qəmərli kəndinin aşağı tərəfində yerləşdiyi üçün **Aşağı Qəmərli** adlanmış, həm kiçikliyinə, həm də Qəmərli kəndinə çox yaxınlığına görə bütün statistik məlumatlarda Qəmərli (Yuxarı Qəmərli) kəndinin üstündə verilmişdir. Biz də bu prinsiplə gedərək Aşağı Qəmərli və Yuxarı Qəmərli kəndlərinə birlikdə aid materialları Qəmərli (Yuxarı Qəmərli) kəndinə dair oçerkdə verəcəyik.

1930-cu ildə Aşağı Qəmərli kəndi Qəmərli (Yuxarı Qəmərli) kəndi ilə birləşdirilərək müstəqil kənd kimi tarix səhnəsindən silinmişdir.

Qəmərli toponimi, onun etimoloji açımı, Cənubi Qafqaza gəlişi və yayılma arealı barədə Qəmərli (Yuxarı Qəmərli) kəndi haqqındakı oçerkdə ətraflı bəhs edəcəyik. Ona görə də təkrara varmadan təkcə onu deməklə kifəyətlənirik ki, Qəmərli etnotoponimi er. əv. VIII yüzildə Cənubi Qafqazda məskunlaşmış və Azər xalqının soykökünün formalaşmasında yaxından iştirak etmiş **Qamər//Kəmər//Kimmer** tayfasının adından yaranmışdır.

AŞAĞI QUYLASAR

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 6-8 km şimal-qərbdə, Gərni çayının sağ tərəfində, çayın yaxınlığında, İrəvan-Qəmərli avtomobil yolunun kənarında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamış, 1828-1829-cu illərdə kəndə İrandan köçürülüb gətirilmiş ermənilər də yerləşdirildiyindən kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1940-cı illərdə kəndə İrandan gəlmə xeyli aysoru əhali də köçürülmüş və həmin vaxtdan 1880-ci illərə qədər kənddə azərbaycanlılar, aysorular və ermənilər yanaşı yaşamışlar. Sonuncu tarixdə azərbaycanlılar sıxışdırılıb çıxarılmış və kənddə ancaq aysorularla ermənilər qalmışlar. Sovet hakimiyyəti illərində isə kənddə yaşayan bütün aysorular erməniləşdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Gərni nahiyəsində **Qoyluhasar** adı ilə qeyd olunan kənddən çıxan ailələr bir qədər aşağıda ikinci bir eyniadlı kənd salmışlar ki, həmin kənd "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) **Aşağı Quyuluhasar kəndi** kimi yazıya alınmışdır. Kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 7.000 ağça gəlir götürdüyü də həmin mənbədə göstərilmişdir.

İ.Şopendə (1832) Gərnibasar mahalının **Qoylasar-sufla** (ərəbcə **sufla "aşağı"** deməkdir) kəndində 1 təsərrüfatda 5 nəfər (3 kişi, 2 qadın) Azər türkü, 18 təsərrüfatda 80 nəfər (42 kişi, 38 qadın) İrandan köçürülüb gətirilmiş erməni qeydə alınmışdır. Bu fakt özü də təsdiq edir ki, 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı kəndin türk-müsəlman əhalisi böyük itkilərə məruz qalmışdır.

Az sonra kəndin qaçqın azərbaycanlı əhalisi geri qayıtmış və doğma kəndlərində yaşamışlar. Bunu söyləməyə "Zaqafqaziya diyarının dövlət kəndlilərinin iqtisadi vəziyyətinə dair materiallar" toplusu əsas verir. 1886-cı ilə aid həmin mənbədə qeyd olunur ki, Aşağı Quylasar kəndinin azərbaycanlı əhalisi 40-cı illərdə bu kənddən boş torpaqlara köçürülmüş, burada Şorkənd kəndini salmış, Qoylasar kəndində isə aysorular gətirilib məskunlaşdırılmışlar.

1873-cü ildə **Aşağı Quylasar** kimi qeydə alınan kənddə 1 təsərrüfatda 4 nəfər (3 kişi, 1 qadın) Azər türkü, 85 təsərrüfatda 463 nəfər (240 kişi, 223 qadın) aysoru, 25 təsərrüfatda 95 nəfər (52 kişi, 43 qadın) erməni yaşamışdır. 1873-cü ilin statikasında həmçinin kənddə 1 pravoslav (aysoru) kilsəsi qeydə alınmışdır.

İrəvan qəzasında ilk dünyəvi məktəblərdən biri 1879-cu ildə Aşağı Quylasar kəndində açılmışdır. Həmin birsinifli zemstvo məktəbini açmaqda əsas məqsəd burada məskunlaşmış aysoru balalarına ibtidai təhsil vermək idi.

1886-cı ildə kəndin adı **Aşağı Qoylasar** kimi verilmiş və orada 91 təsərrüfatda 476 nəfər (261 kişi, 215 qadın) aysoru, 21 təsərrüfatda 90 nəfər (49 kişi, 41 qadın) erməni yaşamışdır.

Aşağı Quylasar kəndinin İrəvan qəzasında, Geğvart monastırından yuxarıda, kənddən 40 vestlik məsafədə, 65 desyatin ərazini əhatə edən **Üçtəpəyurd** adlı yurd yeri olmuş, kənd camaatı bu yaylaq yerindən 1829-cu ildən bəri istifadə etmişdir.

Sovet həkimiyyəti dövründə kəndin aysoru əhalisi bütünlüklə ermənileşdirilmiş, kəndin Aşağı Quylasar adı isə 1949-cu il dekabrın 1-də dəyişdirilərək **Dmitrov** qoyulmuşdur.

* * *

Aşağı Quylasar kəndi haqqında ən dolğun məlumata Quylasar kəndindəki zemstvo məktəbinin müəllimi P.Eyvazovun 1882-ci ildə qələmə aldığı və 1884-cü ildə SMOMPK-un IV buraxılışında çap olunmuş "Quylasar kəndi və aysorular haqqında bəzi məlumatlar" məqaləsində rast gəlirik. Öncə oykonimin etimoloji izahına diqqəti çəkən müəllif göstərir ki, yaşlı adamların dediyinə görə, kəndin adı əslində Qoylasar yox, **"Qoyula-sər"**dir. Yəni **qoyulmaq** mənasında **"qoyula"** və farsca **baş, əsas, özül** anlamlarında **"sər"** sözlərindən ibarətdir, Başqa sözlə, **"əsası qoyulmuş".** Bu yozum onunla izah olunur ki, guya keçmişdə burada kənd olmamış və yalnız Şah Abbasın burada kənd salmaq göstərişindən sonra İrandan bir neçə ailə bura köçürülüb kənd yaradılmışdır.

Digər versiyaya görə, kənd əvvəl **Qalahasar** adlanıb, yəni **"hasarlanmış qala".** Kənddəki 20 bürcdən ibarət dairəvi qala divarı bu ehtimalı daha da gücləndirir. Həmin qala divarı böyük bir meydan əməl gətirir ki, deyilənə görə, keçmişdə ətraf kənd-

lərin əhalisi də bura yığılar, yadelli hücumlarından qorunarmışlar.

Üçüncü ehtimala görə, kəndin ilkin adı **"Quyla-sər"** şəklində olmuş, **"başını quylamaq, batırmaq"** anlamında işlənmişdir. Guya kənd bu adı coğrafi mövqeyinə görə almışdır. Başqa sözlə, kənd çökəklikdə yerləşdiyindən, ətrafında çoxlu bataqlıqlar olduğundan, yayın yandırıcı istisində bu bataqlıqdan qalxan üfunət, rütubət buranı xəstəliklər, kütləvi ölümlər məkanına çevirdiyindən kəndə belə bir ad verilmişdir.

Nəhayət, kəndin adının etimoloji izahı ilə bağlı mövcud elmi fikrə (B.Budaqov, Q.Qeybullayev) görə, o, Qızılbaşlara qoşulmuş Rumlu tayfasına mənsub ailələrin Anadoludan gətirdikləri addır. Bu tayfa orta yüzillərdə Anadoluda Koyul-hisar, Çorum, Tokat, Amasiya, Bayburt və İspir əyalətlərində yaşamış, onların **Koyul-hisar** mahalında yaşayan hissəsi İrəvan əyalətinə köçüb gəldikdən sonra burada saldıqları kəndə əvvəlki kəndlərinin adını vermişlər. Və guya **Koyul-hisar** toponimi farsca **kevil, kevul, köyül** (**"süni surətdə yer altında düzəldilmiş sığınacaq", "yeraltı ev"**) və ərəbcə **hisar** (**"hasar", "qalaça"**) sözlərindən ibarətdir. Təbii ki, biz bu versiyanı qəbul etmirik. Anadoludan gətirilmə ad nə üçün farsca izah olunmalıdır? Bizcə **Koyul//Qoyul** toponimini **Kayı//Qayı-el** kimi izah etmək daha elmi olardı. Yəni **"Qayı elinin hasarı", "Qayı türklərinin sərhədi"**. Toponimin Anadoludan gətirilmə olmasını da məqbul saymırıq. Əksinə, toponim Cənubi Qafqazdan Anadoluya aparılma ola bilər.

P.Eyvazov kəndin qədimliyini və türk kəndi olduğunu sübut edən faktlar kimi kəndin ərazisindəki qədim qülləni və böyük türk qəbiristanlığının mövcudluğunu misal göstərir, 1826-1828-ci illər Rusiya-İran müharibəsinə qədər burada türklərin yaşadığını bir daha qeyd edir.

Həmin müharibə zamanı İran ərazisində ruslara bələdçilik edən aysoru **Allahverdi Tumayevin** xahişi ilə çar hökuməti 1830-cu illərdə İrandan 100 aysoru ailəsinin Rusiya hüdudlarına köçməsinə icazə vermiş, həmin ailələr İranın Urmiya mahalının Süpürgən, Muyşəva, Yengicə, Goracaluy, Nazı və Guytafa kəndlərindən əvvəl Naxçıvan qəzasına, 3 il sonra oradan Şuşa qəzasının Tərtər kəndinə köçmüşlər. 10 il burada yaşayan aysorular difteriya xəstəliyi yayıldığı üçün kəndi tərk edib, İrəvan

qəzasının Ağhəmzəli kəndinə, sonra Düyün kəndinə, 40-cı illərdə isə bir hissəsi həmişəlik Aşağı Quylasar kəndinə köçürlər.

Əvvəl nestorian təliminə inanan (İsa-Nəsrana inandıqları üçün müsəlmanlar onlara **nəsrani** deyirdilər) aysorular sonralar pravoslavlığı qəbul etsələr də, Sovet dövründə ermənilər onları bütünlüklə qriqorianlaşdırmış və ermənileşdirmişdir. Əvvəllər özlərinin keşişi, kənddəki kilsədə aysoru kilsə yazıları, aysoru uşaqları üçün dini məktəb fəaliyyət göstərsə də, 1880-ci illərdə artıq bunlar unudulmaqda, kənd pravoslavlaşmaqda idi.

P.Eyvazovun yazdığına görə, şərqdən Yuxarı Quylasar kəndi, şimaldan Qaraqoyun kəndi, qərbdən Sabunçu arxı, cənubdan Toxanşalı kəndinin bağları ilə sərhəddə yerləşən Aşağı Quylasar kəndində hər ev otaq və bir damdan ibarət imiş. Bir-birinə yaxın məsafədə yerləşən bu evlərin hər birinin bacası və evin ortasında təndiri varmış. Son zamanlar (1870-1880-ci illər üçün) kənddə çiy kərpicdən tikilən yaraşıqlı tikililər sırasında P.Eyvazov aşağıdakıları qeyd edir: kilsə binası – keşişlər üçün evlə birgə, Allahverdiyevlərin, Allahverənovların, Xnanişoyevlərin, Şahbazovların və İlyinlərin evləri.

Kənddə iki cür gil varmış, birindən qab-qacaq düzəltmək üçün, digərindən dam-daş və təndir suvamaq üçün istifadə edirmişlər.

P.Eyvazovun "Böyük türk qəbiristanlığı" deyə qeydə aldığı qəbiristanlıq kəndin şimal və şimal-şərq hissəsində yerləşirdi. Bu qəbirlərdə insan sümükləri ilə yanaşı, müxtəlif məişət əşyaları – gil qablar, kasalar da vardı.

Kəndin Toxanşalı arxı tərəfində torpaqdan çoxlu gil bardaqlar və cürbəcür muncuqlar tapılırdı. Buna görə də həmin arx həm də **Muncuqlu arxı** adlanırdı.

Kənddə meyvəçilik və üzümçülüklə yanaşı, taxılçılıq, bostançılıq, tərəvəzçilik də geniş yayılmışdı. Çoxlu – təxminən 130 küp çaxır qoyur, onun beşdən birini satır, qalanını özləri içirdilər.

Aşağı Qoylasar, Toxanşalı, Sabunçu, Qaraqoyun, Yuxarı Quylasar və Tamamlı kəndlərinin bir starşinası olurdu. Bu kəndlərə aid bütün məsələləri o, kənd məhkəməsi ilə birgə həll edirdi. Hər həftənin cümə və bazar günləri adamların şikayətlərinə baxılardı.

AVANİK (AVANLIBULAQ, YUXARI ERANOS)

Gərnibasar mahalının dağlıq hissəsində, Eranos (Aşağı Eranos) kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Gərni nahiyəsinin **Avanik kəndi,** "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Avanlıbulaq məzrəsi** kimi qeydə alınmışdır. Üstəlik, ikinci mənbədə Avanlıbulaq məzrəsinin Gərni nahiyəsinin Eranos kəndi ilə birlikdə **Əhməd Şaban oğlu** adlı şəxsin timarı olduğu və bu ərazilərdən dövlətin müxtəlif vergilər şəklində ildə 3.500 ağça gəlir götürdüyü də göstərilmişdir.

Lakin az sonra Eranos kəndindən çıxan ailələr köhnə Avanlıbulaq kənd yerini yenidən şenləndirmiş və yeni salınan kənd Eranos kəndinin yuxarısında yerləşdiyi üçün Yuxarı Eranos adlanmış, İ.Şopendə (1832) **Yuxarı Eranos** adı ilə də Gərnibasar mahalının xaraba kəndləri siyahısına daxil edilmişdir. Sonralar kənd bərpa olunmamış, elə o vaxtdan da xaraba qalmışdır. Buradan çıxan ailələr sonralar köçüb Eranos (Aşağı Eranos) kəndində yaşamışlar.

Göründüyü kimi, birinci mənbədə kənd kimi qeyd olunan yaşayış məntəqəsi ikinci mənbədə artıq məzrəyə çevrilmiş, başqa sözlə, kənd olmaq funksiyasını itirib, məzrə kimi istifadə edilmişdir.

Eranos etnomimi barədə isə Gərnibasar mahalının Eranos (Aşağı Eranos) kəndində, Avan toponimi və onun yayılma arealı barədə isə Qırxbulaq mahalının Avan kəndindən danışarkən ətraflı bəhs edəcəyik. Təkcə onu yazmaqla kifayətlənirik ki, tarixi türk torpaqlarında geniş yayılmış bu toponim əslində Qafqaza çox-çox qədimlərdən – er. əv. VII yüzildə sakların tərkibində qarqarlarla yanaşı gəlmiş **Aban** tayfasının adını daşıyır. Yeri gəlmişkən, II Şah İsmayılın 1577-ci ildə imzaladığı fərmanda da Ağrıdağ vadisində **Avanik** adlı kənddən bəhs olunur.

Tədqiqatçıların (B.Budaqov, Q.Qeybullayev) belə bir fikri ilə qəti razı deyilik ki, guya Avanik toponiminin ikinci komponenti ermənicə **-ik** şəkilçisindən ibarətdir. Əslində, bu tipli qədim türk toponimlərində erməni dilinin elementlərini axtarmaq özü absurddur. Ən azı ona görə ki, XIX yüzilə qədər Qafqazda son dərəcə cüzi sayda olan, az qala barmaqla sayıla bilən bir ovuc gəlmənin burada toponimyaratma prosesində iştirakı mümkünsüzdür. Konkret Avanik toponiminə gəldikdə, bu, sadəcə **Avan** türk etnonimindən və türk dillərində tayfa, qəbilə, nəsil anlamında **ok//ox** sözündən ibarətdir.

AYASLI (QUŞÇU, BÖYÜK AYASLI)

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 9 km şimalda, Gərni çayının sol tərəfində, Gərni çayından ayrılan su arxının kənarında, Qulaməli Buzavand kəndi yanında kənd.

XIX yüzilin ortalarına qədər kənddə ancaq Azər türkləri yaşamış, həmin vaxtdan kəndə İrandan köçürülüb gətirilmiş xeyli erməni yerləşdirilmiş və 1918-ci ilə qədər kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1918-ci ildə azərbaycanlılar kənddən qovulub çıxarılmış, kənd bütünlüklə erməniləşdirilmişdir.

"İrəvan əlyalətinin müfəssəl dəfətəri"ndə (1590) Gərni nahiyəsinin **Quşçu kəndi** kimi verilmişdir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Gərni nahiyəsinin başqa adı **Quşçu kəndi** olan **Böyük Ayaslı** kəndi kimi qeydə alınmış, dövlətin müxtəlif vergilər şəklində kənddən ildə 28.300 ağça gəlir götürdüyü göstərilmişdir. Kəndin Quşçu alından göründüyü kimi, burada yaşayanlar **Quşçu** (farsca **Kuşan**) tayfasına mənsub olmuşlar. Xatırladırıq ki, Quşi (Quşçu) adlanan qədim türk tayfası Cənubi Qafqaza III-IV yüzillərdə gəlmişlər. İlk dəfə VII yüzil ərmən mənbəyində bu ad Xuşi şəklində qeydə alınmışdır. Bu həmin tayfadır ki, Orta Asiyada I-II yüzillərdə Kuşan çarlığını yaratmışdı. XIX yüzildə Qafqazda bu tayfanın adı ilə (Kuşi, Quşi, Quşçu, Quşilər və s. formalarda) 38 toponim qeydə alınmışdır.

İ.Şopendə (1832) Gərnibasar mahalının **Ayazlı kəndi** kimi verilmiş, kənddə 7 təsərrüfatda 43 nəfər (21 kişi, 22 qadın) Azər türkünün yaşadığı göstərilmişdir.

Sonrakı mənbələrdə (1873, 1886...) isə kəndin adı **Ayaslı** kimidir.

Kəndin adının gətirilmə olması, Anadolunun şərqində (Kilikiyada) orta yüzillərdə mövcud olmuş Ayas (**və ya Hayasa** – Ə.Ə.) mahalından gəlmiş ailələrin məskunlaşması nəticəsində yaranması fikri (B.Budaqov, Q.Qeybullayev) ciddi tədqiqata möhtacdır. Bizcə, toponimin etimoloji izahı zamanı Cənubi Qafqazda, o cümlədən Qərbi Azərbaycanda qədimdən yaşayan və

Azər türklərinin soykökündə əsas etnoslardan biri, bəlkə də birincisi kimi iştirak edən **az//xaz//kas** boyadının mövcudluğunu danmaq olmaz və Ayaslı toponiminin izahı məhz burada axtarılmalıdır.

Tədqiqatçı S.Mirmahmudovanın toponimin orada ilk dəfə məskunlaşmış nəslin (**Ayaslı**) adından yaranması fikri də az ağlabatandır.

İ.Şopendə (1832) kənddə bir nəfər də ermənin qeydə alınmaması təsdiq edir ki, kəndin ermənileşdirilməsinə Türkmənçay müqaviləsindən (1828) sonra – XIX yüzilin ortalarında başlanmışdır. Belə ki, həmin illərdə kəndə İrandan, xüsusilə Xoy və Urmiya bölgələrindən köçürülüb gətirilmiş xeyli erməni yerləşdirilmişdir. Elə ona görə də artıq 1873-çü ilin statistik məlumatlarında mülkədar kəndi kimi qeydə alınan, Gərnibasar mahalının düzənlik hissəsində, Gərni çayının sol tərəfində yerləşdirilən kənddə 9 təsərrüfatda 55 nəfər (30 kişi, 25 qadın) Azər türkü ilə yanaşı, həm də 64 təsərrüfatda 361 nəfər (182 kişi, 179 qadın) erməni siyahıya alınmışdır.

1886-cı ildə kənddə azərbaycanlıların sayı dəyişməmiş, 9 təsərrüfatda 55 nəfər (30 kişi, 25 qadın) Azər türkü, 74 təsərrüfatda 407 nəfər (219 kişi, 188 qadın) erməni yaşamışdır.

Sonrakı illərdə kənddə azərbaycanlıların sayı daha da azalmış, 1905-ci ildə cəmi 21 nəfər, 1914-cü ildə 32 nəfər qeydə alınmışdır.

1918-ci ildə ermənilərin bölgədə azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı zamanı kəndin bütün azərbaycanlı əhalisi vəhşicəsinə qovularaq kənddən çıxarılmış, kəndin ermənileşdirilməsi başa çatdırılmışdır.

Sonralar kənd qonşu Qulaməli Buzavand kəndi ilə birləşdirilmiş, kəndin Ayaslı adı dəyişdirilərək **Aygestan** qoyulmuşdur.

BAŞNƏLİ (CANDARLAR, ÇANDAR)

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 4 km şimal-qərbdə, Gərni çayının sol tərəfində, Gərni çayından ayrılan su arxının kənarında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1828-1829-cu illərdə kənddə həm də İrandan gəlmə erməni qaçqınları yerləşdirilmiş, 1930-cu illərə qədər kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuş, 1930-cu illərdə kəndin ermənileşdirilməsi başa çatdırılmışdır.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) kəndin adı Gərni nahiyəsinin **Candarlar kəndi** kimi qeydə alınmışdır. "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Gərni nahiyəsinin **Başnəli kəndi** kimi verilmiş, kəndin ikinci adının **Çandar** olduğu göstərilmişdir. Həmçinin kəndin **Həsən** adlı şəxsin timarı olduğu və bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 6.500 ağça gəlir götürdüyü də qeyd edilmişdir.

İ.Şopendə (1832) Gərnibasar mahalının **Başınəli,** sonrakı mənbələrdə (1873, 1886...) isə **Başnəli kəndi** kimi yazıya alınmışdır.

Toponimin **Başnalı** şəxs adından yaranması fikri (S.Mirmahmudova) kökündən səhvdir. Adın etimologiyası ilə bağlı belə bir fikir də mövcuddur ki, **Basin** tayfası anlamında **Basin-eli** komponentlərindən ibarətdir (B.Budaqov, Q.Qeybullayev). Biz bu fikirlə tamamilə şərikik.

Kəndin **Candarlar//Çandar** adına gəldikdə isə bu, Oğuz mənşəli **Çandar** tayfasının adından törəmədir. Eyni etnotoponim Türkmənistanda (Çəndirli şəklində) və Özbəkistanda da mövcuddur. Azərbaycanda bu etnotoponim Salyan rayonunun Xələc kəndində və Qəbələ rayonunun Bum kəndində Çandırlı məhəllə adları şəklində özünü göstərmişdir. XVI yüzildə İrəvan əyalətinin Abaran nahiyəsində Candar, Karbi nahiyəsində Candarlar kəndləri də qeydə alınmışdır.

Yeri gəlmişkən, onu da xatırladaq ki, XII-XIII yüzillərdə Səlcuq sultanlarının mühafizəçisi **candar** adlanırdı və xidmətləri əvəzində onlara torpaq sahələri və yaşayış məntəqələri verilirdi.

İ.Şopendə (1832) kənddə cəmi 8 təsərrüfatda 30 nəfər (14 kişi, 16 qadın) Azər türkü, 48 təsərrüfatda 175 nəfər (101 kişi, 4 qadın) İrandan köçürülüb gətirilmiş erməni siyahıya alınmışdır. Bu fakt bir daha sübut edir ki, kənd 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı azərbaycanlılardan əsasən boşaldılmış və kənddə İrandan kəlmə ermənilər məskunlaşdırılmışlar.

Kəndin **Ağamirzə bəyin** tiyul kəndi olduğu, bu tiyulun ona vəzir Mirzə İsmayıl tərəfindən verildiyi, bölgənin ruslar tərəfindən işğalından sonra Ağamirzə bəyin xanlıq ərazisini tərk etdiyi üçün bu tiyulun ləğv edildiyi də həmin mənbədə göstərilmişdir.

1873-cü ilə aid statistik məlumatlarda kəndin dəqiq yeri (Gərnibasar mahalının düzənlik hissəsində, Gərni çayının solunda, Gərni çayından ayrılan su arxının kənarında) göstərilmiş, mülkədar kəndi olduğu, kənddə 11 təsərrüfatda 85 nəfər (41 kişi, 44 qadın) Azər türkü, 65 təsərrüfatda 462 nəfər (238 kişi, 224 qadın) erməni qeydə alınmışdır.

1886-cı ildə kənddə 10 təsərrüfatda 56 nəfər (28 kişi, 28 qadın) Azər türkü, 73 təsərrüfatda 570 nəfər (283 kişi, 287 qadın) erməni yaşamışdır. Kənddə yaşayan azərbaycanlıların sayı 1905-ci ildə 68 nəfər, 1914-cü ildə 71 nəfər olmuşdur.

1918-ci ildə erməni daşnaklarının azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımı nəticəsində kəndin bütün azərbaycanlı əhalisi kənddən vəhşicəsinə qovulmuş, onların boş evlərinə İranın Xoy, Salmas vilayətlərindən gələn ermənilər yerləşdirilmişlər.


Bölgədə Sovet hakimiyyətinin qurulması sayəsində kəndin keçmiş azərbaycanlı sakinlərindən bir neçə ailə geri qayıda bilmiş, lakin onlar da addımbaşı sıxışdırılmış, kəndi tərk etməyə məcbur edilmişlər. Belə ki, 1931-ci ildə artıq kənddə cəmi 7 nəfər azərbaycanlı qalmışdı. Az sonra onlar da kəndi tərk etməyə məcbur olmuş, kənd bütünlüklə ermənileşdirilmişdir.

1949-cu il dekabrın 1-də kəndin Başnəli adı dəyişdirilərək **Bağramyan** qoyulmuşdur.

BƏCƏYƏZLİ (BƏYCİVAZLI, YUXARI BƏCƏYƏZLİ, AŞAĞI BƏCƏYƏZLİ)

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 2 km şimal-şərqdə, Gərni çayının sol tərəfində, Ərdəşər kəndinin yanında, Gərni çayından ayrılan su arxının kənarında kənd. Bəcəyəzli kəndi İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin yüxarı və aşağı tərəflərində yerləşdiyi üçün xalq arasında o, **Yuxarı Bəcəyəzli** və **Aşağı Bəcəyəzli** kimi də adlanmış, lakin bütün rəsmi sənədlərdə vahid **Bəcəyəzli** adı ilə qeydə alınmışdır.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamış, 1828-1829-cu illərdə kəndə İrandan xeyli erməni köçürülüb gətirilmiş və o vaxtdan 1930-cu illərə qədər kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuş, 1930-cu illərdə bütünlüklə erməniləşdirilmişdir.



Bəcəyəzli kəndinin ümumi görünüşü

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Bəycivazlı kəndi** kimi qeydə alınmış, ərazisinin İrəvan xanlığının xass torpaqlarından olduğu və kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 13.000 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) də kəndin adı Gərnibasar mahalının **Bəycivazlı kəndi** kimidir. Sonrakı statistikalarda kəndin adı **Bəycağazlı, Bəyciyəzli, Bəycığazlı, Becazlı** və s. formalarda işlənmişdir. Yerli tələffüzdə kəndin adı **Bəyciyəzlidir** ki, son zamanlar azacıq fonetik dəyişikliklə **Bəcəyəzli** kimi də tələffüz olunmuşdur. Ermənilər isə kəndin adını son vaxtlar qısaca **Becazlı** kimi yazırdılar.

Kəndin adının etimologiyası ilə bağlı elmi ədəbiyyatda aydın fikir yoxdur. Lakin bölgədə oxşar toponimlərin çoxluğu (İrəvan əyalətinin Ağcaqala nahiyəsində Beçə kəndi, Dərəçiçək mahalında Becini kəndi, Qırxbulaq nahiyəsində Beçni kəndi, Gərnibasar mahalının Bəcəyəzli kəndi və s.) düşünməyə əsas verir ki, bütün bu toponimlər eyni kökdəndir və qədim türksoylu **Becənə** və ya **Becənok (Peçeneq)** tayfasının adından törəmədir.

"Dədə Qorqud" qəhrəmanlarından birinin adında (**Bəy Becan**) yaşayan bu etnonim Şimali Qafqazda – Kuban əyalətinin Bədəlpaşa dairəsində Becasin dağı, Şərqi Anadoluda Becini kəndi kimi də mövcud olmuşdur.

Eramızın əvvəllərində Şimali Qafqazdan gəlib, əsasən Albaniyanın Arsak əyalətində, Qərbi Azərbaycan və Şərqi Anadolu torpaqlarında məskunlaşan bu tayfa Azər türklərinin etnogenezində yaxından iştirak etmişdir. VII-X yüzillərdə Albaniyada Becans toponimi qeydə alınmış, XVI yüzilə aid mənbələrdə Zəyəmçayın bir qolu Bacançay adlanmış, XIX yüzildə Tiflis quberniyasının Siqnax qəzasında Becani, Kutais quberniyasının Şaropan qəzasında iki Bjeanevi kənd adları siyahıya alınmışdır.

İ.Şopendə (1832) kənddə 22 təsərrüfatda 102 nəfər (57 kişi, 45 qadın) Azər türkünün, 48 təsərrüfatda 250 nəfər (136 kişi, 114 qadın) İranın Xoy və Salmas vilayətlərindən köçürülüb gətirilmiş ermənilərin yaşadığı göstərilmişdir.

1873-cü ilin statistik məlumatlarında kəndin adı iki yazılışda – **Bəycağazlı** və **Bəyciyəzli** kimi verilmiş, kəndin dəqiq coğrafi yeri (Gərnibasar mahalının düzənlik hissəsində, Gərni çayının solunda, Ərdəşər kəndinin yanında, Qəmərli stansiyasından 5 verst şimal-şərqdə, İrəvan şəhərindən 25 verst cənub-şərqdə) göstərilmişdir. Mülkədar kəndi olan Bəcəyəzlidə həmin vaxt cəmi 3 təsərrüfatda 22 nəfər (10 kişi, 12 qadın) azərbaycanlı, 1 təsərrüfatda 5 nəfər (2 kişi, 3 qadın) müsəlman kürdü, 106 təsərrüfatda 923 nəfər (495 kişi, 428 qadın) erməni siyahıya alınmışdır.

Yeri gəlmişkən, kəndin yerli azərbaycanlı əhalisinin 1832-1873-cü illər arasında belə kəskin azalması, heç şübhəsiz, bölgədə Çar Rusiyasının yeritdiyi ermənipərəst siyasətin nəticəsi idi. Kənddən sıxışdırılıb çıxarılan azərbaycanlılar isə qonşu azərbaycanlı kəndlərində məskunlaşmaq məcburiyyətində qalırdılar.

Xatırladırıq ki, həmin vaxtlar Bəcəyəzli kənd camaatının ən çox üz tutduğu kəndlərdən biri və birincisi Vedibasar mahalının Qaralar kəndi idi. Bu barədə biz bu oncildliyin 1-ci cildində Qaralar kəndindən danışarkən bəhs etmişik.

1886-cı ildə kənddə 2 təsərrüfatda 19 nəfər (8 kişi, 11 qadın) Azər türkü, 137 təsərrüfatda 1.035 nəfər (601 kişi, 434 qadın) erməni yaşamışdır.

Həmin vaxtlar kəndin 10 verst aralıda yerləşən, 1.437 desyatin ərazini əhatə edən **Abas-ağıl** adlı böyük qışlaq yeri olmuşdur.

1905-ci ildə İrəvan quberniyası ərazisində müsəlmanların soyqırımı zamanı kəndin türk-müsəlman əhalisi kəndi tərk etmiş, bir də Sovet hakimiyyəti illərində qayıdıb, öz ata-baba yurdlarında yaşamışlar. Belə ki, 1931-ci il siyahıyaalması zamanı kənddə 11 nəfər azərbaycanlı qeydə alınmışdır. Onlar isə 1930-cu illərdə sıxışdırılıb kənddən çıxarılmış, kənd bütünlüklə ermənilərdirilmişdir.

1945-ci il avqustun 20-də kəndin rəsmi sənədlərdəki **Becazlı** adı dəyişdirilərək **Vostan** qoyulmuşdur.

BİTLİCƏ

Gərnibasar mahalının dağlıq hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 15 km şimalda, Gərni çayının sağ sahilində kənd.

1948-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1948-ci ildə azərbaycanlılar kənddən zorla çıxarılmış və kənddə xaricdən gəlmə ermənilər məskunlaşdırılmışlar.

D.Paqirevin "Qafqazın beşverstlik xəritəsinin əlifba göstəricisi"ndə (1913) İrəvan qəzasında **Bitlicə kəndi** kimi qeydə alınmışdır.

Vaxtilə İrəvan xanlığının Abaran mahalında Bitli adlı kənd mövcud olmuşdur. XIX yüzildə Kutais quberniyasında bir kənd Bit-Nağalı, Şimali Qafqazın Nalçik dairəsində digər bir kənd Bituktəpə adlanmışdır. Azərbaycandakı Bit-Tılı//Bitdili (Tovuz rayonu), Fitdağ (İsmayıllı rayonu), Bitdili çayı (Zaqatala rayonu) toponimləri ilə eynimənşəlidir. **Bit, Bitli** komponentli toponimlərin belə geniş arealda yayılması Bitlicə oykoniminin də etnonim səciyyə daşımasına dəlalət edir.

Gərnibasar mahalının Bitlicə kəndində 1914-cü ildə 198 nəfər Azər türkü yaşamışdır.

1918-ci ildə kənd erməni daşnakları tərəfindən dağıdılmış, əhalisi dəhşətli soyqırımına məruz qalmış, sağ qalanlar işgəncələrlə qovulmuşlar.

Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin keçmiş sakinlərindən bir hissəsi geri qayıtmış və təzədən özlərinə ev-eşik düzəltməyə başlamışlar. 1931-ci ildə kənddə cəmi 85 nəfər azərbaycanlı qeydə alınmışdır.

1940-cı illərdə azərbaycanlılar zorla kənddən çıxarılmış, orada xaricdən gəlmə ermənilər yerləşdirilmişlər.

1945-ci il avqustun 20-də kəndin Bitlicə adı dəyişdirilərək **Bartsraşen** qoyulmuşdur.

Kənd camaatı 1948-ci ildə bütünlüklə Azərbaycana – Səfərəliyev rayonunun Qoylasarı kəndinə deportasiya olunmuşlar.

* * *

Bitlicə dağətəyi kənd idi, kəndin yanında **Qırmızıdağ** adlı dağ yerləşirdi. Deyilənə görə, dağ onda çoxlu dəmir filizi olduğundan qırmızıya çalmış və Qırmızıdağ adını buradan almışdı.

BÖYÜK DƏLİLƏR (DƏLİLƏR, DƏLLƏR)

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 5 km şimal-qərbdə, Gərni çayının solunda, həmin çaydan ayrılan su arxının kənarında, İrəvan-Naxçıvan-Culfa avtomobil yolunun üstündə kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1828-1829-cu illərdə kənddə İrandan köçürülüb gətirilmiş ermənilər də yerləşdirilmiş və həmin vaxtdan 1948-ci ilə kimi kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1949-cu ildə kəndin bütün azərbaycanlı əhalisi zorla deportasiya olunmuş və kənd tamamilə ermənileşdirilmişdir.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Dəlilər kəndi** kimi qeydə alınmış, kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 20.000 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) Gərnibasar mahalı ərazisində artıq iki Dəlilər kəndi (Böyük Dəlilər və Kiçik Dəlilər) qeydə alınmışdır. **Böyük Dəlilər** kəndində 10 təsərrüfatda 46 nəfər (27 kişi, 19 qadın) Azər türkü, 36 təsərrüfatda 154 nəfər (74 kişi, 80 qadın) İranın Xoy vilayətindən gəlmə erməni qaçqını yaşamışdır.

Böyük Dəlilər kimi iri kəndin yerli əhalisinin (Azər türklərinin) birdən-birə bu qədər azalması poçt yolunun üstündə yerləşən bu kəndin 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalması ilə bağlı olmuşdur.

Dəlilər toponiminin etimologiyası ilə bağlı ən doğru elmi mülahizə bu sahədə tanınmış tədqiqatçılar B.Budaqov və Q.Qeybullayevə məxsusdur. Tədqiqatçılar haqlı olaraq belə hesab edirlər ki, Dəlilər toponimi qədim türkmənşəli **Tele** tayfasının adını əks etdirir. V yüzildə 100 min alaçıqdan ibarət olan bu tayfa İrtış çayını keçərək qərbə doğru hərəkət etmiş və Cənub-Şərqi Avropa çöllərinə gəlmiş, burada qıpçaq türklərinə qarışmış, qıpçaqların tərkibində də erkən orta yüzillərdə Cənubi Qafqaza gəlib, burada məskunlaşmışlar.

XIX yüzildə Qars əyalətinin Kağızman dairəsində Dəlilər, Azərbaycan Respublikasının Ağsu, Saatlı, Şamaxı rayonlarında,

Gürcüstanın Dumanisi rayonunda Dəllər kənd adları ilə eyni mənşəlidir.

1873-cü ilin statistikasında Gərnibasarın **Dəlilər (Böyük Dəlilər)** kəndi mülkədar kəndi kimi qeydə alınmış və kənddə 16 təsərrüfatda 115 nəfər (58 kişi, 57 qadın) Azər türkü, 60 təsərrüfatda 493 nəfər (252 kişi, 241 qadın) erməni yaşadığı göstərilmişdir.

XIX yüzilin ikinci yarısında Kiçik Dəlilər kənd adı Gödəkli adı ilə əvəz edildikcə Böyük Dəlilər adının da "Böyük" epitetinə ehtiyac qalmamış, kənd tədricən sadəcə Dəlilər kəndi adlanmağa başlanmışdır.

1886-cı ildə kənddə 14 təsərrüfatda 124 nəfər (64 kişi, 60 qadın) Azər türkü, 79 təsərrüfatda 577 nəfər (314 kişi, 263 qadın) erməni yaşamış, 1997-ci ildə bu nisbət 134 nəfər azərbaycanlı və 750 nəfər erməni şəklində dəyişmişdir.

1905-ci ildə ermənilər tərəfindən türk-müsəlman əhalinin soyqırımı zamanı kəndin azərbaycanlı əhalisinə divan tutulmuş, 1918-ci il soyqırımında bu qanlı qırğınlar təkrar olunmuşdur.

Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin sağ qalmış qaçqın əhalisinin bir hissəsi kəndə qayıtmış, lakin zaman-zaman onlar da ermənilərin təqib və təzyiqləri nəticəsində kəndi tərk etməyə məcbur olmuşlar. Belə ki, 1931-ci ilin statistikası zamanı kənddə cəmi 4 nəfər azərbaycanlı qeydə alınmışdır.

Sonrakı illərdə kəndin azərbaycanlı əhalisi xeyli artsa da, 1948-1949-cu illərdə onlar da zorla kənddən çıxarılmış və Azərbaycana deportasiya olunmuşlar.

1935-ci il yanvarın 3-də kəndin Dəlilər adı dəyişdirilərək **Dəllər** (erməni tələffüzündə **Dalar**) qoyulmuşdur.

CANIBƏY

Gərnibasar mahalında, Yaxşıxan (Qazıbəyli) kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin Qazıbəyli kəndi yaxınlığında **Canibəy kəndi** kimi qeydə alınmış, kəndin **Ömər** adlı şəxsin timarı olduğu, bu kənd-timardan dövlətin müxtəlif vergilər şəklində ildə 3.500 ağça gəlir götürdüyü göstərilmişdir.

Yeri gəlmişkən, həmin mənbədə Karbi nahiyəsində də Canibəy adlı kənd qeydə alınmış və "Dərəçiçəyə tabe olan kənd" kimi verilmişdir. Bundan əlavə, Qərbi Azərbaycan ərazisində Can və Cani komponentli bir çox kəndlər mövcud olmuşdur. Məsələn, Zar nahiyəsində Canan, Sərdarabad ərazisində Canbağça, Məzrə nahiyəsində Canqur, Abaran nahiyəsində Candar və Cancik, Karbi nahiyəsində Candarlar, Dərəkənd-Parçenis mahalında Candərviş, Abnik, Ərmus nahiyələrində və Yeni Bayazid qəzasında Canəhmədli, Dərələyəz mahalında Canı və Aşağı Canı, Yeni Bayazid qəzasında və Karvansaray rayonu ərazisində Cantəpə, Üçkilsədə Canfida kəndləri və s.

Toponimin bu qədər geniş yayılmağını, şübhəsiz ki, Canıbəy oykonimi "Türkiyənin Trabzon şəhərinin yaxınlığında mərkəzi Samsun olan Cani mahalının adındandır" (B.Budaqov, Q.Qeybullayev) şəklində lokallaşdırmaq olmaz. Bizcə, onomastik vahid yeni etimoloji izahlara möhtacdır.

Hələlik onu qeyd etməklə kifayətlənirik ki, Qızıl Orda xanlarından birinin adı da Canı bəy (1341-1357) olmuşdur. O, Cənubi Qafqaza, Təbrizə qələbə yürüşləri etmişdir. (Ətraflı məlumat üçün bax: Z.H.Qəzvini. "Seçilmiş tarix"ə əlavə, səh. 18-31).

CƏNNƏTLİ

Gərnibasar mahalının dağlıq hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 12 km şimal-şərqdə, Gərni çayının sağ kənarında kənd.

1918-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. Həmin il kənddə İrandan və Türkiyədən gəlmə erməni mühacirləri yerləşdirilmiş və 1948-ci ilə qədər kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuş, 1948-1949-cu illərdə kəndin bütün türk-müsəlman əhalisi Azərbaycana deportasiya olunaraq kənd erməniləşdirilmişdir.

İ.Şopendə (1832) Gərnibasar mahalının **Cənnətli kəndi** kimi qeydə alınmış və kənddə 13 təsərrüfatda 59 nəfər (27 kişi, 32 qadın) Azər türkünün yaşadığı göstərilmişdir.

Kəndin adının **Cənnətli** nəsil adından yarandığını ehtimal etmək olar.

1873-cü ildə kənddə 31 təsərrüfatda 173 nəfər (100 kişi, 73 qadın), 1886-cı ildə 30 təsərrüfatda 189 nəfər (108 kişi, 81 qadın) Azər türkü yaşamışdır.

Kəndin 40 verst aralıda, **Üçtəpə** yaylağında, 185 desyatin ərazini əhatə edən **Tikmədaşyurd** və **Üçtəpəyurd** adlı yurd yerləri olmuşdur. Kənd camaatı bu yaylaq yerlərindən qədimdən istifadə etmişdir.

Bundan əlavə, kəndin kənarında 420 desyatin ərazini əhatə edən **Hacı Cəfər-ağıl** və 150 desyatin ərazini əhatə edən **Şərdərə-ağıl** adlı qışlaq yerləri olmuşdur.

Kənddə 1897-ci ildə 219 nəfər, 1905-ci ildə 184 nəfər, 1914-cü ildə 228 nəfər azərbaycanlı qeydə alınmışdır.

1918-ci ildə Qərbi Azərbaycan ərazisində Azər türklərinin soyqırımı zamanı kənd erməni daşnakları tərəfindən dağıdılmış, əhalisi qılıncdan keçirilmiş, sağ qalanlar kəndi tərk etməyə məcbur olmuşlar.

Bölgədə Sovet hakimiyyətinin qurulması ilə əlaqədar kəndin qaçqın əhalisi geri dönmüşdür. Bu vaxt artıq kənddə 1918-ci ildə İrandan, Türkiyədən gəlmə xeyli erməni yaşayırdı. 1922-ci ildə kənddə 78 nəfər azərbaycanlı siyahıya alındığı halda, ermə-

nilərin sayı 91 nəfərə çatırdı.

1931-ci ildə bu nisbət 114 nəfər azərbaycanlı, 136 nəfər erməni şəklində dəyişmişdir.


1948-1949-cu illərdə isə azərbaycanlılar zorla deportasiya olunaraq kənd bütünlüklə ermənileşdirilmişdir.

1940-cı il martın 2-də kəndin Cənnətli adı dəyişdirilib **Zovaşen**, 1967-ci il oktyabrın 21-də isə yenidən dəyişdirilərək **Lancazat** qoyulmuşdur.

CİRANUS (YENİ CRAŞEN)

Gərnibasar mahalında, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 15 km şimalda, Gərni çayının sağ tərəfində kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri, ondan sonra isə ermənilər yaşamışlar.



Ciranus kəndinin ümumi görünüşü

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Ciranus kəndi** kimi qeydə alınmış, kəndin **Məhəmməd** adlı şəxsin timarı olduğu və bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 4.000 ağça gəlir götürdüyü göstərilmişdir.

1828-ci ildə bölgənin ruslar tərəfindən işğalı zamanı kənd dağıdılmış, sonralar onun yerində bərpa olunmuş kənd **Yeni Ciranus** adlanmış və orada xaricdən gəlmə ermənilər yerləşdirilmişlər.

Sonralar Yeni Ciranus kənd adı erməni tələffüzündə **Nor** (**azərbaycancada *yeni*** – Ə.Ə.) **Craşen** kimi yazıya alınmış, 1950-ci il aprelin 19-da isə dəyişdirilərək sadəcə **Craşen** qoyulmuşdur.

Kəndin adı Qafqazda geniş ərazidə yayılmış peçeneq türklərinin **Çor//Çur** tayfasının adından yaranmış, **"Çorların yurdu"** anlamında işlənmişdir. Təkcə Qərbi Azərbaycanda Talın mahalında, Gümrü qəzasında və Qızılqoç rayonunda Çorlu adlı kəndlər mövcud olmuşdur. XIV yüzildə Anadoluda Çorlu adlı qala, XVI yüzildə Qarabağda Çorlu Qazılı adlı bir maldar el qeydə alınmışdır.

Gərnibasar mahalının qonşuluğundakı Vedibasar mahalında ən qədim kəndlərdən biri olan Kolanlı kəndinin ilkin adı Cirmanis olmuşdur ki, bu da, heç şübhəsiz, Ciranus kənd adı ilə eyni kökdəndir.

ÇİKDAMLI (ÇALÇAY)

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 5 km şimal-qərbdə, Gərni çayının sağ tərəfində, çaydan ayrılan su arxının kənarında, İrəvan-Naxçıvan-Culfa avtomobil yolunun üstündə kənd.

1828-ci ildə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1828-1829-cu illərdə kənddə İranın Salmas vilayətindən köçürülüb gətirilmiş ermənilər də yerləşdirilmiş və o vaxtdan 1918-ci ilə qədər kənd Azər türkləri ilə ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. Sonuncu tarixdə kəndin yerli – azərbaycanlı əhalisi qovulub kənddən çıxarılmış və kənd bütünlüklə ermənilərdirilmişdir.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Ciğdəmli kəndi** kimi qeydə alınmış, kəndin ikinci adının **Çalçay** olduğu, kənddə **Əbubəkr Həsən oğlunun** adına olan timardan dövlətin müxtəlif vergilər şəklində ildə 6.000 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) və sonrakı mənbələrdə (1873, 1886...) kəndin adı **Çikdamlı** kimi verilmişdir. Yerli danışıqda isə sadəcə **Çidəmli** kimi tələffüz olunmuşdur.

Kəndin adının **Kolagirən** (qədim türkmənşəli **Kol** tayfasının adından və düşərgə mənası verən **kuran** sözündən ibarətdir) tayfa birliyinin tirələrindən (Xocalı, Həsən Abdallı, Əyyublu, **Çikdamlı**, Çölməkçi, Darğalı, Dədəli, Darblı, Dürhəsənli və b.) birinin – **Çikdamlı** tirəsinin adını daşıdığı ehtimal olunur (B.Budaqov, Q.Qeybullayev) və biz bu fikirlə tamamilə razıyıq. Gərnibasar mahalı ərazisində həmin tayfanın digər bir tirəsinin Darğalı kənd adında mövcudluğu da deyilənə dəstək verir. Qırxbulaq mahalındakı kəndlərdən biri isə Çölməkçi adlanırdı.

Yeri gəlmişkən, XVI yüzildə Bərdə qəzasında də Çikdamlı adlı bir el mövcud olmuş və onlar həm də Çalçay adlanmışlar.

1831-ci ildə Gərnibasar mahalının **Çikdamlı kəndində** 34 təsərrüfatda 166 nəfər (96 kişi, 70 qadın) Azər türkü, 87 təsərrüfatda 368 nəfər (191 kişi, 177 qadın) İrandan köçürülüb gətirilmiş erməni siyahıya alınmışdır.

1873-cü ilin statistikasında kəndin mülkədar kəndi olduğu, kənddə 29 təsərrüfatda 155 nəfər (80 kişi, 75 qadın) Azər türkünün, 110 təsərrüfatda 782 nəfər (426 kişi, 356 qadın) ermənin yaşadığı qeyd olunmuşdur.

1886-cı ildə kənddə 28 təsərrüfatda 161 nəfər (86 kişi, 75 qadın) Azər türkü, 146 təsərrüfatda 873 nəfər (489 kişi, 384 qadın) erməni yaşamışdır.

Kənddəki azərbaycanlıların sayı tədricən azalmağa doğru getmiş, 1897-ci ildə 135 nəfər, 1905-ci ildə 120 nəfər, 1914-cü ildə 114 nəfər olmuşdur.

1918-ci ildə bölgədə türk-müsəlman əhalinin növbəti soyqırımı zamanı kəndin azərbaycanlı əhalisi qovulub kənddən çıxarılmış və kənd bütünlüklə ermənileşdirilmişdir.

1945-ci il avqustun 20-də kəndin Çikdamlı adı dəyişdirilərək **Azatavan** qoyulmuşdur.

* * *

İrəvan çuxurunda çox məşhur olan **Seyid Mir Əli Ağa** əslən Çikdamlı kəndindən idi. O, 1880-ci ildə burada tanınmış seyid ailəsində dünyaya gəlmiş, az sonra ailə Qarabağlar rayonunun Şuqaib kəndinə köçmüşdü. 1949-cu ildə onları zorla Azərbaycan deportasiya etmiş, üç ilə yaxın Salyan rayonunun Minbaşı kəndində yaşamış, 1951-ci ildə isə Yevlax rayonunun Malbinəsi kəndinə köçmüşlər.

9 qız övladı olan Mir Əli Ağa 1953-cü ildə 73 yaşında vəfat etmişdir. Məzarı Malbinəsi kənd qəbiristanlığındadır. Mir Əli Ağanın ocağı bu gün də fəaliyyət göstərir və təkcə Yevlax camaatının yox, bu ocağı tanıyanların hamısının inam yeridir.

ÇİNƏXANLI (ÇİNƏXAN)

Gərnibasar mahalının düzənlik hissəsində, Gərni çayının sol tərəfində, Gərni çayının Araza töküldüyü yerin yaxınlığında, çaydan ayrılan su arxının kənarında, İrəvan-Naxçıvan-Culfa avtomobil yolu ilə Araz çayı arasında, Novruzlu kəndi yanında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Çinəxan kəndi** kimi qeydə alınmışdır. Həmçinin kəndin **Yusif Abdulla oğlunun** timarı olduğu, bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 14.000 ağça gəlir götürdüyü də həmin mənbədə göstərilmişdir.

İ.Şopendə (1832) və sonrakı mənbələrdə (1873, 1886...) isə kəndin adı **Çinəxanlı** kimi verilmiş, yerli danışıqda **Çiləxanlı** kimi tələffüz olunmuşdur. Toponimin etimologiyası ilə bağlı qəti fikrimiz belədir ki, o, məşhur **Cinli** (əslində **Çinli**) türk tayfasının adını daşıyır. Çin Türküstanından gəldikləri üçün Cinli kimi tanınan bu tayfa eramızın 3-cü yüzilində **Çin Bakurun** başçılığı ilə Cənubi Qafqaza daxil olmuş və geniş ərazidə məskunlaşmışlar. Kür sahili boyu böyük bir ərazi **"Çenlərin ölkəsi"** adlandırılmış və onların hökmdarının adının Çin Bakur olduğu ərəb mənbələrində də göstərilmişdir. Etnik adı **Üç ox** olan bu tayfa həmin adla "Kitabi-Dədə Qorqud" dastanlarında da özünə yer almışdır. Cinlilərin Gürcüstan ərazisində məskunlaşmış bir hissəsi **Orbelilər** kimi mənalanan Orbelian nəslinin əsasını qoymuş, elə həmin vaxtlar (3-cü yüzildə) **Mamiqunun (Mamahun)** başçılığı ilə Qərbi Azərbaycanda məskunlaşan cinlilərin içərisindən isə Mamiqunlar anlamında **Mamikonean** sərkərdə sülaləsi çıxmışdır.

Çinəxanlı oykonimi **"Cinli xanının kəndi"** anlamında işlənməklə bu tayfa arasında xan (hökmdar) titulunun uzun müddət qorunduğunu təsdiq edir. Toponimin ikinci komponentinin kənd, məkan bildirən **"kan"** sözündən ibarət olması ehtimalı da istisna təşkil etmir.

Qərbi Azərbaycanın Düzkənd rayonunda isə Çiləxan adlı kənd mövcud olmuşdur.

1831-ci ildə Gərnibasar mahalının **Çinəxanlı kəndində** 29 tə-

sərrüfatda 155 nəfər (79 kişi, 76 qadın) Azər türkü qeydə alınmışdır.

Kəndin **Ağamirzə bəyin** tiyul kəndi olduğu, rus işğalından sonra qaçdığı üçün bu tiyulun ləğv olunduğu da həmin mənbədə göstərilmişdir.

1873-cü ildə kəndin mülkədar kəndi olduğu və orada 93 təsərrüfatda 535 nəfər (302 kişi, 233 qadın) Azər türkünün yaşadığı göstərilmişdir.

1886-cı ildə kənd əhalisinin sayı 102 təsərrüfatda 569 nəfərə (355 kişi, 214 qadın) çatmışdır.

1897-ci ildə Çinəxanlıda 698 nəfər, 1905-ci ildə 752 nəfər, 1914-cü ildə 827 nəfər Azər türkü yaşamışdır.

1918-ci ildə kənd ermənilər tərəfindən darmadağın edilmiş, evlər yandırılmış, əhalisinin bir hissəsi qılıncdan keçirilmişdir. Sağ qalanlar Araz çayını keçərək Türkiyədəki, Cənubi Azərbaycandakı soydaşlarına pənah aparmışlar.

Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin qaçqın əhalisindən 1922-ci ildə cəmi 131 nəfər geri qayıda bilmiş, 1931-ci ildə onların sayı 264 nəfərə çatmışdır.

1948-1949-cü illərdə kəndin bütün əhalisi zorla Azərbaycana deportasiya olunmuş, Türkiyə sərhədində yerləşdiyi üçün xaricdən gəlmə ermənilər orada məskunlaşmağa cəsarət etməmiş və elə o vaxtdan da kənd xaraba qalmışdır.

DARĞALI (AŞAĞI DARĞALI, YUXARI DARĞALI)

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 8 km şərqdə, Gərni çayının sol tərəfində, Gərni çayından ayrılan su arxının kənarında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamış, həmin vaxtdan 1948-ci ilə qədər azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1949-cu ildə kəndin bütün azərbaycanlı əhalisi deportasiya olunmuş və 1988-ci ilə qədər kənddə ermənilərlə müsəlman kürdləri yaşamışlar ki, sonuncu tarixdə onlar da qovulub kənddən çıxarılmış, kənd tamamilə erməniləşdirilmişdir.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Darğalı kəndi** kimi qeydə alınmış, Yuva kəndi yaxınlığında yerləşdiyi və əhalisinin Yuva kəndindən çıxanlar olduğu göstərilmişdir. Kəndin **Mustafa** adlı şəxsin timarı olduğu və bu timarkənddən dövlətin müxtəlif vergilər şəklində ildə 6.000 ağça gəlir götürdüyü qeyd edilmişdir.

İ.Şopendə (1832) kəndin adı rus tələffüzündə **"Darekalı"** kimi yazılmış, bu, bəzi mənbələrdə (məsələn, H.Rəhimoğluda) kəndin keçmişdə **Dərəkəli** adlanması kimi yanlış fikir doğurmuşdur. Əslində Darekalı **Darğalı** sözünün ruscada təhrifindən başqa bir şey deyil. Bunu İ.Şopendən yüz il əvvəlki icmal dəftərində kəndin adının Darğalı kimi yazılması da təsdiqləyir. Bütün sonrakı mənbələrdə də kəndin adı **Darğalıdır.**

Adın etimologiyasına gəldikdə isə, XII-XIII yüzillərdən bəri kənd və şəhərlərdə vergi toplanması işinə başçılıq edən şəxslər **darğa** (monqolca **daraxu**) adlanmışlar. Kəndin adı da, çox güman ki, həmin sözdən yaranmış, **"darğanın kəndi", "darğa yaşayan, darğa oturan kənd"** mənalarında işlənmişdir. **Darğa** sözünün özü də türk-monqolca **"knyaz", "el başçısı"** anlamında olan **tarqa** sözündən törəmişdir. İşquzlarda (skif-saklarda) Tarğitay, XIII yüzildə monqollarda Tarka, Tarğatay şəxs adları da həmin kökdəndir. XVI yüzilə aid mənbədə Bərdə sancağında

qışlayan bir el də Darğalı adlanmışdır. Bu sonuncu fakt toponimin etnonim səciyyə daşıması ehtimalını ortaya qoyur. Doğrudan da, mənbələrdən öyrənirik ki, İrəvan çuxurunda qədimdən sıx məskunlaşmış türk tayfalarından biri də **Kolagirən** tayfası olmuş və bu tayfanın tirələrindən biri məhz **Darğalı** adlanmışdır.

1831-ci ildə Gərnibasar mahalının **Darğalı kəndində** 22 təsərrüfatda 125 nəfər (69 kişi, 56 qadın) Azər türkü, 43 təsərrüfatda 228 nəfər (123 kişi, 105 qadın) İranın Xoy və Salmas vilayətlərindən yenicə köçürülüb gətirilmiş erməni qeydə alınmışdır.

Ermənilər, əsasən, kəndin aşağısında yerləşdirilmiş və tədricən kənd iki yerə bölünmüş, azərbaycanlılar yaşayan yuxarı hissəsi **Yuxarı Darğalı,** ermənilər məskunlaşan aşağı hissəsi **Aşağı Darğalı** adlanmışdır. Lakin kəndlər bitişik olduğundan onlar iki müstəqil kəndlər kimi tarixə daxil olmamış və bütün mənbələrdə vahid Darğalı kəndi kimi qeyd olunmuşlar.

1873-cü ilin statikasında **Darğalının** mülkədar kəndi olduğu, Gərni çayının sol tərəfində, Araz yaxınlığında yerləşdiyi göstərilmiş, kənddə cəmi 4 təsərrüfatda 22 nəfər (12 kişi, 10 qadın) Azər türkünün və 116 təsərrüfatda 767 nəfər (414 kişi, 353 qadın) ermənin yaşadığı qeyd olunmuşdur.

1886-cı ildə kənddə azərbaycanlıların sayı 6 təsərrüfatda 36 nəfərə (19 kişi, 17 qadın), ermənilərin sayı 153 təsərrüfatda 909 nəfərə (494 kişi, 415 qadın) çatmışdır.

1905-ci ildə kənddə 29 nəfər, 1914-cü ildə yenə də 29 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci ildə erməni daşnaklarının bölgədə törətdiyi türk-müsəlman soyqırımı zamanı Darğalı kəndinin azərbaycanlı əhalisi də doğma yurdunu tərk etməyə məcbur olmuşlar. Sovet hakimiyyəti dövründə bir neçə azərbaycanlı ailəsi doğma yurda dönmək imkanı qazanmış, 1931-ci ildə kənddəki azərbaycanlıların sayı cəmi 5 nəfər olmuşdur.

1949-cu ildə kəndin bütün azərbaycanlı əhalisi Azərbaycana deportasiya olunmuş, Sovet dövründə kənddə məskunlaşan müsəlman kürdləri isə 1988-ci ildə qovulub kənddən çıxarılmışlar.

Kəndin Darğalı adı 1949-cu il dekabrın 1-də dəyişdirilərək **Anastasavan,** 1957-ci il dekabrın 30-da isə ikinci dəfə dəyişdirilərək **Haygezard** qoyulmuşdur.

DİTAK

Gərnibasar mahalı ərazisində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 13 km şimal-qərbdə, Gərni çayının sağ tərəfində, Aşağı Ağbaş, Yuxarı Ağbaş və Ciranus kəndləri yaxınlığında kənd.

Sovet dövründə kənd 4 km aralıdakı Arpavar sovetliyinin tərkibində mövcud olmuşdur.

Sovet dövründə ermənilərin yaşadığı bu kənd, toponimin yaranma tarixi haqqında əlavə məlumata malik olmasaq da, xatırladırıq ki, M.Xorenlidə Böyük Armaniyanın Ararat əyalətinin Kotayk dairəsində **Datea** adlı yaşayış məntəqəsi qeydə alınmışdır. İ.Şopen bu məntəqəni "Arqun" kimi təqdim etsə də, bu, inandırıcı görünmür. Çünki M.Xorenlidə Kotayk dairəsi həmin əraziyə gedib çatmır. Qəmərli rayonunun Ditak kəndi yerləşən ərazi isə həmin dairəyə daxildir. Buna görə də biz erməni dilində heç bir məna verməyən Ditak oykonimi ilə qədim Datea şəhər adı arasında bağlılıq görürük. Əslində hər iki toponim türkcə **"Dədə"** sözünün təhrif formasından başqa bir şey deyil. Xatırladırıq ki, Şərqi Türk xaqanlığının başında da bir vaxtlar **Data** (**Dədə** – Ə.Ə.) xan durmuşdur.

Xatırladırıq ki, qədim Oğuzlarda **Dədə** sözü elin böyüyü, ağsaqqalı, atası, şamanı anlamında işlədilmiş, bu anlam sonradan daha çox mənəvi-ruhani ata kimi (məsələn, "Dədə Qorqud"da) folklorumuza da keçmiş, **ustad//ata** aşıqlarımıza da şamil edilmişdir.

Nəhayət, qeyd etmək istəyirik ki, İrəvan çuxurunda qədimdən sıx məskunlaşmış türk tayfalarından biri də **Kolagirən** tayfası olmuş, bu tayfanın tirələrindən biri isə **Dədəli** adlanmışdır.

DOQQUZ (QAHABLI)

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 6 km şimalda, Gərni çayının sol kənarında kənd.

XIX yüzilin əvvəllərinə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. XIX yüzilin əvvəllərində kənddə cəmi 2 erməni ailəsi qeydə alınmış, 1828-1829-cu illərdə isə kənddə İrandan gəlmə xeyli erməni qaçqını yerləşdirilmiş və həmin vaxtdan 1948-ci ilə qədər kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1949-cu ildə kəndin bütün türk-müsəlman əhalisi Azərbaycana deportasiya olunmuş, kənd tamamilə ermənilərdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) və "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Doqquz kəndi** kimi qeydə alınmış, ikinci mənbədə kəndin başqa adının **Qahablı** olduğu və kənddə **Əhmədin** adına olan timardan (Qabaqlı Gərdəkdərə məzrəsi ilə birlikdə) dövlətin müxtəlif vergilər şəklində ildə 7.000 ağça gəlir götürdüyü göstərilmişdir. (Yeri gəlmişkən, həmin icmal dəftərində Abaran nahiyəsində də Qahablı adlı kənd qeydə alınmışdır).

İ.Şopendə (1832) və bütün sonrakı mənbələrdə də kəndin adı **Doqquzdur.** Toponimin Qıpçaq türklərinin **Tokuzoba** (Qaraqalpaqlarda Tokuz) tayfasının adından yarandığı ehtimal olunur (B.Budaqov, Q.Qeybullayev). Lakin xatırladırıq ki, Oğuz türklərinin tayfa birləşmələrindən biri də **Doqquz Oğuzlardır.** Gərnibasar mahalı isə İç Oğuzun mərkəzində yerləşən bölgələrdəndir. XV yüzildə Anadolunun Maraş əyalətində yaşayan Dul-Qədirli tayfasının qollarından biri elə Doqquz da adlanmışdır. Maraqlıdır ki, Dul-Qədirli tayfasının qolları sırasında Bişanlı, Karkın tirələri mövcud olmuşdur və həmin tirə adları ilə bölgədəki Başnalı// Başnəli (Qəmərli rayonu) və Qarxun (Üçkilsə rayonu) kəndləri mövcuddur.

XVII yüzilə aid ermənicə mənbədə **Doxs** kimi yazıya alınan bu toponimə hələ 1500-cü ildə Şah İsmayılla bağlı mənbələrdə rast gəlirik. Belə ki, həmin ildə Şah İsmayıl Çuxur-Səddən keçərək Doqquz-Ulana gəlmişdir. Zaqatala rayonu ərazisində isə Doqquz-Ul dağı mövcuddur.

1831-ci ildə Gərnibasar mahalının **Doqquz kəndində** 27 təsərrüfatda 127 nəfər (65 kişi, 62 qadın) Azər türkü, 2 təsərrüfatda 8 nəfər (6 kişi, 2 qadın) "yerli", yəni 1828-ci ilə qədər burada yaşayan erməni və 38 təsərrüfatda 180 nəfər (92 kişi, 88 qadın) 1828-1829-cu illərdə İrandan köçürülüb gətirilmiş erməni siyahıya alınmışdır.

Bölgə Rusiya tərəfindən işğal olunduqdan sonra dövlətin xeyrinə müsadirə olunan bağlar sırasında İ.Şopen Gərnibasar mahalı ərazisində **Doqquz** bağının da adını çəkir. Bu bağ barədə kitabın əvvəlində, bölgənin iqtisadiyyatından danışarkən bəhs etmişik.

1873-cü ildə kənddə 27 təsərrüfatda 159 nəfər (89 kişi, 70 qadın) Azər türkü, 41 təsərrüfatda 390 nəfər (205 kişi, 185 qadın) erməni yaşamışdır.

1886-cı ildə azərbaycanlıların sayı 26 təsərrüfatda 178 nəfərə (81 kişi, 96 qadın), ermənilərin sayı 45 təsərrüfatda 262 nəfərə (146 kişi, 116 qadın) çatmışdır.

1886-cı ilə dair mənbədə Doqquz kəndi yaxınlığında 60 desyatin ərazini əhatə edən **Quzey-ağıl** adlı otlaq yerindən də bəhs olunur.

1997-ci ildə kənddə 161 nəfər, 1905-ci ildə 191 nəfər, 1914-cü ildə 182 nəfər azərbaycanlı yaşamışdır. Kənddəki ermənilərin sayı isə sürətlə artmaqda idi.

1918-ci ilin əvvəllərində kəndin 36 təsərrüfatda 210 nəfər azərbaycanlı əhalisi vəhşicəsinə qovulmuş, əhali bir neçə il Cənubi Azərbaycan ərazisinə sığınmışdır.

Bölgədə Sovet hakimiyyəti qurulduqdan, erməni daşnak hərbi qruplaşmaları məhv edildikdən sonra kənd camaatı öz doğma yurduna qayıtmış, 1922-ci ildə onların sayı 75 nəfər, 1931-ci ildə 97 nəfər olmuşdur.

Lakin 1930-cu illərin repressiyasından və 1941-1945-ci illərin müharibəsindən sağ çıxanlar 1949-cu ildə kütləvi şəkildə (bu vaxt kənddə cəmi 22 ev azərbaycanlı yaşayırdı) Azərbaycana – indiki Şəmkir rayonunun Çinarlı kəndinə deportasiya olunmuş və Doqquz kəndinin erməniləşdirilməsi prosesi başa çatdırılmışdır.

1945-ci il avqustun 20-də kəndin Doqquz adı dəyişdirilərək **Kanaçut** qoyulmuşdur.

* * *

Keçmişdə Doqquz kəndində səkkiz dəyirman olmuş, onlar kəndin içində və kənarlarında yerləşmişdir. Həmin dəyirmanlardan yalnız birinin – **Həsənağanın dəyirmanın** adı yaddaşlarda qalmışdır. Dəyirmanın qabağında **Həsənağanın bulağı** adlı bulaq, kəndin torpaq sahələrində **Həsənağanın qozluğu** deyilən qozluq da yerləşirdi.

ƏLİ YUNİS OĞLU CAHANGİROV



1930-cı ildə Doqquz kəndində anadan olmuş, 1948-ci ildə ailəsi ilə birlikdə Azərbaycanın Şəmkir rayonunun Çinarlı qəsəbəsinə deportasiya edilmişdir.

1957-ci ildə Zərdabi adına Gəncə Pedaqoji İnstitutunu bitirmiş, 1957-1961-ci illərdə Şəmkirdə orta məktəbdə müəllim işləmişdir.

1961-1964-cü illərdə Azərbaycan EA Fizika İnstitutunun aspirantı olmuş, 1965-ci ildə yarımkeçiricilər fizikası üzrə namizədlik dissertasiyası müdafiə edib fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır.

1966-cı ildən hal-hazıra kimi Azərbaycan Texniki Universitetinin fizika kafedrasında dosent vəzifəsində çalışır. 50-yə qədər elmi məqalənin müəllifidir.

Həm müəllim-pedaqoq, həm də bir insan kimi xeyrrxahlığı, mərdliyi və təmənnasız yaxşılıqları ilə ad çıxaran, tələbələrin və iş yoldaşlarının məhəbbət və ehtiramını qazanan Əli müəllim hamı tərəfindən **Qızıl Əli** ləqəbi ilə tanınmışdır.


Ailəlidir. Həyat yoldaşı **Fəridə Bilas qızı Şadlinskaya** orta məktəbdə müəllimə işləyib. Hazırda təqaüddədir.

Əli müəllim dörd övlad atasıdır. Qızlarından **Təranə xanım** və **Mətanət xanım** Bakı şəhərində həkim işləyirlər. Oğlu **Akif Cahangirov** texnika elmləri namizədi, Azərbaycan Texniki Universitetinin dosentidir.

Kiçik qızı **Sona Cahangirova** fizika-riyaziyyat elmlər namizədidir və hazırda BDU-nun fizika fakültəsində baş müəllim işləyir.

DÖRDÜNCÜ KƏND

Gərnibasar mahalı ərazisində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 7 km şərqdə, Darğalı kəndi yaxınlığında kənd.



Dördüncü kənd kəndinin ümumi görünüşü

Kənd 1946-1947-ci illərdə müxtəlif xarici ölkələrdən köçürülüb gətirilmiş ermənilәri yerləşdirmək məqsədilə salınmış və orada elə həmin vaxtdan da ermənilər məskunlaşmışlar.

Sonralar kəndin Dördüncü kənd adı dəyişdirilərək ermənicə **Kaxtsraşen** qoyulmuşdur.

DVİN//DÜYÜN (AŞAĞI DVİN, ERMƏNİ DVİNİ)

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 12 km şimal-şərqdə, Gərni çayının sol tərəfində, Gərni çayından ayrılan su arxının kənarında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1828-ci ildə İranın Xoy və Salmas şəhərlərindən köçürülüb gətirilən ermənilərin bir hissəsi də burada yerləşdirilmiş və həmin vaxtdan 1918-ci ilə qədər kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1918-ci ildə kəndin azərbaycanlı əhalisi qovulmuş və kənd bütünlüklə erməniləşdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Gərni nahiyəsində başqa adı **Torpaqqala** olan bir **Dvin kəndi** qeydə alınmışdırsa, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni və Qırxbulaq nahiyələrində üç Dvin kəndindən (Ağcaqışlaq kəndi yaxınlığında Dvin kəndi, Qaraviran kəndi tərəfdə Dvin kəndi və Hörüslü Dvin kəndi) bəhs olunur. Bu kəndlərdən ikincisi – Qırxbulaq nahiyəsinin **Qaraviran kəndi tərəfdəki Dvin kəndi** Qəmərli rayonunun Dvin kəndinə daha çox uyğun gəlir. Həmin mənbədə kəndin **Mustafa** adlı şəxsin timarı olduğu və bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir əldə etdiyi göstərilmişdir.

Sonrakı mənbələrdə (1831, 1873, 1886 və s.) kəndin adı **Dvin//Duvin//Düyün** kimi qeydə alınmışdır.

Dvin toponiminin tarixi və etimoloji izahı ilə bağlı fikir yürütməzdən qabaq xatırlatmaq istəyirik ki, Qəmərli rayonu ərazisində Dvin kəndlərini Vedibasar mahalı ərazisində yerləşmiş qədim Dvin şəhəri ilə eyniləşdirmək olmaz. Qədim Dvin şəhəri, ermənilərin iddia etdikləri kimi, heç də Gərnibasar mahalı ərazisində, Qəmərli və İrəvan şəhərləri arasında yerləşməmişdir. Bunu dərin intiusiya ilə ilk hiss edən tədqiqatçı İ.Şopen olmuşdur. O, qədim Dvin şəhərinin Gərnibasar mahalı ərazisindəki Dvin (Aşağı Dvin) kəndinin yerində yerləşməsi fikrinə ciddi şübhə ilə yanaş-

mış və bunu bir neçə dəlillə əsaslandırmışdır. **Birincisi,** Gərnibasarın Dvin kəndinin ərazisi düzənlikdir, halbuki qədim Dvin şəhəri eramızın 350-ci ilində Ərmən hdkmdarı II Xosrov tərəfindən təpəlik üzərində salınmışdır. **İkincisi,** əgər burada nə vaxtsa Dvin kimi böyük bir şəhər yerləşibsə, ola bilməz ki, onun izləri oradakı tikililərdən heç bir əsər-əlamət qalmayacaq dərəcədə yer üzündən silinsin.

Üçüncüsü, Moisey Xorenlinin (V yüzil) yazdığına görə qədim Dvin şəhəri **Yelevtr** çayının yaxınlığında bina edilmişdir. Gərnibasar mahalındakı Dvin kəndi isə **Böyük Amor** (ermənicə: **Medz Amor**) çayının kənarında yerləşir. Sonralar o, Gərni çayı adlanmışdır. Bəs M.Xorenlinin xatırlatdığı Yelevtr çayı hansı çaydır? İ.Şopen bölgədəki bütün çayları təhlil etdikdən sonra dərin intiusiya ilə belə qərara gəlir ki, bu, olsa-olsa Vedi çayı ola bilər. Fikrini əsaslandırmaq üçün gərəyincə dəlilləri olmayan İ.Şopen **"Vedi çayı, güman ki, ərmənlər tərəfindən Yelevtr adlanmışdır"** hökmü ilə kifayətlənir. Əslində, intiusiyası İ.Şopeni aldatmamışdı, söhbət həqiqətən də **Elveti (El-Veti//El-Vedi)** çayından gedirdi və Vedi elindən (oxu: mahalından) keçən bu çay M.Xorenli tərəfindən Yelevtr kimi yazıya alınmışdır. Onda sual ortaya çıxa bilər ki, Şidli kəndi yaxınlığından Araza tökülən Vedi çayı ilə xeyli aralıda yerləşən qədim Dvin şəhərinin nə əlaqəsi. Bu məsələyə İ.Şopen özü də hiss etmədən cavab verir. Məsələ ondadır ki, İ..Şopen Vedi çayının Şidli yox, Xorvirab (Qədim Artaşad) kəndi yaxınlığından axaraq Araza töküldüyünü göstərmişdir. Bu isə çayın yatağının əvvəllər fərqli olduğunu və Vedi rayonunun Qaralar kəndinin şimal torpaqlarındakı Qumarx deyilən böyük çay yatağından keçərək qədim Dvin şəhərinin yaxınlığında Araza töküldüyünü bir daha təsdiq edir.

Qədim Dvin şəhərindən bu kitabın Vedibasar mahalına həsr olunmuş 1-ci cildində ətraflı bəhs etdiyimizdən təkcə onu əlavə edək ki, 1236-cı ildə amansız monqol-tatar hücumu zamanı Dvin şəhəri darmadağın edilmiş, yandırılmış, şəhərin sağ qalan müsəlman, yəhudi və xristian dinli türk əhalisi köçüb yaxınlıqda, Gərnibasar mahalı ərazisində yeni Dvin şəhəri salmışlar. Bu Dvin şəhəri də sonralar bir neçə Dvin kəndinə ayrılmışdır ki, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) onların üçünün adını görü-

rük: iki Dvin, bir Hörüslü Dvin kəndi.

Dvin oykoniminin etimoloji izahı ilə bağlı da bu kitabın 1-ci cildində geniş söhbət açmışıq. Qısaca xatırladırıq ki, ərmən və türk mənbələrində **Dvin, Dovin, Devin,** yunanca **Duvios** və **Tivion,** ərəbcə **Devin** və **Dəbil,** yerli tələffüzdə **Düyün** adlandırılan bu toponim əslində "dağ qalası anlamında **tau//dau//dav,** yəni **dağ** (Tovuz rayonunun adı da həmin qəbildəndir) və **in** (qədim türk dilində **qala, mağara** deməkdir) komponentlərindən başqa bir şey deyil. Bir daha yada salaq ki, M.Xorenli (V yüzil) də şəhərin kiçik dağ, təpə üzərində salındığını yazmışdır. Oykonimin **Dəbil** yazılışında da onun **Dəbə//Təpə+il//el,** yəni **Təpəel** anlamı bütövlükdə qorunub saxlanmışdır. Yeri gəlmişkən böyük Alban tarixçisi Moisey Kağankataylı da "Alban tarixi" əsərində şəhərin adını **Dəbil** kimi vermişdir.

İ.Şopendə (1832) Gərnibasar mahalının **Dvin kəndində** 15 təsərrüfatda 51 nəfər (32 kişi, 19 qadın) Azər türkü, 36 təsərrüfatda 132 nəfər (68 kişi, 64 qadın) İrandan köçürülüb gətirilmiş erməni qeydə alınmışdır.


1873-cü ilin statistik məlumatlarında kənd **Dvin** və **Duvin** adları ilə verilmiş, onun Gərnibasar mahalının düzənlik hissəsində, Gərni çayının solunda, Gərni çayından ayrılan su arxının kənarında yerləşdiyi göstərilmiş, kənddə 19 təsərrüfatda 99 nəfər (56 kşi, 43 qadın) azərbaycanlı, 65 təsərrüfatda 392 nəfər (213 kişi, 179 qadın) erməni, 4 təsərrüfatda 26 nəfər (15 kişi, 11 qadın) kürd əhali siyahıya alınmışdır.

1886-cı ildə kənddə 19 təsərrüfatda 102 nəfər (58 kişi, 44 qadın) azərbaycanlı, 77 təsərrüfatda 365 nəfər (231 kişi, 134 qadın) erməni, 4 təsərrüfatda 17 nəfər (14 kişi, 3 qadın) kürd yaşamışdır. Bu mənbədə kəndin adı **Dvin** kimi verilsə də, həmin ilə aid başqa mənbədə kəndin ikinci adının **Dvin//Dügün** olduğu da qeyd edilmişdir.

Kəndinyaxınlıqda 300 desyatin ərazini əhatə edən **Cillər-ağıl** adlı qışlaq yeri olmuşdur.

1918-ci ildə ermənilər tərəfindən Qərbi Azərbaycan türklərinin növbəti soyqırımı zamanı Dvin kəndinin bütün müsəlman əhalisi qovulub kənddən çıxarılmış, kənd bütünlüklə ermənilərdirilmişdir.

Aysoru Dvini kəndindən aşağıda yerləşdiyi üçün Dvin kəndi həmçinin **Aşağı Dvin**, Aysoru Dvini kəndi isə Yuxarı Dvin də adlanmışdır. Sonralar kənd elə Aşağı Dvin kimi də rəsmiləşdirilmişdir. 30-cu illərin əvvəllərində isə Aşağı Dvin adı dəyişdirilərək **Erməni Dvini** adlandırılmış, 1950-ci il aprelin 19-da kəndin Erməni Dvini adı isə təzədən dəyişdirilərək sadəcə **Dvin** qoyulmuşdur.



Dvin kəndinin xarabalıqlarında aşkar edilmiş daş abidə

ERANOS (AŞAĞI ERANOS)

Gərnibasar mahalının dağlıq hissəsində, Gərni çayı yaxınlığında, Qızıldağ dağı ətəyində, Avanik kəndi yanında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Ernos kəndi** kimi qeydə alınmış, kəndin **Avanlıbulaq məzrəsi** ilə birlikdə **Əhməd Şaban oğlunun** timarı olduğu və bu timar-kəndlərdən dövlətin müxtəlif vergilər şəklində ildə 3.500 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) **Eyranıs-sufla** adı ilə Gərnibasar mahalının xaraba kəndləri sırasında verilmişdir. Bu, kəndin 1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalmasına dəlalət edir.

XIX yüzilin ortalarında Qafarlı kənd sakinlərinin bir hissəsi həmin əraziyə köçərək kəndi təzədən bərpa etmişlər. 1873-cü ilin statikasında Eranos kəndində 16 təsərrüfatda 133 nəfər (80 kişi, 53 qadın) Azər türkünün yaşadığı göstərilmişdir.

Yeri gəlmişkən, İ.Şopen Gərnibasar mahalının dağlıq hissəsindən danışarkən xatırladır ki, bu yerlərdə xeyli əhalisi olan **Yererun** və ya **Yereron** adlı bir yer var. Lakin nədənsə bu yaşayış məntəqəsini Gərnibasar mahalının kəndləri sırasına daxil etmir. **Yererun//Yereron** adlı bu yerin **Eranos** (bəzi mənbələrdə qeyd edildiyi kimi, **Heranos** və ya **Yeranos**) kəndi olduğunu ehtimal etmək olar.

Eranos toponiminin etimologiyası ilə bağlı elmi ədəbiyyatdakı mövcud – toponimin qədim türk mənşəli **Aran** tayfasının adını əks etdirməsi fikri ilə (Q.Qeybullayev, B.Budaqov) tamamilə razıyıq. Bunu kəndin yuxarısındakı Avan kəndinin mənbələrdə Aran adı ilə qeydə alınması da təsdiq edir. Xatırladırıq ki, Albaniya türk dövlətinin yaradıcısı və ilk hökmdarının da adı Aran olmuş, o dövrün xüsusiyyətlərinə uyğun olaraq, onun hökmranlıq etdiyi ölkə və bu ölkənin xalqı da Aran adlanmışdır. **Aran** adı Cənubi Qafqaz türk toponimlərində komponent olaraq da sıx-sıx işlənmişdir. Lakin toponimin ikinci komponentinin yunan mənşəli **os** şəkilçisindən ibarət olması fikri xeyli mübahisəlidir.

Bu hissəcik bu yerlərin qədim sakinləri olan **Az** türklərinin adını da bildirə bilər, bölgədəki bir çox toponimlərdə özünə yer eləmiş **Uz** komponentindən ibarət ola da bilər. (Bu barədə ətraflı məlumat üçün bax: "Qərbi Azərbaycan". I cild, səh. 386).

Xatırladırıq ki, Cənubi Qafqazda Aran komponentli çoxlu toponimlər mövcud olmuşdur. Məsələn, XII yüzildə Albaniyada Aranrot, Böyük Arand, Arancnak, Qarabağda Aran, Yazı-Aran, Daş Aran, Gürcüstanda Aranisi, Qərbi Azərbaycanda Hran. Lakin burada **Aran** sözünün tayfa adı anlamından, Alban çarı **Aranın** adını bildirməsindən başqa, **"qışlaq", "isti yer"** mənalarında işlədilməsi ehtimalı da istisna təşkil etmir.

Qonşu Vedibasar mahalı ərazisində də eyniköklü Heyranıs (Heranos) kəndi, eyniadlı çay və bulaq mövcud olmuşdur.

1886-cı ildə İrəvan qəzasının Tacirabad dairəsində Gölaysor kənd icması tərkibində verilmiş **Eranos** kəndində 21 təsərrüfatda 164 nəfər (95 kişi, 69 qadın) Azər türkü qeydə alınmışdır.

Eranos kəndinin Yeni Bayazid qəzasının Ağdağ yaylağında, kənddən 45 verst aralıda, 170 ərazini əhatə edən, **Gölyurd** adlı yurd yeri olmuş, kənd camaatı bu yaylaqdan qədimdən istifadə etmişdir.

1918-ci ildə kənd erməni daşnaklarının təcavüzü nəticəsində dağıdılmış, yandırılmış, əhalisi vəhşicəsinə qətlə yetirilmişdir. Elə o vaxtdan da xaraba qalmışdır.

ƏRDƏŞƏR (ARTAŞAT)

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 7 km şimal-şərqdə, Gərni çayının sol tərəfində, Gərni çayından ayrılan su arxının kənarında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1828-1829-cu illərdə kəndə İrandan köçürülüb gətirilmiş xeyli erməni yerləşdirilmişdir. XIX yüzilin ortalarında kənddə həm də müsəlman kürdləri yaşamışlar.

"İrəvan əyalətinin müəfəssəl dəftəri"ndə (1590) Gərni nahiyəsinin **Ərdəşir kəndi,** "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) həmin nahiyənin **Ərdəşər kəndi,** İ.Şopendə (1832) isə Gərnibasar mahalının **Artaşat kəndi** kimi qeydə alınmışdır. Sonrakı statistikalarda (1873, 1886...) da kənd **Ərdəşər** (rusca: Ardaşar) adı ilə verilmişdir. Hətta Qafqaz Hərbi Dairəsinin 1903-cü ildə tərtib olunmuş hərbi-topoqrafik xəritəsində də kəndin adı **Ərdəşər** kimi qeyd olunmuşdur. Sovet dövründə isə kənd ermənilər tərəfindən **Artaşat** kimi rəsmiləşdirilmişdir.

1945-ci il sentyabrın 4-də rayon mərkəzi olan Qəmərli qəsəbəsinin adı dəyişdirilərək Artaşat qoyulduğundan Artaşat (Ərdəşər) kəndinin adı da 1945-ci il avqustun 20-də **Verin** (yəni **Yuxarı**) **Artaşat** adı ilə əvəzlənmişdir. Beləliklə, kəndin əsl adı Ərdəşər olmuş, bu ad ermənilər tərəfindən qədim Artaşad şəhərinin nişanəsi kimi saxtalaşdırılmışdır.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) kənd xanlığın xass torpaqları kimi siyahıya alınmış, dövlətin müxtəlif vergilər şəklində həmin torpaqlardan ildə 14.000 ağça gəlir götürdüyü göstərilmişdir.

1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı kənd böyük dağıntılara məruz qalmış, onun bütün türk-müsəlman sakinləri kəndi tərk etmişlər. Buna görə də İ.Şopendə (1832) kənddə ancaq gəlmə əhali – 1928-1929-cu illərdə İrandan köçürülüb gətirilmiş 90 təsərrüfatda 370 nəfər (191 kişi, 179 qadın) erməni qeydə alınmışdır.

1873-cü ilin statistik məlumatlarında Gərnibasar mahalının düzənlik hissəsində, Gərni çayından ayrılan su arxının kənarında, Qəmərli stansiyasından 5 verst şimal-şərqdə, İrəvan şəhərin-

dən 25 verst cənub-şərqdə yerləşdirilən kənddə 121 təsərrüfatda 833 nəfər (424 kişi, 411 qadın) erməni, 3 təsərüfatda 27 nəfər (17 kişi, 10 qadın) kürd yaşamışdır.

1886-cı ildə kənddə 137 təsərrüfatda 1.069 nəfər (551 kişi, 518 qadın) erməni, 4 təsərrüfatda 33 nəfər (17 kişi, 16 qadın) kürd qeydə alınmışdır. Kəndin 10 verst aralıda 1.000 desyatin ərazini əhatə edən **Şutur-ağıl** adlı qışlaq yeri də olmuşdur.

Ərdəşər kənd adını ermənilərin təsiri altında yanlış olaraq Artaşat kimi qeydə alan İ.Şopen özünü büsbütün çaşdıraraq, araşdırdığı tarixi mənbələrdə Artaşat şəhərinin coğrafiyası ilə bağlı xeyli "dolaşıq" məqamlarla üz-üzə qalmışdır. İ.Şopen bu "dolaşıqlığa" aydınlıq gətirmək üçün həqiqət axtarışına çıxmış, Artaşad şəhərinin qədimliyinə dəlalət edən amillər kimi, burada müşahidə etdiyi xəndəklə əhatə olunmuş səddi və kəndin şimal tərəfindəki hündür torpaq təpəsini xatırlatmışdır. Sonra fikrinə.davam edərək yazır: "Adın özü və Gərniçay (Böyük Amor) çayı ilə qonşuluqda yerləşməsi belə bir qəti fikrə gəlməyə əsas verir ki, nə vaxtsa burada Armaniyanın Artaşat adlı, yunanların və romalıların Artaksat adlandırdığı paytaxt yerləşmişdir".

Göründüyü kimi, İ.Şopeni "qəti fikrə" gətirən arqumentlər çox primitivdir. Bununla belə, İ.Şopen etiraf edir ki, **"lakin onun dəqiq yeri bu günə qədər də dürüst müəyyən edilməmişdir".** Üstəlik, "bu günə qədər Artaşatın möhtəşəmliyini xatırladan heç bir abidə tapılmamışdır. Şimal tərəfdə **Təxti-Tiridat** adlanan çox hündür təpə var. Bütün ətrafda ondan və Baş Gərni xarabalıqlarından başqa bir dənə də abidə yoxdur ki, həmin qədimlikdən, həmin şöhrətdən bir nişanə olsun".

Beləliklə, İ.Şopen başqalarını inandırmağa çalışdığı "həqiqətə" heç özü də inanmır. Çünki o, qədim Artaşad şəhərini yerində axtarmırdı. Əslində, Moisey Kağankataylının "Alban tarixi" kitabında "Araz çayı kənarındakı bu şəhər" deyə təqdim etdiyi qədim Artaşad şəhəri Vedibasar mahalının Gərnibasar mahalı ilə sərhədi yaxınlığındakı Xorvirab təpəsində yerləşirdi.

Bu şəhərin isə Gərnibasar mahalındakı Ərdəşər şəhərinə heç bir aidiyyatı yoxdur.

İ.Şopenin qədim yunan və arman tarixçilərinin yazdıqlarını müqayisə edib, iki Artaşad şəhərindən bəhs etməsinin, Gərniba-

sar ərazisindəki Artaşadı (əslində Ərdəşəri) Hannibalın məsləhəti ilə I Artaş (er. əv. II yüzil) tərəfindən salınan paytaxt Artaşad, Xorvirab kilsə yerindəki Artaşadın isə II Artaş (er. əv. 30-20-ci illər) tərəfindən salınan Artaşad olduğunu söyləməsinin heç bir elmi əsası yoxdur.

Əvvəla ona görə ki, Gərnibasar mahalı ərazisində ümumiyyətlə Artaşad yox, Ərdəşər şəhəri olub. İkincisi, Strabona görə, bu şəhər "Araks və Böyük Amor çaylarının yaratdığı yarımadada idi, üç tərəfi su, yalnız bir tərəfi keçilən idi və onu da xəndək və sədlərlə möhkəmlətdilər". M.Xorenliyə görə, bu şəhər "Araz və Böyük Amor çaylarının birləşdiyi yerdə" idi. M.Kağankataylıya görə, bu şəhər "Araz çayı kənarında" yerləşirdi. Gərnibasar ərazisindəki Ərdəşər (guya qədim Artaşat) şəhəri isə bütün bu deyilənlərə uyğun gəlmir, yəni nə Araz kənarında yerləşir, nə də hər hansı çayın Arazla qovuşuğunda. Vedibasarın Xorvirab kilsə yerindəki qədim Artaşad şəhəri isə bütün hallarda deyilənlərlə üst-üstə düşür. Təkcə qalır Araz çayı ilə qovuşan Böyük Amor çayı, o da artıq bu kitabın Dvin (Aşağı Dvin) kəndi haqqındakı oçerkində xatırlatdıq ki, Vedi (El-Veti//Yelevtr) çayı bir vaxtlar indiki yatağından bir qədər şimaldan axıb, Xorvirab (qədim Artaşad) yaxınlığında Araza tökülmüşdür. Nəhayət, İ.Şopen özü də etiraf edir ki, Xorvirab ətrafında, doğrudan da, çoxlu xarabalıqlar yerləşir.

Ərdəşər oykoniminə gəldikdə isə, öncə qeyd etməliyik ki, Ardaşar, Artaşir, Ardeşir, Ərdəşir, Ərdəş variantlarında Qərbi Azərbaycan ərazisində bir neçə kənd olmuşdur. Bu oykonimlərdəki Ərdəş komponentinin elmi ədəbiyyatda türk dillərindəki **"gəzdək"**, **"dağ çökəyi"** anlamlarını bildirməsi fikri (B.Budaqov, Q.Qeybullayev) ilə qəti razı deyilik.

Əslində, toponimin mənşəyi olduqca sadədir: o, İranda Sasanilər sülailəsinin banisi və ilk şahənşahı (226-241) **I Ərdəşirin (Ərdəşir Babaqanın)** adını daşıyır. Bunu "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) kəndin adının Ərdəşir şəklində olması da təsdiq edir. Xatırladırıq ki, I Ərdəşir Zərdüştiliyin qatı tərəfdarı idi.

Artaşat oykoniminə gəldikdə isə, bu kitabın 1-ci cildində biz artıq xatırlatmışıq ki, bu şəhər er. əv. II yüzildə Arman ölkəsinin midiyalı türk hökmdarı, Artaşlar sülaləsinin banisi **I Artaş** tərəfindən tikilmiş və ölkənin paytaxtı bura köçürülmüşdür.

GÜNNÜT CƏFƏRLİ

Gərnibasar mahalının düzənlik hissəsində, Gərni çayının sol tərəfində, Araz çayı ilə İrəvan-Naxçıvan-Culfa avtomobil yolunun arasında, Gərni çayından ayrılan su arxının kənarında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

İ.Şopendə (1832) Qərbi Azərbaycan ərazisində məskunlaşan köçəri tayfalar sırasında **Cəfərli** tayfasının da adı çəkilir. 16 ailədə 82 nəfər (43 kişi, 39 qadın) Azər türküdən ibarət olan bu tayfanın Qafarlı camaatı ilə bir yerdə Gərnibasar mahalının Novruzlu və Çinəxanlı kəndlərində qışlaqları olduğu da həmin mənbədə qeyd olunmuşdur. Görünür, sonralar Cəfərli tayfasının nümayəndləri bu yerdə kənd salaraq oturaq həyata keçmişlər.

Belə ki, artıq 1873-cü ilin statistik məlumatlarında Gərnibasar mahalı ərazisində **Günnüt Cəfərli** adlı kənd qeydə alınmış, orada 32 təsərrüfatda 277 nəfər (168 kişi, 109 qadın) Azər türkünün yaşadığı göstərilmişdir.

1886-cı ilə aid mənbədə **Günnüt Cəfərli** kəndinin İrəvan qəzasında, kənddən 12 verst aralıda, 150 desyatin ərazini əhatə edən **Samroyurd** adlı yurd yeri də olmuşdur. Bu yayalaqdan kənd camaatının 12 ildən bəri istifadə etdiyi də mənbədə göstərilmişdir. Lakin əhalinin 1886-cı il siyahıyaalması zamanı kəndin qeydə alınmaması səbəbi bizə aydın deyil.

Sonrakı mənbələrdə kəndin adına rast gəlmirik.

Yeri gəlmişkən, qonşu Vedibasar mahalında da eyniadlı (Günnüt Cəfərli) kənd mövcud olmuşdur. Həmin kənd adının İ.Şopendə (1832) Günlük kimi yazıya alınması toponimin etimologiyasını "daim gün düşən yer" anlamında Günnük//Günnüt Cəfərli kimi izah etməyimizə əsas vermişdir.

Vedibasar mahalı ərazisində digər bir kənd isə Cəfərli adlanmışdır. Biz bu toponimin etimologiyası ilə bağlı iki versiyaya üstünlük veririk, kəndin Qazax elinin **Cəfərli** tayfasının adını daşıması və kəndin öz adını İslamın **Cəfəri** təriqətindən alması.

Bütün bunlar barədə isə bu kitabın 1-ci cildində Vedibasar mahalının Günnüt və Cəfərli kəndlərindən danışarkən ətraflı bəhs etmişik.

HÖRÜSLÜ DVİN

Gərnibasar mahalında, Dvin (Aşağı Dvin) və Novruzkənd kəndləri yaxınlığında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Gərni nahiyəsində başqa adı Torpaqqala olan bir **Dvin kəndi** qeydə alınmışdır.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni və Qırxbulaq nahiyələrində qeydə alınan üç Dvin kəndindən (Ağcaqışlaq yaxınlığında Dvin kəndi, Qaraviran tərəfdə Dvin kəndi və Hörüslü Dvin kəndi) biri də Qırxbulaq nahiyəsinin **Hörüslü Dvin** kəndidir. Kəndin **Molla Hacı kəndi** ilə yanaşı verilməsi, hər iki kəndin eyni adamın (**Mustafa** adlı şəxsin) timarı olması və gəlirlərinin birlikdə hesablanması (ildə 3.500 ağça) onların yanaşı kəndlər olmasından xəbər verir.

Nə İ.Şopendə, nə də sonrakı mənbələrdə Hörüslü Dvin kənd adının bir daha çəkilməməsi həmin vaxtdan etibarən kəndin bərpa olunmamasına dəlalət edir.

Hörüslü Dvin kənd adının iknci komponenti (Dvin) ilə bağlı Dvin (Aşağı Dvin) kəndindən danışarkən ətraflı bəhs etmişik. **Hörüslü** sözü isə əslində **Horuslu** anlamındadır və bu sözün kökündə **Hors** türk tayfa adı durur. Mənbələrdə adı Gorus, Keros, Keriz, Qorus, Qoros, Qors, Qeros, Xoros, Xorus, Xurs, Xors, Xurusun və s. variantlarda yazıya alınan bu tayfa Azərbaycan, İran, Türküstan, Şimali Qafqaz, Rusiya, Əfqanıstan kimi çox böyük əraziyə yayılmışdır. Vedibasar mahalındakı Hortun, Dərələyəz mahalındakı Hors, Hosdun, Horbadıq, Zəngəzur mahalındakı Gorus, Meğri rayonundakı Hors və s. kənd adları həmin kökdəndir. Bu barədə bu oncildliyin Vedibasar mahalına həsr edilmiş 1-ci cildində Hortun kəndindən danışarkən ətraflı bəhs etmişik.

XUDABƏND

Gərnibasar mahalında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Gərni nahiyəsinin **Xudabəndə kəndi,** "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə həmin nahiyənin **Xudabənd kəndi** kimi qeydə alınmışdır.

İkinci mənbədə həmçinin kəndin **Əhməd İsmayıl oğlunun** timarı olduğu, bu timar-kənddən dövlətin ilə 3.000 ağça gəlir götürdüyü də göstərilmişdir.

Xudabənd (**əslində kəndin adı Xudabandədir** – Ə.Ə.) toponiminin etimologiyası ilə bağlı mövcud fikrə görə o, **Xudu** şəxs adından və bənd (çay üzərində bənd) sözündən ibarətdir (B.Budaqov, Q.Qeybullayev).

Yeri gəlmişkən xatırladaq ki, İrəvan əyalətində vaxtilə Xuda// Xudu komponentli bir neçə toponim mövcud olmuşdur, məsələn, Aralıq və Karbi nahiyələrində Xudaabad, Abaran nahiyəsində Xudaverdi, yenə də Aralıq nahiyəsində Xudulu, Zəngəzur qəzasında (Sisian rayonu ərazisində) Xudayarlı kəndləri.

Lakin biz Xudabəndə toponiminin yuxarıdakı etimoloji izahı ilə qətiyyən razı deyilik. Fikrimizcə, toponim məşhur Səfəvi hökmdarı, I Təhmasibin oğlu, qardaşı II Şah İsmayıl vəfat etdikdən sonra hakimiyyətə gəlib, 1578-1587-ci illərdə Səfəvi taxtında əyləşən **Məhəmməd Xudabəndənin** adını daşıyır. Elə ona görə də 1590-cı ilə aid mənbədə kənd şahın adına tam uyğun olaraq Xudabəndə şəklində qeydə alınmışdır. Xatırladırıq ki, ölümündən sonra hakimiyyətdə onu oğlu I Şah Abbas əvəz etmişdir.

İMANŞALI (İMANŞAHLI//İMAMŞAHLI)

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rajonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 12 km şimal-qərbdə, Gərni çayının sağ kənarında, Gərni çayından ayrılan su arxının və İrəvan-Naxçıvan-Culfa avtomobil yolunun üstündə, Xarratlı kəndinin yanında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1828-1829-cu illərdə kənddə İrandan köçürülüb gətirilmiş ermənilər də yerləşdirilmiş, həmin vaxtdan 1905-ci ilə qədər azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1905-ci il soyqırımı zamanı kəndin bütün türk-müsəlman əhalisi qovulmuş və kənd erməniləşdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Gərni nahiyəsinin **İmanşalı kəndi,** "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə həmin nahiyənin **İmanşahlı kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 13.000 ağça gəlir götürdüyü də göstərilmişdir.

İ.Şopendə (1832) kəndin adı **İmamşahlı (İ.Şopen toponimi rusca *"İmam-şaqli"* kimi yazıya aldığından onu İmamşaqlı kimi də oxuya bilərik və əslində də belə oxunmalıdır** – Ə.Ə.), sonrakı mənbələrdə (1873-1886...) **İmanşalı** kimi qeydə alınmışdır.

Toponimin etimologiyasından bəhs edən alimlərin (B.Budaqov, Q.Qeybullayev) adın İmanşalı variantına üstünlük verməsini və onu "İman nəsli (tirəsi)" kimi izah etməsini qəbul eləmirik. Tədqiqatçı S. Mirmahmudova da toponimin orada məskunlaşmış nəsil adından yaranması fikrindən uzağa gedə bilmir.

Toponimin ən düzgün yazılış formasını İ.Şopen vermişdir: **İmamşaqlı.** Adın sonrakı variantları (İmanşahlı, İmanşalı) əsl adın yerli tələffüz formalarından başqa bir şey deyil. Toponimin əsl – İmamşaqlı variantına gəldikdə isə, heç şübhəsiz, adın **şaqlı** komponenti Ağrıdağ vadisinə e.ə. VII yüzilin əvvəllərində şimaldan gələn, bölgədə "Bibliya"da Aşkenaz (əslində **İşquz//İç Oğuz**) adlanan qüdrətli Sak (Skif) padşahlığını yaradan, Azər xalqının soykökünün formalaşmasında çox böyük rol oynayan və

Bütöv Azərbaycan, o cümlədən Qərbi Azərbaycan ərazisində onlarla toponimdə öz izini qoyan **sak//saq** türklərinin adını əks etdirir. Yəni **İmamşaqlı – Şaq//Saq soylu imamın kəndi.**

1831-ci ildə kənddə cəmi 5 təsərrüfatda 31 nəfər (17 kişi, 14 qadın) Azər türkü, 79 təsərrüfatda 360 nəfər (191 kişi, 169 qadın) İrandan köçürülüb gətirilmiş erməni qeydə alınmışdır.

Kənddə azərbaycanlı əhalinin birdən-birə bu qədər azalması 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı bu böyük kəndin çox ciddi itki və dağıntılara məruz qalmasından xəbər verir.

1873-cü ildə kənddə 2 təsərrüfatda 17 nəfər (7 kişi, 10 qadın) Azər türkü, 120 təsərrüfatda 835 nəfər (440 kişi, 395 qadın) erməni yaşamış, 1886-cı ildə isə 2 təsərrüfatda 12 nəfər (4 kişi, 8 qadın) Azər türkü, 141 təsərrüfatda 1.090 nəfər (576 kişi, 514 qadın) erməni qeydə alınmışdır.

Kənddə erməni əhalinin belə sürətlə artması 1877-1879-cu illər müharibəsi zamanı və sonrakı illərdə Türkiyədən Cənubi Qafqaza köçürülən on minlərlə ermənin bir hissəsinin də Gərnibasar mahalında, o cümlədən İmanşalı kəndində məskunlaşması ilə bağlıdır.

1905-ci ildə bölgədə türk-müsəlman əhalinin soyqırımı zamanı kəndin bütün azərbaycanlı əhalisi qovulmuş, kənd bütünlüklə erməniləşdirilmişdir.

1935-ci il yanvarın 3-də kəndin İmanşalı adı dəyişdirilərək **Mxçyan** qoyulmuşdur.

İPƏKLİ (İNƏKLİ)

Gərnibasar mahalının düzənlik hissəsində, Gərni çayının sağ tərəfində, Yamancalı kəndi yaxınlığında kənd. Əslində, İpəkli kəndi ilə Yamancalı kəndi üz-üzə idi, biri çayın bu tərəfində, digəri çayın o tərəfində.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1828-1829-cu illərdə kənddə İrandan köçürülüb gətirilən ermənilər də yerləşdirilmiş və o vaxtdan XIX yüzilin sonlarına qədər kənd azərlərlə ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. XIX yüzilin sonlarından kənddə yenə də ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) və "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **İnəkli kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə kəndin **Məhəmməd** adlı şəxsin timarı olduğu və bu timar-kənddən dövlətin ildə 7.000 ağça gəlir götürdüyü də göstərilmişdir.

İ.Şopendə (1832) və sonrakı statistik məlumatlarda (1873, 1886...) isə kəndin adı Gərnibasar mahalının **İpəkli kəndi** kimi verilmişdir.

Göründüyü kimi, əslində kəndin adı İnəkli olmuş, sonradan İpəkli şəklinə düşmüşdür. Toponimin etimologiyası ilə bağlı bir neçə versiya mövcuddur. Birincisi, guya toponim zoonimik səciyyə daşıyır və inək saxlanması ilə bağlı meydana gəlmişdir (S.Mirmahmudova). İkinci versiyaya görə, toponim Şərqi Anadoludan gətirilmədir (B.Budaqov, Q.Qeybullayev). Müəlliflər bunu XVII yüzilin 1-ci yarısında Şərqi Anadoluda İnak adlı kəndin mövcudluğu ilə əsaslandırmağa çalışırlar. Lakin biz hər iki versiyanı yanlış hesab edirik. Bunu Bütöv Azərbaycan, o cümlədən Qərbi Azərbaycan ərazisində "İnək komponentli çoxlu toponimin mövcudluğu da təsdiqləyir. Məsələn, İrəvan əyalətinin Abnik nahiyəsində İnəkbulaq yaylağı, Gümrü qəzasında İnəkdağ kəndi və eyniadlı dağ, Yeni Bayazid qəzasında İnəkdağ adlı iki dağ, Karbibasar, Sərdarabad və Gərnibasar mahallarında İnəkli adlı üç ayrı-ayrı kənd mövcud olmuşdur.

Bizcə, toponimin bu qədər geniş arealda yayılması onun məhz

etnonim səciyyə daşımasından xəbər verir. Sırf "Dədə Qorqud ifadəsi olan bu söz əslində **"dost, yoldaş, tərəfdaş"** anlamında **"inağ"** kəlməsindəndir. Necə ki, "Dədə Qorqudda Beyrək Qazan xanın inağıdır. Bu barədə Alp Aruz tərəfdarlarına deyir: "Bəglər, Beyrək bizdən qız almışdır, Güyəgümizdir. Əmma Qazanın inağıdır. Yəni burada "inağı təkcə tərəfdaş kimi yox, həm də naib kimi başa düşmək lazımdır.

1831-ci ildə kənddə cəmi 5 təsərrüfatda 22 nəfər (11 kişi, 11 qadın) Azər türkü, 24 təsərrüfatda 84 nəfər (42 kişi, 42 qadın) İrandan köçürülüb gətirilmə erməni siyahıya alınmışdır. Bu faktın özü təsdiq edir ki, kənd 1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalmış, kənd onun əsl sakinləri olan Azər türkləri tərəfindən əsasən tərk edilmiş, onların boşalmış evlərinə ermənilər yerləşdirilmişlər.

1873-cü ilin statistikasında **İpəkli kəndi** mülkədar kəndi kimi verilmiş, kənddə 20 təsərrüfatda 117 nəfər (60 kişi, 57 qadın) Azər türkü, 3 təsərrüfatda 14 nəfər (8 kişi, 6 qadın) erməni qeydə alınmışdır. 1831-ci və 1873-cü illərin statistikaları arasındakı bu fərq söyləmyə əsas verir ki, bölgənin ruslar tərəfindən işğalı nəticəsində doğma yurddan didərgin düşən kənd əhalisinin bir hissəsi sonralar geri dönmüş və bu dönüşdən vahimələnən gəlmə ermənilər yavaş-yavaş kəndi tərk etmişlər.

1886-cı ildə kənddə 24 təsərrüfatda 70 nəfər (38 kişi, 32 qadın) Azər türkü, 3 təsərrüfatda 7 nəfər (5 kişi, 2 qadın) erməni yaşamışdır. Kəndin Çikdamlı kənd icması tərkibinə daxil olduğu da həmin mənbədə göstərilmişdir.

Az sonra ermənilər kəndi tərk etmiş və kənddə ancaq Azər türkləri yaşamışlar. 1905-ci ildə onların sayı 85 nəfər, 1914-cü ildə 93 nəfər olmuşdur.

1918-ci ilin əvvəllərində 37 təsərrüfatda 185 nəfər əhalisi olan zamanı kənd erməni daşnakları tərəfindəən darmadağın edilmiş, əhalisinin bir hissəsi erməni qatilləri tərəfindən qətlə yetirilmiş, sağ qalanlar vəhşicəsinə qovulmuşlar.

Sonralar kənd bir daha bərpa olunmamış və elə o vaxtdan da xaraba qalmışdır.

KƏHRİZ (İSA BƏY KƏHRİZİ, AŞAĞI KƏHRİZ, YUXARI KƏHRİZ)

Gərnibasar mahalının dağlıq hissəsində, Ağdağ dağı ilə Qızıllar dağı arasındakı Çatma kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

Kənd əvvəllər **Kəhriz** və ya **İsa bəy Kəhrizi** adı ilə tanınmış, sonra böyüyərək **Aşağı Kəhriz** və **Yuxarı Kəhriz** kimi iki kəndə ayrılmışdır.

D.Paqirevin "Qafqazın beşverstlik xəritəsinin əlifba göstəricisi"ndə (1913) İrəvan qəzasının **Aşağı Kəhriz** və **Yuxarı Kəhriz** kəndləri kimi qeydə alınmışdır. El arasında kənd **Kəhrizli** də adlanmışdır.

Kənddə 1897-ci ildə 40 nəfər, 1916-cı ildə 77 nəfər Azər türkü yaşamışdır.

1918-ci ildə kənd erməni daşnakları tərəfindən dağıdılmış, yandırılmış, əhalisi dəhşətli soyqırımına məruz qalmışdır.

Sonralar kənd bir daha bərpa olunmamışdır. Xarabalıqları Çatma kəndi yaxınlığında son illərə qədər qalmaqda idi.

Kəndin əvvəllər **Kəhriz** və ya **İsa bəy Kəhrizi** kimi tanınması onun öz adını buradakı kəhrizdən aldığını təsdiq edir. Adın **İsa bəy** komponenti isə, şübhəsiz ki, kəhrizin, yəqin elə kəndin də sahibinin adıdır.

Yeri gəlmişkən, Kəhriz, Kəhrizli adı ilə Qərbi Azərbaycanda bir sıra kəndlər mövcud olmuşdur: Karbi nahiyəsində Kəhriz məzrəsi, Şərur-Dərələyəz qəzasında Kəhriz qışlağı və s. Azərbaycanın Ağcabədi rayonunda ən məşhur kəndlərdən biri bu gün də Kəhrizli adlanır.

KİÇİK AYASLI

Gərnibasar mahalının düzənlik hissəsində, Ayaslı (Böyük Ayaslı) kəndi yanında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Kiçik Ayaslı kəndi** kimi qeydə alınmış, kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 13.000 ağça gəlir götürdüyü göstərilmişdir. Gəlirindən göründüyü kimi, Kiçik Ayaslı adlanmağına baxmayaraq, kənd xeyli iri kənd olmuş, "kiçik" adını Böyük Ayaslı (illik gəliri 28.000 ağça) kəndinə nisbətən və ondan törəmə olduğuna görə almışdır.


İ.Şopendə (1832) Kiçik Ayaslı ayrıca kənd kimi qeydə alınmadığından (burada cəmi 7 təsərrüfatda 43 nəfər əhalisi olan Ayaslı adlı vahid kənddən söhbət gedir) belə düşünməyə məcburuq ki, hər iki kənd bölgənin ruslar tərəfindən işğalı zamanı böyük dağıntılara məruz qalmış və Kiçik Ayaslı kəndi həmin vaxtdan müstəqild kənd kimi öz mövcudluğunu itirmişdir.

Ayaslı toponiminin etimologiyası barədə Ayaslı (Böyük Ayaslı) kəndindən danışarkən bəhs etmişik.

KİÇİK DƏLİLƏR (DƏLİLƏR, GÖDƏKLİ)

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 3 km şimal-qərbdə, Gərni çayının solunda, İrəvan-Qəmərli avtomobil yolunun kənarında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamış. 1828-1829-cu illərdə kəndin türk-müsəlman əhalisi qovularaq, orada İranın Xoy vilayətindən gəlmə erməni qaçqınları yerləşdirilmiş və kənd ermənileşdirilmişdir.



Kiçik Dəlilər kəndinin ümumi görünüşü

Kəndin Dəlilər adının etimologiyası ilə bağlı Böyük Dəlilər kəndi haqqındakı oçerkdə ətraflı bəhs etmişik. Təkcə onu deməklə kifayətlənirik ki, kənd öz adını erkən orta yüzillərdə Qıpçaq türklərinin tərkibində Cənubi Qafqaza gəlib, burada məskunlaşmış böyük **Tele** türk tayfasının adından almış və ilkin variantında **Telelər** şəklində olmuş, sonralar fonetik dəyişikliyə uğrayaraq **Dəlilər** formasına düşmüşdür.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsində bir **Dəlilər kəndi** qeydə alınmış və dövlətin müxtəlif vergilər şəklində kənddən ildə 20.000 ağça gəlir götürdüyü göstərilmişdir.

Kəndin ikinci adı olan **Gödəkli** toponiminə gəldikdə isə, bu da **Qazaxlar** tayfasının məşhur **Gödəkli** tirəsinin adını əks etdirir və kənddə yaşayan əhalinin tayfa mənsubiyyətindən törəmiş-

dir. Gödəkli etnoniminin Azər xalqının etnogenezində iştirak edən türkmənşəli qədim **Kotayk** tayfasının adı ilə bağlı olması şübhəsizdir və bu tayfa haqqında kitabın girişindəki tarixi oçerkdə Kotayk etnotoponimindən danışarkən söhbət açmışıq.

İ.Şopendə (1832) Gərnibasar mahalı ərazisində artıq iki Dəlilər kəndi (**Böyük Dəlilər, Kiçik Dəlilər**) qeydə alınmışdır, **Kiçik Dəlilər** kəndində 33 təsərrüfatda 134 nəfər (70 kişi, 64 qadın) İrandan köçürülüb gətirilmiş erməni qaçqınının məskunlaşdırıldığı göstərilmişdir. Kənddə yerli əhalidən heç kəsin siyahıya alınmaması və ancaq gəlmə ermənilərin yaşaması kəndin 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı tamamilə məhv edilməsi və əhalinin qovulub kənddən çıxarılması ilə bağlı olmuşdur.

1873-cü ilin statistikasında kəndin adı **Gödəkli** kimi verilmiş, **Kiçik Dəlilər** isə kəndin ikinci adı kimi qeydə alınmışdır. Sonralar Kiçik Dəlilər oykonimi **Gödəkli** adı ilə əvəzlənmiş, Böyük Dəlilər kəndi isə sadəcə Dəlilər adlanmışdır. Həmin mənbədə Gödəkli (Kiçik Dəlilər) kəndi mülkədar kəndi kimi qeyd olunmuş, kənddə 57 təsərrüfatda 506 nəfər (262 kişi, 244 qadın) ermənin yaşadığı göstərilmişdir. Üstəlik, kənd camaatının qışlağının Arazın o tayında, Çiftlik kəndi ərazisində yerləşdiyi də həmin mənbədə verilmişdir.

1886-cı ildə kənddə 96 təsərrüfatda 671 nəfər (338 kişi, 333 qadın) əhali qeydə alınmışdır.

1945-ci il avqustun 20-də kəndin Gödəkli adı dəyişdirilərək **Mrqavan** qoyulmuşdur.

KİÇİK MƏSİMLİ

Gərnibasar mahalının düzənlik hissəsində, Novruzlu kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Aralıq nahiyəsi tərkibində bir **Məsimli** kəndi mövcud olmuşdur.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Gərni nahiyəsində Məsimli adı ilə iki kənd – **Kiçik Məsimli** və **Böyük Məsimli** kəndləri qeydə alınmışdır. Üstəlik ikinci mənbə **Kiçik Məsimli** kəndinin Novruzlu kəndi yanında yerləşdiyi, kəndin **Yusif** adlı şəxsin timarı olduğu, bu timardan dövlətin müxtəlif vergilər şəklində ildə 3.500 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) də **Məsimli** adlı iki kənd qeydə alınmışdır. Lakin İ.Şopen onları "böyük, "kiçik deyə ayırmamışdır. Sadəcə, ikisini də Məsimli adı ilə vermişdir. Biri xaraba kəndlər siyahısında, digəri yaşayış olan kəndlər sırasında. Gərnibasar mahalının 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı xaraba qalmış kəndləri siyahısına daxil edilmiş Məsimli kəndi əslində Kiçik Məsimlidir.

Sonralar kənd bir daha bərpa edilməmiş, kəndin qaçqınlıqdan geri qayıdan əhalisi isə bir qədər şimaldakı Məsimli (Böyük Məsimli) kəndində məskunlaşmışlar.

Toponimin etimologiyası barədə Məsimli (Böyük Məsimli) kəndindən danışarkən bəhs edəcəyik.

KÜRDKƏND (KÜRDKƏND DVİN)

Gərnibasar mahalının düzənlik hissəsində, Gərni çayının sol tərəfində, Qaratəpə dağının aşağısından keçən su arxının kənarında kənd.

1828-ci ilə qədər kənddə Azər türkləri və müsəlman kürdləri yaşamışlar. 1830-cu illərdən sonra kənddə müsəlman kürdləri və İrandan köçürülüb gətirilmiş ermənilər məskunlaşmışlar. 1880-ci illərdə kənd bütünlüklə ermənileşdirilmişdir.

İ.Şopendə (1832) Gərnibasar mahalı ərazisində **Kürdkənd** adı ilə bir kənd qeydə alınmış və mahalın xaraba kəndləri siyahısına daxil edilmişdir.

Kəndin adından da göründüyü kimi, orada əvvəllər kürdlər yaşamış, bölgənin ruslar tərəfindən işğalı ilə əlaqədar onlar kəndi tərk etmişlər. XIX jüzilin ortalarında kənddə İrandan, Türkiyədən gəlmə ermənilər yerləşdirilmiş və kənd sürətlə böyümüşdür. Buna görə də 1873-cü ilin statistikasında Gərnibasar ərazisində artıq iki Kürdkənd (Kürdkənd Mehrab və Kürdkənd Dvin) kəndindən bəhs edilmişdir.


Kəndin **Kürdkənd Dvin** adını **"Dvin yaxınlığında Kürdkənd"** kimi başa düşmək lazımdır.

1873-cü ildə kənddə 49 təsərrüfatda 362 nəfər (200 kişi, 162 qadın) erməni, 1 təsərrüfatda 4 nəfər (3 kişi, 1 qadın) müsəlman kürdü yaşamışdır.

1886-cı ildə kənddə ancaq ermənilər qeydə alınmışlar: 71 təsərrüfatda 433 nəfər (232 kişi, 201 qadın).

KÜRDKƏND (KÜRDKƏND MEHRAB, YUXARI KÜRDKƏND)

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 6 km şimal-şərqdə, Gərni çayının sol tərəfində, Gərni çayından ayrılan su arxının kənarında kənd.



Kürdkənd kəndinin ümumi görünüşü

1828-ci ilə qədər kənddə Azər türkləri və müsəlman kürdləri yaşamışlar. 1830-cu illərdən sonra kənddə müsəlman kürdləri və İrandan köçürülüb gətirilmiş ermənilər məskunlaşmışlar. 1880-ci illərdən etibarən kənd bütünlüklə ermənileşdirilmişdir.

İ.Şopendə (1832) Gərnibasar mahalı ərazisində **Kürdkənd** adı ilə bir kənd qeydə alınmış və mahalın xaraba kəndləri siyahısına daxil edilmişdir.

Sonralar kənd İrandan, Türkiyədən gəlmə ermənilər tərəfindən yenidən məskunlaşmış və 1873-cü ilin statistikasında **Kürdkənd Mehrab** (yəni **Mehrab kəndi yaxınlığında Kürkənd**) kəndi kimi qeydə alınmış, kənddə 23 təsərrüfatda 152 nəfər (73 kişi, 79 qadın) erməninin, 1 təsərrüfatda 12 nəfər (7 kişi, 5 qadın) müsəlman kürdünün yaşadığı göstərilmişdir.

1886-cı ildə kənd əhalisi 29 təsərrüfatda 148 nəfər (78 kişi, 70 qadın) ermənidən ibarət olmuşdur.

Göründüyü kimi, kənd öz adını orada yaşayan əhalinin (kürdlərin) etnik adından almışdır.

Sonralar kənd **Yuxarı Kürdkənd** kimi rəsmiləşdirilmiş, Sovet dövründə isə **Noraşen** adı ilə əvəz edilmişdir.

QABAQLI GƏRDƏKDƏRƏ

Gərnibasar mahalında, Gərni çayı kənarında, Doqquz kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Qabaqlı Gərdəkdərə məzrəsi** kimi qeydə alınmış, məzrənin Doqquz kəndi ilə birlikdə **Əhməd** adlı şəxsin timarı olduğu, bu kənd-məzrə-timardan dövlətin ildə 7.000 ağça gəlir götürdüyü göstərilmişdir.

Bu faktdan çıxış edərək Qabaqlı Gərdəkdərə məzrəsi ilə Doqquz kəndinin bir-birinə yaxın məsafədə yerləşdiyini ehtimal etmək olar. Sonrakı mənbələrdə toponimin qeydə alınmaması onun tədricən Doqquz kəndinin torpaqlarına qarışmasını söyləməyə əsas verir.

Qabaqlı toponimi və "**qabaq**" komponentli toponimlər Qərbi Azərbaycan ərazisində xeyli geniş yayılmışdır. Məsələn, Zəngəzur, Dərələyəz, Qırxbulaq, Dərəçiçək mahallarında vaxtilə Qabaqlı kəndləri mövcud olmuş, Qabaqtəpə adı ilə isə Eçmiədzin, Gümrü, İrəvan, Sürməli qəzalarında və Qars əyalətində dağlar qeydə alınmışdır. İrəvan qəzasındakı Qabaqlı dağ adını, Dərələyəzdəki Qabaqlı çay və Qabaqyal dağ adlarını və s. də bu siyahıya əlavə etmək və bu siyahını uzatmaq da olar. Üstəlik, orta əsrlərdə (XVI yüzildə) yayı Qərbi Azərbaycanda, qışı Qarabağda keçirən böyük bir türk ulusu məhz **Qabaq** adlanmışdır.

Bu sonuncu fakt özü də təsdiq edir ki, bəzi tədqiqatçıların (B.Budaqov, Q.Qeybullayev) iddia etdiyi kimi, **Qabaqlı** toponimi heç də "**balqabaq formalı relyefi bildirən qabaq sözündən**" deyildir.

Toponimin ikinci komponenti (**Gərdəkdərə**) isə "Dədə Qorqud" boylarındakı adətlərimizlə səsləşir. Belə ki, "Oğuz zamanında bir yigit ki, evlənsə, ox atardı. Oxu düşən yerdə gərdək (**evlənən oğlan üçün qurulan alaçıq** – Ə.Ə.) dikərdi. Beyrək xan dəxi oxun atdı, dibinə gərdəgin dikdi".

QAQAUZ (KAKAVUS)

Gərnibasar mahalı ərazisində kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Gərni nahiyəsinin **Qaqauz kəndi**, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə həmin nahiyəsinin **Qafavus kəndi** kimi qeydə alınmışdır, lakin dəftəri çapa hazırlayanlar kəndin adını düzgün oxuya bilmədiklərindən Qafavus adından sonra sual (?) işarəsi qoymuşlar. Kənddə **Həsən** adlı şəxsin timarından dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürdüyü də həmin mənbədə göstərilmişdir.

İ.Şopendə (1832) isə kənd **Kakavus** adı ilə Gərnibasar mahalının xaraba kəndləri siyahısında verilmişdir ki, bu da onun 1826-1829-cu illərdə Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalmasından irəli gəlirdi.

Toponimin Orta Asiya türklərinin dillərindəki **"qala xarabalığı"** anlamında **"kaka"** sözündən və yunan dilindəki us hissəciyindən ibarət olması ehtimalı (B.Budaqov, Q.Qeybullayev) mövcuddur. Lakin biz adın hər iki komponentinin türk dilində olması qənaətindəyik. Belə ki, burada söhbət **Qaqauz** (**Qağa-uz**, yəni **"ata uz"**, **"böyük uz"**) türklərinin adından gedə bilər və getməlidir. Qərbi Azərbaycan ərazisində Uz tayfasının adı ilə bağlı toponimlərə nə qədər tez-tez rast gəlinməsi barədə bu kitabın 1-ci cildində Vedibasar mahalı ərazisindəki bəzi kəndlərdən (Kotuz, Küsüs, Heyranıs, Haxıs və s.) danışarkən ətraflı bəhs etmişik. Bununla belə bir daha xatırlatmaq istəyirik ki, toponimlərdəki **uz** komponenti bir neçə məna daşıya bilər: 1. qədim türk tayfalarından olan Uz tayfasının adını; 2. tərəf, yan anlamını; 3. Türk dillərindəki "dərə" anlamını; 4. cəm şəkilçisi kimi.

Son olaraq xatırladırıq ki, "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) **Kavis** adlı kənd, İ.Şopendə (1832) isə **Qavusdar** (**Qavus-lar** – Ə.Ə.) adlı monastır da qeydə alınmışdır ki, biz bütün bu toponimləri eyniköklü hesab edirik.

QAFARLI

Gərnibasar mahalının düzənlik hissəsində, Gərni çayının sol tərəfində, Gərni çayından ayrılan su arxının kənarında, Novruzlu kəndinin yanında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

İ.Şopendə (1832) Gərni nahiyəsində ayrıca Qafarlı kəndi qeydə alınmasa da, İrəvan vilayəti ərazisində yaşayan köçəri tayfalar sırasında 90 ailədə 652 nəfərdən (333 kişi, 319 qadın) ibarət **Qafarlı** türk tayfasının adı çəkilir. Üstəlik, Qafarlı camaatının qışlağının Novruzlu kəndində yerləşməsi də həmin mənbədə qeyd olunur. Görünür, sonralar elə o yerdə – Novruzlu kəndi yanında Qafarlı camaatı yurd salmış və kənd orada yaşayan tayfanın adı ilə Qafarlı da adlanmışdır.

Qazaxların bir qolu olan **Qafarlı** tayfası isə öz adını erkən orta yüzillərdə Xəzər türklərinin **Kabar** tayfasından almışdır. Yəni Qafarlı Kabar etnoniminin danışıqda dəyişikliyə uğrayan formasıdır (B.Budaqov, Q.Qeybullayev).

1873-cü ilin statikasında Gərnibasarın düzənlik hissəsində, Gərni çayının sol tərəfində qeydə alınan Qafarlı kəndində 74 təsərrüfatda 515 nəfər (303 kişi, 212 qadın) Azər türkü siyahıya alınmışdır.

1886-cı ildə isə Qafarlı kəndində 67 təsərrüfatda 435 nəfər (269 kişi, 166 qadın) Azər türkü yaşamışdır.

1886-cı ilə aid mənbədə Qafarlı kəndindən çıxan bəzi ailələrin Millidərə bölgəsinə köçərək 1860-cı ildə burada Eranos, 1873-cü ildə Kotanlı, 1883-cü ildə Şuqaib kəndlərində məskunlaşdıqları göstərilmişdir. Bunun üçün də, göründüyü kimi, 1886-cı ilin statistikasında kənd əhalisinin sayı artmaq əvəzinə azalmışdır.

Qafarlı kəndinin **Ağdağ** yaylağında, kənddən 45 verst aralıda, 203 desyatin ərazini əhatə edən **Gölyurd, Ağbulaqyurd** və **Düzyurd** adlı yaylaq yerləri olmuş, kənd camaatı bu yaylaqdan qədimdən istifadə etmişdir. Bundan əlavə, kəndin 25 verst aralıda 625 desyatin ərazini əhatə edən **Şırran-ağıl**, yenə də 25 verst aralıda 850 desyatin ərazini əhatə edən **Qazma-ağıl**, 30 verst aralıda 220 desyatin ərazini əhatə edən **Yappa-ağıl**, adlı qışlaqları olmuşdur.

Kənd əhalisinin sayı artaraq 1905-ci ildə 540 nəfərə, 1914-cu ildə 594 nəfərə çatmışdır. 1918-ci il hadisələri zamanı Qafarlı kəndi bölgədə erməni vəhşiliyinə ən çox məruz qalan kəndlərdən biri olmuş, ermənilər tərəfindən dağıdılmış, yandırılmışdır. Elə o vaxtdan da kənd xaraba qalmış, bir daha bərpa edilməmişdir.

QARADAĞLI

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 10 km şimal-qərbdə, Gərni çayının sağ tərəfində, Gərni çayından ayrılan su arxının kənarında, İrəvan-Naxçıvan-Culfa avtomobil yolunun yaxınlığında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamış, 1828-1829-cu illərdə kəndə İrandan gəlmə ermənilər də yerləşdirildiyindən həmin vaxtdan 1948-ci ilə qədər kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur.

İ.Şopendə (1832) Gərnibasar mahalının **Qaradağlı kəndi** kimi qeydə alınmış, kənddə 26 təsərrüfatda 128 nəfər (70 kişi, 58 qadın) Azər türkünün, 36 təsərrüfatda 168 nəfər (87 kişi, 81 qadın) İrandan köçürülüb gətirilmiş ermənin yaşadığı göstərilmişdir.

Kəndin **Mehdi bəyin** tiyul kəndi olduğu da həmin mənbədə qeyd olunmuşdur.

1873-cü ilin statistikasından kənddə 38 təsərrüfatda 331 nəfər (173 kişi, 158 qadın) Azər türkünün, 17 təsərrüfatda 106 nəfər (67 kişi, 39 qadın) isə erməni əhalinin yaşadığı məlum olur.

1886-cı ildə kənddə 49 təsərrüfatda 286 nəfər (157 kişi, 129 qadın) Azər türkü, 21 təsərrüfatda 110 nəfər (69 kişi, 41 qadın) erməni qeydə alınmışdır. Üstəlik, kənddə yaşayan azərbaycanlı əhalinin 7 nəfərini (4 kişi, 3 adın) bəy ailə üzvləri təşkil etmişlər.

1886-cı ilə aid mənbədə kəndin **Hacı Mahmud Mirzə oğlu** adlı mülkədarının Ağhəmzəli kəndinin ərazisində **Qorux yeri** adlı 6,33 desyatin əkin yerini icarəyə götürdüyü də qeyd olunmuşdur.

Kənddə 1897-ci ildə 364 nəfər, 1905-ci ildə 496 nəfər, 1914-cü ildə 481 nəfər azərbaycanlı yaşamışdır.

Kənd öz adını Qızılbaşların **Qaradağlı** tayfasının adından almışdır. Xatırladırıq ki, Qaradağlı tayfası təkcə Gərnibasar mahalı ərazisinə yox, bütün Cənubi Qafqaza yayılmışlar. Belə ki, XIX yüzildə burada Qaradağlı adı ilə 14 kənd mövcud olmuşdur.

Belə kəndlərdən biri də hazırda Azərbaycan Respublikasının

Goranboy rayonunda yerləşir.

1918-ci ildə Gərnibasar mahalının başqa kəndləri kimi, Qaradağlı kəndi də erməni daşnaklarının təcavüzünə məruz qalmış, kəndin azərbaycanlı əhalisinin bir hissəsi vəhşicəsinə qətlə yetirilmiş, sağ qalanlar baş götürüb Cənubi Azərbaycana pənah aparmışlar.

Yalnız bölgədə Sovet hakimiyyəti qurulduqdan, daşnak hərbi birləşmələri ləğv olunduqdan sonra dinc əhali geri qayıtmaq imkanı əldə etmişdir. Kənddə yaşayan azərbaycanlı əhalinin sayı 1931-ci ildə 115 nəfər olmuşdur.

Lakin az sonra erməni məkri ilə Qərbi Azərbaycan ərazisindən Azər türklərinin deportasiyası başlanmış və 1948-1949-cu illərdə kəndin bütün azərbaycanlı əhalisi zorla dədə-baba yurdlarından qovulub çıxarılmışlar.

1945-ci il avqustun 20-də kəndin Qaradağlı adı dəyişdirilərək **Tsaxkaşen** qoyulmuş, 1967-ci il oktyabrın 21-də isə Tsaxkaşen adı **Mrqavet** adı ilə əvəz edilmişdir.

* * *

Qaradağlı kəndindən 1921-ci il təvəllüdlü **Ələkbərov Ismayıl Həsən oğlu** Böyük Vətən iüharibəsindən qayıtdıqdan sonra Vedi rayon hərbi komissarlığında şöbə rəisi, Buzavand kəndində kolxoz sədri vəzifələrində işləmiş, Azərbaycana deportasiya olunduqdan sonra isə uzun illər Şəmkir rayonunda müxtəlif vəzifələrdə çalışmış, 1986-cı il yanvalın 1-də dünyasını dəyişmişdir.

1924-cü il təvəllüdlü **Ələkbərov İslam Həsən oğlu** isə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmiş, deportasiyadan sonra Şəmkir rayonunun Çinarlı qəsəbəsində yaşamış, qəsəbə sovetinin sədri, məktəbdə müəllim vəzifələrində işləmişlər.

QARAHƏMZƏLİ

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 5 km şimal-qərbdə, Gərni çayının sağ kənarında, çayın Arazla qovuşduğu yerin yaxınlığında, İrəvan-Qəmərli avtomobil yolunun üstündə kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1828-1830-cu illərdə kənddə həm də İrandan köçürülüb gətirilmiş ermənilər yerləşdirildiyindən həmin vaxtdan 1948-ci ilə qədər kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1949-cu ildə kəndin bütün türk-müsəlman əhalisi zorla Azərbaycana deportasiya olunmuş və kənd bütünlüklə erməniləşdirilmişdir.

İ.Şopendə (1832) və sonrakı bütün mənbələrdə kəndin adı **Qarahəmzəli** kimidir. Yerli danışıqda **Qarahamzalı//Qaramzalı** kimi tələffüz olunmuşdur.

Bəzi mənbələrdə kənd adının Qars əyalətinin **Qara Həmzə** kəndindən gəlmiş ailələrin məskunlaşması nəticəsində yaranması ehtimal olunur (B.Budaqov, Q.Qeybullayev). Bu mənada, toponimin **Qara Həmzə** şəxs adından yaranması və yaxud **Qəryə (kənd)** və **Həmzəli** sözlərindən düzəlməsi də ehtimal oluna bilər.

Lakin Qərbi Azərbaycan ərazisində Həmzə komponentli çoxlu toponimin mövcudluğu Qarahəmzəli kənd adının etimologiyası üzərində bir qədər dərindən düşünməyə əsas verir. Həmzəli komponentli toponimlərin yayılma arealı, Həmzəli etnonimin mənşəyi barədə Zəngibasar mahalının Ağhəmzəli kəndindən danışarkən ətraflı bəhs etmişik. Təkcə onu əlavə etməklə kifayətlənirik ki, Ağhəmzəli kəndi kimi, Qarahəmzəli kəndi də Ağqoyunlu hökmdarı Uzun Həsənin əmisi, Diyarbəkr hökmdarı **Sultan Həmzədən** başlayan **Həmzəli** tayfasının adını daşıyır.

1831-ci ildə Gərnibasar mahalının **Qarahəmzəli kəndində** 11 təsərrüfatda 55 nəfər (33 kişi, 22 qadın) Azər türkü, 29 təsərrüfatda 125 nəfər (60 kişi, 65 qadın) İrandan gəlmə erməni qaçqını qeydə alınmışdır.

1873-cü ilin statistikasında Gərnibasar mahalının düzənlik hissəsində, Gərni çayının sağ tərəfində, çayın Araza töküldüyü

yerin yaxınlığında, poçt yolunun kənarında mülkədar kəndi kimi qeyd olunan **Qarahəmzəli kəndində** 29 təsərrüfatda 168 nəfər (111 kişi, 57 qadın) Azər türkü, 53 təsərrüfatda 372 nəfər (194 kişi, 178 qadın) erməni yaşamışdır.

1886-cı ildə kənd əhalisinin sayı aşağıdakı kimi dəyişmişdir: 41 təsərrüfatda 228 nəfər (121 kişi, 107 qadın) Azər türkü, 63 təsərrüfatda 434 nəfər (224 kişi, 210 qadın) erməni.

Kənddə yaşayan Azər türklərinin sayı 1897-ci ildə 246 nəfərə (bu vaxt kənddə 425 erməni qeydə alınmışdır), 1905-ci ildə 244 nəfərə, 1914-cü ildə 301 nəfərə çatmışdır.

Lakin 1918-ci il soyqırımı zamanı kəndin türk-müsəlman əhalisi erməni daşnaklarının vəhşi hücumları nəticəsində xeyli itki verərək kəndi tərk etmək məcburiyyətində qalmış, Arazı keçərək Türkiyəyə, İrana sığınmışlar. Bir də Sovet hakimiyyəti illərində, bölgədə daşnak hərbi birləşmələri darmadağın edildikdən sonra dinc əhali doğma yurdlarına qayıtmaq imkanı qazanmışdır. Kəndə qayıdanların sayı 1922-ci ildə 139 nəfər olmuş, 1931-ci ildə kənddə 165 nəfər azərbaycanlı qeydə alınmışdır.

Sonralar Qarahəmzəli kəndi yaxınlıqdakı Tamamlı kəndi ilə birləşdirilmiş və bu birləşmiş kəndlər **Burastan** adlandırılmışdır.

1949-cu ildə kəndin bütün türk-müsəlman əhalisi zorla Azərbaycana deportasiya olunmuş, kəndin erməniləşdirilməsi başa çatdırılmışdır.

Bu vaxt kənddə 42 təsərrüfatda 200 nəfərdən çox azərbaycanlı yaşayırdı.

* * *

Qarahəmzəli kəndində əsasən aşağıdakı tayfalar yaşamışlar: **Şahbazlılar, Hacı İsmayıllılar, Kərbəlayı Əli uşağı** və **Qaracalar.**

Keçmişdə Qarahəmzəli kəndindən **Məşədi Zülfüqar Əbdül oğlu İsmayılov, Məşədi Abbas Əli oğlu, Bayram İsmayıl oğlu Məmmədov, Həbib Məşədi Əzim oğlu Cəfərov, Məhəmməd Məmmədbağır oğlu Quliyev** kimi ərəb-fars-rus dillərini bilən, yazıb-oxumağı bacaran ziyalılar çıxmışlar.

1930-1940-CI İLLƏRİN REPRESSİYA QURBANLARI

1. Məşədi Həsən
2. Məşədi Hüseyn
3. Müslüm
4. Müslüm
5. Məhəmməd Alo oğlu
6. Məhərrəm Quliyev
7. Əbdül Quliyev
8. Cəfər Həsənov
9. Novruz
10. Niyaz

1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİNDƏ HƏLAK OLANLAR

1. Abbas Qulu oğlu Bağırov
2. Müzəffər Məşədi Zülfüqar oğlu Əbdülov
3. Cəlil Məşədi Abbas oğlu İsmayılov
4. Əjdər Həsən oğlu İsmayılov
5. Əbuzər Rəsul oğlu Əliyev
6. Rəhim Abbas oğlu Nəsirov
7. Rəhim Xəlil oğlu Həsənov
8. Həbib Məşədi Əzim Cəfərov
9. Ələşrəf Məşədi Əzim oğlu Cəfərov
10. İsmayıl Hüseyn oğlu Qurbanov

QƏŞƏM CƏLİL OĞLU ŞAHBAZOV



1902-ci ildə Qarahəmzəli kəndində anadan olmuşdur.

Ailədə beş qız, üç oğlan olublar. Valideynləri dünyalarını erkən dəyişdiyindən kənddə ibtidai təhsilini mollaxanada alan Qəşəm təhsilini davam etdirmək məqsədilə İrəvanda yaşayan böyük bacısı **Ruqiyyə xanımgilə** üz tutur. Ümumiyyətlə, Q.Şahbazovun gənclik həyatının düzgün yönləndirilməsində Ruqiyyə xanımın böyük rolu olmuşdur. Elə Ruqiyyə xanımın məsləhəti ilə də o, İrəvanda yeni açılmış fəhlə-kəndli məktəbinə (rabfak) daxil olur. Yaxşı oxuduğuna görə onu Bakı şəhərinə göndərirlər və burada texniki məktəbdə təhsilini başa vurub, Gəncə Hidromeliorasiya İnstitutuna daxil olur, oranı da müvəffəqiyyətlə bitirir.

Vətənə qayıdıb Basarkeçər rayonunda su idarəsinin rəisi, "Sovet Ermənistanı" qəzetinin redaktor müavini, Vedidə rayon qəzetinin redaktoru, Qarabağlar rayon PK-nin ikinci katibi, sonra Ermənistan KP MK-nın bölmə müdiri vəzifələrində çalışır, Zəngibasar RPK-nin I katibi vəzifəsinə irəli çəkilir. Zəngibasarda işlədiyi müddətdə burada Azərbaycan dilinin bütün dövlət təşkilatlarında dövlət dili səviyyəsində işlənməsini təmin və təşkil edir. 1948-1949-cu illərdə Zəngibasar camaatının Azərbaycana deportasiya olunmasını xeyli əngəlləyir. Bütün bunlara görə də 1950-ci ildə onu Bakı Ali Partiya Məktəbində oxumağa göndərmək bəhanəsi ilə Zəngibasar rayonunun I katibi vəzifəsindən azad edirlər. 1952-ci ildə Bakı Ali Partiya Məktəbini bitirən Q.Şahbazov Xaçmaz rayonuna siyasi şöbə müdiri vəzifəsinə göndərilir. Sonralar Azərbaycanın digər rayonlarında da məsul vəzifələrdə çalışır. 1972-ci ildə isə respublika miqyaslı fərdi təqaüdə çıxır.



Qəşəm müəllimin həyat yoldaşı **Zivər xanım Qulubəyova** (1914-1990) İrəvanın məşhur bəylərindən olan **MEHDİ BƏY QULUBƏYOVUN** qızı idi. İrəvanda var-

dövləti, mal-mülkü ilə məşhur olan Mehdi bəy həm də qeyrəti, ermənilərə qarşı barışmazlığı ilə ad çıxarmışdı. Mehdi bəy həm də maarifpərvər bir bəy idi, qardaşı Səməd bəyi Qori seminariyasında oxutmuşdu. Mehdi bəyin üç qızı, bir oğlu vardı. Qızları, o cümlədən Zivər xanım İrəvan qızlar məktəbinin ilk məzunlarından idilər.

Zivər xanımın özü sonralar uzun müddət müəllim işləmiş, gözəl pedaqoq kimi tanınmışdı.



Şəkildə: Zivər xanım Qulubəyova (soldan 2-ci) rəfiqələri arasında

Qəşəm müəllim və Zivər xanım özlərinə, əsillərinə və nəsillərinə layiq altı övlad – üç oğul, üç qız böyüdüb, onların hamısına ali təhsil vermişlər. Ailənin böyük oğlu **Oqtay Şahbazov** hazırda Azərbaycan Respublikası Prezidenti Aparatında, digər oğlu **Emin Şahbazov** Kənd Təsərrüfatı Nazirliyində, oğlu, texnika elmləri doktoru, professor **Eldar Şahbazov** Azərbaycan Respublikası Dövlət Neft Şirkətində məsul vəzifələrdə işləyirlər.

Qızı **Sevil xanım** 1946-cı ildə İrəvan şəhərində analan olmuşdur. Respublikada tanınmış əczaçılardandır. 1979-cu ildən Əczaçılıq Texnikumunun direktoru işləmiş, əczaçılıq üzrə kadr hazırlığı işində böyük xidməti olmuşdur. 15 il Bakı Tibb Texnikumuna rəhbərlik etmişdir. Ümumiyyətlə, Sevil xanımın respublikada tibb sahəsinin orta personalının təhsili sistemində böyük xidməti vardır. Hazırda səhiyyə təhsili

sistemində məsul vəzifədə çalışır. Ailəlidir, iki övladı, iki nəvəsi var.

Digər qızı **Arifə xanım** 1950-ci ildə anadan olmuş, Azərbaycan Dövlət Xarici Dillər İnstitutunu bitirmiş, uzun müddət xarici turizm sahəsində işləmişdir. Hazırda Moskva şəhərində diplomatik işdə çalışır. Ailəlidir, iki övladı var. Böyük qızı **Afaq xanım** Moskvada Beynəlxalq Münasibətlər İnstitutunda oxuyur.

Ailənin sonbeşiyi **Afət xanım** 1954-cü ildə anadan olmuşdur. Anası Zivər xanımın yolunu davam etdirir, gözəl pedaqoqdur və orta məktəbdə tədris işləri üzrə direktor müavini vəzifəsində işləyir. Ailəlidir, iki övladı var.

Qəşəm Şahbazov ömrünün ahıl yaşlarında – 1989-cu ildə dünyasını dəyişmiş, həyat yoldaşı Zivər xanım isə ondan bir il sonra – 1990-cı ildə vəfat etmişdir.

OQTAY QƏŞƏM OĞLU ŞAHBAZOV

1941-ci ildə İrəvan şəhərində anadan olmuşdur.

Valideynlərinə xas bir çox keyfiyyətləri, xüsusilə müdriklik, uzaqgörənlik, xeyirxahlıq kimi cəhətləri xarakterində cəmləşdirən Oqtay müəllim hətta peşə-sənət baxımından da atasının yolu ilə getmiş, erkən yaşlarından dövlət idarəçiliyi sistemində çalışmağa başlamışdır. Belə ki, o, Azərbaycan Dövlət Xarici Dillər İnstitutunu bitirdikdən sonra bir müddət pedaqoji fəaliyyət göstərmiş, hərbi kafedrada alman dili müəllimi olmuş, gənc yaşlarından Azərbaycan Nazirlər Soveti və Azərbaycan KP MK sistemində müxtəlif vəzifələrdə işləmişdir.

1990-1995-ci illərdə Ali Sovetin deputatı olmuşdur. Hazırda Azərbaycan Respublikası Prezidenti Aparatında İşlər İdarəsi müdirinin birinci müavinidir.

Oqtay müəllim həyat yoldaşı **Zemfira xanımla** birgə Vətənə layiq iki övlad böyütmüşlər: qızı **İlhamə,** oğlu **Pərviz.** Pərviz bir neçə xarici dil bilir, diplomatdır.

Oqtay müəllim həm də dörd nəvə babasıdır: **Mədinə, Kamran** və **Zivər, Murad.**

EMİN QƏŞƏM OĞLU ŞAHBAZOV

1943-cü ildə Vedi rayonunda anadan olmuşdur.

Gəncə Kənd Təsərrüfatı Akademiyasının baytarlıq fakültəsini bitirib, aspiranturaya daxil olmuş, uzun müddət bir sıra rayonlarda baytarlıq sahəsində məsul vəzifələrdə mşləmiş, 10 ildən yuxarı Azərbaycan Respublikası Nazirlər Sovetində məsul işlərdə çalışmışdır.

Bir sıra elmi məqalələrin müəllifidir.

Sonra isə o, Respublika Baytarlıq Komitəsinin sədr müavini vəzifəsinə qədər yüksəlmiş, respublikada baytarlıq sahəsində mövcud xəstəliklərə qarşı mübarizə işinə rəhbərlik etmişdir.

Hazırda respublika Kənd Təsərrüfatı Nazirliyində Baytarlıq Baş İdarəsi rəisinin müavini vəzifəsində çalışır.

Həyat yoldaşı: **Gülsənəm xanım,** övladları: **Nərgiz** və **Səbinə.** Üç nəvələri var.

ELDAR QƏŞƏM OĞLU ŞAHBAZOV

1948-ci ildə Zəngibasar rayonunda anadan olmuşdur. Bu vaxt atası Qəşəm Şahbazov Zəngibasar rayon PK-nin birinci katibi idi.


1950-ci ildə Şahbazovlar ailəsi deportasiyaya məruz qalaraq Azərbaycana köçür və Bakıda məskunlaşırlar.

Eldar Şahbazov 1966-cı ildə M.Əzizbəyov adına Neft və Kimya İnstitutuna daxil olmuş, insitutu bitirib, 1972-ci ildə hərbi xidmətə çağırılmış, Macarıstanda qulluq etmişdir. Hərbi xidmətini başa vurduqdan sonra qayıdıb, Neft və Kimya İnstitutunun aspiranturasına qəbul olunmuşdur. Neft və qaz avadanlığının etibarlılığı sahəsində 1984-cü ildə namizədlik, 1990-cı ildə isə doktorluq dissertasiyaları müdafiə etmişdir. Texnika elmləri doktoru, professordur. Dünyanın bir sıra ölkələrində neft və qaz avadanlığının problemlərinə dair elmi simpozium və konfranslarda dəfələrlə məruzələr oxumuşdur.

1999-cu ildən ARDNŞ prezidentinin müşaviridir.

Eldar Şahbazov indiyə kimi ölkəmizdə və dünyanın bir çox ölkələrində müxtəlif dillərdə dərc olunmuş 150-dən artıq elmi məqalənin, 5 patentin, 4 beynəlxalq standartın müəllifi, "Qızıl qələm" mükafatı laureatıdır.

TEYMUR AĞRIDAĞ (TEYMUR RZA OĞLU ƏLİYEV)



1939-cu il yanvarın 14-də Qarahəmzəli kəndində doğulmuş, 1948-ci ildə ailələri Azərbaycana deportasiya olunmuş, Şəmkir rayonunun Leninkənd (indiki Çinarlı) kəndində məskunlaşmışlar. Burada orta məktəbi qurtarıb, 1958-ci ildə 5 saylı Bakı feldşer-laborant məktəbinə daxil olmuşdur. 1960-cı ildə həmin məktəbi, 1967-ci ildə Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsini bitirmişdir.

1968-1970-ci illərdə Azərbaycan Nazirlər Sovetinin Dövlət Təbiəti Mühafizə Komitəsində dövlət müfəttişi vəzifəsində çalışmışdır.

1970-ci ildən Azərbaycan EA Zoologiya İnstitutunda aspirant, kiçik elmi işçi, baş elmi işçi vəzifələrində işləmişdir. 1985-ci ildən həmin institutun herpetologiya laboratoriyasının müdiridir.

1974-cü ildə "Azərbaycanın zəhərli ilanları" mövzusunda dissertasiya müdafiə edərək, biologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. 5 kitabın, 50-dən artıq elmi məqalənin müəllifidir. 20 dəfədən çox keçmiş SSRİ məkanında və xaricdə, o cümlədən Türkiyənin İstanbul, Sparta, Adana şəhərlərində simpozium və qurultaylarda məruzələrlə çıxış etmişdir.

Son 30 ildə respublikamızda sürünənlərlə, xüsusilə ilanlarla, ümumiyyətlə təbiətin, heyvanların mühafizəsi ilə bağlı qanun-qərar layihələrinin işlənib hazırlanmasında bilavasitə əməyi olmuşdur. Ailəlidir, üç övladı, üç nəvəsi var.

Qızı **Gülşən Teymur qızı Əliyeva** 1970-ci ildə anadan olmuşdur. 1987-ci ildə orta məktəbi, 1993-cü ildə İncəsənət İnstitutunu bitirmiş, əvvəl Nizami adına Ədəbiyyat muzeyində çalışmış, Ədəbiyyat İnstitutunun dissertantı olmuş, 2000-ci ildə "Çağdaş poeziyamız və klassik irs" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. 1 monoqrafiya və 30-dan çox elmi məqalənin müəllifidir. Hazırda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin baş müəllimidir və doktorluq dissertasiyası üzərində işləyir.

QARAQIŞLAQ (MƏRƏNÇİ)

Gərnibasar mahalında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Qaraqışlaq kəndi** kimi qeydə alınmışdır. Kənddən dövlətin müxtəlif vergilər şəklində götürdüyü illik gəlirin məbləğinin 17.000 ağça həcmində, kənd camaatının isə Qəmərli camaatından olduğu da mənbədə göstərilmişdir. Dəftərdə kəndin başqa adının **Mərənçi** olduğu qeyd edilmişdir.

1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı kənd dağıdılmışdır.

Sonrakı mənbələrdə kəndin adının çəkilməməsi onun bir daha bərpa olunmamasından irəli gəlir.

Cənubi Qafqazda, o cümlədən Qərbi Azərbaycan ərazisində geniş yayılmış Qaraqışlaq oykonimi, adın etimoloji izahı və s. barədə bu kitabın Zəngibasar mahalının Qaraqışlaq kəndi haqqındakı oçerkində ətraflı bəhs etmişik. Xatırladırıq ki, Gərni nahiyəsinin Qaraqışlaq (ikinci adı Mərənçi) kəndinin qeydə alındığı "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Zəngibasar mahalının Qaraqışlaq kəndi Qırxbulaq mahalı tərkibində eyni adla (Qaraqışlaq) siyahıya daxil edilmiş və ikinci adının Hacı Bayram olduğu göstərilmişdir.

QARAQOYUNLU (YOLKƏSƏN, YÜKKƏSƏNÇAY)

Gərnibasar mahalının düzənlik hissəsində, Gərni çayının sağ tərəfində, Qəmərli qəsəbəsindən 8-10 km şimalda, İrəvan-Naxçıvan-Culfa avtomobil yolunun kənarında kənd.

1918-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. Sovet hakimiyyəti illərində kənddə həm də İran və Türkiyədən gəlmə ermənilər yerləşdirildiyindən 1949-cu ilə qədər kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Gərni nahiyəsinin **Yolkəsən kəndi** kimi qeydə alınmışdır. "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Gərni nahiyəsinin **Qaraqoyunlu kəndi** kimi verilmiş, kəndin ikinci adının **Yükkəsənçay** olduğu göstərilmişdir. Kənddə **Veyis Məhəmməd oğlunun** adına olan timardan dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürdüyü də həmin mənbədə qeyd olunmuşdur.

Göründüyu kimi, kəndin ilkin adı Yolkəsəndir. "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə də Yolkəsən toponiminin kanal adı olması və bu adın ona poçt yolunu kəsdiyi üçün verildiyi göstərilmişdir (B.Budaqov, Q.Qeybullayev). Yükkəsən adı isə, bizcə, Yolkəsən adının yazılış zamanı təhrifindən başqa bir şey deyil.

XVIII yüzilin ortalarından etibarən isə kəndin adı bütün mənbələrdə **Qaraqoyunlu** şəklindədir. Heç şübhəsiz, bu, kənddə yaşayan əhalinin tayfa mənsubiyyətindən irəli gəlmişdir. Bildiyimiz kimi, Oğuz türklərinin tayfa birləşmələrindən olan Qaraqoyunlular XIII yüzilin sonlarında, daha dəqiq desək, 1284-1291-ci illərdə Hülaku hökmdarı Arqun (Ərhun) xanın zamanında Türküstandan Cənubi Azərbaycan vasitəsilə Qafqaza keçmiş, bu tayfa birləşməsinin tərkibinə daxil olan tayfalar (**baharlı, hacılı, qaramanlı, ağacəri, bayramlı, əyinli, duhanlı, alpout** və b.) Azərbaycan xalqının etnogenezində fəal iştirak etmişlər.

Qaraqoyunlu dövləti (1410-1468) Azərbaycan tarixində güclü feodal dövlətlərindən biri olmuş, bu dövlət tariximizə **Bayram Xoca, Qara Məhəmməd, Qara Yusif, Əbu Səid, Cahanşah** kimi görkəmli şəxsiyyətlər vermişdir. İrəvan xanlığı ərazisində vaxtilə Qaraqoyunlu adı ilə çoxlu kəndlər qeydə alınmışdır. Onlardan ikisi Aralıq nahiyəsində (Aşağı Qaraqoyunlu, Yuxarı Qaraqoyunlu), ikisi Vedibasar mahalında (Qaraqoyunlu, Cığın Qara-

qoyunlu), ikisi Basarkeçər ərazisində (Böyük Qaraqoyunlu, Qaraqoyunlu) yerləşmişdir. Bundan başqa, İrəvan xanlığının Dərəkənd-Parçenis mahalında, Sürməli qəzasında, Üçkilsə rayonunda da Qaraqoyunlu kəndləri qeydə alınmışdır. Ümumiyyətlə isə, XIX yüzildə Cənubi Qafqazda Qaraqoyunlu adında 16 kənd mövcud olmuşdur. Bu gün Azərbaycan Respublikası ərazisində də müxtəlif adlarla (Qaraqoyunlu, Tap Qaraqoyunlu, Çay Qaraqoyunlu, Xan Qaraqoyunlu və s.) neçə-neçə Qaraqoyunlu kəndləri vardır. Qərbi Azərbaycanın Dilican dərəsi ilə Soyuqbulaq yaylası arasında Qaraqoyunlu dərəsi deyilən geniş bir ərazidə də dərəboyu müxtəlif adlarla 14 Qaraqoyunlu kəndi yerləşirdi. Sovet dövründə bu kəndlərin bir hissəsi Çəmbərək (Krasnoselo), digər hissəsi Karvansaray (İcevan) rayonlarının tərkibinə daxil idi.

İ.Şopendə (1832) Gərnibasar mahalının Qaraqoyunlu kəndində 13 təsərrüfatda 72 nəfər (38 kişi, 34 qadın) Azər türkü, 39 təsərrüfatda 164 nəfər (92 kişi, 72 qadın) 1828-1829-cu illərdə İrandan köçürülüb gətirilmiş erməni qeydə alınmışdır.

1873-cü ilin statikasında isə kəndin əhalisinin ancaq Azərbaycan türklərindən ibarət olduğu göstərilmişdir: 51 təsərrüfatda 355 nəfər (199 kişi, 156 qadın). Bu, söyləməyə əsas verir ki, 1828-1829-cu illərdə kəndə köçürülmüş ermənilər burada duruş gətirə bilməmiş, çıxıb başqa kəndlərə getmişlər. Kəndin dəqiq coğrafi mövqeyi – Gərnibasar mahalının düzənlik hissəsində, çayın sağ tərəfində, poçt yolunun kənarında, İrəvan şəhərinin 20 verstliyində yerləşdiyi də həmin mənbədə göstərilmişdir. 1886-cı ildə kənddə 63 təsərrüfatda 474 nəfər (240 kişi, 234 qadın), 1905-ci ildə 432 nəfər, 1914-cü ildə 456 nəfər Azər türkü yaşamışdır.

1918-ci ilin əvvəllərində erməni daşnak quldur dəstələri kəndi darmadağın etmiş, yandırmış, kənd əhalisinin bir hissəsini vəhşicəsinə qətlə yetirmiş, sağ qalanları doğma yurdundan didərgin salmışlar. Bölgədə Sovet hakimiyətinin qurulması ilə bağlı kəndin qaçqın əhalisi – cəmi 178 nəfər kəndə qayıtmış, onların sayı 1931-ci ildə 246 nəfərə çatmışdır. Bu vaxt kənddə Sovet hakimiyyətinin ilk illərində bura yerləşdirilən İrandan, Türkiyədən gəlmə ermənilər də yaşayırdılar.

1948-1949-cu illərdə isə kəndin bütün türk-müsəlman əhalisi Azərbaycana deportasiya olunmuş, kənddə yaşayan erməni ailələri köçüb qonşu kəndlərə getmiş, kənd isə ləğv edilmişdir.

Xarabalıqları son zamanlara qədər qalmaqda idi.

QARATƏPƏ

Gərnibasar mahalında, Cəbəçili kəndi yaxınlığında, Şibax arxı kənarında, Qaratəpə dağı ətəyində kənd.

Kənddə ancaq azər türkləri (1828-ci ildən sonrakı bir neçə il istisna olmaqla) yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) kənd Gərni nahiyəsinin **Qaratəpə məzrəsi** kimi qeydə alınmışdır. Həmin mənbədə qonşu İrəvan nahiyəsində Qaracaviran məzrəsi adlı bir kənd də qeydə alınmış və ikinci adının Qaratəpə olduğu göstərilmişdir. Bu kənd barədə Zəngibasar mahalı tərkibində bəhs etmişik.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Gərni nahiyəsinin Cəbəçili kəndi yaxınlığında **Qaratəpə kəndi** kimi qeyd olunmuş, kəndin **İsmayıl Əli oğlu** adlı şəxsin timarı olduğu, bu timardan dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürdüyü göstərilmişdir.

Yeri gəlmişkən, qeyd etmək istərdik ki, həmin icmal dəftərində İrəvan əyalətinin Xınzirək və Karbi nahiyələrində də Qaratəpə adlı kəndlər qeydə alınmışdır.

Sonrakı bütün mənbələrdə (1831, 1873, 1886...) də kəndin adı **Qaratəpə** şəklindədir. Bu, kəndin əsl adının Qaratəpə olduğunu təsdiq edir. Bu adın isə Qaratəpə dağının adından törəməsi fikri (B.Budaqov, Q.Qeybullayev) mövcuddur. Qaratəpə oroniminin açılışına gəldikdə isə, heç şübhəsiz, burada **qara** türk dillərindəki "**böyük**" anlamındadır. Sözün **qara rəng** və **qəryə** (kənd) mənaları da burada istisna təşkil etmir.

Xatırladırıq ki, Qaratəpə//Qaratap oykonimləri vaxtilə Qərbi Azərbaycanın Yeni Bayazid qəzasında, Sisian və Abnik nahiyələrində və s. də qeydə alınmışdır.

İ.Şopendə (1832) Gərnibasar mahalının Qaratəpə kəndində 6 təsərrüfatda 45 nəfər (26 kişi, 19 qadın) Azər türkü, 4 təsərrüfatda 23 nəfər (13 kişi, 10 qadın) İrandan köçürülüb gətirilmiş erməni qeydə alınmışdır. Kəndin **Mehdi bəyin** tiyul kəndi olduğu da həmin mənbədə göstərilmişdir.

1873-cü ilin satistik məlumatlarında isə kənddə 9 təsərrüfatda 49 nəfər (29 kişi, 20 qadın) Azər türkünün yaşadığı göstərilmiş-

dir. İ.Şopendə qeydə alınan 4 ailə İrandan gəlmə ermənin bu statistikada olmaması göstərir ki, onlar kənddə duruş gətirə bilməmiş, az sonra köçüb başqa kəndlərə getmişlər. Üstəlik, 1873-cü ilin siyahıyaalmasında kəndin Qırxbulaq çayı boyu ərazidə, **Şibax arxı** kənarında yerləşdiyi də göstərilmişdir.

1886-cı ildə İrəvan qəzasının Hacı Eylas dairəsinin İmanşalı kənd icması tərkibində verilən **Qaratəpə** kəndində 6 təsərrüfatda 32 nəfər (20 kişi, 12 qadın) Azər türkü qeydə alınmışdır.


1905-ci ildə kənddə 59 nəfər, 1914-cü ildə 89 nəfər əhali yaşamışdır.

1917-1918-ci illərdə İrəvan qəzasının digər azərbaycanlı kəndləri kimi, Qaratəpə kəndi də erməni təcavüzünə məruz qalmış, dinc əhali qılıncdan keçirilmiş, kənd yerlə-yeksan edilərək od vurulub yandırılmışdır. Sonralar kənd bir daha məskunlaşmamış, tarixi kəndlərimizdən biri də erməni cəlladları tərəfindən yer üzündən beləcə silinmişdir.

QƏMƏRLİ

Gərnibasar mahalının düzənlik hissəsində, İrəvan şəhərindən 28 km cənubda, Gərni çayının solunda, Gərni çayından ayrılan su arxının kənarında, İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin və İrəvan-Naxçıvan-Culfa avtomobil yolunun üstündə qəsəbə. 1961-ci ildən respublika tabeli şəhər.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1828-1829-cu illərdə kəndə İranın Xoy və Salmas vilayətlərindən köçürülüb gətirilmiş ermənilər də yerləşdirilmiş və o vaxtdan 1988-ci ilədək kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq yaşayış məntəqəsi olmuş, sonuncu tarixdə Qəmərlinin bütün türk-müsəlman əhalisi Azərbaycana qovularaq şəhər bütövlükdə erməniləşdirilmişdir.



Qəmərli kəndinin ümumi görünüşü

İ.Şopendə (1832) Gərnibasar mahalının **Qəmərli kəndi** kimi qeydə alınmış, kənddə 31 təsərrüfatda 167 nəfər (88 kişi; 79 qadın) Azər türkünün və az qala iki o qədər – 54 təsərrüfatda 241 nəfər (139 kişi, 102 qadın) İrandan köçürülüb gətirilmiş ermənilərin yaşadığı göstərilmişdir.

Sonrakı mənbələrdə də kəndin adı Qəmərli kimi yazıya alınmışdır. Adından da göründüyü kimi, bu toponim er. əv. VIII yüzildə, daha dəqiq desək, er. əv. 715-ci ildə Urartu çarı I Rusanın ordusunu darmadağın edərək, Qərbi Azərbaycan (indiki "Ermənistan") ərazisində məskunlaşan Qamər (Kimmer//Kəmər) tay-

fasının adını yaşadan nadir toponimlərdən biridir.

Bu etnonim və onun Cənubi Qafqazda yayılma arealı barədə professor F.Ağasıoğlu geniş araşdırmalar aparmışdır (Ətraflı məlumat üçün bax: F.Ağasıoğlu. Azər xalqı, səh. 102-118). Biz isə burada təkcə onu əlavə etmək istərdik ki, qamərlərlə saklar azər xalqının formalaşmasında qoşa qanad kimi iştirak edən ən qədim və qardaş türk boylarıdır. Bu barədə ayrıca araşdırmamız var.

Yeri gəlmişkən, professor S.Şükürovun belə bir fikri ilə qəti razı deyilik ki, Qəmərli kəndi XVIII yüzilin sonlarında **general Qəmərlinski** tərəfindən salınmış və onun adı ilə adlanmışdır. Guya həmin vaxt rus ordusundan tərxis olunan general Qəmərlinskiyə çar icazə vermişdi ki, harada istəyir özünə torpaq və üç kənd götürsün. O da Ağrıdağ düzənliyini seçmişdir. Birincisi, XVIII yüzilin sonlarında İrəvan çuxuru rus çarının təsir zonasında deyildi ki, o, burada kimə istəsə kənd, torpaq bağışlasın. İkincisi, Qəmərlinskinin adını daşımalı olan kənd, yəqin ki, Qəmərli yox, Qəmərlinski adlanmalı idi. Və nəhayət, məlumdur ki, şəxsiyyətlər çox vaxt anadan olduqları yaşayış məntəqəsinin adını təxəllüs kimi götürmüşlər. Məsələn, ruslar tərəfindən işğal olunana qədər Gəncəvi, Şirvani, Bakuvi və s. XIX yüzildən sonra Qəmərlinski, Şadlinski, Makinski və s. Belə olan surətdə Qəmərli oykonimi Qəmərlinski soyadından yox, Qəmərlinski soyadı Qəmərli oykonimindən törəmə olmalıdır.

1873-cü ilin statistikasında Qəmərlinin mülkədar kəndi olduğu, İrəvan şəhərindən 25 verst, Naxçıvan şəhərindən 115,25 verst aralıda yerləşdiyi göstərilmiş, kənddə 90 təsərrüfatda 563 nəfər (303 kişi, 260 qadın) Azər türkü, 178 təsərrüfatda 1.264 nəfər (662 kişi, 602 qadın) erməni qeydə alınmışdır. Mənbədə 1 məscid, 2 kilsə, 60 dükan, gündəlik bazar, poçt stansiyası və s. inzibati, ictimai və dini obyektlər də siyahıya alınmışdır.

1886-cı ildə kənddə 99 təsərrüfatda 668 nəfər (388 kişi, 280 qadın) Azər türkü, 228 təsərrüfatda 1.416 nəfər (788 kişi, 628 qadın) erməni yaşamışdır.

1886-cı ildə nəşr olunmuş "Zaqafqaziya diyarının dövlət kəndlilərinin vəziyyətinə dair materiallar" toplusunda Aşağı Qəmərli və Yuxarı Qəmərli kəndlərinin birlikdə Yeni Bayazid qəzasındakı **Qızıldağ** yaylağında, kəndlərdən 60 verst aralıda, 275

desyatin ərazini əhatə edən **Qızıldağyurd** adlı yurd yeri olduğu və kənd camaatının həmin yaylaq yerindən 30 ildən bəri istifadə etdiyi göstərilmişdir.

Bundan əlavə, Qəmərli (Aşağı Qəmərli kəndi ilə bir yerdə) camaatının kənddən 12 verst aralıda 90 desyatin ərazini əhatə edən **Ağqoyun-ağıl** adlı qışlaq yeri olmuşdur.

Kənddə yaşayan Azər türklərinin sayı 1997-ci ildə 757 nəfərə, 1905-ci ildə 870 nəfərə, 1914-cü ildə 835 nəfərə çatmışdır.

1918-ci ilin əvvəllərində kənd erməni vəhşiliyinin qurbanı olmuş, bölgədə azərbaycanlıların soyqırımı zamanı Qəmərli kəndinin türk-müsəlman əhalisinə də divan tutulmuş, onların bir hissəsi qəddarcasına qətlə yetirilmiş, sağ qalanlar yurd-yuvasından qovulmuşlar.

Bölgədə Sovet hakimiyyəti qurulduqdan, erməni-daşnak hərbi qüvvələri darmadağın edildikdən sonra kəndin qaçqın əhalisi geri qayıtmaq imkanı qazanmış, 1922-ci ildə onların sayı 122 nəfər, 1926-cı ildə 248 nəfər, 1931-ci ildə 267 nəfər olmuşdur.

Yeri gəlmişkən, 1828-1830-cu illərdə İranın Xoy və Salmas vilayətlərindən köçürülüb gətirilmiş ermənilərin yerləşdirilməsi üçün Qəmərli kəndinin aşağısında yeni kənd salınmış, bu kənd Aşağı Qəmərli adlanmış, bütün statistik mənbələrdə bu kəndə aid göstəricilər Qəmərli kəndinin üstündə verilmişdir. Qəmərli kəndi isə mənbələrdə bəzən Yuxarı Qəmərli kimi də qeydə alınmışdır. Tədricən bu kəndlər birləşmiş, 1930-cu ildə isə Aşağı Qəmərli kəndi rəsmi olaraq ləğv olunmuş və Qəmərli qəsəbəsinə qatılmışdır.

Lakin 1948-1953-cü illərin bədnam deportasiyası fürsətindən istifadə edən ermənilər kəndin bütün türk-müsəlman əhalisini zorla Azərbaycana köçürmüş, bölgə üçün çox mühüm strateji əhəmiyyəti olan bu qədim türk yaşayış məntəqəsinin ermənilərdirilməsinə çalışmışlar. Lakin az sonra geri qayıdan bəzi azərbaycanlı ailələri Qəmərlidə yaşamaqda davam etmiş, onlar da 1988-ci il hadisələri zamanı doğma yurdu təzədən tərk etməyə məcbur edilmişlər.

1945-ci il sentyabrın 4-də Qəmərli qəsəbəsinin və Qəmərli rayonunun adı dəyişdirilərək müvafiq şəkildə **Artaşad qəsəbəsi** və **Artaşad rayonu** adlandırılmışdır.

* * *

Qəmərlidən keçmişdə xeyli böyük şəxsiyyətlər çıxmışdır. Onlardan **Mirzə Məmmədvəli Qəmərli (Qəmərlinski)** böyük maarifçi olmuş, İrəvanda qız məktəbi açmış, orada ilahiyyatdan və fəlsəfədən dərs demişdir. O, iki "Ana dili" dərsliyinin və Azərbaycanda ilk "Atalar sözü" kitablarının müəllifi idi.

Atası **Əli Qəmərlinski** çar ordusunda qulluq etmiş və general olmuşdu.

Məmmədvəli Qəmərlinin 6 övladı – 5 oğlu, 1 qızı vardı. Böyük oğlu **Hüseynəli Qəmərli** 1915-ci ildə Türkiyəyə getmiş və ömrünün sonuna qədər orada yaşamış, Türk ordusunun generalı rütbəsinə yüksəlmişdir.

İkinci oğlu **Əli Qəmərli** Qori seminariyasını bitirmiş və ömrünün sonuna qədər Gəncə şəhərində rus dili müəllimi işləmişdir. Bir oğlu, bir qızı olmuşdur, qızı həkimdir.



Digər oğlanları – **Paşa Qəmərli, Adil Qəmərli** və **Mahmud Qəmərli** – hər üçü gimnaziyanı bitirmiş və müəllim işləmişlər. Paşa Qəmərlinin yeddi övladı olmuşdur. Oğlanları **Arif** və **Zakir Qəmərlilər** elmlər doktoru, professordurlar, Orta Asiyada yaşayırlar. Qızı **VALİDƏ QƏMƏRLİ** baytarlıq elmləri namizədidir, Azərbaycan MEA Zoologiya İnstitutunda çalışır.

Mahmud Qəmərlinin 3 oğlu, 3 qızı olmuşdur. Bir oğlu fizika-riyaziyyat elmləri namizədidir, təhsil sahəsində çalışır, digərləri müəllimlik edirlər.

Bu nəsildən olanlar 1937-ci ilə qədər **Qəmərlinski** soyadını daşımış, həmin tarixdə onu **Qəmərli** soyadı ilə əvəz etmişlər.

MİRİBRAHİM QASIM OĞLU SEYİDOV



1910-cu ildə İrəvan şəhərində anadan olmuşdur. Əslən Qəmərlinin Seyidzadələr nəslindən idi.

1918-ci il hadisələri zamanı ailələri Türkiyəyə mühacirət etmiş, oradan Tiflisə getmiş, sonra Bakı şəhərinə köçmüşlər.

1932-1933-cü illərdə Azərbaycan MİK-də kargüzar, Şmidt zavodunda fəhlə işləyən M.Seyidovu 1933-cü ildə həmin zavodun direktor müavini təyin edirlər.

1935-ci ildə Moskva Sənaye Akademiyasında oxumağa göndərilir, mexanika fakültəsini bitirib, 1939-cu ildə Hava Donanması Sənayesi Komissarlığının Moskvadakı Təcrübə Təyyarə zavodunda direktor müavini işləyir. Direktoru məşhur aviakonstruktor Sergey Yakovlev olan zavod müharibə vaxtı Novosibirskə köçürülür və M.Seyidov burada da direktor müavini olur. Buradakı işinə görə o, Qırmızı Ulduz ordeni ilə təltif edilir.

Müharibədən sonra Moskvaya qayıdır, bir müddət Dövlət Əmək Komitəsinin Elmi-Tədqiqat Normativ İnstitutunda direktor müavini işləyir.

1959-cu ildə Azərbaycana dönür, onu Sumqayıtda Boruprokat zavoduna direktor təyin edirlər.

1954-cü ildə Azərbaycan Dövlət Plan Komitəsinin sədr müavini təyin olunur və ömrünün sonuna qədər bu vəzifədə çalışır.

M.Seyidov 1975-ci il sentyabrın 19-da Bakıda vəfat etmişdir.

HƏSƏN MİRƏLİ OĞLU SƏYİDOV



1910-cu ildə (doğum şəhadətnaməsində səhvən 1906-cı ildə) İrəvan şəhərində anadan olmuşdur. Əslən Qəmərlinin Seyidzadələr nəslindəndir.

Babası **Seyid Məhəmməd** XIX yüzilin sonlarından Qəmərlidə tanınmış əttar idi. Onun övladları **Mirəli** və **Mirqasım** sonralar İrəvanda böyük imarət tikdirmiş, bağ saldırmış, 1907-ci ildə ora köçmüşdülər.

1918-ci il hadisələri zamanı qardaşlar ailəlikcə Türkiyəyə mühacirət etmiş, burada qardaşlardan Mirəli dünyasını dəyişmiş, iki il sonra ailə Tiflisə getmişdir. 1925-ci ildə ailənin böyük oğlu Həsən Bakıya gəlib toxuculuq fabrikində işə düzəlmiş, az sonra bütün ailə Bakı şəhərinə köçmüşdür.

H.Seyidov 1931-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirmiş, həmin il Oğuz rayon torpaq şöbəsində aqronom, 1931-1934-cü illərdə Moskvada Ümumittifaq Gübrəçilik və Torpaqşünaslıq İnstitutunda aspirant olmuşdur. 1934-cü ildə dissertasiya müdafiə edib, ilk azərbaycanlı kənd təsərrüfatı elmləri namizədi kimi Bakıya qayıtmışdır.

1937-1941-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutunun direktoru, 1942-1943-cü illərdə Gəncə şəhər İK-nin sədri, 1943-1944-cü illərdə Azərbaycan KP MK-nın kənd təsərrüfatı şöbəsinin müdiri vəzifələrində çalışmışdır.

O, 1944-1945-ci illərdə Azərbaycan KP MK-nın katibi, 1946-1950-ci illərdə ikinci katibi, 1950-1952-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini, 1952-1953-cü illərdə Bakı şəhər İK-nin sədri, 1953-1954-cü illərdə Dövlət Plan Komitəsinin sədri, 1954-1959-cu illərdə kənd təsərrüfatı naziri, 1959-1960-cı illərdə Azərbaycan Nazirlər Sovetinin SSRİ Nazirlər Soveti yanında daimi müvəkkili, 1960-1961-ci illərdə Pambıqçılıq İnstitutunun direktoru, sonra 2 il yarım Dövlət Plan Komitəsinin sədr müavini, 1970-ci ilə qədər isə Dövlət Meyvə-Tərəvəz Sənayesi Komitəsinin sədri vəzifələrində işləmiş, 1970-ci ildən fərdi təqaüdə çıxmışdır.


Üç çağırış Azərbaycan SSR Ali Sovetinin, dörd çağırış SSRİ Ali Sovetinin deputatı olmuş, SSRİ Ali Sovetinin millətlər palatasının iqtisadi komissiyasına sədrlik etmişdir.

1972-ci ildən ömrünün sonuna qədər Dövlət Torpaq Komitəsinin

Yerquruluşu Layihə İnstitutunda müxtəlif vəzifələrdə çalışmış, 1972-ci ildə dissertasiya müdafiə edərək kənd təsərrüfatı elmləri doktoru alimlik dərəcəsi almış, sonra isə professor adına layiq görülmüşdür. 70-ə qədər elmi əsərin müəllifidir.

1999-cu il iyunun 8-də vəfat etmişdir. 3 övladı olub. **Qızı Klara** tibb elmləri namizədi idi, Tibb İnstitutunda göz xəstəlikləri kafedrasının dosenti vəzifəsində çalışmışdır. Vəfat edib. Böyük **qızı Tamara** filologiya elmləri namizədidir. Moskva Dövlət Universitetinin fizika fakültəsinin xarici dillər kafedrasında çalışır. **Oğlu Cavanşir** fizika-riyaziyyat elmləri doktoru, professordur. Moskvada Okeonologiya İnstitutunda laboratoriya müdiri vəzifəsində işləyir.

HÜSEYN MİRƏLİ OĞLU SEYİDZADƏ



1912-ci il oktyabrın 13-də (yaş kağızında səhvən 1910-cu il oktyabrın 15-də) İrəvan şəhərində anadan olmuş, 1918-ci ildə ailələri ilə birlikdə Türkiyəyə mühacirət etmiş, sonra Tiflisə, oradan da Bakıya getmişlər.

Kino sənətinə böyük həvəsi Hüseyni erkən yaşlarından teatra çəkir, Bakı fəhlə teatrına daxil olur, az sonra isə "Gənc işçi" teatrında aktyorluğa başlayır. 1929-cu ildə Leninqrada bir illik rejissorluq kursuna göndərilir və qayıdıb, Bakı kinostudiyasında aktyor və rejissor köməkçisi işləyir. 1931-ci ildə onu Moskvaya Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutuna oxumağa göndərirlər, burada rejissorluq sənətinin sirlərinə yiyələnib, 1936-cı ildə Bakıya rejissor assistenti kimi qayıdır.

1956-cı ilə qədər bir sıra bədii və sənədli filmlərin rejissor assistenti, rejissoru olan H.Seyidzadə 1956-cı ildə Sabit Rəhmanın ssenarisi əsasında Ü.Hacıbəyovun "O olmasın, bu olsun" musiqili komediyasını ekranlaşdırır. Film böyük uğur qazanır. Bunun ardınca 1960-cı ildə "Koroğlu", 1966-cı ildə "Yenilməz batalyon", 1969-cu ildə "Dəli Kür", 1979-cu ildə "Qaynana" kimi məşhur filmləri çəkib qurtarır. Bu filmlər hamısı Azərbaycan kinosunun qızıl fonduna daxil olur.

Böyük kinorejissor H.Seyidzadəyə 1970-ci ildə "Əməkdar incəsənət xadimi" adı verilmişdir.

H.Seyidzadə 1979-cu il iyul ayının 4-də vəfat etmişdir.

BAĞIR MİRQASIM OĞLU SEYİDZADƏ



1912-ci il avqustun 9-da İrəvan şəhərində anadan olmuş, 1918-ci hadisələri zamanı Türkiyəyə mühacirət etmiş, oradan Tiflis şəhərinə gəlmişlər.

B.Seyidzadə 1925-ci ildə Bakıya gəlib, toxuculuq fabrikində əmək fəaliyyətinə başlayır. Az sonra Azərbaycan Sənaye İnstitunun neft texnologiyası fakültəsinə daxil olur, eyni zamanda "Kəndli" qəzetinin redaktoru, "Gənc işçi" qəzetinin tərcüməçisi kimi çalışır. 1932-1939-cu illərdə "Gənc işçi" qəzetində müxtəlif vəzifələrdə, o cümlədən məsul katib və məsul redaktor vəzifələrində işləyir.

1940-1943-cü illərdə Azərbaycan LKGİ MK-nın katibi, 1944-1949-cu illərdə SSRİ-nin İranın Maku və Təbriz şəhərlərindəki konsulluğunda katib, vitse-konsul və baş konsul vəzifələrində çalışır.

Təbrizdən qayıtdıqdan sonra əvvəlcə respublika kinematoqrafiya naziri, sonra isə mədəniyyət nazirinin müavini işləyir, Azərbaycanda Poliqrafiya və Nəşriyyat idarəsinin yaradıcılarından olur və bir müddət ona rəhbərlik edir.

B.Seyidzadə tərcüməçilik fəaliyyəti ilə də məşğul olmuş, "Görkəmli adamların həyatı" seriyasından N.Muravyovanın "Hüqo", L.İnfeldin "Evarist Qalua" və Pestalotsinin "Seçilmiş pedaqoji görüşlər" əsərlərini dilimizə çevirmişdir. B.Seyidzadə sonralar Radio Verilişləri Komitəsində, Pedaqoji Ədəbiyyat Nəşriyyatı Komitəsində məsul vəzifələrdə işləmiş, ömrünün son illərini isə Azərbaycan Teleqraf Agentliyində (indiki AzərTAC) direktor müavini vəzifəsində çalışmışdır. Rus, fransız və fars dillərini mükəmməl bilirdi. 1967-ci ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüş, 1968-ci il martın 24-də Bakı şəhərində vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Oğlu **Fuad Seyidzadə** Moskvada Memarlıq İnstitutunu, Bakıda Politexnik İnstitutunun memarlıq fakültəsini bitirmiş, Bakı şəhər sovetində memarlıq bürosunu təşkil edib, ona başçılıq eləmişdi. Bakıda "Bəhram-Gur" abidəsinin, Peterburqda Bakı Ticarət Mərkəzinin və s. arxitektura işləri ona məxsusdur.

Qızı **Dilarə Seyidzadə** ADU-nun tarix fakültəsini bitirmiş, Moskvada aspiranturada oxumuş, 1974-cü ildə namizədlik, 1989-cu ildə

doktorluq dissertasiyaları müdafiə etmişdir. "XX əsrin əvvəllərində Azərbaycan burjuaziyası tarixindən", "Azərbaycan deputatları Rusiya Dövlət Dumasında" kitablarının müəllifidir. Çoxcildlik "Azərbaycan tarixi" kitabının müəlliflərindən biri, milli burjuaziyanın ilk tədqiqatçısıdır. Hazırda Azərbaycan Respublikası Prezidenti Aparatında çalışır, prezidentin köməkçisidir.

HƏQİQƏT MİRƏLİ QIZI SƏYİDOVA




1916-cı il dekabrın 26-da İrəvan şəhərində anadan olmuş, 1918-ci il hadisələri zamanı ailələri Türkiyəyə mühacirət etmiş, sonra Tiflisə, oradan da Bakı şəhərinə köçmüşlər.

İlk azərbaycanlı qadın travmatoloq olan Həqiqət xanım Seyidova həm də Böyük Vətən müharibəsi iştirakçısı olmuş, 1917-ci ildə "Səhiyyə əlaçısı" fəxri adına layiq görülmüşdür.

1959-cu ildən Azərbaycan Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunda şöbə müdiri işləyən tibb elmləri namizədi H.Seyidova 1970-ci ildə dissertasiya müdafiə edərək tibb elmləri doktoru alimlik dərəcəsi almışdır.

Elmi tədqiqatları, əsasən, uzun borulu (lülə) sümüklərdə oynaqların cərrahi üsulla (klinik-eksperimental üsul) müalicəsinə həsr olunmuşdur.

ARİF PAŞA OĞLU QƏMƏRLİ



1929-cu il iyunun 1-də anadan olmuş, hərbi xidmətdən sonra Gəncədə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun baytarlıq fakültəsini bitirmiş, sonra Moskva şəhərində aspiranturada oxumuş, dissertasiya müdafiə edərək baytarlıq elmləri namizədi alimlik dərəcəsi almışdır.

1973-cü ildə Alma-Ata şəhərində doktorluq dissertasiyası müdafiə edən A.Qəmərli az sonra professor adına layiq görülmüşdür. Uzun müddət Bişkek şəhərində Qırğızıstan KTİ-nun baytarlıq fakültəsinin dekanı olmuş, elmi nailiyyətləri dünyanın bir sıra ölkələrində tətbiq edilmişdir. Hazırda Bişkek şəhərində Şərq Universitetində çalışır.

SÜDABƏ CƏMŞİD QIZI HƏSƏNOVA



1947-ci ildə Qəmərli kəndində anadan olmuşdur. Həsənovlar nəsli Həsən kişidən başlayırdı. Onun Əliqulu, Hüseyn və Məşədi Məhərrəm adlı üç oğlu vardı. Hüseyn kişi dəmirçi idi. O, oğlanları Cəmşidə və Məhərrəmə də bu sənəti öyrətmişdi.

Cəmşid kişinin 6 övladı olmuşdur: oğlanları **Rəşid, Yadulla, Hüseyn,** qızları **Südabə, Rübabə** və **Əminə.**

1948-ci il deportasiyası ilə əlaqədar ailə Şəmkir rayonuna köçürülür. Bir ildən sonra şəraitə uyğunlaşa bilməyib, ikinci dəfə köçməyə məcbur olur, bu dəfə Şərur rayonunun Yengicə kəndində məskunlaşırlar.

Südabə xanım 1965-ci ildə Şərurda orta məktəbi bitirir. Həmin il ali məktəbə daxil ola bilmədiyindən məhkəmədə çalışır. Növbəti il ADU-nun hüquq fakültəsinə qəbul olunur. Tələbəlik illərində elmi işə ciddi maraq göstərir, Ümumittifaq tələbə elmi konfransında mükafata layiq görülür. 1971-ci ildə ali hüquq təhsilini başa vurub, təyinatla Ədliyyə Nazirliyinə göndərilir.

1973-cü ildə Bakı şəhərinin Binəqədi rayonuna hakim təyin olunur. Altı il bu vəzifədə işlədikdən sonra 1979-cu ildə Bakı şəhər Məhkəməsi Rəyasət Heyətinin, 1980-ci ildə isə Respublika Ali Məhkəməsi Rəyasət Heyətinin üzvü seçilir, Respublika Hakimlərinin İntizam Kollegiyasının sədri olur.

1980-ci ilin sonunda Azərbaycan KP MK inzibati orqanlarla iş şöbəsinə təlimatçı, 1987-ci ildə respublika Ədliyyə nazirinin 1-ci müavini təyin olunur. 1995-ci ildən Ədliyyə nazirinin əvəzi vəzifəsində çalışan S.Həsənova 1998-ci ilin yanvarında Ədliyyə naziri vəzifəsinə təyin edilir. II dərəcəli ədliyyə müşaviridir. Azərbaycan Respublikası Prezidenti yanında Məhkəmə-Hüquq Şurasının sədri, "Qanunçuluq" junralının baş redaktorudur.

Südabə xanım dəfələrlə beynəlxalq konfrans və simpoziumlarda iştirak və çıxış etmiş, Azərbaycan nümayəndə başçısı olmuş, Azərbaycanı ləyaqətlə təmsil eləmiş, Azərbaycan həqiqətlərini dünyaya car çəkmişdir. 2001-ci ildən Azərbaycan Respublikası Ali Məhkəməsinin sədridir.

Südabə xanım həm də qayğıkeş anadır, iki övladı var: oğlu **Əli**, qızı **Yaqut**.

QIRX BUZAVAND (İNAS, GÖDƏK BUZAVAND)

Gərnibasar mahalının düzənlik hissəsində, Gərni çayının sol sahilində, çayın dərədən çıxdığı yerdə, qədim Qızqala qalasının xarabalıqları yaxınlığında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamış, XIX yüzilin ortalarından etibarən kənddə İrandan gəlmə ermənilər və müsəlman kürdləri məskunlaşmışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Gərni nahiyəsində **Nəhri-Ənus** adlı kənd, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə ikinci adı **İnas** olan **Gödək Buzavənd** kəndi kimi qeydə alınmışdır. İkinci mənbədə həmçinin kənddə **Əli Abdulla oğlunun** adına olan timardan dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürdüyü də göstərilmişdir.

İ.Şopendə (1832) kənd **Qırx Buzavand** adı ilə Gərnibasar mahalının xaraba kəndləri siyahısında verilmişdir. Bu, kəndin 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalmasına dəlalət edir. XIX yüzilin ortalarında kənd yenidən bərpa olunmuş və burada İrandan köçürülüb gətirilmiş ermənilər və müsəlman kürdləri məskunlaşmışlar.

Kəndin adının əslində **Qırıqlı Bozavənd** şəklində olduğu və **"Qırıqlı kəndi yaxınlığında Bozavənd kəndi"** mənasını bildirdiyi fikri mövcuddur (B.Budaqov, Q.Qeybullayev). Xatırladırıq ki, Bozavənd tayfası Qızılbaşların bir qolu olmaqla yanaşı, adın Qırıqlı komponenti də qədim türk tayfalarından olan **Qırıq//Kırık** tayfasının adından törəmədir. Azərbaycan Respublikasının Tərtər və Xanlar rayonlarında da bu tayfanın adını daşıyan Qırıqlı kəndləri mövcuddur. Vedibasar mahalının Millidərə bölgəsində Əliqırıq (Alqırıq) kəndi və eyniadlı bulaq olmuşdur.

1873-cü ilin statistik məlumatlarında Gərnibasar mahalının düzənlik hissəsində, Gərni çayının sol sahilində, çayın dərədən çıxdığı yerdə, İrəvan şəhərindən 25 verst aralıda, qədim **Qızqala qalasının** xarabalıqları yanında yerləşdirilən **Qırx Buzavand** kəndində 25 təsərrüfatda 111 nəfər (54 kişi, 57 qadın) erməni, 1 təsərrüfatda 8 nəfər (4 kişi, 4 qadın) müsəlman kürdü siyahıya alınmışdır.

1886-cı ildə kənddə 26 təsərrüfatda 131 nəfər (70 kişi, 61 qadın) erməni, 2 təsərrüfatda 10 nəfər (3 kişi, 7 qadın) müsəlman kürdü yaşamışdır.

Kəndin yaxınlıqda 300 desyatin ərazini əhatə edən **Qızqalası-ağıl** adlı qışlaq yeri olmuşdur.

QIZILOBA (QIZILVƏNG, TARMUS)

Gərnibasar mahalında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Gərni nahiyəsinin **Qızılava** (**əslində** ***Qızıloba*** – Ə.Ə.) **kəndi,** "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə həmin nahiyənin **Tarmus kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə kəndin başqa adının **Qızılvəng** olduğu, **Süleyman Ömər oğlunun** adına olan bu kənd-timardan dövlətin ildə 3.000 ağça gəlir götürdüyü göstərilmişdir.

Qızılvəng XVIII yüzilin ortalarında Gərni nahiyəsində monastır adı kimi də qeydə alınmış, ermənicəyə sətri tərcümə olunaraq **Qarmirvank** (**Qarmir** – ermənicədə **qırmızı, qızılı** mənasındadır) da adlandırılmışdır. Vəngin 684-cü ildə tikilməsi, üstəlik **Qızıloba kəndi** ərazisində tikilməsi, nəhayət, bu kəndin, burada yaşayan tayfanın (Qızıl) adı ilə Qızılvəng adlanması onun qədim ərmən-türk xristian abidəsi olduğunu bir daha təsdiq edir.

Qızıl – Qərbi Azərbaycan ərazisində qədimdən yaşayan ən böyük türk-oğuz tayfalarından birinin adıdır. Professor Firidun Ağasıoğlu Qızıl tayfasının İrəvan çuxurunda miladdan əvvəl məskunlaşan türk tayfalarından olduğunu yazır. Yeri gəlmişkən, Vedibasar mahalında Şadlılar tayfası ilə qaynayıb-qarışan qədim tayfalardan biri də Qızılanlılar tayfası olmuşdur və Firidun müəllimin özü də həmin tayfadandır. Türkmən tirələrindən biri də Qızıllı adlanmışdır.

Qərbi Azərbaycan ərazisində Qızıl komponentli (Qızılqal, Qızılvəng, Qızılverən, Qızılqaya, Qızılqışlaq, Qızılqoç, Qızılqulla, Qızıldağ, Qızıldaş, Qızılziyarət, Qızıldərə, Qızıldəmir, Qızılkənd, Qızılkilsə, Qızılgöz, Qızıltəpə, Qızılörən, Qızılxaraba, Qızılçay, Qızılca və s.) onlarla toponimin mövcudluğu da onun etnonim səciyyəsindən irəli gəlir.

Qızıl etnotoponimi, barədə "Qərbi Azərbaycan" oncildliyinin 1-ci cildində Vedibasar mahalının Qızılverən kəndindən danışarkən ətraflı bəhs etmişik.

Sonralar kəndin adının **Tarmus** toponimi ilə əvəzlənməsini tədqiqatçılar (B.Budaqov, Q.Qeybullayev) Türkiyənin Terma əyalətindən köçüb gələnlərin bu kənddə məskunlaşması ilə əlaqələndirirlər.

QULAMƏLİ BUZAVAND
(BÖYÜK BUZAVAND, QULÇA ƏLİ)

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 8-10 km şimalda, Gərni çayının sol sahilində, Ayaslı kəndinin yanında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamış, 1828-1829-cu illərdə İrandan köçürülüb gətirilmiş ermənilər də yerləşdirildikdən sonra kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuş, XIX yüzilin ortalarında azərbaycanlılar sıxışdırılıb çıxarılmış, kənd bütünlüklə ermənileşdirilmişdir.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Böyük Buzavand kəndi** (ikinci adı **Ağcaqışlaq**) kimi qeydə alınmış, kəndin **İsmayıl Mahmud oğlunun** timarı olduğu, bu timardan dövlətin müxtəlif vergilər şəklində ildə 1.000 ağça gəlir götürdüyü göstərilmişdir.

Həmçinin həmin icmal dəftərində Gərni nahiyəsində Ayaslı kəndi yaxınlığında bir **Qulça Əli kəndi** də (illik gəliri 4.500 ağça) qeydə alınmışdır. Qulça Əli adı sonralar **Qulam Əli//Qulaməli** şəklinə düşmüş, Böyük Buzavand kəndi ilə yanaşı olan bu kəndlər sonralar elə bir – Qulaməli Buzavand kimi də siyahılara salınmışdır.

İ.Şopendə (1832) kənd Gərnibasar mahalının **Qulaməli Buzavand kəndi** kimi yazıya alınmış, kənddə 18 təsərrüfatda 86 nəfər (50 kişi, 36 qadın) Azərbaycan türkünün, 28 təsərrüfatda 150 nəfər (80 kişi, 70 qadın) 1828-1829-cu illərdə İrandan köçürülüb gətirilmiş ermənin yaşadığı göstərilmişdir. Sonrakı mənbələrdə kəndin adı **Qulaməli Buzavand** (1873), **Qulaməli Bzavand** (1886) şəklində yazılmışdır.

Kəndin adının əslində Bozavənd Qulaməli şəklində olması, **Qulaməli** şəxs adından və Qızılbaşların **Bozavənd** tayfasının adından yaranması fikri mövcuddur (B.Budaqov, Q.Qeybullayev), yəni **"Qulaməliyə** (mülkədar adıdır) **məxsus Bozavənd ailələri".**

1873-cü ilin statistik məlumatlarında Gərnibasar mahalının düzənlik hissəsində, Gərni çayının sol sahilində yerləşdirilən

kənddə 49 təsərrüfatda 344 nəfər (174 kişi, 170 qadın) erməni siyahıya alınmışdır. Kənddə azərbaycanlı əhalinin qeydə alınmaması göstərir ki, burada gəlmə ermənilər yerləşdirildikdən sonra yerli əhali – azərbaycanlılar tədricən sıxışdırılıb çıxarılmışlar.


1886-cı ildə kənddə yaşayan əhalinin sayı 57 təsərrüfatda 443 nəfər (217 kişi, 226 qadın) olmuşdur.

Sonralar kənd qonşu Ayaslı kəndi ilə birləşdirilmiş, Ayaslı kəndinin adı dəyişdirilərək **Aygestan** qoyulmuş, Qulaməli Buzavand oykonimi isə yer üzündən silinmişdir. Tarixin türklərə məxsus bir yarpağı da erməni daşnakları tərəfindən belə məhv edilmişdir.

MEHRABLI

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 11 km şimalda, Gərni çayının sol kənarında, Zöhrablı kəndi yaxınlığında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1828-1829-cu illərdə kəndə İrandan köçürülüb gətirilmiş ermənilər yerləşdirilmiş və o vaxtdan kənd ermənileşdirilmişdir.



Mehrablı kəndinin üumi görünüşü

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin Zöhrablı kəndi yaxınlığında **Mehrablı kəndi** kimi qeydə alınmış, kəndin **Ömər** adlı şəxsin timarı olduğu və bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 6.000 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) və bütün sonrakı mənbələrdə kəndin adı **Mehrablı** şəklindədir.

Yeri gəlmişkən, kəndin adındakı **Mehrab** komponentinin ərəb dilində **"mehrub"** sözündən olub, **"dağıdılmış, uçurulmuş qala", "xarabalıq"** mənaları bildirməsi fikri (B.Budaqov, Q.Qeybullayev) ilə razılaşmırıq. Təcrübədən də göründüyü kimi, Qərbi Azərbaycan ərazisində xaraba qalmış onlarla belə kənd həmişə **"Xaraba..."** adı ilə tanınmış, hər hansı bir dildəki "mehrub" və ya başqa bir sözə ehtiyac olmamışdır.

Biz tədqiqatçı S.Mirmahmudovanın kəndin öz adını onun əsa-

sını qoymuş nəslin adından alması fikrini müdafiə edirik. Bununla belə, toponimin dilimizə ərəb dilindən keçib, geniş işləklik qazanan **mehrab** sözündən yaranma olmasını da istisna etmirik Xatırladaq ki, **mehrab** – məscidlərin qiblə tərəfki divarında namaz qılarkən pişnamazın və onun ardınca başqa namaz qılanların üz çevirdikləri xüsusi oyuq yerə deyilir. Belə olan surətdə çox mümkündür ki, keçmişdə bu kənddə mehrabı olan hansısa qədim bir ibadətgah olmuş, kənd də öz adını ondan almışdır.

1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı kəndin bütün yerli əhalisi kəndi tərk etməyə məcbur olmuş, rus işğalçıları kəndi zəbt elədikdən sonra orada İrandan gətirilmiş erməni ailələrini yerləşdirmişlər. Ona gərə də 1831-ci ildə kənddə ancaq 28 təsərrüfatda 118 nəfər (62 kişi, 56 qadın) İrandan gəlmə erməni qeydə alınmışdır.

1873-cü ildə **Mehrablının** mülkədar kəndi olduğu, kənddə 18 təsərrüfatda 101 nəfər (57 kişi, 44 qadın) ermənin yaşadığı göstərilmişdir.

1886-cı ildə isə kənddə 24 təsərrüfatda 118 nəfər (62 kişi, 56 qadın) əhali yaşamışdır.

1945-ci il avqustun 20-də kəndin Mehrablı adı dəyişdirilərək **Vardaşen** qoyulmuşdur.

MƏSİMLİ (BÖYÜK MƏSİMLİ)

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 3 km şərqdə, İrəvan-Naxçıvan dəmiryol xəttinin və İrəvan-Naxçıvan-Culfa avtomobil yolunun sol kənarında kənd.

1918-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1922-ci ildən 1948-ci ilə qədər kənd yerli Azər türkləri ilə gəlmə ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. Sonuncu tarixdə kəndin azərbaycanlı əhalisi zorla deportasiya olunmuş və kənd tamamilə ermənileşdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Aralıq nahiyəsinin **Məsimli kəndi**, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Gərni nahiyəsinin Qovun Seyfədərə kəndi yaxınlığında **Böyük Məsimli** kəndi kimi qeydə alınmış, ikinci mənbədə kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 10.000 ağça gəlir götürdüyü göstərilmişdir.

1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı Gərnibasar mahalının iki Məsimli kəndindən biri – Kiçik Məsimli kəndi xaraba qaldığından İ.Şopendə (1832) **Böyük Məsimli** kəndi sadəcə **Məsimli kəndi** kimi verilmiş, kənddə 10 təsərrüfatda 62 nəfər (34 kişi, 28 qadın) Azər türkünün yaşadığı göstərilmişdir.

Toponimin burada ilk dəfə məskunlaşmış nəslin adından yarandığı ehtimal olunur (S.Mirmahmudova). Digər versiyaya görə, Səfəvilər sarayında xidmətçilərdən biri **məsum** adlanmış və kənd öz adını həmin sözdən almışdır (B.Budaqov, Q.Qeybullayev).

1873-cü ilin statistikasında **Məsimli//Məsumlu** adı ilə mülkədar kəndi kimi siyahıya alınmış kəndin yeri "Ərdəşər və Bəcəyəzli kəndlərinin yanında, Gərni çayından ayrılan su arxının kənarında, Qəmərli stansiyasından 5 verst şimal-şərqdə, İrəvan şəhərindən 25 verst cənub-şərqdə" kimi qeyd edilmişdir. Bu vaxt kənddə 59 təsərrüfatda 360 nəfər (175 kişi, 185 qadın) Azər türkü yaşamışdır.

1886-cı ildə kəndin Azər türk əhalisinin sayı 67 təsərrüfatda

359 nəfərə (203 kişi, 156 qadın) çatmışdır. Azərlərlə yanaşı, kənddə 1 təsərrüfatda 2 nəfər müsəlman kürdü də qeydə alınmışdır.

Məsimli kəndinin İrəvan qəzasındakı Harunburun (Millidərədə) kəndi üstündə, kənddən 30 verst aralıda, 275 desyatin ərazini əhatə edən, **Dübəkliyurd** adlı yurd yeri olmuş, kənd camaatı bu yurd yerindən qədimdən istifadə etmişdir.

1897-ci ildə kənddə 507 nəfər, 1905-ci ildə 448 nəfər, 1914-cü ildə 594 nəfər Azər türkü yaşamışdır.

1918-ci ildə bölgədə Azər türklərinin növbəti soyqırımı zamanı kənd erməni vəhşiləri tərəfindən darmadağın edilmiş, yandırılmış, əhalisinin bir hissəsi qətlə yetirilmiş, sağ qalanlar qəddarcasına qovulmuşlar.

Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin qaçqın əhalisi geri qayıtmış, lakin kənd yerlə-yeksan edildiyindən onu təzədən bərpa etmək mümkün olmamış, bir qədər aşağıda, 1828-ci ildə xaraba qalmış Kiçik Məsimli kəndinin kənarında təzədən salınmışdır.

1922-ci ildə Məsimli kəndində 269 nəfər azəri, cəmi 54 nəfər İran və Türkiyədən gəlmə erməni qaçqını qeydə alınmışdır. Sonrakı illərdə kənd əhalisinin sayı belə dəyişmişdir: 1926-cı ildə 260 nəfər azərbaycanlı, 64 nəfər erməni; 1931-ci ildə 276 nəfər azərbaycanlı, 103 nəfər erməni.

1948-ci ildə kəndin bütün türk-müsəlman əhalisi deportasiya olunaraq zorla Azərbaycana köçürülmüş və kənd tamamilə ermənilləşdirilmişdir.

1949-cu il dekabrın 1-də kəndin Məsimli adı dəyişdirilərək **Haygepat** qoyulmuşdur.

MUĞAMLI (SINIQKÖRPÜ, BUĞAMLI, MUĞANLI)

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 12 km şimal-qərbdə, Gərni çayının sağ, Zəngi çayının sol tərəfində, Gərni çayından ayrılan su arxının kənarında, Sabunçu və Saatlı kəndləri yaxınlığında kənd.

1918-ci ilə qədər (1828-ci ildən sonrakı qısa bir dövr istisna olmaqla) kənddə ancaq Azər türkləri yaşamışlar. 1918-ci ildən kəndə Türkiyə və İrandan gəlmə xeyli erməni yerləşdirilmiş və 1948-ci ilə qədər kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1948-1949-cu illərdə kəndin türk-müsəlman əhalisi deportasiya olunmuş və kənd btünlüklə ermənilәşdirilmişdir.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Cınıqkörpü kəndi** kimi qeydə alınmış, kəndin ikinci adının **Bikəmli** olduğu, kəndin və Caatlı məzrəsinin **Əli** adlı şəxsə timar verildiyi, bu timardan dövlətin müxtəlif vergilər şəklində ildə 4.000 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) artıq kənd ikinci adı ilə – Gərnibasar mahalının **Boğamlı kəndi** kimi siyahıya alınmışdır. Həmin mənbədə kənddə 30 təsərrüfatda 243 nəfər (123 kişi, 120 qadın) Azər türkünün, 11 təsərrüfatda 52 nəfər (23 kişi, 29 qadın) ermənin yaşadığı göstərilmişdir.

Lakin az sonra gəlmə ermənilər kəndi tərk etməyə məcbur olmuşlar. Belə ki, 1873-cü ilin statistikasında **Buğamlı** kimi tanınan bu kənddə ancaq Azər türkləri yaşamışlar: 57 təsərrüfatda 388 nəfər (214 kişi, 174 qadın).

1886-cı ildə isə **Buğamlı** kəndində 73 təsərrüfatda 371 nəfər (217 kişi, 154 qadın) Azər türkü yaşamışdır.

Bu vaxt kəndin Yeni Bayazid qəzasındakı **Oyuxlu** yaylağında, kənddən 45 verst aralıda, 18 desyatin ərazini əhatə edən **Oyuxluyurd** adlı yurd yeri olmuş, kənd camaatı bu yaylaqdan qədimdən istifadə etmişdir.

Kənd camaatının bir hissəsinin mülkədar **Məmmədağa bəy**

Abdulla Sultan oğlundan hər il yardarlığa (hazır məhsulun yarısına) 5 xəlvər əkin yeri götürdüyü də 1886-cı ilə aid mənbədə qeyd olunmuşdur.

Kənd əhalisinin sayı 1897-ci ildə 392 nəfər, 1905-ci ildə 373 nəfər, 1914-cü ildə 811 nəfər olmuşdur.

1918-ci ildə erməni-daşnak silahlı dəstələrinin hücumlarına məruz qalan kənd dağıdılmış, yandırılmış, əhalisinin bir hissəsi ermənilərə xas vəhşiliklə qətlə yetirilmişdir. Sağ qalanlar kəndi tərk etməyə məcbur olmuş və elə həmin illərdə kənddə boşalmış azərbaycanlı evlərində Türkiyə və İrandan köçürülüb gətirilmiş ermənilər yerləşdirilmişlər.

Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin keçmiş sakinlərinin bir qismi geri qayıtmış, 1922-ci ildə onların sayı cəmi 58 nəfər olmuşdur. Lakin bu vaxt kənddə artıq 145 nəfər erməni mühaciri məskunlaşdırılmışdı. Azərbaycanlıların geri qayıtmasını bütün vasitələrlə əngəlləyən bu gəlmə ermənilər qayıdanları hər addımda sıxışdırmağa çalışırdılar. Buna görə də 1931-ci ildə artıq kənddə 267 nəfər ermənіyə qarşı cəmi 28 nəfər azərbaycanlı qalmışdı.

1948-1949-cu illərdə isə kəndin bütün yerli-türk-müsəlman əhalisi Azərbaycana deportasiya olunmuş və kəndin ermənіləşdirilməsi başa çatmışdır.

Mənbələrdən də göründüyü kimi, kəndin **Buğamlı** adı sonralar **Muğamlı** şəklində də tələffüz olunmuş və bu, rəsmi sənədlərdə də öz əksini tapmışdır. Yerli tələffüzdə isə Muğamlı adı **Muğanlı** kimi də deyilmişdir.

1945-ci il avqustun 20-də kəndin Muğamlı adı **Muğam** adı ilə əvəz edilmiş, 1978-ci il yanvarın 25-də kəndin adı yenidən dəyişdirilərək **Hovtaşen** qoyulmuşdur.

Kəndin ilkin – **Sınıqkörpü** adının etimologiyası ilə bağlı onu deyə bilərik ki, toponim heç də **"sınmış körpü"** anlamında başa düşülməməlidir. Hər şeydən əvvəl, Sınıq, Sinik, Sinnik, Sünik, Sınak komponentli toponimlərin çoxluğu və qədimliyi adın yuxarıdakı etimologiyasını şübhə altına alır. Bu barədə kitabın Zəngibasar mahalının Sınıqxaç (Sinnik) kəndindən danışarkən ətraflı bəhs etmişik.

Toponimin **Bikəmli-Boğamlı-Buğamlı-Muğamlı-Muğanlı**

şəklində evolyusiyasından göründüyü kimi, sözün kökündə **Bi//Bu//Mu** şəklində **Muğ//Maq** türk tayfa adının dayandığı özlüyündə aydındır. Kənd adının bütün yazılış formaları – **Bikəmli (Biqamlı), Boğamlı, Buğamlı, Muğamlı** və s. də adın ilkin variantında Muğamlı olduğunu sübut edir. **Muğamlı** isə əslində **Muğ//Maq** və **Qam** komponentlərindən ibarətdir və qədim türk adyaratma üsuluna görə, tərsinə oxunanda eyni mənanı verir: **MAQ - QAM** (Ar-ra, Kas-sak və s. sözlər kimi). **Qam** isə, bildiyimiz kimi, qədim türklərdə kahinlərə (şamanlara) verilən addır.

Professor S.Şükürovun "Kəndin qocaları özlərinə Muğannalı deyirdilər fikri kənd adının tarixi və etimologiyası barədə düşünməyə əsas verir. **Muğannalı Muğannılı (Muğanlılı)** kimi başa düşülə bilər ki, bu da kənd əhalisinin ən azı bir hissəsinin hansısa (çox güman ki, Karbibisar mahalı ərazisindəki) Muğanlı kəndindən gəldiyinə dəlalət edir. Tədqiqatçı S.Mirmahmudovanın fikrincə, kənd Azərbaycanın Muğan düzündən gedən ailələr tərəfindən salınmışdır.

Muğanlı kəndinin camaatı qonşu kəndlərin əhalisindən, .deyilənə görə, həm boylarının uzunluğuna, həm də bir sıra xasiyyət və adətlərinə görə də fərqlənirmişlər. Kişilər işə gedəndə onları mütləq arvadları xeyir-dua ilə yola salar, axşam da xoş sözlə, gülər üzlə qarşılayarmışlar. Arvad tərəfindən qarşılanmayan kişi evə girməzmiş. Bu adət Manna dövlətində güclü olub.

Muğanlılar söz güləşdirməyi, and içməyi sevməzmişlər. Onlara həm də **müdriklər** deyirmişlər. Bu kənddə ölənlərin baş daşlarına aypara şəkli həkk edər, mərhumu dəfn etdikdən sonra üç gün axşamlar onun məzarı başında od yandırarmışlar.

Muğanlılar cehizi olmayan oğlana qız verməzmişlər. Toylarda Yallı oyun havasının müxtəlif növləri daha çox üstünlük təşkil edərmiş.

İBİŞ VƏLİ OĞLU ABBASOV



1898-ci ildə Muğamlı kəndində anadan olmuşdur.

1930-cu illərdə Vedi rayon partiya komitəsinin ikinci katibi vəzifəsində işləyən İ.Abbasov 1937-ci ildə Vedi və Qəmərli rayonlarının dağlıq kəndlərinin bazasında yaradılmış Qarabağlar rayon PK-ə birinci katib təyin olunmuş, 1942-ci ilə qədər həmin vəzifədə çalışmışdır. İşlədiyi müddətdə rayonun dağlıq kəndlərində böyük abadlıq, quruculuq işləri aparmış, kəndlərə yollar çəkdirmiş, məktəblər, tibb məntəqələri açdırmış, tikdirib istifadəyə vermişdir.

1942-ci ildə müharibə şəraitində respublika Tədarük və Təminat Komitəsini etibarlı və bacarıqlı kadrlarla təmin etmək məqsədilə Ali Sovetin deputatı, Ermənistan KP MK-nın üzvü İ.Abbasovu bu komitəyə sədrin 1-ci müavini təyin edirlər.

Qərbi Azərbaycandan azərbaycanlı əhalinin deportasiyasının əleyhinə olan, xüsusilə Dərələyəz malahının Paşalı və Göyçə mahalının Çəmbərək rayonlarında keçirilən yığıncaqlarda bu deportasiyanı ciddi tənqid edən İ.Abbasov ermənilər üçün arzuolunmaz kadr imici qazanır. Tutuduğu məsul vəzifədən götürüldükdən sonra bir müddət KP MK-nın orqanı olan "Sovet Ermənistanı" qəzetində çalışır və 1959-cu ildə respublika əhəmiyyətli fərdi təqaüdə göndərilir.

İbiş Abbasov sonuncu tarixdə Bakıya köçmüş, 1976-cı ildə burada da vəfat etmişdir.

LİTVİN İBİŞ OĞLU ABBASOV



1937-ci il aprelin 6-da İrəvan şəhərində anadan olmuşdur.

1953-cü ildə İrəvanda orta məktəbi, 1958-ci ildə Bakıda Azərbaycan Dövlət Politexnik İnstitutunu bitirmişdir, ixtisasca inşaatçı-mühəndisdir.

Əmək fəaliyyətəinə 1958-ci ildə Bakı şəhərində "Cənub" hidrospektrin stansiyasının tikintisində başlamış, burada, sonra "Azağırsənayetikinti" trestində, daha sonra 4 saylı Dəmir-Beton Məmulatları zavodunda müxtəlif vəzifələrdə işləmişdir.

1961-ci ildən "Dəmir-Beton" trestinin divar dəmir-beton blokları zavodunda baş mühəndis, 4 saylı Dəmir-Beton Məmulatları zavodunda baş mühəndis, direktor, 1967-ci ildən 2 saylı Evtikmə Kombinatında rəis, 2 saylı Zavodtikmə Kombinatında rəis, direktor, "Dəmir-beton" trestində müdir, 1979-cu ildən Sənaye Tikintisi Nazirliyinin Mexanizasiya və Nəqliyyat İdarəsində rəis, 1980-ci ildən "Kəndtikinti" Nazirliyində Əsaslı Tikinti və Yenidənqurma Baş İdarəsi rəisinin birinci müavini, 1989-cu ildən "Azərkəndtikinti" İB-nin rəisi vəzifələrində çalışmışdır.

L.Abbasov 1993-cü ilin mayında "Azərkəndtikinti" Dövlət şirkətinin prezidenti təyin olunmuşdur. Hazırda həmin şirkətin əsasında yaradılmış "Azərkəndtikinti" Səhmdar Cəmiyyətinin sədridir.

Azərbaycan Ali Sovetinin Fəxri fərmanı (1970), "Əmək şöhrəti" medalı (1970), "Şərəf nişanı" ordeni (1971) ilə təltif edilmiş, Azərbaycanın əməkdar mühəndisi fəxri adına layiq görülmüş (1976), Azərbaycan Ali Sovetinə deputat seçilmişdir (1991).

Evlidir, iki övladı var.

AFİYƏDDİN CƏLİL OĞLU CƏLİLOV



1946-cı ildə Naxçıvan şəhərində anadan olmuşdur. Əsilləri Qəmərli rayonunun Muğamlı kəndindəndir.

1969-cu ildə Leninqrad Dağ-Mədən İnstitutunu fərqlənmə diplomu ilə bitirmiş və bir neçə il Naxçıvan duz mədənlərində mühəndis vəzifəsində işləmişdir.

Sonrakı illərdə Naxçıvan Respublikasında bir sıra rəhbər vəzifələrdə çalışmış, Moskvada İctimai Elmlər Akademiyasında təhsilini davam etdirmiş, dissertasiya müdafiə edib, tarix elmləri namizədi alimlik dərəcəsi aldıqdan sonra təzədən Bakıya qayıtmışdır.

1984-1989-cu illərdə Bakı şəhər Nəsimi RPK-nin birinci katibi vəzifəsində işləmişdir.

1989-cu ildə Naxçıvan MR Nazirlər Sovetinin sədri təyin edilmiş, iki il sonra MR Ali Məclisinin sədri, az sonra Vilayət PK-nin birinci katibi seçilmişdir.

Görkəmli dövlət xadimi A.Cəlilov 1991-ci ildə yenidən Ali Sovetin deputatı seçilmiş və Milli siyasət və millətlərarası münasibətlər daimi komissiyasına rəhbərlik etmişdir.

1992-ci ildə Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini seçilmiş, ömrünün sonuna qədər bu vəzifədə çalışmışdır.

A.Cəlilov 1994-cü ildə Qara Dəniz İqtisadi Əməkdaşlıq Parlamenti Baş Assambleyasının 3-cü sessiyasında 11 dövlətin təmsil olunduğu bu təşkilatın vitse-prezidenti seçilmişdi.

1994-cü ilin sentyabrında görkəmli dövlət xadimi A.Cəlilov terror aktının qurbanı olmuşdur.

NOVRUZKƏND (YEDDİBULAQ, YUXARI NOVRUZLU)

Gərnibasar mahalının düzənlik hissəsində, Qaraviran kəndi tərəfdə, Gərni çayının kənarında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Qırxbulaq nahiyəsinin **Novruzkənd kəndi** kimi qeydə alınmış, kəndin Qaraviran kəndi tərəfdə yerləşdiyi, ikinci adının **Yeddibulaq** olması da həmin mənbədə göstərilmişdir. Kənd **Əli Həmzə oğlu** adlı şəxsin timarı olmuş və bu timar-kənddən dövlət müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürmüşdür.

Kəndin adının **Novruz** şəxs adından yaranmasını ehtimal etmək olar.

Sonralar kənd **Novruzlu** adlanmış, Aşağı Novruzlu kəndindən fərqləndirmək üçün **Yuxarı Novruzlu** kimi də çağırılmışdır.

NOVRUZLU (MUSAHACI, AŞAĞI NOVRUZLU)

Gərnibasar mahalının düzənlik hissəsində, Gərni çayının sol tərəfində Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən qərbdə, Araz çayı ilə İrəvan-Naxçıvan-Culfa avtomobil yolunun arasında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1828-1829-cu illərdə kəndə İrandan xeyli erməni köçürülüb gətirilmiş və həmin vaxtdan 1948-ci ilə qədər kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadıqları qarışıq kənd olmuşdur. 1948-ci ildə kəndin bütün azərbaycanlı əhalisi deportasiya olunmuş və kənd ləğv edilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) və "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Novruzlu kəndi** kimi qeydə alınmış, üstəlik, ikinci mənbədə kəndin həm də **Musahacı** adını daşıdığı və dövlətin müxtəlif vergilər şəklində kənddən ildə 5.000 ağça gəlir götürdüyü qeyd olunmuşdur.

Novruzlu kənd adının **Novruz** şəxs və ya nəsil adından törədiyini ehtimal etmək olar. XVIII yüzildə İrəvan əyalətinin Maku nahiyəsində Novruz, Qırxbulaq nahiyəsində Novruzkənd, İqdır nahiyəsində Novruzlu adı kəndlər qeydə alınmışdır. Zəngəzur mahalında (Qafan rayonunda) da Novruzlu adlı kənd mövcud olmuşdur. Orta yüzillərdə Şərqi Türkiyədə isə Novruz kəndi qeydə alınmışdır.

İ.Şopendə (1832) Gərnibasar mahalının **Novruzlu** kəndində cəmi 1 təsərrüfatda 7 nəfər (4 kişi, 3 qadın) Azər türkü, 38 təsərrüfatda 214 nəfər (118 kişi, 96 qadın) İrandan köçürülüb gətirilmiş erməni siyahıya alınmışdır. Bu fakt özü də təsdiq edir ki, İrəvan xanlığının ruslar tərəfindən işğalı zamanı bu azərbaycanlı kəndi də soyqırımının qurbanı olmuşdur.

Az sonra kəndin qaçqın düşmüş əhalisinin az bir hissəsi geri qayıtmış, 1873-cü ilin statikasında üç yazılış formasında (**Navruzlu//Nauruzlu//Novruzlu**) qeyd olunan kənd mülkədar kəndi kimi verilmiş və kənddə 11 təsərrüfatda 115 nəfər (67 kişi, 48 qadın) Azər türkünün, 117 təsərrüfatda 827 nəfər (431 kişi, 396

qadın) erməninin yaşadığı göstərilmişdir.

Bundan əlavə, Novruzlu kəndindən çıxan azəri ailələrinin Millidərə bölgəsinə köçərək, buradakı Xaraba Kotanlı kəndində məskunlaşdıqları da mənbələrdə qeyd olunmuşdur. 1886-cı ildə kənddə 17 təsərrüfatda 158 nəfər (92 kişi, 66 qadın) Azər türkü, 136 təsərrüfatda 1.002 nəfər (501 kişi, 501 qadın) erməni yaşamışdır.

Həmin vaxt Novruzlu kəndinin Əyricə yaylağında, kənddən 45 verstlik məsafədə, 251 desyatin ərazini əhatə edən **Ağbulaqyurd** və **Dərəyurd** adlı yurd yerləri olmuşdur. Kənd camaatı bu yaylaqdan qədimdən istifadə etmişdir.

1897-ci ildə kənddə yaşayanların nisbəti 180 nəfər azərbaycanlı, 1.092 nəfər erməni şəklində dəyişmiş, 1905-ci ildə kənddə yaşayan azərbaycanlıların sayı 231 nəfər, 1914-cü ildə 243 nəfər olmuşdur.

1918-ci ilin əvvəllərində azərbaycanlıların soyqırımı zamanı Novruzlu kənd camaatı da böyük itkilər vermiş, erməni silahlı quldur dəstələrinin aramsız hücumları qarşısında duruş gətirə bilməyərək kəndi tərk edib, Türkiyəyə, İrana pənah aparmışlar. Lakin kəndin erməni əhalisi də Türkiyə sərhədindəki bu kənddə qalıb yaşamağa özlərində cəsarət tapmamış, tədricən çəkilib başqa kəndlərə getmişlər.

Bölgədə Sovet hakimiyyətinin qurulması ilə bağlı kəndin sağ qalmış azərbaycanlı qaçqın əhalisinin bir hissəsi vətənə qayıda bilmiş və 1931-ci ildə kənddə yaşayan azərbaycanlıların sayı 205 nəfərə qədər artmışdır.

Lakin 1948-ci ildə kəndin bütün türk-müsəlman əhalisi zorla Azərbaycana – indiki Ağstafa rayonu ərazisinə deportasiya olunmuşlar və Novruzlu kəndi elə o vaxtdan da xaraba qalmışdır.

OĞURBƏYLİ (UĞURBƏYLİ)

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 3 km şimal-qərbdə, Gərni çayının sol tərəfində, çaydan ayrılan su arxının kənarında, İrəvan-Naxçıvan-Culfa avtomobil yolunun üstündə kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1828-1829-cu illərdə İrandan köçürülüb gətirilmiş ermənilər də kənddə yerləşdirilmiş və kənd azərilərlə ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Aralıq nahiyəsinin **Oğurviranı məzrəsi,** "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Gərni nahiyəsinin **Uğurbəyli kəndi** kimi qeydə alınmış, ikinci mənbədə kəndin Dəlilər kəndi yaxınlığında yerləşdiyi, dölətin müxtəlif vergilər şəklində kənddən ildə 6.500 ağça gəlir götürdüyü də göstərilmişdir.

İ.Şopendə (1832) və sonrakı mənbələrdə (1873, 1886...) kəndin adı **Oğurbəyli** kimi yazıya alınmışdır.

Kənd adının etimologiyası ilə bağlı mövcud fikrə görə, toponimin əsli **Uğurbəylidir** və "XIX əsrin ortalarında Uğurbəy adlı bir nəfərə mənsub maldar ailələrin məskunlaşması nəticəsində yaranmışdır" (B.Budaqov, Q.Qeybullayev). Lakin kəndin adının hələ XVI və XVIII yüzilə aid mənbələrdə çəkilməsi yuxarıdakı mülahizənin yanlışlığını ortaya qoyur. XVI yüzilə aid yuxarıdakı mənbədə kəndin adının Oğurviranı kimi verilməsi isə onun daha qədimlərdən mövcudluğu fikrini irəli sürməyə əsas verir. Əslində də İç Oğuza daxil olan İrəvan çuxurunun (Ağrıdağ vadisinin) bir bölgəsi kimi, Gərnibasar mahalı ərazisində belə bir kəndin mövcudluğu heç bir təəccüb doğurmamalıdır. Bizcə, bu toponim **Oğuz//Uğuz** bəylərinin (**r-z** əvəzlənməsi türk dillərində ənənəvi bir prosesdir) adını daşıyır və bölgədəki ən qədim kəndlərdən biridir.

1831-ci ildə Gərnibasar mahalının **Oğurbəyli kənində** 13 təsərrüfatda 87 nəfər (46 kişi, 41 qadın) Azər türkü, 31 təsərrüfatda 145 nəfər (80 kişi, 65 qadın) 1828-1829-cu illərdə İranın Xoy və Salmas vilayətlərindən köçürülüb gətirilmiş erməni ya-

şamışdır.

1873-cü ilin statistikasında kəndin mülkədar kəndi olduğu və kənddə 16 təsərrüfatda 104 nəfər (56 kişi, 48 qadın) Azər türkünün, 55 təsərrüfatda 349 nəfər (178 kişi, 171 qadın) ermənin yaşadığı qeyd edilmişdir.

1886-cı ilin statistikasında kənddə demoqrafik vəziyyətin aşağıdakı kimi olduğunu görürük: 19 təsərrüfatda 113 nəfər (66 kişi, 47 qadın) Azər türkü, 65 təsərrüfatda 337 nəfər (166 kişi, 171 qadın) erməni.

Kənddə 1897-ci ildə 110 nəfər, 1905-ci ildə 124 nəfər, 1914-cü ildə 107 nəfər Azər türkü yaşamışdır.

1918-ci ildə kəndin yerli əhalisi – Azər türkləri erməni millətçiləri tərəfindən soyqırımına məruz qalaraq doğma yurdu tərk etməyə məcbur edilmişlər.

Sovet dövründə tək-tək ailələr geri qayıda bilmiş və 1931-ci ildə kənddə cəmi 25 nəfər azərbaycanlı qeydə alınmışdır ki, onlar da az sonra sıxışdırılıb kənddən çıxarılmışlar.

Kəndin Oğurbəyli adı 1945-ci il avqustun 20-də dəyişdirilərək **Berkanuş** qoyulmuşdur.

PİRİ

Gərnibasar mahalının düzənlik hissəsində, Dəlilər kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Karbi nahiyəsi tərkibində **Piri kəndi,** "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Gərni nahiyəsində Dəlilər kəndi yaxınlığında **Piri kəndi** kimi qeydə alınmış, kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 9.000 ağça gəlir götürdüyü göstərilmişdir.

Sonrakı mənbələrdə kəndin adına rast gəlinməməsi onun 1826-1829-cu illərdə Rusiya-İran, Rusiya-Türkiyə müharibələri zamanı böyük dağıntılara məruz qalmasına və bir kənd kimi ləğv olunmasına dəlalət edir.

İlk baxışdaca toponimin **pir** anlamında olmasını söyləmək olar. Lakin "İrəvan əyalətinin müfəssəl dəftərində (1590) Vedi nahiyəsində Pirilər kənd adının mövcudluğu toponimin həm də etnonim səciyyəsindən xəbər verir.

Yeri gəlmişkən, vaxtilə Azərbaycan ərazisində, xüsusilə Gəncəbasarda Pirəli türk tayfasının yaşadığı da mənbələrdə qeydə alınmışdır. Qəbələ rayonundakı Böyük Pirəli, Kiçik Pirəli, Qərbi Azərbaycanın Vedi rayonundakı Pirəli (Birəli) kəndləri də, çox güman ki, həmin tayfanın adını daşıyır.

Pir komponentli toponimlərin yayılma arealı, bu tipli toponimlərin etimologiyası barədə "Qərbi Azərbaycan oncildliyinin 1-ci cildində Birəli (Pirəli) kəndi haqqındakı oçerkdə daha ətraflı bəhs etmişik.

SAATLI

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 8-10 km şimal-qərbdə, Sabunçu və Sınıqkörpü kəndləri yaxınlığında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Saatlı məzrəsi** kimi qeydə alınmış, onun Sınıqkörpü kəndi ilə birlikdə **Əli** adlı şəxsin timarı olduğu, iki kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 4.000 ağça gəlir götürdüyü də mənbədə göstərilmişdir.

Həmin mənbədə Saatlı, Sabunçu və Sınıqkörpü kəndlərinin hər üçünün Əli adlı şəxsin timarı olması, Saatlı və Sınıqkörpü kəndlərinin illik gəlirinin icmal dəftərinə bir yerdə daxil edilməsi və nəhayət, Sabunçu kəndinin Saatlı Sabunçu, yəni Saatlı yaxınlığında Sabunçu kəndi kimi qeydə alınması söyləməyə əsas verir ki, bu üç kənd bir-birinin yaxınlığında yerləşmişdir.

1728-ci ilə aid mənbədə kəndin adının məzrə kimi verilməsi, sonrakı mənbələrdə isə qeydə alınmaması bu qədim kəndin hələ o vaxtlardan tarix səhnəsindən silinməsindən xəbər verir.

Saatlı toponimi Bütöv Azərbaycan, o cümlədən Qərbi Azərbaycan ərazisində geniş yayılmışdır. Azəobaycan Respublikasının rayonlarından biri və həmin rayonun mərkəzi bu gün də Saatlı adlanır. Vaxtilə İrəvan xanlığının 15 mahalından biri də Saatlı adlanmışdır. Bundan əlavə, XVI-XVIII yüzillərdə İrəvan əyalətinin Abnik və Karbi nahiyələrində Saat, Üçkilsə və Gərni nahiyələrində Saatlı kəndləri mövcud olmuşdur.

Saat, Saatlı toponimləri əslində ilkin variantlarında **Sakat, Sakatlı** şəklində olmuş, Cənubi Qafqazda qədimdən məskunlaşan **Sak** türklərinin adını bildirməklə etnonimik səciyyə daşımışdır. Sonralar İrəvan çuxurunun – Arpaçayın aşağı axarı və Arazın sol sahili **Çuxur-Səəd** (**Səəd** əslində **Saad//Sakat** adının ərəb dilinin xüsusiyyətlərinə uyğun tələffüz formasıdır), burada yaradılan ərazi-inzibati vahid **Çuxur-Səəd əmirliyi** və **Çuxur-Səəd bəylərbəyliyi** adlandırılmışdır. Maraqlıdır ki, erməni-hay mənbələri bu yerin adını Çuxur-Səəd şəklində yox, məhz **Sakatın ölkəsi** ("Yerkrin Sakatu"), **Sakatın çuxuru** (Sakata pos) kimi yazırlar. Sonrlar, göründüyü kimi, Sakat//Sakatlı etnonimi Saat// Saatlı şəklinə düşmüş, günümüzə qədər gəlib çıxmışdır.

SABUNÇU (ŞEYXZADƏLİ, ŞAHZADƏ ƏLİ)

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 9 km şimal-qərbdə, Zəngi çayının sol, Gərni çayının sağ tərəfində, Gərni çayından ayrılan su arxının üstündə kənd.

1948-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1948-1949-cu illərdə kəndin bütün türk-müsəlman əhalisi Azərbaycana deportasiya olunmuş və kənddə xaricdən gəlmə ermənilər yerləşdirilmişlər.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin **Şeyxzadəli kəndi** (həmin mənbədə Karbi nahiyəsində də Şeyxzadə qışlağı adlı bir kənd qeydə alınıb), "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Saatlı Sabunçu kəndi** (yəni Saatlı yaxınlığında Sabunçu kəndi), İ.Şopendə (1832) Gərnibasar mahalının **Şeyxzadəli kəndi** kimi qeydə alınmışdır. 1873-cü ilin statistikasında kəndin adı **Sabunçu** kimi verilsə də, onun ikinci adının **Şahzadə Əli Sabunçu** olduğu göstərilmişdir.

1886-cı ilin statistikasında isə Sabunçu kəndinin ikinci adı **Şahzadə Əli** kimi yazıya alınmışdır.

Göründüyü kimi, kənd müxtəlif vaxtlarda müxtəlif adlarla tanınmışdır. Əslində, bu adlar eyni vaxtda mövcud olmuşdur. Kənd gah sahibinin adı ilə **Şeyxzadə** (və ya **Şeyxoğlu**) **Əli//Şahzadə Əli,** gah da buradakı əhalinin etnik adı və ya peşə fəaliyyəti ilə **Sabunçu** kimi yazıya alınmışdır. Kəndin yanındakı Saatlı məzrəsinin və Sınıqkörpü kəndinin də **Əli** adlı şəxsin timarı olması faktı Sabunçu kəndinin də həmin şəxsin adı ilə **Şeyxzadəli** adlanmasını təsdiq edir.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 8.000 ağça gəlir götürdüyü göstərilmişdir.

1831-ci ildə kənddə 61 təsərrüfatda 474 nəfər (250 kişi, 224 qadın) Azər türkü yaşamışdır. Bundan əlavə həmin mənbədə İ.Şopen Şeyxzadəli kəndi ilə bağlı belə bir əlavə də etmişdir: Gərnibasar mahalında Şeyxzadəli kəndinin əhalisi – 474 nəfər sabun istehsalı ilə məşğuldurlar, onu kənd-kənd gəzdirib satırlar və ya gündəlik tələbat mallarına dəyişirlər. İ.Şopenin bu məlumatı kənd camaatının peşə fəaliyyəti ilə bağlı dəyərli məlumat versə də və kəndin Sabunçu adının məhz həmin fəaliyyətlə bağlı meydana çıxması ehtimalını doğursa da, xatırlatmağı özümüzə borc bilirik

ki, türk mənşəli **Sabunçu** tayfası bütün Cənubi Qafqazda, o cümlədən Qərbi Azərbaycanda yayılmış və buranın toponimikasında öz izlərini buraxmışdır. Məsələn, vaxtilə Karbi, Şirakel, Xınzirək nahiyələrində də Sabunçu kəndləri qeydə alınmışdır. XVI yüzildə Gəncə sancağının Kürəkbasan nahiyəsində Sarı-Sabunçu eli, XVIII yüzildə Tiflis əyalətinin Dəmirçi Həsənli nahiyəsində Sarı Sabunçu etnonimi, XIX yüzildə Qars əyalətinin Kağızman dairəsində Sabunçu kəndi mövcud olmuşdur. Abşeron rayonundakı Sabunçu kənd adını, Xanlar rayonunun Fatılı kəndi yaxınlığındakı Sabunçu dərəsi, Qax rayonunun Qıpçaq kəndi ərazisindəki Sabunçu arxı və Sabunçu kənd xarabalığı adlarını da bura əlavə etmək olar. Vaxtilə Qərbi Azərbaycanınn Talın rayonunda digər adı Kotanlı olan Sabançı kəndi də mövcud olmuşdur.

1873-cü ilin statistikasında Gərnibasar mahalının mülkədar kəndi kimi verilən **Sabunçu kəndində** 171 təsərrüfatda 951 nəfər (515 kiş, 436 qadın) Azər türkü və 2 məscid qeydə alınmışdır.

1886-cı ildə kənddə 185 təsərrüfatda 1.050 nəfər (582 kişi, 468 qadın), 1897-ci ildə 1.000 nəfər, 1905-ci ildə 1.379 nəfər, 1914-cü ildə 1.537 nəfər Azər türkü yaşamışdır.

Sabunçu kəndinin **Ağdağ** yaylağında, kənddən 55 verst aralıda, 292 desyatin ərazini əhatə edən **Qondərəyurd** adlı yurd yeri olmuş, həmin yaylaqdan kənd camaatı qədimdən istifadə etmişdir.

1918-ci ildə bölgədə türk-müsəlman əhalinin növbəti soyqırımı zamanı kənd erməni quldur dəstələrinin vəhşi hücumuna məruz qalmış, dağıdılmış, talan edilmiş, əhalinin bir hissəsi qətlə yetirilmiş, sağ qalanlar canlarını qurtarıb, Arazın o tayına – İrana, Türkiyəyə mühacirət etmişlər.

Bölgədə Sovet hakimiyyəti qurulduqdan, daşnak qüvvələri darmadağın edildikdən sonra kəndin qaçqın əhalisindən 219 nəfər geri qayıtmışdır. Onlar kəndi yenidən bərpa etmiş, özlərinə ev-eşik düzəltmişlər. Kənd əhalisinin sayı 1926-cı ildə 285 nəfərə, 1931-ci ildə 319 nəfərə çatmışdır.

Lakin 1948-1953-cü illər deportasiyası Sabunçu kəndinin də başı üstünü qara bulud kimi almış, kəndin bütün əhalisi zorla Azərbaycana köçürülmüş, onların hazır evlərində xaricdən gəlmə ermənilər yerləşdirilmişlər.

1978-ci il yanvarın 25-də kəndin Sabunçu adı dəyişdirilərək **Araksavan** qoyulmuşdur.

ŞƏFİABAD (SAKİ QIŞLAĞI, ŞAKİABAD)

Gərnibasar mahalında, Gödək Buzavand (Qırx Buzavand) kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin **Saki qışlağı** (digər adı **Qara İvad qışlağı**), "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Dehgedeyi-Şakiabad** kəndi, İ.Şopendə (1832) Gərnibasar mahalının **Şəfiabad** kəndi kimi qeydə alınmışdır.

Göründüyü kimi, toponimin əsasında Qərbi Azərbaycan ərazisində miladdan əvvəl məskunlaşıb, burada özlərinin padşahlığını – Sak (Aşkenaz, İşquz, İç Oğuz) çarlığını yaradan **Sak** türklərinin adı dayanır. İlkin variantında **Saki qışlağı** kimi mövcud olan yaşayış məntəqəsi sonradan **Dehgedeyi Şakiabad** kəndi (**Deh** – farsca **kənd, Dehgedeyi-Şakiabad – Gödək kəndi yanında Şakiabad kəndi**) şəklinə düşmüşdür. Doğrudan da, 1728-ci ilə aid icmal dəftərində Dehgedeyi-Şakiabad kəndinin Gödək Buzavand kəndi yanında yerləşdiyini görürük. Yeri gəlmişkən kəndin **Əli** adlı şəxsin timarı olduğu, bu kənd-timardan müxtəlif vergilər şəklində dövlətin ildə 3.000 ağça gəlir götürdüyü də həmin mənbədə göstərilmişdir.

Artıq XIX yüzilin əvvəllərinə doğru kəndin adı **Sakiabad-Şakiabad-Şəkiabad-Şəfiabad** şəklində deformasiyaya uğramış və İ.Şopen (1832) onu 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələrindən sonra Gərnibasar mahalı ərazisində xaraba kəndlər siyahısına daxil etmişdir.

Sonrakı mənbələrdə kəndin adına bir daha rast gəlmirik.

ŞOTULKƏND (ŞOTURKƏND)

Gərnibasar mahalının dağlıq hissəsində, Çatma kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

D.Paqirevin "Qafqazın beşverstlik xəritəsinin əlifba göstəricisi"ndə (1913) İrəvan qəzasında **Şuturkənd** adı ilə qeydə alınmışdır. Mənbələrdə həm də **Şotulkənd//Şoturkənd** adları ilə verilmişdir. Lakin kəndin adının hər üç variantı – Şotulkənd//Şoturkənd//Şuturkənd **Şato//Şadı** türk tayfa adını qoruyub saxlamışdır. Şotulkənd, yəni **"Şato elinin kəndi".**

1897-ci ildə kənddə 148 nəfər, 1905-ci ildə 353 nəfər, 1914-cü ildə 388 nəfər Azər türkü yaşamışdır.

1918-ci ildə erməni daşnaklarının Millidərə bölgəsinə vəhşi hücumları nəticəsində kənd yerlə-yeksan edilmiş, əhalisinin bir hissəsi qəddərcasına qətlə yetirilmiş, sağ qalanlar işgəncələrlə qovulmuşlar.

Sonralar kənd bir daha bərpa olunmamış və elə o vaxtdan da xaraba qalmışdır. Evlərin uçuqları, qəbiristanlığın izləri son illərə qədər Çatma kəndinin xarabalıqları yaxınlığında qalmaqda idi.

TAMAMLI

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 4-6 km şimal-qərbdə, Gərni çayının sağ tərəfində, çaydan ayrılan su arxının kənarında, İrəvan-Naxçıvan-Culfa avtomobil yolunun üstündə kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1828-1829-cu illərdə kəndə İrandan köçürülüb gətirilmiş ermənilər də yerləşdirilmiş və o vaxtdan 1918-ci ilə qədər kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1918-ci ildə azərbaycanlı əhali qovulub çıxarılmış və kənd bütünlüklə ermənileşdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) və "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Tamamlı kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə kəndin Toğanşahlı kəndi yaxınlığında yerləşdiyi, **Mustafa** adlı şəxsin timarı olduğu və bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 4.100 ağça gəlir götürdüyü də qeyd edilmişdir.

Tamamlı oykoniminin bu kəndin əsasını qoyan nəslin adından yaranması ehtimal olunur (B.Budaqov, Q.Qeybullayev; S.Mirmahmudrva).

1831-ci ildə Gərnibasar mahalının **Tamamlı kəndində** 16 təsərrüfatda 81 nəfər (41 kişi, 40 qadın) İrandan köçürülüb gətirilmiş erməni siyahıya alınmışdır. Həmin siyahıyaalmada kənddə bir nəfər də yerli əhalinin qeydə alınmaması təsdiq edir ki, əslən azərbaycanlı kəndi olan Tamamlı 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalmış, kəndin əsl sakinləri kəndi tərk etməyə məcbur olmuş və kənddə gəlmə ermənilər yerləşdirilmişlər.

Az sonra kəndin qaçqın Azərbaycanlı əhalisindən bir neçə ailə doğma yurda qayıtmış və 1873-cü ilin statitikasında kənd mülkədar kəndi kimi qeydə alınmış və kənddə 3 təsərrüfatda 24 nəfər (11 kişi, 13 qadın) Azər türkü, 41 təsərrüfatda 285 nəfər (140 kişi, 145 qadın) erməni yaşadığı göstərilmişdir.

1886-cı ildə kənd əhalisinin sayı 3 təsərrüfatda 19 nəfər (8 kişi, 11 qadın) Azər türküdən, 49 təsərrüfatda 325 nəfər (186

kişi, 139 qadın) ermənidən ibarət olmuşdur.

1905-ci ildə kənddə 27 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci ildə erməni-daşnak quldur dəstələri tərəfindən bölgədə həyata keçirilən azərbaycanlıların soyqırımı zamanı kənd azərbaycanlı əhalidən təmizlənmiş və tamamilə ermənileşdirilmişdir.

Sovet dövründə ermənileşdirilmiş Tamamlı kəndi ilə yaxınlıqdakı Qarahəmzəli kəndi birləşdirilmiş və birləşmiş kənd **Burastan** adlandırılmışdır.

TAYTAN (TANTAQ, AĞACƏRİ)

Gərnibasar mahalının düzənlik hissəsində kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Gərni nahiyəsinin **Ağacəri,** "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Gərni nahiyəsinin **Tantaq kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə kəndin digər adının **Ağacəri** kimi verilməsi bu ilkin adın tədricən dövriyyədən çıxması ilə bağlı idi. Belə ki, artıq İ.Şopendə (1832) kəndin Ağacəri adı unudulmuş və o, ancaq bir adla – **Taytan** adı ilə Gərnibasar mahalının xaraba kəndləri sırasına daxil edilmişdir.

Sonrakı mənbələrdə Gərnibasar mahalı ərazisində belə bir kənd adına rast gəlməməyimiz və 1873-cı ilin statistikasında eyni adlı yeni kəndin Vedibasar mahalının Böyük Vedi kəndi yanında qeydə alınması söyləməyə əsas verir ki, 1831-ci ildən sonra Gərnibasar mahalı ərazisindəki Taytan kəndi bir daha bərpa olunmamış, xaraba qalmış, kəndin əhalisi isə köçüb daha təhlükəsiz yerdə – Vedibasar mahalı ərazisində Taytan adlı yeni kənd salmışlar. Yeri gəlmişkən xatırladırıq ki, XIX yüzilin ortalarına qədər Vedibasar mahalı ərazisində də Taytan adlı kənd qeydə alınmamışdır.

Kəndin ilkin – **Ağacəri** adının Səlcuq oğuzlarının **Ağacəri** tayfasının adını daşıması ehtimal olunur (B.Budaqov, Q.Qeybullayev). Yeri gəlmişkən, professor F.Ağasıoğlu hələ eramızın VI-VII yüzillərində Xəzərlərin ətrafında birləşən türk boyları sırasında Sakat və Hunlardan qalan tayfalardan biri kimi, **Ağacəri** tayfasının da adını çəkir ("Azər xalqı", səh.30) və etnonimin mənşəyini belə izah edir: "Qədim türklər çay yaxasında yaşayanları **subar**, dağda olanları **dağlı**, meşəli bölgədə olanları **meşəri**, **ağacəri** adlandırırdılar" (yenə orada, səh.91). Alimin fikrincə, Azərbaycanda xeyli toponimlərdə izi qalan, Saqat boylarının bir tirəsi olan Ağacəri boyu qaynaqlarda Hun boylarının içindəki **skit tayfası** kimi xatırlanır.

Azərbaycan Respublikasının Tovuz rayonunla Ağacəridağ adlı dağ mövcuddur.

"Qızılbaşlar tarixi" kitabında (XVII yüzil) Qızılbaş tayfaları sırasında **Ağacəri** tayfasının da adı çəkilmiş və bu tayfadan **Əli bəy** adlı birisinin Cahanşah (Qaraqoyunlu) zamanında böyük əmir olduğu da qeyd edilmişdir.

TƏPƏBAŞI

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən şimalda, Gərni çayının sol tərəfində, çaydan ayrılan su arxının kənarında, Mehrab kəndinin yanında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1828-1829-cu illərdə kəndə İrandan köçürülüb gətirilmiş ermənilər də yerləşdirilmiş və o vaxtdan XIX yüzilin ortalarına qədər kənddə azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar. Sonuncu tarixdən etibarən tək-tək azərbaycanlılar da sıxışdırılıb çıxarılmış və kənd tamamilə erməniləşdirilmişdir.

İ.Şopendə (1832) Gərnibasar mahalının **Təpəbaşı kəndi,** 1873-cü və 1886 cı illərin statikalarında **Mehrab Təpəbaşı kəndi** (yəni **Mehrab kəndi yaxınlığında Təpəbaşı kəndi**) kimi qeydə alınmışdır (sonuncu mənbələrdə Təpəbaşı kəndi yaxınlığında ayrıca Mehrablı kəndində də bəhs olunmuşdur).

D.Paqirevin "Qafqazın beşverstlik xəritəsinin əlifba göstərici"ndə (1913) **Mehrab Təpəbaşı** İrəvan qəzasında dağ adı kimi qeydə alınmışdır. Əslində dağın adı **Təpəbaşıdır** və **Təpəbaşı kəndi** də həmin dağ-təpədə salındığı üçün bu adı almışdır.

1831-ci ildə kənddə cəmi 1 təsərrüfatda 5 nəfər (3 kişi, 2 qadın) Azər türkü, 10 təsərrüfatda 40 nəfər (22 kişi, 18 qadın) İrandan köçürülüb gətirilmiş erməni qeydə alınmışdır. Kənddə yerli əhalidən – Azər türklərindən cəmi 1 ailənin siyahıya alınması kəndin 1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalmasından, əhalisinin kəndi tərk etməsindən xəbər verir. Boşalmış müsəlman evlərində isə gəlmə ermənilər yerləşdirilmişlər. Buna görə də 1873-cü ildə kənddə ancaq erməni əhali qeydə alınmışdır: 20 təsərrüfatda 123 nəfər (64 kişi, 59 qadın).

1886-cı ildə kənd əhalisinin sayı 25 təsərrüfatda 119 nəfərə (69 kişi, 50 qadın) çatmışdır.

XX yüzilin əvvəllərində kənd ləğv edilmiş və müstəqil bir kənd olaraq tarix səhnəsindən silinmişdir.

TOXANŞALI (TOĞANŞAHLI)

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 8 km şimal-qərbdə, Gərni çayının sağ tərəfində, çaydan ayrılan su arxının kənarında, İrəvan-Naxçıvan-Culfa avtomobil yolunun üstündə kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1828-1829-cu illərdə kənddə İrandan köçürülüb gətirilmiş ermənilər yerləşdirilmiş və o vaxtdan kənd ermənileşdirilmişdir.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Toğanşahlı kəndi** kimi qeydə alınmış, kəndin **Həsən** adlı şəxsin timarı olduğu və bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 6.000 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) Gərnibasar mahalının **Toxanşahlı** (rus yazılışında: **Toxan-şaqlı**) kəndi kimi verilmiş və kənddə 43 təsərrüfatda 176 nəfər (87 kişi, 89 qadın) 1828-1829-cu illərdə İrandan köçürülüb gətirilmiş ermənin yaşadığı göstərilmişdir. Kənddə ancaq gəlmə ermənilərin yaşaması bölgənin ruslar tərəfindən işğalı ilə bağlı kəndin yerli türk-müsəlman əhalisinin kəndi tərk etdiyini, Arazın o tayına, çox güman ki, Sürməli mahalının Toxanşahlı Qacar və Toxanşahlı Bayat kəndlərindəki soydaşlarına pənah apardıqlarını sübut edir.

Yeri gəlmişkən xatırladaq ki, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) də İqdır nahiyəsi ərazisində Yuxarı Toğanşahlı adlı kənd mövcud olmuşdur.

1873-cü ildən etibarən mənbələrdə kəndin adı **Toxanşalı** kimi verilmişdir. Həmin ildə kənddə 49 təsərrüfatda 375 nəfər (190 kişi, 185 qadın) erməni yaşamışdır.

1886-cı ildə kənd əhalisinin sayı 60 təsərrüfatda 404 nəfərə (218 kişi, 186 qadın) çatmışdır.

Kəndin Toxanşalı adı 1945-ci il avqustun 20-də dəyişdirilərək **Masis** qoyulmuşdur.

Kəndin ilkin və əsl adı **Toğanşahlı** olduğu üçün oykonimin etimoloji izahını da bu variant üzərində aparmaq lazımdır. Tədqiqatçıların (B.Budaqov, Q.Qeybullayev) fikrincə **Tokan** (əslində **Toğan**, yaxud **Tuqan**) tayfa adıdır, lakin bu tayfanın mənşəyi

və tarixi aydın deyil. Biz bu fikirlə razı deyilik. Azərbaycan ərazisində keçmişdə və indi dəfələrlə rast gəlinən (V yüzildə Albaniyanın Arsak bölgəsində Dib-Toqan kəndi, XIII yüzildə yenə orada Taqan kəndi, Gələbəcər rayonunda Toğanalı-su çayı, Xanlar rayonunda Toğanalı kəndi və s.) **Toğan** toponiminin türk mənşəli olması ilk baxışdaca aydındır.

Biz adın etimologiyasında iki varianta üstünlük veririk. Birincisi, belə geniş ərazidə yayılmış toponim, çox güman ki, heç olmasa məhdud ərazidə hakimiyyətdə olmuş bir toplumun nişanəsidir; bu mənada adı **Tuğlular,** yəni **tuğu** (**bayrağı,** deməli, **hakimiyyəti**) olanlar kimi yozmaq olar. Xatırla: Qarabağda Tuğ kəndi. İkincisi, toponim qıpçaqların **Tuk** tayfasının adını əks etdirə bilər. Yenə xatırla: XX yüzilin əvvəllərində Zəngəzurun Qafan rayonunda Tuqanlar kəndi. Əslində, hər iki etnonim eynimənşəlidir.

Toponimin ikinci komponenti (**şahlı**) ilə bağlı isə ehtimal etmək olar ki, **şahlı** komponentli bir çox toponimlərdə olduğu kimi, burada da **saklı//şaqlı** komponenti deformasiyaya uğramışdır.

TORPAQQALA (DVİN, QURBANQULU)

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 11 km şimal-şərqdə, Gərni çayının sol tərəfində, Gərni çayından ayrılan su arxının kənarında kənd.

1918-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. Sonralar kənddə İrandan və Türkiyədən gəlmə ermənilər də məskunlaşdırılmış və 1918-ci ildən 1948-ci ilə qədər kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1948-1949-cu illərdə kəndin türk-müsəlman əhalisi zorla Azərbaycana deportasiya olunmuş və kənd bütünlüklə erməniləşdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Gərni nahiyəsinin **Dvin kəndi** kimi qeydə alınmış və kəndin ikinci adının **Torpaqqala** olduğu göstərilmişdir.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə **Torpaqqala** Gərni nahiyəsinin **Qurbanqulu kəndinin** ikinci adı kimi verilmişdir. Kəndin ərazisinin xanlığın xass torpaqları olduğu və dövlətin həmin torpaqlardan müxtəlif vergilər şəklində ildə 11.000 ağça gəlir götürdüyü də həmin mənbədə qeyd edilmişdir.

İ.Şopendə (1832) Gərnibasar mahalının **Qurbanqulu kəndinin** ikinci adının **Torpaqqala** olduğu və kənddə 12 təsərrüfatda 40 nəfər (22 kişi, 18 qadın) Azər türkünün yaşadığı göstərilmişdir.

1873-cü ilin statistikasında isə kəndin əsl adı **Torpaqqala// Topraxqala** kimidir və **Qurbanqulu** (mənbədə **Qurbanqala**) burada artıq kəndin ikinci adı olaraq verilmişdir. Kənddə 40 təsərrüfatda 240 nəfər (125 kişi, 115 qadın) Azər türkü yaşamışdır. Kəndin ərazisində həmçinin möhrə qala xarabalıqları qeydə alınmışdır ki, bu da kəndin Torpaqqala adının haradan törədiyini aydın göstərir. Beləliklə, aydındır ki, kəndin ilkin adı **Dvin** olmuş, buradakı möhrə qala xarabalıqlarının adı ilə kənd tədricən həm də Torpaqqala adlanmış, kəndi mənsub olduğu mülkədarın adı ilə **Qurbanqulu** kimi də tanımışlar. Doğrudan da, 1873-cü ilin statistikasında kəndin mülkədar kəndi olması barədə qeyd var.

Kənd yerli tələffüzdə **Torpaxqala** kimi də yazıya alınmışdır.

1886-cı ildə **Torpaxqala** və **Qurbanqulu** kimi siyahıya alınan kənddə 49 təsərrüfatda 268 nəfər (145 kişi, 123 qadın),

1897-ci ildə 303 nəfər, 1905-ci ildə 415 nəfər, 1914-cü ildə 456 nəfər Azər türkü yaşamışdır.

1918-ci ildə erməni-daşnak təcavüzünə məruz qalan kənd dağıdılmış, yandırılmış, əhalisinin çox hissəsi vəhşicəsinə qətlə yetirilmiş, sağ qalanlar Türkiyəyə, İrana pənah aparmışlar. Kənddə isə Türkiyədən qaçıb gəlmiş ermənilər məskunlaşmışlar.

Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin qaçqın əhalisinin bir hissəsi geri qayıtmış, təzədən özlərinə ev-eşik düzəltməyə başlamışlar. 1922-ci ildə geri qayıdanların sayı 98 nəfər olmuş, 1931-ci ildə kənddə 197 nəfər azərbaycanlı qeydə alınmışdır. Sonuncu tarixdə kənddə siyahıya alınan ermənilər isə cəmi 22 nəfər olmuşlar.

Lakin 1948-1949-cu illərdə kəndin türk-müsəlman əhalisi zorla deportasiya olunaraq kəndin süni şəkildə erməniləşdirilməsi prosesi başa çatdırılmışdır. Kəndin Torpaqqala adı isə 1949-cu il dekabrın 1-də dəyişdirilərək **Hnaberd** (azərbaycanca **Qədimqala**) qoyulmuşdur.

* * *

Torpaqqala kəndi Gərnibasar mahalının 1940-cı illərə qədər sırf Azər türkləri yaşayan kəndlərindən idi. Kənd cənubdan Buzavand, şərqdən Ərdəşər, şimal-qərbdən Dvin və Təpəbaşı, cənub-qərbdən isə Ayaslı kəndləri ilə əhatə olunmuşdu.

Kəndin şimal-qərbində qədim qala-şəhər xarabalıqları qalmaqda idi. 1930-cu ildən etibarən erməni alimləri həmin qədim şəhər yerində arxeoloji qazıntılar aparmış, burada şəhər qalıqları, qədim qəbiristanlıq, qala divarları və s. aşkar olunmuşdur. O vaxtdan bu ərazi turist murşurutuna daxil edilmiş və bu qədim türk yurdu xarici turistlərə hay diyarı kimi təqdim edilməyə başlanmışdır.

Kənd 1905 və 1918-ci illərdə erməni daşnakları tərəfindən dəhşətli soyqırımına məruz qalmış, doğma kənddən didərgin salınan camaat 1905-ci ildə üç aydan, 1918-ci ildə isə üç ildən sonra geri qayıda bilmişlər. 1921-ci ildə geri qayıdan torpaqqalalılar kənddə bir dənə də olsun salamat tikili tapmamışlar, ermənilər hamısını söküb-talamış, od vurub yandırmışdılar. Camaat hər cür məhrumiyyətlərə qatlaşaraq təzədən kəndi bərpa etmiş, 1949-cu ilə qədər burada yaşamışlar.

1948-ci ilin sonlarında kəndin əsas hissəsi zorla Azərbaycana deportasiya olunaraq, Ucar rayonunda məskunlaşdırılmışdır.

Kənddəki Məmmədovlar nəslindən 7 ailə kənddən köçməkdən qəti şəkildə imtina etmiş, 7 ay burada yaşadıqdan sonra artıq onlara kənddə qalmağa imkan verilmədiyini görüb, 1949-cu ilin mayında Naxçıvanın Şərur rayonunun Maxta kəndinə köçməyə məcbur olmuşlar. Bir il sonra isə köçüb həmin rayonun Keşdaz kəndində məskunlaşmışlar. Bura köçən 7 ailə – **İsmayıl Mustafayevin, Ələviyyə Ələkbərovanın** (əri müharibədə həlak olmuşdu), **Canbağış Məmmədovun, Əbülfət Məmmədovun, Qulu Məmmədovun, Əmir Məmmədovun** və **Yusif Quliyevin** ailələri çoxalıb indi Keşdaz kəndində 25 ailə olmuşlar.


Keçmişdə Torpaqqala kəndinin geniş torpaq sahələri, sayılan adamları olmuşdur. 1921-ci ildə camaat kəndə qayıtdıqda kənd torpaqlarının kəndlilərə paylanması adı ilə bu torpaqların böyük hissəsi kənd camaatından alınaraq qonşu Dvin, Təpəbaşı, Ərdəşər kəndləri arasında bölüşdürülmüşdür. Sonradan adamların şikayəti ilə əlaqədar bu torpaqların bir hissəsi müvəqqəti qaytarılmış, lakin kolxozlaşma ilə əlaqədar yenidən kəndin mülkiyyətindən silinmişdir. 1940-cı illərdə kənd kolxozunun təxminən 20 hektar üzüm bağları, 20 hektar taxıl və tərəvəz tarlaları, 20 hektar ot-yem sahələri və s. olmuşdur.

Bundan əlavə, kəndə **Kəhriz** adlı dəmyə torpaqlar da təhkim edilmişdi ki, kənddə yaşayan 60 ailə bu torpaqlardan əkinçilik və maldarlıq üçün istifadə edirdi.

Torpaqqala kəndinin daimi yaylağı olmadığından, rayonun erməni rəhbərliyi tərəfindən isə kəndə ayrılan yurd yerinin həmişə erməni obalarının arasına salındığından camaat yaylaq mövsümünü əsasən qonşu azərbaycanlı kəndlərindəki qohum-əqrəbaları ilə keçirməyə üstünlük verirdilər.

Torpaqqala kəndindən rayon və respublika miqyaslı çoxlu şəxsiyyətlər çıxmışdır. **Orucəli Qulu oğlu Məmmədov** uzun müddət Naxçıvan MSSR Dövlət Plan Komitəsinin sədri, sonralar Naxçıvan şəhər partiya komitəsinin birinci katibi işləmişdir. Hazırda "Respublika" qəzetində çalışır.

Məmməd Abdulla oğlu Məmmədov 1953-1962-ci illərdə Şərurda RPK-də çalışmış, 1960-1962-ci illərdə isə RPK-nin ikinci katibi işləmişdir.



TEYMUR İSMAYIL OĞLU MƏMMƏDOV 1944-1950-ci illərdə hərbi xidmətdə olmuş, qayıdıb ali partiya təhsili almış, RPK-nin birinci katibi, partiya komitəsinin işçisi, kolxoz sədri və RİK sədrinin müavini vəzifələrində işləmişdir. Hazırda Şərur rayonunun Keşdaz kəndində yaşayır.

Rakif Əbülfət oğlu Məmmədov 1989-1994-cü illərdə Şərur rayonunda Konserv Zavodunun direktoru olmuşdur. Hazırda Bakıda yaşayır.

YAŞAR ƏKBƏR OĞLU ƏLƏKBƏROV



1940-cü ildə Torpaqqala kəndində anadan olmuşdur. **Atası Əkbər Şiralı oğlu** 1910-cu ildə Torpaqqala kəndində doğulmuş, 1930-cu illərdə İrəvanda ikiillik pedaqoji məktəbi bitirmiş, kənd sovetinin sədri, sonra kolxoz sədri olmuş, 1941-ci ildə Böyük Vətən müharibəsinə getmiş və qayıtmamışdır.

Ailələri 1949-cu ilin mayında Şərur rayonunun Maxta kəndinə deportasiya olunmuş, 1950-ci ildə isə qonşu Keşdaz kəndinə köçərək orada daimi məskunlaşmışlar.

Y.Ələkbərov 1965-ci ilə qədər kolxozda müxtəlif işlərdə çalışmış, 1965-ci ildə BDU-nun kitabxanaçılıq fakültəsinin qiyabisinə daxil olmuş, 1966-1980-ci illərdə Şərur rayon "İşıqlı yol" qəzetində korrektor, ədəbi işçi, baş ədəbi işçi və şöbə müdiri vəzifələrində işləmişdir.

1980-1998-ci illərdə Naxçıvan MR "Şərq qapısı" qəzetinin rayon üzrə xüsusi müxbiri olmuş, 1970-ci ildə BDU-nu bitirmiş, 1975-77-ci illərdə Azərbaycan Jurnalist Sənətkarlığı İnstitutunda təhsilini davam etdirmiş, 1968-ci ildə SSRİ Jurnalistlər İttifaqına daxil olmuş, 1997-ci ildə "Qızıl Qələm" mükafatı laureatı adına layiq görülmüşdür.

1992-ci ildə YAP Şərur rayon təşkilatının yaradıcılarından olmuş, 1993-1998-ci illərdə partayanın rayon təşkilatına rəhbərlik etmişdir.

1996-cı ildə Naxçıvan MR Ali Məclisinə deputat seçilmişdir. Hazırda "İrəvan" İctimai Birliyinin sədr müavini, "Qərbi Azərbaycan" qəzetinin təsisçisi və baş redaktorudur.

UZUNABDALLI

Gərnibasar mahalında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Uzunabdallı kəndi** kimi qeydə alınmışdır. Kəndin **Həsən Əli oğlu** adlı şəxsin timarı olduğu, bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürdüyü də həmin mənbədə göstərilmişdir.

Qərbi Azərbaycan ərazisində Uzun komponentli çoxlu toponimin mövcudluğu (Qırxbulaq nahiyəsində Uzunabad, İrəvan qəzasınla Uzunad, Karbi nahiyəsində Uzunbulaq və Uzunoba, Xınzirək nahiyəsində Uzunqışlaq, Yeni Bayazid qəzasında və Loru mahalında Uzunlar, İcevan rayonu ərazisində Uzuntala, Dərələyəz mahalında Uzunxaç kəndləri, Üçkilsə və Yeni Bayazid qəzalarında Uzungüney dağları və s.) onun etnonimik səciyyəsindən danışmağa əsas verir. Heç şübhəsiz, adın mənşəyində qədim **Uz** türk tayfasının adı (**Usun//Us-hun** tayfa adı da həmin kökdəndir) dayanır.

Bu tipli bəzi toponimlərdə **Ozan** sözünün **Uzun** variantını da nəzərdən qaçırmaq olmaz.

Yeri gəlmişkən, onu da xatırlatmağı vacib bilirik ki, qədim türk tayfalarından olun **Kolagirən** tayfasının tirələrindən biri də **Həsən Abdallı** adlanmışdır. Bu tayfanın Çölməkçi, Darğalı, Çikdamlı və s. tirələrinin adı ilə İrəvan çuxurunda kəndlərin mövcudluğu həmin tayfanın bu bölgədə sıx məskunlaşdığını təsdiqləyən tutarlı dəlildir. Buna görə də **Uzun//Usun//Ushun** adı ilə **Həsən** adı arasındakı səs oxşarlığı təsadüfi sayılmamalıdır.

YAXŞIXAN (QAZIBƏYLİ)

Gərnibasar mahalında, Canibəy kəndi yaxınlığında kənd.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Gərni nahiyəsinin **Yaxşıxan kəndi,** "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə həmin nahiyənin **Yaxşıcan kəndi** kimi qeydə alınmışdır. Üstəlik, ikinci mənbədə kəndin digər adının **Qazıbəyli** olduğu da qeyd olunmuşdur. Kənd **Mustafa** adlı şəxsin timarı olmuş və bu timar-kənddən dövlət müxtəlif vergilər şəklində ildə 9.000 ağça gəlir götürmüşdür.

Sonrakı mənbələrdə, xüsusilə İ.Şopendə (1832) kəndin adına rast gəlməməyimiz onun XVIII yüzilin ikinci yarısında tarix səhnəsindən silindiyini söyləməyə əsas verir.

Kəndin adının birinci variantında şəxs (**Yaxşı xan**), ikinci variantında (**Qazıbəyli**) isə nəsil adı bildirdiyini söyləyə bilərik.

YAMANCALI

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 11 km şimalda, Gərni çayının sol tərəfində, Gərni çayından ayrılan su arxının kənarında, İpəkli kəndi yaxınlığında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1828-1829-cu illərdə kəndə İrandan köçürülüb gətirilmiş ermənilər jerləşdirilsə də, az sonra onlar kəndi tərk etmiş və 1918-ci ilə qədər kənd yenə də sırf azərbaycanlı kəndi olmuşdur. Sonuncu tarixdə kəndə Türkijədən gəlmə erməni qaçqınları köçürülmüş və 1988-ci ilə qədər azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1988-ci ildə kəndin bütün azərbaycanlı əhalisi qovulub çıxarılmış və kənd ermənileşdirilmişdir.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **İnəkli (İpəkli** – Ə.Ə.) kəndi yaxınlığında **Yamançalı kəndi** kimi qeydə alınmış, dövlətin müxtəlif vergilər şəklində kənddən ildə 5.000 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) və bütün sonrakı mənbələrdə kəndin adı **Yamancalı** kimidir. Yamancalı toponiminin etimoloji izahı ilə bağlı dəqiq fikir yoxdur. Doğrudur, onu dilimizdəki, xüsusilə İrəvan dialektində geniş işlədilən **yamanca** (əsasən, iki mənada başa düşülür: 1. pis, yaman; 2. çox, olduqca) sözü ilə bağlamaq olar. Lakin bu, ancaq ehtimaldır. Toponimin nəsil adından yaranması fikri (S.Mirmahmudova) də mövcuddur.

1831-ci ildə kənddə 10 təsərrüfatda 44 nəfər (26 kişi, 18 qadın) Azər türkü, 23 təsərrüfatda 93 nəfər (53 kişi, 40 qadın) İrandan köçürülüb gətirilmiş erməni qeydə alınmışdır.

Lakin az sonra kəndin 1826-1829-cu illər müharibələrində qaçqın düşmüş yerli əhalisi geri dönmüş, kənddəki gəlmə ermənilər kəndi tərk etmiş və 1873-cü ilin statistikasında **Yamancalı** mülkədar kəndində 36 təsərrüfatda 214 nəfər (114 kişi, 100 qadın) Azər türkünün yaşadığı göstərilmişdir.

1886-cı ildə də kənddə ancaq Azər türkləri yaşamışlar: 40 təsərrüfatda 199 nəfər (117 kişi, 82 qadın).

Kənd əhalisinin sayı 1897-ci ildə 257 nəfərə, 1905-ci ildə 272

nəfərə, 1914-cü ildə 300 nəfərə çatmışdır.

Lakin 1918-ci il soyqırımı zamanı 107 təsərrüfatda 763 nəfər əhalinin sığındığı kənd erməni daşnakları tərəfindən dağıdılmış, əhalisinin bir hissəsi qılıncdan keçirilmiş, sağ qalanlar vəhşicəsinə qovulmuşlar.

Bölgədə Sovet hakimiyyətinin qurulması ilə əlaqədar kəndin qaçqın əhalisi doğma yurda qayıtmaq imkanı əldə etmiş və 1922-ci ildə onların az bir hissəsi, cəmi 53 nəfəri geri dönə bilmişdir. Lakin bu vaxt artıq kənddə 175 nəfər Türkiyənin Qars və Sürməli vilayətlərindən gəlmiş erməni qaçqını yerləşdirilmişdi.

1931-ci ildə kənddə yaşayan azərbaycanlıların sayı cəmi 66 nəfər, ermənilərin sayı isə 299 nəfər təşkil etmişdir.

1948-1953-cü illər deportasiyası zamanı kəndin bütün türk əhalisi zorla Azərbaycana köçürülmüş, lakin az sonra bəzi ailələr geri dönərək 1988-ci ilə qədər doğma kəndlərində yaşamışlar. 1988-ci il soyqırımı zamanı onlar da erməni millətçiliyinin qurbanı olmuş, doğma yurddan vəhşicəsinə qovulmuşlar.

Kəndin Yamancalı adı 1967-ci il mayın 25-də dəyişdirilərək **Dextsut** qoyulmuşdur.

YENİCƏ

Gərnibasar mahalının dağlıq hissəsində, Milli dərəsinin Xaçlı (Hacılı) kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinini icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Yenicə kəndi** kimi qeydə alınmışdır. Kəndin Gərni nahiyəsinin Xaçlı kəndi yaxınlığında yerləşdiyi və dövlətin müxtəlif vergilər şəklində kənddən ildə 4.000 ağça gəlir götürdüyü də həmin mənbədə göstərilmişdir.

Sonrakı mənbələrdə, xüsusilə İ.Şopendə (1832) kəndin adının çəkilməməsi onun XVIII yüzilin 2-ci yarısında tarix səhnəsindən silinməsini söyləməyə əsas verir.

Yenicə (bəzən **Yengicə**) toponimi, onun etimoloji izahı və yayılma arealı barədə bu kitabın Zəngibasar mahalının Yengicə kəndindən danışarkən ətraflı bəhs etmişşik.

YUXARI AĞBAŞ (AĞBAŞ, XARABA AĞBAŞ, KİÇİK AĞAMALI)

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 14 km şimalda, Gərni çayının dərədən çıxdığı yerdə, çayın sağ kənarında kənd.

XVIII jüzilin sonlarına qədər kənddə ancaq Azər türkləri, XVIII yüzilin sonlarından 1828-ci ilə qədər Azər türkləri ilə ermənilər yanaşı yaşamışlar. XIX yüzilin ortalarında kənd yenidən məskunlaşmış və 1918-ci ilə qədər kənddə yenə də ancaq Azər türkləri yaşamış, 1918-ci ildən etibarən İrandan və Türkiyədən gəlmə ermənilər də yerləşdirildiyindən həmin vaxtdan 1948-ci ilə qədər azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1948-1949-cu illərdə kəndin azərbaycanlı əhalisi deportasiya olunaraq kənd bütünlüklə ermənileşdirilmişdir.

Kəndin XIX yüzilin ortalarına qədərki tarixi, toponimin etimologiyası ilə bağlı elmi ədəbiyyatda mövcud olan fikir və özümüzün mülahizələrimiz barədə Aşağı Ağbaş oçerkində bəhs etdiyimizdən bir də təkrar etmirik.

Qədim Ağbaş kəndinin 1828-1829-cu illərdə doğma kənddən didərgin salınan əhalisi sonralar geri qayıdaraq köhnə yurd yerini bərpa etmiş, **Yuxarı Ağbaş kəndi** kimi mövcud olmuşdur. 1873-cü ilin statikasında Gərnibasar mahalının düzənlik hissəsində, Gərni çayının sağ kənarında yerləşdirilən **Yuxarı Ağbaş** kəndinin ikinci adının **Xaraba Ağbaş** olması da burada daha əvvəllər **Ağbaş** adlı kəndin mövcudluğuna tutarlı dəlildir.

1873-cü ildə kənddə 17 təsərrüfatda 91 nəfər (57 kişi, 34 qadın) Azər türkünün yaşadığı bu mülkədar kəndində, maraqlıdır ki, 1 kilsə-abidə də qeydə alınmışdır.

1886-cı ildə **Yuxarı Ağbaş kəndində** 21 təsərrüfatda 89 nəfər (53 kişi, 36 qadın) əhali yaşamışdır. Həmin vaxt kəndin yaxınlığında 330 desyatin ərazini əhatə edən **Şər-ağıl** adlı qışlaq yeri də olmuşdur.

Kənd əhalisinin sayı 1905-ci ildə 132 nəfərə, 1914-cü ildə 172 nəfərə çatmışdır.

1918-ci ildə Qərbi Azərbaycanda türk-müsəlman əhalinin

soyqırımı zamanı Yuxarı Ağbaş kəndi də ermənilərin vəhşi hücumlarına məruz qalmış, əhalinin bir hissəsi qətlə yetirilmiş, sağ qalanlar yurdundan qəddarcasına qovulmuşlar. Kənddə isə İrandan, Türkiyədən qaçıb gəlmiş ermənilər yerləşdirilmişlər.

Bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin əhalisi geri qayıtmaq imkanı qazanmış, 1922-ci ildə onların sayı 113 nəfər olmuşdur. Lakin elə həmin il kənddə artıq 160 nəfər gəlmə erməni yaşayırdı.

1931-ci ildə kənd əhalisinin nisbəti 89 nəfər azərbaycanlı, 303 nəfər erməni şəklində idi.


1948-1949-cu illər deportasiyası zamanı kəndin azərbaycanlı əhalisi zorla kənddən çıxarılmış, kəndin süni şəkildə ermənilərlə doldurulması başa çatdırılmışdır.

1949-cu il dekabrın 1-də kəndin Yuxarı Ağbaş adı dəyişdirilərək **Abovyan** qoyulmuşdur.

YUXARI DVİN (DVİN, AYSORU DVİNİ)

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 13 km şimal-şərqdə, Gərni çayının sol tərəfində, Dvin arxının kənarında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri, 1830-cu illərdən etibarən bir müddət azərbaycanlılarla aysorular yanaşı, sonra ancaq aysorular və qismən də ermənilər yaşamışlar.



Yuxarı Dvin kəndinin ümumi görünüşü

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Gərni nahiyəsində bir **Dvin** kəndi (ikinci adı **Torpaqqala** olmaqla), "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Gərni və Qırxbulaq nahiyələrində üç Dvin kəndi qeydə alınmışdır: Gərni nahiyəsində **Ağcaqışlaq kəndi yaxınlığında Dvin kəndi**, Qırxbulaq nahiyəsində **Hörüslü Dvin** və **Qaraviran kəndi tərəfdə Dvin** kəndləri. Yeri gəlmişkən, xatırladırıq ki, iki qonşu nahiyə (Gərni və Qırxbulaq) tərkibində qeydə alınan bu kəndlər hamısı bir-birinin yaxınlığında yerləşmiş və hamısında Azər türkləri yaşamışlar.

Ağcaqışlaq kəndinə daha yaxın məsafədə yerləşdiyinə görə Aysoru Dvini kəndinə Gərni nahiyəsindəki **"Ağcaqışlaq kəndi yaxındığında Dvin kəndi"** daha çox uyğun gəlir və xatırladırıq ki, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) bu kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 6.000 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) Gərnibasar mahalı ərazisində cəmi bir Dvin

(**Aşağı Düyün** – Ə.Ə.) kəndinin qeydə alınması isə bölgədəki Dvin kəndlərinin 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalması ilə əlaqədardır. Həmin mənbədə Dvin kəndində cəmi 15 təsərrüfatda 51 nəfər (32 kişi, 19 qadın) Azərbaycan türkü, 36 təsərrüfatda 132 nəfər (68 kişi, 64 qadın) İrandan köçürülüb gətirilmiş erməni siyahıya alınmışdır.

Az sonra Ağcaqışlaq kəndi yaxınlığındakı Dvin (Yuxarı Dvin) kəndi yenidən bərpa olunmuş və kənddə kəndin keçmiş sakinləri olan Azər türkləri ilə yanaşı, İrandan köçüb gəlmiş aysorular da məskunlaşmışlar. Tədricən kəndi yaxınlıqdakı Dvin (Aşağı Dvin) kəndindən fərqləndirmək üçün onu sakinlərinin adı ilə **Aysoru Dvini** adlandırmışlar. Sonrakı statistik məlumatlarda da o, **Aysoru Dvini** adı ilə qeydə alınmışdır.

Dvin toponiminin İrəvan çuxurunda. yaranma, Vedibasar və Gərnibasar mahalları ərazilərində yayılma tarixi, adın etimoloji izahı və s. ilə bağlı bu kitabın Aşağı Dvin kəndindən danışarkən ətraflı bəhs etdiyimizdən bir daha təkrara yol vermək istəmirik.

1873-cü ilin statikasında Gərnibasarın düzənlik hissəsində, Gərni çayının sol tərəfində **Dvin arxı** kənarında, İrəvan şəhərindən 25 verst aralıda yerləşdiyi göstərilən **Aysoru Dvini** kəndində 41 təsərrüfatda 278 nəfər (137 kişi, 141 qadın) aysoru əhali siyahıya alınmışdır.

1886-cı ilin statistikasında kəndin adı **Aysoru Dvini** kimi verilsə də, Dvin komponentinin **Düyün, Duvin** variantları da qeydə alınmış, kənddə 61 təsərrüfatda 324 nəfər (172 kişi, 152 qadın) aysoru, cəmi 2 təsərrüfatda 3 nəfər (2 kişi, 1 qadın) erməni yaşadığı göstərilmişdir.

Kəndin yaxınlığında 300 desyatin ərazini əhatə edən **Cillərağıl** adlı qışlaq yeri olmuşdur.

1886-cı ilə aid mənbədə İrəvan şəhər sakini **Ağacan Tağıyansov** adlı şəxsin kəndin kənarında **Cillər** adlı 8 desyatin ərazini hər ili 30,5 rubla olmaqla 1885-ci ildən icarəyə götürdüyü qeyd edilmişdir.

Kəndin Aysoru Dvini adı 1935-ci il yanvarın 3-də dəyişdirilərək **Yuxarı Dvin** (ermənicə: **Verin Dvin**) qoyulmuşdur.

YUXARI QUYLASAR (QUYLASAR)

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 11 km şimalda, Gərni çayının sağ kənarında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1828-1829-cu illərdə kəndə İrandan xeyli erməni köçürülüb gətirildiyindən həmin vaxtdan XX yüzilin əvvəllərinə qədər kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. XX yüzilin əvvəllərində kəndin bütün azərbaycanlı əhalisi sıxışdırılıb çıxarılmış, kənd ermənileşdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Gərni nahiyəsinin **Qoyluhasar kəndi** kimi qeydə alınmış, kəndin ikinci adının **Bicav** olduğu göstərilmişdir. Lakin görünür, dəftəri çapa hazırlayanlar Bicav sözünü aydın oxuya bilmədiklərindən bu addan sonra sual (?) işarəsi qoymuşlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə kənd Gərni nahiyəsinin **Yuxarı Quyuluhasar kəndi** kimi yazıya alınmışdır. Kəndin belə adlanması XVII yüzildə ondan bir qədər aşağıda həmin kənddən çıxan ailələr hesabına ikinci bir Quyululasar kəndinin yaranması və Aşağı Quyuluhasar kimi tanınması ilə bağlı olmuşdur. Həmin icmal dəftərində kənddən dövlətin müxtəlif vergilər hesabına ildə 9.500 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) Gərnibasar mahalının bu kəndi **Qoylasarulya** (**"ulya"** ərəbcə **"yuxarı"** deməkdir) şəklində verilmiş və kənddə 24 təsərrüfatda 121 nəfər (62 kişi, 59 qadın) Azər türkü, 58 təsərrüfatda 221 nəfər (115 kişi, 106 qadın) İrandan köçürülüb gətirilmiş erməni siyahıya alınmışdır.

1873-cü ildə **Juxarı Qujlasar kəndinin** mülkədar kəndi olduğu, burada 23 təsərrüfatda 157 nəfər (76 kişi, 81 qadın) ermənilərin yaşadığı qeyd edilmişdir. Kənd əhalisinin birdən-birə belə kəskin şəkildə azalması və burada bir nəfər də azərbaycanlının siyahıya alınmaması, çox güman ki, bölgəyə ruslar tərəfindən köçürülən aysoruların yerləşdirilməsi məqsədilə 1940-cı illərdə Aşağı Quylasar kəndindən türk əhalinin Zəngibasar mahalı ərazisinə köçürülməsi, burada Şorkənd adlı yeni kənd salması ilə

əlaqədar olmuşdur. Başqa sözlə, Yuxarı Quylasarın türk əhalisi də çıxıb Şorkənddə məskunlaşan soydaşlarının yanına getmişlər.

1886-cı ildə **Juxarı Qujlasar** kəndində artıq həm azərbaycanlılar və həm də ermənilər qeydə alınmışlar: 3 təsərrüfatda 8 nəfər (6 kişi, 2 qadın) Azər türkü, 28 təsərrüfatda 149 nəfər (81 kişi, 68 qadın) erməni.

XX yüzilin əvvəllərində kəndin azərbaycanlı əhalisi sıxışdırılıb çıxarılmış, kənd tamamilə ermənileşdirilmişdir.

1945-ci il sentyabrın 4-də kəndin Yuxarı Quylasar adı dəyişdirilərək **Bambakavan,** 1978-ci il yanvarın 25-də yenədən dəyişdirilərək **Byuravan** qoyulmuşdur.

YURDƏK (BURDUK)

Gərnibasar mahalında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Yurdək kəndi** kimi qeydə alınmış, kəndin **İsmayıl Mahmud oğlunun** timarı olduğu və dövlətin bu timar-kənddən ildə 3.000 ağça gəlir götürdüyü göstərilmişdir.

1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı kənd dağıdılmış və İ.Şopendə (1832) **Burduk** adı ilə Gərnibasar mahalının xaraba kəndləri sırasına daxil edilmişdir.

Sonrakı mənbələrdə kəndin adına rast gəlməməyimiz təsdiq edir ki, elə o vaxtdan da kənd xaraba qalmışdır.

Əlimizdə olan mənbələrdə kəndin coğrafiyası ilə bağlı heç bir məlumata rast gəlmədiyimizdən kəndin coğrafi mövqeyini dəqiq müəyyənləşdirməkdə çətinlik çəkirik.

Toponimin etimoloji izahı ilə bağlı mövcud fikir ondan ibarətdir ki, türk dillərində "**boz**" anlamında olan **bor, bur** və "**təpə**" anlamı bildirən **ton** komponentlərindən yaranmışdır (B.Budaqov, Q.Qeybullayev).

Lakin toponimin bu etimoloji izahı bizə inandırıcı görünmür. Xüsusilə adın ilkin – Yurdək variantı onun ikinci (Burduk) variantının təhrif olduğunu söyləməyə əsas verir. Yurdək adının kökündə isə, çox güman ki, türk dillərindəki **yurd//yurt** sözü durur və **Yurdək - "yurd yeri"** anlamındadır.

YUVA

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 3 km cənub-şərqdə, Gərni çayının sol tərəfində, Gərni çayından ayrılan su arxının kənarında, İrəvan-Naxçıvan-Culfa avtomobil yolunun üstündə, Araz çayının yaxınlığında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1828-1829-cu illərdə kənddə həm də İrandan köçürülüb gətirilmiş ermənilər yerləşdirilmiş və kənd həmin vaxtdan 1930-cu illərə qədər azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1930-cu illərdə kənd bütünlüklə ermənileşdirilmişdir.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Yuva kəndi** kimi qeydə alınmış, kəndin Ağcaqışlaq kəndi yaxınlığında yerləşdiyi, dövlətin kənddən götürdüyü illik gəlirin 12.000 ağça olduğu göstərilmişdir.

Sonrakı mənbələrdə də kəndin adı **Yuva** şəklindədir. Heç şübhəsiz, Yuva oykonimi Səlcuq türklərinin **Yivə//Yıva** tayfasının adını əks etdirir. Həmin tayfa ki, Mahmud Kaşğarlıdakı 22 Oğuz boyundan birini təşkil edir. Səlcuqlar dövründə xeyli fəal olan bu tayfa Mahmud Kaşğarlıda **Yava//Yıva//İva//Yafa//Avva** formalarında yazıya alınmışdır.

Tədqiqatçı Faruq Sümər məşhur "Oğuzlar" əsərində Yıva tayfasına geniş yer ayırmışdır. Tədqiqatçının fikrinə görə, Yıvalara aid ən qədim məlumat 1158-ci ildən başlayır. Yıvalar bu tarixdə Həmədanın qərbində həddən artıq sıx halda yaşayırmışlar. Onların bu yerlərə 1130-cu illərdə Sır-Dərjadan Əfşar və Salğurlarla birlikdə gəldikləri ehtimal olunur. XII yüzil hadisələrindən bəhs edən mənbələr təsdiqləyir ki, Azərbaycan Atabəylər dövlətinin himayəsində olan Yıvalar Atabəy Şəmsəddin Eldənizin daim qayğısını hiss etişlər. Hətta Eldəniz onları xarici işğalçılardan müdafiə etmək üçün xəlifəyə yaxın ordu qüvvələri ilə döyüşdən də çəkinməmişdi. Görünür, elə həmin vaxtlardan İrəvan çuxurunda Yıva türk tayfaları məskunlaşmağa başlamışlar.

İndiki Türkiyə ərazisində də Yıva tayfası geniş yayılmışdır.

Faruq Sümər XVI yüzildə Anadoluda Yıva adlı 19 kənd qeydə almışdır.

XVI yüzildə Şimali Azərbaycanın Zəyəm nahiyəsində Yuvalı-Fəxralı elinin yaşaması barədə məlumat var. XVIII yüzildə İrəvan əyalətinin Karbi nahiyəsində də Yuva adlı kənd mövcud olmuşdur.

İ.Şopendə (1832) Gərnibasar mahalının **Yuva kəndində** 5 təsərrüfatda 33 nəfər (18 kişi, 15 qadın) Azər türkü, 51 təsərrüfatda 220 nəfər (123 kişi, 97 qadın) İrandan köçürülüb gətirilmiş erməni qeydə alınmışdır.

1873-cü ilin statistikasında kənd əhalisi xeyli artaraq 29 təsərrüfatda 186 nəfər (99 kişi, 87 qadın) Azər türkü, 179 təsərrüfatda 1.215 nəfər (642 kişi, 573 qadın) erməni şəklində dəyişmişdir. Mülkədar kəndi kimi siyahıya alınan kənddə həmçinin 1 yağ, 6 dulusçuluq sexinin fəaliyyət göstərdiyi də qeyd olunmuşdur.

1886-cı ildə kənddə 29 təsərrüfatda 161 nəfər (109 kişi, 52 qadın) Azər türkü, 212 təsərrüfatda 1.549 nəfər (843 kişi, 706 qadın) erməni yaşamışdır.

Göründüyü kimi, kənddə gəlmə ermənilərin sayı artdıqca yerli azərbaycanlıların sayı azalmış, gəlmələr yerliləri onlar sıxışdırıb kənddən çıxarmışlar. Buna görə də 1905-ci ildə kənddə cəmi 12 nəfər azərbaycanlı qalmışdır. Heç şübhəsiz, azərbaycanlıların bu etnik təmizlənməsində 1905-ci il sojqırımının da böjük rolu olmuşdur. 1918-ci ildə azərbaycanlıların növbəti soyqırımı zamanı isə kəndin bütün türk-müsəlman əhalisi qovulub kənddən çıxarılmış, kənd xüsusilə Vedibasar mahalına dönə-dönə hücum edən erməni-daşnak birləşmələrinin hərbi dayaq nöqtəsi olmuşdur. Həmin toqquşmalar zamanı kənd dəfələrlə güllə-mərmi yağışı altında qalmış, dağıdılmışdır.

Sovet hakimiyyətinin ilk illərində geri qayıdan azərbaycanlılar az sonra kənddən köçməyə məcbur edilmişlər. Buna görə də 1931-ci ildə kənddə cəmi 1 nəfər azərbaycanlı qeydə alınmışdır. Həmin vaxtlar kənd bütünlüklə ermənileşdirilmişdir.

1950-ci il aprelin 19-da kəndin Yuva adı dəyişdirilərək erməni daşnak başkəsəni Şaumyanın adına **Şaumyan** qoyulmuşdur.

ZÖHRABLI

Gərnibasar mahalının düzənlik hissəsində, Qəmərli rayonunun mərkəzi olan Qəmərli qəsəbəsindən 12 km şimalda, Yamancalı və Mehrablı kəndləri yaxınlığında, Gərni çayının sol kənarında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1826-1829-cu illər müharibələri zamanı kənd xaraba qalmış, 1840-1850-ci illərdə kənddə İrandan gəlmə ermənilər yerləşdirilmiş və o vaxtdan kənd ermənileşrilmişdir.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Zöhrablı kəndi** kimi qeydə alınmış, kəndin ərazisinin xanlığın xass torpaqları olduğu və bu torpaqlardan dövlətin müxtəlif vergilər şəklində ildə 6.000 ağça gəlir götürdüyü göstərilmişdir.

Bütün sonrakı mənbələrdə də kəndin adı **Zöhrablı** kimidir. Kəndin adının onun əsasını qoymuş nəslin adından törəməsini ehtimal etmək olar.

1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı kənd böyük dağıntılara məruz qalmış, əhalisi kəndi tərk etməyə məcbur olmuş, buna görə də İ.Şopendə (1832) Gərni nahiyəsinin xaraba kəndləri siyahısına daxil edilmişdir.

Sonralar – təxminən 1840-1850-ci illərdə kənddə İrandan gəlmə erməni qaçqın ailələri yerləşdirilmiş və kənd erməni kəndinə çevrilmişdir. Belə ki, 1873-cü ilin statistikasında **Zöhrablı kəndində** ancaq erməni əhali – 28 təsərrüfatda 164 nəfər (89 kişi, 75 qadın) qeydə alınmışdır.

1886-ci ildə kənddə yaşayan əhalinin sayı 36 təsərrüfatda 206 nəfərə (113 kişi, 93 qadın) çatmışdır.

1945-ci il avqustun 20-də kəndin Zöhrablı adı dəyişdirilərək **Mrqanuş** qoyulmuşdur.

QIRXBULAQ MAHALININ (ELLƏR RAYONUNUN) KƏNDLƏRİ

Abdallar (Yuxarı Abdallar, Daş Abdallar)
Abdulla
Ağaçurum (Ağazor)
Aramus
Artız (Ərtus)
Avan (Aran)
Azaklar
Ballıca
Baş Gərni (Gərni, Gögqam, Gögkənd)
Başkənd (Əraxus)
Bəzəkli
Bozkosa (Bozçalı, Babaxanlı, Babalar)
Cadqıran//Çatqıran (Ağdost)
Civriş
Çayqaytara (Gedərgəl)
Çobangörükməz//Çobangərəkməz (Qaşqayol)
Çölməkçi
Damagirməz
Damcılı
Dəlləkli
Dəvəxaraba (Avad)
Ellər
Əkərək
Ərinc
Ərzni
Gerqaç (Əyrivəng, Yuxarıvəng, Geğart)
Gərəkbulaq
Goxt (Türk Goxtu, Aşağı Goxt)
Goxt (Erməni Goxtu)
Göykilsə
Güllücə
İynədüz
Kamal (Kamal Dərviş)

Ketran
Kənəkir
Kənkan (Kəngi, Kənkən)
Kərpicli
Küzəcik
Qamriz//Kəmris//Qəmriz
Qaracalar (Qaracaqala, Aşağı Qaraqala)
Qaracoran (Qaraceyran, Qaracaörən, Qaracaviran)
Qaraqala (2-ci Qaraqala)
Qayaxaraba
Qızılqala
Qızqala (Qız qalası)
Qurbağalı (Aşağı Qurbağalı, Yuxarı Qurbağalı)
Qutqut (Kətiqut)
Quyulu (Quyubulaq, Keçili)
Manseres
Masis
Məngüs
Muradtəpə (Ağkənd)
Muqub (Mequb, Maqub)
Nikolayevka (Novonikolayevka)
Nurnus
Oxçaberd
Putqni
Şahab
Təcirabad (Tacirbəy, Təcrəbax)
Tərkivan
Təzəkənd
Tutiya
Üzümçülük sovxozu qəsəbəsi
Yaycı
Yelqovan (Barsabəy)
Yeni Hacı (Nor Haçin)
Zak (Zaq, Dzak)
Zakevəng
Zar

ABDALLAR (YUXARI ABDALLAR, DAŞ ABDALLAR)

Gərnibasar mahalının dağlıq hissəsində, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 25 km cənub-şərqdə, İrəvan-Gərni avtomobil yolunun sağ kənarında, Kərpicli kəndi yaxınlığında kənd.

1918-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. Həmin il kənddə Türkiyədən gəlmə xeyli erməni qaçqını yerləşdirilmiş və 1920-1930-cu illərdə kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1930-cu illərdə bütün azərbaycanlılar kənddən çıxarılaraq kənd tamamilə ermənileşdirilmişdir.

"İrəvan əyalətinin müfəcsəl dəftəri"ndə (1590) Gərni nahiyəsinin **Abdallar məzrəsi,** "İrəvan əyalətinin icmal dəftərində (1728) isə həmin nahiyənin **Yuxarı Abdallar kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə kəndin **Əli** adlı şəxsin timarı olduğu, bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürdüyü də göstərilmişdir.

İ.Şopendə (1832) **Abdallar** adı ilə Gərnibasar mahalının xaraba kəndləri siyahısına daxil edilmişdir. Bu, kəndin 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalması ilə bağlı idi.

Sonralar kənd yenidən bərpa olunmuş (1886-cı ilə aid mənbədə kəndin Eçmiədzin qəzasının Kürdəli kəndindən çıxan ailələr tərəfindən bərpa olunduğu göstərilir) və 1873-cü ilin statistik məlumatlarında "Gərnibasarın dağlıq hissəsində, Keğvart dərəsində, Gərni çayının qollarından birinin kənarında, Gerqaç (Geğvart, Əyrivəng, Yuxarı vəng) kəndi yaxınlığında **Daş Abdallar kəndi** kimi qeydə alınmışdır. Kənddə 10 təsərrüfatda 59 nəfər (31 kişi, 28 qadın) Azər türkünün yaşadığı göstərilmişdir.

1886-cı ildə **Daş Abdallar kəndində** əhalinin sayı 12 təsərrüfatda 112 nəfərə (70 kişi, 42 qadın) çatmışdır.

Kənddə yaşayan azərbaycanlıların sayı 1897-ci ildə 115 nəfər, 1905-ci ildə 131 nəfər, 1914-cü ildə 194 nəfər olmuşdur.

Lakin 1918-ci ildə Gərnibasar mahalının bütün dağlıq kəndlə-

ri kimi, Abdallar kəndi də erməni-daşnak qaniçənləri tərəfindən dağıdılmış, yandırılmış, əhalisinin bir hissəsi qəddarcasına qətlə yetirilmiş, sağ qalanlar elindən-obasından didərgin salınmışlar.

Elə həmin vaxtlar boşalmış kəndə Türkiyənin Van, Voştunik əyalətlərindən gəlmiş erməni qaçqınları yerləşdirilmişlər. Buna görə də Sovet dövründə geri qayıtmaq imkanı qazanmış kəndin qaçqın azərbaycanlı sakinləri kəndə dönə bilməmiş, daha doğrusu, onların kəndə qayıtmasına imkan verilməmişdir. Bununla belə, bir neçə azərbaycanlı və müsəlman kürd ailəsi kənddə yaşamağa başlamışlar. 1931-ci ildə onların sayı cəmi 6 nəfər azərbaycanlı və 24 nəfər müsəlman kürdü olmuşdur. Bu vaxt 1918-ci ildə kəndə yiyələnmiş gəlmə ermənilərin sayı artıq 378 nəfərə çatırdı. Bir müddət sonra kənddəki 5-10 müsəlman ailəsi də sıxışdırılıb çıxarılmış və kənd bütünlüklə ermənileşdirilmişdir.

Kəndin Daş Abdallar adı Sovet dövründə sadəcə **Abdallar** adı ilə əvəzlənmiş, bu ad isə 1946-cı il aprelin 4-də dəyişdirilərək **Atsavan** qoyulmuşdur.

Kəndin adı yerli tələffüzdə həm də **Avdallar** kimi səslənirdi.

Kənd öz adını qədim türk tayfalarından olan **Abdal (Ağhun)** tayfasının adından almışdır. XVI yüzilə aid mənbədə İrəvan əyalətində məskunlaşan Təklə tayfasının bir qolu da **Əvdəllər (Abdallar)** adlanmışdır.

Abdallar etnoniminin tarix səhnəsinə gəlişi haqqında "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti"ndə maraqlı məlumat verilir: "Bu tayfa V-VI əsrlərdə Orta Asiya, Əfqanıstan və Çin Türküstanını əhatə etmiş bir dövlətin başçısı Eptalın adı ilə adlanmışdır. Bu çara mənsub pulun üzərində "Xionların (**yəni hunların** – red.) çarı Eptal" sözü oxunur. VI əsrin ortalarında Şimali Qafqazda "Hun ölkəsində" yaşayan bir tayfa Abdel kimi qeyd olunmuşdur".

Görünür, geniş bir əraziyə yayıldıqları üçündür ki, bu gün türk diyarlarının əksəriyyətində bu etnotoponimə rast gəlmək mümkündür. Məsələn, başqırdlarda, qaraqalpaqlarda, qazaxlarda, türkmənlərdə Abdal adlı tayfalar mövcuddur. Sonralar eyniadlı tayfa Türkiyədə böyük nüfuz sahibi olmuşdur.

XVIII yüzildə Qarabağda Abdal, XIX yüzildə Zəngəzurda Abdallar kəndləri, Şimali Qafqazın Ter əyalətində və Azərbay-

canın Ordubad rayonunda Abdal dağları, Ağdaş, Tovuz rayonlarında isə Abdal kəndləri qeydə alınmışdır.

Abdallar adlı kənd İrəvan əyalətinin Karbi nahiyəsində də mövcud olmuşdur.

Abdal adlı və ya Abdal komponentli toponimlərin etimoloji izahı zamanı onların **Abdal (Ağhun)** etnonimindən yaranması fikrini mütləqləşdirmək olmaz. Məlum olduğu kimi, orta yüzillərdə İran və Türkiyədə geniş yayılmş Sufi təriqətində **abdal** xüsusi dini mərtəbə, **"mömin", "müdrik", "zahid"** anlamında, az qala **"mürşid"** məqamında başa düşülür, işlədilirdi. Səfəvi hökmdarları dərviş-abdallara xüsusi hörmət göstərir, imtiyazlar verir, kəndlər, mülklər bağışlayırdılar. Məsələn, Şah İsmayıl Xətai Miskin Abdala Göyçənin Sarıyaqub kəndini bağışlamış, xüsusi fərmanla ona imtiyazlar vermişdi.

ABDULLA


Qırxbulaq mahalında, Ellər rayonu ərazisində, Zəngi çayı kənarında, Qızılqala kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftərində (1728) Qırxbulaq nahiyəsinin **Abdulla məzrəsi** kimi qeydə alınmışdır. Kəndin Zəngi çayı kənarındakı Qızılqala kəndi tərəfdə yerləşdiyi, **Əli Əbdürrəhman oğlu** adlı şəxsin timarı olduğu və bu timar-kənddən (yeri gəlmişkən, qonşu Qızılqala kənd ərazisi də həmin şəxsin timarı olmuşdur) dövlətin müxtəlif vergilər şəklində ildə 1.000 ağça gəlir götürdüyü də həmin mənbədə göstərilmişdir.

Kənd adının **Abdulla** şəxs adından yarandığını ehtimal etmək olar.

Sonrakı mənbələrdə kəndin adına rast gəlməməyimiz onun sonralar bir kənd kimi tarix səhnəsindən silinməsini söyləməyə əsas verir.



Rəssam Cabbar Quliyev. Zəngi çayı.

AĞAÇURUM (AĞAZOR)

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 5 km şərqdə, Qırxbulaq çayı kənarında kənd.

XVII yüzilin sonlarına qədər kənddə ancaq Azər türkləri yaşamışlar. XVIII yüzilin sonlarında kənddə həm də gəlmə ermənilər məskunlaşmış, o vaxtdan XX yüzilin əvvəllərinə qədər kənd azərlərlə ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. XX yüzilin əvvəllərində azərbaycanlılar kənddən çıxarılmış, kənd bütünlüklə erməni kəndinə çevrilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin **Ağaçurum kəndi,** "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Ağazor kəndi** kimi qeydə alınmışdır. Üstəlik, ikinci mənbədə kəndin **Həsən** adlı şəxsin timarı olduğu, bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 5.000 ağça gəlir götürdüyü göstərilmişdir.

Göründüyü kimi, kəndin ilkin adı **Ağaçurum (Ağa uçurum)** olmuş, kənddə İrandan gəlmə ermənilər məskunlaşdırıldıqdan sonra kənd adının **uçurum** komponenti ermənicə **dərə** anlamında **zor** sözü ilə əvəz edilmiş, Ağaçurum adı **Ağazor** şəklinə düşmüşdür.

İ.Şopendə (1832) Qırxbulaq mahalının **Ağazor kəndində** 3 təsərrüfatda 27 nəfər (13 kşi, 14 qadın) Azər türkünün, 9 təsərrüfatda 42 nəfər (20 kişi, 22 qadın) "yerli", yəni bölgənin ruslar tərəfindən işğalına qədər bu yerlərə İrandan, Türkiyədən köçüb gəlmiş ermənilərin yaşadığı göstərilmişdir. İ.Şopen kəndlə bağlı belə bir əlavə məlumat da vermişdir ki, kəndin yaxınlığındakı mağarının içindən çıxan bulaq axıb, aşağılarda başqa bulaqlarla birləşir və Qırxbulaq çayını yaradır.

Kəndin **Axund Şeyxülislamın** tiyul kəndi olduğu da İ.Şopen-də qeyd olunmuşdur.

1873-cü ilin statistikasında mülkədar kəndi kimi verilən **Ağazor kəndində** 2 təsərrüfatda 14 nəfər (7 kişi, 7 qadın) Azər türkü, 26 təsərrüfatda 146 nəfər (81 kişi, 65 qadın) erməni qeydə alınmışdır.

Kənd əhaisinin sayı 1886-cı ildə 2 təsərrüfatda 15 nəfər (9 ki-

şi, 6 qadın) Azər türkü, 30 təsərrüfatda 155 nəfər (98 kişi, 57 qadın) erməni, 1905-ci ildə 16 nəfər Azər türkü, 170 nəfər erməni şəklində dəyişmişdir.

Az sonra kəndin azərbaycanlı əhalisi qovulub kənddən çıxarılmış və o vaxtdan kənddə ermənilər yaşamışlar.

1946-cı il aprelin 4-də kəndin Ağazor adı dəyişdirilərək **Katnaxpyur** qoyulmuşdur.

Kəndin adının XVIII yüzilin əvvəllərinə aid mənbədə **Ağasor** (**Ağazor** – Ə.Ə.) kimi yazılmasını əsas götürən tədqiqatçılar (B.Budaqov, Q.Qeybullayev) toponimin əslində "Kitabi-Dədə Qorqud"da adı çəkilən **Ağ hasar** (sonralar Ağasor) toponimi ilə eyniyyət təşkil etdiyi fikrini irəli sürürlər. Heç şübhəsiz, bu versiya xeyli ciddidir və xüsusi tədqiqata möhtacdır.

ARAMUS

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 4 km şərqdə, Qırxbulaq çayının yuxarı axarında, dəniz səviyyəsindən 1.550 m yüksəklikdə kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. Türkmənçay bağlaşmasından sonra yerli türk-müsəlman əhalisi qovulub çıxarılmış və orada İrandan, Türkiyədən gəlmə ermənilər yerləşdirilmişlər.

Orta yüzillərdə **Aramus kəndi** Qatargöl monastırının vəqf kəndi olmuşdur.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin **Əramus kəndi**, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Aramus kəndi** kimi qeydə alınmış, ikinci mənbədə dövlətin müxtəlif vergilər şəklində kənddən ildə 7.000 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) Qırxbulaq mahalının **Aramus kəndi** kimi verilmiş, kənddə 53 təsərrüfatda 221 nəfər (123 kişi, 98 qadın) İrandan, 1 təsərrüfatda 7 nəfər (4 kişi, 3 qadın) Türkiyədən yenicə köçürülüb gətirilmiş erməni siyahıya alınmışdır.

Kəndin adı mənbələrdə VII yüzildən çəkilir. Bu barədə İ.Şopen maraqlı məlumat verir: **"Stepan Orbelianda belə bir məlumat var ki, patriarx İohann Kotayk dairəsinin Aramons kəndində yerləşdi. Patriarx David Aramons kəndinin yetirməsi idi və burada kilsə tikmişdi. Aramus kəndinin ətrafındakı xarabalıqlar sübut edir ki, burada vaxtilə çoxlu əhali yaşamışdır. Dağılmış iki qədim kilsə dərhal diqqəti çəkir. Əhalinin söylədiyinə görə, bu kənd çar Aram tərəfindən salınmışdır"** (Göstərilən əsəri, səh. 263).

Maraqlıdır ki, X yüzil ərəb coğrafiyaşünası əl-Məsudinin haqqında bəhs etdiyi 943-cü ildə hakimiyyətdə olan Bizans imperatorunun adı isə **Armanus** olmuşdur (bax: N.Vəlixanlı. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında, səh. 53).

Heç şübhəsiz, əgər 1831-ci ilin siyahıyaalması zamanı bir nəfər də olsun "yerli" erməni qeydə alınmamışdırsa və siyahıya alınan ermənilərin hamısı 1828-1830-cu illərdə İrandan, Türkiyədən köçürülənlərdirsə, aydındır ki, ermənilərin kəndin qədim tarixi ilə bağlılığı barədə heç bir söhbət gedə bilməz. Əslində bu-

rada qədimdən türk tayfaları, əsasən xaçpərəst arman türkləri yaşamışlar. Çar Aram haqqında İ.Şopenin söykəndiyi mənbəyə ("əhalinin söylədiyinə görə") gəldikdə isə, göründüyü kimi, həmin əhali (kənddəki ermənilər) yerli əhali deyildirlər və onlar min il əvvəldən burada mövcud olan bir kəndin tarixi haqqıda ciddi heç nə söyləyə bilməzdilər. İ.Şopenin qələmə aldığı sadəcə olaraq erməni keşişlərinin erməni tarixi haqqında uydurduqları nağıllardan başqa bir şey deyil.

Aramus toponiminin etimoloji izahı kəndin tarixi, etnik mənsubiyyəti ilə bağlı əsl həqiqəti ortaya qoyur. Öncə onu qeyd edək ki, biz toponimin türk dillərindəki **"dağ vadisində çaykənarı dərinləşmiş zolaq"** anlamında **urem** və yunan mənşəli **os(us)** şəkilçisindən ibarət olması fikri (B.Budaqov, Q.Qeybullayev) ilə razı deyilik. XIX yüzildə Zəngəzur qəzasında Aramis kənd adı, Armas və Aramazd dağ adları, Tiflis quberniyasında Araqvi çayının Kürə töküldüyü yerdə Armazi şəhər adı və s. toponimin daha dərin köklərə malik olduğunu göstərir.

V yüzilin arman tarixçisi Moisey Xorenlinin armanların baş allahının **Aramazd** (əslində **Ahuramazda** və ya **Hörmüzd**) olması barədəki məlumatı qədim arman türklərinin xristianlıqdan əvvəl atəşpərəst olduqlarını, **Aram** mifik adının isə baş allah Ahuramazdanın adının armanlar arasında deyiliş forması olmasını təsdiq edir.

Beləliklə, Aramus kəndi, mənbələrdən də göründüyü kimi, qədim məbədgah, atəşpərəstlərin baş ziyarət yeri olmuş və baş allah Ahuramazdanın (Hörmüzdün), arman türklərinin dediyi kimi, Aramın şərəfinə **Aramus** adlanmışdır.

Us komponentinin isə, dediyimiz kimi, bu tipli toponimlərdə bir neçə anlamı ola bilər: 1) yunan dilində **os//us** şəkilçisi, 2) **tərəf, yan** mənasında, 3) **Uz** türk tayfa adı kimi, 4) türk dillərindəki **"dərə"** anlamında, 5) **cəmlik** halı kimi. Lakin bütün bunlardan biz bu dəfə birincisinə üstünlük veririk.

Qərbi Azərbaycan ərazisindəki Aramlı//Haramlı (Eçmiədzin qəzasında kənd), Haramazihal (Gümrü qəzasında dağ), Haramlı (Sürməli nahiyəsində kənd) və s. toponimləri də eyni mənşədən törəmə hesab etmək olar. Şimali Azərbaycan ərazisində də eyniköklü xeyli toponim mövcuddur.

1873-cü ilin statistikasında Qırxbulaq mahalı ərazisində **Aramus** (Stepan Orbelianda **Aramons**) kəndi kimi qeyd olunan kənddə 110 təsərrüfatda 803 nəfər (417 kişi, 386 qadın) erməni siyahıya alınmışdır.

1886-cı ildə **Aramus kəndində** yaşayan əhalinin sayı buraya Türkiyədən köçüb gələn yeni-yeni erməni ailələrinin hesabına qısa vaxtda sürətlə artaraq 158 təsərrüfatda 1.128 nəfərə (581 kişi, 547 qadın) çatmışdır.

1897-ci ildə kənddə 1.107 nəfər erməni ilə yanaşı, həm də 31 nəfər Azər türk qeydə alınmışdır. Bu, söyləməyə əsas verir ki, 1873, 1886-cı illər siyahıyaalmaları zamanı da kənddə azərbaycanlılar yaşamış, lakin onlar siyahıyaalama zamanı qeydə alınmamışlar. 1905-1906-cı illər erməni-müsəlman davası zamanı isə qovulub kənddən çıxarılmışlar və kənd bütünlüklə ermənileşdirilmişdir.

Sovet dövründə kənd **Aramus** adı ilə Ellər rayonunun Aramus kənd sovetliyinin mərkəzi olmuş, 2 km aralıdakı Ağaçurum (Ağazor) kəndini də əhatə etmişdir.

ARTİZ (ƏRTUS)

Gərnibasar mahalının dağlıq hissəsində, Ellər rayonu ərazisində, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 35-38 km cənub-şərqdə, Gərni çayının yuxarı axarında, Artızbulaq bulağı kənarında, Goxt kəndi yaxınlığında kənd.

1918-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1922-1948-ci illərdə kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1948-ci ildə kəndin bütün türk-müşəlman əhalisi Azərbaycana deportasiya olunmuş və kənd erməniləşdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Gərni nahiyəsinin **Ərtus kəndi** kimi qeydə alınmış, İ.Şopendə (1832) isə **Artuz** adı ilə Gərnibasar mahalının xaraba kəndləri siyahısına daxil edilmişdir.

Sonrakı mənbələrdə (1873, 1886...) **Artiz** kimi verilmişdir. Lakin 1873-cü ilin statistikasında buradakı bulağın adının **Artızbulaq** şəklində qeydə alınması Artiz toponiminin yerli tələffüzdə **Artız** olmasını təsdiq edir.

Toponimin əhalinin hərəkəti ilə Şərqi Anadoludan gətirilmə olması fikri (B.Budaqov, Q.Qeybullayev) ilə razı deyilik. Ən azı ona görə ki, Ağrıdağ vadisi ərazisinin (İrəvan çuxurunun) böyük bir hissəsi eramızın əvvəllərində məhz **Artaz** adlanmışdır. **Art** sözünün qədim türk dilində **dağ** mənasında işlənməsi (məsələn **Ara+art,** yəni **Ara+dağ**) toponimin "**dağlıq ərazidə yaşayan Az tayfası**" anlamını ortaya qoyur. **Artuz** yazılışında isə **Uz** komponentinin çoxmənalılığında (bax: Aramus kəndinə) kənd "**dağlılar**", "**dağlı Uzlar**", "**dağ dərəsi**" anlamlarında yozula da bilər. Toponimin türk dillərindəki "**aşırım**" mənasında "**ərtis**" sözündən olması ehtimalı da nəzərdən qaçırılmamalıdır.

Bu toponim mənbələrdə IV yüzildən məlum olmuş, sonralar Maku əyalətində Artaz adlı mahal, Cənubi Azərbaycanda Urmiya gölünün şimal-şərqində isə eyniadlı əyalət qeydə alınmışdır. XIX yüzildə Qars əyalətində və Batum əyalətinin Artvin dairəsində də Ortiz adlı kəndlər mövcud olmuşdur.

1873-cü ilin statistikasında İrəvan şəhərinin 40 verstliyində

yerləşdiyi qeyd olunan kənddə 29 təsərrüfatda 221 nəfər (134 kişi, 87 qadın) Azər türkünün yaşadığı, üstəlik burada qəbirüstü abidələri olan qədim qəbiristanlığın yerləşdiyi göstərilmişdir.

1886-cı ildə kənddə 34 təsərrüfatda 267 nəfər (175 kişi, 92 qadın) Azər türkü yaşamışdır.

Qəmərli kənd sakini, keşiş oğlu **Asatur Ter-Qriqoryan** Artız, Erməni Goxtu və Daş Abdallar kəndlərinin yaxınlığında 28,67 desyatin ərazini əhatə edən **Gərməmalıq** və **Körəbulaq** adlı əkin yerini 1883-1886-cı illər üçün hər ili 41 manatdan istifadəyə götürmüşdür.

Bundan əlavə, 1886-cı ilə aid həmin mənbədə Artız kəndi nəzdində olan və 32 desyatin ərazini əhatə edən **Qaraburq** adlı otlaq yerindən bəhs olunur. Artız kənd camaatı torpaq sahələrini kəndin kənarındakı **Şahbulaq** bulağının suyu ilə suvararmışlar.

Kənd əhalisinin sayı 1897-ci ildə 426 nəfər, 1905-ci ildə 292 nəfər, 1914-cü ildə 480 nəfər olmuşdur.

1917-1918-ci illərdə bu qədim Azərbaycan kəndi erməni daşnaklarının vəhşi hücumları nəticəsində darmadağın edilmiş, əhalisinin bir hissəsi qılıncdan keçirilmiş, sağ qalanlar qəddarcasına qovulmuşlar. Həmin illərdə kəndə Türkiyənin əsasən Van və Qars vilayətlərindən olan xeyli erməni qaçqını köçürülmüş və onlar kəndin salamat qalmış azərbaycanlı evlərində yerləşdirilmişlər.

Yalnız bölgədə Sovet hakimiyyəti qurulduqdan sonra kəndin keçmiş azərbaycanlı sakinlərindən bir qismi geri qayıda bilmişlər. Belə ki, 1931-ci ildə kənddə artıq 74 nəfər azərbaycanlı qeydə alınmışdır. Bu vaxt kənddə yaşayan ermənilərin sayı isə artıb 185 nəfərə çatmışdı.

Lakin 1948-ci ildə kənddəki türk-müsəlman əhalinin hamısı Azərbaycana deportasiya olunmuş, kənddə ancaq ermənilər qalmışlar. O vaxtdan kənddə ancaq ermənilər yaşamışlar.

RƏHİM MİR KAZIM OĞLU ALLAHVERDİYEV



1907-ci ildə Artız kəndində anadan olmuşdu. Onlar nəsillikcə Artız kəndindən idilər. Ata babası **Seyid Allahverdi** 1760-cı ildə Artız kəndində dünyaya gəlmişdi.

1918-1920-ci illər soyqırımını bütün dəhşəti ilə yaşayan ailə böyük itkilər verir. Atasını, qardaş və bacılarını itirən Rəhim dayısı Məmmədbağırın himayəsində böyüyür. 1922-ci ildə ailələri İrəvana köçür və şəhər yeddiillik məktəbini bitirən Rəhim "Zəngi" (sonralar "Sovet Ermənistanı") qəzeti mətbəəsində mürəttib müavini vəzifəsində çalışır, təhsilini davam etdirərək 1932-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirir, iki il İrəvandakı "Ararat" trestinin üzüm bağları sovxozlarında və Qəmərli MTS-də aqronom vəzifəsində işləyir.

1934-cü ildən etibarən İrəvan Azərbaycanlı Kənd Təsərrfatı Texnikumunda, Ali Kənd Təsərrüfatı məktəbində, İrəvanda kütləvi kənd təsərrfatı kadrları hazırlayan kurslarda aqronomluqdan mühazirələr oxuyur. Kənd təsərrüfatına dair bir neçə vəsait nəşr etdirir.

1938-1941-ci illərdə İrəvan Kənd Təsərrüfatı İnstitutunun aspiranturasında təhsil alır və sonuncu tarixdə İrəvan Dövlət Universitetində dissertasiya müdafiə edərək biologiya elmləri namizədi alimlik dərəcəsi alır.

1941-ci ildə Ermənistan SSR Xalq Maarif Komissarının müavini vəzifəsinə irəli çəkilir, bir il sonra isə Siyasi Maarif İdarəsinin rəisi təyin olunur. 1943-cü ildə Ermənistan KP MK-da təbliğat və təşviqat şöbəsinin müdiri, 1945-ci ildə Ermənistan KP MK-nın orqanı "Sovet Ermənistanı" qəzetinin radektoru vəzifələrinə təyin olunur. Eyni vaxtda İrəvan Dövlət Pedaqoji İnstitutunun azərbaycanlı şöbəsində dərs deyir. Bu illərdə bir sıra medallarla təltif olunur.

1947-ci ildə Ermənistan SSR Ali Sovetinə deputat seçilir və MK-da kənd təsərrüfatı şöbəsinin müdiri vəzifəsinə irəli çəkilir. 1948-ci ildə respublikanın Kənd Təsərrüfatı Nazirliyinə rəhbərlik edir.

R.Allahverdiyevin sonrakı fəaliyyəti Azərbaycanla bağlı olur. 1950-ci illərdə onun Azərbaycan üzümçülüyü ilə bağlı bir sıra elmi

məqalə və kitabçaları nəşr olunur. O, Azərbaycanın Çoxillik Bitkiləri İnstitutuna və Azərbaycan Bağçılıq, Üzümçülük və Subtropik Bitkilər Elmi-Tədqiqat İnstitutuna rəhbərlik edir. İnstitutun ilk direktoru olur.

1960-cı illərdə onun Azərbaycanda üzümçülüyə dair dörd fundamental tədqiqat əsəri işıq üzü görür.

1965-ci ildə "Azərbaycanın dağlıq rayonlarında dəmyə şəraitində üzüm bitkisinin bioloji xüsusiyyətləri" mövzusunda dissertasiya müdafiə edərək biologiya elmləri doktoru alimlik dərəcəsi alır. O, üzümçülük sahəsi üzrə Azərbaycanda ilk elmlər doktoru və professor olur.

Onun rəhbərliyi altında 30-a qədər elmlər namizədi və doktoru yetişmişdir. 100-dən çox elmi əsərin müəllifi idi.

1965-ci ildən ömrünün sonuna – 1975-ci ilədək Azərbaycanın Bağçılıq, Üzümçülük və Subtropik Bitkilər Elmi-Tədqiqat İnstitutunun şöbə müdiri vəzifəsində çalışmışdır.

Oğlanları – **Surxay, Kərim** və **Əli** də elmi fəaliyyətlə məşğuldurlar.

Surxay Allahverdiyev 1944-cü ildə İrəvan şəhərində anadan olmuş, orta təhsilini tamamladıqdan sonra Moskvada K.Timiryazev adına Kənd Təsərrüfatı Akademiyasını bitirmiş, 1992-ci ildə Peterburqda "Bitkilərin duzlaşma zamanı adeptiv funksiyalarının tənzimlənməsi" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək biologiya elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür. Həmin doktorluq işini Yunanıstan və Bolqarıstan patent almışdır. Azərbaycan Respublikası EA Botanika İnstitutunun şöbə müdiri olan S.Allahverdiyev həmçinin Rusiya Fiziologiya Cəmiyyətinin və Türkiyə Fizioloqlar Cəmiyyətinin üzvüdür. Artıq 8 ildir ki, Türkiyənin Zonquldaq Universitetində çalışır.

Kərim Allahverdiyev 1946-cı ildə İrəvan şəhərində anadan olmuş, orta təhsilini bitirdikdən sonra Moskva Energetika İnstitutunda təhsilini davam etdirmiş, 1981-ci ildə Leninqrad şəhərində doktorluq dissertasiyası müdafiə eləmişdir. Azərbaycan Respublikası EA Yarımkeçiricilər İnstitutunun baş elmi işçisi olan K.Allahverdiyev həmçinin ABŞ-ın Nyu-York Elmlər Akademiyasının Ştutqart Universitetinin və Yüksək Təzyiq Fizikası Avropa İcra Cəmiyyətinin fəxri üzvüdür. Hazırda Türkiyənin Mərmərə Universitetində çalışır.

Əli Allahverdiyev Bakıda N.Nərimanov adına Tibb İnstitutunu bitirmiş, 1989-cu ildə Moskvada doktorluq dissertasiyası müdafiə edərək tibb elmləri doktoru alimlik dərəcəsi almışdır. İki il Türkiyənin Hacıtəpə Universitetində professor kimi işləmiş, Uzun illər Azərbaycan Respublikası Fiziologiya İnstitutunda baş elmi işçi və Mirqasımov adına Respublika xəstəxanasında həkim kimi fəaliyyət göstərmişdir. Hazırda Almaniyanın Düren şəhərində məşhur bir xəstəxanada çalışır.

AVAN (ARAN)

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsi ilə İrəvan şəhəri arasında, Qırxbulaq çayının kənarında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1828-1829-cu illərdə kəndə İrandan köçürülüb gətirilmiş xeyli erməni yerləşdirilmiş və o vaxtdan kənd ermənileşdirilmişdir.

Avan şəhər adına ilk dəfə **M.Kağankataylının "Albaniya tarixi"** kitabında rast gəlirik. Belə ki, həmin mənbədə VI yüzilin sonlarında arman kilsəsinin iki yerə bölünməsindən, katolikos Movseslə Ərzurum yeniskopu Teodoros arasında yaranan qarşıdurma nəticəsində Armaniya arman kilsəsi ilə Bizans arman kilsəsinin bir-birindən ayrılmasından bəhs edilmişdir. 591-ci ildə Teodoros Bizansdakı arman yepskoplarını yığır və onlar İohan adlı birisini özlərinə katolikos seçirlər. Movsesin katolikos kürsüsü Dəbildə yerləşdiyindən Bizans armanları da öz katolikosluq kürsülərini "Dəbil yaxınlığında **Avan**da" yerləşdirirlər (bax: Göstərilən mənbə, səh.171).

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) də kəndin adı İrəvan nahiyəsinin **Avan kəndi** kimi qeydə alınmışdır. "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsində **Aran** adı ilə qeyd edilmiş kənddə **İsmayıl Abdulla oğlunun** adına olan timardan dövlətin müxtəlif vergilər şəklində ildə 3.500 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) Qırxbulaq mahalının **Avan kəndi** kimi verilmiş və kənddə 38 təsərrüfatda 174 nəfər (91 kişi, 83 qadın) 1828-1829-cu illərdə İrandan gəlmə erməni qaçqınının məskunlaşdığı göstərilmişdir. Mənbədə kəndin yerli – türk-müsəlman əhalisindən heç kəsin qeydə alınmaması 1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı Avan kəndinin böyük dağıntılara məruz qalması və yerli əhalinin kənddən çıxarılması ilə bağlı olmuşdur.

Bu tarixi kənd haqqında İ.Şopen bir qədər ətraflı məlumat verərək buradakı üzüm sahələrinin və şirəxanaların xarabalıqlarının şimaldan Dzak kəndinin xarabalıqları ilə birləşdiyini, cə-

nubdan Qırxbulaq çayı boyunca İrəvana qədər uzandığını yazır. İ.Şopenin şəhadətinə görə, kəndin ərazisində 800 evin, bir neçə kilsənin, dəyirman və körpünün xarabalıqları dururmuş.

İ.Şopenin kənd haqqında verdiyi maraqlı məlumatlardan biri də onun bu kəndin VI yüzildə patriarx İohannın Ovais adlandırdığı kənd olması barədəki ehtimalıdır. Bu, həmçinin kəndin etimologiyasının açarıdır.

Belə ki, tarixi adının **Ovais** (əslində **Obauz**) olması burada qədimdən **Uz** türk tayfalarının məskunlaşmasını təsdiq edir. Sonralar kəndin Ovais (Oba-uz) adı **Avan** (əslində kənd anlamında **Oba//Ova** sözündəndir) şəklinə düşmüşdür.

1728-ci ilə aid mənbədə kəndin adının **Aran** adlanması da texniki (**v** əvəzinə **r**) səbəbdən əmələ gəlməmişdir. Məsələ ondadır ki, burada yaşayanlar Aran türk tayfasından olmuşlar.

1873-cü ilin statistikasında Qırxbulaq mahalının **Avan kəndində** 50 təsərrüfatda 316 nəfər (161 kişi, 155 qadın) erməni və bir monastır xarabalıqları qeydə alınmışdır.

1886-cı ildə kənd əhalisinin sayı 60 təsərrüfatda 416 nəfərə (216 kişi, 200 qadın) çatmışdır.

Kəndin VI yüzildən mövcud olduğu, 590-611-ci illərdə burada katolikosun oturduğu məlumdur.

Cənubi Qafqaz, o cümlədən Qərbi Azərbaycan ərazisində vaxtilə eynikköklü çoxlu toponimlər mövcud olmuşdur: İrəvan əyalətinin Gərni nahiyəsində Avanik kəndi, Avanlıbulaq məzrəsi, XVI yüzildə Çuxur Səəd vilayətində Avanasar (əslində Avan+hasar) kəndi, XVIII yüzildə Tiflis quberniyasının Telavi qəzasında Avanis-Xevi, ("Avan dərəsi"), Borçalı qəzasında Ovandərə, Batum əyalətində Avana kəndləri, Qarabağda Evan kəndi və s.

XIX yüzildə Türkiyədə Avanos qəzası, Şimali Qafqazın Ter əyalətində Oban kəndi də qeydə alınmışdır.

Tədqiqatçılar (B.Budaqov və Q.Qeybullayev) belə ehtimal edirlər ki, bu kəndin adı əhalinin hərəkəti ilə əlaqədar olaraq Şərqi Anadoludan gətirilmədir (1648-ci ilə aid məlumatda Anadolunun Van əyalətində Avan mahalının adı çəkilir). Müəlliflərin bu fikri ilə qətiyyən razı olmasaq da (xatırladırıq ki, 1577-ci ildə II Şah İsmayılın fərmanında Ağrıdağ vadisində Avanik adlı kaənddən bəhs olunur), onların belə bir mülahizəsi ilə şərikik ki,

bu tipli toponimlər, əsasən, er. əv. VII yüzildə sakların tərkibində qarqarlarla yanaşı gəlmiş **Aban** tayfasının adını əks etdirir. Bunu keçmişdə İranda Şiraz-Kirman yolunda mövcud olan Aban kənd adı da təsdiq edir.

Göründüyü kimi, **avan** sözünün erməni dilində olması və bu dildə toponimlərə qoşularaq kənd mənası bildirməsi barədəki cəfəngiyyatların heç bir elmi əsası yoxdur.

Professor Firidun Ağasıoğlu isə Urartu dilindəki **Ebani** (**Aban** adının urartuca yazılışı) sözünün qədim türkcədə **oba** komponentindən və urartucada **-ini** şəkilçisindən ibarət olması fikrində tamamilə haqlıdır.

Yeri gəlmişkən, B.Budaqov və Q.Qeybullayevin belə bir fikri ilə də qəti razılaşmırıq ki, erməni dilindəki **vank** (azərbaycanca vəng) sözü mənşəcə fars dilindəki ölkə anlamında **van** sözündəndir. Əslində isə **van** komponenti türkcədəki **ban** sözündən başqa bir şey deyil. Bu, **Aban** etnoniminin **oba//ova** anlamı ilə yanaşı, **Ağban** sözündən yaranması, **Aban//Avan** şəklinə düşməsi ehtimalını da doğurur.

AZAKLAR

Qırxbulaq mahalında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

Kənd haqqında yeganə məlumata İ.Şopendə (1832) Qırxbulaq mahalının xaraba kəndləri sırasında **Azaklar kəndi** şəklində rast gəlirik. Bu, kəndin 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı xarabalığa çevrilməsinə, sonralar isə bir daha bərpa olunmamasına dəlalət edir.

Tədqiqatlarda Azaklar oykonimini kəndin əsasını qoyan nəslin adını daşıması və eranın əvvəllərində Şimali Qafqazda yaşamış **Yazık** tayfasının adından olması ehtimal olunur (B.Budaqov, Q.Qeybullayev). Xatırladırıq ki, Yazık tayfası peçeneqlərin bir qolu olmuşdur.

Tədqiqatçıların bu versiyasına qarşı çıxmağa elə bir ciddi əsasımız olmasa da, bizcə, Azaklar toponimini eyni kökdən olan Yazık tayfa adı ilə yox, məhz **Az** türklərinin adı ilə izah etmək daha elmi olardı. **Azak** (Yazık onun fonetik variantıdır) etnonimi ilkin variantında məhz **Az-ok//ox** şəklində **Az tayfası** anlamındadır. Beləliklə, Azaklar etnonimi Yazık etnonimindən daha çox əslinə (ilkin variantına) uyğun və daha qədimdir.

Toponimin tərkibində **zak//sak** komponentinin mövcudluğunu da diqqətdən qaçırmaq olmaz. Bölgədə **Zak//Zaq//Dzak** kənd adının mövcudluğu da oykonimin etimoloji izahı zamanı **zak//sak** amilini qabartmağa əsas verir.

BALLICA

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 10-12 km cənub-şərqdə, Qırxbulaq çayının yuxarı axarında, Cadqıran kəndi yanında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Ballıca kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə kəndin **İbrahim Əli oğlunun** timarı olduğu, bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürdüyü göstərilmişdir.

Sonralar, təxminən XVIII yüzilin ikinci yarısında bir-birini əvəz edən İran və Osmanlı yürüşləri zamanı Ballıca kəndi xarabalığa çevrilmiş və Qırxbulaq mahalı ərazisində Cadqıran kəndindən bəhs edən İ.Şopen (1832) burada **Ballıca kəndinin** və Surb Sarkis kilsəsinin xarabalıqlarının yerləşdiyi barədə məlumat da vermişdir.

Sonrakı mənbələrdə kəndin adına bir daha rast gəlməməyimiz onun sonralar bərpa olunmamasına dəlalət edir.

Qərbi Azərbaycan ərazisində Ballıca adlı və Ballı komponentli (məsələn, Zəngəzurda Ballıqaya kəndi və eyniadlı dağ) bir sıra toponimlər mövcud olmuşdur.

BAŞ GƏRNİ (GƏRNİ, GÖQAM, GÖGKƏND)

Gərnibasar mahalının dağlıq hissəsində, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 32 km cənub-şərqdə, Gərni çayının sağ kənarında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri nəticəsində kənd xarabalığa çevrilmiş, 1830-cu illərdən sonra kənddə İrandan köçürülüb gətirilmiş ermənilər məskunlaşmışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) və "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Karni kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 23.000 ağça gəlir götürdüyü də qeyd olunmuşdur.

İ.Şopendə (1832) **Baş Gərni** adı ilə Gərnibasar mahalının xaraba kəndləri sırasına daxil edilmişdir. Bu, kəndin 1826-1829-cu illər Rusiya-İran, Rusiya Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalmasına dəlalət edir.


I.Şopen "Ərməniyədə qədim şəhər" adlandırdığı Baş Gərni kəndinin tarixi haqqında maraqlı məlumatlar da verir. O, şəhərin salınması ilə bağlı M.Xorenlinin aşağıdakı məlumatını xatırladır: **"Geqam (Gögqam – Ə.Ə.) Göyçə gölü sahillərindən Araz düzənliyinə qayıdıb, bir dağın dibində, yaxşı möhkəmləndirilmiş vadidə şəhər saldı və onu Geqam adlandırdı. Sonralar şəhər adını Geqamın nəvəsi Qarmın adına güzəştə getdi və Gərni adlandı".**

Göründüyü kimi, bu, M.Xorenlinin şəhərin tarixi ilə bağlı bu versiyasında Karni//Gərni toponiminin Qar-qar//Gər-gər//Her-her türk tayfasının adını daşıması fikri göz qabağındadır. Xatırladaq ki, İrəvan çuxurunda qədimdən məskunlaşan Qarqarların adı ilə burada çoxlu toponimlər olmuşdur. İrəvan xanlığı ərazisindəki 15 mahaldan ikisinin (Karbi//Qarbi və Karni//Gərni) bu etnonimdən yaranması da dediyimizi təsdiq edir.

Beləliklə, bir daha xatırladırıq ki, M.Xorenlidə Siyuni əyalətinin Gögərkuni dairəsi tərkibində Gərni şəhəri kimi qeydə alınan bu oykonim qədimdə **Geqam, Gögkənd** də adlanmışdır.

Baş Gərni şəhərinin Ərməniyə tarixində xüsusi yeri olmuşdur. Çar **Tiridat** bu şəhərdə dördkünc yonulmuş daşdan qala tikdirmiş,

bacısı **Xosrovduxtun** xatirəsinə burada saray ucaltmış, bu əsrarəngiz sənət nümunəsinin üzərində yunan dilində öz adını yazdırmışdır. Vaxtilə burada yunanların hərbi qarnizonları yerləşirmiş, bölgəyə gələn dövlət nümayəndələri bu qalada dayanarmışlar.



Gərni məbədinin xarabalıqları


I yüzildə yunan arxitektura üslubunda tikilmiş bu məbəd XVII yüzildə zəlzələ nəticəsində dağılmış, 1969-1974-cü illərdə yenidən bərpa olunmuşdur.

Gərni şəhərində patriarx II Qriqori (867-897) və onun xələfi patriarx Maşos dəfn edilmişlər.

Çariça Tamaranın vaxtında (1184-1207) Gərni qalası onun tabeçiliyində olmuş, Xarəzm hökmdarı Sultan Cəlaləddin bu qalanın divar-

ları önündə gürcü qoşunlarını darmadağın etmiş, gürcülər Gərnibasar dərəsinin şimal hissəsinə qaçıb, böyük bir mağarada gizlənmişlər.

Lakin təəssüf ki, Arman türklərinin bu qədim xristian mərkəzi sonralar öz funksiyasını itirdikcə əhəmiyyətini də itirmişdir. Hətta 1826-1828-ci illər Rusiya-İran müharibəsi zamanı qala-kənd darmadağın edilmiş, türk-müsəlman əhalisi qovulub çıxarılmışdır. 1830-cu illərdən sonra burada İrandan gəlmə ermənı mühacirləri yerləşdirilmişlər. Belə ki, 1873-cü ilin statistikasında **Baş Gərni** kəndində 92 təsərrüfatda 809 nəfər (421 kişi, 388 qadın) erməni əhali və kəndin kənarında monastır və monastır xarabalıqları qeydə alınmışdır.



Gərni qalasının bugünkü qalıqları

1886-cı ildə kənd əhalisinin sayı 115 təsərrüfatda 1.236 nəfərə (661 kişi, 575 qadın) çatmışdır.

Kəndin İrəvan qəzasında **Çatmabulaqyurd** adlı yaylaq yeri olmuşdur. 1886-cı ilə aid mənbədə həm də **Baş Gərni kəndinin** yaxınlığında 275 desyatin ərazini əhatə edən **Dəvəboyun** (əslində **Dəvəboynu** – Ə.Ə.) adlı otlaq yerindən bəhs olunur.

Kiçik Gilənar kənd sakini **Xudaverdi Əlipənah oğlunun** Baş Gərni kəndinin **Tülküdərəsi** adlı 16 desyatin otlaq yerini ili 21 rubla 1884-1887-ci illər üçün icarəyə götürdüyü də həmin mənbədə qeyd olunmuşdur. Kəndin ərazisində **Gərniçay** adlı biçənək, **Cənnətdərəsi** adlı otlaq sahələri də olmuşdur. Kəndin torpaqları **Məmmədəlibulaq, Əlibulaq** və **Anabulaq** bulaqlarının suyu ilə suvarılmışdır.

1935-ci il yanvarın 3-də kəndin Baş Gərni adı dəyişdirilərək sadəcə **Gərni** qoyulmuşdur.

BAŞKƏND (ƏRAXUS)

Qırxbulaq mahalında, Qırxbulaq çayı kənarında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 6 km şərqdə, Ağazor kəndi yaxınlığında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1828-1829-cu illərdə kənddən qovulmuş azərbaycanlıların boş evlərində İrandan köçürülüb gətirilmiş ermənilər yerləşdirilmişlər. Sonralar kənd ermənilərlə müsəlman kürdlərinin yanaşı yaşadığı qarışıq kənd olmuşdur.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin **Əraxus kəndi**, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Araxos kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə kəndin digər adının **Başköy** olduğu və burada **İbrahim** adlı şəxsin timarından dövlətin müxtəlif vergilər şəklində ildə 5.000 ağça gəlir götürdüyü də qeyd olunmuşdur.

1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı kəndin türk-müsəlman əhalisi qovulub çıxarılmış və burada İrandan gəlmə 2 təsərrüfatda 9 nəfər (4 kişi, 5 qadın) erməni məskunlaşdırılmışdır.

Bununla belə, kəndin **Səlim bəyin** tiyul kəndi olduğu, bu tiyulun ona Mirzə İsmayıl tərəfindən verildiyi də İ.Şopendə qeyd edilmişdir.

Sonralar kənddə məskunlaşan gəlmə ermənilərin sayı artmış və 1873-cü ilin siyahıyaalması zamanı kənddə 61 təsərrüfatda 494 nəfər (260 kişi, 234 qadın) erməninin, 1 təsərrüfatda 8 nəfər (5 kişi, 3 qadın) müsəlman kürdünün yaşadığı göstərilmişdir. Üstəlik, kənddə dördkünc qala və kilsə xarabalıqları da qeydə alınmışdır.

Yeri gəlmişkən, İ.Şopendə (1832) və sonrakı mənbələrdə (1873, 1886...) kəndin adı **Başkənd** kimi verilmişdir. İ.Şopen isə bu kəndin əslində qədim Kotayk vilayətinin **Aynaberis (Bulaqlar)** kəndi olması ehtimalını irəli sürür və burada dördkünc qala və qədim kilsə xarabalıqlarından söhbət açır, Qırxbulaq çayının ən yuxarı mənbəyinin bu kəndin kənarında yerləşdiyini yazır. .

1886-cı ildə kənddə 86 təsərrüfatda 684 nəfər (365 kişi, 319

qadın) erməni, 1 təsərrüfatda 13 nəfər (7 kişi, 6 qadın) müsəlman kürdü yaşamışdır.

Sovet dövründə ermənilər kəndin adının ikinci hissəsini ermənicəyə çevirərək **Başgyuğ** (yəni **Başkənd**) kimi yazmış, 1946-cı il aprelin 4-də isə Başgyuğ adını dəyişdirərək onu **Akunk** adlandırmışlar.

Kəndin ilkin – **Araxus** adının etimoloji izahının tədqiqatçılar B.Budaqov və Q.Qeybullayev tərəfindən verilən iki variantından (1. Azərbaycan dilində **ara (yer)** və qədim türk dillərində **küz (payız)** sözlərindən ibarət; 2. türk dillərində **örək (qala)** sözündən və **us** şəkilçisindən ibarət) heç birini məqbul saymırıq. Bizcə, burada söhbət ancaq **Ər-ağ-uz** komponentlərindən gedə bilər və təbii ki, Əraxus toponimi **Ağ Uz** və ya **Ok Uz (Oğuz)** ərləri anlamında Oğuz türklərinin adını daşıyan bir etnotoponimdir.

Bu etnotoponimin **Axıs//Haxıs** variantlarına da Cənubi Qafqazda yetərincə sıx-sıx rast gəlməkdəyik. "Qərbi Azərbaycan" oncildliyinin 1-ci cildində Vedibasar mahalının Haxıs kəndindən danışarkən Axıs//Haxıs oykonimi, onun etimoloji izahı, yayılma arealı barədə ətraflı bəhs etmişik.

* * *

Hadis dağının ətəyində, Başkənd kəndinin yaxınlığında **Ocaqbulaq** adlı bulaq yerləşirdi. Bu bulağın suyundan Aramus və Ağazor kəndləri istifadə edirdi.

BƏZƏKLİ

Qıxbulaq mahalında, Cadqıran və Kamal kəndləri yaxınlığında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. Ondan sonra kənddə İrandan, Türkiyədən gəlmə ermənilər məskunlaşmışlar.

İ.Şopendə (1832) **Bəzəkli** adı ilə Qırxbulaq mahalının xaraba kəndləri sırasında verilmişdir. Bu, kəndin İrəvan xanlığının Rusiya tərəfindən işğalı zamanı dağıdıldığını göstərir.

Sonralar kənd yenidən bərpa olunmuşdur. Belə ki, 1886-cı ilə aid mənbədə **Bəzəkli** kəndindən, kəndin kənarındakı **Bəzəkli** bulağından bəhs olunur. Bu bulağın suyundan Cadqıran kəndi ilə yanaşı, mülkədar kəndləri olan Bəzəkli və Kamal kəndlərinin də istifadə etdiyi qeyd olunur.

1917-ci ilə aid mənbələrdə **Bəzəkli** ermənilər yaşayan kənd kimi qeydə alınmış və bu kəndin ermənilərinin Cadqıran, Başkənd, Civriş və b. kəndlərin ermənіləri ilə birlikdə silahlanıb, Qırxbulaq mahalının türk-müsəlman kəndlərinə hücum etdiyi göstərilmişdir.

BOZKOSA (BOZÇALI, BABAXANLI, BABALAR)

Gərnibasar mahalının dağlıq hissəsində, Ellər rayonu ərazisində, Üçtəpələr dağı ətəyində kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Gərni nahiyəsinin **Babalar kəndi,** "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə həmin nahiyənin başqa adı **Babaxanlı** olan **Bozçalı kəndi** kimi qeydə alınmış, üstəlik ikinci mənbədə kəndin Əli adlı şəxsin timarı olduğu, bu timar-kənddən dövlətin ildə 3.000 ağça məbləğində vergi götürdüyü də qeyd edilmişdir.

Kəndin Bozçalı adının XV yüzildə Qızılbaşların **Bozcalı** tayfasının məskunlaşması nəticəsində yarandığı ehtimal olunur (B.Budaqov, Q.Qeybullayev).

Kəndin adına bir də 1873-cü ilin statikasında **Bozkosa kəndi** kimi rast gəlirik. Gərnibasar mahalının dağlıq hissəsində, **Üçtəpələr dağı** ətəyində yerləşdirilən kənddə bu vaxt 12 təsərrüfatda 99 nəfər (52 kişi, 47 qadın), 1886-cı ildə isə 17 təsərrüfatda 141 nəfər (87 kişi, 54 qadın) Azər türkü qeydə alınmışdır.

Kənd əhalisinin sayı 1897-ci ildə 161 nəfər, 1905-ci ildə 154 nəfər, 1914-cü ildə 225 nəfər olmuşdur.

1918-ci ildə kənd erməni daşnakları tərəfindən dağıdılmış, əhalisinin bir hissəsi vəhşicəsinə qətlə yetirilmiş, sağ qalanlar doğma yurdu tərk etməyə məcbur olmuşlar.

1930-cu illərdə kənd yenidən bərpa olunmuş, 1940-cı illərdə ləğv edilmişdir.

Çar Rusiyası dövründə Baş Gərni kənd icması tərkibində mövcud olan kənd Sovet dövründə Cadqıran sovetliyinə daxil idi.

Kənd evlərinin xarabalıqları və kənd qabiristanlığının qalıqları son vaxtlara qədər qalmaqda idi.

CADQIRAN//ÇATQIRAN (AĞDOST)

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 12 km cənub-şərqdə, Qırxbulaq çayının yuxarı axarında, Ballıca kəndi yanında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. Türkmənçay bağlaşmasından sonra İrandan köçürülüb gətirilmiş ermənilərin bir hissəsi də bu kənddə yerləşdirilmiş və həmin vaxtdan XIX yüzilin ortalarına qədər kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. XIX yüzilin ortalarında kənd bütünlüklə ermənileşdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin **Çatqıran kəndi** kimi qeydə alınmış, kəndin əsas adının **Ağdost** olduğu göstərilmişdir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsi ərazisində **Çatqıran** adı ilə iki kənd siyahıya alınmışdır. Bunlardan biri müsəlman, ikincisi isə zimmi, yəni xristian kəndi kimi verilmişdir. **Müsəlman Çatqıranı** kəndinin **Əli** adlı şəxsin timarı olduğu və bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 4.500 ağça gəlir götürdüyü, **zimmi Çatqıranından** isə dövlət xəzinəsinə ildə 5.000 ağça gəlir daxil olduğu qeyd edilmişdir.

İ.Şopendə (1832) Qırxbulaq mahalının **Çatqıran kəndi**, sonrakı statistikalarda (1873, 1886...) isə **Cadqıran kəndi** kimi yazıya alınmışdır.

Xatırladırıq ki, Qərbi Azərbaycan ərazisində Cadqıran adlı üç kənd olmuşdur - Vedibasar mahalında, Qırxbulaq mahalında və Əştərək rayonunda. Bunlardan biri - Vedibasar mahalının Cadqıran kəndi haqqında bu kitabın 1-ci cildində ətraflı bəhs etmişik. Bir daha təkrar edirik ki, Cadqıran toponiminin ilkin variantı, görünür, Çatqıran şəklində olmuş və toponim **çat** və **qıran** komponentlərindən yaranmışdır. **Çat** sözü türk dillərində **"yarğanın kənarı"**, **"dağ beli"**, **"dağ çıxıntısı"**, **"qayalı yüksəklik"** və s. mənalar bildirmişdir. Vaxtilə (XIII yüzildə) Dağlıq Qarabağ ərazisində Çat-Çoran kəndinin, XIX yüzildə Şimali Qafqazda Çat-Başı, Çat-Aman dağlarının, Qars dairəsində Çatköy kəndinin mövcudluğu da deyilənləri təsdiq edir. Hətta Qırğızıstanda da

Çat-Bel, Sarı Çatı, Çat-Bazar dağları mövcud olmuşdur.

Toponimin **qran//qıran** komponenti isə, 1) türkmənşəli **Kiran** tayfasının adını da bildirə bilər (orta yüzillərdə Tovuz ərazisində Kiran qalası, sonralar isə burada Xınna Kirən, Quşçu Kirən kəndləri olmuşdur); 2) qədim türk dillərində "**hərbi düşərgə**" anlamındakı **kuren, quran, kuran** sözlərindən törəmə də ola bilər; 3) **qırılmış, sınmış, kəsilmiş** mənalarını daşıya da bilər.

1831-ci ildə Qırxbulaq mahalının **Çatqıran kəndində** 4 təsərrüfatda 19 nəfər (10 kişi, 9 adın) Azər türkü, 11 təsərrüfatda 50 nəfər (24 kişi, 26 qadın) İrandan köçürülüb gətirilmiş erməni sıyahıya alınmışdır. Görünür, az sonra bu gəlmə ermənilər ayaqlarına yer edərək yerli türk əhalini kənddən sıxışdırıb çıxarmışlar. Belə ki, 1873-cü ilin statistikasında kənddə ancaq erməni əhalinin – 83 təsərrüfatda 725 nəfərin (402 kişi, 323 qadın) yaşadığı göstərilmişdir. Həmin statistikada kəndin yanında iki tarixi tikilinin – Ballıca kəndinin və **Surb Sarkis kilsəsinin** xarabalıqları da qeydə alınmışdır.

Bu yerdə bir maraqlı məqama da aydınlıq gətirməyi vacib bilirik. Birincisi, məsələ ondadır ki, İ.Şopenin siyahıyaalmasından XIX yüzilə qədər bu kənddə ermənin yaşamadığı tam aydın olur. Bu, təsdiq edir ki, 1728-ci ilə aid "İrəvan əyalətinin icmal dəftəri"ndəki zimmi (yəni xristian) Cadqıranın əhalisi müsəlman olmasalar da, erməni (hay) də olmamışlar. İ.Şopen təsdiq edir ki, bu kəndə ilk ermənilər 1828-1829-cu illərdə İrandan köçürülüb gətirilmişlər.

1886-cı ildə kəndin erməni əhalisinin sayı 114 təsərrüfatda 941 nəfərə (518 kişi, 423 qadın) çatmışdır.

Cadqıran kəndinin Yeni Bayazid qəzasının **Oyuxlu yaylağında**, kənddən 15 verst aralıda, 402 desyatin ərazini əhatə edən **Oyuxluyurd** adlı yaylaq yeri olmuşdur. Kənd camaatı bu yaylaqdan 1860-cı illərdən bəri istifadə etmişdir.

1935-ci il yanvarın 3-də Cadqıran kəndinin adı dəyişdirilərək **Razdan**, 1967-ci il oktyabrın 21-də yenidən dəyişdirilərək **Gehaşen** qoyulmuşdur.

CİVRİŞ

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 16 km cənubda, Qırxbulaq çayının sol tərəfində, İrəvan-Gərni (Baş Gərni) avtomobil yolunun kənarında kənd.

1828-ci ilə qədər kənddə Azər türkləri ilə ermənilər yanaşı yaşamışlar. İrəvan xanlığının ruslar tərəfindən işğalından sonra kəndin müsəlman əhalisi qovulmuş, onların boşalmış evlərinə İrandan köçürülüb gətirilmiş ermənilər yerləşdirilmişlər. Az sonra kəndin müsəlman əhalisi geri qayıtmış və 1905-ci ilə qədər kənd yenidən azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1905-ci ildə bölgədə azərbaycanlıların soyqırımı zamanı kənd müsəlmanlardan təmizlənmiş və təmamilə ermənileşdirilmişdir.

Kəndin adına ilk dəfə eradan əvvəl Böyük Armaniyanın Ararat əyalətinin Kotayk dairəsinin **Cervej kəndi** şəklində M.Xorenlidə (V yüzil) rast gəlirik.

"İrəvan əy alətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin **Cevriş kəndi**, İ.Şopendə (1832) Qırxbulaq mahalında **Cüvriş kəndi**, sonrakı statistikalarda (1873,1886...) isə **Civriş kəndi** kimi qeydə alınmışdır.

Toponimin etimologiyası ilə bağlı konkret fikir yoxdur. Lakin üç versiya ehtimal etmək olar. 1. **Civə** toponimi Səlcuq türklərinin **Yivə** tayfasının adından yaranmış, fonetik dəyişikliklə Civə şəklinə düşmüşdür; bu versiyanı qonşu Qəmərli rayonu ərazisində Yuva kənd adının və Dərələyəz mahalında həmin etnonimin fonetik dəyişikliyə uğramış forması olan Civə oykoniminin mövcudluğu da əsaslandırır. 2. Cevriş//Civriş toponiminin ilkin forması sadəcə **Devriş//Dəvriş** (**Dərviş** sözünün yerli tələffüz forması) şəklində olmuş, **d-c** əvəzlənməsi ilə rəsmi sənədlərə düşmüşdür; bu mülahizəyə bölgədə Dərviş adlı və ya komponentli çoxlu toponimin mövcudluğu qüvvət verir. 3. Nəhayət, kəndin ilkin adı **Cüvüriz** (**cüvür** – "**cüyür**" sözünün yerli tələffüz formasıdır) olmuş, toponimin ikinci komponenti **iz-is-iş** dəyişikliyinə uğrayaraq Cüvüriş şəklinə düşmüşdür. Bunu toponimin Cüvriş formasının Civriş formasından ilkin olması, yalnız XIX yüzilin ortalarından sonra adın Civriş şəklinin işlədilməyə başlanması da təsdiq edir. Təbii ki, bütün bunlar toponimin etimoloji izahının mümkün versiyalarıdır.

Nəhayət, toponimin etimoloji izahında bu versiyaların hər birindən daha artıq önəm verdiyimiz bir versiya da irəli sürmək istərdik.

O da adın Azər xalqının formalaşmasında yaxından iştirak edən **Subar** türklərinin adını daşımasıdır. Er. əv. IV-II minilliklərdə İkiçayarasında yaşayan, sonra şərqə, qərbə və şimala doğru geniş ərazilərə yayılan, **Sabir//Savir//Sibir** türkləri kimi tanınan, er. əv. I minilliyin əvvəllərində tarixə **Subar bəyliyi** kimi müstəqil dövlət təqdim edən Subar türkləri barədə professor F.Ağasıoğlu ayrıca tədqiqat aparmışdır. (Ətraflı məlumat üçün bax: "Azər xalqı" kitabı, səh.156-162).

Biz isə Civriş toponiminin Subarlarla bağlılığı barədə onu əlavə etmək istərdik ki, **Subar – "sub-ər"** şəklində olmaqla **"su adamı"** anlamı verdiyi kimi, **Subar** sözü də sonralar **cuvar** şəklinə düşərək **"suvarma suyunu bölüşdürən adam"** mənasında bu gün də geniş işlənməkdədir ki, bu söz Civriş//Cuvariş toponimində də öz əksini tapmışdır.

1831-ci ildə Qırxbulaq mahalının **Cüvriş** kəndində 22 təsərrüfatda 103 nəfər (54 kişi, 49 qadın) "yerli", yəni Türkmənçay bağlaşmasına qədər burada yaşamış və 1 təsərrüfatda 5 nəfər (2 kişi, 3 qadın) İrandan köçürülüb gətirilmiş erməni qeydə alınmışdır.

Kəndin **Hümbət bəy** və **Hacı bəy** qardaşlarının tiyul kəndi olduğu da İ.Şopendə qeyd edilmişdir.

İ.Şopen kəndin tarixi ilə bağlı da maraqlı versiya irəli sürür. O, yazır: "Ola bilər ki, bu, Moisey Xorenlinin xatırlatdığı **Crvej** kəndidir. O, Dvindən o qədər də uzaq olmayan məsafədə yerləşmiş və adını kəndin ərazisinin suvarıldığı bol sulu bulaqdan almışdır. Buradakı qədim kilsə kifayət qədər salamat qalmışdır". İ.Şopenin bu mülahizələrində kəndin bol sulu ərazidə yerləşməsi barədəki fikri toponimin Subar//Cuvar şəklində yozumunu da təsbit edir.

1873-cü ilin statistikasında kəndin adı **Civriş//Civrişi** və İ.Şopenin təsiri altında erməni tələffüzünə uyğun **Crvej** şəklində verilmiş, burada 5 təsərrüfatda 43 nəfər (20 kişi, 23 qadın) Azər türkünün, 43 təsərrüfatda 301 nəfər (170 kişi, 131 qadın) erməninin yaşadığı göstərilmişdir. 1886-cı ildə kənd əhalisinin sayı aşağıdakı kimi dəyişmişdir: 5 təsərrüfatda 31 nəfər (19 kişi, 12 qadın) Azər türkü, 60 təsərrüfatda 428 nəfər (230 kişi, 198 qadın) erməni.

1897-ci ildə yenidən **Civriş** kimi yazıya alınan kənddə 38 nəfər, 1905-ci ildə 34 nəfər azərbaycanlı qeydə alınmışdır ki, onlar da 1905-ci ildə bölgədə azərbaycanlıların soyqırımı zamanı erməni daşnakları tərəfindən qovulmuşlar.

Sovet dövründə kəndin adı erməni tələffüzünə uyğunlaşdırılaraq **Crvej** şəklində rəsmiləşdirilmişdir.

ÇAYQAYTARA (GEDƏRGƏL)

Qırxbulaq mahalında, Zak kəndi yaxınlığında kənd.
Kənddə ancaq Azər türkləri yaşamışlar.

Kəndin adına yalnız İ.Şopendə (1832) **Çayqaytara və ya Gedərgöl** adı ilə Qırxbulaq mahalının xaraba kəndləri sırasında rast gəlirik. Bu fakt özü təsdiq edir ki, kənd xalis türk kəndi olmuş və rusların İrəvan xanlığını işğal etdiyi zaman dağıdılmışdır. Sonrakı mənbələrdə kəndin adına bir daha rast gəlməməyimiz isə onun elə o vaxtdan xaraba qalması ilə bağlıdır.

Toponimin etimoloji izahına keçməmişdən əvvəl İ.Şopenin kəndin tarixi ilə bağlı maraqlı qeydlərini nəzərə çatdırmağı vacib bilirik. Əvvəla, xatırladaq ki, İ.Şopen bu toponimin Gedərgöl adının özünü də iki variantda vermişdir: **Gedərgöl** və **Gedərgəl**. Sonra əlavə etmişdir ki, adın Gedərgəl variantı tatarca (**azəricə** – Ə.Ə.) elə **Çayqaytara** mənasındadır. Kəndin dünəni və mövcud görünüşü ilə bağlı isə İ.Şopenin qeydləri aşağıdakı kimidir: **"Nə vaxtsa Dzak (*Zak* – Ə.Ə.) kəndi üstündə olan bu kənd indi boşalmışdır və Eçmiədzin monastırına baxır. Bu kənddə məşhur monastır olub, orada sehrli xaç saxlanıb. Yerli əhalinin danışdığına görə, o xaç Qırxbulaq çayının axmasının qarşısını alıb və Çayqaytara adı da buradan yaranıb".**

Göründüyü kimi, İ.Şopen də dolayısı ilə təsdiq edir ki, yerli əhali türk olub. Sonra isə İ.Şopen yazır ki, erməni yazıçılarının yazdığına görə, bu sehrli xaç katolikos Petrosa məxsus olub. Eçmiədzin kilsəsində saxlanan bu xaç gümüşdəndir və qızıl suyuna çəkilmişdir. Həmin monastırda müqəddəslər Sarkis və Kirakosun qolları da saxlanırmış. İndi burada yalnız monastırın və kilsənin xarabalıqları qalır. Günbəz uçub tökülmüşdür.

Həmin monastır haqqında ilk məlumatı M.Xorenlidən alırıq. Eradan əvvəl Böyük Armaniyanın Ararat əyalətinin Kotayk dairəsi tərkibində **Gedərgəl kənd-monastırı** kimi qeydə alınan oykonim iki min il ərzində, demək olar ki, öz türk adını qoruyub saxlamışdır. Xatırladırıq ki, **Gedər** toponimi İrəvan şəhərnin içindən axan **Gedər çayının** adında da günümüzə qədər yaşamışdır.

Bəs Gedərlər kimdir? **Gedərlər** er. əv. II-I minilliklərdə Midiya, Albaniya və Armaniya ərazilərində ən sıx halda yaşayan türk tayfalarından olmuşlar. Bu barədə Z.Yampolskinin Qafqaz Albaniyasına dair tədqiqatlarında maraqlı faktlar var. Gedərlərin Xəzərlər olması fikri isə yuxarıdakı elmi qənaətə yeni istiqamət verir.

ÇOBANGÖRÜKMƏZ//ÇOBANGƏRƏKMƏZ (QAŞQAYOL)

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 20-22 km şimal-şərqdə, Zəngi çayının yuxarı axarında, Göykilsə kəndi yaxınlığında, dağlar qoynunda kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Zebil nahiyəsinin **Çivangərəkməz kəndi** kimi qeydə alınmış, kəndin digər adının **Qaşqayol** olduğu göstərilmişdir.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Çobangərəkməz** kəndi kimi siyahıya alınmış, kəndin Göykilsə kəndi yaxınlığında yerləşdiyi, **Məhəmməd İbrahim oğluna** timar kimi verildiyi, bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürdüyü qeyd olunmuşdur.

1826-1829-cu illərdə böyük dağıntılara məruz qalan kənd İ.Şopendə (1832) **Çobangərəkməz** adı ilə Qırxbulaq mahalının xaraba kəndləri siyahısına daxil edilmişdir.

Lakin sonralar kənd yenidən məskunlaşmış və 1873-cü ilin siyahıyaalması zamanı adı **Çoban Görükməz** kimi yazılan kənddə 7 təsərrüfatda 24 nəfər (16 kişi, 8 qadın) Azər türkünün yaşadığı barədə məlumat verilmişdir.

1886-cı ilin statistikasında adı iki variantda – **Çoban Gərəkməz** və **Çoban Görükməz** kimi yazıya alınan kənddə 5 təsərrüfatda 36 nəfər (17 kişi, 19 qadın) Azər türkü yaşamışdır.

Kənd əhalisinin sayı 1897-ci ildə 77 nəfər, 1905-ci ildə 88 nəfər, 1914-cü ildə 97 nəfər olmuşdur.

1918-ci ildə mahalın digər azərbaycanlı kəndləri kimi, Çobangörükməz kəndi də erməni daşnakları tərəfindən soyqırımına məruz qalmış, yurd-yuvasından didərgin salınan camaat Azərbaycanın Kəlbəcər bölgəsinə pənah apararaq burada kənd salmış, onu əvvəlki kəndlərinin adı ilə Çoban Gərəkməz adlandırmışlar.

1918-ci ildən sonra Qırxbulaq mahalının daşnaklar tərəfindən dağıdılmış bu kəndi bir daha bərpa olunmamış və elə o vaxtdan

xaraba qalmışdır.

Çobangörükməz və ya **Çobangərəkməz** oykoniminin birinci komponentinin (**Çoban**) peçeneqlərin **Çopan//Çupan** tayfasının adını daşıması barədə elmi ədəbiyyatda yekdil fikir mövcuddur. Yeri gəlmişkən, Çoban komponenti ilə Qərbi Azərbaycan ərazisində neçə-neçə toponim qeydə alınmışdır. Məsələn, Zəngibasar rayonunda Çobankərə, Dərəçiçək mahalında Çobangölü, Qafan rayonunda Çobanlı, Vedibasar mahalında Çobandərə kəndləri və s.

Çoban komponentli toponimlərin etimologiyası, Vedibasardakı Çobandərə kəndi ilə Qırxbulaq mahalının Çobangərəkməz kəndləri arasındakı bəzi oxşarlıq və paralellər haqqında bu kitabın 1-ci cildində Vedibasar mahalının Çobandərə kəndindən danışarkən ətraflı bəhs etmişik.

Toponimin ikinci komponentinə (**görükməz//gərəkməz**) gəldikdə isə, tədqiqatçılar B.Budaqov və Q.Qeybullayevin fikirlərinə görə, bu ifadələr əslində Azərbaycan dilindəki **qoruq** (xana, feodala məxsus olduğuna görə elin yaylaq üçün istifadə edə bilmədiyi yer) və türk dillərində "**dağın cənub yamacı**", "**dağın meşəsiz cənub hissəsi**", "**dağın gündüşən tərəfi**" anlamlı **mes** sözlərindən yaranmışdır.

Biz isə toponimlərin etimologiyasını bu qədər qəlizləşdirməyin tərəfdarı deyilik. Bizcə, konkret olaraq bu toponimdə istər **görükməz,** istərsə də **gərəkməz** komponentlərini indiki mənada başa düşmək lazımdır. Başqa sözlə, toponim həm **"çoban görükməyən"** (görünür, kənddən örüş yeri görünmürmüş), həm də **"çoban lazım olmayan"** mənalarında yozula bilər. Adın bu cür izahı onun **Çoban** etnonimindən törəmə olması versiyası ilə yanaşı, sadəcə **çoban** (sürü otaran) sözündən yaranması versiyasını da ortaya qoyur.

ÇÖLMƏKÇİ

Qırxbulaq mahalında kənd.

Kənddə yaşayan erməni əhalinin bura nə vaxt köçürülüb gətirilməyi barədə əlimizdə dəqiq məlumat yoxdur. Təkcə onu deyə bilərik ki, İrəvan xanlığının ruslar tərəfindən işğalına qədər kənd mahal ərazisində ermənilərin də yaşadığı tək-tək kəndlərdən biri olmuşdur.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin **Nork kəndi**, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Çölməkçi kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 5.040 ağça gəlir götürdüyü də göstərilmişdir.

Kəndin adına 1617-ci ilə aid bir alqı-satqı sənədində də rast gəlirik. Həmin sənədə görə, **Mirzə Nəsir** Nork kəndində 6 dəng torpaq sahəsini **Məhəmməd Sadıqdan** 9 tümənə satın almışdır.

İ.Şopendə (1832) Qırxbulaq mahalının **Çölməkçi kəndi** kimi siyahıya alınsa da, kəndin ermənicə adının **Nork** olduğu da göstərilmiş, kənddə 80 təsərrüfatda 378 nəfər (197 kişi, 181 qadın) "yerli", yəni Türkmənçay bağlaşmasına qədər də burada yaşayan, 10 təsərrüfatda 41 nəfər (24 kişi, 17 qadın) İrandan və 6 təsərrüfatda 35 nəfər (18 kişi, 17 qadın) Türkiyədən gəlmə erməni qeydə alınmışdır.

Kəndlə əlaqədar İ.Şopendə belə bir məlumat da var ki, Çölməkçi kəndində gözəl arxitekturaya malik qədim dördkünc kilsə də mövcuddur. Bundan əlavə, İ.Şopendə İrəvan xanlığı Rusiya tərəfindən işğal olunan zaman dövlətin xeyrinə müsadirə olunan bağlar sırasında Çölməkçi kəndində **Məhəmmədxan bağının** da adı çəkilir. Bu bağ haqqında kitabın əvvəlində mahalların iqtisadiyyatından danışarkən ətraflı bəhs etmişik.

Sonrakı mənbələrdə isə kəndin adına rast gəlmədik, onun hansı ad altında öz mövcudluğunu davam etdirdiyini dəqiqləşdirə bilmədik. Bununla belə, İrəvan şəhərinin ən iri yaşayış massivlərindən birinin (buradakı eyniadlı bazarın və s.) 1980-ci illərə qədər **Nork** adlanması qədim **Nork//Çölməkçi** kənd yerinin sonralar İrəvan şəhəri tərkibinə qatılıb, tarix səhnəsindən silinmə-

sini söyləməyə əsas verir

Toponimin etimologiyası ilə bağlı mövcud versiyalardan biri adın burada yaşayan əhalinin çölməkçiliklə, yəni dulusçuluq peşəsi ilə bağlı meydana gəlməsi fikridir. Kənddə sənətkarlıqla məşğul olan ermənilərin məskunlaşması bu versiyanı həqiqətə xeyli yaxınlaşdırır. İkinci versiya toponimin orta yüzillərdə Anadoluda yaşamış Danişmandlı türkmən tayfasının 24 boyundan birinin – Kolagirən boyunun çoxlu tirələrindən (Həsən Abdallı, Əyyublu, Xocalı, Çölməkçi, Çikdamlı, Darğalı, Dədəli, Darblı, Dür-Həsənli və b.) biri olan Çölməkçi tirəsinin adından törəməsidir. Bu tirə adlarının əksəriyyətinin bölgədəki yer-yurd adlarında daşlaşıb günümüzə qədər gəlib çıxması bu versiyanın həqiqətə daha yaxın olması qənaətini doğurur və biz sonuncu versiyada təkid edirik.

DAMAGİRMƏZ

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 12-14 km cənub-şərqdə Qırxbulaq çayının yuxarı axarında, Cadqıran kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin **Damagirməz kəndi** kimi qeydə alınmış, İ.Şopendə (1832) **Damagirməz** adı ilə Qırxbulaq mahalının xaraba kəndləri siyahısına daxil edilmişdir. Göründüyü kimi, rus işğalçılarının bölgənin müsəlman əhalisinə gətirdikləri fəlakət Damagirməz kəndindən də yan ötməmişdir.

Kənd adının etimologiyası ilə bağlı konkret fikir yoxdur. Lakin xatırladırıq ki, Ellər rayonuna yaxın ərazidə – Abaran rayonunda Danagirməz (bəzən Damagirməz kimi də qeyd olunub) kəndi mövcud olmuşdur. XVI yüzildə Qarabağın Bərdə sancağında bir el Danagirli adlanmış, XIX yüzildə Borçalıda Tanadağ, Qərbi Azərbaycan ərazisində Danasulağı, Danakeçidi, Gədəbəydə Danatəpəsi, Kəlbəcərdə Danaörüşü toponimləri qeydə alınmışdır.

Qırxbulaq mahalının Damagirməz kəndi sonralar yenidən məskunlaşmış və 1873-cü il siyahıyaalması zamanı burada 30 təsərrüfatda 254 nəfər (150 kişi, 104 qadın) Azər türkünün yaşadığı göstərilmişdir.

Kənd əhalisinin sayı 1886-cı ildə 41 təsərrüfatda 353 nəfərə (185 kişi, 168 qadın) çatmış, 1897-ci ildə 380 nəfər, 1914-cü ildə 474 nəfər olmuşdur.

1918-ci ilin əvvəllərində erməni-daşnak silahlı dəstələrinin bölgədə azərbaycanlılara qarşı törətdiyi soyqırımı nəticəsində kənd tamamilə məhv edilmiş, əhalisinin bir qismi qəddarcasına qətlə yetirilmiş, sağ qalanlar Arazın o tayına – Türkiyəyə, İrana pənah aparmışlar.

Kənd o vaxtdan xaraba qalmışdır. Evlərin və kənd qəbiristanlığının qalıqları Ellər rayonunun Cadqıran kəndi yaxınlığında son illərə qədər qalmaqda idi.

DAMCILI

Qırxbulaq mahalında, Ellər rayonu ərazisində, Başkənd kəndindən şimalda kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Damcılı kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə kəndin **İbrahim** adlı şəxsin timarı olduğu və bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) **Damcılı** adı ilə Qırxbulaq mahalının xaraba kəndləri sırasına daxil edilməsi kəndin 1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qaliasına dəlalət edir.

Sonrakı mənbələrdə kəndin adına bir daha rast gəlməməyimiz isə onun elə o vaxtlardan xaraba qaldığını, sonralar bərpa olunmadığını söyləməyə əsas verir.

Tədqiqatçıların (B.Budaqov, Q.Qeybullayev) fikrincə, kənd öz adını oradakı **Damcılı** bulağının adından almışdır.

Abaran rayonu ərazisində də Damcılı adlı kənd mövcud olmuşdur.

DƏLLƏKLİ

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 14-15 km şimal-şərqdə, Zəngi çayının yuxarı axarında, Hadis dağı ətəyində, dəniz səviyyəsindən 2006 m yüksəklikdə, Quyubulaq (**Quyulu** – Ə.Ə.) və Qaracalar kəndləri yaxınlığında kənd.

1918-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1918-1920-ci illərdə kənddə Türkiyədən gəlmə erməni qaçqınları da yerləşdirilmiş və 1948-ci ilə qədər kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1948-ci ildə kəndin türk-müsəlman əhalisi Azərbaycana deportasiya olunmuş və kənd bütünlüklə erməniləşdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin **Debikli kəndi**, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Qırxbulaq nahiyəsinin **Dəlikli//Dəlikdaş kəndi** kimi qeyd olunmuşdur. İkinci mənbədə kəndin **Əli Osman oğlu** adlı şəxsin timarı olduğu və bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürdüyü, başqa adı **Quyubulaq** olan **Keçili kəndinin** və **Qaracalar məzrəsinin** bu kəndin yaxınlığında yerləşdiyi də qeyd edilmişdir.

İ.Şopendə (1832) və sonrakı satistikalarda kəndin adı **Dəlləkli** kimi verilmiş, İ.Şopendə kənd Qırxbulaq mahalının xaraba kəndləri siyahısına daxil edilmişdir.

Kəndin keçmişdə İrəvan sərdarının vəziri **Mirzə İsmayılın** tiyul kəndi olduğu, bu tiyulun ona xanlıq dövründə verildiyi də həmin mənbədə qeyd olunmuşdur.

Tədqiqatçıların (B.Budaqov, Q.Qeybullayev) fikrincə, kəndin əsl adı **Dələklidir** və "Kitabi Dədə-Qorqud" eposundakı **Dələk** eponimindən törəmədir.

Biz, tədqiqatçıların kəndin əsl adının **Dələkli** olması fikrini tam dəstəkləyir və adın **Dəlləkli** formasını yerli tələffüzdə deformasiyaya uğramış variant hesab edirik. Bununla belə, bizcə, toponimin **Dələk** komponenti eponim yox, daha çox etnonimdir və **Tele** türk tayfasının adını daşıyır. **Dələk** (**k** – qədim türklərdə cəm şəkilçisidir) isə **Telelər** anlamında başa düşülməlidir.

İrəvan xanlığının ruslar tərəfindən işğalı zamanı xaraba qalmış kənd az sonra öz keçmiş sakinləri tərəfindən yenidən məskunlaşmış və 1873-cü ildə burada 20 təsərrüfatda 201 nəfər (121 kişi, 80 qadın) Azər türkü siyahıya alınmışdır.

1886-cı ildə kənddə yaşayan azərbaycanlıların sayı artaraq 48 təsərrüfatda 317 nəfərə, (168 kişi, 149 qadın) çatmışdır.

Kənddə 1897-ci ildə 374 nəfər, 1905-ci ildə 396 nəfər, 1914-cü ildə 445 nəfər əhali yaşamışdır.

1918-ci ildə isə erməni-daşnak fitvası ilə bu böyük türk-müsəlman kəndi yerlə-yeksan edilmiş, dinc əhalinin bir hissəsi ermənilərə xas vəhşiliklə qətlə yetirilmişdir. Elə həmin vaxtlarda Türkiyənin Van, Sürməli qəzalarından qaçıb gələn xeyli erməni kənddə salamat qalmış müsəlman evlərinə yiyələnmişlər.

Sovet hakimiyyətinin ilk illərində tədricən geri qayıtmağa başlayan azərbaycanlı əhali təzədən özünə yurd-yuva düzəltmək məcburiyyətində qalmışdır. 1931-ci ildə kənddə cəmi 40 nəfər azərbaycanlı qeydə alınmışdır.

1948-1949-cu illərdə kənddə yaşayan bütün türk-müsəlman əhali zorla Azərbaycana deportasiya edilmiş, gəlmə ermənilər bu qədim türk kəndinə bütünlüklə yiyələnmişlər.

Fürsətdən istifadə edən erməni millətçiləri 1948-ci il iyulun 21-də kəndin Dəlləkli adını dəyişib, **Zovaşen** qoymuşlar.

DƏVƏXARABA (AVAD)

Qırxbulaq mahalında, Ellər rayonunun şimal-şərqində, Kotan dağının şərq ətəyində, Zəngi çayının yuxarı axarında, çayın üstündəki yaylada kənd.

XIX yüzilin ortalarına qədər kənddə ancaq Azər türkləri yaşamışlar. XIX yüzilin ortalarında kəndin azərbaycanlı əhalisi qovulmuş və burada Türkiyədən gəlmə müsəlman kürdləri məskunlaşmış, Sovet dövründə müsəlman kürdləri və ermənilər yaşamışlar.

1873-cü il siyahıyaalmasında Yeni Bayazid qəzasında Zəngi çayının yuxarı axarında **Dəvəxaraba kəndi** kimi qeydə alınmış, kənddə 19 təsərrüfatda 161 nəfər (88 kişi, 73 qadın) müsəlman kürdünün yaşadığı göstərilmişdir.

1886-cı ildə **Dəvəxaraba kəndi** əhalisinin sayı 41 təsərrüfatda 305 nəfərə (155 kişi, 150 qadın) çatmışdır. Yenə də kənd əhalisi ancaq müsəlman kürdlərindən ibarət olmuşdur.

1905-ci ildə kənddə 416 nəfər, 1914-cü ildə 475 nəfər müsəlman əhali qeydə alınmışdır.

Lakin 1918-ci ildə İrəvan quberniyası ərazisində erməni daşnaklarının müsəlmanlara qarşı törətdiyi soyqırımı bu kənddən də yan ötməmiş, erməni qaniçənləri kəndi dağıtmış, onun müsəlman əhalisini vəhşicəsinə qovmuş, kənddə xaricdən gəlmə erməni ailələrini yerləşdirmişlər.

Sovet hakimiyyətinin ilk illərində kəndin geri qayıdan qaçqın əhalisi rayonun erməni rəhbərliyi və kəndin gəlmə erməni əhalisi tərəfindən addımbaşı təzyiqlərlə üzləşdiyindən onların bir çoxu yenidən kəndi tərk etməyə məcbur olmuşlar. 1931-ci ildə kənddə cəmi 4 nəfər müsəlman əhali qeydə alınmışdır.

1935-ci il yanvarın 1-də kəndin Dəvəxaraba adı dəyişdirilərək **Avad** qoyulmuş, 1970-ci illərdə kənd ləğv edilmişdir.

ELLƏR

Qırxbulaq mahalında, İrəvan şəhərindən 16 km şimalda, Qırxbulaq çayı yaxınlığında, İrəvan-Tiflis avtomobil yolu və İrəvan-Yelenovka (Sevan) dəmiryol xətti üstündə yaşayış məntəqəsi. Ellər rayonunun mərkəzi. 1930-cu ildən şəhər tipli qəsəbə, 1963-cü ildən respublika tabeli şəhər.

XVIII yüzilin sonlarına qədər ancaq Azər türkləri yaşamışlar. Həmin tarixdən etibarən kənddə İran və Türkiyədən köçürülüb gətirilmiş ermənilər yerləşməyə başlamış, xüsusilə 1828-ci il Türkmənçay müqaviləsindən sonra bu proses kütləvi hal almış və Ellər kəndi ermənileşdirilmişdir. Buna baxmayaraq, erməni statistikası gizlətsə də, Ellər kəndində – bu qədim türk yurdunda azərbaycanlılar həmişə yaşamışlar. Xüsusilə Sovet dövründə Ellər kəndi böyüyüb, qəsəbə, şəhər statusları aldıqca, zavod-fabrik inkişaf etdikcə, burada azərbaycanlıların sayı artmağa başlamışdır. Lakin onlar da 1988-ci il soyqırımı zamanı doğma yurdlarından həmişəlik qovulmuşlar.

Müxtəlif mənbələrdə **İlar** (1590), **Hellar** (1728), **İllər** (1831), **Ellər//İllər** (1873), **Eylər** (1886) və s. kimi qeydə alınan bu qədim türk toponiminə hələ er. əv. VIII yüzilə aid Urartu mənbəsində rast gəlinir. Həmin mənbədə Göyçə gölü hövzəsində **"Elar ölkəsi"**ndən bəhs olunur. (Ətraflı məlumat üçün bax: Q.Qeybullayev. Qədim türklər və Ermənistan, səh.53-54; Q.Melikişvili Urartskie klinoobraznıe nadpisi, səh. 424).

Toponimin türk dilində olduğu, Oğuz elləri anlamında **Ellər** adlandığı özlüyündə aydındır.

XI yüzildə kənd Siyuni əyalətinin Gögərkuni (***Gögər-k-uni,*** yəni ***Göyərlər ölkəsi*** – Ə.Ə.) dairəsinə mənsub olmuş və Stepan Orbelianın nəqlinə görə, həmin dövrdə o, mülk kimi Libarid Orbeliana verilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin **İlar kəndi**, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin Şahab kəndi yaxınlığında **Hellar kəndi** kimi qeydə alınmış, ikinci mənbədə kəndin **Mustafa** adlı şəxsin timarı olduğu və bu timar-kənddən dövlətin müxtəlif vergi-

lər şəklində ildə 3.200 ağça gəlir götürdüyü də göstərilmişdir.

İ.Şopendə (1832) Qırxbulaq mahalının **İllər kəndi** kimi siyahıya alınmış bu kənddə cəmi 18 təsərrüfatda 88 nəfər (44 kişi, 44 qadın) "yerli", yəni 1828-ci il Türkmənçay müqaviləsinə qədər burada yaşayan erməni, 3 təsərrüfatda 15 nəfər (9 kişi, 6 qadın) İrandan, 12 təsərrüfatda 55 nəfər (26 kişi, 29 qadın) Türkiyədən yenicə köçürülüb gətirilmiş erməni qeydə alınmışdır. Həmin siyahıyaalma zamanı Ellər türk kəndində bir nəfər belə türk-müsəlman əhalinin qeydə alınmaması bölgənin ruslar tərəfindən işğalı nəticəsində yaşayış məntəqələrindən yerli türk-müsəlman əhalinin necə qovulub çıxarılmasına, onların boşalmış evlərinə gəlmə ermənilərin yerləşdirilərək kəndlərin necə canfəşanlıqla ermənileşdirilməsinə əyani sübutdur.

Kəndin **Məlik Sahak Ağamalovun** və **Ağababa Sultanın** bərabər bölgüdə tiyul kəndləri olduğu, bu tiyulların onlara Mirzə İsmayıl tərəfindən verildiyi, Məlik Sahak öldükdən sonra onun payının qardaşı Simona verildiyi də İ.Şopendə qeyd olunmuşdur.

1873-cü ilin statistikasında kənddə 50 təsərrüfatda 359 nəfər (181 kişi, 178 qadın) erməni siyahıya alınmışdır.

1886-cı ildə kənd əhalisinin sayı 69 təsərrüfatda 428 nəfərə (226 kişi, 202 qadın) çatmışdır.

1930-cu il sentyabrın 9-da Qırxbulaq mahalı ərazisində **Kotayk rayonu** təşkil edilərək **Ellər** kəndinə qəsəbə statusu verilmiş və o, rayon mərkəzi seçilmişdir. 1961-ci il oktyabrın 12-də rayonun adı dəyişdirilərək erməni millətçi yazıçısı Xaçatur Abovyanın adı ilə **Abovyan rayonu**, rayon mərkəzinin adı isə dəyişdirilərək **Abovyan** qoyulmuşdur.

1963-cü ildə yaşayış məntəqəsinə respublika tabeli şəhər statusu verilmiş, 1975-ci ildə şəhərdə 35.1 min nəfər əhali qeydə alınmışdır.

1988-ci ildə Qərbi Azərbaycandakı bütün türk əhali kimi, Ellər şəhərinin azərbaycanlıları da növbəti dəfə soyqırımına məruz qalaraq doğma torpaqlarından qovulub çıxarılmışlar.

ƏKƏRƏK

Gərnibasar mahalının dağlıq hissəsində, Ellər rayonu ərazisində, Baş Gərni kəndindən 5 km şimal-şərqdə, Gərni çayının yuxarı axarında, çayın sahilində kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin **Əyrək kəndi** kimi qeydə alınmışdır. (Yeri gəlmişkən, həmin mənbədə Karbi nahiyəsində **Əyrək** və **Qızıləyrək** adları ilə daha iki kənd adına rast gəlirik).

Maraqlıdır ki, nə 1728-ci ilə aid icmal dəftərində, nə də İ.Şopendə (1832) həmin ərazidə belə bir kənd siyahıya alınmamışdır.

1873-cü ilin statistikasında isə Gərnibasar mahalının dağlıq hissəsində, konkret olaraq Gərni çayının yuxarı axarında **Əkərək kəndi** kimi qeydə alınmış kənddə 11 təsərrüfatda 114 nəfər (61 kişi, 53 qadın) Azər türkünün yaşadığı göstərilmişdir.

Sonrakı bütün mənbələrdə də kəndin adı **Əkərək** kimidir. Tədqiqatçılar B.Budaqov və Q.Qeybullayevin fikrincə, Əkərək toponimi Altay-türk mənşəli Şumer dilinə mənsub olan "əkilən sahə", "əkin yeri" və bunun əsasında "malikanə" anlamında **akar** sözündəndir. Belə olan surətdə aydındır ki, Əkərə, Əkərək, Akarak adlı kəndlər əvvəl quldarlara, sonra feodallara məxsus əkin sahələrində yaranmış yaşayış məntəqələridir. Bizcə, **Əkərək** sözünün ən gözəl dublet forması məhz "**əkin yeri**" anlamında **Əkənək** sözüdür.

Sonralar Şumer türklərinin dilindən qədim yunan və latın dillərinə keçən **əkər//akar** sözü yunancada **aqros** ("**tarla**"), latıncada **aqer** ("**əkin sahəsi**"), ruscada **akr** ("**torpaq sahəsi**") şəklində işlənmişdir. Təbii ki, "**aqronomiya**" kəlməsi də həmin kökdən yaranmışdır.

Musa Kağankataylının "Alban tarixi" əsərində də **Kolt-Əkərək** adlı kənddən söhbət açılmışdır. Yəni **Kol əyalətində Əkərək kəndi.**

Qərbi Azərbaycan ərazisində müxtəlif vaxtlarda Əkərək kəndləri (Sürməli qəzasında, Əştərək, Talın rayonlarında), Əkərək çayı (Sürməli qəzasında), Əkərəli kəndi (Gorus rayonunda),

Əkəri kəndi (Sisian rayonunda) qeydə alınmışdır. Bəzən bu toponimin əvvəlinə türk dillərinə xas "h" səsi artırılaraq (açar-haçar sözündə olduğu kimi), məsələn, Həkəri toponimi meydana gəlmişdir.

Ellər rayonu ərazisindəki **Əkərək kəndində** 1886-cı ildə 16 təsərrüfatda 155 nəfər (76 kişi, 79 qadın), 1897-ci ildə 204 nəfər, 1905-ci ildə 170 nəfər, 1914-cü ildə 225 nəfər Azər türkü yaşamışdır.

1918-ci ildə kənd erməni daşnakları tərəfindən məhv edilmiş, əhalisinin bir hissəsi qəddarcasına qətlə yetirilmiş, sağ qalanlar Arazın o tayına – Türkiyə ərazisinə pənah aparmışlar.

O vaxtdan kənd xaraba qalmışdır. Kənddəki evlərin, müsəlman qəbiristanlığının izləri son illərə qədər qalmaqda idi.

ƏRİNC

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 7 km cənub-qərbdə, İrəvan-Tiflis avtomobil yolunun üstündə, İrəvan-Ellər dəmiryol xəttinin kənarında kənd.

Türkmənçay müqaviləsinə (1828) qədər Qırxbulaq mahalı ərazisində ermənilərin yaşadığı tək-tük kəndlərdəndir. Lakin təxminən XVI- XVII yüzillərə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. Bölgənin ruslar tərəfindən işğalından sonra kənddə İran və Türkiyədən gəlmə ailələr də yerləşdirilmişlər.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Ərinc kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə Ərinc kəndi ilə Məqhud məzrəsinin illik gəlirinin birlikdə 15.100 ağça təşkil etdiyi göstərilmişdir.

İ.Şopendə (1832) və sonrakı bütün mənbələrdə kəndin adı **Ərinc** kimidir.

Toponimin etimologiyasına gəldikdə, bizcə, o, qıpçaqların **Əncə//İncə** tayfasının adından yaranmışdır və **Ər-İncə** komponentlərindən ibarətdir. Xatırladırıq ki, Bütöv Azərbaycan ərazisində, o cümlədən Qərbi Azərbaycanda "İncə" komponentli onlarla toponim qeydə alınmışdır. Bunlardan İncə kənd adlarını (Sürməli, Maku, Xınzirək nahiyələrində, Dərəkənd-Parçenis mahalında), İncəvar kənd adını (Zəngəzurda), İncədərə kəndini (Vedi nahiyəsində), Zərincə kəndini (Talın mahalında), Əlincə kəndini (Aralıq, Şirakel nahiyələrində) misal gətirmək olar. XVIII yüzildə Dərələyəz mahalında Arınc adlı məzrə, XIX yüzildə Naxçıvan qəzasında Arınc adlı kənd də qeydə alınmışdır.

"Kitabi-Dədə Qorqud"da adı çəkilən Əlincə qalası da (Naxçıvan ərazisində) bu mənada istisna təşkil etmir.

1831-ci ildə Qırxbulaq mahalının **Ərinc kəndində** 33 təsərrüfatda 192 nəfər (100 kişi, 92 qadın) "yerli", yəni 1828-ci il Türkmənçay bağlaşmasına qədər burada yaşamış, 9 təsərrüfatda 47 nəfər (24 kişi, 23 qadın) İrandan köçürülüb gətirilmiş, 1 təsərrüfatda 4 nəfər (2 kişi, 2 qadın) Türkiyədən gəlmə erməni siyahıya alınmışdır.

Kəndin **Məlik Sahak Ağamalovun** tiyul kəndi olduğu, bu tiyulun ona Mirzə İsmayıl tərəfindən verildiyi, Məlik öldükdən sonra isə mülkə çevrildiyi də İ.Şopendə qeyd olunmuşdur.

1873-cü ildə mülkədar kəndi olan **Ərincdə** 62 təsərrüfatda 448 nəfər (231 kişi, 217 qadın) erməni siyahıya alınmışdır.

Kənd əhalisinin sayı 1886-cı ildə 75 təsərrüfatda 578 nəfərə (295 kişi, 283 qadın) çatmışdır.

Sovet dövvründə kənd daha da inkişaf etmiş, qəsəbəyə çevrilmişdir.

ƏRZNİ

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 6 km şimal-qərbdə, İrəvan şəhərindən 24 km-lik məsafədə, Zəngi çayının sol sahilində kənd, 1953-cü ildən şəhər tipli qəsəbə.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1830-cu illərdə kənddə həm də İrandan gəlmə ermənilər və aysorular məskunlaşmış və 1880-ci illərə qədər Azər türkləninin, aysoruların və ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1880-ci illərdən 1918-ci ilə qədər kənddə ancaq azərbaycanlılarla aysorular yaşamışlar. 1918-ci ildə azərbaycanlılar kənddən qovulub çıxarılmış, kənddə ancaq aysorular qalmışlar. 1931-ci ildə burada xeyli erməni məskunlaşmış və aysorularla qarışıq yaşamışlar. Sonralar həmin aysorular da ermənileşdirilmişlər.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Ərzni kəndi** kimi qeydə alınmışdır. Üstəlik, ikinci mənbədə kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 6.000 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) və bütün sonrakı mənbələrdə də kəndin adı **Ərzni** kimidir.

Qafqazda, o cümlədən Azərbaycanda Ərzni//Arznı toponimi ilə eynikökllü bir çox toponimlər mövcuddur. Məsələn, XIX yüzildə Şimali Qafqazda Arzqir kənd, Arzqirtubə təpə, Arzikənd, Arzi-qaç-Kort dağ adları qeydə alınmışdır. Ərzni toponiminin ən yaxın dublet forması isə, bizcə, Vedibasar mahalının Əsni kəndidir.

Əsni kimi, Ərzni kənd adı da Azərbaycan türklərinin ulu babaları olan **Az//As** türk tayfasının adından törəmədir. Bu da faktdır ki, Az//As türklərinin adı ilə onların yayıldıqları bütün ərazilərdə onlarla toponim mövcuddur. Astara, Astarxan, Azərbaycan, Amasiya, Amazon, Ərzurum, Os (Oş – Qırğızıstanda, Macarıstanda, Fransada), Asaki (Yaponiyada), Aslar, Osslar (Çuvaşıstanda) və s.

Bu kitabın 1-ci cildində Vedibasar mahalının kəndlərindən bəhs edərkən biz Haxıs (Ağ-as) və Əsni kəndlərindən ətraflı danışmış və Əsni//Asnı toponimini As-on, yəni On As türklərinin adını bildirən bir oykonim kimi şərh etmişik. Lakin **-ni** şəkilçili toponimlərin bu ərazidə çoxluğu Əsni (Vedibasar), Ərzni (Qırxbulaq), Gərni (Gərnibasar), Pərni (Ərtik) və s. – belə bir qənaətə gəlməyə əsas verir ki, vaxtilə Urartu dövləti tərəfindən işğal olunan İrəvan çuxurunda və onun qərb torpaqlarındakı bu yer-yurd adları Urartu türklərinin dilindəki ölkə, məkan bildirən **-uni** (**bəlkə də *eni//eli*** – Ə.Ə.) hissəciyinin ixtisar variantından başqa bir şey deyildir.

Bu mənada, Ərzni toponimi də **Ər-az-ni** şəklində **Az ərlərinin ölkəsi** anlamındadır.

İ.Şopendə (1832) Qırxbulaq mahalının 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı xaraba qalmış kəndləri sırasına daxil edilmiş **Ərzni kəndi** sonralar yenidən məskunlaşmışdır. XIX yüzilin ortalarında kənddə onun keçmiş azərbaycanlı sakinləri ilə yanaşı, Türkmənçay bağlaşmasından sonra İrandan köçürülüb gətirilmiş xeyli aysoru və erməni də yerləşmişlər. Lakin sayca çoxluq yenə də müsəlmanlara məxsus olmuşdur. Belə ki, 1873-cü ilin statistikasında kənddə 12 təsərrüfatda 96 nəfər (54 kişi, 42 qadın) Azər türkünün, 21 təsərrüfatda 95 nəfər (57 kişi, 38 qadın) aysorunun, 8 təsərrüfatda 71 nəfər (43 kişi, 28 qadın) ermənin yaşadığı göstərilmişdir.

Az sonra həmin gəlmə ermənilər kəndi tərk etmiş və 1886-cı ilin siyahıyaalmasında **Ərzni kəndində** 27 təsərrüfatda 197 nəfər (109 kişi, 88 qadın) Azər türkü, 81 təsərrüfatda 384 nəfər (213 kişi, 171 qadın) aysoru qeydə alınmışdır.

Lakin 1886-cı ilə aid mənbədə elə həmin illərdə kəndin 20 tatar (**azəri** – Ə.Ə.) ailəsinin Eçmiədzin qəzasına köçdüyü, onlardan 19 ailənin Purço kəndində, 1 ailənin isə Çobankərədə məskunlaşdığı, onların Ərznidə istifadəsiz qalan torpaqlarının isə kəndə təzə köçüb gələn İran mənşəli daha 19 aysoru ailəsi arasında bölüşdürüldüyü barədə məlumat var. Ərznidə çoxluq təşkil edən aysoruların köçüb gedən 20 ailədən başqa, burada yaşamaqda hələ də davam edən 17 azəri ailəsini də kənddən çıxarmağa çalışdıqları da həmin mənbədə qeyd olunmuşdur. Lakin, de-

yəsən, bu, onlara nəsib olmamışdır. Belə ki, 1905-ci ildə kənddə 216 nəfər azərbaycanlı, 423 nəfər aysoru, 1914-cü ildə isə 300 nəfər azərbaycanlı, 733 nəfər aysoru yaşamışdır.

Ərzni azərbaycanlılarının Ağmanqan yaylağında, kənddən 30 verst aralıda, 50 desyatin ərazini əhatə edən **Çınqıllıyurd** adlı yurd yeri olmuş, kənd camaatı bu yurd yerindən qədimdən istifadə etmişdir.

1918-ci ildə İrəvanda hakimiyyət başına gələn erməni daşnak hökuməti tərəfindən Ərzni kəndinin azərbaycanlı əhalisinin bir hissəsi vəhşicəsinə qətlə yetirilmiş, sağ qalanlar isə doğma yurdu tərk etməyə məcbur olmuşlar. Azərbaycanlıların bu soyqırımından sonra kənddə 983 nəfər ancaq aysoru əhali qalmışdır. Az sonra İrandan, Türkiyədən gələn erməni mühacirləri də kənddəki boşalmış müsəlman evlərində yerləşmiş, kənd aysorularla ermənilərin yanaşı yaşadığı qarışıq kəndə çevrilmişdir. Sonralar isə Qərbi Azərbaycan ərazisindəki bütün pravoslov aysorular kimi Ərzni aysoruları da qriqorianlaşdırılmış və ermənileşdirilmişlər.

Sovet dövründə Ərzni ətrafında eyniadlı kurort zonası yaradılmış, 1953-cü ildə kəndə şəhərtipli qəsəbə statusu verilmiş və 10 km uzaqlıqdakı **Nurnus kəndi** də qəsəbənin ərazi-inzibati bölgüsünə daxil edilmişdir.

1970-ci ildə qəsəbədə 5,9 min nəfər əhali siyahıya alınmışdır.

* * *

Ərzni sanatoriyası Qərbi Azərbaycanın ən məşhur istirahət-müalicə zonalarindandır. Buranın iqlimi mülayim istidir. Karbon qazlı, xlorlu, hidrokarbonatlı, natriumlu **Ərzni suyu** məşhurdur. Bu su içilir və vanna proseduralarında, .o cümlədən ürək-damar sistemi, mədə-bağırsaq, qaraciyər xəstəliklərinin müalicəsində istifadə olunur. **Ərzni bulaqlarından** bir gündə 2 milyon litrdən artıq su axır.

Ərzni qəsəbəsində sanatoriyalar, vanna binası, poliklinika, mineral su dolduran zavod, şüşə qab və büllur zavodları, 2 km aralıda SES var. Kurort il boyu işləyir.

GERQAÇ (ƏYRİVƏNG, YUXARIVƏNG, GEĞART)

Gərnibasar mahalının dağlıq hissəsində, Ellər rayonu ərazisində, Geğart dərəsində, Gərni çayının qollarından birinin kənarında, Abdallar kəndi yaxınlığında kənd-monastır.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. Bölgənin ruslar tərəfindən işğalından sonra kənd xarabalığa çevrilmiş, yalnız monastır qalmışdır.

Kəndin adına **Gerqaç** şəklində ilk dəfə İ.Şopendə (1832) rast gəlirik. Həmin mənbədə O, Gərnibasar mahalının 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı xaraba qalmış kəndləri siyahısında verilmişdir.

Kənddəki **Gerqaç monastırı** haqqında isə İ.Şopendə xeyli ətraflı məlumata rast gəlirik. O, Vizantiya arxitektura üslubunda tikilmiş bu qeyri-adi dərəcədə gözəl monastırın bünövrəsinin qoyulmasının Müqəddəs Qriqorinin adı ilə bağlı, indiki görünüşünün isə XII-XIII yüzillərin yadigarı olduğunu yazır. Məlum olur ki, arxiyepiskop İohann kilsənin yanında bir sıra yeni tikililər inşa etdirdiyi üçün bu baş kilsə **Ayrıvəng** adlandırılmışdır. Onu həmçinin **Yuxarıvəng** də adlandırmışlar. Gerqaç adını isə ona tatarlar (yəni yerli türklər) vermişlər. Gərni monastırı kimi, Gerqaç monastırı da qədimdən Gögərkuni dairəsinə daxil olmuşdur.


Yeri gəlmişkən, yerli tələffüzdə kəndin, monastırın və onların yerləşdiyi dərənin adı **Görgəc** kimi də tələffüz olunmuşdur.

İ.Şopenin şəhadətinə görə, monastırdakı çoxlu yazılardan onun qərb qapısı üstündə aşağıdakı yazı saxlanmışdır: "Bu əsrarəngiz icma kilsəsi Zakarın (**Sakarın** – Ə.Ə.) qardaşı İohannın və Şahənşahın uşaqlarının və Avakın və tərki-dünya Parsaqın dövründə, 663-cü ildə (**miladi 1214-cü ildə** – Ə.Ə.) ucaldılmışdır".

Monastırın ətrafı nəhəng mağaralarla doludur ki, bu da bir növ təbii istehkam rolu oynamışdır. Təsadüfi deyil ki, Sultan Cəlaləddinin bu yerlərə yürüşü zamanı buradakı 10 min işğalçı gürcü həmin mağaralarda gizlənmişdir.



Gerqaç monastırının yerləşdiyi Gerqaç (Görgəc) dərəsinin uzaqdan görünüşü



Gerqaç monas-tırının ümumi görünüşü

1873-cü ilin statistikasında artıq **Gerqaç kəndi** yox, ancaq eyniadlı monastır qeydə alınmışdır. Monastırın həm də **Geğart, Əyrivəng** və **Yuxarıvəng** adlandırıldığı da mənbədə göstərilmişdir. Monastırın bir vaxt **Ayrıvəng//Əyrivəng** və Yuxarıvəng adlanması barədə yuxarıda məlumat verdik. Geğart adını isə, heç şübhəsiz, monastır yerləşdiyi **Geğart dərəsinin** adından almışdır. Monastırda 1 təsərrüfatda 3 nəfər ermənin yaşadığı və Vizantiya arxitekturası üslubunda tikilmiş monastırın XII-XIII yüzillərdə qaya üstündə ucaldıldığı da mənbədə qeyd olunmuşdur.

Toponimin etimoloji izahı ilə bağlı konkret fikir yoxdur. Lakin monastırın müxtəlif adları içində Gerqaç adının ilkin olması və İ.Şopenin yazdığı kimi, bu adın ona "tatarlar" tərəfindən verilməsi bu qədim ərmən toponiminin məhz ərmən-türk dilində mənaaçımını tələb edir. Bizcə, Gerqaç toponiminin **Qarqar//Gərgər//Gerger** etnonimi ilə bağlılığı göz qabağındadır. Adın **qaç** komponenti isə bölgədə toponimyaratmada fəal iştirak etmiş (o cümlədən **Kasax** çay adında) **Kas** türklərinin adını daşıyır.

GƏRƏKBULAQ

Qırxbulaq mahalında, Ellər rayonu ərazisində, Çobangərəkməz kəndi yaxınlığında kənd.

Kəndin **Gərəkbulaq** adına yalnız "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) rast gəlirik. Həmin mənbədə kəndin Çobangərəkməz kəndi yaxınlığında, Manseres kəndi tərəfdə yerləşdiyi də qeyd olunmuşdur.

Gərəkbulaq oykoniminə sonrakı mənbələrdə rast gəlmədiyimizdən əlavə məlumata da malik deyilik.

Toponimin etimologiyası ilə bağlı öncə qeyd etmək istərdik ki, Qərbi Azərbaycan ərazisində Gərək komponentli neçə-neçə oykonimin mövcudluğu (İrəvan əyalətinin Zarzəmin nahiyəsində Gərək kəndi, Xınzirək nahiyəsində Gərəçiçək kəndi, Qırxbulaq nahiyəsində Çobangərəkməz kəndi və s.) onun etnonim səciyyəsi üzərində düşünməyə əsas verir.

Lakin tədqiqatçılar Gərək adının türk dillərində **"çay, yaxud başqa su mənbəyi yaxınlığında yerləşdiyinə görə suvarılmaya ehtiyacı olmayan əkin sahəsi"** anlamında **karak** sözündən düzəlməsi ehtimalını irəli sürürlər (B.Budaqov, Q.Qeybullayev).

Bizcə, **Gər** komponentli toponimlərdə Qarqar//Gərgər türk tayfa adını görməmək mümkün deyil. **Ək//ok** komponenti isə qədim türklərdə nəsil, tayfa anlamında işlənmişdir. Məsələn Üç-ok, Boz-ok və s. Bu mənada Gərəkbulaq oykonimi **Gərgər tayfasının adını daşıyan ərazidəki bulaq yanında salınmış kənd** mənasındadır.

GOXT (TÜRK GOXTU, AŞAĞI GOXT)

Gərnibasar mahalının dağlıq hissəsində, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 36-38 km cənub-şərqdə, Gərni çayının yuxarı axarında, çayın sağ sahilində kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) və "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Koxt kəndi** kimi qeydə alınmışdır. Üstəlik, ikinci mənbədə kəndin **Hacı Abdulla Əli oğlunun** timarı olduğu, bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 3.500 ağça gəlir götürdüyü də göstərilmişdir.

İ.Şopendə (1832) isə Gərnibasar mahalının **Goxt kəndi** kimi yazıya alınmış və kənddə 6 təsərrüfatda 40 nəfər (24 kişi, 16 qadın) Azər türkünün yaşadığı qeyd olunmuşdur.

Təbii ki, bu, Goxt kimi iri kəndin həqiqi əhalisinin sayı deyildi. Məsələ ondadır ki, kəndin bölgənin ruslar tərəfindən işğalı ilə barışmayan əhalisinin çox hissəsi kəndi tərk etməli olmuşdu.

Sonralar kənddə İrandan gəlmə erməniləri məskunlaşdırmağa çalışılmış, lakin camaat onları kəndə buraxmadıqda kəndin yuxarısında Goxt (Erməni Goxtu) adlı ikinci bir kənd salınmışdır.

1873-cü ilin statistikasında Gərnibasarın **Goxt** (mənbədə kəndin adı üç variantda yazılmışdır: **Goxt, Göxt, Türk Goxtu**) kəndində 7 təsərrüfatda 68 nəfər (42 kişi, 26 qadın) Azər türkü qeydə alınmışdır.

1886-cı ildə kənd əhalisinin sayı 9 təsərrüfatda 74 nəfərə (40 kişi, 34 qadın) çatmışdır.

Kənddə 1897-ci ildə 104 nəfər, 1905-ci ildə 81 nəfər 1914-cü ildə 169 nəfər Azər türkü yaşamışdır.

1918-ci ildə kənd erməni daşnakları tərəfindən dağıdılmış, yandırılmış, əhalisi qətl və qarətlərə məruz qalaraq doğma yurddan qovulmuşdur.

Bölgədə Sovet hakimiyyətinin qurulmasından sonra kəndin qaçqın sakinlərindən 55 nəfər geri dönmüş, ev-eşiklərini bərpa etməyə başlamışlar. 1931-ci ildə isə kənddə yaşayan azərbaycanlıların sayı 56 nəfərə çatmışdır. Lakin bu qədim türk kəndinin

yenidən dirçəlməsinə imkan vermək istəməyən respublikanın erməni rəhbərliyi kəndi ləğv etmiş, qonşu erməni Goxtu ilə birləşdirmişdir.

Toponimin ilkin adının Kolt olması, ərmən dilində "l" səsinin yoxluğundan onu "ğ" samitinin əvəz etməsi və bu səbəbdən **Kolt** adının **Koxt//Qoxt** şəklinə düşməsi, toponimin əslində türkmənşəli qədim **Kol** tayfasının adından və cəm bildirən "t" şəkilçisindən ibarət olması fikri (B.Budaqov, Q.Qeybullayev) mövcuddur.

Bizcə isə, toponimin **Gox-Goq** komponenti, əslində bölgənin qədim tarixində tez-tez xatırlanan **Gög** adından və t cəm şəkilçisindən ibarətdir. Böyük Armaniyanın Siyuni əyalətinin Gögərkuni dairəsinin **Gög qalası** kimi qeydə alınmışdır.

* * *

Goxt kəndinin yetirmələrindən biri də **Adil Həsən oğlu Məmmədovdur.**

Babası **Axund Məhəmməd** bölgədə nüfuzlu din xadimi idi. Atası **Həsən Məhəmməd oğlu İbrahimov** 1898-ci ildə Goxt kəndində anadan olmuş, sonralar İrəvan şəhərində yaşamış, lakin kənd ilə əlaqəsini kəsməmişdi.

1952-ci ildə ailələri Azərbaycana deportasiya olunanda Həsən kişinin iki oğlu Bakı şəhərində oxuyurdular: böyük oğlu **Adil** ADU-nun geologiya, kiçik oğlu **Kamil** APİ-nin fizika-riyaziyyat fakültələrində.

Vətən həsrətinə dözə bilməyən Həsən kişi az sonra – 1953-cü ilin yanvarında infarktdan dünyasını dəyişir. Ailənin bütün ağırlığı kənc Adilin üzərinə düşür.

Adil Məmmədov 1973-1989-cu illərdə Azərbaycan Nazirlər Sovetinin Üzüm və Şərabçılıq Komitəsində Meliorasiya idarəsinin rəisi vəzifəsində işləmişdir. Hazırda isə Kənd Təsərrüfatı Nazirliyinin ekologiya və suvarma elmi mərkəzinin əməkdaşıdır.

GOXT (ERMƏNİ GOXTU)

Gərnibasar mahalının dağlıq hissəsində, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 38 km cənub-şərqdə, Gərni çayının yuxarı axarında, çayın sağ sahilində, Türk Goxtu kəndinin yuxarı kənarında kənd.

Kənd 1828-1829-cu illərdə İrandan köçürülüb gətirilmiş ermənilərı yerləşdirmək məqsədilə XIX yüzilin ortalarında qədim türk kəndi olan Goxt kəndinin yuxarı tərəfində salınmış və buradа gəlmə ermənilər məskunlaşdırılmışlar. Sovet dövründə Türk Goxtu kəndi ilə birləşdirildikdən sonra kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1948-1949-cu illərdə kəndin azərbaycanlı əhalisi deportasiya olunmuş kənd ermənilәşdirilmişdir.

Gərnibasar mahalı ərazisində tarixi Goxt kəndi barədə Goxt (Türk Goxtu) kəndinə dair oçerkdə bəhs etmişik. **Erməni Goxtu** kəndi isə tarix səhnəsinə yalnız XIX yüzilin ortalarında gəlmişdir. Ona görə ki, əgər bu kənd 1828-1829-cu illərdə ermənilər bu yerlərə köçürülən zaman salınmış olsaydı, İ.Şopen öz statikasında onu qeydə alardı. Halbuki İ.Şopendə yalnız bir – Türk Goxtu kəndi siyahıya alınmışdır.

1873-cü ildə **Erməni Goxtunda** 15 təsərrüfatda 152 nəfər (78 kişi, 74 qadın) erməni yaşamışdır. Həmin ilin statistikasında kəndin **Herher çayı** kənarında yerləşdiyi, yaxınlığında qədim qala xarabalıqlarının mövcud olduğu da qeyd edilmişdir.

1886-cı ildə kənd əhalisinin sayı 25 təsərrüfatda 244 nəfərə (128 kişi, 116 qadın) çatmışdır.

Sovet dövründə qonşu Türk Goxtu kəndi ləğv edilərək Erməni Goxtuna birləşdirilmiş və vahid **Goxt kəndi** kimi qeydə alınmışdır. Bu birləşmiş kəndin türk-müsəlman əhalisi isə 1948-1949-cu illərdə Azərbaycana deportasiya olunmuşlar.

GÖYKİLSƏ

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 13 km şimal-şərqdə, Hadis dağı ətəyində, Çobangərəkməz kəndi yaxınlığında, dəniz səviyyəsindən 1.750 m yüksəklikdə kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1830-cu illərdə kənddə İrandan, Türkiyədən gəlmə ermənilər də məskunlaşdırılmış və kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kəndə çevrilmişdir. 1948-1949-cu illərdə kəndin bütün türk-müsəlmən əhalisi Azərbaycana deportasiya olunmuş və kənd tamamilə erməniləşdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Göykilsə kəndi** kimi qeydə alınmışdır. Üstəlik, ikinci mənbədə kəndin **Əbdülqafur Əli oğlunun** timarı olduğu və bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 6.500 ağça gəlir götürdüyü, kəndin yaxınlığında Çobangərəkməz adlı kənd olduğu da göstərilmişdir.

Toponimin etimologiyası ilə bağlı ilkin versiyaya görə, o, Azərbaycan dilindəki **göy** (rəng mənasında) və **kilsə** sözlərindən yaranmışdır (S.Mirmahmudova). Toponimin həmçinin türkcə "**kənd**" mənasında **köy** və **kilsə** sözlərindən ibarət olduğu, "**Kilsəkənd**" anlamında işlədildiyi də ehtimal edilir (B.Budaqov, Q.Qeybullayev). Heç şübhəsiz, hər iki variantda kənd adının yaranmasında kəndin ərazisindəki qədim kilsənin mühüm rolu olmuşdur.

İ.Şopendə (1832) kəndin Qırxbulaq mahalının xaraba kəndləri siyahısında verilməsi bölgədəki bir çox türk kəndləri kimi, Göykilsənin də İrəvan xanlığı ərazisinin ruslar tərəfindən işğalı zamanı böyük dağıntılara məruz qalmasından irəli gəlirdi.

Sonralar kəndin didərgin əhalisi geri qayıdaraq onu yenidən məskunlaşdırmış, lakin onlarla yanaşı, kənddə Türkiyədən və İrandan köçürülüb gətirilmiş xeyli erməni də yeləşdirilmişdir. Bunun nəticəsində 1873-cü ilin statistikasında kənddə 37 təsərrüfatda 293 nəfər (148 kişi, 145 qadın) Azər türkü ilə yanaşı, 44

təsərrüfatda 367 nəfər (201 kişi, 166 qadın) erməni əhalisi də qeydə alınmışdır.

1886-cı ildə kənddə azərbaycanlıların sayı 45 təsərrüfatda 333 nəfərə (188 kişi, 145 qadın), ermənilərin sayı isə 51 təsərrüfatda 396 nəfərə (246 kişi, 150 qadın) çatmışdır.

Kənd əhalisinin sayı və nisbəti sonralar belə dəyişmişdir: 1897-ci ildə 424 nəfər azərbaycanlı, 579 nəfər erməni; 1905-ci ildə 365 nəfər azərbaycanlı, 436 nəfər erməni; 1914-cü ildə 495 nəfər azərbaycanlı, 895 nəfər erməni.

1918-ci ildə erməni daşnakları kənddə yaşayan bütün azərbaycanlıları vəhşicəsinə qovub kənddən çıxarmış, dinc əhalinin bir hissəsi qəddarcasına qətlə yetirilmiş, sağ qalanlar el-obasından didərgin düşmüşlər.

Yalnız Sovet hakimiyyətinin ilk illərində kənd əhalisinin bir qismi geri qayıda bilmişdir ki, 1922-ci ildə onların sayı cəmi 94 nəfər olmuşdur. Lakin geri qayıdanlar evlərində Türkiyənin əsasən Bayazid və Alaşgerd vilayətlərindən gəlmə ermənilərin yerləşdirildiyinin şahidi olmuş, özlərinə təzədən ev-eşik düzəltməyə başlamışlar.

1931-ci ildə kənddə 170 nəfər azərbaycanlıya qarşı 1.268 nəfər erməni yaşamışdır.

1948-1949-cu illər deportasiyası zamanı isə kəndin bütün türk-müsəlman əhalisi Azərbaycana deportasiya olunmuş və o vaxtdan kənd tamamilə erməniləşdirilmişdir.

1935-ci il yanvarın 3-də kəndin Göykilsə adı dəyişdirilərək, daha doğrusu, sətri tərcümə olunaraq **Kaputan** (**kaput** – ermənicə "**göy**" deməkdir) qoyulmuşdur.

GÜLLÜCƏ

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 11 km cənub-şərqdə, Qırxbulaq çayının yuxarı axarında, İynədüz kəndi yaxınlığında kənd.

1918-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1918-ci ildə kəndin bütün əhalisi ermənilər tərəfindən soyqırımına məruz qalaraq kənddən qovulmuş və boşaldılmış müsəlman evlərinə Türkiyədən gəlmə ermənilər yerləşdirilmişlər. O vaxtdan kənddə ermənilər yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Güllücə kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə kəndin **İynədüz kəndi yaxınlığında** yerləşdiyi və **Feyzulla Əli oğlunun** timarı olduğu və bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 3.420 ağça gəlir götürdüyü də göstərilmişdir.

Güllücə toponimi Qərbi Azərbaycanda xeyli geniş ərazidə yayılmışdır. Belə ki, biz Qırxbulaq mahalından başqa, Amasiya, Hamamlı, Abaran rayonlarında, vaxtilə Sürməli qəzasında, Şirakel, Xınzirək nahiyələrində də Güllücə oykonimlərinə rast gəlirik. "Gül", "Güllü" komponenti ilə isə bu ərazidə istənilən qədər toponim mövcuddur. Bütün bu deyilənlər bizi Güllücə toponiminin etimoloji izahında iki versiya irəli sürməyə vadar edir. Birincisi, Güllücə toponimi "**güllük**", "**gül-çiçəkli yer**", "**abad yer**" anlamında başa düşülməlidir. İkincisi, toponimin çoxluğu onun etnonim səciyyəsinə dəlalət edir və Güllücə **Kol-eli//ellicə** komponentlərindən ibarət olmaqla "**kiçik Kol kəndi**" və ya "**Kol tayfasına məxsus kiçik kənd**" kimi başa düşülməlidir. Kol, artıq bu kitabın 1-ci cildində Vedibasar mahalının Gül, Göl komponentli (Güldərviş, Göl, Gölaysor) kəndlərindən danışarkən dönədönə qeyd etdiyimiz kimi, Qərbi Azərbaycan ərazisində qədimdən məskunlaşmış məşhur türk tayfalarından biridir. Hətta İrəvan çuxurunda vaxtilə **Kol vilayəti** mövcud olmuşdur. Toponimin **-cə** komponenti isə, aydındır ki, sözlərə əzizləmə və ya kiçiltmə mənasında qoşulan şəkilçidir.

İ.Şopendə (1832) kəndin Qırxbulaq mahalının xaraba kəndləri siyahısında verilməsi onun 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalmasına dəlalət edir.

Lakin tezliklə kəndin doğma yurddan didərgin düşmüş qaçqın əhalisi geri qayıtmış və artıq 1873-cü ilin statistikasında **Güllücə** (ikinci adı **Gülücə**) kəndində 40 təsərrüfatda 273 nəfər (177 kişi, 96 qadın) Azər türkü qeydə alınmışdır.

1886-cı ildə kənddə 46 təsərrüfatda 397 nəfər (215 kişi, 182 qadın), 1897-ci ildə 524 nəfər, 1905-ci ildə 516 nəfər, 1914-cü ildə 846 nəfər Azərbaycan türkü yaşamışdır.

1918-ci ildə İrəvanda hakimiyyət başına keçən erməni daşnaklarının fitvası ilə 1.000 nəfərə yaxın azərbaycanlı əhalisi olan bu böyük kənd dəhşətli soyqırımına məruz qalmış, kəndin dinc əhalisinin bir hissəsi vəhşicəsinə qətlə yetirilmiş, sağ qalanlar doğma yurddan həmişəlik qovulmuşlar. Həmin illərdə kənddə Türkiyədən gəlmə xeyli erməni yerləşdirilmiş və o vaxtdan kənd erməni kəndinə çevrilmişdir.

1978-ci il yanvarın 25-də kəndin Güllücə adı dəyişdirilərək ermənicə **Zovk** qoyulmuşdur.

İYNƏDÜZ

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 10-12 km cənub-şərqdə, Güllücə kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Qırxbulaq nahiyəsinin Güllücə kəndi yaxınlığında **İynədüz kəndi** kimi qeydə alınmışdır. Kəndin **Həsən İbrahim oğlunun** timarı olduğu və bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 3.500 ağça gəlir götürdüyü də həmin mənbədə göstərilmişdir.

Lakin 1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri nəticəsində Güllücə kəndi ilə yanaşı **İynədüz kəndi** də böyük dağıntılara məruz qalaraq boşalmış və buna görə də hər iki kənd İ.Şopendə (1832) Qırxbulaq mahalının xaraba kəndləri siyahısında verilmişdir.

Sonralar Güllücə kəndində yaşayış yenidən bərpa olunsa da, İynədüz kəndində bir daha yaşayış olmamışdır. Kəndin qaçqın əhalisindən tək-tək geri qayıdan ailələr isə qonşu Güllücə kəndində məskunlaşmışlar. İynədüz kəndi isə elə o vaxtlardan xarabalığa çevrilmişdir.

Yeri gəlmişkən, XVIII yüzilə aid mənbədə Dərələyəz nahiyəsində də İynədüz adlı kənd qeydə alınmışdır. XVIII yüzildə Göyçə nahiyəsində İynədir, Dərələyəz nahiyəsində İynəli, XIX yüzildə Qars əyalətində İqnazor kənd adları ilə eyni kökdəndir.

Kənd adının etimologiyası ilə bağlı mövcud elmi fikrə görə, toponim türk dillərindəki "**təpə**" anlamında **əqin** və farscada "**qala**" mənasında **diz** sözlərindən ibarətdir (B.Budaqov, Q.Qeybullayev).

KAMAL (KAMAL DƏRVİŞ)

Qırxbulaq mahalında, Qırxbulaq çayının yuxarı axarında, vaxtilə Qamriz kənd icması tərkibində kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin **Kamal Dərviş kəndi**, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Kamal kəndi** kimi yazıya alınmışdır. İkinci mənbədə kəndin **Mustafa Əli oğlunun** timarı olduğu və bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 3.500 ağça gəlir götürdüyü də göstərilmişdir.

İ.Şopendə (1832) və bütün sonrakı statistik məlumatlarda (1873, 1886...) kəndin adı **Kamal** kimi verilmişdir. Tədqiqatçılar (B.Budaqov, Q.Qeybullayev) toponimin Qızılbaşların **Şamlı** tayfasının məskunlaşması nəticəsində yarandığını və Şamlı türk tayfasının adını daşıdığını ehtimal edirlər. Heç şübhəsiz, Qızılbaşlar dövründə Şamlı tayfasının İrəvan çuxuru ərazisində hakim tayfalardan olması və Şam-Kam səs oxşarlığı yuxarıdakı fikri söyləməyə əsas verə bilər. Lakin Qərbi Azərbaycan (qədim Ərməniyə) ərazisində Qam türkləri ilə bağlı **Qam** (o cümlədən **maq**) komponentli çoxlu toponimlərin mövcudluğu (Gümrü qəzasında Qam-Xut dağı, Göyçə mahalında Kamasar kəndi, Ellər rayonunda Qamriz kəndi və s.) Kamal oykonimini **Kam//Qam-el**, yəni "**Qam eli**", "**qamların yurdu**" şəklində izah etməyə istiqamətləndirir. Kamal kəndinin yaxınlığında yenə də Qam türklərinin adını daşıyan Qamriz adlı daha bir kəndin mövcudluğu da bu yozumda qətiyyətimizi artırır. Qəmərli qəsəbə və rayon adı isə Qırxbulaq mahalının qonşuluğunda yerləşir.

İ.Şopen (1832) Qırxbulaq mahalının **Kamal kəndində** 13 təsərrüfatda 37 nəfər (21kişi, 16 qadın) Azər türkünün yaşadığını göstərmişdir.

1873-cü ilin statistikasında mülkədar kəndi kimi qeydə alınan **Kamal kəndinin** Qırxbulaq çayının yuxarı axarında yerləşdiyi və kənddə 46 təsərrüfatda 395 nəfər (227 kişi, 168 qadın) Azər türkünün yaşadığı qeyd olunmuşdur.

1886-cı ildə Qamriz kənd icması tərkibindəki **Kamal** kənd

əhalisinin sayı 58 təsərrüfatda 565 nəfərə (303 kişi, 262 qadın), 1897-ci ildə 597 nəfərə, 1914-cü ildə 780 nəfərə çatmışdır.

1918-ci ildə Qərbi Azərbaycan ərazisində ermənilər tərəfindən azərbaycanlıların soyqırımı zamanı Kamal kəndi də dəhşətli qırğınlara məruz qalmış, daşnak terror dəstələri dinc müsəlman əhalini vəhşicəsinə qətlə yetirmiş, sağ qalanlar baş götürüb Türkiyəyə, İrana, Azərbaycanın qonşu bölgələrinə pənah aparmışlar. Kənd isə ermənilər tərəfindən tamam yandırılaraq məhv edilmişdir. Belə ki, bu qədim türk kəndini sonradan bərpa etmək mümkün olmamış və elə o vaxtdan da kənd xaraba qalmışdır.

Kəndin müsəlman qəbiristanlığının qalıqları son vaxtlara qədər dururdu.

KETRAN

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 6 km qərbdə, Zəngi çayının sol sahilində kənd.

1918-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1922-ci ildən 1930-cu illərə qədər kənd azərbaycanlarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuş, 1930-cu illərdə azərbaycanlılar kənddən sıxışdırılıb çıxarılaraq kənd bütünlüklə ermənileşdirilmişdir.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Qırxbulaq nahiyəsinin **Kütüran kəndi** kimi qeydə alınmış, kəndin **Əli** adlı şəxsin timarı olduğu, bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 6.000 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) Qırxbulaq mahalının **Kitran//Kitiran kəndi** kimi yazıya alınmış, kənddə 6 təsərrüfatda 27 nəfər (14 kişi, 13 qadın) Azər türkünün yaşadığı qeyd olunmuşdur. Həmin mənbədə başqa bir yerdə kəndin adı **Kütüran** kimi verilmişdir. Kəndin **Axund Molla Ələkbərin** tiyul kəndi olduğu da İ.Şopendə qeyd olunmuşdur.

1873-cü ilin statistikasında isə kəndin adı iki variantda – **Ketran//Kitiran** kimi qeydə alınmış, kənddə 18 təsərrüfatda 160 nəfər (80 kişi, 80 qadın) Azər türkünün yaşadığı, burada qədim kilsə xarabalıqlarının olduğu göstərilmişdir. Kənddə yaşayanların sayı 1886-cı ildə 22 təsərrüfatda 215 nəfər (111 kişi, 104 qadın), 1905-ci ildə 236 nəfər, 1914-cü ildə 352 nəfər olmuşdur.

1918-ci ildə kənd erməni daşnakları tərəfindən dəfələrlə hücuma məruz qalmış, əhalisinin bir qismi qəddarlıqla qətlə yetirilmiş, sağ qalanlar kənddən didərgin düşmüşlər.

Qərbi Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra kəndin qaçqın əhalisinin bir qismi geri qayıdıb, kənddə Türkiyənin Arceş, Bitlis, Bulanıq, Manazkert, Muş və Van bölgələrindən gəlmiş ermənilərin məskunlaşdıqlarını görmüşlər. Təzədən özlərinə ev-eşik düzəltməyə başlayan azərbaycanlılar isə tədricən sıxışdırılıb kəndi tərk etməyə məcbur edilmişlər.

1931-ci ildə kənddə cəmi 14 nəfər azərbaycanlı yaşamışdır ki, onlar da az sonra kənddən köçüb qonşu müsəlman kəndlərinə getmişlər.

1948-ci il iyunun 21-də kəndin Ketran adı dəyişdirilərək **Getameç** qoyulmuşdur. 1958-ci ildə Yeni Hacı (Nor Haçin) kəndinə şəhərtipli qəsəbə statusu verilərkən 3 km-lik məsafədə yerləşən Ketran kəndi də qəsəbə sovetinin tərkibinə daxil edilmişdir.

Kəndin Ketran (müxtəlif mənbələrdə **Kütüran, Kitran, Kitiran, Qətran**) adının etimologiyası ilə bağlı mövcud fikrə (B.Budaqov, Q.Qeybullayev) görə toponimin yazılışı əslində **Qət-Arandır** və türk dillərindəki "**dağın gün düşən tərəfi**" anlamında **kat** və "**yemlik ot**" mənasında **ran** və ya "**qışlaq**" anlamında **aran** sözlərindən ibarətdir.

Lakin eyniköklü toponimlərin yayılma ərazisinin genişliyi və intensivliyi yuxarıdakı mülahizəni ciddi şübhə altına alır. Məsələn, XIX yüzildə Qars əyalətinin Qars dairəsində Qətranlı kəndi, İrəvan xanlığının Qırxbulaq mahalında Kətiqut (Qutqut) kəndi, XVI yüzildə İrəvan qəzasında Kətuzə kəndi, XVIII yüzildə Karbi nahiyəsində Kətəbi kəndi, Yeni Bayazid qəzasında Kətidağ (Aşıq Alıda Xanget), Qars əyalətinin Kaqızman dairəsində Kətitəpə, Azərbaycanın Oğuz rayonunda Qayıtdağ, Kəlbəcər rayonunda Kətidağ dağları, Yeni Bayazid qəzasında Kətiçay çayı, Qazax qəzasında Kətintəpə dağı, Dağıstan əyalətinin Qazı Qumuq dairəsində Keta Kıku dağı, Quba qəzasında Kətədağ, Yeni Bayazid və Sürməli qəzalarında Keyti (bəzi mənbələrdə Kədi) kəndləri, XIV yüzildə Anadoluda Kəti qalası mövcud olmuşdur.

Bizcə, toponimin düzgün etimoloji izahı üçün öncə onun adındakı çoxvariantlılıqda ilkin adı bərpa etmək son dərəcə vacibdir. Bu məsələdə isə İ.Şopenin axtarışları daha düzgün istiqamət verir. Qırxbulaq mahalının Ketran (İ.Şopendə Kitran) kəndindən bəhs edən müəllif belə bir ehtimal irəli sürür ki, bu yer qədim coğrafiyaçıların Kotay dairəsində Kot adı ilə qeydə aldıqları yerdir. Mənbələrdə Geqam (Göyçə) gölündən o qədər də uzaq olmayan məsafədə Kot dairəsində Kot adlı kənddən bəhs edilir. Stepan Orbelianın tarix kitabında həmin kənd şəhər kimi qeydə alınmışdır. İ.Şopenin məlumatına görə, kənd xarabalıqlarla dolu dərədə yerləşir. Kəndin aşağısında son dərəcə dərin dərə var, çox güman ki, onu Zəngi çayı yaradıb, sonra sağ tərəfə üz tutub. Orada üç qədim su arxının qalıqları hələ də qalır. Görünür, nə vaxtsa bu kəndin torpaqları həmin arxların suları ilə suvarılıb. Burada Koroğlunun at tövləsinin xarabalıqlarını nişan verirlər.

Bəli, bütün bunlar İ.Şopenin məlumatlarıdır və ciddi yanaşma tələb edir. Bizcə, İ.Şopen haqlıdır, söhbət **Kot** tayfasından getməlidir və Ketran//Kotran da **Kot-ər-an**, yəni **Kot tayfasına mənsub olanlar** anlamındadır.

KƏNƏKİR

Qırxbulaq mahalında, İrəvan şəhərinin şimalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 8-10 km cənub-qərbdə, Zəngi çayının üstündə, avtomobil yolu kənarında kənd, Sovet dövründə İrəvan şəhərinin tərkibinə qatılmışdır.

XVII yüzilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. İrəvan bəylərbəyi Əmirqunə xanın (1606-1625) Şərqi Anadoluya hərbi səfəri zamanı oradan köçürüb gətirdiyi erməni ailələrini yerləşdirdiyi kəndlərdən biri də Kənəkir olmuş və o vaxtdan 1828-ci ilə qədər kənddə azərbaycanlılarla yanaşı ermənilər də yaşamışlar. Sonralar kənddə bir neçə müsəlman kürd və aysoru ailələri yaşasa da, kənd tədricən erməni kəndinə çevrilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin **Kənəkir kəndi**, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Kanaker kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə kənddən dövlətin müxtəlif vergilər şəklində götürdüyü illik gəlirin məbləğinin 50.000 ağça miqdarında olması kənddəki ermənilərin nə məqsədlə bura köçürülməsini özlüyündə aşkarlayır. Yəni məqsəd qədimdən qul əməyi ilə ixtisaslaşmış erməni-hay işçisindən əkinçilik (xüsusilə şərabçılıq) və sənətkarlıq (xüsusilə evtikmə) işlərində maksimum dərəcədə istifadə etmək idi. Qul mənşəli haylar da sanki elə bunun üçün – ağalarının qarşısında işləmək üçün yaranmışdılar.

İ.Şopendə (1832) Qırxbulaq mahalının Kənəkir kəndində 2 təsərrüfatda 15 nəfər (10 kişi, 5 qadın) Azər türkü, 58 təsərrüfatda 386 nəfər (214 kişi, 172 qadın) "yerli", yəni XVII yüzilin əvvəllərində Türkiyədən, 10 təsərrüfatda 41 nəfər (24 kişi, 17 qadın) 1828-1829-cu illərdə İrandan və 6 təsərrüfatda 35 nəfər (18 kpşi, 17 qadın), 1830-cu ildə Türkiyədən köçürülüb gətirilmiş erməni qeydə alınmışdır.

İ.Şopen kəndin tarixi ilə bağlı aşağıdakı versiyanı da irəli sürür: **"Arxiyepiskop İohannes Kavakert adlı bir kənddən bəhs edir. Gərək ki, bu, Kənəkir olsun, çünki o da Hrasdan (Zəngi) çayının üstündə yerləşir. 1270-ci illərdə yaşamış Stepan Orbelian bu kəndi Saqaskar monastırına hədiyyə etmişdir. O vaxt Kənəkir Siyuni əyalətinin Gögərkuni dairəsinə mənsub idi. XI yüzilin sonlarında**

Kənəkir kəndi Maqarakazordakı bir bağla birlikdə Yelik Orbeliana verilmişdir".

Bu tarixi ekskursdan sonra İ.Şopen Kənəkir kəndində iki "o qədər də qədim olmayan", yəni ən uzağı hayların bu kəndə gəlişindən (XVII yüzilin əvvəlləri) sonra tikilmiş kilsənin və Zəngi çayı üstündə "türklər tərəfindən tikilmiş və ya bərpa olunmuş möhkəm və gözəl körpü"nün varlığından bəhs edir. Kəndin ərazisində bir sıra xarabalıqların mövcudluğu barədə İ.Şopenin qeydi isə kəndin qədimliyini bir daha təsdiqləyir.

1873-cü ildə **Kənəkir kəndində** 158 təsərrüfatda 1.069 nəfər (583 kişi, 486 qadın) erməni, 1 təsərrüfatda 5 nəfər (3 kişi, 2 qadın) müsəlman kürdü ilə yanaşı, həm də iki kilsə binası, İrəvan hərbi xəstəxanasının yay binası, Zəngi çayı üstündə türk körpüsü qeydə alınmışdır. Göründüyü kimi, kəndin erməni əhalisinin İrəvan xanlığının ruslar tərəfindən işğalından sonra belə sürətlə artması rusların İrəvan şəhəri yanındakı bu erməni kəndinə xüsusi önəm verməsini sübut edir.

1886-cı ildə artıq kənddə 196 təsərrüfatda 1.203 nəfər (646 kişi, 557 qadın) erməni, 1 təsərrüfatda 7 nəfər aysoru yaşamışdır.

Toponimin etimologiyası ilə bağlı mövcud elmi fikrə görə, Kənəkir oykonimi ilkin variantında **Kanaqer** şəklində olmuşdur və türk dillərində "**sıldırım**" mənasında **kanq**, monqol dilində "**düşərgə**" anlamında **qer**, ya da türk dillərində "**alçaq yüksəklik**" mənasındakı **kır** sözlərindən ibarətdir (B.Budaqov, Q.Qeybullayev).

Müəlliflərin fikrinə əlavə olaraq bildirmək istəyirik ki, V.V.Radlovun təsdiq etdiyi kimi, qədim türk dillərində **kan** "**meşə**" anlamında, **kir** isə "**dağ silsiləsi**", "**hündür yer, təpəlik**", "**yayla**" anlamlarında da işlənmişdir. Üstəlik, farsca "**yaşayış məntəqəsi**", "**kənd**", "**yer**" mənasında işlənən **kana** (**xana**) komponentinə də toponimlərimizdə tez-tez rast gəlmək mümkündür.

Bununla belə, biz toponimin etimologiyasının yuxarıdakı izahlarını qəbul etmirik. Bizcə, **Kənəkir** (bəzi mənbələrdə **Kənəkər**) toponimi qədim **Kənkər** türk tayfasının adından yaranmışdır. Fikrimizi Qərbi Azərbaycan, o cümlədən İrəvan ətrafı bölgələrdə Gəngər türklərinin qədimdən məskunlaşması da təsdiq edir. Xatırladırıq ki, bölgədə Gəngər tayfasının adı ilə Kənkən (Kənkan) adlı başqa bir etnotoponim də mövcuddur.

KƏNKAN (KƏNGİ, KƏNKƏN)

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 20 km şimal-şərqdə, Hadis dağının şimal yamacında, Zəngi çayının yuxarı axarında, dəniz səviyyəsindən 2.023 m yüksəklikdə kənd.

1918-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1918-1920-ci illərdə Türkiyənin Bayazid və Vaspurakan vilayətlərindən qaçıb gələn ermənilər kəndə dolmuş və o vaxtdan 1948-ci ilə qədər kənd yerli azərbaycanlılarla gəlmə ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1948-1949-cu illərdə kəndin türk-müsəlman əhalisi bütünlüklə Azərbaycana deportasiya olunmuş və kənd ermənileşdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin **Kənkan kəndi**, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Kəngi kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə kəndin **Həsən Hüseyn oğlunun** timarı olduğu və bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 4.200 ağça gəlir götürdüyü göstərilmişdir.

I.Şopendə (1832) və sonrakı mənbələrdə (1873, 1886...) kəndin adı **Kənkən//Kənkan//Kankan** şəkillərindədir ki, bu da toponimin Kənkən adının fonetik variantlarından başqa bir şey deyil.

Kənkan toponiminin etimologiyasının "**kəhriz çıxardan**", "**quyu qazan**" anlamındakı **kənkan** sözü ilə izah olunmasını (B.Budaqov, Q.Qeybullayev; S.Mirmahmudova) düzgün hesab etmirik. Bizcə, mütləq toponimin etnonimik mahiyyətinə diqqət yetirmək lazımdır.

Xüsusilə toponimin 1728-ci ilə aid mənbədəki **Kəngi**, İ.Şopendə və sonrakı statistikalardakı **Kənkən** variantları adın etimologiyasının da açarıdır. Bizcə, bu toponim Qərbi Azərbaycan ərazisində qədimdən məskunlaşmış **Kəngər** türk tayfasının adını daşıyır. Yaxınlıqda Kəngər tayfasının adı ilə Kənəkir adlı ikinci bir yaşayış məntəqəsinin mövcudluğu da bu ehtimalda haqlı olduğumuzu göstərir.

İ.Şopendə (1832) **Kənkən kəndi** Qırxbulaq mahalının 1826-

1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı xaraba qalmış kəndləri siyahısında verilmişdir. Kəndin xanlıq dövründə **Subboğan Qulu xanın** tiyul kəndi olduğu da həmin mənbədə göstərilmişdir.

Sonralar kəndin bölgənin ruslar tərəfindən işğalı nəticəsində didərgin salınmış əhalisi geri qayıdaraq kəndi təzədən bərpa etmiş, 1873-cü il siyahıyaalması zamanı artıq kənddə 64 təsərrüfatda 548 nəfər (298 kişi, 250 qadın) Azər türkü qeydə alınmışdır.

1886-cı ildə kənddə 122 təsərrüfatda 772 nəfər (408 kişi, 364 qadın) Azər türkü yaşamışdır ki, bunun da 10 nəfəri (7 kişi, 3 qadın) bəy ailə üzvləri olmuşlar.

Kənd əhalisinin sayı 1897-ci ildə 740 nəfərə, 1905-ci ildə 939 nəfərə, 1914-cü ildə 1.114 nəfərə çatmışdır.

1918-ci ildə daşnakların silahlı quldur dəstələri tərəfindən kəndin bütün əhalisi soyqırımına məruz qalmış, dinc sakinlərin bir qismi qəddarcasına qətlə yetirilmiş, sağ qalanlar doğma yurddan işgəncələrlə qovulmuşlar. Kənddəki boşalmış müsəlman evlərinə isə Türkiyədən qaçıb gəlmiş ermənilər yerləşdirilmişlər. Yalnız bölgədə Sovet hakimiyyəti qurulduqdan, daşnak silahlı quldur dəstələri darmadağın edildikdən sonra kəndin qaçqın əhalisinin bir hissəsi geri qayıtmaq imkanı əldə etmişdir. 1922-ci ildə geri qayıdan 72 nəfər azərbaycanlı burada 1918-1920-ci illərdə məskunlaşmış 279 nəfər Türkiyədən gəlmə erməni ilə qarşılaşmış, onlarla yanaşı yaşamağa məcbur olmuşlar.

1931-ci ildə kənddə azərbaycanlıların sayı 147 nəfər, ermənilərin sayı isə 689 nəfər olmuşdur. Göründüyü kimi, kənddəki ermənilərin sayının xaricdən köçüb gələnlərin hesabına süni artımı göz qabağındadır.

1948-ci ildən başlanan deportasiya bu kənddən də yan ötməmiş, kəndin bütün türk-müsəlman əhalisi zorla Azərbaycana deportasiya olunmuşlar. O vaxtdan kənddə ancaq ermənilər yaşayırlar.

1978-ci il yanvarın 25-də kəndin Kənkən adı dəyişdirilərək yanındakı dağın adı ilə **Hatis** qoyulmuşdur.

KƏRPİCLİ

Gərnibasar mahalının dağlıq hissəsində, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 22 km cənub-şərqdə, Gərni çayının sağ tərəfində, Abdallar və Qurbağalı kəndləri yaxınlığında, İrəvan-Gərni (Baş Gərni) avtomobil yolunun kənarında, dəniz səviyyəsindən 1.664 m yüksəklikdə, Kərpicli dərəsi qarşısında, təpəlik üstündə kənd.

1918-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1918-1920-ci illərdə daşnaklar tərəfindən kənddə Türkiyənin Van, Xnus və Qars bölgələrindən qaçıb gələn ermənilər yerləşdirilmiş və 1930-cu ilə qədər kənd yerli azərbaycanlılarla gəlmə ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1930-cu ildə kənddə azlıq təşkil edən azərbaycanlılar sıxışdırılıb çıxarılmış və kənd bütünlüklə ermənileşdirilmişdir.

Kəndin adına ilk dəfə "İrəvan əyalətini icmal dəftəri"ndə (1728) Gərni nahiyəsinin **Kərpicli kəndi** şəklində rast gəlirik. Kəndin **Mustafa** adlı şəxsin timarı olduğu və bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça məbləğində gəlir götürdüyü də həmin mənbədə göstərilmişdir.

İ.Şopendə (1832) kənd **Kərpiçili** adı ilə Gərnibasar mahalının xaraba kəndləri siyahısına daxil edilmişdir ki, bu, onun 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalmasından irəli gəlirdi.

Sonralar kənd keçmiş sakinləri – müharibə zamanı doğma kəndindən didərgin salınmış türk-müsəlman əhali tərəfindən yenidən məskunlaşdırılmış və artıq 1873-cü ilin statikası zamanı adı iki variantda (**Kərpicli//Kirpicli**) qeydə alınan kənddə 15 təsərrüfatda 141 nəfər (94 kişi, 47 qadın) Azər türkünün yaşadığı qeyd olunmuşdur.

1886-cı ildə kənd əhalisinin sayı 20 təsərrüfatda 172 nəfər (109 kişi, 63 qadın), 1897-ci ildə 257 nəfər, 1905-ci ildə 188 nəfər, 1914-cü ildə 290 nəfər olmuşdur.

1918-ci ildə bölgədəki digər türk-müsəlman kəndlərinin əhalisi kimi, Kərpicli kəndinin dinc sakinləri də ermənilər tərəfindən soyqırımına məruz qalmış, kənd əhalisinin bir çoxu ermə-

nilərə xas qəddarlıqla qətlə yetirilmiş, sağ qalanlar vəhşicəsinə qovulmuşlar.

Sovet hakimiyyətinin ilk illərində kəndin qaçqın düşmüş azərbaycanlı sakinlərindən çox az bir hissəsi – 36 nəfər geri qayıda bilmiş, lakin 1918-1920-ci illərdə Türkiyədən qaçıb gəlmiş ermənilərin müsəlman evlərinə zorla yiyələndiklərinin şahidi olmuşlar. Geri qayıdan azərbaycanlılardan qat-qat çox olan bu ermənilər az sonra onları sıxışdırıb çıxarmış və 1930-cu ildən kənddə ancaq ermənilər yaşamışlar.

Kəndin etimologiyası ilə bağlı mövcud fikrə görə, kənd qışlaq əsasında yaranmışdır. Qışlaq isə "**Kərpicli**" yerinin (qırmızı kərpicdən tikinti xarabalığının) adını əks etdirmişdir (B.Budaqov, Q.Qeybullayev).

Tədqiqatçı S.Mirmahmudova da təxminən həmin mövqedədir: "Kərpicdən tikilmiş qədim qala xarabalığı olan yerin adındandır".

Bununla belə, toponimin İ.Şopendəki yazılışı (**Kərpiçili**, yəni **Kərpiç eli**) adın etnonim səciyyəsi üzərində də düşünməyə əsas verir.

Xatırladırıq ki, Aleksandropol (Gümrü) qəzasında da Kərpicli adlı dağ olmuşdur.

1935-ci il yanvarın 3-də kəndin Kərpicli adı dəyişdirilərək **Geğadir** qoyulmuşdur.

KÜZƏCİK

Qırxbulaq mahalında, Ellər rayonu ərazisində, Qırxbulaq çayının yuxarı axarında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Qırxbulaq nahiyəsinin **Küzəcik** (mənbədə səhvən **Kürəcik** yzılıb) kəndi kimi qeydə alınmış, kəndin **Həsən** adlı şəxsin timarı olduğu və bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürdüyü göstərilmişdir.

Sonrakı bütün mənbələrdə (1831, 1873, 1886...) də kəndin adı **Küzəcik** şəklindədir. Toponimin Bayat türk tayfasının **Küzücəkli** qolunun adını əks etdirməsi fikri (B.Budaqov, Q.Qeybullayev) mövcuddur və biz də bu fikri müdafiə edirik. Xatırladırıq ki, Göyçə mahalının Kəvər rayonunda da Küzəcik adlı kənd olmuşdur ki, bunları bir-biri ilə qarışdırmaq lazım deyil. İstər Küzəcik oykoniminin, istərsə də Küzücəkli etnoniminin etimologiyasına gəldikdə isə, hər iki ad, bizcə, **Quz//Oğuz** və kiçiltmək və ya əzizləmək mənasında **-cik//cək** şəkilçisindən ibarət olmaqla "**kiçik Quz//Oğuz tayfası** və ya **kəndi**" anlamındadır.

I.Şopendə (1832) kəndin Qırxbulaq mahalının xaraba kəndləri siyahısına daxil edilməsi onun 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalmasından irəli gəlir.

Sonralar kənd onun keçmiş sakinləri tərəfindən yenidən məskunlaşdırılmış və 1873-cü ilin statistikasında mülkədar kəndi kimi qeydə alınan kənddə 11 təsərrüfatda 100 nəfər (55 kişi, 45 qadın) Azər türkünün yaşadığı göstərilmişdir.

1886-cı ildə kənd əhalisinin sayı 12 təsərrüfatda 109 nəfər (67 kişi, 42 qadın), 1897-ci ildə 127 nəfər, 1905-ci ildə 119 nəfər, 1914-cü ildə 138 nəfər olmuşdur.

1918-ci ildə Qərbi Azərbaycan ərazisində azərbaycanlıların növbəti soyqırımı zamanı kənd erməni daşnakları tərəfindən yerlə-yeksan edilmiş, əhalisinin bir hissəsi vəhşicəsinə qətlə yetirilmiş, sağ qalanlar kənddən qovulmuşlar. Sonrakı mənbələrdə kəndin adına rast gəlinməməsi onun bir daha bərpa olunmamasına və elə o vaxtdan xaraba qalmasına dəlalət edir.

QAMRİZ//KƏMRİS//QƏMRİZ

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 11 km cənub-şərqdə, Qırxbulaq çayının yuxarı axarında, Aramus kəndi yaxınlığında kənd.

Bu qədim türk kəndinə ilk erməni ailələrinin nə vaxtdan köçürülüb gətirilməsi barədə əlimizdə dəqiq məlumat yoxdur. Lakin 1831-ci ildə kənddə cəmi 6 təsərrüfata 29 nəfər "yerli" ermənin qeydə alınması təsdiq edir ki, ermənilərin kəndə gəlişi XVIII yüzilin sonlarından irəli gedə bilməz. 1828-ci il Türkmənçay bağlaşmasından sonra kəndin türk-müsəlman əhalisi kəndi tərk etmiş, burada İrandan köçürülüb gətirilmiş xeyli erməni yerləşdirilmişdir. O vaxtdan kənddə ermənilər yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Kəmris kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə kənddən dövlətin müxtəlif vergilər şəklində götürdüyü illik gəlirin məbləği (8.000 ağça) Kəmrisin hələ o vaxt xeyli iri kənd olmasına dəlalət edir.

I.Şopendə (1832) və 1873-cü ilin statistikasında kəndin adının **Qamriz** kimi qeydə alınması, ikincidə kəndin digər adının **Qəmris** kimi verilməsi, 1886-cı ildə isə artıq ancaq **Qəmriz** adının qalması göstərir ki, kəndin ilkin adı məhz **Qamriz//Qamris** olmuş, bu ad tədricən Qəmris şəklində rəsmiləşmişdir.

Toponimin türk dillərində "**çay**", "**dərə**" anlamında **qəm, kəm** və "**tayfanın hissəsi**" mənasında **arıs** sözlərindən ibarət olması fikri (B.Budaqov, Q.Qeybullayev) ilə qətiyyən razı deyilik. XVII yüzilə aid ermənicə mənbədə kəndin adının **Qəmrəs** şəklində verilməsi və adın ilkin **Qamris** variantı da təsdiq edir ki, toponimin ilk komponenti **Qam** sözündən ibarətdir. Biz adın iki variantda etimoloji izahını təklif edirik: 1) **Qamər** və **uz** komponentlərindən ibarət olmaqla bölgədə qədimdən məskunlaşmış **Qamər türk tayfasının məskəni** anlamını bildirir; 2) **Qam-ər-as** komponentlərindən ibarət olmaqla **As türk tayfası Qamının (kahininin) kəndi** mənasını daşıyır.

Qamris kəndinin yaxınlığında "Qam eli" anlamında Kamal

adlı kəndin, qonşuluqda Qəmərli yaşayış məntəqəsinin (və rayonunun) və ümumiyyətlə Qərbi Azərbaycan ərazisində Qam komponentli çoxlu toponimin (Gümrü qəzasında Qam-Xut, Zəngəzur qəzasında Kəm-Bil, Kəmdağı dağ adlarının, Göyçə mahalında Kamasar kənd adının, Yeni Bayazid qəzasında Kəm dərə adının və s.) mövcudluğu da yuxarıdakı fikrimizi möhkəmləndirir. Yeri gəlmişkən, Şimali Qafqazın Stavropol quberniyasının Açi-kulak dairəsində Kəm-Tübə dağı, Ter əyalətinin Nalçik dairəsində Kəm kəndi də qeydə alınmışdır.

1831-ci ildə Qırxbulaq mahalının **Qamris kəndində** 6 təsərrüfatda 29 nəfər (15 kişi, 14 qadın) "yerli", yəni Türkmənçay müqaviləsinə qədər burada yaşamış, 26 təsərrüfatda 170 nəfər (96 kişi, 74 qadın) İrandan köçürülüb gətirilmiş erməni siyahıya alınmışdır.

Bundan əlavə, İ.Şopen kənddə qədim kilsə və birtağlı, son dərəcə gözəl arxitekturaya malik qədim körpü olduğunu da qeyd etmişdir. Şübhəsiz ki, qamların (kahinlərin) məbədgahı olan nə bu kilsənin, nə də bu qədim körpünün kəndə XVIII yüzildə gəlmiş haylara heç bir dəxli yoxdur və ola da bilməz.

1873-cü il siyahıyaalması zamanı kənddə 92 təsərrüfatda 713 nəfər (395 kişi, 318 qadın) erməni ilə yanaşı, həmin qədim kilsə və qədim körpü yenidən qeydə alınmışdır. 1831-ci illə 1873-cü ilin müqayisəsində kənddə erməni əhalisinin süni artımı göz qabağındadır.

1886-cı ildə isə kənddə 115 təsərrüfatda 962 nəfər (515 kişi, 447 qadın) əhali yaşamış, kəndin torpaqları kəndin içindəki **Qamris bulağının** suyu ilə suvarılmışdır.

Sovet dövründə kənd **Qəmrəz** adı ilə rəsmiləşdirilmiş, 1978-ci il yanvarın 25-də isə dəyişdirilərək **Kamaris** şəklində erməni tələffüzünə uyğunlaşdırılmışdır.

QARACALAR (QARACAQALA, AŞAĞI QARAQALA)

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 18-20 km şimal-şərqdə, Qırxbulaq çayının yuxarı axarında, çayın kənarında, Quyubulaq, Dəlləkli və Zar kəndləri yaxınlığında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin **Qaracaqala məzrəsi**, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Qaracalar kəndi** kimi qeydə alınmışdır. Bununla belə, ikinci mənbədə kəndin Zar kəndi yaxınlığında yerləşdiyi, kəndin başqa adının **Aşağı Qaraqala** olduğu, **Mustafa Hüseyn oğlunun** adına timar verildiyi və dövlətin müxtəlif vergilər şəklində bu timar-kənddən ildə 3.000 ağça gəlir götürdüyü də göstərilmişdir.

İ.Şopendə (1832) kənd **Qaracalar** adı ilə Zəngibasar mahalının xaraba kəndləri sırasına daxil edilmişdir. Bu, onun 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalması ilə bağlı idi. Maraqlıdır ki, həmin vaxtlar qonşu Qaraqala kəndi də xarabalığa çevrilmiş, İ.Şopen Qaraqala kəndini Qırxbulaq mahalının xaraba kəndlərindən biri kimi qeydə almışdır. Dağıdılmış hər iki kəndin – Qaraqala və Qaracalar (Aşağı Qaraqala) – əhalisinin bir hissəsi Dərəçiçək mahalına sığınaraq burada Qaraqala adlı kənd salmışlar.

Sonralar Qırxbulaq mahalının Qaraqala kəndi yenidən bərpa olunmuş, kəndin keçmiş sakinlərinin bir hissəsi geri qayıtmışlar. Qaracalar kəndinin geri dönən sakinləri də burada özlərinə evəşik düzəltmişlər. Sonrakı mənbələrdə Qaracalar kənd adına bir daha rast gəlməməyimiz onun həmin vaxtlardan etibarən tarix səhnəsindən silinməsindən xəbər verir.

Kənd öz adını **Qaracalar** tayfasının adından götürmüşdür. Ümumiyyətlə, **Qaralar//Qaracalar** toponimi Bütöv Azərbaycan ərazisində son dərəcə geniş yayılmışdır. Təkcə Qaraca komponenti və Qaracalar adı ilə Qərbi Azərbaycanın, demək olar ki, bütün bölgələrində çoxlu kəndlər qeydə alınmışdır.

Qaracalar tayfası vaxtilə Dərələyəz mahalında, Şirvan düzündə, Qarabağda daha sıx şəkildə yaşamışlar. Təkcə Dərələyəz mahalında 660 ailədən ibarət **Qaracalar eli** mövcud olmuşdur. Şirvan düzündəki Qaracalar eli isə Şirvan xanlığı ruslar tərəfindən işğal olunduqdan sonra erməni mənşəli çar generalı V.Q.Mədətov tərəfindən Qarabağa köçürülmüşdür.

QARACORAN (QARACEYRAN, QARACAÖRƏN, QARACAVİRAN)

Gərnibasar mahalının dağlıq hissəsində, Ellər rayonu ərazisində, Gərni çayının yuxarı axarında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin **Qaracaviran kəndi**, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Qaraca Ören kəndi** kimi qeydə alınmışdır. Üstəlik, ikinci mənbədə kənddə heç kimin yaşamadığı və buranın **Məhəmməd Mahmud oğlunun** adına timar verildiyi və bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) kənd **Qaraceyran** adı ilə Qırxbulaq mahalının xaraba kəndləri siyahısına daxil edilmişdir.

Sonralar kənd yenidən bərpa olunmuş və 1873-cü ilin statistikasında **Qaracoran** adı ilə Gərnibasar mahalının dağlıq hissəsində, Gərni çayının yuxarı axarında yerləşdirilmiş, kənddə 9 təsərrüfatda 57 nəfər (28 kişi, 29 qadın) Azər türkünün yaşadığı göstərilmişdir.

1886-cı ildə kənd əhalisinin sayı 11 təsərrüfatda 73 nəfərə (46 kişi, 27 qadın) çatmışdır.

Yeri gəlmişkən, "Zaqafqaziya diyarı dövlət kəndlilərinin iqtisadi vəziyyətinə dair materiallar" (1886) toplusunda Zəngibasar mahalının Şorlu Dəmirçi kəndindən çıxan ailələrin 1876-cı ildə (**burada yanlışlıq var, statistika göstərir ki, bu rəqəm "1873-cü il" olmalıdır** – Ə.Ə.) Qırxbulaq mahalında **Qaracoran** (**mənbədə *Qaracaran*** – **Ə.Ə.**) adlı kənd salmalarından (**əslində *"bərpa etmişlər"* olmalıdır** – Ə.Ə.) bəhs edilmişdir.

XX yüzilin əvvəllərində erməni daşnaklarının İrəvan quberniyası ərazisində azərbaycanlılara qarşı törətdikləri soyqırımı nəticəsində kənd dağıdılmış və həmişəlik xarabalığa çevrilmişdir.

Toponimin yerli tələffüzdə "**Qaraçuran**" kimi deyilişini əsas götürən tədqiqatçılar (B.Budaqov, Q.Qeybullayev) onun Şərqi Anadolunun Qara-Çuran mahalından gəlmiş ailələrin məskunlaş-

ması nəticəsində yaranması ehtimalını irəli sürürlər. Lakin biz toponimin gətirilmə olmasının qəti əleyinəyik. Qədimdən müxtəlif türk tayfalarının anayurdu olan bir məmləkətin toponimlərinə bu cür yanaşma qeyri-elmidir. Öncə, bildiyimiz kimi, İrəvan çuxurunda məskunlaşan türk tayfalarından biri də **Qaraçorlu** tayfası olmuşdur və **Qaracoran** oykonimi əslində **Qaraçoran** kimi **Qaraçorlular** anlamındadır.

Adın ilkin (**Qaraca Örən**) variantına gəldikdə isə, bu ad da eyni mənadadır, qədimdir və sırf türk mənşəlidir. Hətta Azərbaycanın qədim şəhərlərindən olan Beyləqanın əvvəlki adı da Örənqala olmuşdur.

QARAQALA (2-Cİ QARAQALA)

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 20 km şimal-şərqdə, Qırxbulaq çayının yuxarı axarında, çayın kənarında, Zar kəndi yaxınlığında, dağlar qoynunda kənd.

1918-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1922-1948-ci illərdə kənd azərbaycanlılarla Türkiyədən gəlmə ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1948-1949-cu illərdə kəndin azərbaycanlı əhalisi doğma yurddan zorla deportasiya olunmuş və kənd tamamilə ermənileşdirilmişdir.

"İrəvan əylətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin **Qaraqala kəndi**, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin Zar kəndi yaxınlığında **Qaraqala kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə kəndin **Məhəmməd** adlı şəxsin timarı olduğu və bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürdüyü də göstərilmişdir.

Toponimin etimologiyası ilə bağlı mövcud fikrə (B.Budaqov, Q.Qeybullayev) görə adın birinci komponenti "**əski**", "**köhnə**", "**qədim**" anlamında **qara** və ya "**kənd**" anlamında "**qəryə**" sözlərindən ibarətdir. Başqa sözlə, "**qədim qala**". Biz bura türk dillərində **qara** sözünün **böyük** mənasını da əlavə etmək istərdik. Xatırladaq ki, "**qara**" və "**qala**" komponetləri ilə Bütöv Azərbaycanda yüzlərlə toponim qeydə alınmışdır. Onların sırasında Qaraqala adlıları da az deyil.

İ.Şopendə (1832) **Qaraqala kəndinin** Qırxbulaq mahalının xaraba kəndləri sırasında verilməsi onun 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı dağıdılması ilə əlaqədar idi.

Yeri gəlmişkən, elə həmin vaxtlar bir qədər şimalda – qonşu Dərəçiçək mahalında (Axta rayonu ərazisində) yeni Qaraqala kəndi salınmışdır ki, bu da söyləməyə əsas verir ki, Qırxbulaq mahalının Qaraqala kənd camaatının bir hissəsi köçüb qonşu mahalda yeni kənd salmış, ona əvvəlki kəndlərinin adını vermişlər.

Sonralar Qırxbulaq mahalının Qaraqala kəndi yenidən bərpa

olunmuş, kəndin keçmiş sakinlərinin bir çoxu geri – doğma kəndlərinə dönmüşlər. 1873-cü ilin statistikasında Yeni Bayazid qəzası tərkibində dağlar qoynunda qeydə alınan kənddə artıq 46 təsərrüfatda 403 nəfər (213 kişi, 190 qadıq) Azər türkünün yaşadığı göstərilmişdir.

1886-cı ildə kənd Yeni Bayazid qəzasının Dərəçiçək dairəsində Kənkan kənd icması tərkibində **2-ci Qaraqala kəndi** kimi qeyd olunmuş (1-ci Qaraqala kəndi Axta rayonu ərazisindəki Qaraqala kəndi idi), kənddə 77 təsərrüfatda 510 nəfər (276 kişi, 234 qadın) azərbaycanlı siyahıya alınmışdır.

1897-ci ildə kənddə 599 nəfər, 1905-ci ildə 759 nəfər, 1914-cü ildə 860 nəfər Azər türkü yaşamışdır.

1918-ci ildə erməni-daşnak quldur dəstələri kəndə basqın etmiş, dinc əhalinin bir hissəsini qaddarcasına qətlə yetirmiş, sağ qalanlar elindən-obasından didərgin düşüb, Arazın o tayına – Türkiyəyə pənah aparmışlar. Elə həmin il kəndə Türkiyənin Qars vilayətindən gəlmiş erməni qaçqınları yiyələnmişlər.

1922-ci ildə kəndin keçmiş azərbaycanlı sakinlərindən çox az bir hissəsi – cəmi 20 nəfər geri qayıtmışdır. Bu vaxt kənddə 168 nəfər gəlmə erməni yerləşmişdi. Bu nisbət 1926-cı ildə 45 nəfər azərbaycanlı, 298 nəfər erməni, 1931-ci ildə 60 nəfər azərbaycanlı, 374 nəfər erməni şəklində dəyişmişdir.

Lakin az sonra – 1948-1949-cu illərdə kəndin bütün türk-müsəlman əhalisi Azərbaycana deportasiya olunmuş və kənd tamamilə ermənileşdirilmişdir.

1948-ci il iyun ayının 21-də kəndin Qaraqala adı ermənicəyə sətri tərcümə olunaraq Sevaberd (ermənicə **sev – qara, berd – qala** deməkdir) qoyulmuşdur.

QAYAXARABA

Qırxbulaq mahalında, Ellər rayonu ərazisində, vaxtilə Kənəkir kənd icması tərkibində kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

Qırxbulaq mahalı ərazisindəki **Qayaxaraba kəndi** ilə İrəvan xanlığı tərkibinə daxil olan Dərəkənd-Parçenis mahalı (sonralar Sürməli qəzası) tərkibindəki Qayaxaraba kəndini qarışdırmaq olmaz. İkinci Qayaxaraba kəndi Araz çayının sağ tərəfində, çayın Sınax qolu kənarında, Qoçbaş dağı ətəyində yerləşmişdir. Kənd iki hissədən ibarət olmuş, birincisi Sultanağıl, ikincisi Kafir qalası adlanmışdır.

Qırxbulaq mahalı ərazisindəki **Qayaxaraba** kənd adına isə statistikalarda yalnız XX yüzilin əvvəllərindən rast gəlirik. 1905-ci ildə kənddə 106 nəfər, 1914-cü ildə 174 nəfər Azər türkü qeydə alınmışdır.

1918-ci ildə bölgədəki əksər türk kəndləri kimi, **Qayaxaraba kəndi** də erməni daşnaklarının fitvası ilə yerlə-yeksan edilmişdir. Elə o vaxtdan kənd xaraba qalmışdır. Xarabalıqları Ellər rayonu ərazisində son vaxtlara qədər qalmaqda idi.

QIZILQALA

Qırxbulaq mahalında, Ellər rayonu ərazisində, Kənəkir kəndinin aşağısında, Zəngi çayının kənarında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin **Qızılqala kəndi**, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsində Zəngi çayı kənarında **Qızılqala kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə kəndin **Əli Əbdürrəhman oğlu** adlı şəxsin timarı olduğu və bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 6.000 ağça gəlir götürdüyü də qeyd olunmuşdur.

İ.Şopendə (1832) kəndin **Qızılqala** adı ilə Qırxbulaq mahalının xaraba kəndləri siyahısında verilməsi onun 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalmasına dəlalət edir. İ.Şopen Zəngi çayının suvarma əhəmiyyətindən danışarkən çaydan ayrılan ilk su arxının İrəvan şəhərindən 8 verst yuxarıda yerləşdiyini, Kənəkir kəndinin aşağısındakı **Qızılqala** kəndinin bağlarını suvarmaq üçün çəkildiyini qeyd edir.

Sonrakı mənbələrdə kəndin adına bir daha rast gəlməməyimiz onun sonralar təzədən bərpa olunmamasını söyləməyə əsas verir.

Kəndin adının etimoloji izahına keçməzdən əvvəl qeyd etmək istəyirik ki, elə təkcə Qərbi Azərbaycan ərazisinin, demək olar ki, bütün bölgələrində Qızıl komponenti ilə onlarla toponim mövcud olmuşdur: Qızılvəng, Qızılqala, Qızılverən, Qızılqaya, Qızıldaş, Qızıldəmir, Qızıldağ, Qızıldərə, Qızıl Əgrək, Qızılziyarət, Qızılkənd, Qızılkilsə, Qızıllar, Qızıltəpə, Qızılörən, Qızıllıca, Qızılxaraba, Qızılçay, Qızılca və s. Vaxtilə İqdır nahiyəsində də Qızılqala adlı kənd qeydə alınmışdır. Qırxbulaq mahalında ən məşhur dağlardan biri isə **Qızıldağ** adlanırdı.

Biz Qızılqala toponiminin etnonim səciyyə daşıdığı, Oğuz türklərinin bir qolu olan **Qızıl** tayfasının adından yarandığı qənaətindəyik. Xatırladaq ki, Anadoluda **Kızıl//Kızık** adı ilə onlarla kənd mövcud olmuş, türkmən tirələrindən biri **Qızıllı** adlanmışdır.

Vedibasar mahalında da Qızılverən (Qızılviran, Qızılxaraba) adlı kənd və bu kəndin yaxınlığında Qızqala adlı qala mövcud olmuşdur.

Qızıl tayfası ilə bağlı dəyərli elmi axtarışlar müəllifi olan professor Firidun Ağasıoğlu bu tayfanın İrəvan çuxurunda miladdan əvvəl məskunlaşması fikrindədir. Yeri gəlmişkən, professorun özü də Vedibasar mahalında yaşamış məşhur Qızılanlı tayfasındandır.

QIZQALA (QIZ QALASI)

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 20-25 km şimal-şərqdə, dəniz səviyyəsindən 2.091 m yüksəklikdə, Zəngi çayının yuxarı axarında, Zəngi çayı üstündəki yaylada kənd.

1918-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. Həmin il azərbaycanlılar kənddən qovulmuş və burada Türkiyədən gəlmə ermənilər yerləşdirilmişlər. 1940-cı illərdə kənd ləğv edilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Qız qalası kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə kəndin **Ömər Hüseyn oğlu** adlı şəxsin timarı olduğu və bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 4.500 ağça gəlir götürdüyü qeyd edilmişdir.

İ.Şopendə (1832) və sonrakı mənbələrdə (1873, 1886...) kəndin adı **Qızqala** şəklində verilmişdir. İ.Şopendə kəndin Qırxbulaq mahalının xaraba kəndləri siyahısına daxil edilməsi onun 1826-1829-cu illərdə Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalmasına və kəndin boşaldılmasına dəlalət edir.

Sonralar kəndin qaçqın əhalisi geri qayıtmış, kəndi yenidən bərpa etmişlər. 1873-cü ilin statistikasında Yeni Bayazid qəzasının Zəngi çayının yuxarı axarı boyu ərazisində **Qızqala kəndi** kimi qeyd olunmuş kənddə 13 təsərrüfatda 149 nəfər (78 kişi, 71 qadın) Azər türkünün yaşadığı göstərilmişdir.

1886-cı ildə Yeni Bayazid qəzasının **Qızqala kəndində** yaşayan əhalinin – Azər türklərinin sayı 35 təsərrüfatda 210 nəfərə (102 kişi, 108 qadın), 1905-ci ildə 297 nəfərə, 1914-cü ildə 345 nəfərə çatmışdır.

1918-ci ildə kənd erməni daşnakları tərəfindən dağıdılmış, əhalisinin bir hissəsi qəddarcasına qətlə yetirilmiş, sağ qalanlar doğma yurddan qovulub çıxarılmışlar. Həmin illərdə kənddə Türkiyənin Bayazid və Alaşgerd vilayətlərindən gəlmiş ermənilər yerləşdirilmiş, sonradan geri qayıdan azərbaycanlılar kəndə

buraxılmamışlar.

Kəndə yiyələnmiş ermənilərin sayı 1926-cı ildə 169 nəfər, 1931-ci ildə 274 nəfər olmuşdur.

Qızqala oykonimi Qafqazda, Azərbaycanda, o cümlədən Qərbi Azərbaycanda çox geniş yayılmışdır. Məsələn, təkcə XIX yüzildə Qafqazda 6 Qızqala və 7 Qız qalası kəndləri mövcud olmuşdur. Qərbi Azərbaycanda belə kəndlər vaxtilə Yeni Bayazid, Gümrü, Loru, Üçkilsə, İrəvan qəzalarında, Dərələyəzdə qeydə alınmışdır. Bundan başqa, Qızqala və ya Qız qalası adı ilə indinin özündə də elə təkcə Azərbaycanda (Bakıda, Gəncə yaxınlığında, Zəngilan, Qəbələ, Şəki, İsmayıllı, Şərur, Gədəbəy, Qax və s. rayonlarda) neçə-neçə dağ, qala adı var.

Bu cür dağ və qala adları Qərbi Azərbaycan ərazisində də az deyil. "Qərbi Azərbaycan" oncildliyinin 1-ci cildində Vedibasar mahalının Qızılverən kəndindən danışarkən Qızqala adlı qala xarabalıqlarından bəhs etmişik.

Qız komponentli toponimlərdə bu komponentin hansı mənada işlənməsi barədə mütləq bir fikir söyləmək çətindir. Belə toponimlər o qədər çoxdur ki, ciddi fikir söyləmək üçün onların hər birinə fərdi yanaşmaq lazımdır. Konkret olaraq Qırxbulaq mahalının Qızqala kəndinə gəldikdə isə, kənd öz adını yaxınlıqdakı **Qızqala** dağından, dağ isə oradakı **Qız qalasından** almışdır. Qız qalasındakı "Qız" komponenti isə eyniadlı bütün toponimlərdəki kimi, **"Oğuz//Quz", "göz", "qız", "xız"** mənalarının hər birində yozula bilər.

QURBAĞALI (AŞAĞI QURBAĞALI, YUXARI QURBAĞALI)

Gərnibasar mahalının dağlıq hissəsində, Ellər rayonu ərazisində, Kərpicli kəndi yaxınlığında, **İncəsu bulaqları** kənarında, Qızıldağ dağı ətəyində kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Gərni nahiyəsində iki Qurbağalı kəndi qeydə alınmışdır: **Aşağı Qurbağalı** və **Yuxarı Qurbağalı**. Aşağı Qurbağalı kəndi **Osman Həmzə oğlunun**, Yuxarı Qurbağalı kəndi isə **İsmayıl Əli oğlunun** timarı olmuş və bu timar-kəndlərin hər birindən dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürdüyü həmin mənbədə göstərilmişdir.

İ.Şopendə (1832) **Qurbaqala-ulya** (**Yuxarı Qurbaqala**) və **Qurbaqala-sufla** (**Aşağı Qurbaqala**) adları ilə hər iki kənd Gərnibasar mahalının xaraba kəndləri sırasında verilmişdir. Bu fakt özü kəndlərin bölgənin ruslar tərəfindən işğalı – 1826-1828-ci illər Rusiya-İran müharibəsi zamanı böyük itki və dağıntılara məruz qalmasına dəlalət edir.

Sonralar kəndlərin qaçqın əhalisinin az bir hissəsi geri qayıdaraq iki kəndin xarabalıqları yerində bir kənd – yeni **Qurbağalı** kəndi salmış, burada yaşamağa başlamışlar. 1873-cü ildə kənddə (həmin mənbədə kəndin adı **Qurbağlı** kimi qeyd olunur) 14 təsərrüfatda 118 nəfər (69 kişi, 49 qadın) Azər türkü qeydə alınmışdır.

Kənddə yaşayan azərbaycanlı əhalinin sayı 1886-cı ildə 19 təsərrüfatda 185 nəfər (113 kişi, 72 qadın), 1897-ci ildə 332 nəfər, 1905-ci ildə 203 nəfər, 1914-cü ildə 415 nəfər olmuşdur.

Qurbağalı kəndinin Yeni Bayazid qəzasının **Ağdağ yaylağında,** kənddən 40 verst aralıda, 304 desyatin ərazini əhatə edən **Çuxuryurd** və **Qazanyurd** adlı yurd yerləri olmuşdur. Kənd camaatı bu yurdlardan qədimdən istifadə etmişdir.

1918-ci ildə erməni daşnaklarının bölgədə türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımı nəticəsində Gərnibasar mahalının **Qurbağalı kəndi** də yerlə-yeksan edilmiş, əhalisinin çox

şaqqıldax – qoyunun quyruğu altındakı tüklərə yapışıb qurumuş

hissəsi vəhşicəsinə qətlə yetirilmiş, sağ qalanlar vətəndən həmişəlik dərbədər düşmüşlər.

Elə o vaxtdan da kənd xaraba qalmışdır.

Kəndin adının (**Qurbağalı//Qurbaqala//Qurbağlı**) etimologiyası ilə bağlı mövcud elmi fikrə (B.Budaqov, Q.Qeybullayev) görə, toponim fars dilində "**günbəzli türbə**" anlamında **qurab** və **qala** sözlərindən ibarətdir. Həmin müəlliflərin başqa versiyasına görə isə toponim **Kurba** – (monqolcada "üç") və **Ağalı** (nəsil) sözlərindən yaranmışdır.

Adın etnonim səciyyə daşıdığı şübhəsizdir. Bunu türklərin yaşadığı başqa bölgələrdə oxşar toponimin çoxluğu da təsdiq edir. Belə ki, XIX yüzildə Tiflis quberniyasının Axalsix qəzasında Kurbağaoğlu kəndi, Şimali Qafqazda Ter əyalətinin Nalçik dairəsində Kurba-Uşku dağı, vaxtilə Azərbaycanın Cavanşir qəzasında Kurbaçay çayı mövcud olmuşdur.

QUTQUT (KƏTİQUT)

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən cənub-şərqdə, Cadqıran kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

Kəndin adına Qırxbulaq nahiyəsinin **Qutqut kəndi** şəklində "İrəvan əyalətinin icmal dəftərində" (1728) rast gəlirik. Mənbədə kəndin Cadqıran kəndi yıxınlığında yerləşdiyi və **Əbdi Məhəmməd oğlunun** timarı olduğu, bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 4.000 ağça gəlir götürdüyü də qeyd edilmişdir.

Yeri gəlmişkən, həmin mənbədə Qırxbulaq nahiyəsində ikinci adı **Qutluca** olan **Qutluqan** adlı başqa bir kənd də qeydə alınmışdır.

İ.Şopendə (1832) kəndin adına **Kitikən və ya Kətiqut** şəklində Qırxbulaq mahalının kəndləri sırasında rast gəlirik. Sonrakı mənbələrdə kəndin adının çəkilməməsi İrəvan xanlığının Rusiya tərəfindən işğalı zamanı kəndin yerlə-yeksan edilməsini və sonralar bir daha bərpa olunmamasını söyləməyə əsas verir.

Bizcə, toponim öz adını turksoylu Kot tayfasının adından almışdır. Yeri gəlmişkən, Qıpçaq türklərinin ən məşhur tayfalarından biri **Kotan** (**Kotyan**), Şahsevənlərin bir tayfası **Qutlu** adlanmışdır. Təsadüfi deyil ki, Azərbaycan Respublikası və Qərbi Azərbaycan ərazisində **kot//kut//qut//qot** komponenti ilə çoxlu sayda toponim olmuşdur. Məsələn: Ataqut kəndi (Kürdəmir rayonunda), Ataqut, Tuq-Kot, Xaşaqut kəndləri (Dağlıq Qarabağda), Burunqat kəndi (Zəngəzurun Qarakilsə rayonunda), Qotur kəndləri (Üçkilsə, Hamamlı, Keşişkənd rayonlarında), Kotgah kəndi (Barana rayonunda), Qutqaşen qəsəbəsi (Qəbələ rayonunda), Qutkom kəndi (Qafan rayonunda), Qutniqışlaq kəndi və dağı (Ərtik rayonunda), Qutanqar dağı (Allahverdi rayonunda), Kotan dağı (Ellər rayonunda) və s.

Bununla yanaşı, Türkiyənin Qars əyalətində Qatusköy kəndi, Kotan tayfası, Şimali Qafqazda Kotdağ dağı da qeydə alınmışdır.

QUYULU (QUYUBULAQ, KEÇİLİ)

Qırxbulaq mahalında, Ellər rayonu ərazisində, Zəngi çayının yuxarı axarında, Hadis dağı ətəyində, Dəlləkli, Qaracalar və qonşu Axta rayonunun Fontan kəndləri yaxınlığında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Qırxbulaq nahiyəsinin **Quyubulaq kəndi** kimi qeydə alınmış, kəndin Qırxbulaq mahalının Dəlikli (**Dəlləkli** – Ə.Ə.) kəndi yaxınlığında yerləşdiyi, həm də **Keçili** adlandığı və Qaracalar məzrəsi ilə birgə **Durmuş** adlı şəxsin timarı olduğu və bu timar-kəndlərdən dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürdüyü göstərilmişdir.

Maraqlıdır ki, həmin mənbədə **Keçili** ayrıca kənd kimi də qeydə alınmış və Kənzək kəndi ilə birgə gəlirinin ildə 2.000 ağça olduğu qeyd edilmişdir.

İ.Şopendə (1832) **Quyulu** adı ilə Qırxbulaq mahalının xaraba kəndləri sırasında verilmişdir. Bu, kəndin 1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılar məruz qalması ilə bağlı idi.

Sonralar kənd yenidən məskunlaşmış və artıq 1873-cü ilin siyahıyaalması zamanı Yeni Bayazid qəzasının Zəngi çayının yuxarı axarında **Quyulu kəndi** kimi qeydə alınmış bu kənddə 26 təsərrüfatda 164 nəfər (87 kişi, 77 qadın) Azər türkünün yaşadığı göstərilmişdir.

1886-cı ildə yenidən **Quyulu kəndi** kimi siyahıya alınan kəndin əhalisinin sayı 38 təsərrüfatda 226 nəfərə (126 kişi, 100 qadın) çatmışdır.

1905-ci ildə kənddə 334 nəfər, 1914-cü ildə 396 nəfər azərbaycanlı yaşamışdır.

1918-ci ildə kənd erməni daşnaklarının vəhşi hücumlarına davam gətirə bilməyərək düşmənlər tərəfindən dağıdılmış, yandırılmış, əhalisinin bir hissəsi qətlə yetirilmiş, sağ qalanlar Arazın o tayına – Türkiyə, İran ərazilərinə pənah aparmışlar.

Bölgədə Sovet hakimiyyətinin qurulması ilə bağlı kəndin sağ qalmış əhalisinin bir qismi geri dönmək imkanı qazanmışdır.

Hacıyev Rəfiq Zəka Cəfər Xəndan oğlu – fəls. e.n., Ağhəmzəli k.

1931-ci ildə kənd əhalisinin – azərbaycanlıların sayı 81 nəfər olmuşdur.

Lakin 1948-cü ildə başlayan deportasiya bu insanları növbəti dəfə yerindən-yurdundan etmiş, kənd əhalisi bütünlüklə və zorla Azərbaycana deportasiya olunmuş, bu imkandan yararlanan ermənilər isə kəndi ləğv etmişlər. Kəndin xarabalıqları son illərə qədər qalmaqda idi.

Kənd adının etimoloji izahı ilə bağlı mövcud fikrə görə, toponim orta yüzillərdə Anadoluda yaşamış **Yerük (Yeryük)** türk tayfa birləşməsinin **Qüyü (Küyü)** tayfasının adını əks etdirir (B.Budaqov, Q.Qeybullayev). Lakin bu fikrin özündə də toponimin bölgəyə gətirilmə olması kimi yanlış mövqe özünü göstərir. Ona görə də biz yuxarıdakı izahı qəbul etmirik. Kəndin Quyulu adının ilkin variantda Quyubulaq kimi qeydə alınması isə bu toponimin etnonim səciyyə daşımaması, sadəcə olaraq hansısa kəhrizdən – quyu-bulaqdan ad alması gümanını doğurur. Kəndin daha qədim – ilkin adının **Keçili** olması barədəki qiymətli məlumat isə burada yaşayanların etnik adı barədə əsl həqiqəti ortaya qoyur. Belə ki, məlum olduğu kimi, **Keçili** tayfası mənşəcə oğuzların **Qayı//Kayı** tayfasına mənsub olmuş, Səfəvilər dövründə əsasən Naxçıvanda yaşayan Gəngərlərə qarışmışlar. Elə ona görə də XIX yüzildə Naxçıvanda yaşayan Gəngərlərin bir qolu **Keçili** adlanmışdır. Yeri gəlmişkən, Pənahəli xan bu tayfanın bir hissəsini Qarabağa köçürüb, burada yerləşdirmişdi.

Göründüyü kimi, Quyulu kəndi Oğuzların Qayı tayfasının sıx halda yaşadığı İrəvan çuxurunda bu tayfanın Keçili tirəsinin adını daşıyan kəndlərdəndir. (İrəvan əyalətində Keçili adlı kəndlərin sayı bir neçədir). Görünür, kəndin Quyulu (Quyubulaq) adı da həmin Keçili tirəsinin mənsub olduğu **Qayı** tayfa adından başqa bir şey deyil və adamlar yüzillər boyu özlərinin Keçili olmaları ilə yanaşı, həm də Qayılı olduqlarını yaddan çıxarmamış, bu adları qoşa yaşatmışlar.

Şıxəddin viran məzrəsi
Quşçu kəndi


MANSERES

Qırxbulaq mahalında, Ellər rayonu ərazisində, Çobangərəkməz kəndi yaxınlığındakı Gərəkbulaq kəndi tərəfdə kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Qırxbulaq nahiyəsinin **Manseres kəndi** kimi qeydə alınmış, kəndin "Çobangərəkməz kəndi yaxınlığındakı Gərəkbulaq kəndi tərəfdə" yerləşdiyi, **Ömər Əli oğlunun** timarı olduğu, bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 4.100 ağça gəlir götürdüyü göstərilmişdir.

Sonrakı mənbələrdə kəndin adına rast gəlmirik.




Rəssam Cabbar Quliyev. Kotan dağı.

MASİS

Qırxbulaq mahalında, Ellər rayonu ərazisində, Göykilsə kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Qırxbulaq nahiyəsinin **Masis məzrəsi** kimi qeydə alınmış, məzrənin Göykilsə kəndi ilə birlikdə **Əbdüqafur Əli oğlunun** timarı olduğu və dövlətin müxtəlif vergilər şəklində həmin timardan ildə 6.500 ağça gəlir götürdüyü göstərilmişdir.



Masis kəndinin ümumi görünüşü

Sonrakı mənbələrdə kəndin adına rast gəlməyimiz bu məzrə torpaqlarının sonralar Göykilsə kəndinə qarışaraq tarix səhnəsindən silindiyini söyləməyə əsas verir.

Göründüyü kimi, professor S.Şükürovun belə bir fikri özünü doğrultmur ki, 1950-ci ilə qədər tarixdə **Masis** toponimi olmamışdır və biz professorun bu fikri ilə də razı deyilik ki, "**mas**" ermənicə hissə, sahə mənasını verir.

Toponimin türkmənşəli olduğu ilk baxışda görünür. Yeri gəlmişkən, Bütöv Azərbaycan ərazisində **mas** komponentli çoxlu tarixi toponimlər mövcuddur. Bunlardan Masallı, Abşeronda Masazır, Ordubadda Masnis, Gədəbəydə Masxit, Göyçədə Masruka (XVIII yüzildə kilsə adı) və Masriz, Üçkilsədə Masdərə toponimlərini qeyd etmək olar. Bizcə, bu toponimlərdəki və hətta Massaget (Maskut) etnonimindəki **mas** komponentləri eynikökludür və Sak türklərinin bütöv bir qolunun adını daşıyır.

MƏNGÜS

Qırxbulaq mahalında, Qırxbulaq çayının yuxarı axarında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 10-12 km cənub-şərqdə, Təcirabad kəndinin yaxınlığında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Gərni nahiyəsinin **Əngüs** (sözün əvvəlindəki "**m**" hərfi düşmüşdür) **kəndi** kimi qeydə alınmışdır. "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsində **Mənqus**, Gərni nahiyəsində **Mənkus** adlı iki kənd adına rast gəlirik. Bunlardan birincisi **Məhəmməd** adlı şəxsin timarı olmuş və həmin timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 3.200 ağça gəlir götürdüyü göstərilmişdir. İkinci kənd isə **Seyid Səfərin** timarı kimi qeydə alınmış, kənddən dövlət xəzinəsinə daxil olan illik gəlir 3.000 ağça məbləğində müəyyənləşdirilmişdir.

Bizcə, burada hər iki halda söhbət eyni kənddən gedir. Dolaşıqlıq yaradan bu böyük kəndin iki nəfərin timarı olması, Qırxbulaq mahalı ilə Gərnibasar mahalının qovuşuğunda yerləşməsidir. Görünür, timar sahiblərindən birinin torpaq sahələri daha çox Gərnibasar mahalı ərazisinə, digərininki isə Qırxbulaq ərazisinə düşdüyü üçündür ki, bir kənd iki müxtəlif nahiyə tərkibində qeydə alınmışdır.

Kəndin adı hələ XV yüzildə Ağqoyunlu hökmdarı Sultan Yaqubun fərmanında **Mankus**, II Şah İsmayılın 1577-ci ildə verdiyi fərmanında **Mənkus** kimi yazılmışdır. Yerli tələffüz forması **Məngüs** olan toponimə həm də Naxçıvanın qədim məhəllələrindən birinin adında rast gəlirik.

İ.Şopendə (1832) isə Qırxbulaq mahalının **Məngüs kəndi** kimi qeyd olunmuş kənddə 11 təsərrüfatda 60 nəfər (34 kişi, 26 qadın) Azər türkünün yaşadığı göstərilmişdir.

İ.Şopen Məngüs kəndində Ərmən tarixində kifayət qədər məşhur olan monastırın yerləşdiyi barədə də məlumat verir, həmin monastırın **Makenis, Makenas, Geqam** və **Qişatakaran** adlandırıldığını yazır. Söhbət həmin monastırdan gedir ki, VIII yüzildə Ermənistanın ən əhəmiyyətli dini ocaqlarından idi və Qədim Ördəkli kəndi. Başqa adı Qaraçılardır.

tarixən **"Gögərkuni dairəsində, Gərni şəhərindən o qədər də uzaqda olmayan məsafədə"** yerləşirdi. Üstəlik, Stepan Orbelian yazır ki, VIII yüzildə fars **Baban** Gögərkuni dairəsinin əhalisini qətlə yetirdikdən sonra bu monastırı da dağıtmış və yalnız XII yüzildə Siyuni yetirməsi olan yepiskop Qriqori onu əvvəlkindən də gözəl tikdirib, fəaliyyətini bərpa etmişdi.

Göründüyü kimi xristian ərmən türklərinə məxsus olan bu monastırın adı da bütün variantlarda türkcədir. **Makenis//Makenas** adlarında **Maq** komponenti və **Maqlar** anlamı, **Geqam** adında **Gög** və **qam** komponentləri, **Qişatakaran** adında isə **"Şat// Şad tayfasına mənsub olanlar"** anlamı göz qabağındadır.

Məngüs toponiminin etimologiyası ilə bağlı elmi ədəbiyyatda mövcud fikrə görə toponim iki komponentdən – türk dillərində **"mal-qara üçün hasarlanmış yer, qoyun, qışlağı"** anlamında **manq** və **"payız otlağı", "quzuların qışlaqda salındığı ağıl"** mənasında **küz** sözlərindən ibarətdir (B.Budaqov, Q.Qeybullayev).

Lakin biz bu fikirlə qəti razı deyilik. Bizcə, Məngüs toponimi Vedibasar mahalının Məngük kəndi ilə eyni kökdəndir və iki komponetdən (**məngü** və **uz//üz**) ibarətdir. Xatırladırıq ki, toponimin birinci komponentinin üç versiyada izahı mümkündür: 1) **mengü//menü** sözü qədim türklərdə **abidə, yazılı daş abidə, əbədi abidə** anlamında işlənmişdir. (Sonralar bu söz **vəng** şəklinə düşmüşdür). Kəndin ərazisində qədim monastırın mövcudluğu bu toponimin etimoloji izahının bu versiyasının hiqiqətəuyğunluğunu xeyli əsaslandırır; 2) **Manqu//Məngü xan** monqol-tatar xanı Batı xanın ən yaxın silahdaşlarından və böyük türk sərkərdələrindən biri idi və monqol-tatar işğalından sonra İrəvan çuxurunun da daxil olduğu Qərbi Azərbaycan torpaqları həmin Məngü xanın hakimiyyəti altında olmuşdur; 3) **Manqut** türk tayfalarından birinin adı idi.

Toponimin **us//uz//üz** komponentinə gəldikdə isə onun da bir neçə anlamı mümkündür: 1) **Uz** qədim türk tayfalarından birinin adıdır; 2) **tərəf, yan** anlamında işlənmişdir; 3) **dərə** mənasında başa düşülmüşdür; 4) **cəmlik** bildirmişdir.

Yeri gəlmişkən, Orta Asiyada Manqışlaq, Mangisdağ toponimləri mövcud olmuşdur. Us//uz//üz komponenti ilə isə Bütöv

Azərbaycan ərazisində onlarla toponim (Qarakilsə rayonunda Uz kəndi, Vedi rayonunda Kotuz, Küsüs, Kənüz, Haxıs, Heyranıs kəndləri, Zəngilan rayonunda Xartuz kəndi, Ağdərə rayonunda Maqavuz kəndi, Şəki rayonunda Daşüz kəndi və s.) qeydə alınmışdır.

1873-cü ilin statistikasında Qırxbulaq çayının yuxarı axarında qeydə alınan **Məngüs kəndində** 32 təsərrüfatda 316 nəfər (182 kişi, 134 qadın) Azər türkünün yaşadığı, "məşhur qədim Makenis monastırının" da burada yerləşdiyi qeyd olunmuşdur.

1886-cı ildə kənddə 40 təsərrüfatda 383 nəfər (227 kişi, 156 qadın), 1897-ci ildə 450 nəfər, 1905-ci ildə 420 nəfər, 1914-cü ildə 639 nəfər Azər türkü yaşamışdır.

Lakin 1918-ci ilin əvvəllərində bölgədə azərbaycanlıların soyqırımı zamanı kənd erməni daşnakları tərəfindən darmadağın edilmiş, əhalisinin bir hissəsi vəhşicəsinə qətlə yetirilmiş, sağ qalanlar doğma yurddan qovulmuşlar.

Sovet hakimiyyətinin ilk illərində, daha dəqiq desək, 1922-ci ildə kəndin qaçqın əhalisindən cəmi 145 nəfər geri qayıda bilmiş, lakin erməni təqiblərinin davam etdiyini görərək, onların da bir hissəsi təzədən kəndi tərk etmək məcburiyyətində qalmışlar. Belə ki, 1926-cı ildə kənddə cəmi 55 nəfər, 1931-ci ildə isə 77 nəfər azərbaycanlı siyahıya alınmışdur.

Bununla belə, 1948-1949-cu illərdə kəndin bütün əhalisi zorla Azərbaycana deportasiya olunmuş və o vaxtdan da kənd xaraba qalmışdır. Xarabalıqları **Təcirabad kəndi** yaxınlığında son illərə qədər durmaqda idi.

MUQUB (MEQUB, MAQUB)

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 2 km cənub-qərbdə, İrəvan-Tiflis avtomobil yolunun üstündə, Qırxbulaq çayının kənarında, Zak, Şahab və Putqni kəndləri yaxınlığında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. Türkmənçay bağlaşmasından sonra kəndin müsəlman əhalisi qovulmuş və burada Türkiyədən, İrandan köçürülüb gətirilmiş ermənilər yerləşdirilmişlər. O vaxtdan kənddə ermənilər yaşamışlar.

Kəndin adına "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) **Məqhud**, İ.Şopendə (1832) iki variantda – **Meqqüb** və **Mequb**, 1873-cü ilin statistikasında **Moqub**, 1886-cı ilin siyahıyaalmasında yenə də iki şəkildə – bu dəfə **Muqub** və **Maqub** kimi rast gəlirik. Sonralar erməni mənbələrində **Mqub** kimi yazıya alınmışdır. Danışıqda **Mühüb** kimi tələffüz olunurdu.

Tədqiqatçılar 1471-ci ilə aid hadisələrdə Türkiyə ərazisində, Krım yarımadasının cənub sahilində "**Manqyub qalası**" adının çəkilməsini əsas götürərək toponimin əhalinin hərəkəti ilə əlaqədar gətirilmə ad olmasını ehtimal edirlər (B.Budaqov, Q.Qeybullayev). Lakin biz bu fikirlə razı deyilik. Qərbi Azərbaycan ərazisində qədimdən **maq, manqu** komponentli çoxlu toponimin mövcudluğu Muqub oykoniminin çox-çox sonralar Türkiyə ərazisindəki bir qalanın adından götürülməsi ehtimalını şübhə altına alır. Elə İrəvan ətrafında bir neçə eyniköklü toponimin (Muqni, Məngüg, Məngüs və s.) mövcudluğu da fikrimizə qüvvət verir. 1873-cü ilin statistikasında kəndin adının **Moqub**, 1886-cı ildə **Maqub** kimi yazıya alınması da onun ilkin variantında **Maq-oba** şəklində olmasını təsdiqləyir. Fikrimizə dəstək olaraq onu da qeyd edək ki, İ.Şopen kənddə uçulub-dağılmış qədim kilsə yerləşdiyini də qeyd etmişdir. Deməli, kənd qədimdən atəşpərəstlik mərkəzlərindən biri, **atəşpərəst kahininin (maqın) obası, kəndi** olmuşdur.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Qırxbulaq nahiyəsinin **Məqhud məzrəsi** kimi qeydə alınmış, Ərinc kəndi ilə

Məqhud məzrəsindən birlikdə dövlətin müxtəlif vergilər şəklində ildə 15.100 ağça gəlir götürdüyü göstərilmişdir.

1826-1829-cu illər Rusiya-İran, Rusiya-Osmanlı müharibələri zamanı müsəlman əhalisi didərgin salınan kəndə Türkiyə və İrandan köçürülüb gətirilmiş ermənilər yerləşdirilmişlər. İ.Şopen (1832) onları 5 təsərrüfatda 33 nəfər (19 kişi, 14 qadın) İran ermənisi, 1 təsərrüfatda 17 nəfər (10 kişi, 7 qadın) Türkiyə ermənisi deyə qeydə almışdır.

Kəndin **Yüzbaşı Qaragöz** adı ilə tanınan **Vartan Miansarovun** tiyul kəndi olduğu da həmin mənbədə göstərilmişdir.

1873-cü ildə kəndin əhalisi qonşu Putqni kəndinin əhalisi ilə bir yerdə siyahıya alınmışdır: 35 təsərrüfatda 234 nəfər (138 kişi, 96 qadın) erməni. Həmin mənbədə kəndin yaxınlığında, qədim Zak kəndi və Zakevəng monastırı ərazisində son vaxtlara qədər rus alayının mənzil-qərargahının yerləşdiyi də qeyd olunmuşdur.

1886-cı ildə Muqub kəndində 15 təsərrüfatda 89 nəfər (51 kişi, 38 qadın) əhali yaşamışdır.

Sovet dövründə kənd daha da böyüyüb inkişaf etmişdir.

1968-ci il dekabrın 26-da isə kəndin Muqub adı dəyişdirilərək **Balahovit** qoyulmuşdur.

MURADTƏPƏ (AĞKƏND)

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 14 km cənub-qərbdə, Kənəkir qəsəbəsi yanında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsi tərkibində **Murad qışlağı**, **Muradlı** və **Muradəli** adlı üç kənd qeydə alınmışdır. Bunların hansı Muradtəpə kəndidir – bunu müəyyənləşdirmək ilk baxışda çətindir. Lakin "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Qırxbulaq nahiyəsində **Yeni qışlaq** adlı kəndin qeydə alınması və digər adının **Əxi təpəsi** olması (illik gəliri 3.000 ağça) söyləməyə əsas verir ki, ilkin adı Murad qışlağı olan kənd sonralar həm də Əxi təpəsi adlanmış, kəndin qışlaq kəndi olması onun Yeni qışlaq adında qorunub saxlanmışdır. İ.Şopendə (1832) kəndin **Əxikənd** və ya **Muradtəpə** adı ilə Qırxbulaq mahalının xaraba kəndləri siyahısına daxil edilməsi isə yuxarıda dediklərimizi qəti olaraq təsdiq edir. Beləliklə, aydın olur ki, **Murad qışlağı-Yeni qışlaq-Əxi təpəsi-Əxikənd-Muradtəpə** adları ilə mənbələrdə qeydə alınan kəndlər, əslində, eyni kənddir.

XIX yüzilin ortalarında kəndin qaçqın əhalisinin – azərbaycanlıların bir hissəsi geri qayıdıb, kənddə yaşasalar da, bu az evli kəndin adı çox vaxt statistik göstəricələrə düşməmişdir. Məsələn, 1897-ci ildə kənddə cəmi 13 nəfər azərbaycanlı qeydə alınmışdır.

Göründüyü kimi, kəndin ilkin adı **Əxikənd** olmuş, sonralar **Ağkənd** şəklinə düşmüş, sonda **Muradtəpə** adlanmışdır. Orta yüzillər Şərqində **Əxilik** Sufizmin bir qanadı, xüsusi dini-ictimai-siyasi təşkilat kimi mövcud olmuş, özünəməxsus daxili iyerarxiyaya malik bu təşkilatın başında ağsaqqal (**əxi baba**) dayanmışdır. Hökmdarlar abdal və dərvişlərlə yanaşı, **əxilərə** də torpaq sahəsi, rəiyyət bağışlayarmışlar. Buna görə də bölgədə **əxi** komponenti ilə neçə-neçə kəndlər (Dərələyəz nahiyəsində Əxili, Abaran nahiyəsində Əxinəkiq, İqdır nahiyəsində Əxi Veys, Əxi Məhəmməd və s. kəndlər) mövcud olmuşdur. Bizcə, **Ağkənd** burada **Kiçik kənd** (türk dillərində **ağ – kiçik** anlamında başa düşülmüşdür) mənasında işlənmiş, sonradan yerləşdiyi yerin adı ilə **Muradtəpə** adlanmışdır.

Muradtəpə adı isə, heç şübhəsiz **Murad** şəxs adından yaranmışdır.

1964-cü il avqustun 15-də isə kəndin Muradtəpə adı rəsmi ləğv edilərək **Kənəkeravan** qoyulmuşdur.

NİKOLAYEVKA (NOVONİKOLAYEVKA)

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 13 km şimal-şərqdə, Kotan dağı ətəyində, İrəvan-Yelenovka avtomobil yolu üstündə kənd.

XIX yüzilin ortalarında salınmış kənddə əvvəl ancaq ruslar, 1880-ci illərdən ruslarla ermənilər yanaşı yaşamışlar.

Kəndin adına ilk dəfə **Novonikolayevka** şəklində 1873-cü ilin statistikasında rast gəlirik. Həmin vaxt kənddə 24 təsərrüfatda 172 nəfər (97 kişi, 75 qadın) rus əhali siyahıya alınmışdır.

"Zaqafqaziya dairəsi kəndlilərinin iqtisadi vəziyyətinə dair materiallar" toplusundan (1886) öyrənirik ki, əslində, bu kənd 1870-ci ildə Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasının Mixaylovka kəndindən köçüb gələn 20 rus ailəsi tərəfindən salınmışdır. Həm də onlar İrəvan qəzasında məskunlaşan ilk ruslar olmuşlar. Qars vilayəti Rusiya tərəfindən işğal olunduqdan sonra Novonikolayevka kəndinin ruslarından 12 ailə həmin vilayətə köçmüş, onların yerinə isə 1883-cü ildə 10 erməni ailəsi gətirilmişdir. 1885-ci ildə kəndə 2 kürd ailəsi də köçüb gəlmiş, lakin nədənsə 1886-cı il siyahıyaalmasında onlar qeydə alınmamışdır.

1886-cı ildə **Novonikolayevka kəndində** 12 təsərrüfatda 60 nəfər (34 kişi, 26 qadın) rus, 14 təsərrüfatda 96 nəfər (60 kişi, 36 qadın) erməni əhali yaşamışdır. Göründüyü kimi, 1880-ci illərdə kəndə köçən ermənilər kənddəki rusları sıxışdırıb çıxarmış, qısa vaxtda onların ümumi sayını təxminən üç dəfə azaltmışlar.

Sonralar kənddə ermənilər artaraq ruslar üzərində mütləq üstünlük təşkil etmiş, kəndin Novonikolayevka adı sadəcə **Nikolayevka** kimi rəsmiləşdirilmişdir.

1948-ci il iyunun 21-də kəndin Nikolayevka adı rəsmi dəyişdirilərək **Craber** qoyulmuşdur.

NURNUS

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 16 km şimal-qərbdə, Zəngi çayının sol sahilində kənd.

1918-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. 1918-ci ildə kənddə Türkiyədən gəlmə xeyli erməni də yerləşdirilmiş və həmin vaxtdan 1948-ci ilə qədər kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1948-1949-cu illərdə kəndin bütün türk-müsəlman əhalisi zorla Azərbaycana deportasiya olunmuş və kənd tamamilə ermənileşdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin **Nurnus kəndi** kimi qeydə alınmışdır.

Kəndin adına **Norinus** şəklində bir də İ.Şopendə (1832) Qırxbulaq mahalının xaraba kəndləri siyahısında rast gəlirik. Bu, kəndin 1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalmasına dəlalət edir. Lakin az sonra kəndin bölgənin ruslar tərəfindən işğalı ilə bağlı doğma yurddan didərgin düşmüş əhalisi geri qayıtmış və 1973-cü ilin statistikasında **Nurnus kəndində** 38 təsərrüfatda 372 nəfər (200 kişi, 172 qadın) Azər türkü qeydə alınmışdır.

1886-cı ildə **Nurnus kəndində** 51 təsərrüfatda 416 nəfər (241 kişi, 175 qadın), 1897-ci ildə 550 nəfər, 1905-ci ildə 457 nəfər, 1914-cü ildə 512 nəfər Azər türkü yaşamışdır.

Həmin vaxt kəndin **Ağmanqan yaylağında,** kənddən 25 verst aralıda, 300 desyatin ərazini əhatə edən, **Düzyurd, Əvəlikyurd** və **Qəbiristanlıqyurd** adlı yurd yerləri olmuşdur. Kənd camaatı bu yaylaqdan qədimdən bəri istifadə etmişdir.

1918-ci ildə kənd erməni daşnakları tərəfindən dəhşətli soyqırımına məruz qalmış, əhalisinin bir hissəsi vəhşicəsinə qətlə yetirilmiş, kənd talan edilmiş, sağ qalan azərbaycanlılar qəddarlıqla doğma yurddan qovulub çıxarılmışlar. Elə həmin vaxtlar kəndə Türkiyədən gəlmə ermənilər yerləşdirilmişlər.

Sovet hakimiyyətinin ilk illərində kəndin sağ qalmış azərbaycanlı əhalisindən az bir qismi geri qayıda bilmiş, 1922-ci ildə

onların sayı 52 nəfər olmuşdur. Lakin bu vaxt kənddə artıq 141 nəfər gəlmə erməni vardı.

1926-cı ildə kənd əhalisinin nisbəti 61 nəfər azərbaycanlı, 172 nəfər erməni, 1931-ci ildə 96 nəfər azərbaycanlı, 219 nəfər erməni şəklində dəyişmişdir.

1948-1949-cu illərdə **Nurnus kəndinin** bütün türk-müsəlman əhalisi Azərbaycana deportasiya olunmuş, kənddə ancaq ermənilər qalmışlar.

1953-cü ildə Ərzni kəndinə şəhər tipli qəsəbə statusu verildikdən sonra ondan 10 km-lik məsafədə yerləşən Nurnus kəndi də Ərzni qəsəbə sovetliyinin tərkibinə qatılmışdır.

1988-ci ilə qədər kənddə yeddi azərbaycanlı ailəsi yaşayırdı.

Nurnus toponiminin etimologiyası haqqında mövcud fikrə görə, o, monqolca "**dağ beli**" anlamındakı **nuruu** və ərəbcə "**ucu minarəli tikinti**", "**zərdüştilərin ibadət yeri**" mənasında **naus** sözlərindən ibarətdir (B.Budaqov, Q.Qeybullayev).

Lakin biz bu etimoloji izahla heç də tam razı deyilik. Daha doğrusu, toponimin ikinci komponentinin ərəbcə naus sözündən ibarət olması fikrində tədqiqatçılar haqlıdırlar. Lakin toponimin birinci komponenti bizcə, ərəbcədən dilimizə keçib, hələ erkən çağlarda vətəndaşlıq qazanmış sadəcə **nur** sözündən başqa bir şey deyil. Başqa sözlə, Nurnus "**zərdüştilərin müqəddəs ocağı**", "**zərdüşt işığı yayılan məbəd**" kimi başa düşülməlidir.

Bütöv Azərbaycan ərazisində **Nur** komponentli çoxlu toponimlər mövcud olsa da, Nurnus oykoniminin ən yaxın dublet formalarında biri Naxçıvanın Şahbuz rayonundakı **Nurs** kəndidir.

* * *

Kənd ziyalılarından **Nəcəf Şabanov** uzun müddət (1988-ci ilə qədər) İrəvan radiosunun Azərbaycan şöbəsinin müdiri işləmişdir. 1988-ci ildə Bakıya köçmüş və bir sıra məsul vəzifələrdə çalışmışdır.

OXÇABERD

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 21 km cənub-şərqdə, İrəvan-Gərni (Baş Gərni) avtomobil yolunun üstündə, dağlar qoynunda, dəniz səviyyəsindən 1.835 m yüksəklikdə kənd.

1918-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. Həmin ildə kəndin yerli türk əhalisi ermənilər tərəfindən dəhşətli soyqırımına məruz qalmış və burada İrandan və Türkiyədən gəlmə xeyli erməni yerləşdirilmişdir. 1922-ci ildən 1930-cu illərə qədər kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuş, 1930-cu illərdə azərbaycanlılar qovularaq kənd bütünlüklə ermənileşdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin **Oxçaberd kəndi**, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Oxçaberdi kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə kəndin **Məhəmməd Mustafa oğlunun** timarı olduğu və bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 6.000 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) və bütün sonrakı mənbələrdə (1873, 1886...) kəndin adı **Oxçaberd** şəklindədir. Oxçaberd toponiminin ilk komponentinin **Oxçu** türk tayfasının adından yaranması özlüyündə aydındır. Təsadüfi deyil ki, Qərbi Azərbaycan ərazisində bu tayfanın adı ilə neçə-neçə toponim mövcud olmuşdur: Qafan rayonunda Oxçu kəndi, Amasiya rayonunda Oxçuoğlu kəndi və s. Toponimin ikinci komponenti olan **"berd"** sözünə gəldikdə isə, erməni tarixçilərinin və onların təsirinə düşən bəzi azərbaycanlı müəlliflərin (S.Əsədov) onu qala, Oxçaberd toponimini isə Oxçu qalası kimi tərcümə etməsi tamamilə yanlış mövqedir. Doğrudan da, Azər türkləri tərəfindən əsası qoyulan və 1918-ci ilə qədər heç bir ermənin yaşamadığı bir kəndin adı nə üçün ermənicə adlandırılmalı, hətta türk mənbələrinə də bu adla daxil olmalı idi?! Bu qaranlıq məsələyə "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" kitabında aydınlıq gətirilir: "Əslində, toponimin "bert" hissəsi türk dillərində **bert – "çətin keçilən yer", "əlçatmaz yer"**... sözündən iba-

rətdir“ (səh.351). Tədqiqatçıların (B.Budaqov, Q.Qeybullayev) dediyi kimi, türk dillərindəki **bert** sözü ilə erməni dilində “**qala**“ mənasındakı **bert** sözləri arasında sadəcə zahiri oxşarlıq var. Əslində, bəlkə elə erməni dilinə də türk dillərindən keçmişdir.

Deməli, **Oxçaberd** türk dilində **Oxçu tayfasının yaşadığı dağ yüksəkliyi** kimi başa düşülməlidir.

İ.Şopendə (1832) Qırxbulaq mahalının **Oxçaberd kəndində** 12 təsərrüfatda 73 nəfər (33 kişi, 40 qadın) Azər türkü qeydə alınmışdır. Həmin mənbədə kəndin çoxlu mağaraları ilə diqqəti çəkdiyi, onların, çox güman ki, ətraf yerlərin əhalisi üçün etibarlı müdafiə sığınacağı olduğu da göstərilmişdir.

1873-cü ilin statistikasında mülkədar kəndi kimi qeyd olunan kənddə 19 təsərrüfatda 180 nəfər (106 kişi, 74 qadın) Azər türkü yaşamışdır.

Kənd əhalisinin sayı 1886-cı ildə 20 təsərrüfatda 143 nəfər (76 kişi, 67 qadın), 1897-ci ildə 171 nəfər, 1905-ci ildə 156 nəfər, 1914-cü ildə 298 nəfər olmuşdur.

1918-ci ildə erməni daşnakları tərfindən kəndin türk-müsəlman əhalisi dəhşətli soyqırımına məruz qalmış, əhalinin bir hissəsi qəddarcasına qətlə yetirilmiş, sağ qalanlar işgəncələrlə qovulmuşlar. Boşalmış azərbaycanlı evlərinə Türkiyədən gəlmə ermənilər yerləşdirilmişlər. Buna görə də 1922-ci ildə geri qayıdan oxçaberdlilər (cəmi 18 nəfər) kənddə onların evlərində artıq 315 nəfər ermənin yaşadığının şahidi olmuşlar.

1926-cı ildə kəndə 38 nəfər azərbaycanlı, 370 nəfər erməni, 1931-ci ildə 28 nəfər azərbaycanlı, 417 nəfər erməni yaşamışdır. Göründüyü kimi, ermənilərin sayı artdıqca azərbaycanlıların sayı azalmışdır. Bu, onların tədricən sıxışdırılıb kənddən çıxarılması ilə əlaqədar idi. Bunun nəticəsində də az sonra – 1930-cu illərdə kəndin bütün azərbaycanlıları kəndi tərk etməyə məcbur olmuş və kənd tamamilə erməniləşdirilmişdir.


1935-ci ildən kəndin Oxçaberd adı bütün erməni sənədlərində **Voxçaberd** şəklində yazılmışdır.

Sovet dövründə kənd Kərpicli sovetliyinin tərkibində idi.

PUTQNİ

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 5 km cənub-qərbdə, Zəngi çayının sol tərəfində, İrəvan-Tiflis avtomobil yolu və İrəvan-Ellər dəmiryol xətti ilə Zəngi çayı arasında, Muqub və Zak kəndləri yaxınlığında kənd.

Bu qədim türk kəndinə ermənilərin nə vaxtdan köçüb gəldikləri barədə əlimizdə dəqiq məlumat yoxdur. Təkcə onu deyə bilərik ki, İrəvan xanlığı ruslar tərəfindən işğal olunduqdan sonra aparılan ilk siyahıyaalmada İ.Şopen (1832) Qırxbulaq mahalının bu kəndini **Pütqni kəndi** kimi qeydə almış və kənddə 18 təsərrüfatda 92 nəfər (51 kişi, 41 qadın) "yerli" ermənin yaşadığını göstərmişdir. O vaxtdan kənddə ermənilər yaşamışlar. Kəndin **Yüzbaşı Qaragöz** adı ilə tanınan **Vartan Miansarovun** tiyul kəndi olduğu da həmin mənbədə göstərilmişdir.



Putqni kəndinin ümumi görünüşü

1873-cü və 1886-cı illərin statistikalarında kəndin adı **Ptqni**, Sovet dövrü erməni yazılarında isə **Ptxni** kimi verilmişdir.

Heç şübhəsiz, bu adların hər biri erməni-rus tələffüzündədir. Toponimin əsli isə **Putqun//Budqun//Budhun** şəklindədir. Yəni **Hun budunu, Hun tayfası, Hun xalqı.**


1873-cü ilin statistikasında kənddə qonşu Muqub kəndi ilə birlikdə 35 təsərrüfatda 234 nəfər (138 kişi, 96 qadın) erməni yaşamış, qədim monastır xarabalıqları qeydə alınmışdır.

Kənd əhalisinin sayı 1886-cı ildə 36 təsərrüfatda 214 nəfərə (126 kişi, 88 qadın) çatmışdır.


Sovet dövründə kənd xeyli böyümüş və inkişaf etmişdir.

* * *

Putqni kəndində VI-VII yüzillərə aid **Putqni məbədinin** xarabalıqları günümüzə qədər qalırdı. Eni 13,7 m, uzunluğu 29,9 m olan dördkünclü bu bazilika bölgədə qədim arman-türk mədəniyyətinin parlaq nümunələrindən idi. Lakin təəssüf ki, VI-VII yüzillərdə Cənubi Qafqazda, o cümlədən Qərbi Azərbaycanda izi-tozu belə olmayan haylar bu gün başqa abidələrimiz kimi, bu abidəmizi də özlərinə çıxmaqdan utanmırlar.



Putqni məbədinin xarabalıqları




Putqni məbədinin sxnmi

ŞAHAB

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 3 km cənub-şərqdə, Qırxbulaq çayının sağ kənarında, Ellər-Cadqıran avtomobil yolunun üstündə kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. İrəvan xanlığının ruslar tərəfindən işğalından sonra kəndin müsəlman əhalisi qovulmuş, kənddə İrandan köçürülüb gətirilmiş ermənilər yerləşdirilmişlər. O vaxtdan kənddə ermənilər yaşamışlar.



Şahab kəndinin ümumi görünüşü

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Şahab kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə Şahab kəndi ilə Yardəsti məzrəsinin **Bəkir İbrahim oğlu** adlı şəxsin timarı olduğu və bu timar-kəndlərdən dövlətin müxtəlif vergilər şəklində ildə 4.500 ağça gəlir götürdüyü göstərilmişdir.

Sonrakı bütün mənbələrdə də kəndin adı **Şahab** kimi verilmişdir. Ümumiyyətlə, araşdırmalarımız sübut edir ki, **şah** komponentli toponimlərin, demək olar ki, əksəriyyəti ilkin variantında **şaq//şak//sak** olmaqla qədim **Sak//Saq** türklərinin adından yaranmışdır. Şahab, Şahablı oykonimləri də bu sırada istisna təşkil etmir. Həmin oykonimlərin bəzi mənbələrdə Şaqab-Şaqablı

kimi yazılması, Qərbi Azəraycanda Şahab (Qırxbulaq mahalı), Şahablı (Vedibasar mahalı), Şağanlı (Şörəyel mahalı), Şaqarda (Hamamlı rayonu), Şaqalı (Böyük Qarakilsə rayonu) adlı kəndlərin mövcudluğu da bu sözün etnonimik (tayfa adı) səciyyə daşıması fikrini ortaya qoyur. Buna görə də tədqiqatçılar B.Budaqov və Q.Qeybullayevin Şahab kənd adının şəxs adından yaranması fikri ilə qəti razı deyilik. Xatırladırıq ki, Naxçıvan şəhərinin məhəllələrindən birinin adı da Şaqab//Şahab olmuşdur. Təbii sual ortaya çıxır: ayrı-ayrı yerlərdə şəxs adından bu qədər toponim yarana bilərmi? Təbii ki, yox. Elə onun üçün də biz toponimin **şaq//şak//sak** kökünü önə çəkərək adın ilkin variantında **Sakoba** (**Şahablıda – Sakobalı**) olduğu fikrindəyik. O isə öz növbəsində dil qanunlarına uyğun olaraq sonradan **Sakoba-Şakoba-Şakab-Şahab** şəklinə düşmüşdür. Qərbi Azərbaycan ərazisinin qədimdən Sak türklərinin ən sıx yaşadığı bölgələrdən olması da bunu sübut edir.

İ.Şopendə (1832) Qırxbulaq mahalının **Şahab kəndində** ancaq gəlmə ermənilərin – 28 təsərrüfatda 134 nəfər (73 kişi, 61 qadın) İrandan köçürülüb gətirilmiş ermənin qeydə alınması bölgənin ruslar tərəfindən işğalından sonra buradakı müsəlmanların qovulub kənddən çıxarıldığını və onların boşalmış evlərinə gəlmə ermənilərin yerləşdirildiyini təsdiqləyir.

1873-cü ildə kənddə 40 təsərrüfatda 291 nəfər (171 kişi, 120 qadın), 1886-cı ildə 57 təsərrüfatda 456 nəfər (250 kişi, 206 qadın) erməni yaşamışdır.

Sovet dövründə kənd daha da inkişaf etmiş, 1940-cı il aprelin 11-də isə kəndin tarixi Şahab adı dəyişdirilərək, rus şairi V.V.Mayakovskinin adı ilə **Mayakovski kəndi** adlandırılmışdır.

TƏCİRABAD (TACİRBƏY, TƏCRƏBAX)

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 10-12 km cənub-qərbdə, Qırxbulaq çayının sol kənarında, Küzəcik kəndi yaxınlığında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. İrəvan xanlığının ruslar tərəfindən işğalından sonra kənd bir müddət xaraba qalmış və az sonra bura İrandan, Türkiyədən köçürülüb gətirilmiş ermənilər yerləşdirilmişlər.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin **Tacirbəy kəndi**, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Tecirdink kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə kəndin Küzəcik kəndi yağınlığında yerləşdiyi, **Hacı Hüseyn** adlı şəxsin timarı olduğu və bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 4.500 ağça gəlir götürdüyü göstərilmişdir.

1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı böyük dağıntılara məruz qalan kənd **Təcirabak** adı ilə Qırxbulaq mahalının xaraba kəndləri siyahısına daxil edilmişdir.

Sonralar kəndin türk sakinlərinin doğma kəndə geri qayıtmasına imkan verilməmiş, onların evlərinə isə İrandan və Türkiyədən köçürülüb gətirilmiş erməni ailələri yerləşdirilmiş və kənd ermənileşdirilmişdir. 1873-cü ildən kəndin adı mənbələrdə **Təcirabad** kimi verilmişdir. Həmin ilin statistikasında kənddə 40 təsərrüfatda 379 nəfər (198 kişi, 181 qadın), 1886-cı ildə 62 təsərrüfatda 537 nəfər (286 kişi, 251 qadın) erməni siyahıya alınmışdır. 1886-cı ilə aid mənəbədə Təcirabad və Civriş kəndlərinin torpaqlarının Təcirabad kəndindən şərqdə yerləşən **Yuxarı Yataq** və kəndin içindəki **Aşağı Goxt** bulaqlarının suyu ilə suvarıldığı qeyd olunmuşdur.

Sovet dövründə rəsmi sənədlərdə **Təcrəbak**, yerli tələffüzdə **Təcrəbax** kimi yazıya alınmışdır. Toponimin etimologiyası xeyli üzdədir. Adın ilkin variantı da göstərir ki, o, əvvəlcə şəxs adından (**Tacir bəy**) yaranmış, sonralar cüzi fonetik dəyişikliyə uğrayaraq **Təcirbəy** (rus tələffüzündə **Təcirabak**) şəklinə düşmüş, "**Tacirin kəndi**" anlamında **Təcirabad** da adlanmışdır.

1946-cı il aprelin 4-də kəndin Təcrəbax adı dəyişdirilərək ermənicə "**Dərəbulaq**" anlamı verən **Dzoraxpyur** qoyulmuşdur.

TƏRKİVAN

Qırxbulaq mahalında, Zak kəndi yaxınlığında kənd. Kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Qırxbulaq nahiyəsinin **Tərkivan kəndi** kimi qeydə alınmışdır. Həmin mənbədə kəndin Zak kəndi yaxınlığında yerləşdiyi, **Mustafa Həsən oğlunun** timarı olduğu və bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 3.200 ağça gəlir götürdüyü göstərilmişdir.

Sonrakı mənbələrdə kəndin adına rast gəlməməyimiz onun XVIII yüzilin ikinci yarısında tarix səhnəsindən silinməsi ehtimalını irəli sürməyə əsas verir.

TƏZƏKƏND

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 4 km şərqdə, Hadis dağı ətəyində kənd.

Kənd XIX yüzilin ortalarında İrandan və Türkiyədən köçürülüb gətirilmiş ermənilərı yerləşdirmək məqsədilə salınmış və orada ancaq ermənilər yaşamışlar.

Kəndin adına ilk dəfə 1873-cü ilə aid statistikada rast gəlirik. İrəvan qəzasının Qırxbulaq çayı boyu ərazisində, Hadis dağı ətəyində **Təzəkənd kəndi** kimi qeydə alınmış kənddə 33 təsərrüfatda 370 nəfər (190 kişi, 180 qadın) ermənin yaşadığı göstərilmişdir.

1886-cı ildə yenə də **Təzəkənd** adı ilə siyahıya alınan kənddə 64 təsərrüfatda 518 nəfər (270 kişi, 248 qadın) erməni əhalinin yaşadığı qeyd olunmuşdur.

Sonralar da kənddə ancaq ermənilərin yaşadığını görürük. Yuxarıdakı statistik məlumatlardan da göründüyü kimi, kəndin ilkin adı rəsmi sənədlərdə azəricə **"yeni kənd"**, **"təzə salınmış kənd"** anlamında **Təzəkənd** olmuş, lakin Sovet dövründə **"kənd"** sözü ermənicə eynimənalı **"gyuğ"** sözü ilə əvəz edilərək **Təzəgyuğ** şəklində yazılmış, 1946-cı il aprelin 4-də isə kəndin Təzəgyuğ adı dəyişdirilərək **"Təzəkənd"** anlamında **Norgyuğ** qoyulmuşdur (ermənicə **"nor"** – **təzə**, **"gyuğ"** isə **kənd** deməkdir).

Yeri gəlmişkən, təkcə elə Qərbi Azərbaycan ərazisində **Təzəkənd, Təzəköy, Yenikənd, Yenicə//Yengicə** adlı, **təzə** və **yeni** komponentli onlarla yaşayış məntəqəsi mövcud olmuşdur.

TUTİYA

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 14 km cənub-şərqdə, Qırxbulaq çayının yuxarı axarında, Cadqıran kəndi yaxınlığında, dəniz səviyyəsindən 2.000 m yüksəklikdə kənd.

1918-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. Həmin il kənd erməni daşnakları tərəfindən vəhşicəsinə dağıdılmış və 1926-cı ildə yenidən məskunlaşan kənddə ancaq ermənilər yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin **Tutul kəndi**, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Qırxbulaq nahiyəsinin **Tutiya kəndi** kimi qeydə alınmışdır. Birinci mənbədə kəndin Tutul adından sonra dəftəri çapa hazırlayanların sual (?) işarəsi qoyması və sonrakı dövrlərə aid bütün mənbələrdə kəndin adının **Tutiya** kimi yazılması söyləməyə əsas verir ki, müfəssəl dəftərdə kəndin Tutiya adını ya o vaxt katiblər səhv yazıya almışlar, yaxud da mənbədən adı düzgün oxumaq mümkün olmamışdır.

Toponimin etimologiyası ilə bağlı dəqiq fikir yoxdur.

Həmçinin ikinci mənbədə kəndin Çatqıran (**Cadqıran** – Ə.Ə.) kəndi yaxınlığında yerləşdiyi, **Həsən Cəmşid oğlunun** timarı olduğu və bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 3.500 ağça gəlir götürdüyü göstərilmişdir.

İ.Şopendə (1832) Qırxbulaq mahalının **Tutiya kəndində** 10 təsərrüfatda 36 nəfər (21 kişi, 15 qadın) Azər türkü qeydə alınmışdır.

1873-cü ildə kənddə 39 təsərrüfatda 280 nəfər (177 kişi, 103 qadın), 1886-cı ildə 52 təsərrüfatda 449 nəfər (245 kişi, 204 qadın), 1897-ci ildə 558 nəfər, 1905-ci ildə 493 nəfər, 1914-cü ildə 554 nəfər Azər türkü yaşamışdır.

1918-ci ildə bölgədəki digər türk-müsəlman kəndləri kimi, bu böyük azərbaycanlı kəndi də ermənilər tərəfindən dəhşətli soyqırımına məruz qalmış, dağıdılmış, əhalisinin bir hissəsi qılıncdan keçirilmiş, sağ qalanlar doğma yurddan vəhşicəsinə qovulmuşlar.

Kənd 1926-cı ilə qədər xaraba qalmışdır. Həmin ildən burada Türkiyədən gəlmə erməni ailələri məskunlaşmışlar.

1948-ci il iyun ayının 21-də kəndin Tutiya adı dəyişdirilərək **Saranist** qoyulmuş, Güllücə kənd sovetliyinin tərkibinə daxil edilmişdir.

ÜZÜMÇÜLÜK SOVXOZU QƏSƏBƏSİ

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 3 km cənub-qərbdə, Putqni qəsəbəsi yaxınlığında qəsəbə.

1945-1946-cı illərdə xaricdən köçürülüb gətirilən ermənilərі yerləşdirmək məqsədilə üzümçülük sovxozu nəzdində salınmış bu sovxoz-qəsəbə 1960-1970-ci illərdə Ərinc qəsəbə sovetliyinin mərkəzi olmuş və qəsəbədən 4 km-lik məsafədəki Ərinc, 2 km aralıdakı Putqni qəsəbələri də bu sovetliyə baxmışlar. Yəni bu yolla qəsəbəsinin statusu artırılmış, onun sürətli inkişafı üçün lazımi şərait yaradılmışdır.

Qəsəbə gəlmə ermənilər üçün salındığından elə ilk gündən orada həmin gəlmə ermənilər yaşamışlar.

1991-ci il aprelin 19-da kəndin adı dəyişdirilərək **Verin Ptxni** qoyulmuşdur.

YAYCI

Qırxbulaq mahalında, Ellər rayonu ərazisində, Kamal kəndi yaxınlığında kənd.

Kənddə ancaq Azər türkləri yaşamışlar.

Mənbələrdə adı XVII yüzilin ortalarından (dəqiq desək, 1660-cı ildən) çəkilən kənd "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Qırxbulaq nahiyəsinin **Yaycı kəndi** kimi qeydə alınmış, kəndin Kamal kəndi yaxınlığında yerləşdiyi və **Əli Abdulla oğlunun** timarı olduğu, bu timar-kənddən isə dövlətin müxtəlif vergilər şəklində ildə 3.000 ağça gəlir götürdüyü göstərilmişdir.

İrəvan xanlığının ruslar tərəfindən işğalı ilə əlaqədar kənd böyük dağıntılara məruz qalmış və əhalisi kənddən qovulub çıxarılmışdır. Buna görə də İ.Şopen (1832) **Yaycı kəndini** Qırxbulaq mahalının xaraba kəndləri siyahısına daxil etmişdir.

Sonrakı mənbələrdə Qırxbulaq mahalı ərazisində kəndin adına rast gəlməməyimiz onun bir daha bərpa olunmadığını və.elə o vaxtdan da xaraba qaldığını söyləməyə əsas verir.

Yaycı oykonimi Oğuz türklərinin **Yaycı** tayfasının adından yaranmışdır. Ümumiyyətlə, təkcə XIX yüzildə Cənubi Qafqazda 8 Yaycı kəndi mövcud olmuşdur. Qərbi Azərbaycanda isə eyniadlı kəndlər Dərələyəz, Dərəçiçək, Sürməli, İqdır, Zəngəzur (Gorus rayonunda) və Ağcaqala nahiyələrində qeydə alınmışdır.

YELQOVAN (BARSABƏY)

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 4 km şimal-şərqdə, Qırxbulaq çayının yuxarı axarında, dəniz səviyyəsindən 1.447 m yüksəklikdə kənd.

XVIII yüzilin sonlarına qədər kənddə ancaq Azər türkləri yaşamış, həmin vaxtdan 1828-ci ilə qədər azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuş, 1828-ci ildən sonra tamamilə ermənileşdirilmişdir.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Yelqovan kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 9.000 ağça gəlir götürdüyü də göstərilmişdir.

İ.Şopendə (1832) Qırxbulaq mahalına daxil edilən bu kənd iki adla: **Yelqovan** və ya **Barsabəy** şəklində verilmiş, kənddə 17 təsərrüfatda 82 nəfər (46 kişi, 36 qadın) "yerli", yəni bölgənin ruslar tərəfindən işğalına qədər kənddə yaşayan erməni, 10 təsərrüfatda 44 nəfər (22 kişi, 22 qadın) İrandan və 4 təsərrüfatda 24 nəfər (13 kişi, 11 qadın) Türkiyədən köçürülüb gətirilmiş erməni qeydə alınmışdır.

Yeri gəlmişkən, İ.Şopen kəndin Barsabəy adı ilə bağlı belə bir əlavə edir ki, "**Barsabəy**" yəhudi dilində "**and yeri**" deməkdir və fikrini əsaslandırmaq üçün buradakı son dərəcə qədim kilsəni misal çəkir. Heç şübhəsiz, Oğuz igidlərinin adları ilə səsləşən və türklüyü ilk baxışdaca diqqəti cəlb edən Barsabəy toponiminin İ.Şopen tərəfindən yəhudi dilində izahı kökündən səhvdir.

Bizcə, kəndin Barsabəy adı konkret şəxs adından yarandığı kimi, Yelqovan toponimi də **El** və **qopan** komponentlərindən əmələ gəlmişdir. **Kopan//Qoban//Qaban//Qafan//Qovan** isə, bildiyimiz kimi, peçeneq tayfalarından biri olmuşdur və bu mənada Yelqovan "**Qopan//Qoban//Qovan eli**" anlamındadır. İrəvan əyalətinin Şirakel nahiyəsindəki Qabanlı, Azərbaycan Respublikası ərazisindəki Qapanlı tayfası da eyni kökdəndir.

1873-cü ilin statistikasında da kənd iki adla – **Yelqovan** və ya **Barsabəy** kimi qeydə alınmışdır. Kənddə 39 təsərrüfatda 313

nəfər (172 kişi, 141 qadın) erməni yaşamışdır.

1886-cı ildə kənd əhalisinin sayı 62 təsərrüfatda 427 nəfərə (226 kişi, 201 qadın) çatmışdır.

Sovet dövründə – 1935-ci il yanvarın 3-də kəndin Yelqovan adı dəyişdirilərək **Kotayk** qoyulmuş bir neçə kəndi birləşdirən sovetliyin mərkəzi olmuşdur.

YENİ HACI (NOR HAÇİN)

Qıxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 9 km şimal-qərbdə, Ərzni kəndi yaxınlığında kənd, 1958-ci ildən şəhər tipli qəsəbə.

Kəndin nə vaxtdan mövcud olduğu barədə əlimizdə dəqiq məlumat yoxdur. Lakin oykonimdəki **Hacı** komponenti onun tarixən türk kəndi olduğunu, burada türk-müsəlman əhalinin yaşadığını söyləməyə əsas verir.

Yeni Hacı kəndi sonralar sənədlərdə **Nor Haçin** kimi rəsmiləşdirilmiş (**nor** – azərbaycanacada "**yeni**" sözünün ermənicə sətri tərcüməsidir), 1958-ci ildə kəndə şəhərtipli qəsəbə statusu verilmiş və qəsəbə sovetinə 3 km-lik məsafədə yerləşən **Ketran kəndi** də daxil edilmişdir.

ZAK (ZAQ, DZAK)

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən bir neçə kilometr cənubda, İrəvan-Tiflis avtomobil yolunun üstündə, İrəvan-Ellər dəmiryol xəttinin kənarında, Tərkivan kəndi yaxınlığında kənd.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri yaşamışlar. Türkmənçay bağlaşmasından sonra kəndin türk-müsəlman əhalisi kənddən qovulmuş və orada İrandan, Türkiyədən köçürülüb gətirilmiş ermənilər yerləşdirilmişlər. Lakin az sonra onlar da kəndi tərk etmiş və o vaxtdan kənd xaraba qalmışdır. Sovet dövründə kənd yenidən bərpa olunmuş və orada ermənilər yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Zak kəndi** kimi qeydə alınmışdır. İkinci mənbədə dövlətin müxtəlif vergilər şəklində kənddən ildə 10.000 ağça gəlir götürdüyü qeyd edilmişdir. Həmin mənbənin "Zeamət və timarlar" bölməsində **Zaq** şəklində yazıya alınan kəndin Tərkivan kəndi yaxınlığında yerləşdiyi də göstərilmişdir.

Kənd haqqında ən dolğun məlumata İ.Şopendə (1832) rast gəlirik. İ.Şopenin Qırxbulaq mahalının **Dzak kəndi** kimi qeydə aldığı kənddə 1 təsərrüfatda 4 nəfər (2 kişi, 2 qadın) "yerli", yəni rus işğalına qədər burada məskunlaşmış, 7 təsərrüfatda 36 nəfər (18 kişi, 18 qadın) İrandan köçürülüb gətirilmiş, 10 təsərrüfatda 74 nəfər (41 kişi, 33 qadın) Türkiyədən gəlmə ermənin yaşadığı göstərilmişdir.

Lakin İ.Şopenin kəndin əhalisi ilə bağlı verdiyi bu məlumatla onun elə həmin mənbədəki "İndi Dzak kəndinin xarabalıqları yerində üzüm bağlarının və şirəxanaların qalıqlarından başqa nəzərəçarpan heç nə yoxdur" sözləri arasında ziddiyyət vardır. 1873-cü ilin siyahıyaalması zamanı Qırxbulaq mahalı ərazisində belə bir kəndin qeydə alınmaması söyləməyə əsas verir ki, kənd 1826-1829-cu illər Rusiya-İran və Rusiya-Osmanlı müharibələri zamanı həqiqətən də xarabalığa çevrilmiş, bu yerdə müvəqqəti məskunlaşdırılmış gəlmə ermənilər isə az sonra buraları tərk et-

miş və rus işğalçılarının yeni erməni kəndi salmaq cəhdi o vaxtlar baş tutmamışdır.

İ.Şopen kəndin tarixi ilə də bağlı maraqlı məlumat verir. Belə ki, aydınlaşır ki, bu kənd qədim Ərmənistanın Kotayk dairəsinin mühüm yaşayış məntəqələrindən biri olmuşdur. Patriarxlar **Davidin, Sakarın (Zaxarın)** və **Sarkisin** vətəni olan bu kənddə vaxtilə **Zakevəng (Dzakevəng)** adlı monastır yerləşmişdir. Kənd **Qriqori Mamikoneanın** vaxtında bir zamanlar Xorasandan bura köçmüş **Surqan** adlı çarəsilli bir farsa hədiyyə edilmişdir. Xristianlığı qəbul etmiş bu fars hətta Qriqorinin atası Davidin adını götürmüş, **David Dvinli** kimi tanınmış və xristianlıqdan imtina etmədiyi üçün 693-cü ildə İran mərzbanı Abdulla tərəfindən qətlə yetirilmişdir.

Mənbələrdən də göründüyü kimi, bu kənd Ərmənistanın ən qədim sakinlərindən olan **Sak** türklərinin vaxtından mövcud olmuş, bu igid türk boyunun adını daşımış və İrəvan əyalətinin XVI-XVIII yüzillərə aid dəftərlərində də ilkin adı ilə **(Zak// Zaq)** qeydə alınmışdır.

Bütün bunlar kəndin adının fars dilində "**qala**" anlamında "**dizək**" sözündən olması fikrini (B.Budaqov, Q.Qeybullayev) qətiyyətlə təkzib edir.

Yeri gəlmişkən, Qərbi Azərbaycan ərazisində Zak//Zaq komponentli çoxlu oykonimlər qeydə alınmışdır. Bunlardan Zaq (Karbi, Sisian nahiyələrində), Zağa (Üçkilsə qəzasında), Zağabaşı (İrəvan nahiyəsində), Zağaqışlaq (Şirakel nahiyəsində), Zağalı (Yeni Bayazid və Gümrü qəzalarında) və s. kənd adlarını göstərmək olar.

Azərbaycan Respublikası ərazisində isə belə toponimlər istənilən qədərdir (Zaqatala, Şəki, Qazax və s.). Astara rayonunda bu gün də Sak adlı kənd mövcuddur.

Qeyd etdiyimiz kimi, Sovet dövründə Zak kəndi **Dzak** adı ilə yenidən bərpa olunmuş, hətta Ellər rayonunun rəsmi xəritələrində də bu, öz əksini tapmışdır. Sonralar kənd ləğv edilmişdir.

ZAKEVƏNG

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən bir neçə kilometr cənubda,.Zak kəndi yanında monastır-kənd.

Bu qədim monastır-kənddə ancaq Azər türkləri yaşamışlar.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsində Zak kəndi (Ellər rayonu ərazisində) ilə yanaşı, ayrıca bir **Zakevəng kəndinin** də adı çəkilir.

Bu toponimə, bir də İ.Şopendə (1832) rast gəlirik. Qırxbulaq mahalının Zak (İ.Şopendə Dzak) kəndindən bəhs edərkən o, patriarxlar Davidin, Sakarın (Zaxarın) və Sarkisin vətəni olan bu kənddə vaxtilə Zakevəng (İ.Şopendə **Dzakevəng**) adlı monastırın da yerləşdiyini yazır. Lakin bütün bunlardan keçmiş zamanda söz açan İ.Şopen "indi kəndin xarabalıqları yerində üzüm bağlarının və şirəxanaların qalıqlarından başqa nəzərəçarpan heç nə" olmadığını qeyd edir.

Bu, Zakevəng monastır-kəndinin təxminən XVII yüzildə Zak kəndi ilə birləşməsinə (buna görə də 1728-ci ilin icmal dəftərində ayrıca kənd kimi verilməmişdir) və sonralar (təxminən XIX yüzilin əvvəllərində) onunla birgə tarix səhnəsindən silinməsinə dəlalət edir.

Zak kəndi kimi Zakevəng toponimi də Qərbi Azərbaycan ərazisində qədimdən məskunlaşmış **S'ak** türklərinin adını daşıyır, **Zak//S'ak kəndinin vəngi, monastırı** anlamındadır. **Vəng** isə, məlum olduğu kimi, qədim türkcədə **abidə, yazılı daş abidə** mənasında **məngü** sözündəndir ki, sonralar **məng-bəng-vəng** şəklinə düşmüşdür. Bütün bunlar barədə isə bir qədər sonra, Ellər rayonunun Məngüs kəndindən danışarkən bəhs edəcəyik.

ZAR

Qırxbulaq mahalında, Ellər rayonunun mərkəzi olan Ellər qəsəbəsindən 12 km şimal-şərqdə, Hadis dağının cənub-şərq ətəyində, dəniz səviyyəsindən 1.707 m yüksəklikdə, Qamriz kəndi yaxınlığında kənd.

XIX yüzilin ortalarına qədər kənddə ancaq Azər türkləri yaşamış, həmin tarixdə buraya İrandan, Türkiyədən gəlmə xeyli ermən yerləşdirilmiş və o vaxtdan 1948-ci ilə qədər kənd azərbaycanlılarla ermənilərin yanaşı yaşadığı qarışıq kənd olmuşdur. 1948-1949-cu illərdə kəndin bütün türk-müsəlman əhalisi Azərbaycana deportasiya olunmuş və kənd tamamilə ermənileşdirilmişdir.

Cənubi Qafqazda geniş yayılmış Zar toponimi (Yelizavetpol quberniyasının Cavanşir qəzasında, Tiflis quberniyasının Qori qəzasında, Zar kəndləri, İrəvan quberniyasının Aleksandropol qəzasında Zar-İncə kəndi və s.) hələ XIV yüzilin axırlarında İrəvan qəzasında **Zar kəndi** kimi mövcud olmuşdur. Bundan çox-çox əvvəl – V yüzildə isə Qərbi Azərbaycan ərazisində **Zarişat** və **Zarevand** toponimləri qeydə alınmışdır. Hətta folklorda da bu toponim özünə yer tamışdır. Belə ki, "Əhmədxan və Səlbinaz xanım" dastanında **Zar şəhərinin** adı çəkilir. Zar komponentli toponim isə Qərbi Azərbaycan ərazisində onlarladır (Zarvancaq, Zarzəmin, Zarinca, Zarça, Sarvanlar və s.). Hətta vaxtilə İrəvan əyalətinin bir nahiyəsi Zarzəmin adlanmışdır.

Toponimin etimoloji izahı ilə bağlı konkret fikir yoxdur. Sadəcə olaraq, tayfa adı bildirməsi ehtimal edilir. Bizcə, toponim ilkin variantında **Azar** şəklində olmuş (bölgədəki **Azak** oykonimi də bu fikrimizə əsas verir), **Zar** variantında **A** səsi düşmüşdür. Beləliklə, fikrimizcə oykonim **Az** və **ar//ər** komponentlərindən ibarət olmaqla **Az** türklərinin adını daşıyır. Yerli tələffüzdə **Zər** şəklində işlənmişdir.

Ellər rayonu ərazisindəki **Zar kəndi** "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) İrəvan nahiyəsinin, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) isə Qırxbulaq nahiyəsinin **Zar kəndi** kimi qeydə alınmışdır. Həmçinin ikinci mənbədə kəndin Kəmris

kəndi yaxınlığında yerləşdiyi, kəndin **Süleyman Əli oğlunun** timarı olduğu, bu timar-kənddən dövlətin müxtəlif vergilər şəklində ildə 4.100 ağça gəlir götürdüyü də göstərilmişdir.

İrəvan qalasının süqutundan sonra kənd fəlakətlə üz-üzə dayanmış, erməni-rus qisasından ehtiyat edən əhali diyarbadiyar səpələnmişdir. Buna görə də İ.Şopendə (1832) Qırxbulaq mahalının **Zar kəndində** 20 təsərrüfatda 89 nəfər (49 kişi, 40 qadın) Azər türkü siyahıya alınmışdır.

Sonralar kənddə İrandan və Türkiyədən gəlmə ermənilər də yerləşdirilmiş, və 1873-cü ilin statistikasında mülkədar kəndi olan Zarda 45 təsərrüfatda 490 nəfər (274 kişi, 216 qadın) Azər türkü ilə yanaşı, həm də 23 təsərrüfatda 208 nəfər (114 kişi, 94 qadın) erməni əhalinin yaşadığı qeyd edilmişdir.

1886-cı ildə kənddə yaşayan azərbaycanlıların sayı 73 təsərrüfatda 634 nəfərə (360 kişi, 274 qadın), ermənilərin sayı isə 40 təsərrüfatda 287 nəfərə (171 kişi, 116 qadın) çatmışdır.

1897-ci ildə kənddə 757 nəfər azərbaycanlı, 886 nəfər erməni (xaricdən gələn ermənilərin hesabına süni artım göz qabağındadır) yaşamışdır. 1905-ci ildə kənddəki azərbaycanlıların sayı 697 nəfər, 1914-cü ildə isə azərbaycanlılarla ermənilər birlikdə 1.951 nəfər olmuşlar.

1918-ci ilin əvvəllərində kəndin 70 təsərrüfatda 706 nəfər azərbaycanlı əhalisi ermənilər tərəfindən dəhşətli soyqırımına məruz qalmış, dinc əhalinin bir hissəsi ermənilərə xas vəhşiliklə qətlə yetirilmiş, sağ qalanlar doğma yurddan didərgin salınmışlar.

Yalnız Sovet hakimiyyəti dövründə, daşnak hərbi qüvvələrinin darmadağın edilməsindən sonra müsəlman əhalinin az bir hissəsi öz kəndinə dönə bilmişdir. Onların sayı 1922-ci ildə cəmi 52 nəfər, 1931-ci ildə 93 nəfər təşkil etmişdir. Halbuki 1922-ci ildə kənddə 767 nəfər, 1931-ci ildə isə 1.112 nəfər oradan-buradan gəlmə erməni əhali yaşamaqda idi.

1948-1953-cü illər deportasiyasının ilk illərində kəndin bütün türk-müsəlman əhalisi zorla Azərbaycana köçürülmüş və o vaxtdan kənd sırf erməni kəndinə çevrilmişdir.

* * *

Yaşlı adamlarının dediyinə görə, kəndin azı min illik tarixi var.

Deyilənə görə, kənd camaatı müxtəlif dövrlərdə qaçqın düşərkən harada müvəqqəti və ya daimi məskunlaşıbsa, orada bir **Zar kəndi** salıblar. Dərəçiçək və Göyçə mahallarındakı, Kəlbəcər rayonundakı və b. Zar//Zər kəndləri məhz bu cür əmələ gəlib.

Aşıq Cəmil Zar kəndinin sazlı-sözlü məclislərinin yaraşığı, **Kərbəlayı Ələsgər** nüfuzu kişilərindən olub. Məşhur **Qaçaq Kərəm** dəfələrlə Zar kəndinə gəlmiş, Kərbəlayı Ələsgərin qonağı olmuşdur.

Zar kəndi 1905, 1915 və 1917-1918-ci illərdə erməni daşnaklarının vəhşi hücumlarına məruz qalmış, 1917-1918-ci illərdə keşiş Zakar və Aleksanın quldur dəstələrinin aramsız hücumları kəndin azərbaycanlı əhalisini doğma yurddan didərgin salmışdır. 1918-ci ildə kənddən 25-ə qədər ailə dağ yolları ilə özlərini Milli dərəsinin Gölaysor kəndinə yetirmiş, az sonra yenidən daşnak hücumlarına məruz qaldıqlarından kənd camaatı ilə birgə qaçıb Böyük Vedi kəndinə sığınmışdılar.

Ermənilərin özlərinin etirafına görə, sonuncu azərbaycanlı kəndi tərk etdikdən sonra kənddəki bulaqların suyu yavaş-yavaş azalıb, bir müddət sonra isə quruyubdur.

MƏNBƏLƏRDƏ ZƏNGİBASAR, GƏRNİBASAR VƏ QIRXBULAQ MAHALLARI ÜZRƏ ADI ÇƏKİLƏN, LAKİN YERİNİ MÜƏYYƏNLƏŞDİRƏ BİLMƏDİYİMİZDƏN HƏMİN MAHALLARIN KƏNDLƏRİ SİYAHISINA DAXİL ETMƏDİYİMİZ TOPONİMLƏR

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590):

İrəvan nahiyəsi üzrə

Zəngi kəndi
Ketuze (?) kəndi
Pürtaq məzrəsi. Başqa adı Tahirvirandır
Cakerşin kəndi
Bədğus kəndi
Qazıgüney kəndi
Qazıgüney məzrəsi
Kavis kəndi
Qoca Əhməd kəndi. Başqa adı Muradəlidir
Şuşad kəndi
Zaviyyə kəndi. Başqa adı Şeyxlərdir
Şələnkərək (?) kəndi. Başqa adı Qalaşlardır
Sisəgird kəndi
Xorsalı kəndi
Toyanlı kəndi
Molla Xızır kəndi
Veyisbəyli kəndi
Lalabəyli (?) kəndi
Porsuqlu kəndi
Yasavullu kəndi
İbrahim Sultan qışlağı
Əli Bistam (?) kəndi
Muradlı kəndi. Başqa adı Süleymanlıdır
Nuru məzrəsi.
Üçbulaq məzrəsi
Bədrvanıs kəndi

Karni nahiyəsi üzrə

Kürkçü kəndi
Qoyuyaraq və Yaxaçuxur məzrəsi

Xətibçay məzrəsi
Gərayçay kəndi
Çatallar kəndi
Mustafalı kəndi
Əbdülmusa kəndi
Mücərrəd (?) çuxuru məzrəsi
Əhmədqulu qışlağının və Eyvani qışlağının məzrələri
Tüklü, Qaraağıl, Göyağıl və Qurdəli qışlaqları
Qəssablı kəndi. Başqa adı Əshablıdır
Nuralan məzrəsi
Üzəngi məzrəsi

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728):

Qırxbulaq nahiyəsi üzrə

Şeyx Kəlul kəndi
Qarğılıq kəndi
Kənzək kəndi (adı Keçili kəndi ilə qoşa çəkilir – Ə.Ə.)
İmadi-açur (?) qışlağı
Yardəsti məzrəsi (adı Şahab kəndi ilə qoşa çəkilir – Ə.Ə.)
Qaraqaş kəndi
Böyrüdəlik kəndi
Kərəcxana kəndi
Bekin kəndi və Alçakilsə məzrəsi
Gereşan kəndi
İlanlı kəndi. Təkavert və Qaraviran kəndləri yaxınlığında
Tortuz kəndi
Hezaryar kəndi. Tortuz kəndi yaxınlığında
Qədim Ördəkli kəndi. Başqa adı Qaraçılardır
Bağçacıq kəndi. Başqa adı Babacan. Ozan kimi də tanınır. Xəlifəli kəndi yaxınlığında.
Yeni Ördəkli kəndi
Ayıqışlaq kəndi. Ərkük kəndi yaxınlığında
Çələbibulaq kəndi
Yeni Ağbulaq kəndi
Canəhməd Sabitli kəndi
Yarxarab kəndi. Qarnıyarıq və Yolkeçən kimi də tanınır
Qədim Ağbulaq kəndi
Sərnişin kəndi

Yeni Dehgədə kəndi
Qədim Dehgədə kəndi
Dəlikdaş kəndi
Tezərvan kəndi. Örənotbağı kimi də tanınır
Qutluqan kəndi. Başqa adı Qutlucadır
Söyüdlü kəndi
Qaynarca kəndi
Öküzbulaq kəndi. Pirxarab kəndi yaxınlığında
– Ağbulaq kəndi. Qulucan kəndi yaxınlığında
– Qarabayramlı kəndi. Qulucan kəndi yaxınlığında
– Qaraxədim kəndi. Qulucan kəndi yaxınlığında
Molla Hacı kəndi

Karni nahiyəsi üzrə

Taxtakörpü kəndi
Qalacıq kəndi
Qasıməli qışlağı
Şurlutqoca kəndi
Kərirağdağ kəndi. Məsumlu kəndi yaxınlığında
Onbinək kəndi
Fəlakət kəndi. Xarablı kəndi yaxınlığında
Çobanqışlaq kəndi

İ.Şopendə (1832):

Qırxbulaq mahalı üzrə

Arzan

Gərnibasar mahalı üzrə

Xıdırlı kəndi

ZƏNGİBASAR, GƏRNİBASAR VƏ QIRXBULAQDA İŞLƏDİLƏN SÖZLƏRİN DİALEKTOLOJİ LÜĞƏTİ*

acıxəmrə – xəmirə vurulan maya
ağnağız – keçmişdə imkansız ailələrin dəyirmanda 1 kq-dan 10 kq-a qədər növbəsiz dən üyütməsi; dəyirmançılar, adətən, bundan haqq almazdılar
alana – içərisi qoz və şəkərlə doldurulmuş şaftalı qurusu
andır – ölü paltarı, ölüyə məxsus əşya
annax – qanacaq, mərifət
arxadan – dəvə qatarında sonuncu dəvəyə verilən ad
atma – evin, damın üstünü örtmək üçün divarların üstündən atılan ağac
babalını yumaq – günahına batmaq
badya – içinə süd və ya su doldurmaq üçün misdən, saxsıdan və s. düzəldilən altı gen qab
bağdatı – kənarları saçaqlı kələğayı növü
balax – 6-7 aylıq camış balası
bambılı – yüngülxasiyyət, təlxək
bamya – paxlalılar fəsiləsindən zülalla zəngin bitki.
basdırma – kabab üçün sirkə və soğana yatırılmış ət
basməmmədi – başdansovdu
başax – biçindən sonra yerə tökülən buğda
başlıq – süd pulu
bəlgə – adaxlanmış oğlan evindən qız evinə göndərilən ilk nişan şeyləri
bəlim – çəltik küləşi
bikə – bir tikə
bir dəhə – bir dəfə
bir dəhəmə – bir dəfəyə
bişmiş – xörək
boğazgəlmə – angina
boşböyür – qarın nahifəsinin aşağı sol tərəfi
bökən – kömbə (çörək növü)
böyür – kənar, yan, yaxın.

---

* **QEYD:** Zəngibasar, Gərnibasar və Qırxbulaq mahallarında işlədilən şivə və dialekt sözlərinin əksəriyyəti Vedibasar mahalınınkı ilə üst-üstə düşdüyündən bu kitabın 1-ci cildində Vedibasar dialekt sözləri kimi verdiyimiz söz və ifadələri bu cildə təzədən daxil etməmişik.

bu heyndə – bu dəmdə, həmin anda
buxça – boxça
bulud – iri çini qab, sini
burum – dəfə, kərə (xörək bir burum qaynadı)
camax – suyun içinin, altının çirkinin onun üstünə çıxmış kütləsi
can əti – onurğa boyunca uzanan ət
cecim – yundan toxunmuş zolaqlı parça
cilitka – jilet, qolsuz jaket
cılxa – xalis
cınqır – səs
cır – yabanı, peyvənd edilməmiş
cıynax – caynax
cıynaxlı – 1. caynaxlı, caynağı olan; 2. işbacaran, qoçaq adam
cızdıx – qoyun quyruğunu əritdikdən sonra qalan hissə
cortdan – xörəyin yağsız hissəsi, suyu
çaqqala – 1. yetişməmiş ərik, 2. cansız, ifrat arıq adam
çapıt – cında, əski, parça qırığı
çəkuzantı – əzələnin sümüyə bağlanan hissəsi
çiçə – nənə
çiloysüzən – aşsüzən
çimçəşmək – ürpəşmək
çimdik – 1. iki barmağın ucu ilə birinin ətini ttub sıxmaq; 2. həmin miqdarda ölçü vahidi, bir tikə
çılpaxlıx etmək – pal-paltar, əyin-baş almaq
çıppa – təndirdə bişirilən çörək növü; havada əllər arasında çırpılıb yastılandığı üçün bu adı almışdır
çörəkli adam – səxavətli adam
dadıxmaq – pis dad vermək, xarab olmaq
dağa getmək – yaylağa qalxmaq
dağarcıq – yunu təmizlənmiş qoyun dərisindən tikilən kisə
daş qəfədan – xəsis adam
darılmaq – qısqanmaq, yaxşılığını istəməmək
dazalax – keçəl, daz
deyikli – adaxlı, ad olunmuş
dərdəcər olmaq – çərləmək
difdiringi – yüngülxasiyyət, quşbeyin
dişli adam – kəsərli, bacarıqlı adam
dodu – xala, əmi-dayı arvadlarına, qan qohumluğu olmayan yaxın, qohum qadınlara deyilirdi (ermənilərin "xala" mənasında işlətdikləri "doda" sözü əslində buradan götürülmüşdür, er-

mənilər xalaya "morakuyr", yəni "ananın bacısı" deyirlər; yeri gəlmişkən, bu kəlmə Şəkidə də geniş işlənir, orada hətta Dodu adlı bütöv məhəllə var).

domba – çıxıq, qabarıq
dombalax aşmaq – dığırlanmaq
dov gəlmək – güc gəlmək, üstələmək
dünənnəri – dünən
dürmək – içərisinə pendir və s. qoyulmuş lavaşın bürülüb-bükülmüşü
dürməkləmək – dürmək qayırmaq
düşüh – 1. vaxtından əvvəl doğulmuş uşaq; 2. sözünü, hərəkətini bilməyən yarımçıq adam.
elti – qardaş arvadları
erməni inəyi – ifrat kök adam haqqında işlədilən təhqiramiz ifadə
ələyəz – xörəyə atılan yabanı bitki
ərdəmli – səliqə-sahmanlı, əlindən iş gələn
ərdəmsiz – səliqəsiz, əl qabiliyyəti olmayan
ərov – paltar yuyulandan sonra əmələ gəlmiş çirkli su
fala – fal, toyuğun altına qoyulan yumurta
fəllax – diribaş
fittəmək – təhrik etmək
gedərgi – gəldi-gedər
god – iri çəllək
gödən – iştaha, tamah
gödəncil – iştahlı, nəfskar
günəvər – gün düşər yer
heşan – sərilmiş taxıl
həlim – xoşxasiyyət
həlləcoş – qarışıq şey, xörək növü
həlləm-qəlləm – fırıldaq, yalançı
həvədiş – iri diş
hoydu-hoyduya götürmək – ələ salmaq, qovmaq
hovur – müddət, vaxt, zaman (Bir hovur yatmaq)
hövsəmə – sovurma (buğdanı)
hüşdürüm – ağlı kəm, yüngül, tez özündən çıxan
hüttülüm – yüngül, bambılı
xapaxap – qəfildən
xəmrə – şirin xəmir, adətən çirk bağlanmış yaraları deşib təmizləmək üçün istifadə olunur
ximirtcək – hulqum, qığırdağ

xırtik – zəhrimar
xortum – udum (Bir xortum su)
xoruzdanmaq – kiminsə üstünə kükrəmək, yalançı kişilənmək
işqırıq – içini çəkmək
isgəm – stol
irgənçi – iyrənc hərəkətlər edən adam .
irgənmək – iyrənmək
kahıl – diqqətsiz, işə laqeyd baxan
kala – pambığın açılmış qozası
kəf – 1. xörək bişirən zaman suyun üzərində toplanan köpük;
2. hiylə, kələk
kəssək – bərkimiş torpaq
kələyini kəsmək – əldən salmaq
kinə – həb, tabletka
korbağırsaq – apendisit
kort – küt
kortalmaq – korşalmaq
kov – hesabdan (Bu, kov deyil)
kövşənnik – çəmənlik
küllük – zibilxana
kürsü – keçmişdə qışda təndiri (təndir tam yerdən olardı) yandırıb, od sənkiyəndən sonra üstünə taxta kürsü qoyub ətrafına yığışar, ayaqlarını təndirə sallayıb isinərdilər. Buna kürsü deyilərdi.
qaşov – mal-heyvanı qaşımaq üçün nəzərdə tutulan xüsusi daraq
qarayer – məzar, qəbir
qart-qart – lovğa-lovğa, böyük adam kimi
qartalmaq – yaşı ötmək, qarımaq
qəməlti – qatlanmayan iri mətbəx bıçağı
qənəh olmaq – qane olmaq
qəzəl oxumaq – boş-boş danışmaq, çərənləmək
qıfa – qıf
qıra – yetişməmiş qovun
qırxlıq – qoyun qırxmaq üçün nəzərdə tutulan iri qayçı
qndab – ip
qoden//qodem – vəzəri
qoyuniti – qurdbasar iri çoban iti
qovax – başda yaranan kəpək
qurud – qurudulmuş süzmə, qatıq
lax çıxma – 1. toyuğun altına qoyulan yumurtanın xarab olması;
2. yalan çıxma

lapdan – qəfildən
las-las – qat-qat
leysan – şıdırğı yağış
ləğər – çox yeyən, qarınqulu
ləmis olmaq – süst olmaq
licim – paltar, geyim, əyin-baş.
lırt – bədənə gen (paltar)
lomba – bir yekə
löhmə – duru palçıq
manda – yeməli yabanı bitki
matah – nadir tapılan şey
mayaxoş – meyxoş, turşməzə
mayıf – şikəst
merət – ölü paltarı, ölüyə məxsus əşya
mərzə – reyhanaoxşar ətirli göyərti; onu daha çox küftəyə vururlar.
mirqəzzəb – cəllad, qəddar
misir buğası – ifrat kök adam haqqında işlədilən təhqiramiz ifadə
mırıx – dişsiz
mırtdanmaq – deyinmək
mısmırıq – qaş-qabaq
nəs – nəhs
nəverim – bir şeyə yaramayan, lazımsız
omac – un xörəyi
oturax istolu – stul
ovand – parçanın üz tərəfi
ovsar – dəvə noxtası
ödələmək//ödələyib tökmək – dil boğaza qoymamaq
öküz – sağlam, iri və ya qanmaz adam haqqında işlədilən ifadə.
öküz ombası – 1. kobud, qanmaz; 2. yekəpər
övrəş – oğraş
peydah olmaq – peyda olmaq, qəfil görünmək
pəndəm – qəbizlik
raqatka – quşatan
səbzi – kəvər
səfəng – sapand
sənək – saxsıdan qayrılmış qulplu su qabı, səhəng
sətil – vedro
spanaq – şomu
surfa – süfrə
şaqqıldax – qoyunun quyruğu altındakı tüklərə yapışıb qurumuş

peyin

şapalax – səsli şillə
şəmbəllə – nadinc uşaq
şıxşatmıq – üz vermək, üz verib başa çıxartmaq
şortu – əxlaqsız qadın
şorttamaq – aralı-aralı tikib getmək.
şorunu çıxarmaq – ağ etmək, həddini aşmaq
şüfgə – üzüm tənəyinin şivi
tamas – tomat
tasdıxlamaq – təsdiqləmək
tavoot – təfavüt
təhməcüt – tək-cüt (uşaq oyunu)
təntimək – tələsmək, hövsələsini itirmək
təpilmək – soxulmaq
təpinmək – kiminsə üstünə yerimək, hədə-qorxu gəlmək
təpmək – soxmaq
tiyə – balaca bıçaq
toba – tövbə
törəli – o qədər də xoşa gəlməyən şey
turşu – şoraba
uçux – qızdırma zamanı və ya qorxudan dodaqlarda əmələ gələn kiçik yara, səpgi
uşqunmaq – uşağın bir şeyə təkidlə can atması
ustublu – üsullu, yavaş, ehtiyatla, ehmal
vər – əkində cərgələrin arası
yamşaq – yaşmaq
yanpörtü – əyri, yanı üstə
yelin – heyvan əmcəyi
yengə – qardaşın və ya qardaşa bərabər tutulan adamın arvadı
yük yeri – yorğan-döşək yığmaq üçün divarda açılmış yer
zağa – mağara
zərdə – kök (bu söz ancaq Rəhimabad və Mehmandar kəndlərində işlədilib).
zəvzək – boşboğaz, çoxdanışan
zəvzəmək – boşboğazlıq etmək
zingirə – üzüm salxımının bir qanadı
zır – qanmaz, kobud, qaba
zırı – yekəpər
zürcək – sürüşkən
züvmək//züv getmək – sürüşmək

ZƏNGİBASARLI, GƏRNİBASARLI, QIRXBULAQLI VƏ ZƏNGİBASAR, GƏRNİBASAR, QIRXBULAQ MƏNŞƏLİ AZƏRBAYCANLI ALİMLƏR

ZƏNGİBASAR RAYONU ÜZRƏ

Azərbaycan MEA həqiqi üzvləri

Budaqov Budaq Əbdüləli oğlu – akademik, coğ. e.d., prof., Çobankərə k.

Topçubaşov Mustafa Ağa bəy oğlu – akademik, tibb e.d., prof, Dövlət Mükafatı laureatı, Göygümbət k.

Azərbaycan MEA müxbir üzvləri

Əkbərov Surxay Cabbar oğlu – f/r. e.d., prof, Haçaparaq k.

Məmmədov Yəhya Cəfər oğlu – f/r. e.d., prof., Azərbaycan Dövlət Mükafatı laureatı, Çobankərə k.

Salmanov Məmməd Əhəd oğlu – biol. e.d., prof., Qaraqışlaq k.

Elmlər doktorları

Bayramov Rafiq Rza oğlu – tar. e.d., Qaraqışlaq k.

Əhmədov Teymur Əkbər oğlu – fil. e.d., prof., Uluxanlı k.

Ələkbərov Yunis Əkbər oğlu – bayt. e.d., Dəmirçi k.

Əliyev Ədalət Bayraməli oğlu – tex. e.d., nəqliyyat e.d., Zəngilər k.

Əsgərov Telman Mirzə oğlu – tex. e.d., prof., Arbat k.

Fərhadov Fərhad Qulam oğlu – fil. e.d., prof., Rəncbər k.

Hacıyev Aqil Cəfər Xəndan oğlu – fil. e.d., prof., Ağhəmzəli k.

Hacıyev Cəfər Xəndan Zeynal oğlu – fil. e.d., prof., Ağhəmzəli k.

Hacıyev Namiq Cəfər Xəndan oğlu – tex. e.d., prof., Ağhəmzəli k.

Xəlilov Firudin Xəlil oğlu – tex. e.d., Uluxanlı k.

Xəlilova Səriyyəxanım Həsənbəy qızı – biol. e.d., prof., Uluxanlı k.

Qasımov Maqsud Səfər oğlu – tibb. e.d. prof., Zəngilər k.

Məmmədov Cabbar İbrahim oğlu – fil. e.d., prof., Haçaparaq k.

Məmmədov İsfəndiyar Məmmədhüseyn oğlu – ped. e.d., Haçaparaq k.

Məmmədova Gülçöhrə Hüseyn qızı – memarl. e.d., prof., Uluxanlı k.

Məsimov Adil Kərim oğlu – fil. e.d., Hacı Elləz k.

Rzayev Zakir Məhəmməd oğlu – kimya e.d., Uluxanlı k.

Rəhimov Mayıl Səməd oğlu – iqt. e.d., Sarıcalar k.

Şükürov Sadıq Cəfər oğlu – fil. e.d. prof., Haçaparaq k.

Topçubaşov İbrahim Mustafa oğlu – tibb e.d., prof., Göygümbət k.
Yusifli Şəfiqə Vəli qızı – fil. e.d., Zəngilər k.

Elmlər namizədləri

Abbasov Cəmşid Abbas oğlu – f/r. e.n., Zəngilər k.
Abbasov Əli İsmayıl oğlu – tibb e.n., Zəngilər k.
Abbasov Fərrux Heydər oğlu – iqt. e.n., Dəmirçi k.
Abbasov Namiq Həsən oğlu – k/t e.n., Qaraqışlaq k.
Abbasov Şura İsmayıl oğlu – fil. e.n., Qaraqışlaq k.
Abdullayev Əhməd İsmayıl oğlu – tarix e.n., Uluxanlı k.
Abdullayev Mahmud Əli oğlu – tex. e.n., Arbat k.
Axundov Səttar Əbdüləli oğlu – f/r e.n., A.Necili k.
Babayev Əbdül Qulu oğlu – fəl. e.n., Rəncbər k.
Babayev Faiq Səməd oğlu – fil. e.n., Haçaparaq k.
Babayev Məmməd Süleyman oğlu – k/t e.n., Y.Necili k.
Babayeva Svetlana Əyyub qızı – f/r e.n., Kolanlı k.
Bağırov Adil Məşəmməd oğlu – tex. e.n., Y.Necili k.
Bağırov Cavid Hətəm oğlu – tex. e.n., A.Necili k.
Bağırov Məmmədbağır Adil oğlu – tibb e.n., Y.Necili k.
Bağırova Göyərçin Kamran qızı – ped. e.n., Zəngilər k.
Bayramov Məhərrəm Bağır oğlu – fil. e.n., A.Necili k.
Bayramov Nizami Səttar oğlu – f/r e.n., A.Necili k.
Cəfərov Şaban Məşəkərim oğlu – k/t e.n., Dövlət Mükafatı laureatı, Dəmirçi k.
Cəfərov Heydər Allahyar oğlu – ped. e.n., Rəhimabad k.
Cəfərova Afaq Məmmədəli qızı – sənət. n., A.Necili k.
Cümşüdov Vaqif Həsən oğlu – fil. e.n., Haçaparaq k.
Cümşüdov Firudin Həsən oğlu – tarix e.n., Haçaparaq k.
Əhmədov Ələmdar Paşa oğlu – fəl. e.n., Uluxanlı k.
Əliyev Əli Əkbər oğlu – f/r e.n., Sarvanlar k.
Əliyev Hafiz Əli oğlu – tex. e.n., Zəngilər k.
Əliyev Hüseyn Ramazan oğlu – k/t e.n., Mehmandar k.
Əliyev İslam Əziz oğlu – biol. e.n., Qaraqışlaq k.
Əliyev Rafiq Mahmud oğlu – iqt. e.n., Həbilkənd k.
Əliyev Tofiq Abbasəli oğlu – kimya e.n., Çobankərə k.
Əliyeva Şücaət Əli qızı – tibb e.n., Y.Necili k.
Əliyeva Validə Rəcəb qızı – psix. e.n., A.Necili k.
Əsgərov Kamil Məmmədəli oğlu – k/t e.n., Mehmandar k.
Əzizov Əyyub Teymur oğlu – kimya e.n., Mehmandar k.
Hacıyev Rəfiq Zəka Cəfər Xəndan oğlu – fəls. e.n., Ağhəmzəli k.

Heydərov Bayram Mirabbas oğlu – f/r e.n., Dəmirçi k.
Heydərov Şəmil Hili oğlu – tex. e.n., Həbilkənd k.
Həmidov Sezmi Həmid oğlu – tex. e.n., Uluxanlı k.
Həsənov Əli Cabbar oğlu – f/r e.n., Haçaparaq k.
Həsənov Fərrux Heydər oğlu – iqt. e.n., Dəmirçi k.
Hüseynov Firudin Səfər oğlu – f/r e.n., Uluxanlı k.
Hüseynov İsrafil Əli oğlu – kimya e.n., Haçaparaq k.
Hüseynov Məmməd Əli oğlu – ped. e.n., Haçaparaq k.
Xudaverdiyev Rəhim Əkbər oğlu – kimya e.n., Uluxanlı k.
İbrahimov Cəlil Hacıcəfər oğlu – fil. e.n., Çobankərə k.
İbrahimov İbrahim Hacıabdulla oğlu – f/r e.n., Mehmandar k.
İsmayılov Oruc Bayram oğlu – tibb e.n., Uluxanlı k.
Kərimov Nizami Adil oğlu – f/r e.n., Reyhanlı k.
Qasımov Cahangir Lətif oğlu – tibb e.n., Y.Necili k.
Qasımov Fuad Qasım oğlu – tar. e.n., Çobankərə k.
Qasımov Tofiq Qasım oğlu – fəl. e.n., Çobankərə k.
Qədimov Şaiq Rza oğlu – tibb e.n., A.Necili k.
Qocayeva Aybəniz Maqsud qızı – tibb e.n., Zəngilər k.
Quliyev Abbas Məmməd oğlu – kimya e.d., Uluxanlı k.
Mehdiyeva Gülnarə Firudin qızı – f/r e.n., Y.Necili k.
Məhərrəmov Nizami Kazım oğlu – tarix e.n., A.Necili k.
Məmmədov Azad Yəhya oğlu – fil. e.n., Çobankərə k.
Məmmədov Fərrux Məmməd oğlu – biol. e.n., Zəngilər k.
Məmmədov Kamil Rza oğlu – k/t e.n., Çobankərə k.
Məmmədov Məsim İbrahim oğlu – fil. e.n., Haçaparaq k.
Məmmədov Nuru Zeynalabdin oğlu – tarix. e.n., Necili k.
Məmmədov Paşa Cəfər oğlu – tibb e.n., Çobankərə k.
Məmmədov Səyyad Zeynalabdin oğlu – fəl. e.n., Mehmandar k.
Məmmədov Vaqif Əli oğlu – coğ. e.n., Sarvanlar k.
Məmmədova Asya Hüseyn qızı – tibb e.n., Uluxanlı k.
Məmmədova Sevil Akif qızı – biol. e.n., Y.Necili k.
Musayev Xasay İbrahim oğlu – tex. e.n., Saraclı k.
Nağıyev Novruz Xəlil oğlu – fəls. e.n., A.Necili k.
Nəsirov Şükür Nəriman oğlu – kimya e.n., Sarıcalar k.
Novruzov Novruz Xəlil oğlu – fəl. e.n., A.Necili k.
Orucov Eldar Oruc oğlu – fil. e.n., Qaraqışlaq k.
Orucov Ziyəddin Aşot oğlu – psix. e.n., Rəncbər k.
Orucova Şura Oruc qızı – fil. e.n., Qaraqışlaq k.
Rəhimov Abbas Sultanəli oğlu – fil. e.n., Zəngilər k.

Rzayev Orucəli Hüseynqulu oğlu – f/r e.n., Zəngilər k.
Səfərov Sabir Xəlil oğlu – fəl. e.n., Haçaparaq k.
Şükürzadə İsmayıl Qafar oğlu – tarix e.n., Haçaparaq k.
Tağıyev Nazim Əli oğlu – bayt. e.n., A.Necili k.
Teyibov Rəhim Abbas oğlu – tibb e.n., Uluxanlı k.
Topçubaşova Zemfira Mustafa qızı – tibb e.n., Göygümbət k.
Vəliyev Nəriman Adil oğlu – coğ. e.n., prof., Çobankərə k.
Vəliyev Zaman Mahmud oğlu – fil. e.n.,.Xaraba Kolanı k.
Zeynalov Əsgər Məmməd oğlu – fil. e.n., Y. Necili k.

QƏMƏRLİ RAYONU ÜZRƏ

Elmlər doktorları

Əhmədov Əli Əli oğlu – k/t e.d., Cəfərli k.
Kazımov Nadir Məmmədəli oğlu – tex. e.d., prof., Doqquz k.
Kazımov Sabir Məmmədəli oğlu – kimya e.d., prof., Doqquz k.
Qəmərli Arif Paşa oğlu – bayt. e.d., prof., Qəmərli k.
Seyidzadə Dilarə Bağır qızı – tarix e.d., Qəmərli k.
Seyidov Həsən Əli oğlu – k/t e.d., prof, Qəmərli k.
Seyidov Cavanşir Həsən oğlu – f/r e.d., prof., Qəmərli k.
Seyidova Həqiqət Əli qızı – tibb e.d., prof., Qəmərli k.
Şahbazov Eldar Qəşəm oğlu – tex. e.d., prof., Qarahəmzəli k.

Elmlər namizədləri

Cahangirov Akif Əli oğlu – tex. e.n., Doqquz k.
Cahangirov Əli Yunis oğlu – f/r e.n., Doqquz k.
Cahangirova Sona Əli qızı – f/r e.n., Doqquz k.
Cəlilov Afiyəddin Cəlil oğlu – tarix e.n., Muğamlı k.
Əliyev Teymur Rza oğlu – biol. e.n., Qarahəmzəli k.
Əliyeva Gülşən Teymur qızı – fil. e.n., Qarahəmzəli k.
Qəmərli Faiq Mahmud oğlu – f/r e.n., Qəmərli k.
Qəmərli Validə Paşa qızı – biol. e.n., Qəmərli k.
Qurbanov Əyyub Məşədi Əli oğlu – k/t e.n., Doqquz k.
Nəbiyev Mirzə İsmayıl oğlu – kimya e.n., Doqquz k.
Nəbiyev Rza İsmayıl oğlu – kimya e.n., Doqquz k.
..... Sabir Həbib oğlu – tex. e.n., Bitlicə k.
Seyidova Klara Həsən qızı – tibb e.n., Qəmərli k.
Seyidova Tamara Həsən qızı – fil. e.n., Qəmərli k.
Seyidova Xüzrə Qasım qızı – k/t e.n., Qəmərli k.

ELLƏR RAYONU ÜZRƏ

Elmlər doktorları

Allahverdiyev Əli Rəhim oğlu – tibb e.d., prof., Artız k.
Allahverdiyev Kərim Rəhim oğlu – f/r e.d., Artız k.
Allahverdiyev Rəhim Kazım oğlu – biol. e.d., prof., Artız k.
Allahverdiyev Surxay Rəhim oğlu – biol. e.d., Artız k.

Elmlər namizədləri

Həsənov Allahverdi Məmməd oğlu – tarix e.n., prof., Məngüs k.
Mehdiyev Lətif Xəlil oğlu – k/t e.n., Cadqıran k.
Məhərrəmov Abbasqulu Məhərrəm oğlu – fil. e.n., Dəlləkli k.
Səfərov Əsgər Şamil oğlu – kimya. e.n., Nurnus k.

SOVET DÖVRÜNDƏ ZƏNGİBASAR RAYONUNDA RƏHBƏR VƏZİFƏLƏRDƏ İŞLƏMİŞ AZƏRBAYCANLILAR

1. 1938-1939-cu illər – **Yaqub Bayramov** (RPK-nin I katibi).
2. 1939-1940-cı illər – **Müzəffər Talıbov** (RPK-nin I katibi).
3. 1940-cı il – **Məmməd Xəlilov** (RPK-nin I katibi).
4. 1938-1941-ci illər – **Mirzə Bəşirov** (RİK sədri).
5. 1941-1942-ci illər – **Hüseyn Məmmədov** (RİK sədri).
6. 1940-1946-cı illər – **Rza Rzayev** (RPK-nin I katibi)
7. 1942-1946-cı illər – **Oruc Əliyev** (RİK sədri), **sonuncu**
8. 1946-1947-ci illər – **Hüseyn Məmmədov** (RPK-nin I katibi).
9. 1947-1950-ci illər – **Qəşəm Şahbazov** (RPK-nin I katibi), **sonuncu.**

Siyahıdan göründüyü kimi, rayon rəhbərliyində 1-ci şəxs vəzifəsində (RPK-nın I katibi) sonuncu azərbaycanlı kadr 1950-ci ildə bu vəzifədən kənarlaşdırılan **Qəşəm Şahbazov** olmuşdur.

Rayon rəhbərliyində 2-ci şəxs vəzifəsində (RİK sədri) sonuncu azərbaycanlı kadr isə 1946-cı ildə bu vəzifədən uzaqlaşdırılan **Oruc Əliyev** olmuşdur.

Zəngibasar rayonunda müxtəlif vaxtlarda rəhbər vəzifələrdə işləmiş digər azərbaycanlı kadrlar

Yaqub Yaqubov – RPK-nin katibi (1937-1947)
Abbas Mustafayev – RİK sədrinin müavini (1969-1970), RPK-nin katibi (1970-1978)
Kamal Məmmədov – RPK-nin katibi (1978 – 1983)
Gülarə Hüseynova – RPK-nin katibi (1983 – 1988)
Məhərrəm Quliyev – rayon komsomol komitəsinin katibi (1938-1941)
Əli Hıcıyev – milis rəisi
Abdulla Mirzəyev – milis rəisi
Orucəli Orucov – məhkəmə sədri
Şahmar ƏHmədov – məhkəmə sədri
Mirzə Əsgərov – maarif müdiri
Oruc Əliyev – maarif müdiri
Zeyni Əsgərov – maarif müdiri

Adil Axundov – maarif müdiri
Tahir Bayramov – rayon hərbi komissarı
Məmməd Babayev – rayon hərbi komissarlığında şöbə müdiri, rayon maldarlıq şöbəsinin müdiri, rayon kənd təsərrüfatı təchizat idarəsinin rəisi

Bir daha xatırladırıq ki, RİK sədrinin müavini və RPK katibi vəzifələrindən başqa, birinci şəxs qismində yerdə qalan bütün vəzifələrdə azərbaycanlılar ancaq 1950-ci ilə qədər işləmişlər. Həmin tarixdən onları erməni kadrları əvəz etmişlər.

ZƏNGİBASAR, QƏMƏRLİ VƏ ELLƏR RAYONLARI ÜZRƏ "ERMƏNİSTAN SSR" FƏXRİ ADLARINA LAYİQ GÖRÜLMÜŞ AZƏRBAYCANLILAR

"Ermənistan SSR" Əməkdar jurnalisti

Əsgərov Rza İbrahim oğlu – Zəngibasar rayonu, Haçaparaq kəndi

"Ermənistan SSR" Əməkdar rəssamı

Quliyev Cabbar Əli oğlu – Zəngibasar rayonu, Haçaparaq kəndi.

"Ermənistan SSR" Əməkdar müəllimləri

Cümşüdov Həsən Abbas oğlu – Zəngibasar rayonu, C.Məmmədquluzadə adına Qaraqışlaq kənd məktəbinin direktoru, 22.11.1950.

Elyasov Cəfər Məşədikərim oğlu – İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumunun direktoru, 07.01.1974.

Əliyev Heydər Ramazan oğlu – Qəmərli rayonu, Qəmərli kənd məktəbinin müəllimi, 22.11.1940.

Hüseynov Məmməd Əli oğlu – Zəngibasar rayonu, C.Məmmədquluzadə adına Qaraqışlaq kənd məktəbinin müəllimi, 01.07.1970.

Qədimova Fatma Məmməd qızı – Zəngibasar rayonu, Sarvanlar kənd məktəbinin müəllim, 28.11.1944.

Qəmərlinski Əli Mirzəməmmədvəli oğlu – Qəmərli rus-tatar və Gəncə şəhər məktəblərinin müəllimi, 18.06.1956.

Məmmədov Məmməd Mehdi oğlu – Zəngibasar rayonu, Həbilkənd kənd məktəbinin direktoru, 22.05.1968.

Tahirova Ceyran Rza qızı – Zəngibasar rayonu, M.Əzizbəyov adına Uluxanlı kənd məktəbinin müəllimi, 22.03.1982.

ƏLAVƏLƏR

"İRƏVAN ƏYALƏTİNİN MÜFƏSSƏL DƏFTƏRİ"NDƏ (1590) ZƏNGİBASAR, GƏRNİBASAR VƏ QIRXBULAQ KƏNDLƏRİ

İRƏVAN NAHİYƏSİ ÜZRƏ

Noregiq kəndi
Göygünbəz kəndi
Arbad kəndio
Zəngi kəndi
Yenicə kəndi
Hacı İlyas kəndi
Terekevit kəndi
Kelare (?) kəndi
Oxçaberd kəndi
Cevriş kəndi
Qızılqala kəndi
Kənəkir kəndi
Şahab kəndi
Zak kəndi
Zakevəng kəndi
Avan kəndi
Ərinc kəndi
Nork kəndi
Ketuze (?) kəndi
Ərzni kəndi
Nurnus kəndi
Kəmris kəndi
Pürtaq məzrəsi. Başqa adı Tahirvirandır
İlar (?) kəndi
Yelqovan kəndi
Tacirbəy kəndi
Tutul (?) kəndi
Zar kəndi
Molla Həsən kəndi
Güllücə kəndi
Həsənəvar kəndi. Başqa adı Palaslıdır

Çəbəcili kəndi
Damagirməz kəndi
Debikli kəndi
Dəşt (?) kəndi
Kamal Dərviş kəndi
Qaracaqala məzrəəsi
Uzand (?) kəndi
Cakerşin kəndi
Bədğus kəndi
Göykilsə kəndi
Kənkan kəndi
Sınıqxaç kəndi
Qaraqala kəndi
Ağaçurum kəndi
Qazıgüney kəndi
Kavis kəndi
Əyrək kəndi
Ballıca kəndi
Əramus kəndi
Əraxus kəndi
Qoca Əhməd kəndi. Başqa adı Muradəlidir
Şuşad kəndi
Zaviyyə kəndi. Başqa adı Şeyxlərdir
Şələkkərək (?) kəndi. Başqa adı Qalaşlardır
Qaracaviran kəndi
Qara İvad (?) qışlağı. Başqa adı Saki qışlağıdır
Ağdost kəndi. Başqa adı Çatqırandır
Donuzyeyən (?) kəndi
Göyçəbəyli kəndi
Qaracaviran məzrəsi. Başqa adı Qaratəpədir
Sisəgird kəndi
Xorsalı qışlağı
Toyanlı qışlağı
Molla Xızır kəndi
Hacı Bayram qışlağı
Ağcaqala qışlağı
Sənqovit məzrəsi
Veyisbəyli kəndi
Dəmirçili kəndi
Lalabəyli (?) kəndi

Qaraqışlaq kəndi
Porsuqlu kəndi
Muradlı kəndi
Daşcılı kəndi
Şeyxzadəli kəndi
Qaraqoyunlu kəndi. Başqa adı Müzəffər qışlağıdır
Yasavullu kəndi
İbrahim Sultan qışlağı
Əli Bistam (?) kəndi
Muradəli kəndi. Başqa adı Süleymanlıdır
Murad qışlağı
Nuru məzrəsi
Üçbulaq məzrəsi
Bədrvanıs (?) kəndi
Tərcanlı qışlağı
Tezxarab kəndi
Qızqalası kəndi

Ağmanqan və Üçtəpə yaylaqları
Ələyəz Dəvanı yuxarı yaylağı
Qızılziyarət, Kiçik Ağmanqan ...yaylağı

KARNİ NAHİYƏSİ ÜZRƏ

Karni kəndi
Abdallar məzrəsi
Koxt kəndi
Kürkçü kəndi
Avanik kəndi
Qoyuyaraq və Yaxaçuxur məzrələri
Yaxşıxan kəndi
Dvin kəndi. Başqa adı Topraqqaladır.
Xətibçay və Xatunkənd məzrəsi
Gəray kəndi
Ərdəşir kəndi
İmanşalı kəndi
Alpaq məzrəsi
Qoyluhasar kəndi. Başqa adı Bicavdır (?)
Sədəddin viranı məzrəsi
Quşçu kəndi

İnəkli kəndi
Tamamlı kəndi
Qızılava (?) kəndi
Doqquz kəndi
Ağaceri kəndi
Nəhri-Ənus kəndi
Musahacılı kəndi
Çatallar kəndi
Mustafalı kəndi
Əbdülmusa kəndi
Mücərrəd (?) çuxuru məzrəsi
Novruzlu kəndi
Axuşvəng kəndi
Əngüs kəndi
Qaqauz kəndi
Babalar kəndi
Molla Polad kəndi
Yolkəsən kəndi
Candarlar kəndi
Xəlifəqulu qışlağının, Əhmədqulu qışlağının və Eyvani qışlağının məzrələri
Ağcaqışlaq. Başqa adı Kürəkeşindir.
Tüklü, Qaraağıl, Göyağıl və Qurdəli qışlaqları.
Xudabəndə kəndi
Qəssablı kəndi. Başqa adı Əshablıdır.
Nuralan məzrəsi
Qaratəpə məzrəsi
Ərtus kəndi
Üzəngi məzrəsi.

KARBİ NAHİYƏSİ ÜZRƏ

Mehmandar kəndi
Şeyxzadəli qışlağı
Uluxanbəyli qışlağı
Piri kəndi

"İRƏVAN ƏYALƏTİNİN İCMAL DƏFTƏRİ"NDƏ (1728) ZƏNGİBASAR, GƏRNİBASAR VƏ QIRXBULAQ KƏNDLƏRİ

QIRXBULAQ NAHİYƏSİ ÜZRƏ

Uluxanlı kəndi
Terekevit kəndi
Aramus kəndi
Yenicə kəndi
Balaşlı Nəcli kəndi
Kanaker kəndi
Yeni Ağbulaq kəndi
Qədim Ağbulaq kəndi
Canəhməd Sabitli kəndi
Sərnişin kəndi
Qarnıyarıq və Yolkeçən kimi də tanınan Yarxarab kəndi
Qulucan kəndi. Ağbulaq kəndi yaxınlığında
Qarabayram kəndi. Qulucan kəndi yaxınlığında
Qaraxədim kəndi. Qulucan kəndi yaxınlığında
Xəlifəli kəndi. Əhalisi Nəcli camaatındandır
Göyçəbinək kəndi. Əhalisi Nəcili camaatındandır
Arebat kəndi. Xaçaparaq kəndi yaxınlığında
Aran kəndi
Tərkivan kəndi. Zaq kəndi yaxınlığında
Şahab kəndi və Yardəsti məzrəsi
Ağazor kəndi
Qaraca Örən kəndi
Kürəcik kəndi
Tezxarab kəndi
Kəngi kəndi
Böyrüdəlik kəndi
Kərəcxana kəndi.
Bekin kəndi və Alçakilsə məzrəsi
Qaraviran kəndi. İlanlı kəndi yaxınılığında
Gereşan kəndi
İlanlı kəndi. Təkavert kəndi yaxınlığında
Qaraqaş kəndi
Kütüran kəndi
Qutqut kəndi. Çatqıran kəndi tərəfdə

Araxos kəndi. Başqa adı Başköydür
İynədüz kəndi. Güllücə kəndi yaxınlığında
Güllücə kəndi. İynədüz kəndi yaxınlığında
Kamal kəndi
Tutiya kəndi. Çatqıran kəndi yaxınlığında
Ballıca kəndi
Yaycı kəndi. Kamal kəndi yaxınlığında
Tecirdink kəndi. Kürəcik kəndi yaxınlığında
Qaraqala kəndi. Zar kəndi yaxınlığında
Sınıqxaç kəndi
Zar kəndi. Kəmris kəndi yaxınlığında
Qaracalar kəndi. Zar kəndi yaxınlığında, başqa adı Aşağı Qaraqaladır
Göykilsə kəndi və Masis məzrəsi
Çobangərəkməz kəndi. Göykilsə kəndi yaxınlığında
Ayıqışlaq kəndi. Ərkük kəndi yaxınlığında. Başqa adı Tekzordur
Manseres kəndi. Çobangərəkməz kəndi yaxınlığında yerləşən Gərəkbulaq tərəfdə
Çələbibulaq kəndi
Qızqalası kəndi
Tercan kəndi
Mehmandarlı kəndi. Qamışlı kəndi yaxınlığında
Seyfəli kəndi. Uluxanlı kəndi yaxınlığında, başqa adı Rüstəmlidir
Bağçacıq kəndi. Xəlifəli kəndi yaxınlığında, başqa adı Ozandır
Hellar kəndi. Şahab kəndi yaxınlığında
Qızılqala kəndi. Zəngi çayı kənarında
Abdulla məzrəsi. Qızılqala kəndi tərəfdə
Çatqıran müsəlman kəndi
Hacıbayram kəndi. Başqa adı Qaraqışlaqdır
Çerçerakin. Başqa adı Ağcaqışlaqdır
Çarbağ kəndi. Başqa adı Xürrəmabaddır
Mənqus kəndi
Oxçaberdi kəndi
Hörüslü Dvin və Molla Hacı kəndləri
Dvin kəndi. Qaraviran kəndi tərəfdə
Novruzkənd. Qaraviran kəndi tərəfdə. Başqa adı Yeddibulaqdır
Sarıcalar kəndi. Xersor kəndi yaxınlığında. Başqa adı Cahanşadillidir
Keçili kəndi. Dəlikli kəndi yaxınlığında. Başqa adı Quyubulaqdır
Qaracalar məzrəsi
Həsənviran kəndi
Qədim Ördəkli kəndi. Başqa adı Qaraçılardır.

Yeni Ördəkli kəndi
Ərinc kəndi və Məqhud məzrəsi
Çölməkçi kəndi
Yelqovan kəndi
Zak kəndi
Kəmris kəndi
Çatqırani-zimmi kəndi
Ərzni kəndi
Mehmandari-Şollu kəndi
Dəmirçiliye-Şollu kəndi
Xaçaparaq kəndi
Hacı İlyas kəndi
Donuzpayan kəndi
Yuxarı Göykənd
Aşağı Göykənd
Noregiğ kəndi
Şeyx Kəlul kəndi
Köhnə Dəlilər kəndi
İşxavəng məzrəsi. Dəlilər kəndi yaxınlığında
Qarğılıq kəndi
Yeni qışlaq kəndi. Başqa adı Əxi təpəsidir
Keçili və Kənzək kəndləri
İmadi-açur (?) qışlağı
Tortuz kəndi
Hezaryar kəndi. Tortuz kəndi yaxınlığında
Yeni Dehgədə kəndi
Qədim Dehgədə kəndi
Dəlikdaş kəndi
Tezərvan kəndi. Başqa adı Örənotbağıdır
Qutluqan kəndi. Başqa adı Qutlucadır
Söyüdlü kəndi
Qaynarca kəndi
Öküzbulaq kəndi. Pirxarab kəndi yaxınlığında.

KARNİ NAhİYƏSİ ÜZRƏ

Karni kəndi
Bəycivazlı kəndi
Yuva kəndi
Ərdəşir kəndi

Zöhrablı kəndi
Qurbanqulu kəndi. Başqa adı Torpaqqaladır
Haratlı kəndi. Əhalisi Dagulilərdəndir
Saatlı Sabunçu kəndi
Axtaxan kəndi
Yuxarı Quyuluhasar kəndi
Aşağı Quyuluhasar kəndi
İmanşahlı kəndi
Novruzlu kəndi. Başqa adı Musahacıdır
Tantaq kəndi. Başqa adı Ağaceridir.
Dəlilər kəndi
Qaraqışlaq kəndi. Başqa adı Mərənçidir. Əhalisi Qəmərli camaatındandır
Ağcaqışlaq kəndi. Yuva kəndi yaxınlığında. Əhalisi Qəmərli camaatındandır
Almalı kəndi. Əhalisi Qəmərli camaatındandır
Uğurbəyli kəndi. Dəlilər kəndi yaxınlığında
Piri kəndi. Dəlilər kəndi yaxınlığında
Böyük Ayaslı kəndi. Başqa adı Quşçudur
Qulça kəndi. Böyük Ayaslı kəndi yaxınlığında
Kiçik Ayaslı kəndi
Buzavand s.r.s.r. (?) kəndi. Ərdəşir kəndi yaxınlığında. Başqa adı Əbdülhacıdır.
Dvin kəndi. Ağcaqışlaq kəndi yaxınlığında
Böyük Məsumlu kəndi. Qovun Seyfidərə kəndi yaxınlığında
Kərirağdağ (?) kəndi. Məsumlu kəndi yaxınlığında
Xaçlı kəndi. Yenicə kəndi yaxınlığında
Yenicə kəndi
Dumanlı kəndi
Kərəm Məhəmmədəli kəndi
Qasıməli qışlağı
Ketus (?) kəndi. Başqa adı Gülbudaqdır
Yurdək kəndi
Koxt kəndi
Tarmus kəndi. Başqa adı Qızılvəngdir
Qoyulu kəndi
Taxtakörpü kəndi
Sınıqkörpü kəndi. Başqa adı Bikəmli və Saatlı məzrəsi
Molla Qulad (?) kəndi. Başqa adı Həmzəkənddir
Cəbəçili kəndi. Molla Qulad kəndi yaxınlığında
Qaratəpə kəndi. Cəbəçili kəndi yaxınlığında
Toğanşahlı kəndi

Alpevi kəndi
Qaraqoyunlu kəndi. Başqa adı Yükkəsənçaydır
Tamamlı kəndi. Toğanşahlı kəndinin yaxınlığında
Ciğdəmli kəndi. Başqa adı Çalçaydır
Başnəli kəndi. Başqa adı Çandardır
Çinəxan kəndi
Daşlı kəndi. Çinəxan kəndi yaxınlığında
Fəlakət kəndi. Xarablı kəndi yaxınlığında
Doqquz kəndi. Başqa adı Qahablıdır və Gərdəkdərə məzrəsi
Yaxşıcan kəndi. Başqa adı Qazıbəylidir
Darğalı kəndi. Yuva kəndi yaxınlığında
Mehrablı kəndi. Zöhrablı kəndi yaxınlığında
Canibəy kəndi. Qazıbəyli kəndi yaxınlığında
Böyük Buzavənd kəndi. Başqa adı Ağcaqışlaqdır
Sarıcalar kəndi. Gödək Buzavənd kəndi yaxınlığında
Yeni Karyer kəndi. Başqa adı Məhəmmmədabaddır
İnəkli kəndi
Ozanlı kəndi. Başqa adı Babaxanlıdır
Yamançlı kəndi. İnəkli kəndi yaxınlığında
Gödək Buzavənd kəndi. Başqa adı İnasdır
Dehgedeyi-Şikiabad kəndi. Gödək Buzavənd kəndi yaxınılığında
Ağcaqışlaq kəndi. Başqa adı Xatunkənddir
Aşağı Qurbağalı kəndi
Yuxarı Qurbağalı kəndi
Uzunabdallı kəndi
Ernos kəndi və Avanlıbulaq məzrəsi
Şurlütqoca kəndi
Qalacıq kəndi
Qafavus kəndi
Onbinək kəndi
Ahşəvik kəndi
Mənkus kəndi
Yuxarı Abdallar kəndi
Xudabənd kəndi
Kəricli kəndi
Çobanqışlaq kəndi
Kiçik Məsimli kəndi. Novruzlu kəndi yaxınlığında
Ciranus kəndi
Zarvancıq kəndi
Molla Qulad kəndi. Başqa adı Həmzəkənddir

İRƏVAN XANLIĞININ RUSİYA TƏRƏFİNDƏN İŞĞALINDAN SONRA ZƏNGİBASAR, GƏRNİBASAR VƏ QIRXBULAQ MAHALLARINDA QEYDƏ ALINMIŞ KƏNDLƏRİN SİYAHISI

(1831-ci ilə olan məlumat – İ.Şopenə görə)

DAĞIDILMIŞ KƏNDLƏR

Zəngibasar mahalı üzrə

Həsənağa
Sinnik
Qaracalar
Ozanlar
Dərcan
Noragöğ
Cəfərabad

Gərnibasar mahalı üzrə

Məsimli
Taytan
Zöhrablı
Kürdkəndi
Şəfiabad
Qırx Buzavand
Başgərni
Eyranıs-uliya
Burduk
Gerqaç
Qaqavus
Eyranıs-sufla
Kərpiçili
Abdallar
Qurbaqala-uliya
Qurbaqala-sufla
Artuz
Sultantəpə
Qarahacılı
Xıdırlı
Əliqızıl

Bulaqbaşı
İmamverdi qalası

Qırxbulaq mahalı üzrə

Küzəcik
İynədüz
Güllücə
Qaraceyran
Təcirabak
Bəzəkli
Qaraqala
Çayqaytara və ya Gedərgöl
Ərzap
Norinus
Kitikən və ya Kətiqut
Quyulu
Qızqala
Tezxarab
Babacur
Damagirməz
Dələkli
Kənkən
Göykilisə
Yaycı
Qızılqala
Çobangərəkməz
Azaklar
Əxikənd və ya Muradtəpə
Ərzini

Sərdarabad mahalı üzrə

Rəşbəri-Cəfər xan
Rəhimabad və ya Molla Bədəl və ya Səfiabad

YAŞAYIŞ OLAN KƏNDLƏR

Zəngibasar mahalı üzrə

Bayat Şinqovit
Çarbax

Şinqovit
Noraqovit
Beybutabad
Uluxanlı
Aşağı Necli
Yuxarı Necli
Hacı Eliyas
Qalalı
Ağcaqışlaq
Arbat
Haçaparax
Göygünbəd
Xaraba Sarvanlar
Şollu Dəmirçi
Qaraqışlaq
Donquzgən
Sarvanlar-uliya
Reyhanlı
Həbilkəndi
Seyidkəndi
Sarıcalar
Mehmandar Şollu

Gərnibasar mahalı üzrə

Ağhəmzəli
Cəbəçili
Qaratəpə
Qaradağlı
Xaratlı
Boqamlı
İmamşahlı
Qaraqoyunlu
Qoylasar-uliya
Toxanşahlı
Şeyxzadəli
Tamamlı
Qarahəmzəli
Çikdamlı
Başınalı
Oğurbəyli

Çinəxanlı
Böyük Dəlilər
Kiçik Dəlilər
Novruzlu
Qəmərli
Darekalı
Yuva
Məsimli
Bəycivazlı
Axund Buzavand
Artaşat
Qurbanqulu və ya Topraxqala
Təpəbaşı
Dvin
Ayazlı
Qulaməli Buzavənd
Doqquz
Yamancalı
Mehrablı
Ağcaqışlağı
Cənnətli
Ağbaş
İpəkli
Qoylasar-sufla
Arpava
Koxt

Qırxbulaq mahalı üzrə

Oxçaberd
Məngüs
Cüvriş
Kamal
Tutiya
Zaar
Çatqran
Gəmris
Ağazor
Başkənd
Şahab
Ərəmus

Dzak
Ərinc
Avan
Çalmakçı (ermənicə Norki)
Kənəkir
Kitran
Pütqni
Məggübb
İllər
Yelqovan

İ.Şopendə (1832) İrəvan xanlığı ərazisində siyahıya alınmış, sonralar Zəngibasar, Qəmərli və Kotayk rayonları ərazisində məskunlaşmış köçəri müsəlman tayfaları

1. **Böyük Çobankərə.** 146 ailədə 951 nəfər (519 kişi, 432 qadın)
2. **Saraşlı.** 90 ailədə 541 nəfər (289 kişi, 252 qadın)
3. **Dəmirçili.** 29 ailədə 220 nəfər (118 kişi, 102 qadın)
4. **Qafarlı.** 98 ailədə 652 nəfər (333 kişi, 319 qadın)
5. **Cəfərli.** 16 ailədə 82 nəfər (43 kişi, 39 qadın)
6. **Gödəkli.** 24 ailədə 158 nəfər (81 kişi, 77 qadın)

1918-Cİ İLİN MARTINADƏK İRƏVAN QUBERNİYASINDA ERMƏNİ HÜCUMLARI NƏTİCƏSİNDƏ DAĞIDILMIŞ VƏ BOŞALDILMIŞ AZƏRBAYCANLI YAŞAYIŞ MƏNTƏQƏLƏRİNİN SİYAHISI

İRƏVAN QƏZASI ÜZRƏ

I milis sahəsi

1. Damagirməz	70 təsərrüfatda	387 nəfər
2. Zar	170 "———"	706 "———"
3. Kamal	100 "———"	625 "———"
4. Küzəcik	24 "———"	119 "———"
5. Məngüs	90 "———"	426 "———"
6. Oxçaberd	115 "———"	493 "———"
7. Tutiya	40 "———"	208 "———"
8. Kərpicli	32 "———"	188 "———"
9. Tatar Goxtu	20 "———"	79 "———"

II milis sahəsi

10. Ağhəmzəli	143 "———"	843 "———"
11. Cəbəçili	63 "———"	355 "———"
12. Xarratlı	62 "———"	496 "———"
13. Uluxanlı	500 "———"	3173 "———"
14. Qaradağlı	62 "———"	496 "———"
15. Sarıcalar	64 "———"	638 "———"
16. Reyhanlı	56 "———"	442 "———"
17. Həbilkəndi	34 "———"	256 "———"

III milis sahəsi

18. Sabunçu	35 "———"	202 "———"
19. Qəmərli	151 "———"	870 "———"
20. Torpaqqala	56 "———"	415 "———"
21. Qaraqoyunlu	67 "———"	432 "———"
22. Düyün	92 "———"	432 "———"
23. Buzavand	28 "———"	96 "———"
24. Qarahəmzəli	160 "———"	815 "———"
25. Alpava	28 "———"	206 "———"

26. Doqquz	36 "————"	210 "————"
27. İpəkli	37 "————"	185 "————"
28. Ağbaş	19 "————"	132 "————"
29. Novruzlu	16 "————"	231 "————"
30. Yamancalı	107 "————"	763 "————"

EÇMİƏDZİN QƏZASI ÜZRƏ

I milis sahəsi

1. Çobankərə	388 təsərrüfatda	2.417 nəfər

II milis sahəsi üzrə

2. Rəncbər	66 təsərrüfatda	226 nəfər

İRƏVAN QUBERNİYASI ÜZRƏ

CƏMİ:	**198 kənddə**	**15.155 təsərrüfatda**	**100.626 nəfər**

1948-1953-CÜ İLLƏRDƏ ZƏNGİBASAR, GƏRNİBASAR VƏ QIRXBULAQ MAHALLARI ƏRAZİSİNDƏN DEPORTASİYA OLUNMUŞ AZƏRBAYCANLI KƏNDLƏRİ VƏ ONLARIN SONRAKI TALEYİ

ZƏNGİBASAR RAYONU ÜZRƏ

Qulucan – ləğv olunub
Sarıcalar – ləğv olunub
Sarvanlar – camaatı geri qayıdıb
Mehmandar – əsasən ermənileşdirilib
Reyhanlı – ləğv olunub
Həbilkənd – camaatı qismən geri qayıdıb
Seyidkənd – ləğv olunub
Ağcaqışlaq – ermənileşdirilib
Rəhimabad – camaatı qismən geri qayıdıb
Cəfərabad – ermənileşdirilib
Göygümbət – ermənileşdirilib
Həsənli – ləğv olunub
Arbat – ermənileşdirilib
Hacı Eylas – ermənileşdirilib
Şorlu – əsasən ermənileşdirilib
Uluxanlı – qismən köçürülüb
Xaraba Kolanı – ləğv olunub
Dəmirçi – qismən köçürülüb
Ağhəmzəli – ermənileşdirilib
Cəbəçili – ermənileşdirilib
Xarratlı – ermənileşdirilib
Yuxarı Çarbağ – ermənileşdirilib
Çobankərə – ləğv olunub
Rəncbər (Şorkənd) – qismən köçürülüb
Aşağı Necili – camaatı əsasən geri qayıdıb
Zəngilər – qismən köçürülüb

QƏMƏRLİ RAYONU ÜZRƏ

Məsimli – ermənileşdirilib
Cənnətli – ermənileşdirilib
Axund Buzavand – ermənileşdirilib
Doqquz – ermənileşdirilib

Torpaqqala – ermənilәşdirilib
Qəmərli – ermənilәşdirilib
Qaradağlı – ermənilәşdirilib
Qaraqoyunlu – xaraba qalıb
Yamancalı – әsasәn köçürülüb
Novruzlu – xaraba qalıb
Çinәxanlı – xaraba qalıb
Sabunçu – ermənilәşdirilib
Qarahәmzәli – ermənilәşdirilib
Darğalı – ermənilәşdirilib
Dәllәr – ermənilәşdirilib
Muğamlı – ermənilәşdirilib
Yuxarı Ağbaş – ermənilәşdirilib

ELLƏR RAYONU ÜZRƏ

Dәlläkli – ermənilәşdirilib
Qaraqala – ermənilәşdirilib
Quyulu – xaraba qalıb
Nurnus – ermənilәşdirilib
Goxt – ermənilәşdirilib
Kənkan – ermənilәşdirilib
Göykilsә – ermənilәşdirilib
Zar – ermənilәşdirilib
Ellər – ermənilәşdirilib
Məngüs – ermənilәşdirilib
Artiz – ermənilәşdirilib

1988-ci İLƏ QƏDƏR ZƏNGİBASAR, QƏMƏRLİ VƏ ELLƏR RAYONLARINDA MÖVCUD OLAN AZƏRBAYCANLI YAŞAYIŞ MƏNTƏQƏLƏRİ

ZƏNGİBASAR RAYONU ÜZRƏ

Xalis azərbaycanlı yaşayış məntəqələri

Haçaparaq
Qaraqışlaq
Dəmirçi
Sarvanlar
Rəncbər
Zəngilər
Həbilkənd (Kalinin qəsəbəsi)
Reyhanlı
Seyidkənd
Sarıcalar

Qarışıq yaşayış məntəqələri

Yuxarı Necili
Aşağı Necili
Rəhimabad
Mehmandar
Şorlu
Arbat
Uluxanlı
Qulucan

QƏMƏRLİ RAYONU ÜZRƏ

Qarışıq yaşayış məntəqələri

Qəmərli
Yamancalı
Darğalı

ELLƏR RAYONU ÜZRƏ

Qarışıq yaşayış məntəqələri

Ellər
Göykilsə
Nurnus

1988-1990-cı İLLƏRDƏ ZƏNGİBASAR RAYONUNDA ERMƏNİLƏR TƏRƏFİNDƏN ÖLDÜRÜLMÜŞ AZƏRBAYCANLILARIN SİYAHISI

1. **Quliyev Qulam Məsim oğlu,** 1929-cu il təvəllüd, **A.Necili kəndi,** 1988-ci ildə bıçaqla vurulub öldürülüb.

2. **Əliyev Məhərrəm Əli oğlu, A.Necili kəndi,** möhkəm döyülüb, ağır bədən xəsarətləri nəticəsində bir neçə ay sonra – 1989-cu ildə ölüb.

3. **Nəcəfov Vəli,** 1920-ci il təvəllüd, **Haçaparaq kəndi,** 1988-ci ildə işgəncə ilə öldürülüb.

4. **Tağıyev Müşfiq Tağı oğlu,** 1955-ci il təvəllüd, **Qaraqışlaq kəndi,** 1988-ci ildə işgəncə ilə öldürülüb.

5. **Cəfərov Eldar Allahyar oğlu,** 1955-ci il təvəllüd, **Mehmandar kəndi,** 1988-ci ildə qəzaya salıb öldürüblər.

6. **Cəfərov Heydərəli Həsən oğlu,** 1953-cü il təvəllüd, **Mehmandar kəndi,** 1988-ci ildə qəzaya salıb öldürüblər.

7. **Cəfərova Səmurə Heydərəli qızı,** 1978-ci il təvəllüd, **Mehmandar kəndi,** 1988-ci ildə qəzaya salıb öldürüblər.

8. **Cəfərova Ruqiyyə Heydərəli qızı,** 1976-cı il təvəllüd, **Mehmandar kəndi,** 1988-ci ildə qəzaya salıb öldürüblər.

9. **Nağıyev Bağır Qara oğlu,** 1932-ci il təvəllüd, **Rəncbər kəndi,** 1988-ci ildə işgəncə ilə öldürülüb.

10. **Rüstəmov Əli Rəhim oğlu,** 1949-cu il təvəllüd, **Rəncbər kəndi,** möhkəm döyülüb, ağır bədən xəsarətləri nəticəsində bir neçə ay sonra – 1989-cu ildə ölüb.

11. **Cəfərov Yasin Mütəllim oğlu,** 1935-ci təvəllüd, **Rəncbər kəndi,** möhkəm döyülüb, ağır bədən xəsarətləri nəticəsində bir neçə ay sonra – 1989-cu ildə ölüb.

12. **Əzizov Qurban Tahir oğlu,** 1950-ci il təvəllüd, **Rəncbər kəndi,** 1988-ci il hadisələri ağır bədən xəsarəti almış, bir neçə ay sonra – 1989-cu ildə ölüb.

13. **Əliyeva Alma Oruc qızı,** 1932-ci il təvəllüd, **Sarıcalar kəndi,** ağır bədən xəsarəti nəticəsində bir neçə ay sonra – 1989-cu ildə ölüb.

14. **Abbasov Bəxtiyar Məhəmməd oğlu,** 1958-ci il təvəllüd, **Sarvanlar kəndi,** 1988-ci ildə maşınla vurulub öldürülüb.

15. **Əliyev Abbas Mürsəl oğlu,** 1930-cu il təvəllüd, **Sarvanlar kəndi,** 1988-ci ildə işgəncə ilə öldürülüb.

16. **Cəfərova Səfa Novruzəli qızı,** 1982-ci il təvəllüd, **Uluxanlı qəs.,** 1988-ci ildə işgəncə ilə öldürülüb.

17. **Qurbanov Qurbanəli Əbdülhüseyn oğlu,** 1934-cı il təvəllüd, **Uluxanlı qəs.,** 1988-ci ildə qəzaya salıb öldürüblər.

18. **Qurbanov Abbas Əbdülhüseyn oğlu,** 1946-cü il təvəllüd, **Uluxanlı qəs.,** 1988-ci ildə qəzaya salıb öldürüblər.

19. **Mehdiyev Sabir Qurbanəli oğlu,** 1932-ci il təvəllüd, **Y.Necili kəndi,** 1988-ci ildə işgəncə ilə öldürülüb.

20. **Quliyev Məhərrəm Adoş oğlu,** 1960-cı il təvəllüd, **Zəngilər kəndi,** 1988-ci ildə işgəncə ilə öldürülüb.

21. **Hacıyeva Xavər Həsən qızı,** 1927-ci il təvəllüd, **Zəngilər kəndi,** 1988-ci ildə dəhşətli sarsıntı keçirmiş, Azərbaycana gəldikdən sonra 1989-cu ildə intihar etmişdir.

ZƏNGİBASAR RAYONUNDAN QARABAĞ MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

1. Əsgər Fərman oğlu Cəfərov (1968, A.Necili, – 1994, Füzuli)
2. Ayaz Tağı oğlu Məhərrəmov (1975, A.Necili – 1994, Füzuli)
3. Nəsrəddin Hüseyn oğlu Quliyev (1953, A.Necili – 1994, Füzuli)
4. Əli Rza oğlu Dövrüşov (1954, Dəmirçi – ....., ...)
5. Vidadi Eyni oğlu Kərimov (1970, Dəmirçi – 1993, Füzuli)
6. Sərdar Vəli oğlu Əhmədov (1968, Haçaparaq – 1992, Ağdam)
7. Səfər Əhəd oğlu Nəcəfov (1970, Haçaparaq – 1992, Ağdərə)
8. Fazil Faiq oğlu Quliyev (1973, Haçaparaq – 1994, Murovdağ)
9. Daşqın Furman oğlu Səfərov (1973, Haçaparaq – 1993, Tovuz)
10. Vəzir Agid oğlu Nadirov (1969, Həbilkənd – 1994, Füzuli)
11. Ramin Təvəkkül oğlu Məmmədov (1975, Qaraqışlaq – 1994, Kəlbəcər)
12. Xanməmməd Qəşəm oğlu İbrahimov (1974, Qaraqışlaq – 1992, Ağdərə)
13. Həbib Fərhad oğlu Əliyev (1972, Qaraqışlaq – 1992, Ağdərə)
14. Natiq Nadir oğlu Məmmədov (1973, Qaraqışlaq – 1994, Füzuli).
15. Nəsimi Əbülfəz oğlu Süleymanov (1974, Qaraqışlaq – 1993, Ağdərə)
16. Rüfət Məhərrəm oğlu Ərəbov (1975, Qaraqışlaq – 1994, Murov)
17. Elman Məhəmməd oğlu İsmayılov (1972, Qaraqışlaq – 1992, Tovuz)
18. Ənvər Qənbər oğlu Hüseynov (1966, Qaraqışlaq – 1992, Şuşa)
19. Xanlar Əli oğlu Ələkbərov (1959, Rəncbər – 1992, Laçın)
20. Eldar Abdulla oğlu Babayev (1962, Rəncbər – 1991, Goranboy)
21. Azər İslam oğlu Həsənov (1967, Rəncbər – 1993, Füzuli)
22. Yaqub Nizam oğlu Əliyev (1970, Rəncbər – 1994, Beyləqan)
23. Loğman Sabir oğlu Tarıverdiyev (1969, Sarvanlar – 1992, Füzuli)
24. Müşviq Xəlil oğlu Qəhrəmanov (1972, Sarvanlar – 1994, Füzuli)
25. Valeh Ələsgər oğlu Ələkbərov (1966, Sarvanlar – 1994, Füzuli)
26. Koroğlu İsmayıl oğlu Rəhimov (1953, Sarıcalar – 1992, Ağdərə), (**Milli Qəhrəman**)
27. Elxan Sadıq oğlu Həsənov (1960, Sarıcalar – 1994, Füzuli)
28. Həmid Həmid oğlu Məmmədov (1959, Sarıcalar – 1992, Ağdərə)
29. Müşviq Cabbar oğlu İbrahimov (1968, Sarıcalar-Beyləqan – 1994, Ağdərə)
30. İlqar Məhəmməd oğlu Nəsirov (1973, Sarıcalar-Sabirabad –

1992, Füzuli)

31. Əli Vahid oğlu Əliyev (1970, Uluxanlı – 1992, Ağdam)

32. Nizami Zeynalabdin oğlu İsmayılov (1964, Uluxanlı, – 1994, Füzuli)

33. Nazim Abbas oğlu Babayev (...., Uluxanlı – 1995, Bakı), **(Milli Qəhrəman)**

34. Qəmbər Teymur oğlu Quliyev (1975, Uluxanlı-Salyan – 1994, Tərtər)

35. Əbülfət Şəmil oğlu Əliyev (1975, Uluxanlı – 1992, Tərtər)

36. Səyavuş Sabir oğlu Qurbanov (..., Uluxanlı-Salyan – 1993, Goranboy)

37. Firuz Hidayət oğlu Qəmbərov (..., Uluxanlı-Salyan – 1994, Ağdam)

38. Əlağa Kamo oğlu Nəcəfov (1955, Uluxanlı-Salyan – 1993, Ağdam)

39. Namiq Əsəd oğlu Bayramov (..., Uluxanlı-Salyan – 1993, Ağdam)

40. Maqsud Hətəm oğlu İsmayılov (..., Uluxanlı-Salyan – ..., Qarabağ)

41. Tofiq Səfər oğlu Həsənov (..., Uluxanlı-Salyan – 1993, Qarabağ)

42. Şahəddin Qara oğlu Məmmədov (1955, Uluxanlı – 1992, Qazax)

43. Mirəziz Miriş oğlu Kərimov (1964, Y.Necili – 1993, Ağdərə)

44. Sara Səfər qızı Hüseynova (1966, Y.Necili – 1992, Xocalı)

45. Natəvan Pənah qızı Hüseynova (1985, Y.Necili – 1992, Xocalı)

46. Əli Səfər oğlu Hüseynov (1955, Y.Necili – 1993, Ağdam)

47. Nemət Rəcəb oğlu Quliyev (1965, Y.Necili – 1992, Ağdərə)

48. Arif Əli oğlu Qəmbərov (1954, Y.Necili – 1992, Ağdərə)

49. Bəxtiyar Nadir oğlu Əliyev (1965, Y.Necili – 1993, Goranboy)

50. Altay Nəriman oğlu Məmmədov (1964, Zəngilər – 1993, Ağdərə)

51. Eldar Xəlil oğlu Xəlilov (1975, Zəngilər – 1995, Bakı), **(Milli Qəhrəman)**

52. Ələkbər Camal oğlu Rəsulov (1974, Zəngilər – 1993, Füzuli)

53. Murad Rəşid oğlu

54. Vahid Zakir oğlu Məmmədov (1965, Zəngibasar – 1994, Füzuli)

SOVET DÖVRÜNDƏ (1920-1991-Cİ İLLƏRDƏ) ZƏNGİBASAR, GƏRNİBASAR VƏ QIRXBULAQ MAHALLARINDA ADLARI DƏYİŞDİRİLMİŞ YAŞAYIŞ MƏNTƏQƏLƏRİ

ZƏNGİBASAR RAYONU ÜZRƏ

Əvvəlki adı	Yeni adı	Dəyişdirildiyi tarix
Bulaqlı	Həbilkənd	----------
Uliya Sarvanlar	Sarvanlar	----------
Tolk	Verin Craşen	----------
Böyük Şorlu Dəmirçi	Şorlu	----------
Kiçik Şorlu Dəmirçi	Dəmirçi	03.01.1935
Şorlu Mehmandar	Mehmandar.	03.01.1935
Donuzyeyən	Zəngilər	03.01.1935
Haçaparaq	Zəhmət	03.01.1935
Hacı Eylas	Eylas	----------
Eylas (Hacı Eylas)	İpəkli	----------
Uluxanlı	Zəngibasar	31.12.1937
Xarberd	Nor Qyank	04.07.1938
İpəkli (Eylas)	Masis svx.qəs.	04.04.1946
Cəfərabad	Arqavand	04.04.1946
Kolara	Qukasavan	01.12.1949
Göygümbət	Geğanist	01.12.1949
Zəngibasar (Uluxanlı)	Masis	31.07.1950
Həbilkənd (Bulaqlı)	Kalinin qəs.	1955
Cəbəçili	Crahovit	27.02.1960
Nor Qyank (Xarberd)	Nor Xarberd	31.07.1965
Ağhəmzəli	Marmaraşen	25.05.1967
Təzəkənd	Təzəgyuğ	----------
Təzəgyuğ (Təzəkənd)	Ayntap	10.09.1970
Ağcaqışlaq	Getapiya	25.01.1978
Aşağı Necili	Sayat Nova	25.01.1978
Qaraqışlaq	Dostluq	25.01.1978
Yengicə	Norabats	25.01.1978
Yuxarı Necili	Nizami	25.01.1978
Mehmandar	Hovtaşat	25.01.1978
Masis svx. qəs.	Darakert	25.01.1978
Xarratlı	Arevabuyr	25.01.1978
Şorlu (Böyük Şorlu Dəmirçi)	Daştavan	25.01.1978

Zəngilər (Donuzyeyən)	Zorak	19.04.1991
Sarvanlar (Uliya Sarvanlar)	Sis	19.04.1991
Xaraba Kolanı	Kolanlı	----------
Kalinin qəs. (Həbil-kənd)	Noramarq	19.04.1991
Dostluq (Qaraqışlaq)	Ayanist	19.04.1991
Dəmirçi (Kiçik Şorlu Dəmirçi)	Darbnik	19.04.1991
Zəhmət (Haçaparaq)	Xaçpar	19.04.1991

QƏMƏRLİ RAYONU ÜZRƏ

Dəlilər	Dəllər	03.01.1935
Aysoru Düyünü	Verin Dvin	03.01.1935
İmanşalı	Mxçyan	03.01.1935
Ayaslı	Haygestan	----------
Axund Buzavand	Bzovan	----------
Bzovan(Axund Buzavand)	Bertik	25.01.1935
Aşağı Düyün	Erməni Dvini	----------
Yuxarı Kürdkənd	Noraşen	----------
Qarahəmzəli	Burastan	----------
Tamamlı	Burastan	----------
Dördüncü kənd	Kaxtsraşen	----------
Cənnətli	Zovaşen	02.03.1940
Aşağı Ağbaş	Arevşat	20.08.1945
Ərdəşər	Artaşat	----------
Artaşat (Ərdəşər)	Verin Artaşat	20.08.1945
Bəcəyəzli	Vostan	20.08.1945
Bitlicə	Bartsraşen	20.08.1945
Gödəkli	Mrqavan	20.08.1945
Doqquz	Kanaçut	20.08.1945
Zöhrablı	Mrqanuş	20.08.1945
Qəmərli	Artaşat	04.09.1945
Qəmərli rayonu	Artaşat rayonu	04.09.1945
Yuxarı Quylasar	Bambakavan	20.08.1945
Quylasar	Aşağı Quylasar	----------
Arpavar	Lusakert	20.08.1945
Lusakert (Arpavar)	Nşavan	21.10.1945
Mehrablı	Vardaşen	20.08.1945
Muğanlı	Muğan	20.08.1945
Toxanşalı	Masis	20.08.1945
Qaradağlı	Tsaxkaşen	20.08.1945

Çigdamlı	Azatavan	20.08.1945
Ağcaqışlaq	Getaşen	21.06.1948
Yuxarı Ağbaş	Abovyan	01.12.1949
Darğalı	Anastasavan	01.12.1949
Başnalı	Bağramyan	01.12.1949
Məsimli	Haygepat	01.12.1949
Torpaqqala	Xnaberd	01.12.1949
Ciranus	Nor Craşen	----------
Aşağı Quylasar (Quylasar)	Dmitrov	01.12.1949
Erməni Dvini (Aşağı Düyün)	Dvin	19.04.1950
Nor Craşen (Ciranus)	Craşen	19.04.1950
Yuva	Şaumyan	19.04.1950
Anastasavan (Darğalı)	Haygezard	30.12.1957
Yamancalı	Dextsut	25.05.1967
Getaşen (Ağcaqışlaq)	Getazat	25.05.1967
Tsaxkaşen (Qaradağlı)	Mrqavet	21.10.1967
Oğurbəyli	Berkanuş	21.10.1967
Zovaşen (Cənnətli)	Lancazat	21.10.1967
Bambakavan (Yuxarı Quylasar)	Byuravan	25.01.1978
Sabunçu	Araksavan	25.01.1978
Muğan (Muğanlı)	Hovtaşen	25.01.1978

ELLƏR RAYONU ÜZRƏ

Oxçaberd	Voxçaberd	1935
Baş Gərni	Gərni	03.01.1935
Kərpicli	Keğadir	03.01.1935
Cadqıran	Razdan	03.01.1935
Civriş	Crvej	----------
Dəvəxaraba	Avad	03.01.1935
Göykilsə	Kaputan	03.01.1935
Yelqovan	Kotayk	03.01.1935
Şahab	Mayakovski	11.04.1940
Başkənd	Başgyuğ	----------
Başgyuğ (Başkənd)	Akunk	04.04.1940
Təzəkənd	Təzəgyuğ	----------
Təzəgyuğ (Təzəkənd)	Norgyuğ	04.04.1946
Abdallar	Atsavan	04.04.1946
Artiz	Gehard	04.04.1946
Təcrəbax	Dzoraxpyur	04.04.1946

Ağazor (Ağaçurum)	Katnaxpyur	04.04.1946
Ketran	Getameç	21.06.1948
Nikolayevka	Craber	21.06.1948
Dəlləkli	Zovaşen	21.06.1948
Tutiya	Saranist	21.06.1948
Qaraqala	Sevaberd	21.06.1948
Ellər	Abovyan	12.10.1961
Kotayk rayonu	Abovyan rayonu	12.10.1961
Muradtəpə	Kənəkeravaṇ	15.08.1964
Razdan (Cadqıran)	Gehaşen	21.10.1967
Muqub	Balahovit	26.12.1968
Güllücə	Zovk	25.01.1978
Qəmrəz	Kamaris	25.01.1978
Kənkən	Hatis	25.01.1978
Üzümçülük sovxozu qəzəbəsi	Verin Ptxni	19.04.1991

ZƏNGİBASAR, GƏRNİBASAR VƏ QIRXBULAQ MAHALLARININ TOPONİM VƏ ETNONİMLƏRİ

DAĞ, YAYLAQ, DƏRƏ, QAYA, TƏPƏ, YARĞAN, AŞIRIM, MAĞARA VƏ S. ADLARI

A

Abbasdərə
Ağbulaqyurd
Ağdağ
Ağmanqan (Gökdağ)
Ağyoxuş
Allahverənli yurdu
Altuntaxtyurd

B

Bayburt dağı
Bəyin yurdu

C

Cəfər ağa yurdu
Cənnətdərə

Ç

Çatmabulaqyurd
Çınqıllıyurd
Çuxuryurd

D

Daşlıyurd
Dərəyurd
Dəvəqayası
Durxanın yurdu
Düzyurd
Dübəkliyurd

Ə

Əjdaha dağı
Əyricə
Əyripapaqlar yurdu
Əvəlikyurd

G

Geğart dərəsi
Gölyurd
Gülalılar yurdu

H

Hadis dağı
Hacı Kərimoğlu yurdu
Hacı Cəfər yurdu
Hacı Cabbar yurdu
HacıVəlilər yurdu
Hajəlbəy yurdu
Hənifəoğlu yurdu

X

Xalfağlı oğlu yurdu

İ

İsmayıl oğlu yurdu

K

Kəlba Mahmud yurdu

Kotan dağı

Q

Qaqavuz dağı
Qalaxlıyurd
Qaraçınqıllıyurd
Qaratəpə dağı
Qazanyurd
Qəbiristanlıqyurd
Qırmızıtəpə
Qızıldağ
Qızıldağyurd
Qızılziyarət
Qondərəyurd
Qoşayurd

L

Lilparbulaq yurdu

M

Mahmud Ağalı yurdu
Məşədi Novruzun yurdu
Mursağıllar yurdu

N

Naltəpə

O

Oyuxlu yaylağı

Oyuxluyurd

P

Paşa Bəbiroğlu yurdu

R

Rəhim katdanın yurdu

S

Sənəmoğlu yurdu

Ş

Şahverdilər yurdu
Şərifoğlu yurdu

T

Taxçayurd
Təknəliyurd
Teymurun yurdu
Tikmədaşyurd
Təxti-Tiridat təpəsi
Tülkü dərəsi

Ü

Üçtəpə dağı
Üçtəpəyurd

Y

Yellicə dağı

Z

Zarınca dağı

MEŞƏ, DÜZƏNLİK, QIŞLAQ, BAĞ, OTLAQ VƏ BİÇƏNƏK ADLARI

A

Abasalı
Ağqoyun-ağıl
Abas-ağıl
Allahyar
Adalar
Anqutdu qobusu
Adıgözəl
Arxaltı
Ağanın yeri
Azamanlı dəyirmanı
Ağcaarx

B

Bağayağı
Biçənək
Bağçalar
Birincibilan
Bağırın yeri
Bozqurd çalası
Bəhramın bağı

C

Cənnət dərəsi
Cillər-ağıl
Cillər
Cillik

Ç

Çarxın qabağı
Çınqıllıq

D

Daşlı çölü
Daşlı qobu
Dəyirmanın dalı
Dərəbağ
Dəvə balası
Dəvə yatağı
Dəvəboynu
Dik yer
Doqquz bağı
Dolular
Dolunun başı
Düz biçənək
Düzdək

E

Eşşək olan
Eşşəkquduran

Ə

Əhməd qobusu
Əhmədağa bağı
Əriklik
Əşrəf bəyin dəyirmanı
Əzimin adası

G

Gərməliklər
Gərniçay biçənəyi
Gölayağı
Göyçəbəyli
Gülabdibi
Gülavdı
Güllüklü
Güzdək

H

Hacı Axundun bağı
Hacı Cəfər-ağıl
Hacı körpüsü
Hacı Rəsulun yeri
Hacıelləz qabağı
Hackərimlər
Haramının üstü
Həmzənin bağı
Həsən bəyin bağı
Həsənağanın qozluğu
Həsənbaba

X

Xaraba yer
Xatun arxı yeri

İ

İlğımlıq

K

Kanal arası
Keşiş bağı
Körəbulaq
Körpü altı

Kəhriz
Kərməmalıq
Korabulaq yeri
Köhnə Salmaq

Küçə biçənəyi
Küllük
Küllük meydanı

Q

Qancıq ölən
Qara şor
Qara şor qobusu
Qaraburq otlağı
Qaraqışlaqyanı
Qaragöllər
Qarağaclıq
Qaratəpə çölü
Qazma-ağıl
Qədimalı biçənəyi
Qəmbər biçənəyi
Qəmbəralı
Qır
Qırlar
Qırrıq
Qızqalası-ağıl
Qobu
Qobular
Qocabağır
Qorqud torpağı
Qoruq
Qoruqlar
Qorux yeri
Qulaməlinin qamışlığı
Qumlaq
Quş bazarı
Quş yeyən
Quzey-ağıl

M

Mehdixan
Mehdinin bağı
Məhəmmədxan bağı
Məmmədxan
Məmmədrza yeri
Məmmədvəlinin bağları
Mərmər
Məsimalı
Məşədi Abbas bağı
Məşədi Ələsgərin bağı
Məşədi Əlinin bağları
Mirzə Hüseynin yeri
Molla Vəlinin xarabalıqları
Münəvvərin qobusu

N

Nağı bəyin bağı
Novruz yeri

O

Orta yol
Otuz sentner
Ozanlar çölü

P

Palax
Porsuxlu

Ponqara
Pud yeri

R

Ramazanın bağı

S

Saatlı
Sarı
Sazlar
Savzik yeri
Sefilbənd
Selim hasarı
Siçanlı
Sona yerləri
Su çıxmaz
Su qatışan
Sutökülən

Ş

Şəmmədin tutu
Şər-ağıl
Şərdərə-ağıl
Şəpeyri
Şırran-ağıl
Şutur-ağıl
Şübḍidibi

T

Təhman
Tısbağaqıran
Tutluq
Tutmalıq
Tülkü təpəsi
Tülküdərəsi otlağı

U

Uluxanlı biçənəyi
Uluxanlı bucağı

Ü

Üçqulaq

Y

Yappa-ağıl
Yeddilər
Yengicənin altı
Yolarası

Z

Zəngikəsən
Zəngiqırağı
Zənginin yanı

GÖL, ÇAY, ARX, KANAL VƏ BULAQ ADLARI

A

Aboqayat arxı
Ağbulaq
Ağgöl
Anabulaq
Araxlı bulağı
Artızbulaq
Aydərə çayı

B

Bağırın bulağı
Bəzəkli çayı
Böyük (Şimali) Qarasu (Arqun) çayı
Buzlu bulaq

C

Ceyran bulağı
Cəbəçili çayı
Cəfərabad arxı

Ç

Çölməkçiarx

D

Dəlikdaş arxı
Dəlmə arxı
Dərəarx arxı
Dəyirman bulağı
Dəyirman çayı
Doqquzbulaq çayı
Dvin arxı

E

Erməni arxı

Ə

Ələkbər bulağı
Əlibulaq
Əmrahın bulağı
Ərəb arxı
Ərik bağçası bulağı
Ərzni bulaqları

F

Fərruğun bulağı

G

Gərni (Böyük Amor, Azad) çayı
Gərnigöz bulağı
Gilan kanalı
Güllücə çayı

Göygöl gölü

H

Hacıbulaq çayı
Haramı çayı
Her-her çayı
Həsənağanın bulağı
Həsənəvar arxı

X

Xan bulağı
Xədicə bulağı
Xədim gölü

İ

İncəsu bulaqları

K

Kəlba Usubun bulağı
Kəmris (Qamriz) çayı
Kənəkirarx
Kiçik (Cənubi) Qarasu çayı
Korabulaq bulağı
Küzəcik çayı

Q

Qambul arxı
Qambulaq bulağı
Qamris bulağı
Qaragöz bulağı
Qədir bulağı
Qıcılıq bulağı
Qırxbulaq çayı
Qızılbulaq
Qızılqala arxı
Qızlar bulağı
Qoşabulaq
Qum bulağı

M

Mamrin arxı
Məktəbin bulağı
Məmmədəlibulaq
Mərzənin ləki
Məsləhət bulağı
Məşədi Səttar bulağı
Mollarza bulağı
Muncuqlu arxı

N

Nazlıxan çayı
Norakovit arxı

O

Ocaqbulaq
Oxçaberd bulağı
Ortaarx

P

Putqni arxı

S

Sarısu
Sefi arxı
Səməndin bulağı
Soybulaq
Stalin (Artaşad) kanalı

Ş

Şahabarx
Şahbulaq
Şeyxzadəli çayı
Şərbət bulağı
Şibax arxı
Şirabad arxı
Şor-şor bulaq

T

Tacirabad çayı
Təzəkənd arxı

U

Uluxanlı arxı

Ü

Üçgözə gölü

V

Vəli qlavanın bulağı
Voskepat arxı

Y

Yeddilərin bulağı
Yelqovan arxı

Z

Zarbulaq çayı
Zəngi (Hurastan, Bjnisu) çayı
Zimird nov

YOL, KÜÇƏ, MƏHƏLLƏ, KÖRPÜ VƏ DƏYİRMAN ADLARI

A

Azamanlılar məhləsi
Ağcamanlı məhləsi
Ağəlilər məhləsi
Ayıbasqan körpüsü

B

Baltaməmmədlər məhləsi

C

Cinlər məhləsi

Ç

Çallıq bulağı

D

Daş körpü
Dəmir körpü
Dəyirmanın dalı

E

Elatlar məhləsi

Ə

Ərik məhləsi
Ərzənli körpüsü
Əyribucaq

H

Hacırəsullar məhləsi
Hactağılar məhləsi
Həbillər məhləsi
Həsənağanın dəyirmanı
Hüseynquluxan dəyirmanı

X

Xutor

K

Kəlba Əkbərin körpüsü
Kəmmədin məhləsi
Kürdlər məhləsi

Q

Qarasu körpüsü
Qarağaclılar məhləsi
Qaraqışlaq məhləsi
Qaramanlar məhləsi
Qədeşlər məhləsi
Qədimalılar məhləsi
Qırxbulaq məhləsi
Qoxulu dəyirman

M

Molla Məmmədhüseyn uşağının məhləsi

N

Nüxülülər məhləsi

O

Orta məhlə

Oruclular məhləsi

P

Poçt yolu

T

Taxta körpü

Y

Yay yolu

Z

Zamanlar məhləsi

QALA, MƏBƏD, ABİDƏ, OCAQ VƏ ZİYARƏTGAHLAR

A

Ağadədə ocağı

Ağbulaq ocağı

Azamanlılar məscidi

B

Baltaməmmədlilər məscidi

Böyük məscid

E

Elatlar məscidi

G

Gerqaç (Geğart, Əyrivəng, Yuxarıvəng) monastırı

Gedərgəl monastırı

Gərni qalası

Gərni məbədi

H

Haçaparaq məscidləri
Hacı Abbas məscidi
Hacı Mir Cəlil ağanın ocağı

K

Kiçik məscid
Küllükbaşı məscid

Q

Qara Pirim ocağı
Qara Seyid ocağı
Qaradolaq qəbiristanlığı
Qarağaclar məscidi
Qavuslar monastırı
Qədimalılar məscidi
Qız monastırı

M

Makenis (Makenas, Geqam, Qişatakaran) monastırı
Mir Abbas ağanın ocağı
Mir Bağır ağa ocağı
Mir Əli ağa ocağı
Mir Qəfər ağa ocağı

P

Putqni məbədi

S

Seyid ocağı
Soybulaq ocağı
Sub Sərkis kilsəsi

Ş

Şahın qalası
Şaqak (Şaquaq, Şaquaqax) monastırı

T

Torlu məscid

U

Uluxanlı hamamları

Z

Zakevəng monastırı

TAYFA VƏ NƏSİL ADLARI

A

Abbaslılar
Abolar
Abuzər uşağı (İbad uşağı)
Ağaoğlu Məhəmməd uşağı
Ağaməmmədli
Ağcamanlı
Ağinlər
Allahverənlər
Allahqulular
Alxanuşağı
Almәmməd uşağı
Araxlılar
Armudlu
Arzaqlı
Aslanuşağı
Aşuruşağı
Ayarlılar
Aynauşağı
Avdallılar (Abdullalılar)
Avıloğlu (Həviloğlu)
Azamanlılar

B

Baballı
Babışdılar
Bağırlar
Balabançılar uşağı
Baltaməmmədlər
Bədəllilər
Bədəloğlu
Böcüklər

C

Cahangirlilər
Cəfərbəylilər
Cənublular
Cinlər
Cirveyluşağı
Cırmalar
Cəfərlilər
Ciyər Mustafa uşağı
Cücəçilər

Ç

Çarbaxlı
Çobankərəlilər

D

Danaçılar
Dəli Nəbi uşağı
Dəlləklər
Dərəmli
Dərvişlər
Dəvəçilər
Doutlu
Dömlər
Dövrüş uşağı
Dudular

E

Elatlar
Elləzdilər
Ergovlular

Ə

Əcəbliuşağı
Əcəbuşağı
Əli Tağı oğlu uşağı
Əli uşağı
Əlipaşauşağı
Əlişoğlu
Əmirxanlılar
Əmrahlılar
Əsədlilər
Əsgəruşağı
Əşrafatlılar
Əyripapaqlar

F

Fərəməzoğlu

G

Göyçəbəyli
Göyhüseynli
Gülalıuşağı
Gülüsuşağı

H

Hacalıbəylilər
Hacıabbaslılar
Hacı Abuzər uşağı
Hacıəlilər
Hacı Həsənlər
Hacıibrahimlər
Hacıismayıllılar
Hacıkərimuşağı
Hacı Qasımlılar
Hacıqasımuşağı
Hacıqələndəroğlu
Hacıllar
Hacıməmədqulular
Hacırəsullar
Hacırüstəmuşağı
Hacırzalar
Hacısoylular
Hacı Səfər uşağı
Hacıyolluuşağı
Hacıvəlilər
Hactağılar
Haxıslılar
Haqverdilər
Heydəruşağı
Həbillər
Həmzəlilər
Hənifəlilər
Həsən uşağı
Hümmətlilər
Hürü uşağı
Hüseynquluuşağı

X

Xalauşağı
Xeyranoğlu

Xalfağılar
Xammməd uşağı
Xamolu
Xangəldi uşağı
Xanzoylar
Xarılar
Xəlifəli
Xəlillilər
Xiyolar
Xoylular
Xoyluuşağı
Xuranuşağı

İ

İlxıqoruqlular
İmanuşağı
İmamverdi
İsəli
İsmayıluşağı

K

Keçəçilər
Keçəl İsmayıllı
Kəlba Abdulla uşağı
Kəlba Cəfəruşağı
Kəlba Əhmədlilər
Kəlba Ələkbərlilər
Kəlba Əli uşağı
Kəlba Əşrəfuşağı
Kəlba Əziz uşağı
Kəlba Hüseyn uşağı
Kəlba Qasım uşağı
Kəlba Məhərrəm uşağı
Kəlba Oruc uşağı
Kəlba Zaruşağı
Kərimarxlılar
Kərimlər
Kərimuşağı
Kərtilər
Knyazlar
Köçərilər

Q

Qağoylar
Qamanlar
Qaracalar
Qaradağlı
Qaradolaqlar
Qaraeynəlilər
Qarağaclılar
Qaraqışlaq
Qaralələuşağı
Qaramanlar
Qarapaça
Qarabudaqlar
Qarallar (Qaralılar)
Qasım oğlanları
Qədeşlər
Qədimalılar
Qəmbərlilər
Qəmətilər
Qıllılar (Qulululular)
Qırdılar (Qurdlular)
Qırxlar
Qoca uşağı
Qonaqoğlu
Qondaralılar
Qorlu Alının uşaqları
Qulam uşaqları
Qulubəylilər
Qulular

Qatırçılar
Qaytaranuşağı
Qazaxlar
Qulüuşağı
Quytullular

L

Lalabığlar
Lələpapaqlar
Lölüklər
Lülpapaqlar

M

Maçanuşağı
Mahmudfatıuşağı
Mahmudlular
Mamoşlar
Mehdiqulu uşağı
Mehdililər
Mehdioğlu
Mehdiuşağı
Mədəddilər
Mədən oğlu
Mələklər
Məmişdiuşağı
Məmişlər
Məmmədəliuşağı
Məmmədrəsullar
Məmmədzamanlılar
Məşədi Cabbar uşağı
Məşədi Əhmədlilər
Məşədi Kərim uşağı
Məşədi Qəhrəman uşağı
Məşədi Qələndəruşağı
Məşədi Qurban uşağı
Məşədi Qulam uşağı
Məşədi İco uşağı
Məşədi Mövsüm uşağı
Məşədi Rəhim uşağı
Məşədican uşağı
Molla Bədəlli
Molla Cəfər uşağı
Molla Cəfərlilər
Molla Məmmədhüseyn uşağı
Molla Mətillər
Mollanovruzlar
Mollaoğlu Cabbar uşağı
Mövla uşağı
Muğanlılar
Muğumlu
Mursağıllar
Mustafa uşağı
Muşulu

N

Nədirqızlılar
Nəfiruşağı
Niyazlılar
Novruz uşağı
Nüxülülər

O

Oruclular
Ovşarlar

Ö

Örüşlülər

P

Pənahlılar
Pərkarlılar
Pösüklər

R

Rəhimli
Rzaqulu uşağı

S

Salman uşağı
Samoylular
Saraclılar
Sarılar
Satılmışlar
Seyidlər
Sənəmuşağı
Sultanlılar
Süleymanuşağı

Ş

Şabanlılar
Şahbazlılar
Şahverdilər
Şahvəlli
Şamqulu
Şəmeylər
Şərifuşağı
Şıxlar
Şorkəndli

T

Talınlılar
Tamamuşağı
Tanrıverdilər
Taytərəziuşağı
Toyçular

U

Usublular
Uyanlar

V

Vəli Qocalılar
Vəlli

Y

Yadigarlar
Yağıblılar
Yavıxlılar
Yağsatanuşağı
Yekənəbililər
Yəhya uşağı

Z

Zamanlar
Zamanlılar
Zeynallar
Zeyvəlilər
Zəriflər
Züypapaqlar

ZƏNGİBASAR, GƏRNİBASAR VƏ QIRXBULAQ FOLKLORUNDAN SEÇMƏLƏR

RƏVAYƏTLƏR

SEYİD OCAĞI

Deyilənə görə, Mirabbas ağanın ulu babaları olan Hacı Mir Əli və Alı qardaşları Cənubi Azərbaycanın Qaradağ mahalından Şorlu kəndinə təzəcə gəliblərmiş. Kənddə tək-tək şeytan fikirli adamlar onların seyid olmalarına şübhə ilə yanaşırmışlar. Bir dəfə də yaz vaxtı kəndin ağsaqqalları kənd məscidinin həyətində oturub söhbət edirmişlər. Bu zaman göydən bir durna qatarı keçirmiş. Hacı Alının seyidliyinə şəkk gətirənlərdən biri orada adamların arasında imiş. Üzünü Hacı Alıya tutub deyir ki, əgər sən doğrudan seyidsənsə, dua elə, o durnalardan biri sənin qucağına düşsün.

Kişi ayağa durub, üzünü qibləyə çevirir, əllərini göyə qaldıraraq dua edir. Az keçmədən durna qatarı oturanların başı üstündə dövrə vurur, durnaların başçısı qatardan ayrılıb aşağı enir və Hacı Alının qucağına düşür. Kişi əlini durnanın başına çəkib deyir: "Ey Allahın gözəl quşu, uç get!" Quş uçar-uçmaz orada olan adamlar Hacı Alının üstünə cumub, əbasını parça-parça edərək töhfə kimi paylaşırlar. O vaxtdan hamı onları əsl ocaq seyid kimi qəbul edir.

ÇOBANKƏRƏ

Bir dəfə uzaq bir kənddə dəvəçi ehtiyatsızlıq edib mayanın başından ağacla vurur. Qəzəblənmiş dəvə oğlanın üstünə cumur, oğlan qaçdıqca dəvə qovur. Axırda oğlanın ayağı sürüşüb yıxılır. Qızmış maya çatır, qarpanda oğlanın qulağını qoparır. Qan görmüş dəvənin hirsi soyuyur, amma oğlan kərəqulaq qalır, utandığından öz kəndlərinə qayıda bilmir. Arazqırağı düzənliyə gəlib, burada ev-eşik düzəldir, kənd salır. Kəndin adı qalır Çobankərə, yəni kərəqulaq (tayqulaq) çoban.

AĞADƏDƏ PİRİNDƏ

Məmməd adlı bir nəfər Bakıda təhsil alırmış. Bu adam Bakıda İçərişəhərdə Mir Möhsün ağa yaşayan evin qonşuluğunda qalırmış. Bir dəfə tətildən Bakıya qayıdanda ona nəzir pul verirlər ki, bunu Mir Möhsün ağanın ocağına çatdır. O isə cavanlığına salıb pulu xərcləyir.

Az sonra bu tələbə ağır xəstələnir, ayaqları və dili tutulur. Kənddə ata-anası xəbər tutur, tökülüb gəlirlər, gedirlər Mir Möhsün ağanın yanına ki, Ağa, uşaq bir qələtdi eləyib, keç bunun günahından. Mir Möhsün ağa deyir ki, onun əlacı məndə deyil, sizdə bir Ağadədə piri var, gedin ora, qoy Ağadədəni ziyarət eləsin. Valideynləri uşağı götürüb gətirirlər Zəngibasara Ağadədə pirinə. Uşağı salırlar pirə, bir saat sonra uşaq durub öz ayağı ilə çıxıb gedir, elə oradaca dili də açılır.

MÜXƏNNƏT TƏPƏSİ

Uluxanlı ilə İrəvan arasında Müxənnət təpəsi adlı bir təpə var. Deyilənə görə, Nadir şah İrəvanda olarkən həmin təpənin torpağını atların belində torbalarla daşıtdıraraq ucaltmış və öz ailəsinin çadırlarını həmin təpənin üstündə qurdurmuşdur.

Oğlunun gözlərini kor etdikdən sonra dərin peşimançılıq keçirən Nadir şah əsəbi vəziyyətində İrəvan xanlığı ərazisindən ona bir torba göz gətirilməsi barədə göstəriş verib, çadırına çəkilir.

İrəvanın başbilənləri yığılıb məsləhətləşirlər ki, nə etsinlər. Ulu xan çıxış yolunu Nadir şahı öldürməkdə görür və bu vəzifəni öz boynuna götürür.

Həmin gecə Nadir şahın anası yuxuda görür ki, şah qan gölündə üzür. Öz çadırından çıxaraq oğlunun çadırına gəlir və yuxusunu ona danışır. Nadir şah deyir ki, mənim ətrafımda bu qədər qoşun var ikən mənə kim yaxın düşə bilər. Anası öz çadırına qayıdır və bir az keçmiş qoşun çaxnaşmaya düşür ki, şahı öldürdülər.

Beləliklə, camaat o vaxtdan həmin təpəni Müxənnət təpəsi adlandırmağa başlayır.

DEYİMLƏR

PƏNAHIN İCLASINA DÖNÜB

Kolxoz quruculuğu dövründə Aşağı Necilidə bir Pənah varmış. Bunu komsomol katibi seçiblərmiş. Pənah çox iclasbaz imiş. Komsomolçuları gündə üç dəfə yığar, onu-bunu tənqid edib irad tutmağı sevərmiş.

"Pənahın iclasına dönüb" deyimi o vaxtdan yaranıb.

BELƏ ŞEYLƏR ƏZİM ƏMİNİN EYNİNƏ DEYİL VƏ YA ƏZİM ƏMİYƏ NOOLDU Kİ?!

Uluxanlıda bir Əzim kişi varmış. Bu bir gün xəstələnir. Həkim buna

bir ovuc kinə yazır ki, bunları iç, sağalacaqsan. Deyir, bunların hamısını içsəm, doğrudan sağalacam? Həkim də deyir "hə". Əzim əmi dərmanların hamısını birdən atır ağzına və udur. Həkim qışqır-bağır salır ki, vay öləcəksən. Əzim kişi deyir ki, belə şeylər Əzim əminin eyninə deyil. Doğrudan da, Əzim kişiyə heç nə olmur, o sağalır.

"Belə şeylər Əzim əminin eyninə deyil" deyimi oradan yaranır.

Qonşuda bir Adil Bəşirov varmış, bir gün o da xəstələnir, ona da həkim xeyli dərman yazır. Evə gəlib hamısını doldurur ağzına, bir stəkan su istəyir. Uşaqlar düşür üstünə ki, etmə, səni öldürər. Deyir, Əzim əmiyə nooldu ki, mənə də nə ola?! İçir və üç ay xəstəxanada yatır.

QALOŞ QALOŞDUR, İÇİNDƏKİ TİROŞ NƏDİR?

Dəmirçi kəndində Hacı Abbas adlı çox hörmətli, nüfuzlu bir kişi olub. Bu kişinin qardaşı oğlu Məşədi Qasım cavan yaşlarından ticarətlə məşğul imiş, tez-tez xarici ölkələrə – Hindistana, Rusiyaya və s. gedib-gəlirmiş. Xarkov şəhərində mağazaları varmış.

Məşədi Qasım kənddə müasir geyimi ilə də seçilirmiş. Hamı ayağına çarıq, qaloş geyəndə bu Məşədi Qasım Avropasayağı ayaqqabı geyər, ayaqqabıları palçığa batmasın deyə üstündən də də qaloş keçirərmiş. Bunun bu ədasını görən əmisi Hacı Abbas istehza ilə: "Qasım, qaloş qaloşdur, içindəki tiroş nədir?" – deyə soruşur.

Ağsaqqalın bu sözü tezliklə kənddə zərb-məsələ dönür.

"QUŞQUN TƏKLİFİ" VƏ YA "XALA XƏTRİN QALMASIN"

Buna "gecikmiş təklif" də demək olar. Adətən, qonaq çağırılan adam artıq çıxıb gedən, yola düşən zaman ona elə-belə, nəzakət xatirinə qonaq qalmaq təklif edilərdi: "Qalaydın, qonaq olaydın".

Buna "quşqun təklifi" və ya "xala xətrin qalmasın" deyərdilər.

DAŞINI ATMAQ

Keçmişdə bəzi ölkələrdə evlənmə mərasimində kəbinkəsmə evlənənlərin bir-birinə beş-altı çaydaşı vermələri, boşanma mərasimi isə boşananların həmin daşları çiyinlərindən arxaya atmaları ilə müşayiət olunardı. Sonralar daha geniş məna kəsb edən bu ifadə hər hansı bir adamla münasibətləri pozmaq, hər hansı bir işdən imtina etmək və s. mənalarda da işlənməyə başlanmışdır. Məsələn, "Mən filankəsin daşını atdım", "Mən bu işin daşını atdım və s".

İrəvan çuxurunda da bu deyim geniş yayılmışdı.

AŞIQ BAYRAM BAĞ SALMAQDA, URUS İRƏVANI ALMAQDA

Uluxanlıda bir Aşıq Bayram varmış. 1827-ci ildə rusların İrəvan qalasına hücumları bir-birini əvəz etdiyi vaxt Aşıq Bayram, heç nə olmayıbmış kimi, Uluxanlıda öz iş-gücündə – bağ-bostan becərməyində imiş. Lakin rus atlılarının dırnaqları altında az sonra bu bağdan əsər-əlamət qalmır. Bu deyim də elə o vaxt yaranır.

MARAQLI ƏHVALATLAR

DƏVƏSİ İTMİŞ KİŞİ

Günlərin birində yolla gedən bir nəfər başqa bir yolçudan soruşur ki, ona yolda dəvə rast gəlməyib ki?

Yolçu:

– Yolla bir dəvə gedib, – deyir. – Dəvənin sol gözü pis görüb, yükünün bir hissəsi bal, o biri hissəsi isə yağ olub. Dəvənin üstündə bir qadın varmış, o da boylu imiş.

Dəvə sahibi:

– Sən dəvəni öz gözlərinlə görübsənmi?

Yolçu:

– Yox, – deyir.

– Bəs sən bunları haradan bilirsən?

Yolçu deyir ki, dəvə yolboyu həmişə sağ tərəfindəki otdan otlayıb. Heç vaxt yolun sol tərəfində olan otdan yeməyib. Deməli, dəvənin sol gözü görmürmüş. Dəvənin yolda yatdığı yerin bir tərəfinə qarışqa, digər tərəfinə isə milçəklər toplanmışdı. Milçək olan tərəfə yağ, qarışqa olan tərəfə isə bal damcılanmışdı. Bundan bildim ki, dəvənin yükünün bir hissəsi yağ, o biri hissəsi isə bal imiş. Dəvəyə "xıx" deyib dizləri üstə yerə yatırıblar. Dəvənin üstündə oturmuş qadın dəvədən düşüb, yolun kənarında oturub. Qadın qalxanda sağ əlini yerə söykədikdən sonra oturduğu yerdən qalxa bilib. Deməli, el arasında deyildiyi kimi, qadının ayağı ağır (boylu) imiş.

Dəvə sahibi yolçuya öz razılığını bildirərək ondan ayrılıb.

DƏVƏ UŞAQDIR?

Eşşək, qoyun və dəvə yola düşmüş bir xorum yoncaya rast gəlirlər. Eşşək təklif edir ki, kim yaşca böyük olsa, həmin yoncanı o da yesin.

Qoyun:

– Dünyanın üzünü su alanda Nuhun gəmisinə minən qoyun mən idim, – deyir.

Eşşək anqıra-anqıra:

– Qoyun, sən nə danışırsan? – deyir. – Nuh anadan olanda mənim düz yeddicə yaşım varıydı.

Vəziyyəti belə görən dəvə başını aşağı uzadır, yoncanı yerdən götürüb yuxarı qaldırdıqdan sonra deyir:

– Sizin dediynizdən belə çıxır ki, dəvə uşaqdır?!

Beləliklə, dəvə mübahisəyə son qoyur.

DƏVƏNİN OVSARBAĞI

Dəvəçi ömrünün son günlərini hiss edəndə dəvəsini çağırıb deyir:

– Mən sənə həyatım boyu borcluyam. Sən mənə ailəmi dolandırmağa çox əmək sərf edibsən. Əgər səni yersiz incitmişəmsə, sənə qarşı ədalətsizlik etmişəmsə, məni bağışla.

Dəvə dilə gəlib deyir:

– Sənin mənə qarşı olan bütün günahlarından keçirəm. Ancaq məni bir dəfə elə təhqir edibsən ki, onu heç vaxt sənə bağışlamaram. O da çayı keçəndə ovsarbağımı eşşəyin quyruğuna bağlamağındır.

QAZ VƏ QIZIL

Biri özünü qazının yanına salıb qonşusunun haqsızlığından şikayət edir və işarə ilə qazını başa salır ki, qoltuğundakı qazı ona bəxşiş gətirib. Qaz sahibi sözünü qurtarhaqurtarda qonşusu özünü yetirir. O da qonşudan şikayətlənərək dilinin altındakı qızıl onluğu qazıya göstərir və işarə edir ki, ağzımdakı onluq qızıl sən qazınındır. Qaz sahibi qonşusundan şikayətlənib onu pisləyəndə qazı əsəbiləşərək deyir:

– Qaz kimi boğazını uzatma, kişinin oğlu ağzında qızıl kimi söz danışır.

GÖNÜ SUYA VERMƏ

Dabbağın bir şagirdi varıymış. Dabbaq gönü şagirdinə yumağa verəndə hər gün onu döyürmüş ki, "gönü suya vermə!". Şagirdin gönü yuduğu çay iti axırmış. Odur ki, şagird hər gün gönü yuyanda ehtiyatlı olur, göndən möhkəm yapışırmış.

Günlərin bir günü şagird gönü saxlaya bilmədiyindən dağ çayı gönü aparır. Şagird nə qədər əlləşirsə, gönü tuta bilmir.

Şagird dabbağın yanına gələ-gələ fikirləşir ki, işim fənadır. Əgər usta hər gün gönü yumağa aparanda "gönü suya vermə" deyə-deyə məni döyürdüsə, gönü suya verdikdən sonra lap dərimi soyacaq.

Bənizi qaçmış, dizləri əsən və əliboş gələn şagirdi görəndə dabbaq işi başa düşüb deyir:

– Mən səni hər gün döyürdüm ki, ehtiyatlı olasan, gönü bərk tutasan ki, su aparmaya. Gönü suya verəndən sonra daha neyləyək, canın sağ olsun.

ŞAHIN TƏNBƏLİ

Bir gün şah əmr edir ki, ölkəsində olan bütün tənbəlləri yığıb gətirsinlər onun hüzuruna. Bütün tənbəllər bir yerə yığıldıqdan sonra şah əmr edir ki, onları doldursunlar samanlığa və od vursunlar. Elə də edirlər. Samanlıq yanmağa başlayanda tənbəllər bir-bir çıxıb qaçırlar. Axıra qalmış iki tənbəldən biri "vay yandım, vay yandım!" deyə qışqırır. O biri tənbəl isə deyir ki, a gədə, mənim də əvəzimdən qışqır ki, yoldaşım da yandı!

Sonuncu iki nəfər oddan xilas olunduqdan sonra şah elan edir ki, özünün yanması haqqında haray salmağı belə başqasına tapşıran əsl tənbəldir. O gündən həmin tənbələ "Şahın tənbəli" adını verirlər.

DƏLİ SADIQ VƏ MÜZƏFƏRƏDDİN ŞAH

İran şahı Müzəfərəddin şah İrəvana gələndə Zəngibasar camaatı tamaşaya çıxır ki, Ağhəmzəlidən şahın dəstəsini görsünlər. Uluxanlılı Dəli Sadıq camaata deyir ki, indi mən elə edəcəyəm şahın özünü də görəcəksiniz. O, camaatdan ayrılıb yolun ortasında dayanır. Şahın mühafizə dəstəsi Dəli Sadığa yaxınlaşıb, onu uzaqlaşdırmaq istəyir.

Dəli Sadıq onlara deyir ki, camaatın bura yağılmaqda məqsədi budur ki, şah faytondan düşüb, bir neçə addım ayaqla yerisin, bəlkə şahın ayaqları torpaqlarımıza bərəkət verə.

Dəli Sadığın sözünü şaha çatdırırlar. Təklifdən xoşhal olan şah faytondan düşür və bir neçə addım yeridikdən sonra faytona minir.

Adamlar Dəli Sadığın fərasətinə heyran qalırlar.

ÖZÜNÜZƏ YEZİD TAPIN

Uluxanlılı Yaqub aşura günü şəbih çıxarılanda Yezid rolunu oynayırmış. Bir aşura günündə də ata minir ki, meydana girsin, at baş alıb özgə tərəfə götürülür. Yaqub ha çalışır ki, atın başını qaytarsın, mümkün olmur. Naəlac qalıb gedə-gedə çığırır:

– Camaat, özünüzə Yezid tapın, mən getdim.

ZƏNGİBASAR MÖVZUSUNDA ŞERLƏR

MOLLA ƏLİ ƏNDƏLİB QARACADAĞİ

GƏLİN

Sarbanlarda bir gözələ tuş oldum,
Bənzər bir alıcı şahbaza gəliṇ.
Qız-gəlin çox gördüm dünya üzündə,
Yetmədim sənintək mümtaza, gəlin.

Ay üzün görəndə döndüm hilalə,
Rəngim uçdu, düşdüm bir özgə halə.
Ayinətək seyqəl vurub cəmalə,
Gül dəstəsi kimi tər-tazə, gəlin!

Baş bağlayıb, sürmə çəkib gözə,
Ceyran balasıtək üz qoyub düzə.
Gər yol azıb, təşrif gətirsən bizə,
Başım üstə, gəlləm pişvaza, gəlin!

Ey məlahət kanı, həya mədəni,
Kərəmtək oduna yandırdın məni.
Ömür sərf eyləyib tapardım səni,
Allah bəla versin qanmaza, gəlin!

Taqi-əbruların – mehrabi-mənbər,
Bu gülşəni görən Kəbədən dönər.
Qiblə dərgahına hər şamü-səhər
Mələiklər gələr namaza, gəlin!

Yıxıbsan evimi qaşü-göz ilən,
Yandırıbsan kabab bağrım köz ilən.
Mədh eylərəm səni beş bənd söz ilən,
Sallam İrəvanda avaza, gəlin.

Ağlım qaçıb, səni görəndən bəri,
Səhralara düşüb, olmuşam dəli.
Payızın axırı, qışın əvvəli,
Gətdin Əndəlibi pərvaza, gəlin!

MƏMMƏDƏLİ XƏLİLOV

SARCALARIM
(ixtisarla)

İlk sevgimsən, ilk yarımsan,
Sən namusum, sən arımsan.
Nə yaxşı ki, sən varımsan,
Doğma kəndim Sarcalarım.

Gecələrin aya gəlməz,
Balıqların çaya gəlməz.
İgidlərin saya gəlməz,
Doğma kəndim Sarcalarım.

Çallıq suyum, Şah bulağım,
Ələyəzim, Ağrı dağım.
Yada düşür keçmiş çağım,
Doğma kəndim Sarcalarım.

Gözüm yolda, qulaq səsdə,
Ümidlərim dəstə-dəstə.
Sənsiz ürək düşüb xəstə,
Doğma kəndim Sarcalarım.

Getdi gözəl çağlarımız,
Tez qurudu bağlarımız,
Yetim qaldı dağlarımız,
Doğma kəndim Sarcalarım.

Qara suyum duruldumu?
Çallıq suyum qurudumu?!
Unutmuram heç yurdumu,
Doğma kəndim Sarcalarım.

Yaşayırdıq rahat, məsud,
Seçilərdi Molla Mahmud,
Bəslənərdi ona umud,
Doğma kəndim Sarcalarım.

"Cəlil və Zəhra" dastanı,
Mirseyibdi oxuyanı,
Lelo, Səməd, Pənah hanı,
Doğma kəndim Sarcalarım?!

Kənddə erkək, dişi vardı,
Nurməmməd tək kişi vardı,
Hər kəsin öz işi vardı,
Doğma kəndim Sarcalarım.

Oyundu hər kəsin işi,
Əli qədeş, Teymur kişi,
Nağıldı kəndin keçmişi,
Doğma kəndim Sarcalarım.

Uzun Qasım, yoxdur sayı,
Kişilikdə vardı payı,
Kəlbaşaban, hanı tayı,
Doğma kəndim Sarcalarım.

Aşıq Xəlil çalardı saz,
Oxuyardı avaz-avaz,
Qız-gəlinlər edərdi naz,
Doğma kəndim Sarcalarım.

İsmayıl müəllimin oğlu,
Milli qəhrəman Koroğlu,
İgidlərin çoxlu-çoxlu,
Doğma kəndim Sarcalarım.

Yaşıllıqdı solu-sağı,
"Məsləhət", "Çallıq" bulağı,
Qibləmizdi "Ağrı dağı",
Doğma kəndim Sarcalarım.

"Aşağı yer", "Adı gözəl",
"Abasəli", "Göy göl" əzəl,
"Dəlmə yeri" yaşıl xəzəl,
Doğma kəndim Sarcalarım.

Bir zolaqdı "Şəpeyri"
"Üç gözələr", "Sona yeri",
Qızlar vardı gözü iri,
Doğma kəndim Sarcalarım.

"Tısbağa qran", var "Qobular",
"Put yeri", bir də "Adalar",
Hara getdi o zamanlar,
Doğma kəndim Sarcalarım.

"Küçə" boyu söylənilən,
"Manasın qumu" deyilən,
Qarpız, yemişi yeyilən,
Doğma kəndim Sarcalarım.

Hey axardı "Gilan arxı",
Bəd gətirdi tale çarxı,
Sahibindir indi yağı
Doğma kəndim Sarcalarım.

Yetmiş iki ailə vardı,
Çox müxtəlif tayfalardı,
Bir tərəfin "Mamoşlardı",
Doğma kəndim Sarcalarım.

Sadə idi "Qatırçılar",
"Məməzamanlı", "Hacılılar",
"Saraşdılar", "Babışdılar",
Doğma kəndim Sarcalarım.

"İman uşağı" adı var,
Gəlmə idi "Cənublular",
"Qaröynəli", "Şəmeylilər",
Doğma kəndim Sarcalarım.

Bu dünyada bir kənd vardı...
Onun adı Sarcalardı...
Adamları işgüzardı...
Doğma kəndim Sarcalarım,
Sarcalarım! Sarcalarım!

22.08.2001.

NƏSİR YAQUBLU

SARCALAR
(İxtisarla)

Arazla Zənginin qovuşuğunda
Bir qədim tarixli kənddi Sarcalar.
Ağrı vadisində, Daşdı düzündə
Mənimçün şəkərdi, qənddi Sarcalar.

Bir yanı Ozanlar, biri Sefilbənd,
Bir yanı Sabınçı, biri Seyidkənd.
Göy-göl, Sona yeri, Üçgözə heyrət,
Qəlbimdə silinməz xətdi, Sarcalar.

Ətrafından axır Zəngi, Qarasu,
Əskik olmaz yaşılbaşı, sonası,
Buz bulağı, can dərmanı havası,
Hər yanı sularla bənddi Sarcalar.

Adıgözəl, Küçə, Qobular, Palax,
Məhsul toplanardı hey qalaq-qalaq.
Şəpeyri, Abasalı, o Çallıx bulaq,
Büsatı dağılmış dərddi Sarcalar.

Əzizdi mənimçün sonalı göllər,
Biçənək ətirli çiçəkli çöllər.
Hərəsi bir yerə səpilmiş ellər,
Həsrətdi, qüssədi indi Sarcalar...

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. **Abdullayev Ə. Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti,** B., Elm, 1998.
2. **Ağasıoğlu F. Azərbaycan dilinin morfonologiyası,** B., 1988.
3. **Ağasıoğlu F. İrəvan mahalının qədim tayfaları,** "Ağrıdağ" qəzeti, 22-28 aprel, 29 aprel-5 may, 6-12 may 1998-ci il, №6, №7, №8.
3. **Ağasıoğlu F. Azər xalqı,** Bakı, "Ağrıdağ", 2000.
4. **Акты собранные Кавказскою археографическою комиссиею. (АКАК), VII т,** Тифлис 1878; **VIII т,** Тифлис 1881; **IX т,** Тифлис, 1884; **X т.** Тифлис, 1885.
5. **Армянская ССР (административно-территориальное деления, на 1-ое мая 1971 года),** Ереван, 1971.
6. **Армяно-татарская смута на Кавказе, как один из фазисов армянского вопроса,** Тифлис, 1915.
7. **Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri (deportasiya, soyqırımı, qaçqınlıq),** B., 1998.
8. **Aslanov E. El-oba oyunu, xalq tamaşası,** B., 1984.
9. **Azərbaycan dilinin izahlı lüğəti, I-IV cildlər,** Bakı, 1966-1987.
10. **Azərbaycan dilinin Naxçıvan qrupunun dialekt və şivələri,** B., 1962.
11. **Azərbaycan mifoloji mətnləri,** B., Elm, 1988.
12. **Azərbaycan Sovet Ensiklopediyası, I-X cildlər,** Bakı, 1976-1987.
13. **Azərbaycan SSR EA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası,** 1988-ci il №3; 1989-cu il №4; 1990-cı il, №2.
14. **Azərbaycan tarixi (Z.Bünyadovun və Y.Yusifovun redaktəsi ilə),** B., Azərnəşr, 1994.
15. **Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə,** B., "Elm", 1990.
16. **Azərbaycan tarixi üzrə qaynaqlar,** B., ADU nəşr., 1989.
17. **Azərbaycanda kim kimdir (sorğu-məlumat kitabı),** B., 1999.
18. **Bayramov A. "Kitabi-Dədə Qorqud" və Qafqaz,** B., 2001.
19. **Budaqov B.Ə. Çobankərə eli, B.,** Elm, 1996.
20. **Budaqov B.Ə., Qeybullayev Q.Ə. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti,** B., 1998.
21. **Budaqov B.Ə. Türk uluslarının yer yaddaşı,** B., "Elm", 1994.
22. **Bünyadov Z. Azərbaycan Atabəyləri dövləti,** B., 1983.
23. **Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə,** B., 1989.
24. **Cənubi Azərbaycan ədəbiyyatı antologiyası,** I c., B., 1981.
25. **Deportasiya (azərbaycanlıların Ermənistan ərazisində tari-**

xi-etnik torpaqlarından deportasiyası), B., 1998.
26. **Deportasiya (Konfrans materialları),** B., ADPU,1998.
27. **Didərginlər.** B., Gənclik, 1990.
28. **"Dirsə xan oğlu Buğac boyu"nun el variantı,** "Respublika" qəz., 9 aprel 2000-ci il.
29. **Джафаров Ю. Гунны и Азербайджан,** Б., 1993.
30. **Дьяконов М.М. Очерк истории диевного Ирана,** М., 1961.
31. **Eldəgəz O. İrəvan cokeri,** "525-ci qəzet", 7 yanvar 1998-ci il.
32. **Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası,** B., "Gənclik", 1995.
33. **Эйвазов П. Некоторыя сведения о селе Койласаре и об Айсорах,** СМОМПК, Вып. 4, Тифлис, 1884, стр. 284-326.
34. **Əbdürrəşid əl-Bakuvi. "Abidələrin" xülasəsi və qüdrətli hökmdarın möcüzələri,** B., 1992.
35. **Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti,** B., Azərnəşr, 1993.
36. **Əhmədov M. Nrxçıvan şivələrinin lüğəti,** B., 2001.
37. **Ələkbərli Ə. Abbasqulu bəy Şadlinski,** B., "Sabah", 1996.
38. **Ələkbərli Ə. Ermənilərin Qafqazda hiyləgərlikləri,** "Vətən səsi" qəzeti, 18 iyul-14 noyabr 1998-ci il, № 5,6,7,8,9,13.
39. **Ələkbərli Ə. Qədim Türk-Oğuz yurdu – "Ermənistan",** B., "Sabah", 1994.
40. **Ələkbərli Ə. Qərbi Azərbaycan (Vedibasar mahalı), I c.,** B., "Ağrıdağ", 2000.
41. **Əliyev F., Həsənov U. İrəvan xanlığı,** B., Azərnəşr, 1997.
42. **Əliyev M.B. Qanlı günlərimiz,** B., Azərnəşr, 1993.
43. **Əliyev V. Azərbaycan toponimiyası,** B., 1999.
44. **Fərzəli Ə. Dədə Qorqud yurdu,** B., Azərnəşr, 1989.
45. **Hacıyev A. Qars və Araz-Türk respublikalarının tarixindən,** B., Azərnəşr, 1994.
46. **Hacılı E. Qaraqoyunlular,** B., 1999.
47. **Hacıyev T. Azərbaycan dilinin tarixinə bir nəzər,** "Azərbaycan və azərbaycanlılar" jurn, 2001, №1
48. **Heyət Cavad. Türklərin tarix və mədəniyyətinə bir baxış,** B., Azərnəşr, 1993.
49. **Həbiboğlu V. Türk dünyasının qüdrətli hökmdarları, xaqanları, sərkərdələri,** B., 1995.
50. **Həsənov Hüseyn. Baş tutmayan yubiley,** "Vətən səsi" qəz.,
51. **Həsənov Hüseyn. Görəcək günlərimiz varmış,** "Vətən həsrəti" qəz., 14 may 1993-cü il.
52. **Xəlilov İ. Nisgilli Novruz,** "Vətən səsi" qəz., 19 mart 1991-ci il.

53. **Xəlilov İ. Zəngibasar necə dağıldı,** "Vətən səsi" qəz., 10 oktyabr 1991-ci il.
54. **İbrahimov T.Ə. Qaşqaylar,** B., "Elm", 1988.
55. **İrəvan əyalətinin icmal dəftəri,** B., "Elm," 1996.
56. **İsmayıl E. Ermənistan türklərinin 1988-ci il soyqırımı,** B., 1995.
57. **İsmayıl E. Oğuz yurdun övladları,** B., "Nurlan", 2001.
58. **İsmayılov H. Miskin Abdalın şəxsiyyəti və taleyi. "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər" (VIII c.)** kitabında, B., "Səda", 1999.
59. **İsmayılov İ.Yaddaşımızın yaralı səhifələri,** B., 2000.
60. **İsmayılov Rəşid bəy. Azərbaycan tarixi,** B., "Azərnəşr", 1993.
61. **Историческая география Азербайджана,** Б., "Элм", 1987.
62. **История армянского народа,** Ереван, 1951.
63. **Kaçaznuni Ov. Daşnaqsütuna bir iş qalmadı,** B., "Elm", 1990 (rusca)
64. **Kalankatuklu Moisey. Albaniya tarixi,** B., 1989.
65. **Карта Кавказа. Составлена и литографирована в военно-топографическом отделе Кавказского Военного Округа,** Тифлис, 1903.
66. **Kiyasi C., Bozyel İ. Ermeni Kültür terörü ,** Ankara, 1996.
67. **Kitabi-Dədə Qorqud,** B., Gənclik, 1977.
68. **"Kitabi-Dədə Qorqud"un izahlı lüğəti,** B., "Elm", 1999.
69. **Köçərli F.B. Azərbaycan ədəbiyyatı, II c.,** B., "Elm", 1981.
70. **Köçərli T., Rzayev A. "Oğuz-türk diyarı. Babamızın qışlağı, yaylağı..."**, "Xalq qəzeeti" qəz., 24 dekabr 1997-ci il.
71. **Qasımov Ə. Sönməz ocaqlar,** B., 2001.
72. **Qayqocalı Z. Zər kəndi,** "Ağrıdağ" qəzeti, 8-14 aprel 1998-ci il.
73. **Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən,** B., Azərnəşr, 1994.
74. **Гейбуллайев Г.А. К этногенезу азербайджанцев,** Б., 1994.
75. **Qeybullayev Q. Qədim türklər və Ermənistan,** B., 1992.
76. **Qəzvini Zeynəddin bin Həmdullah. "Seçilmiş tarix"ə əlavə,** B., Elm, 1990.
77. **Qızılbaşlar tarixi,** B., 1993.
78. **Глинка С. Описание переселения армян Аддербайджанских в пределы России,** Москва, 1931.
79. **Qoş Mxitar. Alban salnaməsi,** B., Elm, 1993.
80. **Quliyev Ə. Ermənilərin tarixi-coğrafi vətəni haradır?** "Azərbaycan" qəz., 25 iyun 1999-cu il.
81. **Гюрюн К. Армянское досье,** Б., Язычы, 1993.

82. **Мамедов С.А. Азербайджан по источникам XV-первой половины VIII вв.,** Б., Элм, 1993.
83. **Материалы для изучения экономического быта Государственных крестьян Закавказского края, III ч.,** Тифлис, 1886.
84. **Məmmədli Q. Molla Nəsrəddin,** B., 1966.
85. **Məmmədov A. Kəngərlər,** B., 1996.
86. **Məmmədov İ. Ermənistan azərilərinin həyat salnaməsindən səhifələr,** İrəvan, 1970.
87. **Məmmədov İ. Qərb bölgəsi azərbaycanlılarının soyqırımına daha bir nəzər,** "Vətən səsi" qəzeti, 26 noyabr 1999- cu il - 6 yanvar 2000-ci il , № 47,48,49,50,52,53.
88. **Məmmədov İ. Sovet Ermənistanında Azərbaycan kitabı (1925-1985),** İrəvan, 1985.
89. **Məmmədov N. Azərbaycanın yer adları,** B., Azərnəşr, 1993.
90. **Məmmədov S. Azərbaycan XV-XVIII əsrin birinci yarısında,** B., 1981.
91. **Məmmədova F. Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası,** B., Azərnəşr, 1993.
92. **Mirzəyev H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz,** B., 1997.
93. **Mirzəyev M., Mirzəliyev C. "Qara qızıl" ağ səadət rəngində,** B., 2001.
94. **Mirmahmudova S. Ermənistanda türk mənşəli yer adları,** B., Yazıçı, 1995.
95. **Molla Nəsrəddin,** B., Elm 1988.
96. **Musayev T. XX əsrdə ermənilər tərəfindən xalqımızın başına gətirilmiş faciələr,** B., "Ağrıdağ", 1999.
97. **Naxçıvan sancağının müfəssəl dəftəri,** B., 1997.
98. **Nemətova M. Əsrlərin daş yaddaşı,** B., İşıq, 1987.
99. **Nəbiyev N. Coğrafi adlar,** B., Azərnəşr, 1982.
100. **Nəcəfov B. Deportasiya, III hissə,** B., 1998.
101. **Nəzirli Ş. Azərbaycan generalları,** B., Gənclik, 1991.
102. **Novruzlu Ə. Baxşəliyev V. Şərurun arxeoloji abidələri,** B., Elm, 1993.
103. **Ordubadi M.S. Qanlı illər,** B., 1991.
104. **Пагирев Д.Д. Алфавитный указатель к пятиверстной карте Кавказа,** Тифлис, 1913.
105. **Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI-начале**

XIX вв., Л., 1949.
106. **Rəhimoğlu H. Silinməz adlar, sağalmaz yaralar,** B., 1997.
107. **Rəşidəddin Fəzlullah. Oğuznamə,** B., 1992.
108. **Сборник сведений о Кавказе, 5 т,** Тифлис, 1879.
109. **Selaniki Mustafa Əfəndi. Tarixi Selaniki (1563-1600),** B., Elm, 1992.
110. **Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən,** B., 1989
111. **Seyidov M. Qam-Şaman və onun qaynaqlarına ümumi baxış,** B., "Gənclik", 1994.
112. **Sədi Koçaş M. Tarixdə ermənilər və və türk-erməni münasibətləri,** B., 1998.
113. **Səttaroğlu B. Dövlət səviyyəsində cinayət,** "Vətən səsi" qəz., 28 noyabr 1990-cı il.
114. **СМОМПК. Вып 4,** Тифлис, 1884.
115. **СМОМПК. Вып 29,** Тифлис.
116. **СМОМПК. Вып 40,** Тифлис, 1909.
117. **Süleymanov M. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən,** B., 1997.
118. **Sümər Faruq. Oğuzlar,** B., Yazıçı, 1992.
119. **Свод статических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886.** Тифлис, 1893.
120. **Şahmar E. Daxili işlər orqanları generalları,** B., 1999.
121. **Şahsoylu B. Haykanlar Qafqazda və panermənilik,** "Vətən səsi", 6 iyun 1990-cı il.
122. **Şardən Jan. Səyahətnamə,** B., Elm, 1994.
123. **Шариф А. Рождение Молла Несреддина,** Б., "Гянджлик", 1968.
124. **Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам,** СПБ, 1911
125. **Шопен И. Исторический памятник состояния Армянской области (Эриванской губернии) в эпоху присоединения к Российской Империи,** СПБ, 1852.
126. **Şükürov S. Uluxanlı,** Gəncə, 1999.
127. **Şükürov S. İrəvan hakimi Hüseynqulu xan və onun Zəngibasar mahalı,** Gəncə, 2000.
128. **Tehrani Əbubəkr. Kitabi-Diyarbəkriyyə,** B., "Elm", 1998.
129. **Təhməzoğlu Rəşid. "Araks" – "Araçay"dan doğulub...** "Ağrıdağ" qəzeti, 8-14 aprel 1998-ci il, №4 və 15-21 aprel

1998-ci il, №5.
130. **Türkün qızıl kitabı. I c.,** B., 1992.
131. **Величко В.Л. Кавказ (русское дело и междуплеменные вопросы),** С-Петербург, 1904.
132. **Вейдембаум Е. Путоводитель по Кавказу,** Тифлис, 1988.
133. **Vəlibəyov R. Keçmişdən səhifələr,** İrəvan, 1969.
134. **Vəlixanlı N. IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında,** B., "Elm", 1974.
135. **Vəlixanlı N. Ərəb xilafəti və Azərbaycan,** B., Azərnəşr, 1993.
136. **Vəlili Məhəmmədhəsən. Azərbaycan (coğrafi-təbii, etno qrafik və iqtisadi mülahizələr),** B., Azərnəşr, 1993.
137. **Vəliyev İ. Qaçqınlıq,** B., "Göytürk", 1996.
138. **Vəliyev Ş. Əlli ildir ki, köçmə biletini özündə saxlayır,** . "Ağrılağ" qəz., 27 may- 2 iyun 1998-ci il.
139. **Vəlizadə İ. Muradov. B. Ermənistan azərbaycanlılarının soyqırımı,** B., Gənclik, 1996.
140. **Yusifov Yusif. Qədim Şərq tarixi,** B., 1993.
141. **Zeynalov Ə. Bir məktəbin ömür yolu,** "Ağrıdağ" qəz., 8-14 aprel 1998-ci il.
142. **Zeynalov Ə. Hər gün kəndimizi xatırlayıram,** "Ağrıdağ" qəz., 27 may-2 iyun 1998-ci il.
143. **Zeynalov Ə. İrəvan ziyalıları,** B., 1999.
144. **Zeynaloğlu Cahangir. Müxtəsər Azərbaycan tarixi,** B., 1992.

KİTABIN İÇİNDƏ İSTİFADƏ OLUNMUŞ BƏ'Zİ ARXAİK ÖLÇÜ VƏ TOPONİMİK VAHİDLƏRİN MƏ'NALARI

Ağça – 1328-1687-ci illərdə Osmanlı imperiyasında dövriyyədə olmuş gümüş pul; sonuncu tarixdən e'tibarən isə **ağça** sadəcə pul vahidi kimi işlənmişdir

Batman –

Desyatin – sahə ölçü vahidi: 1 desyatin = 1,09 ha.

Fərsəx – uzunluq ölçü vahidi: 1 fərsəx = təxminən 6-8 km

Fut – uzunluq ölçü vahidi: 1 fut = 30,479 sm.

Xalvar – 1) ağırlıq ölçü vahidi: 1 xalvar = 25 pud;

Xass – başda sultan olmaqla yüksək vəzifəli dövlət mə'murlarına dirlik verilən torpaq sahələri.

Mərhələ – uzunluq ölçü vahidi: 1 mərhələ = təxminən 25 km

Məzrə – sakinləri olmayan kəndlərin əkin sahələri.

Pud – ağırlıq ölçü vahidi: 1 pud = 16,4 kq.

Timar – süvarilərə (sipahilərə) dirlik verilən torpaq sahəsi.

2) sahə ölçü vahidi: 1 xalvar = 1 xalvar toxum əkiləcək torpaq sahəsi, təxminən 2,5 ha.

Verst – uzunluq ölçü vahidi: 1 verst = 1,06 km.

Zeamət – aşağı rütbəli dövlət mə'murlarına dirlik verilən torpaq sahəsi.

KİTABIN İÇİNDƏKİLƏR

Görkəmli şəxsiyyətlər və mənbələr ermənilər (haylar) haqqında.....5

ZƏNGİBASAR MAHALI

Ərazisi və coğrafiyası.....15
Qısa tarixi.....26
Əhalisi.....55
İqtisadiyyatı, təsərrüfat və məişət həyatı.....63
Tarixi abidə, qala, dini ocaq və ziyarətgahları.....85

Zəngibasar, Gərnibasar və Qırxbulaq zərbaycanlılarının 1988-ci il soyqırımının xronologiyası.....93

ZƏNGİBASAR MAHALININ KƏNDLƏRİ

Ağcaqışlaq (Ağcaqala qışlağı, Çerçerakin).....96
Ağhəmzəli (Molla Polad, Həmzəkənd).....98
Arbat.....103
Aşağı Çarbağ.....106
Aşağı Necili.....107
Aşağı Şinqovit.....134
Azadaşen.....135
Beybutabad//Behbudabad.....136
Cəbəçili.....137
Cəfərabad (Yuxarı Göykənd).....139
Çarbağ (Xürrəmabad, Yuxarı Çarbax).....143
Çobankərə (Böyük Çobankərə).....145
Daşlı.....166
Dəmirçi (Dəmirçili, Kiçik Şorlu Dəmirçi).....168
Dərcan.....180
Göyçəbəyli.....182
Göygümbət.....183
Hacı Eylas (İpəkli).....189
Hacı Həsən evi.....192
Haçaparaq (Zəhmət).....193
Həbilkənd (Bulaqlı, Kalinin qəsəbəsi).....210
Həsənli (Mirzə Hüseyn).....218
Xaraba Sarvanlar.....220
Xarberd.....222
Xarratlı.....223

Xəlifəli.....225
İlxı qoruğu.....226
Kolanlı (Xaraba Kolanı, Rəncbər Kolanısı).....227
Kolar (Qalalı, Gələrə, Kəlley).....229
Qaracalar (Məmmədabad).....231
Qaraqışlaq (Hacı Bayram, Dostluq).....233
Qaratəpə (Qaracaviran, Qaraviran).....245
Qullar (Qulular).....246
Qulucan.....247
Mehmandar (Şorlu Mehmandar).....249
Mərəköyüt (Norakovit).....258
Muxtarabad.....260
Oruc adası.....261
Ozanlar (Ozanlı, Kərəm).....262
Reyhanlı.....264
Rəhimabad.....266
Rəncbər (Şorkənd).....268
Sarıcalar (Cahanşadilli).....283
Sarvanlar (Uliya Sarvanlar).....295
Seyfəli (Rüstəmli).....307
Seyidkənd (Şurakənd).....308
Sınıqxaç (Sinnik).....311
Şorlu (Şorlu Dəmirçi, Böyük Şorlu Dəmirçi, Şöllü).....312
Terekovit (Təkavert, Təkevlər).....316
Təzəkənd (Noragiğ).....317
Uluxanlı.....319
Yengicə.....356
Yuxarı Necili (Həsənəvar, Palaslı, Balaşlı Necli, Nizami).....358
Yuxarı Şinqovit (Senqovit, Bayat Şinqovit).....367
Zəngilər (Donuzyeyən, Məscidli).....368

GƏRNİBASSAR MAHALININ KƏNDLƏRİ

Ağcaqışlaq (Xatunkənd).....382
Ağcaqışlaq (Kürəkeşin).....383
Ağdamlar.....384
Axtaxan.....385
Axund Buzavand (Buzavand, Əbdülhacı).....386
Axuşvəng (İşxavəng, Ahşəvik).....388
Alpevi (Alpaq, Alpava, Arpava, Arpavar).....390
Aşağı Ağbaş (Ağbaş).....392

Aşağı Qəmərli.....394
Aşağı Quylasar.....395
Avanik (Avanlıbulaq).....399
Ayaslı (Quşçu, Böyük Ayaslı).....400
Başnəli (Candarlar, Çandar).....402
Bəcəyəzli (Bəycivazlı, Yuxarı Bəcəyəzli, Aşağı Bəcəyəzli)...404
Bitlicə.....407
Böyük Dəlilər (Dəlilər, Dəllər).....408
Canıbəy.....410
Cənnətli.....411
Ciranus (Yeni Craşen).....413
Çikdamlı (Çalçay).....414
Çinəxanlı (Çinəxan).....416
Darğalı (Aşağı Darğalı, Yuxarı Darğalı).....418
Ditak.....420
Doqquz (Qahablı).....421
Dördüncü kənd.....424
Dvin//Düyün (Aşağı Dvin, Erməni Dvini).....425
Eranos (Yuxarı Eranos, Aşağı Eranos).....429
Ərdəşər (Artaşat).....431
Günnüt Cəfərli.....434
Hörüslü Dvin.....435
Xudabəndə.....436
İmanşalı (İmanşahlı//İmamşahlı).....437
İpəkli (İnəkli).....439
Kəhriz (İsa bəy Kəhrizi, Aşağı Kəhriz, Yuxarı Kəhriz).....441
Kiçik Ayaslı.....442
Kiçik Dəlilər (Dəlilər, Gödəkli).....443
Kiçik Məsimli.....445
Kürdkənd (Kürdkənd Dvin).....446
Kürdkənd (Kürdkənd Mehrab, Yuxarı Kürdkənd).....447
Qabaqlı Gərdəkdərə.....448
Qaqauz.....449
Qafarlı.....450
Qaradağlı.....451
Qarahəmzəli.....453
Qaraqışlaq (Mərənçi).....461
Qaraqoyunlu (Yolkəsən, Yükkəsənçay).....462
Qaratəpə.....464
Qəmərli (Yuxarı Qəmərli).....466

Qırx Buzavand (İnas, Gödək Buzavand)....476
Qızıloba (Qızılvəng, Tarmus)....477
Qulaməli Buzavand (Böyük Buzavand, Qulça Əli)....478
Mehrablı....480
Məsimli (Böyük Məsimli)....482
Muğamlı (Sınıqkörpü, Buğamlı, Muğanlı)....484
Novruzkənd (Yeddibulaq, Yuxarı Novruzlu)....490
Novruzlu (Musahacı, Aşağı Novruzlu)....491
Oğurbəyli (Uğurbəyli)....493
Piri....495
Saatlı....496
Sabunçu (Şeyxzadəli, Şahzadə Əli)....497
Şəfiabad (Saki qışlağı, Şakiabad)....499
Şotulkənd (Şoturkənd)....500
Tamamlı....501
Taytan (Tantaq, Ağacəri)....503
Təpəbaşı....504
Toxanşalı (Toğanşahlı)....505
Torpaqqala (Dvin, Qurbanqulu)....507
Uzunabdallı....511
Yaxşıxan (Qazıbəyli)....512
Yamancalı....513
Yenicə....515
Yuxarı Ağbaş (Ağbaş, Xaraba Ağbaş, Kiçik Ağamalı)....516
Yuxarı Dvin (Dvin, Aysoru Dvini)....518
Yuxarı Quylasar (Quylasar)....520
Yurdək (Burduk)....522
Yuva....523
Zöhrablı....525

QIRXBULAQ MAHALININ KƏNDLƏRİ

Abdallar (Yuxarı Abdallar, Daş Abdallar)....528
Abdulla....531
Ağaçurum (Ağazor)....532
Aramus....534
Artız (Ərtus)....537
Avan (Aran)....541
Azaklar....544
Ballıca....545
Baş Gərni (Gərni, Gögqam, Gögkənd)....546

Başkənd (Əraxus).....550
Bəzəkli.....552
Bozkosa (Bozçalı, Babaxanlı, Babalar).....553
Cadqıran//Çatqıran (Ağadost).....554
Civriş.....556
Çayqaytara (Gedərgəl).....558
Çobangörükməz//Çobangərəkməz (Qaşqayol).....559
Çölməkçi.....561
Damagirməz.....563
Damcılı.....564
Dəlləkli.....565
Dəvəxaraba (Avad).....567
Ellər.....568
Əkərək.....570
Ərinc.....572
Ərzni.....574
Gerqaç (Əyrivəng, Yuxarıvəng, Geğart).....577
Gərəkbulaq.....580
Goxt (Türk Goxtu, Aşağı Goxt).....581
Goxt (Erməni Goxtu).....583
Göykilsə.....584
Güllücə.....586
İynədüz.....588
Kamal (Kamal Dərviş).....589
Ketran.....591
Kənəkir.....593
Kənkan (Kəngi, Kənkən).....595
Kərpicli.....597
Küzəcik.....599
Qamriz//Kəmris//Qəmriz.....600
Qaracalar (Qaracaqala, Aşağı Qaraqala).....602
Qaracoran (Qaraceyran, Qaracaörən, Qaracaviran).....604
Qaraqala (2-ci Qaraqala).....606
Qayaxaraba.....608
Qızılqala.....609
Qızqala (Qız qalası).....611
Qurbağalı (Aşağı Qurbağalı, Yuxarı Qurbağalı).....613
Qutqut (Kətiqut).....615
Quyulu (Quyubulaq, Keçili).....616
Manseres.....618

Masis.....619
Məngüs.....620
Muqub (Mequb, Maqub).....623
Muradtəpə (Ağkənd).....625
Nikolayevka (Novonikolayevka).....626
Nurnus.....627
Oxçaberd.....629
Putqni.....631
Şahab.....633
Təcirabad (Tacirbəy, Təcrəbax).....635
Tərkivan.....636
Təzəkənd.....637
Tutiya.....638
Üzümçülük sovxozu qəsəbəsi.....639
Yaycı.....640
Yelqovan (Barsabəy).....641
Yeni Hacı (Nor Haçin).....643
Zak (Zaq, Dzak).....644
Zakevəng.....646
Zar.....647
Mənbələrdə Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları üzrə adı çəkilən, lakin yerini müəyyənləşdirə bilmədiyimizdən həmn mahalların kəndləri siyahısına daxil etmədiyimiz toponimlər.....650

Zəngibasar, Gərnibasar və Qırxbulaqda işlədilən sözlərin dialektoloji lüğəti.....653
Zəngibasarlı, Gərnibasarlı, Qırxbulaqlı və Zəngibasar, Gərnibasar, Qırxbulaq mənşəli azərbaycanlı alimlər.....659
Sovet dövründə Zəngibasar, Qəmərli və Ellər rayonlarında rəhbər vəzifələrdə işləmiş azərbaycanlılar.....664
Zəngibasar, Qəmərli və Ellər rayonları üzrə "Ermənistan SSR" fəxri adlarına layiq görülmüş azərbaycanlılar.....666

ƏLAVƏLƏR

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (1590) Zəngibasar, Gərnibasar və Qırxbulaq kəndləri.....667
"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) Zəngibasar, Gərnibasar və Qırxbulaq kəndləri.....671
İrəvan xanlığının Rusiya tərəfindən işğalından sonra

Zəngibasar, Gərnibasar və Qırxbulaq mahallarında qeydə alınmış kəndlərin siyahısı.....676
1918-ci ilin martınadək İrəvan quberniyasında erməni hücumları nəticəsində dağıdılmış və boşaldılmış azərbaycanlı yaşayış məntələrinin siyahısı.....681
1948-1953-cü illərdə Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları ərazisindən deportasiya olunmuş azərbaycanlı kəndləri və onların sonrakı taleyi.....683
1988-ci ilə qədər Zəngibasar, Qəmərli və Ellər rayonlarında mövcud olan azərbaycanlı yaşayış məntəqələri.....685
1988-1990-cı illərdə Zəngibasar rayonunda ermənilər tərəfindən öldürülmüş azərbaycanlıların siyahısı.....686
Zəngibasar rayonundan Qarabağ müharibəsi şəhidləri 688
Sovet dövründə (1920-1991) Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları üzrə adları dəyişdirilmiş yaşayış məntəqələri.....690

ZƏNGİBASAR, GƏRNİBASAR VƏ QIRXBULAQ MAHALLARININ TOPONİM VƏ ETNONİMLƏRİ

Dağ, yaylaq, dərə, qaya, təpə, yarğan, aşırım, mağara və s. adları.....694
Meşə, düzənlik, qışlaq, bağ, otlaq və biçənək adları.....696
Göl, çay, arx, kanal və bulaq adları.....700
Yol, küçə, məhəllə, körpü və dəyirman adları.....702
Qala, məbəd, abidə, ocaq və ziyarətgahlar.....704
Tayfa və nəsil adları.....706

ZƏNGİBASAR, GƏRNİBASAR VƏ QIRXBULAQ FOLKLORUNDAN SEÇMƏLƏR

Rəvayətlər.....711
Deyimlər.....712
Maraqlı əhvalatlar.....714

ZƏNGİBASAR MÖVZUSUNDA ŞERLƏR

Molla Əli Əndəlib Qaracadağı. Gəlin.....717
Məmmədəli Xəlilov. Sarcalarım.....718
Nəsir Yaqublu. Sarcalar.....721

İstifadə olunmuş ədəbiyyat.....722
Kitabın içində istifadə olunmuş bə'zi arxaik ölçü və toponimik vahidlərin mə'naları.....728

ƏZİZ ƏLƏKBƏRLİ.
Qərbi Azərbaycan, II cild,
Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları
(Zəngibasar, Qəmərli və Ellər rayonları),
Bakı, "Ağrıdağ" nəşriyyatı, 2002.

Kitabın üz qabığında Əməkdar rəssam
Cabbar Quliyevin "Zəngibasar mənzərəsi"
tablosundan reproduksiya verilmişdir.

Nəşriyyatın direktoru: *Əziz Ələkbərli*
Nəşriyyat redaktoru: *Əhməd Vedili*
Korrektorları: *Gülnar Həsənova*
Humay İslamqızı
Kompüterdə yığdılar: *Ruhəngiz Əfəndiyeva*
Samirə Əlihüseynova
Xalidə Şəmmədova
Kompüter tərtibçisi və
texniki redaktoru: *Baxşəli Süleymanov*
Bədii tərtibmtçısı
və rəssamı: *Əməkdar rəssam*
Cabbar Quliyev

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 46 ç/v (736 səh.)
Tirajı: 1000
Sifariş: 60.
Qiyməti müqavilə ilə.

Kitab Azərbaycan EA Dədə Qorqud adına "Folklor" Elmi-Mədəni Mərkəzinin kompüter mərkəzində yığılmış, "Qızıl Şərq" icarə mətbəəsində hazır diapozitivlərdən çap edilmişdir.
Ünvan: Bakı, H. Aslanov küçəsi, 80.

ZƏNGİBASAR, GƏRNİBASAR VƏ QIRXBULAQ MAHALLARI



1. K.Dəlilər
2. A.Qəmərli
3. A.Quylasar
4. Toxanşalı
5. Qarahəmzəli
6. Tamamlı
7. Təpəbaşı
8. Doqquz
9. Qulaməli Buzavand
10. Təzəkənd
11. İlxı qoruğu
12. Qaraqoyunlu

DƏRƏÇİÇƏK

GÖYÇƏ

ARDOBASAR

Quyulu
Nikolayevka
Göykilsə
Kənkan
Masis
Yelqovan
Başkənd
Ağaçurum
Tərkivan
Dəvəxaraba
Çobangörükməz
Gərəkbulaq
Dəlləkli
Qızqala
Qaraqala
Qaracalar
Zar
Şahab
Aramus
Qamriz
Qutqut
Məngüs
Cadqıran
Damagirməz
Ballıca
Tutiya
Küzəcik
Güllücə
İynədüz
Kamal
Yaycı
Oxçaberd
Qurbağalı
Əkərək
Artız
E.Goxtu
T.Goxtu
Baş Gərmi
Avanik
Eranos
Qaracoran
Gerqaç
Bayburd
Gilanlar
Ağdamlar
Kəhriz
Şotulkənd
Gölaysor

Qırxbulaq çayı

Gərni çayı

